Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzi

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

(1991-2016)

Bakı – 2017

REDAKTORLAR:

Fərhad MƏMMƏDOV,
Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzinin direktoru, fəlsəfə üzrə fəlsəfə doktoru

Cavid VƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri,
siyasi elmlər üzrə fəlsəfə doktoru

Aqşin MƏMMƏDOV,
Azərbaycan Respublikasının Prezidenti yanında
Strateji Araşdırmalar Mərkəzinin Daxili siyasətin təhlili şöbəsinin elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. Bakı: "Poliart" MMC, 2017, 904 s.

Bu məqalələr toplusu Azərbaycan Respublikasının xarici siyasətinin son 25 illik tarixi dövrünü (1991-2016) əhatə edir. Topluda ilk növbədə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioriteti kimi geniş şərh edilir. Burada həmçinin Azərbaycanın qonşu ölkələr (Türkiyə Respublikası, Rusiya Federasiyası, İran İslam Respublikası, Gürcüstan) və Mərkəzi Asiya respublikaları (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan) ilə əlaqələri ətraflı araşdırılır. Azərbaycanın qlobal və regional güclərlə (Avropa İttifaqı, ABŞ, Böyük Britaniya, Çin, Almaniya, Mərkəzi, Şərqi, Cənubi və Cənub-Şərqi Avropa ölkələri (Polşa, Macarıstan, Çexiya, Rumıniya, Bolqarıstan, İtaliya, Yunanıstan) və Baltikyanı ölkələrlə (Latviya, Litva, Estoniya) münasibətləri təhlil edilir. Azərbaycanın beynəlxalq təşkilatlarla (BMT, Avropa Şurası, MDB, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Türk Şurası, Qoşulmama Hərəkatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı) əlaqələri və bu təşkilatların fəaliyyətində iştirakı nəzərdən keçirilir.

Topluda eyni zamanda Azərbaycan Respublikasının xarici siyasətinin iqtisadi yönləri və humanitar aspektləri, enerji diplomatiyası, müstəqil Azərbaycanda informasiya cəmiyyəti quruculuğu, modernləşən xarici siyasət və diplomatiya məsələləri də tədqiqata cəlb edilmişdir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25 illiyinə həsr olunmuş bu kitab xarici siyasət məsələləri ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN: 978-9952-8032-4-2
© Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017

MÜNDƏRİCAT

Fərhad Məmmədov

GİRİŞ: Xarici siyasətin 25 illik yolu. Tarixi varislikdən praqmatik müasirliyə və etibarlı gələcəyə doğru 13

Gülşən Paşayeva, Kamal Makili-Əliyev

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətin əsas prioriteti kimi 41

Qısa tarixi şərh 43

Münaqişənin həlli istiqamətində aparılan danışıqlar prosesi: beş mərhələ 54

Vasitəçilik səylərinin ilkin mərhələsi və atəşkəsin əldə edilməsi (1992-1994) 55

ATƏT MQ-nin struktur baxımından gücləndirilməsi və Lissabon sammiti (1994-1996) 64

Sülh formulunun axtarışı (1997-2001) 69

"Praqa prosesi"ndən "Madrid prinsipləri"nə doğru (2004-2011) 71

Nəticəsiz danışıqlar və hərbləşmə prosesi (2012-2016) 74

Hüquqi aspektlər: beynəlxalq hüququn əsas prinsipləri və ikili standartlar 76

Təhlükəsizlik məsələləri 86

Nəticə 89

AZƏRBAYCANIN QONŞU ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİ

Cavid Vəliyev

Azərbaycan–Türkiyə münasibətləri: 1991-2016 97

Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət 99

Türkiyə üçün Azərbaycanın strateji əhəmiyyəti 100

Azərbaycan üçün Türkiyənin strateji əhəmiyyəti 103

Türkiyə daxilindəki qrupların ikitərəfli münasibətlərə baxışı 107

Azərbaycandan Türkiyəyə ilk rəsmi səfərlər 110

Heydər Əliyev dövründə praqmatik münasibətlərin qurulması 111

İlham Əliyev dövrü: strateji münasibətlərin möhkəmlənməsi 120

Türkiyənin Dağlıq Qarabağ siyasəti üç mərhələdə 125

Türkiyə–Ermənistan sərhədləri: açılmasını istəyənlər və istəməyənlər 131

İqtisadi münasibətlər iki dövrdə: 1991-2006 və 2006-2016-cı illər 138
Enerji münasibətlərində qarşılıqlı asılılıq 144
Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft boru kəməri 147
Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəməri 149
Transanadolu Təbii Qaz Kəməri (TANAP) 152
Nəticə 155

Fərhad Məmmədov
Azərbaycan–Rusiya münasibətləri: 1991-2016 159
Azərbaycan–Rusiya münasibətlərinin tarixi 165
Azərbaycan–Rusiya münasibətləri müasir dövrdə 174
Azərbaycan–Rusiya münasibətlərində strateji istiqamətlər 187
Strateji vektor 194
İkitərəfli iqtisadi münasibətlər 196
Humanitar əlaqələr 212
Nəticə 220

Məsiağa Məhəmmədi
Azərbaycan–İran münasibətləri 225
Diplomatik əlaqələrin qurulması 226
Münasibətlərə təsir edən amillər 230
Münasibətlərdə yeni əməkdaşlıq modeli 233
Yumşalmadan gərginliyə 241
Münasibətlərin sürətli inkişaf mərhələsi 246
Nəticə 250

Fuad Çıraqov
Azərbaycan–Gürcüstan münasibətləri 253
Oxşar problemlər 255
Çətin zamanlar 258
Yeni dövrün başlanğıcı 259
Strateji layihələr 264

Digər əməkdaşlıq sahələri 269
Cari münasibətlər 272
Nəticə 275

Azad Qəribov
Azərbaycan–Mərkəzi Asiya münasibətləri 277
Mərkəzi Asiyanın Azərbaycan üçün əhəmiyyəti 278
Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə ikitərəfli əlaqələrinin qurulması və inkişafı 281
Azərbaycan–Qazaxıstan münasibətləri 281
Azərbaycan–Özbəkistan münasibətləri 285
Azərbaycan–Türkmənistan münasibətləri 289
Azərbaycan–Qırğızıstan münasibətləri 292
Azərbaycan–Tacikistan münasibətləri 294
Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə çoxtərəfli əməkdaşlıq 296
Mərkəzi Asiya dövlətləri ilə iqtisadi-ticari əlaqələr 299
Enerji daşıyıcılarının ixracı və Transavrasiya nəqliyyat dəhlizlərinin yaradılması sahəsində əməkdaşlıq 302
Enerji daşıyıcılarının dünya bazarına ixracı və Transxəzər enerji marşrutlarının yaradılması sahəsində Türkmənistan və Qazaxıstanla əməkdaşlıq 302
Qafqaz–Mərkəzi Asiya nəqliyyat dəhlizinin yaradılması sahəsində əməkdaşlıq 307
Nəticə 311

AZƏRBAYCANIN QLOBAL VƏ REGİONAL GÜCLƏRLƏ MÜNASİBƏTLƏRİ

İlqar Qurbanov
Azərbaycan–Avropa İttifaqı münasibətləri 315
Azərbaycan–Aİ münasibətlərinin tarixi və hüquqi bazası 317
Azərbaycan–Aİ əməkdaşlığının hüquqi bazası 320
Azərbaycanın Aİ-nin proqram və layihələrində iştirakı 322
Avropa Qonşuluq Siyasəti 322
"Şərq tərəfdaşlığı" proqramı 324
Aİ ilə birgə həyata keçirilən layihələr 326

Azərbaycan və Aİ arasında sektorlar üzrə əməkdaşlıq 335
Enerji sahəsində əməkdaşlıq 335
Nəqliyyat və tranzit sahəsində əməkdaşlıq 342
Aİ-nin Dağlıq Qarabağ məsələsində mövqeyi 345
İnsan hüquqları məsələləri 348
Sərbəst hərəkət və miqrasiya 351
Nəticə 352

Fuad Çıraqov
Azərbaycan–Amerika Birləşmiş Ştatları münasibətləri: 1991-2016 355
Azərbaycanın neft strategiyası və ABŞ-ın keçmiş sovet məkanında dəyişən siyasəti 357
İlk diplomatik əlaqələrin qurulması 363
İkitərəfli münasibətlərə ABŞ-dakı erməni lobbisinin təsiri 365
ABŞ–Azərbaycan münasibətlərində yeni dövrün başlanğıcı 370
Yeni dövr 375
11 sentyabr terror aktından sonra Azərbaycan–ABŞ münasibətləri 379
Obama administrasiyası dövründə Azərbaycan–ABŞ münasibətləri 387
Nəticə 397

Ayaz Rzayev
Azərbaycan–Böyük Britaniya münasibətləri 399
Münasibətlərdə ilkin mərhələ 400
Əməkdaşlıqda yeni dövrün başlanğıcı 402
Qarşılıqlı əməkdaşlıqdan strateji tərəfdaşlığa doğru 404
Cari münasibətlər 411
Nəticə 420

Rəşad Kərimov
Azərbaycan–Çin münasibətləri: Qədim İpək Yolundan başlanan tarix 423
Azərbaycan hərbçiləri Rus–Yapon döyüşlərində 424
Çinin Cənubi Qafqaz ölkələri ilə münasibətlərində yeni mərhələ 426
Heydər Əliyev və Azərbaycan–Çin münasibətləri 427

Azərbaycan–Çin münasibətləri yeni dövrdə 431
"Bir kəmər, bir yol" strategiyasında Azərbaycanın rolu....434
Çinin Dağlıq Qarabağ münaqişəsinə baxışı 438
Azərbaycan Çinin Cənubi Qafqazda etibarlı tərəfdaşı kimi....443
Mədəniyyətlərin dialoqu – ortaq keçmişdən ortaq gələcəyə 446
Nəticə 449

Heydər Mirzə
Azərbaycan–Almaniya münasibətləri....451
İkitərəfli münasibətlərin tarixinə ekskurs 451
Siyasi əməkdaşlıq 453
Almaniyanın Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi 458
Azərbaycan–Almaniya münasibətlərində insan hüquqları və demokratiya məsələləri 465
İqtisadi əməkdaşlıq 468
Humanitar və mədəniyyət sahələrində əməkdaşlıq 472
Nəticə 475

Nurlan Əliyev
Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətləri....477
Azərbaycan–Polşa münasibətləri 478
Azərbaycan–Macarıstan münasibətləri 484
Azərbaycan–Çexiya münasibətləri....490
Azərbaycan–Rumıniya münasibətləri....496
Azərbaycan–Bolqarıstan münasibətləri....501
Nəticə 507

Nurlan Əliyev
Azərbaycanın Cənubi və Cənub-Şərqi Avropa ölkələri ilə münasibətləri....511
Azərbaycan–İtaliya münasibətləri 511
Azərbaycan–Yunanıstan münasibətləri 517
Nəticə 520

Nurlan Əliyev
Azərbaycanın Baltikyanı ölkələrlə münasibətləri 521
Azərbaycan–Latviya münasibətləri 521
Azərbaycan–Litva münasibətləri 525
Azərbaycan–Estoniya münasibətləri....530
Nəticə 534

AZƏRBAYCAN BEYNƏLXALQ TƏŞKİLATLARDA

Nəcibə Mustafayeva
Azərbaycan–Birləşmiş Millətlər Təşkilatı münasibətləri....537
Dağlıq Qarabağ münaqişəsinin həllində BMT-nin fəaliyyəti 539
Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv kimi fəaliyyəti 544
İnsan hüquqları sahəsində əməkdaşlıq 553
Azərbaycanın BMT-nin ixtisaslaşmış təsisatları ilə əməkdaşlığı 558
Nəticə 566

İlqar Qurbanov
Azərbaycan–Avropa Şurası münasibətləri 569
Azərbaycanın AŞ-yə üzvlüyünün tarixi zərurəti 570
Azərbaycanın AŞ-yə üzv olması 572
AŞ-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi 576
Azərbaycanın AŞ-də sədrlik dövrü....583
Seçkiləri müşahidə prosesində AŞPA-nın iştirakı və rolu 588
AŞ və insan hüquqları....590
Nəticə 592

Araz Aslanlı
Azərbaycan–Müstəqil Dövlətlər Birliyi münasibətləri....595
MDB-nin yaradılması mərhələsində Azərbaycanın bu təşkilata münasibəti....595
MDB-yə üzvlük prosesi və ilk dövrlər....601
Azərbaycan–MDB münasibətlərinin hazırkı vəziyyəti 607
Nəticə 617

Kamal Qasımov
Azərbaycan–İslam Əməkdaşlıq Təşkilatı münasibətləri.....619
İƏT-in Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibəti.....619
Azərbaycan və islam dünyası dövlətləri: İƏT daxilində və xaricində əməkdaşlıq 626
Azərbaycan-İƏT münasibətləri müasir dövrdə 641
Nəticə 648

Kamal Makili-Əliyev
Azərbaycan–NATO münasibətləri.....651
Əlaqələrin inkişafı.....652
Siyasi dialoq.....653
NATO əməliyyatlarına dəstək.....654
Təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq.....655
Təhsil və mülki-hərbi sahələrdə əməkdaşlıq.....658
Münasibətlərin bərabərtərəfli və bərabərhüquqlu səviyyəsi 661
Nəticə 662

Cavid Vəliyev
Azərbaycanın xarici siyasətində Türk Şurasının yeri.....663
Türk dünyasının birləşməsi ideyasının əsasları.....665
TŞ-nin nəzəri əsası: konstruktivizm 667
TŞ-nin üç mərkəzi və "heartland"i Azərbaycan 668
Türk dünyasının geostrateji əhəmiyyətini artıran Mərkəzi Asiya respublikaları.....671
Türk dünyasının Qərbə açılan qapısı: Türkiyə 673
Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərindən TŞ-yə doğru.....676
TŞ-nin yaranmasını zəruri edən amillər 684
TŞ-nin qurucu müqaviləsi: Naxçıvan Sazişi.....686
TŞ-nin strukturu *(Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası,*
Yüksək Vəzifəli Şəxslər Komitəsi, Türkdilli Dövlətlərin Ağsaqqallar Şurası, Katiblik).....688
TŞ çərçivəsində fəaliyyət göstərən qurumlar
(TÜRKSOY, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Türk Akademiyası,
Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası).....691

TŞ-nin əməkdaşlıq sahələri: mədəniyyət, təhsil və elm 701
İqtisadi əməkdaşlıq 702
Turizm sahəsində əməkdaşlıq yolları....704
Diasporalararası əməkdaşlıq 706
Nəqliyyat sahəsində əməkdaşlıq....708
Xarici siyasət və təhlükəsizlik sahəsində əməkdaşlıq 710
Nəticə 716

Cavid Vəliyev
Azərbaycan Qoşulmama Hərəkatında: məqsəd və gözləntilər 719
Qoşulmama Hərəkatının yaranma səbəbləri və əsas prinsipləri 720
Azərbaycanın xarici siyasəti və Qoşulmama Hərəkatının əsas prinsipləri 723
Azərbaycan Respublikasının Qoşulmama Hərəkatı ilə münasibətləri....725
Nəticə 733

Nurlan Əliyev
Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında fəaliyyəti 735
Azərbaycanın QDİƏT-in inkişafında rolu 736
QDİƏT – regional və beynəlxalq aktorlar....741
Nəticə 745

Orxan Bağırov
Azərbaycan–İqtisadi Əməkdaşlıq Təşkilatı münasibətləri....747
Azərbaycanın İƏT-ə qoşulması: fəal əməkdaşlıq 748
Azərbaycan və İƏT arasında iqtisadi əlaqələr 752
Nəticə 756

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN VASİTƏLƏRİ

Gülmira Rzayeva
Azərbaycan Respublikasının enerji diplomatiyası xarici siyasətinin tərkib hissəsi kimi....759

Neft strategiyasının əsas prinsipləri 760
Azərbaycanda neft-qaz hasilatı və nəqli məsələləri....769
Neft-qaz kəmərləri və onların ötürücülük gücü 771
Cənub Qaz Dəhlizi və ölkənin tranzit potensialı 776
Texnoloji inkişaf, infrastruktur, neftin nəql edilməsi, satışı və maliyyələşdirilməsi....779
Neft-qaz amili və xarici siyasət....781
Nəticə 784

Şahmar Hacıyev, Orxan Bağırov
Azərbaycan Respublikasının xarici siyasətinin iqtisadi yönləri 787
Azərbaycan iqtisadiyyatının dinamikası....788
Azərbaycanın dünya iqtisadiyyatında yeri....791
Neft-qaz strategiyasının iqtisadi siyasətdəki rolu....793
Nəqliyyat layihələrinin iqtisadi və strateji əhəmiyyəti 796
Qeyri-neft sektorunun inkişafı....801
Xarici sektorun inkişafı. 804
Xarici ticarət əlaqələri və əsas ticarət tərəfdaşları 804
Azərbaycan–Ümumdünya Ticarət Təşkilatı münasibətləri....815
Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici investisiyalar....818
Beynəlxalq humanitar yardımlar 825
Azərbaycan iqtisadiyyatında son islahatlar və strateji sənədlər....827
"Bir pəncərə" prinsipinin tətbiqi 827
Qeyri-neft məhsullarının ixracının təşviqi 828
"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası 830
Nəticə 832

Araz Qurbanov
Azərbaycan Respublikasının xarici siyasətində humanitar aspektlər 835
Humanizm, xarici humanitar siyasət və onun daxili mənbələri 836
Azərbaycanın diplomatik fəaliyyətində "yumşaq güc" – humanitar siyasət amili 842
Azərbaycanın çoxvektorlu humanitar siyasəti: nailiyyətlər və perspektivlər....850
Azərbaycanın humanitar siyasətinin mühüm iştirakçıları....860

Heydər Əliyev Fondu 861
Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) 864
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi 866
Beynəlxalq humanitar əməkdaşlığın genişləndirilməsi istiqamətində Azərbaycanın həyata keçirdiyi əsas tədbirlər *(Beynəlxalq humanitar forumlar, Avropa Oyunları, Bakı prosesi)* 867
Nəticə 873

Tahirə Allahyarova
Azərbaycan Respublikasının xarici siyasəti informasiya əsrində: çağırışlar və çevik cavablar 875
Sosial şəbəkələr və rəqəmsal (yeni) diplomatiyanın formalaşması 877
Müstəqil Azərbaycanda informasiya cəmiyyəti quruculuğu, modernləşən xarici siyasət və diplomatiya 881
Azərbaycanın xarici siyasətində yeni diplomatiyanın yaranması 885
Dövlət başçısının çağırışları önləyən fəaliyyəti 887
Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikasının xaricdəki səfirlik və diplomatik nümayəndəliklərinin sosial mediada fəaliyyəti 892
Diaspora diplomatiyası və informasiya müharibəsi 895
Nəticə 898

Giriş:

Xarici siyasətin 25 illik yolu. Tarixi varislikdən praqmatik müasirliyə və etibarlı gələcəyə doğru

"Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir".

Heydər ƏLİYEV,
Azərbaycan xalqının Ümummilli lideri

"Xarici siyasətimiz daxili siyasətimizin davamıdır. Bu gün Azərbaycanın xarici siyasəti prinsipiallığı və müstəqilliyi ilə seçilir. Bunun əsas səbəbi, əlbəttə ki, güclü siyasi iradənin mövcudluğudur. Çünki güclü siyasi iradə olmasa, heç bir ölkə müstəqil siyasət apara bilməz. Bu siyasi iradə vardır. Bu siyasi iradə özünü həm daxili, həm xarici siyasət məsələlərində göstərmişdir".

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Hörmətli oxucu!

Əlbəttə, müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin son 25 il ərzində keçdiyi mürəkkəb yolu, siyasi-iqtisadi maraqların və milli təhlükəsizlik mənafelərinin təminatında əldə etdiyi nailiyyətləri, siyasi kursunu, prinsip və vəzifələrini, beynəlxalq münasibətlər sistemindəki rolu və mövqeyini, ölkəmizin üzləşdiyi problemlərin, xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin

həlli istiqamətində strategiyasını və ardıcıl fəaliyyətini bir kitaba sığdırmaq, onun əhatəli şərhini vermək çətindir. Bununla belə, kitaba daxil olunan məqalələrin müəllifləri ötən dövr ərzində Azərbaycanın xarici siyasətinin ayrı-ayrı prioritet istiqamətlərinə, onun geosiyasi identikliyinə, dövlətimizin beynəlxalq təhlükəsizlik və beynəlxalq iqtisadi münasibətlər sistemindəki yerinə, taktiki imkanlarına dair qısa xülasələri diqqətinizə çatdırmağa çalışmışlar.

Beynəlxalq münasibətlərə dair dərs vəsaitlərində "xarici siyasət" termini, bir qayda olaraq, aşağıdakı kimi şərh olunur: xarici siyasət bir dövlətin öz milli maraqları naminə digər dövlətlər və xalqlarla əlaqələrini beynəlxalq səviyyədə tənzimləyən və həmin dövlətin daxilindəki proseslərin xarakterini özündə əks etdirən fəaliyyət istiqamətidir. Eyni zamanda, xarici siyasət hər bir dövlətin, o cümlədən müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasının siyasi iradəsinin göstəricisi olmaqla yanaşı, onun beynəlxalq münasibətlər sistemində mövqelərinin müəyyən edilməsini və möhkəmlənməsini, iqtisadi, siyasi və humanitar sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasını və inkişafını, milli təhlükəsizlik sahəsində mənafelərinin ödənilməsini, regional və beynəlxalq problemlərin birgə səylərlə aradan qaldırılmasını nəzərdə tutur.

Xarici siyasətin düzgün müəyyənləşdirilməsi və icrası dünyanın mürəkkəb, həssas bölgəsində – coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, mədəniyyət kontekstində sivilizasiyaların qovuşma məkanında, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların kəsişmə nöqtəsində yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Belə ki, ölkəmiz öz milli maraqlarını, regionda aparıcı dövlət statusunu qorumaqla yanaşı, Qərb, islam ölkələri, türk dünyası və Müstəqil Dövlətlər Birliyinin siyasi-iqtisadi-mədəni məkanları ilə qarşılıqlı faydalı münasibətlər qurur, beynəlxalq əməkdaşlığı və bərabərhüquqlu tərəfdaşlıq əlaqələrini genişləndirir.

Bu gün Azərbaycan Respublikasının siyasi və iqtisadi potensialı artmış, regionda söz sahibi olan dövlətə çevrilmiş, beynəlxalq siyasət səhnəsində nüfuzu və mövqeyi daha da möhkəmlənmişdir. Həmin

uğurlar vaxtilə Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və hazırda dövlət başçısı İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun məntiqi nəticələridir. Bu siyasətin təməli sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq kimi əsas prinsiplərdən, vəzifələri isə Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün müdafiəsinə siyasi təminat verilməsindən və beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirilməsindən, dünya birliyində mövqeyinin möhkəmləndirilməsindən, bərabərhüquqlu və ölkəmizin milli mənafelərinə cavab verən iqtisadi, siyasi, mədəni əlaqələrin qurulmasından – bir sözlə, Azərbaycan xalqının milli maraqlarına uyğun olan ardıcıl və açıq xarici siyasət yürüdülməsindən ibarətdir. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasət kursunun əsas məqsədlərindən, milli maraqların formalaşması və təminatında əhəmiyyətindən və tarixi varislik ənənələrindən danışarkən bildirmişdir: *"Biz bu siyasətin təməl prinsiplərini elə şəkildə yaratmışıq ki, yeritdiyimiz kurs dövlət müstəqilliyimizin əbədiləşdirilməsinə və ölkəmizin ərazi bütövlüyünün bərpasına xidmət etsin"*[1]. Bütövlükdə həmin prinsiplər müstəqil, dünyəvi və demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləməyə, Azərbaycanın regionda həlledici söz sahibi olmasına, bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq əlaqələrinin qurulmasına əlverişli zəmin yaratmışdır.

Prezident İlham Əliyevin xarici siyasət konsepsiyasında Heydər Əliyev kursunun davamlı inkişafı və təkmilləşdirilməsi məsələləri ilə yanaşı, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli mühüm yer tutur. Bir tərəfdən, ölkəmizin siyasi, iqtisadi və müdafiə potensialının möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olunması, digər tərəfdən, xarici siyasət sahəsində əldə edilən mühüm nailiyyətlər, bir sıra dövlətlərlə möhkəm əməkdaşlıq və tərəfdaşlıq əlaqələrinin qurulması sayəsində Azərbaycanın ədalətli mövqeyi dəstəklənmiş, bütün regional və beynəlxalq layihələrdən getdikcə daha çox tədric olunan Ermənistan isə təcavüzkar dövlət kimi tanınmış

1 Mirzəbəyli İ. Azərbaycanın xarici siyasəti ölkəmizin maraqlarını yüksək səviyyədə təmin edir. /06.12.2013/ - http://www.xalqqazeti.com/az/news/politics/40210

və bu gün də tanınmaqdadır. Münaqişə ilə bağlı bu və digər xarici siyasət məsələləri kitabın "Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətin əsas prioriteti kimi" məqaləsində öz şərhini tapmışdır. Bununla yanaşı, kitaba ölkəmizin xarici siyasətinin təminatında iqtisadi imkanlardan, geoiqtisadi hədəflərdən, iqtisadiyyatın konseptual inkişafından, qeyri-neft sektorunun genişləndirilməsindən bəhs edən "Azərbaycan Respublikasının xarici siyasətinin iqtisadi yönləri", Azərbaycanın xarici iqtisadi münasibətlər sistemində iştirakında önəmli yer tutan neft strategiyasına və onun mərhələlərinə, karbohidrogen ehtiyatlarının nəqlinə dair bağlanmış müqavilələrin aparıcı prinsiplərinə toxunan "Azərbaycan Respublikasının enerji diplomatiyası xarici siyasətinin tərkib hissəsi kimi" məqalələri daxil edilmişdir. Oxucular bu kitabda Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarda iştirakına, onun qonşu dövlətlər, qlobal və regional güc mərkəzləri ilə münasibətlərinə, xarici siyasətin humanitar istiqamətlərinə həsr olunmuş məqalələrlə də tanış ola bilərlər.

------ • ------

Azərbaycan qədim və şərəfli dövlətçilik tarixinə, zəngin dövlətçilik irsinə, varislik ənənələrinə malikdir. Bu ənənələr Azərbaycanın ağır və faciəli məqamlarında dəfələrlə qırılsa da, fasilələr olsa da, xalqımız çətin sınaqlardan çıxaraq tarixi ədaləti bərpa etmiş, qədim dövlətçilik ənənələrinə sədaqətini göstərmiş, təkcə müdafiə qabiliyyəti ilə deyil, diplomatiya vasitəsilə də müstəqilliyini qoruyub saxlaya bilmişdir. Lakin tarixin acı təcrübəsi onu da diqqətə çatdırır ki, Azərbaycanı zəbt etmədən, onun geostrateji mövqeyinə, təbii sərvətlərinə yiyələnmədən regionu nəzarətdə saxlamaq, burada möhkəmlənmək, işğal edilmiş əraziləri daha da genişləndirmək və hər hansı bir yeni dövlət yaratmaq mümkün deyildi. Bu baxımdan Azərbaycan əraziləri Roma, Parfiya, Sasanilər, Böyük Səlcuq, Böyük Monqol, Teymurilər… və sonda isə Çar Rusiyası kimi dünyaya hakim olmaq iddiasına düşən imperiyaların diqqət mərkəzində olmuşdur. Nəticədə çevik xarici siyasət aparılması, qonşu dövlətlər və xalqlarla münasibətlərin qurulması, diplomatiya məharəti

təqribən üç min illik tarixə malik olan Azərbaycan dövlətçiliyinin qorunub-saxlanılması üçün vacib amillərdən olmuşdur.

Qədim mənbələrə əsasən Ön Asiyanın mədəniyyət beşiklərindən sayılan tarixi Azərbaycan ərazilərində ilk dövlətlərin yaranması eramızdan əvvəl IV minilliyin sonlarına təsadüf edir. Aratta *(e.ə. III minilliyin birinci yarısı),* Lulubi *(e.ə. III minilliyin ikinci yarısı),* Kuti *(e.ə. III minilliyin ikinsi yarısı)* dövlətləri, Saka-skif çarlığı *(e.ə. VII-IV əsrlər)*, bəşər sivilizasiyasında müstəsna yer tutan Manna *(e.ə. III-II minilliklər)*, Şərqin ən qüdrətli imperiyalarından olan Midiya *(e.ə. 712-550-ci illər)* və sonralar Atropatena dövlətləri milli dövlətçilik və diplomatiya tariximizin ən qədim səhifələrindən sayılır. Onu da xüsusilə qeyd etmək lazımdır ki, antik ədəbiyyatda Atropatena dövlətinin çevik xarici siyasəti, diplomatik məharəti haqqında zəngin faktlara rast gəlinir. Eramızın əvvəllərinədək tarixi Azərbaycan əraziləri Əhəmənilər və Sasanilər imperiyalarının, Qafqaz Albaniyasının süqutundan sonra isə Ərəb xilafətinin hakimiyyəti altında olmuşdur. Xilafətin parçalanması nəticəsində bu ərazidə yaradılan Şirvanşahlar *(799-1538/1539),* Sacilər *(879-941),* Salarilər (941-983), Şəddadilər *(951-1174),* Rəvvadilər *(983-1060; 1107-1117),* daha sonra Atabəylər *(1136-1225),* Elxanilər *(1256-1353),* Qaraqoyunlu *(1375-1469),* Ağqoyunlu *(1378-1503/1508),* Səfəvilər *(1501-1736)* dövlətləri, sonralar Şimali Azərbaycan ərazisindəki Bakı, Dərbənd, Gəncə, İrəvan, Lənkəran, Naxçıvan, Qarabağ, Quba, Şamaxı, Şəki xanlıqları**,** Cənubi Azərbaycandakı Ərdəbil, Marağa, Maku, Qaradağ, Sərab, Təbriz, Urmiya, Xoy xanlıqları öz müstəqilliklərinin müdafiəsində diplomatik imkanlardan geniş istifadə etmişlər.

Minilliklər boyu davam etmiş təcrübənin, ibrət dərslərinin nəticəsidir ki, XV əsrin sonlarından etibarən mərkəzləşdirilmiş milli dövlət quruculuğuna başlanılmış, bu tarixi irs nəsildən-nəslə ötürülərək, ağır mübarizə illərindən, işğal, tarixi torpaqların parçalanması mərhələlərindən keçərək XX əsrdə milli dövlətçiliyimizin bərpasına və üçrəngli bayrağımızın Azərbaycan üzərində dalğalanmasına səbəb olmuşdur. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək: *"Biz nadir irsin varisiyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı*

olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır"[2]**.** O da vurğulanmalıdır ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan xalqının, dövlətçiliyimizin, o cümlədən xarici siyasət tarixinin öyrənilməsinə xüsusi diqqət ayrılmışdır. Ümummilli liderin zəngin tarixi irsimizin obyektiv tədqiqi və təbliğinə həsr olunmuş bütün çıxışlarında, tövsiyələrində məhz bu ideya özünü qabarıq şəkildə büruzə vermişdir: Azərbaycan xalqı öz tarixinə, keçmişinə sahib çıxmalıdır. Bu baxımdan Azərbaycanın dövlətçilik tarixinin yaşıdı və onunla sıx əlaqəli olan xarici siyasət tarixində əhəmiyyətli ənənələr yaratmış bəzi Azərbaycan dövlətlərinin təcrübəsini xronoloji ardıcıllıqla bir daha diqqətə çatdırmaq istərdik.

Azərbaycanın xarici siyasət tarixi onun dövlətçilik tarixinin yaşıdıdır. Antik dünya coğrafiyaşünası Strabonun yazdığına görə, Midiya iki hissəyə bölünürdü. Paytaxtı Ekbatan *(indiki Həmədan şəhəri)* olan bir hissəsi "Böyük Midiya", digəri isə sərkərdə və dövlət xadimi Atropatın şərəfinə "Atropaten Midiyası" adlanırdı. Onun ərazisi şərqdən Xəzər dənizi, şimaldan Araz çayı *(bəzi şimal əraziləri də daxil olmaqla),* cənubdan "Böyük Midiya" dövləti, qərbdən isə Zaqros dağları ilə məhdudlaşırdı. Antik müəlliflərdən Herodot, Miletli Hekatey, Polibi, Strabon burada mük, kasp, mard, mar, kadusi, elimey, matian, amard, anariak və digər tayfalarla yanaşı türk mənşəli sakların da yaşadıqlarını qeyd etmişlər.

İlk paytaxtı Qanzak (*Gəncə*), sonralar isə Fraasp *(Təbriz yaxınlığındakı Təxti-Süleyman)* şəhərləri olan Atropaten dövləti eramızdan əvvəl IV əsrin sonlarında Böyük İsgəndərin ölümündən sonra imperiyanın parçalanmasının, sərkərdələrin hakimiyyət uğrunda mübarizəsinin nəticəsi olaraq yaranmışdır. Bu zaman Midiya canişini, vaxtilə İsgəndərlə hərbi-siyasi ittifaq quran, onun etibarını qazanan Atropat yaranmış vəziyyətdən istifadə edərək midiyalıları, şimaldan Albaniya əhalisini, sakları, kadusiləri, sakasinləri öz ətrafında birləşdirə, e.ə. IV əsrin 20-ci illərinin sonunda müstəqil dövlət qura bilmişdir. Qüdrətli Parf və Selevki dövlətlərinin əhatəsində olan Atropatena daim yeni işğal təhlükəsi ilə üzləşirdi. Təhlükəni aradan qaldırmaq,

2 Türk dünyasının birliyi ideyası və Heydər Əliyev. Bakı: Elm və təhsil, 2011

dövlətin güclənməsi üçün vaxt qazanmaq məqsədilə hökmdar Atropat həmin imperiyaların idarəetmə üsullarından bəhrələnərək, müasir terminologiya ilə desək, "balanslaşdırılmış siyasət" yürütməyə nail olmuşdur. Qısa vaxt ərzində Atropatena həm iqtisadi, həm də hərbi cəhətdən möhkəmlənmiş, ordusunu regionun ən güclü hərbi qüvvəsinə çevirmiş, hətta Parfiya imperiyası ilə müttəfiqliyə nail olaraq ərazisinə hücum etmiş Roma ordusunu ağır məğlubiyyətə uğratmışdır. Bir müddət sonra Parfiya dövlətinin işğal təhlükəsi ilə üzləşəndə Atropatena Roma ilə qarşılıqlı əlaqələri bərpa edə bilmişdir.

Tarixşünaslıqda "Qafqaz Albaniyası" kimi tanınan qədim Azərbaycan dövlətinin, xüsusilə Cavanşirin xarici siyasət sahəsində təcrübəsi də örnək olaraq öyrənilməlidir. Çoxsaylı yazılı tarixi mənbələrin məlumatına görə, eramızdan əvvəl IV-III əsrlərdə təşəkkül tapan və eramızın VIII əsrində Ərəb xilafətinin hərbi yürüşləri nəticəsində süquta uğrayan bu dövlətin əraziləri müasir Azərbaycan və Ermənistan respublikalarını, Cənubi Dağıstanı və Gürcüstanın bir hissəsini əhatə etmişdir. Qəbələ və Bərdə şəhərləri müxtəlif dövrlərdə Qafqaz Albaniyasının paytaxtı olmuşdur. Eramızdan əvvəl V əsrdə yaşamış antik müəllif Herodotun qənaətinə görə, saka-skif tayfa birləşmələri midiyalıları məğlub etdikdən sonra Qafqazda, Araz çayından şimalda məskunlaşmış və burada öz dövlətlərini yaratmışlar. Bir sıra mənbələrə görə, məhz həmin Skif şahlığının Qafqaz Albaniyasının prototipi olduğu iddia edilir. Eramızdan əvvəl VII əsrin əvvəlindən etibarən kimmerlərin, saka-skiflərin Azərbaycan ərazisində məskunlaşması, onların hakimiyyət sistemi və idarəçilik ənənələri burada yeni dövlətin meydana gəlməsinə əlverişli zəmin yaratdı. Əhəmənilərin hakimiyyəti illərində Albaniyada yaşayan xalq və tayfalar yadelli hakimiyyəti qismən tanısalar və xərac ödəsələr də, burada yeni dövlətin – Albaniyanın təşəkkülü prosesi başlanmışdı.

Regionun ən qədim və qüdrətli mədəniyyət mərkəzlərindən olan Qafqaz Albaniyası dünya tarixinə, eləcə də Azərbaycan dövlətçiliyi tarixinə böyük şəxsiyyətlərdən birini – Cavanşir kimi müdrik hökmdarı, görkəmli dövlət xadimini, sərkərdə və mahir diplomatı bəxş etmişdir. Onun hakimiyyəti dövründə *(637-681)* Qafqaz Albaniyası iqtisadi-siyasi baxımdan güclənərək bütövlükdə Şərqin aparıcı dövlətlərindən

birinə çevrilmişdi. Bu dövlət qədim mənbələrdə "Albaniya", "Alpan", "Arran", "ər-Ran", "Aqvanq" kimi tanınsa da, yerli əhalinin öz torpaqlarını necə adlandırdıqlarını göstərən mənbələr, təəssüf ki, dövrümüzə qədər gəlib çatmamışdır. Halbuki Alban tarixçisi Moisey Kalankatlı ölkənin adını yarımifik hökmdar Arran ilə əlaqələndirirdi. Müxtəlif dövrlərdə Qafqaz Albaniyası dövlətinin ərazisinə Çola, Kambisena, Qəbələ, Şəki, Paytakaran, Uti, Lpina, Əcəri *(Həcəri),* Girdiman, Sünik, o cümlədən əhalisi qarqar, uti, hun, xəzər və barsillərdən ibarət olan Arsak *(Ərsak)* vilayətləri daxil idi. Dərbənd keçidindən başlanan Çola vilayəti Xəzər sahilləri ilə cənuba doğru – Beşbarmaq dağınadək uzanırdı. Xristian dini Qafqaz Albaniyasında mövqelərini möhkəmləndirəndən sonra isə Qəbələ, Şəki, Kambisena vilayətləri eyni zamanda dini ərazi vahidləri – yerli yepiskopluqlar olmuşlar.

Qeyd olunduğu kimi, Qafqaz Albaniyası polietnik və polikonfessional dövlət olmuş, ərazisi etnik rəngarəngliyi və xristianlığın regiona gəlişinədək dini müxtəlifliyi ilə seçilmişdir. Strabon ilk dövrlərdə Qafqaz Albaniyasının dövlət quruluşunun konfederasiya – tayfaların birliyi olması, sonralar isə mərkəzləşdirilməsi və vahid hakimiyyətin formalaşdırılması məsələsinə toxunaraq qeyd edirdi ki, indi albanları bir hökmdar idarə etsə də, əvvəllər hər bir dilin *(tayfanın)* öz hökmdarı var idi. Qədim mənbələrdə burada yaşayan avtoxton etnosların sırasında albanların, qarqarların, kaspların, maqların, sisakların, mardların, amardların, ariakların, utilərin, sovdelərin, gellərin və leqlərin də adları çəkilir. Bəzi salnaməçilər, məsələn, Strabon "onların bir-birini yaxşı başa düşmədiklərini" bildirsə də, müasir tarixşünaslıq və istənilən dövlətin formalaşdırılmasının mühüm amilləri – vahid hakimiyyətin, ortaq ünsiyyət vasitəsinin *(dil)* və dominant mədəniyyətin zəruriliyi bu iddiaların doğruluğunu təkzib etməkdədir. Əks halda Qafqaz Albaniyası öz dövrünün iqtisadi, siyasi və hərbi cəhətdən inkişaf etmiş qüdrətli dövlətlərindən birinə çevrilə, Roma imperiyası, Ərəb xilafəti kimi fövqəlgüclərə qarşı ciddi və uzunmüddətli mübarizə apara bilməzdi.

Tədqiqatlara əsasən, alban tayfa konfederasiyasında ən çoxsaylı və dominant etnik qrup məhz albanlar olmuşlar. Burada onlarla yanaşı abant, aran, quqar, qarqar, kəmər, sak, şarvan, şamak, şirak, dondar, kanqar,

tərtər, macar, bolqar kimi digər türk tayfaları da yaşamışlar. Bu baxımdan "Albaniya", "alban" toponiminin türk mənşəli etnonim, tayfa və ya tayfa birləşməsinin adı ilə əlaqələndirilməsi daha doğrudur. Bəzi alimlər, o cümlədən qazaxıstanlı yazıçı-alim Oljas Süleymenov da bu fikirdədir. O, tanınmış türkoloq D.Yeremeyevə istinadən bildirir ki, VI əsrdə Kiçik Asiyada və Qafqazda baş vermiş bir çox hadisə hun tayfalarından biri olan suvar *(subar, sibir)* tayfasının adı ilə bağlıdır. Suvarlar Kiçik Asiyaya hərbi yürüşlər etmiş, hətta muzdlu qoşun qismində Bizans ordusunun tərkibində döyüşmüşlər. Lakin eramızın 568-ci ilində avarlarla döyüşdə suvarlar darmadağın edildikdən sonra onların böyük hissəsi Albaniyaya, indiki Azərbaycan ərazisinə köçmüşdür. O.Süleymenov daha sonra yazır ki, suvarların bir hissəsi sonradan Mərkəzi Asiyaya gəlmiş, qazax xalqının içərisində ərimiş və nəticədə onlar "alban-suanlar", yəni "Albaniya suvarları" adlandırılmışlar[3]. Bundan başqa, çuvaşlar da əcdadlarının Qafqaz dağlarının arxasından gəlmiş alpanlar olduğuna əmindirlər.

Beləliklə, bu ərazilərdə qurulan dövlətlər, o cümlədən Qafqaz Albaniyası, müasir terminologiya ilə desək, multikultural – özünəməxsus etnik və dini müxtəlifliyi ilə seçilən, lakin bu rəngarəngliyi alban tayfa ittifaqının vahid etnomədəni məkanı ətrafında birləşdirən dövlət idi. Bu baxımdan müasir Azərbaycan Respublikasında multikulturalizm siyasətinin tarixi mənbələri və tolerantlıq prinsiplərinin kökləri Qafqaz Albaniyasının qədim ənənələrindən, etik-mənəvi dəyərlərindən də bəhrələnir. Qədim salnamələrdə Qafqaz Albaniyasının polietnik mənzərəsindən bəhs edilərkən burada türkdilli, irandilli və qafqazdilli 26 tayfa və tayfa birləşməsinin yaşadığı bildirilir. Onların ən qədimləri Qafqaz və türk dillərində danışan avtoxton etnoslar olmuşlar[4].

Qafqaz Albaniyasındakı polikonfessionallığa – dini müxtəlifliyə gəldikdə isə hələ Strabon *(e.ə. I əsrin sonları, eramızın I əsrinin əvvəlləri)* bu torpağın əhalisinin Heliosa *(Günəşə),* Zevsə *(Atəşə)* və Selenaya *(Aya)* sitayiş etdiklərini yazırdı. Alban tarixçiləri xristian dininin Qafqaz Albaniyasında yayılmasına və sonralar hakim dinə çevrilməsinədək burada həmçinin şamanizm, totemizm və tanrıçılıq dinlərinin də

3 Сулейменов О. Аз и Я. Книга благонамеренного читателя. М.: Грифон М., 2005

4 Ямпольский З.И. Древнейшие сведения о тюрках в зоне Азербайджана. //Учен. зап. АГУ им. С.М.Кирова, 1966, № 2

mövcud olduğunu qeyd etmişlər. Belə ki, Alban salnaməçisi Moisey Kalankatlının "Alban ölkəsinin tarixi" əsərində adı çəkilən "Artsak bütləri" ilə, əslində, Qarabağın dağlıq və düzən ərazilərində aşkar edilmiş qədim daş heykəllərin nəzərdə tutulduğu ehtimal edilir. Xristian dini Qafqaz Albaniyası ərazisində təqribən eramızın 54-57-ci illərində həvari Yeliseyin missionerlik fəaliyyəti ilə yayılmış, sonralar bu dövlətin dominant dininə çevrilmiş və Alban həvari aftokefal kilsəsinin *(Alban katolikosluğunun)* yaranması ilə nəticələnmişdir. Təsadüfi deyildir ki, eramızın 60-cı illərində indiki Şəki rayonunun ərazisində inşa edilmiş Kiş kilsəsi təkcə Qafqaz Albaniyasında deyil, bütövlükdə Cənubi Qafqazda ən qədim xristian məbədi hesab olunur. Bu isə özlərini "ilk xristianlar" cərgəsinə aid edən ermənilərin İsa Məsih təlimini qəbul etmələrindən *(327-ci və ya 332-ci il)* təqribən üç əsr əvvəl baş vermişdir. Sonralar, 705-ci ildə Qafqaz Albaniyasının bir dövlət kimi süqutu, onun VII-IX əsrlərdə Ərəb xilafətinin tərkibinə daxil edilməsi Alban həvari kilsəsinin müstəqilliyinə ciddi təsir göstərmiş və tədricən zəiflətmiş, nəhayət, ermənilərin onu zəbt etməsinə imkan yaratmışdır. Nəticədə 1836-cı ildə Rusiya imperiyası onun fəaliyyətini tamamilə dayandıraraq, erməni-qriqorian kilsəsinin tabeliyinə vermiş, bununla da xristian albanların qriqorianlaşdırılmasına və dini zəmində zorən ermənileşdirilməsinə sonralar əlverişli şərait yaradılmışdı. Ermənilərin Azərbaycana ərazi iddialarına, maddi mədəni və qeyri-maddi mədəni irs nümunələrinin mənimsənilməsinə münbit şərait yaradılmışdı. Yalnız Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra, 2003-cü ildə Alban həvari kilsəsi bərpa edilərək yenidən fəaliyyətə başlamışdır.

Orta əsrlərdə də Azərbaycanın beynəlxalq münasibətlər sistemində dinamika, gərginlik müşahidə edilmişdir. Həmin dövrdə Azərbaycan dövlətləri regional siyasi və hərbi-siyasi proseslərdə iştirak etmiş, bölgənin siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamışlar. Bu dövrdə obyektiv və subyektiv səbəblər üzündən Avropa dövlətləri ilə əlaqələr xarici siyasətin əsas istiqamətlərindən biri hesab olunurdu. XV-XVII əsrlərdə Qaraqoyunlu, Ağqoyunlu, Şirvanşahlar və Səfəvi dövlətlərinin beynəlxalq əlaqələri və siyasi ənənələri, özünəməxsus xüsusiyyətləri və ənənəvi hüquq normaları Yaxın və Orta Şərqin siyasi-iqtisadi münasibətlər sisteminin formalaşmasına əhəmiyyətli təsir

göstərmişdir.

Azərbaycanın xarici siyasət ənənələrinin inkişafı tarixində orta əsr Ağqoyunlu dövləti müstəsna yer tutmaqdadır. Tarixşünaslıqda bəzən qüsurlu olaraq "Uzun Həsən" kimi təqdim edilən Həsən xan Bayandurun hakimiyyətdə olduğu illərdə Azərbaycan təkcə Şərq dövlətləri ilə deyil, bir sıra Avropa ölkələri – Venesiya, Neapol, Roma papalığı, Polşa, Almaniya, İngiltərə, Avstriya, Macarıstan, Burqundiya hersoqluğu, Moskva knyazlığı, Trabzon, Kipr və s. kiçik və böyük dövlətlərlə diplomatik əlaqələr qurmuşdur. Xarici ölkələrdə Ağqoyunlu xanədanının 30-dan çox səfirliyi yaradılmış, Həsən xanın sarayında isə əcnəbi diplomatik nümayəndəliklər fəaliyyət göstərmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, Şərq dünyasının ilk diplomat qadını da azərbaycanlı Sara xatun – Həsən xanın anası olmuşdur. O, xarici dövlətlərlə aparılan danışıqlarda siyasi məharətini və müdrikliyini dəfələrlə nümayiş etdirmişdir. Ağqoyunlu dövlətinin idarə olunmasında fəal iştirak edən Sara xatun xarici ölkələrin ayrı-ayrı dövlət xadimləri, o cümlədən Teymurilərin hökmdarı Əbu Səid, Osmanlı sultanı II Mehmet kimi dövlət başçıları ilə diplomatik danışıqlar aparmış, Ağqoyunlu dövlətinin maraqlarını uğurla müdafiə etmişdir. Təsadüfi deyildir ki, Həsən xan Bayandur xarici siyasətlə bağlı olan mürəkkəb məsələlərin həllini məhz ona həvalə edirdi. Yeri gəlmişkən, Avropa dövlətlərinin başçıları da Sara xatunu yaxşı tanıyır, Ağqoyunlu sarayına göndərilən diplomatlarına vacib şərtlərdən biri kimi onunla görüşməyi, məsləhətləşməyi tapşırırdılar.

Tarixi Azərbaycan ərazilərində mövcud olmuş dövlətlərin sırasında Səfəvilər xanədanının diplomatik əlaqələri müasir beynəlxalq münasibətlər baxımından da ciddi maraq doğuran tədqiqat obyektidir və xüsusi əhəmiyyət kəsb edir. Onun banisi – Şah İsmayıl Xətayi Azərbaycan tarixinin və dövlətçiliyinin, ədəbiyyatının və fəlsəfi düşüncəsinin müstəsna simalarından biri olmaqla yanaşı, tarixdə görkəmli strateq, mahir ideoloq və diplomat kimi də qalmışdır. Ağqoyunluların xarici siyasət ənənələrini davam etdirən Səfəvilərin hakimiyyəti dövründə də Azərbaycan Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqələr

saxlayır, Şərqlə Qərb arasında əlaqələrin qurulmasında mühüm rol oynamaqda davam edirdi. Akademik Ramiz Mehdiyev "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi" adlı məqaləsində Azərbaycan dövlətçiliyi və diplomatiyası tarixində varislik ənənələrinə toxunaraq bildirmişdir ki, *"orta əsrlərdə xalqımızın dövlətçilik tarixində Səfəvilər imperiyası onun rəhbərliyi altında ən yüksək mərhələ kimi əvvəlki və sonrakı Azərbaycan dövlətləri zəncirində yalnız bir halqa olmuşdur. Bu siyasi qurumlar bir-birini əvəz etməklə və çoxəsrlik Azərbaycan dövlətçiliyinin əsasını formalaşdırmaqla Azərbaycan türk tayfalarını birləşdirmiş, dövlət quruculuğu ənənələrini, idarəçilik vərdişlərini, qonşu xalqlar haqqında bilikləri və informasiyanı, onlarla ünsiyyət mexanizmlərini, hakimiyyətin çox vaxt atadan oğula verilməsi təcrübəsini növbəti nəsillərə ötürmüşlər"*[5].

Müəllif Şah İsmayılın Azərbaycan dövlətçiliyi və diplomatiyası tarixində müstəsna rolunu yüksək dəyərləndirərək qeyd edir: *"Şah İsmayılın Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də öz dövrü üçün xarici siyasət mexanizmlərini formalaşdırmasıdır. Qüdrətli imperiya yaradan Şah İsmayıl həm də Qərbi Avropada Papalıq, Fransa, İspaniya, Venesiya, Genuya və s. ilə səmərəli qarşılıqlı münasibətlərin möhkəm bünövrəsini qurmuşdu… Bu əlaqələr həmin dövlətlərlə ticarəti inkişaf etdirməyə də müsbət təsir göstərirdi. Asiya ilə Avropa arasında ticarət yollarının üstündə yerləşən Səfəvilər dövləti tranzit daşımalardan böyük gəlir götürürdü. Məhz Şah İsmayılla Qərb arasında yaranmış sıx siyasi təmaslar sayəsində Avropadan Təbrizə ticarət missiyaları gəlməyə və burada daimi nümayəndəliklər açılmağa başlamışdı. O, diplomatik yolla zəmanəsinin digər qüdrətli siyasi mərkəzi – Hindistandakı Böyük Moğollar imperiyası ilə də kifayət qədər möhkəm dostluq əlaqələri yaratmışdı"*[6]. Akademik Ramiz Mehdiyev eyni zamanda Azərbaycanda tolerantlıq ənənələrinin qədim köklərə malik olmasına toxunaraq, Səfəvilər dövlətində etnik və dini müxtəlifliyin qorunması, birgəyaşayış normalarının inkişafı məsələsinə də toxunmuş və vurğulamışdır ki, *"Səfəvilər dövlətinin daha bir səciyyəvi xüsusiyyəti dövlətçilik ənənələrinin, eləcə də tolerantlığın, çoxmədəniyyətli, çoxmillətli dövlət ənənələrinin varisliyidir. Səfəvi imperiyasında yaşayan*

5 Mehdiyev R. Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi. /05.12.2012/ - http://az.trend.az/azerbaijan/politics/2095414.html

6 Yenə orada

xalqların dilləri b ugünə qədər qorunub saxlanmışdır və eynilə incəsənət və memarlıq abidələri kimi tarixi mirasdır"[7].

Şah İsmayılın milli dövlətçilik tarixində misilsiz xidmətlərindən biri Azərbaycan türkcəsini dövlət idarəçiliyinə və diplomatik münasibətlərə gətirməsidir. Belə ki, Səfəvilər sülaləsinin hakimiyyətdə olduğu dövrlərdə bu dil rəsmi dövlət dili statusunu qoruyub saxlayaraq həm də diplomatiya dili olmuşdur. Tanınmış şərqşünas Vasili Bartold bu barədə yazırdı: *"Xanədanın təşəkkül tapdığı ərazidə Azərbaycan əhalisi hələ o zaman türkcə danışırdı. Nəticə etibarilə türk dili Səfəvilər dövlətində saray və ordu dili olaraq qaldı"*. Səfəvi dövlətinin yaranması, coğrafiyası, etnomədəni vəziyyəti ilə bağlı fransız tarixçisi və yazıçısı Fernand Qrenardın fikirləri də maraqlıdır: *"Şah İsmayıl on üç yaşına çatdığı zaman yeddi silahdaşı ilə bərabər yeddi türk tayfasından ibarət tərəfdarlarını topladı. Türkman hökmdarını məğlub edərək Təbrizə daxil oldu və 1501-ci ildə başına tac qoydu. Qısa zamanda onun hakimiyyəti Fəratdan Qəndəhara, Qafqazdan Hind okeanına qədər böyük bir ərazini əhatə etməyə başladı... Biz bir millətin yenidən dirçəlişini gördük... Burada böyük əyalətlərin bir çoxunda türkcə və ya ərəbcə danışılır və onlar fars deyillər. Türk dili Səfəvi sarayında uzun müddət hökmran olacaqdır"*[8].

Xüsusilə vurğulamaq lazımdır ki, Səfəvilər dövlətində Azərbaycanda diplomatiya ənənələrinin, hüquq normalarının və diplomatik etiketin inkişafı da müşahidə edilməkdədir. Məsələn, Azərbaycana gəlmiş əcnəbi elçilərin – diplomatların toxunulmazlığı və onlara göstərilən ehtiram barədə Azərbaycan tarixçisi İsgəndər bəy Münşi "Tarixe-aləmaraye-Abbasi" *("Dünyanı bəzəyən Abbasın tarixi")* əsərində yazır: *"Ağıllı adamlara məlumdur ki, aləm sultanları və dünya padşahları arasında elçilər barədə belə bir qanun vardır: elçilərin istər dostluq, birlik, istərsə də düşmənçilik və ixtilaf vaxtlarında göndərilmələrindən asılı olmayaraq, incidilmələri və zərər görmələri Allah və əhali tərəfindən yol verilməyən və bəyənilməyən hadisədir… Çünki bu insanlar onları göndərən şəxslərin buyruq adamlarıdır, elçilərin vəzifələri elçilik xidmətlərini yerinə yetirmək, məktub və*

7 Mehdiyev R. Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi. /05.12.2012/ - http://az.trend.az/azerbaijan/politics/2095414.html

8 Qrenard F. Babur/Hazırlayan Orhan Yüksel/. İstanbul: Milli Egitim Basımevi, 1971

xəbər çatdırmaqdır"[9]. Səfəvilərin diplomatiya ənənələri sonralar sülalənin digər nümayəndələri – Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah Abbas və digər Azərbaycan hökmdarlarının hakimiyyətdə olduqları dövrlərdə də qorunmuş və genişləndirilmişdir.

XIX əsrin əvvəllərində Gülüstan və Türkmənçay müqavilələrinin bağlanması ilə Azərbaycanın tarixi ərazilərinin Rusiya imperiyası tərəfindən işğalı və parçalanması, Azərbaycan xanlıqlarının süqutu, ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə regionun etnik mənzərəsinin süni şəkildə dəyişdirilməsi, Qərbi Azərbaycan ərazilərində Ermənistan dövlətinin yaradılması Azərbaycan tarixinin qara səhifələrindəndir. Azərbaycan ərazilərinin əvvəlcə müstəmləkəçi Rusiyanın, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra isə "nominal müstəqillik"lə SSRİ-nin "qardaşlıq ailəsi"nin tərkibində olması milli dövlətçilik, eləcə də xarici siyasət tariximizdə təqribən bir əsrlik fasilə yaratmışdı.

Milli dövlətçilik ənənələrimizin XX əsrdə davamçısı olmuş və cəmi 23 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının bəyannaməsində elan olunduğu kimi, hökumətin xarici siyasət strategiyasının əsasını onun "beynəlxalq birliyin bütün üzvləri, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələrinin qurulması" prinsipi təşkil edirdi. Gənc respublikanın qurucuları Azərbaycanın xarici siyasət tarixinin şərəfli səhifələrini yazmışdılar. Bu dövrdə xarici siyasət kursunun ardıcıl şəkildə həyata keçirilməsi üçün xüsusi dövlət strukturunun yaradılmasına böyük zərurət yaranmışdı. Azərbaycan Xalq Cümhuriyyəti üçün həmin taleyüklü dövrdə Xarici İşlər Nazirliyi təsis edilmiş, müxtəlif vaxtlarda Məmmədhəsən Hacınski, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Məmmədyusif Cəfərov bu quruma başçılıq etmişdilər. Həmin dövrdə Xarici İşlər Nazirliyinin ən vacib vəzifəsi Azərbaycanın dövlət müstəqilliyinin Avropada tanınması və qonşu dövlətlərlə münasibətlərin tənzimlənməsi idi. Azərbaycan diplomatları 1920-ci il yanvar ayının 11-də keçirilmiş Paris sülh konfransında iştirak etməklə bu istiqamətdə olduqca əhəmiyyətli

9 İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. I-II cildlər./Fars dilindən tərcümə edən və şərhlərin müəllifi Şahin Fərzəliyev/. Bakı: Şərq-Qərb, 2014

uğura imza atmışdılar. Belə ki, Versal Ali Şurasında Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlət kimi tanınmış, ona şurada hökumət başçıları səviyyəsində keçirilən iclaslarda iştirak etmək, danışıqlar aparmaq imkanları verilmişdi. Bundan başqa, müttəfiq dövlətlərin Azərbaycana müxtəlif təyinatlı yardımlar etməsinin təşkili də demokratik respublikanın diplomatik uğurlarından sayılmalıdır. Xüsusi qeyd olunmalıdır ki, 1920-ci ildə Bakıda 16 ölkənin, o cümlədən Böyük Britaniyanın, Belçikanın, Yunanıstanın, Danimarkanın, Litvanın, ABŞ-ın, Finlandiyanın, İsveçrənin və digər dövlətlərin diplomatik korpusları fəaliyyətə başlamışdı. Azərbaycanın isə Türkiyə, Rusiya, İran, Gürcüstan, Ermənistan və digər ölkələrdə rəsmi nümayəndəlikləri açılmışdı. Lakin 1920-ci ilin aprelində bolşevik Rusiyasının hərbi-siyasi təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğramış, milli dövlətçilik salnaməsində təqribən 70 illik növbəti fasilə yaranmışdı.

------ • ------

25 il əvvəl – 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası üzləşdiyi problemlərə baxmayaraq, bu gün sürətlə inkişaf etməkdədir. Dünyanın aparıcı dövlətlərinin etibarlı strateji tərəfdaş kimi tanıdıqları Azərbaycan beynəlxalq aləmdə öz yerini təsdiqləmiş, ümumbəşəri məsələlərin həllində, Yer üzündə sülhün və təhlükəsizliyin qorunmasında, xalqların və mədəniyyətlərin yaxınlaşması proseslərində, qlobal iqtisadi layihələrin icrasında fəal iştirak etməkdədir. Bununla yanaşı, Azərbaycan özünün coğrafi mövqeyi, təbii ehtiyatları ilə yenə də fövqəldövlətlərin geostrateji maraqlarının hədəfinə çevrilmişdi. Məhz bu səbəb Azərbaycanı xarici təsirləri neytrallaşdırmaq, daxili potensialını möhkəmləndirmək üçün yeni praqmatik və çevik xarici siyasət konsepsiyası işləyib hazırlamağa sövq etmişdir. Həmin dövrdə Azərbaycanın xarici siyasətinin qarşısında iki mühüm strateji vəzifə dayanırdı: bir tərəfdən, müstəqil, demokratik və dünyəvi dövlət quruculuğu, digər tərəfdən isə suverenliyin təmin olunması. Lakin müstəqilliyin ilk illərində xarici siyasət sahəsində "siyasi romantizm" əhvali-ruhiyyəsinin və mənfi tendensiyaların

hakim olması, həmin dövrdə Azərbaycana rəhbərlik edənlərin qeyri-peşəkarlığı, məsuliyyətsiz çıxış və bəyanatları ölkənin beynəlxalq nüfuzuna arzuolunmaz təsir göstərmiş, dövlətlərarası əlaqələri, xüsusilə Rusiya və İran kimi qonşu dövlətlərlə münasibətləri kəskin şəkildə pisləşdirmişdir.

Bu gün ölkəmiz Cənubi Qafqaz regionunda söz sahibi olan lider dövlətdir və mürəkkəb geosiyasi, geoiqtisadi şəraitdə milli maraqlara cavab verən müstəqil siyasət yürütməkdədir. Doğrudur, müstəqilliyin ilk illərində dünyada cərəyan edən ziddiyyətli geosiyasi proseslər və onların bilavasitə regiona təsiri, Cənubi Qafqazda yaranmış hərbi-siyasi böhran, o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövlətimizin xarici siyasətinin prioritet istiqaməti olsa və əsas qüvvələr ölkənin ərazi bütövlüyünün bərpasına yönəldilsə də, Azərbaycan eyni vaxtda, ardıcıl olaraq, iqtisadi potensialını möhkəmləndirmiş, dünyaya inteqrasiya prosesini sürətləndirmiş və bir sıra qlobal iqtisadi layihələrin icrasında aparıcı dövlət kimi iştirak etmişdir. Bu uğurlar isə ilk növbədə Ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Azərbaycan Respublikası bütün bunlara ilk növbədə Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin ikinci yarısında yenidən hakimiyyətə qayıdışı və onun təşəbbüsü ilə milli dövlətçilik prinsiplərinə, milli mənafelərə söykənən yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi, Azərbaycanın beynəlxalq aləmdə süni təcrid vəziyyətindən uğurla çıxarılması və ətrafındakı informasiya blokadasının yarılması sayəsində nail olmuşdur. Olduqca mürəkkəb və Azərbaycan üçün taleyüklü bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə bağlı keçirilmiş rəsmi andiçmə mərasimindəki çıxışında xarici siyasətin vəzifələri haqqında bunları demişdir: *"Respublika qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr qurmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq*

mövqelərini möhkəmləndirmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir"[10].

Elə həmin ağır dövrdə – 1994-cü il mayın 12-də Prezident Heydər Əliyevin qətiyyətli fəaliyyəti və uzaqgörən siyasəti nəticəsində Ermənistanla atəşkəs haqqında razılıq əldə edilmiş, ATƏT-in Minsk Qrupu çərçivəsində müntəzəm danışıqlara başlanılmışdı. Həmin ilin dekabr ayında ATƏT-in Budapeştdə keçirilmiş zirvə toplantısında "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olunmuşdu. Onu da xüsusi qeyd etmək lazımdır ki, 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarı və nəqlinə dair imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünyanın aparıcı dövlətləri ilə qarşılıqlı faydalı və bərabərhüquqlu əlaqələrinin qurulmasına, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmləndirilməsinə əlverişli zəmin yaratmışdır.

Azərbaycanın iqtisadi inkişafı, onun müdafiə qabiliyyətinin möhkəmləndirilməsi həm də beynəlxalq və regional miqyasda inteqrasiya prosesi ilə üzvi şəkildə əlaqəlidir. Xüsusilə qeyd olunmalıdır ki, "Əsrin müqaviləsi"nin bağlanmasından sonra Azərbaycanın qoşulduğu digər neft-qaz və transnəqliyyat xətləri layihələri ölkəmizin dünya birliyinə inteqrasiyasını əhəmiyyətli dərəcədə sürətləndirmişdir. Bütövlükdə Heydər Əliyevin xarici siyasət kursunun əsas məqsədlərini aşağıdakı kimi xarakterizə etmək olar: Azərbaycanın milli maraqlarının qeyd-şərtsiz təmin olunması; fövqəldövlətlərin geosiyasi mənafelərindən irəli gələn qarşılıqlı asılılıq səylərinin bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıqla əvəz olunması. Ümummilli lider xarici dövlətlərlə münasibətlərin qurulmasında bu tələbləri nəzərə alaraq, Azərbaycan Respublikasının xarici siyasət kursunun aşağıdakı prinsiplərini müəyyən etmişdir: dövlətlərarası münasibətlərin beynəlxalq hüquq normaları ilə tənzimlənməsinə riayət olunması; bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşılması; mübahisəli məsələlərin

10 Məmmədov C. Xarici siyasətdə uğurlu 10 il. /13.07.2012/ - http://sia.az/az/news/analysis/304921-xarici-siyasetde-uqurlu-10-il

sülh və danışıqlar yolu ilə tənzimlənməsi; qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlığın qurulması; dövlətlərarası əlaqələrə mane olan məhdudiyyətlərin aradan qaldırılması. Bütün bunlar Azərbaycan Respublikasının Konstitusiyasında da hüquqi əksini tapmışdır. Əsas Qanunun 10-cu maddəsində göstərildiyi kimi: *"Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qurur"*[11].

Eyni zamanda məlumdur ki, xarici siyasət ölkənin daxili siyasəti ilə bağlıdır və fəaliyyət məqsədləri baxımından onun məntiqi davamıdır. Bu baxımdan Ümummilli lider Heydər Əliyevin səyləri ilə ölkə ərazisindəki qanunsuz hərbi birləşmələr ləğv edilmiş, daxili ictimai-siyasi sabitliyin bərpası üçün mühüm tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Prezident Administrasiyası Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov Ümummilli liderin xarici siyasət sahəsindəki fəaliyyətini belə dəyərləndirmişdir: *"Heydər Əliyev mürəkkəb qlobal və regional vəziyyətin mövcudluğu, ölkə daxilində destruktiv qüvvələrin fəallaşdığı bir şəraitdə elmi olaraq əsaslandırılmış xarici siyasət kursu müəyyənləşdirə bildi. Bu, Azərbaycan dövlətçiliyi üçün tarixi töhfə idi. Ulu öndər ölkənin xarici siyasətinin bütün əsas istiqamətlərini müəyyənləşdirdi. Həmin istiqamətlər üzrə siyasi-diplomatik fəaliyyətin məzmunu və məqsədini dəqiqləşdirdi. Onun konkret tövsiyələri və tapşırıqları əsasında xarici siyasətdə bir-birinin ardınca uğurlar əldə edildi"*[12].

Beləliklə, Azərbaycanın bu gün mükəmməl və səmərəli xarici siyasət yürütməsi və bu kursun milli maraqlara cavab verən uğurlu nəticələri bilavasitə Heydər Əliyev irsinin, onun uzaqgörənliklə müəyyənləşdirdiyi və davamlı şəkildə inkişaf edən, yeniləşən xarici siyasət kursunun bəhrəsidir. Təsadüfi deyildir ki, hazırda dövlətimiz dünyanın bir sıra mötəbər beynəlxalq təşkilatlarının tamhüquqlu üzvüdür. Azərbaycan Respublikası dünyanın 177 dövləti ilə diplomatik əlaqələr qurmuşdur. Azərbaycanda xarici dövlətlərin

11 Azərbaycan Respublikasının Konstitusiyası. - http://www.president.az/azerbaijan/constitution#xalq

12 Məmmədov N. Heydər Əliyev Azərbaycanın müstəqil xarici siyasətinin memarıdır. /10.05.2013/ - http://newtimes.az/az/relations/1607/

80-dən çox səfirlik və konsulluğu fəaliyyət göstərir. Bundan başqa, 62 ölkədə Azərbaycanın səfirlikləri, konsulluqları və daimi nümayəndəlikləri vardır.

Ulu öndərin memarı olduğu və irs qoyduğu uğurlu və çevik xarici siyasət kursunun başlıca vəzifələri – ölkənin müstəqilliyinin, beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunması, təhlükəsizliyinin regional və beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqələndirilməsi, Azərbaycanın beynəlxalq və regional təşkilatlarda təmsilçiliyi, bərabərhüquqlu birgəyaşayış normaları ilə tənzimlənən dünya siyasətində və beynəlxalq, regional təşkilatlarda fəal iştirakı, bütün dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, mənafeləri Azərbaycanın milli maraqları ilə uzlaşan dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin yaradılması, ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş beynəlxalq normaların icrasına, regionda hərbi-siyasi gərginliyin aradan qaldırılmasına şəraitin yaradılması, xarici iqtisadi siyasətin yürüdülməsi və digər məsələlərin icrası bu gün də davam etdirilməkdədir. Bütün bu vəzifələr və onların icrasına yönəldilən fəaliyyət Azərbaycan Respublikasının beynəlxalq, regional və dövlətlərarası münasibətlər səviyyəsində atdığı addımlarda və imzaladığı müqavilələrdə öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: *"Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir"*[13].

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xarici siyasət kursunu uğurla davam etdirən cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildiyi ilk gündən etibarən beynəlxalq münasibətlərdə milli maraqların üstünlüyünü təmin etmiş, Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplərə sədaqətini daim nümayiş etdirmişdir. Bu kursun ali məqsədi dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin, milli dövlətçilik

13 Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü və faşizm üzərində Qələbənin 71 illiyi münasibətilə təşkil olunmuş rəsmi qəbulda İlham Əliyevin nitqi. /09.05.2016/ - http://president.az/articles/19732/print

hüquqlarının təmin olunması və beynəlxalq təhlükəsizlik sistemi ilə uzlaşdırılmış fəaliyyətdir. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət strategiyası ilk növbədə xalqımızın üzləşdiyi problemlərin, xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla tənzimlənməsinə, ölkəmizin dövlətlərarası, regional və beynəlxalq əlaqələrinin möhkəmlənməsinə, dünya birliyinə sıx inteqrasiyasına yönəldilmişdir. Azərbaycanın uğurlu xarici siyasət kursu xarici ölkələrlə siyasi, iqtisadi və mədəni əməkdaşlıq sahəsində onu etibarlı tərəfdaş kimi tanıtmışdır. Cənubi Qafqaz regionu üzərindən transsərhəd nəqliyyat və kommunikasiya dəhlizlərinin çəkilişi təşəbbüsləri, bir tərəfdən, Azərbaycanın tranzit imkanlarını, iqtisadi-maliyyə potensialını genişləndirmiş, digər tərəfdən, həmin layihələrə bir sıra strateji əhəmiyyətli dövlətləri cəlb etməklə ətrafına tərəfdaşlar toplamışdır.

Coğrafi baxımdan Azərbaycan Respublikası regionda Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistanla həmsərhəd olan dövlətdir. Logistika mülahizələrinə görə, Qərb və Şərq, Şimal və Cənub ölkələrini birləşdirən ən qısa nəqliyyat və enerji dəhlizidir. Strateji əhəmiyyətli energetika və nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılması nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin arxitekturasında mühüm yer tutur. Dinamik inkişafda olan Azərbaycan bu gün transsərhəd layihələrin əsas icraçısıdır, şirkətlərimiz dünyanın müxtəlif bölgələrində, xüsusilə region dövlətlərində uğurla fəaliyyət göstərir. Hazırda Azərbaycanın investisiyasına tələbat artmaqdadır. Xarici ölkələrin iqtisadiyyatına sərmayə qoyuluşu region ölkələrində daha qabarıq şəkildə özünü büruzə verir. Lakin qlobal geosiyasi və geoiqtisadi proseslərdə Azərbaycana diqqəti artıran amillərdən biri onun dünyanın aparıcı dövlətlərinin siyasi və iqtisadi mənafeləri üçün strateji ərazidə yerləşməsi, NATO və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), əslində, Qərb və Rusiya arasında qarşıdurmanın mərkəzlərindən biri olmasıdır. Rəsmi Bakı fövqəlgüclərin hərbi-siyasi, iqtisadi ziddiyyətlərində Azərbaycanın tərəfsiz olduğunu və ərazisindən qonşu dövlətlərə qarşı istifadəyə yol verilməyəcəyini qətiyyətlə bildirsə də, bu mübarizənin müxtəlif təzahürləri, təzyiq və təhdid

cəhdləri ilə hələ də üzləşməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, ölkəmiz xarici siyasət meydanında müstəqil siyasət yürüdür və heç bir dövlət öz iradəsini ona diktə edə bilməz. Azərbaycan daim öz milli maraqlarını, müstəqil və balanslaşdırılmış xarici siyasət prinsiplərini əsas tutaraq ölkəmizi region dövlətlərinin inkişafı, ortaq mənafelərin ödənilməsi üçün sülh və əməkdaşlıq məkanına çevirməyə nail olmuş, beynəlxalq münasibətlərdə hüquq bərabərliyinə söykənən əməkdaşlıq modellərinə üstünlük vermişdir. Azərbaycanın yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilk növbədə region və Qərb ölkələri ilə sağlam münasibətlərin inkişafını, bütün dövlətlər və koalisiyalarla qarşılıqlı faydalı əməkdaşlıq qurulmasını nəzərdə tutur. Çoxvektorlu xarici siyasət kursunu reallaşdıran Azərbaycan Respublikası bununla özünü çoxsaylı təhdidlərdən xeyli dərəcədə qorumağa, ölkədə sabitliyi saxlamağa və dünyanın bir sıra dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa nail olmuşdur. Vaxtilə Ümummilli lider Heydər Əliyev bütün dövlətlər və beynəlxalq qurumlarla bərabərtərəfli əlaqələr qurulmasının əhəmiyyəti barədə demişdir: *"Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Mərkəzi Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır"*[14].

Xatırladaq ki, müasir beynəlxalq hüquq nəzəriyyəsində "ikitərəfli diplomatiya" və "çoxtərəfli diplomatiya" anlayışları mövcuddur. Əgər ikitərəfli diplomatiya iki dövlət arasında münasibətləri tənzimləyirsə, çoxtərəfli diplomatiya beynəlxalq təşkilatlar çərçivəsində bir neçə dövlət və dövlətlər qrupu tərəfindən həyata keçirilir. Azərbaycan Respublikası müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara (Birləşmiş Millətlər Təşkilatı *(BMT – United Nations Organization, UNO),* Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı *(ATƏT – Organization for Security and Cooperation in Europe, OSCE),* Qoşulmama Hərəkatı *(QH – Non-Alignment*

14 Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli.// "Xalq qəzeti", 9 may 2010-cu il, s. 5-6. - http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm

Movement, NAM), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası *(TDƏŞ),* Avropa Şurası *(AŞ – Conseil de l'Europe, KE),* İslam Konfransı Təşkilatı *(İKT – Organisation of Islamic Cooperation, OIC; indi İslam Əməkdaşlıq Təşkilatı – İƏT),* YUNESKO *(UNESCO),* YUNİSEF *(UNICEF),* Müstəqil Dövlətlər Birliyi *(MDB)* və s.) üzv olmaqla çoxtərəfli diplomatik əlaqələrini genişləndirməkdə, eyni zamanda NATO *(North Atlantic Treaty Organization – Şimali Atlantika Müqaviləsi Təşkilatı (ŞAMT)),* Avropa İttifaqı *(Aİ – European Union, EU*), Beynəlxalq Antiterror Koalisiyası kimi qurumlarla da əməkdaşlığı inkişaf etdirməkdədir. Bütün bunlar Azərbaycan rəhbərliyinin xarici siyasət xəttinə yaradıcı münasibətindən, milli maraqlara və dəyişən geosiyasi vəziyyətə cavab verən əməkdaşlıq üsulları axtarışından və tətbiqindən xəbər verir. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev "İkili standartların dünya nizamı və müasir Azərbaycan" adlı məqaləsində bu barədə yazır: *"Bizim üçün dövlət suverenliyinin dəstəklənməsi məsələsi ölkədə sabitliyin saxlanması üçün əsasdır. Lakin özünütəcrid siyasəti bizə yaddır… Biz ikitərəfli əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu, bizim üçün prioritetdir. Sivilizasiyalı dövlət olan Azərbaycan bütün dövlətlərlə, Avropa Şurası ilə, digər beynəlxalq təşkilatlarla ikitərəfli münasibətləri inkişaf etdirmək arzusundadır. Biz ən yaxşı dünya təşkilatı praktikasını əks etdirən, öz üzvlərini dəstəkləyən Avropa İttifaqına daha yaxın olmağa çalışırıq. Biz istəyirik ki, bu siyasi qurumla münasibətlərimiz praqmatik yanaşmaya əsaslansın, qarşılıqlı maraqları əks etdirsin. Biz dünya xalqlarının maraqlarımıza cavab verən, mentalitetimizə uyğun olan və inkişafımızın sürətlənməsini təmin edən təcrübəsini əxz etməyə çalışırıq və bu niyyətlər konkret əməli addımlarla dəstəklənir"*[15]. Məhz bu səylər, xüsusilə Bloklara Qoşulmama Hərəkatının məqsəd və vəzifələrinin Azərbaycanın xarici siyasətinin prinsiplərinə tam cavab verməsi 2011-ci ildə dövlətimizin bu təşkilata üzv olması ilə nəticələnmişdir. 1961-ci ildə yaradılan və hazırda 120-dən çox dövləti öz ətrafında birləşdirən Qoşulmama Hərəkatı beynəlxalq siyasi platforma olaraq fəaliyyətini üzv dövlətlərin qlobal güclərin mənafelərindən asılılığının aradan qaldırılmasına, beynəlxalq əlaqələrin milli maraqlar

15 Mehdiyev R. İkili standartların dünya nizamı və müasir Azərbaycan. - http://azertag.az/store/qfs/MEHDIYEV-AN%20SON.pdf

əsasında qurulmasına, böyük güclərin dominantlıq iddialarına qarşı koalisiyanın təşkilinə, ziddiyyətdə olan tərəflər arasında qarşıdurmanın dərinləşməməsinə, konfrantasiyaya əlavə iştirakçıların cəlb edilməsinə və s. yönəltmişdir. Hərəkata üzv dövlətlər isə öz növbələrində müstəqil xarici və daxili siyasət yürüdülməsinə, güc mərkəzləri arasında qarşıdurmalarda tərəflərin istənilən hərbi-siyasi alyanslarına qoşulmamağa dair öhdəliklər götürüblər.

Qeyd etmək lazımdır ki, bu üzvlük Azərbaycanın tərəfdaşlıq əhatəsini genişləndirməsinə, bir sıra problemlərin, xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində əlavə dəstək alınmasına imkan verən növbəti beynəlxalq platformadır. Bu hərəkata qoşulmaqla Azərbaycan bir daha özünün sülhpərvər missiyasını, mehriban qonşuluq siyasətinə sədaqətini təsdiqləmişdir. Həmçinin dövlətimiz hər hansı bir hərbi-siyasi blokda təmsil olunmayacağını, öz ərazisində istənilən alyansa aid hərbi bazaların yerləşdirilməsinə yol verməyəcəyini, Qərb və Rusiya arasında yaranmış soyuq münasibətlər fonunda tarazlaşdırılmış xarici siyasət xəttini yürüdəcəyini, həmçinin həm Rusiya Federasiyası ilə əlaqələrin genişləndirilməsində, həm də Avratlantik qurumlarla əməkdaşlıqda maraqlı olduğunu bildirmişdir. Onu da vurğulamaq lazımdır ki, 2012-2013-cü illərdə Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində onun Qoşulmama Hərəkatına üzv olması, təşkilatın prinsiplərini qəbul etməsi əhəmiyyətli rol oynamışdır. Digər tərəfdən, hərəkata üzv olan dövlətlərin bir çoxu qlobal enerji təhlükəsizliyinin təminatında mühüm əhəmiyyətə və siyasi-iqtisadi təsir imkanlarına, geniş əməkdaşlıq potensialına malikdir. Belə ki, Yer üzündə gündəlik neft ixracının təqribən 57 faizi məhz bu dövlətlərin payına düşür. Təsadüfi deyildir ki, dövlətimiz işğal altında olan ərazilərimizin azad olunmasına dair tələblərində sözügedən qurumun aparıcı üzvlərinin də fəal dəstəyini qazanmışdır.

Son dövrlərdə Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və onun müxtəlif strukturları ilə əlaqələri də intensiv inkişaf etmişdir. Beynəlxalq qurumlarla əlaqələrin möhkəmləndirilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun (*ISESCO*) xoşməramlı səfiri

Mehriban xanım Əliyevanın fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. İndiyədək Bakıda mədəniyyətlərarası dialoqla bağlı bir sıra beynəlxalq tədbirlər, o cümlədən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmiş, 2009-cu ildə Bakı şəhəri "İslam mədəniyyətinin paytaxtı" elan edilmişdir.

Azərbaycanın xarici siyasət xəttində paralel olaraq üçtərəfli əməkdaşlıq formatlarından – diplomatiya təcrübəsində yeni metoddan da geniş istifadə olunmaqdadır. Məsələn, bu gün Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–İran–Türkiyə və Azərbaycan–Türkmənistan–Türkiyə, son olaraq Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşdırılmasını qarşıya məqsəd qoyan Azərbaycan–Rusiya–İran formatında iqtisadiyyat, mədəniyyət, nəqliyyat və energetika sahələrində qarşılıqlı əlaqələr qurulmuşdur. Bu proses avtomatik olaraq böyük bir ərazidə dövlətlər qrupunun müxtəlif konfiqurasiyalarının meydana gəlməsi ilə nəticələnir. Bir neçə üçtərəfli format faktiki olaraq regional miqyasda "geosiyasi şəbəkə" yaratmağa imkan verir. Mütəxəssislərin fikrincə, həmin əlaqələrin qurulmasında, regional miqyasda qüvvələr balansının saxlanılmasında iki meyar əsas götürülür. Birincisi, Azərbaycan bütün tərəflərin maraqlarını nəzərə alan yeni format təklif edir. İkinci meyar isə bir neçə üçtərəfli formatın faktiki olaraq regional miqyasda "geosiyasi şəbəkə" yaratmaq potensialıdır. Məsələn, Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Türkmənistan geniş geosiyasi məkanda dinamik əlaqələr strukturu vasitəsilə bir-birinə faktiki bağlanmış olur, regiondakı destruktiv dövlət isə heç bir təzyiq olmadan bu əməkdaşlıqdan kənarda qalır. Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda qarşılıqlı faydalı və bərabərhüquqlu əlaqələrin ikitərəfli formatdan üçtərəfli əməkdaşlıq modelinə keçidi, əslində, diplomatiya təcrübəsində yenilikdir[16].

Hər bir dövlətin beynəlxalq nüfuzunu yalnız onun iqtisadi-siyasi potensialı deyil, həm də mədəniyyəti müəyyən edir. Xalqlar və dövlətlər arasında münasibətlərin yaradılmasında və inkişafında mədəniyyət amili öz əhəmiyyətini daim saxlamaqdadır. Azərbaycan

16 Rəsmi Bakının yeni təşəbbüsləri: üçtərəfli formatın üstünlükləri. /13.06.2014/ - http://newtimes.az/az/geopolitics/2831

Respublikasının da xarici siyasət kursunun icrasında iqtisadiyyat, siyasət, müdafiə kimi strateji aspektlərlə yanaşı, mədəniyyət amilinin də əhəmiyyəti böyükdür. Təcrübə göstərir ki, xarici siyasətdə "yumşaq güc" adlandırılan metodun səmərəli təsiretmə mexanizmlərindən biri məhz mədəni diplomatiya – mədəni-mənəvi dəyərlər, ideyalar vasitəsilə dövlətlər və xalqlar arasında qarşılıqlı əlaqələrin formalaşmasına nail olmaqdır. Bu gün ölkəmizin xarici siyasət strategiyasının, dövlətlərarası siyasətin mühüm tərkib hissəsi olan mədəni diplomatiya Azərbaycanın ictimai-siyasi və mədəni həyatı, etnik mənzərəsi, polikonfessional şəraiti, üzləşdiyi problemlər və s. haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, xalqımızın tarixi, maddi mədəni və qeyri-maddi mədəni irsinin təbliğində böyük əhəmiyyətə malikdir. Azərbaycanın xarici siyasəti paralel olaraq mədəni diplomatiyanın potensialından səmərəli istifadə etməklə onu dövlətin milli maraqlarının təminatına yönəldir. Təsadüfi deyildir ki, son vaxtlar Azərbaycan Respublikası özünün unikal etnik və dini müxtəlifliyi, burada yaşayan xalqların birgəyaşayış ənənələri, tolerantlığı və multikulturalizm siyasətinin yeni modeli ilə sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanına çevrilmişdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, multikulturalizm siyasətinin Azərbaycan modeli Qərbin müxtəlif din daşıyıcılarının dinc yanaşı yaşaya bilməmə barədə iddialarının əsassız olduğunu göstərmişdir.

Multikulturalizmin Azərbaycan modelinin fəlsəfəsi Ümummilli lider Heydər Əliyevin Azərbaycançılıq ideyası üzərində formalaşmışdır. Bu modelin Qərb dövlətlərindəki böhranlı analoqlarından fərqi və effektivliyi onun etnik və dini azlıqların dominant xalq və mədəniyyət içərisində assimilyasiyasına və ya separasiyasına deyil, inteqrasiyaya – tarixi ənənələrə, qarşılıqlı faydalı əlaqələrin, birgəyaşayış normalarının möhkəmləndirilməsinə yönəldilməsidir. Azərbaycanda multikulturalizm faktiki olaraq siyasətdən daha çox həyat tərzi, cəmiyyətdaxili münasibətdir. Bu potensial ölkədə vətəndaş birliyini möhkəmləndirir, daxili mədəni dinamikanı sürətləndirir, cəmiyyəti xarici təhdidlərə qarşı müqavimətdə səfərbər edir. O, eyni zamanda xaricdən istiqamətləndirilən etnik və dini zəmində təhdidlərə cavab,

onların önlənməsinə yönəldilmiş tədbirlər sistemidir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında həmin siyasətin imkanları haqqında fikirlərini bölüşərək demişdir: *"Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə, haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik"*[17].

Son vaxtlar ölkəmizdə bu sahədə davamlı işin aparılması, multikulturalizm prosesinin həm daxili, həm də xarici siyasətdə əhəmiyyətinin artırılması məqsədilə Prezident İlham Əliyevin fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Fərmanda qeyd olunur ki, Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Azərbaycan Respublikası böyük tarixi təcrübəsinə xüsusi qayğı ilə yanaşır, onu zənginləşdirir və bu unikal təcrübəni beynəlxalq aləmdə təbliğ edir. Azərbaycanın multikulturalizm sahəsində topladığı təcrübə hazırda dünyanın 11 ölkəsinin nüfuzlu ali məktəblərində, Azərbaycanın isə 20 ali məktəbində tədris edilir. Azərbaycan rəhbərliyi ölkədə multikulturalizm mühitinin qorunması məqsədilə bir sıra nüfuzlu beynəlxalq qurumlarla – BMT, ATƏT, İƏT və Aİ ilə əməkdaşlığı genişləndirməkdədir.

Təbii ki, bütün bunlar Azərbaycan Respublikasının milli maraqlarının beynəlxalq miqyasda qorunmasına əlverişli şərait yaradır, əməkdaşlıq imkanlarını genişləndirir, onun nüfuzunun daha da artmasına, yeni dialoq platformalarının yaradılmasına xidmət edir. Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı ilin mart ayında "Çoxqütblü dünyaya doğru" mövzusunda keçirilmiş IV Qlobal Bakı Forumunun açılışında dövlətimizin qarşılıqlı faydalı əməkdaşlıq üçün həmişə hazır olduğunu bir daha diqqətə çatdırmış, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsində səylərin birləşdirilməsinin zəruriliyini vurğulayaraq

17 Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqi. /10.01.2016/ - http://www.president.az/articles/17442

demişdir: *"Düşünürəm ki, hamımız vahid məqsəd – əməkdaşlıq, qarşılıqlı anlaşma, sabitlik və sülhün təşviqi ətrafında birləşmişik. Çünki biz bir-birimizlə bağlıyıq. Bəzən adama elə gələ bilər ki, televiziya vasitəsilə izlədiyimiz qorxulu hadisələr yad bir planetdə baş verir. Lakin reallıqda bu, qonşuluqda baş verir və qaçqın böhranı nümayiş etdirdi ki, biz bir-birimizlə əlaqəliyik. Hər bir əməl, addım və ya digər dövlətlərin daxili işlərinə müdaxilə mütləq həmin müdaxiləni edənlər üçün çətinliklər yaradacaqdır. Hesab edirəm ki, bugünkü reallıqların ibrət dərsi məhz budur. Biz bir-birimizə ehtiram nümayiş etdirməli, seçimə, ərazi bütövlüyünə və gələcəklə bağlı planlara hörmətlə yanaşmalıyıq. Bunların hamısı təmasda olmaq üçün zəruridir. Çünki əsas məqsədimiz gərginliyin və mövcud təhlükələrin azaldılmasıdır"*[18].

Azərbaycan milli mədəniyyətlərin, ideyaların qovuşduğu diyar, tolerantlıq məkanı olmuşdur. Burada müxtəlif millətlər və xalqlar, dini və etnik mənsubiyyətindən asılı olmayaraq, dostluq şəraitində yaşamış və bu gün də həmin ənənələr qorunub-saxlanılmaqdadır. Mövcud etnomədəni müxtəliflik, tolerantlıq mühiti ölkəmizi mədəniyyətlərarası dialoqun unikal məkanına çevirmişdir. Məsələn, 2008-ci ildə Azərbaycan paytaxtında təşkil olunan Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısında İslam Əməkdaşlıq Təşkilatının nümayəndələri, eləcə də 10 müsəlman dövlətinin nazirləri də dəvət olunmuşdular. İlk dəfə idi ki, həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər humanitar xarakterli beynəlxalq tədbirdə birgə iştirak edirdilər. Həmin tədbirin Azərbaycanda baş tutması isə, təbii ki, ölkəmiz üçün böyük siyasi əhəmiyyət daşıyırdı.

Tədbirdə Azərbaycan Respublikasının təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmiş, sivilizasiyalar arasında dialoqun əldə olunması və inkişafına yönəldilən "Bakı prosesi"nin təməli qoyulmuşdur. 2015-ci il yanvarın 30-da isə Nyu Yorkda – BMT-nin mənzil-qərargahında "Bakı prosesi" və III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimat mərasimi keçirilmişdir. Mərasimdə "Bakı prosesi"nin və forumun mühüm

18 IV Qlobal Bakı Forumunun açılışında İlham Əliyevin nitqi. /10.03.2016/ - http://www.president.az/articles/18227

missiyasının dünyada sülh və əməkdaşlığın qorunması, mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı faydalı dialoqun yaradılması prinsiplərinə xidmət edəcəyi xüsusi vurğulanmış, Azərbaycanın qlobal təşəbbüsü və dialoqyaratma təcrübəsi yüksək qiymətləndirilmişdir.

Beləliklə, bu gün uğurlu daxili və xarici siyasəti ilə dünya birliyində ciddi mövqe tutan, söz sahibi olan Azərbaycan Respublikası öz tarixinin şərəfli dövrünü yaşamaqdadır. Bu dövr ərzində ölkəmiz dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutmuş, iqtisadi, siyasi, mədəni və digər sahələrdə yüksək göstəricilər əldə etmişdir. Müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsinin varisi olan və onun siyasi xəttini inamla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü və milli maraqlarımıza cavab verən siyasət nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ciddi uğurlara imza atmış, sürətli iqtisadi inkişafla dünyada mövqelərini qoruyub saxlamağa nail olmuşdur. Odur ki, oxuculara təqdim olunan bu kitabın əsas leytmotivini, ideya xəttini də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu tarixi sözləri təşkil edir: *"Bu gün Azərbaycan inkişafdadır. Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir. Azərbaycan dövləti çox möhkəm dayaqlar üzərində qurulubdur"*[19].

Fərhad MƏMMƏDOV,
Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru, fəlsəfə üzrə fəlsəfə doktoru

19 Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 11 illiyinə həsr olunan təntənəli mərasimdə İlham Əliyevin nitqi. /10.05.2015/ - http://www.president.az/articles/15250

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətin əsas prioriteti kimi

*Gülşən Paşayeva**
Kamal Makili-Əliyev ***

Giriş

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi uzun sürən ərazi münaqişələrindən biridir. XX əsrin əvvəllərindən başlayaraq radikal erməni millətçilərinin Qarabağ bölgəsini Azərbaycandan ayırmaq istiqamətində apardıqları məqsədyönlü siyasət nəticəsində yaranmış bu qarşıdurma keçən əsrin 80-ci illərində sovet rəhbərliyinin səhlənkarlığı və qətiyyətsizliyi üzündən yenidən gündəmə gətirilərək, sonralar müstəqil Azərbaycan və Ermənistan arasında dövlətlərarası münaqişəyə çevrilmişdir.

Münaqişə nəticəsində Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisinin beşdəbir hissəsi (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) və onunla qonşu olan yeddi inzibati rayon – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən zəbt edilmişdir. Hərbi əməliyyatlarda iyirmi min azərbaycanlı həlak olmuş, bir milyona yaxın insan isə qaçqın və məcburi köçkünə çevrilmişdir[1].

Ötən illər ərzində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT-nin Təhlükəsizlik Şurası (BMT TŞ) və Baş Məclisi (BMT BM), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa İttifaqının Parlament Assambleyası (AŞPA), Avropa İttifaqı (Aİ), Avropa Parlamenti (AP), Qoşulmama Hərəkatı (QH) və s. tərəfindən çoxsaylı qərar və sənədlər qəbul edilmiş və onlarda Dağlıq Qarabağ bölgəsi də daxil olmaqla, Azərbaycan Respublikasının

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktor müavini, filologiya üzrə fəlsəfə doktoru*

** *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin baş elmi işçisi, siyasi elmlər üzrə elmlər doktoru*

1 Ermənistan Respublikasının hərbi təcavüzünün nəticələri. //Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi: http://www.mod.gov.az/index2.php?content=qarabag/statistika

suverenliyi və ərazi bütövlüyü dəstəklənmişdir. Lakin əfsuslar olsun ki, qəbul edilmiş bu beynəlxalq sənədlərə və münaqişə tərəfləri arasında 1994-cü ilin 12 may tarixindən etibarən qüvvədə olan atəşkəs haqqında razılıqdan sonra keçmiş iyirmi ildən artıq bir dövr ərzində ATƏT-in Minsk Qrupu (ATƏT MQ) tərəfindən aparılmış vasitəçilik səylərinə baxmayaraq, münaqişənin həlli istiqamətində hələlik bir nəticə əldə edilməmişdir.

Tarixi baxımdan bu münaqişənin kökləri Rusiya imperiyasının müstəmləkəçilik siyasəti ilə birbaşa bağlıdır. XIX əsrin əvvəllərində İran və Çar Rusiyası arasında aparılmış müharibələr nəticəsində imzalanmış Gülüstan və Türkmənçay müqavilələrinə əsasən Azərbaycanın şimal hissəsi Rusiya imperiyasının tərkibinə ilhaq edildi. Şimali Azərbaycanın əksəriyyətini müsəlmanların (azərbaycanlıların) təşkil etdiyi əhalisinə o qədər də inam bəsləməyən Çar Rusiyası Osmanlı Türkiyəsi və İranla yaranmış yeni sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə tədricən bu bölgəyə təbii müttəfiq kimi bir sıra xristian xalqların nümayəndələrini (rus, alman, erməni, polyak və s.) köçürməyə başladı və bu prosesdə üstünlük məhz ermənilərə verildi. "Dövlətləri olmadığından Şərqdə daim başqa hakimiyyətlər altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan itaətkar ermənilər həmin işə başqalarından daha çox münasib olduqlarından çarizmin müstəmləkə siyasətində ən əlverişli vasitəyə çevrildilər"[2].

Beləliklə, XIX əsrin əvvəllərindən başlayaraq əslən İrandan və Türkiyədən olan çoxlu sayda ermənin ardıcıl olaraq Azərbaycanda yerləşdirilməsi bölgədə demoqrafik və siyasi vəziyyətin əhəmiyyətli dərəcədə dəyişməsinə səbəb oldu və gələcək erməni-azərbaycanlı qarşıdurması üçün əlverişli şərait yaratdı. Radikal erməni millətçilərinin Azərbaycana qarşı qaldırdıqları əsassız ərazi iddiaları XX əsrdə bir neçə dəfə tarixə ilk olaraq *erməni-müsəlman*[3] qırğınları (1905-1906 və 1918-ci illərdə) kimi düşmüş faciələrin baş verməsinə gətirib çıxartdı. Maraqlıdır ki, bu hadisələr məhz rus dövlətində inqilab və vətəndaş müharibələri

2 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı: Mütərcim 2015, s. 59
3 Erməni-azərbaycanlı – müəlliflər

(1905-ci və 1918-ci illər) ilə müşayiət olunan və eləcə də 1988-ci il yenidənqurma şəraiti ilə şərtlənən dövrlərə təsadüf etmişdir[4]. Qeyd edilməlidir ki, əgər bir tərəfdən məhz radikal erməni millətçilərinin təhriki ilə 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) tərkibində sovet rəhbərliyi tərəfindən DQMV yaradılmışdısa, digər tərəfdən XX əsrin 80-ci illərinin sonunda bu muxtariyyətlə birbaşa bağlı gündəmə gətirilmiş əsassız iddialar son nəticədə SSRİ-nin süqut etməsini labüd etmişdir.

Bu gün Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yenidən müstəqilliyə qovuşmasından 25 il keçməsinə baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Cənubi Qafqaz bölgəsinin təhlükəsizlik, sülh və tərəqqi baxımından gələcək inkişafına ən böyük təhdiddir. 2016-cı ilin 2-5 aprel tarixlərində qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələri tərəfindən başlanılmış hərbi əməliyyatlar bu fikri bir daha təsdiq etməyə əsas verir. Lakin 4 gün ərzində aparılmış döyüşlər zamanı məhz Azərbaycan Ordusunun yüksək peşəkarlığı nəticəsində azad edilmiş bir sıra strateji yüksəkliklər erməni tərəfinin geri çəkilməsinə və onların "məğlubedilməzlik sindromu"nun dağılmasına səbəb olmuşdur. Azərbaycan Ordusunun əldə etdiyi bu qələbə yaxın gələcəkdə Azərbaycan dövlətinin xarici siyasətinin əsas prioriteti olan bu münaqişənin tam və ədalətli şəkildə həll edilməsinə ümidləri xeyli artırmışdır.

Məqalədə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qısa tarixi şərhi verilməklə yanaşı, beynəlxalq hüququn əsas prinsipləri baxımından Azərbaycanın mövqeyi nəzərdən keçirilmiş və münaqişənin həlli istiqamətində aparılan danışıqlar prosesi araşdırılmışdır.

Qısa tarixi şərh

Cənubi Qafqaz strateji baxımdan önəmli və mürəkkəb bir bölgədir. Mühüm geosiyasi və geoiqtisadi parametrlərə malik olan bu məkana əsrlər boyu müxtəlif xalqların və etnik qrupların köç etməsi nəticəsində burada

4 Swietochowski T. Russia and Azerbaijan: a Borderland in Transition. New York: Columbia University Press, 1995, p.8

fərqli mədəniyyətlər, dinlər, adət-ənənələr və dillər mövcud olmuşdur.

Bu bölgənin daha bir səciyyəvi cəhəti onun son 200 il ərzində üç regional gücün (Türkiyə, İran və Rusiya) maraqlarının kəsişmə nöqtəsində yerləşməsidir. Məhz bu güclər arasında tarixən aparılmış çoxsaylı müharibələr Cənubi Qafqazda yaşayan xalqların qırğınlara məruz qalmasına, kəndlərin və şəhərlərin talan edilməsinə səbəb olmuşdur. Son iki əsr ərzində müstəmləkəçilər tərəfindən aparılmış köçürmə siyasəti isə bölgədəki etnodemoqrafik vəziyyətin süni şəkildə və qismən dəyişməsinə gətirib çıxartmışdır.

Qədim zamanlardan Qarabağ ərazisi müxtəlif Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra 1747-ci ildə Pənah xan Sarıcalı Cavanşir tərəfindən əsası qoyulmuş Qarabağ xanlığı Şuşa qalası tikildikdən sonra müdafiə baxımından xeyli möhkəmlənmiş, öz gücü və nüfuz dairəsinə görə Azərbaycan xanlıqları arasında özünəməxsus bir yer tutmuşdur[5]. Lakin Ağa Məhəmməd xan Qacarın İranda hakimiyyətə gəlməsi və onun Azərbaycan xanlıqlarını İrana tabe etmək istiqamətində həyata keçirdiyi hərbi-siyasi fəaliyyəti və işğalçı yürüşləri bir sıra Azərbaycan xanlarını, o cümlədən Qarabağ xanı İbrahimxəlil xanı da təhlükəsizlik baxımından hər hansı böyük dövlətə arxalanmaq haqqında düşünməyə vadar etdi. 1794-cü ildə o, Türkiyəyə elçi göndərərək Ağa Məhəmməd xanın qəsdlərinə qarşı kömək istəsə də, Türkiyə bu təklifə etinasızlıq göstərdi və son nəticədə İbrahimxəlil xan Çar Rusiyasına müraciət etmək məcburiyyətində qaldı[6]. Məlumdur ki, İbrahimxəlil xan hələ 1783-cü ilin martında və 1784-cü ilin yanvarında Rusiyanın himayəsinə keçmək haqqında rus çariçası II Yekaterinaya məktublar göndərməsinə baxmayaraq, onlar cavabsız qalmışdı[7]. 1796-cı ilin yazında xanın oğlu Lütfəli bəyin general V.A.Zubova İbrahimxəlil xan tərəfindən çariçaya ünvanlanan daha bir məktub təqdim etməsinə baxmayaraq (həmin dövrdə II Yekaterinanın göstərişi ilə rus qoşunları Qubanı, Şamaxını və Bakını tutmuşdu və qoşunun ordugahı general V.A.Zubovun komandanlığı altında Şamaxıda yerləşirdi), bu məktub da

5 Köçərli T. Qarabağ. Bakı: Elm, 2002, s. 144-145, 151
6 Yenə orada, s.183-184
7 Yenə orada, s. 161, 165

bir nəticə vermədi[8]. 1796-cı ilin noyabrında II Yekaterinanın vəfatından sonra onun oğlu, Rusiya imperatoru I Pavelin sərəncamı ilə rus qoşunları Azərbaycanı tərk etdi. Bununla belə, Ağa Məhəmməd xan Qacarın 1797-ci ilin yayında Qarabağa hücum etməsinə və Şuşa qalasını tutmasına baxmayaraq, o, sui-qəsd nəticəsində öldürüldü və İbrahimxəlil xan öz hakimiyyətini əlində saxlaya bildi[9].

XIX əsrin birinci yarısından başlayaraq Cənubi Qafqazı öz himayəsi altına salmaq istiqamətində ardıcıl fəaliyyətə başlayan Çar Rusiyası 1801-ci ildə Şərqi Gürcüstanı özünə birləşdirdikdən sonra Çar-Balakən camaatlığını və Gəncə xanlığını da işğal etdi. İmperator I Aleksandrın 5 fevral 1804-cü il tarixli fərmanı ilə Gəncənin adı dəyişdirilərək Yelizavetpol qoyuldu və Gəncə xanlığı ləğv edilərək onun hüdudları çərçivəsində inzibati-ərazi vahidi olan "Yelizavetpol okruqu" yaradıldı[10].

Çar Rusiyası ilə müharibə etmək istəməyən İbrahimxəlil xan 1805-ci il mayın 14-də Qarabağ xanlığının Rusiyanın himayəsi altına keçməsi haqqında imperatorluğun nümayəndəsi general P.D.Sisianov ilə Kürəkçay əhdnaməsini imzaladı. Rusiya imperatoru I Aleksandr tərəfindən təsdiqlənmiş həmin sənədlə "Şuşalı və qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və əyaləti ilə Ümumrusiya imperiyasının təbəəliyinə daxil olması" faktı təsbit edildi. İmperator eləcə də xüsusi fərmanla İbrahimxəlil xanı "Qarabağın müstəqil xanı" elan etdi[11].

Lakin məhz bu əhdnamə bağlandıqdan sonra onun əsasında Qarabağ xanlığının müdafiəsini təşkil etmək məqsədilə mayor D.T.Lisaneviçin rəhbərliyi ilə Şuşada yerləşdirilmiş Rusiya qoşunu bir il keçdikdən sonra silahı xana qarşı çevirdi və İbrahimxəlil xanı, o cümlədən onun bir neçə əhli-əyalını və yaxın adamını vəhşicəsinə qətlə yetirdi. Bu faciəvi hadisənin baş verməsinə baxmayaraq, 10 sentyabr 1806-cı il tarixli fərmanı ilə Rusiya imperatoru I Aleksandr əhdnaməyə sadiq çıxaraq, bu iğtişaş nəticəsində qətlə yetirilmiş İbrahimxəlil xanın oğlu Mehdiqulu ağanı "mərhum atasının yerinə bərqərar etdi" və əhdnamədə "İbrahimxəlil xana verilmiş bütün vədlər və şərtlərin hamısının təmin

8 Yenə orada, s. 180
9 Yenə orada, s. 186-187, 189, 191
10 Yenə orada, s. 197, 202
11 Yenə orada, s. 204-205, 208

edilməsinin eyni ilə qüvvədə" saxlanılacağını bəyan etdi[12].

Yuxarıda təsvir edilmiş hadisələr 1804-cü ilin iyununda başlamış Çar Rusiyası və İran arasında davam edən müharibə kontekstində təhlil edilməlidir. İki regional güc arasında qalan, lakin öz müstəqilliklərini itirməmək üçün əllərindən gələni etməyə çalışan Azərbaycan xanlıqları son nəticədə bu mübarizədə məğlubiyyətə uğradılar. 1813-cü ilin 12 oktyabr tarixində Qarabağda Gülüstan müqaviləsinin imzalanması ilə yekunlaşan bu müharibə Çar Rusiyasının qələbəsi ilə başa çatdı. Gülüstan müqaviləsi ilə İran "təntənəli surətdə təsdiq etdi ki, artıq Rusiya imperiyası hakimiyyəti altında olan Qarabağ və Gəncə xanlıqları – indi Yelizavetpol adında əyalət, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqları Rusiya imperiyasına məxsusdur"[13].

Əfsuslar olsun ki, 1822-ci ildə Çar Rusiyası Qarabağ xanlığının bütövlüyünün saxlanılmasına verdiyi "imperator zəmanəti"nə naxələf çıxaraq xanlığı ləğv etdi və onun yerində Qarabağ əyaləti yaratdı. Bir qədər sonra isə o zamankı bütün Rusiya sənədlərində "müsəlman əyaləti" adlandırılan Qarabağ əyaləti də bir inzibati-ərazi vahidi kimi ləğv olundu və onun ərazisi Yelizavetpol quberniyasına daxil edildi[14]. Belə bir şəraitdə sonuncu Qarabağ xanı Mehdiqulu xan Şuşanı tərk edərək, bir neçə min qarabağlı ilə İrana köçmək məcburiyyəti qarşısında qaldı[15]. Digər tərəfdən, 1826-1828-ci illərdə Çar Rusiyası ilə İran arasında baş vermiş daha bir müharibə 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin imzalanması ilə başa çatdı. Bu müqavilə əsasında Naxçıvan və İrəvan xanlıqları da Rusiya imperiyasının tərkibinə qatıldı.

Beləliklə, XIX əsrin birinci yarısından başlayaraq Rusiya imperiyası tərəfindən aparılmış məqsədyönlü siyasət nəticəsində Cənubi Qafqaz bütövlükdə onun nəzarəti altına keçdi. Daha sonra *divide et impera (parçala və hökm sür)* prinsipindən məharətlə istifadə edən Çar Rusiyası yeni zəbt etdiyi ərazilərdə mütləq əksəriyyət təşkil edən müsəlman əhaliyə inam bəsləmədiyinə, eləcə də İran və Osmanlı Türkiyəsindən ehtiyatlandığına görə bu bölgəyə tədricən bir sıra xristian xalqlarının nümayəndələrini yerləşdirməyə başladı.

12 Yenə orada, s. 207, 210
13 Yenə orada, s.211
14 Yenə orada, s.17-18
15 Yenə orada, s.215

Xüsusilə qeyd etmək lazımdır ki, hələ I Pyotr tərəfindən işlənib hazırlanmış "ermənilərə arxalanmaq strategiyası"nı[16] rəhbər tutaraq çar hökuməti bu köçürmə siyasətində üstünlüyü məhz İrandan və Osmanlı Türkiyəsindən olan ermənilərə verirdi. Rus tədqiqatçısı N.İ.Şavrovun qeydlərinə əsasən, 1826-1828-ci illərdə Rusiya–İran müharibəsindən sonrakı iki il ərzində 40.000-dən artıq İran və 84.600 Türkiyə ermənisi erməni əhalinin yox dərəcəsində olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi. Bunun üçün 200 min desyatindən çox dövlət torpağı ayrıldı və müsəlmanlardan 2 milyon rubldan artıq məbləğ həcmində xüsusi torpaqlar da alındı. Eyni zamanda N.İ.Şavrov əlavə edir ki, rəsmi köçürülmüş 124.000 erməni ilə yanaşı, bura çoxlu sayda qeyri-rəsmi şəkildə köçürülmüş ermənilər də yerləşdirildilər ki, onların ümumi sayı 200.000 nəfərdən xeyli çox idi[17].

Lakin Svante Kornelin qeyd etdiyi kimi, Rusiya imperiyasında aparılmış siyahıyaalmanın nəticələri aşağı (düzən) Qarabağ da daxil olmaqla bütün Qarabağı əhatə etdiyinə görə Qarabağın yuxarı (dağlıq) hissəsində yaşayan əhalinin ümumi sayını dəqiqləşdirmək qeyri-mümkündür. Siyahıyaalma sənədlərinə əsasən, 1823-cü ildə Qarabağda yaşayan ermənilər ümumi əhalinin 9%-ni (əhalinin yerdə qalan 91%-i sənəddə "müsəlman" kimi göstərilmişdir), 1832-ci ildə 35%-ni, 1880-ci ildə isə 53%-ni təşkil etmişdir. Bununla belə, Svante Kornelin fikrincə, erməni əhalinin ümumi artımı onların Dağlıq Qarabağa miqrasiya etməsi və müsəlmanların bu regiondan kütləvi şəkildə köçməsi ilə izah edilə bilər[18]. Beləliklə, demək olar ki, XIX əsrin dörddəüç hissəsini, eləcə də XX əsrin əvvəllərini, o cümlədən Birinci Dünya müharibəsi illərini əhatə etməklə yüz ilə yaxın bir zaman çərçivəsində Çar Rusiyası tərəfindən aparılmış köçürmə siyasəti nəticəsində İrandan və Osmanlı Türkiyəsindən köçürülmüş ermənilərin əsasən Şimali Azərbaycanın Yelizavetpol və İrəvan quberniyalarında yerləşdirilməsi 1831-1916-cı illər arasında Qarabağ bölgəsində erməni əhalinin sayının altı dəfə

16 Shafiyev F. Armenian-Azərbaijani conflict: roots. Massacres of 1905-1906. // "Diplomatiya aləmi" jurnalı, Bakı, 2007, № 17, s.15

17 Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург, 1911, с.60

18 Cornell S. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. Surrey: Curzon Press, 2001, p.68

artaraq 19 mindən 119 minə çatmasına səbəb oldu[19]. Ümumilikdə götürdükdə isə rus tədqiqatçısı N.İ.Şavrovun qeydlərinə əsasən, XX əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənin 1 milyondan çoxu bu bölgənin yerli əhalisi olmamış, Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülmüşdür[20].

Digər tərəfdən, Rusiya imperiyası tərəfindən Azərbaycana köçürülmüş ermənilərə münasibətdə tətbiq edilən müxtəlif güzəşt və imtiyazlar onların yerli əhaliyə nisbətən daha sürətlə varlanmasına səbəb olurdu. Təsadüfi deyil ki, azərbaycanlı burjuaziyasına nisbətən daha əvvəl formalaşmış erməni burjuaziyası iqtisadi cəhətdən daha güclü idi. O, Azərbaycan iqtisadiyyatının bır sıra sahələrində əhəmiyyətli mövqelərə, siyasi məsələlərdə isə böyük təcrübəyə malik idi[21]. Həmçinin dövlət və hərbi orqanlarda işə çox az cəlb edilmiş müsəlmanlardan fərqli olaraq, çoxlu sayda erməni dövlət qurumlarında çalışırdı[22].

Beləliklə, ermənilər və azərbaycanlılar arasında siyasi, iqtisadi və s. sahələrdə getdikcə artan ziddiyyətlər 1905-1907-ci illər rus inqilabı dövründə ilk erməni-müsəlman qırğınlarının baş verməsinə səbəb oldu. 1905-1906-cı illərdə Bakıda, İrəvanda, Şuşada, Yelizavetpolda, Naxçıvanda, Cəbrayılda və digər yerlərdə baş vermiş bu qırğınlar nəticəsində minlərlə azərbaycanlı öldürüldü, yüzlərlə azərbaycanlı kəndi dağıdıldı və qarət edildi. Bu qırğınların səbəbləri arasında müxtəlif müəlliflər tərəfindən bir sıra əsas məqamlar – 1) çarizmin kütlələri milli zəmində toqquşmalar təşkil etməklə inqilabi mübarizədən yayındırmaq səyləri[23]; 2) Erməni İnqilabi Federasiyasının ("Daşnaksütyun") erməni muxtariyyəti yaratmaq məqsədilə müsəlmanları təzyiq vasitəsilə öz yurdlarından qovmaq istiqamətində göstərdiyi məqsədyönlü

19 Обозрение Российских владений за Кавказом, часть 1. СПб, 1836; Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886. Тифлис, 1893; Кавказский календарь на 1917 год. Тифлис, 1916, сс.190-197

20 Шавров Н.И. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инорадцам. Санкт-Петербург, 1911, с. 61

21 Сеидзаде Д.Б. Из истории азербайджанской буржуазии в начале XX века. Баку, 1978, с.38

22 Shafiyev F. Armenian-Azərbaijani conflict: roots. Massacres of 1905-1906.// - "Diplomatiya aləmi" jurnalı, Bakı, 2007, № 17, s.16

23 Сеидзаде Д.Б. Из истории азербайджанской буржуазии в начале XX века. Баку, 1978, с.47

fəaliyyəti[24]; 3) müsəlmanların hökumət məmurlarının və ermənilərin Qafqazda apardıqları siyasət haqqında məlumatlarının və silahlarının olmaması[25] qeyd edilir.

Lakin yuxarıda qeyd edilən səbəblər arasında 1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütyun" partiyasının həm siyasi, həm də terror daxil olmaqla hərbi sahədə fəaliyyəti xüsusi vurğulanmalıdır. Məhz bu partiyanın proqramında irəli sürülən "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində aparılan siyasət nəticəsində daşnaklar planlı şəkildə azərbaycanlıları öz tarixi torpaqlarından qovmuş, onlara qarşı dəhşətli cinayətlər törətmiş və çoxlu sayda terror aktları təşkil etmişlər. 1920-ci illərdə Gürcüstanın kənd təsərrüfatı nazirinin müavini vəzifəsində işləmiş Karibinin fikrincə, "erməni məsələsi"nin Türkiyə hüdudlarından Cənubi Qafqaz bölgəsinə sirayət etməsi və daşnakların gələcək erməni muxtariyyətini qurmaq üçün başdan-başa yalnız ermənilərdən ibarət ərazilər yaratmaq istiqamətində apardıqları siyasət nəticəsində bölgədə milli zəmində düşmənçilik və nifrət hisləri yaranmış, bu da, öz növbəsində, erməni-müsəlman qırğınlarının baş verməsinə səbəb olmuşdur[26].

Daşnaklar və digər erməni millətçi partiyaları 1917-ci ilin fevral inqilabı və oktyabr bolşevik çevrilişindən sonra Cənubi Qafqazda yaranmış çoxhakimiyyətlilikdən və 3 mart 1918-ci il tarixində Brest-Litovskda imzalanmış sülh müqaviləsi nəticəsində rus-türk cəbhəsinin dağılmasından[27] məharətlə istifadə edərək 1918-ci ilin martında Bakıda, eləcə də Azərbaycanın digər bölgələrində – Şamaxıda, Zəngəzurda, Qubada, Qarabağda və başqa yerlərdə minlərlə azərbaycanlının kütləvi surətdə ölümünə səbəb olan qırğınların təşkil edilməsinə nail oldular. Bu qırğınlar Qafqazdakı ordu hissələrinin rəsmi şəkildə buraxılmasına baxmayaraq, Qafqaz cəbhəsindəki rus hərbi hissələrinin tərkibində iştirak edən və silahlarını təhvil verməyən erməni zabit və əsgərləri

24 Məmməd Səid Ordubadi. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1991, s.10-11

25 Yenə orada, s.9

26 Кариби. Красная книга. Тифлис, 1920, с. 49-50 (История Азербайджана по документам и публикациям. Баку, 1990, с.159)

27 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.67

tərəfindən həyata keçirildi[28].

Bu qanlı hadisələrdən bir neçə ay sonra, yəni 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası tərəfindən müsəlman Sərqində ilk demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) əsası qoyuldu və F.X.Xoyskinin sədrliyi ilə Müvəqqəti hökumət yaradıldı. Azərbaycan Milli Şurasının mayın 29-da keçirdiyi 3-cü iclasında F.X.Xoyski Erməni Milli Şurası ilə sərhəd məsələləri ilə əlaqədar apardığı danışıqlar haqqında məlumat verərək, Aleksandropolun Türkiyənin tərkibində qalmasından sonra ermənilərin öz federasiyalarını yaratmaları üçün onlara siyasi mərkəz kimi İrəvanın verilməsinin tarixi zərurət və bizim üçün qaçılmaz acı həqiqət olduğunu bildirmişdir[29].

AXC-nin həmin dövr üçün qəbul etdiyi vacib qərarlarından biri də 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının təsis edilməsi idi. Komissiya ümumilikdə Birinci Dünya müharibəsi illərində Cənubi Qafqazda yerli müsəlmanlara qarşı törədilmiş vəhşilikləri və onların əmlaklarına qəsdlə bağlı məsələləri araşdırmalı və bu işdə günahkar olanları məhkəmə məsuliyyətinə cəlb etməli idi[30]. Komissiyanın 1919-cu ilin avqust ayına qədər topladığı 36 cild (3.500 səhifə) həcmində olan materialların 6 cildi (740 səhifə) Bakı şəhəri və onun ətraf kəndlərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıq aktlarını əhatə edirdi. İstintaq materialının digər cildlərində isə ermənilər tərəfindən Bakı quberniyasının Şamaxı, Quba, Göyçay, Cavad qəzalarında, Gəncədə, Nuxada, Qarabağda, Zəngəzurda və Azərbaycanın digər rayonlarında törədilmiş dəhşətli cinayətlər öz əksini tapmışdır[31].

AXC hökumətinin daha bir vacib qərarı 1919-cu il yanvar ayının 29-da Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının ərazisində Qarabağ general-qubernatorluğunun yaradılması idi. Xosrov bəy Sultanov Qarabağın ilk general-qubernatoru təyin edildi. Eyni zamanda, qeyd etmək lazımdır ki, AXC hökuməti vaxtının çoxunu Dağlıq Qarabağda ermənilərin törətdiyi iğtişaşların qarşısının alınmasına yönəltməli

28 Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s.210, 207-292

29 Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları., Bakı, 2006, s.130

30 Yenə orada, s.19

31 Vəlizadə T. 1918-ci il Mart soyqırımının Bakı hadisələri. //Bütöv Azərbaycan ocaqları, 26 aprel 2016-cı il. - http://bao.az/categories_Tarix/subcategories_Tarixparent/product_4898875717

olurdu, çünki Dağlıq Qarabağ da daxil olmaqla, Cənubi Qafqazın müxtəlif bölgələrində təşkil edilmiş Erməni Milli şuralarının fəaliyyəti Ermənistan (Ararat) Respublikası yaranan gündən daşnak partiyasının İrəvandan idarə edilən yerli təşkilatları tərəfindən istiqamətləndirilirdi. Yalnız 1919-cu il avqust ayının 15-də Qarabağ ermənilərinin VII qurultayı və AXC hökuməti arasında bağlanmış müqaviləyə əsasən Qarabağın Şuşa, Cavanşir, Cəbrayıl qəzalarının dağlıq hissəsinin erməni əhalisinin özünü müvəqqəti olaraq AXC-nin tərkibində hesab etməsi haqqında razılıq əldə edildi. Qarabağ general-qubernatoru yanında altı nəfərdən (üç azərbaycanlı və üç erməni) ibarət şura yaradıldı və millətlərarası bütün prinsipial məsələlərin həyata keçirilənə qədər bu şurada müzakirə edilməsi qərara alındı[32].

Lakin Qarabağ ermənilərinin AXC hakimiyyətini tanıması və AXC hökumətinin onlara mədəni-milli muxtariyyət hüququ verməsinə[33] baxmayaraq, sonrakı illərdə daşnakların təsiri altında Dağlıq Qarabağ ermənilər öz məkrli siyasətlərindən əl çəkməyərək, Dağlıq Qarabağı Ermənistana birləşdirmək istiqamətində fəaliyyətlərini davam etdirdilər. Məhz onların 1920-ci ilin yazında Dağlıq Qarabağda qiyam qaldırması nəticəsində Azərbaycan Ordusunun əsas qüvvələrinin Dağlıq Qarabağa göndərilməsi bolşevik Rusiyasının XI Qızıl Ordusunun Azərbaycanı asanlıqla işğal etməsinə əlverişli şərait yaratdı[34].

AXC hakimiyyətinin süqutundan sonra 1920-ci il aprelin 28-də Azərbaycanda, noyabrın 29-da isə Ermənistanda sovet hakimiyyəti quruldu. Lakin Dağlıq Qarabağ ətrafında yaranmış mübahisəli vəziyyət Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsini xeyli ləngitdi.

İlk olaraq qeyd edilməlidir ki, Ermənistanda sovet hakimiyyətinin qələbəsi münasibətilə 1920-ci il noyabr ayının 30-da Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Siyasi və Təşkilat Bürosu tərəfindən hazırlanmış və dekabrın 1-də Bakı Sovetinin təntənəli iclasında N.Nərimanov tərəfindən bəyan edilmiş deklarasiyaya əsasən,

32 Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s.318-320

33 "Azərbaycan" qəzeti, № 185, 2 sentyabr 1919-cu il (Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s.289)

34 Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s.291

Zəngəzur və Naxçıvan Ermənistanın tərkibinə keçməli, Qarabağın dağlıq hissəsinə isə öz müstəqilliyini təyinetmə hüququ verilməli idi[35]. Lakin S.Orconikidzenin Ermənistanın yeni rəhbərliyi ilə apardığı yazışmalarında, eləcə də V.Leninə, İ.Stalinə və G.Çiçerinə göndərdiyi məktub, teleqram və birbaşa xətlə danışıqlarında Qarabağın dağlıq hissəsi haqqında deklarasiyada qeyd edilən məqamlar təhrif edilmiş və Naxçıvan, Zəngəzur, eləcə də Dağlıq Qarabağın Azərbaycan tərəfindən Sovet Ermənistanına verildiyi diqqətə çatdırılmışdı. Məhz bu yanaşma nəticəsində 1920-ci il dekabrın əvvəllərində İ.Stalinin Ermənistana göndərdiyi təbrik məktubunda Azərbaycanın bu vilayətlərdən könüllü olaraq əl çəkdiyi və Zəngəzur, Naxçıvan və Dağlıq Qarabağın Sovet Ermənistanına verildiyi fikri yanlış olaraq elan edilmişdi[36].

Bununla yanaşı, əgər bir tərəfdən Zəngəzur heç bir müqavimət göstərilmədən Ermənistana birləşdirildisə, digər tərəfdən 1921-ci ilin əvvəllərində Naxçıvan əhalisinin 90 faizindən çoxunun Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs verməsi onun Azərbaycanın tərkibində saxlanılmasını labüd etdi. Həmçinin 1921-ci il martın 16-da RSFSR və Türkiyə arasında Moskvada imzalanmış müqaviləyə əsasən, Rusiya və Türkiyə Naxçıvanın Azərbaycanın protektoratı altında muxtariyyətə malik olmasını təsdiqlədi. Naxçıvanın bu statusu digər bir beynəlxalq müqavilədə – Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistanın 1921-ci ilin oktyabrında imzaladıqları Qars müqaviləsində də öz əksini tapdı[37].

Qarabağın dağlıq hissəsi ilə bağlı mübahisəli vəziyyət uzun müzakirələrin aparılması və ziddiyyətli qərarların qəbul edilməsi ilə iki il yarım davam etdi və nəhayət, 1923-cü il iyulun 7-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin (Az.MİK) qəbul etdiyi "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekretlə sona çatdı. Həmin sənədə əsasən Azərbaycan SSR-in tərkib hissəsi kimi və mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağda muxtar vilayət yaradıldı[38]. 1923-cü il sentyabrın 18-də keçirilən vilayət partiya komitəsinin iclasında

35 Yenə orada, s.322
36 Yenə orada, s.323
37 Köçərli T. Qarabağ. Bakı: Elm, 2002, s.371-372
38 Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s.335

Xankəndinin adı dəyişdirilərək Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırıldı[39]. 1924-cü il noyabrın 26-da Az.MİK-in qərarı ilə təsdiq edilərək mətbuatda dərc edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə"nin birinci maddəsinə uyğun olaraq, "Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkib hissəsi elan edilirdi"[40].

Beləliklə, Azərbaycan SSR-in tərkibində belə bir muxtariyyətin yaradılması radikal erməni millətçilərinin müəyyən dərəcədə öz məqsədlərinə çatması demək idi. Sonrakı illərdə Azərbaycan sovet hökumətinin DQMV üçün lazım olan bütün güzəştlərə getməsinə baxmayaraq, millətçilər gizli şəkildə təbliğat aparmaqla DQMV-ni Ermənistan Sovet Sosialist Respublikasına (Ermənistan SSR) birləşdirmək istiqamətində fəaliyyət göstərdilər. 1945-ci ilin noyabrında Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi H.Arutyunovun DQMV-nin Ermənistana birləşdirilməsi haqqında İ.Stalinə ünvanladığı müraciət[41], 1964-cü ildə SSRİ Ali Sovetinin sədri A.İ.Mikoyanın Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı N.S.Xruşşova etdiyi təklif[42] və nəhayət, 1988-ci ilin fevralında Dağlıq Qarabağ Vilayət Sovetinin Azərbaycanın tərkibindən çıxaraq Ermənistanın tərkibinə daxil olmaq haqqında qərarı[43] buna bariz misallardır. Əvvəlki iki haldan fərqli olaraq, 1988-ci ilin fevralında baş vermiş hadisələr zamanı M.Qorbaçov başda olmaqla, sovet rəhbərliyinin bu məsələdə prinsipial mövqedən çıxış etməməsi, səhlənkarlıq və qətiyyətsizlik göstərməsi bu problemin qarşısının vaxtında alınmasına imkan verməmişdir.

Digər tərəfdən, Ermənistan SSR-in "qohum dövlət"[44] prinsipindən çıxış edərək Azərbaycan SSR-in DQMV-də yaşayan erməni azlığa davamlı şəkildə dəstək verməsi bu münaqişənin SSRİ dövründə də gizli formada davam etməsinə səbəb olmuşdur. Ermənistan SSR Ali

39 Yenə orada, s.339
40 Yenə orada, s.341
41 Yenə orada, s.343
42 Köçərli T. Qarabağ. Bakı: Elm, 2002, s.399
43 Yenə orada, s.403
44 "Qohum dövlət" (kin-state) termini altında milli azlıqları qonşu dövlətlərin ("ev sahibi olan dövlət" (host-state)) tərkibində yaşayan dövlətlər nəzərdə tutulur

Sovetinin "DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi" haqqında 1989-cu il dekabrın 1-də qəbul etdiyi qərar Ermənistanın "beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etməsi"[45] demək idi. Bu kontekstdə 1991-ci il sentyabrın 2-də DQMV və Şaumyan rayonunun Xalq Deputatları sovetlərinin birgə iclasında Azərbaycanın DQMV və Şaumyan rayonunun inzibati əraziləri çərçivəsində qondarma "Dağlıq Qarabağ Respublikası"nın ("DQR") elan edilməsi Ermənistan SSR-in Azərbaycanda baş verən hadisələrdə iştirak etmədiyini göstərmək üçün atılmış bir addım kimi qiymətləndirilməlidir[46]. Lakin Ermənistanın və Azərbaycanda yaşayan erməni milli azlığının rəhbərliyinin birgə fəaliyyəti bu münaqişənin sonrakı mərhələlərində tam dolğunluğu ilə öz əksini tapmışdır.

Beləliklə, XX əsrin 80-ci illərinin sonunda yenidən alovlanmış bu münaqişə müəyyən mənada SSRİ-nin süqut etməsinə və müstəqilliklərini yeni bərpa etmiş Azərbaycan və Ermənistan respublikaları arasında uzunmüddətli dövlətlərarası ərazi münaqişəsinə gətirib çıxardı.

Münaqişənin həlli istiqamətində aparılan danışıqlar prosesi: beş mərhələ

1991-ci il dekabrın 8-də Rusiya, Ukrayna və Belarus rəhbərləri SSRİ-nin formal olaraq dağılmasını labüd edən Belovejsk sazişini imzaladıqdan və dekabrın 25-də M.S.Qorbaçov prezident vəzifəsindən istefa verdikdən sonra dekabrın 26-da SSRİ rəsmi olaraq süqut etdi. Beləliklə, SSRİ-nin sərhədləri çərçivəsindəki 12 respublika tərkiblərindəki muxtariyyətlərlə birlikdə (1991-ci il sentyabrın 6-da SSRİ xalq deputatlarının növbədənkənar qurultayı tərəfindən müstəqillikləri tanınmış üç Baltikyanı respublikadan başqa) de-yure müstəqillik əldə etdi[47]. Eyni zamanda 1991-ci il dekabrın 21-də Almatıda Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Moldova, Rusiya Federasiyası (RF),

45 Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. Bakı, Elmin İnkişafı Fondu, 2015, s.45

46 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.142

47 Seyidov V. Azərbaycan Silahlı Qüvvələrinin möhkəmləndirilməsi Yerevanın quzğun ləkəli "sülh göyərçinlərinə" cavabdır. /AzərTAc, 9 yanvar 2010-cu il/ - http://azertag.az/xeber/AZARBAYCANIN_SILAHLI_QUVVALARININ_MOHKAMLANDIRILMASI_YEREVANIN_QUZGUN_LALAKLI_SULH_GOYARCHINLARINA_CAVABDIR-7509

Tacikistan, Türkmənistan, Özbəkistan və Ukrayna prezidentlərinin birgə bəyannaməsi ilə Müstəqil Dövlətlər Birliyi (MDB) yaradıldı[48].

Lakin Azərbaycanın və Ermənistanın müstəqilliyi bərpa edildikdən sonra radikal erməni millətçiləri hələ SSRİ dövründən keçmiş DQMV-ni Ermənistan SSR-ə birləşdirmək uğrunda mübarizəyə son qoymadılar. Əksinə, onların bu səyləri yeni mərhələyə – açıq hərbi təcavüz mərhələsinə daxil oldu.

Azərbaycan hökumətinin XX əsrin 90-cı illərinin əvvəllərində bir sıra beynəlxalq təşkilatlara (İƏT, BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi (ATƏM)[49] və b.) müraciət edərək[50] münaqişəni sülh yolu ilə həll etməyə çalışmasına baxmayaraq, Ermənistan Respublikası rəhbərliyinin destruktiv siyasəti buna imkan vermədi və nəticədə 1992-1994-cü illərdə keçmiş DQMV və onunla qonşu olan yeddi inzibati rayon – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edildi.

1992-ci ildən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ATƏT MQ-nin vasitəçilik səylərinə baxmayaraq, münaqişə bugünədək həll edilməmişdir. Ötən illər ərzində aparılan danışıqlar prosesini şərti olaraq aşağıdakı beş mərhələyə: 1) Vasitəçilik səylərinin ilkin mərhələsi və atəşkəsin əldə edilməsi (1992-1994-cü illər); 2) ATƏT MQ-nin struktur baxımından möhkəmləndirilməsi və Lissabon sammiti (1994-1996-cı illər); 3) Sülh formulunun axtarışı (1997-2001-ci illər); 4) "Praqa prosesi"ndən "Madrid prinsipləri"nə doğru (2004-2011-ci illər); və 5) Nəticəsiz danışıqlar və hərbiləşmə prosesi (2012-2016-cı illər) bölmək olar[51].

Vasitəçilik səylərinin ilkin mərhələsi və atəşkəsin əldə edilməsi (1992-1994)

Bu mərhələ əsasən hərbi əməliyyatların başlaması və münaqişənin qaynar fazaya keçməsi dövrünü və bu kontekstdə atəşkəsin əldə edilməsi

48 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.149

49 1994-cü ildən ATƏT adlanır

50 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.150-152

51 Pashayeva G. Unsuccessful Mediation Efforts in the Nagorno–Karabakh Conflict: A Potential Silver Lining? Emirates Lecture Series, 120, The Emirates Center for Strategic Studies and Research, 2016, 75 p.

ilə bağlı aparılmış müxtəlif vasitəçilik səylərini əhatə edir. ATƏM, eləcə də RF, İran İslam Respublikası (İİR) və Qazaxıstan tərəfindən irəli sürülmüş müxtəlif vasitəçilik təşəbbüsləri, bir sıra beynəlxalq təşkilatların bu münaqişə ilə bağlı qəbul etdikləri beynəlxalq hüquqi sənədlər və tərəflər arasında 1994-cü il mayın 12-dən etibarən qüvvəyə minmiş atəşkəs haqqında razılığın əldə edilməsi bu mərhələnin başlıca xüsusiyyətlərindəndir.

Azərbaycan və Ermənistan respublikalarının 1992-ci ildə ATƏM-ə (30 yanvar) və BMT-yə (2 mart) üzv qəbul edilməsi ilə Dağlıq Qarabağdakı mövcud vəziyyət haqqında bu beynəlxalq təşkilatlara dəqiq və ətraflı məlumat verilməsi, eləcə də münaqişə bölgəsinə onların nümayəndələrinin səfərlərinin təşkil edilməsi üçün əlverişli imkan yarandı. Məsələn, 1992-ci il 12-18 fevral tarixlərində Azərbaycana və Ermənistana səfər etmiş ATƏM-in nümayəndə heyətinin münaqişə haqqında hazırladığı aralıq hesabat 27-28 fevral tarixlərində ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilmiş 7-ci iclasında müzakirə edildi[52]. Eyni zamanda BMT-nin Baş katibi Butros Butros Qalinin təşəbbüsü ilə 1992-ci ilin mart ayında ABŞ-ın keçmiş dövlət katibi Sayrus Vensin rəhbərliyi altında Azərbaycana və Ermənistana göndərilmiş BMT-nin ilk faktaraşdırıcı missiyası münaqişə bölgəsindəki vəziyyətə dair müvafiq hesabat hazırlayaraq BMT-nin Baş katibinə təqdim etdi[53].

Bundan başqa, ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də Helsinkidə keçirilmiş əlavə iclasında ATƏM-in himayəsi altında Dağlıq Qarabağ münaqişəsinə dair Minsk konfransının çağırılması qərara alındı. Bu konfrans ATƏM-in prinsip, öhdəlik və müddəalarına əsaslanaraq danışıqlar aparmaq vasitəsilə münaqişənin sülh yolu ilə həll edilməsi üçün daimi fəaliyyət göstərən bir forum olmalı idi[54]. Konfransda aşağıdakı 11 dövlətin – ABŞ, Almaniya, Belarus Respublikası, Çexiya

52 CSCE Seventh meeting of the Committee of Senior officials, Journal No 2., Prague 1992. Available at: http://www.osce.org/resources/183791?download=true

53 Paye O. and Remacle E. UN and CSCE Policies in Transcaucasia. In: "Contested Borders in the Caucasus. By Bruno Coppieters, 1996. Available at: http://poli.vub.ac.be/publi/ContBorders/eng/ch0401.htm

54 Мехтиев Р. Нагорный Карабах: История, прочитанная по источникам. Москва: Издательство "Аквариус", 2014, с.262

və Slovakiya Federativ Respublikası[55], Fransa, İsveç, İtaliya, RF, Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələri iştirak etməli idi. Dağlıq Qarabağdan seçilmiş nümayəndələr isə konfransın üzvü olan dövlətlərlə məsləhətləşmələr aparıldıqdan sonra konfransın sədri tərəfindən maraqlı tərəf[56] kimi konfransa dəvət edilə bilərdi.[57] Yenicə yaradılmış MDB-nin İcraiyyə Komitəsi Minskdə yerləşdiyi və Belarus hökumətinin çağırılması nəzərdə tutulan bu tədbirə paytaxt şəhərini verdiyi üçün bu beynəlxalq konfransın məhz Minskdə keçirilməsi qərara alındı[58].

Bir neçə aydan sonra, yəni 1992-ci il mayın 1-də ATƏM YVŞK-nın Helsinkidə keçirilmiş 10-cu iclasında Minsk konfransının təşkili, iclasların keçirilmə şərtləri, sədrin səlahiyyətləri və s. məsələlərə dair qərar qəbul edildi. İtaliyanın Xarici İşlər Nazirliyinin yüksək vəzifəli rəsmisi professor Mario Rafaelliyə müvafiq sənədlər hazırlamaq və xüsusi olaraq Minsk konfransını çağıraraq münaqişəni aradan qaldırmaq vəzifəsini yerinə yetirmək məqsədilə yaradılmış eyniadlı qrupa sədrlik etmək mandatı verildi. Onun rəhbərliyi ilə ATƏM-in nümayəndə heyəti mayın 7-də Azərbaycana səfər edərək müvafiq danışıqlar apardı[59].

Bu dövrdə bir sıra qonşu dövlətlər də Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar vasitəçilik təşəbbüsləri ilə çıxış etməyə çalışırdılar.

Bu dövlətlərdən biri də İİR idi. 1992-ci il fevralın 25-də İİR-in xarici işlər naziri Əli Əkbər Vilayəti Azərbaycana səfər edərək ölkə rəhbərliyi ilə görüşdü. Lakin bu təşəbbüsün uğurla nəticələnməsinə İİR-in xarici işlər nazirinin fevralın 26-da Ermənistana planlaşdırdığı səfər zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi Xocalı soyqırımı[60] mane oldu. 613 nəfərin öldürülməsi (onların arasında 106 qadın, 63 uşaq

55 1992-ci il dekabrın 3-də Çexiya və Slovakiya bir-birindən ayrıldı. Onlar hal-hazırda müstəqil dövlətlərdir və Minsk Qrupunun üzvləri deyil. Keçmiş Çexiya və Slovakiya Federativ Respublikası isə bu qrupda Finlandiya ilə əvəzlənmişdir

56 Həmin dövrdən Ermənistan və Azərbaycan münaqişə tərəfləri, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları isə maraqlı tərəf kimi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesində təmsil olunur

57 Conference on Security and Cooperation in Europe (CSCE), "Helsinki Additional Meeting of the CSCE Council. Summary of Conclusions", Conference on Security and Cooperation in Europe (CSCE), March 24, 1992 - http://www.osce.org/mc/29121?download=true

58 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.162

59 Yenə orada, s.163-164

60 Yenə orada, s.153-155

və 70 qoca vardı), 1.275 nəfərin əsir götürülməsi, 487 nəfərin şikəst olması (onlardan 76 nəfəri həddi-büluğa çatmamışdı) və 150 nəfərin itkin düşməsi ilə nəticələnmiş Xocalı faciəsi bu gün dünyanın on ölkəsi tərəfindən rəsmən soyqırımı kimi tanınır[61].

1992-ci il mayın 7-də İİR-in Prezidenti Əkbər Haşemi Rəfsəncani tərəfindən irəli sürülmüş daha bir vasitəçilik təşəbbüsü çərçivəsində Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini yerinə yetirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Yaqub Məmmədov və Ermənistan Respublikasının Prezidenti Levon Ter-Petrosyan arasında Tehranda təşkil edilmiş görüşdə tərəflər arasında atəşkəsin dayandırılmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə dair Tehran Bəyannaməsi imzalandı. Lakin səhəri gün, yəni mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi[62] bu vasitəçilik təşəbbüsünün də nəticəsiz qalmasına səbəb oldu.

Eyni zamanda Şuşanın işğalından sonra, mayın 14-də Azərbaycan Respublikasının eks-prezidenti Ayaz Mütəllibovun yenidən hakimiyyətə qayıtmaq cəhdi Azərbaycanda ölkədaxili gərginliyi son həddə çatdıraraq, mayın 15-də mövcud hakimiyyətin Azərbaycan Xalq Cəbhəsi tərəfindən devrilməsi ilə nəticələndi[63]. Bu vəziyyətdən məharətlə istifadə edən Ermənistan silahlı qüvvələri mayın 18-də keçmiş DQMV hüdudlarından kənarda yerləşən ilk inzibati rayonu – Laçın rayonunu işğal etdi və "humanitar dəhliz" adlandırdığı bu yolla Dağlıq Qarabağa müntəzəm olaraq silah, hərbi sursat və canlı qüvvə keçirməyə başladı.

Belə bir çətin vəziyyətdə gərgin səylər nəticəsində Mario Rafaellinin sədrliyi və Minsk konfransında iştirak etməsi nəzərdə tutulan 11 ölkənin təmsilçiliyi ilə 1992-ci ilin 1-7 iyun tarixlərində Romada MQ çərçivəsində görüşlərin ilk mərhələsi keçirildi. Lakin iyunun 23-də açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıqla əlaqədar keçirilən bu görüşlər haqqında geniş hesabat olmasına baxmayaraq, Ermənistanın mövqeyi nəticəsində burada heç bir sənəd qəbul edilmədi[64].

Digər tərəfdən, münaqişə tərəfləri Romada MQ çərçivəsində

61 Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab, Bakı, Elmin İnkişafı Fondu, 2015, s.68

62 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.164-165

63 Yenə orada, s.166

64 Yenə orada, s.167-168

keçirilən görüşlərin sonrakı mərhələsində ATƏM-ə üzv ölkələrin dövlət və hökumət başçılarının Helsinkidə 1992-ci ilin 9-10 iyul tarixlərində keçirilməsi planlaşdırılan birinci zirvə toplantısı ərəfəsində, yəni iyulun 9-dan etibarən 30 gün ərzində hərbi əməliyyatların dayandırılmasına dair razılığa gəldilər. Lakin bu sammit çərçivəsində Mario Rafaellinin Dağlıq Qarabağ münaqişəsi haqqında məruzəsinin dinlənilməsinə və münaqişənin nizama salınmasına dair səylərin artırılmasına dair tövsiyələr verilməsinə baxmayaraq, münaqişənin həlli istiqamətində heç bir sənəd qəbul edilmədi[65].

Həmin dövrdə həm Moskva, həm də Almatı tərəfindən həyata keçirilmiş vasitəçilik səyləri də uğursuzluqla nəticələndi. Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin 1992-ci ilin 7-8 avqust tarixlərində Moskvada keçirilmiş görüşündə hərbi əməliyyatların dayandırılmasına dair saziş layihəsinin müzakirə edilməsinə və daha sonra təsdiqlənmək üçün Azərbaycana və Ermənistana göndərilməsinə baxmayaraq, həmin sənəd imzalanmadı. Digər tərəfdən, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin vasitəçilik səyləri ilə 1992-ci il avqustun 27-də Azərbaycan, Ermənistan və Qazaxıstan xarici işlər nazirləri atəşkəs əldə edilməsinə dair Almatıda keçirilmiş görüşdə sentyabrın 1-dən 60 gün ərzində hərbi əməliyyatları dayandırmaq haqqında razılığa gəldilər. Lakin bu qərarla əlaqədar sentyabrın 3-də İcevan protokolunun imzalanmasına və 14-16 sentyabr tarixlərində Almatıda Azərbaycan və Ermənistan işçi qruplarının görüşünün təşkil edilməsinə baxmayaraq, bu vasitəçilik səyləri də bir nəticə verməsə və Azərbaycan, Ermənistan və Qazaxıstan prezidentlərinin görüşü baş tutmadı[66].

1993-cü il martın 1-də MQ çərçivəsində davam edən danışıqların beşinci mərhələsində Ermənistan və Azərbaycan nümayəndələri ilk dəfə olaraq vasitəçilərin iştirakı olmadan ikitərəfli danışıqlar aparmağa razılıq verərək, beynəlxalq müşahidəçilər missiyasının münaqişə bölgəsinə göndərilməsi üçün qərarın mətnini uyğunlaşdırdılar. Bu qərar 1993-cü ilin 26 aprel tarixində Praqada keçirilməsi planlaşdırılan YVŞK-nın

65 Yenə orada, s.171
66 Yenə orada, s.173-174

iclasında bəyənilməli idi. Lakin martın 27-dən aprelin 3-dək Ermənistan silahlı qüvvələrinin apardığı hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının Kəlbəcər rayonu işğal edildi və bu razılaşma pozuldu. Kəlbəcərin işğalı Türkiyənin Ermənistanla sərhədlərini bağlaması ilə nəticələndi.

Əfsuslar olsun ki, 1993-cü ilin sonrakı aylarında müxtəlif vasitəçilik səylərinin olmasına baxmayaraq, Azərbaycan Respublikasının keçmiş DQMV-nin qonşuluğunda yerləşən Laçın və Kəlbəcər rayonlarından əlavə daha beş rayonu – Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu rayonlardan zorla qovulmuş azərbaycanlı əhali məcburi köçkün vəziyyətinə düşərək Azərbaycanın müxtəlif bölgələrində məskunlaşdırıldı. Ermənistan isə DQMV-nin ətrafında işğal etdiyi yeddi Azərbaycan rayonunun ərazisini "bufer zonası" adı altında danışıqlar prosesində siyasi üstünlük qazanmaq vasitəsi kimi istifadə etməyə başladı.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycanın işğal edilmiş ərazilərinə dair BMT TŞ tərəfindən 1993-cü ildə 822 (30 aprel), 853 (29 iyul), 874 (14 oktyabr) və 884 (11 noyabr) saylı dörd qətnamə[67] qəbul edilmişdir. Bu beynəlxalq sənədlərdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı dəstəklənmiş, ərazi ələ keçirilməsi üçün güc tətbiq olunmasının yolverilməzliyi təsdiq edilmiş, eləcə də işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılması tələb edilmişdir.

BMT TŞ-dən fərqli olaraq, İƏT-in xarici işlər nazirlərinin 1993-cü ilin aprel ayında Kəraçidə (Pakistan) keçirilmiş XXI konfransında keçmiş sovet respublikalarından ilk olaraq bu təşkilata (o zaman İslam Konfransı Təşkilatı (İKT)) 1991-ci ilin dekabrında üzv seçilmiş Azərbaycan

67 UNSC 822 (1993). Adopted by the Security Council at its 3205th meeting, on 30 April 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/247/71/IMG/N9324771.pdf?OpenElement; UNSC 853 (1993). Adopted by the Security Council at its 3259th meeting, on 29 July 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/428/34/IMG/N9342834.pdf?OpenElement; UNSC 874 (1993). Adopted by the Security Council at its 3292nd meeting, on 14 October 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/557/41/PDF/N9355741.pdf?OpenElement; UNSC 884 (1993). Adopted by the Security Council at its 3313th meeting, on 12 November 1993. Available at: https://documents-dds-y.un.org/doc/UNDOC/GEN/N93/631/20/PDF/N9363120.pdf?OpenElement

Respublikasına qarşı qonşu Ermənistan tərəfindən həyata keçirilmiş təcavüzü kəskin şəkildə pisləyən "Ermənistan və Azərbaycan arasında münaqişə" adlı 12/21-P saylı qətnamə qəbul edilmişdir[68]. Bu qətnamə erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılmasını, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə Ermənistan tərəfindən hörmətlə yanaşılmasını ciddi surətdə tələb edir və Qarabağ probleminin dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll edilməsinə çağırır[69].

Dağlıq Qarabağ münaqişəsinə dair Aİ də 1992-ci il mayın 22-də və iyunun 18-də, eləcə də 1993-cü il aprelin 7-də, iyunun 24-də, sentyabrın 3-də və noyabrın 9-da müvafiq bəyanatlarla[70] çıxış etmişdir. Bu bəyanatlarda Aİ ATƏM-in prinsip və öhdəliklərini qəbul etmiş bir dövlətin bu prinsiplərə zidd olaraq ərazi bütövlüyünə qarşı və ya mülki əhalinin daimi yaşayış yerlərindən qovulması da daxil olmaqla, siyasi məqsədlərə nail olmaq üçün gücə əsaslanan hərəkətlərini pisləmiş, Azərbaycan və erməni əhalisinin fundamental hüquqlarının mövcud sərhədlər çərçivəsində tam şəkildə bərpa olunmasının zəruriliyini qeyd etmişdir. Aİ bu sənədlərdə Dağlıq Qarabağ münaqişəsinin uzunmüddətli siyasi həllinə nail olmaq üçün ATƏM MQ tərəfindən göstərilən səyləri tam şəkildə dəstəklədiyini bildirmişdir.

Lakin bu beynəlxalq hüquqi sənədlərin qəbul edilməsinə baxmayaraq, onların icrasına dair beynəlxalq ictimaiyyət tərəfindən Ermənistan Respublikasına qarşı bu günədək heç bir ciddi təzyiq tədbirləri görülməmişdir.

Beləliklə, Sovet İttifaqından miras qalmış bu münaqişənin ağır nəticələri, Azərbaycanda hökm sürən keçid dövrünün ziddiyyətləri,

68 Resolution no. 12/21-P Conflict between Armenia and Azerbaijan. Adopted at the Twenty-First Islamic Conference of Foreign Ministers (Session of Islamic Unity and Cooperation for Peace, Justice and Progress), held in Karachi, Islamic Republic of Pakistan, from 4 to 8 Zul Qa'ddah, 1413H (25-29 April, 1993). Available at: http://ww1.oic-oci.org/english/conf/fm/21/21-2nd%20%20resolution.htm#12/21-P

69 Azərbaycan Respublikasının səyləri nəticəsində İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV toplantısında bu qətnamənin adı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" (12/24-P) kimi dəyişdirilmiş və bütün növbəti İƏT toplantılarında qəbul edilmiş sənədlərdə bu qətnamənin adı belə işlədilir

70 Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: sənədlər və materiallar. I kitab, Bakı: Elmin İnkişafı Fondu, 2015, s.150-154

daxili və xarici amillər 1993-cü ilin may-iyun aylarında ölkədə hakimiyyət böhranının baş verməsinə gətirib çıxardı və müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının dövlətçiliyini vətəndaş qarşıdurması və parçalanma təhlükəsi ilə üz-üzə qoydu. Yalnız 1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyevin qətiyyətli qərarları, zəngin dövlətçilik təcrübəsi və apardığı müdrik siyasət nəticəsində ölkədəki ictimai-siyasi sabitlik tədricən bərpa edildi, nizamlı silahlı qüvvələrin formalaşdırılması istiqamətində atılmış məqsədyönlü addımlar Milli Ordunun Ermənistan silahlı qüvvələrinin hücumlarını dəf etməsinə və onlara ciddi zərbələr endirməsinə imkan verdi. Nəticədə Ermənistan Azərbaycanla 1994-cü il mayın 12-dən qüvvəyə minmiş atəşkəs haqqında razılığı imzaladı.

Qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsi üzrə sülhməramlı qüvvələrin tərkibinə dair müzakirələrə atəşkəs haqqında razılıq imzalandıqdan sonra başlanıldı. 1994-cü ilin 17 oktyabr tarixində MQ-nin Vyanada təşkil edilmiş görüşündə İtaliya nümayəndəsi münaqişə zonasına göndərmək üçün çoxmillətli sülhməramlı qüvvələrin yaradılması planını təqdim etdi. ATƏM-in üzvü olan 52 dövlət tərəfindən dəstəklənən bu plana əsasən münaqişə bölgəsinə 3 min nəfərə yaxın hərbçinin (onların tərkibində RF 33%-lə, Almaniya və Avstriya 33%-lə, Vışeqrad qrupu (Çexiya, Polşa, Macarıstan və Slovakiya) 33%-lə təmsil edilməli idi) və hərbi texnikanın göndərilməsi nəzərdə tutulurdu. MQ öz üzərinə sülhməramlı qüvvələrin göndərilməsi məsuliyyətini götürməli idi, lakin RF və onun himayəsində olan Ermənistan bu təklifi etirazla qarşıladılar[71].

Sülhməramlı qüvvələrin tərkibi ilə bağlı müzakirələr RF Prezidenti Boris Yeltsin və ABŞ Prezidenti Bill Klinton arasında da aparıldı. RF münaqişə zonasında yerləşdiriləcək sülhməramlı qüvvələrdə 70%-lə təmsil olunmasını, ABŞ isə RF-yə yalnız 50%, digər iştirakçılara da 50% yer ayrılmasını təklif edirdi[72].

1994-cü ilin oktyabr ayının sonunda Azərbaycana səfəri zamanı BMT-nin Baş katibi Butros Butros Qali də sülhməramlı qüvvələrin tərkibinin

71 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.217
72 Yenə orada, s.217

formalaşdırılmasına dair təkliflərini bölüşdü. Onun təklifinə əsasən BMT-nin sülhməramlı qüvvələri Ermənistan və Azərbaycan arasında yerləşdirilməli; Azərbaycanın ərazi bütövlüyü qorunmalı, sərhədləri mühafizə edilməli və onlara hörmətlə yanaşılmalı; Azərbaycanın Dağlıq Qarabağ regionunda asayiş bərqərar edilməli və Azərbaycanın işğal edilmiş əraziləri boşaldılmalı idi[73].

BMT-nin Baş katibi, bundan başqa, görüş zamanı münaqişənin həlli istiqamətində təşəbbüslərin çox olduğunu diqqətə çatdıraraq, belə vəziyyətin çətinlik yaratdığını bildirdi. O, öz növbəsində, aşağıdakı üç əsas məsələ üzərində çalışacağını vurğuladı: a) BMT TŞ-nin qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsi; b) MQ-nin regionda sülhyaratma əməliyyatlarını həyata keçirməsinin maksimum dəstəklənməsi və c) sülh və təhlükəsizliyin bərqərar olmasına və müharibə cəhdlərinin təkrarlanmasına yol verməmək məqsədilə təşəbbüslərin əlaqələndirilməsi[74].

Həmin görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan tərəfinin MQ-nin ciddi fəaliyyət göstərməsi üçün müvafiq şərait yaratdığını qeyd edərək, işğal edilmiş ərazilərin boşaldılmasının, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılmasının, Azərbaycanın bütün vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsinin, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin demoqrafik şəraitinin bərpa edilməsinin böyük əhəmiyyət kəsb etdiyini bildirdi[75].

Lakin sülhməramlı qüvvələrin tərkibinin formalaşdırılması və onların yerləşdirilməsi məsələsində vahid bir yanaşmanın olmaması məsələnin həllini çətinləşdirirdi. Eyni zamanda 1993-cü ilin yanvarından RF-nin keçmiş SSRİ məkanında münaqişələrin həlli və sülhməramlı qüvvələrin yerləşdirilməsi istiqamətində əsas məsuliyyəti öz üzərinə götürmək və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vasitəçi kimi başlıca rol oynamaq istəyi ATƏM və RF arasında rəqabət meyillərini gücləndirirdi[76].

73 Yenə orada, s.218
74 Yenə orada, s.218
75 Yenə orada, s.218
76 Pashayeva G., Göksel N. The Interplay of the approaches of Turkey, Russia and the United States to the conflict over Nagorno-Karabakh. SAM Review, Baku, 2011, No 3, February 2011, p.15

Beləliklə, vasitəçilik səylərinin ilkin mərhələsi atəşkəs haqqında razılığın əldə edilməsi ilə yekunlaşdı. Atəşkəsin imzalanması praqmatik baxımdan Azərbaycanın bir sıra strateji istiqamətlərdə fəaliyyətinin genişləndirilməsinə – yeni neft strategiyasının həyata keçirilməsi üçün Azərbaycana daha çox xarici sərmayələrin cəlb edilməsinə, xalqın həyat səviyyəsinin yüksəldilməsinə, Milli Ordunun gücləndirilməsinə, beynəlxalq mövqelərin möhkəmləndirilməsinə zəmin yaratdı[77]. Həmçinin 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının əsasının qoyulmasına, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz kəmərlərinin tikilib istifadəyə verilməsinə və Azərbaycanın energetika sahəsindəki mövqelərinin ciddi şəkildə möhkəmləndirilməsinə səbəb oldu.

Azərbaycan Prezidenti Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və həlli istiqamətində fəaliyyət onun xarici siyasət kursunun əsasını təşkil etmişdir. Ən yüksək səviyyələrdə dövlət başçıları və nümayəndə heyətləri ilə keçirdiyi ikitərəfli və çoxtərəfli görüşlərdə, ATƏT MQ həmsədrləri ilə apardığı müzakirələrdə, eləcə də Ermənistan Prezidenti ilə birbaşa danışıqlarda Ümummilli lider bu problemi ön plana çəkərək onun nizama salınması və həlli istiqamətində məqsədyönlü və qətiyyətli səylər göstərmişdir[78].

ATƏT MQ-nin struktur baxımından gücləndirilməsi və Lissabon sammiti (1994-1996)

1994-cü ilin 5-6 dekabr tarixlərində ATƏM-in[79] Budapeştdə keçirilmiş zirvə toplantısında aparılmış müzakirələr zamanı bir sıra məsələlərə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi üzrə *ATƏT-in sülhməramlı qüvvələri* anlayışına aydınlıq gətirildi.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu toplantıda ilk dəfə olaraq

77 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.212

78 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, 2005, s.724-725

79 ATƏM-in adının 1995-ci il yanvarın 1-dən ATƏT ilə əvəzlənməsi haqqında qərar da məhz bu sammitdə qəbul edildi

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi bir məsələ kimi tədbirin gündəliyinə daxil edildi. Tədbirdə münaqişə və onun həlli ilə bağlı bir sıra məruzəçilərin, o cümlədən ABŞ Prezidenti Bill Klintonun, BMT-nin Baş katibi Butros Butros Qalinin və başqalarının çıxışları dinlənildi[80].

Bundan başqa, sammit çərçivəsində Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Levon Ter-Petrosyanın görüşü keçirildi. Görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev hamı üçün ədalətli sülhün təmin edilməsini, işğal olunmuş ərazilərin boşaldılmasını və məcburi köçkünlərin öz yurdlarına qaytarılması şərtlərini irəli sürsə də, Ermənistan Prezidenti Levon Ter-Petrosyan Ermənistanın guya blokadada saxlanılması, millətlərin öz müqəddəratını təyin etməsi, eləcə də Dağlıq Qarabağın statusu haqqında ümumi ifadələr işlətməklə münaqişənin həllindən yayınmağa çalışdı[81].

Bu zirvə toplantısında eləcə də Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair həmsədrlik institutu təsis edildi[82]. ATƏM MQ çərçivəsində vasitəçilik səylərinin gücləndirilməsi məqsədilə atılan bu addım ilk növbədə RF-nin və MQ çərçivəsində fəaliyyət göstərən digər üzv dövlətlərin daha sıx əlaqələndirilməsini nəzərdə tuturdu. İlk olaraq MQ-yə iki həmsədr təyin edildi, onlardan biri daimi əsaslarla RF, digəri isə İsveç oldu. Lakin 1995-ci ilin aprelindən İsveçi Finlandiya əvəz etdi və o, 1996-cı ilin sonuna qədər həmsədr kimi fəaliyyət göstərdi[83].

Beləliklə, Fəaliyyətdə olan Sədr (FoS) tərəfindən təyin edilən MQ həmsədrləri ATƏM prinsipləri və razılaşdırılmış mandat əsasında MQ-nin iclaslarına birgə sədrlik etməli, sədrə hesabat verməli və mütəmadi olaraq Daimi Şuraya (DŞ) işlərindəki irəliləyişlər barədə ətraflı məlumat təqdim etməli idilər. İlk addım kimi MQ-nin həmsədrlərinə silahlı münaqişənin başa çatdırılması məqsədilə operativ şəkildə bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldırmağa və Minsk

80 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.219
81 Yenə orada
82 Regional Issues. Intensification of CSCE action in relation to the Nagorno-Karabakh conflict. / Budapest decisions. CSCE. Budapest Document 1994 Towards a genuine partnership in a new era, pp. 5-6. Available at: https://www.osce.org/mc/39554?download=true
83 Cornell S. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. Surrey: Curzon Press, 2001, p.113

konfransını çağırmağa imkan verə biləcək siyasi sazişin əldə edilməsi istiqamətində danışıqlar aparmaq tapşırılırdı[84].

1995-ci il martın 23-də qəbul edilmiş MQ həmsədrlərinin mandatına əsasən, həmsədrlər bütövlükdə vasitəçilik və danışıqlarla bağlı həyata keçirilən fəaliyyəti koordinasiya etməli və onları ATƏT çərçivəsində ümumi bir rəy olaraq uzlaşdırmalı idilər. Həmsədrlərin vəzifələri arasında atəşkəsi möhkəmləndirmək məqsədilə birgə səylərin göstərilməsini; danışıqlar aparmaq üçün münaqişə tərəfləri ilə birgə ümumi baxışın formalaşdırılmasını; əvvəlki vasitəçilik səyləri zamanı əldə edilmiş irəliləyişlər əsasında silahlı münaqişəni aradan qaldırmaq məqsədilə siyasi saziş bağlamaq üçün münaqişə tərəfləri ilə danışıqlar aparılmasını; münaqişə tərəfləri arasında birbaşa əlaqələrin, lazım gələrsə, substantiv danışıqlar aparılmasının təbliğini; münaqişə tərəfləri ilə humanitar sahədə siyasi proseslə əlaqələndirilmiş etimadyaradıcı tədbirlərin görülməsinə dair fəaliyyətin davam etdirilməsini;FoS-a ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin formalaşdırılması, tərkibi və əməliyyatlarına dair planın hazırlanmasında köməklik göstərilməsini və s. qeyd etmək olar[85].

ATƏM-in Budapeşt zirvə toplantısında həmçinin Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin münaqişə zonasında yerləşdirilməsi məsələsi də müzakirə edildi[86].

FoS-a operativ şəkildə 1992-ci ilin Helsinki sənədinin III bəndinə və BMT-nin Nizamnaməsinə uyğun olaraq ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin formalaşdırılması, tərkibi və əməliyyatlarına dair plan hazırlamaq tapşırıldı. Bu prosesdə FoS-a MQ-nin həmsədrləri və üzvləri kömək etməli, Baş katib isə onu dəstəkləməli idi. Bundan əlavə, müvafiq məsləhətləşmələr apardıqdan sonra FoS-a sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi,

84 Regional Issues. Intensification of CSCE action in relation to the Nagorno-Karabakh conflict. / Budapest decisions. CSCE. Budapest Document 1994 Towards a genuine partnership in a new era, pp. 5-6. Available at: https://www.osce.org/mc/39554?download=true

85 Mandate of the Co-Chairmen of the Conference on Nagorno-Karabakh under the auspices of the OSCE ("Minsk Group"). DOC, 525/95, Vienna, 23 March, 1993. Available at: http://www.osce.org/mg/70125?download=true

86 Regional Issues. Intensification of CSCE action in relation to the Nagorno-Karabakh conflict. / Budapest decisions. CSCE. Budapest Document 1994 Towards a genuine partnership in a new era, pp. 5-6. Available at: https://www.osce.org/mc/39554?download=true

onlara rəhbərlik və nəzarət, logistika, hissələrin və ehtiyatların paylanması, davranış və sazişlərin bağlanması qaydalarına dair tövsiyələr vermək üçün Vyanada Yüksək Səviyyəli Planlaşdırma Qrupunun (YSPQ) təsis edilməsi tapşırıldı[87]. O, 1993-cü ilin mayında yaradılmış İlkin Əməliyyatlar üzrə Planlaşdırma Qrupunu əvəz etməli idi.

1995-ci il martın 23-də Vyanada yerləşən və üzv dövlətlərin hərbi ekspertlərindən ibarət olan YSPQ-nin mandatı FoS tərəfindən qəbul edildi[88]. Bu qurum bölgəyə faktaraşdırıcı missiyalar göndərərək, Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin konsepsiyasını hazırladı və 1995-ci ilin 14 iyul tarixində FoS-a təqdim etdi. Bu sənəddə Dağlıq Qarabağ münaqişəsi üzrə ATƏT-in sülhməramlı qüvvələrinə dair təklif edilmiş dörd seçimdən üçündə 1.500-dən 4.500-dək heyətin iştirakı ilə silahlı sülhməramlı qüvvələrlə silahsız hərbi müşahidəçilərin qarışıq şəkildə birgə fəaliyyəti nəzərdə tutulurdu. Dördüncü seçim isə yalnız silahsız hərbi müşahidəçilərdən ibarət missiyanın yerləşdirilməsi ilə bağlı idi. Lakin sülhməramlı qüvvələrin münaqişə zonasına yerləşdirilməsi siyasi saziş bağlandıqdan sonra ATƏT-in üzv dövlətləri arasında konsensus əldə edilməsindən asılıdır[89].

Qeyd etmək lazımdır ki, YSPQ-nin heyəti ATƏT-in Minsk konfransı tərəfindən münaqişə ilə məşğul olan FoS-in Şəxsi Nümayəndəsinin (ŞN) ofisi tərəfindən Azərbaycan–Ermənistan qoşunlarının təmas xəttində həyata keçirilən fəaliyyətlərdə iştirak edir. 1995-ci ilin avqustunda Dağlıq Qarabağ münaqişəsi istiqamətində sülhyaratma səylərini artırmaq məqsədilə ATƏT-in FoS tərəfindən təsis edilmiş bu vəzifəni 1996-cı ilin iyulundan əvvəlcə ŞN-in səlahiyyətlərini icra edən və daha sonra 1997-ci ilin yanvarından bu günədək isə ŞN kimi səfir Anjey Kasprşik aparır[90].

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlərdə ŞN ATƏT-in FoS-ni təmsil edir və ona silahlı münaqişənin aradan qaldırılmasına dair sazişin əldə edilməsində, ATƏT-in sülhməramlı qüvvələrinin əməliyyatlarının həyata keçirilməsi üçün şərait yaradılmasında və davamlı siyasi həll

87 Yenə orada

88 OSCE Handbook. OSCE Press and Public Information Section. Vienna 2007, p.76. Available at: http://www.osce.org/files/documents/b/3/22624.pdf

89 Yenə orada, s.76-77

90 Yenə orada, s.77

variantının tapılmasında yardım göstərir. O, sədrə hesabat verir və müvafiq sorğu olan halda MQ-yə köməklik göstərir. ŞN-in yerinə yetirdiyi vəzifələr arasında Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində və Ermənistan–Azərbaycan sərhədləri boyu mütəmadi olaraq monitorinqlərin keçirilməsi də mühüm yer tutur[91].

Beləliklə, yuxarıda qeyd edilmiş yeni dəyişikliklər ATƏT MQ-nin fəaliyyətinin struktur baxımından gücləndirilməsinə xidmət edirdi. Bu dövrdə MQ tərəfindən danışıqlar prosesi üç istiqamətdə aparılırdı: a) atəşkəs rejiminin gücləndirilməsi; b) silahlı münaqişəni aradan qaldırmaq məqsədilə siyasi sazişin əldə edilməsi üçün danışıqların davam etdirilməsi; və c) humanitar məsələlərin həll edilməsi. Lakin Ermənistanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının ayrıca tərəf kimi tanınmasına dair qaldırdığı tələb münaqişənin həlli istiqamətində əsas maneələrdən biri idi[92].

ATƏT-in Budapeşt zirvə toplantısından sonra silahlı münaqişəni aradan qaldırmaq məqsədilə siyasi sazişin əldə edilməsi istiqamətində təşkil edilmiş görüşlər çərçivəsində tərəflər arasında aparılan danışıqlarda irəliləyiş əldə etmək mümkün olmadı. Bu dövrdə vasitəçilik səyləri əsasən mövcud atəşkəs rejiminin qorunub saxlanılmasına və tərəflər arasında yeni toqquşmaların qarşısının alınmasına yönəlmişdi[93]. Bu mərhələnin ən vacib xüsusiyyətlərindən biri 1996-cı ilin 2-3 dekabr tarixlərində ATƏT-in Lissabon zirvə toplantısında ATƏT FoS-in xüsusi bəyanatında öz əksini tapmış üç prinsipdir[94]. Bu prinsiplər Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin siyasi-hüquqi çərçivəsini müəyyənləşdirərək, MQ həmsədrləri və MQ-nin bütün üzvləri tərəfindən tövsiyə edilmişdir. Onlar aşağıdakılardır: 1. Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; 2. Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən ən yüksək özünüidarəsini təmin edən hüquqi

91 Yenə orada, s.77-78. Available at: http://www.osce.org/files/documents/b/3/22624.pdf

92 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.224

93 Cornell S. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus, Surrey: Curzon Press, 2001, p.113

94 Statement of the OSCE Chairman-in-Office at the OSCE Lisbon Summit, see: Organization for Security and Co-operation in Europe (OSCE), "Lisbon Document 1996", Organization for Security and Co-operation in Europe (OSCE), December 3, 1996, p.15. - http://www.osce.org/mc/39539?

statusu; 3. Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyinin təmin olunması.

Beləliklə, münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilməsini təklif edən bu sənəd Ermənistan istisna olmaqla, ATƏT-in bütün 53 üzv dövləti tərəfindən ATƏT-in Lissabon zirvə toplantısında dəstəklənmişdir. Lakin əfsuslar olsun ki, ATƏT konsensus əsasında fəaliyyət göstərdiyindən bu prinsiplər ATƏT-in FoS-in bəyanatı kimi sammitin yekun sənədlərinə yalnız "Əlavə" olaraq daxil edilmişdir.

Sülh formulunun axtarışı (1997-2001)

1997-ci il yanvarın 1-dən RF, Fransa və ABŞ ATƏT MQ-nin həmsədrləri təyin edildilər[95]. Həmsədrlər 1997-1998-ci illərdə regiona səfər edərək münaqişə tərəflərinə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair üç təklif təqdim etdilər.

1997-ci ilin may-iyun aylarında münaqişə tərəflərinə təqdim edilmiş ilk təklif *paket həll variantı* idi. O, iki hissədən ibarət idi: 1) I saziş – münaqişənin sona çatması, o cümlədən qoşunların geri çəkilməsi; sülhməramlı qüvvələrin münaqişə zonasına yerləşdirilməsi; məcburi köçkün əhalinin geri qaytarılması və təhlükəsizlik zəmanətlərinin təmin edilməsi; 2) II saziş – Dağlıq Qarabağın yekun statusu.

Azərbaycan və Ermənistan tərəfindən qəbul edilməsinə baxmayaraq, bu təklif Dağlıq Qarabağ ermənilər tərəfindən rədd edildi[96].

İkinci təklif *mərhələli həll variantı* olaraq münaqişə tərəflərinə 1997-ci ilin sentyabrında təqdim edildi. Bu təklifə əsasən Ermənistan ilk mərhələdə 6 rayonu işğaldan azad etməli (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan); ATƏT-in sülhməramlı qüvvələri münaqişə zonasına yerləşdirilməli; məcburi köçkünlər azad olunmuş

95 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.240

96 Jacoby V. The Role of the OSCE: An Assessment of International Mediation Efforts, in Accord series, issue 17, Laurence Broers (ed.), The Limits of Leadership: Elites and Societies in the Nagorny Karabakh Peace Process, (London: Conciliation Resources, 2005), p.32. Available at: http://www.c-r.org/downloads/17_Nagorny%20Karabakh_2005_ENG_F.pdf

ərazilərə qaytarılmalı və münaqişə zonasında əsas kommunikasiya vasitələri bərpa edilməli idi. İkinci mərhələdə isə Laçın və Şuşa ilə bağlı məsələlər həll olunmalı, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusunun əsas prinsipləri qəbul edilməli və ATƏT-in Minsk konfransı çağırılmalı idi[97].

Lakin həm Ermənistan hökumətinin bir sıra nüfuzlu üzvləri (Baş nazir Robert Koçaryan, daxili işlər və milli təhlükəsizlik naziri Serj Sarkisyan və müdafiə naziri Vazgen Sarkisyan), həm də ölkə müxalifəti Levon Ter-Petrosyanın münaqişənin bu həll variantı ilə bağlı mövqeyini mənfi qarşıladı. Nəticədə 1998-ci ilin fevralında Ter-Petrosyan istefa verməli oldu və 1998-ci ilin martında Dağlıq Qarabağdan olan Ermənistanın keçmiş Baş naziri Robert Koçaryan Ermənistanın yeni prezidenti seçildi[98].

1998-ci ilin noyabrında həmsədrlər münaqişə tərəflərinə üçüncü həll variantını təqdim etdilər. Bu, yenə də *paket həll variantı* idi və onun əsasını "ümumi dövlət" konsepsiyası təşkil edirdi. Bu təklifə əsasən "Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanla birlikdə ümumi dövlət təşkil etməli idi"[99]. Ermənistanın və Dağlıq Qarabağın separatçı rejiminin bu təklifi qəbul etmələrinə baxmayaraq, onun Azərbaycanın suverenliyinə və Lissabon zirvə toplantısının prinsiplərinə zidd olduğunu nəzərə alaraq, Azərbaycan bu həll variantını rədd etdi.

Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair yuxarıda qeyd edilmiş hər üç təklif uğursuzluqla nəticələndi. Belə olan halda həmsədrlər Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa görüşlərin keçirilməsi təşəbbüsü ilə çıxış etdilər.

Lakin 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində baş vermiş terror aktı nəticəsində Ermənistanın Baş naziri Vazgen Sarkisyan və parlamentin sədri Karen Dəmirçiyan da daxil olmaqla bir sıra nüfuzlu siyasətçilərinin öldürülməsi 1999-cu ilin 18-19 noyabr tarixlərində ATƏT-in İstanbul zirvə toplantısında imzalanması nəzərdə tutulan

97 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.242

98 Cornell S. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus, Surrey: Curzon Press, 2001, pp.116-117

99 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə, Bakı, 2015, s.247-248

sənədin reallaşmasına mane oldu. 2001-ci ilin yanvarında Fransa Prezidenti Jak Şirakın təşəbbüsü ilə keçirilmiş Azərbaycan və Ermənistan prezidentlərinin Paris görüşü, eləcə də həmin ilin aprelində ABŞ-ın Florida ştatında yerləşən Ki Vest şəhərində aparılmış dördgünlük danışıqlar da bir nəticə verməd[100].

Beləliklə, 1997-2001-ci illər arasında münaqişənin həlli istiqamətində ATƏT MQ-nin həmsədrləri fəal səy göstərmiş və münaqişə tərəflərinə bir neçə təklif təqdim etmişdilər. Lakin əfsuslar olsun ki, iki təşəbbüs ətrafında tərəflər arasında ilkin razılığın olmasına baxmayaraq, münaqişənin siyasi həll variantı istiqamətində irəliləyiş əldə etmək mümkün olmamışdır.

"Praqa prosesi"ndən "Madrid prinsipləri"nə doğru (2004-2011)

2003-cü ildə Ermənistanda və Azərbaycanda keçirilən prezident seçkilərindən sonra dövlət başçılarının növbəti görüşləri Cenevrədə (2003-cü il, dekabr) və Varşavada (2004-cü il, aprel) təşkil edildi. Həmçinin ATƏT MQ həmsədrlərinin təklifi ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri prezidentlərin xüsusi nümayəndələri kimi dialoqun ikinci səviyyəsində Praqada aparılan danışıqlar prosesində iştirak etməyə başladılar[101].

Beləliklə, 2004-cü ildən "Praqa prosesi" çərçivəsində iki prezidentin, eləcə də xarici işlər nazirlərinin dialoq təcrübəsi nəticəsində münaqişənin həllinə dair yeni sülh təklifi formalaşdı. Əsasən *üç prinsip* – gücün tətbiq edilməməsi, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə hüququ və *altı maddədən* ibarət olan Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prinsipləri haqqında müvafiq sənəd 2007-ci il noyabrın 29-da ATƏT-in Madrid zirvə toplantısında münaqişə tərəflərinə təqdim edildi.

100 Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва: Аквариус, 2014, с.269; 272

101 Organization for Security and Co-operation in Europe (OSCE), "Report of the Co-Chairs of the OSCE Minsk Group to the OSCE Ministerial Council", Organization for Security and Co-operation in Europe (OSCE), December 30, 2004, p.1 - http://www.osce.org/mg/39856?

Bununla yanaşı, 2008-ci ilin avqustunda Rusiya və Gürcüstan arasında baş vermiş qarşıdurma Cənubi Qafqazda yeni bir geosiyasi vəziyyət yaratmaqla yanaşı, qlobal və regional aktorların Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətindəki səylərini birləşdirdi. Bu dövrdə təqdim edilmiş təşəbbüslərdən biri də 2008-ci ilin 2 noyabr tarixində RF-nin Prezidenti Dmitri Medvedevin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyan ilə birgə imzaladıqları üçtərəfli Mayendorf deklarasiyası idi.[102] RF-nin Prezidenti Dmitri Medvedevin 2008-2011-ci illərdə apardığı fəal vasitəçilik səyləri nəticəsində Azərbaycan, Ermənistan və RF prezidentlərinin iştirakı ilə bu çərçivədə 10 üçtərəfli görüş keçirildi.

2009-2011-ci illərdə ATƏT MQ-nin həmsədr ölkələrinin prezidentləri – Dmitri Medvedev, Barak Obama və Nikola Sarkozi "Böyük səkkizlik" (G-8) ölkələrinin Akvildə (İtaliya), Muskokada (Kanada) və Dovildə (Fransa) keçirilən sammitlərində[103] Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdikləri birgə bəyanatlarda münaqişənin həllinin əsas prinsiplərini yekunlaşdırmaq istiqamətində Azərbaycan və Ermənistan liderlərini dəstəklədiklərini bəyan etdilər (yeri gəlmişkən, "Madrid prinsipləri"nin yeniləşdirilmiş versiyası məhz Akvildə qəbul edilmiş bəyannamədə ictimaiyyətə açıqlandı). Bu bəyanatlarda vurğulanırdı ki, münaqişə tərəflərinin bu prinsipləri təsdiq etməsi gələcəkdə münaqişə ilə bağlı hərtərəfli sülh sazişinin hazırlanmasına imkan yarada bilər.

Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prinsiplərinin yeniləşdirilmiş versiyası (onlar həm də "Madrid prinsipləri" adlandırılır)[104] aşağıdakı altı maddədən ibarətdir: 1) Dağlıq Qarabağın ətraf

102 Paşayeva G. Həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi Avropada təhlükəsizliyə dair yeni müqavilənin layihəsi çərçivəsində. // "Analitik baxış", Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin aylıq nəşri, say 5, noyabr-dekabr 2010, s.8

103 Joint Statement on the Nagorno-Karabakh Conflict. The White House, Office of the Press Secretary, July 10, 2009. Available at: https://www.whitehouse.gov/the-press-office/joint-statement-nagorno-karabakh-conflict; G8 Summit: Joint Statement On The Nagorno-Karabakh Conflict by Dmitry Medvedev, President Of The Russian Federation, Barack Obama, President Of The United States Of America, and Nicolas Sarkozy, President Of The French Republic. The White House, Office of the Press Secretary, 26 June 2010. Available at: https://www.whitehouse.gov/the-press-office/g8-summit-joint-statement-nagorno-karabakh-conflict-dmitry-medvedev-president-russi; Joint Statement on the Nagorno-Karabakh Conflict by Dmitry Medvedev, President of the Russian Federation, Barack Obama, President of the United States of America, and Nicolas Sarkozy, President of the French Republic at the Deauville Summit of the Eight. The White House. Office of the Press Secretary, May 26, 2011. Available at: https://www.whitehouse.gov/the-press-office/2011/05/26/joint-statement-nagorno-karabakh-conflict-dmitry-medvedev-president-russ

104 Joint Statement on the Nagorno-Karabakh Conflict, The White House, Office of the Press Secretary, July 10,

ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılması; 2) Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarə hüququnu təmin edən müvəqqəti statusun verilməsi; 3) Dağlıq Qarabağla Ermənistanı birləşdirən dəhliz; 4) İradənin hüquqi yolla ifadə edilməsi ilə Dağlıq Qarabağın yekun hüquqi statusunun gələcəkdə müəyyən edilməsi; 5) Bütün məcburi köçkünlərin və qaçqınların öz əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ; 6) Sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizlik zəmanəti.

Bu prinsiplərin Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin 2011-ci il iyunun 24-də Kazanda keçiriləcək görüşündə təsdiqlənməsi və daha sonra münaqişə tərəflərinin hərtərəfli sülh sazişi ətrafında danışıqlara başlayacaqları gözlənilsə də, bu görüşdə müsbət bir irəliləyiş əldə etmək mümkün olmadı.

Qeyd etmək lazımdır ki, danışıqlar prosesinin bu mərhələsində ATƏT-in faktaraşdırıcı missiyası 2005-ci ilin 31 yanvar – 5 fevral tarixlərində Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonlarına səfər edərək müvafiq hesabat hazırladı. Bu hesabatda Ermənistanın işğal altındakı ərazilərdə qanunsuz məskunlaşdırma siyasətini həyata keçirdiyi öz təsdiqini tapdı[105]. 2010-cu ilin 7-12 oktyabr tarixlərində daha bir beynəlxalq missiya – ATƏT MQ həmsədrlərinin sahə qiymətləndirmə missiyası – ümumi vəziyyəti dəyərləndirmək üçün Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş yeddi rayonuna səfər etdi. Bu missiyanın həyata keçirilməsində ATƏT MQ-nin həmsədrləri ilə birlikdə ATƏT FoS-in ŞN-i və onun komandası, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığını təmsil edən iki mütəxəssis və ATƏT-in 2005-ci ildəki faktaraşdırıcı missiyasının bir üzvü iştirak etmişdir. Missiya Azərbaycanın işğal edilmiş ərazilərində 14 min nəfərin məskunlaşdığını, infrastruktur dəyişikliklərinin və iqtisadi fəaliyyətin həyata keçirildiyini, işğal olunmuş ərazilərin inzibati sərhədlərinin dəyişdirildiyini və s. müşahidə etmişdir[106].

2009. Available at: https://www.whitehouse.gov/the-press-office/joint-statement-nagorno-karabakh-conflict

105 Report of the OSCE Fact-Finding Mission (FFM) to the Occupied Territories of Azerbaijan Surrounding Nagorno-Karabakh (NK). Available at: http://www.partnership.am/res/General%20 Publications_Eng/050317_osce_report1.pdf

106 Executive Summary of the "Report of the OSCE Minsk Group Co-Chairs' Field Assessment Mission to the Occupied Territories of Azerbaijan Surrounding Nagorno-Karabakh". Available at: http://www.osce.org/mg/76209?download=true

Nəticəsiz danışıqlar və hərbləşmə prosesi (2012-2016)

2013-cü ilin oktyabr ayında Azərbaycanda keçirilən prezident seçkilərindən sonra ATƏT MQ həmsədrlərinin vasitəçilik səyləri ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın noyabrın 19-da Vyanada növbəti görüşü keçirildi. Lakin sonrakı aylar Ermənistan tərəfindən qeyri-konstruktiv və işğalçı siyasətin davam etdirilməsi və qoşunların təmas xəttində, eləcə də Ermənistan–Azərbaycan sərhədi boyunca təxribat-diversiya əməlləri törətməsi danışıqlar prosesində irəliləyişin əldə edilməsinə imkan verməmişdir. 2014-cü ilin iyul-avqust aylarında isə qoşunların təmas xəttində vəziyyətin gərginləşməsi 25 nəfər hərbi qulluqçunun (14 azərbaycanlı və 11 erməni) ölümü ilə nəticələndi[107].

Bu gərginliyi azaltmaq məqsədilə RF-nin Prezidenti Vladimir Putinin təşəbbüsü ilə 2014-cü il avqustun 10-da Soçidə, ABŞ-ın dövlət katibi Con Kerrinin təşəbbüsü ilə sentyabrın 4-də Nyu Portda (Uelsdə) və Fransa Prezidenti Fransua Ollandın təşəbbüsü ilə oktyabrın 27-də Parisdə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Serj Sarkisyanın, eləcə də ATƏT MQ həmsədrlərinin iştirakı ilə üç görüş keçirildi. Bu görüşlər tərəflər arasında müəyyən müsbət dinamika əldə edilməsinə və təmas xəttində toqquşmaların sayının azalmasına səbəb oldu.

Paris görüşündə həmçinin itkin düşmüş şəxslərin taleyini müəyyən etmək üçün Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə məlumat mübadiləsi mexanizminin yaradılması qərara alındı[108]. Münaqişənin humanitar aspekti baxımından bu, olduqca vacib bir təşəbbüs idi və 2010, 2011 və 2012-ci illərdə RF-nin vasitəçilik səyləri çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin iştirakı ilə Həştərxanda (27 oktyabr 2010-cu il)[109] və Soçidə (5 mart 2011-ci il[110] və 23 yanvar

107 Azerbaijan launches large-scale military drills. Foreign Policy News, 14 November 2014. Available at: http://foreignpolicynews.org/about-foreign-policy-news/

108 Sommet Haut-Karabagh, Le communiqué de presse, 27 October 2014, Available at: http://www.elysee.fr/communiques-de-presse/article/sommet-haut-karabagh/

109 Meeting with Presidents of Armenia and Azerbaijan. President of Russia. October 27 2010. Astrakhan. Available at: http://en.kremlin.ru/events/president/news/9350

110 Meeting with Presidents of Armenia and Azerbaijan. President of Russia. March 5, 2011. Sochi. Available at: http://en.kremlin.ru/events/president/news/10529

2012-ci il[111]) keçirilmiş görüşlərdən sonra verilən bəyanatlarda öz əksini tapmış əsir və girov götürülmüş şəxslərin və meyitlərin qaytarılması və s. istiqamətlərdə aparılan fəaliyyətin üzvi davamı hesab edilə bilər.

2014-cü ilin iyun ayında Azərbaycanın işğal edilmiş Kəlbəcər rayonunda öz ata-baba yurdlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş və daha sonra qeyri-qanuni olaraq azadlıqdan məhrum edilmiş Rusiya vətəndaşı Dilqəm Əsgərovun, Azərbaycan vətəndaşı Şahbaz Quliyevin, eləcə də güllələnərək öldürülmüş və cəsədi sonradan Azərbaycan tərəfinə verilmiş Azərbaycan vətəndaşı Həsən Həsənovun[112] taleləri baxımından bu təşəbbüs böyük əhəmiyyət kəsb edirdi və müsbət nəticələr verə bilərdi. Lakin Paris görüşündən iki həftə keçməmiş, yəni 2014-cü ilin noyabrında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərində 46 min şəxsi heyətin və 5.000 ədəddən artıq texnikanın iştirakı[113] ilə genişmiqyaslı hərbi təlimlər zamanı təxribat törətməsi "helikopter insidenti"nin baş verməsinə və Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində vəziyyətin gərginləşməsinə səbəb oldu. Bu həm də danışıqlar prosesinin "dondurulması" ilə nəticələndi. Yalnız ATƏT MQ həmsədrlərinin səyi ilə, demək olar ki, bir ildən sonra, yəni 2015-ci il dekabrın 19-da Berndə prezidentlər səviyyəsində növbəti görüşü təşkil etmək mümkün oldu[114].

Lakin 2016-cı ilin 2-5 aprel tarixlərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı törədilən növbəti silahlı təxribat nəticəsində Azərbaycan hərbçiləri ilə yanaşı 6 mülki şəxs həlak olmuş, eləcə də 20-dən çox vətəndaş xəsarət almışdı. 600-dən çox evə ziyan dəymiş, 100-dən çox ev isə tamamilə dağıdılmışdı[115]. Bu təxribata cavab olaraq Azərbaycan silahlı qüvvələrinin uğurlu əks-hücumu düşmənin

111 Meeting with the presidents of Azerbaijan and Armenia. President of Russia. January 23, 2012. Sochi. Available at: http://en.kremlin.ru/events/president/news/14348

112 Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. Bakı, Elmin İnkişafı Fondu, 2015, s.181

113 Hikmət Hacıyev: "Ermənistanın təxribatçı əməlləri "status-kvo"nu saxlamaq məqsədi güdür". /APA, 18 dekabr, 2014-cü il - http://m.apa.az/az/dagliq_qarabag/hikmet-haciyev-ermenistanin-texribatci-emelleri-status-kvo-nu-saxlamaq-meqsedi-gudur.html

114 Press Statement by the Co-Chairs of the OSCE Minsk Group. Organization for Security and Co-operation in Europe (OSCE), Bern, 19 December 2015. Available at: http://www.osce.org/mg/211456

115 Azərbaycan və İran prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər (7 avqust 2016-cı il) - http://president.az/articles/20764

geri çəkilməsinə və Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş bir sıra strateji yüksəkliklərin alınmasına səbəb olmuşdur.

Beləliklə, ötən illər ərzində Ermənistan münaqişənin həll edilməsinə maneələr yaratmaq və danışıqlar prosesini imitasiya etməklə mövcud status-kvonu qoruyub saxlamağa çalışmışdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı heç bir tədbirin görülməməsi sülh prosesini dalana dirəmişdir.

Yalnız ötən müddət ərzində Dağlıq Qarabağ münaqişəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycanın apardığı uğurlu "hücum diplomatiyası" və 2016-cı ilin aprelində Milli Ordunun cəbhə bölgəsində uğurlu əməliyyatları son dövrlər regional və qlobal aktorların, eləcə də ATƏT MQ həmsədrlərinin və üzv dövlətlərin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyətini xeyli artırmışdır. Beləliklə, Ermənistanın mövcud status-kvonun dəyişdirilməsi ilə razılaşması və qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxarması üçün beynəlxalq ictimaiyyət tərəfindən davamlı səylər göstərilməlidir.

Hüquqi aspektlər: beynəlxalq hüququn əsas prinsipləri və ikili standartlar

Qeyd olunduğu kimi, 1991-ci il dekabrın 26-da SSRİ süqut etdikdən sonra DQMV-nin də daxil olduğu keçmiş Azərbaycan SSR-in və keçmiş Ermənistan SSR-in mövcud inzibati sərhədləri *uti possidetis juris* prinsipi əsasında dünya ictimaiyyəti tərəfindən tanındı[116].

Ötən illər ərzində beynəlxalq təşkilatlar tərəfindən bu münaqişə ilə bağlı qəbul edilmiş bir sıra hüquqi sənədlərdə Ermənistan silahlı qüvvələrinin işğalı pislənilməklə yanaşı, işğalçı qüvvələrin zəbt edilmiş ərazilərdən çıxarılması tələb edilir. İlk növbədə bu sənədlər arasında BMT TŞ-nin 1993-cü ildə qəbul etdiyi dörd qətnaməni (822, 853, 874 və 884

116 Makili-Aliyev K. Nagorno-Karabakh Conflict: When International Law Fails and Geopolitics Stagnates – a policy paper. – Daglık Karabağ Üzerine Yazılar in C.Kasımlı, E.Efegil eds., İstanbul, 2015, s.197

saylı)[117] qeyd etmək lazımdır. Həmçinin BMT BM, AP, AŞ PA, İƏT, QH tərəfindən də bu münaqişə ilə bağlı bir sıra qətnamə, bəyannamə və s. qəbul edilmişdir[118]. NATO-nun 2012-ci ilin 20 may tarixində Çikaqoda (ABŞ), 2014-cü ilin 5 sentyabr tarixində Uelsdə (Böyük Britaniya) və 2016-cı ilin 8-9 iyul tarixində Varşavada (Polşa) keçirilmiş zirvə toplantılarında qəbul edilmiş bəyannamələrində də Azərbaycan, Ermənistan, Gürcüstan və Moldova respublikalarının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi dəstəklənir, Cənubi Qafqazda və Moldova Respublikasında mövcud olan regional münaqişələrin beynəlxalq hüququn bu prinsip və normaları, BMT-nin Nizamnaməsi və Helsinki Yekun Aktı əsasında sülh yolu ilə həll edilməsi istiqamətində aparılan səylər müdafiə edilir[119]. Qeyd etmək lazımdır ki, bu bəyannamələrin heç bir müddəasında Ermənistan tərəfindən dəstəklənən beynəlxalq hüququn xalqların öz müqəddəratını təyinetmə prinsipi öz əksini tapmamışdır.

2016-cı ilin 14-15 aprel tarixlərində Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi İƏT-in XIII İstanbul Zirvə toplantısında yekdilliklə qəbul edilmiş Yekun Kommünikenin XVI və XVII bəndlərində Ermənistanın Azərbaycana qarşı təcavüzü İƏT-ə üzv dövlətlər tərəfindən bir daha qınanılmış və Ermənistandan BMT TŞ-nin 822, 853, 874 və 884 saylı qətnamələrinin icra edilməsi və öz silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ və digər ətraf

117 UNSC 822 (1993). Adopted by the Security Council at its 3205th meeting, on 30 April 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/247/71/IMG/N9324771.pdf?OpenElement; UNSC 853 (1993). Adopted by the Security Council at its 3259th meeting, on 29 July 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/428/34/IMG/N9342834.pdf?OpenElement; UNSC 874 (1993). Adopted by the Security Council at its 3292nd meeting, on 14 October 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/557/41/PDF/N9355741.pdf?OpenElement; UNSC 884 (1993). Adopted by the Security Council at its 3313th meeting, on 12 November 1993. Available at: https://documents-dds-y.un.org/doc/UNDOC/GEN/N93/631/20/PDF/N9363120.pdf?OpenElement

118 *See*, UN General Assembly Resolution 62/243; PACE Resolution 1416 (2005) "The conflict over the Nagorno-Karabakh region dealt with by the OSCE Minsk Conference"; European Parliament resolution of 20 May 2010 on the need for an EU strategy for the South Caucasus (2009/2216(INI)), paras. 8, 11, 41; OIC Resolution no. 10/11-P(IS) on the Aggression of the Republic of Armenia against the Republic of Azerbaijan

119 Chicago Summit Declaration. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Chicago on 20 May 2012, para. 47. Available at: http://www.nato.int/cps/en/natohq/official_texts_87593.htm?mode=pressrelease; Wales Summit Declaration. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Wales on 5 September 2014, para 30, 31. Available at: http://www.nato.int/cps/en/natohq/official_texts_112964.htm; Warsaw Summit Communiqué. Issued by the Heads of State and Government participating in the meeting of the North Atlantic Council in Warsaw 8-9 July 2016, para 24. Available at: http://www.nato.int/cps/en/natohq/official_texts_133169.htm

rayonlarından dərhal, tam və qeyd-şərtsiz çıxarması tələb edilmişdir. Bu toplantıda eləcə də Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair xarici işlər nazirləri səviyyəsində İƏT Kontakt Qrupunun yaradılması qərara alınmışdır[120]. Qeyd etmək lazımdır ki, bu qrupun üzvləri arasında Türkiyə, Mərakeş, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Qambiya və Cibutinin nümayəndələri vardır. Onlar coğrafi təmsilçilik baxımından İƏT çərçivəsindəki bütün regionları təmsil edirlər. 2016-cı ilin sentyabrında BMT BM-in Nyu Yorkda keçirilmiş 71-ci sessiyası çərçivəsində İƏT Baş katibinin sədrliyi ilə Kontakt Qrupunun ilk iclası keçirilmişdir[121].

2016-cı ilin 17-18 sentyabr tarixlərində Venesuela Bolivar Respublikasının Marqarita adasında keçirilmiş QH-nin XVII sammitinin yekun sənədində də bu təşkilata üzv olan dövlət və hökumət başçıları BMT TŞ-nin qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrə baxmayaraq, Ermənistan və Azərbaycan arasındakı münaqişənin həll edilməməsinə və onun beynəlxalq və regional sülh və təhlükəsizlik üçün təhdid olmaqda qalmasına təəssüf etdiklərini bildirmişlər. Onlar BMT-nin Nizamnaməsində əks edilmiş gücün tətbiq edilməməsi prinsipinin vacibliyini bir daha təsdiqləyərək, tərəfləri Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınmış sərhədləri əsasında münaqişəni həll etməyə çağırmışlar[122].

Sözügedən sənədlərdə beynəlxalq hüquq baxımından işğal faktı açıq-aydın tanınsa da, təəssüf ki, real vəziyyət hüquqi reallıqları əks etdirmir. Bunun nəticəsi olaraq beynəlxalq hüququn məcburi şəkildə işləməsinin təmin edilməsi tez-tez beynəlxalq aləmdə dalana dirənir. Belə vəziyyətin yaranma səbəbləri arasında bəzi dövlətlərin iradəsinin çatışmamasını, bəzən kifayət qədər resursların olmamasını və bəzən də beynəlxalq hüququn məcburi şəkildə işləməsinin təmin edilməsinə olan ehtiyacın tamamilə unudulmasını göstərmək olar. Ermənistan–Azərbaycan

120 Final Communique of the 13th Islamic Summit Conference (Unity and Solidarity for Justice and Peace). Istanbul, Republis of Turkey, 14-15 April, 2016, Available at: http://www.oic-oci.org/upload/conferences/is/13/en/13_is_final_com_en.pdf

121 Elmar Məmmədyarov: "Bu gün Azərbaycan beynəlxalq münasibətlər sistemində hesablaşılan güclü ölkədir". /27 yanvar 2016-cı il/ - http://azertag.az/xeber/Elmar_Memmedyarov_Bu_gun_Azerbaycan_beynelxalq_munasibetler_sisteminde_hesablasilan_guclu_olkedir-1022900

122 Final Document. 17th Summit of Head of State and Government of the Non-Aligned Movement. Island of Margarita, Bolivarian Republic of Venezuela, 17-18 September 2016, pp.129-130

Dağlıq Qarabağ münaqişəsindəki beynəlxalq hüququn uğursuzluğu da ilk növbədə beynəlxalq ictimaiyyətin cəhdlərinin dalana dirənməsi ilə izah edilə bilər.

Yuxarıda qeyd edilən və bu günədək yerinə yetirilməyən BMT TŞ-nin dörd qətnaməsi 1993-cü ildə, yəni Ermənistanın Azərbaycanın suveren ərazisinin bir hissəsini ilhaq etmək məqsədilə həyata keçirdiyi təcavüzün başlanğıc mərhələsində qəbul edilmişdir. Bu qətnamələrdə BMT TŞ Azərbaycan ərazilərindən bütün işğalçı qüvvələrin çıxarılmasını tələb edir[123]. Lakin Ermənistan hələ də bu qətnamələri yerinə yetirməmişdir.

Halbuki BMT Nizamnaməsinin 25-ci maddəsinə əsasən, "Birləşmiş Millətlər Təşkilatının üzvləri razılaşırlar ki, bu Nizamnaməyə uyğun olaraq Təhlükəsizlik Şurasının qərarlarına tabe olsunlar və onları yerinə yetirsinlər"[124], bu isə öz növbəsində o deməkdir ki, BMT TŞ-nin qətnamələrinin icrası Ermənistan Respublikası da daxil olmaqla, BMT-yə üzv bütün dövlətlər üçün məcburi xarakter daşımalıdır.

Digər tərəfdən, BMT Nizamnaməsinin "Sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər" adlı VII fəslində əksini tapmış 39-cu maddəyə əsasən, "Təhlükəsizlik Şurası hər bir halda sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasını müəyyən edir və tövsiyələr verir, yaxud beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması üçün 41-ci və 42-ci maddələrə uyğun olaraq hansı tədbirlərin görülməsi haqqında qərar qəbul edir"[125]. Beləliklə, BMT TŞ hər hansı bir dövləti öz qətnamələrinə əməl etməyə məcbur etmək üçün kifayət qədər səlahiyyətlərə və vasitələrə malikdir.

TŞ istənilən dövlətlə bağlı qəbul edilmiş qətnamələrin yerinə yetirilməsinə nail olmaq üçün BMT Nizamnaməsinin 41-ci maddəsinə uyğun olaraq prosedur başlaya və öz qətnamələrinin tələblərini yerinə yetirməyən dövlətə qarşı qeyri-hərbi xarakter daşıyan tədbirlər həyata keçirə bilər (məsələn, belə tədbirlər "iqtisadi münasibətlərin və dəmir yolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin

123 Krüger H. The Nagorno-Karabakh Conflict. A Legal Analysis.London, New York: Springer, 2010, p.106.

124 Charter of the United Nations. Chapter V. Article 25. Available at: http://www.un.org/en/sections/un-charter/chapter-v/index.html

125 Yenə orada, VII hissə, maddə 39

kəsilməsini özündə əhatə edə bilər")[126]. Bu tədbirlər kifayət etmədiyi halda, BMT TŞ Təşkilatın Nizamnaməsinin 42-ci maddəsinə uyğun olaraq, hərbi sanksiyalardan da istifadə edə bilər (belə olan halda "o, hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması və ya bərpası üçün zəruri olan tədbirlər görə bilər")[127].

Təəssüf ki, BMT TŞ yuxarıda qeyd edilən prosedurların heç birindən Ermənistanı bu təşkilatın qərarlarını yerinə yetirməyə məcbur etmək üçün indiyədək istifadə etməmişdir. Belə olan halda Azərbaycan Respublikası BMT Nizamnaməsinin 51-ci maddəsində verilən özünümüdafiə hüququndan istifadə edə bilər: "Bu Nizamnamənin heç bir müddəası, əgər Birləşmiş Millətlər Təşkilatının üzvünə qarşı silahlı basqın baş verərsə, Təhlükəsizlik Şurası tərəfindən beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması üçün zəruri olan tədbirlər görülənə qədər ayrılmaz xarakter daşıyan fərdi və ya kollektiv özünümüdafiə hüququna xələl gətirmir"[128]. Beləliklə, bu müddəanı nəzərə alaraq, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməsi üçün bütün mümkün tədbirlərə əl atması "ayrılmaz" özünümüdafiə hüququnun həyata keçirilməsi kimi qəbul oluna bilər.

Qeyd edildiyi kimi, ATƏT və MQ-nin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və həlli ilə məşğul olması bu münaqişəyə münasibətdə BMT Nizamnaməsinin "Mübahisələrin dinc yolla həll olunması" adlı VI fəslinin tətbiq edilməsi ilə əlaqədardır. Adətən, BMT TŞ beynəlxalq sülhə və təhlükəsizliyə təhdid yaradan vəziyyətlə rastlaşanda və onun həlli ilə məşğul olanda digər beynəlxalq və regional təşkilatların bu məsələ ilə bağlı səlahiyyətləri dayandırılır. Əgər TŞ-nin 41-ci və ya 42-ci maddələri tətbiq edilmirsə, onda bu halda BMT Nizamnaməsinin VI fəslinə uyğun olaraq qəbul olunan qərarın yerinə yetirilməsi ilə bağlı səlahiyyətlər digər regional və ya beynəlxalq təşkilatlara ünvanlanır. Bu hal TŞ-nin 822 saylı qətnaməsində də öz əksini tapmışdır[129].

126 Yenə orada, VII hissə, maddə 41
127 Yenə orada, VII hissə, maddə 42
128 Yenə orada, VII hissə, maddə 51
129 UNSC 822 (1993). Adopted by the Security Council at its 3205th meeting, on 30 April 1993. Available at: https://documents-dds-ny.un.org/doc/UNDOC/GEN/N93/247/71/IMG/N9324771.pdf?OpenElement

Bundan əlavə, sülh prosesi çərçivəsində beynəlxalq hüquq prinsipləri anlayışında da özünəməxsus paradoksal vəziyyət yaranmışdır. Daha dəqiq desək, dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə hüququ prinsiplərinin mahiyyəti müasir beynəlxalq münasibətlər sistemində təhrif edilir.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesində münaqişə tərəfləri yuxarıda qeyd edilən beynəlxalq hüququn dövlətlərin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə hüququ prinsiplərinin birinin digəri üzərində üstünlüyünə dair müxtəlif mövqelərdən çıxış edirlər. Bu kontekstdə həmçinin erməni tərəfinin irəli sürdüyü "ərazi bütövlüyü" və "sərhədlərin toxunulmazlığı" terminləri ilə bağlı yanlış fərziyyələrini (onlar bu iki məfhumun bir-biri ilə əlaqəsini inkar edirlər) də qeyd etmək olar. Eyni zamanda ekspert dairələrində bu prinsiplərin toqquşmasına dair fikirlər də mövcuddur. Ümumilikdə götürdükdə isə bütün bu yanaşmalar reallığı əks etdirmir.

Məlum olduğu kimi, beynəlxalq hüququn əsas prinsiplərinin əksəriyyəti BMT-nin Nizamnaməsində əksini tapmışdır. Bu prinsiplər uzun müddətdir beynəlxalq adət hüququnun tərkib hissəsini təşkil edərək, dünyanın bütün dövlətləri üçün məcburi xarakter daşıyır. Ərazi bütövlüyü prinsipi də bu sıradandır[130]. Ümumilikdə götürdükdə, bu prinsipin 1945-ci ildə BMT-nin Nizamnaməsinə[131] daxil edilməsinin əsas məqsədi İkinci Dünya müharibəsinin (və ondan əvvəlki müharibələrin) təcrübəsinin təkrar edilməməsinə və dövlətlərin bir-birinə qarşı işğalçı müharibələrə başlamamasına nail olmaq idi. Bu prinsip ATƏM-in 1975-ci ildə Helsinki Yekun Aktının qəbul edilməsi ilə daha da inkişaf etdirilmişdir. Bu sənədə əsasən, "iştirakçı dövlətlər hər bir iştirakçı dövlətin ərazi bütövlüyünə hörmətlə yanaşacaqlar. Buna uyğun olaraq iştirakçı dövlətlər Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsipləri ilə üst-üstə düşməyən və hər hansı bir iştirakçı dövlətin ərazi bütövlüyünün, siyasi müstəqilliyinin və ya vahidliyinin əleyhinə olan, xüsusən gücün tətbiq ediləcəyinə dair təhdid və ya

130 Marcelo G. Kohen , in: Kohen (ed.), Secession. International Law Perspectives, – (Cambridge), 2006, pp.6 et seq.

131 Charter of the United Nations. Chapter I . Article 2.(4). Available at: http://www.un.org/en/sections/un-charter/chapter-i/index.html

güc tətbiq etməyi nəzərdə tutan hərəkətdən çəkinməlidirlər. İştirakçı dövlətlər eyni qaydada bir-birinin ərazisinin hərbi yolla işğalını və ya beynəlxalq hüquqa zidd olan digər birbaşa və ya dolayı güc tədbirlərinin obyekti və ya belə tədbirlərdən istifadə etməklə ilhaq obyekti və ya belə tədbirlərin tətbiq ediləcəyinə dair təhdid etməkdən çəkinməlidirlər. Heç bir bu cür işğal və ya ilhaq hüquqi cəhətdən tanınmayacaqdır"[132].

Sərhədlərin toxunulmazlığına dair beynəlxalq hüquq normaları ərazi bütövlüyü prinsipinin bir hissəsidir və bu, Helsinki Yekun Aktı tərəfindən təsdiqlənir: "İştirakçı dövlətlər bir-birinin və eləcə də Avropadakı bütün dövlətlərin sərhədlərini toxunulmaz hesab edir. Ona görə də indi və gələcəkdə bu sərhədlərə hücum etməkdən çəkinəcəklər"[133]. Öz növbəsində bu normalar dövlətlərdən: 1) mövcud sərhədlərin beynəlxalq hüquqa uyğun olaraq məcburi şəkildə toxunulmazlığının tanınmasını; 2) indi və ya gələcəkdə hər hansı bir ərazi iddiasından çəkinməsini; 3) bu məsələ ilə bağlı gücün tətbiq ediləcəyinə dair təhdid və ya güc tətbiq edilməsi də daxil olmaqla, bu sərhədlərin istənilən yolla pozulmasından çəkinməsini tələb edir. Beləliklə, ərazi bütövlüyü prinsipi yalnız sərhədlərin toxunulmazlığını deyil, eləcə də bir sıra digər alt prinsipləri əhatə edir. O, yalnız maraqlı dövlətlərin beynəlxalq münasibətlərini deyil, eləcə də daxili məsələləri özündə ehtiva edir[134].

Beləliklə, yuxarıda qeyd edilən prinsiplər Ermənistana münasibətdə beynəlxalq müqavilə hüququ baxımından nəzərdən keçirilməməlidir, çünki onlar uzun müddət ərzində beynəlxalq adət hüququnun tərkib hissəsi olmuşdur və dünyanın bütün dövlətləri üçün məcburi xarakter daşıyır. Digər tərəfdən, erməni tərəfi xalqların öz müqəddəratını təyinetmə prinsipinin münasibliyinə və yerinə yetirilməsinə əsaslanır.

Beynəlxalq hüququn əsas prinsiplərindən olan və BMT Nizamnaməsində öz əksini tapmış öz müqəddəratını təyinetmə prinsipi geniş mənada (sessesiya hüququ da daxil olmaqla), faktiki olaraq, "ölü" prinsipdir. Dar mənada isə bu prinsip mədəni, dini və linqvistik məsələlərdə azlıqların öz müqəddəratını təyin etməsi kontekstində tətbiq edilə bilər. Helsinki Yekun Aktında əks etdirilmiş normalar bu mövqeyi

132 1975 Helsinki Final Act, 1, IV. - http://www.osce.org/mc/39501?download=true

133 Yenə orada, 1, III.

134 Marcelo G. Kohen , in: Kohen (ed.), Secession. International Law Perspectives, – (Cambridge), 2006, p.7.

dəstəkləyir: "İştirakçı dövlətlər daim Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də beynəlxalq hüququn müvafiq normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyünə uyğun şəkildə davranaraq, xalqların bərabər hüquqlarına və öz müqəddəratını təyinetmə hüquqlarına hörmətlə yanaşacaqlar. Xalqların bərabər hüquqlarına və öz müqəddəratını təyinetmə hüququ prinsipinə görə, bütün xalqların həmişə tam azad şəkildə, istənilən vaxt və arzuladıqları kimi öz daxili və xarici siyasi statusunu heç bir xarici müdaxilə olmadan müəyyən etmək və arzuladıqları kimi öz siyasi, iqtisadi, ictimai və mədəni inkişafını davam etdirmək hüququ vardır. İştirakçı dövlətlər onlar və bütün dövlətlər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi məqsədilə xalqların bərabər hüquqlarının və öz müqəddəratını təyin etməsinin hərtərəfli əhəmiyyətini və səmərəli istifadəsini bir daha təsdiq edirlər; onlar həmçinin bu prinsipin istənilən formada pozulmasının, ləğvinin əhəmiyyətini yada salırlar"[135].

Beləliklə, "xalqlar" dövlətlərin ərazi bütövlüyünə dair beynəlxalq hüquq normalarından kənara çıxmadan öz müqəddəratlarını təyin edə bilərlər. Məhz buna görə də ATƏT-in əsas hüquqi alətlərindən biri olan 1975-ci il Helsinki Yekun Aktında xalqların öz müqəddəratını təyinetmə prinsipi dar mənada öz əksini tapır.

1960-1970-ci illərdə müstəmləkəçiliyin ləğv edilməsindən sonra bu prinsip geniş mənada daha istifadə edilməmişdir. Qeyd etmək lazımdır ki, bu prinsip xüsusilə müstəmləkəçiliyin və imperializmin aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinə daxil edilmişdir. Bu prinsiplə bağlı yanaşmanı həmçinin BMT BM tərəfindən qəbul edilmiş "BMT-nin Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq əlaqələri və əməkdaşlığa dair beynəlxalq hüquq prinsipləri haqqında Bəyannamə" də dəstəkləyir: "Hər bir dövlətin a) dövlətlər arasında dostluq əlaqələrini və əməkdaşlığı təbliğ etmək; b) maraqlı olan xalqların iradəsinin azad şəkildə ifadə edilməsinə hörmətlə yanaşaraq və xalqların xarici əsarət, hökmranlıq və istismara məruz qalması prinsipinin pozulmasının, eləcə də fundamental insan hüquqlarının inkar edilməsinin Nizamnaməyə zidd olmasını nəzərə alaraq, müstəmləkəçiliyə tez bir zamanda son qoymaq məqsədilə birgə

135 1975 Helsinki Final Act, 1, VIII. - http://www.osce.org/mc/39501?download=true

və müstəqil fəaliyyət göstərərək, Nizamnamənin müddəalarına uyğun olaraq bərabər hüquqlar və xalqların öz müqəddəratını təyinetmə prinsipini təbliğ etmək və bu prinsipin həyata keçirilməsi üçün Nizamnamə tərəfindən BMT-yə verilən öhdəliklərin yerinə yetirilməsinə dəstək vermək vəzifəsi vardır... Nizamnaməyə uyğun olaraq müstəmləkə və ya özü tərəfindən idarə edilməyən ərazilərin onu idarə edən dövlətin ərazisindən ayrı və fərqli status daşımaq hüququ vardır; Nizamnaməyə və xüsusilə də onun məqsəd və prinsiplərinə uyğun olaraq müstəmləkə və ya özü tərəfindən idarə edilməyən ərazidəki xalq öz müqəddəratını təyinetmə hüququndan istifadə edənə qədər Nizamnaməyə uyğun olaraq həmin ayrı və fərqli status mövcud olmalıdır"[136].

Nizamnamədə xüsusilə vurğulanır ki, "xalq" məfhumu altında müstəmləkəçilər tərəfindən əsarət altında yaşayan xalq nəzərdə tutulur, lakin dekolonizasiya prosesinin başa çatması nəticəsində belə xalqlar artıq uzun müddətdir öz müqəddəratlarını təyin etmişlər. Dağlıq Qarabağ isə heç vaxt Azərbaycanın ərazisində müstəmləkə olmamışdır. Buradakı erməni əhali, faktiki olaraq, milli azlıqdır və bəyannamədə göstərilən mənada "xalq" kimi qəbul edilmir. Beynəlxalq hüququn prinsiplərinə müvafiq olaraq qeyd etmək lazımdır ki, milli azlıqların geniş mənada öz müqəddəratını təyinetmə hüququ yoxdur, çünki bu "millətlər" (xalqlar) artıq öz müqəddəratlarını təyin etmişlər və eyni qaydada ermənilər də bu hüquqdan istifadə edərək Ermənistan Respublikasını yaratmışlar. Bu baxış həmçinin beynəlxalq hüquq doktrinalarında dəstəklənir[137].

Beləliklə, geniş mənada xalqların öz müqəddəratını təyinetmə prinsipi hüquqi cəhətdən Dağlıq Qarabağ münaqişəsinə tətbiq edilə bilməz. Buna baxmayaraq, bu gün sülh prosesinin gedişində erməni tərəfi bu prinsipin əsl mənasını təhrif edərək ortaya müxtəlif fərziyyələr atmağa çalışır.

Erməni tərəfinin daha bir yanlış iddiası Dağlıq Qarabağdakı separatçı rejimin 1933-cü il Montevideo Konvensiyasına müvafiq olaraq beynəlxalq səviyyədə tanınması ilə əlaqədardır. Həmin konvensiyanın 1-ci maddəsinə

136 UN General Assembly Declaration on principles of international law concerning Friendly Relations and Co-operation among States in accordance with the Charter of the United Nations, 1970, A/RES/25/2625. - http://www.un-documents.net/a25r2625.htm

137 Krüger H. The Nagorno-Karabakh Conflict. A Legal Analysis.London, New York: Springer, 2010, pp.53-92

əsasən, "[d]övlət beynəlxalq hüququn subyekti olaraq aşağıdakı keyfiyyətlərə: a) daimi əhaliyə; b) müəyyən edilmiş əraziyə; c) hökumətə və d) digər dövlətlərlə əlaqələr yaratmaq qabiliyyətinə malik olmalıdır"[138]. Erməni tərəfinin irəli sürdüyü iddialar isə bu baxımdan əsassız görünür.

İlk olaraq qeyd etmək lazımdır ki, Dağlıq Qarabağdakı separatçı rejim tərəfindən hazırda idarə edilən ərazilər yalnız Ermənistan Respublikası tərəfindən işğal edilmiş keçmiş DQMV-yə aid deyil, həmçinin buraya Azərbaycan Respublikasının əlavə yeddi inzibati rayonunun əraziləri də daxildir. Beləliklə, separatçıların qondarma "DQR"-in sərhədlərini necə çəkəcəkləri məlum deyil. Lakin aydındır ki, hazırda Ermənistanın və Azərbaycanın silahlı qüvvələrinin yerləşdiyi olduqca həssas təmas xətti sərhəd kimi götürülə bilməz. Eyni zamanda qondarma "DQR"-in həm əhalisini, həm də onların vətəndaşlığını müvafiq sərhədlər olmadan müəyyən etmək qeyri-mümkündür. İşğal edilmiş ərazilərdə de-fakto yaşayan əhalini öz vətəndaşları kimi qələmə verməyə çalışan separatçıların etnik təmizləmə nəticəsində Dağlıq Qarabağdan zorla qovulmuş azərbaycanlı əhalisini bu qrupa aid etməmələri sual doğurur. İşğal edilmiş ərazilərin birbaşa Ermənistan Respublikası tərəfindən idarə edilməsi "DQR"-in separatçı rejiminin qəbul edilmiş hökumət anlayışına uyğun gəlmədiyini də sübut edir[139]. Separatçı rejimin həm siyasi, həm də iqtisadi cəhətdən Ermənistana tabe olması onun müstəqil idarəetmə keyfiyyətlərinə malik olmadığını təsdiqləyir. Nəhayət, Ermənistan Respublikası da daxil olmaqla, dünyada heç bir dövlətin bu separatçı rejimi tanımaması "DQR"-in beynəlxalq hüququn digər subyektləri ilə əlaqələr (diplomatik) yaratmaq qabiliyyətinə malik olmadığını bir daha təsdiq edir.

Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə alaraq, beynəlxalq hüququn nə üçün bu münaqişənin həllində uğursuzluğa uğramasının əsas səbəbləri arasında aşağıdakı məqamları qeyd etmək lazımdır.

İlk növbədə bəzi dövlətlərin beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək üçün siyasi iradəsinin olmaması nəticəsində Ermənistan Respublikasının işğalçılıq siyasəti bu dövlətlər tərəfindən

138 Montevideo Convention on Rights and Duties of States, 1933. - http://www.cfr.org/sovereignty/montevideo-convention-rights-duties-states/p15897

139 Case of Chiragov and Others v. Armenia, 13216/05, Judgment, The European Court of Human Rights, Grand Chamber, 16 June 2015, para. 186.- http://bit.ly/28QqNv9

ittiham edilməmiş və bu işğalçı dövlətə qarşı müvafiq cəza tədbirləri həyata keçirilməmişdir.

İkincisi, BMT TŞ-nin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi qətnamələrinin yerinə yetirilməsində maraqlı olmaması münaqişənin həlli prosesində vasitəçilik missiyasının BMT-dən ATƏT kimi beynəlxalq hüququn heç bir səmərəli tətbiq mexanizmlərinə və vasitələrinə malik olmayan regional təşkilata ötürülməsinə və nəticədə münaqişənin həlli prosesinin uzanmasına və beynəlxalq hüquq kontekstində bəzi anlayışların əvəzlənməsinə gətirib çıxarmışdır.

Üçüncüsü, beynəlxalq hüquq çərçivəsində ən güclü dəstəkləyici rolu olan beynəlxalq ictimaiyyətin bu münaqişənin qaynar mərhələsində ona kifayət qədər diqqət yetirməməsi və əsas səylərini Balkanlara və daha sonra Ruandadakı soyqırımına yönəltməsi müasir beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartlarla izah edilməlidir.

Dördüncüsü, beynəlxalq hüququn siyasiləşməyə və onun normalarının müxtəlif spekulyasiyalara məruz qalması son nəticədə kifayət qədər həssas bir proses olan dövlətlərin hərəkətlərinin legitim və ya qeyri-legitim (beynəlxalq hüquq pozuntuları) kimi tanınması prosesinə ciddi ziyan vurmuşdur.

Təhlükəsizlik məsələləri

İlk növbədə qeyd etmək lazımdır ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələri Cənubi Qafqaz bölgəsinin və qonşu dövlətlərin geosiyasi vəziyyətinə mənfi təsir göstərmişdir. Bu bölgənin geosiyasi və geoiqtisadi baxımdan böyük əhəmiyyət kəsb etməsi müxtəlif regional və qlobal aktorların onunla bağlı bəzən ziddiyyətli maraq və müvafiq davranışlarına malik olmasına gətirib çıxarmışdır.

Regional təhlükəsizlik problemlərinin əsasını təşkil edən bu münaqişə Ermənistanla Azərbaycan arasında mövcud olmasına baxmayaraq, eyni zamanda regionun digər dövlətləri üçün də təhdid kimi qiymətləndirilməlidir. İki dövlət arasında diplomatik münasibətləri heçə endirən, bölgənin logistik seçimlərinin sayının azalmasına səbəb olan, iqtisadi baxımdan bölgənin davamlı inkişafına zərbə vurmaqla onun regional enerji və infrastruktur layihələrinin

reallaşmasına çətinliklər yaradan bu beynəlxalq təhlükəsizlik dilemması Cənubi Qafqaz bölgəsinin və qonşu dövlətlərin təhlükəsizlik siyasətinin formalaşdırılmasını çətinləşdirir. Beləliklə, həll edilməmiş Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regionda yaranan təhlükəsizlik problemlərinin əsas mənbələrindən biri hesab edilməlidir.

Ümumiyyətlə, münaqişə nəticəsində yaranmış qeyri-sabit təmas xətti və Ermənistan–Azərbaycan sərhədlərindəki vəziyyət beynəlxalq sülh və təhlükəsizlik üçün əsas təhdidlərdən biridir. Həmçinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərinin "boz zona"ya çevrilməsi insan alveri, narkotik vasitələrin yetişdirilməsi və digər ərazilərə ötürülməsi, silah qaçaqmalçılığının intişar tapması üçün əlverişli şərait yaratmışdır. Xüsusilə vurğulamaq lazımdır ki, İranla sərhədin 132 kilometrlik hissəsi işğal səbəbindən Azərbaycanın nəzarətindən kənarda qalmışdır[140].

Beynəlxalq silahlı münaqişə şəraitində yaşayan ölkə üçün sərhəd təhlükəsizliyi olduqca vacib məsələdir. Azərbaycan postsovet məkanında yerləşən və geosiyasi baxımdan fraqmentarlığı, təhlükəsizlik perspektivindən qeyri-sabitliyi ilə seçilən Cənubi Qafqaz bölgəsinin bir dövləti olaraq Gürcüstan, İran və Rusiya ilə sərhədlərinin təhlükəsizliyinin təmin edilməsinə çalışır.

Transsərhəd cinayətkarlıqla mübarizə aparmaq üçün səmərəli strategiyaların yaradılması və regional əməkdaşlıq sahəsində həyata keçirilən tədbirlərdə iştirakın təmin edilməsi bölgənin bütün dövlətlərinin ümumi maraq dairəsindədir. Bir sıra amilləri nəzərə alaraq qeyd etmək olar ki, Azərbaycanın İİR və RF ilə sərhədləri, təbii olaraq, təhlükəsizlik baxımından müvafiq çağırışlarla üzləşir. Məsələn, RF-nin ərazisində yerləşən Şimali Qafqazda qeyri-sabitliyin pozulması Azərbaycanla bağlı transsərhəd təhlükəsizliyinə birbaşa təsir göstərə bilər. Eyni zamanda İrandan qaynaqlanan qaçaqmalçılıq problemləri hal-hazırda Azərbaycanın təhlükəsizlik sektoru üçün ciddi təhdid mənbəyidir. Beləliklə, Azərbaycan ümumi təhlükəsizlik sahəsində kollektiv tədbirlərin həyata keçirilməsi üçün qonşu dövlətlərin təhlükəsizlik sektorları ilə daha yaxın əməkdaşlıq etməkdə olduqca maraqlıdır.

140 11th OSCE Economic Forum on Trafficking in Human Beings, Drugs, Small Arms and Light Weapons: National and international economic impact, 2003, Country Report: Azerbaijan, p.23

Bununla yanaşı, vurğulamaq lazımdır ki, Azərbaycan da daxil olmaqla, istənilən dövlət sərhəd təhlükəsizliyi ilə bağlı bir sıra təhdidlərlə üzləşir. Bu təhdidlərə misal olaraq insan və odlu silah alveri, uşaqların seksual sui-istifadəsi, kibercinayətkarlıq, saxta pulların dövriyyəsi ilə məşğul olma, "çirkli" pulların yuyulması, qaçaqmalçılıq, qeyri-qanuni miqrasiya və s.-ni qeyd etmək olar[141]. Bu təhdidlərə cavab vermək üçün Azərbaycan daha böyük institusional potensiala malik olmalı, hərtərəfli bilik və bacarıqların inkişaf etdirilməsinə diqqət yetirməli və daha geniş regional əməkdaşlıq qurmağa çalışmalıdır. Lakin həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal edilmiş ərazilər vasitəsilə qaçaqmalçılıq və terror fəaliyyətinin həyata keçirilməsi Azərbaycanın transsərhəd cinayətkarlıqla mübarizə aparmasına maneə yaradır.

Azərbaycanın böyük enerji resurslarının olması onun enerji təhlükəsizliyinin təmin olunmasını tələb edir. Müstəqillik əldə etdikdən sonra Azərbaycan Qərbin vacib enerji ixracatçısına çevrilmiş və bununla həm özünün enerji təhlükəsizliyini təmin etmiş, həm də Avropanın enerji təhlükəsizliyinə ciddi töhfə vermişdir[142]. Nəzərə alsaq ki, Azərbaycanın enerji ixrac marşrutlarının böyük əksəriyyəti Türkiyə və Gürcüstan ərazisindən keçməklə Avropaya istiqamətlənmişdir, onda, heç şübhəsiz, ilk növbədə ölkə üçün enerji təhlükəsizliyi məsələsinin önəm daşıdığına lazımi qiymət verilməlidir.

Bununla yanaşı, həm enerjinin Qərbə doğru sərbəst axınında, həm də enerji mənbələrinin təhlükəsizliyinin təmin edilməsində maraqlarımız üst-üstə düşür. Azərbaycanın enerji mənbələrinin böyük hissəsinin Xəzər dənizində yerləşməsi təhlükəsizlik baxımından bu hövzənin müdafiə edilməsini zərurətə çevirir. Eyni zamanda cəbhə xəttinin Azərbaycanın önəmli enerji infrastrukturunun (xətlərinin) kifayət qədər yaxınlığından keçməsi enerji resurslarının daşınması prosesində müəyyən təhdidlərin yaranmasına gətirib çıxara bilər.

141 Makili-Aliyev K. Eastern Partnership and Border Security: Perspective of Azerbaijan, In: Frappi, Carlo & Pashayeva, Gulshan (eds.), The EU Eastern Partnership: Common Framework or Wider Opportunity? EGEA, 2012, Milan p.160

142 Rzayeva G. The Southern Corridor: Azerbaijani Perspective from Well Head to End Users, In: Frappi, Carlo & Pashayeva, Gulshan (eds.), The EU Eastern Partnership: Common Framework or Wider Opportunity? EGEA, 2012, Milan, p.124

Nəticə

Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsindən 25 il keçir. Bu illər ərzində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan hökumətinin apardığı xarici siyasətin əsas prioriteti olaraq qalmışdır.

Lakin əfsuslar olsun ki, 1994-cü ildə atəşkəs haqqında saziş bağlandıqdan sonra münaqişənin həlli istiqamətində aparılan danışıqlar heç bir müsbət nəticə verməmişdir. Bunun əsas səbəbi Ermənistan rəhbərliyinin bütün vasitələrdən istifadə edərək mövcud status-kvonu dəyişməz olaraq qoruyub saxlamağa yönəlmiş destruktiv siyasətidir. O, beynəlxalq səviyyədə indiyədək heç bir təzyiqlə rastlaşmadığı üçün işğal etdiyi Azərbaycan ərazilərindən geri çəkilməmiş və nəticədə ötən illər ərzində münaqişənin həlli istiqamətindəki danışıqlar prosesində irəliləyiş əldə etmək mümkün olmamışdır.

Digər tərəfdən, son illər ərzində Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin pozulma halları və Ermənistan qoşunları tərəfindən törədilmiş təxribatların sayı xeyli artmışdır. 2016-cı ilin 2-5 aprel tarixlərində təmas xəttində baş vermiş ağır döyüşlər buna bariz misaldır. Məhz Ermənistan silahlı qüvvələrinin cəbhəboyu ərazilərdə törətdiyi bu təxribata cavab olaraq Azərbaycan Ordusunun əks-hücumu Ermənistan tərəfindən işğal edilmiş bir sıra strateji yüksəkliklərin geri alınmasına və danışıqlar prosesinin, öz növbəsində, intensivləşməsinə gətirib çıxarmışdır.

2016-cı il mayın 5-də RF-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargah rəislərinin iştirakı ilə tərəflər arasında atəşkəsə dair razılıq əldə edilmişdir. ABŞ-ın təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentləri arasında mayın 16-da Vyanada və RF Prezidenti Vladimir Putinin təşəbbüsü ilə iyunun 20-də Azərbaycan, Ermənistan və RF prezidentlərinin iştirakı ilə Sankt-Peterburqda yüksək səviyyəli görüşlər keçirilmişdir.

Bu müzakirələrdən sonra sülh danışıqlarında müsbət bir dinamikanın yaranmasına baxmayaraq, sonrakı aylar Ermənistanda daxili vəziyyətin gərginləşməsi, sentyabrın 21-də İrəvanda keçirilən hərbi parad zamanı Ermənistanın Rusiyadan aldığı bəzi yeni silahları, o cümlədən "İsgəndər"

operativ-taktiki raket komplekslərini nümayiş etdirməsi və eləcə də sentyabr-noyabr aylarında Azərbaycanın işğal edilmiş ərazilərində təlimlər keçirməsi danışıqlar prosesinə ciddi ziyan vurmuşdur.

Eyni zamanda sentyabrın 29-da ABŞ-ın dövlət katibi Con Kerrinin Vaşinqtonda Atlantik və Aspen İnstitutunda etdiyi çıxış zamanı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu gün həllinin qeyri-mümkün olmasını bəyan etməsi və bunun səbəbi kimi ölkələrin liderlərinin buna hazır olmamasını bildirməsi[143] Azərbaycanda dövlət strukturları və cəmiyyət tərəfindən çox mənfi qarşılanmışdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun fikrincə, ABŞ-ın dövlət katibi Con Kerrinin liderlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə hazır olmadığı haqqında bəyanatı Azərbaycanı təəccübləndirir və məyus edir. O, ABŞ-ın Azərbaycan torpaqlarının azad edilməsi üçün BMT TŞ-nin dörd qətnaməsinin qəbul edilməsinə səs verdiyini, bir sıra beynəlxalq təşkilatların qətnamə və qərarlar qəbul etdiklərini, eləcə də ATƏT MQ-nin üç həmsədr dövlətinin prezidentlərinin status-kvonun dəyişməli olduğunu bəyan etdiklərini vurğulamış, eyni zamanda onların indiyədək Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı yeddi rayonunun azad edilməsi ilə bağlı müvafiq mövqe bildirməməsini əsas gətirərək, Azərbaycanın Con Kerrinin liderlərin münaqişənin həllinə hazır olmaması haqqındakı bəyanatını qəbul etmədiyini bildirmişdir[144].

Azərbaycan Prezidenti İlham Əliyev də "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibə zamanı ABŞ-ın dövlət katibi Con Kerrinin "bəyanat"ına xüsusi olaraq toxunmuş və onun qəbuledilməz olduğunu bildirərək, "diplomatik kazus" adlandırmışdır. Onun fikrincə, bu bəyanat münaqişənin nə üçün bu günədək həll edilmədiyini aydın şəkildə göstərir. Bunun əsas səbəbi isə beynəlxalq təşkilatların qərarlarının, qətnamələrinin yerinə yetirilməməsi, təcavüzkar ölkəyə təzyiq göstərilməməsi və hətta əksinə,

143 Remarks John Kerry Secretary of State at the Atlantic and Aspen Institute. Harman Center of Arts, Washington, DC, 29 September 2016. The official website of US State Department. Available at: https://www.state.gov/secretary/remarks/2016/09/262581.htm

144 Novruz Məmmədov: "Con Kerrinin bəyanatı təəssüf doğurur". /7 oktyabr 2016-cı il/ - http://az.trend.az/azerbaijan/politics/2669468.html

çox vaxt təcavüzkarın dəstəklənməsi siyasətinin yürüdülməsidir[145].

Azərbaycan Prezidenti eləcə də bu müsahibə zamanı Dağlıq Qarabağ regionunun gələcək statusu ilə bağlı fikirlərini də bölüşmüşdür. O, Azərbaycanın ərazi bütövlüyünün diskussiya mövzusu olmadığını və Dağlıq Qarabağa müstəqillik verilməsinin heç vaxt mümkün olmayacağını qeyd edərək, eyni zamanda müəyyən kompromisin mövcudluğunu da bildirmişdir: *"Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan tərəfindən investisiya layihələrinin həyata keçirilməsi, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənardakı ərazilərin azad edilməsi şərti ilə iki xalq arasında dinc qarşılıqlı fəaliyyət – biz münaqişənin nizamlanmasını belə görürük... Bizim mövqeyimiz belədir ki, insanlar harada yaşayırdısa, orada da yaşamalıdırlar. Çünki onlar həmin yerlərdə çoxdan yaşayırdılar – erməni əhalisi 200 il, azərbaycanlı əhali isə çox-çox əvvəl... Dağlıq Qarabağın erməni əhalisi orada necə yaşayırdısa, qoy yaşasın, biz bunun əleyhinə deyilik... Biz regionda sülh istəyirik və bizim mövqeyimiz kifayət qədər konstruktivdir. Lakin biz öz ərazilərimizi istəyirik. Ermənistan sülh istəyir, amma o, özgə ərazilərini qaytarmaq istəmir. Fərq, bax, bundadır"*. O, daha sonra vurğulamışdır ki, *"Dağlıq Qarabağın özünüidarəsi məsələlərinə dair kompromis ola bilər. Əgər razılığa gəlsək, bu, gələcəkdə muxtar respublika ola bilər. Ermənistan rəhbərliyi bunu çox yaxşı bilir, sadəcə, onlar ictimai rəylə manipulyasiya edir, düşmən obrazı yaradır, danışıqlar prosesinin mahiyyətini təhrif edir, məsələni elə təqdim edirlər ki, guya Azərbaycan erməni əhalini az qala məhv etmək və ya qovmaq istəyir. Bu, belə deyil"*[146].

Əlavə olaraq qeyd edilməlidir ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dini zəmində yaranmasa da, erməni tarixçilərinin əsərlərində yalançı xristian təəssübkeşliyi və türk-müsəlmanlara qarşı nifrət hissinin aşılandığı açıq-aşkar görünür[147]. Bu gün eləcə də bəzi beynəlxalq təşkilatların, o cümlədən NATO-nun təcavüzkarı "yerində oturtmaq istəməməsini" bir sıra ekspertlər haradasa Qərb-xristian

145 İlham Əliyev "Sputnik" Beynəlxalq İnformasiya Agentliyinin suallarını cavablandırıb. /17 oktyabr 2016-cı il/. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi: http://president.az/articles/21409

146 Yenə orada

147 Anar Turan. Azərbaycanda dövlət və din münasibətləri yüksələn xətlə inkişaf edir. // "Xalq qəzeti", 7 yanvar 2016-cı il. - http://www.xalqqazeti.com/az/news/politics/66283

təəssübkeşliyi və eləcə də Rusiya faktorunun geosiyasi nəticələri ilə əlaqələndirirlər[148].

Digər tərəfdən, Azərbaycanın ATƏT MQ-nin vasitəçilik səyləri ilə bağlı müəyyən narazılıqları da mövcuddur. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun fikrincə, ATƏT MQ-nin münaqişənin həlli istiqamətindəki səyləri nəticəsində verilən bəyanat və hazırlanan təkliflərin Ermənistan tərəfindən rədd edilməsinə baxmayaraq, həmsədrlərin regiona "məkik diplomatiyası" və "turist səfərləri" davam edir və onlar öz fəaliyyətlərinin bir görünüşünü yaratmağa çalışırlar. Lakin mahiyyət dəyişmir. Eyni zamanda, faktiki olaraq, münaqişənin həlli prosesinin ATƏT-in Minsk Qrupu tərəfindən monopoliyaya alınmasına baxmayaraq, həmsədrlər hər hansı vacib bir qərarın qəbulu zamanı "münaqişə tərəfləri bu problemi həll etməlidirlər, biz isə bu qərarı dəstəkləyəcəyik" arqumentini səsləndirirlər. Lakin vasitəçiliyin mahiyyətinin ciddi şəkildə dəyişdirilməsinə ehtiyac vardır və ilk olaraq münaqişə tərəflərinə münasibət dəyişdirilməli, konkret, aydın mövqe ortaya qoyulmalıdır. Ermənistanın işğalçı dövlət olması tanınmalı və bu, danışıqlar prosesinin əsas mövzusunu təşkil etməlidir... Stolun üstündə legitim seçimlər vardır – sülh, danışıqlar və digər vasitələr. N.Məmmədovun fikrincə, bu reallığın həm həmsədrlər, həm də Ermənistan tərəfindən dərk edilməsi olduqca səmərəli ola bilərdi[149].

Beləliklə, ATƏT MQ-nin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi istiqamətindəki fəaliyyətini "passiv vasitəçilik" də adlandırmaq olar, cünki bu səylər daha çox münaqişə tərəflərinin fəaliyyətinə, mövqelərinə və maraqlarına bir reaksiya xarakteri daşıyır və tərəflərin siyasi iradəsindən asılıdır. Bu tipli vasitəçilikdən fərqli olaraq, fəal vasitəçilik səyləri zamanı vasitəçilər münaqişənin həll edilməsi istiqamətində real öhdəlik götürərək, kifayət qədər böyük siyasi, geosiyasi və diplomatik resurslardan istifadə edirlər. Vasitəçilik ən yüksək diplo-

148 Varşava sammiti: Cənubi Qafqaz münaqişələrinə münasibətin konkret ifadəsi. /Newtimes.az, 14 iyul 2016-cı il/ - http://newtimes.az/az/relations/4691/

149 Azad Garibov. Colloquy with Novruz Mammadov on 'Crises of International Law and Governance: Causes and Consequences'. In: Caucasus International. Vol. 5 • No: 2 • Summer 2015, pp. 16-17. Available at: http://cijournal.az/post/colloquy-with-novruz-mammadov-on-crises-of-international-law-and-governance-causes-and-consequences

matik səviyyədə aparılır və həmin dövlətlərin administrasiyalarının mərkəzi prioriteti kimi ictimaiyyətə təqdim edilir. Belə vasitəçilik səyləri yalnız sözdə deyil, konkret əməldə də öz əksini tapır. Həm Bosniya münaqişəsinin həllində əldə edilmiş Deyton sazişi, həm də Şimali İrlandiya münaqişəsinin həll olunmasında əldə edilmiş Belfast sazişi bu kateqoriyaya aid edilməlidir[150].

Bu kontekstdə xüsusi olaraq qeyd edilməlidir ki, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı rəsmi mövqeyi dəyişməz olaraq qalmaqdadır. Bu mövqe Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə həm danışıqlar prosesində, həm də beynəlxalq tədbirlərdə səsləndirilmişdir.

2016-cı il mayın 26-da Bakıda keçirilmiş BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda Azərbaycan Prezidenti İlham Əliyev xüsusi olaraq qeyd etmişdir: *"Təəssüflər olsun ki, dövlətçiliyimizin yaranması zamanı qonşu Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dominant amil olmuşdur. Həmin təcavüz ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin bir hissəsinin işğalı ilə nəticələnmişdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi parçasıdır, hüquqi baxımdan da bu, belədir. Azərbaycan BMT-yə üzv olarkən Dağlıq Qarabağ ölkəmizin tərkib hissəsi kimi qəbul edilmişdir"*[151].

Dövlət başçısı tədbir iştirakçılarının nəzərinə bu münaqişə ilə bağlı bir sıra faktları çatdıraraq, ilk olaraq vurğulamışdır ki, təcavüz nəticəsində nəinki Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, eləcə də Dağlıq Qarabağın ətrafında yerləşən digər yeddi rayon da işğal edilmişdir. İkincisi, Azərbaycana qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox insan qaçqına və məcburi köçkünə çevrilmişdir. Üçüncüsü, Azərbaycan ərazisinin 20 faizinin 20 ildən artıq bir müddət ərzində işğal altında olması nəticəsində bu ərazilərdə, ATƏT tərəfindən iki dəfə göndərilmiş faktaraşdırıcı missiyaların hazırladığı hesabatlara əsasən, bütün tikililər, tarixi abidələr, məscidlər, məzarlıqlar dağıdılmışdır. Bu vəziyyətdən fərqli olaraq, Bakının mərkəzində erməni xalqının dini

150 Thomas Ambrosio. Unfreezing the Nagorno-Karabakh Conflict? Evaluating Peacemaking Efforts under the Obama Administration, In: "Ethnopolitics: Formerly Global Review of Ethnopolitics", volume 10, no. 1, March 2011, p.95

151 BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında İlham Əliyevin nitqi, Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi /26 aprel 2016-cı il/ - http://president.az/articles/19727

mirası olan erməni kilsəsi bərpa edilərək ilk gündən inşa edildiyi yerdə yerləşir və Azərbaycan tərəfindən qorunub saxlanılır. Dördüncüsü, bu işğala son qoymaq üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq qətnamə və qərarların, o cümlədən ən ali beynəlxalq qurum olan BMT TŞ-nin Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin qəbul edilməsinə baxmayaraq, Ermənistan bu qətnamələrə əməl etmir[152].

Beynəlxalq təşkilatların qətnamə və qərarlarının icrası mexanizminin ən mühüm element olduğunu vurğulayan Azərbaycan Prezidenti bəzi hallarda BMT TŞ-nin qətnamələrinin bir neçə gün, hətta bir neçə saat ərzində həyata keçirildiyini qeyd edərək, 20 ildən çox vaxt keçməsinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmadığını və işğalçını beynəlxalq hüququn normalarına əməl etməyə məcbur edəcək beynəlxalq təzyiqin göstərilmədiyini diqqətə çatdırmışdır. O, həmçinin Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirildiyini və Xocalı soyqırımının artıq 10 dövlət tərəfindən tanındığını vurğulamış, onun insanlığa qarşı törədilmiş cinayət olduğunu qeyd etmişdir. Prezidentin fikrincə, *"Ermənistan ilə Azərbaycan arasındakı münaqişə beynəlxalq hüquq normaları, BMT Nizamnaməsi, BMT TŞ-nin qətnamələri və Helsinki Yekun Aktı əsasında həll edilməlidir. Ərazilərimiz azad edilməli, insanlarımız evlərinə geri dönmək imkanına malik olmalıdır"*[153].

Beləliklə, bu gün bu münaqişə nümunəsində geosiyasi cəhətdən çıxılmaz vəziyyətin yaranması və onunla bağlı beynəlxalq hüququn norma və prinsiplərinin təmin edilməməsi müsbət hal kimi qiymətləndirilə bilməz. Aydındır ki, münaqişənin həlli siyasi və ya hüquqi müstəvidə həyata keçirilməlidir. Əgər birinci halda hərbi və ya danışıqlar yolu ilə hazırkı status-kvonu dəyişdirmək mümkündürsə, ikinci halda beynəlxalq hüququn norma və prinsiplərini birbaşa tətbiq etməklə münaqişəni həll etmək olar. Lakin Ermənistanın hazırkı destruktiv yanaşması hər iki seçim üçün ciddi maneə yaradır və münaqişənin yaxın gələcəkdə həll edilməsi perspektivlərini sual altına qoyur. Halbuki bu münaqişənin həll edilməsi Cənubi Qafqaz bölgəsinə səbirsizliklə gözlənilən sülh, davamlı inkişaf və Azərbaycan, Ermənistan və Gürcüstanın regional inteqrasiyasına gətirib çıxara bilərdi.

152 Yenə orada
153 Yenə orada

AZƏRBAYCANIN QONŞU ÖLKƏLƏRLƏ MÜNASİBƏTLƏRİ

Azərbaycan–Türkiyə münasibətləri: 1991-2016

*Cavid Vəliyev**

Giriş

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" olaraq xarakterizə etdiyi Azərbaycan–Türkiyə münasibətlərinin ideoloji əsası, əslində, XIX əsrin sonlarında iki tərəfin maarifçi ziyalıları tərəfindən qoyulmuşdu. Bu dövrdə Osmanlı dövlətində türkçülük cərəyanının ideologiyasının formalaşması, yüksəlişi və təşkilatlanmasında azərbaycanlı ziyalılar da aparıcı rol oynamışdılar[1]. Azərbaycanda Çar Rusiyasının təqiblərindən qaçan azərbaycanlı ziyalılar üçün İstanbul azad və sərbəst fəaliyyət mərkəzinə çevrilmişdi. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) ideoloqları da məhz o ziyalılar olmuşdu.

Balkan müharibəsində isə ikitərəfli hərbi əlaqələrin əsası qoyulmuşdu. Belə ki, Azərbaycan türkləri Osmanlı Türkiyəsinə gedərək Balkan müharibəsində döyüşmək üçün ordu sıralarına yazılmışdılar. Birinci Dünya müharibəsində Şərqi Anadoluda Çar Rusiyası ordusunun əsir aldığı Osmanlı əsgərləri Gəncə üzərindən Sibirə və Xəzər dənizində yerləşən Nargin adasına göndərilmişdi. Azərbaycan xalqı əsir düşmüş türk əsgərlərinin taleyinə biganə qalmamış, onlara maddi və mənəvi yardım göstərmişdi[2].

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında ilk rəsmi münasibətlər isə məhz 1918-ci ildə müasir Azərbaycan Respublikasının varisi olduğu AXC dövründə qurulmuşdur. 1918-ci il iyunun 4-də AXC ilk müqaviləsini Osmanlı imperiyası ilə imzalamış və beləliklə, AXC-nin müstəqilliyini ilk olaraq məhz Osmanlı dövləti tanımışdır. İyun

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru*

1 Swietachowski Tadeusz. Atatürk ve Transkafkasya. I. Uluslararası Atatürk Sempozyumu Bildirileri, 21-23 Eylül 1987, Ankara, 1994, s. 651-659

2 Aslan Betül. Birinci Dünya Savaşı Esnasında Nargin Adasında Türk Esirler. // A. Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi [TAED] 42, Erzurum, 2010, s.283-305

ayının 4-də Batumidə imzalanmış "Osmanlı İmperatorluğu hökuməti ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti arasında dostluq müqaviləsi"nin preambulasında tərəflər arasında siyasi, hüquqi, elmi, mədəni və iqtisadi zəmində dostluq münasibətlərinin qurulması qərara alınmışdır. 10 maddədən ibarət olan bu müqavilənin 4-cü maddəsinə görə, əgər ehtiyac yaranarsa, asayişi qorumaq və ölkənin təhlükəsizliyini təmin etmək üçün Osmanlı hökuməti Azərbaycan hökumətinə yardım göstərməyi öz üzərinə götürmüşdü.

AXC Milli Şurası bolşevik və erməni hücumlarına qarşı yuxarıda qeyd edilən 4 iyun müqaviləsinin 4-cü bəndini əsas tutaraq Osmanlı hökumətindən yardım istəmiş və yeni qurulan Qafqaz İslam Ordusu Azərbaycanın erməni-bolşevik işğalından azad olunmasında mühüm rol oynamışdı. Lakin 1919-cu il oktyabrın 30-da imzalanmış Mudros atəşkəs müqaviləsi ilə Osmanlı ordusu Azərbaycanı və ümumiyyətlə, Cənubi Qafqazı tərk etmək məcburiyyətində qalmışdı. Osmanlı əsgərləri çəkildikdən 6 ay sonra bolşeviklər Azərbaycanı işğal etdilər.

1920-ci ildə bolşeviklərin Azərbaycanı işğal etməsi və 1922-ci ildə SSRİ-nin qurulması ilə birlikdə Azərbaycan müstəqilliyini itirdi. Türkiyə isə 1923-cü ildə Türkiyə Respublikasının qurucu sazişi hesab edilən "Lozanna müqaviləsi" ilə beynəlxalq münasibətlər sistemində suveren dövlət olaraq yerini aldı. 1991-ci ilədək Azərbaycan müstəqil bir aktor olmadığı üçün müstəqil xarici siyasəti də olmamış və bu səbəbdən onun inkişafına təsir göstərən xarici (regional və qlobal) amillərə tərkibində yer aldığı İttifaqın mərkəzi Moskvadan cavab verilmişdi. 1920-ci illərdə müttəfiq olmalarına baxmayaraq, İkinci Dünya müharibəsindən sonra Azərbaycanın bir parçası olduğu Sovet İttifaqı və Türkiyə rəqib tərəflərdə yer almışdılar. Bu səbəbdən formal şəkildə Türkiyə və Azərbaycan beynəlxalq aləmdə və regionda bir-birinə rəqib təşkilatların üzvləri idilər.

Əslində, Sovet İttifaqının mövcud olduğu dövrdə Türkiyə ilə Azərbaycan arasında mədəni əlaqələr az da olsa qorunub saxlanılmışdı. Bir tərəfdən AXC süquta uğradıqdan sonra Türkiyəyə gedən azərbaycanlı mühacirlər orada Azərbaycan məsələsini gündəmdə saxlaya bilmiş, digər tərəfdən bu ölkədən Sovet İttifaqına baş tutan səfərlərdə bəzən

Azərbaycana da gələnlər olmuş[3] və eyni zamanda buradan Türkiyəyə mədəni festivallar təşkil olunmuşdu. "Soyuq müharibə" dövründə Sovet İttifaqına qarşı Türkiyənin də üzv olduğu NATO müttəfiqləri tərəfindən aparılan təbliğatda Türkiyədə Azərbaycan dilində fəaliyyət göstərən jurnal və radiolar da fəal iştirak etmişdi. 1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini yenidən bərpa etdikdən sonra onu ilk tanıyan dövlət Türkiyə Respublikası olmuşdu. Bu məqalə 1991-ci ildə yenidən müstəqilliyini qazanan Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında 25 il ərzində ikitərəfli münasibətləri, birgə layihələri və münasibətlərə təsir edən regional hadisələri əhatə edir.

Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət

1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsinin qəbul edilməsindən sonra müstəqilliyin xarici dövlətlər tərəfindən tanınması məsələsi gündəmə gəldi.

Həmin dövrdə Azərbaycanın Türkiyədən iki ciddi gözləntisi olmuşdu: 1) Qarşılıqlı şəkildə səfirliklərin açılması; 2) Azərbaycanın müstəqilliyinin digər dövlətlər tərəfindən tanınması üçün Türkiyənin vasitəçi olması[4]. Bu müddət ərzində Türkiyənin Azərbaycanın müstəqilliyini tanımasına təsir edən bir neçə amil mövcud idi. Birincisi, Türkiyə Rusiya ilə münasibətlərini korlamaq istəmirdi və Moskvanı "incitmədən" Azərbaycanın müstəqilliyini tanımaq istəyirdi. İkincisi, Qərb dövlətləri, xüsusən də ABŞ Türkiyənin bu mərhələdə Azərbaycanın müstəqilliyini tanımasına qarşı çıxırdı[5]. Üçüncüsü, həmin dövrdə Azərbaycanda da ölkənin müstəqilliyinin tanınması ilə bağlı iki fərqli mövqe var idi. Belə ki, hökumət daha çox iqtisadi əlaqələrin qurulmasının, müxalifət isə ölkənin müstəqilliyinin siyasi olaraq tanınmasının tərəfdarı kimi çıxış edirdi. Məhz buna görə idi ki, mövzu ilə

3 1968-ci ildə Türkiyə–Sovet İttifaqı yaxınlaşması çərçivəsində Türkiyə Respublikasının həmin dövrdə Baş naziri olmuş Süleyman Dəmirəl Bakıya da səfər etmişdi. Bu səfər çərçivəsində o, Heydər Əliyev ilə tanış olmuşdu

4 "Milliyet", 19.11.1991

5 Şimşir N. Bilal. Azerbaycan. Yeniden Doğuş Sürecinde Türkiye–Azerbaycan ilişkileri. İstanbul: Bilgi Yayınları, Birinci Basım, 2011, s.264-267

əlaqədar açıqlama verən Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Murat Sunqar Azərbaycanın müstəqilliyinin tanınması tələbinin olmadığını bildirmişdi[6].

Azərbaycan 1991-ci il noyabrın 1-də ölkənin müstəqilliyinin tanınması ilə bağlı təklifini Türkiyəyə rəsmi olaraq çatdırmış[7] və Türkiyə Respublikası Nazirlər Kabinetinin 1991-ci il noyabrın 9-da keçirilən iclasında Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqqında qərar qəbul edilmişdi[8]. Bununla da Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdu[9]. Başqa sözlə, Türkiyə Sovet İttifaqı dağılmadan və bu məsələni NATO ilə müzakirə etmədən müttəfiqlərindən əvvəl Azərbaycanın müstəqilliyini tanımışdı. Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması digər dünya dövlətləri üçün nümunə olmuşdur. 2016-cı ilin mart ayında Ankaraya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Azərbaycanın müstəqilliyini tanımasının əhəmiyyətini belə izah etmişdir: "Bu, əslində, başqa ölkələrə də bir tövsiyə idi və ondan sonra Azərbaycanı müstəqil dövlət kimi tanıma prosesi sürətlə getməyə başlamışdır"[10].

Türkiyə üçün Azərbaycanın strateji əhəmiyyəti

Azərbaycan yenidən müstəqilliyini qazandıqdan sonra Türkiyənin Cənubi Qafqaz siyasəti Bakı mərkəzli olmuşdur. Türkiyənin keçmiş xarici işlər və daha sonra baş naziri olmuş professor Əhməd Davudoğlu Cənubi Qafqazın Türkiyənin xarici siyasəti üçün əhəmiyyətini Orta

6 Yenə orda, s.11

7 "Milliyet", 19.11.1991, s.11

8 Şimşir N. Bilal. Göstərilən əsəri, s.267-268

9 "Milliyet" qəzetinin iddialarına görə, Məsud Yılmaz hökumətinin Azərbaycanın müstəqilliyini tanıma məcburiyyətində qalmasının digər bir səbəbi İranın getdikcə Azərbaycanda təsirinin artması və islam rejimini Azərbaycana ixrac etməyə çalışması olmuşdur. /Bax: Azerbaycan`ı tanıma sembolik. // "Milliyet", 07.11.1991, s.18/. Azərbaycan müstəqilliyini əldə etməmişdən əvvəl Türkiyə ilə İran arasında Azərbaycan uğrunda mübarizə gedirdi. İran islam rejimini ölkəmizə ixrac etmək və Azərbaycanın latın yox, ərəb qrafikalı əlifbadan istifadə etməsini istəyirdi. Türkiyə isə Azərbaycanın latın qrafikalı əlifbadan istifadə etməsinin, sərbəst bazar iqtisadiyyatına keçməsinin və dünyəvi-demokratik bir respublika qurmasının tərəfdarı idi. Türkiyənin "model ölkə" siyasəti Qərb dövlətləri tərəfindən də dəstəklənirdi. /Bax: İran`dan laiklik yaygarası. // "Milliyet", 19.11.1991, s. 10/

10 Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. /15.03.2016/ - http://www.president.az/articles/18115

Asiyaya çıxışın əldə edilməsi, Qərbi Asiya, Xəzər hövzəsi və Şimal–Cənub dəhlizində geosiyasi məkan olaraq təsvir etmişdir[11]. Davudoğlu eyni zamanda "Azərbaycan güclü olmadan Türkiyənin bu regionda güclü olmayacağını" da qeyd etmişdir[12].

Azərbaycan müstəqilliyini yenicə qazandığı dövrdə "soyuq müharibə" sona çatmış və Türkiyənin SSRİ-yə qarşı Qərb üçün bufer və regional oyunçu olaraq rolu azalmışdı. Türkiyə beynəlxalq aləmdə strateji dəyərini yenidən artırmaq üçün müstəqilliyini yeni qazanmış ölkələrdə ortaq mənəvi dəyərlərini də istifadə edərək təsirini artırmalı idi. Türkiyə hökuməti "soyuq müharibə"dən sonra ölkənin ABŞ və Avropa İttifaqı üçün strateji və iqtisadi əhəmiyyətinin yalnız bundan sonra möhkəmlənəcəyini düşünmüşdü. Bu çərçivədə Ankara türk respublikalarında mədəni mərkəzlər, məktəblər açmış, bu respublikalardan minlərlə tələbəni Türkiyədə oxumağa aparmış və bu regionda türk televiziya kanallarının yayımına başlamışdı[13]. Türkiyənin bu siyasəti həm Qərb, həm də regionun türk dövlətləri, o cümlədən Azərbaycan tərəfindən alternativ ideoloji, siyasi və iqtisadi təsirlərə qarşı "qoruma qalxanı" kimi başa düşülmüşdü. Türkiyə region dövlətləri üçün modern, dünyəvi və liberal iqtisadiyyatı ilə kommunizmdən sonra və dini radikalizmin yayılma təhlükəsinə qarşı alternativ sistem olmuşdur[14].

Lakin Azərbaycan burada öz modelini seçmişdir. Əlbəttə, bu modeldə Türkiyə ilə oxşarlıqlar da vardı. Belə ki, Azərbaycan dünyəvi, demokratik dövlət quruculuğunu həyata keçirirdi. Keçən əsrin 90-cı illərində Türkiyə idarəçilik sistemi parlament respublikası idi. Azərbaycanda isə həm ölkənin coğrafi mövqeyi, həm də daxili vəziyyəti nəzərə alınaraq mərkəzləşdirilmiş güclü hakimiyyətin, yəni prezidentlik sisteminin ölkənin maraqlarına uyğun olduğu düşünülmüşdü. Digər tərəfdən, Azərbaycanın kimlik (identiklik) siyasəti Türkiyənin bu sahədəki siyasətindən fərqli olmuşdur. Belə ki, Azərbaycanda azərbaycanlı

11 Davudoğlu A. Stratejik Derinlik. İstanbul: Küre Yayınları, 2009, 34-cü neşr, s.119

12 Bolukbası Suha. Ankara's Baku-Centered Transcaucasia Policy: Has It Failed? // Middle East Journal, Vol. 51, No. 1, Winter, 1997, (pp. 80-94), p.81

13 Larrabee F. Stephen and Lesser, Ian O. Turkish Foreign Policy in an Age of Uncertainty. RAND Corporation, 2003, p.99

14 Onis Ziya. Turkey and Post-Soviet States: Potential and Limits of Regional Power Influence. // Middle East Review of International Affairs, Vol. 5, No. 2, Summer 2001, (pp. 66-74), p.66

kimliyi bütün etnik xalqlar üçün üst kimlik olaraq təqdim olunmuşdur. Türkiyənin daxili siyasətində millətçi və dini siyasi hərəkatların vacib rol oynamasına baxmayaraq, Azərbaycanda siyasətdə dini istiqamətli siyasi partiyalar və onların seçiciləri nəticələrə təsir edə biləcək gücə sahib olmamışlar.

Azərbaycanın sahib olduğu enerji ehtiyatları həm Türkiyənin enerji ehtiyaclarının qarşılanması, həm də özünün enerji sahəsində tranzit ölkə olması üçün mühüm rol oynamışdır. Azərbaycanın müstəqilliyini əldə etdiyi dövrdə Türkiyə iqtisadiyyatı inkişaf mərhələsinə qədəm qoymuşdu və ölkə əhalisi sürətlə artmaqda idi. Bu isə təbii qaz və enerji ehtiyatlarına sahib olmayan Türkiyənin xarici ölkələrdən enerji asılılığını artırırdı. Cənubi Qafqaz və Mərkəzi Asiyada geosiyasi rəqibi olan Rusiya və İran kimi ölkələrdən enerji sahəsində asılılığı Türkiyənin xarici siyasətdə azad hərəkət etməsinin qarşısını alırdı. Bu mənada Azərbaycan Türkiyə üçün alternativ enerji mənbəyi rolunu oynamışdır.

Digər tərəfdən, Türkiyə öz geosiyasi mövqeyini dəyərləndirərək həm enerji, həm də nəqliyyat sahəsində Avropa ilə Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında körpü və tranzit ölkə olmaq iddiasında idi. Bu iddiasını həyata keçirmək üçün Azərbaycanla yüksək əlaqələrin qurulması olduqca əhəmiyyətli idi. Belə ki, Azərbaycan həm öz enerji ehtiyatlarını Türkiyə üzərindən dünyaya sata, həm də Mərkəzi Asiya respublikalarının enerji ehtiyatlarının Türkiyəyə çatdırılmasında tranzit ölkə ola bilərdi[15]. Türkiyə bu dövrdə Mərkəzi Asiya respublikalarından təbii qaz ala bilmək üçün geosiyasi rəqibləri olan Rusiya və İrandan asılı olmuşdur. Hətta bu ölkələr Mərkəzi Asiyadan aldıqları ucuz qazı Türkiyəyə baha qiymətə satırdılar. Bu səbəbdən Mərkəzi Asiya enerji ehtiyatlarını Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə çatdıracaq Transxəzər enerji layihəsi gündəmə gəlmiş və onun həyata keçirilməsi üçün Türkiyə gərgin diplomatik səylər həyata keçirmişdir. Hər iki dövlətin enerji sahəsində müttəfiqlərinin və rəqiblərinin eyni olması bu dövlətləri rəqib yox, müttəfiq etmişdir.

Başqa tərəfdən, Azərbaycan Türkiyənin təhlükəsizliyi baxımından vacib rol oynamışdır. Əhməd Davudoğlu Azərbaycanı Avrasiya qitəsinin cənub-şimal keçid nöqtəsi və Rusiyadan gözlənilən təhlükəyə qarşı bufer

15 Davudoğlu Ə. Göstərilən əsəri, s.125

bölgə olaraq görmüşdür. 1877-1878-ci illər Rus-Türk və İkinci Dünya müharibələrindən sonra Sovet İttifaqının Cənubi Qafqaz üzərindən Anadolunu təhdid etməsi bir nümunə olaraq göstərilə bilər[16]. Bundan başqa, bu regionda Ermənistanın bir dövlət olaraq qurulmasının əsas məqsədinin Türkiyənin Azərbaycanla quru bağlantısını kəsmək olduğu alimlər, dövlət xadimləri və strateqlər tərəfindən etiraf və qəbul edilməkdədir. Burada məqsəd Azərbaycan və Türkiyənin regionda güclü olmasının qarşısını almaq, belə demək olarsa, onları zəif vəziyyətə salmaq olmuşdur.

Azərbaycan üçün Türkiyənin strateji əhəmiyyəti

Azərbaycan coğrafi cəhətdən Şərq–Qərb və Şimal–Cənub kəsişməsində yerləşməsinə baxmayaraq, açıq dənizlərə birbaşa çıxışı olmayan quru dövlətdir. Dənizlərə çıxışı olmayan dövlət olduğu üçün müstəqilliyini yenidən qazandığı dövrdə, təbii olaraq, iqtisadi blokadada olmuşdur. Həmin dövrdə Azərbaycanın qarşısında həm də iqtisadi çətinliklər dururdu. Belə ki, Azərbaycan iqtisadi çətinlikləri həll etmək üçün ilk növbədə sahib olduğu enerji ehtiyatlarını xarici bazarlara çıxarmalı idi. Lakin bu amil eyni zamanda Azərbaycanın xarici siyasətinə və təhlükəsizliyinə yaxından təsir edən hadisə olduğu üçün etibarlı müttəfiqlər tapılmalı idi. Bu səbəbdən Türkiyə Azərbaycan üçün düşdüyü blokadadan çıxış yolu olmuşdur. Dünyaya çıxış üçün Türkiyənin seçilməsinin bir neçə səbəbi vardı: birincisi, iki dövlət arasında tarixi bağlar və qarşılıqlı etimad mövcud idi; ikincisi, Türkiyənin Ağ dənizə və Avropaya birbaşa çıxışı var idi; üçüncüsü, Türkiyə Qərb dövlətlərinin müttəfiqi idi.

Şərq–Qərb nəqliyyat dəhlizində rolunu möhkəmləndirməsi baxımından Türkiyənin Azərbaycan üçün strateji dəyəri vardı. Bu səbəbdən 2007-ci ildə imzalanan Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi haqqında müqavilə sadəcə iki dövləti deyil, eyni zamanda Şərq və Qərb yarımkürələrini də bir-birinə bağlamışdır.

Azərbaycan müstəqilliyini yenidən qazandıqdan sonra informasiya

16 Yenə orada

blokadası ilə qarşı-qarşıya qalmışdı. Azərbaycanda gedən proseslər və Dağlıq Qarabağ haqqında Qərb mətbuatını doğru məlumatlandırmağa ehtiyac yaranmışdı. Erməni lobbisi uzun illər Qərbdə yaşamışdı, diaspora və lobbiçilik sahəsində təcrübəsi və əlaqələri vardı, Azərbaycan isə sonradan bu prosesə daxil olmuşdu. Məsələn, XX əsrin 90-cı illərində Qərb mətbuatı Azərbaycanda baş verən hadisələri türklərin və ya müsəlmanların ermənilərə hücumu kimi qələmə vermiş, bununla da Azərbaycana qarşı mənfi fikir formalaşdırmışdı. Digər tərəfdən, bu mövqeyi Dağlıq Qarabağ məsələsində də görmək mümkündür. Məsələn, 1992-ci ildə Azərbaycan Ermənistanın hücumuna məruz qaldığı bir dövrdə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi Azadlığa Dəstək Aktına 907-ci düzəlişi qəbul etmişdi. Müstəqilliyinin ilk illərində bu blokadanı yarmaq üçün Azərbaycan Türkiyədəki həm Qərb dövlətlərinin səfirlərinin, həm də Qərb mediasının təmsilçilərinin imkanlarından faydalanmağa çalışmışdır.

1994-cü ildə Azərbaycanda xarici ölkələrin çox az sayda səfirliyi fəaliyyət göstərirdi. Bəzi ölkələrin Ankaradakı səfirlikləri eyni zamanda Azərbaycana da akkreditə olunmuşdular. Bir çox ölkədə Azərbaycanı Türkiyə səfirlikləri təmsil edirdi. Hətta Azərbaycan səfirliyi açıldığı ölkədə bina təsis olunana qədər səfirlər Türkiyənin həmin ölkədəki səfirliyinin binasında yerləşmişdi. Bu səbəbdən Azərbaycanı həm də NATO-da uzun müddət Türkiyənin buradakı daimi nümayəndələri təmsil etmişdi[17]. Heydər Əliyevin Türkiyəyə səfərlərində əhəmiyyət verdiyi ikinci məsələ Qərb dövlətlərinin Ankaradakı səfirləri ilə görüşərək onları Azərbaycanda gedən daxili və xarici siyasi proseslər haqqında məlumatlandırmaq olmuşdu. Enerji mövzusunda müzakirələr və bu sahədə Azərbaycan hökumətinin əldə etdiyi uğurlar xarici dövlətlərlə birbaşa əlaqələrin genişlənməsinə səbəb olmuşdur. 1994-cü ildən etibarən Qərb dövlətləri enerji müqavilələri vasitəsilə regiona daxil olmuş və beləcə, birbaşa əlaqələr yaranmışdı[18].

Dağlıq Qarabağ məsələsinin həllində Türkiyənin dəstəyi Azərbaycan

17 Heydər Əliyevin Türkiyənin NATO-dakı daimi nümayəndəsi səfir Onur Öymənı qəbul edərkən söhbətindən. /25.04.2000, s. 424/ - http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf

18 Onis Ziya. Turkey and Post-Soviet States: Potential and Limits of Regional Power Influence. // Middle East Review of International Affairs, Vol. 5, No. 2, Summer 2001, (pp. 66-74), p.69

üçün həyati əhəmiyyət kəsb edirdi. Türkiyə bir tərəfdən Azərbaycanın müstəqilliyini ilk qazandığı illərdə beynəlxalq təşkilatlarda bu məsələni gündəmə gətirən, digər tərəfdən Kəlbəcərin işğalından sonra Ermənistanla sərhədləri bağlayaraq ona qarşı sanksiya tətbiq edən yeganə region dövləti olmuş və eyni zamanda Azərbaycan Ordusunun güclənməsinə aktiv dəstək vermişdir.

Tərəflər arasında münasibətlər eyni zamanda mövcud hakimiyyətlərin davamlılığı üzərində qurulmuşdur. Professor Mitat Çelikpalaya görə, Heydər Əliyev və İlham Əliyev dövründə Azərbaycanın Cənubi Qafqazın ən sabit və sürətli inkişaf edən ölkəsi olması buna səbəb olmuşdur[19]. Bunun iki səbəbi vardı: 1. Heydər Əliyev hakimiyyətə gələnə qədər olan dövrdə hökumətlər tərəfindən həyata keçirilən siyasət müstəqil dövlət olaraq Azərbaycanın varlığını sual altında qoymuşdu; 2. Azərbaycandakı mövcud hakimiyyət Türkiyə ilə münasibətləri daha da möhkəmləndirmiş və Azərbaycanda sabitlik yaradaraq Türkiyənin Cənubi Qafqaz siyasətinə müsbət təsir göstərmişdi.

Azərbaycan da Türkiyədə siyasi sabitliyin və davamlılığın dəstəkçisi olmuşdur. Azərbaycan Türkiyənin terrorizmə və separatizmə qarşı mübarizəsinə dəstək vermişdir. Belə ki, Azərbaycan və Türkiyə arasında 2010-cu ildə qurulan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası 2016-cı ildə Azərbaycanda keçirilməli idi. Lakin Türkiyədə baş verən terror hücumları nəticəsində Prezident Ərdoğanın Azərbaycana səfəri iki dəfə ləğv olunmuşdu. Nəticədə terrora qarşı mübarizədə Türkiyənin yanında olduğunu nümayış etdirmək məqsədilə Prezident İlham Əliyev Ankaraya səfər etmiş və beləliklə, şuranın beşinci iclası Türkiyədə keçirilmişdi[20]. Bundan başqa, 2016-cı il iyulun 15-də Türkiyədə baş verən hərbi çevriliş cəhdinə qarşı Azərbaycan Türkiyə hökumətini dəstəkləmişdi[21].

19 Çelikpala Mitat. Turkey as a Regional Power and the Caucasus. // Insight Turkey, Vol. 9, Number 2, (pp. 25-30), p. 26

20 Aliyev`den büyük jest: bugün Ankara`ya geliyor. /15.03.2016/ - http://www.milliyet.com.tr/aliyev-den-buyuk-jest-bugun/siyaset/detay/2209776/default.htm; Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. /15.03.2016/ - http://www.president.az/articles/18115

21 Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng vuraraq Türkiyədəki hərbi çevriliş cəhdini qətiyyətlə pislədiyini, Azərbaycan xalqı və dövlətinin həmişə olduğu kimi, Türkiyə xalqı və dövlətinin yanında olduğunu bildirmişdir. Bax: İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib. /18.07.2016/ -http://www.president.az/articles/20627

Azərbaycanın digər əraziləri ilə qurudan əlaqələri kəsilən Naxçıvanın blokadadan çıxarılması və təhlükəsizliyinin qorunması baxımından Türkiyə əhəmiyyətli rol oynamışdır. Belə ki, Heydər Əliyev Naxçıvan Ali Sovetinin Sədri olduğu dövrdə Ermənistanın Naxçıvana qarşı da ərazi iddiaları və silahlı hücumları olmuşdur. 1921-ci ildə Türkiyə Respublikası ilə Rusiya arasında imzalanan "Moskva müqaviləsi"ndə əksini tapan "Naxçıvanın Azərbaycandan başqa üçüncü dövlətin nəzarətinə keçməsi yolverilməzdir" maddəsi Türkiyəyə hərbi müdaxilə hüququ verməsə də, bu müqaviləni əsas tutaraq hərbi müdaxilə edə biləcəyi Türkiyədə müzakirələrə səbəb olmuşdu[22]. Heydər Əliyev isə mətbuata verdiyi açıqlamada Naxçıvanın rəhbəri olaraq Türkiyə və İrandan dəstək istəməyə hüququ olduğunu açıqlamışdı[23]. Türkiyə Ermənistana hərbi müdaxilə etməmiş, lakin Türkiyənin açıqlamaları Naxçıvana qarşı erməni hücumlarının qarşısının alınması üçün dünya ictimaiyyətinin diqqətini cəlb etmiş və Ermənistanın Naxçıvana qarşı hücumlarını dayandırmasına səbəb olmuşdu[24].

Naxçıvanın iqtisadi blokadadan çıxarılmasında Türkiyə aktiv rol oynamışdır. 1992-ci il martın 22-də Naxçıvan Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyəyə səfər edərək Naxçıvana 100 milyon dollar həcmində kredit ayrılması və 10 nəfər tələbənin Türkiyədə təhsil alması haqqında protokol imzalamışdır. İmzalanan sənəddə Araz çayı üzərində körpü tikilməsi də nəzərdə tutulmuşdu[25]. Ermənistan tərəfindən tətbiq olunan blokadanın təsirini azaltmaq məqsədilə 1992-ci il mayın 28-də Naxçıvanla Türkiyə arasında Dilucu sərhəd məntəqəsi açılmışdır. Bu məntəqə Naxçıvan üçün qurtuluş qapısı olmuşdur[26]. Türkiyə ilə Naxçıvan arasında körpü tikilməsi muxtar respublikanın blokadadan çıxmasında mühüm rol

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, PA-nın Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov hərbi çevriliş cəhdinin ardından mətbuata açıqlama verərək Azərbaycanın bu cür cəhdləri pislədiyini və qəbuledilməz hesab etdiyini, Azərbaycanın həmişə Türkiyənin yanında olduğunu qeyd etmişdir. Bax: Novruz Məmmədov: "Azərbaycan Türkiyədəki hərbi çevriliş cəhdini qətiyyətlə pisləyir və qəbuledilməz sayır". /16.07.2016/ - http://www.1news.az/az/siyaset/20160716030610421.html

22 Askeri Müdahele tartışılıyor. // "Milliyet", 19.05.1992, s.7

23 Aliyev`in endişesi. // "Milliyet", 22.05.1992, s.7

24 Yenə orada

25 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə. Bakı: Mütərcim, 2015, s.431

26 Nahçıvan`da tarihi gün. // "Milliyet", 29.05.1992, s.17

oynamışdır. Azərbaycan və Türkiyə arasında çəkilən Bakı–Tbilisi–Qars dəmir yolunun Naxçıvana qədər uzadılması planlaşdırılır.

Türkiyə daxilindəki qrupların ikitərəfli münasibətlərə baxışı

Türkiyə xarici siyasətinin formalaşmasına, ənənəvi olaraq, siyasətçilər və diplomatlar təsir göstərmişlər. Turqut Özalın dövründə Türkiyənin xarici siyasəti ilə maraqlanan və ona təsir göstərən qrupların sayı artmış, o, Avropaya və Qərbə alternativ regionlarla münasibətlər qurmaq istəyən millətçi-mühafizəkar qrupların təsiri altına düşmüşdü. Turqut Özal Türkiyənin siyasi və iqtisadi təsirini tarixi və mədəni yaxınlıqla artıracağını düşünmüşdü. Türkiyə hakimiyyətinin həyata keçirdiyi siyasətdə millətçilik şüarları üstünlük təşkil etmiş, təhlükəsizlik siyasəti daha praqmatik olmuş və neoliberal iqtisadi siyasət həyata keçirilmişdir. Bundan başqa, Türkiyə qeyri-hökumət təşkilatları ilə regionda "yumşaq güc" vasitəsilə təsirini artırmağa çalışmışdır. Bu qruplara iş adamları, mədəniyyət və təhsil sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları (QHT) daxil idi[27].

Türkiyə xarici siyasətinin formalaşmasına təsir edən ənənəvi siyasətçilər və bürokratlardan fərqli olaraq, türk dünyası ilə yaxınlaşmağı müdafiə edən millətçi qruplar daha iddialı xarici siyasət mövqeyinə malik olmuş, Türkiyənin islam və türk dövlətlərində təsirini artırmaq yolu ilə dünyada daha güclü mövqeyə sahib olacağını düşünmüşlər. Millətçilər ənənəvi türk bürokratiyasının coğrafi millətçilik anlayışı yerinə tarixi türk dünyası coğrafiyasını türk xalqının coğrafiyası olaraq qəbul etmiş və Türkiyənin bu coğrafiya ilə əməkdaşlığını artırmağını və hətta birləşməyini müdafiə etmişlər. Millətçi qruplar eyni zamanda Türkiyəyə qarşı Qərbin həyata keçirdiyi siyasətdən də narahat olmuş və bunu xarici siyasət üçün alternativ olaraq qiymətləndirmişlər[28]. Müstəqilliyini yenicə qazanmış dövlətlərlə qurulacaq münasibətlər Aİ-nin Türkiyəyə üzvlük üçün müzakirə tarixi verməməsi, Kipr müharibəsində məruz

27 Onis Ziya. Turkey and Post-Soviet States: Potential and Limits of Regional Power Influence. // Middle East Review of International Affairs, Vol. 5, No. 2, Summer 2001, (pp. 66-74), p.67

28 Aras Bülent. Turkey's policy in the former Soviet south: Assets and options. // Turkish Studies, Vol.1, No.l Spring 2000, (pp.36-58), p.36-38

qaldığı sanksiyalar Türkiyənin iqtisadi və siyasi cəhətdən asılılığına bir növ alternativ ittifaq olaraq görülmüşdü. Siyasi və hərbi elita arasında bu qrupu təmsil edənlər Azərbaycanla yaxın əlaqələrin qurulması, onun maraqlarının və müstəqilliyinin dəstəklənməsinin təbii olduğunu düşünmüşlər. Bu qrupun Türkiyənin daxili siyasətində yüksəlişinin Azərbaycanla yaxından əlaqəsi olmuşdur. Belə ki, Dağlıq Qarabağ müharibəsinin davam etdiyi 1988-1994-cü illər ərzində bu qrup Türkiyə xarici siyasətinə ciddi təsir göstərmişdir. Bundan başqa, 2009-cu ildə Türkiyə–Ermənistan protokollarına qarşı bu qrup atatürkçü-dövlətçi qrupla birgə çox ciddi mənfi reaksiya vermişdir.

Dağlıq Qarabağ müharibəsinə Türkiyənin birbaşa müdaxilə etməli olduğu fikrini müdafiə edən bu qrup Türkiyənin Ermənistana və Rusiyaya qarşı daha sərt və qəti davranmadığını və Türkiyə tərəfinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdiyi "tərəfsiz" və "yumşaq" açıqlamaların Ermənistanı cəsarətləndirdiyini də qeyd etmişdir. Bu qrupun üzvlərinə görə, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi Türkiyənin regional siyasətinə mənfi təsir göstərmişdir[29].

Bundan başqa, Türkiyədə yaşayan azərbaycanlılar ötən əsrin 90-cı illərində Türkiyənin siyasi qərarvermə prosesində vacib rol oynayan təhlükəsizlik qüvvələri daxilində güclü təsirə malik olmuşlar. Türkiyə dövlətinin rəsmi kimlik siyasəti türkçülük olduğu üçün azərbaycanlılar da bu mənada Türkiyə türklərinin bir parçası olaraq qiymətləndirilmişdir. Bu qrup daxilində fərqli ideologiya daşıyıcıları və siyasi meyilli şəxslər olsa da, əksəriyyəti türk millətçisi olduğundan Azərbaycanın qarşılaşdığı milli problemlərə həssaslıqla yanaşaraq, onun dəstəklənməsini və münasibətlərin inkişafını istəmişlər.

İslam mühafizəkarlarından ibarət digər qrup üçün etnik millətçilik yox, dini identiklik birinci planda olmuşdur. Onlar üçün İslam dünyası ilə əməkdaşlıq Azərbaycan və türk dünyası ilə əməkdaşlıqdan daha əhəmiyyətli olmuşdur. Bu qrup da Türkiyənin Qərbə alternativ regionlarla münasibətlər qurmasını istəmiş, bu səbəbdən Yaxın Şərqdə Türkiyənin təsirinin artırılmasını müdafiə etmişdir. Onlar "millət" anlayışını qəbul etməmiş və "ümmət" anlayışını üstün tutmuşlar. Lakin

29 Elekdağ Şükrü. Azerbaycan`ın Kaderi. // "Milliyet", 05.09.1993

aydındır ki, Azərbaycanın Türkiyənin daxili siyasətindəki gücü eyni millət olmasından irəli gəlmişdir.

Türkiyə qərarvericiləri Azərbaycana yönəlik siyasətlərində daha praqmatik qərarların qəbul edilməsinə üstünlük vermişlər. Xüsusilə Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin (XİN) siyasi gözləntisi, Azərbaycana yönəlik siyasəti fərqli və ideologiyadan uzaq olmuşdur. Türkiyə XİN-in fikrincə, Azərbaycan müstəqil, dünyəvi, demokratik, liberal, sərbəst bazar iqtisadiyyatına malik dövlət olmalı idi[30].

Türkiyədə atatürkçü-dövlətçi və ya bəzən də solçu qrupların ölkənin xarici siyasətinə təsiri Turqut Özal dövründən etibarən mərhələli şəkildə azalmışdır. Bu qrup bəzən Türkiyədə "avrasiyaçılar" adı ilə də tanınmaqdadır. Avrasiyaçılar Türkiyənin Rusiya Federasiyası, İran və Çinlə birgə NATO və Aİ-yə qarşı alternativ bir təşkilatda təmsil olunmasını müdafiə etmişlər. Bu qrupun Azərbaycanla ortaq nöqtəsi Azərbaycanın dünyəvi dövlət olması və bunların da dünyəviliyə olduqca çox əhəmiyyət verməsindən irəli gəlmişdir. Azərbaycana xüsusi diqqətlə yanaşan bu qrup Dağlıq Qarabağ münaqişəsi və Xocalı soyqırımı məsələlərində Azərbaycanı dəstəkləmişdir.

Qərb düşüncəli elit qrup Türkiyəni Qərbin bir parçası olaraq görmüşdür. Bu qrupun daxilində Azərbaycana qarşı konkret bir mövqe formalaşmasa da, Azərbaycan Şərq mədəniyyətinin bir parçası kimi qəbul edilmişdir. Bu qrupun üzvlərinə görə, Şərq Türkiyənin qərbləşməsi qarşısında bir maneədir və bu səbəbdən Azərbaycanın Qərblə müqayisədə əhəmiyyəti azdır[31]. Onlar Türkiyənin türk dövlətləri ilə münasibətlərinin inkişafını Qərblə münasibətlərin qarşısında əngəl olaraq görmüşlər. Bu qrup regionda Qərbin maraqlarını müdafiə etdiyi üçün Türkiyə–Ermənistan sərhədləri və Dağlıq Qarabağ məsələsində Azərbaycanın və Türkiyənin dövlət siyasəti ilə razılaşmamışdır. Türkiyənin daxili və xarici siyasətində neoliberal dəyərləri müdafiə edən bu qrupa Türkiyədə yaşayan ermənilər də daxildir. Çünki onlar Türkiyənin avropalaşdıqca millətçi dəyərlərdən, o cümlədən Azərbaycandan uzaqlaşacağını, Ermənistanla sərhədləri açacağını və

30 Robins Philip. Between Sentiment and Self-Interest: Turkey's Policy toward Azerbaijan and the Central Asian. // Middle East Journal, Vol. 47, No. 4, Autumn, 1993, (pp. 593-610), p.600

31 Cornell E. Svante. Azerbaijan Since Independence, London, 2011, p.361-362

1915-ci il hadisələrini soyqırımı olaraq tanıyacağını düşünmüşlər. Bu qrup xüsusilə Ədalət və İnkişaf Partiyasının xarici siyasətinə 2002-2009-cu illər arasında təsir göstərmişdir.

Azərbaycandan Türkiyəyə ilk rəsmi səfərlər

Azərbaycandan Türkiyəyə ilk rəsmi səfər Ayaz Mütəllibov dövründə, 1992-ci ilin yanvar ayında baş tutmuş və səfər zamanı bir neçə müqavilə imzalanmışdır[32]. A.Mütəllibovun bu səfəri xalqın təzyiqi nəticəsində həyata keçirdiyi düşünülməkdədir. 25-26 fevral 1992-ci il tarixlərində erməni silahlı dəstələri Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Xocalıya hücum etmiş və burada 613 silahsız insanı öldürmüş, 1.275 insanı isə əsir almışdır. Bu hadisə Xocalını və burada yaşayan mülki əhalini qoruya bilməyən Ayaz Mütəllibov hakimiyyətinə qarşı xalq kütlələrini ayağa qaldırmış və onun istefa verməsinə səbəb olmuşdur.

Ayaz Mütəllibovdan sonra hakimiyyətə gələn Əbülfəz Elçibəy xaricə ilk səfərini Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) İstanbulda keçirilən toplantısında iştirak etmək üçün Türkiyəyə etmişdir. Ə.Elçibəy QDİƏT-in İstanbul toplantısından sonra, 26-27 iyun 1992-ci il tarixlərində Ankaraya işgüzar[33], 28 oktyabr–5 noyabrda Türkiyəyə 9 günlük səfər etmişdir. Səfər çərçivəsində noyabrın 2-də Ankarada Azərbaycan Respublikasının səfirliyi açılmış, iki ölkə arasında əməkdaşlıq və həmrəylik, həmçinin ticarət, nəqliyyat və cinayətkarların təhvil verilməsi haqqında müqavilələr imzalanmışdır. Bu müqavilələr arasında ən vacib olanı "Əməkdaşlıq və həmrəylik haqqında müqavilə"dir.

Bu dövrdə Azərbaycanın xarici siyasətində ideologiyanın hakim olması səbəbindən ciddi tənqidlərə məruz qalmış və hətta bu səhv Azərbaycanın bir çox sahədə strateji itkiləri ilə nəticələnmişdir. Azərbaycanın həyata keçirdiyi ideoloji xarici siyasət kursu Turqut Özal dövründə Türkiyənin ideoloji əsaslardan uzaq praqmatik siyasəti ilə tərs mütənasib olmuşdur. Bu dövrdə Azərbaycan hakimiyyəti Türkiyə ilə

32 Şimşir N. Bilal. Göstərilən əsəri, s.295

33 Yenə orada, s.446-447

birgə Ermənistana hərbi müdaxilə gözləntisində ikən Ankara məsələdə tərəfsiz qalmağa və Azərbaycanla Ermənistan arasında vasitəçi rolunu oynamağa çalışmışdır. Turqut Özal hakimiyyətinin türk dünyasına yönəlik millətçi şüarları isə alternativ regional aktorlara qarşı Türkiyənin mövqeyini möhkəmləndirməyə və bu ölkənin daxili siyasətində artan millətçiliyi sakitləşdirməyə xidmət etmişdir.

İdeoloji xarici siyasət Azərbaycanın digər regional dövlətlərlə münasibətlərinə mənfi təsir göstərmiş, Türkiyənin də onlarla münasibətlərinə zərər vermişdir. Çünki Türkiyə Rusiya və İranla rəqabət aparmaq istəmirdi. Türkiyə həm enerji, həm də Mərkəzi Asiya dövlətləri ilə ticarət əlaqələrinin qurulması üçün bu dövlətlərə ehtiyac duyurdu. Sözügedən dövrdə Rusiya ilə Türkiyə arasında ticarət əlaqələri əhəmiyyətli dərəcədə artmaqda idi. 1994-cü ildə iki dövlət arasında ticarətin həcmi 1.85 milyard dollara çatmışdı. Bu, Türkiyənin MDB-yə üzv ölkələrlə ticarətinin 58%-ni təşkil edirdi. Digər tərəfdən, Rusiya Türkiyə üçün çox əhəmiyyətli neft və qaz təminatçısı idi. 1995-ci ildə Türkiyə Rusiyadan 6 milyard m^3 qaz idxal etmişdi. Həmçinin Rusiya bazarı da türk iş adamları üçün olduqca əhəmiyyətli idi. Belə ki, türk iş adamları Rusiyada mühüm müqavilələr imzalamışdılar. Bu səbəbdən iki tərəf arasında çox fərqli yaxınlaşma müşahidə edilirdi[34]. Sovet İttifaqı dağıldıqdan sonra bir çox dövlət Türkiyənin Rusiya Federasiyası ilə ciddi rəqabət aparacağını düşünsə də, bu, belə olmamışdır[35].

Heydər Əliyev dövründə praqmatik münasibətlərin qurulması

Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycanın xarici siyasətinin əsasını müstəqillik, praqmatizm, balanslaşdırma, daxili siyasətinin əsasını isə sabitlik və azərbaycançılıq prinsipləri təşkil etmişdir. Heydər Əliyev və onun siyasi irsinin davamçısı Prezident İlham Əliyevin xarici siyasətində həmişə Türkiyənin xüsusi yeri olmuşdur.

34 Window Gareth. Turkey`s Relations with the Transcaucasus and the Central Asian Republics. // Perception, May-March 1996, (pp.128-145), p.131

35 Cafersoy N. Bağımsızlığının 20. yılında Azerbaycan, ed. Cavid Veliyev ve Araz Aslanlı, Güney Kafkasya: Torpak Bütünlüğü, jeopolitik mücadeleler ve enerji. Ankara: Berikan, 2011, (ss. 13-56), s.41

Xüsusən Heydər Əliyevlə Süleyman Dəmirəl arasındakı dostluq ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynamışdır. Heydər Əliyevin qurduğu balanslaşdırılmış xarici siyasət Türkiyənin region siyasətinə müsbət təsir göstərmişdir. Heydər Əliyevin Türkiyə istiqamətli xarici siyasətini aşağıdakı beş başlıq altında ümumiləşdirmək olar: 1. Heydər Əliyev Türkiyə ilə münasibətləri ideoloji yox, praqmatik əsaslar üzərində qurmuşdur; 2. Regional güc balansının qorunmasında Türkiyə Heydər Əliyev xarici siyasətinin əhəmiyyətli bir parçası olmuşdur; 3. Türkiyə ilə münasibətlər Azərbaycanın informasiya və iqtisadi blokadadan çıxması baxımından əhəmiyyətli rol oynamışdır; 4. Gücüstanı da Azərbaycan–Türkiyə əməkdaşlığına daxil edərək üçtərəfli münasibətlərin inkişafını təmin etmişdir; 5. Türkiyə ilə münasibətlər iki suveren dövlətin bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipinə əsaslanmışdır.

Türkiyənin həm müstəqil aktor, həm də Qərbin regiondakı müttəfiqi olaraq oynadığı rol Azərbaycanın balanslaşdırılmış xarici siyasətini davam etdirə bilməsi baxımından vacib olmuşdur. Balanslaşdırılmış xarici siyasət Azərbaycan üçün müstəqilliyini və suverenliyini qorumaq mənasına gəlirdi. Türkiyə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü açıq şəkildə dəstəkləmiş, beynəlxalq təşkilatlarda onunla birgə hərəkət etmiş, Azərbaycanın müstəqilliyini möhkəmləndirən regional layihələrə quşulmuşdur.

1994-cü ilin fevral ayına qədər Heydər Əliyev Qərb dövlətləri ilə münasibətlərdə bir qədər məsafəli davranaraq iki məsələdə Rusiyanın dəstəyini almağa çalışmışdır. O, bir tərəfdən Azərbaycanla Qərbin enerji şirkətləri arasında neft müqaviləsinin imzalanması ilə bağlı aparılan müzakirələrə qarşı Rusiyanın mövqeyini yumşaltmağa, digər tərəfdən Azərbaycan daxilində Rusiya ilə əməkdaşlığa can atan qüvvələri neytrallaşdırmağa, xüsusən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Rusiyanın dəstəyini almağa və ya tərəfsizliyini təmin etməyə çalışmışdır.

Heydər Əliyevin Rusiya istiqamətli siyasəti enerji məsələsində Azərbaycan–Rusiya münasibətlərinə müsbət təsir göstərmişdir.

Lakin bütün səylərə baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində arzuedilən nəticə əldə olunmamışdır. Belə ki, Ermənistanın hücumları səngiməmiş, əksinə, davam edən hücumlar nəticəsində Azərbaycanın yeddi rayonu işğal olunmuş[36] və Rusiyanın bu münaqişədə vasitəçiliyi heç bir nəticə verməmişdir. Digər tərəfdən, Rusiyanın Ermənistan və Gürcüstanda öz hərbi bazalarını yerləşdirməsi Azərbaycan üçün təhlükə yaratmışdı[37]. Çünki Azərbaycan Ermənistanla müharibə vəziyyətində olduğu halda, Gürcüstan Azərbaycanın dünyaya açılan yeganə qapısı idi. Yəni Azərbaycan üçün enerji ehtiyatlarını dünya bazarlarına çıxara biləcək yeganə etibarlı istiqamət Gürcüstan olmuşdur. Gürcüstan eyni zamanda Azərbaycan ərazisinin əsas hissəsi ilə Türkiyə arasında quru bağlantısı idi.

Rusiya Azərbaycan–İran sərhədində hərbçilərini, Dağlıq Qarabağda isə sülhməramlı qüvvələrini yerləşdirmək, həmçinin Azərbaycan neftinin rus şirkətləri tərəfindən çıxarılmasını və neftin Rusiya üzərindən xaricə nəql olunmasını istəyirdi. Təbii olaraq, Azərbaycan və Türkiyə buna qarşı çıxırdı. Başqa tərəfdən, Rusiyanın regionda sürətlə Ermənistanı silahlandırması Azərbaycanla Türkiyə arasında hərbi sahədə əlaqələrin inkişafına təkan vermişdir. Nəticədə Heydər Əliyev rus ordusunun təkrar Azərbaycanda yerləşdirilməsi tələbini qəbul etməmiş[38] və 1994-cü ilin əvvəllərindən etibarən Qərb neft şirkətləri ilə görüşlər keçirməyə başlamışdı[39].

8-10 fevral 1994-cü il tarixlərində Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri ilə münasibətlər yeni mərhələyə qədəm qoydu. Fevralın 8-də Türkiyəyə səfəri zamanı jurnalistlərə açıqlama verən Heydər Əliyev Türkiyəni "Azərbaycan üçün ən yaxın, qardaş və dost ölkə"[40] adlandırdı. Səfər zamanı tərəflər arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, qarşılıqlı sərmayə yatırımı, elmi və mədəni əlaqələr haqqında

36 Cafersoy N. Bağımsızlığın Onuncu Yılında Rusiya–Azərbaycan İlişkileri. // Avrasya Dosyası, Azerbaycan Özel, 2001, cilt: 7, say: 1, (ss. 286-316), s.294-295

37 Heydər Əliyevin İstanbulda Mətbuat Mərkəzində jurnalistlər və kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransında bəyanatı /11.02.1994, s. 67/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

38 Moskova Kızgın. // "Milliyet", 09.02.1994, s.21

39 Cəfərsoy N. Göstərilən əsəri, s.294-295

40 Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə rəsmi səfərə yola düşərkən Binə Hava Limanında jurnalistlərə müsahibəsi. /8 fevral 1994-cü il, s.36/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

müqavilələrin daxil olduğu 17 sənəd imzalanmışdı[41].

Heydər Əliyev Türkiyə–Azərbaycan münasibətləri haqqında "Bir millət, iki dövlət" şüarını da ilk dəfə bu səfərdə Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə verilən ziyafətdə "...Biz iki ölkəyik, ancaq bir xalqıq"[42] şəklində bəyan etmişdi. Bundan başqa, Heydər Əliyev Azərbaycan torpaqlarının işğaldan azad olunması üçün Türkiyənin beynəlxalq təşkilatlar, ATƏT və Minsk Qrupunda oynadığı rolun davam etdirilməsini[43] və Türkiyədən hərbi yardım deyil, yeni qurulan Azərbaycan Milli Ordusuna hərbi təlim verilməsini istəmişdi[44].

Rusiya ilə Ermənistan arasında hərbi sahədə ilbəil artan yaxınlaşma Azərbaycanla Türkiyə arasında səfərlərin çoxalmasına, regional, xarici və təhlükəsizlik məsələlərində məsləhətləşmələrə çevrilməsinə səbəb olmuşdur. Rusiya Federasiyasının Ermənistandakı hərbi bazalarının statusu haqqında müqavilə 1995-ci il martın 16-da Moskvada imzalanmış və 1997-ci ildə hər iki ölkənin parlamentləri tərəfindən təsdiqlənərək qüvvəyə minmişdi[45]. Ardından 1997-ci ilin aprel ayında Rusiya Federasiyası Dövlət Dumasının Müdafiə Komitəsinin sədri Lev Roxlinin hazırladığı hesabatla 1994-1996-cı illər ərzində Rusiyanın Ermənistana 1 milyard dollar dəyərində silah verdiyi ortaya çıxmışdı[46]. Təbii ki, bu silahlar yalnız Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə əngəl törətməmiş, eyni zamanda Azərbaycan və regionun digər dövlətləri, o cümlədən Türkiyə üçün də ciddi təhlükə yaratmışdı. Rusiyanın Ermənistana silah verdiyi məlum olduqdan sonra Azərbaycan parlamenti rəsmi qərar qəbul edərək silahların

41 İmzalanan müqavilələr haqqında bax: Şimşir N. Bilal. Göstərilən əsəri, s.676

42 Heydər Əliyevin Ankarada "Çankaya" köşkündə Azərbaycan Prezidentinin şərəfinə ziyafətdə nitqi. /8 fevral 1994-cü il, s. 39/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

43 Heydər Əliyevin Türkiyə–Azərbaycan sənədlərinin imzalanması mərasimində nitqi. /9 fevral 1994-cü il, s.46/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

44 Aliyev: Subaylarımızı Türkiye Eğitsin. // "Milliyet", 12.02.1994, s.21

45 Müqavilənin şərtlərinə görə, hərbi bazalar Ermənistanda 25 il müddətinə yerləşəcək və müqavilənin uzadılması tərəflərin razılaşması əsasında həyata keçiriləcək. Müqaviləyə əsasən, bu hərbi bazada yerləşən rus qoşunları Ermənistan ordusu ilə birgə Rusiyanın və Ermənistanın maraqlarını, həmçinin ikincinin sərhədlərini qorumalıdır. Bax: Тасиц К.И., Григорян Г.П. Основные этапы российско-армянских военно-политических взаимоотношений в постсоветский период. // Проблемы Национальной Стратегии, № 3 (30), 2015, s.77

46 Выступление Л.Я. Рохлина на заседании Государственной Думы "О нарушениях при поставках Россией оружия в республику Армения". - http://www.x-libri.ru/elib/vlkva000/00000141.htm

Rusiyaya geri verilməsini istəmişdi[47].

Heydər Əliyev 1997-ci il mayın 4-5-də Ankaraya səfər etmiş və səfər zamanı Rusiyanın Ermənistana silah satmasını həm rəsmi, həm də mətbuat və ictimaiyyətlə görüşlərində narahatlıqla qeyd etmişdi. Heydər Əliyev mətbuata müsahibəsində bu məsələ haqqında demişdi: *"Rusiya Ermənistanın ordusuna da, Dağlıq Qarabağın silahlı qüvvələrinə də çox güclü silahlar verib. Bu, bizi narahat edir, güman edirəm, Türkiyəni də narahat etməlidir və ümumiyyətlə, bizim bölgədə vəziyyəti çox gərginləşdirir"*[48].

Ermənistan Prezidenti Levon Ter-Petrosyanın 1997-ci il avqustun 29-da Rusiyaya səfəri zamanı tərəflər arasında "Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı yardımlaşma haqqında Müqavilə" (Böyük Müqavilə) imzalanmışdır. Müqavilə tərəflərin parlamentləri tərəfindən 1998-ci ilin fevral ayında təsdiqlənmiş və 1998-ci il noyabrın 5-də qüvvəyə minmişdir. İmzalanan müqavilənin şərtləri arasında hərbi-siyasi, iqtisadi, elmi-texniki və humanitar sahələrdə əməkdaşlıq yer almışdır[49]. Müqavilə imzalandıqdan sonra Azərbaycan bu sənədin ona qarşı olduğunu bildirərək etiraz etmişdir[50]. Bundan sonra 1997-ci il sentyabrın 8-də Türkiyənin xarici işlər naziri İsmayıl Cem və dövlət naziri Əhəd Əndican Azərbaycana səfər etmişlər. Türkiyəli rəsmilərlə görüşən Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov Rusiya ilə Ermənistan arasında imzalanan hərbi sazişə oxşar bir hərbi sazişin Azərbaycan və Türkiyə arasında da imzalanmasının arzuedilən olduğunu bildirmişdi[51]. Bu səfərdə eyni zamanda Türkiyə tərəfi Türkiyə–Ermənistan sərhədlərinin açılması məsələsində Azərbaycanın

47 Heydər Əliyevin Türkiyənin tanınmış jurnalistlərinə müsahibəsi. /06.05.1997, s.276/ - http://files.preslib.az/projects/toplu/v2/f3_7.pdf

48 Heydər Əliyevin İstanbulda mətbuat nümayəndələri ilə görüşdə bəyanatı /07.05.1997, s.293/ - http://files.preslib.az/projects/toplu/v2/f3_7.pdf

49 Müqavilənin şərtlərinə görə, tərəflər hərbi və xarici siyasətdə təhlükələrə qarşı birgə mövqeyə malikdirlər. Bundan başqa, tərəflərdən birinə silahlı hücum təhlükəsi ortaya çıxarsa, dərhal aralarında məsləhətləşmələr aparmalı, hücumun qarşısının alınması üçün BMT Xartiyasının 51-ci maddəsindən irəli gələn kollektiv özünümüdafiə şərtləri də daxil olmaqla, bütün tədbirləri almalıdırlar. Bax: Договор о Дружбе, Сотрудничестве и Взаимной Помощи Между Российской Федерацией и Республикой Армения. /29.08.97/ - http://www.lawrussia.ru/texts/legal_555/doc555a808x659.htm

50 Cabbarlı H. Bağımsızlık sonrası Ermenistan–Rusya İlişkileri. Ankara Çalışmaları, ASAM yayınları, 2004, s.22

51 Hasanov: Geç kaldınız. // "Milliyet", 08.09.1997, s.19

mövqeyini öyrənmək istəmişdi.

1999-cu ildə ATƏT-in İstanbulda keçirilən zirvə görüşündən əvvəl Rusiya Ermənistandakı hərbi bazasında MiG-29-un sayını 22-yə çatdırmış və burada S-300 raket sistemlərini yerləşdirmişdi[52]. 1998-ci il fevralın 17-də 102-ci hərbi bazanın rus əsgərləri qarşısında çıxış edən Ermənistanın müdafiə naziri Vazgen Sarkisyan "Biz ölkələrimizin və Birlik ölkələrinin maraqlarını cənub sərhədlərində birgə qoruyacağıq" açıqlamasını vermişdi[53]. Beləcə, Rusiya bir tərəfdən Ermənistanda mövqeyini gücləndirib onu əlində saxlamağa çalışmış, digər tərəfdən Qərbin regiona yayılmasına qarşı onu bir bufer zona olaraq görmüş və silahlandırmışdır.

Ermənistanda yerləşən Rusiya silahlı qüvvələrinin hərbi-texniki gücünün artırılması və verilən açıqlamalar Azərbaycanda narahatlıqla qarşılanmışdı. Prezident Heydər Əliyevin müşaviri Vəfa Quluzadə daha bir açıqlama verərək Azərbaycanın Türkiyənin müdafiə sisteminə daxil olmaq istədiyini[54] bildirmişdi. Bu cür xəbərlərin yayıldığı bir dövrdə Azərbaycanın xarici işlər naziri Ankaraya səfər etmiş və Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin təhlükəsizliyinin qorunması üçün türk əsgərlərinin Azərbaycana gəlməsini müzakirə etmişdi. Bundan başqa, səfərin digər məqsədi Azərbaycan Hava Qüvvələrinin müdafiə gücünün artırılması və azərbaycanlı zabitlərə Türkiyə tərəfinin hərbi təlim keçməsi olmuşdu.

ATƏT-in İstanbul zirvə görüşündə Cənubi Qafqazın təhlükəsizliyini sual altında qoyan, eyni zamanda Türkiyə və Azərbaycanı narazı salan bir hadisə də baş vermişdi. 1999-cu il noyabrın 17-də Rusiya ilə Gürcüstan arasında imzalanan birgə bəyannamə və Avropada adi silahların məhdudlaşdırılması müqaviləsi (AASMM) çərçivəsində Rusiya Gürcüstandakı hərbi bazalarını çıxarmaq məsələsində razılaşmışdı. Bu çərçivədə 2000-ci il dekabrın 31-dək Rusiya Abxaziyaya yaxın olan

52 Yenə orada

53 Rusiyanın Ermənistandakı hərbi varlığından narahat olan Azərbaycan bu dövrdə regionda NATO və ABŞ hərbi bazalarını görmək arzusunda olduğunu elan etmişdi. Bu, eyni zamanda, Azərbaycan və digər ölkələr arasında GUAM-ın yaradılmasına səbəb olmuşdur. /Вах: Москва и Ереван укрепляют совместную оборону. //"Независимая газета",19.02.99

54 Kafkasya` da Türk-Rus Savaşı. // "Milliyet", 27.01.1999, s.18

Qudautu və Vazianidəki hərbi bazalarını Gürcüstandan çıxarmışdı[55]. Lakin buradakı ağır silah və texnikanın Ermənistan–Türkiyə sərhədinə yaxın ərazidə – Gümrüdə yerləşən 102-ci rus hərbi bazasına köçürülməsi[56] Azərbaycan və Türkiyəni narahat etmişdi.

2001-ci ilin mart ayında Heydər Əliyevin Türkiyəyə səfəri zamanı Ermənistanın silahlandırılması məsələsi müzakirə olunmuşdu. Heydər Əliyev həmçinin Rusiyanın Ermənistandakı hərbi bazalarının Türkiyəyə qarşı qurulduğunu bildirmiş, Türkiyənin bu məsələyə daha həssas davranmasını istəmişdi. Heydər Əliyev bu dəfə də Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlıq haqqında müqavilənin imzalanmasını müzakirə etmişdi[57]. Heydər Əliyev Türkiyənin NTV televiziya kanalına müsahibəsində Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı sazişin imzalanmasının vacibliyini bir daha səsləndirmişdi[58].

Səfərin yekununda iki tərəf arasında "Strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi haqqında Birgə Bəyanat" imzalanmışdı. Bəyanatın əsas maddələri bunlar idi: tərəflər iki dövlət arasında strateji əməkdaşlığa əsaslanan münasibətlərin regionun digər ölkələri üçün də nümunə ola bilməsini arzulayır; tərəflər regionda digər dövlətlərin ərazi bütövlüyünə, insan hüquq və azadlıqlarının əsaslarının, demokratik prinsiplərin və ictimai dəyərlərin pozulmasına yönəldilmiş təcavüzə qarşı çıxır, separatçı hərəkətləri və terrorizmin bütün forma və təzahürlərini pisləyir və bu təhlükəyə qarşı mübarizədə birgə fəaliyyətlərini inkişaf etdirmək əzmində olduqlarını təsdiqləyirlər; tərəflər Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz bir hissəsi olduğunu qeyd edir və Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını tezliklə və qeyd-şərtsiz tərk etməsini, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtmalarının təmin olunmasını bir daha qeyd edirlər; tərəflər regionda mövcud olan vacib problemlərin həlli

55 Kakachia Korneli. End of Russian Military Bases in Georgia: Social, political and security implications of whithdrawal, Central Asia and the Caucasus, No, 2, (50), 2008, pp. 52-62

56 Türkiye sınırına yığınak. // "Milliyet", 20.10.2000, s.12

57 Heydər Əliyevin Türkiyənin NTV televiziya kanalının əməkdaşları İrfan Sapmaz və Didəm Tuncaya verdiyi müsahibəsi /15 mart 2001-ci il, s.222/ - http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf

58 Yenə orada, s.223

üçün konstruktiv təkliflər irəli sürmək əvəzinə region ölkələrinin bir-birinə münasibətdə yeni gərginlik yarada biləcək, mehriban qonşuluq prinsiplərinə uyğun olmayan siyasət aparmasının doğru olmadığını, Qafqazda həqiqi sülhün və əməkdaşlıq şəraitinin təmin olunması baxımından belə siyasətə son qoyulmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayırlar; tərəflər Qafqazda sülhün və sabitliyin bərqərar olmasına yönəldilmiş səyləri dəstəklədiklərini bir daha qeyd edərək bu çərçivədə Qafqazda Sabitlik Paktı təşəbbüsünü inkişaf etdirmək üçün əməkdaşlıq etmək qərarlarını ifadə edirlər; tərəflər həmçinin Xəzər dənizi hövzəsindəki neftin Bakı–Tbilisi–Ceyhan neft boru kəməri vasitəsilə ixracının region ölkələrinə yeni iqtisadi imkanlar yaratmaqla yanaşı, bölgədəki sabitliyin möhkəmlənməsinə xidmət edəcəyini, Avropa başda olmaqla, Qərb bazarlarının enerji nəqli təhlükəsizliyinə müsbət təsir göstərəcəyini vurğulayırlar. Bundan başqa, tərəflər Qazaxıstan neftinin nəqli ilə əlaqədar həyata keçirilən işlərin müsbət axarda inkişafını məmnuniyyətlə qeyd etmiş, neftin Aktau–Bakı–Tbilisi–Ceyhan marşrutu ilə nəqlinin təmin edilməsi məqsədilə Qazaxıstan və Gürcüstan hökumətləri ilə birlikdə çalışaraq, müvafiq hüquqi zəminin tezliklə formalaşdırılması niyyətində olduqlarını təsdiq etmişlər. Tərəflər eyni zamanda Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi ilə beynəlxalq daşımaların inkişaf etdirilməsi haqqında Çoxtərəfli Əsas Saziş çərçivəsində həyata keçirilən fəaliyyətlərin və Qara dəniz–Rinq koridoru layihəsinin reallaşmasının sürətləndirilməsi məqsədilə əlaqələndirilmənin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd etmişlər[59].

Bu dövrdə regionun üç dövlətində cərəyan edən proseslər regional münasibətlərin axarını dəyişdi. 2000-ci ildə keçirilən prezident seçkilərində Vladimir Putinin qalib gəlməsi Azərbaycan–Rusiya münasibətlərinə müsbət təsir göstərdi. Belə ki, Vladimir Putin Rusiya üçün strateji əhəmiyyətə malik Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq istəyirdi. Digər tərəfdən, 2002-ci ildə Türkiyədə keçirilən parlament seçkilərində Ədalət və İnkişaf Partiyasının (ƏİP) hakimiyyətə

59 Heydər Əliyevin Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığa əsaslanan ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi haqqında bəyanatı. /12.03.2001, s.200-201/ - http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf

gəlməsi ilə Türkiyə–Rusiya münasibətləri də müsbət axara düşdü[60]. ƏİP hərbi ittifaqları əsas alan xarici siyasət kursu deyil, əməkdaşlığa, dialoqa, diplomatiyaya və ticarət əlaqələrinin inkişafına üstünlük verən xarici siyasət kursu həyata keçirəcəyini bəyan etmişdi.

Bu dövrdə Türkiyənin region dövlətləri ilə münasibətlərini üç prinsip müəyyənləşdirirdi: birincisi, qarşılıqlı iqtisadi asılılıq, faydalılıq və əməkdaşlıq çərçivəsində iqtisadi layihələri həyata keçirmək, ticarət həcmini artırmaq prinsipi; ikincisi, qonşularla sıfır problem prinsipi; üçüncüsü, çoxvektorlu xarici siyasət prinsipi[61]. Bu dövrdə Türkiyə artıq Qərbin regiondakı vasitəçi rolunu oynamaq niyyətində deyildi və müstəqil aktor olaraq hərəkət etməyə çalışırdı. Bu hadisə Türkiyənin Rusiya və İranla münasibətlərinə müsbət təsir etdi, Azərbaycan üçün yeni imkanlar yaratdı. Belə ki, Azərbaycan regional güc mübarizəsinin əksinə olaraq, regional əməkdaşlığa üstünlük verdi.

2003-cü il yanvarın 7-də sahibkarlar və mətbuat nümayəndələrindən ibarət böyük bir heyətlə Azərbaycana gələn ƏİP sədri Rəcəb Tayyib Ərdoğan Prezident Heydər Əliyevlə görüşmüşdü. Bu səfərin əsas məqsədi tərəflər arasında iqtisadi münasibətlərin inkişaf etdirilməsi olmuşdu. Belə ki, ƏİP 2001-ci ildə Türkiyədə yaşanan iqtisadi böhran nəticəsində hakimiyyətə gəlmişdi. Bu səbəbdən ƏİP-in əsas hədəfi Türkiyənin qonşu dövlətlərlə iqtisadi və ticari əlaqələrini inkişaf etdirmək və qarşılıqlı olaraq sərmayə yatırımının həcmini artırmaq idi. Ərdoğan Azərbaycana səfəri zamanı iki ölkə arasındakı mövcud ticarət dövriyyəsinin səviyyəsindən razı olmadığını bildirmişdi. Bundan başqa, səfər zamanı Ərdoğan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsində Türkiyənin əvvəlki siyasətini davam etdirəcəyini qeyd etmişdi[62].

60 AK Parti Seçim Beyannamesi. Herşey Türkiye için, TBMM Kütübhanesi, 2002, s.93 - https://www.tbmm.gov.tr/eyayin/GAZETELER/WEB/KUTUPHANEDE%20BULUNAN%20DIJITAL%20KAYNAKLAR/KITAPLAR/SIYASI%20PARTI%20YAYINLARI/200304063%20AK%20PARTI%20SECIM%20BEYANNAMESI%202002/200304063%20AK%20PARTI%20SECIM%20BEYANNAMESI%202002%200000_0000.pdf

61 Bulent Aras and Pınar Akpınar. The Relations between Turkey and the Caucasus, Perceptions, Autumn 2011. Voluma XVI, Number 3, (pp. 53-68), p. 55-57

62 Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü. /7 yanvar 2003-cü il, s. 9/ - http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf

İlham Əliyev dövrü: strateji münasibətlərin möhkəmlənməsi

2003-cü il oktyabrın 31-də prezident seçilməsi münasibətilə "Gülüstan" sarayında keçirilən rəsmi qəbulda İlham Əliyev Türkiyə–Azərbaycan münasibətləri haqqında "Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır"[63] fikrini ifadə edərək iki dövlət arasındakı münasibətlərin gələcək istiqamətini göstərmişdir.

2003-cü ildə Azərbaycan və Türkiyəni bir-birinə daha sıx bağlayan çox əhəmiyyətli strateji layihələrlə bağlı müqavilələr imzalanmışdı. Hər iki ölkənin qarşısında bu layihələrin həyata keçirilməsi dururdu. Bu səbəbdən Azərbaycanda siyasi sabitliyin və imzalanan enerji müqavilələrini icra edəcək siyasətin davam etdirilməsi enerji layihələri ilə maraqlanan digər dövlətlər kimi, Türkiyənin də marağında olmuşdur. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan xarici siyasətinin prioritetləri Türkiyənin Azərbaycan üçün əhəmiyyətini qorumasına səbəb olmuşdur. Regional balansın qorunması, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində, həmçinin Azərbaycanın enerji ehtiyatlarının Qərbə çatdırılmasında Türkiyənin oynadığı rol ikitərəfli münasibətlərin gücləndirilməsini zəruri etmişdir. 2007-ci ildə qəbul olunan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında Türkiyə–Azərbaycan münasibətlərinin strateji əməkdaşlıq səviyyəsində olduğu qeyd olunmuşdur. Konsepsiyada Türkiyənin Azərbaycan üçün əhəmiyyəti aşağıdakı kimi izah edilmişdir: etnik, mədəniyyət və dil baxımından bir-biri ilə sıx bağlı olan ölkələr; Türkiyə transregional iqtisadi layihələrin həyata keçirilməsində əhəmiyyətli rol oynayır; Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəldilmiş səylərdə mövqelər uyğundur[64].

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın iqtisadi cəhətdən güclənməsi onun xarici siyasətinə də müsbət təsir göstərmişdir. Bu, özünü Azərbaycan–Türkiyə münasibətlərində də hiss etdirmişdir: 1. Azərbaycan xaricə sərmayə yatıran ölkəyə çevrilmiş və Türkiyəyə

63 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yekun nitqi. /31 oktyabr 2003-cü il, s.6/ - http://files.preslib.az/site/ialiyev/2003.pdf

64 Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası /Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir /31.05.2007/

də böyük həcmdə sərmayə yatırılmışdır; 2. Azərbaycan beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmiş və Türkiyəyə dəstək olmuşdur; 3. Türkiyənin daxili siyasətində Azərbaycanın humanitar fəaliyyəti getdikcə artmışdır; 4. Ordu quruculuğunda əməkdaşlıq artmış və hərbi-müdafiə sənayesində birgə istehsal olunacaq silahlar gündəmə gəlmişdir; 5. Erməni diasporasının xaricdə Azərbaycan və Türkiyəyə qarşı apardığı fəaliyyətə qarşı Azərbaycan aparıcı mövqeyə sahib olmuşdur; 6. Türkdilli dövlətlər arasında əməkdaşlığın institutlaşması baxımından Azərbaycan Türkiyə və Qazaxıstanla birgə aparıcı rol oynamışdır; 7. Azərbaycan regional rəqabətə deyil, əməkdaşlığa üstünlük vermişdir. Bu çərçivədə Türkiyənin iştirakı ilə regional üçlüklərin – üçtərəfli əməkdaşlığın (Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–İran–Türkiyə, Azər-baycan–Türkmənistan–Türkiyə) sayı artmışdır; 8. Azərbaycan və Türkiyə üçüncü tərəfin maddi dəstəyi olmadan regional layihələri maliyyələşdirərək həyata keçirə bilmişlər.

Azərbaycan–Türkiyə regional siyasəti reaksional olmaqdan çıxmış, proaktiv siyasətə çevrilmişdir. Bu çərçivədə hər iki dövlət quru bağlantıları olan Gürcüstanın suverenliyinin və müstəqilliyinin qorunması üçün aktiv rol oynamışdır. 2006-cı ildə Rusiya tərəfindən Gürcüstanın kənd təsərrüfatı mallarına və mineral sularına embarqo tətbiq edilməsinə qarşılıq olaraq sərbəst ticarət müqaviləsi çərçivəsində Türkiyə öz bazarını Gürcüstan malları üçün açmışdır[65]. Digər tərəfdən, Gürcüstan hökuməti Azərbaycan və Türkiyəyə müraciət edərək ucuz qiymətə təbii qaz almaq istədiyini bildirmiş və nəticədə 2007-ci ilin mart ayından etibarən Azərbaycan Gürcüstanın qarşılaşdığı qaz probleminin həlli üçün bu ölkəyə qaz satmağa başlamışdır[66].

2008-ci ilin avqust ayında Gürcüstanla Rusiya arasında yaşanan səkkizgünlük müharibə Azərbaycan və Türkiyə xarici siyasəti üçün yeni təhlükələr yaratmışdı. Müharibə bir tərəfdən regionda etnik münaqişələrin yenidən alovlanmasına, sabitliyin pozulmasına, digər

65 Chikhikvadze İvane. Zero Problems With Neighbors: The Case of Georgia. // Turksih Policy Quarterly, Summer, 2011, Vol.10, No.2, (pp. 1-9), p.6

66 Jervalidze Liana. Georgia's State Energy Policy in the Natural Gas Sector. /29.02.2008/ - http://www.transparency.ge/sites/default/files/Georgia's%20Policy%20in%20the%20Natural%20Gas%20Sector%20eng.pdf

tərəfdən Türkiyə və Azərbaycanı birləşdirən BTC, BTƏ enerji və BTQ dəmir yolu xətlərinə təhlükə törədirdi. Gürcüstan müharibəsi zamanı körpülərin partladılması nəticəsində Azərbaycanın xarici ixrac yollarına da ziyan dəymişdi. Gürcüstan–Rusiya müharibəsində Azərbaycan və Türkiyə bir tərəfdən Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyib, düşdüyü çətin vəziyyətdən çıxmasına dəstək verdikləri halda, digər tərəfdən Rusiya ilə münasibətlərini qorumağa çalışmışdılar. 2008-ci il avqustun 20-də Baş nazir R.T.Ərdoğan Azərbaycana səfər etmiş və bir sıra rəsmi görüşlər keçirmişdi. Səfərin sonunda mətbuata açıqlama verən İlham Əliyev hər iki dövlətin Azərbaycanın qonşusu olduğunu, bu səbəbdən iki dövlət arasında münasibətlərin normallaşmasını istədiklərini qeyd etmişdi. R.T.Ərdoğanın Bakı səfərində Qafqazda Sabitlik və Təhlükəsizlik Paktı da müzakirə olunmuş və Azərbaycan bu pakta dəstək vermişdi[67].

2008-ci ildə Rusiya–Gürcüstan müharibəsi Türkiyənin və Azərbaycanın xarici siyasətində dəyişikliklərə səbəb oldu. Azərbaycan rəsmiləri ölkənin NATO və Aİ kimi qurumlara üzv olmayacağını bildirdikləri halda, Türkiyə yaranmış vəziyyəti Ermənistanla münasibətlərin düzəldilməsi üçün bir fürsət olaraq qiymətləndirmişdi. Bu isə Türkiyə və Azərbaycan arasında ciddi problem yaratdı. 2010-cu ildə Türkiyə–Ermənistan protokollarının imzalanmasından sonra Azərbaycan–Türkiyə münasibətlərində yaşanan anlaşılmazlıq qısa müddət davam etmiş, lakin yenidən düzəlmişdi. Azərbaycan–Türkiyə münasibətlərinin dəyişməsinə iki hadisə səbəb olmuşdu: birincisi, Türkiyə ictimaiyyətinin bu protokollara qarşı çıxması və Azərbaycanla münasibətlərin normallaşmasını tələb etməsi; ikincisi, Türkiyədə 70% səsə sahib millətçi-mühafizəkar qrupların "kürd açılımı" və "erməni açılımı"ndan narahat olması. Bu qruplar, eyni zamanda, Ermənistanla imzalanan protokollar nəticəsində Azərbaycanla münasibətlərin pozulmasından da narahat olmuşlar. Nəticədə bu hadisədən sonra Azərbaycan–Türkiyə münasibətləri daha da möhkəmlənmişdir.

Protokollar böhranından sonra Azərbaycan–Türkiyə yaxınlaşmasının

67 Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü. /20 avqust 2008-ci il, s. 214-215/ - http://files.preslib.az/site/ialiyev/2008.pdf

ikinci səbəbi Cənubi Qafqazdaki geosiyasi vəziyyət olmuşdu. Belə ki, 2010-cu ildə Ermənistanla Rusiya arasında 1995-ci ildə imzalanan hərbi bazaların yerləşdirilməsi haqqında müqavilənin vaxtı başa çatdığından tərəflər arasında müqavilənin müddətinin uzadılması gözlənilirdi.

2010-cu il avqustun 16-da Türkiyə Prezidenti Abdullah Gülün Azərbaycana səfəri zamanı uzun illərdən sonra ilk dəfə tərəflər arasında "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" imzalandı[68]. Türkiyə Prezidenti Abdullah Gülün Bakıya səfərindən 3 gün sonra Rusiya Prezidenti Dmitri Medvedev Ermənistana səfər edərək Ermənistandakı rus hərbi bazasının qalma müddətinin 49 il uzadılmasına dair müqavilə imzalamışdı[69]. Müqavilə Azərbaycan cəmiyyətində yenə də narazılıqla qarşılanmışdı, çünki bu, Cənubi Qafqazda güc balansını Ermənistanın lehinə dəyişə bilərdi.

2010-cu il sentyabrın 16-da türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilən X Zirvə toplantısında iştirak etmək üçün Prezident İlham Əliyev Türkiyəyə səfər edir. Səfər zamanı iki ölkə arasında "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə" imzalanır. Bəyannaməyə əsasən, iki ölkə arasında əhatəli inteqrasiyanın əldə olunması və tərəflərin maraqlarına uyğun regional və beynəlxalq məsələlərdə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq

68 Müqavilənin 1-ci maddəsinə əsasən, tərəflərin hər hansı biri ərazi bütövlüyünün, suverenliyinin və sərhədlərinin toxunulmazlığının təhdid edildiyi və ya təhlükə altında olduğu qənaətində olduqda, tərəflər bu təhdid və təhlükələrin aradan qaldırılması istiqamətində görülə biləcək tədbirlər barədə təxirə salınmadan məsləhətləşmələr aparacaqlar. 2-ci maddəyə görə isə, tərəflərdən biri üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldıqda, tərəflər BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və ya kollektiv özünümüdafiə hüququnun həyata keçirilməsi üçün hərbi imkan və qüdrətlərindən istifadə etmək də daxil olmaqla, mövcud imkanları çərçivəsində bütün zəruri tədbirlərin görülməsi məqsədilə bir-birinə qarşılıqlı yardım göstərəcəklər. Bu yardımın forması və həcmi təxirə salınmadan tərəflər arasında razılaşdırılacaqdır. Türkiyə ilə Azərbaycan arasında "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə"nin mətni üçün bax: http://www.e-qanun.az/framework/21158 /15 avqust 2010-cu il/

69 Ermənistanda Rusiyanın hərbi bazasının statusunu təyin edən 1995-ci il müqaviləsindən fərqli olaraq, bu müqaviləyə əsasən, rus hərbi bazaları Ermənistanda olduğu müddətdə Ermənistan silahlı qüvvələri ilə birlikdə Ermənistanın təhlükəsizliyini qoruyur və bu məqsədlər üçün Rusiya tərəfi Ermənistan Respublikasının müasir və uyğun silahlar, hərbi (xüsusi) texnika ilə təminatının həyata keçirilməsinə dəstək verir

Şurası (ATYSSƏŞ) yaradılır[70]. Şuranın yaradılmasından sonra hər il Azərbaycan və Türkiyədə dövlət başçılarının, həmçinin aidiyyəti dövlət qurumlarının rəhbərlərinin də iştirakı ilə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının görüşləri keçirilir.

Digər tərəfdən bu dövrdə böyük güclərin Azərbaycan siyasəti rəsmi Bakının maraqlarına uyğun gəlmirdi. 2011-ci ilin oktyabr ayında MDB-yə üzv ölkələrin baş nazirlərinin Sankt-Peterburqda keçirilən iclasında Rusiya Federasiyasının Prezidenti Vladimir Putin MDB coğrafiyasında Avrasiya Birliyi yaratmaq təklifini irəli sürdü. MDB-yə üzv 7 ölkəni çıxmaq şərti ilə, Azərbaycan Türkmənistan və Özbəkistanla birlikdə sərbəst ticarət aparılması haqqında müqaviləni imzalamamışdı[71]. Digər tərəfdən, Azərbaycan Rusiyanın təklif etdiyi Gömrük İttifaqına da qoşulmamış və bunu iqtisadi maraqlarına uyğun olmadığı ilə izah etmişdi. Bundan başqa, 2013-cü il seçkilərindən əvvəl Rusiyada yaşayan azərbaycanlı milyarderlərin bir ittifaq tərkibində təşkilatlanması və Azərbaycanda yaşayan etnik xalqların Rusiyada nümayəndələrinin aktivləşməsi ölkədə narahatlıqla qarşılanmışdı[72].

Aİ Azərbaycanın ərazi bütövlüyünü "AQŞ Fəaliyyət Planı (FP) – Azərbaycan" sənədində BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərar və bəyanatlarını əsas götürərək dəstəkləsə də, İttifaqın ikili yanaşması özünü "AQŞ Fəaliyyət Planı – Ermənistan" sənədində açıq şəkildə göstərmişdir. Çünki Ermənistanla bağlı Fəaliyyət Planında Aİ "xalqların öz müqəddəratını təyin etməsi" prinsipinə vurğu etmişdir. Aİ rəsmiləri İttifaqın Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstəyini və Dağlıq Qarabağın heç bir Aİ ölkəsi tərəfindən tanınmamasını səsləndirsələr də, Ermənistan rəsmiləri ilə görüşəndə münaqişənin həlli üçün üç Madrid prinsipinin əsas götürüldüyünü və ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəklədiklərini bildirmişdilər.

Digər tərəfdən, Aİ Ukrayna və Gürcüstanın ərazi bütövlüyünü

70 Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə. /15.09.2010/ - http://www.e-qanun.az/framework/21161

71 Cornell E, Svante. Azerbaijan: Going It Alone, Edit. S. Frederick Starr Svante E. Cornell, Putin's Grand Strategy: The Eurasian Union and Its Discontents, Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2014, (pp. 145-155), p.149

72 Yenə orada, s.150

açıq şəkildə dəstəkləsə də, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə bu mövqeyi ortaya qoymamışdır. Bundan başqa, Avropa dövlətləri Abxaziya, Cənubi Osetiya, Dnestryanı və Krımdan olan separatçılara qarşı səyahət sanksiyaları tətbiq etsələr də, Dağlıq Qarabağın separatçı liderlərinə bu sanksiyalar tətbiq edilməmişdir.

Bu səbəbdən Azərbaycanda 2013-cü il oktyabrın 9-da keçirilən seçkilərdə prezident seçilən İlham Əliyev birinci xarici səfərini Türkiyəyə etmişdi. Səfər zamanı tərəflər arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası keçirilmiş, müqavilələr imzalanmışdı. Prezident İlham Əliyev görüşlərin birində "Güclü Türkiyə güclü Azərbaycan deməkdir" ifadəsini işlətmişdi. Bu dövrdə Azərbaycanla Türkiyə arasında münasibətlər qarşılıqlı artan səfərlərlə də yadda qalmışdı. Təkcə 2015-ci ildə hər iki ölkənin prezidentləri beynəlxalq tədbirlərdəki görüşlərdən başqa dörd dəfə qarşılıqlı səfərlər həyata keçirmişlər. Bu dövrdə Azərbaycanla Türkiyə arasında enerji və iqtisadi sahədə imzalanan müqavilələr hər iki dövlətin Cənubi Qafqaz, Qara dəniz və Şimal-Şərqi Avropada mövqeyini daha da gücləndirmişdir.

Türkiyənin Dağlıq Qarabağ siyasəti üç mərhələdə

Dağlıq Qarabağ münaqişəsinin ortaya çıxdığı 1988-ci ildən etibarən Türkiyə münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləmişdir. Bunun üçün məsələni beynəlxalq təşkilatların gündəminə gətirmiş, bu təşkilatlarda Azərbaycanın ərazi bütövlüyünə dəstək verən qərarları dəstəkləmiş və Ermənistanla sərhəd qapılarını, hava dəhlizini bağlamışdır. Lakin Türkiyə fərqli mərhələlərdə fərqli taktiki gedişlər etmişdir. Belə ki, Sovet İttifaqı dağılmamışdan öncə Türkiyə bu məsələni İttifaqın daxili işi olaraq qiymətləndirmiş, Azərbaycan və Ermənistan müstəqil olduqdan sonra bir müddət tərəfsiz qalmağa çalışmış, lakin Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi ilə Azərbaycanın tərəfində yer almışdır.

1988-ci ildə Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi verdiyi açıqlamada münaqişənin SSRİ-nin daxili işi olduğunu qeyd etmiş, lakin məsələnin dinc yolla həll olunmasını istəmiş, eyni zamanda humanitar

yardım göndərməyə hazır olduğunu bildirmişdi[73]. 1990-cı il yanvarın 18-də Türkiyə Respublikasının xarici işlər naziri Məsud Yılmaz SSRİ-nin Ankaradakı səfiri Albert Çernışevi XİN-ə dəvət edərək ondan Dağlıq Qarabağ və Azərbaycanda cərəyan edən hadisələrlə bağlı məlumat istəmişdi. Görüşdən sonra mətbuata açıqlama verən Məsud Yılmaz qeyd etmişdi ki, eyni dili və eyni mədəniyyəti bölüşdükləri azərbaycanlılarla təbii yaxınlıq hiss edən türk milləti çox yaxında baş verən bu hadisələri xüsusi həssaslıqla izləyir[74]. Türkiyə rəsmiləri həm Türkiyə–Rusiya münasibətlərinə zərər verməmək üçün, həm də Qərb müttəfiqlərinin təsiri ilə bu hadisələri SSRİ-nin daxili işi kimi qəbul etmiş, lakin yaşanan qətliama qarşı mənfi reaksiyanı ortaya qoymaqdan çəkinməmişdir. Türkiyənin bu siyasəti müxalifət tərəfindən tənqid olunmuş və hökumət Azərbaycana yetərli dəstək verməməkdə günahlandırılmışdı[75].

Bu dövrdə Dağlıq Qarabağ məsələsində Türkiyə hökuməti Ermənistanla da münasibətlərini korlamamış və tərəfsizliyini qorumağa çalışmışdır. Türkiyədə Ermənistanın dövlət başçısı Levon Ter-Petrosyan haqqında müsbət fikir formalaşdırılmışdır. Bəzilərinə görə, onun dəstəklənməsi daha radikal mövqeyə sahib daşnakların hakimiyyətə gəlməsinin qarşısını alacaq, Dağlıq Qarabağ münaqişəsinin həllinə və Türkiyə–Ermənistan münasibətlərinə müsbət təsir edəcəkdi. Türkiyə Petrosyan hakimiyyətini dəstəkləmək üçün 1992-ci ildə Ermənistana 100 min ton buğda satmışdı. Bundan başqa, 1992-ci ildə elektrik enerjisinin alqı-satqısı ilə bağlı tərəflər arasında protokol imzalanmışdı. Ermənistan Türkiyə tərəfindən ayrılan beynəlxalq yardımın keçməsi üçün dəhliz açılmasını və elektrik stansiyalarında istifadə üçün mazut verilməsini də xahiş etmişdi[76]. Türkiyə hökuməti bu yardımlarla Ermənistan hökumətini özündən asılı vəziyyətə salmaq istəmiş və bu yolla Dağlıq Qarabağ münaqişəsinin həllinə müdaxilə edəcəyini düşünmüşdü. Lakin Dağlıq Qarabağda erməni hücumlarının artması nəticəsində Türkiyədən Ermənistana taxılın verilməsi dayandırılmışdı.

73 Şimşir N. Bilal. Göstərilən əsəri, s.96-97

74 Yenə orada, s.98

75 Philip Robins. Between Sentiment and Self-Interest: Turkey's Policy toward Azerbaijan and the Central Asian. // Middle East Journal, Vol. 47, No. 4, Autumn, 1993, (pp. 593-610), p. 597

76 Ermenilerden yeni istek. // "Milliyet", 10.12.1992, s.16

Ankaranın Ermənistana verəcəyi elektrik enerjisi bu ölkə üçün böyük əhəmiyyət kəsb edirdi. Çünki Ermənistan enerji problemi ilə qarşı-qarşıya qalmışdı. Lakin Ermənistanın Azərbaycana qarşı hücumlarını davam etdirdiyi bir dövrdə ona elektrik enerjisi satması Ankaranın Azərbaycandakı nüfuzuna, xüsusən Azərbaycan neftinin pay bölgüsü ilə bağlı aparılan müzakirələrdə mövqeyinə mənfi təsir göstərmiş, nəticədə Türkiyə Ermənistanla elektrik enerjisinin alqı-satqısı ilə bağlı müqaviləni ləğv etmişdi.

Ermənistanın 1992-ci il mayın 8-də Şuşanı, mayın 17-də Laçını işğal etməsi və Dağlıq Qarabağda artan hücumlar Türkiyə–Ermənistan münasibətlərində köklü dəyişikliklərin yaranmasına səbəb olmuşdu. Erməni hücumlarının artması nəticəsində Ankara istəməyərəkdən münaqişədə tərəf olmağa başlamışdı. 1992-ci il martın 2-dən etibarən Türkiyə mərhələli şəkildə Ermənistana uçan təyyarələri öz ərazisinə enməyə məcbur etmiş və silah-sursat olub-olmaması ilə bağlı yoxlamalar aparmağa başlamışdı. Elə həmin ildə Türkiyə Ermənistanın Şuşa və Laçından çəkiləcəyi təqdirdə onunla diplomatik əlaqələr quracağını bəyan etmiş, lakin qarşı tərəf bu təklifi rədd etmişdi[77].

1993-cü il aprelin 3-də Kəlbəcərin işğalı və daha sonra Ermənistan ordusunun Füzuliyə hücuma keçməsi Türkiyə hökumətinin bəzi tədbirlər almasına səbəb olmuşdu. Belə ki, Türkiyə hökuməti Ermənistana gedən yardımlar üçün ayırdığı hava yolunu bağlamış, bu ölkəyə təyyarələrin uçuşunu tamamilə dayandırmışdı. Türkiyə Ermənistanın hücumları ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının beş daimi və digər üzvlərinin iclasını çağırmış, Ermənistanın hücumlarını pisləyən bir layihə mətni hazırlayaraq Təhlükəsizlik Şurasına təqdim etmişdi[78]. Türkiyənin dövlət naziri və Baş nazirin müavini İsmət İnönü Ermənistanın hücumlarının artmasından sonra Türkiyə Hava Qüvvələrinin Ermənistanla sərhəddə uçuşlarını artıracağını bildirmişdi[79]. 1993-cü il aprelin 3-də isə Türkiyə Ermənistanla sərhəd qapılarını bağlamışdı[80].

77 Bölükbaşı Süha. Göstərilən əsəri, s.84-85

78 Ve, hava ambargosu. // "Milliyet", 06.04.1993, s.15.

79 Ermənistan`a ambargo. // "Milliyet", 03.04.1993, s.14

80 Ermənistanla 2003-cü il oktyabrın 16-da birbaşa İstanbul–Yerevan uçuşları başladı. Bax: Serpil Yılmaz. Ermenistan sınırı havadan açıldı.// "Milliyet", 18.10.2003, s.8

1993-cü il aprel ayının 13-14-də Azərbaycana səfər edən Turqut Özal rəsmi şəxslərlə görüşdə Dağlıq Qarabağdakı son vəziyyət və ikitərəfli münasibətləri müzakirə etmişdi. Səfər ərəfəsində Türkiyə ilə Azərbaycan arasında müdafiə sahəsində birgə əməkdaşlıq haqqında müqavilə layihəsi hazırlandı və bu sənədin imzalanacağı gözlənilirdi. Lakin səfər zamanı bu sənəd deyil, bunun əvəzinə hərbi təhsil sahəsində əməkdaşlıq müqaviləsi imzalandı. Turqut Özalın fikrincə, münaqişəni hərbi ittifaqlar bağlayaraq zor gücü ilə həll etmək qeyri-mümkündür. Belə vəziyyət münaqişənin arealını genişləndirə, ona digər dövlətlər də qoşula, hətta Yaxın və Orta Şərqdə böyük fəlakətlər yarada bilərdi. Türkiyə münaqişənin ATƏM-in Minsk konfransı çərçivəsində həllinə üstünlük vermişdi[81]. Bu dövrdə Azərbaycan özü də hərbi dəstək üçün Türkiyəyə müraciət etməmişdir.

Türkiyə müharibə şəraitində olan Azərbaycanla hərbi-müdafiə sahəsində müqavilə imzalayaraq müharibə edən tərəflə müttəfiq olmaq istəməmişdi[82]. Çünki, birincisi, bu halda Türkiyə hücuma məruz qalan tərəf olan Azərbaycana hərbi dəstək vermək məcburiyyətində qala bilərdi. İkincisi, Türkiyə hərbi müdaxilənin Türkiyə–Rusiya müharibəsinə yol açacağını düşünürdü. Üçüncüsü, Mustafa Kamal Atatürkün dövründən bu yana Türkiyə birbaşa silahlı hücuma məruz qalmadığı müddətdə gücdən istifadə etməmişdir. Dördüncüsü, Türkiyə NATO-nun üzvü idi və bu səbəbdən də hərbi məsələlərdə NATO ilə məsləhətləşməli idi. Bu məsələdə NATO üzvü olan ölkələr Türkiyənin hərbi aktivliyinə qarşı çıxmışdılar. Beşincisi, 1974-cü ildə Kiprə hərbi müdaxilədən sonra Türkiyə sanksiyalara məruz qalmışdı. Buna görə sanksiyalardan yeni-yeni qurtulmağa başladığı bir dövrdə yeni sanksiyalara məruz qalmaq istəməmişdi[83]. Nəticədə Türkiyənin hərbi müdaxiləsi Ankaranın həm Moskva, həm Brüssel, həm də Vaşinqton ilə münasibətlərini pozaraq onun tək qalmasına gətirib çıxara bilərdi.

1997-ci ildə Levon Ter-Petrosyanla Dağlıq Qarabağ və erməni diasporasının Ermənistandakı təmsilçiləri arasında Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ciddi fikir ayrılığı yaranmışdı. L.T.Petrosyan

81 Qasımlı M. Göstərilən əsəri, I hissə, s.439

82 Türkiyənin keçmiş xarici işlər naziri Hikmət Çətinlə müsahibə. Ankara, 25.12.2016

83 Cornell E.Svante. Azerbaijan Since Independence, pp. 370-371

münaqişənin mərhələli şəkildə həlli variantının ən uyğun variant olduğunu müdafiə etmişdi[84]. Ona görə, Dağlıq Qarabağ münaqişəsi Ermənistanın iqtisadi inkişafının qarşısında bir əngəl olub, beynəlxalq birlik, xüsusilə qonşu dövlətlərlə münasibətlərinin inkişafına mane olur. 1997-ci ildə yazdığı bir məqalədə o, münaqişənin 1-2 il içərisində həll olunmayacağı təqdirdə Ermənistanın vaxt keçdikcə zəifləyəcəyini və bu gün rədd etdikləri təklifləri əldə etmək üçün çalışacaqlarını qeyd etmişdi[85]. Erməni Federativ İnqilab Partiyası ("Daşnaksütyun") başda olmaqla, erməni diasporasının dəstəklədiyi digər partiyalar münaqişənin bu həll variantını qəbul və müdafiə etdiyi üçün Petrosyanın istefasını tələb etmişdilər[86]. Nəticədə 1998-ci ilin fevral ayında Petrosyan Baş nazir Robert Koçaryan, müdafiə naziri Vazgen Sarkisyan və təhlükəsizlik naziri Serj Sarkisyanın təzyiqləri altında vəzifəsindən istefa etmək məcburiyyətində qaldı[87].

1998-ci il martın 30-da Ermənistanda keçirilən prezident seçkilərində Dağlıq Qarabağ ermənisi Robert Koçaryan Ermənistanın ikinci prezidenti seçildi. Hakimiyyətə gəldiyi gündən etibarən o, Türkiyə və Azərbaycana qarşı daha sərt siyasət həyata keçirməyə başladı. Onun dövründə "Daşnaksütyun"un fəaliyyətinə qarşı tətbiq olunan qadağa ləğv edilmiş, Ermənistanın daxili və xarici siyasətində erməni diasporasının təsiri artmışdı. Koçaryan diasporanın dəstəyini almaqla Ermənistanın iqtisadi problemlərini həll edəcəyini düşünmüş, bu çərçivədə erməni diasporasının təşkilatlanması üçün imkanlar yaratmışdı[88].

Koçaryan Dağlıq Qarabağ məsələsinin həllinin isə yalnız burada yaşayan ermənilərin "öz müqəddəratını təyinetmə hüququ", beynəlxalq aləmdə tanınması, sərhədlərinin qorunmasının təmin olunması və

84 Münaqişənin mərhələli həll variantına görə, Dağlıq Qarabağ ətrafındakı rayonlar işğaldan azad olunacaq, Azərbaycan–Ermənistan və Türkiyə–Ermənistan arasında nəqliyyat xətləri açılacaq və daha sonra müzakirələr Dağlıq Qarabağın yekun statusunun həlli istiqamətində davam etdiriləcəkdi. Bax: Astourian H. Stephan. From Ter-Petrosian to Kocharian Leadership Change in Armenia, Berkeley Program in Sovite and Post Soviet Studies. Winter 2000-2001, pp. 56-57

85 Ter-Petrossian Levon. "War or Peace? Time for Thoughtfulness", Hayastani Hanrapetutiun. /01.10.1997/

86 Astourian H. Stephan, p. 37

87 Cornell E.Svante. The South Caucasus: A Regional Overview and Conflict Assessment, August 2002. Cornell Caspian Consulting, p. 53

88 Cabbarlı H. Ermenistan Dış Politikası, (1991-2005), Gazi Universiteti Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Anabilim Dalı, Yayınlanmamış Doktora Tezi, Ankara, 2008, s.70

Ermənistanla quru yolla əlaqəsinin olması təqdirdə mümkünlüyünü qeyd etmişdi[89]. Hətta prezident seçildikdən sonra o, bir müddət Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Azərbaycanın Ermənistanla deyil, Dağlıq Qarabağ erməniləri ilə görüşməsinin və müzakirələr aparmasının düzgün olduğunu bildirirdi.

R.T.Petrosyanın xarici siyasətdə Ermənistanın maraqlarını güzəştə getdiyini iddia edən R.Koçaryan 1915-ci il hadisələrinin beynəlxalq aləmdə "soyqırımı" kimi tanınması üçün fəaliyyətini artırmışdı. Nəticədə bir tərəfdən beynəlxalq aləmdə Türkiyəyə qarşı qondarma "erməni soyqırımı" ilə bağlı təzyiqlər təkrar artmış, digər tərəfdən Türkiyə daxilində Ermənistanla münasibətlərin inkişaf etdirilməsi və sərhədlərin açılmasını müdafiə edənlər yenidən fəallaşmışdılar. Əslində, əsas məqsəd Ermənistanın istədiyi şərtlər daxilində Türkiyə ilə münasibətlərin normallaşması prosesini başlatmaq olmuşdu[90]. Türkiyə Respublikasının 75-ci ildönümünə dəvət olunan Koçaryanın tədbirdə iştirak etməməsi münasibətləri gərginləşdirmiş, nəticədə 2000-ci ildə Osmanlı imperatorluğunun 700-cü ildönümünə həsr olunmuş tədbirə ümumiyyətlə dəvət olunmamışdı[91]. Beləliklə, Koçaryanın prezident seçilməsi Ermənistanın Azərbaycan və Türkiyə siyasətinin daha da sərtləşməsinə, bunun əvəzində Azərbaycan və Türkiyənin Ermənistan məsələsində mövqelərini daha sıx birləşdirməsinə yol açmışdır. Bundan başqa, Koçaryanın həyata keçirdiyi xarici siyasət nəticəsində Dağlıq Qarabağ münaqişəsinin həlli daha da mürəkkəbləşmiş, Türkiyə–Ermənistan sərhədlərinin açılma ehtimalı isə on il sonraya qalmışdı.

2003-cü il yanvarın 7-də Azərbaycana səfər edən Baş nazir Rəcəb Tayyib Ərdoğan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi məsələsində Türkiyənin əvvəlki siyasətini davam etdirəcəyini bildirmişdi[92]. Prezident İlham Əliyev Azərbaycanın xarici siyasətində hücum diplomatiyasını həyata keçirmiş və bu çərçivədə bir

89 Taline Papazian. From Ter-Petrossian to Kocharian: Explaining Continuity in Armenian Foreign Policy, 1991-2003. Demokratizatsiya, Spring 2006, Vol. 14, No. 2, (pp. 235-251), p.8

90 Elekdağ Şükrü. Türkiye–Ermenistan ilişkileri. // "Milliyet", 15.06.1998, s.21

91 Erivan`a Osmanlı vetosu. // "Milliyet", 10.06.1999, s.19

92 Heydər Əliyevin Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü. /7 yanvar 2003-cü il, s. 9/ - http://files.preslib.az/projects/toplu/v2/f3_13.pdf

tərəfdən Dağlıq Qarabağın işğal olunduğunu beynəlxalq təşkilatların gündəminə gətirmiş, digər tərəfdən Azərbaycan silahlı qüvvələrinin möhkəmlənməsinə çalışmışdı. Azərbaycan hər iki istiqamətdə Türkiyənin dəstəyini almağa davam etmiş, 2008-ci ildə BMT Baş Assambleyasında keçirilən səsvermədə də Türkiyə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdi.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın istədiyi həll yolu qəbul edilmədiyi müddətdə Ermənistanla sərhədlərin açılmaması siyasətini davam etdirmişdir. Başqa tərəfdən, Türkiyənin siyasi xadimləri xarici ölkələrin, xüsusən Minsk Qrupunun həmsədri olan dövlətlərin (ABŞ, Rusiya Federasiyası və Fransa) rəhbərləri ilə görüşlərində Dağlıq Qarabağ münaqişəsinin həllinin sürətləndirilməsini tələb etmişlər.

Türkiyə–Ermənistan sərhədləri: açılmasını istəyənlər və istəməyənlər

1994-cü il mayın 12-də Bişkekdə atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində diplomatik fəaliyyətlər artdı. Müzakirə olunan məsələlərdən biri sülh müqaviləsinin imzalanmasından sonra bölgəyə yerləşdiriləcək sülhməramlı qüvvələrin tərkibi və diplomatik müzakirələrdə vasitəçi olacaq dövlətlər olmuşdu. ABŞ və Ermənistana görə, Türkiyə Ermənistanla sərhədlərini bağladığı üçün tərəfsizliyini itirmişdi və münaqişənin həllində vasitəçi ola bilməsi üçün Ermənistanla sərhədləri açmalı idi. Bu istiqamətdə Türkiyə hökumət nümayəndələri və diplomatları Ermənistanla sərhədlərin açılmasını müdafiə etməyə başlamış və Türkiyə Azərbaycanın razılığını almaq üçün Bakıya diplomatlarını göndərmişdi[93]. Bu çərçivədə Türkiyə–Ermənistan sərhədlərinin açılmasını istəyən qruplar fərqli tezislər gündəmə gətirmişdilər.

Birincisi, Türkiyə tərəfi Azərbaycanı razı salmağa çalışırdı ki, sərhədlər açılarsa, Ermənistan da "yumşalacaq" və Dağlıq Qarabağ məsələsi həll

93 Türk-Erməni yumuşamasına tepki. // "Milliyet", 24.02.1995, s.17

olunacaq. Xüsusilə ABŞ diplomatları fəaliyyətlərini bu istiqamətdə qurmuşdular. Onların iddialarına görə, sərhədlərin bağlı qalması Dağlıq Qarabağ məsələsinin həllinə heç bir şəkildə müsbət təsir etmir[94].

İkinci qrupun üzvləri sərhədlərin açılması və Türkiyə–Ermənistan münasibətlərinin normallaşacağı təqdirdə Ermənistanın və erməni diasporasının Türkiyəyə qarşı apardığı "soyqırımı" təbliğatının zəifləyəcəyi, ABŞ Konqresindən və digər ölkə parlamentlərindən "soyqırımı" ilə bağlı qanunun keçməsinin əngəllənəcəyini düşünürdülər[95].

Üçüncü qrupun tərəfdarları, 1995-1996-cı illərdə Ermənistan tərəfi və ABŞ-ın bəzi konqresmenləri Bakı–Ceyhan neft boru xəttinin Ermənistandan keçməsini istəyirdilər. Belə ki, bu dövrdə neft kəmərinin Bakıdan başlayıb Ceyhanda bitəcəyi qərara alınsa da, ortadakı ölkənin İran, Ermənistan, yaxud Gürcüstan olacağı hələ bəlli deyildi. Azərbaycan tərəfi Ermənistanın Dağlıq Qarabağda işğala son verəcəyi təqdirdə[96] neft kəmərinin Ermənistandan keçməsinə razılığını verə biləcəyini açıqlamışdı.

Dördüncüsü, Ermənistan hakimiyyəti də sərhədlərin açılmasını istəyirdi və hətta bunun üçün Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Alparslan Türkeşlə Levon Ter-Petrosyan və onun müşaviri Gerard Libaridian arasında görüşlər keçirilmişdi[97]. Ermənistanı narahat edən əsas məqam bir tərəfdən Bakı–Ceyhan neft kəmərindən kənarda qalmaq, digər tərəfdən getdikcə daha çox Rusiya və İrandan asılı vəziyyətə düşmək idi. Lakin Ermənistandakı radikal millətçilər prosesin irəliləməsinə qarşı idilər[98].

Beşincisi, sərhədlərin bağlı qalmasının Türkiyənin Ermənistan üzərində təsirini azaltdığı və bu ölkədə Rusiya və İranın təsirini artırdığı

94 Çongar Yasemin. ABD`den Ermenistan planı. // "Milliyet", 26.02.1995, s.19

95 Yılmaz Serpil. Gül`ün İstanbul buluşmaları. // "Milliyet", 16.01.2007, s.9

96 Heydər Əliyevin "SNN-türk" kanalına müsahibəsi, s.610. // http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf

97 Dündar, Can Erdoğan`ın Bahçeli`ye hatırlattığı 15 yıl önceki Türkeş-Petrosyan Zirvesi. /17.10.2009/ - http://www.milliyet.com.tr/-font-color--red--turkes-in-acilimini----font-erdogan-hatirladi/can-dundar/guncel/gundemyazardetay/17.10.2009/1151297/default.htm

98 "Milliyet" qəzetinin iddialarına görə, Türkiyə ilə Ermənistan arasındakı müzakirələr nəticəsində "Daşnaksütyun" partiyasının fəaliyyəti R.T.Petrosyan tərəfindən qadağan olunmuşdu. Bax: Erivan`dan sürpriz adım. // "Milliyet", 03.02.1995, s.23

düşünülürdü[99]. Bu mövqenin tərəfdarlarına görə, əgər sərhədlər açılarsa, Ermənistan üzərində Türkiyənin təsiri artar və Ermənistan Rusiya və İranın təsirindən çıxar.

Altıncı qrup isə sərhədlərin bağlı olmasının Türkiyənin müttəfiqləri olan ABŞ və Aİ ilə münasibətlərinə zərər verdiyini düşünür və bu səbəbdən sərhədlərin açılmasını istəyirdi. Xatırladaq ki, ABŞ və Aİ Türkiyə–Ermənistan sərhədlərinin açılmasını tələb etmiş və hətta bunu Türkiyə üzərində təzyiq vasitəsi kimi istifadə etmişdilər.

Yeddinci qrupa Ermənistanla ticarət əlaqələri qurmaq və bundan qazanc əldə etmək istəyənlər daxil idi. Bu qrup Türkiyə–Ermənistan sərhədlərində yerləşən rayonlardakı rəhbər işçilərə və iş adamlarına da təsir göstərərək sərhədlərin açılacağı təqdirdə bu regionların iqtisadi cəhətdən inkişaf edəcəyini müdafiə etmişdi.

1995-ci il aprelin 12-də Türkiyə Respublikasının Baş naziri Tansu Çillər Vaşinqtona səfərindən əvvəl Azərbaycana gəlmişdi. Səfərdə Türkiyə–Ermənistan sərhədlərinin açılması məsələsində Azərbaycanın mövqeyi müzakirə olunmuşdu. Türkiyə 1915-ci il hadisələrinin 80-ci ildönümü ərəfəsində, yəni aprelin 24-dən əvvəl Ermənistanla hava yolunu açaraq B.Klintonun "soyqırımı" sözünü deməsinin qarşısını almaq istəyirdi. İddialara görə, 1915-ci il hadisələrinin 80-ci ildönümündə B.Klinton Türkiyə Respublikasını günahlandırmadan "tarixdə ermənilərə qarşı soyqırımı olmuşdur" ifadəsini işlətməli idi.

1995-ci il aprelin 24-dən əvvəl Türkiyənin qərarı ilə H-50 hava dəhlizi Ermənistan üçün açıldı. Bu qərarı qəbul etməkdə Türkiyənin gözləntisi R.T.Petrosyanın 1915-ci il hadisələri ilə bağlı beynəlxalq aləmdə Türkiyəyə qarşı təbliğat aparılmaması və Dağlıq Qarabağda yerləşdiriləcək sülhməramlı qüvvələrin tərkibində Türkiyənin təmsil olunmasına qarşı çıxmamasına dair söz verməsi idi[100].

Heydər Əliyev Türkiyənin bu dövrdə Ermənistanla hava dəhlizini açmasını tənqid etmiş və bu sərhədlərin açılmasının, Türkiyə siyasətçilərinin ifadə etdikləri kimi, Ermənistanı "yumşaltmayacağını" bildirmişdi. Heydər Əliyev qeyd etmişdi ki, bu dəhliz Azərbaycanla

99 Çongar Yasemin. ABD`den Ermenistan planı. // "Milliyet", 26.02.1995, s.19
100 İlk Ermeni uçağı geldi. // "Milliyet", 21.04.1995, s.19

razılaşdırılmadan açılmışdır[101]. 1996-cı il aprelin 14-15-də Azərbaycana səfərinin sonunda mətbuat konfransı keçirən Baş nazir Məsud Yılmaz da Türkiyənin H-50 koridorunun Ermənistanın mövqeyinin yumşalacağı ümidi ilə açıldığını, lakin Ermənistanın mövqeyinin dəyişmədiyini qeyd etmişdi.

Türkiyə ilə Ermənistan arasında hava dəhlizi açılsa da, Azərbaycanın buna qarşı çıxması səbəbindən quru sərhədləri açılmamışdır. Buna baxmayaraq, Türkiyədə sərhədlərin açılmasını istəyən qruplar Qərb dövlətləri ilə münasibətlərdə hər zaman bu məsələni gündəmdə saxlamağa çalışırdılar. Onu da qeyd edək ki, 2002-ci ildə hakimiyyətə gələn ƏİP Türkiyə xarici siyasətində Aİ-yə üzvlük məsələsini aktivləşdirdiyi üçün məsələ təkrar gündəmə gəlmişdi. Bu dövrdə demokratikləşmə və etnik azlıqların hüquqlarının qorunması və onlara diqqətin artırılması çərçivəsində Türkiyədə yaşayan erməni diasporası da fəallaşaraq prosesə qoşulmuşdu.

Ermənistan–Türkiyə münasibətlərində sərhəd qapılarının açılması məsələsinin gündəmə gəlməsinin digər səbəbi Türkiyənin xarici siyasətində etdiyi dəyişiklik olmuşdu. Türkiyənin xarici siyasəti bu dəyişikliyin memarı və eyni zamanda əvvəlcə Baş nazirin müşaviri, sonra xarici işlər naziri və daha sonra Baş naziri olan Əhməd Davudoğlunun *"qonşularla sıfır problem strategiyası"* ilə kökündən dəyişmişdi. Ə.Davudoğlu *"Strateji dərinlik"* adlı kitabında[102] *"qonşularla sıfır problem"* strategiyasının məqsədini belə açıqlayır: *"Türkiyə bütün qonşuları ilə münasibətlərində problemli olduğu üçün sərhədlərinin içinə qapanıb və bu səbəbdən yaxın regionlarda hərəkət sahəsi daralıb. Türkiyə regional güc ola bilməsi üçün qonşularla problemlərini sıfıra endirməlidir".*

2007-ci ildə keçirilən parlament seçkilərində ƏİP parlamentdə çoxluq əldə edərək kürd və erməni açılımları etməyə başladı. 2008-ci ildə yaşanan Gürcüstan–Rusiya müharibəsi bu prosesi sürətləndirdi. Bu hadisə Gürcüstanın təkbaşına etibarlı bir enerji dəhlizi olmadığını ortaya qoydu və Gürcüstana alternativ olaraq Ermənistan dəhlizinə ehtiyac artdı. Bu mənada, Türkiyənin "erməni açılımı"nı bir növ enerji açılımı

101 Aliyev`den Ermenistan eleştirisi. // "Milliyet", 08.05.1998, s.14

102 Davudoğlu Ə. Göstərilən əsəri, s.79

olaraq dəyərləndirənlər də var. Bundan başqa, Türkiyə–Ermənistan sərhədlərinin açılmasını müdafiə edən Barak Obamanın ABŞ Prezidenti seçilməsi ilə Ağ Ev Türkiyə rəsmiləri ilə görüşlərində bu məsələni daha çox gündəmə gətirirdi.

Türkiyə Respublikası Xarici İşlər Nazirliyi diplomatlarının 2007-ci ilin iyun ayından başlayan gizli görüşləri nəticəsində 2009-cu il aprelin 24-dən bir gün əvvəl Türkiyə–Ermənistan münasibətlərinin normallaşdırılması üçün "yol xəritəsi" açıqlandı. Məqsəd ABŞ Prezidenti Barak Obamanın aprelin 24-də "soyqırımı" ifadəsini işlətməsinin qarşısını almaq idi[103]. Türkiyə–Ermənistan münasibətlərinin normallaşması üçün açıqlanan "yol xəritəsi"ndə "Dağlıq Qarabağ" şərti mövcud deyildi[104].

Bu müzakirələr davam edərkən Azərbaycan mətbuatında Türkiyənin Ermənistanla münasibətlərini normallaşdırmaq üçün Dağlıq Qarabağ şərtini ortadan qaldırdığı iddiası gündəmə gəlmişdi. Bu iddia Azərbaycan dövlətini ciddi narahat etmiş və iki dövlət arasında süni gərginliyə səbəb olmuşdu. Bu gərginliyi aradan qaldırmaq və Türkiyə–Ermənistan münasibətlərində yaşananlara aydınlıq gətirmək üçün 2009-cu il mayın 13-də Baş nazir R.T.Ərdoğan hökumətin beş naziri ilə birlikdə Azərbaycana gəlmişdi. R.T.Ərdoğanın Azərbaycan Respublikası Milli Məclisindəki çıxışında "Dağlıq Qarabağda işğal bitmədən Türkiyə–Ermənistan sərhədləri açılmayacaqdır"[105] açıqlamasını verməsi mövcud şərtlər altında sərhədlərin açılmasına qarşı olanları tam olmasa da, bir qədər rahatlatmış, sərhədlərin açılmasını istəyənləri isə narahat etmişdi. Narahat olanların əsasən Türkiyə–Ermənistan münasibətlərinin normallaşması və sərhədlərin açılması üçün çalışan xarici işlər naziri Əhməd Davudoğlu, dövrün Prezidenti Abdullah Gül və Türkiyə Xarici İşlər Nazirliyindəki bəzi diplomatların olduğu iddia olunurdu[106]. Göründüyü kimi, Türkiyə dövləti daxilində Dağlıq Qarabağ və Türkiyə–Ermənistan sərhədləri məsələsində iki fərqli mövqe hakim olmuşdur.

103 Barak Obama seçki kampanyası zamanı 1915-ci il hadisələrini "soyqırımı" olaraq tərif edəcəyini ABŞ-dakı erməni diaspora təşkilatlarına yazılı surətdə vəd etmişdi

104 Türkiye Ermenistan`la Yol haritasını belirledi. // "Yeni Şafak", 23.04.2009; Cengiz Candar. Kafkasya "Yol haritası"; Avrupa`ya "Kestirme yol"... // "Hürriyet", 23.04.2009

105 2009-ci il 13 may tarixli iclasın stenoqramı. - http://www.meclis.gov.az/?/az/stenoqram/173

106 Suat Kınıklıoğlu, Ermenistan ile Normalleşmemenin Yolları. // "Radikal", 28.04.2015

Bu açıqlamaya baxmayaraq, 2009-cu il avqustun 31-də İsveçrənin Bern şəhərində Türkiyə–Ermənistan münasibətlərinin normallaşdırılmasına dair tərəflər arasında imzalanacaq iki protokol paraflandı. Protokollar oktyabrın 10-da İsveçrədə Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu və Ermənistanın xarici işlər naziri Eduard Nalbandyan tərəfindən imzalandı[107]. Protokolların imzalanmasından bir gün əvvəl, 2009-cu il oktyabrın 9-da Prezident İlham Əliyev Azərbaycan Televiziyasına (AzTV) müsahibəsində "Sərhədlər Kəlbəcərin işğalından sonra bağlanmışdır. Yalnız Kəlbəcər azad olunduqdan sonra açılmalıdır"[108] açıqlamasını verərək rəsmi səviyyədə Azərbaycanın mövqeyini bildirmişdi.

Protokollarda Türkiyənin üç şərtindən ikisi (1915-ci il hadisələri və Qars müqaviləsi) birbaşa olmasa da, öz həllini tapdığı halda, burada Dağlıq Qarabağla bağlı konkret müddəanın olmaması müzakirələri artırdı. Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu oktyabrın 21-də protokolları Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komissiyasına təqdim etdi. Türkiyə tərəfi Qarabağ münaqişəsində irəliləmə olmadığı müddətdə protokolları Məclisin gündəminə gətirməyəcəyini israrla qeyd etmiş və protokollar komissiyada müzakirə belə olunmamışdı.

Protokolların Ermənistanda təsdiqlənmə prosesi isə iki ölkə arasında yeni bir böhrana səbəb olmuşdu. Belə ki, Ermənistan Prezidenti 2009-cu il noyabrın 17-də protokolları Konstitusiya Məhkəməsinə göndərmişdi. Yanvarın 12-də məhkəmə protokolların konstitusiyaya uyğun olduğunu açıqlamışdı. Lakin beynəlxalq aləmdə müsbət qarşılanan bu qərarın yaratdığı xoş ab-hava çox çəkməmiş, yanvarın 18-də məhkəmə verdiyi qərarın mətnini açıqlamaqla Ankara ilə İrəvan arasında yeni bir böhrana yol açmışdı. Belə ki, məhkəmə qərarının mətnində protokolların konstitusiyaya uyğun olduğu təsdiqlənsə də, qərarın 5-ci maddəsində

107 Türkiyə və Ermənistan arasında iki növ protokol paraflanmışdı: birincisi, "Ermənistan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulması haqqında Protokol", ikincisi isə "Ermənistan Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin inkişafı haqqında Protokol". Sənədlərə əvvəlcədən yerinə yetirilməsi nəzərdə tutulan tapşırıqlar üçün təqvim də əlavə olunmuşdu. Protokolların mətnləri üçün bax: http://www.mfa.gov.tr/data/DISPOLITIKA/protokol.pdf

108 Azərbaycan Prezidenti İlham Əliyevin Moldovaya səfəri: Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi. /9 oktyabr 2009-cu il, s.186-189/ - http://files.preslib.az/site/ialiyev/2009.pdf

Türkiyə–Ermənistan protokollarının Ermənistan Konstitusiyasının preambulasına və Ermənistan Azadlıq Bəyannaməsinin 11-ci maddəsinə zidd ola biləcəyi də vurğulanmışdı[109]. Məhkəmə bu ölkənin daxili qanunlarına istinadən qeyd etmişdi ki, Ermənistan Türkiyəyə qarşı torpaq və soyqırımı tələblərini saxlayır və bu iddialardan imtina etmir.

2009-cu ildə keçirilən bir sorğuda türkiyəli respondentlərin 69,7%-i Ermənistanın Azərbaycan torpaqlarından geri çəkilməsindən və sözdə "soyqırımı" iddialarından imtina etməsindən sonra protokolların TBMM tərəfindən təsdiqlənməsini istəmişdi. Sorğuda iştirak edən respondentlərin 35%-i Ermənistanın Azərbaycan ərazilərindən çəkiləcəyi təqdirdə protokolların təsdiqlənməsini istəmişdi[110]. Eyni sorğuda "Türkiyənin ilk üç düşməni kimdir" sualına respondentlərin verdiyi cavabda Ermənistan ABŞ-dan sonra ikinci yeri tutmuşdu[111]. Sorğuda respondentlər Türkiyənin ilk üç dost ölkəsi sırasında Azərbaycanı 29% səslə birinci yerdə göstərmişlər[112]. 2013-cü ildə keçirilən sorğuda Azərbaycanı Türkiyənin ən yaxın dostu olaraq görənlər 28%, 2015-ci ildə isə 37,5% olmuşdur[113]. Bu sorğuda "Sizcə, Türkiyə xarici siyasətini həyata keçirərkən hansı ölkələrlə birgə hərəkət etməlidir" sualına respondentlər 2013-cü ildə 12,4%, 2015-ci ildə 18,7%-lə "Azərbaycan" cavabını vermişlər[114].

Azərbaycanın sərt etirazları, Ermənistanın Türkiyəyə qarşı iddialarını davam etdirməsi, Türkiyə daxilində sərhədlərin açılmasını müdafiə edən qrupların təsirinin azalması, Türkiyənin Qərb dövlətləri ilə münasibətlərinin korlanması və millətçi-mühafizəkar seçicilərin təsirinin artması Türkiyə–Ermənistan münasibətlərinə mənfi, Türkiyə–Azərbaycan münasibətlərinə isə müsbət təsir göstərmişdir. XIX əsrin sonu və XX əsrin əvvəllərində erməni terror təşkilatlarının işğalçı dövlətlərlə əməkdaşlıq edərək Anadoludakı mülki əhaliyə qarşı soyqırımı həyata keçirməsi də türk xalqının Ermənistana qarşı əks mövqedən çıxış

109 Ermənistan Konstitusiya Məhkəməsinin Türkiyə–Ermənistan protokolları haqqında qərarı. - http://www.concourt.am/english/decisions/common/pdf/850.pdf

110 Kamuoyu ve Türk Dış Politika anketi, Ankara Universiteti Avrupa Toplulukları Araşdırma və Uygulama Merkezi, Ocak 2010, s.68. - http://ataum.ankara.edu.tr/anket.pdf

111 Yenə orada, s.45

112 Yenə orada, s.48

113 Kadir Has Universiteti dış politika Anketi, 2015, s.13. - http://www.khas.edu.tr/news/1198

114 Yenə orada, s.15

etməsinə səbəb olmuşdur.

2009-cu ildə Türkiyə–Ermənistan protokollarının Azərbaycan–Türkiyə münasibətlərinə təsiri haqqında fərqli yanaşmalar mövcud idi. Lakin "protokol böhranı"nın yaşanması Azərbaycan–Türkiyə münasibətlərinə bir neçə cəhətdən müsbət təsir göstərdi: birincisi, Türkiyə Azərbaycanın strateji dəyərinin təkrar gündəmə gəlməsinə fürsət yaratdı; ikincisi, Türkiyə və dünya Dağlıq Qarabağın işğaldan azad olunması istiqamətində Azərbaycanın qəti mövqeyini bir daha anladı; üçüncüsü, Azərbaycan–Türkiyə münasibətlərindəki boşluqlar və zəif bəndlər aradan qaldırıldı.

İqtisadi münasibətlər iki dövrdə: 1991-2006 və 2006-2016-cı illər

1990-cı ildə rəsmi Moskvanın iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün respublikalara xarici ölkələrlə iqtisadi əlaqələrin qurulmasına sərbəstlik verməsi Azərbaycan–Türkiyə əlaqələrinin genişlənməsinə imkan yaratmışdı. Bu qərardan sonra qarşılıqlı artan səfərlər daha çox iqtisadi xarakter almış və imzalanan müqavilələr sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması məqsədini daşımışdır. Azərbaycan müstəqillik əldə etdiyi zaman Türkiyədə hakimiyyətdə olan Turqut Özal hökuməti iqtisadiyyata əsaslanan xarici siyasət həyata keçirirdi. Sovet İttifaqının dağılması nəticəsində Türkiyə üçün sadəcə qardaş dövlətlər meydana çıxmamış, həmçinin xarici ticarət dövriyyəsini artıracaq yeni dövlətlər, məhsulunu ixrac edəcəyi və sərmayə yatıracağı yeni bazarlar da meydana gəlmişdi. Türkiyə 1970-1980-ci illərdə dərin iqtisadi böhran yaşamışdı. Bu problemin həlli üçün iqtisadiyyatını gücləndirməli idi. Türk dünyası ilə inkişaf etdiriləcək iqtisadi əlaqələrin qarşılıqlı iqtisadi asılılıq yaradacağı və nəticədə Türkiyənin regionda siyasi təsirinin artacağı gözlənilirdi. Eyni zamanda Türkiyədə güclü xarici siyasətin həyata keçirilməsinin yalnız iqtisadiyyatı gücləndirməklə mümkün olacağı düşünülürdü[115].

115 Erkan Ertosun. Turgut Özal'ın Ekonomi Odaklı Dış Politikası: Yunanistan'a Yönelik "Zeytin Dalı" Diplomasisi Örneği, Bilge Strateji, Cilt 8, Sayı 15, Güz 2016, ss.33-57

Bu dövrdə türkiyəli iş adamları Azərbaycanla ticarət və siyasət əlaqələrinin qurulmasında yaxından iştirak etmişdir. Vurğulayaq ki, 1992-ci ildə Türkiyənin türk dövlətləri ilə ticarət əlaqələrində Azərbaycan 50% paya sahib olmuşdur[116].

Qərb dövlətləri Türkiyəni regiondakı dövlətlər üçün iqtisadi model kimi təqdim edir və onların Qərblə bu şəkildə iqtisadi inteqrasiya həyata keçirməsinə çalışırdı. Bu mənada Türkiyə müstəqillik əldə edən türk respublikalarının sosialist modeldən sərbəst bazar iqtisadiyyatına keçid alması üçün müəyyən proqramlar həyata keçirmiş və kreditlər vermişdi. Azərbaycanın iqtisadi çətinliklərlə üzləşdiyi bir dövrdə – 1992-ci ilin noyabr ayında Türkiyə "Eximbank"ının Azərbaycana 250 milyon dollar kredit ayırması haqqında müqavilə imzalanmışdı. Bu kreditin 100 milyon dolları Türkiyədən idxal olunacaq malların qarşılığını ödəmək, qalan 150 milyon dolları isə Türkiyənin əvvəlcədən təsdiqlədiyi layihələrin həyata keçirilməsi üçün istifadə olunacaqdı[117].

Müstəqilliyin ilk günlərindən etibarən Azərbaycanın qeyri-neft sektoruna yatırılan sərmayənin həcminə görə Türkiyə birinci yeri tutmuşdur. Keçən yüzilliyin 90-cı illərindən sonra Türkiyədən Azərbaycana sərmayə axını sürətlə artmışdır. Belə ki, 1989-2007-ci illər arasında Türkiyənin enerji sektoruna yönəltdiyi sərmayələrdə Azərbaycan 95%, Qazaxıstan 4%, Əlcəzair isə 1% paya sahib olmuşdur[118]. Regionda ən çox Türkiyə sərmayəsi olan ölkə Azərbaycan idi. Regionda olan türk sərmayəsinin 80%-i Azərbaycanın payına düşürdü. İkinci yerdə isə 15%-lik paya malik Qazaxıstan gəlirdi[119]. 1997-ci ildə cəmi xarici sərmayə yatırımına görə Türkiyə 129.6 milyon dollarla birinci, ABŞ 97.5 milyon dollarla ikinci, İngiltərə isə 47.2 milyon dollarla üçüncü yerdə qərarlaşmışdı[120].

116 Robins Philip. Between Sentiment and Self-Interest: Turkey's Policy toward Azerbaijan and the Central Asian. // Middle East Journal, Vol. 47, No. 4, Autumn, 1993, (pp. 593-610), p.597

117 Alagöz M., Yapar S., Uçtu R. Türk Cumhuriyetleri ile ilişkilerimize ekonomik açidan bir yaklaşim. // Selçuk Universiteti Sosyal Bilimler Dergisi, (ss. 59-74), s. 67. - http://arsiv.setav.org/ups/dosya/23855.pdf

118 Nuri Yavan. Türkiye`nin Yurtdışındakı Doğrudan yatırımları: Tarihsel ve Mekansal Perspektif, Bilig, (ss. 237-270), s.257

119 Yenə orada, s.260

120 Mehmet Dikkaya. Türkiye- ile Türk Cumhuriyetleri arasında Ekonomik ilişkiler, Bilig, No 9. Bahar 99, (ss.2-15), s.6

Keçən əsrin 90-cı illərində Türkiyə şirkətlərinin Azərbaycana maraq göstərmələrinin aşağıdakı səbəbləri olmuşdur:

- Şirkətlərin sərmayəsi üçün gətirilən mexanizm, təchizat və digər avadanlıqların gömrük vergisindən və ƏDV-dən azad edilməsi;
- 2001-ci ildən etibarən gəlir vergisinin 27%-dək azaldılması və xarici şirkətlərin sosial müdafiə fonduna ödəmələrdən azad olması;
- MDB-nin digər ölkələri ilə müqayisədə Azərbaycanda sərmayə yatırımı üçün münbit və rahat şəraitin mövcudluğu;
- İki ölkə arasında dil, mədəniyyət və tarixi yaxınlığın olması;
- Azərbaycanın Şərqlə Qərb arasında körpü rolunu oynaması və s.[121].

İlk 10 il ərzində Türkiyənin Azərbaycanla ticarət əlaqələri digər türk dövlətləri ilə müqayisədə daha çox artmışdı. Türkiyənin Azərbaycana ixracı digər türk respublikalarına ixracının yarısından çoxunu təşkil etmişdi. 1998-ci ilə qədər Türkiyə Azərbaycanın idxalında əsas yerlərdən birini tutmuşdu. Azərbaycanın Türkiyəyə ixracı isə aşağı səviyyədə qalmış və ticarət dövriyyəsi Türkiyənin lehinə olmuşdu. Bu vəziyyət Türkiyənin iqtisadi böhran yaşadığı 2000-2001-ci illərə qədər davam etmişdi[122]. Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi 1995-ci ildə cəmi 167 milyon, 2000-ci ildə 234 milyon, 2005-ci ildə isə 589 milyon dollar təşkil etmişdi. Türkiyə ilə ticarət dövriyyəsinin həcmi Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin, müvafiq olaraq, 1995-ci ildə 12,8%-ni, 2000-ci ildə 8%-ni, 2005-ci ildə isə 7%-ni təşkil etmişdir. 1995-ci ildə Azərbaycanın idxal əməliyyatlarının 21%-i, 2000-ci ildə 11%-i, 2005-ci ildə isə 7,4%-i Türkiyə ilə aparılan əməliyyatların payına düşür[123]. Lakin müəyyən dövrdən sonra Azərbaycana digər xarici şirkətlərin sərmayə yatırması və Azərbaycanda yerli sərmayələrin həcminin artması türk şirkətlərinin üstünlüyünü azaltmışdır. Azərbaycanın ticarət əlaqələri daha çox

121 İlkay Çapraz ve İpek Demirdioğlu, Türkiye`den yurt dışına doğrudan sermaye yatırımları ve Türk yatırımcıları, İstanbul Ticaret Odası, Yayın no: 2003-14, İstanbul, 2003, s.75

122 Rəsullu R., Aslanlı K. Azərbaycan–Türkiyə iqtisadi əlaqələri: əsas trendlər və nailiyyətlər. / Azərbaycan–Türkiyə əlaqələri son 20 ildə, (red. Cavid Vəliyev, Rəşad Rəsullu və Kənan Aslanlı). Baku: SAM və ATİB, 2011, s.62-63

123 Yenə orada, s.70

xammalın, Türkiyənin ticarət əlaqələri isə istehsal olunmuş malların ixracına əsaslanmışdır.

Həmin dövrdə Azərbaycan və Türkiyə arasında birbaşa quru əlaqəsi olmadığından ticarət məhsulları İran və Gürcüstan vasitəsilə nəql olunurdu ki, bu zaman müxtəlif problemlər yaranırdı və hər iki ölkə gömrük haqqı ödəmək məcburiyyətində qalırdı. Azərbaycanın MDB-yə, Türkiyənin isə Aİ-nin Gömrük İttifaqına üzv olması ikitərəfli ticarət əlaqələrinin inkişafına mənfi təsir göstərirdi[124].

2002-ci ildən sonra neftin qiymətində sürətli artım müşahidə edilmiş və qiymət 25 dollar səviyyəsindən 2012-ci ildə 110 dollara qədər yüksəlmişdi. Bu amil Azərbaycan iqtisadiyyatının inkişafının əsas mənbəyi olmuşdur. Azərbaycanla Türkiyə arasında ikitərəfli strateji münasibətlərin inkişafına paralel olaraq iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2-3 milyard dollara qədər yüksəlmişdir. Azərbaycanın idxal üzrə əsas tərəfdaşlarının siyahısında Türkiyə 2006-cı ildə 4-cü, 2007-2015-ci illərdə isə 2-ci mövqeyə sahib olmuşdur. Türkiyənin Azərbaycanın ixrac tərəfdaşları arasındakı mövqeyi isə son illərdə bir qədər geriləmişdir (*2006-cı ildə 3-cü, 2007-ci ildə 1-ci, 2008-ci ildə 12-ci, 2009 və 2010-cu illərdə 22-ci*). Bu da Azərbaycanın ixrac həcminin neft və təbii qaz hesabına 2007-ci ildən sonra xeyli genişlənməsi və Türkiyənin bu çərçivədə daha çox tranzit rolunda çıxış etməsi ilə bağlıdır. Hesablamalar göstərir ki, Azərbaycanın qeyri-neft sektoru üzrə xarici ticarət dövriyyəsində payına görə Türkiyə Rusiyanı da üstələyərək birinci yeri tutur. 2011-ci ildə bu göstəricilər, müvafiq olaraq, 166.1 milyon və 599.8 milyon dollar təşkil etmişdir. 2011-ci ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi 1.75 milyard dollardan çox olmuşdur. O cümlədən, idxalın həcmi 1.3 milyard, ixracın həcmi isə 456 milyon dollar təşkil etmişdir. 2010-cu illə müqayisədə ticarət dövriyyəsi 85%, idxal 64%, ixrac 2,7 dəfə artmışdır[125].

124 Shaban Kardash, Fatih Macid. Turkey–Azerbaijan Relations: The Economic Dimension. // Journal of Caspian Affairs, Vol. I, No. 1, Spring 2015, (pp. 23-46), p.34
125 Rəsullu R., Aslanlı K. Göstərilən əsər, s.70-71

Azərbaycanla Türkiyə arasında ticarət əlaqələri (milyon ABŞ dolları)

	Türkiyədən idxal	Türkiyəyə ixrac	Türkiyə ilə ticarət dövriyyəsi	İdxalda payı	İxracda payı	Dövriyyədə payı
2000	128,5	105,0	233,5	11,0%	6,0%	8,0%
2001	148,2	67,4	215,6	10,4%	2,9%	5,8%
2002	156,2	83,4	239,6	9,4%	3,8%	6,3%
2003	195,3	107,0	302,3	7,4%	4,1%	5,8%
2004	225,0	182,6	407,6	6,4%	5,1%	5,7%
2005	313,0	276,0	589,0	7,4%	6,3%	6,9%
2006	385,0	388,1	773,1	7,3%	6,1%	6,6%
2007	624,7	056,3 1	681,0 1	10,9%	17,4%	14,3%
2008	807,0	626,2	433,2 1	11,3%	1,3%	2,6%
2009	906,9	107,6	014,5 1	14,8%	0,7%	4,9%
2010	771,4	170,9	942,3	11,7%	0,8%	3,4%
2011	302,4 1	455,8	758,2 1	13,4%	1,7%	4,8%
2012	520,4 1	600,0	120,4 2	15,8%	2,5%	6,3%
2013	463,8 1	526,0	989,8 1	13,7%	2,2%	5,7%
2014	286,6 1	502,5	789,1 1	14,0%	2,3%	5,8%
2015	171,4 1	304,3	475,7 1	12,7%	2,7%	7,1%

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

2002-ci ildə Türkiyədən Azərbaycana ixrac 156.2 milyon dollar təşkil etdiyi halda, 2012-ci ildə bu rəqəm 1.5 milyard dollara qədər artmışdır. 2002-ci ildə Azərbaycan Türkiyənin ixracatında 0,64%-lik paya sahib olduğu halda, 2012-ci ildə bu rəqəm 1,7% olmuşdur. Türkiyədən Azərbaycana ixracın artmasına baxmayaraq, Azərbaycan Türkiyə üçün önəmli ticarət tərəfdaşı olmamış və ixrac ölkələri arasında 15-ci yeri tutmuşdur. 2002-2012-ci illərdə Azərbaycanın Türkiyəyə ixracı 7 dəfədən çox artsa da, bu prosesdə önəmli tərəddüdlər yaşanmışdır.

Məsələn, 2008-ci ildə Azərbaycanın Türkiyəyə ixracı 626 milyon dollar olmuş, 2009-cu ildə bu rəqəm 107.6 milyon dollara düşmüşdür. 2012-ci ilin sonuna qədər isə Azərbaycanın Türkiyəyə ixracı 600 milyon dollar olmuş, bu isə Azərbaycanın ümumi ixracının 2,5%-ni təşkil etmişdir. Azərbaycanla Türkiyə arasında ixracda müşahidə edilən bu dalğalanmanın əsas səbəbi Türkiyənin Azərbaycandan ara məhsulları (intermediate) idxal etməsidir ki, bu da Türkiyənin iqtisadi inkişafına əsasən dəyişmişdir.

2011-ci ilin sonuna qədər Azərbaycanın idxalında Türkiyə 13,4% paya sahib olmuşdur. Azərbaycanın ixracında Türkiyənin yeri az olsa da, planlaşdırılan enerji layihələrinin həyata keçirilməsi ilə onun rolu artacaqdır. 2011-ci ildə cəmi ticarət dövriyyəsində İtaliya Azərbaycanın ən əhəmiyyətli ticarət tərəfdaşı olmuşdur. Türkiyə isə 5-ci yerdə qərar tutmuşdur. Azərbaycan əsasən Türkiyədən plastik məmulatlar, dəmir və polad məmulatları, mebellər, buxar qazanları, avadanlıqlar və mexaniki cihazlar, elektrik maşınları və avadanlıqları, nəqliyyat vasitələri idxal edir. Azərbaycanın Türkiyəyə ixracında əsas yeri isə xam maddələr, alüminium, pambıq və ara məhsulları tutur.

2003-cü ildə Türkiyənin Azərbaycandakı sərmayəsi cəmi 7 milyard dollar olmuş, onun yarısı TPAO tərəfindən enerji sektoruna yönəldilmişdir. Azərbaycanda 1.700 türk şirkəti fəaliyyət göstərir. Türk şirkətləri Azərbaycanın qeyri-neft sektoruna ən çox sərmayə qoyan şirkətlərdir. 2003-2012-ci illər arasında Türkiyənin Azərbaycanın qeyri-neft sektorundakı sərmayəsi 3.3 milyard dollara çatmışdır. Yəni türk şirkətləri Azərbaycanın qeyri-neft sektoruna illik orta hesabla 350 milyon dollar sərmayə yatırmışlar[126].

BTC fəaliyyətə başlayandan sonra Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) Türkiyədə investisiyalarının həcmi artmışdır. 2008-ci ildən sonra isə Azərbaycan şirkətlərinin Türkiyədə sərmayə yatırımı sürətlənmişdir. Bu, Azərbaycanın enerji strategiyası çərçivəsində həyata keçirdiyi investisiya siyasətinin bir hissəsi olmuşdur. 2006-cı ildə ARDNŞ Türkiyə yanacaq bazarının lideri olan "TURCAS

126 Azerbaycan`da faal Türk firmaları bin 685`e ulaştı. /21.06.2013/ -http://www.dunya.com/ekonomi/azerbaycan039da-faal-turk-firmalari-bin-685039e-ulasti-haberi-215100

Petrol A.Ş." ilə tərəfdaşlıq haqqında müqavilə imzalamış və 2008-ci ilin may ayında "Petkim Petrokimya Holdinq A.Ş."-nin 51%-ni 2 milyard 40 milyon dollara almışdır. Bunun ardınca ARDNŞ "Petkim"in İzmirin Əliağa adlanan ərazisində yerləşən sahəsində bir neftayırma zavodu tikməklə fəaliyyətə başlamışdır. "TURCAS" mərhələli şəkildə bütün hissələrini ARDNŞ-yə sataraq 2014-cü ildə layihədən ayrılmışdır[127]. 2011-ci ilin oktyabr ayında Əliağada "Star" Neftayırma Zavodunun təməli Prezident İlham Əliyev və Baş nazir Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulmuşdur. ARDNŞ-nin buradakı fəaliyyətinin məqsədi BTC-dəki neft payının bir hissəsini emal edərək benzin və dizel şəklində Türkiyə bazarına çıxarmaqdı. ARDNŞ bu strategiyasını dünyanın bir çox bazarında həyata keçirir. Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirmək strategiyası çərçivəsində Türkiyənin ölkəmizin qeyri-neft sektorunda ən böyük sərmayədar olması olduqca önəmlidir. Azərbaycan inkişaf edən iqtisadiyyatına əsaslanıb xarici sərmayə yatırımı siyasəti həyata keçirir. Nəticədə Türkiyə Azərbaycan üçün etibarlı, strateji müttəfiq olaraq bu prosesdə yer almışdır. Azərbaycan şirkətlərinin Türkiyədə yatırımları strateji münasibətləri daha da möhkəmləndirir və Türkiyənin ehtiyacı olan sərmayə artımına dəstək verir. Bu isə, öz növbəsində, Azərbaycan iqtisadiyyatının diversifikasiya siyasətinə böyük dəstəkdir. Xüsusən Türkiyənin artan enerji ehtiyaclarının qarşılanmasında Azərbaycanın yatırımları böyük əhəmiyyət kəsb edir. Xarici sərmayənin şaxələndirilməsi baxımından da Türkiyədəki Azərbaycan sərmayəsi mühüm rol oynayır. Türkiyənin enerji boru xətləri üçün etibarlı tərəfdaş olması, təbii qaz ehtiyacının qarşılanmasında Azərbaycanın malik olduğu rol və Türkiyəyə yatırdığı sərmayə iki ölkə arasında qarşılıqlı asılılığı artırmışdır.

Enerji münasibətlərində qarşılıqlı asılılıq

İqtisadiyyatının sürətli inkişaf mərhələsinə qədəm qoyması ilə birgə Türkiyənin enerjiyə tələbatı da artmışdır. Son illər ərzində Türkiyə Çindən sonra təbii qaza və elektrik enerjisinə ehtiyacı artan ikinci

127 Yabancı Ortaklıklar. - http://www.turcas.com.tr/tr/yazi.php?id=10

ölkədir. Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin hazırladığı enerji strategiyası sənədinə əsasən, 2015-ci ildə ölkə enerji ehtiyacının yalnız 25%-ni öz daxili resursları ilə qarşılaya bilmiş, qalan hissəsini isə xarici ölkələrdən idxal etmişdir[128]. Türkiyə geosiyasi rəqibləri olan Rusiya və İrandan enerji sahəsində asılı olaraq qalmaqdadır. Bu mənada Türkiyə dünya iqtisadiyyatında rəqabətqabiliyyətlilik gücünü artıra bilmək üçün alternativ enerji ehtiyatlarına ehtiyac duyurdu.

Türkiyə öz ehtiyaclarını qarşılayacaq qədər enerji ehtiyatlarına sahib olmasa da, dünyanın sübut olunmuş 47% enerji ehtiyatlarının olduğu Yaxın Şərq və Xəzər hövzəsi ilə dünya enerji ehtiyatının 17%-ni istehlak edən Avropa arasında yerləşir[129]. Türkiyə bu coğrafi üstünlüyündən aşağıdakı istiqamətlərdə istifadə etməyə çalışmışdır: Birincisi, öz enerji ehtiyaclarını qarşılamaq istəmişdir. 2015-ci ildə Türkiyə enerji ehtiyacının 35%-ni təbii qazdan, 28,5%-ni kömürdən, 27%-ni neftdən, 7%-ni hidroehtiyatlardan, 2,5%-ni isə yenilənən enerji ehtiyatlarından qarşılamışdır. 2015-ci ildə Türkiyə təbii qaz ehtiyacının 55,3%-ni Rusiya Federasiyasından, 16,2 %-ni İrandan, 12,7%-ni Azərbaycandan, 8,1%-ni Əlcəzairdən və 2,6%-ni Nigeriyadan almışdır. Türkiyə neft ehtiyatlarının 89%-ni xaricdən qarşılamışdır. Bunun 45,6%-i İraqın, 22,4%-i İranın, 12,4%-i Rusiya Federasiyasının, 9,6%-i Səudiyyə Ərəbistanının, 3,5%-i Kolumbiyanın, 2,6%-i Qazaxıstanın və 2,1%-i Nigeriyanın payına düşmüşdür[130].

İkincisi, neft və təbii qazın qiymətlərinin müəyyənləşdiyi regional ticarət mərkəzi yaratmaq istəyən Türkiyə bu məqsədlə 2015-ci ildə İstanbul Enerji Birjasını təsis etmişdir[131]. Başlanğıcda bu birja elektrik enerjisi qiymətlərinin formalaşdırılmasına xidmət etmiş, daha sonra isə buraya təbii qazın və neftin qiymətlərinin də daxil olması planlaşdırılmışdır[132].

Üçüncüsü isə, Türkiyə karbohidrogen ehtiyatları ilə zəngin ölkələrlə istehlakçı ölkələr arasında körpü rolunu oynamaq istəmişdir. Türkiyə

128 Turkey`s Energy Profile and Strategy. - http://www.mfa.gov.tr/turkeys-energy-strategy.en.mfa
129 Rzayeva G. Natural Gas in the Turkish Domestic Energy Market: Policies and Challenges. OİES Paper, No. 82, p.57
130 Turkey`s Energy Profile and Strategy. - http://www.mfa.gov.tr/turkeys-energy-strategy.en.mfa
131 https://www.epias.com.tr/
132 Turkey`s Energy Profile and Strategy. - http://www.mfa.gov.tr/turkeys-energy-strategy.en.mfa

Norveç, Rusiya və Əlcəzairdən sonra Aİ-nin dördüncü böyük enerji dəhlizi olmağı qarşısına məqsəd qoymuşdur. Türkiyə enerji körpüsü olma strategiyasını iki şəkildə qurmuşdur: tranzit ölkə olmaq və təkrar ixracat imkanlarından faydalanmaq[133].

Regiondakı əksər boru xətlərinin Türkiyə ərazisindən keçməsi onun tranzit ölkə olma hədəfini reallaşdırır. Bu boru xətləri vasitəsilə Türkiyə sadəcə öz enerji ehtiyaclarını qarşılamayacaq, həmçinin boru xətlərindən tranzit qazancı da əldə edəcək. Bu amil Türkiyənin Aİ üçün də strateji dəyərini artıracaq və bu beynəlxalq qurum enerji məsələləri ilə bağlı müzakirələrdə Türkiyəyə üstünlük verəcək. Türkiyə enerji mərkəzi kimi regionda aktiv ölkə olmaq istəmiş və enerji xətləri üstündən Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələrinin Qərblə əməkdaşlığının genişlənməsinə xidmət etmişdir.

Azərbaycan üç cəhətdən Türkiyənin enerji strategiyasında əhəmiyyətli rol almışdır. Birincisi, Azərbaycan Türkiyənin enerji ehtiyaclarını qarşılayaraq, xüsusilə təbii qaz ehtiyatları baxımından diversifikasiya rolunu oynamışdır. İkincisi, Türkiyə Azərbaycan təbii qazını Avropaya sataraq tranzit ölkəsi olacaq. Xatırladaq ki, Türkiyənin yalnız Azərbaycanla tranzit qaz müqaviləsi mövcuddur. Üçüncüsü, Azərbaycan Mərkəzi Asiya ölkələrinin enerji ehtiyatlarının Türkiyə üzərindən satılması üçün tranzit ölkə olacaqdır. Bunun üçün Türkmənistan təbii qaz ehtiyatlarını Xəzər dənizi–Azərbaycan–Gürcüstan–Türkiyə vasitəsilə Avropaya çatdıracaq Transxəzər layihəsi gündəmdə olmuşdur. Türkiyə və Azərbaycan bu layihəni dəstəkləsə də, Aİ-nin siyasi və maliyyə dəstəyinin olmaması səbəbindən bu layihə həyata keçməmişdir.

Türkiyə Azərbaycanın enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasında etibarlı müttəfiq olduğu üçün iki dövlət arasında enerji əməkdaşlığı sahəsində qarşılıqlı asılılıq mövcuddur. Üç böyük neft və qaz layihəsi iki dövləti bir birinə birləşdirmişdir: Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Cənub Axını.

133 Turkey`s Energy Strategy, January 2009. Republic of Turkey, Ministry of Foreign Affairs. - http://www.mfa.gov.tr/data/DISPOLITIKA/EnerjiPolitikasi/Turkey's%20Energy%20Strategy%20(Ocak%202009).pdf

Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan neft boru kəməri

Azərbaycanın neft yataqlarının pay bölgüsündə Türkiyə Petrolları Anonim Ortaqlığı (TP) da iştirak etmişdir. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"ndə TP-nin payı ilkin mərhələdə 1,75% olmuş, daha sonra, 1995-ci ildə Azərbaycanın 5%-lik payını TP-yə satması ilə əlaqədar bu rəqəm 6,75%-ə çatmışdır. Bundan başqa, TP 100 milyon ton neft və 1.2 trilyon m^3 qaza malik "Şahdəniz" layihəsində 9%, Kürdaşı–Araz–Kurqan yatağı müqaviləsində 5% paya sahibdir. Türkiyənin Azərbaycanın neft yataqlarında sahib olduğu bu paylar ona illik 835 milyon dollar gəlir gətirmişdir[134].

Azərbaycan neftinin pay bölgüsündən sonra neftin dünya bazarlarına çıxarılması üçün alternativ istiqamətlərin müəyyənləşdirilməsi üzrə müzakirələr aparılmışdır. Xam neftin dünya bazarlarına çıxarılması üçün bir neçə istiqamət müzakirə edilmişdir. Boru xətlərinin keçəcəyi yerlər regionun geosiyasi vəziyyətinə də dərin təsir göstərəcəkdi. Bu həm də Azərbaycanın suverenliyini və müstəqilliyini yaxından maraqlandırırdı. Bu səbəbdən Azərbaycan neftini dünya bazarına çıxaracaq neft boru kəməri regiondakı geosiyasi oyunun bir parçası idi.

Heydər Əliyev Azərbaycanın xam neftini dünya bazarlarına çatdıracaq kəmərin mütləq Türkiyədən keçməsi üçün diplomatik səylər həyata keçirmişdir. BTC-nin həyata keçirilməsinə qarşı həm neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış "BTC Company" şirkətinə daxil olan bəzi şirkətlər, həm də Rusiya çıxış edirdi. Belə ki, neft konsorsiumu BTC yerinə Bakı–Supsa xəttinin çəkilməsini və Supsadan neftin tankerlər vasitəsilə boğazdan keçməklə nəql olunmasını istəyirdi. Lakin Heydər Əliyev neft şirkətlərinin rəhbərləri və səlahiyyətli nümayəndələri ilə görüşərək israrla məhz BTC-nin həyata keçirilməsini istəmiş və bu istiqamətdə Türkiyə Prezidenti Süleyman Dəmirəl və ABŞ Prezidenti Bill Klintonun da dəstəyini almışdı.

Bu dövrdə yaşanan bəzi hadisələr BTC-nin həyata keçmə ehtimalını artırmışdı[135]:

134 Bal Harun və Alper Ali Eren. Bakü–Tiflis–Ceyhan Petrol Boru Hattı ve Türkiye Ekonomisine Etkileri. // Ç.Ü. Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt 19, Sayı 3, 2010, (ss. 345-360), s.352

135 Larrabee F. Stephen and Lesser, Ian O. Turkish Foreign Policy in an Age of Uncertainty. RAND Corporation, 2003, p.109

- ABŞ tərəfindən İrana qarşı tətbiq olunan sanksiyaların davam etdirilməsi;
- Heydər Əliyevin göstərişi ilə BTC-nin iqtisadi rentabelliyinə qarşı çıxanlarla bağlı yeni bir iqtisadi hesabatın hazırlanması;
- Qazaxıstan və Türkmənistan neftinin BTC vasitəsilə dünyaya çatdırılmasına qərar verilməsi;
- "Şahdəniz" təbii qaz yatağında böyük miqdarda təbii qazın tapılması və bunun Türkiyə üzərindən dünya bazarlarına ixrac edilməsinin gündəmə gəlməsi;
- Azərbaycanda çıxarılan ilk neftin Bakı–Novorossiysk kəməri vasitəsilə dünya bazarlarına ixrac olunması, Rusiya şirkətlərinin Azərbaycan neftindən pay alması ilə Rusiyanın mövqeyinin yumşaldılması;
- ABŞ-ın BTC-nin həyata keçməsini dəstəkləməsi[136];
- Türkiyənin İstanbul boğazından tankerlərin keçidini məhdudlaşdıran qanun qəbul etməsi.

1998-ci il oktyabrın 29-da imzalanan Ankara Bəyannaməsi BTC-nin həyata keçirilməsi üçün mühüm sənəd oldu[137]. Bəyannamədə ölkə başçıları tərəfindən Xəzər dənizinin Azərbaycana aid hissəsindən çıxarılan karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxaracaq əsas ixrac boru xəttinin BTC olması elan edilirdi. 18-19 noyabr 1999-cu il tarixlərində ATƏT-in İstanbulda keçirilən növbəti zirvə görüşündə Azərbaycanın enerji siyasətini, Azərbaycan–Türkiyə enerji münasibətlərini yaxından maraqlandıran sənədlər imzalandı[138]. Bu sənədlərin imzalanmasında ABŞ Prezidenti Bill Klintonun şahid kimi iştirak etməsi bu böyük dövlətin müqavilələrə bir növ zəmanət

136 Yenə orda, s.113

137 Ankara Bəyannaməsi. /28.10.1998, s. 711/ - http://files.preslib.az/projects/toplu/v2/f3_8.pdf

138 Heydər Əliyevin "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikasının ərazilərі ilə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Saziş"in imzalanma mərasimində nitqi. / İstanbul, "Çırağan" sarayı, 18 noyabr 1999-cu il, s.708/ - http://files.preslib.az/projects/toplu/v2/f3_9.pdf Mərasimdə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsini dəstəkləmək, Qazaxıstanın neft ehtiyatlarını bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Qazaxıstan Respublikası arasında İstanbul Bəyannaməsi, Transxəzər qaz kəməri barədə Azərbaycan Respublikası, Türkiyə Respublikası, Gürcüstan və Türkmənistan arasında Hökumətlərarası Bəyannamə, Azərbaycan qaz layihələrinin inkişafını və Azərbaycan qazının Türkiyə Respublikasına və digər beynəlxalq bazarlara satışını dəstəkləyən sənəd kimi Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında qarşılıqlı anlaşma haqqında memorandum imzalanmışdır.

verməsi mənasına gəlirdi. Bu müqavilələr Azərbaycan–Türkiyə enerji münasibətlərinin gələcək perspektivi baxımından böyük əhəmiyyət kəsb edirdi.

2002-ci ildə əsası qoyulan BTC layihəsinin 2006-cı il iyulun 12-də açılışı olmuşdur. Kəmərin açılışında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: *"Bakı–Tbilisi–Ceyhan müstəqilliyimizi möhkəmləndirəcək, ...belə olan halda, biz müstəqil siyasət apararaq xalqlarımızın rifahını yaxşılaşdıracaq, milli maraqlarımızı da inamla müdafiə edəcəyik"*[139]. 2006-cı ildən 2016-cı ilin üçüncü rübünədək BTC təxminən 2.55 milyard barel və ya 341 milyon ton xam neft ixrac etmişdir. Ceyhan limanına çatdırılan neft buradan da tankerlər vasitəsilə dünya bazarına çıxarılırdı. Fərqli hesablamalara görə, Türkiyə BTC-dən aldığı tranzit haqqı, vətəndaşları üçün yaratdığı iş imkanları ilə birlikdə orta hesabla 5 milyard dollar qazanc əldə edəcəkdir[140]. Bu neft boru kəməri Türkiyənin region dövlətləri ilə siyasi və iqtisadi münasibətlərinin də inkişafına şərait yaratmış və beləliklə, iqtisadi baxımdan daha çox strateji əhəmiyyət kəsb etmişdir.

Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəməri

1996-cı ildə ARDNŞ ilə BP, ELf, "LUKoil", "Oil Industries Statoil" və TP şirkətləri arasında "Şahdəniz" qaz yatağında kəşfiyyat işlərinin aparılması və işlənməsinə dair müqavilə imzalandı. Həmin tarixdən etibarən "Şahdəniz" qazının Türkiyə istiqamətində nəqli üçün Azərbaycanla Türkiyə arasında müzakirələr başlandı. Bu dövrdə Türkiyə Rusiya ilə ikinci bir təbii qaz xətti olan "Mavi axın" layihəsi və Türkmənistan təbii qazını almaq üçün bu ölkə ilə də müzakirələr aparırdı. Türkiyə rəsmiləri ölkənin ümumilikdə 55 milyard m^3 qaza ehtiyacı olduğunu və bu ehtiyacı qarşılamaq üçün hər

139 Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasim. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir /13.07.2006/ - http://azertag.az/xeber/HEYDAR_ALIYEV_ADINA_BAKI_TBILISI_CEYHAN_ASAS_IXRAC_BORU_KAMARININ_ISTIFADAYA_VERILMASINA_HASR_OLUNMUS_TANTANALI_MARASIM_AZARBAYCAN_PREZIDENTI_ILHAM_ALIYEV_MARASIMDA_ISTIRAK_ETMISDIR-350566

140 Bal Harun və Alper Ali Eren. Göstərilən əsəri, s.352

üç ölkədən təbii qaz alacaqlarını bildirsələr də[141], Rusiya, Türkmənistan və Azərbaycan arasında Türkiyə bazarına daxil olmaq uğrunda mübarizə gedirdi. Bu müzakirələrdə Azərbaycanı yaxından maraqlandıran başqa bir məsələ isə Türkmənistan qazının Azərbaycan vasitəsilə Türkiyəyə çatdırılması idi.

Türkmənistan Prezidenti Saparmurad Niyazov Türkiyəyə təbii qazı birbaşa satmağı təklif etsə də, tərəflər arasında birbaşa boru xəttinin olmaması səbəbindən bu təklif imkansız görünmüşdü. Bu dövrdə Türkmənistanın İran və Rusiya ilə təbii qazın alqı-satqısına dair müqaviləsi var idi. Hər iki ölkə Türkmənistandan ucuz qiymətə aldığı təbii qazı Türkiyəyə daha baha qiymətə satırdı. Məsələn, "Milliyet" qəzetinin yazdığına görə, İran Türkmənistandan təbii qazın 1000 m^3-ni 28-30 dollara alır, Türkiyəyə isə 105-110 dollara satırdı. Həmçinin Rusiya Türkmənistandan 1000 m^3-ni 45 dollara aldığı qazı Türkiyəyə 100 dollara satırdı[142]. Müzakirələrin davam etdiyi bir vaxtda, 1999-cu ilin dekabr ayında Rusiya ilə Türkmənistan arasında illik 20 milyard m^3 təbii qazın alqı-satqısı ilə bağlı müqavilə imzalandı. Bunun ardından Vladimir Putinin 2000-ci ilin aprel ayında Türkmənistana səfəri çərçivəsində tərəflər arasında imzalanan təbii qaz müqaviləsinə əsasən, Türkmənistanın Rusiyaya satacağı qazın miqdarı 10 milyard m^3 artırılaraq 30 milyard m^3-ə çatdırılmışdı. Beləliklə, Rusiya 16 milyard m^3 həcmi olan "Mavi axın" boru xətti üçün təbii qaz mənbəyi əldə etmiş və bununla da Türkmənistan qazının Türkiyəyə nəqli planlaşdırılan Transxəzər layihəsinin həyata keçirilmə ehtimalına böyük zərbə vurulmuşdu[143].

2001-ci ildə Heydər Əliyevin Türkiyəyə səfəri zamanı hasil olunacaq təbii qazın Türkiyəyə satılması ilə bağlı həm hökumətlərarası, həm də alqı-satqı müqaviləsi imzalandı. Bu anlaşmaya görə, Azərbaycan qazı Gürcüstan vasitəsilə Türkiyəyə nəql olunacaq və Azərbaycan Türkiyəyə ildə 6 milyard m^3 qaz verəcəkdi[144]. 2002-ci ildə təməli qoyulan Bakı–

141 Bila Fikret. Ek protokol sorunu. // "Milliyet", 05.11.1999, s.15

142 Niyazov: Gazı direk bizden alın. // "Milliyet", 23.08.1997, s.9; Gazı bizden alın. // "Milliyet", 08.01.2002, s.14

143 Beat Maria. Mavi Akım mı, Mavi Rusya mı? // "Milliyet", 21.06.2000, s.24

144 Heydər Əliyevin "Şahdəniz" yatağından əldə olunacaq təbii qazın Türkiyəyə nəqlinə dair Azərbaycan–Türkiyə sənədlərinin imzalanması mərasimində bəyanatı. /12.03.2001/ - http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf

Tbilisi–Ərzurum təbii qaz boru xətti 2006-cı ilin sonlarında tamamlandı. Bununla da "Şahdəniz-1" yatağından hasil ediləcək təbii qazın Türkiyə və Avropa bazarlarına çıxarılmasının təməli qoyuldu.

BOTAŞ ilə Azərbaycan Qaz Təchizatı Şirkəti arasında 2001-ci il martın 12-də təbii qazın alqı-satqısı ilə bağlı imzalanmış müqaviləyə əsasən, Türkiyəyə satılan qazın qiymətinin müəyyən vaxtdan sonra bazar şərtlərinə uyğunlaşdırılması üçün müqavilənin şərtləri yenilənə bilərdi. Bu baxımdan 2006-cı ildən etibarən təbii qaz bazarında qiymətlərin qalxması Azərbaycanla Türkiyə arasında təbii qazın qiymətlərinə yenidən baxılmasını gündəmə gətirdi. Türkiyə rəsmiləri özləri də 2001-ci ildə imzalanan müqavilə ilə müəyyən edilən təbii qaz qiymətinin bazar qiymətlərindən aşağı olduğunu qəbul edirdilər. 2006-cı ildə Türkiyə Azərbaycandan aldığı təbii qazın 1000 m^3-nə 120 dollar, Rusiyadan aldığı təbii qazın 1000 m^3-nə 245 dollar, İrandan aldığı təbii qazın 1000 m^3-nə isə 272 dollar ödəyirdi. Bundan başqa, 2003-cü ildə Gürcüstanda və 2004-cü ildə Ukraynada yaşanan hakimiyyət dəyişikliyindən sonra Rusiya hər iki ölkəyə təbii qazın qiymətini 240 dollaradək artırmışdı[145]. Rusiyanın "Qazprom" şirkəti 2004-cü ildə Azərbaycana satdığı 1000 m^3 qazın qiymətini 60 dollardan 2006-cı ildə 235 dollara çatdırmışdı[146].

Nəticədə təbii qaz bazarında qiymətlər artmış və Türkiyəyə satılan qazın qiymətinin yenidən müəyyənləşdirilməsi üçün Azərbaycanın tələbi ilə 2008-ci ildən etibarən tərəflər arasında müzakirələr başlamışdı[147]. 2008-ci ildə Azərbaycanla Türkiyə arasında tranzit şərtlərinin yenidən müəyyənləşdirilməsi haqqında fikir ayrılığı ortaya çıxdı. Türkiyə Azərbaycandan aldığı qazın 15%-ni nisbətən aşağı qiymətə alıb digər ölkələrə satmaq istəyirdi. Azərbaycan isə Türkiyənin yalnız tranzit ölkə olmasında maraqlı idi[148]. Azərbaycanla Türkiyə arasında enerji məsələsindəki fikir ayrılığından doğan iki illik müzakirələrdən sonra müqavilə, nəhayət, 2010-cu ildə imzalandı.

145 Yeni formül yüzünden fatura kabarabilir. // "Milliyet", 05.01.2006, s.7
146 Azərbaycan tərəfdaş dövlətlərin etibarlı mavi yanacaq təminatçısına çevrilir. // "Azərbaycan" qəzeti, 23 yanvar 2010-cu il, s.1
147 T.C. Enerji ve Tabii Kaynaklar Bakanlığı basın açıklaması. - http://www.enerji.gov.tr/tr-TR/Bakanlik-Haberleri/Basin-Aciklamasi
148 Cornell E. Svante, Azerbaijan Since Independence, London, 2011, p.383

2010-cu il iyunun 7-də Azərbaycanla Türkiyə arasında "Şahdəniz-1" və "Şahdəniz-2" yataqlarından hasil ediləcək qazın satış qiymətləri ilə bağlı müqavilə imzalandı. Bu müqavilə ilə 2008-ci il aprelin 15-dən etibarən Azərbaycandan Türkiyəyə satılan təbii qazın qiyməti yeniləndi. "Şahdəniz-2" layihəsi ilə əlaqədar olan ikinci müqaviləyə görə, Azərbaycan Türkiyəyə bu yataqdan da qaz satacaqdı. Üçüncü müqavilə tranzit nəqliyyat qiymətləri ilə bağlı oldu[149]. Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldızın sözlərinə görə, müqavilənin şərtlərinə əsasən, "Şahdəniz-2" yatağından Türkiyəyə 2017-ci ildə 2 milyard m^3, 2018-ci ildə 4 milyard m^3 və 2019-cu ildə 6 milyard m^3 təbii qaz satılacaq. Müqavilə ilə Türkiyənin Suriya, Yunanıstan və Bolqarıstan kimi ölkələrə re-eksport haqqı ortaya çıxdı[150].

Bu dövrdə Türkiyəyə satılan təbii qazın qiymətini qaldırdıqdan sonra belə Azərbaycan qazının qiyməti digər ölkələrin Türkiyəyə satdığı qazın qiymətindən aşağı olmuşdur. Məsələn, 2012-2013-cü illərdə hazırlanan Türkiyə Respublikası Enerji Nazirliyinin hesabatlarına görə, Türkiyə Rusiyadan aldığı təbii qazın 1000 m^3-nə 429, İrandan aldığı təbii qazın 1000 m^3-nə 507, Azərbaycandan aldığı təbii qazın 1000 m^3-nə isə 349 dollar ödəmişdir[151].

Transanadolu Təbii Qaz Kəməri (TANAP)

"Şahdəniz-2" yatağından hasil ediləcək təbii qazın satın alınması və nəqli barədə BOTAŞ və "Şahdəniz" konsorsiumu arasında davam edən müzakirələr 2011-ci il oktyabrın 25-də tamamlandı. Burada Türkiyəyə satılacaq 6 milyard m^3 və Avropaya nəql olunacaq 10 milyard m^3 təbii qazın nəqletmə qiyməti haqqında müqavilə imzalandı.[152] Bu

149 Yeni doğalgaz anlaşması imzalandı. /07.06.2010/ - http://www.dunya.com/gundem/yeni-dogalgaz-anlasmasi-imzalandi-haberi-116543

150 Türkiye Cumhuriyeti Enerji ve Tabii Kaynaklar Bakanlığı ile Azerbaycan Cumhuriyeti Sanayi ve Enerji Bakanlığı arasında doğal gaz satışı ve sevkiyatına ilişkin mutabakat zaptı. /06.10.2010/ - http://www.resmigazete.gov.tr/eskiler/2010/10/20101006-4.htm

151 Türkiyə hangı ülkeden kaç liraya doğalgaz alıyor? /31.03.2013/- http://enerjienstitusu.com/2013/03/31/turkiye-hangi-ulkeden-kac-liraya-dogalgaz-aliyor/

152 Türkiye Cumhuriyeti Hükumeti ile Azerbaycan Cumhuriyeti Hükumeti Arasında Türkiye Cumhuriyetine Doğal Gaz Satışına ve Azerbaycan Cumhuriyeti Kaynaklı Doğal Gazın Türkiye Cumhuriyeti Toprakları Üzerinden Tranzit Geçişine ve Doğal Gazın Türkiye Cumhuriyeti Toprakları Üzerinden Taşınması İçin Münhasır Boru Hattının Geliştirilmesine İlişkin Anlaşma. - http://www2.tbmm.gov.tr/d24/1/1-0615.pdf

müqavilədə Azərbaycan təbii qazının Avropaya nəqli üçün iki alternativ variant gündəmdə idi: birincisi, təbii qazın nəqli üçün Türkiyənin mövcud sistemindən istifadə etmək; ikincisi isə, yeni bir qaz boru kəməri çəkmək. 2011-ci il dekabrın 26-da Türkiyə Respublikası Enerji və Təbii Ehtiyatlar Nazirliyi ilə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyi arasında Transanadolu Təbii Qaz Kəməri haqqında anlaşma memorandumu imzalandı. Bu müqavilə ilə Transanadolu qaz kəmərinin çəkilişinə dərhal başlanılması və iki ölkə tərəfindən təyin olunan şirkətlər arasında bir konsorsium qurulması haqqında razılıq əldə olundu. İlkin mərhələdə konsorsiuma ARDNŞ (80%), Türkiyənin "Boru Xətləri ilə Petroldaşıma Anonim Şirkəti" (BOTAŞ – 15%) və Türkiyə Petrollları Anonim Ortaqlığı (TP – 5%) daxil oldu. Sonrakı prosesdə digər enerji şirkətləri də konsorsiuma daxil ola bilərdi[153].

2012-ci il iyunun 26-da Azərbaycanın təbii qazını Türkiyəyə və Avropaya nəql edəcək TANAP müqaviləsi imzalandı. TANAP Azərbaycan və Türkiyənin birgə fəaliyyəti nəticəsində ortaya çıxan bir layihədir. Transanadolu Təbii Qaz Kəməri "Şahdəniz-2" və Xəzər dənizinin şimal hissəsindəki digər təbii qaz yataqlarında istehsal olunan qazın əvvəlcə Türkiyəyə, oradan isə Avropaya nəqli məqsədini daşıyır. TANAP Cənubi Qafqaz Boru Kəməri (CQBK) və TAP ilə birləşərək Cənub Qaz Dəhlizini meydana gətirir.

İyunun 26-da imzalanan hökumətlərarası müqaviləyə əsasən, ARDNŞ-nin TANAP-dakı payı 51%-dən az olmamalıdır. Müqaviləyə görə, TANAP ilkin mərhələdə 16 milyard m^3 qaz nəql etməklə fəaliyyətə başlayacaq və bu qazın ilk alıcısı Türkiyə istehlakçıları olacaqdır. Sonradan dövlətlərin qarşılıqlı razılığı əsasında TANAP-ın illik həcmi 32 milyard m^3-dək artırılacaqdır. Yeni qurulan TANAP şirkəti TANAP-la öz qazını xaricə satmaq istəyən şirkətlərlə şərtləri müzakirə etmək üçün tam səlahiyyətə malik idi[154]. Daha sonra BP TANAP-da 12% pay

153 Trans-Anadolu Hattı`nda imzalar atıldı. /26.12.2011/ - http://www.radikal.com.tr/ekonomi/trans-anadolu-hattinda-imzalar-atildi-1073615/

154 Türkiye Cumhuriyeti hükumeti ile Azerbaycan Cumhuriyeti Hükumeti arasında Trans-Anadolu doğalgaz boru hattı sistemine ilişkin hükümetlerarası anlaşma. - http://www.tanap.com/content/file/TANAP_Hukumetlerarasi_Anlasma.pdf

sahibi olmuş, BOTAŞ-ın payı isə 30%-ə yüksəlmişdi. Beləcə, ARDNŞ-nin TANAP-dakı payı 58% olmuşdu[155]. Sonra ARDNŞ TANAP-dakı 7%-lik payını da "SOCAR Türkiyə Enerji" şirkətinə vermiş və beləliklə, ARDNŞ-nin layihədəki payı 51%-ə düşmüşdü[156]. TANAP-ın təməli 2015-ci il martın 17-də Qarsda atılmışdır. Kəmərin tikintisinin 2018-ci ildə tamamlanacağı gözlənilir.

TANAP Azərbaycanın "Şahdəniz-2" yatağından hasil ediləcək təbii qazı Aralıq dənizi sahillərində yerləşən Avropa ölkələrinə çatdıracaq Cənub Qaz Dəhlizinin əhəmiyyətli bir hissəsini təşkil edir. Müqavilə imzalandıqdan sonra İraq, Rusiya, İsrail və İran kimi ölkələr də TANAP vasitəsilə təbii qazını ixrac etməyə maraq göstəriblər.

Azərbaycan və Türkiyə Avropa bazarına öz layihələri ilə daxil olduqları üçün onların öz oyun qaydaları olmuşdur. TANAP Türkiyənin Cənubi Qafqaz, Qara dəniz, Şimal-Şərqi Avropa və Yaxın Şərqdə strateji əlaqələrini genişləndirəcək və onun real olaraq enerji körpüsü rolunu oynamasına yol açacaqdır.

TANAP ARDNŞ-nin iqtisadi və strateji dəyərini və Azərbaycanın Avropanın təbii qaz bazarında rolunu artıracaq. Azərbaycan qazının Avropaya nəqli Avropa–Türkiyə münasibətlərinin siyasi vəziyyətindən asılı olmayacaq. Nəticədə TANAP ilə birlikdə Azərbaycan öz qazını həm nəql edəcək, həm də birbaşa bazarda sata, Avropa dövlətləri ilə strateji münasibətlərini dərinləşdirə və ya qura biləcəkdir. Bu layihə BTC və BTƏ ilə birgə Türkiyənin enerji körpüsü rolunu daha da möhkəmləndirmiş və Aİ üçün strateji dəyərini artırmışdır. Bundan başqa, Türkiyənin bu layihədən əldə edəcəyi 6 milyard m^3 təbii qaz onun ehtiyacını qarşılayaraq enerji təminatında ehtiyatlarının çeşidləndirilməsinə imkan verəcəkdir. Enerji layihələri həyata keçəndən sonra Azərbaycanın Türkiyə və Mərkəzi Asiya ölkələri ilə tranzit ölkə olaraq əhəmiyyəti artmış oldu. Bu layihələr Azərbaycanın xarici siyasət hədəflərinin reallaşdırılmasına müsbət təsir göstərmişdir.

155 TANAP projesinde imzalar atıldı. - http://www.star.com.tr/sondakika/tanap-projesinde-imzalar-atildi-haber-1009416/

156 SOCAR TANAP projesindeki payının satış nedenini açıkladı. /14.08.2015/ - http://tr.trend.az/business/energy/2433083.html

Nəticə

25 il ərzində Azərbaycan–Türkiyə münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmiş, iqtisadi, enerji, siyasi və hərbi sahədə iki dövlətin maraqları üst-üstə düşmüşdür. Tərəflər arasında 1997-ci ildə "Strateji əməkdaşlıq haqqında Bəyannamə", 2001-ci ildə "Strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında Bəyannamə", 2010-cu ildə "Strateji əməkdaşlıq və qarşılıqlı yardımlaşma haqqında Müqavilə" imzalanmış və eyni ildə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası qurulmuşdur.

Türkiyə ilə Azərbaycan arasında ilk rəsmi əlaqələrin əsası 1918-ci ildə Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında imzalanan müqavilə ilə qoyulmuşdur. Lakin AXC-nin bolşevik Rusiyası tərəfindən işğal olunmasından sonra rəsmi əlaqələr qısa müddət davam etmiş, 1937-ci ilə qədər Türkiyənin Bakıda konsulluğu fəaliyyət göstərmişdir. 1991-ci ildə, SSRİ rəsmi olaraq dağılmamışdan öncə Türkiyə müttəfiqlərinin etirazlarına baxmayaraq, Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdur. Əlbəttə, bu amil Azərbaycanın digər dövlətlər tərəfindən müstəqil bir dövlət kimi tanınmasını sürətləndirmişdir.

Azərbaycan müstəqilliyini qazanmamışdan əvvəl də erməni silahlı qüvvələrinin hücumları və erməni lobbisinin qərəzli təbliğatı ilə qarşı-qarşıya qalmışdı. Qərb mediasında Azərbaycandakı azadlıq hərəkatını "islamlaşma" adı altında təbliğ edən erməni lobbisi Azərbaycan ərazilərinin işğalını "müsəlman azərbaycanlıların xristian ermənilərə hücumu" kimi qələmə vermişdi. Bu səbəbdən Azərbaycan Qərb dünyası ilə münasibətlərin qurulmasında başlanğıcda xeyli çətinliklərlə üzləşmişdi. Türkiyə isə Qərb dünyasının bir üzvü olaraq Azərbaycanın təmsilçisi kimi çıxış etmiş, bu da Azərbaycan haqqında erməni təbliğatı nəticəsində Qərb təfəkküründə yaranmış mənfi obrazın dağıdılması və imicin düzəldilməsi baxımından vacib rol oynamışdır. Bundan başqa, Türkiyə BMT və ATƏT kimi beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ məsələsinin gündəmə gətirilməsində də çox fəal olmuşdur.

Bu dövrdə Azərbaycan eyni zamanda Ermənistanın hücumlarına

qarşı Türkiyədən təhlükəsizlik dəstəyi də gözləmiş və türk zabitləri Azərbaycan Silahlı Qüvvələrinin zabitlərinin yetişdirilməsində vacib rol oynamışdır. Lakin Ermənistanla Rusiya arasında hərbi sahədə qurulmuş münasibətlər və tərəflər arasında imzalanan müqavilələrlə müqayisədə Türkiyə ilə Azərbaycan arasındakı hərbi əlaqələr zəif inkişaf etmişdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri Kəlbəcəri işğal etdikdən sonra Türkiyə Ermənistanla sərhədlərini bağlamış, həm daxildən, həm də xaricdən çoxsaylı təzyiqlərə baxmayaraq, sərhədləri hələ də açmamışdır. 2009-cu ildə Türkiyə–Ermənistan sərhədlərinin açılması və diplomatik əlaqələrin inkişaf etdirilməsi üçün protokollar imzalansa da, bu protokollar Türkiyə Böyük Millət Məclisi tərəfindən təsdiqlənməmişdir. Türkiyə rəsmiləri Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın təklif etdiyi prinsiplər və şərtlər daxilində öz həllini tapmayanadək Ermənistanla sərhədlərin açılmayacağını bildirmişlər.

"Erməni məsələsi" artıq Azərbaycan və Türkiyə ictimaiyyətinin ortaq probleminə çevrilmişdir. Bu səbəbdəndir ki, Azərbaycan və Türkiyə diaspora təşkilatları ortaq bir strategiya hazırlayaraq Qərb dünyasında erməni diasporasına qarşı birgə mübarizə aparırlar. Türkiyə ATƏT-in Minsk Qrupuna üzv olsa da, Dağlıq Qarabağ məsələsinin həllində vasitəçi rolu oynayan Minsk Qrupu həmsədr ölkələrindən biri ola bilməmişdir.

1992-ci ildə Naxçıvana qarşı erməni hücumlarının dünya ictimaiyyətinə çatdırılması baxımından Türkiyə vacib rol oynamışdır. Bunun nəticəsində Naxçıvana qarşı erməni hücumları dayandırılmış və Naxçıvan Muxtar Respublikasının dünya ilə əlaqə qura bilməsi üçün Türkiyə ilə arasında körpü tikilmişdir. Azərbaycanla Türkiyə arasında mövcud olan enerji və nəqliyyat xətlərinin (BTƏ və BTQ) Naxçıvana qədər uzadılması Naxçıvanın təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir.

NATO-nun üzvü olan Türkiyə Azərbaycanın bu hərbi təşkilatla əməkdaşlığının inkişafında xüsusi rol oynamışdır. Azərbaycanın 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramına üzv olması və bu proqram çərçivəsində Azərbaycan Ordusunda islahatların həyata

keçirilməsində Türkiyə Silahlı Qüvvələri aktiv rol oynamışdır. 1999-cu ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Müdafiə Nazirliyi arasında imzalanan müqaviləyə əsasən, Kosovoda sülhün və sabitliyin bərpası üçün NATO çərçivəsində fəaliyyət göstərən Azərbaycan taqımı Kosovodakı Türk Taboru Təhlükəsizlik Qüvvələrinin tərkibində yer almışdır.

Azərbaycan açıq dənizlərə və okeanlara çıxışı olmayan bir coğrafiyada yerləşir. Bu səbəbdən sahib olduğu enerji ehtiyatlarını dünya bazarlarına çıxara bilmək üçün etibarlı tərəfdaşa ehtiyac duymuşdur. Qərb neft şirkətləri ilə müzakirələrə başladığı ilk gündən etibarən Türkiyə Azərbaycan üçün etibarlı tərəfdaş kimi gündəmdə olmuşdur. Azərbaycanda ölkə rəhbərlərinin dəyişməsinə və siyasi dəyişikliklərin yaşanmasına baxmayaraq, hələ də Türkiyə Azərbaycan enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün etibarlı tərəfdaşdır. Bu səbəbdən Azərbaycan neftini və təbii qazını dünya bazarlarına çıxaran Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft və qaz boru kəmərləri məhz Türkiyə ərazisindən keçir. Türkiyə eyni zamanda "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılan təbii qazı dünya bazarlarına çıxaracaq "Cənub axını" layihəsinin keçdiyi ölkədir. Həm Azərbaycan, həm də Türkiyə coğrafi mövqeləri səbəbindən Şərq–Qərb enerji və nəqliyyat dəhlizləri üzərində yerləşir. Son illər Çinlə Avropa arasında artan ticarət dövriyyəsi bu nəqliyyat dəhlizinin əhəmiyyətini artırmışdır. Bu səbəbdən tərəflər arasında Gürcüstanın da iştirakı ilə 2007-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilməsi üçün müqavilə imzalanmışdır. Geostrateji əhəmiyyətə malik bu dəmir yolu xətti Azərbaycan və Türkiyə arasında münasibətləri daha da inkişaf etdirəcək, eyni zamanda Şərq–Qərb nəqliyyat dəhlizində rolunu artıracaqdır.

Azərbaycan Türkiyə üçün Mərkəzi Asiya ölkələri ilə daha sıx əlaqələr qura bilmək baxımından əhəmiyyətli rola malikdir. BTC və BTƏ müqavilələri imzalandığı günlərdə Türkmənistan qazının və Qazaxıstan neftini Xəzər dənizi–Azərbaycan vasitəsilə Türkiyəyə nəql edəcək Transxəzər enerji xətlərinin tikintisi də müzakirə olunmuşdur. Bundan başqa, BTQ dəmir yolu layihəsinin tamamlanması, Azərbaycanla

Qazaxıstan və Türkmənistan arasında nəqliyyat imkanlarının genişləndirilməsi ilə birlikdə bu nəqliyyat dəhlizi genişlənmişdir. Bununla da Türkiyə Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticari əlaqələr qura bilmək üçün Rusiya və İrana alternativ yol əldə etmişdir. Məsələn, 2015-ci ildə Türkiyə ilə Rusiya arasında yaşanan məlum hadisələrdən sonra ortaya çıxan problemlər zamanı Türkiyənin Rusiyanın nəqliyyat yollarından istifadə edən yük maşınları Azərbaycanın yollarından istifadə etmişdir.

Azərbaycan–Rusiya münasibətləri: 1991-2016

*Fərhad Məmmədov**

Giriş

Azərbaycan və Rusiya unikal tarixə, mədəniyyətə, iqtisadi və siyasi xüsusiyyətlərə malik dövlətlərdir. Bununla belə, Azərbaycan və Rusiya xalqlarının taleyi təqribən iki yüz il ərzində bir-biri ilə əlaqəli olmuş və tarixi gerçəkliklər onlar arasında ortaq dəyərlərin formalaşması ilə nəticələnmişdir. Müasir dövrdə Azərbaycan–Rusiya münasibətləri hər iki dövlətin birgə səyləri sayəsində inkişaf etdirilərək mühüm mərhələyə qədəm qoymuşdur. Bu yaxınlaşmaya təkcə ikitərəfli əlaqələrin tarixi köklərə bağlılığı prizmasından deyil, həm də qlobal və regional səviyyədə cərəyan edən geosiyasi proseslər müstəvisindən yanaşılanda Bakı və Moskvanın indiki strateji əməkdaşlığının ilk növbədə zərurət və dövrün yeni çağırışlarına, təhdidlərinə birgə cavab olduğu aydın görünməkdədir.

Məlumdur ki, Cənubi Qafqaz, xüsusilə regionun lider dövləti olan Azərbaycan Respublikası da Rusiyanın siyasi, iqtisadi və təhlükəsizlik maraqları dairəsindədir. Rəsmi Moskva onu da anlayır ki, Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) dağılmasından sonra nəhəng siyasi-coğrafi məkan–Avrasiya sürətlə strateji maraqlar zonalarına bölünmüşdür. Həmin siyasi-iqtisadi makroregionların həssas mənafe sərhədləri isə Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan keçməkdədir. Təbii ki, Azərbaycan Respublikası, öz növbəsində, müstəqil xarici siyasət strategiyasında bu tendensiyanı da nəzərə almaqla dünya dövlətləri, xüsusilə yaxın qonşuları ilə sağlam münasibətlərin qurulmasında və möhkəmləndirilməsində istinad nöqtəsi olaraq ilk növbədə milli maraqları və ortaq mənafeləri əsas götürür. Bu fəaliyyət isə qarşılıqlı hörmət və anlaşma, hüquq bərabərliyi, qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə söykənir. Beləliklə, Azərbaycan və Rusiyanın öz qonşuları

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru, fəlsəfə üzrə fəlsəfə doktoru*

ilə münasibətlərinin tənzimlənməsinə yönəlik xarici siyasətlərində fərq onların milli mənafelərindən irəli gələn strategiyasındadır, ortaq xətt isə bu strategiyaların təmas nöqtələrinin müəyyən olunması və hər iki dövlətin mənafeləri ilə uzlaşdırılması imkanlarıdır. Ümummilli lider Heydər Əliyevin təbrincə desək: *"Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqalərdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir"*[1].

Vaxtilə Ümummilli lider Heydər Əliyev tarixi proseslərin düzgün dəyərləndirilməsində obyektivlik meyarının əhəmiyyəti haqqında demişdi: *"Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır"*[2]. Məhz obyektivlik müstəvisindən yanaşılanda son 25 il ərzində Azərbaycan Respublikası ilə onun şimal qonşusu – Rusiya Federasiyası arasında əməkdaşlığın keçdiyi yol şərti olaraq belə xarakterizə edilə bilər: 1990-cı illərin əvvəllərində münasibətlərdəki süni gərginliyə baxmayaraq, sürətlə təkamül prosesi keçərək strateji tərəfdaşlıq səviyyəsinə yüksələn əməkdaşlıq. Bu əlaqələr çətin sınaqlardan uğurla çıxmış, bir çox halda maraqlı qüvvələr tərəfindən nüfuz etdirilən stereotip və əsassız qarşılıqlı ittihamlar mərhələsini adlaya bilmişdir. İndiki reallıqların genezisi isə belədir: XX əsrin son onilliyində dünyanın siyasi xəritəsinin sürətlə dəyişməsi, ikiqütblü dünyanın fövqəlgüc mərkəzlərindən birinin – SSRİ-nin gözlənilən süqutu, vaxtilə bu birliyə "könüllü qoşulmuş" müttəfiq respublikaların, o cümlədən Azərbaycanın öz dövlət müstəqilliklərini elan edərək beynəlxalq birliyin bərabərhüquqlu üzvlərinə çevrilməsi, aralarında təqribən 70 il ərzində mövcud olan əlaqələrin pozulması və sürətlə fərdi milli maraqlarla əvəzlənməsi ilə nəticələnmiş, nəhəng coğrafi məkanda geosiyasi və geoiqtisadi vəziyyət radikal şəkildə dəyişmişdir.

1 Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin andiçmə mərasimində nitqi. - http://www.1990-1993.nakhchivan.az/and.htm

2 Müdrik fikirlər. - http://www.heydar-aliyev-foundation.org/az/content/index/85/

Həmin ziddiyyətli dövrdə Azərbaycan digər keçmiş SSRİ respublikaları ilə müqayisədə olduqca çətin vəzifələr və mürəkkəb problemlərlə üzləşmişdi. Belə ki, milli dövlətçiliyin möhkəmləndirilməsi, beynəlxalq əlaqələrin qurulması, iqtisadi tənəzzülün, sosial çətinliklərin aradan qaldırılması ciddi daxili və xarici təhdidlərlə, anarxiya, dövlətin idarə olunmasında təcrübəsizlik, siyasi qarşıdurmalar, ölkənin şimal və cənub bölgələrinə süni etnik separatizm meyillərinin nüfuz etdirilməsi, ən başlıcası isə Ermənistanın Azərbaycana qarşı təcavüzü, ərazilərin təqribən 20 faizinin işğalı ilə müşayiət olunmuşdu. Bu isə zəruri milli maraqların, o cümlədən təhlükəsizliyin və ərazi bütövlüyünün təminatında yeni xarici siyasətin qurulmasını, taktiki gediş və strateji hədəflərin müəyyənləşdirilməsini, dünya dövlətləri, xüsusilə qonşu dövlətlərlə bərabərhüquqlu və qarşılıqlı faydalı siyasi-iqtisadi və mədəni əməkdaşlığın yaradılmasını və möhkəmləndirilməsini tələb edirdi.

Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya ilə münasibətlərin Azərbaycanın xarici siyasətində mühüm yer tutduğunu dəfələrlə vurğulayaraq, onun qısa zaman kəsiyində özünün effektivliyini sübut etdiyini, böyük potensiala malik olduğunu, birgə səylər sayəsində strateji tərəfdaşlıq səviyyəsinə çatdığını bildirmişlər. Rusiya Prezidenti Vladimir Putin isə, öz növbəsində, hazırda bu əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini, zəngin və məhsuldar olduğunu bəyan etmişdir[3]. Onu da xatırladaq ki, hər iki postsovet respublikası arasında diplomatik münasibətlər 1992-ci ilin aprel ayının 4-də Bakıda imzalanmış müvafiq protokol əsasında yaranmışdır. Lakin real və sağlam ikitərəfli Azərbaycan–Rusiya strateji tərəfdaşlığının təməlində 1997-ci il iyul ayının 3-də bağlanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə", eləcə də 2001-ci, 2004-cü və 2008-ci illərdə imzalanan Bakı və Moskva bəyannamələri dayanır. Nəticədə 2008-ci ilədək olan mürəkkəb və ziddiyyətli əlaqələr tərəflər arasında dayanıqlı səmimi dostluq, açıq, səmərəli və konstruktiv qonşuluq münasibətləri ilə əvəzlənmişdir.

3 Azərbaycan–Rusiya münasibətləri – Putinin AZƏRTAC-a müsahibəsi. / 05.08.2016/ - http://azeri.press/siyaset/257943-azerbaycanrusiya-munasibetleri--putinin-azertaca-musahibesi--video.html

Azərbaycan Respublikası Prezidenti Administrasiyası (PA) rəhbərinin müavini, PA Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov "Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli" məqaləsində rəsmi Bakının qonşu dövlətlərlə bərabərhüquqlu münasibətlərin tənzimlənməsinə yönəldilən praqmatik xarici siyasət kursu barədə yazır: *"Azərbaycan qonşu dövlətlərlə təhlükəsizliyin təmini aspektində regional lider səviyyəsində münasibətlər qurmuşdur, enerji təhlükəsizliyi məsələsi ilə əməkdaşlığın digər sahələri arasında unikal harmoniya formalaşmışdır. Rusiya, İran və Türkiyə Azərbaycanla regional lider qismində əlaqələr qurur və bunu açıq etiraf edirlər. Bu əlaqələr qarşılıqlı faydalılıq prinsipi üzrə yaradılıb və təkmilləşdirilir. Azərbaycan diplomatiyasının regional qurumların yaradılmasındakı fəallığı hamıya məlumdur. Bu qurumların tərkibində aktiv iştirak edən ölkəmiz eyni zamanda ikitərəfli əlaqələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımlarını atmaqdadır"*. Müəllif həmçinin onu da bildirir ki, Rusiya ilə münasibətlərin dinamikası və əhatəliliyi, bütün sahələr üzrə əməkdaşlıq yüksələn xətt üzrə inkişaf etməkdədir. Azərbaycanın xarici siyasəti üçün əsas meyar regionun sabitliyi, təhlükəsizliyi və inteqrasiyası üçün çalışmaqdır[4].

Əlbəttə, bu gün Azərbaycan və Rusiya arasında münasibətlərdə müsbət tendensiya müşahidə olunsa da, hər iki tərəfi narahat edən və həllinə qarşılıqlı səylər göstərilən məsələlər hələ də qalmaqdadır. Həm rəsmi Bakı, həm də rəsmi Moskva transmilli cinayətkarlığın təzahürlərinə, terrorizmə, separatizm meyillərinə qarşı mübarizədə, regional təhlükəsizliyin təminatında zəngin potensiala malikdirlər. İqtisadi, mədəni və humanitar əlaqələrin genişləndirilməsi üçün də kifayət qədər imkanlar vardır. Müasir Rusiya başa düşür ki, Azərbaycan Respublikası ilə ikitərəfli əlaqələrin genişləndirilməsinə istiqamətləndirilən bütün səylərdə onun müstəqil siyasəti, özünümüdafiə və ərazi bütövlüyünün bərpası məsələləri – Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli nəzərə alınmalıdır.

Qeyd olunduğu kimi, Azərbaycan–Rusiya münasibətləri indiki yüksək səviyyəyə çatmazdan öncə mürəkkəb dövrdən keçməli

4 Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli. // "Xalq qəzeti", 9 may 2010-cu il, s.5-6. - http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm

olmuşdur. Müstəqilliyini yenicə bərpa etmiş dövlətin cəmi bir neçə il sonra Xəzərin neft-qaz ehtiyatlarının istismarı və nəqlinə dair transsərhəd layihələrin təşəbbüsçüsü kimi çıxış etməsi, Qərb və Rusiyanın geosiyasi mənafelərinin toqquşduğu məkan olmasına baxmayaraq, özünün milli maraqlarına cavab verən praqmatik xarici və iqtisadi siyasət yürütməsi uzun müddət rəsmi Moskvanın bəzi dairələrində "rəqabət" hissi oyatmış, onları Azərbaycana qarşı siyasi-iqtisadi xarakterli təzyiq vasitələrinə əl atmağa sövq etmişdir. Məsələn, münaqişənin başlandığı dövrdən etibarən Rusiya beynəlxalq hüquq normalarına zidd olaraq işğalçı Ermənistanı silah və sursatla təmin etmiş, Azərbaycanın şimal istiqamətində tranzit yükdaşımalarına, ticarət əlaqələrinə süni maneələr yaratmışdı və s. Eyni zamanda Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən etnik separatçı təşkilatlar fəallaşdırılmış, rəsmi Bakı əsassız bəhanələrlə Rusiyanın cənub ərazilərindəki qeyri-qanuni silahlı birləşmələrə yardım göstərməkdə ittiham olunmuşdu. Belə münasibət Azərbaycanda da analoji reaksiyaya – Rusiyanın "imperiya iddialarında", erməni separatizmini dəstəkləməkdə, süni iqtisadi maneələr yaratmaqda və s. təqsirləndirilməsinə səbəb olmuşdu[5]. Üstəlik, ötən əsrin 90-cı illərinin əvvəllərində məlum hadisələr – Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə rəsmi Moskvanın, xüsusilə Mixail Qorbaçovun loyal, bir çox halda isə açıq şəkildə qərəzli münasibəti, sovet qoşunlarının Bakıda və respublikanın digər bölgələrində törətdikləri qanlı Yanvar hadisələri, Azərbaycanın informasiya blokadasına alınması, Ermənistanda və Dağlıq Qarabağda baş vermiş olaylar – kütləvi qətllər, o cümlədən Xocalı soyqırımı haqqında Rusiya kütləvi informasiya vasitələrinin subyektiv və birtərəfli məlumat yayması kimi hallar yeni stereotiplərin yayılmasına imkan vermişdi.

Bu qarşıdurmaya isə məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində aydınlıq gətirilmişdi. Belə ki, 1996-cı ilin yanvar ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskvaya səfəri zamanı Rusiya tərəfinin təqdim etdiyi "ittiham faktları"nın araşdırılması üçün

5 Бахревский Е. "20 лет политических взаимоотношений России и Азербайджана. История и основные проблемы", Российско-Азербайджанские отношения за 20 лет (1991-2011). История и перспективы, Баку, 2011

Rusiya Federal Sərhəd Xidməti direktorunun müavini L.Kojevnikovun rəhbərliyi ilə komissiya yaradılmış, lakin qrupun istər quruda, istərsə də Xəzər dənizindəki hərbi obyektlərdə apardığı yoxlamalar nəticəsinlə bu iddialar – guya Azərbaycan Respublikası ərazisindən qonşu dövlətə terrorçuların keçirilməsi, Qafqazdakı qeyri-qanuni silahlı birləşmələrə silah-sursatın ötürülməsi və s. təsdiqini tapmamışdı[6]. Bundan başqa, Heydər Əliyev 2000-ci il yanvarın 9-da Türkiyəyə işgüzar səfəri ərəfəsində kütləvi informasiya vasitələri nümayəndələrinə verdiyi müsahibədə sabiq Rusiya rəhbərliyinin bu tipli "faktlarına" toxunaraq bir daha bildirmişdi ki, Azərbaycan qonşu dövlətin daxili işlərinə qətiyyən müdaxilə etmir: *"Ancaq təəssüf ki, Rusiyanın mətbuat orqanları, hətta rəsmi dairələri axır zamanlar bir çox əsassız bəyanatlar veriblər. Bu da bizi çox narahat edibdir… Çünki Rusiyanın mətbuat orqanları, rəsmi dairələri də bəzən çalışırlar sübut etsinlər ki, guya bu terrorçular, yaraqlılar Türkiyədən, başqa Şərq ölkələrindən gəlib Azərbaycandan, Gürcüstandan keçirlər və buradan silah-sursat keçirilir. Bu, tamamilə yalan sözdür, böhtandır, iftiradır. Heç bir belə fakt yoxdur"*[7].

Odur ki, deklarativ bəyanatlara deyil, real və konstruktiv əməkdaşlığa, ortaq maraqların müəyyən olunmasına, problemlərin qarşılıqlı fəaliyyət sayəsində aradan qaldırılmasına üstünlük verən rəsmi Bakı və Kreml hazırda praqmatik və konstruktiv mövqe nümayiş etdirərək ikitərəfli münasibətlərin normal inkişafı və möhkəmləndirilməsi, regional təhlükəsizliyin təminatına yönəldilən səylər üçün heç bir maneə görmürlər. Rəsmi Moskva Azərbaycan Respublikası ilə siyasi, iqtisadi və mədəni sahələrdə, regional təhlükəsizliyin təminatında, terrorizmə qarşı mübarizədə əməkdaşlığa daim hazır olduğunu bəyan etmiş, qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsində və möhkəmləndirilməsində maraqlı olduğunu bildirmişdir. Bundan başqa, Rusiya regional və transsərhəd layihələrin reallaşdırılmasında, problemlərin, o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində də fəaliyyətini artırmışdır.

6 Чернявский С. Новый путь Азербайджана. М.: Книга и бизнес, 2002

7 Heydər Əliyevin Türkiyəyə qısamüddətli işgüzar səfərə yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavabı./9 yanvar 2000-ci il/ - http://files.preslib.az/projects/toplu/v2/f3_10.pdf

Təsadüfi deyildir ki, Azərbaycanla Rusiya arasında dövlətlərarası siyasi münasibətlərin qurulmasının ilk günlərindən etibarən gündəliyə salınan başlıca məsələlər Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Xəzərin statusunun müəyyən edilməsi və dəniz akvatoriyasının sahil dövlətləri arasında bölünməsi, qarşılıqlı faydalı, investisiya layihələrinin icrası, bərabərhüquqlu iqtisadi əlaqələrin genişləndirilməsi, separatizm və transmilli cinayətkarlığa qarşı mübarizədə səylərin birləşdirilməsi, humanitar sahədə əməkdaşlığın möhkəmləndirilməsi və s. olmuşdur.

Azərbaycan–Rusiya münasibətlərinin tarixi

Hər iki dövlət arasında əlaqələrin möhkəmləndirilməsində əlverişli zəmin təkcə milli maraqlardan və praqmatik düşüncədən irəli gəlmir. Münasibətlərimizin yaxınlaşmasına imkan verən başlıca amillərdən biri xalqlarımızın çoxəsrlik birgəyaşayış tərzi, ortaq tarixi dəyərlər, mədəni və iqtisadi əlaqələrdir. Bu baxımdan hər iki dövlət arasında əlaqələrin tarixini bütövlükdə aşağıdakı mərhələlərə ayırmaq olar:

I. *Orta əsrlərdən XVIII əsrin sonunadək tarixi Azərbaycan ərazilərində mövcud olmuş milli dövlətlər və xanlıqlarla ayrı-ayrı rus knyazlıqları və sonralar Rusiya imperiyası arasında siyasi və iqtisadi əlaqələr;*

II. *XIX əsrin əvvəllərində Şimali Azərbaycan ərazilərinin Rusiya imperiyası tərəfindən işğalından sonra yaranmış qarşılıqlı münasibətlər və mədəniyyətlərin mübadiləsi;*

III. *Azərbaycan Xalq Cümhuriyyəti yaradılandan sonra rəsmi Bakının Rusiya ilə bərabərhüquqlu qonşuluq münasibətlərinin qurulmasına yönəlik səyləri;*

IV. *Sovet İttifaqının tərkibində olan Azərbaycan Sovet Sosialist Respublikası və Rusiya Sovet Federativ Sosialist Respublikası arasında münasibətlər;*

V. *SSRİ-nin süqutundan sonra müstəqil Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yaranması, möhkəmləndirilməsi və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi.*

Birinci mərhələ. Azərbaycan və Rusiya arasında əlaqələr qədim tarixi köklərə malikdir. Lakin bu münasibətlər dövlətlərarası deyil, xalqlararası əlaqələrin təməli üzərində qurulmuşdur. Məlumdur ki, Azərbaycan ərazisində qədim dövlətlərin, dövlətçilik ənənələrinin mövcud olduğu dövrlərdə Rusiya XVI əsrə kimi bir-biri ilə mənafe mübarizəsi aparan vassal knyazlıqlardan ibarət idi. Bununla belə, mədəni və ticari əlaqələr davamlı şəkildə inkişaf etdirilirdi. Məsələn, həmin əlaqələr haqqında məlumatlara Nizami Gəncəvinin, Seyid Əzim Şirvaninin, Afanasi Nikitinin, Mixail Lermontovun, Bestujev-Marlinskinin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Kazımbəyin əsərlərində, Səfəvilər dövləti və Rusiya imperatorluğu başçılarının rəsmi yazışmalarında, səyyahların yol qeydlərində, folklor nümunələrində və s. rast gəlirik. Onu da xatırladaq ki, Nizami Gəncəvi "Yeddi gözəl" əsərində slavyan gözəlini vəsf etmiş, Mixail Lermontov isə bütövlükdə Qafqaz ərazisində Azərbaycan dilinin yerli xalqlar arasında əsas ünsiyyət vasitəsi olduğunu bildirmişdir. Bu gün Rusiyanın Ermitaj, Silah Palatası kimi dünya şöhrətli muzeylərini XIX əsrdə Azərbaycandan qənimət kimi aparılan xalq tətbiqi sənəti nümunələri bəzəməkdədir. Rusiyalı tədqiqatçı Mariya Myankina ölkələrimiz arasında tarixi əlaqələrdən bəhs edərkən belə bir faktı misal çəkir: *"Tarixi mənbələrə əsasən, hələ VII-XII əsrlərdə Rusiya və Azərbaycan tacirləri arasında sıx əlaqələr olmuş, qarşılıqlı mal mübadiləsi edilmişdir. 1563-cü ildə Çar İvan Qroznı azərbaycanlı tacirlərin Moskvada, Həştərxanda, Kazanda və Rusiyanın digər şəhərlərində yaşaması və ticarət etməsinə icazə verilməsi barədə fərman vermişdir. Sonrakı dövrlərdə Azərbaycan tacirləri Rusiyanın, demək olar ki, bütün ərazilərində ticarət fəaliyyəti ilə məşğul olmuş və bu da dövlətlərarası münasibətlərdə mühüm rol oynamışdır"*[8]. Səfəvi və Rusiya xanədanları arasında iqtisadi və siyasi münasibətlərin genişlənməsi əsasən XVI əsrə təsadüf edir. Əgər bu əlaqələri şərtləndirən əsas amillər sırasında həmin dövrlərdə Səfəvi dövlətinin Yaxın və Orta Şərqin böyük hissəsini əhatə etmiş regiona hakim olmasını, getdikcə güclənən Rusiyanın isə cənubda yerləşən dənizlərə və Hindistana doğru uzanan ticarət yollarına maneəsiz çıxmaq

8 Мнякина М. Эволюция российско-азербайджанских отношений: успехи и проблемы. //Вестник Челябинского государственного университета, № 40 / 2009

səylərini vurğulayırıqsa, digər tərəfdən bu əlaqələrə hakim Səfəvilər və Rürixlər sülalələri arasında yaranan şəxsi münasibətlər də müsbət təsir göstərmişdir.

İkinci mərhələ. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində getdikcə güclənən Rusiya imperiyası öz ərazilərini hərbi güc tətbiq etməklə genişləndirmək və bununla da Cənubi Qafqaza, o cümlədən tarixi Azərbaycan ərazilərinə iddialı olan rəqiblərini zəiflətmək məqsədilə genişmiqyaslı işğalçılıq planlarının gerçəkləşdirilməsinə başlamışdı. Hələ XVIII əsrdən etibarən Cənubi Qafqazın qəsb olunması planı Rusiya üçün həm siyasi, həm hərbi-strateji, həm də iqtisadi baxımdan olduqca əhəmiyyətli idi və dəfələrlə buna hərbi cəhdlər edilmişdi. Xatırladaq ki, XVIII əsrin əvvəlindən etibarən Şimali Azərbaycan ərazilərinin daxil olduğu Səfəvi dövlətində yaranmış siyasi və iqtisadi böhran təkcə onun beynəlxalq əlaqələrinə deyil, hərbi gücünə və daxili vəziyyətinə də mənfi təsir göstərmişdi. Sonralar – 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra bu böhran daha da dərinləşmiş, aramsız daxili çəkişmələr və saray çevrilişləri nəticəsində mərkəzi hakimiyyət zəifləmiş və dövlətdə mərkəzdənqaçma meyli yaranmışdı. Bu proseslər böyük bir dövlətin parçalanması və müstəqil və ya nominal müstəqilliyə malik xanlıqların yaranması ilə nəticələnsə də, bütövlükdə Azərbaycan ərazilərinin genişmiqyaslı işğal aktı üçün əlverişli şərait formalaşdırmışdı[9].

1801-ci il sentyabrın 1-də Rusiya imperatoru I Aleksandr Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında manifest imzalamışdı. Manifestə əsasən, Gürcüstanın şərq hissəsi ilə birlikdə Azərbaycanın Qazax, Borçalı, Şəmşəddil və Pəmbək əraziləri də imperiyanın tərkibinə qatılmışdı. Bununla da Azərbaycan torpaqlarının Rusiya tərəfindən sürətlə işğal edilməsinə əlverişli zəmin yaranmışdı. Bir il sonra, yəni 1802-ci il dekabrın 26-da isə Rusiya imperiyası ilə Quba, Dərbənd, Lənkəran xanları, Tarku şamxalı və Qaraqaytaq usmisi arasında Georgiyevsk müqaviləsi imzalandı. Həmin sənədin şərtlərinə görə, müqaviləyə qoşulan tərəflər Rusiyanın himayəsinə daxil olmaqla İrana qarşı hərbi

9 Babaşov M. XIX əsrdə Çar Pusiyasının Azərbaycanda yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinin mahiyyəti. // Journal of Qafqaz University, Fall 2002, Number 10, s.39-51. - http://journal.qu.edu.az/article_pdf/1030_339.pdf

ittifaqa qoşulmalı, Rusiyanın Cənubi Qafqazda ticarət fəaliyyətinin genişlənməsində, Xəzər dənizində gəmilər vasitəsilə yükdaşımaların inkişafında iştirak etməli idilər.

Rusiyanın növbəti hədəfi strateji cəhətdən qoşunların Azərbaycanın içərilərinə doğru irəliləməsinə əngəl olan Car-Balakən əraziləri idi. 1803-cü ilin martında general Qulyakovun başçılığı ilə rus ordusu Car-Balakənə hücum etdi. Qanıx çayı sahilində baş vermiş ağır döyüşdən sonra Balakəni ələ keçirmiş ruslar həmin il aprel ayının 12-də Tiflisdə Car-Balakən camaatlığı ilə "Andlı öhdəlik" adlı saziş imzaladılar. Sazişə əsasən, əhali Rusiya xəzinəsinə ipəklə xərac ödəməli, imperiyaya sədaqət əlaməti olaraq girov verməli və Car-Balakən ərazisində rus qoşunları yerləşdirilməli idi. 1804-cü il yanvarın 3-də isə qeyri-bərabər qanlı döyüşlər nəticəsində Gəncə işğal edilmiş, Cavad xan və oğlu Hüseynqulu xan qətlə yetirilmiş, şəhərə "Yelizavetpol" adı verilmişdi.

1805-ci il mayın 21-də Şəki xanlığı, dekabrın 27-də Şamaxı xanlığı Rusiya hakimiyyətini qəbul etmiş və bununla da Bakıya yol açılmışdı. Şimal istiqamətindən irəliləyən rus ordusu 1806-cı ilin iyununda Dərbəndi, oktyabr ayında Bakını, az sonra isə Quba xanlığını işğal etmişdi. 1813-cü ildə – Birinci Rusiya–İran müharibəsi başa çatdıqdan sonra Qarabağın Gülüstan kəndində iki dövlət arasında imzalanmış müqaviləyə əsasən, Azərbaycanın tarixi torpaqları parçalanmış, Quba, Bakı, Gəncə, Qarabağ, Lənkəran, Şirvan və Şəki xanlıqları Rusiya imperiyasının tərkibinə daxil edildi. 1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsi isə İrəvan və Naxçıvan xanlıqlarının işğalı faktını qanuniləşdirdi. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqları ləğv edildi, onların ərazisində qondarma "Erməni vilayəti" yaradıldı.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra imperiya bölgənin siyasi, iqtisadi və mədəni həyatını tamamilə nəzarət altına almaq məqsədilə bütün potensialını səfərbər etmişdi. Bütövlükdə Cənubi Qafqazın Rusiya tərəfindən işğalı regionun etnik mənzərəsini də əsaslı şəkildə dəyişmiş, İran və Türkiyə ərazisindən köçürülən yüz minlərlə erməni Cənubi Qafqazda, eləcə də tarixi Azərbaycan torpaqlarında, o cümlədən Qarabağda məskunlaşdırılmışdı. Bununla yanaşı, Rusiya imperiyasının tərkibinə daxil edilən Azərbaycan torpaqlarında yeni

inzibati-ərazi vahidləri – quberniya və qəzalar yaradılmış, aparılan sosial və iqtisadi islahatlar nəticəsində kənd təsərrüfatı inkişaf etdirilmiş, şəhərlər böyümüş, urbanizasiya prosesi sürətlənmiş, neft sənayesinin təməli qoyulmuş, dəmir yolu şəbəkəsi fəaliyyətə başlamışdı. Şimali Azərbaycan Rusiyanın tərkibində olduğu müddətdə – XIX əsrin 50-60-cı illərindən etibarən ölkə kapitalizmin coşqun inkişaf yoluna qədəm qoydu. Xammal istehsal edən sahələrdə və dağ-mədən sənayesində, neft, ipək, mis emalı sahələrində fabrik-zavod istehsalı meydana gəldi. 1859-cu ildə Suraxanıda rus kapitalistləri Kokorev və Quboninin ilk ağ neft emalı zavodu, 1861-ci ildə Pirallahıda Vittenin parafin zavodu, Nuxada *(Şəkidə)* Avropanın ən böyük ipək fabriki, 1863-cü ildə Cavad Məlikovun ağ neft zavodu, 1865-ci ildə Simens qardaşlarının Gədəbəydə misəritmə zavodu, Daşkəsəndə isə kobalt zavodu fəaliyyətə başladı[10].

XIX əsrin II yarısında kapitalizmin sürətli inkişafı ümumi bazarın yaranması, iqtisadi və mədəni mərkəzlərin meydana gəlməsi, cəmiyyətin strukturunun dəyişməsinə şərait yaratdı. Rus mədəniyyəti vasitəsilə qabaqcıl Avropa mədəniyyətinin, təhsil, elm və incəsənətinin, maarifçilik ideyalarının nüfuz etməsi sayəsində Azərbaycan müsəlman Şərqində intellektual mərkəzlərdən birinə çevrilmiş, burada ilk dəfə olaraq milli dramaturgiya yaradılmış, teatr və opera sənətinin təməli qoyulmuşdu.

Üçüncü mərhələ. 1917-ci ildə baş vermiş bolşevik inqilabı nəticəsində Rusiyada çarizm rejiminin süqutu və imperiyanın parçalanmasından sonra Azərbaycanda da milli azadlıq hərəkatı geniş vüsət aldı. O dövrün aparıcı ziyalıları və milli burjuaziya içərisindən çıxmış liderlər milli dövlətçilik uğrunda ümumxalq hərəkatının önündə gedərək 1918-ci il mayın 28-də Şimali Azərbaycan ərazisində Şərqin ilk dünyəvi və demokratik dövlətinin – Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına nail oldular. Minillik tarixə malik milli dövlət quruculuğunun yenidən bərqərar olması Azərbaycan xalqının tarixi yaddaş salnaməsinin parlaq səhifələrindən biri oldu. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması həmin mürəkkəb ictimai-siyasi hadisələr fonunda Azərbaycan xalqının, eləcə də bu xalqın tərkib hissəsi olan bütün etnik qrupların vahid vətən naminə milli oyanışının məntiqi yekunu idi. Milli oyanış hissi dünyanın,

10 Сумбатзаде А. Промышленность Азербайджана в XIX в. Баку, 1964

eləcə də Rusiyanın aparıcı universitetlərində təhsil almış, demokratik dəyərlərə yiyələnmiş milli ruhlu Azərbaycan əsilli ziyalılar nəslinin yetişməsinə şərait yaratdı.

Beləliklə, müsəlman Şərqində ilk parlament respublikası qədim dövlətçilik ənənələrindən, Azərbaycanda yaşayan xalqların tarixən formalaşmış birgəyaşayış normalarından, ortaq mənəvi-mədəni dəyərlərindən qaynaqlanaraq çoxmillətli və çoxmədəniyyətli dövlətin təməlini qoymuşdu. Məsələn, Azərbaycan parlamentinə seçilən deputatlar arasında Slavyan-Rus İttifaqı fraksiyasının nümayəndələri Viktor Klanevski, Vasili Kravçenko, Sergey Remizov və Fyodor Kotılevski də vardı. Bundan başqa, İ.Protasov maliyyə naziri, K.Lizqar ərzaq naziri, V.Klanevski isə sosial təminat naziri təyin olunmuşdular.

Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının Bəyannaməsində elan olunmuş "bütün dövlətlər, xüsusilə həmsərhəd dövlətlərlə dostluq əlaqələrinin qurulması" prinsipi milli hökumətin xarici siyasət strategiyasının prioritet istiqamətini təşkil edirdi. Bu prinsipdə qonşu dövlətlərlə sülh, qarşılıqlı anlaşma və əməkdaşlıq şəraitində yaşamaq, onların suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaq təsbit olunurdu. Lakin o da təəssüflə qeyd olunmalıdır ki, gənc respublikanın bütün səylərinə baxmayaraq, bolşevik Rusiyası Azərbaycanı müstəqil dövlət olaraq tanımamış, onun suverenliyi və milli maraqlarına zidd və rəsmi Bakı üçün qeyri-məqbul tələblər irəli sürməkdə, ərazilərini Rusiya dövlətinin tərkib hissəsi kimi görməkdə davam etmişdir. Halbuki 1919-cu il dekabrın 26-da keçirilmiş parlament iclasında Baş nazir Fətəli xan Xoyski respublikanın əsas vəzifəsinin məhz dövlət müstəqilliyinin möhkəmləndirilməsi olduğunu birmənalı şəkildə vurğulayaraq demişdir: *"Azad Azərbaycan Rusiya ərazisində yaranmış dövlətlərlə, eləcə də Mərkəzi Rusiyanın özü ilə sıx əlaqələr qurmalıdır və yəqin ki, belə də olacaqdır"*[11].

Lakin Azərbaycan Xalq Cümhuriyyəti və bolşevik Rusiyası münasibətləri məsələsində hökumətin iki üzvü – Fətəli xan Xoyski ilə daxili işlər naziri Məmmədhəsən Hacınski və onların tərəfdarları arasında

11 Мамедзаде Н. Взаимоотношение Азербайджанской Республики со славянскими странами СНГ и восточной Европы. Баку, 2006

yaranan qarşıdurma Azərbaycanın qonşu dövlətlərlə əlaqələrinin qurulmasında fikir ayrılığına səbəb olmuşdu. Belə ki, Fətəli xan Xoyski ölkədə güclü hakimiyyətin formalaşdırılması vasitəsilə Rusiya ilə bərabərhüquqlu qonşuluq münasibətlərinin yaradılmasını tələb etsə də, əks tərəf Rusiya təmayüllü siyasi qüvvələrlə birləşərək Nəsib bəy Usubbəyov hökumətini istefa verməyə məcbur etdi. Yeni hökumət kabinetinin təşkili M.Hacınskiyə tapşırıldı. Dərhal bolşeviklərlə əlaqəyə girən Məmmədhəsən Hacınski onlara öz hökumətində nazir vəzifələri təklif etdi və hətta bolşeviklər partiyasına daxil olmağa hazır olduğunu bildirdi[12]. Bununla da milli hökumətin zəifləməsi və siyasi maraqlar zəminində parçalanması prosesi sürətləndirildi.

Dördüncü mərhələ. Gənc respublika xarici təhdidlərə və daxili çəkişmələrə cəmi 23 ay müqavimət göstərə bildi. XI Qızıl Ordunun işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etmiş, 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulmuş və ölkə yenidən Rusiyanın siyasi və iqtisadi maraqları çərçivəsinə daxil edilmişdi. İlk dövrlərdə bolşeviklər "Azərbaycanın dövlət müstəqilliyi" şüarı altında çıxış edərək yeni "suveren respublika"nın xarici ölkələrlə iqtisadi, ticarət və diplomatik əlaqələr qurmaq, öz silahlı qüvvələrini yaratmaq hüququna malik olduğunu bildirsələr də, bu, tamamilə formal xarakter daşıyırdı. Azərbaycan 1922-ci ildən 1936-cı ilədək Ermənistan və Gürcüstanla birlikdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının, 1936-cı ildən isə müttəfiq sovet sosialist respublikası qismində SSRİ-nin tərkibinə daxil edilmişdi. Rus dili Azərbaycanda da dövlət dili elan olunmuş, "milli kadrların çatışmazlığı" bəhanəsi ilə ölkəyə kənardan mütəxəssislər gətirilmiş, hökumətin tərkibi əsasən azərbaycanlılardan ibarət olduğu halda, rəhbər orqanlara başqa millətlərdən olan kadrlar təyin edilmişdi. Sovet hakimiyyəti illərində digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da yerli əhalinin etnik və dini identikliyini aradan qaldırmaq, onların mədəniyyətini, tarixini təhrif etmək məqsədilə genişmiqyaslı mənəvi-ideoloji fəaliyyət həyat keçirilsə də, bu, ciddi müqavimətlə üzləşmişdi. Azərbaycana yalnız "xammal bazası" kimi yanaşan mərkəzi

12 Ömərov V. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu. /19.11.2012/- http://sia.az/ru/news/fashion/321660

hökumətin həyata keçirdiyi bolşevik repressiyaları nəticəsində on minlərlə ziyalı – mədəniyyət, incəsənət və elm xadimi saxta ittihamlarla məhv edilmişdi. Azərbaycan xalqı dəfələrlə öz tarixi ərazilərindən sürgün olunmaq təhlükəsinə məruz qalmışdı. Məhz sovet hakimiyyəti illərində xarici ölkələrdən ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin üçüncü dalğası baş vermiş, Ermənistan SSR-də yüz minlərlə etnik azərbaycanlı öz tarixi torpaqlarından qovulmuşdu. Halbuki İkinci Dünya müharibəsi illərində Azərbaycan SSR nəinki ön və arxa cəbhənin yanacaq və sürtkü materialları, ərzaq və sursatla təminatında müstəsna rol oynamış, üstəlik, təqribən 700 min nəfər sovet ordusu sıralarına çağırılaraq döyüş əməliyyatlarında fəal iştirak etmişdi.

Bununla belə, XX əsin 20-ci illərinin ikinci yarısından etibarən Azərbaycanda da sənaye və kənd təsərrüfatı sürətlə inkişaf etməyə başlamış, Bakıda neft hasilatı yeni vüsət almışdı. Tezliklə SSRİ Azərbaycanın "qara qızıl"ı hesabına neft istehsalı üzrə dünyada ikinci yerə çıxmışdı. Eyni zamanda Gəncədə toxuculuq kombinatı, Gəncə, Ucar və Yevlaxda pambıqtəmizləmə zavodları, Lənkəran və Ordubadda konserv zavodları, Şəki, Xankəndi, Zaqatala, Salyan və Füzulidə istilik və su elektrik stansiyaları tikilib istifadəyə verilmişdi. Ötən əsrin 20-30-cu illərində Bakı–Batumi neft kəmərinin, Ələt–Culfa dəmir yolu xəttinin çəkilişi tamamlanmış, 1926-cı ildə SSRİ hüdudlarında ilk dəfə Bakıda elektrik dəmir yolu xətti istismara buraxılmışdı.

Azərbaycan SSRİ-nin tərkibində olarkən onun iqtisadiyyatı əksər sahələr üzrə sürətlə və kompleks inkişaf etdirilmiş, güclü sənaye potensialı yaradılmışdı. Təkcə ötən əsrin 80-ci illərinin ortalarında ittifaq üzrə neft-mədən avadanlıqları istehsalının 70%-i, elektrik qaynaq avadanlıqlarının 10,5%-i, kaustik sodanın 7,8%-i, şərab və şərab məhsullarının 1/3 hissəsindən çoxu, məişət kondisionerlərinin hamısı, soyuducuların 5,7%-i, pambıq ipliyinin 9,6%-i, ipək xammalının 11,7%-i və s. Azərbaycanın payına düşürdü. Azərbaycan SSR-in vəsaiti və buradan göndərilən xammalla işləyən bir çox müəssisələr Ukrayna, Rusiya və digər respublikalarda fəaliyyət göstərirdi. Keçən əsrin 80-ci illərində Azərbaycan SSR-dən ittifaq fondu üçün ayrılan sənaye və kənd təsərrüfatı məhsulları Azərbaycana gətiriləndən hər il orta hesabla 2,0

milyard rubl çox olmuşdu[13].

Mədəni quruculuq və təhsil sahəsində irimiqyaslı tədbirlərin həyata keçirilməsi sayəsində kütləvi savadsızlıq ləğv olunmuş, ümumtəhsil sistemi formalaşmışdı. Təkcə XX əsrin 30-cu illərinin sonlarında Azərbaycandakı 3.575 ümumtəhsil məktəbində 655 min şagird biliklərə yiyələnirdi. 1920-ci ildə Bakı Politexnik İnstitutu, bir il sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu, Azərbaycan Dövlət Konservatoriyası, 1929-1940-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Tibb İnstitutu, Sənaye Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu, Xalq Təsərrüfatı İnstitutu, Şəkidə, Gəncədə və Naxçıvanda pedaqoji institutlar və s. yaradılmışdı.

Beşinci mərhələ. 1987-ci ildə Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun "yenidənqurma" siyasəti dörd il sonra mövcud kommunist rejiminin, kommunizm ideologiyasının iflasına, son nəticədə SSRİ-nin süqutuna səbəb oldu. Sovet İttifaqının fövqəldövlət olaraq dünya xəritəsindən silinməsi bütün müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda mərkəzdənqaçma meyillərinə təkan vermişdi. Milli-demokratik hərəkatın vüsət alması, geniş xalq kütlələri ilə dəstəklənməsi Azərbaycanın öz dövlət müstəqilliyinin bərpası ilə nəticələnmişdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Sovet Sosialist Respublikasının Ali Soveti Azərbaycanın istiqlaliyyəti barədə Konstitusiya Aktını qəbul etdikdən sonra dünyanın siyasi xəritəsinə "Azərbaycan Respublikası" adlı müstəqil, demokratik, dünyəvi, hüquqi dövlət daxil edilmişdir. 1992-ci il aprelin 4-də Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlərin qurulmasına dair protokol imzalanmış, elə həmin il Azərbaycanın Rusiyada, Rusiyanın isə Azərbaycanda səfirlikləri öz fəaliyyətlərinə başlamışdır. Bununla da Azərbaycanın digər dövlətlər, o cümlədən şimal qonşusu Rusiya ilə tarixi münasibətlərinin inkişafında və möhkəmləndirilməsində, xalqlarımız arasında mədəni əməkdaşlığın daha da genişləndirilməsində növbəti mərhələ başlamışdır.

13 Azərbaycan iqtisadiyyatı. /26.07.2016/ - http://azerbaijan25.az/2016/07/25/az%C9%99rbaycan-iqtisadiyyati/

Azərbaycan–Rusiya münasibətləri müasir dövrdə

Artıq 25 ildir həm Azərbaycan Respublikası, həm də Rusiya Federasiyası yaxınlaşmaya doğru praqmatik və konstruktiv səylər nümayiş etdirirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" televiziya kanalına verdiyi müsahibədə dövlətimizin qonşuları, xüsusilə Rusiya ilə münasibətdə açıq, səmimi və müstəqil siyasət yürütməsinə və bu siyasətin məqsəd və vəzifələrinə toxunaraq bildirmişdir: *"Biz mümkün qədər çox sayda ölkə ilə fəal qarşılıqlı əlaqə yaratmaq əzmindəyik. Məsələn, son dövrün mühüm məqamlarından biri kimi Azərbaycanın Qoşulmama Hərəkatı təşkilatına daxil olmasını qeyd etmək istərdim. Hesab edirəm ki, bu, çox vacib, lazımlı, vaxtında atılmış və əlamətdar addımdır. Bununla biz ilk növbədə özümüzün dünya üçün açıq olmağımızı vurğulayırıq, çünki həmin təşkilatda çoxlu sayda ölkələr birləşir. Digər tərəfdən, biz dünyadakı gələcək proseslərdə Azərbaycanın mövqeyini vurğulayırıq"*[14].

Mütəxəssislərin ümumi qənaətinə görə, dövlət müstəqilliyinin ötən 25 ili ərzində Azərbaycan və Rusiya arasında münasibətlərin "mürəkkəbdən sadəyə" yönəlik dialektikasını və məzmununu aşağıdakı mərhələlər üzrə bölmək olar:

1. ***Ziddiyyətlər dövrü*** *– dövlət müstəqilliyinin bərpasından – 1991-ci ilin aprel ayından 1993-cü ilin oktyabr ayınadək.*
2. ***Konstruktiv dialoqun başlanması*** *– 1993-cü ilin oktyabrından 2001-ci ilin yanvarınadək.*
3. ***Qarşılıqlı faydalı əməkdaşlıq və ortaq maraqların müəyyən olunması mərhələsi*** *– 2001-ci ilin yanvarından 2008-ci ilin iyul ayınadək.*
4. ***Strateji tərəfdaşlıq mərhələsi*** *– 2008-ci ilin iyul ayından bu günədək.*

Qeyd edildiyi kimi, 1991-1993-cü illər hər iki dövlət arasında münasibətlərin ən mürəkkəb mərhələsi olmuşdur. Bu ziddiyyətləri

14 İlham Əliyev "Rossiya-24" telekanalına müsahibə vermişdir. / 25 dekabr 2012-ci il/ - http://www.president.az/articles/6938

şərtləndirən amillərin bir hissəsi ortaq xarakterə malik idi. Məsələn, digər respublikalar kimi, həm Rusiya, həm də Azərbaycan SSRİ-nin süqutundan sonra ağır sosial-iqtisadi və siyasi problemlərlə üzləşmişdilər. Müttəfiq respublikaların qarşılıqlı asılılığı prinsipinə söykənən sovet daxili iqtisadi münasibətlərinin, daxili və xarici bazarın dağılması nəticəsində Azərbaycanın və Rusiyanın sənaye və kənd təsərrüfatı, maliyyə sistemi tamamilə çökmüş, mürəkkəb sosial problemlər ictimai-siyasi vəziyyəti kəskinləşdirmişdi. Digər tərəfdən, bu respublikalarda təqribən 70 il ərzində əsas səfərbəredici və birləşdirici funksiyaya malik olan kommunizm ideologiyasının iflası nəticəsində yaranmış ideoloji vakuum xaricdən alternativ və bir çox halda destruktiv xarakterə malik zərərli ideyaların, dini-siyasi hərəkatların nüfuz etdirilməsinə, buna hazır olmayan cəmiyyətin ideoloji baxımdan parçalanmasına gətirib çıxarmışdı. Hər iki gənc dövlət siyasi-iqtisadi problemlərlə yanaşı, daxili təhdidlər – xaricdən idarə olunan etnik separatizm meyilləri ilə üzləşmişdi. Ən başlıcası isə Azərbaycanda və Rusiyada siyasi tələblər, siyasi romantizm ab-havası və təcrübəsiz kadrlar heyəti ilə hakimiyyətə yiyələnən qüvvələrin təklif vermək, real fəaliyyət göstərmək iqtidarına, idarəçilik təcrübəsinə malik olmamaları idi. Dövlətlərarası münasibətlərin ilkin mərhələsinin qarşılıqlı etimadsızlıq və inamsızlıq həddinə çatdırılmasında hər iki dövlətə rəhbərlik edən populist siyasi qüvvələrin də eyni səviyyədə məsuliyyət payı vardı.

Həmin dövrdə münasibətlərə mane olan yeni stereotip və meyillər də yaranmışdı. Belə ki, 1992-1993-cü illər Azərbaycan tarixinə hərc-mərclik, özbaşınalıq, xaos dövrü kimi daxil olmuşdur. Həm ölkə daxilində cərəyan edən proseslər – iqtisadiyyatın tənəzzülü, sosial problemlərin kəskinləşməsi, ictimai-siyasi sabitliyin pozulması, həm də xaricdən davamlı təzyiqlər Azərbaycanın dövlət müstəqilliyinə ciddi təhlükələr yaratmışdı. AXC-Müsavat hakimiyyəti bu təhdidləri aradan qaldırmaq üçün zəruri tədbirlər görmək iqtidarında deyildi. Onlar qonşu dövlətlər, xüsusilə Rusiya Federasiyası ilə münasibətlərin inkişafında maraqlı deyildilər. Bu mürəkkəb dövrdə rəsmi Bakı üzləşdiyi bütün siyasi, sosial, iqtisadi və maliyyə problemlərindən, xüsusilə Dağlıq Qarabağ ətrafında yaranan hərbi münaqişədən, ölkənin şimal və cənub bölgələrinə nüfuz

etdirilmiş süni separatizm meyillərindən xilas yolunu yalnız Qərbə inteqrasiyada axtarır, həmin çətinliklərin baiskarları simasında sovet rejimini və özünü SSRİ-nin hüquqi varisi elan etmiş Rusiyanı görürdü. Rusiyanın regionda istənilən fəaliyyəti isə Sovet İttifaqının bərpasına yönəldilən geosiyasi fəaliyyət kimi dəyərləndirilirdi. Xatırladaq ki, digər respublikalar kimi, Azərbaycan da hələ 1991-ci ildə belə cəhdlə üzləşmiş, həmin il iyun ayının 27-də yerli Ali Sovet Azərbaycanın yeni birliyə – "Suveren Dövlətlər İttifaqı haqqında Müqavilə"yə qoşulmaq barədə qərar qəbul etmişdi. Yeni ittifaq müqaviləsinin imzalanması isə yalnız Moskvadakı "Avqust qiyamı" nəticəsində baş tutmamışdı. Azərbaycanı Rusiyanın geosiyasi və geoiqtisadi maraq dairəsində axtaran rəsmi Moskva isə AXC-Müsavat hakimiyyətinin yürütdüyü siyasəti özünə təhdid mənbəyi kimi dəyərləndirmiş və fərqli ittihamlarla çıxış etmişdi. Bununla belə, gələcək normal və davamlı pozitiv münasibətlərin qurulmasında, gələcəkdə daha da inkişaf etdirilməsində həmin ziddiyyətli mərhələnin də müəyyən dərəcədə müsbət təsiri olmuşdu. Belə ki, münasibətlərə xələl gətirə bilən daxili və xarici problemlərə, həssas məqamlara məhz həmin dövrdə aydınlıq gətirilmişdi. Eyni zamanda siyasi ziddiyyətlərə baxmayaraq, Azərbaycan həm Rusiyadan, həm də Müstəqil Dövlətlər Birliyindən kənar mövqe tutmağa çalışsa da, qarşılıqlı ittihamlar xalqların tarixi yaxınlığına və ünsiyyət meyillərinə mane ola bilməmişdi[15].

Lakin o da etiraf olunmalıdır ki, 1991-1995-ci illərdə Azərbaycanla Rusiya arasındakı münasibətlərdə qarşılıqlı etimadsızlığın yaranmasının bir səbəbi də şimal qonşumuzun bəzi siyasi dairələrinin Azərbaycanın dövlətlərarası əməkdaşlığa hazır olmasına inamsızlığı və süni stereotiplərin siyasi dövriyyəyə buraxılması idi. Nəticədə rəsmi Bakını öz geosiyasi təsir dairəsində saxlamaq məqsədilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ilkin fazalarında işğalçı tərəf müdafiə olunur və silahlandırılır, Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən separatçı qruplaşmalar həvəsləndirilir, tranzit yükdaşımalara süni maneələr yaradılırdı və s. Təbii ki, qarşı tərəf də rəsmi Moskvanı

15 Пашаева Г. "Азербайджан-Россия. Гуманитарное сотрудничество как фактор стратегического партнерства", Российско-Азербайджанские отношения за 20 лет (1991-2011). История и перспективы, Баку, 2011

imperiya ərazilərini bərpa etmək niyyətində təqsirləndirirdi.

Yuxarıda göstərildiyi kimi, Azərbaycan və Rusiya arasında sağlam qonşuluq münasibətlərinin konstruktiv əsaslar üzərində qurulması, qarşılıqlı faydalı əməkdaşlıq və ortaq maraqların müəyyən olunması mərhələləri bilavasitə Ümummilli lider Heydər Əliyevin siyasi və diplomatik fəaliyyəti, onun zəngin dövlətçilik təcrübəsi ilə bağlıdır. Məhz Heydər Əliyev siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra 1990-cı illərin əvvəlində hər iki tərəf "bolşevik maksimalizmi" sayəsində yaranan soyuqluq və etimadsızlığı tədricən aradan qaldırmağa, münasibətləri normallaşdırmağa nail olmuşdu. Heydər Əliyev deyirdi: *"Xalq Cəbhəsi antirusiya siyasəti yürüdür, Rusiya və Azərbaycan arasında yaxınlaşmanın baş verməməsi üçün bütün yollara əl atırdı. Görünür, bu, Moskvanı da qane edirdi. Siz mənim Rusiyaya münasibətimi bilirsiniz. Azərbaycan həm iqtisadi, həm mədəni, həm də geosiyasi baxımdan Rusiyaya bağlıdır. Biz təkcə qonşu deyilik, bizim ümumi tariximiz var. Mən təkrar edirəm: Rusiya ilə indiki münasibət məni qane etmir və əminəm ki, bu vəziyyət mütləq dəyişəcəkdir"*[16]. Sonralar Rusiya Prezidenti Vladimir Putin Rusiya–Azərbaycan münasibətlərinin yüksək səviyyəyə qaldırılmasında Heydər Əliyevin tarixi rolu haqqında bunları demişdir: *"Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir"*[17]. Bu baxımdan, Rusiya Federasiyası xarici işlər nazirinin birinci müavini olmuş Vyaçeslav Trubnikovun da fikirləri maraqlıdır: *"Rusiya üçün Heydər Əlirza oğlu Əliyev tarixə XXI əsrdə hərtərəfli Azərbaycan–Rusiya münasibətlərinin, iki dövlətin strateji tərəfdaşlığının möhkəmlənməsinin əqidəli və fəal tərəfdarı kimi daxil olmuşdur"*[18].

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin hər iki dövlət arasında münasibətlərin normallaşmasında lider amilinin əhəmiyyətini vurğulayaraq qeyd edir

16 Адрианов В., Мираламов Г. Гейдар Алиев. Москва: Молодая Гвардия, 2005

17 Dünya Heydər Əliyev haqqında. - https://menazerbaycanliyam.wordpress.com/dunya-heyd%C9%99r-%C9%99liyev-haqqinda/

18 Yenə orada

ki, *"2001-ci ildə öz dövlətlərinin rəhbərliyinə gələn Vladimir Putin və Heydər Əliyev qarşılıqlı anlaşma yollarını tapıb, münasibətlərin yeni prinsiplərini işləyib hazırladılar. Bu prinsipləri aşağıdakı şəkildə xülasə etmək olar:*

- *birincisi, bir-birinin suverenliyinə və müstəqilliyinə tam hörmət;*
- *ikincisi, bir-birinin maraqları anlayışı və onların səmərəli və qarşılıqlı balansı əsasında əməkdaşlığın qurulması;*
- *üçüncüsü, bir-birinin uğur və nailiyyətlərində maraqlı olaraq, qarşılıqlı imkanların qiymətləndirilməsində praqmatizm və realizm, bir-birimizi olduğu kimi qəbul etmək.*

Bu prinsiplər vaxtilə işləyib və indi də işləyir. 25 il ərzində Azərbaycan Rusiya üçün strateji tərəfdaşa çevrilib. Bunun əhəmiyyəti Rusiyanın Şimali Qafqaza yaxınlığı, Xəzəryanı ölkə statusu, iqtisadi potensialı, energetika sahəsində unikal rolu və Rusiya ilə ümumi dil tapma arzusu kimi amillərlə müəyyən edilir"[19].

Heydər Əliyevin dövlətçilik təcrübəsi və uzaqgörənliyi sayəsində Azərbaycan regionda mövqelərini möhkəmləndirmiş, xarici siyasət kursunun prioritetlərini və prinsiplərini müəyyənləşdirmişdir. Azərbaycan uzun müddət eyni dövlətin tərkibində olmuş sovet respublikaları, o cümlədən Rusiya Federasiyası ilə əlaqələrin qorunub-saxlanılmasında maraqlı olduğunu dəfələrlə bildirmişdir. Bəyan edilmişdir ki, SSRİ-nin süqutundan sonra milli dövlətçiliyini bərpa etmiş Azərbaycanın xarici siyasətində qarşıda duran əsas vəzifə beynəlxalq münasibətlər sistemində müstəqil dövlət kimi tanınmaq, dünya dövlətləri, xüsusilə qonşu dövlətlərlə siyasi-iqtisadi və mədəni əlaqələr qurmaq, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığa başlamaq, üzləşdiyi problemləri beynəlxalq hüquq çərçivəsində həll etmək və s.-dir. Bu mənada Rusiya ilə normal və sağlam qonşuluq münasibətləri, çoxşaxəli əməkdaşlığın perspektivləri Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət kəsb edir. Rusiya isə öz növbəsində rəsmi Bakıya yönəlik siyasətində ciddi düzəlişlər etmiş, yaxınlaşma meyillərini artırmış, bununla da Azərbaycan–Rusiya münasibətləri yeni mərhələyə qədəm qoymuşdur.

19 Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.258

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev "Rusiya–Azərbaycan dialoqu – 2012" III Rusiya–Azərbaycan Regionlararası Forumunda dövlətlərarası münasibətlərin yüksək səviyyəyə çatdırılmasında lider fenomeninin, dövlət başçılarının şəxsi münasibətlərinin və siyasi qətiyyətinin əhəmiyyəti məsələsinə toxunaraq bildirmişdir: *"Müstəqilliyin bərpasından sonrakı ilk illərdə ölkələrimiz arasında münasibətlər xeyli mürəkkəb olmuşdur. Lakin Azərbaycanın Ümummilli lideri Heydər Əliyev siyasi hakimiyyətə gələndən sonra vəziyyət yaxşılığa doğru dəyişməyə başlamışdır. Məhz Heydər Əliyev 1993-cü ilin yayında müstəqil Azərbaycana rəhbərlik etməklə Rusiya ilə dostluq münasibətlərinin nizamlanmasında çox mühüm rol oynamış və ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoymuşdur. 2000-ci ildə Vladimir Putinin Rusiya prezidenti seçilməsi Rusiya–Azərbaycan münasibətlərində yeni dönüş yaratmışdır. İki ölkənin liderləri zamanın sınağından çıxmış tarixi əlaqələri bərpa etməyə və sabit, mehriban qonşuluq münasibətləri qurmağa nail olmuşlar. Həmin münasibətlər bu gün də prezidentlərimizin səyləri sayəsində dinamik məcrada inkişaf edir"*[20].

Təsadüfi deyildir ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2001-ci il yanvar ayının 9-u və 10-da Bakıda olarkən Heydər Əliyev Azərbaycan–Rusiya münasibətlərinin həmin mürəkkəb dövrü haqqında demişdir: *"Azərbaycan müstəqillik əldə etdikdən sonra münasibətlərimizi mürəkkəbləşdirmiş ayrı-ayrı mərhələlər olmuşdur. Bəlkə də, bu, belə bir səfərin həyata keçirilməsinə nail ola bilməməyimizin səbəblərindən biri idi. Ancaq bugünkü gün göstərdi ki, görüşümüzə, sizin səfərinizə mane olan məsələlərin çoxu süni idi, uydurma idi və gerçəkliyə uyğun deyildi. Gerçəklik isə ondan ibarətdir ki, bu gün biz çox səmərəli iş gördük. Ona görə də cəsarətlə demək olar ki, səfər Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə yeni mərhələ açır"*[21].

Azərbaycan–Rusiya münasibətlərində tarixi faktlara diqqət yetirək. 1993-cü ilin sentyabr ayında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Azərbaycan Respublikası Ali Sovetinin Sədri

20 Hacalıyev E. Strateji tərəfdaşlığa əsaslanan Azərbaycan–Rusiya münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. /10.08.2012/ - http://tele-inform.com/?p=5958

21 Rusiya Prezidenti Vladimir Putinin şərəfinə təşkil olunmuş rəsmi qəbulda Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. /9 yanvar 2001-ci il/ - http://lib.aliyev-heritage.org/az/3640002.html

Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Moskvaya rəsmi səfəri zamanı Rusiya Prezidenti Boris Yeltsin, Rusiya Federasiyası Ali Sovetinin Sədri Ruslan Xasbulatov, Nazirlər Sovetinin Sədri Viktor Çernomırdin, xarici işlər naziri Andrey Kozırev, müdafiə naziri Pavel Qraçov və başqaları ilə səmərəli görüşlər keçirilmiş, Azərbaycan–Rusiya münasibətlərinə aydınlıq gətirilmiş, bu əlaqələrə mane olan məsələlər müzakirə edilmişdir. Hər iki tərəf münasibətlərin yaxşılaşdırılmasının zəruriliyini vurğulamışdır. Bildirilmişdir ki, siyasi, iqtisadi və digər əlaqələrin inkişafı üçün bütün imkanlardan istifadə olunmalı, bölgədə və beynəlxalq aləmdə birgə fəaliyyətin və əməkdaşlığın genişləndirilməsinə qarşılıqlı səylər göstərilməlidir[22]. Təhlillər göstərir ki, zəngin siyasi təcrübəyə malik Heydər Əliyevin Rusiyaya həmin səfərində məqsəd həm də hər iki dövlətin yaxınlaşmasına və gələcəkdə səmərəli əməkdaşlığına mane olan stereotiplərin dağıdılması, qarşılıqlı etimadın bərpa edilməsi olmuşdur.

Heydər Əliyevin xidmətləri sayəsində Rusiyanın neft şirkətləri "Əsrin müqaviləsi"nə cəlb olunmuş, 1993-cü ilin sentyabr ayında Azərbaycan Dövlət Neft Şirkəti ilə Rusiyanın "LUKoyl" şirkəti arasında Azərbaycanda və Rusiyada neft hasilatı və iqtisadiyyatın digər sahələrində əməkdaşlığa dair çərçivə sazişi imzalanmışdır. Nəticədə Rusiya şirkəti bərabərhüquqlu tərəfdaş kimi konsorsiumun tərkibinə daxil edilmiş və 1993-cü ilin noyabrında müvafiq sənədlər paketi imzalanmışdır. Doğrudur, ilkin mərhələdə Rusiya tərəfi Azərbaycanın Xəzər hövzəsinin neft-qaz ehtiyatları ilə əlaqəli hər hansı bir müqavilə bağlamasını legitim saymasa da, hətta "Əsrin müqaviləsi"ni tanımadığını bildirsə də, sonralar məhz Heydər Əliyevin diplomatiyası sayəsində Rusiya Federasiyası Nazirlər Sovetinin Sədri Viktor Çernomırdin hökumət adından həmin sənədi dəstəklədiyini bildirmişdir.

Bununla belə, Rusiyanın müəyyən dairələrinin dövlətlərimiz arasında səmimi qonşuluq və əməkdaşlıq əlaqələrinin bərpası prosesinə mane olan, təkcə ikitərəfli münasibətlərə deyil, bütövlükdə regionda

22 Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin Rusiya Federasiyasına səfərinin yekunları haqqında Azərbaycan Respublikasi Milli Məclisinin qərarı. /14 sentyabr 1993-cü il, № 706/- http://www.meclis.gov.az/?/az/topcontent/57

təhlükəsizlik məsələlərinə xələl gətirən fəaliyyətlərini də qeyd etmək lazımdır. Məsələn, 1997-ci ilin fevral ayında Rusiya Federasiyasının MDB-yə üzv dövlətlərlə əməkdaşlıq naziri Aman Tuleyev Rusiya Federasiyasının 1994-cü ildən 1996-cı ilədək Ermənistana göndərdiyi silah və sursat barədə məlumat açıqlamışdır. Bir müddət sonra – 1997-ci il aprelin 2-də Rusiya Dövlət Dumasının Müdafiə məsələləri komissiyasının sədri Lev Roxlin də Rusiyadan Ermənistana bir milyard dollar məbləğində silahın bağışlanması barədə ifşaedici hesabatla çıxış etmişdir. Həmin silahlar arasında R-17 operativ-taktiki, "Kruq" zenit-raket kompleksləri və onlar üçün raketlər, T-72 tankları, PDM-2, "Qrad" reaktiv qurğuları və digər müasir silah növləri var idi. Bu fakt Azərbaycanın Rusiya ilə münasibətlərini kifayət qədər kəskinləşdirmişdi[23]. Bir ay sonra isə müdafiə naziri İqor Rodionov Rusiyanın Ermənistana qeyri-qanuni silah göndərdiyini təsdiqləmişdi. Prezident Heydər Əliyev 1997-ci ildə Nyu Yorkdan Vaşinqtona gedərkən təyyarədə "Filadelfiya inkuayrer" və "Cornel of Kommers" qəzetlərinin əməkdaşları ilə müsahibəsində bu məsələyə də toxunmuşdur. Müsahibədə deyilir: *"Azərbaycanın Rusiya ilə həlli vacib olan bir sıra məsələləri var. Birincisi sizə məlumdur, bu ilin fevral-mart aylarında aşkar olubdur ki, Rusiyanın Müdafiə Nazirliyinin bəzi vəzifəli şəxsləri Ermənistana son üç ildə gizli, qanunsuz olaraq külli miqdarda silah veriblər. Bu silahlar bir milyard dollar dəyərindədir. Biz məsələni kəskin qoymuşduq ki, bu, araşdırılmalıdır, verilən silahlar Ermənistandan Rusiyaya qaytarılmalıdır. Bu ilin mart ayında mən Moskvada olarkən Prezident Boris Yeltsinlə görüşümdə ona müraciət etdim. Ona rəsmi məktub göndərdim. O, bəyan etdi ki, prokurorluqda materiallar əsasında istintaq aparılır və bu istintaqın nəticəsi bizə bildiriləcəkdir"*[24].

Həmin dövrdə Rusiya Prezidenti Boris Yeltsinin Baş Nəzarət İdarəsinin rəisi olmuş Vladimir Putin "Kommersant-Daily" agentliyinə müsahibəsində rəsmi Moskvanın bu məsələdən narahat olduğunu vurğulayaraq, ölkə başçısının fərmanı ilə 1993-cü ildən etibarən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi rayonuna silah

23 Чернявский С. Новый путь Азербайджана. М.: Книга и бизнес, 2002

24 Azərbaycan Prezidenti Heydər Əliyevin Nyu Yorkdan Vaşinqtona gedərkən təyyarədə "Filadelfiya inkuayrer" və "Cornel of Kommers" qəzetlərinin əməkdaşları ilə müsahibəsi. / 29 iyul 1997-ci il/ - http://lib.aliyevheritage.org/az/9252375.html

göndərilməsinin qadağan olunduğunu və açıqlanan məlumatla bağlı müvafiq təhqiqat aparıldığını bildirmişdi: *"Məhz həmin araşdırmalar zamanı Ermənistana silah göndərilməsi faktı təsdiqlənmişdir. Mənə çatan məlumata görə, Yeltsin Baş Prokurorluğa bu məsələyə aydınlıq gətirməyi tapşırmışdır"*[25]. Lakin 2003-cü ildə Rusiyanın müdafiə naziri Sergey İvanov Bakıda səfərdə olarkən Ermənistana silah göndərilməsi ilə bağlı məsələdə "cinayət tərkibi olmadığını və bu səbəbdən cinayət işinin dayandırıldığını" söyləmişdir.

Bu faktlar və onlara olan münasibət Azərbaycan–Rusiya əlaqələrində rəsmi Bakıdan asılı olmayan qaranlıq məqamların hələ də mövcud olduğunu göstərmişdir. Belə bir siyasi gərginlik şəraitində – 1997-ci ilin iyul ayında Prezident Heydər Əliyev Moskvaya rəsmi səfər etmişdi. Yüksək səviyyədə keçirilmiş görüşlərdə hər iki dövlət arasında siyasi, iqtisadi münasibətlər, Xəzər dənizinin statusu, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də Rusiyadan Ermənistana qanunsuz silah verilməsi məsələləri geniş müzakirə olunmuşdu. Görüşlərdən sonra bir sıra sənədlər, xüsusilə dövlətlər arasında ikitərəfli münasibətlərin müqavilə-hüquqi bazasını və strateji xarakterini təyin edən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" imzalanmışdı. İyulun 3-də Azərbaycan Prezidentinin şərəfinə təşkil olunmuş rəsmi qəbulda Heydər Əliyev bir daha hər iki dövlət və xalq arasında yaxınlaşma üçün əlverişli şərait və zəmin olduğunu vurğulayaraq bildirmişdi: *"Tarixi dostluğumuzun, tarixi keçmişimizin və əvvəlki nəsillərdən bizə qalan və rus xalqı ilə Azərbaycan xalqı, Rusiya ilə Azərbaycan xalqları arasında dostluq kimi səciyyələndirilən hər şeyin bizim üçün xüsusi əhəmiyyəti var. Biz hesab edirik ki, indi bu sənədlərin imzalanmasından sonra biz münasibətlərimizin yeni mərhələsinə daxil oluruq və əmin edirəm ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin Rusiya və Azərbaycanın mənafeləri naminə inkişaf etməsi və möhkəmlənməsi üçün Azərbaycan əlindən gələni əsirgəməyəcəkdir"*[26].

25 Ельцин не разрешал давать оружие Армении. /05.04. 1997/ - http://www.kommersant.ru/doc/176132

26 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri /2-4 iyul 1997-ci il/, "Heydər Əliyev irsi" Beynəlxalq elektron kitabxana. - http://lib.aliyev-heritage.org/az/20634858.html

2001-ci il yanvarın 1-də isə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış Bakı Bəyannaməsi ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm addım olmuşdu. Xalqlarımız arasında çoxəsrlik dostluq ənənələrinin, Azərbaycan–Rusiya dostluğunun və strateji tərəfdaşlığının regional təhlükəsizliyə və əməkdaşlığa əhəmiyyətli təsiretmə imkanlarının, o cümlədən Qafqazın gələcəyi üçün hər iki dövlətin daşıdığı məsuliyyətin məntiqindən irəli gələn bu sənəd, bir tərəfdən, ikitərəfli əməkdaşlığın perspektivləri və gələcək strateji tərəfdaşlığın təzahürü olaraq, digər tərəfdən, 1990-cı illərin əvvəllərində Rusiya və Azərbaycan münasibətlərində yaranmış siyasi gərginliyin, qarşılıqlı inamsızlığın aradan götürülməsinə yönəldilmişdi. Bəyannamədə açıq şəkildə bildirilir: *"Azərbaycan Respublikası və Rusiya Federasiyası ikitərəfli əlaqələri onların dövlət suverenliyinə və müstəqilliyinə qarşılıqlı hörmət, bərabərhüquqluluq, daxili işlərə qarışmama, zor işlətməmə və ya zor işlətməklə hədələməmə, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, mübahisələrin sülh yolu ilə həll olunması, insan hüquqlarına və əsas azadlıqlarına hörmət edilməsi, öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri, habelə beynəlxalq hüququn digər ümumtanınmış normaları əsasında yeni, daha yüksək strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaqda qətiyyətlidirlər. Onlar iqtisadi islahatların və demokratik dəyişikliklərin həyata keçirilməsində bir-birinin səylərini dəstəkləyəcəklər"*[27].

Xüsusilə vurğulamaq lazımdır ki, müasir Rusiya–Azərbaycan ikitərəfli münasibətlərinin, demək olar ki, bütün aspektləri və gələcək əməkdaşlığın konseptual əsasları məhz həmin sənəddə öz əksini tapmışdır. Belə ki, bəyannamədə hər iki tərəf qarşılıqlı təhlükəsizliyin təminatı ilə bağlı milli maraqlara cavab verən, üçüncü dövlətə qarşı yönəlməyən, Azərbaycanın və Rusiyanın götürdüyü beynəlxalq öhdəliklərə zidd olmayan uzunmüddətli hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsinin, bölgənin sülh, mehriban qonşuluq və tərəqqi regionuna çevrilməsi istiqamətində əməkdaşlığın zəruriliyini diqqətə çatdırmaqla Cənubi Qafqaz dövlətləri arasında sülhün, mehriban qonşuluğun

27 Azərbaycan Respublikası və Rusiya Federasiyasının Bakı Bəyannaməsi. - http://www.e-qanun.az/framework/2590

bərpası və qorunmasının əsası olan ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə qəti tərəfdar olduqlarını bildirmişlər. Bundan başqa, sənəddə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında siyasət, iqtisadiyyat, hərbi, humanitar, mədəniyyət, elm, təhsil, informasiya, turizm və idman sahələrində ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətinə də toxunulmuşdu.

Bu gün Azərbaycan–Rusiya münasibətləri ikitərəfli qonşuluq əlaqələrindən başlayaraq strateji tərəfdaşlıq səviyyəsinədək yüksəlmişdir. Mübaliğəsiz demək olar ki, bu mərhələ Heydər Əliyevin xarici siyasət kursunun və dövlətlərimiz arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinə yönəldilmiş fəaliyyət prinsiplərinin davamçısı olan Prezident İlham Əliyevin adı ilə bağlıdır. Hazırda iki ölkə arasında hüquqi bazaya 200-ə yaxın dövlətlərarası, hökumətlərarası və regionlararası saziş daxildir. Ölkələrimiz arasında siyasi əməkdaşlıq son illər nəzərəçarpacaq dərəcədə canlanıb. Hər iki dövlət başçısının qarşılıqlı işgüzar səfərləri və onların arasındakı səmimi dostluq münasibətləri Rusiya–Azərbaycan münasibətlərinin daha da möhkəmlənməsinə güclü təkan vermişdir. Əvvəla, Prezident İlham Əliyevin və Rusiya Federasiyasının dövlət başçısı Vladimir Putinin səyləri nəticəsində qarşılıqlı etimada söykənən bərabərhüquqlu münasibətlər sistemi formalaşmış, dövlətlərarası əməkdaşlıq daha geniş sahələri əhatə etmişdir.

Həm Azərbaycan Respublikasının, həm də Rusiya Federasiyasının milli maraqlara və hər iki dövlətin ortaq mənafelərinə cavab verən təşəbbüsləri sürətlə reallaşaraq, ikitərəfli siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafına, regional təhlükəsizliyin təmin olunmasına əlverişli şərait yaratmışdır. Son illər rəsmi Moskva qlobal tendensiyaları və geniş sahələr üzrə ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini nəzərə alaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyünün qorunması çərçivəsində nizamlanmasında, neft və qazın hasilatı, nəqli, ticarət, energetika və digər sahələrdə fəallığını xeyli artırmışdır.

Azərbaycanla Rusiya arasında səmimi və konstruktiv əməkdaşlıq səylərinin, dövlətlərimiz arasında formalaşan qarşılıqlı etimad və müxtəlif sahələrdə birgə fəaliyyətin zəruriliyinə dair niyyətlərin məntiqi yekunu olaraq, 2008-ci il iyulun 3-də Bakı şəhərində "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" imzalanmışdır. Bu sənəd ikitərəfli münasibətlərin ən yüksək mərhələyə yüksəldilməsində siyasi və hüquqi əsas olmuşdur. Nəticədə Azərbaycanla Rusiya arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatması özünün hüquqi təsdiqini tapmış və bu əlaqələrin inkişafı hər iki dövlətin xarici siyasətində mühüm istiqamətlərdən birinə çevrilmişdir.

Bəyannamədə bildirilir ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında strateji xarakter daşıyan bərabərhüquqlu, qarşılıqlı faydalı və konstruktiv ikitərəfli münasibətlər bundan sonra da hərtərəfli inkişaf etdirilməli, müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlıq istiqamətində əlaqələr möhkəmləndirilməlidir. Bundan başqa, hər iki tərəf öz ərazisindəki təşkilat, idarə, şirkət və s. təsərrüfat subyektlərinin digər ölkənin suveren hüquqlarına zərər vuran fəaliyyətinə yol verməməli, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təminatı prinsipləri əsasında həllini tapmalıdır. Belə ki, *"Azərbaycan və Rusiya Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn tanınmış norma və prinsipləri əsasında, ilk növbədə dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə riayət olunması və təmin edilməsi, həmçinin BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə nizamlanmasının əhəmiyyətini vurğulayırlar"*. Eyni zamanda Azərbaycan və Rusiyanın subyektləri arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti qeyd olunmuş, dövlət sərhədlərinin delimitasiyası üzrə komissiyanın işi yüksək qiymətləndirilmişdir.

Bu bəyannamə bir daha sübut etdi ki, Azərbaycan qonşu dövlətlərlə bərabərhüquqlu əməkdaşlığın və qarşılıqlı faydalı siyasi, iqtisadi və humanitar əlaqələrin təmin olunması, birgə layihələrin icrası, təhdidlərin aradan qaldırılması və s. məqsədilə ən yüksək səviyyədə münasibətlər

qurmağa nail olmuşdur. Paralel olaraq, rəsmi Bakı regional təhlükəsizlik, enerji təhlükəsizliyi məsələləri üzrə əməkdaşlıqda hər iki dövlətin milli maraqlarının unikal uzlaşma modelini formalaşdıra bilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: *"Azərbaycan ilə Rusiyanı çoxəsrlik möhkəm dostluq və mehriban qonşuluq telləri bağlayır. Sevindiricidir ki, bu xoş münasibətlər hərtərəfli inkişaf edir və möhkəmlənir. Əminəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq və çoxplanlı qarşılıqlı fəaliyyət bizim birgə səylərimizlə xalqlarımızın tərəqqisi naminə, regionda sülh, sabitlik və həmrəylik naminə bundan sonra da hərtərəfli genişlənəcək"*[28].

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də dövlətlərimiz arasında strateji tərəfdaşlığın ən müxtəlif sahələri əhatə etdiyini və böyük imkanlara malik olduğunu dəfələrlə qeyd etmişdir. V.Putin Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) müsahibəsində Azərbaycan və Rusiya arasında strateji tərəfdaşlığın perspektivlərini dəyərləndirərək, bu münasibətlərin təməlində qədim dostluq və mehriban qonşuluq ənənələri, hüquq bərabərliyi, bir-birinin mənafelərinə hörmət, ortaq tarix və mədəniyyət, milyonlarla insanın qaynayıb-qarışmış taleləri təşkil etdiyini, iki ölkənin dövlət başçıları, hökumətləri və parlamentləri arasında qarşılıqlı etimada əsaslanan əlaqələrin dayandığını bildirmişdir: *"Ticari-iqtisadi və investisiya, energetika sferalarında, nəqliyyat infrastrukturu, avtomobilqayırma, səhiyyə sahələrində qarşılıqlı faydalı əməkdaşlıq dərinləşir, regionlarımız arasında kooperasiya çox yüksək səviyyəyə qalxıb. Bu gün Rusiya Federasiyasının 17 subyekti Azərbaycandakı tərəfdaşları ilə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında sazişləri həyata keçirir. Rusiyanın 70-dən çox regionunun müəssisə və şirkətlərinin sizin ölkə ilə xarici ticarət münasibətləri var. Biz Cənubi Qafqazda MDB və aparıcı beynəlxalq strukturlar çərçivəsində sıx qarşılıqlı fəaliyyət göstəririk. Xəzərdə əməkdaşlığın genişləndirilməsi üçün əhəmiyyətli potensial görürük. Humanitar əlaqələr dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsində mühüm rol oynayır"*[29].

28 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə təbrik məktubu / 9 iyun 2015-ci il/ - http://www.president.az/articles/15548

29 Rusiya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. / 05.08.2016/ - http://azertag.az/xeber/979985

Azərbaycan–Rusiya münasibətlərində strateji istiqamətlər

Qlobal güclərin regiondakı geosiyasi və geoiqtisadi maraqları fonunda Rusiya ilə strateji tərəfdaşlığın əldə olunması Azərbaycanın uğurlu və milli maraqlara cavab verən siyasət yürütmək imkanlarını xeyli artırır. Paralel olaraq, müəyyən məsələlərə münasibətdə Azərbaycan və Rusiya özəl mövqelərə malik olsalar da, fərqli yanaşmalar əlaqələrdəki balansı pozmur və hər hansı bir gərginliyin yaranmasına imkan vermir. Novruz Məmmədov Rusiya–Azərbaycan münasibətlərinin inkişaf tendensiyalarını və zərurətini önə çəkərək yazır ki, Azərbaycanın tarixən bağlı olduğu Rusiya ilə münasibətlərində uğurlu dialoq və anlaşma mühitinin yaranması ölkəmizin beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyətlidir. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra Rusiya ilə əməkdaşlığın inkişafına həmişə mühüm əhəmiyyət vermişdir. İki ölkə arasında dostluq əlaqələrinin möhkəmlənməsində Ümummilli lider Heydər Əliyevin səyləri ilə bu əlaqələr dostluq və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. N.Məmmədov onu da qeyd edir ki, dövlətlərarası münasibətlərin yeni mərhələsi Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana tarixi səfərindən başlamışdır. Heydər Əliyevin Rusiyaya cavab səfəri, Bakı Bəyannaməsinin imzalanması, Xəzərin statusu ilə əlaqədar məsələlərin həlli iki ölkənin müxtəlif səviyyələrdə münasibətlərinə nəzərəçarpacaq inkişaf və dinamizm gətirmişdir. Çünki *"Hər iki ölkə siyasi və iqtisadi əməkdaşlığın dinamik inkişafında maraqlıdır. Bu gün Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə dövlətdir. Rusiya ilə qarşılıqlı faydalı münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. İqtisadi, siyasi və hərbi potensial baxımından beynəlxalq münasibətlər sistemində xüsusi yeri olan Rusiya Federasiyası ilə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, keçmiş Sovet İttifaqı dövründən mövcud olan çoxşaxəli əlaqələri müasir geosiyasi gerçəkliklərə nəzərən inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində vacib*

məsələlərdən biri kimi nəzərdən keçirilir"[30].

Novruz Məmmədov "Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli" məqaləsində Rusiya–Azərbaycan strateji tərəfdaşlığının möhkəm əsaslara söykəndiyini vurğulayaraq yazır: *"Moskva ilə Bakı arasında çox möhkəm siyasi və iqtisadi əlaqələr mövcuddur. İki ölkə arasında 2008-ci ilin iyulunda Bakıda imzalanmış "Dostluq və strateji əməkdaşlıq haqqında Bəyannamə"yə Cənubi Qafqazda və Xəzər regionunda təhlükəsizliyin təmin olunmasının ayrıca bənd kimi salınması Rusiyanın niyyətlərinin ciddi olduğundan xəbər verir. Bu bəyannamədə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını ehtiva edən beynəlxalq norma və prinsiplər əsasında tezliklə tənzimlənməsi qeyd olunur"*[31]. Rusiya Federasiyası Dövlət Dumasının deputatı Roman Xudyakov isə münasibətlərin yeni səviyyəyə yüksəlməsində dövlətlərimiz və onların liderləri arasında qarşılıqlı hörmət və qarşılıqlı anlaşmanın, bir-birinin milli maraqlarına müdaxilə etməməyin əhəmiyyətini xüsusilə diqqətə çatdırmışdır. Onun sözlərinə görə, bir sıra dövlətlərdən fərqli olaraq, Rusiya dialoq prosesinin güc tətbiqindən daha effektiv olmasına əmindir və Azərbaycanın müstəqil siyasət yürütməsinə, öz maraqlarını qorumasına həmişə hörmətlə yanaşmışdır: *"Azərbaycan və Rusiya münasibətlərini pozmaq cəhdləri heç bir fayda verməyəcəkdir. Biz ümumi keçmişimizlə bir-birimizə bağlıyıq"*[32].

Dövlətlərimiz arasında strateji tərəfdaşlığın və ikitərəfli münasibətlərin xarakterini, imkan və perspektivlərini müəyyən edən mühüm sənədlərdən biri 2004-cü ildə Rusiya paytaxtında imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi" olmuşdur. Sənəddə vurğulanır: *"Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazda təhlükəsizliyin təmini və münaqişələrin həll edilməsi, regionun davamlı inkişafı üçün şəraitin yaradılması məqsədilə bütün zəruri tədbirləri görəcəklər. Onlar regional*

30 Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli". // "Xalq qəzeti", 9 may 2010-cu il, №100, s.s. - http://files.preslib.az/projects/toplu/v2/f6_2_2.pdf

31 Yenə orada

32 Россия и Азербайджан: вместе в новом году. - http://www.pravda.ru/news/world/14-01-2016/1288834-rus_az-0

problemlərin müzakirə edilməsi üçün Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyasının rəhbərlərinin müntəzəm görüşlərinin keçirilməsinə tərəfdar olduqlarını bildirirlər. Tərəflər əvvəlki kimi eyni fikirdədirlər ki, Qafqazda təhlükəsizliyin təmininə və əməkdaşlığın inkişafına yanaşmaların müəyyən edilməsində əsas rolu bu regionun dövlətləri oynayır. Tərəflər Qafqaz dövlətləri arasında bir-birinin suverenliyinə, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və riayət olunmasına əsaslanan qarşılıqlı etimadın yaradılmasının müstəsna əhəmiyyətini qeyd edirlər. Tərəflər bundan çıxış edərək regionda etibarlı təhlükəsizliyin təmini və çoxtərəfli əməkdaşlığın təşkil edilməsi üçün mövcud münaqişələrin tezliklə həll edilməsinin zəruriliyini təsdiq edirlər. Bu kontekstdə Tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və müvafiq BMT Təhlükəsizlik Şurası qətnamələrinin və ATƏT qərarlarının yerinə yetirilməsinə qəti şəkildə tərəfdar olduqlarını bildirirlər"[33].

Beləliklə, Moskva Bəyannaməsinə əsasən, Azərbaycan və Rusiya siyasi, iqtisadi-ticari, humanitar, təhlükəsizlik və müdafiə, Xəzər dənizində əməkdaşlıq, qlobal və regional məsələlərin həllində bir-birinin suveren hüquqlarına və milli maraqlarına hörmət çərçivəsində qarşılıqlı fəaliyyət göstərməyi öhdələrinə götürmüşlər. Eyni zamanda Rusiya Federasiyası Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha bəyan edərək, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qəbul etdiyi qərarların dərhal yerinə yetirilməsinə tərəfdar olduğunu bildirmişdir. Sənəddə o da qeyd edilir ki, tərəflərin hərbi sahədə ikitərəfli əməkdaşlığı üçüncü tərəfə qarşı yönəldilmir.

Təhlillərə əsasən, Azərbaycan–Rusiya münasibətlərində yaxınlaşmanın intensivliyini və əhəmiyyətini şərtləndirən əsas amillər aşağıdakılardır:

- *Azərbaycan qlobal güclər arasında ziddiyyətli münasibətləri və regiondakı maraqlarını daim nəzərə alır və praqmatik xarici siyasət*

33 "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. / 6 aprel 2004-cü il/ - http://e-qanun.az/framework/5955

xətti yürüdülməsində, məqsədlərin müəyyən edilməsində tam müstəqildir. Rəsmi Bakı Rusiya Federasiyası daxil olmaqla, həm yaxın qonşuları, həm Qərb, həm islam dövlətləri, həm də türk dünyası ölkələri ilə konstruktiv və səmərəli əlaqələrin qurulmasında maraqlıdır. Belə mövqeyin məntiqi nəticəsi olaraq Azərbaycan Respublikası 2011-ci ilin may ayında Qoşulmama Hərəkatına tamhüquqlu üzv qəbul edilmişdir. Bununla da Azərbaycan hər hansı bir hərbi-siyasi alyansa qoşulmamaq haqqında öhdəliklər qəbul etmişdir. Azərbaycan Respublikasının xarici siyasət xəttinin əsas prinsiplərindən biri, 2004-cü ildə imzalanmış Moskva Bəyannaməsində vurğulandığı kimi, ikitərəfli əməkdaşlıq münasibətlərinin üçüncü tərəfə qarşı istifadə edilməsinin yolverilməzliyidir. Bu amil regiondakı geosiyasi və geoiqtisadi maraqlar zəminində mübarizə aparan fövqəldövlətlərin Azərbaycanın siyasi iradəsinə təsir imkanlarını xeyli zəiflətmişdir. Eyni zamanda onlar Qafqaz regionunun ən güclü dövləti olan Azərbaycanın Rusiya ilə yaxınlaşmasına xüsusi qısqanclıqla yanaşır və əməkdaşlığı pozmaq üçün hər iki tərəfə davamlı təzyiq cəhdləri göstərməkdədirlər;

- *Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin iştirakçısı olan tərəflərin hər biri Rusiyanın strateji tərəfdaşı olsa da, bu müttəfiqlik birinci halda real, ikinci halda isə siyasi və deklarativ xarakter daşıyır. Hazırda Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar rəsmi Moskvada Azərbaycan kimi etibarlı müttəfiqə böyük ehtiyac yaratmışdır. Regionun lider dövləti olan Azərbaycanın geosiyasi vəziyyəti və potensialı, Rusiya ilə ikitərəfli və çoxşaxəli əlaqələrin genişləndirilməsinə yönəldilən səyləri onun tərəfdaşlığının perspektivlərini xeyli artırmışdır;*
- *Azərbaycan və Rusiya ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən müxtəlif zəminlərdə terror aksiyalarına məruz qalan dövlətlərdir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ali səviyyəli beynəlxalq tədbirlərdə, ikitərəfli və çoxtərəfli görüşlərdə dəfələrlə terror təhlükəsinin lokal və regional deyil, qlobal xarakter daşıdığını, sərhəd tanımadığını və ona qarşı mübarizənin birgə səylərlə aparılmasının zəruriliyini bəyan etmişdir. Hazırda terrora qarşı beynəlxalq koalisiyanın yaradılmasına çalışan Rusiya Federasiyası da belə mövqe ilə çıxış etməkdədir. Bu isə hər iki ölkə arasında ikitərəfli strateji*

tərəfdaşlıq münasibətlərində yeni fəaliyyət vektorunun perspektivlərini göstərməkdədir;

- *1990-cı illərin əvvəllərindən fərqli olaraq, Rusiyanın regiondakı funksiyası sürətlə dəyişməkdədir. Rusiya Federasiyası indi regionda cərəyan edən hadisələrdə təkcə "aktiv oyunçu" deyil, həm də təhdid xarakterli qlobal siyasi-iqtisadi oyunların baş verdiyi coğrafi məkana çevrilmişdir. Rusiya aydın şəkildə dərk edir ki, həmin problemlərin – sosial-iqtisadi çətinliklərin, etnik və dini separatizmin, ərazi iddialarının və s. yalnız kollektiv səylərlə aradan qaldırılması mümkündür. Rəsmi Moskvanın strateji müttəfiqlərin sayının artırılmasına yönəlik səyləri onun xarici siyasət xəttində əsaslı düzəlişlərin edilməsini, Yaxın və Orta Şərq, islam və türk dünyası dövlətləri ilə əməkdaşlığın qurulması istiqamətində fəaliyyəti gündəmə gətirmişdir;*
- *Rusiya Federasiyası Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində, Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunmasında "açar dövlət" funksiyasını daşıdığı kimi, Azərbaycan da rəsmi Moskva üçün bu gün zəruri olan əlaqələrin – regionda, islam dünyası və türk dövlətləri ilə siyasi-iqtisadi, mədəni əməkdaşlığın inkişaf etdirilməsində və s. "əlaqələndirici dövlət" imkanlarına malikdir;*
- *Xarici təhdidlərə, ekstemizmin və separatizmin bütün təzahürlərinə, terrorizm və digər transmilli cinayətkarlığa qarşı mübarizədə Azərbaycanın və Rusiyanın ortaq maraqları vardır. Bundan başqa, Cənubi Qafqazda təhlükəsizlik məsələləri, Rusiyanın cənub əraziləri də (Şimali Qafqaz, Dağıstan) daxil olmaqla, regiondakı etnik münasibətlər müstəvisindən də nəzərdən keçirilir və s.*
- *Hər iki ölkə ərazisində olan çoxsaylı diaspora nümayəndələri Azərbaycan və Rusiya arasında münasibətlərin inkişafı və möhkəmləndirilməsi üçün əlverişli zəmin yaradır.*

Qeyd edildiyi kimi, Cənubi Qafqaz regionu Rusiya Federasiyasının milli maraqlar zonası olaraq qalmaqdadır. Ermənistan istisna olmaqla, Azərbaycan və Gürcüstan dövlət müstəqilliklərini bərpa etdikdən sonra Kremlin bu regiona əvvəlki qaydada təsir imkanları, təbii ehtiyatların istismarında rolu nəzərəçarpacaq dərəcədə azalmışdır. Eyni zamanda Rusiyadakı bəzi mühafizəkar dairələr bu dövlətlərin

ərazilərini rəsmi Moskvanın milli təhlükəsizlik maraqlarına təhdid mənbəyi kimi dəyərləndirir, həmin ölkələri əsassız olaraq terrorizmi, silah qaçaqmalçılığını dəstəkləməkdə, dini radikalizmi yaymaqda, xarici dövlətlərin geosiyasi maraqlarının təminatına yönəldilmiş xarici və iqtisadi siyasət yürütməkdə və s. ittiham edirdilər. Bütövlükdə Rusiya Federasiyası Azərbaycan başda olmaqla, Cənubi Qafqaz regionu dövlətlərində əsasən aşağıdakı milli maraqlar sistemini nəzərdə tutur:

- *Region dövlətləri və beynəlxalq təşkilatların fəal iştirakı ilə özünün milli təhlükəsizliyinə əsas təhdid kimi dəyərləndirdiyi terrorizmin qarşısının alınması məqsədilə effektiv mübarizə mexanizmlərinin hazırlanması və tətbiqi;*
- *Xəzər dənizinin təbii ehtiyatlarının istismarında strateji mövqelərinin möhkəmləndirilməsi;*
- *Avrasiya İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi qurumlar vasitəsilə regionda özünün hərbi, siyasi və iqtisadi lider rolunun formalaşdırılması;*
- *NATO-nun Şərqə doğru genişlənməsinin qarşısının alınması məqsədilə Cənubi Qafqaz dövlətlərində xarici hərbi bazaların yerləşdirilməsinin yolverilməzliyi;*
- *Rusiya Federasiyasının Cənubi Qafqaz dövlətləri ilə əməkdaşlığının optimal modelinin yaradılması, onun vasitəsilə cənub istiqamətinə çıxışın əldə olunması, ən nəhayət, Yaxın Şərq və İranda mövqelərinin gücləndirilməsi*[34].

Regionda cərəyan edən münaqişələr burada Rusiyanın mövqeyinin möhkəmləndirilməsinə xidmət etsə də, Cənubi Qafqazın, xüsusilə də Azərbaycan Respublikasının coğrafi mövqeyi, zəngin təbii ehtiyatları onun geosiyasi və geoiqtisadi əhəmiyyətini xeyli artırmaqdadır. Bununla belə, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası praqmatik siyasət yürüdərək Rusiya ilə pozulmaqda olan münasibətləri bərpa etməkdə, əlaqələri hüquq bərabərliyi prinsipi əsasında qurmaqda maraqlı olduğunu dəfələrlə nümayiş etdirmişdir. Bu gün rəsmi Moskva da Azərbaycanla təzyiq və güc müstəvisində

34 Мансуров Т. Угрозы национальной безопасности Российской Федерации на Южном Кавказе. Ученые записки Казанского Государственного Университета, Том 150, кн. 7, Гуманитарные науки, 2008

formalaşan münasibətlərin perspektivsizliyini, müxtəlif sahələr üzrə ikitərəfli əməkdaşlığın zəruriliyini yaxşı anlayır. Məsələn, Rusiya öz iqtisadi və ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycanın qeyri-neft sektoruna, o cümlədən kənd təsərrüfatına ciddi maraq göstərməkdədir. Azərbaycanın geniş potensiala malik tranzit ölkə olması Rusiyanın Şərq dövlətləri ilə ticari-iqtisadi əlaqələrinin genişləndirilməsində də mühüm rol oynaya bilər.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə əlaqəli məsələlər Rusiyanın strateji əhəmiyyətli sənədlərində də öz əksini tapmışdır. Məsələn, Prezident V.Putinin fərmanı ilə 2016-cı il noyabrın 30-da təsdiq olunmuş "Rusiya Federasiyasının Xarici Siyasət Konsepsiyası"nın 58-ci maddəsində qeyd olunur: *"Rusiya digər dövlətlər – ATƏT-in Minsk Qrupunun həmsədr dövlətləri ilə qarşılıqlı fəaliyyət əsasında, eləcə də Rusiya Federasiyasının Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Fransa Respublikasının Prezidentinin 2009-2013-cü illər ərzində birgə bəyanatlarında müəyyən olunmuş prinsiplər əsasında postsovet məkanındakı münaqişələrin siyasi-diplomatik yolla tənzimlənməsində… Dağlıq Qarabağ (Ermənistan–Azərbaycan Dağlıq Qarabağ) münaqişəsinin həllində fəal şəkildə çıxış edir"*[35]. Azərbaycan Respublikası Rusiyanın strateji əhəmiyyətli sənədinə salınmış bu müddəanı yüksək qiymətləndirmişdir.

Bu gün Rusiya ilə münasibətlərin dinamikası yüksələn xətt üzrə inkişaf etməkdədir və şimal qonşumuz Azərbaycanın ən yaxın müttəfiqlərindən biri kimi diqqət mərkəzindədir. Rəsmi Bakı Cənubi Qafqaz regionunda sülh və əməkdaşlıq məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramında Rusiyanın da iştirakını nəzərdə tutmaqdadır və Ermənistan istisna olmaqla, bütün qonşu dövlətlərlə təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün qarşılıqlı faydalılıq prinsipinə söykənən səmərəli münasibətlər qurmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə strateji tərəfdaşlıq münasibətlərində aşağıdakı vektorlar mühüm və qarşılıqlı əhəmiyyət kəsb etməkdədir: *strateji, iqtisadi və humanitar istiqamətlər*.

35 Концепция внешней политики Российской Федерации. - http://www.mid.ru/foreign_policy/news/-/asset_publisher/cKNonkJE02Bw/content/id/2542248

Strateji vektor

Sirr deyildir ki, regionda sülh və təhlükəsizliyin təmin olunması, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm də böyük dövlətlərin, o cümlədən Rusiya Federasiyasının problemə ədalətli mövqelərindən çox asılıdır. Rusiya ATƏT-in Minsk Qrupunun həmsədr dövlətlərindən biri olsa da, təəssüf ki, uzun illər boyu münaqişənin nizamlanmasında irəliləyişə nail olunmamışdır. Regional təhlükəsizliyə, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair güc mərkəzləri arasında vahid mövqeyin və həll mexanizmlərinin olmaması münaqişənin hələ də davam etməsində özünü büruzə verməkdədir. Rusiya əvvəllər olduğu kimi, indi də tənzimləmə mexanizmini yalnız tərəflər arasında aparılan danışıqlar yolu ilə kompromis variantın müəyyən olunmasında, münaqişənin "dövlətlərin ərazi bütövlüyünün təminatı və millətlərin öz müqəddəratını həll etmək hüququ" çərçivəsində həllində görür.

Lakin Azərbaycanın güclü hərbi potensialı, eləcə də 2016-cı ilin aprel ayında keçirdiyi uğurlu hərbi əməliyyatlar sayəsində regionda yaranan şərait münaqişənin nizamlanmasında qəti mövqeyin və yeni yanaşmaların vacibliyini gündəmə gətirmişdir. Qeyd edək ki, 2016-cı ilin may ayının 17-də baş tutan Vyana görüşündən, həmçinin iyunun 20-də Sankt-Peterburqda keçirilmiş Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin üçtərəfli görüşündən sonra rəsmi Moskvanın problemin həllinə diqqəti xeyli artmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin görüşdən sonra Rusiyanın Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında nəzərəçarpacaq fəallığına münasibət bildirərkən demişdir: *"Rusiyanın və ATƏT-in Minsk Qrupunun digər həmsədrlərinin bəyan etdiyi kimi, status-kvo qəbuledilməzdir. Biz bu bəyanatı tamamilə dəstəkləyirik. Lakin status-kvonun dəyişməsi üçün 20 ildən artıq müddətdə Azərbaycanın işğal altında olan ərazisinin işğaldan azad edilməsinə başlanmalıdır"*[36].

36 Bədəlov Ə. Danışıqlar prosesinin intensivləşməsi, ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəallaşması Dağlıq Qarabağ probleminin həlli istiqamətində konstruktiv dinamikanı gücləndirir. /22.06.2016 / - http://xalqqazeti.com/az/news/politics/72696

Belə qənaətə gəlmək olar ki, mövcud status-kvonun saxlanılması, münaqişənin "nə sülh, nə də müharibə" prinsipi ilə dondurulması artıq Rusiyanın da Cənubi Qafqazdakı geosiyasi maraqlarına ziddir. Prezident V.Putinin təşəbbüsçü qismində danışıqlar prosesinə şəxsən qoşulması da buna sübutdur. Xatırladaq ki, 2016-cı il iyulun 1-də Rusiya Prezidenti Vladimir Putinin Fransa Prezidenti Fransua Ollandla, ertəsi gün ABŞ-ın dövlət katibi Con Kerrinin Rusiyanın xarici işlər naziri Sergey Lavrovla, iyulun 6-da isə Vladimir Putinin ABŞ Prezidenti Barak Obama ilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yollarını müzakirə etməsi ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin problemin həlli yolunda artıq konkret addımlar atmaqda qərarlı olduqlarından xəbər verir. V.Putin son müsahibələrinin birində bu barədə açıq şəkildə demişdir: *"Biz həqiqətən maraqlıyıq ki, qonşu regionda sülh və asayiş yenidən bərqərar olsun, orada insanlar həlak olmasınlar, sərhədlər açılsın, iqtisadi əlaqələr bərpa edilsin. Bunun üçün nə mümkündürsə edirik"*[37]. V.Putin onu da xatırlatmışdır ki, məhz Rusiyanın bilavasitə yardımı ilə 1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalanmışdır və həmin saziş bu günədək qoşunların təmas xəttində atəşkəs rejiminin saxlanılmasının hüquqi əsasını təşkil etməkdədir.

Rusiya əvvəllər olduğu kimi, indi də Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini tərəflərin danışıqlar masasında əyləşməsində, kənar təzyiq və müdaxilə olmadan öz aralarında razılığa gəlməsində və hər biri üçün məqbul sayıla biləcək həll yollarını tapmasında görür. 2016-cı ilin aprel ayının əvvəlində cəbhədə döyüş əməliyyatlarının dayandırılmasında da məhz rəsmi Moskvanın həlledici rolu olmuşdur. V.Putin Kremlin bu mövqeyini belə şərh etmişdir: *"Kompromisin əldə edilməsi ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə hüququ prinsipləri arasında optimal tarazlığın tapılmasını nəzərdə tutur… Tənzimlənmənin son məqsədi elə bir razılaşma olmalıdır ki, tərəflərdən heç biri nə qalib, nə də məğlub sayılsın, güzəştlər qarşılıqlı,*

37 Rusiya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC-a) müsahibəsi. / 05.08.2016/ - http://azertag.az/xeber/Rusiya_ile_Azerbaycanin_munasibetleri_strateji_terefdasliq_xarakteri_dasiyir_VIDEO-979985

tərəflərin hər birinin qazancı həm Azərbaycanda, həm Ermənistanda ictimai rəy üçün aydın olsun" [38].

İkitərəfli iqtisadi münasibətlər

Rusiya Federasiyası kimi geniş iqtisadi imkanlara və geosiyasi mövqeyə malik müttəfiqlə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi və inkişaf etdirilməsi rəsmi Bakının xarici siyasətində mühüm yer tutmaqdadır. SSRİ-nin süqutundan sonra bu əlaqələr qırılmış, hər iki ölkənin iqtisadiyyatına ciddi ziyan dəymişdi. Keçmiş münasibətləri bərpa etmək, qarşılıqlı təcrübə mübadiləsini genişləndirmək yeni dövrün zəruri tələbinə çevrilmişdi. Keçən əsrin 90-cı illərinin əvvəllərində hər iki ölkənin siyasi münasibətlərində yaranan soyuqluq tərəflərin səyləri ilə aradan götürülmüş, bərabərhüquqlu tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında möhkəmləndirilmişdir. Bu gün Rusiya Azərbaycanın əsas iqtisadi tərəfdaşlarından biridir. Eyni zamanda əmtəə dövriyyəsinin diversifikasiyası, xarici asılılıqların, təhdidlərin, risk dərəcələrinin azaldılması məqsədilə hesablaşma əməliyyatlarının milli valyuta ilə aparılması son dövrlərdə 25-26% artmış və bu göstəricinin yüksəldilməsi istiqamətində davamlı işlər görülməkdədir. Dövlətlərimiz arasında investisiya fəallığı artmış, maşınqayırma, bank fəaliyyəti, gəmiqayırma və s. sahələrdə səmərəli əlaqələr qurulmuşdur.

Dövlətlərimiz arasında iqtisadi münasibətlərin ən yüksək mərhələsi 2014-cü ilin payına düşür. Həmin il Azərbaycan iqtisadiyyatına qoyulan Rusiya investisiyaları 349.8 milyon ABŞ dolları təşkil etmiş və bu da illik xarici sərmayələrin ümumi həcminin – 6.3 milyard dolların 6,1%-nə bərabərdir. Yalnız iqtisadiyyatın neft sektoruna 2.8 milyard vəsait qoyulmuşdur. Rusiya Federasiyası bu göstəriciləri ilə Azərbaycanın xarici investorları sırasında altıncı yeri tutmuşdur. Azərbaycan MDB məkanında Rusiya Federasiyasının əlverişli ticarət tərəfdaşlarından biri hesab olunur. Qarşılıqlı ticarət əlaqələrində sənaye və kənd təsərrüfatı

38 Rusiya ilə Azərbaycanın münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır. / 05.08.2016/ - http://azertag.az/xeber/Rusiya_ile_Azerbaycanin_munasibetleri_strateji_terefdasliq_xarakteri_dasiyir_VIDEO-979985

məhsullarının payı üstünlük təşkil edir. 2014-cü ilin nəticələrinə görə, Rusiyadan Azərbaycana ixrac olunan maşınqayırma sənayesi məhsullarının, xüsusilə kənd təsərrüfatı texnikasının həcmi 62% artmışdır. Eyni zamanda Rusiya Federasiyasının rəsmi statistikasına əsasən, hər iki ölkə arasında ticarət əlaqələrinin həcmi ən yüksək həddə – təqribən 4 milyard dollara çatmışdır[39].

Hazırda dövlətlərimiz arasında iqtisadi əməkdaşlıq münasibətləri "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında Saziş"lə (2002-ci il) tənzimlənir və "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiya", "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2020-ci ilədək iqtisadi əməkdaşlıq haqqında Proqram", "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq və kənd təsərrüfatı məhsullarının təchizatı üzrə İşçi Qrup", "Azərbaycan Respublikası Energetika Nazirliyi və Rusiya Federasiyası Energetika Nazirliyi arasında İşçi Qrup" formatlarında davam etdirilir. İqtisadi sahədə Azərbaycan və Rusiya arasında 45-dən çox sənəd imzalanmışdır. İqtisadi sahədə əməkdaşlıq üzrə əsas mexanizm olan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Komissiya" ilə yanaşı, ölkəmizlə Rusiyanın 4 subyekti arasında iqtisadi və humanitar sahədə əməkdaşlıq üzrə hökumətlərarası komissiyalar fəaliyyət göstərir.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Rusiya Federasiyasının 85 subyektindən 75-i ilə regionlararası qarşılıqlı iqtisadi əlaqələr qurmuşdur. Rusiyanın Şimali Qafqaz, Ural və Povoljsk federal dairələri ilə iqtisadi münasibətlər getdikcə intensiv xarakter almaqdadır. Son bir neçə ildə Rusiya regionları ilə Azərbaycan arasında 40-a yaxın bu cür əməkdaşlıq sazişi imzalanmışdır. Bu baxımdan Moskva, Həştərxan, Sankt-Peterburq, Stavropol, Sverdlovsk, Yekaterinburq şəhərləri, Dağıstan,

39 Торгово-экономические связи между Российской Федерацией и Азербайджанской Республикой в 2015 году. Официальный сайт Посольства Российской Федерации в Азербайджанской Республике. - http://azerbaijan.mid.ru/torgovo-ekonomiceskie-svazi

Kurqan, Kalmıkiya və Tatarıstan, Saratov kimi subyektləri ilə qurulan iqtisadi əlaqələri xüsusilə qeyd etmək olar. Azərbaycanda Dağıstan və Tatarıstanın, habelə Ural iqtisadi regionunun nümayəndəlikləri fəaliyyət göstərir. Bakıda Dağıstan və Tatarıstanın, "Ural Ticarət Evi" QSC-nin, "Tatarıstan Ticarət Evi" MMC-nin, Rusiyanın regional hava yolları şirkətlərinin nümayəndəlikləri fəaliyyət göstərir.

Azərbaycan investorları Rusiya regionlarında iqtisadiyyatın inkişafına sərmayə qoyur, yeni-yeni istehsal sahələri yaratmaqla əlavə iş yerləri açırlar. Məsələn, "Azersun Holdinq" şirkətlər qrupu bu gün ərzaq malları istehsalı, ticarət və kənd təsərrüfatı sahəsində ölkədə lider olmaqla bərabər, həm də ölkənin aparıcı ixracat müəssisələrindən biridir. Şirkət 2010-cu il sentyabrın 2-də Rusiyanın Krasnodar diyarının Beloreçensk şəhərində yeni çayçəkici fabrik açmışdır. Bu gün Beloreçenskdə 3 növ – "Azərçay", "Məryəm" və Rusiya bazarı üçün yeni brend olan "Kuban" növlü çayların genişmiqyaslı istehsalı tənzimlənir. Fabrikin investisiya dəyəri 2,5 milyon ABŞ dollarına bərabər olmuşdur. Şirkət indiyədək Krasnodar vilayətinin iqtisadiyyatına 22 milyon dollardan çox investisiya yatırmış, 400-dən çox yeni iş yeri açmışdır. "Azersun Holdinq" şirkətlər qrupunun regionda qida müəssisələri, logistika şirkətləri fəaliyyət göstərir. Bundan başqa, həmin il Beloreçenskdə istehsal gücü ildə 50 milyon bankaya bərabər olan meyvə-tərəvəz konservləri zavodu istismara buraxılmışdır.

Müstəqillik illərində ölkələrimiz arasında ticari-iqtisadi məsələlərə dair 50-yə yaxın müqavilə imzalanmış, əmtəə dövriyyəsi nəzərəçarpacaq dərəcədə artmışdır. Təsadüfi deyildir ki, Rusiya Azərbaycanın ticarət tərəfdaşları sırasında mühüm yer tutur və Azərbaycan ərazisində Rusiya kapitalı ilə fəaliyyət göstərən yüzlərlə müəssisə mövcuddur. Qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsipləri üzərində qurulmuş Azərbaycan–Rusiya münasibətlərinin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan və Rusiya arasında möhkəm hüquqi baza mövcuddur. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Hazırda Azərbaycanda Rusiya kapitallı şirkətlər, Rusiyada isə Azərbaycan şirkətləri uğurla fəaliyyət göstərir.

Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında ticari-

iqtisadi əlaqələrin inkişafında, yuxarıda qeyd edildiyi kimi, regionlararası qarşılıqlı faydalı əməkdaşlıq da vacib rol oynamaqdadır. Bu əlaqələr hər iki ölkənin ənənəvi qonşuluq münasibətlərinin əsas istiqamətlərindən biri olaraq qalır və həm rəsmi Bakının, həm də Moskvanın iqtisadi siyasət strategiyasında qarşılıqlı faydalı əməkdaşlığı daha da genişləndirmək, vaxtilə SSRİ dövründə mövcud olmuş əlaqələri müasir şəraitə və tələblərə uyğunlaşdırmaq, perspektivləri müəyyənləşdirmək məqsədi daşıyır. Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı ticarət nümayəndəsi Eldar Tlyabiçev Rusiyanın "Promışlennıy yejenedelnik" qəzetinə verdiyi müsahibədə dövlətlərarası ikitərəfli iqtisadi münasibətlərin inkişafında regionların roluna toxunaraq vurğulamışdır: *"Azərbaycanın ümumi ticarət dövriyyəsində 11,4 faiz payla 2-ci yeri tutan, idxalında 17,9 faiz payla liderlik edən Rusiya ölkənin əsas xarici ticarət tərəfdaşlarından biri olaraq qalmaqdadır… Bu gün Azərbaycan bazarında Rusiyanın 600-dən çox şirkəti fəaliyyət göstərir. Bu şirkətlərin 200-ü yüz faiz Rusiya kapitalı ilə işləyir, 400-dən çoxu birgə müəssisə formatındadır. Azərbaycan statistikasının məlumatına görə, Azərbaycanın əsas kapitalında Rusiya investisiyalarının həcmi təxminən 1,4 milyard dollar təşkil edir. Bu investisiyaların böyük hissəsi Azərbaycanın neft sektoruna, Xəzər dənizində neft və qaz yataqlarının işlənilməsinə yönəldilir. Lakin Rusiya şirkətlərinin maşınqayırma, əczaçılıq, kimya sənayesi və bank fəaliyyəti sahələrinə yönəldilən investisiyaları da nəzərəçarpacaq dərəcədədir"*[40].

Bu baxımdan ikitərəfli iqtisadi əlaqələrin genişləndirilməsində və dərinləşməsində, əməkdaşlığın strateji səviyyəsinin və perspektivlərin müəyyən olunmasında ənənəvi Azərbaycan–Rusiya regionlararası forumlarının keçirilməsinin müstəsna əhəmiyyəti vardır. Məsələn, hər iki ölkə arasında iqtisadi münasibətlərin perspektivləri, mövcud əməkdaşlıq modellərinin inkişafı 2014-cü ildə Qəbələdə keçirilmiş V Azərbaycan–Rusiya Regionlararası Forumunda əhatəli təhlil edilmiş və vurğulanmışdır ki, hər iki ölkə arasında genişlənən əlaqələr nəinki MDB məkanında, hətta dünya miqyasında effektiv əməkdaşlıq nümunəsidir. Dövlət başçılarının, rəsmi nümayəndə heyətlərinin və iş adamlarının çoxsaylı

40 Rusiya Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarından biri olaraq qalır./13.10.2016/-http://azertag.az/xeber/1001280

qarşılıqlı səfərləri, aparılan danışıqlar və imzalanmış sənədlər Azərbaycan və Rusiya prezidentlərinin ikitərəfli siyasi və iqtisadi münasibətlərin inkişafına böyük önəm verdiyinin göstəricisidir. Rusiya şirkətləri indiyədək Azərbaycan iqtisadiyyatına 3 milyard dollar həcmində investisiya yatırıb, dəyəri 69.5 milyon manat olan dövlət sifarişini yerinə yetirirlər. Azərbaycanlı iş adamları isə Rusiya iqtisadiyyatına bir milyard dollardan çox sərmayə qoyublar. Rusiya Federasiyasının Yaroslav vilayətinin qubernatoru Sergey Yastrebov Azərbaycan–Rusiya iqtisadi əlaqələrinin uğurla inkişaf etdiyini, iki ölkə arasında ticarət dövriyyəsinin artdığını diqqətə çatdırıb, işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verdiyini, eləcə də Rusiyanın federal subyektləri ilə Azərbaycan arasında əlaqələrin inkişafı baxımından əhəmiyyətini diqqətə çatdırıb, azərbaycanlı iş adamlarını Yaroslavda yaradılmış investisiya imkanlarından yararlanmağa çağırıb. Forum çərçivəsində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu *(AZPROMO)* ilə Rusiyanın "Delovaya Rossiya" İctimai Birliyi arasında, AZPROMO və "UK Viktoriya Esteyt" QSC arasında, AZPROMO ilə "Bank VTB" *(Azərbaycan)* arasında əməkdaşlığa dair anlaşma memorandumları, həmçinin "Vita-A" MMC *(Azərbaycan),* "Azərbaycan İnvestisiya Şirkəti" ASC və "R-Farm" *(Rusiya)* şirkətləri arasında Azərbaycan Respublikası ərazisində beynəlxalq standartlara və tələblərə uyğun müasir əczaçılıq məhsulları istehsalının təşkilinə dair niyyət protokolu imzalanmışdır[41].

2016-cı il noyabrın 1-də Bakıda, Heydər Əliyev Mərkəzində öz işinə başlamış növbəti – VII Azərbaycan–Rusiya Regionlararası Forumu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Rusiya Federasiyası İqtisadi İnkişaf Nazirliyinin birgə iştirakı ilə təşkil olunmuşdu. Forum Azərbaycanla Rusiya arasında əlaqələrin müxtəlif sahələrinə – sənaye, turizm, kənd təsərrüfatı, tikinti, ticarət, konsaltinq, logistika, əczaçılıq, İKT, maliyyə və s.-yə dair səmərəli müzakirələrin aparılması və ikitərəfli münasibətlərin inkişafına yönəldilmiş mühüm sənədlərin imzalanması ilə əlamətdar olmuşdur. Tədbirdə Rusiyanın 9 subyektini təmsil edən 250-dən çox nümayəndə iştirak etmişdir.

41 Bakıda Azərbaycan–Rusiya biznes forumu keçirilib. / 20.06.2016/ - http://azertag.az/xeber/Bakida_Azerbaycan_Rusiya_biznes_forumu_kechirilir-962872

Forumda bildirilmişdir ki, ötən bir neçə il ərzində Rusiya tərəfindən Azərbaycan iqtisadiyyatına 3 milyard ABŞ dollarından çox investisiya qoyulmuşdur. Son iki ildə Şimali Osetiya–Alaniya, Qaraçay-Çərkəz, Tatarıstan, Dağıstan respublikalarının, Sankt-Peterburq, Həştərxan və Vladimir vilayətlərinin nümayəndələrinin Bakıda səmərəli görüşləri keçirilmiş, Rusiya Federasiyasının 17 subyekti ilə ticari-iqtisadi, elmi-texniki və mədəniyyət sahələri üzrə sazişlər imzalanmış, Rusiyanın dörd subyekti ilə hökumətlərarası komissiyalar yaradılmışdır. Bundan başqa, Azərbaycan–Rusiya iqtisadi əməkdaşlığının aparıcı istiqamətlərindən olan tranzit yükdaşımalarda, o cümlədən Şimal–Cənub nəqliyyat dəhlizinin logistik perspektivlərində müsbət tendensiyanı daha da möhkəmləndirmək zərurətinə də toxunulmuşdur. O da qeyd olunmuşdur ki, hazırda Rusiyanın mərkəzindən cənuba doğru istiqamətləndirilən və Azərbaycan Respublikası ərazisindən keçməklə onun İran İslam Respublikası ilə sərhədlərinə qədər uzanan dəmir yolu xəttinin qalan hissəsinin və dəmir yolu körpüsünün inşası davam etdirilməkdədir.

Təhlillərə əsasən, hər iki dövlət arasında iqtisadi-siyasi münasibətlərdə daha da yaxınlaşmaya qarşılıqlı meyil müşahidə edilsə də, həm Rusiya Federasiyasının, həm də Azərbaycan Respublikasının iqtisadiyyatında və iqtisadi əlaqələrində neft sektorunun üstün xarakter daşıması və xarici təsirlər, o cümlədən dünya bazarında xam neftin qiymətinin sürətlə ucuzlaşması ticarət sahəsində göstəricilərin aşağı düşməsinə səbəb olmuşdur. Bununla belə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2015-ci ilin yekunları üzrə Azərbaycan və Rusiya arasında ticarət dövriyyəsi 1 milyard 854 milyon 672,03 min ABŞ dolları təşkil etmişdir. 2015-ci ildə Azərbaycanın bütün xarici ticarət dövriyyəsinin 8,98%-i Rusiya ilə ticarət əməliyyatlarının payına düşür. Həmin ildə Azərbaycan məhsullarının Rusiya Federasiyasına ixrac həcmi 416 milyon 770,78 min dollar olmuşdur[42]. Rusiya Prezidenti Vladimir Putin yaranmış vəziyyət və problemdən çıxış yolları ilə bağlı demişdir: *"Bilirik ki, müxtəlif səbəblər üzündən, o cümlədən dünya iqtisadiyyatında, bizim iqtisadiyyatda böhran vəziyyəti, ənənəvi ixrac mallarımızın qiymətinin azalması, bununla əlaqədar məzənnə fərqləri ilə bağlı məlum problemlər*

42 Azərbaycanın xarici ticarət əlaqələri (yanvar - dekabr 2015). - http://www.stat.gov.az/source/trade/

dəyər ifadəsində ticarət dövriyyəsinin azalmasına gətirib çıxarıb… Əlbəttə, perspektiv üçün yaxşı layihələrimiz var. Özü də bu, təkcə energetika sahəsinə aid deyil. Aydındır ki, başqa sahələrdə – maşınqayırma, yüksək texnologiyalar sahələrində də belədir. Fikrimcə, bu, son dərəcə vacibdir… Xəzərdə və daha geniş aspektdə yeni layihələr ola bilər – nəqliyyat, energetika, üçtərəfli ticari-iqtisadi əlaqələrimizin şaxələndirilməsini nəzərdə tuturam"[43]. Ekspertlərin ümumi qənaətinə görə, Azərbaycanın və Rusiyanın iqtisadi potensialları, qeyri-neft sektorunun inkişaf etdirilərək aparıcı mövqeyə yüksəldilməsinə yönəlik səylər 2016-cı ildən etibarən ticari-iqtisadi əlaqələrin əvvəlki həcminin nəinki bərpasına, hətta perspektivdə daha da yüksəldilməsinə əlverişli şərait yaradacaqdır.

2016-cı il iyunun 20-də Bakıda Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin dəstəyi və AZPROMO-nun təşkilatçılığı ilə Azərbaycan–Rusiya biznes forumu keçirilmişdir. Forumda Azərbaycanla Rusiya arasında siyasi əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, hər iki ölkənin dövlət başçılarının siyasi-iqtisadi əlaqələrin inkişafına xüsusi önəm vermələri vurğulanmış, son 5 il ərzində iqtisadi əlaqələrlə bağlı 40 tədbirin keçirildiyi, Rusiyanın Azərbaycanın əsas ticarət tərəfdaşlarından olduğu bildirilmişdir.

Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında mübahisəli məsələlərin bir çoxu tədricən aradan qaldırılsa da, Xəzər dənizinin statusu ilə bağlı problem hələ də həllini gözləməkdədir. Xatırladaq ki, Xəzərin hüquqi statusuna hələ 1921-ci il fevral ayının 26-da bolşevik Rusiyası və İran arasında bağlanmış müqavilədə su sərhədi kimi Astara *(Azərbaycan)* və Həsənqulu *(Türkmənistan)* dəniz xətti götürülmüşdür. Bundan başqa, sonralar SSRİ və İran arasında imzalanmış sənədlərdə – "Ticarət, dənizçilik və məskunlaşma haqqında" *(1935-ci il)* və "Ticarət və dənizçilik haqqında" *(1940-cı il)* müqavilələrdə Xəzərin "Sovet–İran dənizi" olduğu vurğulanmışdır. Adları çəkilən müqavilələr eyni zamanda həm Rusiyanın, həm də İranın Xəzər dənizindən istifadə etmələrinə dair "müstəsna hüquqlarını" təsbit etməklə akvatoriyanı geosiyasi maraqlar

43 Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Prezidenti Vladimir Putinin görüşü olub. /08.08.2016/ - http://azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyevin_ve_Rusiya_Prezidenti_Vladimir_Putinin_gorusu_olub_VIDEO_YENILANIB-980860

məkanına çevirmişdi. 1970-ci ildə isə SSRİ-nin Neft Sənayesi Nazirliyi tərəfindən Xəzər dənizinin SSRİ-yə aid hissəsi beynəlxalq normalara uyğun olaraq müttəfiq respublikalar – Rusiya, Qazaxıstan, Azərbaycan və Türkmənistan arasında orta xətt prinsipi üzrə sektorlara bölünmüşdür. Hazırda Xəzərin hüquqi statusu məsələsi həllini tapmadığı üçün sahilyanı dövlətlər sektoral bölgünü dövlət sərhədi kimi qəbul edirlər.

SSRİ-nin süqutundan sonra sahilyanı dövlətlərin rəhbərləri 1991-ci ilin dekabr ayında qəbul edilmiş Almatı Bəyannaməsində Xəzərin statusu və bölüşdürülməsində həmin sənədin müddəalarını əsas götürsələr də, milli maraqlar aralarında mövqe birliyinin yaranmasına mane olmuşdur. 1992-ci ildən etibarən keçirilən ikitərəfli və çoxtərəfli görüşlərdə Xəzərin hüquqi statusu məsələsi ilə bağlı ciddi müzakirələr başlanılmış, lakin konsensus əldə edilməmiş, bu məsələ regional və beynəlxalq mübahisə obyektinə çevrilmişdir. Problemin dərinləşməsində 1993-cü ildə Rusiyanın bəzi siyasi dairələrinin müəyyən rolu olmuşdur. Onların məqsədi Xəzər dənizinə hərbi, iqtisadi nəzarəti əvvəlkitək Rusiyanın əlində saxlamaq idi. Belə ki, müstəqil Azərbaycan Respublikasının 1992-1993-cü illərdə Xəzər dənizində transmilli enerji layihələrini reallaşdırmaq istəyi ilk növbədə rəsmi Moskvanın və Tehranın kəskin etirazına səbəb olmuş, əsassız bəhanələrlə Bakını onların siyasi və iqtisadi maraqlarına ciddi ziyan vurmaqda təqsirləndirmişlər. Həmin dövrdə, Kremlin mövqeyinə görə, Rusiya Federasiyası SSRİ-nin yeganə varisi olduğu üçün sovet hökuməti ilə İran arasında bağlanmış müqavilələrin *(1921-ci və 1940-cı illər)* şərtləri – Rusiya və İranın prioritet hüquqları əsas götürülməli, Xəzər akvatoriyasında həyata keçirilən hər hansı fəaliyyətə görə digər sahilyanı dövlətlər mütləq şəkildə Moskva və Tehranın razılığını almalıdırlar. Nəticədə indiyədək Xəzəryanı dövlətlər arasında dəniz akvatoriyasına dair ikitərəfli və çoxtərəfli sazişlərin imzalanmasına baxmayaraq, status və su hüdudlarının müəyyən olunmasında ortaq mövqe hələ də əldə edilməmişdir. Bütövlükdə bu problemin tənzimlənməsində əsasən üç konseptual yanaşma mövcuddur:

1. *Xəzər dənizi kondominimum prinsipi əsasında bütün sahilyanı dövlətlərin birgə istifadəsinə verilməli və bu qayda onun təbii ehtiyatlarının istismarına da aid edilməlidir. Bundan başqa, bu prinsipin aid edildiyi hər*

bir dövlətə onun üçün müəyyən olunmuş sahil zolağında geoloji kəşfiyyat işlərinin aparılmasına, karbohidrogen yataqlarının istismar edilməsinə dair müstəsna hüquqlar verilir.

2. *Xəzər akvatoriyası və onun dibi milli sektorlara bölünür.*
3. *Xəzərin dibi və onun təbii ehtiyatları bütün sahilyanı dövlətlər arasında sektorlar üzrə bölünməlidir.*

Azərbaycan Respublikasının mövqeyinə görə, SSRİ-nin dağılması və onun yerində dörd hövzəətrafı müstəqil dövlətin yaranması Xəzərin hüquqi statusu məsələsinin beynəlxalq hüququn normaları – BMT-nin də qəbul etdiyi "Dəniz hüquqları Konvensiyası" *(1982-ci il)* əsasında müəyyən edilməsini gündəmə gətirmişdir. Belə olan təqdirdə Xəzər dənizi sahilyanı dövlətlərin suveren hüquqları və yurisdiksiyası şamil edilən sektorlara bölünməlidir. Bu bölgüdə orta xətt prinsipi, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normaları və sahilyanı dövlətlərin milli maraqları nəzərə alınmalıdır. Bununla belə, Azərbaycan Xəzərin ona aid olan hissəsində enerji layihələrini həyata keçirərkən hər zaman beynəlxalq hüququn tələbləri ilə yanaşı, region ölkələrinin maraqlarını da nəzərdə tutmuşdur. Qeyd edək ki, bu konvensiyada istənilən su hövzəsinin "dəniz" kimi təsnif olunması üçün əsas meyar kimi onun çay və boğazlar vasitəsilə okeanla və ya digər hövzələrlə birbaşa əlaqəsinin mövcudluğu götürülmüşdür. Bundan başqa, dövlətlərarası sərhədlər hövzənin orta xətti üzrə müəyyən olunur, sahildən 12 millik zolaq dövlətin "suveren ərazisi", 200 millik ərazi isə onun "iqtisadi suveren zonası" hesab edilir.

İran Xəzərin bölünməsi ilə bağlı indiyədək iki təkliflə çıxış etmişdir. Birinci təklifə əsasən, dənizin dibi 20% olmaqla 5 sahilyanı dövlət arasında "bərabər hissələrə bölünməli", səthi isə ümumi istifadəyə verilməlidir. İkinci təklifə görə, hər bir sahilyanı dövlətə onun quru sərhədləri boyu dənizin içərisinə 20 mil enində ərazi suları zonası və 20 millik "iqtisadi zona" verilməlidir. Hər bir dövlət bu ərazidə Xəzərin dibi, səthi, hava məkanı və onlardan istifadəni öz nəzarətində saxlaya bilər. İqtisadi zonada isə dövlətin fəaliyyət hüququ tanınsa da, digər sahilyanı ölkələr bu ərazinin hava məkanı və su səthindən istifadə edə bilərlər. Hər iki zolaqdan kənarda qalan orta hissə isə sahilyanı ölkələrin ümumi istifadəsinə verilir.

Rusiya Federasiyası isə reallıqları və qonşu dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qorunması zərurətini nəzərə alaraq, 1998-ci ildə öz radikal mövqeyini dəyişmişdir. Onun yeni təklifinə əsasən, Xəzərin dibinin sahilyanı dövlətlər arasında ədalətli bölgüsü məqsədilə quru sərhədlərinə paralel yeni orta xətt müəyyən olunmalı və bu zaman ümumi istifadə üçün dəniz səhti zolağı ayrılmalıdır. 2003-cü ildə Azərbaycan, Rusiya və Qazaxıstan arasında aparılan danışıqlar nəticəsində Xəzərin şimal hissəsinin milli sektorlara bölünməsi qərara alınmışdır. Bununla belə, statusun tam olaraq müəyyənləşdirilməsində bəzi qonşu dövlətlərin geosiyasi və geoiqtisadi maraqları yenə də ləngidici amil qismində qalmaqdadır. Məsələn, rəsmi Moskva və Tehran "ətraf mühitin mühafizəsi" bəhanəsi ilə Türkmənistanın qaz ehtiyatlarını Avropaya nəql etmək məqsədilə Transxəzər boru kəmərinin çəkilməsi planlarına kəskin reaksiya verməkdədirlər.

2016-cı il iyul ayının 13-də hər üç dövlətin xarici işlər nazirlərinin Astanada keçirilmiş görüşündə Xəzər dənizinin hüquqi statusuna dair birgə konvensiyanın hazırlanması məsələsinə də toxunulmuşdur. Həmin sənədin hazırlanması prosesi obyektiv səbəblərdən uzadılsa da, Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov konvensiya üzərində işin 90%-nin başa çatdırıldığını bildirmişdir. Qeyd etmək lazımdır ki, hər üç dövlət hazırda konsensusun, bütün tərəfləri razı sala biləcək status formatının qəbul olunmasında maraqlıdır və bu məsələnin həllinin vacibliyi Azərbaycan–Rusiya–İran üçtərəfli əməkdaşlıq formatında keçirilən zirvə görüşlərində də müzakirə olunur.

Azərbaycan Respublikasının müstəqil xarici siyasətində ikitərəfli münasibətlər əsas əməkdaşlıq formatı kimi nəzərdə tutulur. Lakin dünyada və regionda cərəyan edən geosiyasi və geoiqtisadi proseslər Azərbaycanın milli maraqlarına və qonşu dövlətlərlə ortaq mənafelərə uyğun olaraq yeni əməkdaşlıq mexanizmlərinin yaradılmasına, bərabərhüquqlu və faydalı əlaqələrin qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərinə söykənən üçtərəfli strateji münasibətlərin formalaşmasına zəmin yaradır. Bu innovativ strategiya ölkənin milli təhlükəsizlik, iqtisadi, sosial-mədəni inkişaf siyasətini möhkəmləndirməklə yanaşı, Azərbaycana yeni geosiyasi vəzifələrin həyata keçirilməsinə əlavə

imkanlar verir. Bu baxımdan rəsmi Bakının təşəbbüsü ilə yaradılan yeni əməkdaşlıq modeli – Azərbaycan–Rusiya–İran, Azərbaycan–Gürcüstan–Türkiyə, Azərbaycan–İran–Türkiyə və Azərbaycan–Türkmənistan–Türkiyə üçtərəfli əlaqələr formatı regionda sülh və təhlükəsizliyin qorunmasının, qarşılıqlı münasibətlərin daha yüksək səviyyəyə yüksəlməsinin bariz nümunəsidir.

Təsadüfi deyildir ki, hazırda Ermənistan istisna olunmaqla, region dövlətləri ilə üçtərəfli əməkdaşlıq formatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü ardıcıl və praqmatik xarici siyasətin mühüm aspektini təşkil etməkdədir. Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya və Türkmənistan arasında yeni bərabərhüquqlu münasibətlər formatı təkcə energetika və nəqliyyat sahəsində əlaqələrin deyil, digər əməkdaşlıq istiqamətlərinin daha da dərinləşməsi üçün etibarlı əsas yaratmaqdadır. Prezident İlham Əliyevin sözləri ilə desək: *"Hazırda bu üçtərəfli format nəinki regionda, hətta dünya miqyasında belə böyük maraq doğurur. Bu, əslində, nadir bir formatdır. Çünki burada üç müstəqil dövlət artıq bərabərhüquqlu münasibətlər – qarşılıqlı maraq və birbirinə hörmət əsasında müasir, mədəni, xalqlarımızın maraqlarına cavab verən münasibətlər qurmuşdur. Hesab edirəm ki, bu təcrübə başqa ölkələr üçün də cəlbedici ola bilər"*[44].

Bu baxımdan Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşdırılması yolu ilə regional əməkdaşlığın genişləndirilməsini qarşıya məqsəd qoyan Azərbaycan–Rusiya–İran formatında üçtərəfli münasibətlər eyni zamanda iqtisadiyyat, mədəniyyət və energetika sahələrində də əməkdaşlığın intensivləşdirilməsinə, regional miqyasda hər üç dövlətin milli maraqları ilə yanaşı, ortaq strateji mənafelərin ödənilməsinə yönəldilən yeni "geosiyasi şəbəkə"nin formalaşmasına əlverişli mühit yaratmaqdadır. Rusiya–İran–Azərbaycan formatında adları çəkilən dövlətlərin liderlərinin vaxtaşırı keçirilən görüşlərində əldə olunan nəticələr isə bu çərçivənin effektliyinin və davamlı inkişaf etdirilməsinin vacibliyinin əyani təzahürüdür. Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, İran, Rusiya və Azərbaycan təkcə

44 Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış etmişlər. /06 may 2014-cü il/- http:/ president.az/mobile/articles/11664

regional səviyyədə deyil, beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli və uğurlu əməkdaşlıq edir. Müstəqil xarici siyasət yürüdən Azərbaycan Respublikası digər iki dövlətə qarşı tətbiq olunan beynəlxalq sanksiyaların əleyhinə olmuş və öz mövqeyini açıq şəkildə bildirmişdir: *"Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət beynəlxalq hüquq normalarına, ədalətə və ölkəmizin milli maraqlarına əsaslanır. Qonşularımızla yaxın əlaqələr milli maraqlarımıza tam cavab verir. İran və Rusiya Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Hər iki ölkə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində həll olunmasını dəfələrlə bəyan etmişdir"*[45].

2016-cı il avqustun 8-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan, İran və Rusiyanın dövlət başçılarının – İlham Əliyev, Həsən Ruhani və Vladimir Putinin üçtərəfli zirvə görüşündə də müxtəlif sahələri əhatə edən və qarşılıqlı əlaqələrin inkişafına yönəldilən mühüm məsələlər müzakirə edilmiş, iqtisadiyyat, mədəniyyət, energetika, nəqliyyat, turizm, təhsil kimi vacib sahələr üzrə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsinin əhəmiyyəti barədə ümumi razılığa gəlinmişdir. Eyni zamanda, beynəlxalq terrorizmə, ekstremizmin müxtəlif təzahürlərinə qarşı birgə mübarizə aparılması, yeni enerji layihələrinin reallaşdırılması, Şimal–Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsi haqqında ortaq qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev üçtərəfli format əsasında dövlətlərarası əlaqələrin perspektivlərinə toxunaraq demişdir: *"Ölkələrimiz həmişə BMT və digər beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyirlər. Azərbaycan İran ilə İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində, Rusiya ilə ATƏT, MDB, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurla əməkdaşlıq edir. Sadaladığım təşkilatlarda üç ölkə daim bir-birini dəstəkləyir"*[46]. Prezident İlham Əliyev üçtərəfli əməkdaşlıq formatının Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir etmək

45 Bakıda Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli zirvə görüşü keçirilib, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı. /08 avqust 2016-cı il/ - http://president.az/mobile/articles/20772
46 Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli zirvə görüşündə İlham Əliyevin giriş nitqi /08 avqust 2016-cı il/ - http://www.president.az/articles/20843

imkanlarına əminliyini bildirərək, hər iki dövlətin Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşdığını, problemin beynəlxalq hüquq çərçivəsində nizamlanmasıının vacibliyini dəfələrlə bəyan etdiklərini də diqqətə çatdırmışdır: *"Münaqişə ilə bağlı mövcud olan status-kvo qəbuledilməzdir. Münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Münaqişənin həll olunması üçün ilk növbədə Azərbaycan əraziləri işğaldan azad edilməlidir"*[47]. Azərbaycan dövlətinin başçısı qonşu Rusiya və İran ilə əməkdaşlığın perspektivlərinə və qarşılıqlı faydalı əlaqələrin daha da inkişaf etdirilməsi zərurətinə toxunaraq, çıxışını bu sözlərlə tamamlamışdır: *"Yaratdığımız yeni üçtərəfli əməkdaşlıq formatı böyük potensiala malikdir. Bu, çox önəmli, yeni geosiyasi təşəbbüsdür. Üçtərəfli əməkdaşlıq regionda sülhün, təhlükəsizliyin, sabitliyin təmin olunmasına xidmət edəcəkdir. İqtisadi əməkdaşlıq, energetika, nəqliyyat sektorlarında üçtərəfli əməkdaşlıq xalqlarımızın rifah halının yaxşılaşmasını təmin edir. Əsasını qoyduğumuz bu format beynəlxalq aləmdə özünə layiq yerini tutacaq. Biz bu gün mehriban qonşuluq nümunəsini göstəririk. Biz bu gün sübut edirik ki, əgər qarşılıqlı hörmət, xoş niyyət varsa, arzularımız səmimidirsə, hətta bizim qeyri-sabit, böhran və münaqişələrlə dolu olan regionumuzda ölkələrimizi risklərdən qoruya, sabitliyi möhkəmləndirə, əməkdaşlığı dərinləşdirə bilərik"*[48]. Nəqliyyat sektorunda əməkdaşlıqdan danışan İlham Əliyev demişdir ki, Şimal–Cənub nəqliyyat dəhlizi strateji əhəmiyyət daşıyan transmilli layihədir və gələcəkdə bir çox ölkələr bu dəhlizdən istifadə edəcəklər. Bu dəhlizin çox böyük iqtisadi səmərəsi vardır. Tranzit yüklərin daşınması üçün vaxt baxımından da bu yol çox əlverişlidir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin həmkarları ilə Bakı görüşünün ciddi geosiyasi nəticələrinin ola biləcəyini xüsusilə qeyd etmişdir. O öz çıxışında Azərbaycan və İranın Rusiya üçün mehriban qonşular və mühüm tərəfdaş olduqlarını xüsusi qeyd etmişdir. Onun sözlərinə görə, hər üç ölkəni birləşdirən əsas amil onların regional və qlobal məsələlərə yanaşmanı əlaqələndirməyə hazır olmaları,

47 Yenə orada
48 Yenə orada

ticari-iqtisadi sahədə çoxplanlı praktiki əməkdaşlığı bundan sonra da genişləndirmək istəyidir. Sonra V.Putin Rusiyanın mövqeyi baxımından xüsusi aktuallıq kəsb edən bəzi əməkdaşlıq məsələlərinin əhəmiyyətini vurğulamışdır. Bundan başqa, Xəzər dənizi ilə əlaqəli problemlərin nizamlanmasında üçtərəfli dialoqun vacibliyini diqqətə çatdıran V.Putin Xəzər dənizinin hüquqi statusu barədə konvensiya üzərində işin tezliklə tamamlanmasına və onun müddəalarının reallaşdırılmasının Xəzəryanı 5 ölkənin mənafelərinə uyğun olmasına əminliyini ifadə etmişdir. Rusiya Prezidenti Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin Qərb qolunun yaradılması, energetika üzrə əlaqələrin genişləndirilməsi planlarını da diqqətə çatdırmışdır: *"İlk növbədə Xəzər regionunda neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi layihələrinin reallaşdırılmasını prioritet hesab edirik. Biz hasil edilən xammalın daşınması üçün boru kəməri infrastrukturundan birgə istifadə edilməsinin qarşılıqlı faydalı sxemlərini də müzakirə etməyə hazırıq"*[49].

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani həmkarları ilə razılaşaraq, qonşu ölkələr arasında əməkdaşlığın yeni formatının regionda geosiyasi və coğrafi baxımdan mühüm olduğunu vurğulamışdır. Onun fikrincə, üç ölkənin eyni mövqeyə, qarşılıqlı etimada sahib olması müxtəlif sektorlarda, xüsusilə mədəni, iqtisadi sahələrdə potensialı üzə çıxarmağa imkan yaradacaq. Bu ölkələrin bir-birinə yardım etmələri regionda mövcud olan təhdidlərə qarşı mübarizə sahəsində əməkdaşlığa da töhfə verə bilər: *"Müxtəlif potensiallardan istifadə, enerji məsələləri, habelə geosiyasi, coğrafi mövqe üç qonşu ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından böyük bir fürsətdir. Digər tərəfdən, terrorizm, ekstremizm, ekoloji sahədə müxtəlif problemlərin yaranması, mütəşəkkil cinayətkarlıq və digər problemlərlə mübarizə hər üç ölkənin anlaşmaya nail olmasını tələb edir"*[50].

Görüş zamanı hər üç dövlətin maraqlarına aid olan mühüm məsələyə – Xəzər dənizinin statusu ətrafında aparılan müzakirələrə də toxunulmuş və əldə olunan ümumi qənaət prezidentlərin qəbul

49 Bakıda Azərbaycan, İran və Rusiya dövlət başçılarının üçtərəfli zirvə görüşü keçirilib. /08 avqust 2016-cı il/ - http://www.president.az/articles/20772

50 Yenə orada

etdikləri bəyannaməyə daxil edilmişdir[51]. Bəyannamədə Xəzər dənizinin statusu ilə bağlı Azərbaycan, Rusiya və İran prezidentləri konkret mövqe nümayiş etdirməklə bu məsələnin həllində səmimi və maraqlı olduqlarını, regional təhlükəsizliyin təminatında birgə səylərin əhəmiyyətini diqqətə çatdırmışlar[52]. Rusiya və İran liderləri onu da etiraf etmişlər ki, həll olunmamış münaqişələr, o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi regional əməkdaşlıq üçün ciddi maneədir.

Beləliklə, strateji istiqamətlər üzrə üçtərəfli əməkdaşlıq zərurəti Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası prezidentlərinin 2016-cı il avqustun 6-da imzaladıqları birgə bəyannamənin aşağıdakı müddəalarında öz əksini tapmışdır:

- *Tərəflər bərabərhüquqlu və qarşılıqlı əməkdaşlıqlarının hərtərəfli inkişafını, eləcə də qarşılıqlı maraq kəsb edən məsələlərin bütün sahələri üzrə müxtəlif səviyyələrdə siyasi dialoqu intensivləşdirməyi və genişləndirməyi davam etdirəcəklər;*
- *Tərəflər terrorçuluq, ekstremizm, transmilli mütəşəkkil cinayətkarlıq, silahların, narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi, insan alveri və informasiya-kommunikasiya texnologiyaları sahəsində cinayətkarlıqla mübarizə aparılmasında qətiyyətlidirlər. Onlar beynəlxalq ictimaiyyəti Birləşmiş Millətlər Təşkilatının mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə olan həmin çağırış və təhdidlərlə səmərəli mübarizə aparılması üçün səylərin birləşdirilməsinə çağırırlar;*
- *Tərəflər etiraf edirlər ki, regiondakı həll olunmamış münaqişələr regional əməkdaşlığa əsas maneədir və bu xüsusda onların tezliklə beynəlxalq hüququn prinsip və normaları və bu çərçivələrdə qəbul edilmiş qərar və sənədlər əsasında danışıqlar vasitəsilə sülh yolu ilə həll olunması vacibliyini vurğulayırlar;*
- *Tərəflər Xəzər dənizini sülh, dostluq, təhlükəsizlik və əməkdaşlıq dənizi kimi nəzərdən keçirərək Xəzər dənizinin hüquqi statusu haqqında*

51 Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası prezidentlərinin bəyannaməsi. /09 avqust 2016-cı il/ - http://azertag.az/xeber/Azerbaycan_Respublikasi_Iran_Islam_Respublikasi_ve_Rusiya_Federasiyasi_Prezidentlerinin_BAYANNAMASI-981209

52 Azərbaycan–İran–Rusiya görüşü: üçtərəfli əməkdaşlıq formatının yeni nümunəsi. /10.08.2016/ http://newtimes.az/az/relations/4742/

Konvensiyanın tezliklə razılaşdırılması və qəbul edilməsinin vacibliyini qəbul edirlər;

- *Tərəflər bərabərhüquqluluq və qarşılıqlı fayda prinsipləri əsasında iqtisadiyyatın müxtəlif sahələrində hərtərəfli əməkdaşlıqlarını intensivləşdirəcəklər;*
- *Tərəflər sərmayələrin qorunması və təşviqi sahəsində regional və beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini bir daha təsdiqləyir və bank sahəsində əməkdaşlıqlarının genişləndirilməsi də daxil olmaqla sərmayə layihələrinin həyata keçirilməsinə və yeni texnologiyaların cəlb edilməsinə yardım edən əlverişli şərtlərin dəstəklənməsinin zəruriliyini vurğulayırlar;*
- *Tərəflər regionun iqtisadi artımı və beynəlxalq enerji təhlükəsizliyinə töhfə vermək üçün regional və beynəlxalq enerji və nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsi məqsədilə enerji və nəqliyyat sahələrində əməkdaşlığı intensivləşdirəcəklər;*
- *Tərəflər regional və beynəlxalq təbii qaz bazarlarının davamlı fəaliyyət göstərməsi üçün Azərbaycan, İran və Rusiyanın verdikləri vacib töhfəni qeyd edir və bu sahə üzrə, o cümlədən təbii qazın hasilatı, nəqli və çatdırılması sahəsində texnologiya mübadiləsi yolu ilə əməkdaşlığın daha da genişləndirilməsinə tərəfdar çıxırlar. Bununla əlaqədar onlar beynəlxalq qurumlar çərçivəsində, eləcə də ikitərəfli və üçtərəfli formatlarda əməkdaşlığı və qarşılıqlı fəaliyyəti daha da möhkəmləndirəcəklər;*
- *Tərəflər Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə sərnişin və yüklərin daşınmasının həyata keçirilməsində mövcud imkanların genişləndirilməsi məqsədilə nəqliyyat-kommunikasiya infrastrukturlarının inkişafı üçün səmərəli tədbirlər görəcəklər;*
- *Tərəflər Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizinin inkişafı və səmərəliliyinin artırılması çərçivəsində dəmir yollarının birləşdirilməsi üzrə yeni layihələrin qarşılıqlı fayda əsasında həyata keçirilməsinə bundan sonra da töhfə verəcəklər və s.*[53]

53 Azərbaycan Respublikası, İran İslam Respublikası və Rusiya Federasiyası prezidentlərinin bəyannaməsi./09.08.2016/ - http://azertag.az/xeber/Azerbaycan_Respublikasi_Iran_Islam_Respublikasi_ve_Rusiya_Federasiyasi_Prezidentlerinin_BAYANNAMASI-981209

Humanitar əlaqələr

Azərbaycan dövlətinin xarici siyasət strategiyasında "yumşaq güc" – humanitar siyasət mədəniyyətlərarası dialoqun mühüm vasitələrindən biri olmaqla, qarşılıqlı hörmət və etimada, bərabərhüquqlu əməkdaşlığa, beynəlxalq hüququn normalarına söykənir. Bu baxımdan ölkəmizin şimal qonşusu olan Rusiya Federasiyası ilə humanitar əlaqələri də bu gün yüksəliş mərhələsindədir. Bu siyasət Azərbaycanın məsuliyyətli və etibarlı tərəfdaş kimi müsbət obrazının formalaşdırılmasına, tarix və mədəniyyyətinin təbliğinə, onun üzləşdiyi problemlər, xüsusilə Ermənistanın yürütdüyü işğalçılıq siyasəti və onun nəticələri, münaqişə haqqında həqiqətlərin Rusiya ictimaiyyətinə çatdırılmasına, elm, səhiyyə, mədəniyyət, incəsənət, turizm və s. sahələrdə qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsinə yönəldilmişdir.

Bəzən "alternativ diplomatiya" da adlandırılan humanitar əməkdaşlıq siyasi səylərdən daha çox xalqlar arasında tarixən formalaşan qarşılıqlı əlaqələrə, insani münasibətlərə söykənir. Bu prosesin uğurla nəticələnməsində siyasi amillərin pozitiv rolu isə həmin təbii əlaqələri istiqamətləndirmək, inkişaf tendensiyalarını müəyyənləşdirmək və dövrün çağırışlarına cavab verən səviyyəyə qaldırmaqdır. Məhz Azərbaycan və Rusiya xalqlarının ənənəvi tarixi əlaqələrinə söykənən çoxşaxəli və qarşılıqlı humanitar əməkdaşlıq dövlətlərimiz arasındakı strateji tərəfdaşlıq münasibətləri çərçivəsində öz mövqelərini daha da möhkəmləndirə bilmiş, ictimai təfəkkürü yeni dəyərlərlə zənginləşdirmişdir. Rusiya və Azərbaycan arasında humanitar əlaqələr tarixi zərurətdən yaranan körpü funksiyasını daşıyaraq, bir tərəfdən, xalqlarımızı fərqli və özünəməxsus milli-mədəni xüsusiyyətlər, maddi mədəni və qeyri-maddi mədəni irs nümunələri ilə tanış etmək yolu ilə hər dövlətin imicinin formalaşmasına yönəldilir, digər tərəfdən, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsində müsbət təsirini göstərir[54].

Təbii ki, ikitərəfli Azərbaycan–Rusiya münasibətlərində humanitar

54 Пашаева Г. Азербайджан-Россия: Гуманитарное сотрудничество как фактор стратегического партнерства/ Российско-Азербайджанские отношения за 20 лет. История и перспективы, Баку, 2011

təyinatlı əlaqələrin, eləcə də mədəniyyət, təhsil, səhiyyə, turizm və s. sahələrdə əməkdaşlığın müsbət rolu vardır. Məsələn, hər iki dövlət arasında münasibətlərin inkişafını zəruri edən mühüm amillərdən biri Rusiya və Azərbaycanda məskunlaşan diasporalardır. SSRİ-nin süqutundan sonra Cənubi Qafqaz regionunda etnik rusların ən çox yaşadıqları dövlət Azərbaycan Respublikasıdır. Rəsmi məlumata əsasən, Azərbaycan Respublikasında 140 mindən çox etnik rus yaşayır. Onların bir qismi, XIX əsrin əvvəllərində Rusiya ərazisindən sürgün edilən dini azlıqlar pravoslavlığın malakan təriqətinə tapınan ruslardır. İkinci qrup XX əsrin ilk illərində Bakının və Azərbaycanın bəzi bölgələrinin sənayeləşdirilməsi zamanı buraya köçənlərdir. Digər qrup isə İkinci Dünya müharibəsindən sonra Azərbaycanda məskunlaşanlardır.

Xüsusilə vurğulanmalıdır ki, dövlət müstəqilliyinin 25 ili ərzində Azərbaycan Respublikasının qazandığı ən böyük nailiyyətlərindən biri çoxmillətli və çoxmədəniyyətli dövlət olaraq ərazisində yaşayan bütün xalqların ana dillərini, milli mədəniyyətlərini qoruması və inkişaf etdirməsidir. Tarixi köklərə və ənənələrə malik tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsindən, buradakı xalqların və dinlərin birgəyaşayış mühitinin formalaşmasından, fərqli inanc, yaşam tərzi və adətlərin qayğı ilə mühafizəsindən söz düşəndə malakan təriqətinə etiqad edən etnik rusların məskunlaşdığı kənd və qəsəbələrin adları da çəkilir.

2009-cu il oktyabrın 29-da Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva İsmayıllı rayonuna səfərləri zamanı İvanovka sakinləri ilə görüşmüş və kəndin təməlinin qoyulmasının 150 illiyi münasibətilə keçirilmiş şənliklərdə iştirak etmişlər. Həmin görüşdə dövlət başçısı Ümummilli liderin tarixi sözlərini bir daha təkrarlayaraq Azərbaycan dövlətinin ivanovkalıların normal yaşayışı və firavanlığı üçün təminatçı olduğunu bir daha diqqətə çatdırmışdır. Prezident görüş zamanı demişdir: *"Heydər Əliyevin abidəsi önünə çiçəklər qoymuşam və abidə ilə üzbəüz mənim 4 il əvvəl dediyim sözləri gördüm. Bu sözlər sizin də yadınızdadır, mənim də yadımdadır və ən başlıcası, bu 4 ildə həmin sözlər əməli işə çevrilib. Mən sizin qarantınızam. Mənə həmişə ümid edə bilərsiniz.*

Mən sizə həmişə kömək edəcəyəm. Mən Heydər Əliyevin siyasətini bütün istiqamətlərdə davam etdirəcəyəm"[55].

Bundan başqa, Azərbaycanın müstəqillik əldə etdiyi dövrdə rus dili populyarlığını qoruyub-saxlamışdır. Hazırda Azərbaycanın 20-dən çox ümumtəhsil məktəbində rus dilində tam orta təhsil almaq mümkündür. Respublikanın 330-a yaxın məktəbində isə dərslər həm Azərbaycan, həm də rus dillərində keçilir. Dövlət ali məktəblərində və özəl ali təhsil müəssisələrinin bir hissəsində rus dilində fakültələr vardır və burada 16 mindən çox tələbə təhsil alır. Bundan başqa, Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları da açılmışdır.

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan və Rusiya arasında humanitar əlaqələrin inkişafında, xalqların bir-birini qarşılıqlı şəkildə tanımasında, mədəniyyət, incəsənət sahələrində əməkdaşlığın genişləndirilməsində, Azərbaycan haqqında həqiqətlərin Rusiya ictimaiyyətinə çatdırılmasında, bu ölkədəki azərbaycanlı diasporasının yerli cəmiyyətə inteqrasiyasında Heydər Əliyev Fondu öz layiqli töhfələrini verməkdədir. Bu sahədə fondun vitse-prezidenti, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının üzvü Leyla Əliyevanın və onun rəhbərliyi ilə fəaliyyət göstərən Rusiyada Azərbaycanlı Gənclər Birliyinin *(AMOR)* xalqlar və mədəniyyətlər arasında ənənəvi dialoqun daha da möhkəmləndirilməsində, Rusiya ərazisində müxtəlif humanitar aksiyaların keçirilməsində böyük xidmətləri olmuşdur. Ötən müddət ərzində Leyla Əliyeva və onun rəhbərlik etdiyi təşkilat Azərbaycanın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının Rusiya Federasiyasında təbliği istiqamətində də mühüm nailiyyətlərə imza atmışdır. Bu xoşməramlı missiya Rusiya dövləti tərəfindən də yüksək qiymətləndirilmiş, 2015-ci ildə Rusiya Prezidenti Vladimir Putinin sərəncamına əsasən Leyla Əliyeva "Puşkin" medalı ilə təltif edilmişdir. Leyla Əliyeva bu mükafata dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsindəki xidmətlərinə görə layiq görülmüşdür. Bundan başqa, Həştərxan şəhərində Knyaz

55 Prezident İlham Əliyev İsmayıllının İvanovka kəndində olmuşdur. / 29.10.2009/ - http://azertag.az/xeber/PREZIDENT_ILHAM_ALIYEV_ISMAYILLININ_IVANOVKA_KANDINDA_OLMUSDUR-457576

Vladimirin abidəsinin ucaldılması və ətraf ərazidə yeni parkın salınmasına görə Leyla xanım Əliyeva III dərəcəli "Knyaginya Olqa" ordeni ilə təltif olunmuşdur. Eyni zamanda Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Həştərxan şəhərində Rusiya–Azərbaycan dostluq körpüsünün inşası, Heydər Əliyev parkında "Arzu" uşaq əyləncə şəhərciyinin salınması və digər sosial layihələrin həyata keçirilməsi ilə əlaqədar o, "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordenini almışdır.

Rusiyada Azərbaycan gəncləri hərəkatı liderinin müntəzəm olaraq xeyriyyəçilik aksiyaları təşkil etməsi, bir sıra ümumtəhsil məktəblərinin bərpası, yeni parkların salınması, Azərbaycan dilində bazar günü məktəblərinin açılması və onların müasir dərs vəsaiti, tədris texnikası ilə təminatı təkcə Moskva və Sankt-Peterburq şəhərləri ilə məhdudlaşmır. Volqoqrad və Həştərxan vilayətində, İvanovo, Tula, Tver və Surqut şəhərlərində də bu istiqamətdə məqsədyönlü fəaliyyət göstərilir. Leyla Əliyeva 2008-ci il mayın 8-də Şuşa şəhərinin işğalının ildönümü günü "Xocalıya ədalət!" kampaniyasının təməlini qoymuş, dünyanın 30 ölkəsində, o cümlədən Rusiyada bu deviz altında vətənpərvərlik aksiyaları keçirilmişdir. Leyla Əliyevanın baş redaktorluğu ilə Moskva şəhərində rus dilində nəşr olunan *"Baku" jurnalı* da Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, adət-ənənələri və müasir həyatı haqqında Rusiya oxucularını məlumatlandırmaqdadır. 2011-ci ildən isə həmin jurnalın ingilisdilli versiyasının – "Baku International" nəşrinin çapına başlanılmışdır.

Rusiyanın müxtəlif bölgələrində – Şimali Qafqazda, Tatarıstanda, Dağıstanda, Moskvada, Tümendə və başqa yerlərdə etnik azərbaycanlı olan yüz minlərlə Rusiya vətəndaşı yaşayır. Eyni zamanda Rusiyada təqribən 630 min Azərbaycan vətəndaşı da daimi qeydiyyata alınmışdır. Rusiya Dövlət Dumasında MDB və soydaşlar üzrə komitənin sədri Aleksey Ostrovski müsahibələrinin birində Rusiya–Azərbaycan münasibətlərində diasporanın əhəmiyyətinə toxunaraq demişdir: *"Rusiyada yaşayan Azərbaycan diasporasının sayı ən azı iki milyon nəfərdir. Onlar eyni zamanda Azərbaycanda sosial sabitliyin mühüm amillərindən*

biridir"[56]. Hər iki dövlətdə milli icmaların mədəni, siyasi hüquqlarının təminatı, onların ana dilində ibtidai təhsil alması, milli mədəniyyətlərini qoruması üçün səmərəli işlər görülmüşdür. Rusiyada və Azərbaycanda diaspora nümayəndələri təşkilatlanmış, onların milli mədəniyyət mərkəzləri açılmış, vətəndaşları olduqları dövlətin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak etmələri üçün əlverişli şərait və hüquqi baza yaradılmışdır.

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vladimir Doroxin humanitar əlaqələrin əhəmiyyəti haqqında yazır: *"25 il əvvəl Rusiya və Azərbaycan iki ölkə arasında insani və humanitar əlaqələrin qorunub saxlanılmasına görə yüksək dərəcədə məsuliyyət göstəriblər. Axı bizim münasibətlərimiz tək müqavilə və sazişlərin, bayramlar ərəfəsində tədbirlərin keçirilməsi toplusu deyil. Hər iki dövlət yaxşı başa düşür ki, bu münasibətlərin effektliyi milyonlarla insanın taleyinə təsir göstərir. Azərbaycanda elə bir ailə tapmaq mümkün deyil ki, onların yaxın və uzaq qohumlarından biri Rusiyada olmasın. Rusiyada azərbaycanlıların nəhəng, çoxminli ordusu çalışır, oradan gələn vəsaitlər əksər ailələrin maddi rifahının mənbəyidir. Öz növbəsində, Azərbaycanda Qafqazda ən böyük rusdilli icma yaşayır. Müqavilə-hüquq bazasının yaradılması yeni geosiyasi şəraitdə həmin insanlara hər iki ölkənin ərazisində özlərini rahat hiss etmək və potensiallarını tam realizə etmək imkanını yaradır. Bu isə bizim münasibətlərdə ikitərəfli ticari əlaqələr və yaxud mədəni tədbirlərdən az əhəmiyyət daşımır"*[57].

Azərbaycan və Rusiya arasında humanitar sahədə əməkdaşlıq əlaqələrinin bütün aspektləri ikitərəfli saziş və müqavilələrlə tənzimlənir. Həmin əlaqələrin əsas istiqamətləri və xarakteri isə 2004-cü ildə imzalanmış Moskva Bəyannaməsində öz əksini tapmışdır. Sənəddə bildirilir: *"Azərbaycan Respublikası və Rusiya Federasiyası iki ölkənin xalqlarının tarixi və mədəni yaxınlığını, Azərbaycan və Rusiya, müvafiq olaraq, böyük Azərbaycan və Rusiya diasporalarının mövcudluğunu nəzərə alaraq təsdiq edirlər ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası*

56 Интервью с председателем Комитета Государственной Думы по делам Содружества Независимых Государств и связям с соотечественниками Алексеем Островским. - http://www.1news.az/mobile/interview/20080702112637943.html

57 Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.259

arasında humanitar sahədə təmasların və əməkdaşlığın inkişafı möhkəm və obyektiv əsasa malikdir. Tərəflər humanitar, informasiya əməkdaşlığının müqavilə-hüquq bazasının genişləndirilməsi və təkmilləşdirilməsinə, mədəniyyət, elm, təhsil, səhiyyə və sosial təminat sahələrində qarşılıqlı fəaliyyətə yardım göstərəcəklər"[58]. Bundan başqa, həm Azərbaycan, həm də Rusiya gənclər və tələbələrin mübadiləsi, kütləvi informasiya vasitələri arasında əlaqələr yolu ilə humanitar sahədə təmasların inkişafında, tələbə və şagirdlərin birgə təhsil proqramlarının, mütəxəssislərin hazırlanması və təkmilləşdirilməsində, təhsil proqramlarının mübadiləsində, Azərbaycan və rus dillərinin öyrənilməsində və milli ədəbiyyatın yayılmasında, elm, ədəbiyyat və incəsənət xadimləri arasında əlaqələrin möhkəmləndirilməsində, milli azlıqların dil, mədəni və dini xüsusiyyətlərinin qorunması və inkişafında qarşılıqlı fəaliyyətə dair öhdəliklər götürmüşlər.

Azərbaycan humanitar sahədə Rusiyanın federal hökuməti ilə yanaşı, onun subyektləri – Moskva, Moskva vilayəti, Həştərxan, Sankt-Peterburq, Ulyanovsk, Kurqan, Sverdlovsk, Kabarda-Balkar, Dağıstan, Stavropol, Çelyabinsk və digərləri ilə də sıx əməkdaşlıq edir. Azərbaycanla Rusiya arasında humanitar münasibətlər mədəniyyət, elm və təhsil üzrə uzunmüddətli əməkdaşlıq proqramları ilə tənzimlənir. Müntəzəm olaraq Rusiyada "Azərbaycan ili", Azərbaycanda isə "Rusiya ili" adlı mədəni tədbirlər çərçivəsində qarşılıqlı mədəniyyət mübadiləsi aparılır, konsertlər, teatr tamaşaları, sərgilər, kino həftələri və s. təşkil edilir. Humanitar sahədə əməkdaşlığın tənzimlənməsi məqsədilə "Mədəni və elmi əməkdaşlıq haqqında", "Yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyası sahəsində əməkdaşlıq haqqında", "Elmi-texniki əməkdaşlıq barədə", "Təbabət və səhiyyə sahəsində əməkdaşlıq haqqında", "İnformasiya-mədəniyyət mərkəzlərinin təsis edilməsi və fəaliyyətinin şərtləri haqqında", "Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı kütləvi informasiya vasitələri müxbirlərinin və Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı kütləvi informasiya vasitələri müxbirlərinin statusu haqqında" və s. hökumətlərarası sazişlər imzalanmışdır.

58 Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi. /06 aprel 2004-cü il/ - http://e-qanun.az/framework/5955

2005-ci il Rusiyada "Azərbaycan ili" kimi qeyd edilmişdir. Moskvada, Dövlət Kreml Sarayında Azərbaycan Respublikası və Rusiya Federasiyasının prezidentləri – İlham Əliyev və Vladimir Putinin iştirakı ilə Rusiyada "Azərbaycan ili"nin təntənəli açılış mərasimi olmuşdur. 2006-cı il isə Azərbaycanda "Rusiya ili" kimi qeyd olunmuşdur. Həmin tədbirlərdə hər iki ölkənin mədəniyyət və incəsənət xadimləri konsert proqramları ilə çıxış etmiş, teatr truppalarının qastrol səfərləri, müxtəlif sərgilər, kino həftələri və s. təşkil edilmişdir. Bu, ölkələrimiz arasında mədəni əlaqələri daha da sıxlaşdırmaqla bərabər, ikitərəfli tərəfdaşlığın dərinləşməsinə, qarşılıqlı etimadın güclənməsinə əlverişli şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirin təntənəli açılış mərasimində çıxış edərkən bildirmişdir: *"Şübhəm yoxdur ki, bu il ərzində rusiyalılar bugünkü Azərbaycanın nə ilə yaşadığından, necə inkişaf etdiyindən və nə kimi nailiyyətlərinin olduğundan daha yaxşı xəbər tutacaqlar… Biz Rusiyada Azərbaycan ilinin keçirilməsinə böyük əhəmiyyət veririk. Əminəm ki, bu bir il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxın olacaq, ölkələrimiz arasında ikitərəfli münasibətlər daha da möhkəmlənəcəkdir. Bu münasibətlər indi də kifayət qədər yüksək səviyyədədir. Ölkələrimiz arasında çox fəal siyasi dialoq var. Biz regional məsələlərdə, regional inkişafda, regional təhlükəsizlikdə iştirak edirik, iqtisadi əlaqələr çox fəal inkişaf edir... Arzu edirəm ki, Rusiyada "Azərbaycan ili" uğurla keçsin. Hesab edirəm ki, belə də olacaq və dediyim kimi, biz bir-birimizi daha yaxşı tanıyacaq, başa düşəcək və bir çox məsələləri birlikdə həll edəcəyik"*[59].

2006-cı ildə isə Azərbaycanda "Rusiya ili" ilə bağlı bir sıra tədbirlər keçirilmişdir. Həmin il ərzində Azərbaycan əhalisi Rusiyanın müxtəlif sahələrdə qazandığı nailiyyətlərdən xəbər tutmaq, ünsiyyət imkanlarını genişləndirmək üçün geniş imkanlar əldə etmişdir. Bakıda və regionlarda Rusiya Federasiyasının ictimai həyatının, iqtisadiyyatının, sənayesinin, mədəniyyətinin müasir mənzərəsini əks etdirən tədbirlər təşkil edilmişdir. Hələ 2010-cu il yanvarın 22-də Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumunda ikitərəfli

59 Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyada Azərbaycan ilinin təntənəli açılış mərasimində nitqi. /16 fevral 2005-ci il/ - http://archive.president.az/articles.php?item_id=20070816102956528&sec_id=11

münasibətlərin daha geniş sahələri əhatə etməsi üçün hər iki ölkənin geniş potensiala malik olması, bu əlaqələrdə Rusiyanın bir sıra regionlarının da iştirakının vacibliyi diqqətə çatdırılmışdır. Prezident İlham Əliyev həmin tədbirin Rusiya–Azərbaycan münasibətləri üçün əhəmiyyəti haqqında demişdir: *"Rusiyanın və Azərbaycanın birgə təşəbbüsü ilə keçirilən bu ənənəvi forum qısa müddətdə humanitar əməkdaşlıq, mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsi üçün çox mühüm bir məkana çevrilmişdir... Bu, bizim əməkdaşlığın əsasını təşkil edən humanitar sahədə əlaqələrin möhkəmləndirilməsi çərçivəsində siyasətimizə uyğundur"*[60]. Bu tədbir Azərbaycan–Rusiya humanitar əlaqələri sistemində yeni mərhələ olmaqla, əməkdaşlığın potensiallarını, perspektiv istiqamətlərini aydın şəkildə nümayiş etdirmişdir. Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumu beynəlxalq əməkdaşlıq prinsiplərinə, sülh və dostluq dəyərlərinə öz töhfəsini vermişdir. Tədbir Rusiyada və rusdilli əhali arasında Azərbaycan həqiqətlərinin əhatəli şəkildə təbliği baxımından da çox mühüm əhəmiyyət kəsb etmişdir.

Ötən dövr ərzində Azərbaycan və Rusiya arasında humanitar əməkdaşlıq çərçivəsində xeyli sayda uğura imza atılmışdır. Məsələn, 2010-cu ildə "YUNESKO-nun dünya mədəni irsinin şah əsərləri siyahısı Moskva şəhərində" layihəsi çərçivəsində Qlinka adına Mərkəzi Musiqi Mədəniyyəti Muzeyində Azərbaycan muğamı axşamı keçirilmiş, 2011-ci ildə M.Rudomino adına Xarici Ədəbiyyat Dövlət Kitabxanasında Azərbaycan Mədəniyyət Mərkəzi açılmış, dünyanın ən qabaqcıl təhsil müəssisələrindən olan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı fəaliyyətə başlamış, iki il sonra filialın yeni tədris kompleksi istifadəyə verilmiş, 2009-cu ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, 2015-ci ildə isə İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları açılmışdır. Yeni təhsil ocaqları Azərbaycanda humanitar və tibb təhsilinin təkmilləşdirilməsi və bu sahədə dünyanın nüfuzlu ali təhsil mərkəzləri ilə əlaqələrin genişləndirilməsində əhəmiyyətli rol oynamaqdadır.

60 İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. /25 oktyabr 2013-cü il/ - http://www.president.az/articles/9795

Nəticə

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra onun Rusiya Federasiyası ilə münasibətlərinin dialektikası birmənalı dəyərləndirilməməlidir. Bu münasibətlər hazırkı strateji tərəfdaşlıq səviyyəsinə yüksələnədək çətin və ziddiyyətli yol keçmiş, ayrı-ayrı dövrlərdə gərgin xarakter almışdır. Yaranmış arzuolunmaz şərait bir tərəfdən 1990-cı illərin əvvəllərində Azərbaycana rəhbərlik edən qüvvələrin siyasi təcrübəsizliyinin təzahürü olsa da, digər tərəfdən Rusiyanın hakim dairələrinin Cənubi Qafqazı əvvəlkitək öz geosiyasi və geoiqtisadi mənafe çərçivəsində saxlamaq səylərinin nəticəsi idi. Eyni zamanda Rusiya Federasiyasının regionda sülh və təhlükəsizliyin bərqərar olunmasına dair bəyanatlarının əksinə olaraq, işğalçı Ermənistanı qeyri-qanuni yolla silah və sursatla təmin etməsi, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində birtərəfli mövqe tutması, əsassız bəhanələr irəli sürərək müstəqil siyasət yürüdən rəsmi Bakıya qarşı müxtəlif iqtisadi sanksiyalar tətbiq etməsi və s. münasibətlərə ciddi təsir etmişdir.

Lakin Ümummilli lider Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəlişindən sonra Rusiya–Azərbaycan münasibətləri radikal şəkildə yenidən qurulmuş, dövlətlərimiz və xalqlarımız arasında mehriban qonşuluq əlaqələrinin, qarşılıqlı faydalı əməkdaşlığın bərpası və möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, 1997-ci ildə iki ölkə arasında strateji tərəfdaşlığın əsasını qoymuş dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalanmışdır. Vladimir Putinin Rusiya Federasiyasının prezidenti seçilməsindən sonra rəsmi Moskvanın Azərbaycana münasibətində praqmatizm, konstruktiv yanaşma elementləri özünü getdikcə qabarıq şəkildə göstərməyə başlamış və son nəticədə gələcək strateji tərəfdaşlığı şərtləndirən tarixi sənəd – 2001-ci il yanvarın 1-də Azərbaycan Respublikasının və Rusiya Federasiyasının Bakı Bəyannaməsi qəbul edilmişdir. Birmənalı şəkildə qeyd etmək olar ki, 2001-ci ildə Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana ilk

rəsmi səfəri iki ölkənin qarşılıqlı münasibətləri tarixində dönüş anı kimi yadda qalmışdır. Bu gün Rusiya–Azərbaycan münasibətlərinin intensiv və dinamik inkişafı həmin səfərin və bu səfər zamanı Bakı Bəyannaməsinin imzalanmasının məntiqi nəticəsidir. Təbii ki, iki ölkənin dövlət başçıları – Ümummilli lider Heydər Əliyev və sonralar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiyanın dövlət başçısı Vladimir Putin arasındakı səmimi dostluq və tərəfdaşlıq münasibətləri dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynamışdır.

Təhlillərə əsasən, 1999-cu ildə Vladimir Putinin Rusiya Federasiyasının prezidenti seçilməsini və onun təşəbbüsü ilə 2000-ci ildə rəsmi Moskvanın MDB-yə üzv dövlətlərə yönəlik siyasətinin yeni konseptual əsaslarının formalaşmasını və həmin yanaşmanın Rusiya Federasiyasının Milli Təhlükəsizlik Konsepsiyasında, Hərbi Doktrinasında və xarici siyasət xəttində prioritet istiqamətlər qismində əks olunmasını Rusiya–Azərbaycan münasibətlərində yeni dövrün başlanğıcı hesab etmək olar. Məhz həmin dövrdən etibarən Rusiya Azərbaycanı, Azərbaycan da öz növbəsində Rusiyanı praqmatik və etibarlı tərəfdaş kimi tanımışdır. Dövlətlərimiz arasında strateji tərəfdaşlıq isə bir-birinin suverenlik hüquqlarına, milli maraqlarına qarşılıqlı hörmət əsasında qurulmuşdur. İndiyədək birgə səylər nəticəsində hər iki tərəf üçün çox əhəmiyyətli olan bir sıra məsələlərə aydınlıq gətirilmiş, qarşılıqlı faydalı həll yolları tapılmışdır. Ötən müddət ərzində hər iki dövlətin regional və beynəlxalq münasibətlər sistemində, sülh və təhlükəsizliklə bağlı məsələlərdə, iqtisadi əlaqələrdə ortaq mənafeləri müəyyən edilmiş və bu xətt bir sıra mühüm məsələlərdə həm rəsmi Bakının, həm də rəsmi Moskvanın eyni mövqedən çıxış etməsinə imkanlar açmışdır. Eyni zamanda son dövrlərdə Rusiya Federasiyası ATƏT-in Minsk Qrupu çərçivəsində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini nəzərəçarpacaq dərəcədə artırmışdır.

Azərbaycan və Rusiya arasında strateji tərəfdaşlıqdan irəli gələn yaxınlaşma dövlətlərimiz arasında iqtisadi əlaqələrin intensivləşməsinə, əməkdaşlıq sahələrinin genişlənməsinə səbəb

olmuşdur. Dünyada cərəyan edən iqtisadi problemlərə, neftin qiyməti ilə bağlı qlobal spekulyasiyalara baxmayaraq, hər iki dövlət ticari-iqtisadi əlaqələrdə, investisiya qoyuluşunda, birgə layihələrin icrasında və s. geniş potensiala malikdir və onların reallaşdırılması üçün əlverişli mühit formalaşdırılmışdır. Neft maşınqayırması, neft kimyası, metallurgiya, kənd təsərrüfatı maşınqayırması, ağır maşınqayırma, dağ-mədən, aviasiya, yeyinti və avtomobil sənayeləri, əczaçılıq və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmaqdadır. Bundan başqa, tərəflər arasında Xəzər dənizinin hüquqi statusu məsələsində də qarşılıqlı anlaşma yaranmış, Xəzər akvatoriyasının dostluq və əməkdaşlıq məkanı olmasına dair səylər davam etdirilməkdədir. Regionun əhəmiyyətli ölkələri olan Rusiya ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq əlaqələri müasir dövrdə dövlətlərarası münasibətlərin bütün sahələrini, o cümlədən çoxşaxəli humanitar əməkdaşlıq istiqamətlərini də əhatə edir.

O da qeyd edilməlidir ki, Qərb dövlətlərinin Moskvanın beynəlxalq siyasi-iqtisadi proseslərdən tədric olunmasına yönəldilmiş siyasəti, davamlı sanksiyalar, neftin qiymətinin sürətlə aşağı düşməsi və digər xarici təsir amilləri Rusiyanın iqtisadi vəziyyətini xeyli mürəkkəbləşdirmişdir. İqtisadi-maliyyə və müdafiə baxımından Rusiya Federasiyasından asılı olan və indiki dövrdə donor yardımlarının əhəmiyyətli hissəsini itirən Ermənistanın bu gün öz hamiləri ilə siyasi şantaj dilində danışması rəsmi Moskvanı Cənubi Qafqazın və regionun digər dövlətlərinə yönəlik siyasətinə yenidən baxmağa, strateji maraqlarında ciddi düzəlişlər etməyə sövq etmişdir:

- *hazırda Rusiya və Azərbaycan arasında ikitərəfli münasibətlər dövlətlərin hüquq bərabərliyi, bir-birinin suveren hüquqlarına hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanır;*
- *Rusiya–Azərbaycan strateji tərəfdaşlığı üçüncü dövlətə və ya dövlətlərə qarşı yönəldilməmişdir;*
- *hər iki dövlət bir-birinin daxili və xarici siyasətinə, milli maraqlarının ödənilməsinə müdaxilə etmir, regional və qlobal təhlükəsizlik, iqtisadi və humanitar əməkdaşlıq məsələlərində ortaq maraqlardan çıxış edir;*

- *Azərbaycan Respublikası praqmatik xarici siyasəti ilə ilk növbədə Türkiyə, İran, Gürcüstan və Rusiya kimi region dövlətləri, eləcə də ABŞ və Avropa ölkələri ilə bərabərhüquqlu və sabit münasibətlər qurulmasının tərəfdarıdır;*
- *bütövlükdə Rusiya–Azərbaycan münasibətləri bütün istiqamətlər üzrə dinamik şəkildə inkişaf etsə də, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də ədalətli həllini tapmaması bu əlaqələrin daha yüksək səviyyəyə qalxmasında yeganə ləngidici amildir;*
- *Azərbaycan dəfələrlə sübut etmişdir ki, onun yürütdüyü xarici siyasət, qlobal və regional iqtisadi layihələrdə, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının hasilatı və nəqli sahəsində fəaliyyəti Rusiyanın iqtisadi maraqlarına qarşı yönəldilməmişdir;*
- *hazırkı iqtisadi çətinliklər dövründə oxşar problemlərlə üzləşən Rusiya və Azərbaycan iqtisadiyyatın diversifikasiyası xəttini prioritet olaraq götürmüşlər və qeyri-neft sektorunu inkişaf etdirməklə iqtisadiyyatın neftdən asılılığının minimuma endirilməsinə çalışırlar. Bu istiqamətdə hər iki dövlətin birgə əməkdaşlıq perspektivləri vardır;*
- *dünyada milli, dini və irqi ayrı-seçkiliyin, bu zəmində qarşıdurmaların, ksenofobiyanın, ekstremizmin geniş vüsət aldığı bir şəraitdə multikulturalizm və tolerantlıq, mədəniyyətlərarası dialoq hər iki ölkədə dövlət siyasəti səviyyəsində dəstəklənir; Azərbaycan və Rusiya arasında xalq diplomatiyası dövlətlərarası münasibətlərin daha da möhkəmləndirilməsinə, mədəniyyətlərin qarşılıqlı şəkildə təbliğinə xidmət edir və s.*

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında tarixi ənənələrə əsaslanan münasibətlərin strateji tərəfdaşlıq həddinə yüksəldilməsi hər iki dövlətin milli maraqlarına, suverenlik hüquqlarına cavab verən və 25 illik yol keçərək reallaşan zərurətdir. Hər iki dövlət bu əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi üçün geniş siyasi imkanlara, iqtisadi potensiala və ən nəhayət, siyasi iradəyə malikdir. Həmin bərabərhüquqlu əlaqələr isə bu dövlətlərin bir-birinin suverenlik hüquqlarına, milli mənafelərə cavab verən müstəqil siyasətlərinə qarşılıqlı hörmət prinsiplərinə

əsaslanır. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında strateji tərəfdaşlıq münasibətlərinin daha geniş sahələri əhatə etməsi, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın davamlı inkişafı, problemlərin qarşılıqlı fəaliyyətlə aradan qaldırılması, regional sülh və təhlükəsizliyin təmin olunmasında daha fəal iştirakı üçün birgə səylər bundan sonra da davam etdiriləcəkdir.

Azərbaycan–İran münasibətləri

*Məsiağa Məhəmmədi**

Giriş

İran İslam Respublikası ilə münasibətlər müstəqil Azərbaycanın xarici siyasətində daim önəmli yer tutmuş, prioritet istiqamətlərdən birini təşkil etmişdir. Bu önəm, şübhəsiz, bir sıra tarixi-mədəni, geosiyasi və geoiqtisadi amillərlə şərtlənmişdir. Ötən 25 il ərzində iki ölkə arasında münasibətlər heç də həmişə hamar və birxətli səciyyə daşımasa da, hər iki dövlətin siyasi elitasında müştərək tarixi-mədəni irsə, ümumi mənafelərə istinadla, əlaqələrin mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində qurulması və inkişafına əsaslanan baxış üstünlük təşkil etmişdir.

Vaxtilə Ümummilli lider Heydər Əliyev ölkəmizin İranla münasibətlərini səciyyələndirərkən belə demişdi: *"Azərbaycanla İranın əlaqələrinin günü-gündən genişlənməsini və inkişafını istəməyimiz təbiidir, çünki biz qonşuyuq və eyni dinə qulluq edirik. Ölkəmiz heç bir başqa ölkə ilə bu qədər tarixi bağlılıqlara sahib olmayıb. Dövlətimizin siyasətinə əsasən İran İslam Respublikası Azərbaycanın qonşusu və dostudur, bu ölkə ilə dostluq və qardaşlıq daimidir və biz bunu daha da inkişaf etdirəcəyik"*[1].

İllər sonra İran İslam Respublikasının Prezidenti Həsən Ruhani Azərbaycanda rəsmi səfərdə olarkən həmin fikri bir qədər obrazlı şəkildə belə ifadə etmişdir: *"Biz Azərbaycanla İranı kökü bir olan ağacın budaqları hesab edirik. Biz əsrlər boyu bir yerdə olmuşuq, birgə yaşamışıq, bir-birimizin süfrəsinin başında əyləşmişik. Arazın bu tayı ilə o tayı bir-birinə qohumdur, qədim ailə bağlılıqlarına və dostluq əlaqələrinə malikdir. Bu keçmiş, eləcə də müştərək mənafelərimiz bu gün çox böyük sərvət kimi bizim qarşımızdadır"*[2].

---

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru*

1 Heydər Əliyev və İranla daimi dostluğa əsaslanan baxış /01.11.2013/ - http://www.xeberservis.az/1/news/1006

2 متن سخنان رییس جمهوری در جمع بازرگانان ایران و جمهوری آذربایجان - http://www.president.ir/fa/82439

Bu sözlər münasibətlərin inkişafı üçün təbii müqəddəm şərtlərin mövcudluğunu vurğulamaq baxımından diqqətəlayiqdir. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Respublikası məhz İranla ən uzun sərhədə (765 kilometr) malikdir. Sərhədin o tayında isə milyonlarla etnik azərbaycanlı yaşamaqdadır. Bu amil münasibətləri normal məcrada saxlamağı hər iki ölkə üçün zəruri edir.

Lakin Azərbaycan–İran münasibətlərinin konstruktiv ruhda inkişafı təkcə ikitərəfli əlaqələr baxımından deyil, regional kontekstdə də böyük əhəmiyyət daşımaqdadır. Mürəkkəb geosiyasi məkanda yerləşən iki ölkənin münasibətlərindən bölgənin cari və perspektiv durumu xeyli dərəcədə asılıdır. Məhz bu amil üzərində vurğu edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: *"İran–Azərbaycan dostluğu sarsılmazdır, heç bir kənar qüvvə bizim aramıza girə bilməz. Bizim birliyimiz ölkələrimizin və bölgənin gələcəyi üçün lazımdır"*[3].

Diplomatik əlaqələrin qurulması

İran 1991-ci il dekabrın 25-də Azərbaycan Respublikasının müstəqilliyini rəsmən tanımışdır. İki ölkə arasında diplomatik əlaqələrin qurulması isə 1992-ci il martın 12-də baş vermişdir[4].

Qeyd edək ki, həmin vaxta qədər Azərbaycanla İran arasında diplomatik əlaqələrin qısa da olsa, özünəməxsus tarixi artıq mövcud idi. Belə ki, 1918-1920-ci illərdə mövcud olmuş Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti dövründə bir sıra mürəkkəb problemlərə və ciddi maneələrə baxmayaraq, iki ölkə arasında diplomatik münasibətlərin qurulmasına nail olunmuşdu. 1919-cu ilin yazında İsmayıl xan Ziyadxanlının rəhbərliyi ilə Tehrana göndərilmiş fövqəladə missiya bu münasibətlərin təməlini qoydu. Aparılan çətin müzakirələr nəticəsində missiya ilə İran Xarici İşlər Nazirliyi arasında 14 maddəlik müqavilə imzalandı. 1919-cu ilin iyul ayında Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası İranda diplomatik nümayəndəliyin yaradılması

3 İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata birgə bəyanatlarla çıxış ediblər /12.11.2014/ - http://www.president.az/articles/13390

4 Vəliyev Y. Müasir dövrdə Azərbaycan-İran münasibətləri. // "Tarix və onun problemləri"jurnalı, № 4, 2009, s. 254

haqqında qərar qəbul etdi, həmin ilin oktyabrında isə nümayəndəliyin ştatı təsdiqləndi və ona rəhbərlik Adil xan Ziyadxanlıya həvalə olundu. İrana yollanmış Adil xan İran şahı tərəfindən qəbul olundu[5]. Lakin Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı formalaşmaqda olan siyasi-diplomatik münasibətlərin qırılmasına gətirib çıxardı.

SSRİ dönəmində Azərbaycan müstəqil xarici siyasət yürütmək imkanından məhrum olsa da, İranla münasibətlərdə müəyyən rol oynayırdı. Xüsusən İkinci Dünya müharibəsi zamanı sovet qoşunları İran ərazisində yerləşdiyi illərdə Azərbaycanın siyasi və mədəni şəxsiyyətləri ikitərəfli əlaqələrdə önəmli paya malik idi. Sonrakı dövrdə münasibətlər xeyli dərəcədə məhdudlaşsa da, SSRİ ilə İran arasında mədəni və elmi-ədəbi əlaqələrdə Azərbaycanın da özünəməxsus yeri olmuşdur.

1968-ci ildə Bakıda İranın Baş konsulluğunun fəaliyyətə başlaması Sovet–İran münasibətlərində Azərbaycanın önəmli yerinin bir növ təsdiqi idi. Azərbaycan müstəqillik qazandıqdan sonra məhz həmin konsulluğun bazasında və binasında İran İslam Respublikasının ölkəmizdəki səfirliyi yaradıldı.

Qeyd etmək lazımdır ki, Azərbaycanla İran arasında birbaşa əlaqələrin qurulması hələ SSRİ-nin süqutundan əvvəl başlanmışdı. Belə ki, 1989-cu ilin sonlarında – Azərbaycanda milli-azadlıq hərəkatının vüsət aldığı bir dövrdə iki ölkə arasında sərhədlər sökülmüş və sadə insanların qarşılıqlı gediş-gəlişi başlanmışdı. Bu, əslində, siyasi dairələrə xalqların yaxınlaşmaq və əməkdaşlıq etmək istəyini ifadə edən bir mesaj idi. Təsadüfi deyil ki, az sonra – 1990-cı ildə, yəni hələ SSRİ-nin mövcud olduğu dövrdə İranın o zamankı Prezidenti Əkbər Haşimi Rəfsəncani Bakıya səfərə gəldi və ölkə rəhbərliyi ilə əməkdaşlığa dair müzakirələr apardı.

1991-ci ilin mart ayında İranın siyasi və işgüzar dairələrinin, teleradio şirkətinin nümayəndələri, alimlər və din xadimlərinin bir qrupu Bakıya gəlmiş, Novruz bayramı şənliklərində iştirak etmişdilər.

Həmin ilin noyabr-dekabr aylarında Bakıda İranın 300-dən çox şirkətinin iştirak etdiyi sənaye malları sərgisi keçirildi. Mart və dekabr aylarında Tehranda Azərbaycan, Bakıda İran kitab sərgisi təşkil olundu,

5 Yusifova Ş. AXC–İran münasibətlərinin qurulması. // "Geostrategiya" jurnalı, № 4 (28) 2015, s. 57-60

may ayında isə Azərbaycan naşirləri Tehranda Beynəlxalq kitab yarmarkasında iştirak etdilər və bunun nəticəsi olaraq tərəflər arasında kitab sərgilərinin mübadiləsi, kitab nəşri və satışına dair saziş imzalandı[6].

1992-ci ilin fevralında – SSRİ rəsmən süqut etdikdən və Azərbaycan Respublikası beynəlxalq birliyin tamhüquqlu üzvünə çevrildikdən az sonra o vaxtkı Prezident Ayaz Mütəllibovun başçılığı ilə geniş tərkibli nümayəndə heyəti İslam İnqilabının ildönümü münasibətilə Tehranda oldu. Mart ayının 12-də isə, artıq qeyd olunduğu kimi, İran Azərbaycanla diplomatik əlaqələr qurdu.

Beləliklə, Azərbaycanın SSRİ-nin tərkibində olduğu son ildə və müstəqilliyinin ilk aylarında İranla münasibətlər əsasən iki ölkənin bir-birini yaxından tanımağa çalışması ilə səciyyələnmiş və: a) siyasi-diplomatik münasibətlərin qurulması; b) iqtisadi-ticari əlaqələrin yaradılması; c) humanitar və mədəni-elmi təmasların genişlənməsi; d) İranın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında rol almaq cəhdləri ilə əlamətdar olmuşdur.

Qeyd edək ki, İranın Dağlıq Qarabağ münaqişəsində ilk vasitəçilik təşəbbüsü 1992-ci ilin fevral ayına təsadüf etmişdir. Həmin vaxt İranın xarici işlər naziri Əli Əkbər Vilayəti Bakıya, Yerevana və Qarabağ bölgəsinə səfərlər etmiş və tərəflər arasında atəşkəsin əldə olunmasına dair səylər göstərmişdi. Lakin fevralın 25-dən 26-na keçən gecə ermənilərin Xocalı soyqırımını törətməsi bu səyləri heçə endirdi.

İranın növbəti vasitəçilik cəhdi 1992-ci ilin mart ayında başladı. Bu dəfə İranın missiyası BMT-nin Baş katibi Butros Qali tərəfindən də dəstəkləndi[7]. İranın vasitəçilik səylərinə paralel olaraq, ATƏT-in Minsk Qrupunun formalaşması prosesi gedirdi. Aprelin 20-də İran xarici işlər nazirinin müavini Mahmud Vaezi Bakı və Yerevana səfər edərək Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün təşkilinə dair məsləhətləşmələr apardı. Danışıqların nəticəsi olaraq mayın 7-də İran Prezidenti Haşimi Rəfsəncaninin iştirakı ilə Tehranda Ermənistan və Azərbaycan dövlət başçılarının münaqişənin nizamlanmasına dair görüşü keçirildi və atəşin dayandırılması barədə sənəd imzalandı. Lakin

6 Qasımov M., Abdullayev M. Beynəlxalq münasibətlər tarixi. Bakı, 1999, s. 104

7 Abdollah Ramezanzadeh. Iran's Role as Mediator in the Nagorno-Karabakh Crisis. - http://poli.vub.ac.be/publi/ContBorders/eng/ch0701.htm

mayın 8-də erməni silahlı birləşmələrinin Şuşanı işğal etməsi nəticəsində İranın vasitəçiliyi bu dəfə də uğursuzluğa düçar oldu. Məlum oldu ki, İran münaqişə tərəfləri arasında sülhə nail olmaq üçün yetərli imkanlara malik deyildir.

1992-ci ilin iyun ayında Azərbaycanda Əbülfəz Elçibəyin rəhbərliyi altında Xalq Cəbhəsinin (AXC) hakimiyyətə gəlməsi İranla münasibətlərdə fərqli mərhələnin başlanmasına səbəb oldu. AXC-nin hakimiyyətdə olduğu bir il tərəflər arasında gərginlik mərhələsi kimi qiymətləndirilir[8].

Belə bir dövrdə Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanda Ali Məclisə sədrlik edən Heydər Əliyev İranla münasibətlərin fərqli modelini ortaya qoydu və həmin model sonrakı mərhələdə Azərbaycan–İran əlaqələrinin əsasını təşkil etdi. Ermənistanın işğalçı siyasəti ucbatından blokada şəraitində olan Naxçıvan üçün İranla əlaqələrin əhəmiyyətini dəqiq qiymətləndirən Ümummilli lider Heydər Əliyev 1992-ci ilin avqustunda İrana səfər edərək, demək olar ki, İranın ali siyasi rəhbərliyinə daxil olan bütün şəxslərlə (dini lider Əli Xamenei, Prezident Haşimi Rəfsəncani, xarici işlər naziri Əli Əkbər Vilayəti və b.) geniş müzakirələr aparmış və İranın ağır sosial-iqtisadi durumda olan Naxçıvan Muxtar Respublikasına müxtəlif sahələrdə yardım göstərməsinə nail olmuşdu.

"İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi və mədəni əməkdaşlıq haqqında 16 maddədən ibarət protokol imzalandı. Bağlanmış protokola əsasən, muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, ayda 100 ton maye qazın verilməsi kimi həyati vacib məsələlər həll olundu. Oktyabr-noyabr aylarında İran İslam Respublikasından Naxçıvana yardımlar, neft, dizel yanacağı, kömür və ərzaq məhsulları göndərildi. Dekabrın 3-də Şahtaxtı–Poldəşt arasında üzən körpü istifadəyə verildi. Həmin gün İrandan Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanıldı... İranla Naxçıvan arasında Poldəşt və Culfada müştərək bazarlar açıldı. Heydər Əliyevin gərgin əməyi, diplomatik

8 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.475

fəaliyyəti sayəsində Naxçıvan MR-in nəqliyyat, enerji blokadası yarıldı..."[9]

Münasibətlərə təsir edən amillər

Ekspertlər və diplomatlar arasında geniş yayılmış fikrə görə, Azərbaycan–İran münasibətlərində qeyd olunan gərginlik mərhələsi AXC rəhbərliyinin istifadə etdiyi milliyyətçi diskursla bağlı olmuşdur; bu da İranı ehtiyatlandırmış, onun gənc Azərbaycan dövlətinə yanaşmasında dəyişikliyə səbəb olmuşdur. Məsələn, İranın Azərbaycandakı sabiq səfiri Möhsün Pakayin həmin dövrdə iki ölkə arasında münasibətləri səciyyələndirərkən yazır: "Təəssüflə qeyd etmək istərdim ki, Elçibəyin prezidentliyi dövründə Xalq Cəbhəsinin bir sıra liderlərinin düşünülməmiş çıxışları iki ölkə arasındakı dostluq münasibətlərinin inkişafına öz mənfi təsirini göstərdi"[10].

Fikrimizcə, bu cür birtərəfli yanaşma, yəni münasibətlərin gərginləşməsində bütün günahları o zamankı Azərbaycan hakimiyyətinin üzərinə atmaq elmi baxımdan düzgün sayıla bilməz. AXC hakimiyyətinin İran siyasətində buraxdığı səhvləri təsdiqləyərək onu da qeyd etmək lazımdır ki, o dövrdə əlaqələrin soyuması yalnız "bir sıra liderlərin" şüar və çıxışları ilə deyil, İranın regionda yürütdüyü siyasi xətt və strateji maraqları ilə şərtlənmişdi. Həmin mərhələdə Azərbaycan rəhbərliyinin açıq-aşkar Qərbyönümlü siyasət yürütməsi, bu siyasətə uyğun olaraq ölkədə İranın tarixi rəqibi olan Türkiyə Respublikasının nüfuzunun hədsiz dərəcədə genişlənməsi, bu kontekstdə milli özünüdərk şüurunun güclənməsi qonşu ölkənin strateji hədəflərinə uyğun gəlmirdi. Bunu AXC hakimiyyətindən sonrakı dövrlərdə münasibətlərdə baş verən vaxtaşırı gərginliklər də aydın şəkildə təsdiqləməkdədir.

Prof. Ə.Həsənov haqlı olaraq yazır: "Azərbaycanla İranın regiondakı geostrateji maraqları o qədər fərqlidir ki, problemləri birdəfəlik aradan qaldırmaq qeyri-mümkündür"[11]. İranın tanınmış siyasi ekspertlərindən

9 Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: Əcəmi, 2011, s.51

10 Möhsün Pakayin. Heydər Əliyev və İranla daimi dostluğa əsaslanan baxış. Bakı, 2014, s.19

11 Həsənov Ə. Göstərilən əsəri, s. 477

olan İlahə Kulayi həmin uzlaşmayan maraqlardan çıxış edərək daha qəti formada bildirir: "Mədəni və dini bağlılıqların mövcudluğuna baxmayaraq, İranın Azərbaycanla münasibətləri heç zaman istənilən səviyyədə və dostcasına olmamışdır. İki ölkənin siyasi münasibətləri daim Azərbaycan Respublikasının ABŞ, Türkiyə və İsraillə strateji əlaqələrinin, eləcə də Xəzər dənizinin hüquqi statusu ilə bağlı ixtilafın təsiri altında olmuşdur"[12].

Əlbəttə, münasibətlərə təsir göstərən amillər heç də xanım Kulayinin qeyd etdikləri ilə məhdudlaşmır. Bura İranın Azərbaycan torpaqlarının 20%-ni işğal etmiş Ermənistanla davamlı siyasi və iqtisadi əlaqələrini, Azərbaycanın dünyəvi dövlət modelini (dinin dövlətdən ayrı elan edilməsini) və Azərbaycan Respublikasının İran azərbaycanlıları arasında etnik özünüdərk prosesinə obyektiv təsirini də əlavə etmək lazımdır.

Bu və ya digər regionda geosiyasi situasiyanın dəyişkən olmasına, beynəlxalq münasibətlərdə ideoloji prinsiplərdən çıxış etməyin "soyuq müharibə"nin başa çatması ilə anaxronizm təsiri bağışlamasına baxmayaraq, problemin digər önəmli bir cəhəti İranın xarici siyasətində geosiyasi və ideoloji yanaşmaların üstünlük təşkil etməsidir. Məhz geosiyasi mülahizələr üzündən İran qonşu Azərbaycanın müsəlman əhalisinin narazılığına rəğmən Ermənistanla münasibətlərini genişləndirmişdir. Belə ki, bu münasibətlər həm də İranın regiondakı ənənəvi rəqibi olan Türkiyənin təsirini zəiflətməyə qarşı yönəlmişdir. Ümumilikdə "geosiyasi cəhətdən İran bu bölgədə ayrı-ayrılıqda nə ABŞ və Qərbin, nə də ki Rusiya, Türkiyə və Çinin möhkəmlənməsinin və geosiyasi təsirlərini artırmasının tərəfdarıdır. Hərbi-siyasi sahədə o, ABŞ və Qərb dövlətlərindən, yaxud onların tərəfdaşı hesab olunan Türkiyədənsə, Rusiya və Çinlə geniş regional ünsiyyətə can atır"[13].

Münasibətlərdə ideoloji amilin təsirinə ən bariz nümunə İranın 1991-ci ildən fəaliyyətə başlamış Azərbaycan İslam Partiyası ilə əlaqələri ola bilər. Xarici siyasətdə şiə islamçı hərəkatlara dəstək prinsipinə

12 الهه کولایی. جمهوری اسلامی ایران و ژئوپلیتیک قفقاز جنوبی. – فصلنامهٔ ژئوپلیتیک. سال ششم، شمارهٔ اول، بهار 1389، ص. 87

13 Həsənov Ə. Azərbaycanın geosiyasəti. Bakı, 2015, s. 356

yer verən İran həmin partiyanın Azərbaycan ictimai-siyasi həyatında güclənməsinə çalışmış, ona maliyyə baxımından da yardımlar etmişdir. Bu fakt 1995-ci ildə məhkəmə qaydasında sübuta yetirilmiş, İslam Partiyasının rəhbərləri həbs olunmuş, rəsmi dövlət qeydiyyatı isə Ali Məhkəmənin qərarı ilə ləğv olunmuşdur.

Beləliklə, ikitərəfli siyasi münasibətlərin tarixi, xarakteri və dinamikasından danışarkən, digər tərəfin yürütdüyü siyasətlə yanaşı, SSRİ-nin süqutundan sonra regional gücə çevrilmiş İran İslam Respublikasının bölgədə izlədiyi geosiyasi və geoiqtisadi hədəfləri nəzərə almamaq olmaz.

Həmin hədəflərin doğurduğu ixtilaflara baxmayaraq, AXC hakimiyyəti dövründə ikitərəfli münasibətlərin inkişafı naminə addımlar da atılmışdır. Məhz həmin dövrdə – 1992-ci ilin avqust ayının 5-də Tehranda Azərbaycan səfirliyinin yaradılması barədə qərar qəbul edilmişdir. Elə həmin ay Azərbaycanın xarici işlər nazirinin İrana ilk rəsmi səfəri baş tutmuş və bir sıra mühüm məsələlər – Naxçıvanda İranın, Təbrizdə isə Azərbaycanın baş konsulluqlarının açılması, İrandan Azərbaycana qaz verilməsi, İran ərazisindən keçərək Naxçıvana gediş-gəliş məsələləri barədə razılaşmalar əldə olunmuşdur. Səfərdən az sonra – avqustun 26-da Təbrizdə Azərbaycan konsulluğunun yaradılması barədə rəsmi qərar qəbul edilsə də, onun açılması düz 12 il uzadıldı.

İkitərəfli münasibətlərin genişlənməsi baxımından digər önəmli addım 1992-ci il oktyabrın 8-də İran İslam Respublikası ilə iqtisadi, ticarət və humanitar əlaqələrin inkişafı üçün Dövlət Komissiyasının yaradılması oldu. Azərbaycan Ali Soveti Sədrinin müavini Afiyəddin Cəlilov komissiyanın sədri təyin edildi. Həmin ilin 16-20 noyabr tarixlərində dövlətlərarası komissiyanın ilk iclası keçirildi. Müzakirələrin nəticəsi olaraq tərəflər arasında memorandum və 9 saziş imzalandı, bununla da Azərbaycan–İran iqtisadi-ticari və humanitar əlaqələrinin hüquqi təməli yaradılmış oldu.

Bir müddət sonra – 1992-ci ilin dekabrında Tehrandakı Azərbaycan səfirliyi öz fəaliyyətinə başladı[14].

14 Qasımlı M. Göstərilən əsəri, s.570

İqtisadi münasibətlərin genişlənməsinə və 1993-cü ildə İranın Rusiyadan sonra Azərbaycanın ikinci ticarət tərəfdaşına çevrilməsinə baxmayaraq, siyasi münasibətlərdə gərginlik davam edirdi və Ə.Elçibəy hakimiyyətinin son çağlarında açıq müstəviyə keçmişdi.

Münasibətlərdə yeni əməkdaşlıq modeli

1993-cü ilin iyun ayında Azərbaycanda yenidən hakimiyyətə gələn Heydər Əliyev İranla münasibətlərdə yeni mərhələnin başlanğıcını qoydu. Başqa sözlə, qonşu ölkə ilə hələ Naxçıvanda yaradılmış əməkdaşlıq modeli artıq bütün ölkə miqyasında gerçəkləşdirilməyə başlandı. Həmin modelin əsasını ümumi maraqlara söykənən tərəfdaşlıq, qarşılıqlı hörmət, mövcud problemlərin açıq müzakirəsi təşkil edirdi. Hakimiyyətdə olduğu 10 il ərzində İranla bağlı bütün görüş və çıxışlarında Heydər Əliyev Azərbaycanın "böyük və qüdrətli dövlət" kimi İranın maraqlarını nəzərə aldığını, eyni zamanda İranın Azərbaycan dövlətinin seçiminə və inkişaf yoluna hörmətlə yanaşmalı olduğunu vurğulamış, tarixi-mədəni əlaqələrə, iki ölkə xalqlarını birləşdirən məqamlara istinad etmişdir. Məhz bu yanaşma bütün mübahisəli məsələlərə rəğmən, ikitərəfli münasibətlərin konstruktiv məcrada inkişafını təmin etmişdir.

Heydər Əliyev Azərbaycan Prezidenti seçildikdən az sonra – 1993-cü il oktyabrın 26-da İranın o zamankı Prezidenti Əkbər Haşimi Rəfsəncani Bakıya rəsmi səfərə gəldi. Üç gün davam edən səfərin nəticəsi olaraq "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və qardaşlıq münasibətlərinin prinsipləri haqqında" 22 maddəlik memorandum imzalandı. İkitərəfli münasibətlərin bütün kompleksini əhatə edən və 5 il müddətinə imzalanmış memorandumda "meydana çıxa biləcək bütün mübahisəli məsələləri qarşılıqlı anlaşma şəraitində danışıqlar yolu ilə həll etməyin" zəruriliyi barədə müddəa öz əksini tapmışdı.

"Ümumiyyətlə, səfər zamanı siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrə dair 14 sənədin imzalanması iki ölkə arasındakı münasibətlərdə əvvəlki illərdə yol verilmiş soyuqluğun aradan qaldırılmasında, münasibətlərin normal inkişaf etdirilməsi üçün zəmin

yaradılmasında əsaslı rol oynamışdı"[15]. Başqa sözlə, tərəflər arasında etimadsızlığın aradan qaldırılması, qarşılıqlı faydalı əməkdaşlıq və dialoq prinsiplərinin müəyyən edilməsi istiqamətində əhəmiyyətli addım atılmışdı.

Münasibətlərin konstruktiv və dinamik məcraya salınması yönündə bu addımın davamı olaraq 1994-cü il 29 iyun–2 iyul tarixlərində Heydər Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyəti İrana rəsmi səfər etdi. Səfər gedişində siyasi, iqtisadi, elmi-mədəni əməkdaşlığa dair 7 sənəd, o cümlədən Azərbaycanla İran arasında dostluq münasibətlərinin inkişafına dair 13 maddəlik bəyanat imzalandı. Həmin bəyanatda Ermənistanın Azərbaycana qarşı təcavüzü açıq şəkildə pislənmiş, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu təsdiq edilmişdi. Eyni zamanda Heydər Əliyev Tehrandakı çıxışında Azərbaycan dövlətinin qonşu İranın daxili işlərinə qarışmaq niyyətində olmadığını birmənalı şəkildə bəyan edərək demişdi: *"İran İslam Respublikasının ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını öz torpaqlarımızın, öz ərazimizin, öz sərhədlərimizin toxunulmazlığı kimi qəbul edirik, ona hörmət etmişik və hörmət edirik"*[16]*. Bu bəyanat həmin mövzuya İran siyasətçilərinin xüsusi həssaslığı kontekstində ciddi əhəmiyyətə malik idi. Hərçənd, digər bir çıxışında Heydər Əliyev məsələnin fərqli aspektinə də diqqəti cəlb etmişdi: "İranda azərbaycanlılar da yaşayır. Onlar İranın vətəndaşlarıdır, onun xalqının bir hissəsidir, eyni zamanda azərbaycanlı kimi bizim soydaşlarımızdır, biz də onların soydaşlarıyıq"*[17].

Səfərin nəticəsi olaraq 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi"ndən İran hökumətinin narazılığı minimuma endirildi. Bununla yanaşı, iki il sonra Heydər Əliyevin şəxsi təşəbbüsü ilə "Şahdəniz" yatağının istismarına dair müqavilədə İranın NICO şirkətinə 10%-lik pay ayrıldı[18].

15 Vəliyev Y. Göstərilən əsəri, s.254

16 Heydər Əliyev və Şərq. IV kitab. Bakı, 2005, s.191-192

17 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam inqilabının ildönümünə həsr olunmuş mərasimdə çıxışı. / "Gülüstan" sarayı, 3 fevral 1996-cı il/ - http://lib.aliyevheritage.org/az/9434266.html

18 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbətindən. /20 iyul 2001-ci il/ - http://lib.aliyevheritage.org/az/227055.html

Azərbaycan hakimiyyətinin bu xoşməramlı addımına baxmayaraq, İran tərəfinin narazılığı nəzərə çarpırdı. Bu narazılıq Xəzər dənizinin hüquqi statusu barədə müddəa vasitəsilə ifadə olunurdu. Lakin İran nümayəndələri ilə apardığı çoxsaylı danışıqlarda Heydər Əliyevin siyasi və diplomatik məharəti ixtilafın kəskinləşməsinə imkan vermədi. Doğrudur, 2001-ci ilin iyul ayında İranın hərbi təyyarə və gəmiləri Azərbaycanın Xəzər dənizində kəşfiyyat işləri aparan neftçilərinə hücum etdi və bununla da Azərbaycanın Xəzər dənizinin karbohidrogen ehtiyatlarından istifadəsinə əsəbi şəkildə mane olmağa çalışdı. Lakin Azərbaycan hökuməti öz iradəsi və təmkini ilə insidentin qızışmasının qarşısını aldı və danışıqlar yoluna sadiqliyini bir daha nümayiş etdirdi. Bununla əlaqədar Heydər Əliyevin İran Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Əli Əhani ilə görüşdə dediyi sözlər çox ibrətamizdir: "Məsələn, son hadisələr oldu. Üç ildir ki, bizim "Alov", "Şərq" və "Araz" yataqları ilə əlaqədar müqavilə bağlanıbdır. Orada kəşfiyyat işləri gedir. Siz orada hərəkətlər etdiniz – gəmi, təyyarə, filan. Ancaq biz o mövqedə durduq ki, danışıq olmalıdır"[19].

Məhz Azərbaycan rəhbərliyinin bu prinsipiallığı (eləcə də Türkiyə və ABŞ-ın hadisəyə sərt reaksiyası) İranı öz mövqeyindən çəkilməyə və müzakirələrə qatılmağa vadar etdi.

Qeyd edək ki, İran xüsusən 1990-cı illərdə Xəzərin hüquqi statusu mövzusunda kəskin mövqe tutmuş, Azərbaycanın dənizi milli sektorlara bölmək təklifini etirazla qarşılamışdı, hətta belə təəssürat yaranmışdı ki, "Xəzərin statusu məsələsində sanki əsas problem İran–Azərbaycan anlaşılmazlığıdır"[20]. Bununla bağlı 1921-ci ilin Rusiya–İran və 1940-cı ilin SSRİ–İran müqavilələrinə istinad edən İran tərəfi Xəzərin sahilyanı ölkələrin ümumi mülkiyyəti olduğunu bildirmiş və Azərbaycanı onun resurslarından birtərəfli qaydada faydalanmaqda suçlamışdı. Həmin dövrdə Rusiya Federasiyası da oxşar mövqe tutduğundan İran onun simasında özünə bir növ müttəfiq tapmış, o cümlədən "Əsrin

19 Azərbaycan Prezidenti Heydər Əliyevin İran İslam Respublikası xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini və İranın Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Əli Əhani ilə görüşdə söhbətindən. /28 avqust 2001-ci il/ - http://lib.aliyevheritage.org/az/9589597.html

20 Aslanlı A. Geosiyasi rəqabət və geoiqtisadi maraqlar zəminində Xəzər hövzəsinin "Qordi düyünü". - www.kas.de/wf/doc/kas_39805-1522-1-30.pdf?141202142145

müqaviləsi"nin imzalanmasından az sonra – 1994-cü il oktyabrın 30-da Tehranda İran–Rusiya birgə bəyanatı yayılmışdı. Bəyanatda bildirilirdi ki, Xəzərsahili dövlətlərdən heç biri digərlərinin razılığı olmadan dənizin bölünməsi anlamına gələn hərəkətlərə yol verə bilməz[21]. Lakin sonralar Rusiyanın problemə yanaşmasının dəyişməsi, onun Azərbaycan və Qazaxıstanla Xəzərdə milli sektorların sərhədlərini müəyyən edən ikitərəfli, daha sonra isə üçtərəfli razılaşma imzalaması (1998-2003-cü illərdə) İranın bir növ meydanda tək qalmasına gətirib çıxardı. Belə olduqda İran yeni təkliflə – Xəzərin beş sahilyanı ölkə arasında bərabər şəkildə bölünməsi təklifi ilə çıxış etdi, lakin bu təklif digər dövlətlərin dəstəyini qazanmadı. İran Xəzərin bölünməsinə dair onun payına 11, yaxud 13% düşməsinə gətirib çıxaran digər variantları qəbul etməmişdir və hələ də bu mövqeyində qalmaqdadır. Belə ki, 2016-cı ilin yayında İran xarici işlər nazirinin müavini İbrahim Rəhimpur ölkəsinin 13%-lik payı qəbul etmədiyini və daha artığını istədiyini bir daha bəyan etmişdir[22].

Ədalət naminə demək lazımdır ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ilkin dövründə (1992-1994-cü illərdə) İran İslam Respublikası işğala məruz qalmış, kütləvi qaçqın axını ilə üzləşmiş Azərbaycana əhəmiyyətli yardımlar göstərmişdir. Əlbəttə, bu işdə İran ictimai rəyi, xüsusən ölkədəki çoxmilyonlu azərbaycanlıların mövqeyi təsirsiz olmamışdır[23].

İstənilən halda, xüsusən erməni silahlı birləşmələrinin Dağlıq Qarabağ ətrafındakı rayonları işğal etdiyi dövrdə İranın yardımları ciddi əhəmiyyətə malik idi. "1993-cü il sentyabrın 6-da İran İslam Respublikasının Azərbaycan Respublikasına humanitar yardımı haqqında protokol imzalandı. İran tərəfi Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş azərbaycanlılara etdiyi humanitar yardımı artırdı. Ermənistanın işğalçılıq siyasətinin ilk günlərindən İranın "Helal Ahmar" ("Qırmızı Aypara") təşkilatı

21 دکتر الهه کولائی، دکتر مهناز گودرزی. دریای خزر: چالش ها و چشم انداز ها. تهران، 1392، ص. 200

22 رحیم پور در گفت‌وگو با فارس: سهم 13 درصدی ایران از دریای خزر را قبول نداریم http://www.farsnews.com/13950424000619

23 Abdollah Ramezanzadeh. Iran's Role as Mediator in the Nagorno-Karabakh Crisis - http://poli.vub.ac.be/publi/ContBorders/eng/ch0701.htm

İmişli, Saatlı və Biləsuvar rayonlarında çadır şəhərcikləri qurmuşdu. Təşkilat həmin çadırlarda yaşayanları ərzaq və ilkin tələbat malları ilə təmin edirdi. Ayətulla Xomeyni adına "İmdad" təşkilatı da azərbaycanlı məcburi köçkünlərə yardım göstərirdi. İran 1993-cü ilin sentyabrında Azərbaycan Respublikasının cənubunda 55 min məcburi köçkün üçün 7 çadır düşərgəsi qurdu"[24]. Bununla yanaşı, İran tərəfi hərbi əməliyyatlarda yaralanmış Azərbaycan əsgər və zabitlərinin Tehran, Rəşt, Təbriz, Astara və digər şəhərlərdəki xəstəxanalarda müalicəsinə şərait yaratmışdı[25].

Lakin "Əsrin müqaviləsi"ndən, Azərbaycanın Qərb şirkətləri və qurumları ilə əlaqələrinin genişlənməsindən sonra İran tərəfi Ermənistanla münasibətlərini daha yüksək səviyyəyə qaldırmağa başlamış, beləliklə, din amili ilə yanaşı, Ermənistan faktorundan da Azərbaycanı öz yolundan çəkindirmək üçün təzyiq vasitəsi kimi istifadə etməyə cəhd göstərmişdi.

Bu məsələlərlə əlaqədar olaraq o zaman Milli Təhlükəsizlik Şurasının katibi olan indiki İran Prezidenti Həsən Ruhani ilə görüşdə Heydər Əliyev Azərbaycanın mövqeyini bir daha açıq şəkildə bəyan etmiş və ikitərəfli münasibətlərdə qarşılıqlı maraqlara üstünlük verməyin vacibliyini vurğulayaraq demişdi: *"Biz dünyəvi dövlətçilik yolu ilə gedirik və gedəcəyik. Biz bundan geriyə dönə bilmərik. Azərbaycan istiqlaliyyətini əldə edəndən sonra bizim Konstitusiyamızda yazılıbdır ki, Azərbaycanda vicdan azadlığı insanlar üçündür. 70 ildir din qadağan edilmişdi. Azərbaycanda cəmi 16 məscid var idi. Amma indi 236 məscid var. Yəni insanlar ibadət etmək istəyirlər, hər yerdə məscidlər var. Heç kəs heç bir şeyi qadağan etmir. Amma bizdə din dövlətdən ayrıdır. Biz bu yol ilə gedirik və gedəcəyik. Mən bunu sizə deyərək, istəyirəm ki, Azərbaycanın real vəziyyətini biləsiniz. Ermənistan müsəlman ölkəsi deyil ki, siz onlarla dostluq edirsiniz. Biz müsəlmanıq, dinimizi də sevirik, ancaq biz dünyəvi yol ilə gedirik. Biz dünyanın bütün dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr yaradırıq. Çünki bu, müstəqil, gənc dövlət üçün, torpaqlarının 20 faizi işğal olunmuş bir dövlət üçün çox lazımdır. Qeyd etdim ki, bizim İranla əlaqələrimiz xüsusi xarakter*

24 Qasımlı M. Göstərilən əsəri, s.572

25 Talıblı S. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Bakı, 2016, s.182-185

daşıyır. Eyni zamanda biz qarşılıqlı faydalı əməkdaşlıq edərək bir ölkənin o biri ölkənin daxili işlərinə qarışmasının əleyhinəyik, buna etiraz edirik"[26].

Burada Ermənistanın müsəlman ölkəsi olmadığını xüsusi vurğulamaqla Heydər Əliyev incə şəkildə İranın xarici siyasətində başlıca prioritetlərdən biri sayılan islam həmrəyliyi prinsipinə işarə etmiş və onun nə üçünsə müsəlmanların yaşadığı torpaqları işğal etmiş, məscidləri, islam abidələrini dağıtmış Ermənistanla münasibətlərdə nəzərə alınmadığını vurğulamışdır. İranın işğalçı dövlətlə siyasi və iqtisadi əlaqələri zaman-zaman Azərbaycan ictimaiyyətinin də narazılığına səbəb olmuş, yumşaq desək, anlaşılmazlıqla qarşılanmışdır. Belə ki, İran tərəfi daim Ermənistanla əlaqələrini adi qonşuluq münasibətləri kimi təqdim etməyə çalışsa da, reallıqlar tamam başqa mənzərəni göstərməkdədir. "1991-ci ildən başlayaraq İranın Ermənistanla ikitərəfli münasibətləri öz xüsusiliyi ilə seçilir. Bu xüsusilik siyasi əlaqələrin yüksək səviyyəsini və ağır vəziyyətdə olan qonşusuna hər cür iqtisadi yardımları ehtiva edib. Azərbaycan və Türkiyə ilə sərhədləri bağlı olan Ermənistanın 90-cı illərdə məhz İranın yardımları sayəsində iqtisadi cəhətdən çökmədiyi və Dağlıq Qarabağın işğalını davam etdirə bildiyi məlumdur. Ermənistan rəhbərliyi dəfələrlə buna görə İrana öz təşəkkürünü ifadə edib"[27].

İranın xarici siyasət prinsipləri ilə Ermənistanla münasibətlərinin xarakteri arasındakı "ziddiyyət" onunla izah oluna bilər ki, həmin münasibətlər İranın geosiyasi ambisiyaları ilə diktə olunur[28] və praqmatik səciyyə daşıyır. Başqa sözlə, Ermənistanla əməkdaşlıq İranın Cənubi Qafqazdakı strateji hədəflərinə nail olmaqda bir vasitə kimi götürülür. Həmin hədəflər isə aşağıdakı şəkildə səciyyələndirilir:

"- Qərb ölkələrini və onlara məxsus transmilli şirkətləri nəyin bahasına olursa-olsun Xəzər regionuna buraxmamaq və onların bölgədəki əsas tərəfdaşı hesab olunan Türkiyəni öz mövqelərindən sıxışdırmaq;

- Rusiya ilə regional geosiyasi məsələlərdə müttəfiqlik etmək, lakin

26 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Həsən Ruhaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbətindən. / 20 iyul 2001-ci il/ - http://lib.aliyevheritage.org/az/227055.html

27 Regional proseslər fonunda İran–Ermənistan əməkdaşlığı./13.06.2016/ – http://newtimes.az/az/politics/4562/

28 Qasımlı V., Şiriyev Z., Vəliyeva Z. İran–Ermənistan münasibətləri: geosiyasi reallıq versus siyasi iddialar. Bakı, 2011, s.10-11

onunla rəqabət aparılan sahələrdə öz mövqelərini əldən verməmək;

- regionda istənilən yolla öz mövqelərini gücləndirmək, Xəzərin bərabər əsasla – 20% olmaqla beş yerə bölünməsini təmin etmək və digər hövzə ölkələri ilə dəniz sərhədi yaratmaq;

- bölgəni dini təsir altına almaq məqsədilə müxtəlif dini-ideoloji düşərgələr təşkil etmək;

- Azərbaycan və Türkiyə kimi rəqib ölkələrin iqtisadi, siyasi, sosial və mədəni inkişafını əngəlləmək, bununla da onların İrandakı əsas əhali (azərbaycanlılar) üçün cəlbediciliyini azaltmaq;

- bölgədə Qərb ölkələrinə məxsus dəyərlərin, iqtisadi, siyasi, ideoloji təsisatların güclənməsinə və İran cəmiyyəti üçün "yad proseslərin" vüsət almasına mane olmaq"[29].

Qeyd edək ki, İslam Respublikasının Ermənistanla münasibətlərinin yüksək səviyyəsini İran müəlliflərinin özləri də etiraf edirlər: "İran ilə şiə Azərbaycan Respublikası arasında daha çox oxşarlıqlar olmasına baxmayaraq, İranın xristian Ermənistanla əlaqələri daha geniş və daha yaxşıdır"[30]. Qəribədir ki, sitat gətirilən məqalədə İran–Ermənistan əməkdaşlığına "Azərbaycanın doğurduğu təhdidlər qarşısında müştərək narahatlıq" ilə bəraət qazandırılmağa çalışılır. Bununla da "unudulur" ki, bölgədə təcavüzkar siyasəti ilə qonşuları təhdid edən məhz Ermənistandır və reallıqda Azərbaycan Ermənistanın ərazisini deyil, Ermənistan əzəli Azərbaycan torpaqlarını işğal etmişdir.

İrana gəldikdə isə, Heydər Əliyevin yüksək rütbəli İran rəsmisinə ünvanlanmış yuxarıdakı sözlərində ifadə olunduğu kimi, Azərbaycan onunla münasibətlərində qarşılıqlı faydalı əməkdaşlıq və bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə söykənmişdir.

Məhz bu mövqe ilə də Azərbaycan Prezidenti 2002-ci il mayın 18-20-də İrana növbəti rəsmi səfər etdi. Səfər zamanı Heydər Əliyev İran Prezidenti Məhəmməd Xatəmi, dini lider Əli Xamenei, parlamentin sədri Mehdi Kərrubi, xarici işlər naziri Kamal Xərrazi ilə müfəssəl müzakirələr apardı. Bu səfərin yekununda ikitərəfli münasibətlərin müxtəlif sahələrini əhatə edən 20 sənəd imzalandı. Müzakirələrin nəticəsi olaraq meydana çıxan

29 Həsənov Ə. Göstərilən əsəri, s.358-359

30 بهرام امیر احمدیان، حبیب رضازاده، احمد جرفی. تحلیل روابط ایران و ارمنستان با استفاده از چارچوب نظری واقع گرایی تدافعی. – مطالعات اوراسیای مرکزی، دورۀ 9، شمارۀ 1، تابستان 1395، ص. 19

başlıca sənəd isə "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında müqavilə" oldu. 30 maddəlik bu müqavilə 10 il müddətinə imzalanmışdı. Həmin müqaviləyə əsasən, İran Azərbaycanın ərazi bütövlüyünü birmənalı olaraq dəstəkləyirdi.

"Prezidentin bu səfəri iki ölkə arasındakı bütün mübahisəli məsələləri, xüsusən Xəzərin statusu məsələsini həll etməsə də, Azərbaycan–İran münasibətlərindəki mövcud anlaşılmazlıqları aradan qaldırdı və gələcək konstruktiv əməkdaşlıq üçün zəmin yaratdı"[31].

Ümummilli liderin İran İslam Respublikasına son rəsmi səfərinin ikitərəfli münasibətlər tarixində xüsusi yer tutduğunu digər ekspertlər də vurğulamışlar: "Tarixi əhəmiyyət daşıyan bu səfər zamanı iki ölkə arasında münasibətlərə dair bütün məsələlər müzakirə edildi. Tərəflər bir-birini anlamaq və əməkdaşlığı dərinləşdirmək üçün cəhdlər etdilər. İki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında imzalanan müqavilə ilk böyük hüquqi sənəd idi. O, əlaqələri bütün sahələrdə tənzimləyirdi. İki ölkə arasında münasibətlərdə dönüş nöqtəsi olan və yeni mərhələnin başlanğıcını qoyan bu səfər zamanı ikitərəfli münasibətlərə, regional məsələlərə, beynəlxalq əlaqələrə, eyni zamanda iqtisadi, siyasi və digər sahələrə dair səmərəli müzakirələr keçirildi"[32].

Beləliklə, XXI əsrin başlanğıcında iki ölkənin siyasi münasibətləri yeni keyfiyyət səciyyəsi kəsb etdi. Bu, ilk növbədə nəhəng siyasi təcrübəsi olan Heydər Əliyevin yorulmaz səyləri və möhkəm iradəsinin nəticəsi idi. Tanınmış politoloqlardan birinin dediyi kimi, "siyasi incəlik duyğusu və Azərbaycanın təhlükəsizliyi üçün İranın əhəmiyyətini anlaması onun barışdırıcılıq yolunu tutmasına gətirib çıxardı"[33].

İranla münasibətlərin xüsusi xarakterini, onun aydın prinsiplər və sabit əsaslar üzərində qurulmasının vacibliyini yaxşı anlayan Heydər Əliyev bu sahədə iki ölkənin mənafelərinə, eləcə də regionun təhlükəsizliyinə yönəlmiş dərin strategiya işləyib hazırladı. Bunu İranın bir sıra ekspertləri də təsdiq edir və Heydər Əliyev dönəminin sonlarına doğru iki tərəf arasında imzalanmış sənədlərin sayının 110-a çatdığını

31 Həsənov Ə. Göstərilən əsəri, s.369
32 Qasımlı M. Göstərilən əsəri, s.605
33 Svante E. Cornell. Small nations and Great Powers. London, 2001, p.315

xüsusi vurğulayırlar[34].

Bu strategiya onun müəllifi olduğu balanslı xarici siyasət xəttinin tərkib hissəsi idi və Ümummilli liderin vəfatından sonra da uğurla davam etdirildi. Təsadüfi deyil ki, sonrakı beşillik Azərbaycan–İran münasibətlərində "yumşalma dönəmi" kimi qiymətləndirilir[35].

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın İranla təkcə ikitərəfli formatda deyil, İslam Konfransı Təşkilatı (sonralar İslam Əməkdaşlıq Təşkilatı) və İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) kimi regional qurumlar çərçivəsində də əməkdaşlığının əsası qoyulmuşdur.

Yumşalmadan gərginliyə

Prezident İlham Əliyevin hakimiyyətə gəlişindən sonrakı ilk illər Azərbaycan–İran münasibətlərində müsbət dinamika və əlaqələrin intensivləşməsi ilə əlamətdar olmuşdur. Müxtəlif sahələr üzrə ikitərəfli münasibətlər Ümummilli liderin müəyyənləşdirdiyi prinsiplər əsasında davam və inkişaf etdirilmişdir. İran üçün o qədər də əlverişli olmayan geosiyasi və regional şəraitdə Azərbaycan Prezidenti ölkəmizin müstəqil xarici siyasət kursuna uyğun olaraq qonşu dövlətlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirməklə bağlı iradəsini aydın şəkildə ortaya qoymuşdu. 2004-cü ilin avqust ayında İran Prezidenti Məhəmməd Xatəminin Azərbaycana rəsmi səfəri zamanı keçirilən birgə mətbuat konfransında İlham Əliyev demişdir: "Xalqımızın Ümummilli lideri Heydər Əliyevin İran İslam Respublikasına rəsmi səfərindən sonra bizim ikitərəfli münasibətlərimizə yeni təkan verilmişdir. Biz çox istəyirik ki, bütün sahələrdə münasibətlərimiz daha da inkişaf etsin, əlaqələrimiz güclənsin... Mən əminəm ki, İran İslam Respublikasının Prezidenti cənab Xatəminin Azərbaycana rəsmi səfərindən sonra iki ölkə arasında olan münasibətlər yeni pilləyə qalxacaq və xalqlarımız bir-birinə daha da yaxın olacaqdır"[36].

34 هوشنگ شیخی. بررسی روابط ایران و جمهوری آذربایجان (فرصت ها و چالش ها) - http://npps.ir/ArticlePreview.aspx?id=91664

35 Mammadov H. Bölgesel politikalar açısından Azerbaycan–İran ilişkileri. // Orta Asya ve Kafkasya Araştırmaları dergisi. Cilt 8, sayı 15, 2013, s.53

36 Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Məhəmməd Xatəminin birgə mətbuat konfransı. /05.08.2004/ - http://archive.president.az/articles.php?item_id=20070814040046829&sec_id=13

Səfər zamanı Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə yenicə yaradılmış Heydər Əliyev Fondunda olan İran Prezidenti fəxri qonaqlar kitabına bu sözləri yazmışdı: "Mən Azərbaycanda... olacağım müddətdə Heydər Əliyev Fondunu ziyarət etməyi arzu edirdim. İndi bu fondu ziyarət etmək mənə çoxlu xatirələri yada salır və cənab Heydər Əliyevin Azərbaycanın müstəqil olması, inkişaf etməsi, ölkədə sabitlik və təhlükəsizlik şəraiti yaratması mənim bu xatirələrimi və onunla keçirdiyim görüşləri dirildir. Hamımız bilirik ki, iki qonşu və müsəlman ölkə – İran və Azərbaycan arasında yaranan əlaqələr mərhum Heydər Əliyevin rolunu göstərir və bu rol həmişəyaşardır"[37].

İran Prezidenti Məhəmməd Xatəminin ölkəmizə qeyd olunan rəsmi səfəri yetərincə uğurlu olmuş, Xəzərin hüquqi statusu istisna olmaqla, münasibətlərin bütün kompleksi üzrə qarşılıqlı razılıq əldə edilmişdi. Məhz bu səfərdən sonra çoxdan həllini gözləyən məsələ reallaşdı: 2004-cü il noyabrın 20-də Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulluğu fəaliyyətə başladı.

Bir neçə ay sonra – 2005-ci il yanvarın 24-26-da Azərbaycan Prezidenti İlham Əliyevin İrana ilk rəsmi səfəri gerçəkləşdi – İran Prezidenti Məhəmməd Xatəmi, dini lider Əli Xamenei, parlamentin sədri Həddad Adil, Məsləhət Şurasının sədri Haşimi Rəfsəncani ilə danışıqlar aparıldı, sərhədyanı rayonlarda yaşayan vətəndaşların sadələşdirilmiş sərhəd keçidi rejimi, Təhsil və Səhiyyə nazirlikləri arasında əməkdaşlıq, Araz çayının hidroenergetika potensialından birgə istifadə, mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı barədə sazişlər imzalandı. Səfər çərçivəsində İlham Əliyev Təbriz şəhərinə də getmiş, burada Azərbaycanın Baş konsulluğunun binasında olmuş, həmçinin Təbriz Traktor Zavoduna baş çəkmiş, məşhur "Şairlər məqbərəsi"ni ziyarət etmişdir[38].

Həmin ilin sonlarında İranın yeni seçilmiş Prezidenti Mahmud Əhmədinejad İrandan Naxçıvana çəkilmiş qaz kəmərinin açılışında iştirak etmək üçün muxtar respublikaya gəlmişdir. Burada o, Azərbaycan

37 Heydər Əliyev Fondu – milli yaddaşın keşiyində. Bakı, 2013, s.22-23

38 Azərbaycan Prezidenti İlham Əliyev Təbriz şəhərində böyük hərarətlə, məhəbbətlə qarşılanmışdır. /26.01.2005/ - http://azertag.az/print/325038

Prezidenti İlham Əliyevlə birgə iki ölkə arasında enerji sahəsində əməkdaşlığa dair bəyannamə imzalamışdır. Qeyd olunan kəmərin istifadəyə verilməsi Naxçıvanda qaz problemini əsaslı şəkildə həll etməklə, ikitərəfli iqtisadi əməkdaşlığın müsbət nəticələrinin təzahürünə çevrilmişdir. Həmin əməkdaşlığın dərinləşdirilməsi üçün 2007 və 2010-cu illərdə İran Prezidentinin Bakıya, 2009-cu ilin martında isə Azərbaycan Prezidentinin Tehrana rəsmi səfərləri olmuşdur.

İkitərəfli münasibətlərin inkişafı parlamentlərarası əlaqələri də əhatə etmiş, hər iki ölkənin parlament sədrlərinin qarşılıqlı səfərləri əməkdaşlığın dərinləşməsinə öz töhfəsini vermişdir. Həmçinin Azərbaycan parlamentində İranla dostluq qrupu yaradılmışdır və son dərəcə səmərəli fəaliyyət göstərir.

Belə ki, 2010-cu ilin fevral ayında Milli Məclisin Sədri Oqtay Əsədovun başçılıq etdiyi parlament nümayəndə heyəti İran İslam Şurası Məclisi Sədrinin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuşdur. İslam Şurası Məclisinin Sədri Əli Laricani ilə görüşdə parlamentlərarası əlaqələrin vəziyyəti və inkişaf perspektivləri, qanunyaradıcılığı sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparılmışdır. Eyni zamanda nümayəndə heyəti İran Prezidenti Mahmud Əhmədinejad, ölkənin xarici işlər naziri Mənuçöhr Müttəki və Milli Təhlükəsizlik Şurasının katibi Səid Cəlili ilə görüşlər keçirmişdir. Səfər müddətində parlament nümayəndə heyətinin üzvləri Təbrizə də getmiş, Şərqi Azərbaycan vilayətinin rəhbəri ilə görüşmüş, həmçinin məşhur traktorqayırma zavodunda olmuşlar.

2011-ci ilin yayında isə İran parlamentinin Sədri Əli Laricani Bakıya üçgünlük rəsmi səfər etmişdir. Səfər zamanı o, Fəxri xiyabanda Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmiş, Azərbaycan Prezidenti İlham Əliyev, Baş nazir Artur Rasizadə, Milli Məclisin Sədri Oqtay Əsədov və digər rəsmi şəxslərlə görüşlər keçirmişdir. Ə.Laricani İçərişəhərdəki tarixi abidələrlə tanış olmuş, daha sonra Gəncəyə gedərək Şah Abbas məscidini, Nizami Gəncəvinin məqbərəsini ziyarət etmişdir. Jurnalistlərə açıqlama verən İran parlamentinin Sədri demişdir: "İranla Azərbaycan arasında əlaqələr digər ölkələrdə olduğu kimi zahiri deyil, çox dərin və mənəvi köklərə əsaslanır. İran və Azərbaycan arasında tarixi

bağlar və əlaqələr mövcuddur. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bu əlaqələr daha da möhkəmlənib"[39].

Qeyd edək ki, 2006-cı ildən etibarən İranın nüvə proqramı ilə bağlı məsələ beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilmiş, zaman keçdikcə ABŞ-ın İrana hərbi müdaxiləsi ehtimalı ciddi bir təhlükə kimi meydana çıxmışdır. İrana qarşı beynəlxalq təzyiqlərin gücləndiyi, çeşidli sanksiyaların tətbiq edildiyi şəraitdə Azərbaycan hakimiyyəti problemə dair aydın və prinsipial mövqeyi ilə seçilmiş və sonadək həmin mövqeyə sadiq qalmışdır. Prezident İlham Əliyev çoxsaylı çıxış və müsahibələrində İrana qarşı zor tətbiqinin əleyhinə olduğunu, Azərbaycan ərazisindən İrana qarşı istifadəyə yol verilməyəcəyini, İran dövlətinin dinc nüvə enerjisindən yararlanmaq haqqına malik olduğunu və bununla əlaqədar yaranan gərginliyin danışıqlar yolu ilə, diplomatik metodlarla aradan qaldırılmasının vacibliyini bəyan etmişdir. Məsələn, 2006-cı ilin iyununda En-Bi-Si telekanalına müsahibəsində İlham Əliyev demişdir: *"Biz qonşu İrana qarşı hər hansı hərbi əməliyyatın həyata keçirilməsini dəstəkləməyəcəyik. Azərbaycanın mövqeyi çox açıqdır. Hesab edirəm ki, bütün məsələlər dinc yolla, diplomatik səylərlə həll olunmalıdır"*[40].

2007-ci ilin yanvarında "Fiqaro" qəzetinə verdiyi müsahibədə də Azərbaycan Prezidenti eyni yanaşmanı dilə gətirmişdir: *"Biz heç vaxt elə bir addım atmarıq ki, qonşulara ziyan dəysin. İran qonşumuzdur və bizim çox yaxşı münasibətlərimiz var. İranda milyonlarla azərbaycanlı yaşayır. Bu, təqribən 30 milyon insandır. Bizim hökumətlərarası sazişimiz var və orada qeyd edilir ki, ölkələrimizdə bir-birimizə qarşı heç bir addım atılmayacaqdır və ya bir-birimizə ziyan gətirəcək heç bir tədbir görülməyəcəkdir"*[41].

Lakin İranın nüvə proqramı ətrafında yaranmış vəziyyətə Azərbaycan rəhbərliyinin istər rəsmi görüşlərdə, istərsə də mətbuatda bəyan edilən bu aydın mövqeyinə baxmayaraq, tədricən İranda Azərbaycana şübhəli baxış tendensiyası güclənməyə başladı. Xüsusən 2011-ci ilin ortalarından başlayaraq İran mətbuatında guya Azərbaycanın İrana qarşı ehtimal

39 İran parlamentinin spikeri Əli Laricaninin Azərbaycana səfəri başlayıb. /30.06.2011/ - http://sia.az/az/news/politics/156005

40 "Neft Azərbaycana sülh, sabitlik gətirəcəkdir" – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-ın En-Bi-Si telekanalına müsahibəsi /07.06.2006/ - http://azertag.az/print/347435

41 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransanın "Fiqaro" qəzetinə müsahibəsi /29.01.2007/ - http://azertag.az/xeber/az-367250?device=Desktop

olunan hərbi əməliyyatlarda ABŞ-a dəstək verəcəyi, İsrailin Azərbaycan ərazisindən İran əleyhinə istifadə etdiyi barədə çoxsaylı yazılar dərc olunmağa başladı. Xüsusən Azərbaycanın İsraildən 1,6 milyard dollarlıq modern silahlar alması barədə məlumatın dünya mediasında yayılması ehtirasları daha da qızışdırdı. İran rəsmiləri, parlamentin deputatları, din xadimləri Azərbaycan əleyhinə açıq bəyanatlar verməyə başladılar. Azərbaycanın xarici işlər və müdafiə nazirlərinin Tehrana səfərləri zamanı verdiyi açıqlamalar da İran tərəfini sakitləşdirmədi[42].

Az sonra 2012-ci ilin may ayında Bakıda keçirilən "Avroviziya" mahnı müsabiqəsi də İran ruhanilərinin hədəfinə gəldi. Onlar bu müsabiqənin şiə və müsəlman ölkəsində keçirilməsinin yolverilməz olduğunu bəyan etdilər. Mətbuatda və cümə namazlarında aparılan antiazərbaycan kampaniyası ölkəmizin Təbrizdəki Baş konsulluğu və Tehrandakı səfirliyi qarşısında etiraz aksiyalarının keçirilməsi ilə kulminasiya nöqtəsinə yüksəldi. 2011-2012-ci illər ərzində iki ölkə bir neçə dəfə bir-birinə nota verdi.

Azərbaycanda, təbii olaraq, bu hərəkətlərə reaksiya verildi: Bakıdakı İran səfirliyi qarşısında Azərbaycan gənclərinin piketi keçirildi. Eyni zamanda Azərbaycan xüsusi xidmət orqanları İranda təlim görmüş 22 nəfər casusu həbs etdi[43]. Az sonra İran tərəfi Bakıdakı səfirini məsləhətləşmələr üçün Tehrana çağırdı. Azərbaycanın təmkinli davranışına rəğmən İranda antiazərbaycan kampaniyası müxtəlif intensivliklə 2013-cü ilin yayına – Həsən Ruhani Prezident seçilənə qədər davam etdi.

Bütün bu prosesləri qiymətləndirərkən Prezident Administrasiyasının rəsmisi Novruz Məmmədov yazırdı: "Azərbaycan diplomatiyası Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplər əsasında İranla əməkdaşlığı inkişaf etdirir. Rəsmi Bakı qarşılıqlı faydalı münasibətlərin davam etdirilməsində maraqlı və qərəzsiz olduğunu daim nümayiş etdirib. Təəssüf ki, son vaxtlar İran Azərbaycana qarşı lazımi dərəcədə konstruktiv mövqe nümayiş etdirmir. Xüsusilə Qərbin İranın nüvə proqramı ilə

42 Cohen A. Azerbaijan: Between Iran and a Hard Place. March 21, 2012. - http://nationalinterest.org/commentary/azerbaijan-between-iran-hard-place-6667?page=show

43 Валиев А. Азербайджано-Иранские отношения: Quo vadis, Баку? - http://www.ponarseurasia.org/sites/default/files/policy-memos-pdf/pepm244_russ_valiev_sept2012.pdf

bağlı yeritdiyi siyasətin yaratdığı gərginlik fonunda Azərbaycanı əsassız ittiham etmək cəhdləri və "Avroviziya" mahnı müsabiqəsi ilə bağlı İran mediasının apardığı böhtan kampaniyası böyük təəssüflər doğurdu. Azərbaycan ərazisindən İrana qarşı müharibədə istifadə ediləcəyi haqda bəzi Qərb agentlik və media orqanlarının, eləcə də bunu təkrar edən İsrail qəzetlərinin məkrli niyyətlərinə cavab olaraq Prezident İlham Əliyev dəfələrlə bəyan etdi ki, buna qətiyyən yol verməyəcəkdir. Azərbaycan müstəqil dövlətdir və heç kəsin diktəsi ilə hərəkət etmir. O cümlədən, İranın kiminlə və necə əməkdaşlıq etməklə bağlı Azərbaycana göstərişlər verməyə cəhd göstərməsinin mənası yoxdur. Əksinə, İranın Azərbaycanla bağlı siyasətinə müəyyən düzəlişlər etməsinə ehtiyac görünür. Tehran artıq formalaşmış konstruktiv əməkdaşlıq sistemini pozmağa çalışmamalıdır. Bu siyasət həm Azərbaycanın, həm də İranın maraqlarına ziddir"[44].

Münasibətlərin sürətli inkişaf mərhələsi

Azərbaycanla əməkdaşlıqdan imtina etməyin öz ölkəsinin maraqlarına zidd olması həqiqətini anlayan İranın yeni Prezidenti Həsən Ruhani vəzifələrinin icrasına başladıqdan sonra qonşu ölkələrlə, o cümlədən Azərbaycanla münasibətləri normallaşdırmağı və yüksək səviyyəyə qaldırmağı xarici siyasətin prioriteti elan etdi və bu sahədə əməli addımlar atmağa başladı. İran mətbuatının yaydığı məlumata görə, ölkənin Milli Təhlükəsizlik Şurası səlahiyyəti olmayan şəxslərin Azərbaycanla münasibətlərə dair açıqlama verməsini, mətbuatda çıxış etməsini qadağan edən qərar qəbul etdi[45].

Çoxsaylı diplomatik təmasların, o cümlədən 2014-cü ilin yanvarında Davos İqtisadi Forumunda Həsən Ruhani ilə görüşün nəticəsi olaraq 2014-cü il aprel ayının 9-da Azərbaycan Prezidenti İlham Əliyev İrana rəsmi səfərə yollandı. İranlı siyasi müşahidəçilərin də qeyd etdiyi kimi, bu səfər iki ölkə arasındakı soyuqluq buzlarını əritdi, münasibətlərdə

44 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, 2013, s.119

45 سفیر جدید جمهوری اسلامی ایران در باکو گفت: شورای عالی امنیت ملی دخالت نکردن افراد غیرمسئول در روابط ایران با جمهوری آذربایجان را مصوب کرد - http://www.military.ir/forums/topic/22790-

yeni səhifə açdı[46]. Aparılan danışıqlar iki ölkənin münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlandığına güclü ümid yaratdı. Həqiqətən də, "Qərbin İrana qarşı sanksiyalar tətbiq etdiyi çətin vaxtlarda belə Azərbaycan ona obyektiv və mehriban qonşuluq münasibətini saxladı. Bakı geosiyasi vəziyyətin dəyişməsindən asılı olmayaraq, müstəqil mövqeyini qorudu. Azərbaycanın təmkinli, tarixi ənənələri nəzərə almaqla yeritdiyi İran siyasəti olmasaydı, indi bu cür ümidverici vəziyyət yaranmazdı"[47].

Qeyd olunan ümid həmin ilin noyabr ayında İran Prezidenti Həsən Ruhaninin Azərbaycana rəsmi səfəri ilə daha da gücləndi. Səfər zamanı iqtisadi sahədə bir sıra sənədlərlə yanaşı, "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır. Dövlətlərarası münasibətlər baxımından çox mühüm sənəd olan bu bəyannamədə tərəflər öz ərazisində bir-birinin dövlət suverenliyi və ərazi bütövlüyü əleyhinə yönələn fəaliyyətə imkan verməyəcəklərini bir daha təsdiq etdilər. 2014-cü il dekabrın 30-da Azərbaycan Prezidenti həmin bəyannamənin təsdiqinə dair qanunu imzalamışdır[48].

Münasibətlərin hazırkı mərhələsində tərəflər tamamilə məntiqi və əsaslı olaraq iqtisadi əlaqələrin genişlənməsinə başlıca diqqət yetirirlər. Təsadüfi deyil ki, İran Prezidentinin səfəri çərçivəsində Azərbaycan–İran Biznes Forumu keçirilmiş və həmin forumda çıxış edən Azərbaycan Prezidenti demişdir: "Biz çox istəyirik ki, iqtisadi əməkdaşlıq da siyasi əməkdaşlığın səviyyəsinə qalxsın"[49].

İranın Qərblə münasibətlərindəki yumşalma, nüvə proqramı ətrafında müzakirələrin konstruktiv xarakter alması və son nəticədə 2015-ci ilin iyulunda İranla "Altılıq" ölkələri arasında razılaşma, nəhayət, 2016-cı ilin əvvəllərində İrana qarşı bir sıra sanksiyaların ləğvi də iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün münbit şərait yaratdı. 2016-cı

46 http//:fararu.com/fa/news-/185695/

47 Azərbaycan–İran əlaqələri: regional və qlobal kontekst /27.11.2014/. - http://newtimes.az/az/relations/conflicts/3188/

48 Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu /14.01.2015/ - http://president.az/articles/14037

49 Azərbaycan–İran Biznes Forumunda İlham Əliyevin nitqi /13.11.2014/ - http://www.president.az/articles/13530

ilin fevralında İlham Əliyevin İrana növbəti səfəri ölkə başçılarının bu şəraitdən xalqların mənafeyi naminə maksimum yararlanmaq əzminin nümayişinə çevrildi. Səfər zamanı müxtəlif sahələr üzrə əməkdaşlığa dair 11 mühüm sənəd imzalandı[50].

Bu sənədlər içərisində iki ölkənin dəmir yollarının birləşdirilməsi barədə əldə edilmiş razılaşma xüsusi qeyd olunmalıdır. Belə ki, bu, Şimal–Cənub nəqliyyat dəhlizinin yaradılması baxımından həlledici əhəmiyyət kəsb edir. 2016-cı il aprelin 20-də isə Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Hökumətlərarası Çərçivə Sazişinə uyğun olaraq, Astara çayı üzərində dəmir yolu körpüsünün təməli qoyuldu. Təməlqoyma mərasimində Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının həmsədrləri – Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev və İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi iştirak edirdilər. Mərasimin səhərisi günü Azərbaycan Prezidenti iki ölkə arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaeziyə "Dostluq" ordenini təqdim etdi[51].

Qeyd edək ki, məhz Azərbaycan Prezidentinin 2014-cü ilin aprelində İrana səfəri nəticəsində xeyli fasilədən sonra Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının fəaliyyəti bərpa olunmuş, həm Bakıda, həm də Tehranda mütəmadi görüşlər keçirilmişdir. Bu görüşlər qarşılıqlı investisiyalara, müştərək müəssisələrin yaradılmasına və ən başlıcası, iki ölkə arasında əmtəə mübadiləsinin ciddi şəkildə artımına təkan vermişdir. Təkcə onu demək kifayətdir ki, 2016-cı ilin birinci yarısında Azərbaycanla İran arasında ticarət dövriyyəsi 66 faiz artmışdır. Hazırda İran və Azərbaycan arasında ticarət dövriyyəsi qeyri-neft sektorunda illik 500 milyon dollar təşkil edir[52].

50 Prezident İlham Əliyevin İrana rəsmi səfəri və imzalanmış sənədlər ikitərəfli əməkdaşlığın inkişafına etibarlı zəmin yaradır /25.02.2016/ - http://www.xalqqazeti.com/az/news/politics/68164

51 İlham Əliyev İranın rabitə və informasiya texnologiyaları nazirinə "Dostluq" ordeni təqdim edib /21.04.2016/ - http://www.president.az/articles/19500

52 Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi 66 faiz artıb /03.09.2016/ - http://azertag.az/xeber/Azerbaycan_ile_Iran_arasinda_ticaret_dovriyyesi_66_faiz_artib-989559

Rəsmi məlumatlara əsasən, İran şirkətləri Azərbaycan iqtisadiyyatına 2,6 milyard dollar investisiya qoymuşlar ki, bunun da 145 milyon dolları qeyri-neft sektorunun payına düşür. Son iki il ərzində qarşılıqlı rəsmi səfərlərin sayı 80-i ötmüş, müxtəlif sahələri əhatə edən 40-dan çox sənəd imzalanmışdır. Azərbaycanda fəaliyyət göstərən İran şirkətlərinin sayı 450-yə çatmışdır[53].

Hazırkı mürəkkəb beynəlxalq və regional situasiyada iki ölkə rəhbərlikləri çoxtərəfli formatda da əməkdaşlığa xüsusi önəm verirlər. Bu baxımdan artıq dörd dəfə keçirilmiş Azərbaycan–İran–Türkiyə xarici işlər nazirlərinin görüşlərini qeyd etmək lazımdır. 2016-cı ilin aprel ayında isə Bakıda Azərbaycan, İran və Rusiya XİN rəhbərlərinin analoji görüşü keçirilmişdir. Həmin görüş üç ölkə rəhbərlərinin sammitinə bir növ hazırlıq səciyyəsi daşımış və 2016-cı il avqustun 7-də Azərbaycan–İran–Rusiya üçtərəfli zirvə görüşü baş tutmuşdur. Əliyev–Ruhani–Putin görüşü təkcə Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşması baxımından deyil, bütövlükdə regionun taleyi baxımından ciddi hadisəyə çevrilmiş və bütün dünyanın diqqət mərkəzində olmuşdur.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə gerçəkləşən bu görüş ölkəmizin çoxvektorlu xarici siyasətinin daha bir təsdiqinə çevrilmiş, onun regionda inkişafa, sabitliyə və təhlükəsizliyə ciddi töhfələr verə bilmək potensialını nümayiş etdirmişdir. Əlverişlilik baxımından Süveyş kanalının rəqibi kimi dəyərləndirilən Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi Azərbaycana təkcə iqtisadi mənfəət gətirməyəcək, həm də onun geosiyasi mövqeyinin möhkəmlənməsinə şərait yaradacaq.

Bu görüş həm də artıq Azərbaycan–İran münasibətlərinin yeni səviyyəyə qalxdığını, bu münasibətləri korlamaq üçün göstərilən cəhdlərin əbəs olduğunu birmənalı şəkildə təsdiq etmişdir. Təsadüfi deyil ki, görüş zamanı Azərbaycan–İran əlaqələrinin hazırkı səviyyəsini xarakterizə edən İlham Əliyev demişdir: "Görürük ki, bizim aramızda çox böyük qarşılıqlı anlaşma var. Biz münasibətləri bu qarşılıqlı anlaşma əsasında qururuq. Çox şadam ki, son illər ərzində İran–Azərbaycan

53 Iranian companies invest $2.6B in Azerbaijan /19.09.2016/ - http://www.azernews.az/business/102455.html

əlaqələri çox sürətlə inkişaf edir. Tarixdə, 25 illik tariximizdə bu dövr sürətli, bəlkə də ən sürətli inkişaf dövrüdür"[54].

Nəticə

Qonşu İran İslam Respublikası ilə əlaqələr həmişə Azərbaycanın xarici siyasətində başlıca yerlərdən birini tutmuşdur. İki ölkə arasında münasibətlərin 25 illik tarixində eniş-yoxuşlar, fərqli yanaşmalar, müəyyən soyuqluq və hətta gərginlik dövrləri olsa da, bütövlükdə siyasi, iqtisadi, mədəni və humanitar əlaqələr qarşılıqlı maraqlar əsasında inkişaf etmiş və genişlənmişdir.

Azərbaycanın müstəqilliyinin ilk illərində İranla münasibətlərə dair aydın xəttin olmaması, eləcə də SSRİ-nin süqutundan sonra İranın bölgədəki siyasəti ikitərəfli əlaqələrdə müəyyən problemlər yaratmışdı. Lakin elə həmin dövrdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Heydər Əliyev İranla münasibətlərin qarşılıqlı etimada əsaslanan yeni tipini formalaşdırmış, sonralar bu əməkdaşlıq modeli Azərbaycan–İran əlaqələrinin əsasını təşkil etmişdir. Azərbaycan–İran münasibətlərinin konstruktiv məcraya düşməsində və iki ölkə xalqlarının mənafeyi naminə inkişaf etdirilməsində Heydər Əliyevin nəhəng xidmətləri İran rəhbərləri və siyasətçiləri tərəfindən dəfələrlə etiraf olunmuş və yüksək qiymətləndirilmişdir.

Əlbəttə, bir sıra amillər ikitərəfli münasibətlərə davamlı təsir göstərmişdir. İki ölkənin siyasi sistemləri arasındakı fərqlər, onların xarici siyasət kursundakı müxtəlifliklər, Xəzər dənizinin hüquqi statusu kimi məsələlər zaman-zaman əlaqələri sınağa çəkmişdir. Hər iki tərəfdə haqqında çox danışılan müştərək mədəni-tarixi irs, nə qədər paradoksal görünsə də, bəzən ixtilaflara və fikir ayrılıqlarına səbəb olmuşdur. Lakin bütün hallarda münasibətlərdə real siyasətə söykənən sağlam düşüncə üstünlük təşkil etmiş, qarşılıqlı maraqlara, bölgənin və bütövlükdə dünyanın taleyinə məsuliyyətli baxışa əsaslanan siyasi

54 Azərbaycan və İran prezidentlərinin geniş tərkibdə görüşü olub /07.08.2016/ - http://www.president.az/articles/20763

düşüncə ikitərəfli əlaqələrin xarakterini müəyyənləşdirmişdir.

Prezident İlham Əliyevin hakimiyyətdə olduğu dövrün ilk on ili İran üçün çətin beynəlxalq və regional şəraitə təsadüf etmişdir: ölkə dünya gücləri tərəfindən müxtəlif siyasi təzyiqlərə məruz qalmış, nüvə proqramı ilə əlaqədar ona qarşı ilbəil ağırlaşan çoxsaylı sanksiyalar tətbiq olunmuşdur. Lakin Heydər Əliyev kursunu inamla davam etdirən İlham Əliyev bir çox dövlətlərin İranı təcrid etmək səylərinə rəğmən, qonşu ölkə ilə əməkdaşlığı davam etdirmiş, onun nüvə enerjisindən dinc məqsədlərlə istifadə hüququnu dəstəkləmiş və bununla da Azərbaycanın müstəqil xarici siyasət yeritdiyini bir daha bütün dünyaya, o cümlədən qonşu İran İslam Respublikasına nümayiş etdirmişdir. Təsadüfi deyil ki, İran Prezidenti Həsən Ruhani Bakıya ilk rəsmi səfəri zamanı bu faktı xüsusi vurğulayaraq demişdir: "Sanksiyalar dövründə qonşular bizi tək qoymadılar. Biz sanksiyalar dövründə bu dərsi öyrəndik ki, prioritet qonşularla münasibətdir. Ticarətdə və investisiya qoyuluşunda prioritet qonşulardır. Müştərək iqtisadi layihələrdə prioritet qonşulara məxsusdur"[55].

Ötən üç ildə iki ölkə prezidentlərinin qarşılıqlı səfərlərindən, xüsusən İrana qarşı nüvə proqramı ilə əlaqədar sanksiyalar götürüləndən sonra Azərbaycan–İran münasibətləri sürətli və dinamik inkişaf mərhələsinə qədəm qoydu. Hazırda Azərbaycan və İran təkcə ikitərəfli deyil, müxtəlif regional formatlarda da uğurla əməkdaşlıq edir. Ölkələr arasında iqtisadi əlaqələr ikitərəfli münasibətlər tarixində analoqu olmayan bir yüksəliş və canlanma mərhələsini yaşayır.

İki dövlət arasında münasibətlərin cari səviyyəsi, mövcud potensial və qarşıdakı əməkdaşlıq perspektivləri Azərbaycanın İran siyasətinin düşünülmüş, əsaslı və hər iki ölkənin mənafelərinə cavab verən bir siyasət olduğunu təsdiq etməkdədir.

Şübhə yoxdur ki, "müasir tarixi dövrdə dövlətin xarici siyasətinin hansı prinsiplər üzərində qurulması bir çox mənalarda onun (dövlətin) mahiyyətini ifadə edir. Azərbaycanın İran siyasətində, hər şeydən əvvəl,

55 متن سخنان رییس جمهوری در جمع بازرگانان ایران و جمهوری آذربایجان - http//:www.president.ir/fa82439/

bu məqamın nəzərə alındığı qəbul edilməlidir. Yəni dövlətimizin sülhpərvərliyi İranla olan əlaqələrin daha da inkişaf edəcəyinə təminat verir. Buna görə də İran amili Azərbaycan üçün həmişə önəmli olacaqdır. Qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində beynəlxalq hüquq normalarına tam əməl etməklə, bir-birinin daxili işlərinə qarışmamaqla böyük uğurlar əldə etmək mümkündür"[56].

Son üç ildə Azərbaycan–İran münasibətlərinin bütün sahələrində müşahidə edilən ciddi dinamika bu uğurların qazanılacağına əsaslı ümidlər doğurmuşdur.

56 Məmmədov N. Göstərilən əsəri, s.120-121

Azərbaycan–Gürcüstan münasibətləri

*Fuad Çıraqov**

Giriş

Müasir Gürcüstan və onun paytaxtı Tbilisi şəhəri ilə Azərbaycan Respublikasını və xalqını çox dərin tarixi tellər bağlayır. XIX əsrdə Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra Tbilisi bütün Cənubi Qafqaz xalqları, o cümlədən azərbaycanlılar üçün uzun müddət imperiyanın inzibati mərkəzi olmaqla yanaşı, siyasi, mədəni və intellektual mərkəzi rolunu da oynamışdır. XIX əsrin sonu – XX əsrin əvvəllərində bu şəhərin qabaqcıl ədəbi, ictimai-siyasi və intellektual mühiti Azərbaycan xalqının görkəmli ziyalılarının dünyagörüşünün, eləcə də müstəqillik ideyalarının formalaşmasına böyük təsir etmişdir. Tbilisidə Azərbaycan xalqının görkəmli ictimai-siyasi xadimləri və tarixi şəxsiyyətləri – Ə.Topçubaşov, N.Nərimanov, Niyazi, R.Behbudov və başqaları anadan olmuş, A.A.Bakıxanov, M.F.Axundov və digər maarifçi ziyalılar yaşayıb-yaratmış, Azərbaycanın ən müxtəlif bölgələrindən Qori Müəllimlər Seminariyasında təhsil almış məşhur maarifçilərin və görkəmli şəxsiyyətlərin həyatı və fəaliyyəti bu və ya digər formada bu şəhərlə və Gürcüstanla bağlı olmuşdur. Məhz buna görə heç də təsadüfi deyil ki, Müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi 1918-ci ildə məhz bu şəhərdə elan edilmişdir.

O da qeyd olunmalıdır ki, indiki Gürcüstan Respublikasının ərazisində, tarixi Borçalı mahalı adlanan hissəsində, paytaxtı Tbilisi şəhərində, eləcə də digər bölgələrində əsrlər boyu soydaşlarımız yaşamış və Azərbaycan türkləri bu torpaqların qədim avtoxton sakinləri olmuşlar. Məhz bu amil ölkələrimiz arasında münasibətlərin mühüm və həssas məqamlarından biri olmaqla, hər iki ölkəni vahid coğrafi məkan kimi bir-birinə bağlayan tarixi bağlardan biridir.

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin aparıcı elmi işçisi*

Dünya okeanına birbaşa çıxışı olmayan, müxtəlif regional və qlobal güclərin maraqlarının kəsişdiyi, qapalı coğrafi məkanda yerləşən Azərbaycanın xarici siyasətində və həyata keçirdiyi regional layihələrdə Gürcüstanla münasibətlər xüsusi strateji əhəmiyyətə malikdir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində müstəqillik əldə edən hər iki ölkə istər daxili, istərsə də xarici siyasət məsələlərində oxşar problemlərlə üzləşdi. Daxili qeyri-sabitlik, vətəndaş qarşıdurması, iqtisadi tənəzzül, dövlət institutlarının fəaliyyət qabiliyyətini itirməsi, eləcə də aqressiv separatizm hər iki ölkənin müstəqil yaşama qabiliyyətini və gələcəyini sual altına qoyan məsələlərdən yalnız bir qismi idi. Coğrafi mövqe və bütövlükdə regionda cərəyan edən proseslər müstəqilliyin ilk illərindən siyasi hakimiyyətdə hansı qüvvənin olmasından asılı olmayaraq hər iki ölkənin müttəfiq olmasını diktə edən amillər olmuşdur.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Gürcüstanın Azərbaycanın xarici siyasətində və strateji layihələrində yeri nəzərə alınaraq, keçən əsrin 90-cı illərindən başlayaraq qonşu ölkənin qarşısında duran problemlərin və maneələrin aradan qaldırılması və onun tam müstəqil dövlətə çevrilməsi üçün ölkəmiz kifayət qədər böyük dəstək göstərmişdir. Bu məqam Gürcüstanın keçmiş dövlət başçıları – Eduard Şevardnadze və Mixeil Saakaşvili tərəfindən ən müxtəlif formalarda dəfələrlə vurğulanmışdır. Bu baxımdan E.Şevardnadzenin aşağıdakı sözlərini də xatırlamaq olar: *"Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir"*. M.Saakaşvili isə 2013-cü ildə Azərbaycana rəsmi səfəri zamanı bildirmişdir: *"Gürcüstanın çox sayda müttəfiqi var, ancaq onlardan heç biri Azərbaycan qədər bu ölkəyə onun çətin anlarında dəstək olmamışdır"*. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun da qeyd etdiyi kimi, o zaman əgər Azərbaycanın tam müstəqil siyasət yeritməsi ilə yanaşı, Gürcüstan qismən də olsa müstəqil davrana bilməsəydi, hazırda Cənubi Qafqazda geosiyasi vəziyyət və təhlükəsizlik olduqca acınacaqlı durumda olardı. Ciddi geosiyasi, hərbi və təhlükəsizlik riskləri ilə üz-üzə qalmış bir regionda

dağıdıcı qüvvələr milyonlarla insanları məhvə aparardı[1].

İki dövlət arasında münasibətlərdə Azərbaycan Gürcüstan üçün ən çətin günlərində etibarlı tərəfdaş və arxa olduğunu dəfələrlə sübut etmişdir. Məsələn, 2006-cı ilin soyuq yanvarında Rusiya ərazisindən Gürcüstana gələn qaz kəmərinin eyni zamanda iki hissəsində və böyük gərginlikli elektrik xəttində terror aktları həyata keçirildi. Nəticədə Gürcüstan böyük enerji böhranı ilə üz-üzə qaldı. Gürcüstan hakimiyyətinin bu terror aktını Rusiyanın Tbilisiyə qarşı təzyiq vasitəsi kimi qiymətləndirməsi iki ölkə arasında diplomatik gərginliyə səbəb olmaqla vəziyyəti daha da ağırlaşdırdı[2]. 2008-ci ildə isə növbəti dəfə Gürcüstanın Rusiya ilə münasibətlərinin gərginləşməsi fonunda ölkə yenidən dərin enerji böhranı ilə üz-üzə qaldı. Hər iki halda məhz Azərbaycanın işə qarışaraq enerji yardımı göstərməsi ilə Gürcüstan üzləşdiyi ağır vəziyyətdən çıxa bildi.

Oxşar problemlər

Müasir dövrdə iki xalq və dövlət arasında münasibətlərin möhkəm təməlləri hələ 1918-ci ildə ilk dəfə Cənubi Qafqazda demokratik respublikaların yaradılması zamanı onların milli dövlət quruculuğu işlərində yaxından əməkdaşlığı ilə qoyulmuşdur. Həmin dövrdə Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Demokratik Respublikası eyni mənbədən olan təcavüzlə də üz-üzə qalmışdılar. Maraqlıdır ki, yenicə müstəqilliklərini elan etmiş Cənubi Qafqaz respublikalarının hökumətləri 1919-cu ilin aprelində Tbilisidə şimaldan yaxınlaşan təhlükəyə qarşı birgə mübarizə yollarını axtarmaq üçün konfrans keçirmişdilər. Denikinin Cənubi Qafqaz respublikalarına yaratdığı təhlükəyə qarşı 1919-cu il iyunun 27-də Azərbaycan və Gürcüstan hökumətləri arasında müdafiə ittifaqı yaratmaq barədə müqavilə imzalanmışdı. Əldə edilmiş razılıq əsasında gürcü hərbi mütəxəssisləri Azərbaycan Ordusunun zabitlərinin hazırlanması işində iştirak etmiş,

1 Məmmədov N. Risklər və təhdidləri yenən inkişaf strategiyasının memarı. // "Respublika" qəzeti, 11 may 2016-cı il, №100, s.5. - http://files.preslib.az/projects/toplu/v2/f6_2_2.pdf

2 Теракты на газопроводах поделили на два. /24.01.2006/ - http://region15.ru/articles/731/

təcrübəli gürcü zabitləri və hərbi mütəxəssisləri cümhuriyyət ordusunda qulluq etmək üçün Azərbaycana göndərilmişdi[3]. Bakıda müdafiə-istehkam işlərinə gürcü generalı Takayşvili rəhbərlik edirdi. Qarabağda və Zəngəzurda erməni təcavüzünə qarşı Azərbaycan ordu hissələri sırasında döyüşən 2-ci piyada Zaqatala alayının I taborunun komandiri kapitan Vaçnadze idi. Azərbaycan isə bunun əvəzində Gürcüstanı neft və neft məhsulları ilə təmin edirdi.

Öz qonşularına xəyanət edərək Denikinlə gizli əlaqə saxlayan Ermənistan isə bu ittifaqa qoşulmadı. Bu xəyanətkar siyasətini davam etdirən erməni hökuməti növbəti ildə bu iki Cənubi Qafqaz ölkəsinin müstəqilliklərinin itirilməsində müstəsna rol oynadı. Həmin dövrdə ermənilər təkcə tarixi Azərbaycan torpaqlarında və Anadoluda yaşayan müsəlman əhaliyə qarşı etnik təmizləmə siyasəti yeritməklə kifayətlənmədilər, eyni zamanda yeni yaranan Gürcüstan Demokratik Respublikasının ərazilərinə də iddia irəli sürdülər.

Erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq planlarında Qara dənizə çıxış üçün Acarıstan da daxil olmaqla Ahısqa türklərinin yaşadığı hazırkı Samtsxe-Cavaxeti bölgəsinə tarixən böyük əhəmiyyət verilmişdir. Hələ XIX əsrdə Rusiya imperiyasının dəstəyi ilə müsəlman acarların öz torpaqlarından sıxışdırılaraq çıxarılması (o cümlədən acarların kütləvi şəkildə qırğına məruz qalması) və yerinə ermənilərin Batuma və Acarıstanın digər bölgələrinə kütləvi şəkildə miqrasiyası istiqamətində bir sıra addımlar atılmışdı. Bu cür siyasət nəticəsində artıq 1884-cü ildə Batumi vilayətinin 105,5 min nəfərlik əhalisinin 47,5 min nəfəri müsəlman gürcülər, 34 min nəfəri ermənilər idi[4]. Hətta bəzi erməni millətçiləri onların 1980-ci illərin sonlarında əvvəlcə Samstxe-Cavaxeti bölgəsinə deyil, Dağlıq Qarabağa ərazi iddialarına qalxmalarını strateji səhv hesab edirlər. Onlara görə, əvvəlcə Samstxe-Cavaxeti Acarıstanla birlikdə Ermənistana birləşdirilməli və bununla da Qara dənizə çıxış əldə edilməli idi. Belə olacağı təqdirdə Ermənistanın hazırda blokadaya düşməsinin qarşısı alına bilərdi.

3 Азербайджанская Демократическая Республика (1918-1920). Армия (Документы и материалы). Баку: Издательство Азербайджан, 1998, с.6. - http://axc.preslib.az/ebooks/pdf/65.pdf

4 Геращенко В. Антигрузинские и антиаджарские акции армян в Самцхе-Джавахети. - http://kavkaztimes.com/?p=5942

Ermənistanın Gürcüstan ərazilərinə iddialarına görə 1918-ci ildə iki ölkə arasında məşhur dördhəftəlik müharibə də baş vermişdi. Ermənilər üçün uğursuzluqla bitən bu müharibə nəticəsində onlar yalnız Borçalının kiçik bir hissəsini Gürcüstandan qopara bildilər. Kanadanın Kalqari Universitetinin professoru Endryu Andersenin (Andrew Andersen) gəldiyi qənaətə əsasən "ermənilər bu müharibəyə, demək olar ki, özlərinin bütün qüvvələrini cəlb etdiklərinə görə cənubda İrəvan quberniyasının daha böyük və əhəmiyyətli bölgələri olan Naxçıvan və Şərurda nəzarəti ələ keçirmək imkanını itirdilər".[5]

1991-ci ildə SSRİ dağıldıqdan sonra ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə və təcavüzkar müharibəyə başladıqları kimi, Gürcüstana qarşı da ərazi iddiaları irəli sürməkdə davam etdilər. Bu, özünü açıq şəkildə istər ermənilərin kompakt yaşadıqları Samtsxe-Cavaxeti bölgəsində Ermənistandan dəstəklənən ərazi iddiaları və separatizm cəhdlərində, istərsə də ermənilərin bütün dünyada bu və digər bölgələrə qarşı ərazi iddiaları məsələlərini müxtəlif tribunalardan səsləndirməsində göstərmişdi. 2009-cu ildə Ermənistanın 14 qeyri-hökumət təşkilatı Sarkisyana və xarici işlər nazirinə müraciət edərək Samtsxe-Cavaxetiya ilə yanaşı Borçalı ərazisindən axan Xram çayından cənubda yerləşən torpaqların Ermənistana birləşdirilməsinə çağırdı. Müraciət edənlər bu haqqın onlara 1920-ci il Paris sülh konfransı ilə verildiyini iddia edirdilər[6].

Abxaziyada baş vermiş müharibə zamanı isə ermənilər aktiv şəkildə separatçıların tərəfində iştirak etmiş, ermənilərdən ibarət Baqramyan batalyonunun gürcülərə qarşı törətdikləri vəhşilikləri isə gürcü xalqı unutmamışdır. Bu xidmətlərinə görə tanınmamış respublikada ermənilər hazırda əhəmiyyətli postlar tutmaqdadırlar. Ermənilər təkcə gürcülərin ərazilərinə deyil, eləcə də onların kilsələrinə, digər maddi-mənəvi mədəniyyət nümunələrinə, musiqisinə və mətbəxinə qarşı da iddialar irəli sürürlər.

5 Андерсен А. и Парцхаладзе Г. Армяно-Грузинская война 1918 г. и Армяно-Грузинский территориальный вопрос в XX в. 2015.

6 Азербайджан не останется равнодушным, наблюдая за агрессией армян против Грузии. /23.12.2009/ - http://www.apsny.ge/analytics/1261595614.php

Çətin zamanlar

1991-ci ildə hər iki ölkənin müstəqillik əldə etməsindən sonra ikitərəfli münasibətlər keyfiyyətcə bir neçə mərhələdən keçmişdir. Çox qısa müddəti əhatə edən ilk dövr hər iki xalqın və dövlətin tarixində elə də xoşagələn bir mərhələ deyildi. Gürcüstan öz müstəqilliyini 1991-ci ilin aprelində elan etdi və keçmiş siyasi dissident Zviad Qamsaxurdiya ölkənin ilk prezidenti seçildi. Onun hakimiyyətdə olduğu vaxtda yenicə müstəqillik qazanmış ölkə daxili və xarici siyasətdə buraxdığı səhvlər və xarici qüvvələrin müdaxiləsi nəticəsində dövlətin gələcəyi, müstəqilliyi və ərazi bütövlüyünü təhlükə altına qoyan ciddi siyasi böhran və vətəndaş qarşıdurması dövrünə daxil oldu. Z.Qamsaxurdiya hakimiyyətdə olduğu səkkiz ay ərzində gürcü ziyalıları, ictimaiyyəti və etnik azlıqlarla münasibətləri kəskinləşdirdi. Ölkənin müstəqilliyini qəbul etməyən kənar qüvvələr yaranmış siyasi böhran vəziyyətindən istifadə edərək Abxaziyada və Cənubi Osetiyada etnik separatizmi alovlandırmaqla ölkəni qanlı münaqişələrə sürüklədilər.

Yenicə müstəqillik əldə etmiş Gürcüstan rəhbərliyinin sərištəsiz və milli diskriminasiya siyasəti bu ölkədə tarixən yaşayan azərbaycanlılardan da yan keçməmişdi. Z.Qamsaxurdiyanın hakimiyyəti dövründə qanunsuz şəkildə, yerli əhalinin razılığı olmadan tarixən azərbaycanlıların məskunlaşdığı 32 kəndin adı, eləcə də digər çay və yer adları dəyişdirildi[7]. Azərbaycanlıların kompakt şəkildə yaşadığı bir sıra yaşayış məntəqələrində qanunsuz kriminal milliyyətçi hərbi qruplarla yerli əhali arasında bəzi xoşagəlməz hadisələr baş verdi. Bunun nəticəsində azərbaycanlılar bəzi yaşayış məntəqələrini tərk etməyə məcbur oldular.

Ümumiyyətlə, keçən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində Gürcüstanda milli-azadlıq mübarizəsi genişləndikcə radikal və ya romantik milliyyətçilik əhvali-ruhiyyəsi də geniş vüsət almağa başlamışdı. Müstəqilliyin ilk illərində ölkənin liderləri də bu əhvali-ruhiyyənin təsiri altına düşərək dövlətin gələcəyi ilə bağlı məsələlərə

7 Georgia's Armenian and Azeri Minorities, Europe Report N°178 – 22 November 2006, International Crisis Group. - https://www.ciaonet.org/attachments/3995/uploads

rasional və praqmatik baxa bilmədilər. Lakin Z.Qamsaxurdiya hakimiyyətinin siyasətinə, müxtəlif milliyyətçi siyasi, kriminal-hərbi qrupların və fərqli xarici qüvvələrin təxribatlarına baxmayaraq, istər bu ölkənin vətəndaşları olan azərbaycanlıların, istərsə də yenicə müstəqil olmuş Azərbaycan dövlətinin mehriban qonşuluq siyasətinə sadiq, təmkinli, səbirli və uzaqgörən yanaşması iki dövlət və xalq arasında regionda yeni münaqişə ocağının yaranmasına imkan vermədi. Xüsusi vurğulanmalıdır ki, bütün problemlərə və diskriminasiya siyasətlərinə baxmayaraq, Gürcüstanda yaşayan soydaşlarımız bu ölkənin ən ağır vaxtlarında digər etnik qruplar kimi separatizm yolunu seçmədilər. Əksinə, Gürcüstan vətəndaşı olan 520 azərbaycanlı bu ölkənin ərazi bütövlüyü uğrunda Abxaziya və Cənubi Osetiyada döyüşlərdə yaxından iştirak edərək həlak olmuş və onlardan 12-si bu dövlətin ən ali qəhrəmanlıq adı – "Vaxtanq Qorqosali", digər dövlət nişanları və ordenlərinə layiq görülmüşdür.

1991-ci ilin dekabrında ölkədə davam edən dərin siyasi böhrandan sonra Tengiz Ketovaninin başçılığı altında milli qvardiya hissələri və Caba İoselianinin nəzarətində olan "Mxedrioni" hərbi-siyasi təşkilatının silahlı dəstələri Z.Qamsaxurdiya hökumətinə qarşı qiyam qaldırdılar. Hakimiyyətə gələn qüvvələr Gürcüstan Dövlət Şurasını yaratdılar. Ölkənin daxili və xarici siyasətinin ağır günlərində yaradılan bu şuranın rəhbərliyinə SSRİ dövründə ölkə rəhbərlərindən biri olmuş Eduard Şevardnadze gətirildi. Bundan sonra yeni hakimiyyət və Z.Qamsaxurdiya tərəfdarları arasında ölkənin şimal-qərb bölgəsində – Meqreliyada 1993-cü ilin ortalarına qədər silahlı toqquşmalar – faktiki vətəndaş müharibəsi davam etdi. Ölkədə alovlanan separatçı münaqişənin mənbəyi isə Abxaziya ilə həmsərhəd bölgələr idi.

Yeni dövrün başlanğıcı

Z.Qamsaxurdiyanın hakimiyyətdən getməsindən sonra milli-azadlıq hərəkatı dövrünün Gürcüstanın daxili və xarici siyasəti ilə bağlı romantik və utopik yanaşması daha real və uzaqgörən yanaşma ilə əvəz olundu. Eyni zamanda Azərbaycanla Gürcüstan arasında strateji

əməkdaşlığın hər iki ölkənin milli maraqlarına cavab verən zərurət olması fikri gürcü ictimaiyyəti tərəfindən qəbul edilməyə başlandı. Bu fikrin gürcü ictimaiyyəti tərəfindən qəbul edilməsində Eduard Şevardnadze və Heydər Əliyevin böyük dövlətçilik təcrübələri və hər iki dövlət başçılarının uzun illər davam edən şəxsi dostluq əlaqələri mühüm rol oynadı.

Azərbaycanla Gürcüstan arasında ikitərəfli münasibətlərdə yeni mərhələnin əsası isə Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra qoyuldu. Keçən əsrin 90-cı illərinin əvvəllərində ağır iqtisadi və siyasi vəziyyətdə olan Azərbaycan üçün Heydər Əliyevin xarici siyasət və qlobal miqyaslı enerji strategiyasında Gürcüstan mühüm strateji istiqamət təşkil edirdi. Məhz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət strategiyası regionda praqmatik və ikitərəfli maraqlara cavab verən gələcək regional iqtisadi, siyasi və təhlükəsizlik sisteminin əsasını qoymaqla region xalqlarının rifahına cavab verəcək inteqrasiya proseslərinin təməlini qoydu.

1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması və siyasi qeyri-sabitlik nəticəsində hər iki ölkə böyük iqtisadi və sosial problemlərlə üzləşmiş, Azərbaycan və Gürcüstan arasında iqtisadi və ticarət əlaqələri zəifləmişdi. Heydər Əliyev və Eduard Şevardnadzenin hakimiyyətə gəlməsindən və iki müstəqil dövlət arasında praqmatik və qarşılıqlı faydalı münasibətlərin əsası qoyulduqdan sonra əvvəlcə enerji resurslarının nəqli, daha sonra regional nəqliyyat infrastrukturu layihələrinin həyata keçirilməsi istiqamətində başlayan qarşılıqlı əlaqələr digər sahələrdə də əməkdaşlığın dərinləşməsinə təkan verdi.

Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk vaxtlardan etibarən Gürcüstan istiqamətində kompleks tədbirlər həyata keçirilməyə başlandı. Bu ölkədə yaşayan soydaşlarımızın problemləri ilk gündən dövlət başçısının diqqət mərkəzində idi. Heydər Əliyevin göstərişi ilə hələ ölkənin ən ağır vaxtlarında Azərbaycanın ali dövlət rəhbərliyini təmsil edən şəxslər 1993-cü ildə Gürcüstanın azərbaycanlılar yaşayan müxtəlif bölgələrinə səfər edərək yerli əhali ilə görüşmüş və onlara maddi və humanitar yardım göndərilmişdi. Azərbaycan Respublikasının Prezidenti Gürcüstanda cərəyan edən təhlükəli prosesləri mütəmadi

olaraq E.Şevardnadze və bu ölkənin rəhbərliyi ilə müzakirə edir, məsləhətləri və digər zəruri yardımlarla dəstək olurdu. Eyni zamanda Ümummilli lider Heydər Əliyev Gürcüstanın üzləşdiyi problemləri üçüncü dövlətlərin rəsmiləri ilə, eləcə də beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlərdə qaldıraraq diqqət mərkəzində saxlamış[8] və onları bu ölkənin problemlərinin həllinə kömək etməyə çağırmışdı.

Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra iki ölkənin yaxından əməkdaşlığı və iştirakı ilə region xalqlarının ümumi rifahına mühüm töhfələr verəcək uzunmüddətli strateji layihələr həm hər iki ölkənin beynəlxalq miqyasda əhəmiyyətinin artmasına, həm də bölgədə qeyri-rasional, dağıdıcı, milliyyətçi təcavüzkar siyasi düşüncə meyilləri üzərində praqmatik və realist siyasi düşüncənin qələbəsinə xidmət etdi. Məhz iki ölkənin bir yerdə həyata keçirdiyi qlobal strateji layihələrdən sonra müstəqilliyin ilk illərində bölgənin gələcəyi və strateji əhəmiyyəti barədə pessimist düşüncəyə malik beynəlxalq oyunçuların yanaşması dəyişməyə və hər iki ölkənin diqqət mərkəzinə çevrilməsinə imkan verdi.

Azərbaycanın bu dövrdə Gürcüstanla bağlı həyata keçirdiyi siyasət hər iki dövlətin və xalqın gələcəyini bir-biri ilə sıx bağlayaraq, regionda gələcək sülhün, sabitliyin və davamlı inkişafın möhkəm təməllərini qoydu. Təsadüfi deyil ki, Azərbaycanda daxili siyasi sabitlik təmin ediləndən və enerji layihələri ilə bağlı beynəlxalq miqyasda zəruri addımlar atılandan sonra Ümummilli lider Heydər Əliyev 1996-cı il martın 8-də özünün ilk geniştərkibli xarici səfərini Gürcüstana etdi. Bu səfərin tarixi əhəmiyyəti müstəqil Azərbaycanın dövlət başçısının müstəqil Gürcüstana ilk rəsmi dövlət səfəri olması idi.

Səfər çərçivəsində bir sıra mühüm sənədlər, o cümlədən 22 maddədən ibarət dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə, o cümlədən ticarət müqaviləsi[9] imzalandı. İki dövlət arasında eyni zamanda Heydər Əliyev tərəfindən "Tbilisi Bəyannaməsi" adlandırılan "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq

8 Heydər Əliyevin Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdə çıxışı. /Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Kitabxanası, 6 yanvar 1994-cü il, s.14/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

9 Free Trade Agreement between Georgia and Azerbaijan. /08.03.1996/ - http://www.wipo.int/edocs/trtdocs/en/az-ge/trt_az_ge.pdf

haqqında Bəyannamə" imzalandı. Azərbaycan xalqının Ümummilli lideri öz çıxışında imzalanan bu tarixi sənədlə və ümumiyyətlə, ikitərəfli əməkdaşlıqla bağlı daha geniş coğrafiyaya ünvanlanmış aşağıdakı mühüm mesajları vermişdir: *"Mən deyərdim ki, bu, həmin qəbildən olan ilk belə ciddi, mühüm siyasi sənəddir. Onun mühümlüyü və böyük əhəmiyyəti də bundadır ki, Qafqaz qeyri-sabitlikdən, münaqişələrdən əziyyət çəkir, bir çox millətlərarası toqquşmalardan və proseslərdən əziyyət çəkir. Ona görə də hər birimizin, xüsusən də Gürcüstan və Azərbaycan dövlət başçılarının vəzifəsi Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlığa yol açmaqdır. İmzaladığımız sənəd məzmununa və xarakterinə görə belə bir əməkdaşlığa yol açır. O, başqalarının da qoşulması üçün açıqdır. Ona görə də ümidvar olmaq istəyirəm ki, regionumuzun digər dövlətləri, eləcə də başqa dövlətlər bu sənədə qoşulacaqlar"*. Məhz buna görə də təsadüfi deyil ki, bəzi şərhçilər Tbilisidə iki dövlət başçısının imzaladığı bu bəyannaməni "Ümumi Qafqaz Evi"[10] ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcı hesab edirlər.

Bu səfər zamanı Azərbaycanın və Gürcüstanın gələcək iqtisadi inkişafı üçün ən əhəmiyyətli sənədlərdən biri ilkin neftin bu ölkənin ərazisindən Bakı–Supsa neft kəməri ilə Qara dəniz limanına ötürülməsinə dair hökumətlərarası sazişin imzalanması oldu. Belə ki, Azərbaycanın karbohidrogen ehtiyatlarının istismarı ilə bağlı dünyanın aparıcı şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi"ndən sonra çıxarılan neftin dünya bazarlarına çatdırılması üçün müxtəlif marşrutlar nəzərdən keçirilirdi. Tbilisidə imzalanan bu sənədlə isə Xəzər dənizindən hasil edilən neftin ənənəvi marşrutlardan kənar ilk dəfə dünya bazarlarına çıxarılması istiqamətində tarixi addım atıldı. Uzunluğu 833 km, gəmiyükləmə qabiliyyəti 600.000-1.000.000 barel olan bu neft kəmərinin tikintisi 1997-1998-ci illərdə həyata keçirildi və 1999-cu il aprelin 8-də ilk neft Supsada gəmilərə yükləndi.

Hər iki ölkənin üzləşdiyi regional təhlükəsizlik çağırışlarına, daxili sabitliklə bağlı problemlərə və xarici təzyiqlərə baxmayaraq, Azərbaycan və Gürcüstanın Şərq–Qərb istiqamətli digər gələcək regional layihələrinin

10 Hüseynova İ. Heydər Əliyev mütərəqqi sosial siyasət modelinin banisidir. /13.05.2014/ - http://xalqqazeti.com/az/news/politics/44507

əsasını qoyan Bakı–Supsa layihəsi ilə bağlı imzalanan müqavilə böyük tarixi hadisə və uğur idi. Həmin dövrdə Gürcüstan ərazisindən keçən gələcək enerji layihələrinə qarşı olan bir sıra qüvvələr istər Azərbaycana, istərsə də Gürcüstana ciddi təzyiqlər etməyə, hər iki ölkədə daxili siyasi sabitliyi pozmağa cəhd edirdilər. Bu strateji layihələr həyata keçirilərkən Azərbaycanda dövlət çevrilişinə cəhd, terror aktları və Ümummilli lider Heydər Əliyevin həyatına sui-qəsdlərə bənzər təxribat fəaliyyətləri eyni zamanda Gürcüstanda da edilmişdi. Belə ki, bu müddətdə Gürcüstan Prezidenti Eduard Şevardnadzenin həyatına geniş əks-səda doğurmuş bir neçə sui-qəsd cəhdi olmuşdu[11]. Müstəqilliyini yenicə əldə etmiş və hələ çox zəif olan hər iki ölkə müstəqil siyasətlərinə qarşı bu maneələrə və təzyiqlərə yalnız hər iki ölkənin rəhbərliyində zəngin dövlətçilik təcrübəsi olan şəxslərin müdrik siyasətləri sayəsində qalib gələ bildilər.

Heydər Əliyev Gürcüstana ilk rəsmi dövlət səfəri çərçivəsində ictimaiyyət və mətbuat nümayəndələri ilə görüşlər keçirməklə yanaşı, Tbilisi şəhərində yerləşən Nəbatat bağında dəfn edilmiş Azərbaycanın görkəmli tarixi şəxsiyyətləri – Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh və Fətəli xan Xoyskinin qəbirlərini, Tbilisi Cümə məscidini də ziyarət etmişdi. Gürcüstanda yaşayan azərbaycanlılarla görüşən Azərbaycan Respublikasının Prezidenti onların problemləri ilə yaxından tanış olmuş, onlara gələcəkdə zəruri yardım və dəstək veriləcəyini vəd edərək yaşadıqları ölkənin fəal vətəndaşları kimi onları dövlət quruculuğunda yaxından iştirak etməyə çağırmışdı.

Gürcüstan azərbaycanlıları ilə E.Şevardnadzenin iştirakı ilə keçirilən görüşün ən maraqlı məqamlarından biri bu ölkədə soydaşlarımızın yaşamasının qədim tarixinin, hələ XII əsrdə Qurucu Davidin 45 minlik ordusunun 40 mininin borçalılıların əcdadları olan qıpçaq türklərinin olmasının Heydər Əliyev tərəfindən xüsusi vurğulanması idi. Belə ki, Gürcüstanda xüsusilə Z.Qamsaxurdiya dövründən başlayaraq ictimai rəyə o fikir yeridilirdi ki, guya Gürcüstanda azərbaycanlılar bu torpaqların tarixi sakinləri deyillər və onlar Borçalıda yalnız Səfəvi hökmdarı Şah Abbasın hakimiyyəti dövründə yerləşdiriliblər.

11 Еще одно покушение на Шеварднадзе. /24.05.1999/ - http://www.pravda.ru/news/world/24-05-1999/905160-0/

Gürcüstan Prezidenti E.Şevardnadzenin 1997-ci il fevralın 18-də Azərbaycana cavab səfəri zamanı dövlət başçıları və rəsmiləri qarşılıqlı münasibətlərin daha da dərinləşdirilməsi, iqtisadi əməkdaşlıq və regionda təhlükəsizlik məsələlərini müzakirə etdilər. Səfər çərçivəsində iki ölkə arasında münasibətlərə dair əvvəl imzalanmış 32 sənədə əlavə olaraq daha 22 sənəd imzalandı. Gürcüstan Prezidentinin Azərbaycana səfəri çərçivəsində imzalanan sənədlər arasında ən mühümü isə 15 bənddən ibarət "Azərbaycan Respublikası ilə Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Bəyannamə" oldu. Sənədin imzalanmasından sonra Ümummilli lider Heydər Əliyev mətbuat konfransında onun əhəmiyyətini vurğulayaraq demişdi: "Bu, Gürcüstanın və Azərbaycanın dövlət siyasətinə, ölkələrimizin və xalqlarımızın milli mənafelərinə tam uyğundur. Sənəd ona yönəldilmişdir ki, gələcəkdə ölkələrimiz, həqiqətən, strateji tərəfdaşlar kimi əməkdaşlıq edərək, bir-birinə lazımi yardım və hayanlıq göstərə bilsinlər. Beləliklə, bu sənəd xalqlarımız arasında dostluqla, Gürcüstanda və Azərbaycanda yaşayan adamlar arasında münasibətlərlə bağlı tarixi zəminə malikdir. Bununla yanaşı, bu sənəd istər Gürcüstan üçün, istərsə də Azərbaycan üçün ciddi proqramdır və gələcək əməkdaşlığımızın aydın və dəqiq yolunu müəyyənləşdirir"[12]. Yüksək səviyyədə keçirilmiş bu səfərlərdən sonra hər iki tərəfdən ayrı-ayrı dövlət orqanlarının nümayəndələri arasında təmaslar artdı və müxtəlif sahələrdə əməkdaşlıq genişləndi.

Strateji layihələr

Azərbaycan Prezidentinin Tbilisiyə rəsmi səfəri çərçivəsində neftin şimal marşrutu ilə yanaşı Gürcüstan üzərindən dünya bazarlarına çıxarılması ilə bağlı tarixi strateji razılığın əldə edilməsindən sonra əsas ixrac neft kəməri marşrutunun seçilməsi məsələsi gündəmə gəldi. Bu məsələ ətrafında istər qonşu dövlətlərdə, istərsə də beynəlxalq aləmdə geniş siyasi müzakirələr aparılır və çox ciddi mübarizə gedirdi. Bununla əlaqədar 1997-ci il sentyabrın 5-də Azərbaycan Respublikasının

12 Əliyev H. Müstəqilliyimiz əbədidir, VIII kitab, noyabr 1996 – mart 1997. Azərbaycan Respublikası və Gürcüstan arasında ikitərəfli sənədlər imzalandıqdan sonra Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə birgə mətbuat konfransında bəyanat. Prezident Sarayı, 18 fevral 1997-ci il, s.212

Prezidenti "Əsas ixrac neft kəməri marşrutunun seçilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında" sərəncam imzaladı. Gərgin beynəlxalq müzakirə və mübarizələrdən sonra əsas ixrac neft kəmərinin müəyyən edilməsi ilə bağlı qərar tarixi Ankara Bəyannaməsi ilə rəsmiləşdirildi. Belə ki, 1998-ci il oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun iştirakı, həmçinin ABŞ-ın enegetika naziri Bill Riçardsonun şahidliyi ilə öz ölkələrində neft və qaz ehtiyatlarının hasilatı, istehsalı və Qərb marşrutu istiqamətində nəqli ilə bağlı tarixi Ankara Bəyannaməsinin imzalanma mərasimi keçirildi[13]. 1999-cu ilin noyabr ayında isə Türkiyənin İstanbul şəhərində keçirilən ATƏT-in sammiti çərçivəsində Bakı–Tbilisi–Ceyhan ixrac boru kəməri vasitəsilə Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən Xəzər dənizindən çıxarılan əsas xam neftin nəqli haqqında sazişi prezidentlər Bill Klinton, Heydər Əliyev, Süleyman Dəmirəl və Eduard Şevardnadze imzaladılar.

Beləliklə, 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Ümummilli lider Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəmərinin təməli qoyuldu və tikintisinə başlanıldı. Böyük siyasi risklərə və təzyiqlərə baxmayaraq, Azərbaycanın əsas ixrac neft kəməri üçün Gürcüstan ərazisindən keçən Bakı–Tbilisi–Ceyhan marşrutunun seçilməsi regionun tarixində müstəqillikdən sonra ən əlamətdar tarixi hadisə olmaqla, hər iki ölkənin həqiqi siyasi müstəqilliyi və iqtisadi inkişafında yeni mərhələnin əsasını qoydu. Bu tarixi strateji layihə həyata keçirilməyə başlanandan sonra Azərbaycan Gürcüstan ərazisindən keçən digər enerji və nəqliyyat infrastrukturu layihələrinin reallaşdırılması istiqamətində fəaliyyətini genişləndirməyə başladı. Bu layihələr iki ölkə arasında iqtisadi və siyasi bağları daha da möhkəmlətməklə regionun gələcək inkişafında yeni perspektivlər açdı. 2005-ci il mayın 25-də boru

13 Azərbaycan neftinin dünya bazarlarına nəqli. /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, III fəsil, s.19 / - http://files.preslib.az/site/10il/gl3.pdf

kəmərinin Azərbaycan, oktyabrın 12-də isə Gürcüstan hissəsinin neftlə doldurulması ilə bağlı təntənəli mərasimlər keçirildi. 2006-cı il mayın 28-də Azərbaycan neftinin Türkiyənin Ceyhan terminalına çatması isə respublikamız üçün rəmzi səciyyə daşıyan hadisəyə çevrildi.

Azərbaycan neftinin dünya bazarlarına Gürcüstan üzərindən çıxarılması ilə bağlı layihələr reallaşdırılmağa başlanandan sonra gündəliyə qazın müəyyən marşrutla nəqli məsələsi də gəldi. 1999-cu il avqustun 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından təbii qazın dünya bazarlarına ixracının təşkil edilməsi ilə əlaqədar məsələlərin həll olunması üçün işçi qrupunun yaradılması haqqında" sərəncam imzaladı. "Şahdəniz" qaz yatağı ilə bağlı saziş isə hələ 1996-cı ildə imzalanmışdı. Bu sərəncam Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağında böyük qaz-kondensat ehtiyatlarının kəşf olunmasından sonra həmin yataqdan təbii qazın dünya bazarlarına ixracının təşkil edilməsi üçün potensial imkanların öyrənilməsi, qazın nəqli və bununla əlaqədar digər məsələlərin araşdırılması və operativ həllinin təşkil edilməsini nəzərdə tuturdu. Nəticədə Azərbaycan qazının da Gürcüstan ərazisindən Bakı–Tbilisi–Ərzurum qaz kəməri ilə dünya bazarlarına çıxarılmasının ölkənin iqtisadi və siyasi maraqlarına cavab verdiyi nəzərə alınaraq məqsədəuyğun hesab edildi[14].

Ümumi uzunluğu 691 km olan və 443 kilometri Azərbaycandan, 248 kilometri Gürcüstandan keçən Cənubi Qafqaz Boru Kəməri (CQBK) 2006-cı ilin sonlarında istismara verildi. 2007-ci ilin iyul ayından başlayaraq bu boru kəməri vasitəsilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz yatağından hasil edilən qaz Gürcüstana və Türkiyəyə çatdırıldı[15]. "Şahdəniz" yatağından hasil edilən qaz Azərbaycan, Gürcüstan və Türkiyədə qaz təchizatı komplekslərinə əhəmiyyətli dərəcədə yardım etdi. Gürcüstanın tranzit tarifi əvəzinə boru kəməri ilə nəql edilən illik qaz həcminin 5%-ni götürməsi razılaşdırıldı və bu, ölkələrin enerji mənbələrinin diversifikasiyası və müstəqilliyində

14 Баку–Тбилиси–Эрзерум выводит Грузию из-под пресса России, 2001. - http://archives.echo.az/?p=4140

15 Cənubi Qafqaz Boru Kəməri. - http://www.bp.com/az_az/caspian/operationsprojects/pipelines/SCP.html

mühüm rol oynadı. Hazırda Gürcüstan üzərindən Azərbaycanın həyata keçirdiyi Şərqi Avropanın gələcək enerji təhlükəsizliyi üçün əhəmiyyətli olan digər layihələrdən biri də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql edəcək TANAP – Cənub Qaz Dəhlizidir.

1994-cü ildən başlayaraq həyata keçirilən bu enerji layihələri Azərbaycanın regional və qlobal xarici siyasət strategiyasının mühüm tərkib hissəsi olmaqla, Cənubi Qafqazda strateji reallığı Azərbaycanın və Gürcüstanın xeyrinə dəyişərək, hər iki ölkənin iqtisadi və siyasi müstəqilliyini artırmış və bu ölkələrə qarşı kənar qüvvələrin təzyiq vasitələrini azaltmışdır.

Heydər Əliyevin iqtisadi və regional strategiyasının mühüm tərkib hissəsinin bir istiqamətini də hazırda reallaşmaqda olan Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin – Yeni İpək Yolunun yaradılması təşkil edirdi. Həmin dövrdə bu istiqamətdə Avropa İttifaqının yaxından dəstəyi ilə tarixi İpək Yolunun bərpası istiqamətində mühüm işlər görüldü. Hələ 1993-cü ilin mayında Brüsseldə Avropa İttifaqının təşkil etdiyi beş Mərkəzi Asiya və üç Qafqaz respublikasının nəqliyyat və ticarət nazirlərinin iştirak etdiyi konfransda qeyd olunan ölkələr üçün İpək Yolunun bərpasını nəzərdə tutan TRASEKA (TRACECA) proqramı qəbul edilmişdi. 1996-cı ilin mayında Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan dövlət başçılarının iştirakı ilə Türkmənistanın Sərəxs şəhərində tranzit yükdaşımanın tənzimlənməsi, dəmir yolu nəqliyyatının əlaqələndirilməsi haqqında saziş imzalandı.

Ötən müddət ərzində iki ölkənin sıx əməkdaşlığı ilə bu istiqamətdə reallaşdırılmağa başlanılan fəaliyyətlərdən biri də "Qara dəniz və Xəzər dənizində dəniz magistralları" layihəsidir[16]. Beş ölkə – Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Ukrayna bu layihə ilə Qara dəniz və Xəzər dənizində qarşılıqlı fəaliyyət şəbəkəsinin təkmilləşdirilməsi və multimodal nəqliyyat yolu ilə Avropa–Qara dəniz regionu–Qafqaz–Mərkəzi Asiya dəhlizində ticarətə və nəqliyyata yardımı qarşılarına məqsəd qoymuşdu. Azərbaycan və Gürcüstanın yaxından iştirakı ilə həyata keçirilən bu layihənin əsas məqsədlərindən biri də Qara dəniz

16 Bakıda TRACECA-nın "Qara dəniz və Xəzər dənizi magistralları" seminarı keçiriləcək. /08.10.2009/ - http://az.trend.az/business/energy/1555124.html

və Xəzər dənizi hövzəsi ölkələrini Avropa İttifaqının genişlənmiş ərazisi ilə birləşdirən "Dəniz magistralları" konsepsiyasına uyğun əlverişli intermodal yük nəqliyyatına təsir və dəstək göstərməkdən ibarətdir.

Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze 1997-ci ilin sentyabrında görüşərkən 1998-ci ildə Qafqazda prezidentlər səviyyəsində "Şərq–Qərb dəhlizi" mövzusunda konfrans çağırılması təşəbbüsünü irəli sürdülər. 1998-ci il sentyabrın 7-8-də Bakıda dünyanın 32 ölkəsinin, 13 beynəlxalq təşkilatının iştirak etdiyi konfransda Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında Çoxtərəfli Əsas Saziş və Bakı Bəyannaməsi qəbul edildi[17]. Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərdən biri olmaqla, Azərbaycan və Gürcüstan arasında gələcək regional nəqliyyat infrastrukturu layihələrinin reallaşması üçün mühüm addım oldu.

Bu məqsədlə Azərbaycan Respublikasının təşəbbüsü ilə, Gürcüstan və Türkiyə daxil olmaqla, müxtəlif səviyyələrdə dövlət orqanları və rəsmilərini əhatə edən üçtərəfli əməkdaşlıq formatı daha da dərinləşdirildi. 2006-cı il iyulun 12-də keçirilən görüşdə Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli formatının əsası İstanbulda qoyuldu. 2007-ci il fevralın 7-də Gürcüstan parlamentinin binasında Azərbaycan və Gürcüstan prezidentləri, həmçinin Türkiyənin Baş naziri R.T.Ərdoğan tərəfindən üçtərəfli regional əməkdaşlıq üzrə sammitin sənədlərinin təntənəli imzalanma mərasimi keçirildi[18]. 2005-ci il mayın 25-də Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri tərəfindən üç ölkəni birləşdirəcək dəmir yolunun tikintisi layihəsi üzrə üçtərəfli Azərbaycan–Gürcüstan–Türkiyə Bəyannaməsi imzalandı. 2007-ci ilin fevral ayında isə Azərbaycan və Gürcüstan arasında Şərq–Qərb nəqliyyat dəhlizinin inkişafı istiqamətində tarixi və strateji layihə olan Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə dair yekun sənədi iki ölkənin prezidentləri imzaladı.

17 Ziya Məmmədov: "Qlobal iqtisadi layihələrin reallaşması Ümummilli liderimizin müstəsna xidmətlərindəndir" /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, s.17/ - http://files.preslib.az/projects/toplu/v2/f6_2_1.pdf

18 Азербайджано-грузинские отношения, ОБЩИЕ ИСТОРИЧЕСКИЕ СПРАВКИ / ВНЕШНЯЯ ПОЛИТИКА / Азербайджан – Содружество Независимых Государств. - http://lib.aliyev-heritage.org/ru/1407885.html

Digər layihələrin həyata keçirilməsində olduğu kimi, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin reallaşmasına da bəzi xarici qüvvələr əngəllər yaratmağa cəhd göstərdilər. Belə ki, Qərbdəki nüfuzlu erməni lobbisi Ermənistanı bu regional strateji layihədən kənarda qoyan Bakı–Tbilisi–Qars dəmir yolu ilə Ermənistanın inkişaf perspektivlərindən və imkanlarından məhrum olmasına imkan verməmək üçün bütün resurslarından istifadə edərək Qərb maliyyə mənbələrinin dəmir yolu xəttinin tikintisini maliyyələşdirməsinin qarşısını aldı.

Bütün maneə və çətinliklərə baxmayaraq, dəmir yolunun tikintisi uğurla davam etdirilir və 2016-cı ilin sonunda istifadəyə verilməsi nəzərdə tutulur. Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikintisi üçün bu ölkəyə 775 milyon dollar güzəştli kredit ayırmışdır[19]. Layihə çərçivəsində 105 km uzunluğunda yeni dəmir yolu (76 km Türkiyə və 29 km Gürcüstan ərazisindən keçməklə) qurulmaqdadır. Eyni zamanda Gürcüstanda dəmir yolunun 183 kilometrlik hissəsi rekonstruksiya edilmiş, qatarların Gürcüstandakı mövcud dəmir yollarından sonra Avropa dəmir yollarında hərəkət edə bilməsi üçün Axalkalakidə keçid məntəqəsi tikilməkdədir. Qeyd etmək lazımdır ki, hazırda Çinin Avrasiya qitəsində Böyük İpək Yolu strategiyasına uyğun nəqliyyat infrastrukturu layihələrini inkişaf etdirməsi, ABŞ-ın öz silahlı qüvvələrini gələcəkdə Əfqanıstandan çıxarması, eləcə də Qərbin Mərkəzi Asiyaya çıxması kontekstində gələcəkdə Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin strateji əhəmiyyəti artacaqdır. Azərbaycan üçün dəmir yolunun tikilib istifadəyə verilməsinin bir üstün cəhəti də odur ki, Türkiyənin Qars şəhərindən Naxçıvana da dəmir yolu çəkilməsi nəzərdə tutulmuşdur.

Digər əməkdaşlıq sahələri

Ötən müddət ərzində Azərbaycan və Gürcüstan daha geniş regional siyasi əməkdaşlıq təşəbbüsləri ilə də çıxış etmişlər. GUAM çərçivəsində əməkdaşlıq regionda daha mehriban və sabit münasibətlərə nail olunmasına öz töhfəsini verməkdədir. 1997-ci ildə Strasburqda Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova Demokratiya və İqtisadi İnkişaf uğrunda

19 Bakı–Tbilisi–Qars dəmir yolu 2015-ci ilin ortalarında işə düşəcək. /22.02.2014/ - http://az.trend.az/business/economy/2245091.html

Təşkilatı – GUAM-ı təsis etdilər. Təşkilat 2001-ci il iyunun 7-də Yalta sammitində öz xartiyasını qəbul etdi. Təşkilatın üzvləri qarşılıqlı əlaqələri genişləndirməklə bərabər, bir sıra mühüm məsələlərə münasibətdə vahid mövqedən çıxış edirlər. GUAM iştirakçısı olan ölkələrin ərazi bütövlüyü və suverenliyinin pozulması onların istər regional, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində birgə fəaliyyətini şərtləndirir. Bu əməkdaşlıq eyni zamanda Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir.

Belə ki, BMT və BMT sistemi təşkilatlarında birgə mövqedən çıxış edərək məqsədyönlü şəkildə iş aparmaq üçün GUAM dövlətləri arasında razılaşma əldə olunmuş, GUAM-a üzv dövlətlərin beynəlxalq təşkilatların nəzdindəki daimi nümayəndəliklərinin fəaliyyət planları qəbul edilmişdir. Bu istiqamətdə aparılan işlərin nəticəsi kimi "GUAM ərazisində uzanmış münaqişələr və onların beynəlxalq sülhə, təhlükəsizliyə və inkişafa təsiri" adlanan 42 bənd BMT-nin 61-ci sessiyasının gündəliyinə daxil edilmişdi. 5 dekabr 2007-ci il tarixində bu bənd altında eyni adlı qətnamə layihəsi baxılmaq üçün BMT Baş Assambleyasında rəsmi yayılmışdır. Hazırda GUAM dövlətləri arasında qətnamənin qəbul olunmasına dair məsləhətləşmələr aparılır[20].

İki dövlət arasında ticarət dövriyyəsi 2000-ci illə müqayisədə 10 dəfə artmış və Azərbaycan Gürcüstanın əsas 3 ticarət tərəfdaşından birinə çevrilmişdir. Bundan əlavə, Gürcüstan iqtisadiyyatının əsas hərəkətverici qüvvələrindən biri Azərbaycandan gələn investisiyalar olmuşdur. Belə ki, 2003-cü ildə Gürcüstana yatırılan Azərbaycan investisiyası 29 milyon ABŞ dollarından 2015-ci ildə 549 milyon ABŞ dollarına çataraq, bu ölkəyə yatırılan birbaşa xarici investisiyada birinci yeri tutmuşdur[21]. 2015-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin törəmə şirkəti "SOCAR Energy Georgia" Gürcüstanda "ən böyük vergi ödəyicisi", "ən çox işəgötürən", "keyfiyyətin yüksək standartı" və "effektiv menecment" nominasiyaları üzrə biznes reytinqinin qalibi olmuşdur[22].

Mixeil Saakaşvilinin 2004-cü ildə Gürcüstanda hakimiyyətə gəlmə-

20 Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – GUAM. - http://www.mfa.gov.az/az/content/557

21 Foreign Direct Investments, National Statistic Office of Georgia. - http://www.geostat.ge/index.php?action=page&p_id=2231&lang=eng

22 SOCAR Energy Georgia в числе компаний с высоким бизнес-рейтингом. /27.11.2015/ - http://ru.sputnik.az/economy/20151127/402850966.html

sindən sonra iki dövlət arasında münasibətlər yüksək inkişaf mərhələsinə qədəm qoydu. İstər dövlət və hökumət nümayəndələri arasında, istərsə də regional və beynəlxalq formatlar daxilində əməkdaşlıqda canlanma başladı. M.Saakaşvili prezident seçildikdən sonra özünün ilk rəsmi xarici səfərlərindən birini Azərbaycana 4-5 mart 2004-cü il tarixlərində etdi. Səfər çərçivəsində iki ölkənin dövlət başçıları separatizmə qarşı bəyanat verdilər. Dövlət və hökumət nümayəndələri arasında müxtəlif sahələri əhatə edən sənədlər imzalandı. 2004-cü il martın 25-də Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradıldı və bunun ardından müxtəlif müvafiq sahələr üzrə dövlət orqanları arasında ikitərəfli təmaslar genişləndi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana 2004-cü ilin iyununda cavab səfəri oldu. Bu səfər çərçivəsində də müxtəlif sahələri əhatə edən sənədlər imzalandı, Azərbaycan Respublikasının Prezidenti bu ölkədə yaşayan soydaşlarımızla görüşərək onların qarşısında çıxış etdi.

2008-ci il mayın 26-da Prezident M.Saakaşvilinin qərarı ilə ARDNŞ Gürcüstanın 22 rayonunda əvəzsiz olaraq qazpaylayıcı şəbəkədə distribütorluq hüququ aldı və Dövlət Neft Şirkəti növbəti 3 il ərzində bu ölkənin qazpaylama sisteminə 40 milyon ABŞ dolları həcmində investisiya yatırdı. Həmin il noyabrın 18-də Azərbaycan və Gürcüstan hökumətləri arasında imzalanan memorandum əsasən, ARDNŞ Gürcüstan ərazisində qaz resurslarının bölgüsü hüququnu əldə etdi. ARDNŞ-nin məlumatına görə, "SOCAR Energy Georgia" şirkəti 2009-2015-ci illər ərzində Gürcüstanda qaz satışını yeddi dəfə artırmış, ölkə ərazisində 5.360 km uzunluğunda yeni qazpaylayıcı borular çəkmiş və hazırda Tbilisidən başqa ölkənin regional qazpaylama şəbəkəsinin 95%-nə nəzarət edir[23].

Gürcüstana böyük həcmli Azərbaycan investisiyasının qoyulmasının əsası 2006-cı ilin sonundan etibarən başladı. Belə ki, ARDNŞ Gürcüstanın "Kulevi" terminalını aldı. 2008-ci il mayın 16-da rəsmi açılışı olan, neft və neft məhsullarının qəbulu, saxlanılması və tankerlərə yüklənməsi üçün

23 SOCAR контролирует 95% региональной газовой дистрибуционной сети Грузии /20.09.2016/ - http://ru.apa.az/ekonomika-azerbaydjana/energetika_i_promyshlennost_azerbaydjana/socar-kontroliruet-95-regionalnoj-gazovoj-distribucionnoj-seti-gruzii.html

nəzərdə tutulan terminalın ilkin işləmə gücü 10 milyon, daha sonra isə 20 milyon tona çatdırıldı. 2016-cı il sentyabrın 30-da terminaldan neftlə dolu 1200-cü tanker yola çıxdı. Kulevi terminalı 2009-cu ilə qədər əgər 40.000 tonluq neft tankerlərini qəbul edə bilirdisə, daha sonra bu rəqəm 115.000 tona çatdırıldı[24]. Terminal eyni zamanda dizel yanacağının və mazutun qəbulu, saxlanılması və gəmilərə yüklənməsi imkanına malikdir. Ən müasir avadanlıqlarla təchiz olunmuş bu müəssisə hazırda qonşu ölkənin ən yaxşı infrastruktura malik neft terminalı sayılır. Qeyd etmək lazımdır ki, bu terminal vasitəsilə Qazaxıstanın "Tengiz" yatağında hasil olunan neftin də bir hissəsi dünya bazarlarına nəql edilir.

2008-ci il aprelin 28-də ARDNŞ tərəfindən təsis edilmiş "SOCAR Energy Georgia" Gürcüstanda ilk yanacaqdoldurma məntəqəsini açdı. "SOCAR Georgia Petroleum" və "SOCAR Georgia Gas" şirkətləri Gürcüstanda neft məhsulları və təbii qaz paylama bazarının ayrılmaz tərkib hissəsinə çevrilmişlər. Bu bazarda möhkəm qərarlaşmış ARDNŞ törəmə müəssisələri vasitəsilə Gürcüstan iqtisadiyyatının inkişafına dəyərli töhfələr verir, respublikanın qazlaşdırılması prosesində aparıcı rol oynayır. Hazırda qonşu ölkədə "SOCAR" brendi ilə 64 yanacaqdoldurma stansiyası işləyir, ölkənin onlarla qazpaylayıcı şəbəkəsi ARDNŞ tərəfindən idarə olunur.

Cari münasibətlər

2012-ci ilin oktyabrında Gürcüstanda keçirilən parlament seçkilərində müxalif "Gürcü arzusu" koalisiyası hakimiyyətə gəldi. "Gürcü arzusu" koalisiyası hakimiyyətə gəlməmişdən əvvəl bəzi şəxslər seçki kampaniyalarına xas olan seçkiqabağı qeyri-real vədlər verərək, Azərbaycanla birlikdə həyata keçirilən layihələrdə Gürcüstana çatacaq payın və töhfələrin ədalətsiz olması barədə təcrübəsizlikdən irəli gələn çıxışlar edərək, həmin layihələrə hakimiyyətə gəldikdən sonra yenidən baxacaqlarını bildirdilər.

Eyni zamanda, bildiyimiz kimi, müstəqillikdən sonrakı illərdə bəzi xarici qüvvələr Gürcüstanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin

24 Порт Кулеви отправил 1200-й танкер. /30.08.16/ - http://kavkazplus.com/news.php?id=8972#.WAd9dI-LTs2

inkişafından və dərinləşməsindən narahat idilər. Onlar müxtəlif vasitələrlə bu əlaqələrə mane olmağa, guya Bakının və Ankaranın Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyü ilə bağlı əsası olmayan, radikal milliyyətçi hislər oyadan məkrli planlarının olması barədə təbliğatları ilə ölkənin ictimai rəyinə təsir göstərməyə çalışırdılar. Həmin qüvvələr Gürcüstanın Azərbaycan və Türkiyə ilə iqtisadi əlaqələrinin miqyasını birtərəfli asılılıq kimi qələmə verərək ictimai rəyə səhv düşüncə yeritməyə çalışırdılar ki, guya Azərbaycan və Türkiyədən iqtisadi asılılığın həddindən çox artması ölkənin milli təhlükəsizliyi üçün böyük təhdiddir.

Bu qüvvələr Azərbaycan və Gürcüstan münasibətlərinin yüksək səviyyədə olmasına qısqanclıqla yanaşaraq, yuxarıda göstərilən iddiaları təbliğ etməklə yanaşı, Gürcüstan dövlətini xarici iqtisadi əlaqələrində daha ehtiyatlı olmağa, ölkənin milli maraqlarını üstün tutmağa, Azərbaycan və Türkiyə ilə iqtisadi əlaqələrini "balanslaşdırmağa" və bu "asılılığı azaltmağa" çağırırdılar. Təbii ki, bütün bu təbliğatlarda Azərbaycan–Gürcüstan münasibətlərinin inkişaf səviyyəsindən və bu ölkə üzərindən Bakının Şərqi Avropadakı qlobal layihələrindən narahat olan və buna qısqanclıqla yanaşan, həm Gürcüstanda, həm də dünyada kifayət qədər güclü mövqeyə malik erməni lobbisi xüsusilə mühüm rol oynayırdı[25].

Yuxarıda göstərilən məqamlara baxmayaraq, 2012-ci ildə hakimiyyətə gələn "Gürcü arzusu" koalisiyası ölkənin strateji maraqları üçün əhəmiyyətli vəzifəni üzərinə götürəndən sonra iki ölkə arasında 20 il ərzində qurulan strateji münasibətlərə alternativlər axtarışına elə də çox vaxt sərf etmədən Azərbaycan və Gürcüstan arasında qurulan münasibətlərin tarixi zərurətdən irəli gələn ən praqmatik və düzgün kurs olduğunu dərk edərək bunu ən müxtəlif səviyyələrdə bəyan etdi. Beləliklə, bəzi qüvvələrin ehtimallarına və cəhdlərinə baxmayaraq, nəticədə ötən 20 il ərzində praqmatik və ikitərəfli maraqlara cavab verən münasibətlərə hər hansısa formada alternativin olmadığı hər kəs üçün aydın oldu.

2012-ci il seçkilərindən sonra elə həmin ilin dekabr ayında Gürcüstanın yeni Baş naziri B.İvanişvili ilk səfərlərindən birini

25 Ильхам Шабан: Экспансия SOCAR в Европе очень беспокоит армян. /24.06.2016/ - http://www.1news.az/interview/20160624113937204.html

Azərbaycana etdi. Bundan sonrakı ötən 4 il ərzində hər dəfə Gürcüstan hökumətində məsul vəzifələrdə dəyişikliklər olduqca ölkə rəsmilərinin ilk səfərlərindən biri məhz Azərbaycana olurdu. Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana mühüm tarixi səfəri isə 2015-ci ilin noyabrında baş tutdu[26]. Çox məhsuldar keçən və qarşılıqlı strateji layihələrin müzakirə edildiyi bu səfərdə Azərbaycan Respublikasının Prezidenti Gürcüstan siyasi səhnəsinin müxtəlif nümayəndələri ilə görüşlər keçirdi. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş ənənəyə sadiq qalaraq Gürcüstan azərbaycanlılarının kompakt yaşadığı bölgələrə də səfər etdi və yerli əhali ilə görüşlər keçirdi. Azərbaycan Respublikasının Prezidenti bu görüşlər zamanı qonşu ölkədə yaşayan soydaşlarımızın problemləri ilə maraqlandı, onların həlli üçün zəruri tədbirlər görüləcəyini bildirdi, əvvəl olduğu kimi, gələcəkdə də Gürcüstan azərbaycanlılarının Azərbaycan dövlətinin diqqəti və qayğısı ilə əhatə olunacağına söz verdi.

Heydər Əliyev tərəfindən Gürcüstanın azərbaycanlı vətəndaşları ilə bağlı əsası qoyulmuş siyasətin mühüm istiqaməti soydaşlarımızın bu ölkənin dövlət strukturlarında və qanunverici orqanında layiqli təmsil olunması, habelə bu ölkənin ictimai-siyasi həyatında nüfuzunun, təsirinin və imkanlarının artmasına nail olmaq idi. Ümummilli lider Gürcüstana səfərləri çərçivəsində və bu ölkədən olan azərbaycanlı ictimaiyyət nümayəndələri ilə görüşlərində soydaşlarımızın Gürcüstan cəmiyyətinə inteqrasiyasının zəruriliyini dəfələrlə vurğulamış, onları ölkənin yerli və tarixi əhalisi kimi dövlət quruculuğu işində yaxından iştirak etməyə çağırmışdır. Bu siyasət Prezident İlham Əliyev tərəfindən də davam etdirilərək azərbaycanlıların Gürcüstanın bərabərhüquqlu vətəndaşları olması və onların dövlət orqanlarında layiqli təmsilçiliyinin təmin edilməsi istiqamətində gələcəyə hesablanmış bir sıra vacib addımlar atılmışdır. Bu cür mühüm fəaliyyətlər içərisində ilk növbədə Gürcüstanın azərbaycanlı gənclərinin təhsilinə göstərilən xüsusi diqqəti və qayğını qeyd etmək lazımdır. Belə ki, ARDNŞ bu ölkədə fəaliyyətə başladığı dövrdən hər il yüzlərlə azərbaycanlı gəncin təhsilinin maliyyələşdirilməsinə dəstək

26 От имени Президента Грузии Георгия Маргвелашвили был дан официальный прием в честь Ильхама Алиева. /05.11.2015/ - http://ru.president.az/articles/16679

olmaqla, gələcəkdə yeni nəsil liderlərin meydana çıxması üçün zəmin yaratmışdır. Gürcüstan azərbaycanlılarının istər qanunverici və digər dövlət orqanlarında müvafiq və layiqli təmsilçiliyi, istərsə də ictimai-siyasi həyatında fəal iştirakı bu ölkənin daxilindəki ictimai-siyasi proseslərdən doğan təbii qanunauyğunluq və zərurətdir. Gürcüstan azərbaycanlılarının ölkə cəmiyyətinə yaxından inteqrasiyası və onların dövlət orqanlarında layiqli təmsilçiliyi bu ölkənin dövlətçiliyinin möhkəmləndirilməsi, onun nümunəvi demokratik dəyərlərə sadiq ölkə kimi inkişafı üçün zəruri olan məqamlardır. Sevindirici haldır ki, ötən müddət ərzində bu istiqamətdə bir sıra mühüm uğurlar qazanılmış, Gürcüstan azərbaycanlıları 2016-cı ilin oktyabrında keçirilən parlament seçkilərində istər iqtidar, istərsə də müxalifət partiyalarından öz namizədliklərini irəli sürərək ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə başlamışlar[27]. Bu seçkilər nəticəsində hakim partiyadan 3, müxalifətdən isə 1 azərbaycanlı deputat Gürcüstanın qanunverici orqanına seçilmişdir. Arzuolunandır ki, Gürcüstan azərbaycanlıları gələcəkdə daha geniş siyasi spektrdə – bu ölkənin istər qanunverici, istərsə də yerli icra və bələdiyyə orqanlarında iştirak etsinlər.

Nəticə

25 il ərzində Azərbaycan və Gürcüstan öz iqtisadi inkişaflarının, siyasi müstəqilliklərinin və təhlükəsizliklərinin qarşılıqlı asılı olduğunu dərk edərək, praqmatik və rasional münasibətlər qurmağa nail oldular. Hər iki ölkənin bir-biri ilə münasibətləri beynəlxalq münasibətlər nəzəriyyəsində coğrafi reallıqların ölkələrin xarici siyasətlərinə necə diktə edərək onların rasional, praqmatik və qarşılıqlı faydaya əsaslanan münasibətlər qurmağa sövq etdiyini göstərən gözəl nümunədir. Bu nümunə özünü Cənubi Qafqazın digər dövləti – öz xarici siyasətini praqmatizmə alternativ qatı milliyyətçi və geridəqalmış irqçi ideallar əsasında quran, siyasətin necə dağıdıcı nəticələrə gətirə biləcəyini öz indiki vəziyyəti ilə bir daha sübut edən Ermənistanla müqayisədə çox

27 Shiriyev Z. A move towards greater political participation among ethnic Azerbaijanis in Georgia? /20.12.2016/ - http://www.cacianalyst.org/publications/analytical-articles/item/13417-a-move-towards-greater-political-participation-among-ethnic-azerbaijanis-in-georgia?.html

gözəl göstərir. Azərbaycan xalqının Ümummilli lideri bu məqamları hakimiyyətə gəldiyi ilk günlərdən daha gözəl anlayaraq, Cənubi Qafqaz xalqlarının yalnız vahid inteqrasiya olunmuş iqtisadi və siyasi məkanda rifahının mümkün olması barədə çağırışlar və mesajlar vermişdir. Lakin təəssüflər olsun ki, keçən əsrin 90-cı illərindən indiyə qədər həmin mesajları və reallıqları regionun yalnız iki ölkəsi öz əməli siyasətlərində təsbit edə bilib.

Azərbaycanın həyata keçirdiyi enerji layihələri, iqtisadi inkişafı və təhlükəsizliyi Gürcüstandan asılı olduğu kimi, qonşu ölkənin də iqtisadi perspektivləri əsasən Azərbaycandan və Orta Asiyadan gələn enerji və digər malların Qərb ölkələrinə nəqlinə, Avropa–Asiya əlaqələrində tranzit dəhliz roluna hesablanmışdır. Gürcüstan hazırda özünün beynəlxalq aləmdə iqtisadi əlaqələrini genişləndirmək və müxtəlifləşdirmək sahəsində bir sıra uğurlar əldə etsə də, coğrafi yaxınlıq bu ölkənin iqtisadi inkişafının və siyasi müstəqilliyinin Azərbaycandan müsbət mənada həmişə asılı olacağını diktə edəcəkdir. Yəni ötən 25 il ərzində hər iki dövlət arasında münasibətlər o qədər dərinləşmiş və institusionallaşmışdır ki, onu kənar qüvvələr və ya hansısa yerli səriştəsiz siyasətçilərin eksperiment və alternativ axtarışı sarsıda bilməz. Ötən müddət ərzində Azərbaycan özünün etibarlı qonşuluq prinsipinə əsaslanaraq Gürcüstanın enerji təhlükəsizliyi ilə bağlı çətin anlarında köməklik göstərməklə, eyni zamanda qarşılıqlı asılılıq faktorundan qonşu dövlətə və gürcü xalqının iradəsinə qarşı heç zaman təzyiq vasitəsi kimi istifadə etməməklə özünün mehriban qonşuluq və etibarlı strateji tərəfdaşlıq prinsiplərinə sadiq qaldığını sübut etmişdir. Bundan əlavə, Azərbaycan aqressiv separatizm və işğalçılıqdan əziyyət çəkən ölkə kimi bu müddətdə istər ikitərəfli görüşlər, istərsə də müxtəlif beynəlxalq tədbirlər çərçivəsində daima Gürcüstanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bütün bunlar Azərbaycan və Gürcüstan arasında möhkəm təməllərə əsaslanan və hər iki xalqın strateji maraqlarına cavab verən nümunəvi münasibətlər kimi hələ uzun illər regionun inkişafının və rifahının əsas hərəkətverici qüvvəsi olacağını deməyə əsas verir.

Azərbaycan–Mərkəzi Asiya münasibətləri

*Azad Qəribov**

Giriş

Mərkəzi Asiya Avrasiyanın mərkəzində yerləşən, geosiyasi cəhətdən önəmli çəkiyə malik, təbii sərvətlərlə zəngin və bəşər tarixinin mühüm sivilizasiyalarına ev sahibliyi etmiş əhəmiyyətli bir regiondur. Regionun istər coğrafi mövqeyi, istərsə də zəngin təbii sərvətləri Mərkəzi Asiyanı böyük və regional güclərin geosiyasi maraqlarının toqquşduğu məkana çevirir. Mərkəzi Asiya hazırda yüksələn Çin və regionda öz üstün nüfuzunu qorumağa çalışan Rusiya, həmçinin regionda xüsusi maraqları və baxışları olan ABŞ arasında regional dominantlığa nail olmaq uğrunda mübarizə meydanına çevrilmişdir. Bu dövlətlərdən əlavə Türkiyə, İran və Hindistan kimi önəmli ölkələrin də regionda xüsusi maraqları və qeyd edilən geosiyasi oyunda özünəməxsus rolları vardır.

Xəzər vasitəsilə Azərbaycanla həmsərhəd olan Mərkəzi Asiya ölkəmiz üçün ortaq tarix, dil, din və ənənələrin daşıyıcısı olan xalqların yaşadığı, çoxsaylı azərbaycanlı diasporasına ev sahibliyi edən, ortaq enerji və nəqliyyat maraqlarını paylaşan region, həmçinin önəmli bazar və investisiya məkanı kimi əhəmiyyətlidir.

Mərkəzi Asiya dövlətləri ilə ilkin təmaslar və dövlətlər arasında ilk rəsmi sənədlərin imzalanması hələ bu ölkələrin öz müstəqilliyini elan etməsi prosesi tam başa çatmamışdan əvvəl reallaşmışdır. 1991-1993-cü illərdə bütün Mərkəzi Asiya dövlətlərinə Azərbaycanı təmsil edən müxtəlif səviyyəli nümayəndə heyətlərinin səfərləri və region dövlətlərinin rəsmi şəxsləri ilə görüşləri baş tutmuş, bir çox istiqamətlərdə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanmışdır. Müəyyən dövrlərdə, xüsusən də keçən əsrin 90-cı illərinin ortaları və sonlarında bəzi region dövlətləri ilə münasibətlərdə soyuqluq yaşansa da, qarşılıqlı əlaqələr əsasən pozitiv ruhda inkişaf etmiş və hazırda bütün

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin aparıcı elmi işçisi*

Mərkəzi Asiya dövlətləri ilə mehriban qonşuluq münasibətləri, eləcə də ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq formalaşdırılmışdır. Bu dövlətlərin bir qismi, xüsusən də Qazaxıstan və Özbəkistanla qarşılıqlı əməkdaşlıq strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir. Müxtəlif beynəlxalq tədbirlərdəki görüşləri nəzərə almasaq, Azərbaycanın dövlət başçıları son 25 il ərzində Mərkəzi Asiya dövlətlərinə 22 səfər etmiş və beş region dövlətinin prezidentlərinin Azərbaycana 22 rəsmi və işgüzar səfəri baş tutmuşdur[1].

İkitərəfli əməkdaşlığın inkişaf etdirilməsi ilə yanaşı hazırda Mərkəzi Asiya dövlətləri ilə bir sıra beynəlxalq və regional təşkilatlar, o cümlədən Birləşmiş Millətlət Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, həmçinin regionun türkdilli dövlətləri ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq mövcuddur. Azərbaycanın regionla iqtisadi münasibətlərində qarşılıqlı ticarət və investisiya ilə yanaşı, Transxəzər enerji dəhlizinin və Qafqaz – Mərkəzi Asiya nəqliyyat marşrutlarının yaradılması sahəsində əməkdaşlıq önəmli yer tutur.

Mərkəzi Asiyanın Azərbaycan üçün əhəmiyyəti

Mərkəzi Asiya regionu coğrafi cəhətdən şərqdə Çin, şimalda Rusiya, cənubda Əfqanıstan və İran, qərbdə isə Xəzər dənizi ilə əhatələnmişdir. Beş dövlətin – Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Tacikistanın yerləşdəyi Mərkəzi Asiya regionu 4 milyon km^2 əraziyə və 66,5 milyonluq əhaliyə malikdir. Ötən il region dövlətlərinin birlikdə ümumi daxili məhsulu (ÜDM) alıcılıq qabiliyyəti paritetinə əsasən 750 mlrd. ABŞ dollarına, nominal dəyərdə isə 320 mlrd. ABŞ dollarına bərabər olmuşdur[2]. Region 4 mlrd. ton sübut edilmiş neft ehtiyatı və illik 96 mln. ton neft istehsalı, həmçinin 20 trln. m^3 təsdiq edilmiş təbii qaz ehtiyatı və illik 146 mld. m^3 qaz istehsalı ilə dünyanın enerji təhlükəsizliyində çox önəmli rol oynamaq imkanına malikdir. Qeyd

1 İkitərəfli münasibətlər: Asiya. / Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. - http://mfa.gov.az/content/37 86

2 Ölkələr və iqtisadiyyatlar. /Dünya Bankı, 29.05.16/ - http://data.worldbank.org/country

edək ki, Mərkəzi Asiyanın neft ehtiyatları bütün dünyanın sübut edilmiş neft ehtiyatlarının 1,7%-ni, MDB ölkələrinin neft ehtiyatlarının isə 21%-ni təşkil edir. Təbii qaz ehtiyatları baxımından isə bu göstəricilər müvafiq olaraq 11% və 37% təşkil edir[3].

Azərbaycan üçün Mərkəzi Asiya bilavasitə qonşuluğumuzda yerləşən, ortaq dil, din, tarix və sivilizasiyanın daşıyıcıları olan xalqların yaşadığı əhəmiyyətli bir regiondur[4]. Belə ki, regionun 5 dövlətindən dördü (Tacikistan istisna olmaqla) türkdilli dövlətlərdir ki, bu dövlətlərlə təkcə ikitərəfli deyil, həmçinin türkdilli ölkələrin müxtəlif inteqrasiya platformaları çərçivəsində də əməkdaşlıq edilir. Eləcə də postsovet məkanının tərkib hissəsi kimi region Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Beş region dövlətindən ikisi – Qazaxıstan və Türkmənistan Xəzər dənizi vasitəsilə Azərbaycanla həmsərhəddir ki, bu da dənizin statusu məsələsi çərçivəsində Azərbaycanın regional dövlətlərlə əlaqələrinin əhəmiyyətini artırır. Azərbaycanın region dövlətləri ilə ikitərəfli siyasi əlaqələri müxtəlif dövrlərdə enişli-yoxuşlu mərhələlərdən keçsə də, son dövrlər dövlət rəhbərlərinin artmaqda olan qarşılıqlı səfərləri, Azərbaycanın regional nüfuzunun güclənməsi və bir sıra regional layihələrin təşəbbüskarı və reallaşdırıcısı rolunda çıxış etməsi fonunda Azərbaycan–Mərkəzi Asiya münasibətlərində canlanma müşahidə edilir. Hazırda beynəlxalq arenada bir çox məsələlərdə, o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində Mərkəzi Asiya dövlətləri rəsmi Bakının mövqeyini dəstəkləyir.

Qeyd edilənlərdən əlavə, Azərbaycanın Mərkəzi Asiyadakı maraqlarını şərtləndirən bir sıra digər amillər də mövcuddur. Belə ki, Azərbaycanın region dövlətlərinin enerji resurslarını öz ərazisi vasitəsilə nəql etmək və bununla da tranzit gəlirləri əldə etmək planları regionun rəsmi Bakı üçün əhəmiyyətini artırır. Digər tərəfdən açıq dənizlərə birbaşa çıxışı olmayan və bu səbəbdən tranzit nəqliyyat marşrutlarından asılı olan Mərkəzi Asiya dövlətləri istər öz xarici

3 BP Statistical Review of World Energy June 2015. /29.05.16/ - https://www.bp.com/content/dam/bp/pdf/energy-economics/statistical-review-2015/bp-statistical-review-of-world-energy-2015-full-report.pdf

4 Garibov A. and Ibrahimov R., Geopolitical Competition in the Central Asia. The Dynamics of Relations with Azerbaijan, SAM Comments, Baku, Volume IX, 2013

iqtisadi-ticari əlaqələri, istərsə də Asiya ilə Avropa arasındakı ticarətdə tranzit vasitəçiliyi rolunda çıxış etmək maraqları baxımından Transavrasiya nəqliyyat dəhlizlərinin yaradılmasına böyük önəm verirlər. Bu maraqlar isə Azərbaycanın nəqliyyat maraqları və Avrasiyanın mərkəzində tranzit marşrutlarının qovşağına çevrilməsi planları ilə üst-üstə düşür. Həmçinin region Azərbaycan üçün istər qeyri-neft məhsullarının ixracı, istərsə də sərmayə yatırılması baxımından əhəmiyyətli potensiala malik bazardır.

Mərkəzi Asiyanı Azərbaycan üçün maraqlı edən amillərdən biri də region ölkələrində yaşayan diasporamızdır. Regionda Azərbaycan diasporası 30-cu illər sovet repressiyaları, İkinci Dünya müharibəsi və nisbətən sonrakı dövlərdəki zorla köçürmələr hesabına formalaşmışdır. Hazırda Qazaxıstanda 90 min, Özbəkistan və Türkmənistanın hər birində 60 min, Qırğızıstanda 15 min, Tacikistanda isə 14 minə yaxın soydaşımız yaşayır[5].

Cədvəl 1. Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə diplomatik münasibətlərinin qurulması və səfirliklərin fəaliyyətə başlaması tarixləri

Ölkənin adı	İki dövlət arasında diplomatik münasibətlərin qurulması tarixi	Azərbaycanın bu ölkədə səfirliyinin fəaliyyətə başlaması	Bu ölkənin Azərbaycanda səfirliyinin fəaliyyətə başlaması
Qazaxıstan	30 avqust 1992-ci il	1 mart 2004-cü il	9 yanvar 1993-cü il
Özbəkistan	2 oktyabr 1995-ci il	20 iyun 1996-cı il	may 1998-ci il
Türkmənistan	9 iyun 1992-ci il	18 oktyabr 2002-ci il	8 iyun 1999-cu il
Qırğızıstan	19 yanvar 1993-cü il	16 may 2007-ci il	9 avqust 2012-ci il
Tacikistan	29 may 1992-ci il	2007-ci il	2008-ci il

5 Azərbaycan diasporasının məskunlaşma coğrafiyası, Azərbaycan Respublikasının Diaspora ilə İş üzrə Dövlət Komitəsi. - http://diaspora.gov.az/index.php?options=content&id=86 (01.06.16)

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə ikitərəfli əlaqələrinin qurulması və inkişafı

Azərbaycan–Qazaxıstan münasibətləri

Azərbaycanın rəsmi münasibətlər qurduğu ilk dövlətlərdən biri Qazaxıstandır. Bu ölkə ilə ilk ikitərəfli təmaslar, formal olaraq, SSRİ-nin dağılmadığı dövrə təsadüf edir. Belə ki, 1991-ci il 30 sentyabr – 2 oktyabr tarixlərində, hələ Azərbaycan və Qazaxıstanın dövlət müstəqilliyi elan edilməmiş Azərbaycan nümayəndə heyəti Almatıya səfər etmiş, səfər çərçivəsində iki ölkə arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında 10 illik müddətə nəzərdə tutulmuş müqavilə imzalanmışdır[6]. İki ölkə prezidentlərinin ilk görüşlərindən biri 1994-cü il oktyabrın 19-da baş tutmuşdur. Türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilən ikinci zirvə görüşündə iştirak edən Prezident Heydər Əliyev burada qazaxıstanlı həmkarı Nursultan Nazarbayevlə ölkələr arasında münasibətlərin inkişaf perspektivlərini müzakirə etmişdir[7].

Prezident Heydər Əliyevin Nursultan Nazarbayevlə növbəti görüşü 1995-ci il fevralın 9-da Almatıda keçirilən MDB ölkələri dövlət başçılarının zirvə görüşündə baş tutmuşdur. Həmin il Moskvada faşizm üzərində Qələbənin 50 illik yubiley tədbirlərində iştirak edən Ümummilli lider Heydər Əliyev yenidən Nursultan Nazarbayevlə görüşmüşdür. 1995-ci il oktyabrın 25-də BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən tədbirdə də Heydər Əliyev və Nursultan Nazarbayev qarşılıqlı maraq doğuran məsələləri müzakirə etmişlər[8].

Bu görüşlər ikitərəfli münasibətlərin inkişaf etdirilməsi və dövlət başçılarının qarşılıqlı səfərləri üçün zəmin hazırladı. 1996-cı il sentyabrın 16-da Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Azərbaycana ilk rəsmi səfəri baş tutdu. Səfər çərçivəsində Azərbaycan və Qazaxıstan arasında münasibətlərin əsasları haqqında müqavilə,

6 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə. Bakı: Mütərcim, 2015, s.627

7 Bayramlı N. Azərbaycanla Qazaxıstan arasındakı əlaqələrin daha da inkişafı üçün geniş potensial var. // "Yeni Azərbaycan" qəzeti, 3 sentyabr 2014-cü il, s.8

8 Azərbaycan–Qazaxıstan münasibətləri. / "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana /26.06.2016/ - http://lib.aliyevheritage.org/print.php?lang=az&page=549420

investisiyaların təşviqi və qorunması haqqında saziş, neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, Xəzər dənizi məsələləri üzrə birgə bəyannamə, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası Xarici İslər nazirlikləri arasında əməkdaşlıq haqqında saziş və bir sıra digər mühüm sənədlər imzalandı[9].

Növbəti il, yəni 1997-ci il iyunun 10-11-də Prezident Heydər Əliyevin Qazaxıstana ilk rəsmi səfəri baş tutdu. Səfərin yekunlarına əsasən bir sıra xüsusi əhəmiyyət kəsb edən sənədlər, o cümlədən Azərbaycanla Qazaxıstan Respublikası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında bəyannamə, neftin beynəlxalq bazarlara nəqli üzrə əməkdaşlıq haqqında memorandum, vizasız gediş-gəliş haqqında hökumətlərarası saziş, azad ticarət haqqında saziş və digər sənədlər imzalandı[10].

Bu iki səfər dövlətlərarası əməkdaşlığın sonrakı inkişafında çox böyük rol oynadı və gələcək strateji əməkdaşlıq üçün möhkəm zəmin hazırladı. İki dövlət arasında maraq yaxınlığı və əməkdaşlığın dərinləşməsi nəticəsində strateji sahələrdə, xüsusən də karbohidrogen resurslarının ixracı sahəsində bir sıra ortaq addımlar atıldı. Bunların sırasında xüsusi əhəmiyyəti ilə seçilən 1999-cu il noyabrın 18-19-da ATƏT-in İstanbulda keçirilən zirvə görüşü çərçivəsində Azərbaycan, Türkiyə, Gürcüstan və Türkmənistan dövlət başçıları ilə birgə Qazaxıstan dövlət başçısının da Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəməri layihəsini dəstəkləməsi haqqında İstanbul Bəyannaməsini imzalaması qeyd edilməlidir[11].

1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində iki ölkənin prezidentləri arasında müxtəlif çoxtərəfli əməkdaşlıq platformaları, o cümlədən Türkdilli ölkələrin dövlət başçılarının, Xəzəryanı ölkələrin dövlət başçılarının, İqtisadi Əməkdaşlıq Təşkilatının və MDB dövlət başçılarının zirvə görüşləri çərçivəsində daha beş görüşü (1996, 1997, 2001 və 2002-ci illərdə) baş tutmuşdur[12].

9 Yenə orada

10 Yenə orada

11 Baku–Tbilisi–Ceyhan Oil Pipeline Named After Heydar Aliyev. - http://www.azerbaijan.az/_Economy/_OilStrategy/oilStrategy_06_e.html

12 İkitərəfli münasibətlər: Asiya, Qazaxıstan. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. - http://mfa.gov.az/files/file/Azerbaycan_-_Qazaxistan_munasibetleri_18.09.2014.pdf

2000-ci il aprelin 7-də isə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev yenidən Azərbaycana səfər etmişdir. İkitərəfli münasibətlərin və dostluğun inkişafı bir sıra sahələrin, o cümlədən Azərbaycan üçün çox vacib olan və Qazaxıstanla münasibətlərdə önəmli yer tutan Xəzər dənizinin dibinin bölüşdürülməsi məsələsinin iki dövlət arasında həllini tapması ilə nəticələnmişdir. Belə ki, bir qədər əvvəl, 1998-ci ildə Qazaxıstan və Rusiya Xəzərin şimal hissəsində dənizin dibinin orta xətt prinsipi ilə bölüşdürülməsinə dair razılaşma əldə etmişdilər. 2001-ci ilin noyabrında Azərbaycan və Qazaxıstan arasında Xəzərin dibinin sahil xətləri, dəniz dibinin relyefi və adaları nəzərə alınmaqla orta xətt prinsipi əsasında bölüşdürülməsinə dair saziş imzalandı. 2003-cü il mayın 14-də isə hər üç dövlət – Azərbaycan, Qazaxıstan və Rusiya arasında qeyd edilən prinsip əsasında dənizin dibinin bölüşdürülməsi və su səthinin sahil dövlətlərinin ümumi istifadəsində qalmasına dair yekun saziş imzalandı. Sazişlə Xəzərin şimal hissəsinin sahilyanı dövlətlər arasında bölüşdürülməsi yekun olaraq həllini tapdı və dəniz sərhədlərinin dəqiq koordinatları müəyyənləşdirildi. Razılaşmya əsasən, Xəzərin dibinin 19%-i Rusiyanın, 29%-i Qazaxıstanın, 18-19%-i isə Azərbaycanın payına düşdü[13].

İki ölkə arasında münasibətlər Prezident İlham Əliyevin səyləri nəticəsində daha da dərinləşmiş və strateji əməkdaşlıq səviyyəsinə yüksəlmişdir. İlham Əliyevin qeyd etdiyi kimi, ümumi tarix və ümumi köklərin birləşdirdiyi Azərbaycan və qazax xalqlarını yaxınlaşdıran amillərdən biri də iki ölkənin liderləri – Ümummilli lider Heydər Əliyev və Prezident Nursultan Nazarbayev arasında şəxsi dostluq münasibətləri olmuşdur. Bu dostluq zamanın – həm sovet, həm də müstəqillik dövrünün sınağından çıxmışdır[14]. Üstəlik, iki ölkənin strateji mənafeləri həm regionda, həm də dünyada üst-üstə düşür. Bu siyasi xətti uğurla davam etdirən Prezident İlham Əliyev Qazaxıstanla qardaşlıq, qarşılıqlı yardım və strateji maraqlar əsasında münasibətləri davam etdirərək daha da irəli aparmışdır.

13 Kamal Makili-Aliyev. Caspian "Sea" and International legal Status, pp. 37-38, in Garibov A. and Frappi C. (eds) Caspian Sea Chessboard: Geo-political, Geostrategic and Geo-economic Analysis, Milan, İtaliya, "Egea Publications", 2014

14 İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir. /20.10.11/ - http://president.az/mobile/articles/3353

İlham Əliyevin Qazaxıstana ilk rəsmi səfəri prezident seçilməsinin növbəti ilinə – 2004-cü ilin martına təsadüf etmişdir. Səfər zamanı iqtisadi münasibətlər, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparılmış, hər iki dövlət başçısı tərəfindən neft və qaz sektorunda həyata keçirilən irimiqyaslı layihələrin, xüsusilə Bakı–Tbilisi–Ceyhan layihəsində Qazaxıstanın iştirakının böyük əhəmiyyətə malik olduğu vurğulanmışdır. 2005-ci il mayın 24-də isə Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlmiş, səfər çərçivəsində Azərbaycanla Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilə də daxil olmaqla, 6 sənəd imzalanmışdır. 2006-cı il iyunun 6-da Prezident İlham Əliyevin Qazaxıstana işgüzar səfəri çərçivəsində "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı–Tbilisi–Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında Müqavilə"nin imzalanması baş tutmuşdur.

Prezident İlham Əliyevin Qazaxıstana növbəti səfərləri 2008-ci ilin may və 2009-cu ilin sentyabr aylarına təsadüf etmişdir. 2009-cu ilin oktyabrında isə Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlmişdir. Səfər zamanı Qazaxıstanın karbohidrogen yataqlarının işlənməsi zamanı ARDNŞ-nin neft-qaz infrastrukturunun birgə istifadəsi haqqında memorandum, Transxəzər layihəsi üzrə texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanması ilə əlaqədar birgə fəaliyyət haqqında müqavilə və digər sənədlər imzalanmışdır.

2010-cu il ərzində Nursultan Nazarbayevin Xəzəryanı Ölkələrin Dövlət Başçılarının III Zirvə görüşü çərçivəsində Azərbaycana və İlham Əliyevin ATƏT-in sammitində iştirak etmək məqsədilə Qazaxıstan səfəri baş tutmuşdur[15]. Qarşılıqlı səfərlər bundan sonra intensiv xarakter daşımış, 2011-ci ilin oktyabrında Azərbaycan Prezidentinin Astanaya rəsmi, Qazaxıstan Prezidentinin isə Bakıya işgüzar səfərləri olmuşdur. 2013, 2014 və 2015-ci illərdə iki ölkə prezidentlərinin Türkdilli Dövlətlərin

15 İkitərəfli münasibətlər: Asiya, Qazaxıstan. /Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. /02.06.16/-http://mfa.gov.az/files/file/Azerbaycan_-_Qazaxistan_munasibetleri_18.09.2014.pdf

Əməkdaşlıq Şurasının sammitləri çərçivəsində növbəti görüşləri keçirilmişdir.

Bundan əlavə, Qazaxıstan üzv olduğu digər platformalar, xüsusən də Avrasiya İqtisadi Birliyi (AİB) çərçivəsində Azərbaycanın mövqelərini dəstəkləmişdir. Belə ki, 2013-cü il dekabrın 24-də keçirilən və prezidentlərin iştirakı ilə Ermənistanın AİB-ə üzvlüyünün müzakirə olunduğu Avrasiya Ali İqtisadi Şurasının (AİB-in qərarverici orqanı) iclasında Nursultan Nazarbayev Ermənistanda ciddi etirazla qarşılanan bəyanat verərək Azərbaycanın bu məsələ ilə bağlı narahatlığını dilə gətirmişdir. Belə ki, o, Ermənistanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarla həmsərhəd olması və bu sərhəddə effektiv gömrük nəzarətinin olmaması məsələsinə aydınlıq gətirilməsini tələb etmiş və rəsmi İrəvanın təşkilata yalnız beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində üzvlüyünün mümkün olduğunu söyləmişdir[16].

Eləcə də Qazaxıstan 2016-cı ilin aprel ayının əvvəllərində Ermənistan–Azərbaycan cəbhə xəttində vəziyyətin gərginləşməsindən sonra aprelin 8-də baş tutacaq AİB sammitində iştirakdan imtina etmişdir. Bu imtina Ermənistan tərəfindən ciddi etirazla qarşılanmış və Azərbaycanın mövqelərini dəstək aktı kimi qəbul edilmişdir[17]. Həmçinin aprelin 23-də Qazaxıstan nümayəndə heyəti İrəvanda keçirilən "Invest Armenia – 2016" investisya sərgisində iştirakdan imtina etmişdir[18].

Azərbaycan–Özbəkistan münasibətləri

Azərbaycanla Özbəkistan arasında birbaşa qarşılıqlı əlaqələrin qurulması hər iki respublikanın hələ SSRİ-nin tərkibində olduğu vaxta təsadüf edir. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdikdən cəmi bir gün sonra – 19 oktyabr 1991-ci il tarixində Azərbaycan

16 Казахстан ждет разъяснения по карабахской проблеме в вопросе присоединения Армении к Таможенному союзу. /24.12.2013/ - http://inozpress.kg/news/view/id/40790

17 Mammadov F., Garibov A. Why Armenia's Allies Are Letting It Down, The National Interest. /05.06.2016/ - http://nationalinterest.org/feature/why-armenias-allies-are-letting-it-down-16455

18 Казахи отказались ехать в Армению, Ереван в бешенстве. /22.04.16/ - http://eurasnews.ru/azerbaydzhan/%D0%BA%D0%B0%D0%B7%D0%B0%D1%85%D0%B8 (28.05.16)

nümayəndə heyəti Özbəkistana yola düşmüş, səfər zamanı 1992-ci il üçün iki dövlət arasında iqtisadi-ticari əməkdaşlığın prinsiplərinə dair saziş imzalanmışdı[19]. İlkin təmasların uğurlu keçməsinə baxmayaraq, 1992-1993-cü illərdə daxili siyasi məsələlər ucbatından dövlətlərarası münasibətlərdə anlaşılmazlıq yaşanmışdı. Həmin dövrdə Azərbaycan rəsmilərinin Özbəkistanda baş verən daxili ictimai-siyasi proseslərə münasibət bildirməsi bu ölkənin hakimiyyəti tərəfindən yaxşı qarşılanmamış və bu, ikitərəfli münasibətlərə müəyyən soyuqluq gətirmişdi[20]. Gərginlik hətta Bakı–Daşkənd hava yolunun bağlanmasına gətirib çıxarmışdı. Lakin belə vəziyyət tərəflərin heç birinin maraqlarına cavab vermədiyindən tezliklə münasibətlərin müsbət axara düşməsi istiqamətində cəhdlərə başlanılmışdı. Xüsusən də Heydər Əliyevin Prezident seçilməsi ilə ikitərəfli münasibətlərin inkişafına yeni təkan verildi. 1993-1995-ci illərdə MDB-yə üzv dövlətlərin dövlət və hökumət başçılarının görüşləri və bir sıra digər beynəlxalq tədbirlər çərçivəsində Heydər Əliyev və özbəkistanlı həmkarı İslam Kərimov arasında görüşlər keçirildi. 1995-ci ilin oktyabrında iki dövlət arasında diplomatik münasibətlər quruldu və 26-27 may 1996-cı il tarixlərində İslam Kərimovun Azərbaycana ilk rəsmi səfəri baş tutdu. Səfər zamanı "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə" imzalandı. 1996-cı ilin iyun ayında əvvəlcə Azərbaycanın Daşkənddə, daha sonra 1998-ci ilin may ayında Özbəkistanın Bakıda səfirlikləri fəaliyyətə başladı[21].

18-19 iyun 1997-ci il tarixlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Özbəkistana rəsmi səfərini münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Səfər zamanı iki dövlət arasında müxtəlif sahələrdə əməkdaşlığa dair 19 sənəd imzalandı. Bu sənədlər içərisində Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə böyük əhəmiyyət kəsb edir. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq

19 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı: Mütərcim, 2015, s.351-352

20 Yenə orada, s. 353

21 Ruintən S. Müstəqillik illərində Azərbaycan Respublikası ilə Özbəkistan arasında münasibətlər. //"Tarix və onun problemləri", №4, 2010, s.130

üçün güclü fundamental müqavilə-hüquqi baza yaratdı[22]. İki dövlət bir sıra beynəlxalq layihələr, o cümlədən TRASEKA dəhlizinin yaradılması istiqamətində fəal əməkdaşlığa başladı. İslam Kərimov 1998-ci il sentyabrın 7-8-də TRASEKA proqramı çərçivəsində Bakıda keçirilmiş tarixi Böyük İpək Yolunun bərpasına həsr edilmiş beynəlxalq konfransda iştirak etdi. Özbəkistan həmçinin Azərbaycanın həmtəsisçisi olduğu GUAM təşkilatına da qoşuldu. Ümumiyyətlə, NATO, İKT, MDB, GUAM (Özbəkistan 1999-2005-ci illərdə bu təşkilatın üzvü omuşdur) sammitlərində Azərbaycan və Özbəkistan prezidentlərinin görüşləri iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinə səbəb oldu.

İlham Əliyevin Prezident seçilməsindən sonra region dövlətləri ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi çərçivəsində Özbəkistanla da ikitərəfli münasibətlərdə yeni mərhələ başlamışdır. 2004-cü il martın 23-24-də Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Respublikasında dövlət səfərində olmuşdur. Keçirilən görüşlərdə Azərbaycanla Özbəkistan arasında ikitərəfli əlaqələrin inkişaf perspektivləri, Cənubi Qafqazda və Mərkəzi Asiyada təhlükəsizlik məsələləri, regional və beynəlxalq problemlər və s. barədə geniş fikir mübadiləsi aparılmış, iqtisadi əməkdaşlığın inkişafına, o cümlədən qarşılıqlı mal dövriyyəsinin artırılmasına, nəqliyyat və energetika məsələlərinə, habelə humanitar və mədəni əlaqələrin genişləndirilməsinə böyük diqqət yetirilmişdir[23]. Səfərin ən önəmli nəticələrindən biri "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamənin qəbul edilməsi olmuşdur. Bəyannamədə iki dövlət "tarixi dostluq münasibətlərinə arxalanaraq və bərabərlik, qarşılıqlı etimad, strateji tərəfdaşlıq, hərtərəfli əməkdaşlıq və bir-birinin maraqlarına hörmət əsasında çoxtərəfli əlaqələrin inkişafına əlavə təkan vermək hazırlığını" ifadə etmişdir[24].

22 Azərbaycan–Özbəkistan münasibətləri. /"Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. /15.02.2010/ - http://lib.aliyev-heritage.org/az/9379476.html

23 Yenə orada

24 "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında" Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu /21.05.2005/ -http://www.e-qanun.az/framework/6124

11-12 sentyabr 2008-ci il tarixlərində İslam Kərimov yenidən Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı informasiya və kommunikasiya texnologiyaları, dəmir yolu nəqliyyatı sahələrində əməkdaşlığın daha da dərinləşdirilməsinə və kombinə olunmuş daşımaların inkişafına dair tədbirlər, vergi sahəsində əməkdaşlıq və informasiya mübadiləsi, humanitar, ticari-iqtisadi və elmi-texniki sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi tədbirləri haqqında sazişlər və bir sıra digər sənədlər imzalanmışdır[25].

27-28 sentyabr 2010-cu il tarixlərində Prezident İlham Əliyevin Özbəkistana ikinci səfəri baş tutmuşdur. İktərəfli münasibətlərin inkişafı baxımından kifayət qədər uğurlu keçən səfər zamanı digər sənədlərlə yanaşı, beş illik müddətə nəzərdə tutulan iqtisadi əməkdaşlıq haqqında və iki ölkənin Xarici İşlər nazirlikləri arasında üç illik müddətə nəzərdə tutulan əməkdaşlıq barədə sənədlər imzalanmışdır[26]. Həmçinin səfər zamanı hər iki ölkənin nəqliyyat-kommunikasiya, tranzit potensialından daha səmərəli və qarşılıqlı surətdə fayda verəcək şəkildə istifadə olunması imkanlarının öyrənilməsi barədə razılığa gəlinmişdir[27]. Prezidentlərin mətbuat üçün bəyanatında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Özbəkistanın Azərbaycana dəstəyini ifadə edən İslam Kərimov qeyd etmişdir ki, "Dağlıq Qarabağ problemi ilə bağlı mövqeyimiz birmənalı və dəyişməz qalır... Özbəkistan hesab edir ki, bu münaqişənin həllinin başlıca şərtlərindən biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır"[28]. Humanitar əlaqələrin inkişafının göstəricisi kimi səfər çərçivəsində azərbaycanlıların yığcam yaşadıqları Daşkəndin Mirabad rayonunun mərkəzindəki Heydər Əliyev küçəsində əsaslı təmir və bərpadan sonra Ümummilli liderin adına Azərbaycan Mədəniyyəti Mərkəzinin açılışı olmuşdur[29].

25 Özbəkistan–Azərbaycan əməkdaşlığı genişlənir. /25.09.2010/ - http://azertag.az/xeber/Ozbakistan_Azarbaycan_amakdaslıgı_genislanir-494586

26 Səfir: "Azərbaycan Prezidentinin sentyabrın 27-28-də Özbəkistana səfəri zamanı bir sıra sənədlər imzalanacaq". /17.09.2010/ - http://az.apa.az/news/198782

27 Azərbaycan və Özbəkistan prezidentlərinin mətbuat üçün bəyanatları. /27.09 2010/ - http://president.az/articles/792/print

28 Azərbaycan və Özbəkistan prezidentlərinin mətbuat üçün bəyanatları. /27.09.2010/ - http://president.az/mobile/articles/792

29 Daşkənddə Ulu öndər Heydər Əliyev adına Azərbaycan Mədəniyyəti Mərkəzinin açılışı olmuşdur /27.09 2010/ - http://president.az/articles/781?locale=az

İki il sonra, 2012-ci il oktyabrın 11-12-də prezidentlərin Daşkənd görüşünün davamı kimi İslam Kərimovun Bakıya rəsmi səfəri olmuşdur. Səfər zamanı Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin tikintisinin başa çatması ilə formalaşacaq regional nəqliyyat dəhlizindən istifadə perspektivləri müzakirə edilmişdir. Belə ki, bu səfərdən bir qədər əvvəl, oktyabr ayının əvvəllərində Aşqabada səfəri zamanı İslam Kərimov Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovla da Qərb bazarlarına çıxışı təmin etmək üçün iki ölkənin nəqliyyat sistemlərini əlaqələndirəcək Nəvoi–Türkmənbaşı marşrutunun yaradılmasını müzakirə etmişdi[30]. Bu marşrutun məntiqi davamı isə Türkmənbaşı–Bakı bərə yolu və Azərbaycan dəmir yolları vasitəsilə Avropaya çıxışdır.

Beləliklə, son dövrlər Azərbaycanla Mərkəzi Asiyanın ən önəmli dövlətlərindən biri olan Özbəkistan arasında əməkdaşlıq inkişaf etməkdədir. İstər çoxtərəfli əməkdaşlıq platformaları çərçivəsində prezidentlərin davam edən görüşləri, istərsə də müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çərçivəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi yollarının müzakirəsi davam etdirilir.

Azərbaycan–Türkmənistan münasibətləri

Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra birbaşa əlaqələr qurduğu ilk dövlətlərdən biri Türkmənistan olsa da, 1991-1993-cü illərdə Xəzərin hüquqi statusu və dənizin sərvətlərindən istifadə səhəsində fikir ayrılığının mövcud olması nəticəsində münasibətlərin inkişafı xeyli zəif idi və tərəflərin maraqlarına cavab vermirdi. Prezident seçildikdən sonra Heydər Əliyev bu istiqamətdəki çatışmazlıqların aradan qaldırılması üçün səyləri intensivləşdirdi. 1993-cü ilin dekabrında Aşqabadda keçiriliən MDB-yə üzv ölkələrin dövlət başçılarının görüşündə iştirak edən Heydər Əliyev türkmənistanlı həmkarı Saparmurad Niyazovla da görüşərək ikitərəfli münasibətlərin inkişafı və fikir ayrılıqlarının aradan qaldırılması istiqamətində müzakirələr apardı. Bundan sonra, 1994-cü ilin fevral ayında iki dövlət

30 Radzhabov S. Silk Wind Railway Project Pulls In To Astana, Silkroad Reporters. /02.04.2014/ - http://www.silkroadreporters.com/2014/04/02/silk-wind-railroad-takes-kazakhstan/

arasında iqtisadi-ticari sahədə əməkdaşlığa dair razılaşma imzalandı, həmin ilin mayında Prezident Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak etmək məqsədilə yenidən Türkmənistana işgüzar səfər etdi. Eləcə də Azərbaycan 1995-ci ildə BMT Baş Assambleyasının qətnaməsi ilə təsdiqlənən Türkmənistanın daimi neytrallıq statusunu tanıyan ilk ölkələrdən biri oldu.

1996-cı il 18-19 mart tarixlərində S.Niyazovun Azərbaycana rəsmi, həmin il mayın 13-də isə Heydər Əliyevin Türkmənistana işgüzar səfərləri baş tutdu. Lakin 1996-cı ilin sonlarından başlayaraq iki ölkə arasındakı münasibətlərdə yenidən soyuqluq yarandı. Bunun əsas səbəbi Türkmənistan tərəfinin Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlara iddialarını irəli sürməsi idi. Belə ki, rəsmi Aşqabad 1997-ci il iyulun 4-də ARDNŞ ilə Rusiyanın "LUKoil" və "Rosneft" şirkətləri ilə "Kəpəz" yatağının birgə istismarı barədə razılaşmaya etiraz etdi. Türkmənistan nəinki "Kəpəz" yatağına, hətta "Azəri" və "Çıraq" yataqlarına da iddialar irəli sürdü[31]. Problemin həllinə nail olmaq üçün Prezident Heydər Əliyev həmin ilin dekabrında Tehranda İKT ölkələrinin dövlət və hökumət başçılarının görüşü çərçivəsində S.Niyazovla görüşdü. Prezidentlər dənizdə iki dövlətin hüdudlarını ayıracaq orta xəttin müəyyənləşdirilməsi və yataqların kimə mənsub olması məsələsini həll edəcək ekspertlər qrupunun yaradılması haqqında razılığa gəldilər. Sonralar ekspertlər qrupunun yığıncaqları və ölkə rəhbərlərinin müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərində problemin həlli istiqamətində müzakirələr davam etdirildi. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbulda keçirilən zirvə görüşündə S.Niyazov Azərbaycan, Türkiyə, Qazaxıstan və Gürcüstan prezidentləri ilə birgə BTC Əsas İxrac Boru Kəmərinin tikintisini dəstəkləyən bəyanata imza atdı[32].

Lakin bütün bu müsbət yeniliklərə baxmayaraq, 2000-ci ilin yanvarında Türkmənistan tərəfi bütün xarici neft kompaniyalarına xəbərdarlıq edərək "Azəri" və "Çıraq" yataqlarının ona məxsus

31 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə. Bakı: Mütərcim, 2015, s.641

32 Baku–Tbilisi–Ceyhan Oil Pipeline Named After Heydar Aliyev. - http://www.azerbaijan.az/_Economy/_OilStrategy/oilStrategy_06_e.html

olduğunu bildirdi[33]. Türkmənistan az sonra Azərbaycan, Rusiya və Qazaxıstan arasında dənizin dibinin bölüşdürülməsi ilə bağlı əldə edilən razılaşmaya qarşı çıxaraq bu məsələdə Xəzəryanı MDB dövlətlərinin vahid mövqeyinin formalaşmasına mane oldu. Üstəlik, rəsmi Aşqabad Azərbaycanın "Kəpəz" yatağının 50-50 prinsipi ilə işlədilməsi təklifinə də etiraz etdi. Əlavə olaraq, Türkmənistandan alınan təbii qazın həcmi və bu qazın müqabilində ödəniləcək məbləğ barədə fikir ayrılığını bəhanə edən Türkmənistan Azərbaycana qaz ixracını da dayandırdı[34].

Türkmənistanın Azərbaycandakı səfirliyi 1999-cu ilin iyununda fəaliyyətə başlasa da, iki ölkə arasındakı bəzi mübahisəli məsələlər 2001-ci ilin iyununda Türkmənistanın maliyyə çatışmazlığını əsas gətirərək səfirliyini Aşqabada köçürməsi və MDB məkanında yeganə ölkə olaraq Azərbaycana qarşı viza rejimi tətbiq etməsi ilə nəticələndi[35]. Türkmənistan tərəfinin münasibətləri gərginləşdirmək istiqamətində addımlar atmasına baxmayaraq, 2002-ci ilin oktyabrında Azərbaycan Aşqabadda səfirliyini açdı.

İkitərəfli münasibətlərdə soyuqluq hələ bir neçə il davam etdi. 2007-ci ilin fevralında Qurbanqulu Berdıməhəmmədovun prezident seçilməsi ilə iki dövlət arasındakı münasibətlərdə yenidən yaxınlaşma başladı. 2007-ci ilin mayında Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Türkmənistana səfər etdi. 2008-ci ilin aprelində Bakıda Türkmənistan səfirliyi fəaliyyətini bərpa etdi. 2008-ci ildə ölkə prezidentlərinin Bakıya və Aşqabada qarşılıqlı səfərləri baş tutdu, ikitərəfli münasibətlər yenidən sürətlə inkişaf etməyə başladı. Aşqabada səfəri çərçivəsində 2008-ci il noyabrın 28-də Məxdumqulu adına Türkmənistan Dövlət Universitetində Azərbaycan Prezidenti İlham Əliyevə bu ali məktəbin Fəxri professoru adının verilməsinə həsr edilmiş mərasim keçirildi[36].

33 Qasımlı M. Göstərilən əsəri, I hissə, s.644

34 Yenə orada, s.644

35 Azərbaycan–Türkmənistan münasibətləri / "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. /01.06.2016/- http://lib.aliyev-heritage.org/az/3639411.html

36 Azərbaycan Prezidenti İlham Əliyevə Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru adı verilmişdir. /20.10.11/ - http://azertag.az/xeber/AZARBAYCAN_PREZIDENTI_ILHAM_ALIYEVA_MAXDUMQULU_ADINA_TURKMANISTAN_DOVLAT_UNIVERSITETININ_FAXRI_PROFESSORU_ADI_VERILMISDIR-425847

Bundan sonra iki ölkənin rəhbərləri arasında görüşlər intensivləşmiş, 2010-cu il noyabrın 18-də Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov Xəzəryanı Ölkələrin Dövlət Başçılarının III Zirvə görüşündə iştirak etmək məqsədilə Azərbaycana səfər etmiş, 2014-cü il iyunun 4-də prezidentlərin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının IV Zirvə görüşü çərçivəsində Türkiyənin Bodrum şəhərində görüşü baş tutmuşdur.

Azərbaycanla Türkmənistan arasında ikitərəfli əməkdaşlıq son dövrlər Azərbaycan–Türkmənistan–Türkiyə üçtərəfli əməkdaşlığına transformasiya etmişdir. Belə ki, Bodrumda prezidentlərin görüşünün növbəti günü Türkiyə Prezidenti Abdullah Gülün də iştirakı ilə üçtərəfli formatda görüşlərə start verilmişdir[37]. Daha sonra bu cür görüşlər xarici işlər nazirlərinin üçtərəfli görüşləri formatında davam etdirilmişdir. İndiyədək xarici işlər nazirləri Bakı, Aşqabad və Antalyada olmaqla üç dəfə görüşmüş, 2015-2017-ci illər üçün "Azərbaycan–Türkmənistan–Türkiyə əməkdaşlığının Çərçivə Proqramı" qəbul edilmişdir[38].

Azərbaycan–Qırğızıstan münasibətləri

Azərbaycanla Qırğızıstan arasında diplomatik münasibətlər 1993-cü ilin əvvəllərində qurulsa da, bu əlaqələr ilk vaxtlar özünün intensivliyi ilə seçilməmişdir. Müstəqilliyin ilk illərində Azərbaycan–Qırğızıstan əlaqələri, Mərkəzi Asiyanın digər türk dövlətləri ilə olduğu kimi, əsasən beynəlxalq və regional təşkilatların işində əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir.

İki ölkənin dövlət rəhbərləri arasında ilk görüş 1993-cü ilin sonlarına təsadüf etmişdir. Belə ki, həmin ilin dekabrında Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası zamanı Azərbaycan Prezidenti Heydər Əliyevlə Qırğızıstan Prezidenti Əsgər Akayevin ikitərəfli görüşü keçirilmişdir. Azərbaycan Prezidentinin Bişkekə ilk işgüzar səfəri iki il sonra baş tutmuşdur. 1995-ci ilin avqustunda Türkdilli Ölkələrin Dövlət

37 İkitərəfli münasibətlər: Asiya, Türkmənistan. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi /18.09.2014/ - http://mfa.gov.az/files/file/Azerbaycan_-_Turkmenistan_munasibetleri_18.09.2014.pdf

38 Azərbaycan, Türkiyə və Türkmənistan xarici işlər nazirləri üçtərəfli görüşün nəticələrinə dair bəyanat imzaladı. /25.08.2015/- http://az.trend.az/azerbaijan/politics/2428042.html

Başçılarının III Sammitində iştirak etmək üçün Qırğızıstana gedən Heydər Əliyev Əsgər Akayevlə görüşmüş, səfər çərçivəsində həmçinin Bişkekdə "Manas" dastanının 1000 illik yubileyinə həsr edilmiş bayram tədbirlərində iştirak etmişdir.

Bundan sonra münasibətlərin inkişafı sürətlənmiş, iki dövlətin yüksək rütbəli rəsmilərinin qarşılıqlı səfərləri və müxtəlif beynəlxalq tədbirlər çəçivəsində təmasları intensivləşmişdir. 1996-cı il noyabrın 11-də "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qırğızıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol" imzalanmışdır[39]. 1997-ci il aprelin 23-də Qırğızıstan Prezidenti Əsgər Akayev Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizə ilk rəsmi səfərini etmişdir. Səfər zamanı "Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə", "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və Qırğızıstan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", turizm sahəsində əməkdaşlıq haqqında sazişlər də daxil olmaqla, müxtəlif sahələri əhatə edən 14 sənəd imzalanmışdır[40].

1998-ci ilin sentyabrında Əsgər Akayev yenidən işgüzar səfər çərçivəsində Bakını ziyarət etmişdir. O, Bakıda keçirilən TRASEKA proqramı çərçivəsində tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransın işində iştirak etmiş, "Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş"i (Əsas Saziş) və onun texniki əlavələrini imzalamışdır[41].

Bundan başqa, Əsgər Akayev 2000-ci il aprelin 8-9-da Bakıda keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının VI Zirvə görüşü çərçivəsində və "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley tədbirlərində iştirak etmək məqsədilə Bakıya gəlmişdir[42].

2006-cı il noyabrın 17-də Antalyada keçirilən Türkdilli Ölkələrin

39 Azərbaycan–Qırğızıstan münasibətləri. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. - http://www.mfa.gov.az/files/file/Qirgizistan.pdf

40 Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında imzalanmış sənədlərin siyahısı. - http://history.az/Kitabxana/Senedler/page2/

41 Azərbaycan–Qırğızıstan münasibətləri. / "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana./22.08.2016/ - http://www.lib.aliyevheritage.org/print.php?lang=az&page=9093787

42 İkitərəfli münasibətlər: Asiya, Türkmənistan/Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /18.09.2014/ - http://mfa.gov.az/files/file/Azerbaycan_-_Turkmenistan_munasibetleri_18.09.2014.pdf

Dövlət Başçılarının VIII Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyevin Qırğızıstan Prezidenti Kurmanbek Bakiyevlə görüşü baş tutmuşdur. 2009-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşündə K.Bakiyev iştirak etmiş və Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini və zirvə görüşünün yekunu olaraq Naxçıvan Bəyannaməsini imzalamışdır.

2012-ci ilin 30-31 mart tarixlərində Qırğızıstanın yeni Prezidenti Almazbek Atambayev Azərbaycana rəsmi səfərə gəlmiş, dövlət başçısı və hökumət nümayəndələri ilə görüşmüş, o cümlədən Milli Məclisdə çıxış etmişdir. 2013-cü ilin 14-16 avqust tarixlərində isə Almazbek Atambayev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Sammiti çərçivəsində Azərbaycana işgüzar səfər etmişdir[43]. Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana son səfərlərindən biri MDB Dövlət Başçıları Şurasının 2016-cı il sentyabrın 16-da Bişkekdə keçirilən iclasında iştirakla bağlı olmuşdur[44].

Azərbaycan–Tacikistan münasibətləri

Mərkəzi Asiya dövlətləri arasında digərləri ilə müqayisədə ikitərəfli münasibətlərin nisbətən daha gec qurulduğu dövlət Tacikistandır. Azərbaycan və Tacikistan dövlət başçıları arasında ilk görüş 1997-ci ilə təsadüf edir. Belə ki, həmin ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin rəhbərlərinin VIII Zirvə görüşündə iştirak etmək üçün Tehranda səfərdə olarkən Tacikistan Prezidenti Emoməli Rəhmonla görüşmüşdür[45]. İlham Əliyevin Prezident seçilməsindən sonra da ikitərəfli münasibətlər yüksələn xətt üzrə inkişaf etmişdir. 2007-ci il martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistana rəsmi səfər etmiş

43 Azərbaycan–Qırğızıstan münasibətləri. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. - http://www.mfa.gov.az/files/file/Qirgizistan.pdf

44 Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib. /16.09.2016/ - http://azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyev_Biskekde_MDB_Dovlet_Baschilari_Surasinin_iclasinda_istirak_edib__YENILANIB_VIDEO-992980

45 Azərbaycan bütün tərəfdaş ölkələrlə münasibətlərin daha da genişləndirilməsi istiqamətində məqsədyönlü addımlar atır. // "Xalq qəzeti", 29.102014. - http://www.xalqqazeti.com/az/news/politics/499517

və Azərbaycanla Tacikistan arasında bir sıra sənədlər imzalanmışdır. Prezidentlər Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, iki ölkə vətəndaşlarının qarşılıqlı vizasız gediş-gəlişi, investisiyaların təşviqi və qarşılıqlı qorunması, ticari-iqtisadi, beynəlxalq avtomobil əlaqələri, dəmir yolu və hava nəqliyyatı, gömrük işləri, mədəniyyət və incəsənət sahələrində əməkdaşlıq və qarşılıqlı yardım haqqında hökumətlərarası sazişlər daxil olmaqla 11 sənəd imzalanmışdır[46].

2007-ci il avqustun 13-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfərə gəlmişdir. Səfər çərçivəsində prezidentlər Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında birgə bəyannamə imzalayıblar. Bundan əlavə, "Det.Al Metal DMCC" və "TALCO management Ltd" şirkətləri arasında çoxtərəfli əməkdaşlıq proqramı haqqında çərçivə sazişi, Ədliyyə nazirlikləri arasında, elm, texnika və texnologiya, rabitə və informasiyalaşdırma və təhsil sahələrində əməkdaşlıq və azad ticarət haqqında hökumətlərarası sazişlər daxil olmaqla 9 sənəd imzalanmışdır[47].

2012-ci ilin iyul ayında yenidən Azərbaycana rəsmi səfər edən Tacikistan Prezidenti Emoməli Rəhmon ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında növbəti mühüm görüş baş tutmuşdur. Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılmışdır. Səfər çərçivəsində iki dövlət arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına verdiyi töhfəyə görə Emoməli Rəhmon Azərbaycan Prezidenti tərəfindən "Heydər Əliyev" ordeni, İlham Əliyev isə tacikistanlı həmkarı tərəfindən "İsmoili Somoni" ordeni ilə təltif edilmişdir[48]. Tacikistan dövlət başçısı həmçinin 2012-ci il 15-16 oktyabr tarixlərində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü çərçivəsində iştirak etmək üçün Bakıda səfərdə olmuşdur[49].

46 Azərbaycan–Tacikistan münasibətləri. /"Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana/ - http://lib.aliyev-heritage.org/az/1036626.html

47 Azərbaycan ilə Tacikistan arasında səmərəli, dinamik əməkdaşlıq mərhələsi başlanır. - http://www.az-customs.net/az/arxrm/3AgYVhBwn7SnAJ.html

48 Prezidentlərin ali ordenlərlə təltifolunma mərasimi keçirilib. /12.07.2012/ - http://www.aztv.az/readnews.php?lang=az&id=6036

49 İkitərəfli münasibətlər: Asiya, Tacikistan. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /18.09.2014/ - http://mfa.gov.az/files/file/Azerbaycan_-_Tacikistan__munasibetleri_18.09.2014.pdff

Prezident İlham Əliyevin Tacikistana ikinici rəsmi səfəri 2014-cü il 15-16 oktyabr tarixlərinə tasadüf etmişdir[50]. Səfər zamanı prezidentlər tərəfindən "Azərbaycan Respublikası Prezidenti və Tacikistan Respublikası Prezidentinin Birgə Bəyannaməsi" də daxil olmaqla mülki müdafiə, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, səhiyyə və elm kimi sahələrdə əməkdaşlığı əhatə edən beş sənəd imzalanmışdır[51]. Prezidentlərin mətbuat üçün birgə bəyanatında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Emoməli Rəhmon qeyd etmişdir ki, "Tacikistan müharibənin bütün dəhşətlərini görmüş bir ölkə kimi münaqişənin dinc yolla, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll edilməsindən ibarət prinsipial mövqeyin tərəfdarıdır"[52]. Səfər çərçivəsində həmçinin Düşənbədə Prezident İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri doktoru diplomu təqdim edilmişdir[53].

Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə çoxtərəfli əməkdaşlıq

İkitərəfli əməkdaşlıqla yanaşı, hazırda Mərkəzi Asiya dövlətləri ilə bir sıra beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq mövcuddur. Azərbaycan region dövlətləri ilə BMT, ATƏT, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar daxilində çoxtərəfli əsasda əməkdaşlığı davam etdirir. Daha əvvəl də qeyd etdiyimiz kimi, Mərkəzi Asiya dövlətlərinin dördü türkdilli dövlət olduğundan bu dövlətlər arasında həmçinin türkdilli dövlətlərin inteqrasiya birlikləri çərçivəsində əməkdaşlıq mövcuddur. Bunların sırasında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) qeyd edilməlidir. Bu inteqrasiya birlikləri və əməkdaşlıq platformaları ilə yanaşı, son illər ərzində Türk Biznes Şurası, Türk Mədəniyyəti və İrsi Fondu və

50 İlham Əliyev Tacikistana rəsmi səfərə gəlib. /15.10.2014/ - http://www.president.az/articles/13093
51 Azərbaycan–Tacikistan sənədləri imzalanıb. /16.10.2014/ - http://www.president.az/articles/13098
52 Azərbaycan və Tacikistan prezidentlərinin mətbuat üçün bəyanatları /16.10.2014/ - http://www.president.az/articles/13194
53 İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri doktoru diplomu təqdim olunub. /16.10.2014/ - http://www.president.az/articles/13101

Türk Akademiyası kimi ortaq türk təşkilatları da yaradılmışdır ki, Azərbaycan bu təşkilatlar çərçivəsində Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə əməkdaşlıq edir.

Türkdilli Ölkələrin Dövlət Başçılarının I Zirvə görüşü 1992-ci ilin 28-31 oktyabr tarixlərində Ankarada keçirilmişdir. Türkiyə Prezidenti Turqut Özalın təşəbbüsü ilə keçirilən sammitdə Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dövlət başçıları iştirak etmişdir. Bu toplantı ilə türkdilli dövlət başçılarının zirvə görüşlərinin əsası qoyulmuşdur. Növbəti sammitlər 1994 (İstanbul), 1995 (Bişkek), 1996 (Daşkənd), 1998 (Astana), 2000 (Bakı), 2001 (İstanbul), 2006 (Antalya), 2009 (Naxçıvan), 2010-cu (İstanbul) illərdə gerçəkləşib. Müxtəlif dövrlərdə Özbəkistan və Türkmənistanın təmsilçilik səviyyəsini aşağı salmalarına baxmayaraq, zirvə görüşləri türkdilli dövlətlər arasında ortaq maraq kəsb edən məsələlərin müzakirəsi üçün ən önəmli platformalardan biri hesab edilir. Bu platforma çərçivəsində əldə edilmiş razılaşmalar əsasında sonradan Azərbaycan, Türkiyə və Mərkəzi Asiyanın türkdilli dövlətlərini birləşdirən bir sıra ortaq təşkilatlar yaradılmışdır.

Belə təşkilatlardan biri kimi türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatını (*TÜRKSOY*) qeyd edə bilərik. TÜRKSOY Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. Təşkilatın fəaliyyətinin əsas məqsədi üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahələrində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi, eləcə də türkdilli ölkələr arasında mədəni əlaqələrin dərinləşdirilməsidir[54].

Türkdilli Ölkələrin Parlament Assambleyası (*TÜRKPA*) 2008-ci il noyabrın 21-də Türkiyə Respublikasının İstanbul şəhərinin Dolmabağça sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə respublikalarının

54 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası./Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. - http://www.mfa.gov.az/content/948

parlament rəhbərlərinin imzaladıqları saziş əsasında təsis olunmuşdur. 2009-cu il sentyabrın 29-da Bakı şəhərində TÜRKPA-nın birinci plenar sessiyası keçirilmişdir. Plenar sessiyada TÜRKPA-nın reqlamenti, katibliyin əsasnaməsi və Bakı Bəyannaməsi, katibliyin daimi əsaslarla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilmişdir. Assambleyanın məqsədi türkdilli ölkələrin parlament strukturları arasında əməkdaşlığın genişləndirilməsindən ibarətdir. Parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyası dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərmək, tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və parlamentlərarası əməkdaşlığa dair digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması və s. məqsədlərə xidmət edir[55].

Mərkəzi Asiya dövlətləri ilə Azərbaycanı, həmçinin Türkiyəni birləşdirən ən önəmli əməkdaşlıq birliyi isə, heç şübhəsiz, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasıdır (TDƏŞ). 1992-ci ildən etibarən keçirilən türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərindən qaynaqlanan ümumi siyasi iradənin nəticəsi olaraq yaranan təşkilat türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır[56]. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir. Qısa şəkildə Türk Şurası adlandırılan təşkilatın strukturunun formalaşdırılması isə 2010-cu il sentyabrın 16-da türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilən X Zirvə görüşündə baş tutmuşdur[57].

Təşkilat yarandıqdan sonra onun Almatı (20-21 oktyabr 2011-ci il), Bişkek (22-23 avqust 2012-ci il), Qəbələ (15-16 avqust 2013-cü il), Bodrum (4-5 iyun 2014-cü il) və Astana (10-11 sentyabr 2015-ci il) şəhərlərində olmaqla beş zirvə görüşü keçirilmişdir[58]. Türk Şurasının Naxçıvan Sazişi ilə müəyyən edilmiş əsas fəaliyyət məqsədləri sırasına qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın

55 Türkdilli Ölkələrin Parlament Assambleyası – TÜRKPA. - http://www.turk-pa.org/news.php?id=151&lang=az

56 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası. - http://www.mfa.gov.az/content/948

57 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası. - http://www.turkkon.org/tr-TR/genel_bilgi/1/10

58 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası./Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. - http://www.mfa.gov.az/content/948

təşviq edilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi, ticarət əlaqələri və investisiyalar üçün əlverişli şəraitin yaradılması və s. daxildir. Təşkilatın Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Yüksək Vəzifəli Şəxslər Komitəsi, Ağsaqqallar Şurası, Katiblik kimi müxtəlif strukturları mövcuddur.

Təşkilatın təsis edildiyi tarixdən bu günədək iqtisadi əməkdaşlıq çərçivəsində bir sıra tədbirlər, iqtisadiyyat, gömrük və nəqliyyat nazirlərinin görüşləri keçirilmişdir. Azərbaycan TDƏŞ-lə yanaşı, bu qurumun əlaqəli orqan və təşkilatları olan TÜRKSOY, TÜRKPA, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası ilə də sıx əməkdaşlıq edir və üzv ölkələr arasında elm, təhsil, mədəniyyət və incəsənət sahələrində əməkdaşlığın genişləndirilməsi, beynəlxalq səviyyədə türk dünyasının ortaq dəyərlərinin tanıdılması və təşviq edilməsi sahəsində aktiv rol oynayır[59]. Təsadüfi deyildir ki, TDƏŞ-in 2012-ci ildə Bişkekdə keçirilmiş II Zirvə görüşündə Azərbaycanın təşəbbüsü ilə yaradılmış və türkdilli xalqların mədəni irsinin qorunması, bərpası, təşviqi və inkişafını qarşıya məqsəd qoyan Türk Mədəniyyəti və İrsi Fondu 2015-ci ildən etibarən qərargahı Bakı şəhərində yerləşməklə beynəlxalq təşkilat kimi fəaliyyətə başlamışdır.

Mərkəzi Asiya dövlətləri ilə iqtisadi-ticari əlaqələr

Daha əvvəl də qeyd etdiyimiz kimi, Mərkəzi Asiya regionu 66,5 milyonluq əhalisi və 320 milyard ABŞ dolları həcmindəki iqtisadiyyatı ilə Azərbaycan üçün önəmli iqtisadi tərəfdaş və potensial ixrac bazarıdır[60]. Xüsusən də regionun Azərbaycana coğrafi yaxınlığı, ucuz işçi qüvvəsi və təbii sərvətlər baxımından zənginliyi, dövlətlər arasında viza sisteminin yoxluğu (Türkmənistan istisna olmaqla), dil baryerinin olmaması (rus dilini regional *lingua franca* kimi qəbul etsək), iqtisadi əməkdaşlığın müqavilə-hüquq əsaslarının mövcudluğu, regionda investisiya boşluğu, karbohidrogen resurslarının dünya bazarına ixracı və Transavrasiya nəqliyyat marşrutlarının yaradılmasında ortaq maraqların olması və s.

59 Yenə orada

60 Ölkələr və iqtisadiyyatlar. /Dünya Bankı/ - http://data.worldbank.org/country

amillər Mərkəzi Asiyanın Azərbaycanın önəmli iqtisadi tərəfdaşlarından birinə çevrilməsinə zəmin yaradır.

Qeyd edilməlidir ki, Azərbaycanın regionla ticarət əlaqələri hələlik kifayət qədər inkişaf etməmişdir və potensialından geri qalır. Azərbaycanın Mərkəzi Asiyadakı ən böyük iqtisadi tərəfdaşı Qazaxıstandır. Lakin bu ölkə qarşılıqlı ticarətin həcminə görə Azərbaycanın yalnız 35-ci ən böyük ticarət tərəfdaşıdır. 2015-ci il üçün Azərbaycanın regionla ticarəti ümumi xarici ticarət dövriyyəsinin cəmi 0,7%-nə, regiona ixracı və region ölkələrindən idxalı isə ümumi ixrac və idxalın, müvafiq olaraq, 0,4% və 1,4%-nə bərabər olmuşdur[61]. Lakin bu rəqəmlər aldadıcı olmamalıdır. Belə ki, Azərbaycanın ixracatında neft və neft məhsulları mühüm yer tutduğundan və bu məhsullar eyni cür resurslarla zəngin Mərkəzi Asiya ilə ticarətdə önəmli çəkiyə malik olmadığından region ölkələri, xüsusən də Qazaxıstan Azərbaycanın qeyri-neft sektoru ticarətində təqdirəlayiq yer tutur. Azərbaycan Mərkəzi Asiyanın digər dörd ölkəsi ilə müsbət ticarət balansına malik olsa da, Qazaxıstanla ticarətdəki böyük mənfi saldo ümumilikdə region ölkələri ilə ticarətdə illik 51 milyon ABŞ dolları (2014-cü il) həcmində mənfi saldonun yaranmasına səbəb olur[62].

Cədvəl 2. 2015-ci ildə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə ticarətinin qrafik göstəriciləri (mln. ABŞ dolları ilə)

	Dövriyyə	İxrac	İdxal	Saldo
Cəmi	200,92	74,63	126,29	-51,68
Qazaxıstan	116,87	17,95	98,92	-80,96
Özbəkistan	17,03	10,87	6,16	4,7
Türkmənistan	52,42	32,81	19,61	13,19
Qırğızıstan	8,16	6,56	1,6	4,95
Tacikistan	6,44	6,44	-	6,44

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

61 Xarici ticarət əlaqələri./Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi/ - http://www.stat.gov.az/source/trade/

62 Xarici ticarət əlaqələri./Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi/ - http://www.stat.gov.az/source/trade/az/f_trade/f_trade_IV.pdf

Sxem 1. 2015-ci ildə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə ticarətinin əsas göstəriciləri (mln. ABŞ dolları ilə)



Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Sxem 2. Son 4 ildə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə ticarətinin əsas göstəricilərinin müqayisəsi (mln. ABŞ dolları ilə)



Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Enerji daşıyıcılarının ixracı və Transavrasiya nəqliyyat dəhlizlərinin yaradılması sahəsində əməkdaşlıq

Enerji daşıyıcılarının dünya bazarına ixracı və Transxəzər enerji marşrutlarının yaradılması sahəsində Türkmənistan və Qazaxıstanla əməkdaşlıq

Digər sahələrdəki əməkdaşlıqla yanaşı, hazırkı dövrdə Mərkəzi Asiyanın Azərbaycan üçün əhəmiyyəti xüsusi olaraq iki sahədə ön plana çıxır: enerji və nəqliyyat. Müstəqilliyin bərpasından sonra həm Azərbaycan, həm də Mərkəzi Asiya dövlətləri malik olduqları karbohidrogen ehtiyatlarının çıxarılması və ixracına öz siyasi və iqtisadi müstəqilliklərinin möhkəmləndirilməsinin ən önəmli vasitələrindən biri kimi baxırdılar. Bu baxımdan enerji resurslarının təhlükəsiz marşrutlarla dünya bazarına çıxarılması həmişə Azərbaycanın və onun karbohidrogen ehtiyatları ilə zəngin mərkəzi asiyalı qonşularının ortaq marağı olmuşdur. İxrac marşrutlarının yaradılmasına dair Azərbaycan, Qazaxıstan və Türkmənistanın özünəməxsus planları olmuş, bu planlar bəzən fərqlənsə də, əksər hallarda üst-üstə düşmüşdür. Məsələn, 1990-cı illərdə Qazaxıstan üçün prioritet "Tengiz" yatağından çıxarılacaq nefti Novorossiysk limanına daşıyacaq kəmərin tikintisi olsa da, rəsmi Astana ilk gündən Azərbaycanın irəli sürdüyü Bakı–Tbilisi–Ceyhan (BTC) kəməri layihəsinə dəstəyini bəyan etmişdi[63]. Transxəzər neft daşımaları sahəsində Azərbaycanla Qazaxıstan arasındakı əməkdaşlıqda ilk real addım isə 1998-ci ildə bu ölkənin Ankarada Azərbaycan, Türkiyə və Gürcüstanın iştirakı ilə imzalanmış BTC-nin tikintisinə dəstək bəyanatına imza atması olmuşdur. BTC kəməri 2005-ci ildən fəaliyyətə başlamış və iri həcmdə Xəzər neftini birbaşa Aralıq dənizi vasitəsilə dünya bazarına çıxaran ilk kəmər kimi tarixə düşmüşdür. Kəmər tikildiyi gündən indiyədək 2,1 milyard barel (280 milyon ton) Xəzər neftini Ceyhan limanı vasitəsilə dünya bazarına çıxarmışdır. Bunun əksər hissəsi Azərbaycan nefti olsa da, milyonlarla barel Mərkəzi Asiya nefti də bu kəmər vasitəsilə dünya bazarına ixrac edilmişdir[64].

63 Shirin Akiner (Spring 2012) Kazakhstan's relations with the South Caucasus states, Caucasus International, Vol: 2 No: 1, pp: 157-175

64 Oil exports via BTC increased by 6%./19.02.2015/ - http://report.az/en/energy/oil-export-via-btc-increased-by-6/

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev BTC-nin açılışında iştirak etmişdir. 2008-ci ildən Qazaxıstan bu kəmərlə neft ixracına başlamışdır. Həmin il 285 min, 2009-cu ildə isə 1,9 mln. ton qazax nefti kəmərlə ixrac edilmişdir[65]. Lakin 2010-cu ildə ixrac olunan neftə görə ödəniləcək tranzit tariflərində razılaşmanın əldə edilməməsi səbəbindən Qazaxıstan BTC ilə neft ixracını dayandırmışdır. Buna baxmayaraq, Qazaxıstan bir neçə il sonra yenidən kəmərlə neft ixracında maraqlı olduğunu bildirmişdir. 2012-ci ildə ölkənin neft və qaz naziri Sauat Mınbayev[66], 2013-cü ildə isə "KazMunayQaz"ın rəhbəri Kairgeldi Kabıldin bu niyyəti dilə gətirmişdilər[67]. 2013-cü ilin noyabrından Qazaxıstan kəmərlə neft ixracını bərpa etmişdir[68]. Açıqlanmış son məlumata görə, 2014-cü ilin ilk iki ayında Qazaxıstan BTC vasitəsilə yarım mln. tona qədər neft ixrac etmişdir[69]. Hazırda Qazaxıstan Azərbaycan ərazisi ilə illik 5 mln. ton xam neft ixrac edir ki[70], bunun əsas hissəsi boru kəmərləri vasitəsilə deyil, dəmir yolu infrastrukturu ilə "KazMunayQaz"ın sahib olduğu Gürcüstanın Batumi terminalına daşınır.

BTC karbohidrogen resursları ilə zəngin digər bir Mərkəzi Asiya dövləti – Türkmənistan üçün ən əsas neft ixracı marşrutu rolunu oynayır. Türkmənistan hazırda hasil etdiyi neftin (illik 11,8 mln. ton – 2014[71]) böyük hissəsini Azərbaycanın neft kəmərləri vasitəsilə ixrac edir. Belə ki, Türkmənistan Bakı–Tbilisi–Ceyhan kəməri vasitəsilə 2013-cü ildə 3,3 mln. və 2014-cü ildə 5,6 mln. ton neft ixrac etmiş, 2015-ci ilin ilk 7 ayında bu rəqəm 3,7 mln. ton olmuşdur[72]. 2015-ci il ərzində BTC ilə ümumilikdə 5,2

65 Kazakhstan seeks to resume BTC oil exports. /25.01.2011/- http://www.azernews.az/oil_and_gas/29002.html

66 Kashagan on Course for Spring Launch but New Challenges Lie Ahead, HighBeam Business. /10.01.2013/ - http://business.highbeam.com/407705/article-1G1-304155888/kazakhstan-may-pump-oil-through-btc-pipeline-certain

67 Kazakhstan seeks to resume BTC oil exports. /25.01.2011/- http://www.azernews.az/oil_and_gas/29002.html

68 Almost 239,000 tons of Kazakh oil already carried via BTC pipeline. /07.02.2014/ - http://abc.az/eng/news_07_02_2014_79238.html

69 Oil exports via BTC increased by 6%. /19.02.2015/ - http://report.az/en/energy/oil-export-via-btc-increased-by-6/

70 Almost 239,000 tons of Kazakh oil already carried via BTC pipeline. /07.02.2014/ - http://abc.az/eng/news_07_02_2014_79238.html

71 BP Statistical Review of World Energy June 2015. - https://www.bp.com/content/dam/bp/pdf/energy-economics/statistical-review-2015/bp-statistical-review-of-world-energy-2015-full-report.pdf

72 Tsurkov M. Turkmen oil transportation via BTC increases. /18.08.2015/ - http://en.trend.az/azerbaijan/business/2424933.html

mln. ton Türkmənistan və Qazaxıstan nefti dünya bazarına çıxarılmışdır[73].

Qazaxıstanın nəhəng "Kaşaqan" yatağında istehsalın başlanması ilə bu ölkənin Azərbaycan vasitəsilə neft ixracını kəskin şəkildə artıracağı gözlənilir. Dünyanın ən böyük neft yataqlarından olan (8-12 mld. barel çıxarıla bilən neft ehtiyatı[74]) "Kaşaqan" yatağında neft hasilatı uzunmüddətli ləngimələrdən sonra, nəhayət ki, 2016-cı ilin oktybarında yenidən başlanmışdır və 2020-ci ildə yataqda illik neft hasilatının 13 mln. tona çatacağı gözlənilir[75]. S.Mınbayevin daha əvvəl qeyd etdiyimiz çıxışında da deyildiyi kimi, yataqda istehsalın artması ilə Qazaxıstan çıxarılan neftin BTC vasitəsilə ixracını nəzərdən keçirir[76].

Qeyd edək ki, daha əvvəl "Kaşaqan" yatağında istehsalın 2000-ci illərin sonlarında başlaması nəzərdə tutulurdu. Yataqdan çıxarılacaq neftin Səngəçal terminalına çatdırılması və daha sonra BTC vasitəsilə ixracı üçün Azərbaycan və Qazaxıstan arasında 2006-cı ildə dövlətlər[77], 2008-ci ildə isə iki ölkənin neft şirkətləri arasında Transxəzər Nəqliyyat Sisteminin yaradılması haqqında razılaşma da imzalanmışdı[78]. Layihə çərçivəsində Qazaxıstan tərəfindən Aktau limanından cənubda 45 milyon tonluq Kurık terminalının tikintisi, illik 35 mln. ton buraxılış gücünə malik Eskene–Kurık kəmərinin çəkilişi və neftin Bakıya daşınması üçün 60 min ton tutumlu tankerlərin alınması nəzərdə tutulurdu. Daha əvvəl sistemin yaradılmasının 2012-2013-cü illərdə başa çatdırılması nəzərdə tutulsa da, "Kaşaqan" yatağındakı gecikmələr layihəni müəyyən müddətə təxirə salmışdır. "Kaşaqan" yatağında istehsalın başlanması və genişləndirilməsi ilə layihənin yenidən tərəflərin gündəminə gəlməsi gözlənilməndir.

Mərkəzi Asiya dövlətlərinin enerji resurslarının Transxəzər layihələri üzrə Azərbaycan vasitəsilə dünya bazarına çıxarılması planları təkcə neft

73 More than 28,8 mln tons of Azerbaijani oil transported via BTC in 2015./07.01.2016/ - http://www.socar.az/socar/en/news-and-media/news-archives/news-archives/id/9252

74 Equities. - http://www.equities.com/news/headline-story?dt=2012-12-25&val=860983&cat=energy/29.05.2016/

75 By 2020 oil production on Kashagan field to reach 13 million tons, Caspian Barrel. /09.12.2015/ - http://caspianbarrel.org/?p=37174

76 İsmayilov E.BTC to transport some portion of oil from Kazakh Kashagan field. /15.05.2015/ - http://en.trend.az/business/energy/2274434.html

77 Kazakhstan Caspian Transportation System, KazMunayQaz. - http://www.kmg.kz/en/manufacturing/oil/kkst/

78 Azerbaijan, Kazakhstan boost effort on trans-Caspian project. /19.11.2008/ - http://www.azernews.az/oil_and_gas/8724.html

ixracı ilə məhdudlaşmır. Müxtəlif zamanlarda Türkmənistan qazının Azərbaycan vasitəsilə Avropa bazarına çıxarılmasına dair müzakirələr baş tutmuş, Azərbaycanla Türkmənistan arasında Türkiyə və Avropa İttifaqının da iştirakı ilə Transxəzər qaz kəmərinin tikintisi istiqamətində danışıqlar aparılmışdır. Transxəzər kəməri Türkmənistanın qərb istiqaməti üzrə qaz ixracında alternativ kəmər rolunu oynaya və ölkənin bu sahədə Çindən və Rusiyadan asılılığını azalda bilər. Kəmərin tikintisi ilə bağlı ilkin danışıqlar 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində həyata keçirilmişdir. Belə ki, Transxəzər layihəsi ilk dəfə 1997-ci ildə Türkiyənin Türkmənistan qazını almaq planları ilə bağlı gündəmə gəlmişdir. Bundan sonra Türkmənistanla Türkiyə arasında qazın alqı-satqısına dair kommersiya sazişi imzalanmışdır. Həmin sazişə əsasən, Türkiyə Transxəzər kəməri vasitəsilə ildə 30 milyard kubmetr qaz almağa dair öhdəliyi 2000-ci ildən başlayaraq öz üzərinə götürür. 1998-ci ilin aprelində Türkmənistan Prezidenti Saparmurad Niyazovun ABŞ-a işgüzar səfəri zamanı bu məsələ dövlət başçısı Bill Klinton və vitse-prezident Albert Qor ilə görüşlərində yüksək səviyyədə müzakirə mövzusu olmuşdu. Çox maraqlıdır ki, 1999-cu il fevralın 19-da Aşqabadda Transxəzər qaz kəməri layihəsinə dair Türkmənistan hökuməti ilə PGS konsorsiumu arasında müqavilə imzalanmışdır[79].

O zaman həm Rusiya, həm də İran Transxəzər qaz kəmərinin əleyhinə müxtəlif səviyyələrdə iş aparırdılar. Azərbaycanla Türkmənistan arasında yaranan fikir ayrılıqları, 2001-ci ildə hakimiyyətə gələn Corc Buş Administrasiyasının Transxəzər kəmərinə maraq göstərməməsi, eləcə də Xəzərin Azərbaycan sektorunda "Şahdəniz" qaz yatağının kəşfi adıçəkilən layihənin reallaşmamasına təsir göstərmişdir. Belə ki, 1999-cu ilin yayında "Şahdəniz" yatağı açıldı və sonra onun ehtiyatlarının qiymətləndirilməsi zamanı məlum oldu ki, Azərbaycanın qaz ehtiyatları güman edildiyindən qat-qat çoxdur. Transxəzər kəməri ilə bağlı danışıqlar prosesinin ləng irəliləməsi və Türkmənistanın belə bir böyük layihənin reallaşdırılmasından irəli gələn riskləri və məsuliyyəti paylaşmaqda çəkingən mövqe sərgiləməsini nəzərə alan Azərbaycan "Şahdəniz" qazını Türkiyə və Avropa bazarına çıxaracaq Cənubi Qafqaz qaz kəməri layihəsini ön plana çıxartdı. Nəticə etibarilə Transxəzər layihəsinin reallaşdırılması

79 Akiner Sh. (Ed) The Caspian: Politics, Energy and Security. London and New York, "Routledge Curzon", 2004, pp. 168-169

təxirə salındı və uzun müddət bu istiqamətdə heç bir real iş görülmədi.

2000-ci illərin sonundan etibarən Avropa İttifaqının Rusiyadan qaz asılılığının güclənməsi və Aİ-nin alternativ idxal marşrutları yaratmaq cəhdləri kəmər mövzusunun yenidən gündəmə gəlməsi ilə nəticələnmiş, Aİ, Türkiyə, Türkmənistan və Azərbaycan rəsmiləri arasında bu istiqamətdə çoxsaylı danışıqlar aparılmışdır. 2011-ci ildə Avropa Komissiyasına "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması çərçivəsində kəmərin çəkilməsi üzrə danışıqlar aparılması üçün xüsusi mandat verilmişdir ki, bu da tarixdə ilk dəfə sözügedən quruma infrastruktur layihəsi üzrə mandat verilməsi nümunəsi olmuşdur.

2012-ci ilin sentyabrında Aİ-nin enerji komissarı Günter Ottinger, Türkiyənin enerji və təbii sərvətlər naziri Taner Yıldız və Azərbaycan nümayəndə heyətinin iştirakı ilə Aşqabadda türkmən rəsmiləri ilə görüşlər keçirilmişdir. 2015-ci ildə Türkmənistanın ölkənin şərqindəki nəhəng yataqları ilə Xəzər sahilini birləşdirən, uzunluğu 773 km və ötürücülük qabiliyyəti 30 mld. m^3 olan kəmərin tikintisini reallaşdırması da Transxəzər layihəsinin həyata keçəcəyinə dair ümidləri artırmışdır[80]. Hazırda Azərbaycan, Türkmənistan, Türkiyə və Aİ arasında layihənin reallaşdırılmasına dair danışıqlar davam etməkdədir.

Türkmənistan rəhbərliyi də, vaxtaşırı olaraq, Transxəzər marşrutunun reallaşdırılmasında maraqlı olduğunu bəyan edir. Prezident Qurbanqulu Berdıməhəmmədov 2014-cü il aprelin 11-də hökumətin neft-qaz sektorunun inkişafına həsr olunmuş xüsusi yığıncağında Transxəzər kəmərinin ölkəsi üçün mühüm layihələrdən biri olduğunu qeyd etmiş və tədbirdə layihə ilə bağlı görülən işlərə dair hesabat dinlənilmişdir. 2015-ci il oktyabrın 12-də Qurbanqulu Berdıməhəmmədov hökumətin iclasında bir daha layihəni öz ölkəsi üçün cəlbedici və perspektivli adlandırmışdır[81]. Son olaraq, 2016-cı il fevralın 1-də Türkmənistan tərəfi Transxəzər kəmərinin reallaşdırılması istiqamətində fəaliyyətini gücləndirəcəyini bildirmişdir[82]. Həmçinin Xəzərin hüquqi statusu müəyyən edilmədən

80 Turkmenistan completes gas line. /10.06.2016/- http://www.theaustralian.com.au/news/latest-news/turkmenistan-completes-gas-line/news-story/ce151adcc27f87ff2126e7c16d709857

81 Gurbanguly Berdimuhamedov: Trans-Caspian gas pipeline has promising future. /12.10.2015/ - http://azertag.az/en/xeber/Gurbanguly_Berdimuhamedov_Trans_Caspian_gas_pipeline_has_promising_future-891943

82 Turkmenistan brings Trans Caspian pipeline on table./02.02.2016/ - http://www.azernews.az/oil_and_gas/92381.html

dənizin dibi ilə kəmərin çəkilməsinə etiraz edən Rusiya və İranın mövqeyinə münasibət bildirən Q.Berdıməhəmmədov belə bir kəmərin tikilməsi üçün onun keçəcəyi iki sektorun sahibi olan dövlətlərin, yəni Azərbaycan və Türkmənistanın razılığının kifayət etdiyini bildirmişdir.

Bununla yanaşı, kəmərin tikintisi qarşısında real əngəllər də mövcuddur. Bunların sırasında Avropanın qaz bazarında kiçilmə meyilləri və bu bazara qaz ixracında Türkmənistan və Azərbaycan arasında rəqabət, kəmərin tikintisinə Rusiyanın ciddi etirazı və bu etiraz qarşısında layihəyə Aİ-nin səmərəli dəstəyinin olmaması, Türkmənistanın "qazı sərhəddə satmaq" siyasəti yürütməklə riskləri bölüşmək istəməməsi qeyd edilə bilər. Maneələr sırasında ən önəmlisi isə Türkmənistanın təklif edilən Transxəzər kəməri ilə ixrac edəcək "sərbəst" qazının olmamasıdır. Türkmənistanın Çinə illik qaz ixracını 60 mld. m^3-ə çatdırmaq, Rusiya və İran istiqamətində illik 20 mld. m^3-ə yaxın qaz ixracı öhdəliyi mövcuddur. Daxili istehlakı da nəzərə alsaq, Türkmənistanın qarşıdakı illər ərzində kəmər vasitəsilə nəql etmək üçün zəruri "sərbəst" qaza malik olmadığı görünür. Yaxın və ortamüddətli perspektivdə Türkmənistan yalnız mövcud öhdəliklərini yerinə yetirə biləcəkdir. Doğrudur, Türkmənistanın 2050-ci ilə kimi qaz istehsalını illik 250 mld. m^3-ə çatdırmaq kimi planları olsa da[83], bu, real deyildir və əsas qaz ehtiyatının cəmləşdiyi qurudakı yataqların inkişaf etdirilməsinə xarici şirkətlərin buraxılmaması istehsalın artımına mane olur.

Qafqaz–Mərkəzi Asiya nəqliyyat dəhlizinin yaradılması sahəsində əməkdaşlıq

Azərbaycanın digər regional prioriteti Qafqaz–Mərkəzi Asiya nəqliyyat dəhlizi vasitəsilə Asiya–Avropa ticarətində vasitəçilərdən birinə çevrilmək və bu ticarətdən əhəmiyyətli tranzit gəlirləri götürməkdən ibarətdir. Belə ki, artıq bir neçə ildir təkcə Avropa İttifaqı (Aİ) ilə Çin arasında gündəlik ticarət dövriyyəsinin həcmi 1 mld. avronu ötmüşdür. 2014-cü ildə Aİ və Çin arasında illik ticarət dövriyyəsi (xidmət mübadiləsini çıxmaq şərtilə) 467,3 mlrd. avroya çatmışdır[84]. Quru yolları ilə daşınan malların həcmində

83 Higashi N. Natural Gas in China Market evolution and strategy, Natural gas Europe. /June 2009/ - https://www.iea.org/publications/freepublications/publication/nat_gas_china.pdf

84 EU trade with China significantly up in 2014 for both goods and services, EUROSTAT. /26.06.2015/ - http://ec.europa.eu/eurostat/documents/2995521/6893875/6-26062015-AP-EN.pdf/44d4c87c-98dd-4061-bdf6-b292884a5073

xüsusilə artım müşahidə edilmiş, bu malların həcmi 2002-ci ildəki 65 mln. tondan 2015-ci ildə 135 mln. tona çatmışdır[85].

Beləliklə, bu məhsulların bir hissəsinin Azərbaycan ərazisindən daşınmasının təmin edilməsi önəmli valyuta gəlirlərinin əldə edilməsi deməkdir. Hazırda bu ticarətin əksər hissəsi – 95%-i okeanlar[86], az bir qismi isə Rusiyadan keçən Transsibir və Qazaxıstandan keçən Transqazaxıstan marşrutları vasitəsilə həyata keçirilir. Düzdür, dəniz nəqliyyatı dəmir yolundan xeyli ucuz başa gəlsə də, hesablamalara görə, Çindən göndərilən məhsullar dəniz yolu ilə müqayisədə dəmir yolu ilə Avropaya 5 dəfə daha tez çatdırıla bilər. Üstəlik, bir sıra məhsullar, xüsusən də mexanika və elektrotexnika məhsullarının dəniz yolu ilə daşınması texniki səbəblərdən əlverişli deyil və bu məhsullar Avropa–Çin ticarətində önəmli yer tutur[87]. Beləliklə, rəqabətqabiliyyətli Qafqaz–Mərkəzi Asiya dəhlizinin yaradılması ilə bu ticarətin bir hissəsinin bu regiondan keçməsinə nail olmaq həm region dövlətləri üçün əlavə tranzit gəlirləri yaradacaq, həm də onların geostrateji əhəmiyyətini artıracaqdır.

Azərbaycan və Mərkəzi Asiya dövlətləri Transavrasiya nəqliyyat infrastrukturunun yaradılması sahəsində əməkdaşlığa 1990-cı illərdən başlamışlar. 1993-cü ildə imzalanmış TRASEKA (Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi) sazişi əsasında Avropa ilə Çin arasında Qafqaz–Mərkəzi Asiya dəhlizinin formalaşdırılması istiqamətində ilkin işlər görülmüşdür. 1993-cü ilin mayında Brüsseldə beş Orta Asiya və üç Cənubi Qafqaz ölkəsi nümayəndələrinin iştirakı ilə beynəlxalq konfrans keçirilmiş və bu tədbirdə Aİ tərəfindən TRASEKA layihəsi təklif olunmuşdur[88]. TRASEKA layihəsinin reallaşması üzrə 8-9 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində tarixi İpək Yolunun bərpasına həsr edilmiş beynəlxalq konfrans baş tutmuşdur. Tədbirdə 32 ölkənin və 13 beynəlxalq təşkilatın səlahiyyətli nümayəndələri tərəfindən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin həyata keçirilməsinin texniki və iqtisadi məsələlərini özündə əks etdirən "Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsi

85 Brief history of Silk Road. - http://fileserver.net-texts.com/asset.aspx?dl=no&id=4560

86 Zhao Z. The Eurasian Rail Link, SinoTrans. - http://fiata.com/fileadmin/user_upload/documents/recent_views/MTI/FIATA_World_Congress_2015_-_The_Eurasian_Rail_Link_by_Zhang_Zhao.pdf

87 Chang B. Trade across Central Asia boosted by railway landbridge to Europe. /06.12.2012/ - http://www.chinadaily.com.cn/cndy/2012-12/06/content_15990626.htm

88 "Şərq–Qərb nəqliyyat dəhlizi" bölümünə ümumi tarixi arayış. / "Heydər Əliyev İrsi" Beynəlxalq Elektron Kitabxana. /21.05.2008/- http://lib.aliyev-heritage.org/az/6345926.html

üzrə beynəlxalq nəqliyyat haqqında Çoxtərəfli Əsas Saziş" (Əsas Saziş) adlanan mühüm sənəd imzalanmışdır[89].

Layihə çərçivəsində iştirakçı dövlətlərin nəqliyyat infrastrukturlarının inkişafı və genişləndirilməsinə külli miqdarda sərmayə yatırılmışdır. 2000-2010-cu illərdə Azərbaycan ərazisində TRASEKA marşrutu boyunca karqo daşımaları 78% (təxminən illik 6%) artaraq 51,7 mln. tona çatmışdı[90]. Ticarətin Qafqaz–Mərkəzi Asiya dəhlizinə yönəldilməsi effektiv regional dəmir yolu nəqliyyatı sisteminin yaradılması ilə yeni mərhələyə qədəm qoya bilər. Son illər ərzində Azərbaycan tərəfindən bu sahədə önəmli addımlar atılmışdır və 2017-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin açılması ilə Qafqaz və Mərkəzi Asiyadan keçməklə Avropanı Çinlə birləşdirəcək kəsintisiz dəmir yolu xətti yaranacaqdır.

Dəmir yolu xətti işə başladıqdan bir neçə il sonra onun illik buraxılış gücü 17 mln. ton yük və 1 milyon sərnişinə çatacaqdır[91]. Qeyd edilən regional dəmir yolu sisteminin effektiv işləməsini təmin etmək üçün Ələtdə 400 hektarlıq ərazidə Azərbaycanı Qazaxıstan və Türkmənistanın Aktau və Türkmənbaşı limanları ilə birləşdirəcək yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikilməsi davam etməkdədir. 2015-ci ildə limanın tikintisinin birinci fazası başa çatmışdır və liman fəaliyyət göstərməkdədir. Yeni limanın üstün cəhətlərindən biri də onun ətrafında müxtəlif ölkələrdən olan investorların cəlb edilməsi ilə azad iqtisadi zonanın yaradılmasıdır. 2016-cı il martın 23-də Prezident İlham Əliyev Ələt qəsəbəsində qeyd edilən azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında xüsusi sərəncam imzalamışdır[92]. Gələcəkdə limanın ümumi gücünün illik 25 mln. ton quru yük və 1 mln. konteyner olması gözlənilir ki, bu da Ələtin Xəzər dənizində ən böyük limana çevrilməsi deməkdir[93]. Qazaxıstanda oxşar şəkildə Aktau, Türkmənistan isə Türkmənbaşı limanlarını modernləşdirmək və genişləndirmək işlərini həyata keçirməkdədir.

89 Yenə orada

90 Garibov A. and Ibrahimov R. Geopolitical Competition in the Central Asia. The Dynamics of Relations with Azerbaijan, SAM Comments, Baku, Volume IX, 2013

91 Orujova N. Kazakhstan to transport goods via regional railway. /24.10.2012/ - http://www.azernews.az/business/45001.html

92 Bakı Limanında azad ticarət zonası tipli xüsusi iqtisadi zona yaradılır. /13.03.2006/ - http://azertag.az/xeber/Baki_Limaninda_azad_ticaret_zonasi_tipli_xususi_iqtisadi_zona_yaradilir-936496

93 Ziyadov T. Azerbaijan as a Regional Hub in Central Eurasia. Baku: "Azerbaijan Diplomatic Academy", 2012

Qazaxıstan artıq ölkənin dəmir yolu sistemini Çinlə birləşdirən iki dəmir yolu xəttinin çəkilişini başa çatdırmış və beləliklə, Çinin Qazaxıstan vasitəsilə Azərbaycanla dəmir yolu əlaqəsi yaranmışdır. Qazaxıstandan keçən Alaşankou və Rusiyadan keçən Transsibir dəhlizlərindən əlavə, Çin hazırda qərb istiqamətində yeni bir dəmir yolu xəttinin tikintisi layihəsi üzərində çalışır. İllik təxminən 15 milyon ton yük ötürücülük qabiliyyətinə malik olacaq və 2 mlrd. ABŞ dollarına başa gələcək bu xətt Çinin Qaşqar şəhərindən başlayaraq Qırğızıstan və Özbəkistan ərazisindən keçəcək və mövcud dəmir yolları vasitəsilə Türkmənbaşı limanına qoşulacaqdır[94]. 2012-ci ilin oktyabr ayında Aşqabada səfəri zamanı Özbəkistan Prezidenti İslam Kərimov türkmənistanlı həmkarı Qurbanqulu Berdıməhəmmədovla birgə verdikləri bəyanatda da BTQ layihəsini dəstəklədiklərini və bu layihəyə qoşulmaqda maraqlı olduqlarını bəyan etmişdilər[95]. Beləliklə, qarşıdakı bir neçə il ərzində bütün bu layihələrin reallaşması ilə yüksək rəqabət qabiliyyətli Avropa–Qafqaz–Mərkəzi Asiya–Çin dəmir yolu marşrutunun ortaya çıxması mümkündür.

2013-cü ilin noyabrında Gürcüstanın da iştirakı ilə Azərbaycan və Qazaxıstanın Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TXBNM) yaratmaq barədə razılaşma imzalaması ilə Azərbaycan və Mərkəzi Asiyadan keçməklə Türkiyə və Avropanı Çin və Uzaq Şərqlə birləşdirəcək 4.766 kilometrlik multimodal nəqliyyat dəhlizinin yaradılması istiqamətində faəliyyət xüsusilə güclənmişdir. Sazişin imzalanmasından sonrakı bir il ərzində iştirakçı dövlətlərin dəmir yolu administrasiyaları, eləcə də Bakı, Aktau və Batumi limanlarının rəhbərləri görüşlər keçirərək əldə edilmiş nəticələri və görüləcək işləri müzakirə etmişlər[96]. Planlamaya əsasən, TXBNM-in illik buraxılış gücü ilkin olaraq 5,5 mln. ton təşkil edəcək ki, 2020-ci ilə qədər bu rəqəm 13,5 mln. ton yük və 300 min konteynerə qədər yüksəldiləcək[97]. Marşrutun effektliyinin artırılması məqsədilə TXBNM-

94 Muzalevski R. China–Kyrgyzstan–Uzbekistan Railway Scheme: Fears, Hopes and Prospects. // Eurasia Daily Monitor, Volume: 9, Issue: 102, 2012, Jamestown Foundation. - http://www.jamestown.org/single/?no_cache=1&tx_ttnews%5Btt_news%5D=39434

95 Garibov A. The Trans-Caspian Corridor: Geopolitics of Transportation in Central Eurasia.// Caucasus International, Istanbul, 2016, Vol. 6, No: 1, p. 80. Available at: http://cijournal.az/post/the-trans-caspian-corridor-geopolitics-of-transportation-in-central-eurasia-azad-garibov

96 Garibov A. Development of Transport Sector in Azerbaijan. // Eurasia Daily Monitor, Volume: 13, Issue: 75. - http://www.jamestown.org/single/?tx_ttnews%5Btt_news%5D=45332&tx_ttnews%5BbackPid%5D=7&cHash=2d5e7ca6a662279ad23eeacdc0f0145d#.VxXoEvmLTIW

97 Daly J. The Central Asia–Caucasus Analyst, Azerbaijan Invests in Upgrading Its Transport Infrastru-

in operator şirkətlərinin 2016-cı il aprelin 13-də Bakıda keçirilən iclasında Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumunun yaradılması haqqında müqavilə imzalanmışdır[98].

Layihə çərçivəsində artıq ilkin uğurlar da əldə edilmişdir. 2015-ci ilin avqustunda Qazaxıstanın test yürüşünə çıxan "Nomand Ekspres" qatarı TXBNM dəhlizi boyunca 4.000 km yol qət edərək Aktau limanından keçməklə Çindən Azərbaycana gəlmişdir[99]. Eyni ildə Türkmənistanın "Ro-Paks" tipli "Berkarar" bərəsi də Bakı ilə Türkmənbaşı limanları arasında fəaliyyətə başlamışdır. Hazırda Azərbaycanın da Bakı–Aktau və Bakı–Türkmənbaşı marşrutlarının hər biri üzrə beş bərə və ro-ro tipli gəmiləri hərəkət etməkdədir. Təkcə 2016-cı ilin yanvar ayı ərzində Bakı–Aktau istiqaməti üzrə daşımaların həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 10 dəfə artmışdır[100]. Bu cür artımda Rusiyanın tranzit qadağaları tətbiq etməsi ilə Türkiyə və Ukraynadan Mərkəzi Asiya və Çinə istiqmətlənən ticarətin bir hissəsinin Azərbaycan–Mərkəzi Asiya dəhlizinə yönəlməsi də önəmli rol oynamışdır.

Nəticə

Azərbaycan Respublikasının xarici siyasətində böyük güclər və inkişaf etmiş ölkələrlə əlaqələr önəmli yer tutsa da, bilavasitə qonşuluğumuzda yerləşən ölkə və regionlarla əlaqələr Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. Bu baxımdan Mərkəzi Asiya regionu xüsusilə qeyd edilməlidir. Belə ki, bilavasitə qonşuluğumuzda yerləşən böyük və geosiyasi cəhətdən əhəmiyyətli region olan Mərkəzi Asiya Azərbaycanın önəmli siyasi və iqtisadi-ticari tərəfdaşlarının yerləşdiyi bir regiondir. Mərkəzi Asiya həmçinin Azərbaycanla eyni tarixi, sivilizasiya, din, dil və etnik kökü paylaşan və çoxsaylı azərbaycanlı diasporasına ev sahibliyi edən ölkələrdən

cture. - http://www.cacianalyst.org/publications/analytical-articles/item/13139-azerbaijan-invests-in-upgrading-its-transport-infrastructure.html

98 Transxəzər Beynəlxalq Nəqliyyat Konsorsiumu yaradılıb./13.04.2016/ - http://azertag.az/xeber/Transxezer_Beynelxalq_Neqliyyat_Konsorsiumu_yaradilib-942730

99 Can the Trans-Caspian Route deliver the next freight revolution? /04.11.2015/- http://www.railway-technology.com/features/featurecan-the-trans-caspian-route-deliver-the-next-freight-revolution-4684339/

100 Сабитов Д. Паромщик ТРАСЕКА: один у переправы. - http://iwep.kz/ru/kommentariy-eksperta/2016-03-02/paromshchik-traseka-odin-u-perepravy

ibarət bir regiondur. Bu qeyd edilənlərlə bərabər region dövlətləri ilə Azərbaycanın maraqlarının bir çox sahədə, xüsusən də enerji və nəqliyyat sahəsində üst-üstə düşməsi ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanlar yaratmışdır.

Azərbaycanın rəsmi əlaqələr qurduğu dövlətlərdən olan Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə ötən əsrin 90-cı illərinin əvvəllərində bəzi anlaşılmazlıqlar yaşansa da, ölkələrimiz arasında əlaqələr əsaslı inkişaf yolu keçmiş və hərtərəfli əməkdaşlıq qurulmuşdur. Ötən 25 il ərzində Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında dövlət başçıları və digər rəsmilərin çoxsaylı qarşılıqlı səfərləri baş tutmuş, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşlər keçirilmişdir. İkitərəfli münasibətlərin inkişafı ilə yanaşı, Azərbaycan region ölkələri ilə bir sıra ortaq çoxtərəfli layihələrə və əməkdaşlıq birliklərinə qoşulmuşdur.

Hazırda Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq uğurla inkişaf etməkdədir. Azərbaycanın artan nüfuzu, aktiv xarici siyasəti və yerləşdiyi regionda önəmli aktora çevrilməsi Mərkəzi Asiya ilə əlaqələrinə təsirsiz ötüşməmişdir. Digər sahələrlə yanaşı, hazırkı dövrdə Mərkəzi Asiya dövlətləri ilə enerji və nəqliyyat sahəsində əməkdaşlıq Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir. Belə ki, qeyd edilən sahələrdə Azərbaycanın irəli sürdüyü və bütün regionun iqtisadi və geosiyasi xəritəsinə ciddi təsir göstərmiş Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Kəməri, Cənub Qaz Dəhlizi və Bakı–Tbilisi–Qars dəmir yolu kimi önəmli layihələr mərkəzi asiyalı qonşularımız tərəfindən dəstəklənmişdir. Azərbaycan Mərkəzi Asiya qonşuları ilə Transavrasiya enerji və nəqliyyat dəhlizlərinin yaradılmasında fəal şəkildə əməkdaşlıq etməkdədir. Son dövrlər Mərkəzi Asiya dövlətləri ilə iqtisadi-ticari əməkdaşlıq da genişlənmişdir. Region dövlətləri ilə ticarət əlaqələri mövcud potensialından geri qalsa da, hazırkı dövrdə Mərkəzi Asiya regionu Azərbaycanın xarici qeyri-neft ticarətində önəmli yer tutur.

AZƏRBAYCANIN QLOBAL VƏ REGİONAL GÜCLƏRLƏ MÜNASİBƏTLƏRİ

Azərbaycan–Avropa İttifaqı münasibətləri

*İlqar Qurbanov**

Giriş

Azərbaycan müstəqilliyini qazandıqdan sonra 1991-ci ildə qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında Qərb ölkələri ilə münasibətlərin qurulmasında və beynəlxalq siyasətdə fəal iştirak etməyə başladı. Bu kontekstdə Avropa İttifaqı (Aİ) ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycanın iqtisadi inkişafına dəstək və siyasi maraqlarının müdafiə olunması üçün mühüm əhəmiyyət kəsb edirdi.

Ümumiyyətlə, müstəqilliyin ilk illərində Azərbaycanın Aİ ilə münasibətlərinin perspektivləri daxili və xarici faktorlar üzərində qurulmuşdu. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Aİ ilə əlaqələri indiyədək iqtisadi və siyasi islahatlara dəstək, Şərq–Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı və s. kimi müxtəlif çərçivələrdə inkişaf etdirmişdir. Aİ üçün Azərbaycan regionda strateji cəhətdən mühüm əhəmiyyətə malikdir. Azərbaycanın regiondakı tranzit mövqeyi, Avropa və Asiyanın quru və hava nəqliyyatı yollarının kəsişməsində yerləşməsi, eləcə də Avrasiyada ən əsas paylama mərkəzi rolunu oynaması ölkəni Aİ üçün cəlbedici edən faktorlardır.

Aİ-nin Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı əlaqələrinin həyata keçirilməsi üçün əsas vasitələrindən biri də "Avropa Qonşuluq Siyasəti" (AQS) idi. 2004-cü ildə Azərbaycan Respublikası AQS proqramına daxil edilmişdir. Azərbaycan AQS çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanmış və bu məqsədlə Aİ-nin maliyyə-texniki dəstəyini almışdır. Azərbaycan da 2009-cu ildə Praqada keçirilən zirvə görüşündə "Şərq tərəfdaşlığı" (ŞT)

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi*

proqramına qoşulmuşdur. Lakin istər AQS, istərsə də ŞT Azərbaycan üçün Aİ-yə üzvlük və ya hər hansı bir formada təhlükəsizlik zəmanəti vəd etmədiyindən Azərbaycan Assosiasiya Sazişini imzalamamış və Strateji Tərəfdaşlıq Sazişi kimi yeni bir hərtərəfli saziş üçün Aİ ilə danışıqlara başlamışdır. Çünki eyni zamanda Aİ-nin Assosiasiya Sazişinin Azərbaycan tərəfindən imzalanması rəsmi Bakı üçün iqtisadi və siyasi cəhətdən cəlbedici deyildi. Keçmişdəki təcrübə də göstərdi ki, Assosiasiya Sazişi Azərbaycan nümunəsində uğurlu olmadı. Ona görə də Azərbaycana qarşı Aİ tərəfindən "Şərq tərəfdaşlığı" çərçivəsində "bir ölçü hamıya uyğundur" yanaşmasının tətbiq olunması qəbuledilməz idi. Aİ qəbul etməlidir ki, hər iki tərəfin fərqli tələbləri və ehtiyacları var.

Azərbaycan yenidən müstəqillik qazanandan bu günədək həm Aİ tərəfindən, həm də Aİ-nin digər təşkilatlarla birgə əməkdaşlığı çərçivəsində müxtəlif sektorlar (enerji, nəqliyyat, təhsil, mədəniyyət, kənd təsərrüfatı, regional inkişaf, iqtisadi, siyasi və institusional islahatlar və s.) üzrə çoxsaylı layihələr həyata keçirilmiş və hazırda da keçirilməkdədir.

Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq neft və qazın böyük əhəmiyyəti vardır. Bu kontekstdə Aİ–Azərbaycan münasibətlərinin əsas istiqamətini enerji sahəsində əməkdaşlıq təşkil edir. Ümummilli lider Heydər Əliyevin reallaşdırdığı neft və qaz strategiyası Azərbaycanın Aİ-yə üzv dövlətlərlə əlaqələrinin daha da konstruktiv və intensiv xarakter daşımasına əhəmiyyətli təsir göstərmişdir. Azərbaycanın Avropa ölkələri ilə enerji əməkdaşlığındakı uğurlarından danışarkən ilk növbədə "neft diplomatiyası"nın xidmətləri xüsusi qeyd edilməlidir. 1990-cı illərin əvvəllərində Azərbaycanın zəngin təbii sərvətləri, xüsusilə neft ehtiyatları Avropa ölkələrini bu regiona cəlb etmiş və Azərbaycanın Avropa enerji şirkətləri ilə imzaladığı müqavilələr ölkəni əməkdaşlıq proseslərinə daha sıx bağlamışdır.

Avropa bazarının enerjiyə tələbatının ödənilməsi üçün yeni tranzit sisteminin yaradılması zəruri idi. Çünki 2006-cı və 2009-cu illərdə Rusiya ilə Ukrayna arasında qazın nəqli ilə bağlı yaranmış mübahisədən sonra Aİ rəsmiləri İttifaqın qaz strategiyasının yenidən işlənilməsini və ortaq enerji siyasətinin yaradılmasının vacibliyini irəli sürdülər. Bu kontekstdə Aİ-nin enerji idxalının diversifikasiya edilməsində "Cənub

Qaz Dəhlizi" (CQD) konsepsiyasının reallaşdırılması çox böyük əhəmiyyətə malikdir. Bundan başqa, Azərbaycan coğrafi mövqeyinin ona verdiyi imkanlardan istifadə edib Aİ ilə sıx əməkdaşlıq edərək nəqliyyat sahəsində və yükdaşımalarda güclü inkişafa nail ola bilər.

Əvvəllər Aİ Azərbaycanın ərazi bütövlüyü, məcburi köçkünlər, Ermənistanın işğalçı siyasəti və BMT-nin mövcud qətnamələri ilə bağlı daha açıq mövqe ortaya qoysa da (bəyannamələrlə belə olsa), sonralar bu mövqe getdikcə zəifləmişdir. Həm Azərbaycan, həm də Ermənistan "Şərq tərəfdaşlığı" proqramının tərəfləri olduqlarından, Aİ-nin münaqişədə passiv olması ŞT-nin fəaliyyətinə təsir göstərir. Ukrayna və Gürcüstandakı ərazi bütövlüyü və etnik münaqişələr kimi məsələlərdə Rusiya faktorunun olması ilə bağlı Aİ tərəfindən çoxsaylı siyasi bəyanatlar verilsə də, Ermənistana qarşı verilmiş bəyanatlar az sayda olub, simvolik xarakter daşıyır.

Azərbaycan özü müasir və dünyəvi ölkə olsa da, tez-tez Aİ-nin ikili standartları ilə üzləşir. Demokratikləşmə, insan hüquqları və azadlıqlarının etibarlı təminat mexanizminin formalaşdırılması Azərbaycanın xarici siyasətinin mühüm vektorlarından biri olsa da, rəsmi Bakı müəyyən dairələrin bu bəşəri dəyərlərdən geosiyasi təzyiq aləti kimi istifadə etməsi cəhdlərinə qarşı çıxır, "demokratiyanın müdafiəsi" bayrağı altında, ikili standartlar mövqeyindən yanaşmaları, müstəqil bir dövlətin suveren hüquqlarına müdaxiləni yolverilməz hesab edir.

Azərbaycan–Aİ münasibətlərinin tarixi və hüquqi bazası

1993-cü ilin ikinci yarısında yenidən hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçilik idealları əsasında və ölkənin siyasət kursunda mövcud reallıqları və milli mənafeləri nəzərə alaraq xarici siyasətin əsas istiqamətlərini müəyyən etdi. Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət strategiyasında qarşıya bir sıra mühüm və təxirəsalınmaz vəzifələr qoyulurdu. Həmin vəzifələrdən ən əsası respublikanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq və Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdırmaq, bununla da ölkə ətrafında yaranmış informasiya blokadasını yarmaq idi.

Müstəqillik əldə etdikdən sonra Azərbaycanın üzləşdiyi sosial, iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkənin dünyaya inteqrasiya proseslərinə cəlb olunması və beynəlxalq təşkilatlarla sıx əlaqəsindən asılı idi[1].

1991-ci ildə müstəqilliyini qazandıqdan sonra Azərbaycan dövlətçilik və milli maraqlarının qorunması, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq, mehriban qonşuluq və dinc yanaşı yaşamaq prinsipləri əsasında Qərb ölkələri ilə münasibətlərin qurulmasında və beynəlxalq siyasətdə fəal iştirak etməyə başladı. Azərbaycanın xarici siyasətinin mühüm prioritetlərindən biri də Aİ kimi mühüm iqtisadi və siyasi təşkilatla münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Müstəqil Azərbaycanın bu dövrdə Avropa ölkələri ilə münasibətlərinin inkişafı və Avratlantik məkanla əməkdaşlığı ölkənin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi. Azərbaycan Aİ ilə əməkdaşlıqda qarşıya milli iqtisadiyyatın Avropanın iqtisadi məkanına tam inteqrasiyasını, Avropanın sabit təhlükəsizlik arxitekturasının qurulmasında öz rolunu və əhəmiyyətini daim artırmaq məqsədi qoymuşdu[2]. SSRİ-nin süqutundan sonra dövlət quruculuğunun fundamental tələbləri Azərbaycan və Aİ-yə üzv dövlətlər arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə münasibətlərin qurulması üçün yaxşı zəmin yaratdı. Coğrafi yaxınlığına, mühüm geostrateji məkanda yerləşməsinə, əhəmiyyətli enerji resurslarının mövcudluğuna görə Azərbaycan Avropa dövlətlərinin ənənəvi maraq dairəsinə daxil olan ölkədir[3].

Ümumiyyətlə, müstəqilliyin ilk illərində Azərbaycanın Aİ ilə münasibətlərinin perspektivləri daxili və xarici faktorlar üzərində qurulmuşdu. Daxili faktorlara Aİ-nin standartlarına çatmaq üçün Azərbaycanın siyasi, iqtisadi və sosial həyatında islahatların davam etdirilməsi, daxili bazar, istehsal və xidmətin tam liberallaşdırılması, ölkənin demokratik transformasiyasının başa çatdırılması və s. aid idi. Xarici faktorlar sırasına isə Cənubi Qafqazdakı münaqişələrin aradan qaldırılması,

1 Əhmədov E. Heydər Əliyevin xarici siyasət kursu yeni mərhələdə dinamik şəkildə inkişaf etdirilir. // "Xalq qəzeti", 9 may 2013-cü il, № 099 (27323), s.4

2 Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. / Məqalələrdən seçmələr (1997-2011). Bakı: Çaşıoğlu, 2012, s.282-285

3 Sadıqov R. Avropa İttifaqının Şərq siyasətində Cənubi Qafqaz faktoru. Siyasi e.ü.f.d. dissertasiyası, Bakı, 2011, s.52

o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, bölgə ölkələri arasında vahid əməkdaşlıq, təhlükəsizlik sahəsində əməkdaşlıq, hər üç ölkədə vahid normaya salınmış qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin formalaşdırılması və s. daxil idi[4].

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra Aİ ilə əlaqələri indiyədək iqtisadi və siyasi islahatlara dəstək, Şərq–Qərb nəqliyyat-kommunikasiya dəhlizinin yaradılması, infrastrukturun inkişafı və s. kimi müxtəlif çərçivələrdə inkişaf etdirmişdir. Müstəqilliyin ilk illərində Aİ ilə münasibətlər "MDB ölkələrinə texniki yardım" (TACIS), "Avropa–Qafqaz–Asiya Nəqliyyat Dəhlizi" (TRACECA), "Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram" (INOGATE), "Humanitar yardım" (ECHO) və digər proqramlar çərçivəsində inkişaf etdirilmişdir. 1993-cü ilin sonlarında Bakıda Aİ-nin "MDB ölkələrinə texniki yardım" proqramının nümayəndəliyinin açılması ilə Azərbaycan iqtisadiyyatının bütün sahələrinin Avropa modeli üzrə yenidən qurulması prosesinə başlanılmışdır. TACIS proqramı bir çox proqram və layihələrə maliyyə yardımı və texniki dəstək göstərmişdir[5].

Artıq 1993-cü ildə Azərbaycan rəsmi olaraq Aİ ilə münasibətlərin qurulmasında maraqlı olduğunu bəyan etmişdi. 1996-cı ildə Prezident Heydər Əliyev Aİ ilə "Tərəfdaşlıq və əməkdaşlıq haqqında Saziş"i imzalamaqla Azərbaycanın Aİ ilə rəsmi əlaqələrini başlatmış oldu[6]. Aİ özünün ilk nümayəndəsini Azərbaycana 1998-ci ildə göndərmiş, 2000-ci ildə isə Brüsseldə Azərbaycanın Aİ-də Daimi Nümayəndəliyi açılmışdır. 2008-ci il fevralın 4-dən Bakıda Aİ Komissiyasının Azərbaycan Respublikasındakı Nümayəndəliyi fəaliyyət göstərir. Sonradan bu qurum Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyi adlandırılmışdır. 2003-cü il iyulun 7-də Aİ-nin Cənubi Qafqaz üzrə Xüsusi nümayəndəsinin təyin edilməsi təşkilatın regionda fəallığının artdığını göstərən addım idi[7].

Aİ üçün Azərbaycan regionda, eləcə də "Avropa Qonşuluq Siyasəti"

4 Məmmədov N. Göstərilən əsəri, s.285

5 Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı: Letterpress, 2013, s.245

6 Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана / учебник/. Баку: Зердаби Лтд, 2013, с.649

7 Əhmədov E. Göstərilən əsəri, s.227

və "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində strateji cəhətdən mühüm əhəmiyyətə malikdir. Birincisi, Azərbaycan Aİ və üzv ölkələrin enerji şirkətləri ilə genişmiqyaslı enerji və nəqliyyat layihələri həyata keçirir. İkincisi, Azərbaycan tranzit mövqeyinə görə Aİ-nin Şərq–Qərb nəqliyyat dəhlizi konsepsiyasının əsas ölkələrindən biridir. Üçüncüsü, Azərbaycan islam ölkəsi olmasına baxmayaraq, dünyəviliyini qoruyub saxlayır və əhalisi tolerantdır[8].

Azərbaycanın regiondakı tranzit mövqeyi, Avropa və Asiyanın quru və hava nəqliyyatı yollarının kəsişməsində yerləşməsi, eləcə də Avrasiyada ən əsas paylama mərkəzi rolunu oynaması ölkəni Aİ üçün cəlbedici edən faktorlardır[9]. Azərbaycan Avropa və Asiyanı birləşdirən əlverişli geosiyasi və geoiqtisadi mövqeyə, Xəzər dənizi vasitəsilə Rusiyaya, Orta Asiyaya, Qazaxıstana və İrana, avtomobil-dəmir yolu vasitəsilə Gürcüstana, Qara dəniz bölgəsinə, İrana, Türkiyəyə (Naxçıvan vasitəsilə), Rusiyaya, Ermənistana çıxışı olan nəqliyyat-kommunikasiya xətlərinə malikdir. Aİ-nin Azərbaycandakı maraqlarının başlıca iqtisadi faktorları onun transregional kommunikasiya imkanları ilə əlaqədardır. Qərb üçün Xəzər dənizi və Mərkəzi Asiyanın zəngin enerji resurslarına uzunmüddətli maneəsiz daxil olmaq Azərbaycansız mümkün deyil. Cənubi Qafqazda bir sıra xarici qüvvələrin və ölkələrin maraqlarının toqquşmasına və bu regionda münaqişələrin mövcud olmasına baxmayaraq, Azərbaycan müstəqil xarici siyasət kursunu saxlamağa müvəffəq olmuşdur. Bu isə Azərbaycana Aİ ölkələri ilə münasibətləri ölkənin milli maraqları əsasında qurmağa imkan yaratmışdır[10].

Azərbaycan–Aİ əməkdaşlığının hüquqi bazası

1991-ci ildə Sovet İttifaqının süqutundan sonra Aİ yenicə müstəqillik qazanmış ölkələrdə demokratik islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatının yaradılması, dövlətlərarası ticarət və nəqliyyat münasibətlərinin inkişafı və gömrük sisteminin təkmilləşdirilməsini

8 См: Гасанов А., 2013, с.655

9 Ziyadov T. Azerbaijan as a Regional Hub in Central Eurasia. Azerbaijan Diplomatic Academy, Baku: East-West Publishing House, p.5

10 Sadıqov R. Göstərilən əsəri, s.82, 114

maliyyələşdirmək üçün "MDB ölkələrinə texniki yardım" (TACIS) proqramını işləyib hazırlamışdır. 1992-2006-cı illərdə Aİ-nin TACIS və digər yardım proqramları çərçivəsində Azərbaycana 414 milyon avrodan çox humanitar, texniki və ərzaq yardımı göstərilmişdir[11].

1993-cü il aprelin 22-də Lüksemburqda Aİ və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahələrində əməkdaşlığı nəzərdə tutan və ikitərəfli münasibətlərin hüquqi bazasının əsasını qoyan Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi (TƏS) imzalanmışdır. Bu saziş Azərbaycanla Aİ institutları arasında əlaqələrin genişləndirilməsi istiqamətində hüquqi baza olduğundan xarici siyasətin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilə bilər. TƏS Azərbaycan Milli Məclisi tərəfindən ratifikasiya edildikdən sonra 1999-cu ildə qüvvəyə minmişdir[12].

TƏS siyasi dialoq, demokratiya, insan hüquqları və qanunun aliliyinə hörmət, genişmiqyaslı islahatlar, azad ticarət, investisiya, iqtisadiyyat, qanunvericilik, mədəniyyət və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığın qurulması məqsədini daşımışdır. Sazişin konkret məqsədlərini aşağıdakı kimi sadalamaq olar: müvafiq siyasi dialoq çərçivəsində tərəflər arasında siyasi münasibətlərin inkişafının təmin edilməsi; Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi, iqtisadi inkişaf və bazar iqtisadiyyatına keçid cəhdlərinin dəstəklənməsi; ticarət və investisiya mühitinin inkişafı, iqtisadi, sosial, maliyyə, elmi, texniki və mədəni sahələrdə əməkdaşlıq[13]. Saziş çərçivəsində Azərbaycanda bazar iqtisadiyyatının inkişafı və infrastruktur layihələrinin reallaşdırılması məqsədilə müvafiq sahələrdə islahatlar aparmaq üçün Aİ-nin maddi-texniki dəstəyi nəzərdə tutulmuşdu[14]. Aİ-nin göstərdiyi yardım Azərbaycanda islahatlar prosesinin sürətləndirilməsinə və bir çox layihələrin həyata keçirilməsinə yönəldilmişdi[15]. TƏS əməkdaşlığı möhkəmləndirmək üçün müvafiq mexanizmlər təmin etməklə

11 Əhmədov E. Göstərilən əsəri, s.241

12 Avropa İttifaqı–Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi. - http://eeas.europa.eu/delegations/azerbaijan/eu_azerbaijan/political_relations/legal_framework/index_az.htm

13 Əhmədov E. Göstərilən əsəri, s.226

14 См: Гасанов А., 2013, с.649

15 Məmmədov N. Göstərilən əsəri, s.285

Azərbaycan və Aİ arasındakı münasibətlərdə yeni mərhələ açdı.

Azərbaycanın Aİ-nin proqram və layihələrində iştirakı

Avropa Qonşuluq Siyasəti

Aİ-nin Cənubi Qafqaz dövlətləri ilə qarşılıqlı əlaqələrinin həyata keçirilməsi üçün əsas vasitələrindən biri də "Avropa Qonşuluq Siyasəti" (AQS) idi. 2004-cü ildə Azərbaycan Respublikası AQS proqramına daxil edilmişdir. AQS-nin mərkəzi elementi isə Aİ ilə hər bir tərəfdaş ölkə arasında razılaşdırılmış və ölkə üzrə bir sıra qısa və ortamüddətli prioritetlərin əks olunduğu Fəaliyyət Planıdır. "Azərbaycan Respublikası–Avropa İttifaqı Fəaliyyət Planı" Azərbaycan–Aİ Əməkdaşlıq Şurasının 2006-cı il noyabrın 14-də Brüsseldə keçirilən iclasında qəbul edilmişdir[16]. Fəaliyyət planında Aİ ilə Azərbaycan arasında əməkdaşlığın 10 prioritet istiqaməti müəyyən edilmişdir: Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi; demokratiyanın gücləndirilməsi; qanunun aliliyinin, insan hüquqlarının və əsas azadlıqların müdafiəsinin gücləndirilməsi; sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması; gömrük xidməti işinin yaxşılaşdırılması; tarazlı və davamlı iqtisadi inkişafa dəstək; iqtisadi qanunvericiliyin və inzibati praktikanın yaxşılaşdırılması; Avropa İttifaqı ilə Azərbaycan arasında enerji və nəqliyyat əməkdaşlığının dərinləşdirilməsi; məhkəmə, azadlıq və təhlükəsizlik sahələrində, o cümlədən sərhəd məsələsində əməkdaşlığın gücləndirilməsi; regional əməkdaşlığın gücləndirilməsi[17].

2004-cü ilin mayında Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı Aİ ilə "Avropa Qonşuluq Siyasəti" proqramı çərçivəsində genişmiqyaslı əməkdaşlığa dair razılıq əldə edilmişdi[18]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 iyun 2005-ci il tarixli "Azərbaycan Respublikasının Avropaya İnteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" sərəncamının Aİ–Azərbaycan əlaqələrinin gücləndirilməsində və Azərbaycan üzrə Fəaliyyət Planının

16 Əhmədov E. Göstərilən əsəri, s.240

17 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.212

18 Aİ–Azərbaycan AQS Fəaliyyət Planı. - http://eeas.europa.eu/enp/pdf/pdf/action_plans/azerbaijan_enp_ap_final_en.pdf

həyata keçirilməsində vacib rolu olmuşdur[19]. Sərəncama əsasən, Aİ ilə siyasi, iqtisadi, nəqliyyat, enerji, hüquq, humanitar, təhlükəsizlik, insan hüquqları və demokratiya sahələrində əməkdaşlıq üzrə işçi qruplarının yaradılması da nəzərdə tutulmuşdu[20].

Azərbaycan AQS çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanmış və bu məqsədlə Aİ-nin maliyyə-texniki dəstəyini almışdır. Bundan başqa, Azərbaycan bu proqram çərçivəsində Aİ-dən onun daxili bazarlarına çıxış, işçi, əmtəə, xidmət, investisiya resurslarının sərbəst dövriyyəsi imkanı əldə etmişdir. İttifaqla AQS çərçivəsində həyata keçirilmiş əməkdaşlıq Azərbaycana Aİ ölkələri ilə qarşılıqlı iqtisadi əlaqələrin qurulması, güzəştli ticarət və kredit rejiminin yaradılması, əmək, bazar münasibətləri və miqrasiya, narkobiznes və mütəşəkkil cinayətkarlıqla mübarizə, investisiyaların təşviqi, yeni maliyyə mənbələrinin cəlb edilməsi və s. kimi imkanlar açmışdır[21].

AQS-nin tərəfdaş ölkələr üçün əməkdaşlıq istiqamətləri bunlardır: iqtisadi və elmi-texniki əməkdaşlığın stimullaşdırılması, sərhədyanı ərazilərin inkişaf etdirilməsi üçün infrastrukturun yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, enerji effektliyinin artırılması və yeni enerji mənbələrinin istifadəsi istiqamətində irəliləyiş, sərhədyanı turizmin inkişafı, siyasi və inzibati islahatların səmərəli şəkildə həyata keçirilməsi müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olmaq imkanı, vətəndaşların, əmtəənin, xidmətin və kapitalın sərbəst dövriyyəsini təmin etməklə əməkdaşlıq və liberalizasiya prosesləri, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotik və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, investisiya imkanları, yeni maliyyə mənbələri və s.[22]. AQS tərəfdaş ölkələrin Aİ layihələrində daha geniş şəkildə iştirakını və daha dərin əməkdaşlığı nəzərdə tutur. Lakin AQS tərəfdaş dövlətlərin potensial üzvlüyü ilə bağlı heç bir öhdəlik daşımır[23]. Aİ ilə əlaqələrə daha yüksəksəviyyəli siyasi və iqtisadi əməkdaşlıq vəd

19 Məmmədov N. Göstərilən əsəri, s.288
20 См: Гасанов А., 2013, с.655
21 Məmmədov N. Göstərilən əsəri, s.287
22 Sadıqov R. Göstərilən əsəri, s.71
23 Yenə orada, s.78

edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafında yeni bir mərhələ idi. Hazırda isə Azərbaycan Aİ ilə münasibətlərdə öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir[24].

"Şərq tərəfdaşlığı" proqramı

2008-ci il mayın 26-da Aİ-nin xarici işlər nazirlərinin Brüsseldə keçirilmiş görüşündə Polşa və İsveç tərəfindən "Şərq tərəfdaşlığı" (ŞT) təşəbbüsü irəli sürülmüşdü. Bu təşəbbüs Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belarusu əhatə edir. 2009-cu il mayın 7-də Praqada ŞT üzrə zirvə görüşündə birgə bəyannamə qəbul edilmiş və ŞT rəsmi səviyyədə fəaliyyətə başlamışdır. ŞT, Aİ və proqrama üzv ölkələr arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını, mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda davam etdirilərək genişləndirilməsini nəzərdə tutur. Azərbaycan da 2009-cu ildə Praqada keçirilən zirvə görüşündə "Şərq tərəfdaşlığı" proqramına qoşulmuşdur[25].

ŞT proqramı Tərəfdaşlıq və Əməkdaşlıq Sazişindən fərqli bir çərçivə idi. Belə ki, Aİ ŞT çərçivəsində hər bir tərəfdaş ölkə ilə daha sıx əlaqələrin yaradılması məqsədilə ikitərəfli format çərçivəsində mövcud tərəfdaşlıq və əməkdaşlıq sazişləri əvəzinə yeni assosiasiya sazişlərinin imzalanması, Dünya Ticarət Təşkilatına üzv olduğu təqdirdə tərəfdaş ölkə ilə Dərin və Müfəssəl Azad Ticarət Zonasının yaradılması, həmçinin vizaların tədricən liberallaşdırılması, tərəfdaş ölkələrin və Aİ-nin enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha dərin əməkdaşlığın həyata keçirilməsi və s. planlaşdırırdı[26]. Yəni ŞT proqramı Aİ-yə üzvlük perspektivi yox, sadəcə bu qurumla dərin iqtisadi inteqrasiyanı nəzərdə tutan azad ticarət sazişi və assosiativ siyasi əməkdaşlıq vəd edirdi.

Lakin istər AQS, istərsə də ŞT Azərbaycan üçün Aİ-yə üzvlük və ya hər hansı bir formada təhlükəsizlik zəmanəti vəd etmədiyindən Azərbaycan Assosiasiya Sazişini imzalamamış və Strateji Tərəfdaşlıq Sazişi kimi yeni

24 Əhmədov E. Göstərilən əsəri, s. 233

25 Yenə orada, s.249

26 Avropa İttifaqı ilə Azərbaycan arasında Şərq Tərəfdaşlığı Proqramı. - http://eeas.europa.eu/delegations/azerbaijan/eu_azerbaijan/political_relations/eastern_partnership/index_az.htm

bir hərtərəfli saziş üçün Aİ ilə danışıqlara başlamışdır. Çünki həm AQS, həm də ŞT sırf Aİ-nin maraqlarının əks olunduğu, siyasi və iqtisadi maraqlarının tərəfdaş ölkələr tərəfindən qəbul edilməsi xarakteri daşıyan proqramlar idi. Digər tərəfdən isə, Assosiasiya Sazişinin imzalanması Azərbaycan üçün iqtisadi cəhətdən cəlbedici deyildi. Çünki Azərbaycan "Dərin və Müfəssəl Azad Ticarət Zonası haqqında Saziş"i imzalamaq üçün əsas tələblərdən biri olan Dünya Ticarət Təşkilatının üzvü deyil. Digər tərəfdən isə, Assosiasiya Sazişi Aİ-nin Gömrük İttifaqı daxilində Azərbaycana əhəmiyyətli bir səs verməyəcəkdi. Bundan başqa, assosiativ üzv olmaq Azərbaycanın ixracındakı 90%-dən çox paya sahib neft və qaz ixracatının qısa və orta müddətdə payını azaltmayacaqdı.

Ümumiyyətlə, Azərbaycan hər hansı bir gömrük zonasına daxil olmağa üç prizmadan baxır: siyasi müstəqillik, iqtisadi səmərəlilik və Dağlıq Qarabağ münaqişəsi[27]. Avropa Siyasət Mərkəzinin baş analitiki Amanda Polun sözlərinə görə, Aİ-nin "Şərq tərəfdaşlığı" proqramı ilə bağlı üzv ölkələr arasında oxşar mövqe yoxdur. Belə ki, ŞT proqramı Polşa və İsveç üçün prioritet olsa da, digər üzv ölkələr üçün əksinə, prioritet deyil. Məhz belə siyasət ŞT proqramının perspektivinə və cəlbediciliyinə mənfi təsir göstərmişdir[28].

Keçmişdəki təcrübə də göstərdi ki, Assosiasiya Sazişi Azərbaycan nümunəsində uğurlu olmadı. Ona görə də Azərbaycana qarşı Aİ tərəfindən "Şərq tərəfdaşlığı" çərçivəsində "bir ölçü hamıya uyğundur" yanaşmasının tətbiq olunması qəbuledilməz idi. Aİ qəbul etməlidir ki, hər iki tərəfin fərqli tələbləri və ehtiyacları var. Buna görə də Azərbaycan 2015-ci ildə ŞT proqramı çərçivəsində keçirilən Riqa Sammitindən əvvəl Strateji Tərəfdaşlıq Sazişi (STS) ilə bağlı təklif edilən sənədi Aİ-yə təqdim etmişdi. Azərbaycan Gürcüstan, Moldova və Ukrayna kimi, Assosiasiya Sazişini imzalamadığına görə ayrıca hüquqi qüvvəsi olan və ölkənin milli maraqlarını da əks etdirən bir saziş imzalamağa üstünlük verdi. 2016-cı il noyabrın 14-də Aİ-nin Nazirlər Şurası Avropa Komissiyasına və Xarici Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəyə mandat verdi

27 Фархад Мамедов: "Сотрудничество между Азербайджаном, Грузией и Турцией – путь в будущее". /30.03.2015/ - www.1news.az/authors/oped/20150330121744843.html

28 Amanda Paul. The EU and the South Caucasus – Time for a stocktake. /May 2015/ - www.epc.eu/documents/uploads/pub_5598_article_2_-_amanda_paul_-_eu.pdf

ki, Aİ və Azərbaycan arasında sazişin imzalanması ilə bağlı üzv ölkələr adından danışıqlara başlasın[29].

Qeyd edək ki, yeni saziş 1999-cu il tarixli TƏS-i əvəz edəcək və hüquqi cəhətdən öhdəlik aşılayan yeni bir genişmiqyaslı saziş olacaqdır. STS digər çərçivə sənədlərindən fərqli olaraq, Azərbaycan və Aİ-nin üzləşdiyi ortaq problemləri və məsədləri özündə birləşdirəcək və hər iki tərəf arasında qarşılıqlı faydalı əməkdaşlıq və siyasi dialoq üçün yeni bir zəmin yaradacaqdır. STS Azərbaycanın Aİ ilə münasibətlərdə öz maraqlarını izləmək kontekstində və AQS-nin yenilənmiş versiyasında qeyd olunan "fərqlilik" yanaşmasının praktiki bir nümunəsidir. Avropa AQS 2004-cü ildə yaradıldıqdan sonra Aİ-nin yaxın qonşuluğunda çoxsaylı geosiyasi, radikal və dinamik dəyişikliklər baş vermişdir. Bu səbəbdən 2015-ci ildə AQS-nin yenilənmiş variantının hazırlanması zərurəti ortaya çıxdı. AQS-nin yenilənmiş variantı tərəfdaş ölkələrin xarici siyasət prioritetlərini nəzərə almaq baxımından vacib bir sənəddir [30].

Aİ ilə birgə həyata keçirilən layihələr

Azərbaycan yenidən müstəqillik qazanandan bu günədək həm Aİ tərəfindən, həm də Aİ-nin digər təşkilatlarla birgə əməkdaşlığı çərçivəsində müxtəlif sektorlar üzrə çoxsaylı layihələr həyata keçirilmiş və hazırda da keçirilməkdədir. AQS çərçivəsində Azərbaycan Respublikası mədəniyyət, təhsil və ətraf mühit kimi sahələr üzrə əlaqələri təşviq edən bir sıra Aİ proqramlarında iştirak etmişdir ("Tvinninq", "Texniki yardım və məlumat mübadiləsi (TAIEX)", "Büdcəyə dəstək", "Tempus", "Erasmus Mundus" və s.)[31].

"**Tvinninq**" layihəsinin məqsədi Azərbaycanda standartlaşdırma və

29 "EU to launch negotiations on a new agreement with Azerbaijan", European Council of the European Union, Press Release. /11.11.2016/ - www.consilium.europa.eu/en/press/press-releases/2016/11/14-azerbaijan/

30 Review of the European Neighbourhood Policy – Joint Communication to the European Parliament, the Council, the European Economic and Social Committee and the Committee of the Regions. / European Commission, Brussels./18.11.2015/ - http://eeas.europa.eu/enp/documents/2015/151118_joint-communication_review-of-the-enp_en.pdf

31 Aİ və Azərbaycan arasında imzalanmış müqavilələr. - http://eeas.europa.eu/delegations/azerbaijan/eu_azerbaijan/political_relations/agreements/index_az.htm

texniki tənzimləmənin müasir sisteminin inkişafı və təkmilləşdirilmiş milli standartlaşdırma sistemi vasitəsilə Azərbaycanın iqtisadi inkişafı və dünya bazarlarına ölkənin çıxışını dəstəkləməkdir. "Tvinninq" məsləhətçiləri Təhsil Nazirliyinə Aİ ali təhsil sisteminin prinsiplərini tətbiq etmək üçün dəstək verir. Bundan başqa, mövcud proqramlar çərçivəsində universitetlərin bacarıqlarını və qabiliyyətlərini artırmaq xarakterli təşəbbüslər vardır, məsələn, magistratura və doktorantura təhsil sistemlərinin təkmilləşdirilməsi, kitabxana sistemlərinin müvafiq standartlara uyğunlaşdırılması və s. Həmçinin orta məktəblər üçün də "e-Tvinninq" adlı virtual proqram vardır. Bu proqram şagirdlərə digər ölkələrdəki şagirdlərlə tanış olmağa və mübadilə aparmağa kömək edir. Layihə Azərbaycanda texniki tənzimləmə və standartlaşdırma sisteminin modernləşdirilməsi üzrə tərəfdaşlar arasında bilik və təcrübə mübadiləsi aparmağa imkan verir. Layihə Aİ–Azərbaycan AQS Fəaliyyət Planının bir sıra aspektlərinə dəstək məqsədi daşıyır[32].

TAIEX Avropa Komissiyasının texniki yardım və informasiya mübadiləsi alətidir. TAIEX dövlət idarəetməsinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması, tətbiqi və mühafizəsi, eləcə də Aİ-nin ən yaxşı təcrübə mübadiləsindən yararlanmaq məqsədi daşıyır[33].

"Büdcəyə dəstək" proqramı beş əsas məsələnin üzərinə fokuslaşır: insan hüquqları və demokratik dəyərlərin təşviqi; daha yaxşı maliyyə tənzimlənməsi, makroiqtisadi sabitlik, iqtisadi artım və daha az korrupsiya; sektor islahatları və sektor xidmətlərinin göstərilməsi; zəif ölkələrdə dövlət quruculuğu və s.[34].

"Tempus" Aİ ilə qonşu olan ölkələrdə ali təhsilin müasir standartlar səviyyəsinə gətirilməsini dəstəkləyən proqramdır. Bu proqram Şərqi Avropa, Mərkəzi Asiya, Qərbi Balkan və Aralıq dənizi bölgəsindəki tərəfdaş ölkələrin ali təhsil sistemlərində islahatların aparılması və modernləşdirilməsinə diqqət yetirir və bu ölkələr arasında institusional əməkdaşlıq yaradır. "Tempus" proqramı "Erasmus Mundus" (EM)

32 Official wesbite of Twinning project. - http://twinning.azstand.gov.az/en/7

33 TAIEX project, ENP and Enlargement Negotiations. - http://ec.europa.eu/enlargement/tenders/taiex/index_en.htm

34 Budget support and dialogue with partner countries. / International Cooperation and Development (DG DEVCO) - http://ec.europa.eu/europeaid/how/delivering-aid/budget-support/index_en.htm

proqramı ilə sıx əməkdaşlıq edir[35]. **"Erasmus Mundus"** ali təhsilin keyfiyyətini artırmaq və üçüncü ölkələrlə əməkdaşlıq etmək yolu ilə insanlar və mədəniyyətlər arasında dialoqu və anlaşmanı təşviq etmək məqsədi daşıyan ali təhsil sahəsində əməkdaşlıq və mobillik proqramıdır. Bundan əlavə, EM insan resurslarının inkişafına, Aİ və üçüncü ölkələr arasında mobilliyi artıraraq üçüncü ölkələrdə ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə əməkdaşlığına töhfə verir. Aİ-nin "Erasmus Mundus" proqramını koordinasiya etmək üçün Bakıda milli "Erasmus+" ofisi fəaliyyət göstərir[36].

2007-ci il yanvarın 1-dən etibarən TACIS proqramı **Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti** (AQTA) ilə əvəz olunmuşdur. AQTA daha geniş mandat və əhatə dairəsinə malik olub, AQS fəaliyyət planlarının həyata keçirilməsi üçün əsas maliyyə alətidir. AQTA-nın üç başlıca strateji məqsədi var: demokratiya və insan hüquqlarının təşviqi, bazar iqtisadiyyatına keçidin asanlaşdırılması və davamlı inkişafın təşviqi, habelə qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın inkişafı[37]. AQTA-dan başqa, Aİ həm də Azərbaycanda vətəndaş cəmiyyətini dəstəkləyən ən iri xarici donordur. Müsətəqillikdən sonra Aİ-nin dəstəyi ilə Azərbaycanda 60-dan çox layihə maliyyələşdirilib. Layihələr əsasən Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti və Qeyri-Dövlət İştirakçıları proqramları çərçivəsində maliyyələşdirilmişdir. Layihələr insan hüquqları müdafiəçiləri, media azadlığı, azad və ədalətli seçkilər və əhalinin zəif qruplarının dəstəklənməsi istiqamətində icra edilmişdir[38].

2011-ci ilin yanvarında Azərbaycan Respublikası və Avropa Komissiyası arasında Azərbaycanın iqtisadi inteqrasiyası və xarici ticarətinə dəstək, ədalət, təhlükəsizlik və hüququn aliliyi üzrə və dövlət qulluqçularına təlim keçirilməsini nəzərdə tutan "**Hərtərəfli**

35 Tempus IV (2007-2013): Overview of the Programme. - http://eacea.ec.europa.eu/tempus/programme/about_tempus_en.php

36 About Erasmus Mundus 2009-2013. / Education, Audiovisual and Culture Executive Agency/ - http://eacea.ec.europa.eu/erasmus_mundus/programme/about_erasmus_mundus_en.php

37 European Neighbourhood and Partnership Instrument (ENPI). /International Cooperation and Development / - http://ec.europa.eu/europeaid/funding/european-neighbourhood-and-partnership-instrument-enpi_en

38 Support to Civil Society. - http://eeas.europa.eu/delegations/azerbaijan/projects/overview/index_en.htm

İnstitusional Quruculuq" (HİQ) proqramı çərçivəsində anlaşma memorandumu imzalanmışdır. HİQ proqramının istiqamətləri aşağıdakılardır: hüququn aliliyi, ədalət, azadlıq və təhlükəsizlik sahələrində islahatlar; dövlət idarəçiliyi və dövlət qulluğu sahələri üzrə islahatlar[39].

2015-ci ilin oktyabrında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Avropa İttifaqı "Şərq tərəfdaşlığı"nın Polis Proqramına rəsmi olaraq qoşulmuşdur. Almaniya ilə birgə hazırlanmış Polis Proqramı üzrə Fəaliyyət Planı 2016-cı ildə həyata keçirilməyə başlanmışdır. Proqram Aİ və ŞT ölkələri, eləcə də ŞT ölkələrinin özləri arasında sərhədyanı cinayətlə bağlı polis məsələləri üzrə əməkdaşlığın möhkəmləndirilməsi və bu ölkələrdə qanunun aliliyinin möhkəmlənməsinə töhfə məqsədi daşıyır[40].

Azərbaycan həmçinin ŞT proqramının tərəfdaş ölkələrdə kadr potensialının artırılması, kommunikasiya və məlumatlandırma xarakterli "Ərazi Əməkdaşlığına Dəstək Proqramı"nda iştirak edir. Bu proqram çərçivəsində Azərbaycan Gürcüstanla hər iki ölkədəki sərhədyanı regionların əhalisi, yerli icra orqanları və QHT-ləri arasında əlaqələri gücləndirmək sahəsində əməkdaşlıq edir. Bu proqramın məqsədi sərhədyanı regionlarda inkişaf və əməkdaşlıq proqramlarının həyata keçirilməsidir[41].

Aİ-nin Azərbaycanda həyata keçirdiyi digər layihələr isə bunlardır: 1. "Azərbaycan Respublikası Hesablama Palatasının institusional və idarəetmə potensialının gücləndirilməsi"; 2. "Azərbaycan Respublikası Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya dövlət qulluğu sistemində islahatlara dəstək"; 3. "Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna pensiya sisteminin islahatı üçün dəstək"; 4. "Mədəniyyət sektorunda potensialın gücləndirilməsi" (2010); 5. "Ən çox risklə üzləşən ölkə və regionlarda insan hüquqları və fundamental azadlıqlara hörmətin artırılması"; 6. "Vətəndaşların seçki orqanlarının məsuliyyətinin artırılmasında iştirakı üçün kadrların hazırlanması"; 7. "Azərbaycan Res-

39 The legal framework of relations of the Republic of Azerbaijan with the European Union, 2016. - http://economy.gov.az/index.php?option=com_content&view=article&id=1038&Itemid=183&lang=en

40 Eastern Partnership Police Cooperation Programme. /ENP Info Centre/ - http://www.enpi-info.eu/maineast.php?id=554&id_type=10

41 Eastern Partnership Territorial Cooperation. - www.eaptc.eu/en/eaptc-program.html

publikasında müəllif hüquqları və bənzər hüquqların qorunması üçün kadr potensialının artırılması"[42].

Aİ-nin Azərbaycanda həyata keçirdiyi digər layihələr və fəaliyyətlər		
S/s	**Cəlb olunan təşkilatlar**	**Layihənin/Fəaliyyətin adı**
1	Avropa İttifaqı (maliyyələşdirən) və Dövlət Standartlaşdırma, Metrologiya və Patent Komitəsi	"Azərbaycanda müasir standartlaşdırma və texniki tənzimləmə sisteminin gücləndirilməsinə dəstək" adlı tvinninq layihəsi
2	Azərbaycan Diplomatik Akademiyası (ADA Universiteti) və Avropa İttifaqı	"Azərbaycan Respublikasında dövlət qulluğunda Avropa İttifaqı məsələlərinə aid təlim sisteminə dəstək və Aİ məsələləri üzrə Bilik Mərkəzinin yaradılması"
3	Avropa İttifaqı, YUNİSEF-in Azərbaycan ofisi, Azərbaycan hökuməti və Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkilli	"Azərbaycanda uşaqlar üçün ədliyyəyə çıxış mexanizmlərinin dəstəklənməsi"
4	Avropa İttifaqı və Cənub-Şərqi Avropa üzrə Avropa Fondu	Azərbaycanın kənd yerlərində mikro- və kiçik müəssisələrin (MKM) maliyyə vəsaiti ilə təmin olunması məqsədilə "Access Bank"a 20 milyon ABŞ məbləğində kreditin verilməsi
5	Avropa İttifaqı (maliyyələşdirən) və Böyük Britaniyanın "Oxfam" Beynəlxalq Humanitar Təşkilatı	"Azərbaycanda milli strategiya və kiçik fermer təsərrüfatı vasitəsilə ərzaq təhlükəsizliyinin təkmilləşdirilməsi"
6	Avropa İttifaqı (maliyyələşdirən) və "Yerli İdarəetməyə Yardım" İctimai Birliyi	"Kənd turizminə dəstək" layihəsi
7	Avropa İttifaqı (maliyyələşdirən)	"FİLİZ" layihəsi (fermer təsərrüfatına texniki dəstək)

42 Layihələr və qrantlar. - http://eeas.europa.eu/delegations/azerbaijan/projects/list_of_projects/projects_az.htm / http://eeas.europa.eu/delegations/azerbaijan/grants_tenders/grants/index_az.htm

8	Avropa İttifaqı (maliyyələşdirən) və İqtisadi Sosial və İnkişaf Mərkəzi	"Səmərəli məktəbəqədər və ibtidai məktəb xidmətləri üçün məktəb büdcəsinin hazırlanması və xərclənməsində kənd və şəhərlərdə vətəndaşların pilot iştirakı" layihəsi
9	Avropa İttifaqı (maliyyələşdirən), GİZ təşkilatı və AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya	"Avropa İttifaqı məsələləri diqqətdə saxlanılmaqla dövlət qulluğunda təlim potensialının gücləndirilməsinə dəstək" layihəsi
10	Avropa İttifaqı (maliyyələşdirən) və Dövlət Gömrük Komitəsi	TAIEX seminarı "Avropa Oyunlarına hazırlıqla bağlı gömrük və hava nəqliyyatı məmurlarına mühüm idman yarışlarında sərnişinlərin və yüklərin keçidinin idarə olunması sahəsində təlim"
11	Avropa İttifaqı (maliyyələşdirən) və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi	"Standartlaşdırma və texniki tənzimləmə sistemi" layihəsi
12	Avropa İttifaqı (maliyyələşdirən) və Dövlət Sosial Müdafiə Fondu	"Azərbaycan Respublikasının sığorta-pensiya sistemində yığım komponentinin tətbiq edilməsi, qeyri-dövlət pensiya fondlarının təsis edilməsi, onların fəaliyyətinin tənzimlənməsi üçün hüquqi çərçivənin inkişaf etdirilməsi sahəsində Dövlət Sosial Müdafiə Fonduna Dəstək" adlı tvinninq layihəsi
13	Avropa İttifaqı (maliyyələşdirən) və "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi	"Milli şəffaflıq sisteminin qiymətləndirilməsi" layihəsi
14	Avropa İttifaqı (maliyyələşdirən) və "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi	"Kəndlərin davamlı inkişafı təşəbbüsü" layihəsi
15	Avropa İttifaqı və Konrad Adenauer Fondunun maliyyə dəstəyi ilə Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu	"Qadın gücünə güc" layihəsi

16	Avropa İttifaqı (maliyyələşdirən) və "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi	"İçməli su təminatının yaxşılaşdırılması" / "İçməli su xətlərinin təmiri" / "İcmadaxili yolların təmiri" layihəsi
17	Avropa İttifaqı (maliyyələşdirən) və BMT-nin İnkişaf Proqramı	"Hərtərəfli institusional quruculuq" proqramının institusional islahat planının həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya dəstək" layihəsi
18	Avropa İttifaqı (maliyyələşdirən) və AR Dövlət Dəniz Administrasiyası	"Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək" adlı tvinninq layihəsi
19	Avropa İttifaqı (maliyyələşdirən) və AR Dövlət Statistika Komitəsi	Azərbaycan Respublikasının Milli Statistika Sisteminin Aİ standartlarına uyğunlaşdırılmasını dəstəkləyən yeni tvinninq layihəsi
20	Avropa İttifaqı (maliyyələşdirən) və AR Kənd Təsərrüfatı Nazirliyi	"Elektron kənd təsərrüfatı komponentinin icrası və prosedurların həyata keçirilməsi zamanı benefisiara dəstəyin verilməsini nəzərdə tutan texniki yardım" layihəsi
21	Avropa İttifaqı, İlkin Keçid Dövrü Ölkələri Fondu və İsveç hökuməti tərəfindən maliyyələşdirilən	"AYİB iş qadınlarına dəstək" proqramı çərçivəsində "Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) tərəfindən maliyyə idarəetməsinin əsasları" üzrə seminar
22	Avropa İttifaqı (maliyyələşdirən) və ADA Universiteti	"Şərq tərəfdaşlığı" ölkələrində "Təbii və insan fəaliyyəti nəticəsində meydana gələn fəlakətlərə qarşı profilaktika, hazırlıq və reaksiya" proqramı çərçivəsində keçirilən "Bakı şəhərində təbii hadisələr nəticəsində Azərbaycan Respublikası ərazisində baş verən və hökuməti beynəlxalq yardım üçün müraciət etmək məcburiyyəti qarşısında qoyan ciddi fəlakət" mövzusunda seminar

23	Avropa İttifaqı (maliyyələşdirən) və Avropa Şurası	"Azərbaycanda korrupsiyaya qarşı mübarizə və korrupsiyanın qarşısının alınması üçün potensialın artırılması (PCF-AZ)" layihəsi
24	Avropa İttifaqı, AYİB və AR Kənd Təsərrüfatı Nazirliyi	"Azərbaycan kənd təsərrüfatı maliyyə aləti" (AzAFF) layihəsi
25	Avropa İttifaqı (maliyyələşdirən) və BMT-nin Azərbaycandakı Nümayəndəliyi	"Azərbaycan və Gürcüstan arasında Qırmızı körpü sərhəd keçid məntəqəsinin inkişafına dəstək" layihəsi
26	Avropa İttifaqı (maliyyələşdirən) və AR İqtisadiyyat Nazirliyi	"Azərbaycanda institusional quruculuq əməliyyatlarına dəstək" layihəsi
27	Avropa İttifaqı (maliyyələşdirən)	"Meşə qanunvericiliyinin gücləndirməsi və idarə edilməsinə dair II Proqram"
28	Avropa İttifaqı (maliyyələşdirən) və AR İqtisadiyyat Nazirliyi	"Pilot regional inkişaf proqramının həyata keçirilməsi üçün texniki yardım" layihəsi
29	Avropa İttifaqı (maliyyələşdirən)	"Beynəlxalq çay hövzələrinin ekoloji mühafizəsi" layihəsi
30	Avropa İttifaqı (maliyyələşdirən), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMT İP) və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi	"Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" layihəsi
31	Avropa İttifaqı (maliyyələşdirən)	"Ələtdə Yeni Bakı Limanının və Azad Ticarət Zonasının əməliyyat potensialının artırılmasına dəstək" layihəsi
32	Avropa İttifaqı (maliyyələşdirən), ADA Universiteti, Kaunas Texnoloji Universiteti və Avropanın digər aparıcı universitetləri	ADA Universitetində Aİ dərslərinin keçirilməsinə dəstək" adlı 14 aylıq layihə
33	Avropa İttifaqı (maliyyələşdirən) / Layihənin əsas benefisiarları AR Ədliyyə Nazirliyi, Məhkəmə-Hüquq Şurası, Baş Prokurorluğun Korrupsiyaya qarşı Mübarizə İdarəsi, eləcə də Xarici İşlər, Daxili İşlər və İqtisadiyyat nazirlikləri	"Ədliyyə sisteminin inkişafına və Azərbaycanda məhkəmə qərarlarını yerinə yetirən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" texniki yardım layihəsi

34	Avropa İttifaqı (maliyyələşdirən) və YUNİSEF	"Uşaqlar üçün ədliyyə xidmətlərindən istifadənin dəstəklənməsi" layihəsi çərçivəsində hazırlanmış Azərbaycandakı yuvenal ədliyyə islahatından bəhs edən "Həbsdən kənar" adlı sənədli film
35	Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının maliyyə dəstəyi ilə AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin BMT İP və Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti ilə birgə həyata keçirdiyi layihənin bir hissəsi kimi	Biləsuvarda Qadın Resurs Mərkəzinin açılması
36	Avropa İttifaqı (maliyyələşdirən) və BMT-nin İnkişaf Proqramı, AR Dövlət İdarəçiliyi Akademiyası	"Azərbaycanda dövlət qulluqçularının təliminə dəstək" adlı birgə layihə çərçivəsində Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında dövlət qulluqçuları üçün Təlim Mərkəzinin açılması

Son iki onillikdə Aİ Azərbaycanda kənd yerlərinin inkişafını əhəmiyyətli şəkildə dəstəkləmişdir. Bu müddət ərzində Aİ Azərbaycan hökuməti və kənd icmaları ilə aşağıdakı istiqamətlər üzrə yaxından işləmişdir: kənd təsərrüfatı sektorunda rəqabətin artması; ölkə və kənd yerlərinin iqtisadiyyatının çoxşaxəli inkişafının təşviqi; torpaqlardan davamlı istifadə və ətraf mühitin qorunması; kənd yerlərində həyat səviyyəsinin yüksəldilməsi.

Aİ Azərbaycanda *"ASAN xidmət"lə* də əməkdaşlıq edir. 2016-cı il iyunun 2-də Aİ "ASAN xidmət"lə birgə "Şərq tərəfdaşlığı"nın Dövlət Administrasiyası İslahat Panelinin yüksək səviyyəli iclasını təşkil etmişdir. Bu iclasda "Şərq tərəfdaşlığı"na və Aİ-yə üzv dövlətlərin nümayəndələri iştirak etmişlər. Panelin məqsədi Aİ və "Şərq tərəfdaşlığı" ölkələrində dövlət administrasiyası islahatlarının geniş sahəsi üzrə təcrübə və ən yaxşı praktika mübadiləsini aparmaqdır. Panel zamanı "ASAN xidmət" mərkəzlərindən biri ziyarət olunmuş, səmərəli, effektiv və şəffaf dövlət

xidmətinin göstərilməsi sahəsində Azərbaycanın təcrübəsi nümayiş etdirilmişdir.

2016-cı il oktyabrın 27-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Dövlət Miqrasiya Xidməti üçün yeni elektron xidmətin rəsmi açılışı keçirilmişdir. "ASAN xidmət"lə yaxın əməkdaşlıq çərçivəsində Aİ-nin maliyyələşdirdiyi cari layihənin nəticələrindən biri olan bu xidmət kompüter proqramı əsasında, məsələn, vaxtı ötmüş viza kimi hallarda ölkəni tərk edən xaricilərin üzərinə Dövlət Miqrasiya Xidməti tərəfindən qoyulan cərimələrin ödənilməsi prosesini sadələşdirir. Prosesin avtomatlaşdırılması bürokratik əngəlləri əhəmiyyətli dərəcədə azaldaraq, şəffaflığın artmasına səbəb olur. Aİ tərəfindən miqrasiya idarəçiliyi sahəsi üçün Azərbaycana 5 milyon avro ayrılmışdır. Layihə BP şirkəti tərəfindən qismən maliyyələşdirilir və ümumi büdcəsi 2.6 milyon avrodur. Beynəlxalq Miqrasiya Təşkilatı Aİ adından layihəni idarə edir.

Bundan başqa, 2016-cı il dekabrın 9-da İqtisadiyyat Nazirliyi Azərbaycan hökuməti adından Aİ-nin 2015-ci il üzrə İllik Fəaliyyyət Proqramını imzalamışdır. Azərbaycana Aİ tərəfindən 13.5 milyon avro məbləğində qrant yardımı göstəriləcəkdir ki, bununla da Aİ-nin regional inkişaf proqramı vasitəsilə ölkədə iqtisadiyyatın şaxələndirilməsi gündəliyi dəstəklənəcək və regionlar arasındakı fərqliliklərin azaldılması istiqamətində iş aparılacaqdır.

Azərbaycan və Aİ arasında sektorlar üzrə əməkdaşlıq

Enerji sahəsində əməkdaşlıq

Dünyadakı geosiyasi hədəflərə təsir edən əsas faktorlardan biri də məhz enerji və karbohidrogen ehtiyatlarının təhlükəsiz yollarla dünya bazarlarına çatdırılmasıdır. Bu mənada Mərkəzi Asiya və Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının ixrac marşrutları, bu xətlərin hansı ölkənin ərazisindən keçməsi çox mühüm geosiyasi əhəmiyyət daşıyır[43]. Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsində Xəzər hövzəsindən nəql olunacaq neft və qazın böyük əhəmiyyəti vardır. Bu

43 Həsənov Ə. Heydər Əliyevin xarici siyasətində nəqliyyat-kommunikasiya və enerji dəhlizləri məsələsi. // "Xalq qəzeti", 4 iyun 2009-cu il, № 128, s.6

kontekstdə Aİ–Azərbaycan münasibətlərinin əsas istiqamətini enerji sahəsində əməkdaşlıq təşkil edir. Heydər Əliyevin reallaşdırdığı neft və qaz strategiyası Azərbaycanın Aİ-yə üzv dövlətlərlə əlaqələrinin daha da konstruktiv və intensiv xarakter daşımasına əhəmiyyətli təsir göstərmişdir. Aİ-yə üzv olan bir sıra dövlətlərin iqtisadi maraqlarını təmsil edən neft şirkətləri tərəfindən Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar müqavilələrin imzalanması transmilli maraqların, o cümlədən region dövlətləri də daxil olmaqla, böyük dövlətlərin mənafelərinin kəskinləşdiyi Azərbaycan kimi hərbi-strateji və zəngin sərvətli bir ölkəyə qarşı yönəldilmiş təzyiqlərin aradan qaldırılması üçün Qərb dövlətləri amilindən istifadə etməyə imkan vermişdir.

Müstəqillikdən sonra rəsmi şəkildə Azərbaycan–Aİ enerji dialoqunun ilk əsasları "Avropaya dövlətlərarası neft və qaz ixracı" (Interstate Oil and Gas Transport to Europe - INOGATE) proqramı ilə başlamışdır. INOGATE Aİ-nin yeni müstəqil dövlətlərə maliyyə dəstəyi çərçivəsində həyata keçirilən əsas regional təşəbbüslərindən biridir. 1999-cu ilin iyul ayında Azərbaycan da daxil olmaqla, 15 dövlətin iştirakı ilə imzalanan dövlətlərarası neft və qaz ixracını nəzərdə tutan Çərçivə Sazişi INOGATE-in hüquqi əsasını təşkil edir. INOGATE Aİ tərəfindən maliyyələşdirilən uzunmüddətli enerjiyə texniki dəstək proqramlarından biri idi. Bu poqramın icrasına 1996-cı ildə başlanılıb və Bakı Təşəbbüsü və ST siyasəti çərçivəsində fəaliyyət göstərir. INOGATE proqramının dörd məqsədi var: tərəfdaş ölkələrin xüsusiyyətlərini nəzərə alaraq Aİ-nin daxili enerji bazarının prinsipləri əsasında enerji bazarlarının yaxınlaşdırılması; enerji ixracı/idxalı və təchizatın şaxələndirilməsi, enerji tranziti və enerji tələbi məsələlərini ünvanlamaqla enerji təhlükəsizliyinin artırılması; enerji səmərəliliyi, bərpa olunan enerji və davamlı enerji inkişafının dəstəklənməsi və s.[44]. INOGATE yeni müstəqil dövlətlər və Azərbaycana münasibətdə transsərhəd layihələrin həyata keçirilməsi üçün yeni perspektivlər yaratmış və karbohidrogen resurslarının tranziti ilə bağlı beynəlxalq razılaşmaların üstünlükləri əsasında beynəlxalq maliyyə institutları və xüsusi investisiya fondları tərəfindən investisiyanın

44 About INOGATE, Official website of INGATE. - http://www.inogate.org/pages/1?lang=en

cəlb edilməsi məqsədləri üçün katalizator rolunu oynamışdır[45].

Azərbaycanın Avropa ölkələri ilə enerji əməkdaşlığındakı uğurlarından danışarkən ilk növbədə "neft diplomatiyası"nın xidmətləri xüsusi qeyd edilməlidir. 1990-cı illərin əvvəllərində Azərbaycanın zəngin təbii sərvətləri, xüsusilə neft ehtiyatları Avropa ölkələrini bu regiona cəlb etmiş və Azərbaycanın Avropa enerji şirkətləri ilə imzaladığı müqavilələr ölkəni əməkdaşlıq proseslərinə daha sıx bağlamışdır. Enerji sahəsində əməkdaşlıq Azərbaycana xarici sərmayənin axınını gücləndirmişdir. Aİ-nin enerji təhlükəsizliyinin təmin edilməsi nöqteyi-nəzərindən Xəzər dənizinin neft-qaz resursları Aİ ölkələri üçün xüsusi maraq kəsb etdiyindən Aİ bu strateji xammalın öz bazarına daxil olmasında çox maraqlıdır. Ona görə də Aİ bu məqsədlərin həyata keçirilməsi üçün Xəzər regionuna aktiv kapital qoymaqdadır. Xəzər dənizinin Azərbaycana aid hissəsində *"Azəri", "Çıraq", "Günəşli"* yataqlarının işlənilməsi haqqında 1994-cü ilin sentyabrında dünyanın ən nüfuzlu neft şirkətləri ilə bağlanmış *"Əsrin müqaviləsi"* bu yolda ilk mühüm addım olmuşdur. Razılaşmaya əsasən, Böyük Britaniyanın, Rusiyanın, ABŞ-ın və digər dövlətlərin neft şirkətləri də Xəzərin karbohidrogen ehtiyatlarının istismarında yaxından iştirak etmək imkanı qazanmış oldular. Bu müqavilə sayəsində Azərbaycan özünün müstəqillikdən sonrakı yeni neft strategiyasını həyata keçirərək öz iqtisadi maraqlarını gerçəkləşdirməyə nail ola bilmişdir. Karbohidrogen ehtiyatlarının səmərəli şəkildə istifadəsi və ixracı nəticəsində Azərbaycan regionda diqqət mərkəzinə çevrilmiş, Qara dəniz–Xəzər hövzəsində mövqe tutmağa başlamış və bu da Şərq–Qərb enerji dəhlizinin yaradılmasına gətirib çıxarmışdır. İnşa edilmiş neft və qaz boru kəmərləri Azərbaycan, Gürcüstan və Türkiyə ilə Qərb ölkələri arasında siyasi-iqtisadi əlaqələrin möhkəmlənməsinə də təkan vermişdir[46].

Ümummilli lider Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru Azərbaycanın enerji daşıyıcılarını dünya bazarına çıxaracaq yeni alternativ əsas ixrac boru kəmərinin – Bakı–Tbilisi–Ceyhan layihəsinin reallaşması idi. Məsələnin aktuallığı həm də Bakı–Novorossiysk və

45 Əhmədov E. Göstərilən əsəri, s.223
46 Sadıqov R. Göstərilən əsəri, s.89

Bakı–Supsa neft kəmərlərinin Azərbaycanın getdikcə artan ehtiyaclarını ödəyə bilməməsi ilə bağlı idi. 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbuldakı zirvə görüşü çərçivəsində "Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəməri vasitəsilə Xəzər dənizindən çıxarılan xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən nəqli haqqında" sazişin ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə Azərbaycan Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Süleyman Dəmirəl və Gürcüstan Prezidenti Eduard Şevardnadze tərəfindən imzalanması regionun və Avropa ölkələri ilə strateji əməkdaşlıq sahəsində, eləcə də Azərbaycanın Cənubi Qafqazdakı strateji mövqeyini və nüfuzunu daha da artırmaq baxımından ciddi bir addım idi. Bütün çətinliklərə və problemlərə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə regionun ən böyük enerji layihəsi olan BTC-nin əsası qoyuldu. 4 ildən sonra, 2006-cı il iyulun 13-də kəmər artıq istifadəyə verildi. Beləliklə, Azərbaycan enerji daşımaları üçün alternativ marşrut imkanı qazandı[47].

Bakı–Tbilisi–Ceyhan boru xətti Xəzər dənizini Aralıq dənizi, Azərbaycanı isə Qərb ölkələri ilə birləşdirən bir körpü olmuşdur. BTC neft boru kəməri layihəsinin, bütövlükdə Şərq–Qərb enerji dəhlizinin gerçəkləşməsi və Asiyanı, xüsusilə də Mərkəzi Asiyanı Avropa ilə birləşdirən ən qısa, etibarlı və iqtisadi cəhətdən faydalı Transqafqaz yolunun fəaliyyətə başlaması Azərbaycanın Qərb ölkələri ilə əməkdaşlığı üçün əlverişli şərait yaratmışdır[48]. Xəzərin karbohidrogen ehtiyatlarının istismarı və dünya bazarlarına nəqli ilə bağlı Azərbaycan, Gürcüstan, Türkiyə, ABŞ və Aİ-nin eyni mövqedən çıxış etməsi onların arasında digər sahələrdə, eləcə də regional təhlükəsizlik sahəsində strateji tərəfdaşlıq münasibətlərinin yaranmasını şərtləndirmişdir. Azərbaycanın Aİ ilə birgə həyata keçirdiyi təhlükəsizlik siyasətinin əsasında ölkənin beynəlxalq və regional təhlükəsizliyinə, ərazi bütövlüyü və suveren dövlət hüquqlarının qorunmasına beynəlxalq təminat almaq, Dağlıq Qarabağ probleminin həllinə, pozulmuş ərazi bütövlüyünün bərpasına, malik olduğu enerji ehtiyatlarının sərbəst istifadəsinə, dünya bazarlarına

47 Həsənov Ə. Uğurlu xarici siyasət kursunun banisi. // "Azərbaycan" qəzeti, 5 may 2009-cu il, № 96, s.4
48 Məmmədov N. Göstərilən əsəri, s.289

azad və əlverişli marşrutlarla çıxarılmasına və s. həyati əhəmiyyət kəsb edən milli siyasət məsələlərinə əlavə dəstək qazanmaq vəzifəsi dayanır[49].

Aİ–Azərbaycan enerji münasibətlərinin hüquqi əsaslarından biri də 2006-cı il noyabrın 7-də Brüsseldə Aİ ilə Azərbaycan Respublikası arasında imzalanmış "Enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"dur. Bu memorandumun regional təhlükəsizlik, eləcə də Avratlantik məkanla əməkdaşlıq baxımından, xüsusilə Azərbaycanın neft və qaz ehtiyatlarının inkişafı üçün böyük əhəmiyyəti var idi. Eyni zamanda bu memorandum enerji sahəsində dialoqun genişləndirilməsi istiqamətində yeni imkanlar açmışdır. Memorandumun əsas məqsədi Aİ-nin enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerjidən səmərəli istifadə, enerjiyə qənaət və bərpaolunan enerji mənbələrinin istifadə olunmasıdır. Memorandumun məqsədlərinə uyğun gələn layihələrin həyata keçirilməsi və bununla da Xəzərin enerji daşıyıcılarının nəqli nəticəsində Aİ-nin enerji təhlükəsizliyini gücləndirmək nəzərdə tutulurdu. Memorandumun dörd əsas prioriteti vardır: enerji bazarlarının uzlaşması üçün enerji sahəsində Azərbaycan qanunvericiliyinin Aİ qanunvericiliyi ilə uyğunlaşdırılması; Azərbaycandan və Xəzər hövzəsindən Aİ-yə enerji təminatının və tranzit sistemlərinin təhlükəsizliyinin artırılması; hərtərəfli enerji idarəetmə siyasətinin inkişafı; texniki əməkdaşlıq və təcrübə mübadiləsi[50].

Avropa bazarının enerjiyə tələbatının ödənilməsi üçün yeni tranzit sisteminin yaradılması zəruri idi. Çünki 2006-cı və 2009-cu illərdə Rusiya ilə Ukrayna arasında qazın nəqli ilə bağlı yaranmış mübahisədən sonra Aİ rəsmiləri İttifaqın qaz strategiyasının yenidən işlənilməsini və ortaq enerji siyasətinin yaradılmasının vacibliyini irəli sürdülər. Bu kontekstdə Aİ-nin enerji idxalının diversifikasiya edilməsində "Cənub Qaz Dəhlizi" (CQD) konsepsiyasının reallaşdırılması çox böyük əhəmiyyətə malikdir. Enerji sahəsi sabitlik və əməkdaşlığın mühüm amili, Aİ-nin xarici və təhlükəsizlik siyasətinin tərkib hissəsi hesab olunur. Bu amilə görə,

49 Əhmədov E. Göstərilən əsəri, s.260

50 President Barroso and the President of Azerbaijan sign a Memorandum of Understanding on energy partnership, European Commission. // europa.eu/rapid/press-release_IP-06-1516_en.htm

Azərbaycanın enerji resurslarının Aİ-nin xarici və təhlükəsizlik siyasətinə töhfə vermək imkanı var[51]. Ona görə də CQD-nin həyata keçirilməsi Aİ üçün həyati əhəmiyyətə malikdir. Digər tərəfdən isə Azərbaycanda qaz hasilatının çoxalması və aşkar edilən yeni qaz yataqları növbəti illər üçün Azərbaycanın təchizat potensialını artıracağından CQD həm Azərbaycan, həm də Aİ üçün mühüm əhəmiyyət kəsb edir[52]. 2011-ci il yanvarın 13-də Avropa Komissiyasının Prezidenti Xose Manuel Barrozunun Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə birgə "Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamə"nin imzalanması enerji əməkdaşlığının davamlı olmasının ifadəsi idi[53].

BTC-dən sonra regionun ən böyük enerji layihəsi və CQD-nin əsas komponentlərindən hesab edilən Bakı–Tbilisi–Ərzurum təbii qaz boru kəməri də Aİ-nin Rusiyadan enerji asılılığı kontekstində strateji cəhətdən əhəmiyyətlidir. 2006-cı ildə istismara verilən BTƏ qaz boru kəməri Azərbaycan qazının *"Şahdəniz"* yatağından Gürcüstan və Türkiyə vasitəsilə nəqlini nəzərdə tutur. BTƏ qaz kəməri Azərbaycanın 1994-cü ildən başlayaraq həyata keçirdiyi enerji strategiyasının mühüm tərkib hissəsidir, çünki bu kəmər Cənubi Qafqazdakı strateji reallığı Azərbaycanın xeyrinə dəyişmiş və Şərq–Qərb nəqliyyat dəhlizinin əhəmiyyətini xeyli artırmışdır. BTƏ kəməri Aİ-nin enerji təhlükəsizliyində böyük rol oynayacaq CQD-nin əsasını təşkil edir. BTC neft boru kəmərinin uğurla həyata keçirilməsi "Şahdəniz" yatağından Azərbaycanın qaz ehtiyatlarını dünya bazarına çıxaracaq Cənub qaz boru kəmərinin həyata keçirilməsinə də stimul vermiş oldu[54].

2012-ci ildə Türkiyə və Azərbaycan Türkiyə–Gürcüstan sərhədindən Türkiyə–Yunanıstan sərhədinə qədər uzanacaq Transanadolu qaz kəmərinin inşa edilməsini qərara aldılar. Həmin il iyun ayının 27-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o dövrdəki Baş naziri Rəcəp Tayyib Ərdoğan "Transanadolu təbii qaz kəməri" müqaviləsini imzaladılar. Bu müqavilə Azərbaycanın "Şahdəniz" yatağının ikinci

51 Sadıqov R. Göstərilən əsəri, s.120-121

52 Əhmədov E. Göstərilən əsəri, s.256

53 Joint Declaration on the Southern Gas Corridor. // gpf-europe.com/upload/iblock/bb6/20500c15d01.pdf

54 Həsənov Ə. Uğurlu xarici siyasət kursunun banisi. // "Azərbaycan" qəzeti, 5 may 2009-cu il, № 96, s.4.

fazasından çıxarılan 16 milyard m^3 təbii qazın Türkiyəyə çatdırılmasını nəzərdə tutur. Bu həcmin 6 milyard m^3-i ölkənin daxili tələbatına yönəldiləcək, 10 milyard m^3-i isə Türkiyə üzərindən Avropa bazarlarına çıxarılacaq. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ və TPAO şirkətlərinin birgə yaratdıqları (sonradan BP də bu layihəyə qoşuldu) TANAP layihəsi 7 milyard dollar sərmayə ilə 6 il ərzində həyata keçiriləcək. "Şahdəniz-2"-dən çıxarılan təbii qaz Transanadolu qaz boru xətti ilə Türkiyə və Avropaya çatdırılacaq[55].

TANAP-dan sonra Azərbaycan qazının Aİ-nin ərazisinə ötürülməsi Transadriatik qaz boru kəməri vasitəsilə həyata keçiriləcəkdir. Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Avropaya nəql edəcək TAP boru kəmərinin uzunluğu təxminən 878 kilometrdir. TAP Türkiyə ilə Yunanıstan sərhədində yerləşən Kipoi məntəqəsində TANAP-a birləşəcək. TANAP şirkəti ilə TAP şirkəti arasında tikinti zamanı əməkdaşlığa dair saziş imzalanıb. Bu saziş iki layihənin bir-birinə birləşdirilməsi üçün vacib şərtləri özündə əks etdirir. TAP layihəsi Azərbaycan qazının Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. 2020-ci ildə fəaliyyətə başlayacaq TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard m^3 olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması planlaşdırılır. TAP-ın genişləndirilməsi üçün yalnız iki kompressor stansiyasının quraşdırılması məqbul hesab edilir. TAP konsorsiumunda BP 20%, SOCAR 20%, "Statoil" 20%, "Fluxys" 16%, "Total" 10%, "E.ON" 9% , "Axpo" isə 5% pay alır[56].

Beləliklə, Azərbaycanın enerji siyasəti onun beynəlxalq birliklə əməkdaşlığını sürətləndirməyə imkan verdi. Bu proses yalnız iqtisadi məzmun daşımır, həm də siyasi əhəmiyyət kəsb edirdi. Başqa sözlə, bu proses Azərbaycana ciddi siyasi dividendlər vəd edir. Belə ki, bu boru xətlərinin reallaşdırılması ilə Azərbaycan beynəlxalq aləmdə iqtisadi

55 Qasımlı İ. TANAP layihəsi imzalandı./ BBC Azərbaycan, 27.06.2012/ - www.bbc.com/azeri/azerbaijan/2012/06/120627_tanap_turkey_azerbaijan

56 Salonikidə Transadriatik Qaz Boru Kəmərinin təməli qoyulub. /17.05.2016/ - www.1news.az/az/iqtisadiyyat/neft-qaz/20160517073141446.html

tərəfdaşlarla yanaşı, ölkənin beynəlxalq nüfuzunu gücləndirməyə kömək edə biləcək siyasi tərəfdaşlar da qazandı[57]. Xəzər dənizinin enerji ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi istiqamətində həyata keçirilən irimiqyaslı layihələrin uğurla başa çatması ölkənin iqtisadi potensialının gücləndirilməsi, xarici investisiyaların həcminin artırılması üçün geniş imkanlar yaratmışdır[58].

Nəqliyyat və tranzit sahəsində əməkdaşlıq

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıdandan sonra ilk növbədə respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq Azərbaycanda bu sahənin yenidən qurulması və modernləşdirilməsini iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Bu strateji siyasi kurs Azərbaycan Prezidenti İlham Əliyevin son illər qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin gerçəkləşdirilməsi istiqamətində fəaliyyətinin əsasını təşkil etmişdir. Enerji boru kəmərləri, nəqliyyat və kommunikasiya xətləri ölkənin həyati artilleriyası hesab edildiyindən, onlar olmadan zəngin təbii resurslara malik ölkələr belə iqtisadiyyatın inkişafını təmin edə və dünya ölkələri ilə sərbəst ticarət əlaqələri qura bilməzlər. Ona görə də boru kəmərləri və nəqliyyat-yükdaşıma sisteminə nəzarət xarici ticarətə nəzarət etmək baxımından geostrateji əhəmiyyətə malikdir.

Keçmiş SSRİ Avropa ilə Asiyanı birləşdirən güclü nəqliyyat sisteminə malik idi. SSRİ-nin dağılmasından sonra isə bu tranzit yolların böyük əksəriyyəti keçmiş sovet respublikalarının ərazilərində qaldı[59] və Şərq–Qərb nəqliyyat-kommunikasiya, enerji dəhlizləri məsələsi daha aktual xarakter aldı. Alternativ enerji dəhlizlərinin yaranması istiqamətində ABŞ və Aİ-nin səyləri nəticəsində *"Avropa–Qafqaz–Asiya Transqafqaz Nəqliyyat Dəhlizi"* (TRACECA – Transport Corridor Europe–Caucasus–

57 Sadıqov R. Göstərilən əsəri, s.89-90

58 Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli. // "Xalq qəzeti", 9 may 2010-cu il, № 100, s.6

59 Həsənov Ə. Uğurlu xarici siyasət kursunun banisi. // "Azərbaycan" qəzeti, 5 may 2009-cu il, № 96, s.6

Asia) layihəsi çərçivəsində Avropa və Asiyanı birləşdirən nəqliyyat-kommunikasiya sisteminin qurulması, şərti olaraq Böyük İpək Yolu adlı transmilli layihənin həyata keçirilməsi başlandı[60]. TRASEKA layihəsi 1993-cü ildə Aİ tərəfindən irəli sürülmüşdü[61]. Bu layihənin Azərbaycanı Avropa–Qafqaz–Asiya arasında tranzit ölkə etmə və yüksək yük qəbul etmə və yükgötürmə imkanı, eləcə də iqtisadi mənfəətlər baxımından mühüm əhəmiyyəti var idi. Bununla yanaşı, TRASEKA-nın əhəmiyyəti onun Böyük İpək Yolunun bərpası kimi də hesab olunması idi[62].

TRASEKA proqramının məqsədi qeyd edilən dövlətlərin siyasi və iqtisadi müstəqilliklərini dəstəkləməklə onların alternativ nəqliyyat yolları vasitəsilə Avropa və dünya bazarlarına çıxış qabiliyyətini yüksəltmək və Avropadan Qara dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətə ən tez və ən ucuz başa gələn nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir. TRASEKA-nı reallaşdırmaqla Aİ ilk növbədə yenicə müstəqillik qazanmış postsovet respublikalarının alternativ nəqliyyat dəhlizləri vasitəsilə Avropa və dünya bazarlarına çıxışını təmin etməyi, onların siyasi və iqtisadi cəhətdən ətraf ölkələrdən asılılığının qarşısını almağı, regional əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmağı və beynəlxalq maliyyə mərkəzlərinin regiona sərmayə qoymasını həvəsləndirməyi planlaşdırmışdı[63].

1998-ci il sentyabrın 7-8-də Bakıda keçirilən "TRASEKA – Tarixi İpək Yolunun bərpası" adlı beynəlxalq konfransda Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə Əsas Çoxtərəfli Saziş və Avrasiya ölkələri arasında hərtərəfli əməkdaşlıq və regional əməkdaşlığın əsas prinsiplərini əks etdirən Bakı Bəyannaməsi imzalanmış, eləcə də TRASEKA çərçivəsində əməkdaşlığın koordinasiya edilməsi üçün Bakıda TRASEKA-nın xüsusi qərargahının yaradılması qərara alınmışdı. Bu proqramın həyata keçirilməsində Ümummilli lider Heydər Əliyevin "Tarixi İpək Yolunun bərpası üzrə Beynəlxalq Bakı Konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər haqqında" 1998-ci

60 Yenə orada, s.4
61 См: Гасанов А., 2013, с.649
62 Sadıqov R. Göstərilən əsəri, s.92
63 Əhmədov E. Göstərilən əsəri, s.222

il 26 oktyabr tarixli fərmanının xüsusi rolu olmuşdur[64]. 2001-ci il fevral ayının 21-də Bakıda TRASEKA Hökumətlərarası Komissiyası Daimi Katibliyinin ofisinin açılışı olmuşdur. Daimi Katibliyin ofisi Böyük İpək Yolu boyunca hərəkət edən beynəlxalq yüklərin daşınması və hərəkətinin tənzimlənməsi, Əsas Sazişə qoşulan ölkələrdə qanunvericilik və iqtisadi məsələlərin həll edilməsi məqsədilə yaradılmışdır.

TRASEKA çərçivəsində nəqliyyat sektoru infrastrukturunun təkmilləşdirilməsi, sərhəd-gömrük prosedurlarının sadələşdirilməsi, əlverişli investisiya mühitinin yaradılması və kadrların hazırlanması sahəsində bir çox layihələr həyata keçirilmişdir. Hazırda TRASEKA ölkələri tədricən çoxmodullu nəqliyyatı təmin edən davamlı infrastruktur zəncirinin yaradılması məqsədilə Avropa–Qafqaz–Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üçün TRASEKA Hökumətlərarası Komissiyasının strategiyasını həyata keçirirlər[65].

TRASEKA proqramı regionda beynəlxalq yükdaşımaları artırmaqla Azərbaycan iqtisadiyyatının inkişafında, nəqliyyat infrastrukturunun formalaşmasında mühüm rol oynamışdır. Şərq və Qərb arasında körpü rolunu oynayan Azərbaycanın Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin inkişaf etdirilməsində aparıcı yer tutması respublikanın Aİ ölkələri ilə əməkdaşlığının dərinləşməsinə xidmət etmişdir. Bu proqram həm də iqtisadi, siyasi və təhlükəsizlik baxımından böyük əhəmiyyətə malikdir. Çünki TRASEKA Avropa və Asiya arasındakı nəqliyyat yolunu qısaltmaqla külli miqdarda vəsaitə qənaət etmək imkanı yaradır. TRASEKA layihəsi çərçivəsində malların daşınması hazırda Avropa və Asiyanı birləşdirən Süveyş kanalı vasitəsilə daşımaqdan 20 gün daha tez başa gəlir. 2009-cu ildən Avropa Komissiyası TRASEKA proqramı çərçivəsində 3 layihənin reallaşdırılmasına başlamışdır: 1. "Qərbi MDB və Qafqaz ölkələri üçün beynəlxalq logistika mərkəzləri layihəsi"; 2. "TRASEKA ölkələrində aviasiya sahəsində ictimai və texniki təhlükəsizlik"; 3. "Qara və Xəzər dənizlərində dəniz magistralları layihəsi"[66].

Azərbaycan coğrafi mövqeyinin ona verdiyi imkanlardan

64 Məmmədov N. Göstərilən əsəri, s.287

65 About TRACECA, Official website of TRACECA. - http://www.traceca-org.org/en/traceca/

66 Həsənov Ə. Uğurlu xarici siyasət kursunun banisi. // "Azərbaycan" qəzeti, 5 may 2009-cu il, № 96, s.4

istifadə edib Aİ ilə sıx əməkdaşlıq edərək nəqliyyat sahəsində və yükdaşımalarda güclü inkişafa nail ola bilər. Bu kontekstdə Azərbaycan Çinin "Vahid Kəmər, Vahid Yol" konsepsiyasının vacib bir hissəsi ola, Çindən və Orta Asiyadan gələn malların Avropaya, o cümlədən Ukraynaya ötürülməsində önəmli rol oynaya bilər. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci ilin dekabr ayında Çində rəsmi səfərdə olarkən iki ölkə arasında "İpək Yolu iqtisadi kəməri"nin birgə inkişaf etdirilməsi üçün Dövlətlərarası Anlaşma Memorandumu imzalanmışdır[67]. Aİ-nin "Şərq tərəfdaşlığı" Regional Nəqliyyat Hesabatı"nda (xəritələr üzrə) açıq şəkildə görmək olar ki, magistral yollar və dəmir yolları ilə yük və sərnişin daşımalarında əsas rol Azərbaycanın payına düşür[68]. Bu baxımdan ikitərəfli əməkdaşlıqda nəqliyyat amilini daha da qabartmaqla və bu kontekstdə Aİ-nin təcrübəsindən və dəstəyindən yararlanmaqla mövcud Aİ proqramları və alətləri çərçivəsində yolların standartlarının, təhlükəsizliyinin və rahatlığının yaxşılaşdırılması[69], dəniz yolu vasitəsilə yük və sərnişin daşımalarının texniki və hüquqi cəhətdən təkmilləşdirilməsi[70] və s. məsələlər üzrə əməkdaşlıq etmək olar[71].

Aİ-nin Dağlıq Qarabağ məsələsində mövqeyi

Müstəqilliyin ilk illərində Aİ Azərbaycanın ərazi bütövlüyü, məcburi köçkünlər, Ermənistanın işğalçı siyasəti və BMT-nin mövcud qətnamələri ilə bağlı daha açıq mövqe ortaya qoysa da, sonrakı illərdə, xüsusilə Assosiativ Saziş ilə bağlı məsələlər ortaya çıxdıqdan və Azərbaycan öz mövqeyini açıq şəkildə bildirdən sonra bu mövqe getdikcə zəifləmişdir. Həm Azərbaycan, həm də Ermənistan "Şərq tərəfdaşlığı" proqramının

67 Azerbaijan enters in China's Silk Road Economic Belt. /11.12.2016/ - abc.az/eng/news/92771.html

68 Eastern Partnership regional transport study. / Final report Annex II – Thematic maps June 2015/ - http://ec.europa.eu/transport/themes/international/studies/doc/2015-06-eastern-partnership-regional-transport-study-annex-2.pdf

69 Joint Declaration on transport cooperation between the EU and Eastern Partnership countries. - http://ec.europa.eu/transport/themes/international/regional_cooperation/doc/2012-krakow-joint-declaration-25-oct-2011.pdf

70 Joint Declaration Future of Eastern Partnership transport cooperation. - http://ec.europa.eu/transport/themes/international/regional_cooperation/doc/2013-10-09-declaration.pdf

71 EU Neighbourhood Transport Plan. - http://europa.eu/rapid/press-release_MEMO-11-488_en.htm

tərəfləri olduqlarından, Aİ-nin münaqişədə passiv olması ŞT-nin fəaliyyətinə təsir göstərir.

2012-ci və 2013-cü illərdə Avropa Parlamenti qəbul etdiyi qətnamələrlə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini açıq şəkildə dəstəkləmişdi. 2013-cü ildə Avropa Parlamentinin qəbul etdiyi Avropa Qonşuluq Siyasəti üzrə 2013/2621(RSP) saylı qətnaməsi bir ŞT ölkəsi tərəfindən digər ŞT ölkəsinin ərazisinin işğalının ŞT proqramının fundamental prinsiplərini pozduğunu qeyd etmiş və Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə uyğun həll olunmasını vurğulamışdır[72]. Bundan başqa, 2012-ci ildə Avropa Parlamentinin həm Aİ–Azərbaycan Assosiasiya Sazişi[73], həm də Aİ–Ermənistan[74] Assosiasiya Sazişi ilə bağlı qəbul etdiyi qətnamədə açıq şəkildə erməni qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən (Dağlıq Qarabağ ətrafındakı) çıxması, bu torpaqları Azərbaycanın nəzarətinə qaytarması, məcburi köçkünlərin öz evlərinə dönməsi, onların mülkiyyət hüququ, Aİ-nin Cənubi Qafqaz üzrə Xüsusi Nümayəndəsinin münaqişənin həlli prosesində rolunun artırılması və s. məsələlərə münasibət bildirilmişdi. Aİ Azərbaycanın ərazi bütövlüyünə Riqa Sammitinin Yekun Bəyannaməsində də dəstək vermişdi. Lakin bu dəstəyi ümumi bir maddə ilə ŞT ölkələri üçün vermiş və digər nümayəndələr də bu dəstəyi nümayiş etdirmişdi[75].

Aİ Azərbaycanın ərazi bütövlüyünü "AQS Fəaliyyət Planı (FP) – Azərbaycan" adlı sənədində BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT sənədlərini də əsas götürərək dəstəkləsə də[76], İttifaqın ikili

72 European Parliament resolution of 23 October 2013 on the European Neighbourhood Policy: towards a strengthening of the partnership. Position of the European Parliament on the 2012 reports (2013/2621(RSP)). /Wednesday, 23.10.2013 - Strasbourg / - http://www.europarl.europa.eu/sides/getDoc.do?pubRef=-//EP//TEXT+TA+P7-TA-2013-0446+0+DOC+XML+V0//EN

73 European Parliament resolution of 18 April 2012 containing the European Parliament's recommendations to the Council, the Commission and the European External Action Service on the negotiations of the EU-Azerbaijan Association Agreement (2011/2316(INI)). /Wednesday, 18.04.2012, Strasbourg / - http://www.europarl.europa.eu/sides/getDoc.do?pubRef=-%2f%2fEP%2f%2fTEXT%2bTA%2bP7-TA-2012-0127%2b0%2bDOC%2bXML%2bV0%2f%2fEN&language=EN

74 Yenə orada

75 Joint Declaration of the Eastern Partnership Summit (Riga, 21-22 May 2015). /European External Action Service, 2015/ - http://eeas.europa.eu/eastern/docs/riga-declaration-220515-final_en.pdf

76 EU-Azerbaijan Action Plan. /European External Action Service/ - http://eeas.europa.eu/enp/pdf/pdf/action_plans/azerbaijan_enp_ap_final_en.pdf

yanaşması özünü "AQS Fəaliyyət Planı – Ermənistan" sənədində açıq şəkildə göstərir. Çünki Ermənistanın Fəaliyyət Planında Aİ "*xalqların öz müqəddəratını müəyyən etməsi*" prinsipini vurğulayır[77]. 2016-cı il fevralın 29-da Federika Moqerini Bakıda səfərdə olarkən Aİ-nin Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstək verdiyini və Dağlıq Qarabağın heç bir Aİ ölkəsi tərəfindən tanınmadığını bir daha səsləndirmişdir. Lakin Moqerini Ermənistanda olanda Aİ-nin münaqişənin həlli üçün üç "Madrid prinsipi"ni (güc tətbiqindən istifadə edilməməsi, xalqların öz müqəddəratını həll etməsi və ərazi bütövlüyü) əsas götürdüyünü və ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəklədiyini söyləmişdir[78].

Ukrayna və Gürcüstandakı ərazi bütövlüyü və etnik münaqişələr kimi məsələlərdə Rusiya faktorunun olması ilə bağlı Aİ tərəfindən çoxsaylı siyasi bəyanatlar verilsə də, Ermənistana qarşı verilmiş bəyanatlar az sayda olub, simvolik xarakter daşıyır. Ukrayna və Gürcüstandakı münaqişələrə görə Aİ Rusiyaya qarşı sanksiya tətbiq etsə də, belə bir addım Ermənistana qarşı atılmamışdır. Bundan başqa, Abxaziya və Cənubi Osetiya münaqişələrinin həlli üçün Aİ-nin göstərdiyi həm siyasi, həm də praktiki fəallıq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müşahidə olunmur.

Aİ öz bəyannamələrində və fəaliyyətində Azərbaycanla Ermənistan arasında diplomatik balansı saxlamağa çalışır və hər iki ölkəyə "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində bərabər tərəfdaşlar kimi baxır. Lakin BMT Təhlükəsizlik Şurasının iclasında Ukraynanın ərazi bütövlüyü ilə bağlı qəbul edilən qətnaməni Azərbaycan dəstəkləsə də, Ermənistan onun əleyhinə səs vermişdir[79]. 2015-ci ildə Latviyanın paytaxtı Riqada keçirilən "Şərq tərəfdaşlığı"na üzv ölkələrin zirvə görüşündə qəbul edilən bəyannamədə Ukrayna və Gürcüstanın ərazi bütövlüyü və oradakı münaqişələr ayrıca qeyd kimi əksini tapsa da, Azərbaycanın

77 EU-Armenia Action Plan. /European External Action Service / - http://eeas.europa.eu/enp/pdf/pdf/action_plans/armenia_enp_ap_final_en.pdf

78 Remarks by HRVP Federica Mogherini at the joint press conference with Mr Edward Nalbandian, Foreign Minister of Armenia. /European External Action Service /01.03.2016/ - http://eeas.europa.eu/statements-eeas/2016/160301_01_en.htm

79 Mammadov Farhad. Azerbaijan's Foreign Policy - A New Paradigm of Careful Pragmatism, pg.35, in the book "The South Caucasus - Between integration and fragmentation", published by Centre for Strategic Studies and European Policy Centre. - http://aei.pitt.edu/64200/1/pub_5598_the_south_caucasus_-_between_integration_and_fragmentation.pdf

ərazi bütövlüyü və "Dağlıq Qarabağ münaqişəsi" ümumi bəyannamə ilə qeyd olunmuşdur[80]. Aİ tərəfindən Krım, Donetsk, Luqansk, Abxaziya və Cənubi Osetiyadan olan "rəsmilərə" qarşı viza qadağası tətbiq edilsə də, Dağlıq Qarabağdan olan separatçı rejimin "lideri" Bako Saakyana qarşı bu tədbir görülməmişdir. Bako Saakyan Fransa və Böyük Britaniyaya asanlıqla və heç bir hüquqi məhdudiyyət olmadan səfər etmişdir[81].

Aİ-nin Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfəsi sülhün əldə olunmasında deyil, onun həyata keçirilməsində ola bilər (məsələn, hər iki tərəfin vətəndaş cəmiyyətlərinin bir araya gətirilməsi ilə). Bu məqsədlə Aİ münaqişə tərəflərini bir araya gətirən "Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Şərq tərəfdaşlığı" layihəsini maliyyə cəhətdən dəstəkləyir. Qeyd edək ki, Aİ 1990-cı illərin əvvəllərində münaqişədən əvvəl və sonra Azərbaycana məcburi köçkünlərə kömək məqsədilə ərzaq və sığınacaq üçün maliyyə yardımı etmişdi.

İnsan hüquqları məsələləri

Azərbaycan müasir və dünyəvi ölkə olsa da, tez-tez Aİ-nin ikili standartları ilə üzləşir. 2015-ci ilin sentyabr ayında Avropa Parlamenti tərəfindən Azərbaycanda insan hüquqları və söz azadlığı ilə bağlı qəbul edilən qətnamədən[82] sonra Aİ və Azərbaycan arasındakı münasibətlər daha da pisləşdi. Avropa Parlamentinin qətnaməsinə cavab olaraq Azərbaycan hökuməti "Azərbaycan–Avropa İttifaqı arasında strateji tərəfdaşlığa dair Saziş" üzrə ilkin müzakirələrin aparılması üçün Azərbaycana gəlməsi nəzərdə tutulan Aİ Komissiyasının

80 Joint Declaration of the Eastern Partnership Summit (Riga, 21-22 May 2015). /European External Action Service, 2015/ - http://eeas.europa.eu/eastern/docs/riga-declaration-220515-final_en.pdf

81 Bako Sahakyan visits French National Assembly. /19.05.2016/ - www.panorama.am/en/news/2015/05/19/france-national-assembly/49571 // Elmar Mammadyarov: Bako Sahakyan paid a visit to the UK as a special guest with a passport of Armenia. /10.07.2015/ - report.az/en/foreign-politics/elmar-mammadyarov-bako-sahakyan-paid-a-visit-to-the-uk-as-a-special-guest-with-a-passport-of-armenia/

82 European Parliament resolution of 10 September 2015 on Azerbaijan. /10.09.2015/ - www.europarl.europa.eu/sides/getDoc.do?pubRef=-%2f%2fEP%2f%2fTEXT%2bTA%2bP8-TA-2015-0316%2b0%2b-DOC%2bXML%2bV0%2f%2fEN&language=EN // European Parliament resolution of 18 September 2014 on the persecution of human rights defenders in Azerbaijan. /18.09.2014/ - www.europarl.europa.eu/sides/getDoc.do?pubRef=-%2f%2fEP%2f%2fTEXT%2bTA%2bP8-TA-2014-0022%2b0%2b-DOC%2bXML%2bV0%2f%2fEN&language=EN

nümayəndə heyətinin səfərini təxirə saldı[83]. Bundan sonra Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycanın "Evronest" Parlament Assambleyasındakı nümayəndə heyətinin iştirakına son qoyulması və Azərbaycan rəsmilərinə sanksiya tətbiq edildiyi halda Avropa Parlamenti üzvlərinin ölkəyə buraxılmamasını qərarlaşdıran qətnamə qəbul etdi[84]. Bundan başqa, 2015-ci il noyabrın 19-da Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyası Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyası adlandırıldı[85].

Demokratikləşmə, insan hüquqları və azadlıqlarının etibarlı təminat mexanizminin formalaşdırılması Azərbaycanın xarici siyasətinin mühüm vektorlarından biri olsa da, rəsmi Bakı müəyyən dairələrin bu bəşəri dəyərlərdən geosiyasi təzyiq aləti kimi istifadə etməsi cəhdlərinə qarşı çıxır, "demokratiyanın müdafiəsi" bayrağı altında, ikili standartlar mövqeyindən yanaşmaları, müstəqil bir dövlətin suveren hüquqlarına müdaxiləni yolverilməz hesab edir[86]. Aİ Azərbaycanda "insan hüquqları problemi"ndən narahat olsa da, Qarabağ müharibəsi nəticəsində evlərindən və torpaqlarından məhrum olmuş 700.000-ə yaxın azərbaycanlı məcburi köçkünün fundamental hüquqları ilə bağlı konkret mövqe ortaya qoymamışdır.

Aİ tərəfindən insan hüquqları əməkdaşlıqda "zopa və kökə" ("carrot and stick" policy) kimi istifadə olunur. Lakin görünən odur ki, Azərbaycanla münasibətlərdə ancaq "zopa" var idi, "kökə" yox. İnsan hüquqlarını prioritet tutan Qərb əvvəllər Özbəkistanı və Belarusu tənqid edirdisə, indi bu ölkələrin yerinə Azərbaycanı hədəf seçib.

2016-cı il iyunun 2-də Prezident İlham Əliyev Avropa Parlamentində liberal-demokratlardan ibarət fraksiyanın – ALDE qrupunun vitse-sədri, "Şərq tərəfdaşlığı" proqramının Azərbaycan üzrə məruzəçisi

83 Avropa Komissiyası nümayəndə heyətinin Bakıya səfəri Azərbaycan tərəfindən təxirə salınıb. /11.09.2015/ - http://az.apa.az/news/396602

84 Avropa Parlamentinin 2015-ci il 10 sentyabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. /14.09.2015/ - http://www.meclis.gov.az/?/az/news/view/3002/

85 Azərbaycanın Avropaya İnteqrasiyası üzrə Dövlət Komissiyasının adı dəyişdirilib. /19.11.2015/ - az.apa.az/news/405298

86 Məmmədov N. Heydər Əliyevin xarici siyasət konsepsiyası uğurlu bəhrələrini verir. // "Azərbaycan" qəzeti, 14 aprel 2011-ci il, № 78, s.4

Norika Nikolaini və Avropa Parlamentinin üzvü İveta Qriquleni qəbul etdi. Görüşdə dövlət başçısı vurğuladı ki, qurumun ən yüksək rütbəli şəxsləri – prezidenti və vitse-prezidenti, faktiki olaraq, antiazərbaycan qüvvələrin bir hissəsini təşkil edir və onlar tərəfindən səsləndirilən təhqiramiz bəyanatlar, hücumlar və böhtanlar Azərbaycanın Avropa Parlamenti ilə əlaqələrinin perspektivlərini sual altına qoyub. Bütün bunlar bir daha göstərir ki, Avropa Parlamentinin bəzi rəhbər şəxsləri və antiazərbaycan qruplaşmaları öz ədalətsiz mövqeləri ilə sadəcə olaraq Avropa–Azərbaycan əlaqələrini pozmaq istəyirlər[87].

2016-cı il sentyabrın 20-də Prezident İlham Əliyev Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edərkən qeyd etmişdir ki, Avropa Parlamentinin bir il bundan əvvəl qəbul etdiyi qətnamə ikitərəfli münasibətlərdə ciddi geriləmə yaratmışdı. Prezidentin sözlərinə görə, bu, "çox düşməncəsinə, qeyri-düzgün, səhv informasiya və qərəzə əsaslanan addım və ölkəmizin reputasiyasına zərər vermək cəhdi" idi. Prezident həmçinin Azərbaycanın demokratik inkişafa və insan haqlarının qorunması işinə sadiq olduğunu qeyd etmişdir. Azərbaycanda 2015-ci ildə keçirilən parlament seçkiləri ilə bağlı tənqidlərə cavab olaraq isə Prezident İlham Əliyev bildirmişdir ki, Avropa Parlamenti 2015-ci ilin noyabrında Azərbaycanda keçirilən parlament seçkilərini müşahidə etmək üçün missiya göndərməkdən imtina etsə də, Avropa Şurası Parlament Assambleyasının üzvləri ölkəmizə gəlmiş, seçkiləri müşahidə etmiş və çox müsbət bəyanat vermişdilər. Beləliklə, Avropa Parlamentinin seçkilərdə müşahidəçi qismində iştirak etməməsi heç nəyi dəyişməmişdi. İlham Əliyev qeyd etmişdir ki, Avropa Parlamentinin 2015-ci ildəki qətnaməsində Azərbaycanda demokratiya ilə bağlı heç bir əsası olmayan və qərəzli mövqe nümayiş etdirildiyi halda, əksinə, Ermənistanda demokratiyanın bərbad vəziyyəti və boğulması ilə bağlı hər hansı bir reaksiya verilməmişdir. Prezident İlham Əliyev Avropa Parlamenti ilə münasibətlərdə böhran vəziyyətinin əmələ gəlməsinə baxmayaraq, əlaqələrin qarşılıqlı maraq əsasında təhlükəsizlik, energetika, nəqliyyat, elm, təhsil və digər sahələrdə uğurla inkişaf

87 İlham Əliyev Avropa Parlamentinin nümayəndələrini qəbul edib. /02.06.2016/ - president.az/articles/20140

edəcəyini bildirmişdir. Prezident İlham Əliyev bəzi Avropa ölkələrində genişlənən islamofobiya hallarına qarşı mübarizə aparılmasının önəmini də qeyd etmişdir. Dövlət başçısı Avropada yüksəksəviyyəli rəsmi şəxslər tərəfindən bu məsələlərlə bağlı səsləndirilən və heç bir məntiqə sığmayan ifadələrə Avropa strukturlarında hər hansı bir reaksiya verilməməsinin bir müsəlman ölkəsi olaraq Azərbaycanı və onun xalqını da narahat etdiyini vurğulamışdır[88].

Sərbəst hərəkət və miqrasiya

2013-cü il noyabrın 29-da Aİ ilə Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi ilə bağlı saziş imzalanmışdır. Saziş Azərbaycan vətəndaşlarının, xüsusilə də tez-tez səfərdə olan vətəndaşların Aİ ölkələrinin əksəriyyətinə sərbəst şəkildə səfər etmələrinə şərait yaradan qısamüddətli vizaların daha asan və ucuz alınmasını təmin edir. Sazişə əsasən, viza haqları 60 avrodan 35 avroyadək azaldılmış, bəzi vətəndaş kateqoriyaları isə tamamilə haqlardan azad edilmişdir[89]. 2013-cü il dekabrın 6-da Azərbaycan, Aİ Komissiyası və digər 8 üzv ölkə (Bolqarıstan, Çexiya Respublikası, Fransa, Litva, Hollandiya, Polşa, Sloveniya və Slovakiya) arasında "Mobillik üzrə Tərəfdaşlıq Sazişi" əsasında Birgə Bəyannamə imzalanmışdır. Saziş miqrasiya sahəsində, xüsusən qaçaqmalçılıq və insan alveri ilə məşğul olanlarla mübarizə məsələlərində əməkdaşlığı gücləndirməyə imkan yaradacaq[90].

Bundan başqa, Azərbaycan Dövlət Miqrasiya Xidməti FRONTEX[91] ilə birgə insanların azad hərəkətini asanlaşdırmaq, sərhəd postlarında xidməti yüksəltmək məqsədilə, eləcə də "Mobillik üzrə Tərəfdaşlıq Sazişi" çərçivəsində bir sıra perspektivli layihələr həyata keçirir (sərhəd xidməti, miqrasiya idarə etməsi, leqal əməkdaşlıq, qeyri-leqal miqrasiyaya

88 İlham Əliyev Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edib. /20.11.2016/ - www.president.az/articles/21114

89 Avropa İttifaqı ilə Azərbaycan arasında Viza Rejiminin Sadələşdirilməsi Sazişi bu gün qüvvəyə minir. - http://eeas.europa.eu/delegations/azerbaijan/press_corner/all_news/news/2014/20140901visa_facilitation_az.htm

90 Azərbaycan və Avropa Birliyi arasında mobillik üzrə tərəfdaşlıq sazişi imzalanıb. /06.12.2013/ - http://az.apa.az/news/323626

91 Xarici Sərhədlərdə Operativ Əməkdaşlığın Tənzimlənməsi üzrə Avropa Agentliyi // European Agency for the Management of Operational Cooperation at the External Borders

qarşı mübarizə və s.). Mobillik üzrə əməkdaşlıq münasibətlərin mühüm mərhələlərindən biridir. Mobillikdə əsas məsələlərdən biri də vizanın sadələşdirilməsidir. 2014-cü il fevralın 28-də Aİ ilə Azərbaycan arasında ölkədə icazəsiz yaşayan şəxslərin readmissiyası sahəsində saziş imzalanmışdır. Readmissiya sazişləri tərəflərin ərazisində qeyri-qanuni yaşayan şəxslərin nə zaman və necə geri qaytarılmasını tənzimləyir. Bu tip sazişlər təkcə hər iki tərəfin vətəndaşlarının qeyri-qanuni yaşamasını deyil, eləcə də müraciət edilən tərəflə aydın bağlantısı olan üçüncü ölkə vətəndaşlarının və vətəndaşlığı olmayan şəxslərin qeyri-qanuni vəziyyəti ilə bağlı məsələləri də əhatə edir[92].

Nəticə

Sovet İttifaqının dağılmasından və Azərbaycanın müstəqillik qazanmasından sonra ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri də Qərb dövlətləri və Avratlantik strukturlarla münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərinin ilkin təməlləri Prezident Heydər Əliyevin səyləri nəticəsində baş tutmuş "Əsrin müqaviləsi"nin imzalanması, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin reallaşdırılması və daha sonra isə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi idi. Bu iki əsas layihə Azərbaycanın Avropa ölkələri ilə əməkdaşlığı üçün ilkin yolu açdı.

Enerji münasibətlərindən başqa, Azərbaycanın Aİ ilə əməkdaşlıq siyasəti həm də ölkənin iqtisadi cəhətdən modernləşdirilməsi, demokratikləşməsi, rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılması üçün vacib imkanlar vəd edirdi. Buna görə də Azərbaycan Aİ-nin "Avropa Qonşuluq Siyasəti" və "Şərq tərəfdaşlığı" proqramlarına qoşuldu. Bu proqramlar şəffaf iqtisadiyyatın və institutların, dinamik vətəndaş cəmiyyətinin yaradılmasını, iqtisadiyyatın diversifikasiyasını, enerji sahəsində sıx əməkdaşlığı, siyasi və iqtisadi islahatların aparılmasını və s. nəzərdə tuturdu.

Azərbaycanın Avratlantik istiqamətdə xarici siyasətinin əsas

92 Avropa İttifaqı ilə Azərbaycan arasında Readmissiya Sazişi bu gün qüvvəyə minir. - http://eeas.europa.eu/delegations/azerbaijan/press_corner/all_news/news/2014/20140901visa_facilitation_az.htm

prioritetlərindən biri də Qərb ölkələrindən, eləcə də Aİ-dən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasi dəstək almaq idi. Lakin Aİ Azərbaycanın ərazi bütövlüyünü və ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəklədiyini ifadə edən siyasi bəyanatlarından başqa heç bir təşəbbüs nümayiş etdirməmişdir. Qərbin Qarabağ münaqişəsini arxa plana qoyması, lakin Türkiyə–Ermənistan münasibətlərinin normallaşdırılmasını önə çıxarması, Ukrayna və Gürcüstandakı münaqişələrə qarşı verdiyi reaksiya, Orta Şərqdə cərəyan edən "Ərəb baharı" hadisələri zamanı bu regiondakı ölkələrin rejimlərinin dəyişdirilməsinə laqeyd münasibəti və s. kimi faktorlar Azərbaycanı Aİ ilə daha praqmatik siyasət həyata keçirməyə məcbur etdi. Qərb Ukraynanın ərazi bütövlüyünə açıq dəstək nümayiş etdirdiyi halda, Azərbaycana münasibətdə bu cür mövqe ortaya qoymadı. Lakin "Şərq tərəfdaşlığı"na üzv digər ölkələrdə (Ukrayna, Moldova və Gürcüstanda) olduğu kimi, Azərbaycanın ərazi bütövlüyünə münasibətdə də eyni mövqe sərgilənməliydi. Azərbaycan Aİ-dən bunu gözləyirdi. Aİ güclü təhlükəsizlik aktoru olmasa da, Azərbaycanın Avropaya bağlanması üçün mühüm rol oynaya bilər. Nəzərə almaq lazımdır ki, coğrafi və tranzit mövqeyinə görə (Çindən Avropaya yükdaşımalar üçün) Azərbaycan Qərb üçün önəmli bir ölkədir. Lakin Qərbin Azərbaycana qarşı indiki siyasəti daha çox ölkənin enerji resurslarının Avropaya ötürülməsi üstündə mərkəzləşib.

Azərbaycan və Aİ arasındakı münasibətlər 2015-ci ilin sentyabr ayında Avropa Parlamentində Azərbaycan əleyhinə qəbul edilən qərəzli qətnamədən sonra pisləşsə də, Aİ-nin Xarici işlər üzrə Ali Nümayəndəsi Federika Moqerininin 2016-cı ilin fevral ayında Bakıya rəsmi səfəri zamanı münasibətlər müsbət axara düşməyə başladı. Hazırda Azərbaycanla Aİ arasında Strateji Tərəfdaşlıq üzrə Sazişin (STS) imzalanması istiqamətində danışıqlar aparılır. STS hüquqi qüvvəsi olan bir saziş olacaq və kifayət qədər geniş sahələrdə əməkdaşlıq üçün hüquqi baza yaradacaqdır.

Münasibətlərdə yaşanan problemlərə baxmayaraq, Aİ müstəqilliyini bərpa etdikdən bəri Azərbaycana yardım edən əsas donor olmuşdur. Azərbaycan müstəqillik qazandığı 1990-cı illərin əvvəllərində Aİ qrant

şəklində ölkəyə 500 milyon manat həcmində maliyyə yardımı etmişdir. Azərbaycanın çətin günlərində Aİ ölkəyə humanitar yardım göstərmiş, məktəb və xəstəxanaları bərpa etmişdir. 2007-2015-ci illər ərzində Aİ birdəfəlik 179 milyon avro qrant ayıraraq həm Azərbaycan hökumətinə, həm də vətəndaş cəmiyyətinə qrant verən ən böyük xarici donor olmuşdur. Bura büdcə və texniki yardım, tvinninq layihələri və qrantlar daxildir. 2014-2017-ci illərdə isə Aİ-nın yardım edəcəyi əsas sahələr regionların və kənd yerlərinin inkişafı, təhsil və ədliyyə sektorlarıdır.

Azərbaycan öz xarici siyasətini praqmatizm prinsipləri əsasında formalaşdırır. Çünki tarixi, dini, etnik, mədəni və coğrafi faktorlar Azərbaycana fərqli siyasi identiklər aşılayır. Bütün bu faktorlar zəruri edir ki, sadəcə birqütblü siyasətin bir hissəsi olmaqdansa və ya özünü regionda təcrid etməkdənsə, Azərbaycan həm region ölkələri, həm də digər qlobal güclərlə çoxvektorlu və praqmatik münasibətlər qursun. Bu baxımdan Aİ ilə münasibətlər Azərbaycanın praqmatik xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Azərbaycan Aİ ilə qarşılıqlı faydalı və birgə maraqlara əsaslanan münasibətlərin qurulmasında maraqlı olduğunu hər zaman nümayiş etdirmişdir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aİ rəsmiləri ilə son görüşündə də açıq şəkildə bəyan etmişdir.

Azərbaycan–Amerika Birləşmiş Ştatları münasibətləri: 1991-2016

*Fuad Çıraqov**

Giriş

Çox mürəkkəb və həssas coğrafiyada yerləşən müasir Azərbaycan Respublikasının çoxtərəfli və balanslaşdırılmış xarici siyasətinin mühüm istiqamətlərindən birini də dünyanın güc mərkəzləri və qabaqcıl dövlətləri ilə münasibətlər təşkil edir. Bu sırada Azərbaycanın Amerika Birləşmiş Ştatları (ABŞ) ilə münasibətləri xüsusi əhəmiyyətə malikdir. Dünyanın ən böyük siyasi və iqtisadi gücü olan ABŞ beynəlxalq münasibətlər və təhlükəsizliyin mühüm inkişaf istiqamətlərini müəyyən edən əsas ölkələrdən biridir. Ona görə də dünyanın bütün dövlətləri kimi, Azərbaycan da özünün xarici siyasətində ABŞ-la münasibətlərə xüsusi əhəmiyyət verir.

Azərbaycan–ABŞ münasibətlərinin tarixi nəzərdən keçirilərkən bir məqam xüsusi vurğulanmalıdır ki, regionun digər xalqları və əsas dövlətlərindən fərqli olaraq, iki dövlət arasında əlaqələrin dərin tarixi ənənələrə malik olduğunu qeyd edə bilmərik. Buna görə də müstəqilliyin yenidən bərpa edilməsindən keçən 25 il ərzində ikitərəfli əlaqələri həm də iki dövlət arasında münasibətlərdə ənənənin əsasının qoyulması ilə səciyyələndirmək olar. 1991-ci ildə Azərbaycan müstəqillik əldə edənə qədər gələcək ikitərəfli münasibətlər üçün əsas və gözəl nümunə ola biləcək iki əlamətdar məqamı qeyd etmək lazımdır. Birincisi, 1919-cu ildə Paris sülh konfransında Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyətinin rəhbəri kimi Əlimərdan bəy Topçubaşovun ABŞ Prezidenti Vudro Vilsonla görüşü və sonuncunun ölkəmizi təmsil edən şəxs barədə çox yüksək fikirlər səsləndirməsidir. Qeyd etmək lazımdır ki, Azərbaycan nümayəndə heyətinin Paris sülh konfransında iştirakı məhz

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin aparıcı elmi işçisi*

ABŞ-ın dəstəyi ilə baş tutmuşdu. Belə ki, Paris sülh konfransında iştirak etmək məqsədilə Azərbaycan nümayəndə heyəti İstanbulda Fransaya viza almaq üçün uzun müddət gözləməyə məcbur olmuşdu. Azərbaycan nümayəndə heyətinə viza ABŞ-ın dövlət katibi Robert Lansinqin fransız həmkarı Stefan Pişondan xahişindən sonra verilmişdi[1]. İkinci əlamətdar məqam isə ABŞ Prezidenti D.Eyzenhauer tərəfindən 1959-cu il iyulun 17-də imzalanmış "Əsarətdə olan xalqlar haqqında Bəyannamə"də[2] (Captive Nations resolution) Azərbaycanın da adının göstərilməsi və sonrakı illərdə əsarətdə olan xalqlar həftəsində qeyd edilməsidir.

Azərbaycanın milli maraqları üçün ABŞ-la münasibətlər bir sıra məqamlara və istiqamətlərə görə xüsusi əhəmiyyət kəsb edir: birincisi, regional təhlükəsizlik və qüvvələr balansında oynadığı rola görə; ikincisi, Azərbaycanın həyata keçirdiyi enerji strategiyasının əsas dəstəkləyicisi və tərəfdaşı kimi; üçüncüsü, Minsk Qrupunun həmsədri və beynəlxalq münasibətlərin aparıcı qüvvəsi kimi bu ölkənin Azərbaycanın üzləşdiyi erməni təcavüzündə mövqeyinə görə.

Son 25 ildə ABŞ–Azərbaycan münasibətləri keyfiyyət baxımından bir neçə fərqli tarixi mərhələdən keçmişdir. Müstəqilliyimizin ilk illərində güclü erməni lobbisinin uzun illər ərzində ciddi fəaliyyəti və hazırlığı, Azərbaycanda yaşanan siyasi qeyri-sabitlik səbəbindən sistemli xarici siyasət strategiyasının olmaması, rəhbərlikdə olan şəxslərin beynəlxalq münasibətlər sahəsində təcrübəsizliyi və hazırlıqsızlığı, ABŞ-ı yaxından tanıyan kadrların və mütəxəssislərin yoxluğu səbəbindən Azərbaycan bir sıra uğursuzluqlarla və Vaşinqtonun ədalətsiz qərarları ilə üzləşməli oldu.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın ABŞ siyasəti Vaşinqtonun ölkəmizə və regiona siyasətindən fərqli olaraq daim ardıcıl, praqmatik və ikitərəfli maraqları nəzərə alan münasibətlər əsasında qurulmuşdur. Ötən müddət ərzində ABŞ-ın Azərbaycan və region siyasəti müxtəlif administrasiyaların, siyasi qrupların, üçüncü tərəflərin maraqlarının, dünyaya reallıqdan uzaq

1 Luke Coffey. It's time to get US-Azerbaijani relations back on track. /Spring 2016/ - http://www.visions.az/en/news/756/341ca0c3/

2 Proclamation 3303 – Captive Nations Week, 1959 July 17, 1959. - http://www.presidency.ucsb.edu/ws/?pid=107400

liberal-idealist prizmadan baxanların və demokratik ideallardan dünya ölkələrinin daxili işlərinə qarışmaqda vasitə kimi istifadə etməyə çalışan qüvvələrin təsiri altında dəyişkən olmuşdur. Azərbaycan isə özünün ABŞ ilə münasibətlərini hər hansı üçüncü tərəfin və maraqların əsirinə çevirməməklə, qarşılıqlı faydalı münasibətlər qurmaq istiqamətində zəruri addımlar atmaqla yanaşı, bu ölkədəki bəzi siyasi qüvvələrin ölkəmizin daxili işlərinə qarışmaq, daxili və xarici siyasətlə bağlı qərarlarda iradələrini qəbul etdirmək istiqamətində təzyiqlərinə imkan verməmişdir.

Azərbaycanın neft strategiyası və ABŞ-ın keçmiş sovet məkanında dəyişən siyasəti

Keçən əsrin 90-cı illərinin əvvəllərində ABŞ-ın Azərbaycan siyasətində yaranmış təhlükəli vəziyyət Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsindən, xüsusilə bu ölkənin neft şirkətlərinin də iştirak etdiyi "Əsrin müqaviləsi"nin 1994-cü il sentyabrın 20-də imzalanmasından sonra əhəmiyyətli dərəcədə dəyişməyə başladı. Sentyabrın 20-də Heydər Əliyevə göndərdiyi təbrik məktubunda Bill Klinton Azərbaycan neftinin hasil olunmasının Dağlıq Qarabağ regionunun daxilində və ətrafında uzun sürən münaqişənin həll olunması ilə yanaşı, Azərbaycan xalqı üçün sabitlik, iqtisadi inkişaf və firavanlıq gətirəcəyini, qüdrətli iqtisadi gələcəyə doğru həlledici addım olacağını bildirdi[3]. Məhz neft müqavilələrinin imzalanmasından sonra ABŞ-ın region və Azərbaycan siyasətində erməni lobbisinin inhisarı sarsılmağa və mövqelərini əhəmiyyətli dərəcədə itirməyə başladı. "Əsrin müqaviləsi"ndə iştirak edən şirkətlərin böyük əksəriyyətinin ABŞ-a məxsus olması sonrakı dövrlərdə Azərbaycana ilk dəfə bu ölkədə qərarvermə proseslərinə təsir etmək və ölkəmizə qarşı müxtəlif qüvvələrin təxribat xarakterli tədbirlər həyata keçirməsinin qarşısını almaq üçün güclü imkan verdi.

Qeyd etməliyik ki, bu dövrdə regionun enerji resursları qlobal enerji təhlükəsizliyi, xüsusilə keçən əsrin 90-cı illərinin əvvəlində

3 Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. IV kitab, s.46

Körfəz müharibəsi nəticəsində yaşanmış qısamüddətli "enerji böhranı" fonunda ön plana çıxmış və Xəzər hövzəsinin enerji təhlükəsizliyi ABŞ-ın xarici siyasətinin prioritetləri sırasına daxil edilmişdi[4]. Bununla əlaqədar həmin dövrdə ABŞ–Azərbaycan münasibətlərininin inkişafına təkan verəcək mühüm bir addım atıldı. Belə ki, Prezident B.Klinton Xəzər siyasəti ilə məşğul olan İşçi Qrup yaratdı. Qrupa Dövlət Departamentinin, Energetika, Ticarət nazirliklərinin, Mərkəzi Kəşfiyyat İdarəsinin və Milli Təhlükəsizlik Şurasının nümayəndələri daxil edildi. Bundan əlavə, bu dövlət orqanları arasında regionda enerji sahəsində fəaliyyəti koordinasiya etmək üçün dövlət katibinin və Prezidentin Xəzər hövzəsinin enerji diplomatiyası üzrə xüsusi məsləhətçisi vəzifəsi təsis edildi[5].

Ümummilli lider Heydər Əliyev hakimiyyətə yenidən qayıtdığı çətin və ağır günlərdən başlayaraq bu müqavilənin imzalanması və reallaşması üçün bir neçə ölkənin dövlət orqanları, rəsmiləri və şirkətləri ilə gərgin və riskli danışıqlar, diplomatik fəaliyyət həyata keçirərək, ABŞ-ın "Amoko", "Mobil", "Ekson", "Yunokal", "Şevron", "MakDermot", "Pennzoyl", "Teksako", "Frontera Resurses" və digər iri şirkətlərini Azərbaycanın karbohidrogen yataqlarının istismarına cəlb etməyə nail ola bildi. Belə ki, 1993-cü ilin oktyabrında ABŞ-ın energetika nazirinin müavini Uilyam Uaytın Azərbaycana səfərinin məqsədi iki ölkə arasında neft sahəsində əməkdaşlığın yollarını müzakirə etmək idi. 1994-cü il iyunun 10-da Heydər Əliyevin Türkiyəyə səfəri zamanı ABŞ dövlət katibi Uorren Kristoferlə görüş Azərbaycan–ABŞ münasibətlərinin strateji və taktiki məsələlərini müəyyənləşdirmək baxımından mühüm rol oynadı[6]. Görüş zamanı Heydər Əliyev ABŞ-ın region siyasətində daha fəal iştirak etməsinin bölgənin təhlükəsizliyi və gələcək inkişafı baxımından vacib olduğunu diqqətə çatdırdı. ABŞ dövlət katibi Azərbaycanla Ermənistan

4 Paul L. Joskow. U.S. Energy Policy during the 1990s, July 11, 2001, The paper was prepared for the conference "American Economic Policy During the 1990s," sponsored by the John F. Kennedy School of Government, Harvard University, June 27 to June 30, 2001.p. 21. - http://economics.mit.edu/files/1144

5 Jofi Joseph. Pipeline Diplomacy: The Clinton Administration's Fight for Baku–Ceyhan, WWS Case Study 1/99, p.14. - http://www.dtic.mil/dtic/tr/fulltext/u2/a360382.pdf

6 Statement of the President of the Republic of Azerbaijan Heydar Aliyev in the briefing for journalists at Ataturk airport in Istanbul on his way home. /10.06.1994/ - http://lib.aliyev-heritage.org/en/3638796.html

arasında atəşkəs elan edilməsini müsbət qarşılamaqla yanaşı, münaqişənin həlli məsələsində bir dövlətin inhisarının məqsədəuyğun olmadığını xüsusi vurğuladı. ABŞ hökumətinin mövqeyinə görə, Dağlıq Qarabağ münaqişəsi ATƏM-in Minsk Qrupu çərçivəsində çoxtərəfli beynəlxalq sülh səyləri ilə həll edilməli idi[7].

Müstəqil Azərbaycanın gələcək iqtisadi və siyasi inkişafının təməlini qoyan və bölgədə əsrlərdən bəri formalaşmış ənənəvi qüvvələr balansını tamamilə dəyişən "Əsrin müqaviləsi"nin imzalanmaması üçün bir sıra region dövlətləri müxtəlif vasitələrdən istifadə edərək mane olmağa çalışsalar da, Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi müdrik xarici siyasət, dünyanın güc mərkəzləri, o cümlədən ABŞ-la diplomatik təmaslar, zəngin dövlətçilik təcrübəsi və beynəlxalq aləmdə şəxsi nüfuzu bu layihənin həyata keçirilməsində müstəsna rol oynadı. Nəzərə alsaq ki, bu cür şirkətlər, bir qayda olaraq, dünyanın qeyri-sabit, riskli və onlar üçün tanış və ənənəvi olmayan bölgələrinə investisiya qoymaqdan çəkinirlər, onda müharibənin davam etdiyi və daxili sabitliyin hələ tam bərqərar olmadığı bir şəraitdə Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk günlərdən bu sahədə fəaliyyətinin əhəmiyyətini, hansı diplomatik bacarıqların zəruri olduğunu təsəvvür etmək olar.

2003-cü il oktyabrın 15-də Azərbaycan Republikasının Prezidenti seçilən İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin tərtib olunmasında, xüsusilə ABŞ-la bağlı çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişlənməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəməri haqqında müqavilənin bağ-

7 Haqq işimizin gələcək uğurlarına xidmət edən görüşlər. Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə işgüzar səfəri əməkdaşlığın inkişafı naminə. /14.06.1994/ -http://azertag.az/xeber/HAQQ_ISIMIZIN_GALACAK_UGURLARINA_XIDMAT_EDAN_GORUSLAR__AZARBAYCAN_PREZIDENTI_HEYDAR_ALIYEVIN_TURKIYAYA_ISGUZAR_SAFARI__AMAKDASLIGIN_INKISAFI_NAMINA-797141

lanması və reallaşdırılmasında, eləcə də Azərbaycan Respublikasının ABŞ-la dövlətimizin maraqlarının təmin edilməsi istiqamətində diplomatik münasibətlərinin qurulmasında müstəsna rolu olmuşdur. İlham Əliyevin böyük əməyinin olduğu neft strategiyasının həyata keçirilməsi, beynəlxalq, o cümlədən ABŞ şirkətləri ilə neft müqavilələrinin imzalanması Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı və çiçəklənməsi üçün zəruri zəmin yaratmışdır. Azərbaycan özünün enerji strategiyası ilə qlobal enerji bazarı mənbələrinin müxtəlifləşdirilməsinə imkan verməklə ABŞ-ın ənənəvi müttəfiqlərinin enerji təhlükəsizliyinə mühüm töhfələr vermişdir. ABŞ dövlət katibinin keçmiş müavini Uilyam C. Börns bununla əlaqədar 2009-cu ildə Corctaun Universitetində çıxışı zamanı Azərbaycanın müstəqillik əldə etdikdən sonra özünün zəngin neft və qaz ehtiyatlarını Qərb bazarına açmaq və xarici investorlar, o cümlədən ABŞ şirkətləri ilə ticarət əlaqələrini inkişaf etdirməklə bağlı qəti qərar qəbul etməklə qlobal enerji təchizatının diversifikasiyasında və möhkəmləndirilməsində əsas iştirakçı kimi ortaya çıxmasını mühüm tarixi addım kimi qiymətləndirmişdi. Beləliklə, buna görə də Azərbaycanın əsas ixrac boru kəmərləri Xəzər dənizini Qərblə birləşdirən əsas arteriyalara çevrilmişdir[8].

İkitərəfli münasibətlərdə enerji faktoru önə çıxmazdan əvvəl ABŞ–Azərbaycan münasibətlərindən və Vaşinqtonun region siyasətindən bəhs edərkən ilk növbədə "Rusiya birinci" (Russia first) doktrinasına xüsusi toxunmaq lazımdır[9]. Qeyd edilən doktrina keçən əsrin 90-cı illərinin əvvəllərində Vaşinqtonun postsovet məkanı ilə bağlı ilk xarici siyasət strategiyası idi. Bu strategiyaya görə, ABŞ-ın qarşısında duran əsas vəzifə postsovet məkanının demokratikləşməsinin Rusiyadan başlanmasının daha məqsədəuyğun olması və yeni yaranan digər ölkələrin ikinci dərəcəli əhəmiyyət kəsb etməsi idi. Bu doktrinanın tərəfdarlarının fikrincə, postsovet məkanının transformasiyası və Qərbə inteqrasiyası

8 ABŞ–Azərbaycan münasibətləri. /Uilyam C. Börns – Dövlət katibinin siyasi məsələlər üzrə müavini, Corctaun Universiteti, Vaşinqton şəhəri, 18.09.2009/ - https://azeri.azerbaijan.usembassy.gov/uploads/images/9GD1ZaFfYrnXccZH7OY1bw/Burns_AZ.pdf

9 Olexiy Haran. Disintegration of the Soviet Union and the U.S. Position on the Independence of Ukraine, Discussion Paper 95-09, Center for Science and International Affairs, John F. Kennedy School of Government, Harvard University /August 1995/ - http://belfercenter.ksg.harvard.edu/publication/2933/disintegration_of_the_soviet_union_and_the_us_position_on_the_independence_of_ukraine.html

məhz Rusiyadan başlanarsa, digər postsovet ölkələri özlərinin köhnə metropoliyalarının nümunəsində eyni yolla gedəcəklər[10].

ABŞ-da keçən əsrin 90-cı illərinin əvvəllərində siyasi dairələrdə bu cür düşüncələri təşviq edən bir sıra amillər mövcud idi. Birincisi, SSRİ-nin dağılmasından sonra ilk illərdə Rusiya ilə ABŞ arasında münasibətlərin həddindən artıq istiləşməsi Vaşinqtonda belə bir fikrin yaranmasına səbəb olmuşdu ki, iki ölkə arasında bütün ziddiyyətlər keçmişdə qalmışdır və Rusiyanın Vaşinqtonun istədiyi istiqamətdə inkişafı üçün gələcəkdə heç bir maneə olmayacaqdır[11].

İkincisi, 1990-cı illərin əvvəlində ABŞ-ın qərarvermə proseslərində iştirak edən hansısa qrupu yeni yaranmış ölkələrlə bağlayan iqtisadi və siyasi maraqlar olmadığından bölgə Vaşinqton üçün heç bir əhəmiyyət kəsb etmirdi. SSRİ dağıldıqdan sonra ilk illərdə Cənubi Qafqaz bölgəsini ABŞ-la qərarvermə proseslərində iştirakçı kimi bağlayan yeganə halqa isə bu ölkənin seçki proseslərində fəal iştirak edən erməni lobbisi idi və ermənilər də bu məqamdan məharətlə istifadə etməyi bacardılar. Ekspertlərin bir çoxu qeyd edir ki, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş əlavə edilərkən qanunvericilərin əksəriyyəti bunun əslində nə demək olduğunu bilməmiş və onu hansısa əhəmiyyətsiz bir sənəd kimi qəbul etmişdi[12]. Təəssüflə qeyd etməliyik ki, ötən müddət ərzində ABŞ Xarici Siyasət Şurasının (American Foreign Policy Council) baş elmi işçisi Stefen Blank kimi nüfuzlu ekspertlərin ən müxtəlif platformalarda 907-ci düzəlişin ABŞ-ın regionda xarici siyasətini iflic etdiyini, ölkənin maraqlarını zədələməkdən başqa heç bir faydası olmadığını və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək etmədiyini göstərmələrinə[13] baxmayaraq, bu ədalətsiz qanun aktı indiyə qədər aradan qaldırılmamışdır.

10 Zbigniew Brzezinski, Paige Sullivan. Russia and the Commonwealth of Independent States: Documents, Data, and Analysis, Center for Strategic and International Studies (Washington, D.C.), 1997, p. 376.

11 Alexei K. Pushkov. Letter from Eurasia: Russia and America: the honeymoon's over. // Foreign Policy, No. 93 (Winter, 1993-1994), pp.76-90

12 David King, Miles Pomper. The U.S. Congress and the Contingent Influence of Diaspora Lobbies: Lessons from U.S. Policy toward Armenia and Azerbaijan, Harvard University & Congressional Quarterly, December 9, 2002, p.13

13 Blank Stephen. Azerbaijan's Security Azerbaijan's Security and U.S. Interests: and U.S. Interests: Time for a Reassessment, Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2013, p.66. - https://www.silkroadstudies.org/resources/pdf/publications/1312Blank.pdf

Rusiya ilə münasibətlərin getdikcə pisləşməsi və bəslənən ümidlərin özünü doğrultmaması, eləcə də regionun enerji resurslarına ABŞ enerji şirkətlərinin artan marağı 1994-1995-ci illərdən başlayaraq Vaşinqtonu özünün "Rusiya birinci" strategiyasına yenidən baxmağa və postsovet ölkələrinin hər biri ilə ayrı-ayrılıqda münasibətləri inkişaf etdirməyə sövq etdi. Əgər ilk illərdə postsovet məkanına yanaşmada və bu ölkələrin transformasiyasında Rusiya əsas və mərkəz götürülürdüsə, 1990-cı illərin ortalarından sonra yanaşma əks istiqamətdə dəyişdi və digər keçmiş SSRİ respublikalarının transformasiyası da önə çəkilməyə başlandı.

Ötən müddət ərzində ABŞ-ın postsovet məkanına, xüsusilə Cənubi Qafqaza qarşı qeyri-ardıcıl və yanlış siyasətinin ən bariz nümunələrindən biri də 1974-cü ildə Konqres tərəfindən yəhudilərin azad mühacirət hüquqlarını məhdudlaşdıran dövlətlərə, xüsusilə SSRİ-yə və kommunist blokuna daxil olan ölkələrə qarşı ticarət sanksiyalarının tətbiq edilməsini nəzərdə tutan ABŞ Ticarət Aktına edilən Cekson-Veniq düzəlişinin hələ də ölkəmizə qarşı qüvvədə qalmasıdır[14]. Qeyd edilən düzəlişdən Baltikyanı ölkələr, Gürcüstan, Ermənistan, Qırğızıstan, Ukrayna və Moldova kimi keçmiş postsovet respublikaları azad edilsə də, 1992-ci ildən başlayaraq Azərbaycan yalnız "Cekson-Veniq düzəlişinin tələblərinə cavab verdikdə" düzəlişdə nəzərdə tutulan sanksiyalardan azad edilir. Qeyd etmək lazımdır ki, bu düzəliş hətta keçmiş SSRİ-nin əsas varisi olan Rusiyaya qarşı da 2012-ci ildə qəbul edilən Maqnitski Aktı[15] ilə aradan qaldırılmışdır. Bu düzəlişin Azərbaycana qarşı qüvvədə qalmasının ikitərəfli iqtisadi və siyasi əlaqələrə vurduğu ziyanı düzgün qiymətləndirə bilən bir sıra ABŞ qanunvericilərinin onun aradan qaldırılması ilə bağlı cəhdləri isə, təəssüf ki, öz nəticəsini verməmişdir. Belə ki, 2008-ci ildə Azərbaycana qarşı bu düzəlişin ləğv edilməsini nəzərdə tutan qanun layihəsini irəli sürən senator Riçard Luqar Konqresə müraciətində bildirmişdir: "1974-cü ildə Ticarət Aktına edilən Cekson-

14 Ginsberg Julie. Reassessing the Jackson-Vanik Amendment, (Council on Foreign Relations). /2 July 2009/ - http://www.cfr.org/trade/reassessing-jackson-vanik-amendment/p19734

15 "Maqnitski Aktı" kimi tanınan və ayrı-ayrı Rusiya məmurlarına qarşı nəzərdə tutulan qanun layihəsinin tam adı "Rusiya və Moldovaya qarşı Maqnitski Aktının ləğv edilməsi və Sergey Maqnitski qanun layihəsi" (Russia and Moldova Jackson-Vanik Repeal and Sergei Magnitsky Rule of Law Accountability Act of 2012) adlanır.

Veniq düzəlişi miqrasiyaya və insanların azad şəkildə hərəkətinə mane olan ölkələrə qarşı nəzərdə tutulmuşdu. Azərbaycan isə "soyuq müharibə"dən sonrakı illərdə öz vətəndaşlarına azad şəkildə hərəkət və miqrasiya etmək hüququ verərək, qanun layihəsində göstərilən prinsiplərə sadiq olduğunu göstərmişdir. İrəli sürülən qanun layihəsi ilə Azərbaycana qarşı düzəlişin qüvvəsi ləğv edilərsə, bu, iki ölkə arasında ticarət münasibətlərinin daimi əsasda qurulmasına imkan verməklə yanaşı, Azərbaycanı bazar iqtisadiyyatı və fərdi azadlıqlar sahəsində islahatları daha da həvəsləndirməyə imkan verəcəkdir"[16].

İlk diplomatik əlaqələrin qurulması

ABŞ dövlət katibi Ceyms Beykerin 1992-ci ilin əvvəlində regionla tanışlıq xarakteri daşıyan səfərindən bir neçə gün sonra, fevralın 17-də onun şəxsi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir Nikolos Sanqoya Bakıya səfər edərək, Azərbaycan Respublikasının müxtəlif dövlət rəsmiləri ilə görüşüb diplomatik əlaqələrin qurulması və Bakıda ABŞ səfirliyinin açılması məsələlərini müzakirə etdi. Bundan sonra 1992-ci il martın 17-də Bakıda ABŞ səfirliyi açıldı və Robert Finn müvəqqəti işlər üzrə vəkil, daha sonra isə ilk səfir vəzifəsinə Riçard Mayls təyin edildi[17].

1992-ci il noyabrın 13-də Hafiz Paşayev ölkəmizin ABŞ-da ilk səfiri təyin edildi və Vaşinqtonda səfirlik yaradıldı. ABŞ siyasi səhnəsi və sistemi barədə, demək olar, heç bir diplomatik təcrübəsi və əlaqələri olmayan yeni Azərbaycan diplomatik korpusunun və səfirliyinin qarşısında dövlətimizin milli maraqları baxımından çox mühüm, təxirəsalınmaz vəzifə və işlər dururdu. Bunlar 907-ci düzəlişin ləğvi, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı həqiqətlərin ABŞ rəhbərliyi və ictimaiyyətinə çatdırılması, gələcəkdə erməni lobbisinin ölkəmizə qarşı həyata keçirə biləcəyi təxribatların qarşısının alınması və müstəqilliyin möhkəmləndirilməsi üçün dünyanın ən güclü dövləti ilə diplomatik münasibətlərin inkişaf etdirilməsi idi.

Bu istiqamətdə atılan addımlardan birincisi 1993-cü il aprelin 12-də iki

16 Lugar offers repeal of trade restrictions. /06.02.2008/ - http://www.azernews.az/business/1781.html
17 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı, 2015, s.153

ölkə arasında ticarət münasibətləri haqqında sazişin imzalanması oldu[18]. Aprelin 14-də isə Hafiz Paşayev etimadnaməsini yeni fəaliyyətə başlayan Prezident Bill Klintona təqdim etdi. Yeni hakimiyyətə gəlmiş Klinton administrasiyası özündən əvvəlki hakimiyyətdən fərqli olaraq, keçmiş sovet respublikalarında, o cümlədən Cənubi Qafqazda daha fəal siyasət yeritməyə başladı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə marağını artıran ABŞ bundan sonra bəzi addımlar atmağa başladı. 1993-cü ilin may ayında ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağ üzrə danışıqlarda nümayəndəsi Con Mareska, iyun ayında isə müstəqil dövlətlərlə əlaqələr üzrə müşavir Stroub Telbot Bakıya səfər etdilər.

1993-cü ilin yanvar ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev yeni seçilmiş ABŞ Prezidenti Bill Klintona məktub göndərərək onun müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcəyinə, dünyanın bir sıra regionlarında baş verən münaqişələrin həllinə nail olacağına, Naxçıvanın Ermənistan tərəfindən blokadasına son qoyulacağına ümid etdiyini bildirdi[19]. Heydər Əliyevin müraciətindən dərhal sonra ABŞ-ın Azərbaycandakı səfiri Riçard Mayls 1993-cü il fevralın 4-də Naxçıvana səfər etdi. O, Heydər Əliyevlə görüşərək Prezident B.Klintonun bölgədə yaranmış vəziyyətlə əlaqədar narahatlığını və ABŞ Dövlət Departamentinin humanitar yardımlar proqramının rəhbəri Riçard Armitacın məktubunu çatdırdı. Heydər Əliyevin Riçard Maylsla görüşü ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynadı. Belə ki, ABŞ-dan Naxçıvana 800 min dollarlıq tibbi ləvazimat humanitar yardım kimi göndərildi.

Azərbaycana qarşı erməni təcavüzünün genişləndiyi bir dövrdə ölkəmizin Vaşinqtonda açılmış yeni səfirliyi bu təcavüzün beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması üçün fəaliyyətini genişləndirdi. Azərbaycanın ABŞ-dakı səfirliyi 1993-cü il martın 31-də ABŞ dövlət katibi Uorren Kristoferə məktub göndərərək Kəlbəcərə edilən hücum və qaçqınların vəziyyəti barədə məlumat verdi. Məktubda ölkəmizin üzləşdiyi erməni təcavüzünün miqyası diqqətə çatdırılmaqla yanaşı,

18 Azerbaijan Trade Relations Agreement. - http://tcc.export.gov/Trade_Agreements/All_Trade_Agreements/exp_002775.asp

19 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı 2015, s.159

"Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin Ermənistanı şirnikləndirdiyi qeyd edildi[20]. Bundan az sonra, yəni aprelin 5-də Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal etdikdən sonra ABŞ dövlət katibi Uorren Kristoferə növbəti məktub göndərildi. Məktubda Kəlbəcərin işğalı diqqətə çatdırıldı və bu işğalı pisləmək üçün BMT Təhlükəsizlik Şurasına məktub göndərilməsi və növbədənkənar iclas keçirilməsi xahiş edildi. Bu fəaliyyət öz təsirini göstərdi. ABŞ Dövlət Departamenti aprelin 6-da bəyanat verərək işğalı pislədi, erməni qüvvələrinin Kəlbəcərdən tamamən və dərhal çıxarılmasını tələb etdi[21]. ABŞ BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin qəbul edilməsində mühüm rol oynadı.

Azərbaycan dövləti və ABŞ-dakı səfirlik erməni təcavüzünün miqyasını bu ölkənin siyasi rəhbərliyinin diqqətinə çatdırmaq üçün fəaliyyətini genişləndirdi. Sentyabrın 2-də Heydər Əliyev ABŞ Prezidenti Bill Klintona, vitse-prezident Albert Qora və Konqresin spikeri Tomas Foliyə məktubla müraciət edərək ABŞ Konqresi tərəfindən qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişi ləğv etməyə çağırdı. Məktubda eyni zamanda Ermənistanın Azərbaycana qarşı apardığı müharibə haqqında məlumat verilir, müharibənin dayandırılması və Azərbaycan xalqının müdafiəsi üçün səyləri artırmaq xahiş edilirdi[22].

İkitərəfli münasibətlərə ABŞ-dakı erməni lobbisinin təsiri

Qeyd etmək lazımdır ki, 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda bütün sahələrdə müsbətə doğru köklü dəyişikliklər olduğu kimi, Azərbaycanın ABŞ istiqamətində uğurlu xarici siyasətinin də əsası qoyuldu, ölkəmizin maraqlarının tam əleyhinə olan ABŞ-ın region siyasətinin milli maraqlarımıza uyğun müsbətə doğru dəyişdirilməsi istiqamətində zəruri addımlar atıldı və strategiya formalaşdırıldı. Qısa müddət ərzində həyata keçirilən uğurlu xarici siyasət strategiyası Azərbaycanın ABŞ-ın

20 Yenə orada, s.162

21 Department of State daily press briefing, Tuesday. /06.04.1993/ - http://dosfan.lib.uic.edu/ERC/briefing/daily_briefings/1993/9304/930406db.html

22 Azərbaycanın xarici siyasətində Dağlıq Qarabağ münaqişəsi, III fəsil, s.19 /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası/ - http://files.preslib.az/site/karabakh/gl3.pdf

Ümumavrasiya geostrategiyasında mühüm bir ölkə olması fikrini bu ölkənin müxtəlif siyasi dairələrinə qəbul etdirdi. Məhz bu faktor bütün sonrakı dövrlər ərzində ABŞ-dakı güclü erməni lobbisi qarşısında keçilməz maneəyə çevrilməklə, onu Azərbaycana qarşı mübarizəsində digər müxtəlif vasitələr axtarmağa və istifadə etməyə (məsələn, ölkənin qeyri-demokratik imicinin yaradılması və bu kimi müxtəlif ittihamlarla) məcbur etdi. Əgər əvvəllər ermənilər ABŞ ictimaiyyətində və siyasi dairələrində sadəcə "məzlum xristian erməni xalqı olmaları" arqumenti ilə aldıqları dəstəkdən Azərbaycana qarşı çox asanlıqla istifadə edə bilirdilərsə, Azərbaycanın bu ölkənin siyasi qərarvermə prosesində qısa müddətdə əhəmiyyətli faktora çevrilməsi ilə erməni lobbisi öz taktikasını dəyişməyə məcbur oldu.

Müstəqilliyimizin ilk illərində ABŞ-ın Azərbaycan istiqamətində siyasətinin ölkəmiz üçün mənfi və təhlükəli çalar almasında bu ölkədə fəaliyyət göstərən erməni lobbisi xüsusi rol oynamışdı. Erməni lobbisinin ABŞ-ın siyasi səhnəsində necə güclü təsirə malik olması, bu ölkənin müxtəlif siyasi qruplarında, qərarvermə mərkəzlərində, akademik və intellektual dairələrində hansı mövqelərə sahib olmaları, nüfuz etmələri, özlərinin mövqelərini həqiqət kimi qəbul etdirmələri heç kimə sirr olmayan faktlardır[23]. Erməni ekspertlərinin də etiraf etdikləri kimi, keçən əsrin 90-cı illərinin əvvəlləri ABŞ-da erməni lobbisinin qüdrətinin ən yüksək zirvədə olduğu dövrə təsadüf edir. Bu dövrdə Konqresdə güclü erməni lobbisi ilə yanaşı, Reyqan və ata Buş administrasiyaları dövründə Ağ Ev və Müdafiə Nazirliyində çoxlu sayda erməni mənşəli şəxslər çalışmışdır. Təsadüfi deyil ki, SSRİ dağıldıqdan sonra ata Buş administrasiyası məhz Ermənistanı bölgədə ABŞ-ın gələcək potensial müttəfiqi kimi görürdü[24].

1990-cı illərin əvvəllərində erməni lobbisinin təsiri altında olan şəxslər sırasında ABŞ Senatında respublikaçıların lideri Robert Doul, aşağı palatanın spikeri Cim Rayt, Senatın Beynəlxalq əlaqələr komitəsinin sədri Kleyborn Pell, eləcə də ABŞ siyasi səhnəsində daha

23 Zarifian Julien. The Armenian–American Lobby and Its Impact on U.S. Foreign Policy, Society, October 2014, Volume 51, Issue 5, pp 503-512. - http://link.springer.com/article/10.1007/s12115-014-9816-8

24 Галстян А. Карабахские виражи во внешней политике США. // Международная жизнь. /27.04.2016/ - https://interaffairs.ru/news/show/15177

sonra uzun illər mühüm yer tutacaq senatorlar Cozef Bayden, Con Kerri və Edvard Kennedinin adlarını sadalamaq olar. Belə ki, hələ 1990-cı ildə, Sovet İttifaqı rəsmi şəkildə dağılmamışdan əvvəl senatorlar Kleyborn Pell və Con Kerri Dağlıq Qarabağın Ermənistana verilməsi ilə bağlı çağırışla SSRİ-nin o vaxtkı dövlət başçısı Mixail Qorbaçova müraciət etmişdilər[25]. Senator K.Pell SSRİ xarici işlər naziri Eduard Şevardnadze ilə görüşü zamanı isə sovet rəhbərliyini Dağlıq Qarabağ Muxtar Vilayəti üzərində Azərbaycanın nəzarətinə son qoymağa çağırmışdı[26].

Keçən yüzilliyin 90-cı illərinin əvvəllərində erməni lobbisinin ABŞ-da Azərbaycana qarşı həyata keçirdiyi ən böyük siyasət Konqres tərəfindən "Azadlığa Dəstək Aktı"na edilmiş 907-ci düzəliş oldu. Konqresin Xarici Əlaqələr Şurasında 907-ci düzəliş qəbul edilərkən cəmi 4 senator – Riçard Luqar, Miç Makkonel, Nensi Kassebaum və Terri Senford bunun əleyhinə çıxmışdılar. Ümumiyyətlə isə qeyd etməliyik ki, qanun layihəsinə edilən bu düzəliş hər hansı ciddi müzakirəyə səbəb olmadan Konqres tərəfindən qəbul edildi və 1992-ci ilin oktyabrında ABŞ prezidenti tərəfindən təsdiqləndi. Düzəlişdə göstərilirdi ki, "Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadalara və digər hücum hərəkətlərinə son qoymayana və bu barədə Prezident Konqresə hesabat verməyənə qədər bu və ya hansısa digər aktla ABŞ Azərbaycan hökumətinə heç bir formada yardım edə bilməz"[27].

Bu düzəliş sonralar iki ölkə arasında münasibətlərdə böyük problemə və narazılığa səbəb məqamlardan biri olaraq qaldı. 1992-ci ildən başlayaraq ABŞ Konqresi tərəfindən qəbul edilmiş "Azadlığa Dəstək Aktı" ilə ABŞ SSRİ dağıldıqdan sonra, Rusiya da daxil olmaqla, keçmiş sovet respublikalarına müxtəlif sahələrdə yardım etdi. Məhz erməni lobbisinin təsiri ilə ölkəmiz ağır iqtisadi və siyasi problemlərlə üzləşdiyi və istənilən yardıma ehtiyac duyduğu 8 il ərzində bu əhəmiyyətli yardımlardan məhrum olundu. Fəal və sistemli azərbaycanlı diasporasının, ABŞ-da çalışan diplomatik korpusun tam formalaşmamasından istifadə edən erməni lobbisi ötən

25 Yenə orada
26 Yenə orada
27 Thomas Goltz. A Montana Perspective on International Aid and Ethnic Politics in Azerbaijan. - http://www.zerbaijan.com/azeri/goltz1.htm

müddət ərzində öz təbliğatı ilə bu ölkə ictimaiyyətini inandırmışdı ki, guya Azərbaycan Ermənistanı blokadada saxlayır və Dağlıq Qarabağ ermənilərinə qarşı silahlı hücumlar təşkil edir. Halbuki bu qanun layihəsi irəli sürülənə və 1993-cü ilin yanvarında qüvvəyə minənə qədər Ermənistan silahlı qüvvələri Şuşa şəhərini və Laçın rayonunu işğal etmiş və Xocalı şəhərində dinc əhaliyə qarşı soyqırımı aktı həyata keçirmişdilər.

Bundan əvvəl, 1992-ci il fevralın 12-də ABŞ dövlət katibi Ceyms Beyker bu ölkənin ən yüksəksəviyyəli rəsmisi kimi regiona və müstəqil Azərbaycana[28] səfəri zamanı bildirmişdi ki, "Dağlıq Qarabağda milli azlıqlara qarşı diskriminasiya davam edəcəyi təqdirdə"[29] ABŞ Azərbaycana yardım etməyəcəkdir[30]. Xocalıda baş verən hadisələr 1992-ci il martın 12-də Ağ Evdə müzakirə edilərkən isə tərəflər yalnız atəşkəs rejiminə əməl etməyə çağırılmış, dinc əhaliyə qarşı cinayəti törədənlər barəsində heç bir şey deyilməmişdi.

Azərbaycanın ərazi bütövlüyünü və milli maraqlarını təhdid edən ən narahatedici məqamlardan biri o idi ki, erməni lobbisi ABŞ-ın Dağlıq Qarabağa birbaşa yardım etməsinə nail oldu. 2016-cı ilə qədər Konqresə təqdim edilən dövlət büdcəsində Dağlıq Qarabağa ayrıca yardım bəndinin olması son 20 il ərzində ikitərəfli münasibətlərdə ən çox narazılıq doğuran məqamlardan biri idi. Ötən müddət ərzində Azərbaycan diplomatiyasının ölkəmizin ərazi bütövlüyünü şübhə altına alan və beynəlxalq hüququn prinsiplərinə zidd siyasətin aradan qaldırılması üçün hərtərəfli və uzunmüddətli fəaliyyəti öz nəticəsini yalnız 2015-ci ildə verdi və növbəti ilin büdcəsində Dağlıq Qarabağa birbaşa yardımı nəzərdə tutan maddə öz əksini tapmadı.

Heydər Əliyev hakimiyyətə gələndən sonra bu böyük maneənin aradan qaldırılması və neytrallaşdırılması üçün çox uğurlu addımlar atılsa da, qeyd etməliyik ki, iki ölkə arasında münasibətlərdə bu mənfi faktor

28 Baker opens tour of the Caucasus. /12.02.1992/ - http://www.nytimes.com/1992/02/12/world/baker-opens-tour-of-the-caucasus.html

29 Baker Urges Peace in Disputed Enclave : Armenia: The secretary refuses to take sides in the bloody battle with Azerbaijan over Nagorno-Karabakh. He will visit the Azerbaijani capital today. /12.02.1992/ - http://articles.latimes.com/1992-02-12/news/mn-1558_1_united-states

30 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). Bakı, 2015, s.153

vaxtaşırı indiyədək özünü büruzə verməkdədir. ABŞ-dakı erməni lobbisi ötən müddətdə Azərbaycana qarşı fəaliyyətini müxtəlif istiqamətlərdə daim genişləndirmiş, ölkəmizin imicinə və milli maraqlarımıza zərbə vurmaq üçün ən müxtəlif üsullardan və fəndlərdən istifadə etmişdir. Bu sırada "erməni soyqırımı"nın tanıdılması xüsusi yer tutur. Ermənilər soyqırımı mövzusunu "istismar" edərək özlərinin "məzlum və əzilən xalq" obrazlarını yaradır və bununla da Azərbaycana qarşı təcavüzkar siyasətlərini ört-basdır etməyə və özlərinə bəraət qazandırmağa çalışırlar.

Qeyd etmək lazımdır ki, erməni lobbisi bir sıra hallarda hətta ABŞ-ın milli maraqlarına zidd məsələlərdə, həmçinin digər nüfuzlu lobbi qruplarına qarşı münasibətdə də öz iradəsini qəbul etdirməyə çalışmışdır. Məsələn, erməni lobbisi son onilliklərdə ABŞ-da hərbi-sənaye kompleksinə bağlı digər güclü lobbi qrupları ilə qarşı-qarşıya gələrək Türkiyəyə çoxmilyardlıq silah satmaqda onlara mütəmadi problemlər yaratmaqla öz gücünü göstərmişdir. Azərbaycanın təşəbbüsü ilə müxtəlif regional strateji layihələrin həyata keçirilməsi zamanı da erməni lobbisi ABŞ-la münasibətlərdə fərqli vasitələrdən istifadə etməklə maneələr yaratmağa çalışmışdır. Bu, özünü bariz şəkildə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin reallaşmasında göstərmişdir. Belə ki, Qərbdəki nüfuzlu erməni lobbisi regional strateji layihə olan Bakı–Tbilisi–Qars dəmir yolu ilə Ermənistanın bütün inkişaf perspektivlərindən və imkanlarından məhrum olmasına imkan verməmək üçün bütün resurslarından istifadə edərək ABŞ maliyyə mənbələrinin dəmir yolu xəttinin tikintisini maliyyələşdirməsinin qarşısını aldı. Lakin bütün maneə və çətinliklərə baxmayaraq, dəmir yolunun tikintisi hazırda uğurla davam etdirilir və 2016-cı ilin sonunda onun istifadəyə verilməsi nəzərdə tutulur. Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikintisi üçün bu ölkəyə 775 milyon dollar güzəştli kredit ayırmışdır[31]. Layihə çərçivəsində 105 km uzunluğunda yeni dəmir yolu xətti (76 kilometri Türkiyə və 29 kilometri Gürcüstan ərazisindən keçməklə) qurulmaqdadır. Eyni zamanda Gürcüstanda dəmir yolunun 183 kilometrlik hissəsi bərpa edilmişdir. Qatarların Gürcüstandakı

31 Bakı–Tbilisi–Qars dəmir yolu 2015-ci ilin ortalarında işə düşəcək. /22.02.2014/ - http://az.trend.az/business/economy/2245091.html

mövcud dəmir yollarından sonra Avropa dəmir yollarında hərəkət edə bilməsi üçün Axalkalakidə keçid məntəqəsi tikilməkdədir. ABŞ maliyyə institutlarının bu layihəni maliyyələşdirməsinin qarşısı alınsa da, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi gələcəkdə Əfqanıstandan NATO və ABŞ qoşunlarının çıxarılması, eləcə də Vaşinqtonun Mərkəzi Asiya ilə əlaqələrinin qurulmasında strateji əhəmiyyət daşıyacaqdır.

ABŞ–Azərbaycan münasibətlərində yeni dövrün başlanğıcı

Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ABŞ-ın müxtəlif neft şirkətləri ilə təmaslarla yanaşı, bu ölkənin ali dövlət rəhbərliyi ilə görüşlərin intensivliyi artdı. 1994-cü il sentyabrın 3-4-də ABŞ-ın BMT-dəki səfiri M.Olbrayt Bakıya səfər etdi. B.Klintonun şəxsi nümayəndəsi kimi M.Olbrayt ABŞ hökumətinin Qafqaza dair yeni təşəbbüsləri barədə Azərbaycan rəhbərliyini məlumatlandırdı. O, ABŞ-ın Azərbaycanın müstəqil və suveren dövlət kimi qalmasında, demokratik inkişafında, regionda sülh və sabitliyin bərqərar edilməsində, Ermənistanla hərbi əməliyyatların dayandırılmasında maraqlı olduğunu ölkə rəhbərliyinin diqqətinə çatdırdı. Görüş zamanı M.Olbrayt ABŞ-ın münaqişənin həllində bir ölkənin hegemonluğunun əleyhinə olması fikrini bir daha vurğuladı. M.Olbrayt münaqişənin həlli məsələsində başlıca rolun Rusiyadan ATƏM-ə keçməsinə ABŞ-ın hər cür yardım göstərəcəyini qeyd etdi. O, 907-ci düzəlişin qüvvədə qalmasına baxmayaraq, Azərbaycana qeyri-hökumət təşkilatları xətti ilə yardım ediləcəyini də bildirdi[32].

M.Olbraytın Bakıya səfəri zamanı Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsinə dair müqavilənin imzalanması məsələləri əsas müzakirə mövzularından biri oldu. Görüş zamanı M.Olbrayt Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının işlənilməsinə və hasilatına dair müqavilənin tezliklə imzalanmasında ABŞ-ın maraqlı olduğunu bildirdi.

Bu dövrdə ən əhəmiyyətli diplomatik təmaslardan biri Azərbaycan

32 Qasımlı M. Göstərilən əsəri, II hissə, s.171

Prezidenti Heydər Əliyevin BMT-nin insan inkişafına dair ümumdünya toplantısı keçirilən zaman, 1994-cü il sentyabrın 6-da Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə görüşü oldu. Albert Qor ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin həllinə hər cür yardım göstərəcəyini, Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafının vacibliyini vurğuladı, ölkəsinin böyük neft müqaviləsinin imzalanmasına verdiyi dəstəyi bəyan etdi. Sentyabrın sonunda isə Nyu Yorkda BMT Baş Məclisinin 49-cu sessiyası çərçivəsində Heydər Əliyev Bill Klintonla görüşdü. Bu görüşdə ilk dəfə olaraq ABŞ Prezidenti Azərbaycanın mövqeyini müdafiə etdiyini, onun ABŞ üçün arzuedilən, əhəmiyyətli bir ölkə olduğunu ifadə etdi[33].

Heydər Əliyev Bill Klintonla növbəti dəfə Moskvada 1995-ci il mayın 9-da alman faşizmi üzərində Qələbənin 50 illiyinə həsr edilmiş mərasimdə, daha sonra isə oktyabrın 21-25-də BMT-nin 50 illik yubileyində iştirak etmək məqsədilə Nyu Yorka səfəri zamanı görüşdü. Nyu Yorka səfər zamanı Azərbaycan Respublikasının Prezidenti həmçinin energetika naziri O'Liri, M.Olbrayt, Henri Kissincer, konqresmen və senatorlarla görüşdü[34].

1995-ci ilin oktyabrında keçmiş dövlət katibi Zbiqnev Bjezinskinin başçılığı altında ABŞ nümayəndə heyətinin Bakıya səfəri zamanı ABŞ Prezidentinin və onun milli təhlükəsizlik məsələləri üzrə müşaviri Antoni Leykin şəxsi məktubu Azərbaycan Prezidentinə çatdırıldı. Məktubda Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəmərinin Azərbaycana gətirəcəyi uzunmüddətli faydalardan bəhs edilir və bu barədə müsbət qərar veriləcəyi təqdirdə Azərbaycan tərəfinə dəstək ifadə edilirdi. Qeyd edək ki, məhz bu görüşdən əvvəl Rusiya nümayəndə heyəti Azərbaycan Prezidenti ilə görüşmüşdü. Z.Bjezinskinin rəhbərlik etdiyi ABŞ nünayəndə heyəti ilə yanaşı həmin il Azərbaycana konqresmen Qreq Laflin, senator Riçard Şelbi, ATƏT-in Minsk Qrupundakı nümayəndəsi Cozef Pressel, ABŞ Milli Demokratiya İnstitutunun direktoru Nelson Letski, energetika

33 Yenə orada, s.171

34 "Azərbaycan Prezidenti Heydər Əliyevin tanınmış siyasi xadim, ABŞ-ın keçmiş dövlət katibi Henri Kissinceri qəbul edərkən söhbətindən" (8 yanvar 1999-cu il) sənədinə tarixi arayış.- http://lib.aliyevheritage.org/az/4716012.html

nazirinin müavini Uilyam Uayt, ABŞ-ın ATƏT-dəki nümayəndəsi Sem Braun, ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Ceyms Kollinz və başqalarının səfərləri baş tutdu və bir sıra görüşlər keçirildi. Bu görüşlərdə verilən əsas mesajlardan biri Rusiyanın Azərbaycanda hərbi mövcudluğuna yol verməmək idi[35].

Nəhayət, Azərbaycan diplomatiyasının səyləri ilk bəhrələrini verməyə başladı. Neft şirkətləri ilə müqavilələr imzalandıqdan sonra onlar Azərbaycanın xeyrinə fəal lobbi fəaliyyətinə, bu ölkənin siyasi qərarvericilərinin məlumatlandırılmasına və 907-ci düzəlişin aradan qaldırılması istiqamətində işlərə qoşuldular. Azərbaycana qarşı, faktiki olaraq, sanksiya siyasətinin aradan qaldırılması istiqamətində ilk addım 1996-cı ildə atıldı. 1996-cı il yanvarın 25-26-da Nümayəndələr Palatası, sonra isə Senat Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsini Texas ştatından olan Demokratlar Partiyasının və Nümayəndələr Palatasının üzvü Çarlz Uilsonun təklifi ilə qəbul etdi. Yanvarın 26-da Prezident Bill Klinton həmin sənədi təsdiqlədi. Düzəlişə görə, Azərbaycana yalnız qeyri-hökumət təşkilatlarının xətti ilə humanitar yardım göstərilməsi mümkün idi və Prezident qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardımın qaçqın və məcburi köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmədiyini müəyyən etdiyi təqdirdə Azərbaycana humanitar yardım göstərə bilərdi[36].

Neft müqavilələrinin imzalanmasından sonra Azərbaycanın həyata keçirdiyi fəal diplomatiya nəticəsində ABŞ-ın siyasi elitası ölkəmizin əhəmiyyətini özü üçün kəşf etməyə və daha yaxşı anlamağa başladı. Artıq bu dövrdən sonra ABŞ siyasi elitasında administrasiyada qəbul edilən 907-ci düzəlişin bir səhv olduğu etiraf edilməyə və açıq şəkildə səsləndirilməyə başlandı. Belə ki, bu dövrdə ABŞ dövlət katibinin müavini Ceyms Rubin mətbuat üçün açıqlamasında 907-ci düzəlişin daxili siyasətin nəticəsi olduğu və ABŞ-ın region siyasəti üçün əngələ

35 Qasımlı M. Göstərilən əsəri, s.175

36 "ABŞ Konqresinin "Azadlığı Müdafiə Aktı"na 907-ci əlavəsi və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin onun aradan qaldırılması ilə əlaqədar fəaliyyəti" mövzusunda ümumi tarixi arayış. /"Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana/ - http://lib.aliyev-heritage.org/az/3711428.html

çevrildiyini qeyd etdi[37]. Bu fikri ABŞ-ın digər rəsmi şəxsləri sonralar dəfələrlə təkrar edərək düzəlişin Vaşinqtonun region siyasətinin əl-qolunu bağladığını bildirdilər. 1997-ci ildə dövlət katibi M.Olbrayt ABŞ Konqresinə müraciətində bildirmişdi ki, 907-ci düzəliş administrasiyanın Dağlıq Qarabağ münaqişəsinin həllində bitərəfliyini sual altına qoymaqla, Azərbaycanda iqtisadi və geniş hüquqi islahatları dəstəkləmək imkanlarını məhdudlaşdırmaqla və Şərq–Qərb enerji dəhlizi istiqamətində fəaliyyətlərinə maneə olmaqla ABŞ-ın milli maraqlarına zərbə vurur[38].

Azərbaycan özünün fəal diplomatiyası ilə erməni lobbisinin ABŞ-ın qərarvermə prosesinə təsirini əhəmiyyətli şəkildə zəiflədərək bir neçə dəfə bu düzəlişin tamamilə ləğv edilməsinə çalışsa da, hər dəfə istər Klinton, istərsə də Buş administrasiyalarının bu istiqamətdə cəhdləri Konqresdə hələ də nüfuzlu mövqelər tutan erməni lobbisinin tərəfdarları tərəfindən ciddi müqavimətlə qarşılaşdı.

Erməni lobbisi bu dövrdə də fəaliyyətini genişləndirərək inkişaf etməkdə olan ABŞ–Azərbaycan münasibətlərinə mane olmaq üçün müxtəlif vasitələrdən istifadə edirdi. Ümumiyyətlə, bu dövrdən başlayaraq erməni lobbisinin fəaliyyətində bir qanunauyğunluq müşahidə edilməkdədir. Belə ki, əvvəlki dövrlərdə ABŞ-ın istər qanunverici, istər icraedici hakimiyyətləri erməni lobbisinin tam nüfuzu və təsiri altında idisə, 1993-cü ildən Azərbaycanın həyata keçirdiyi fəal diplomatiya və enerji strategiyası nəticəsində ermənilər icraedici hakimiyyətdə, ölkənin xarici siyasət maraqlarını real qiymətləndirən dairələr daxilində nüfuzlarını və dayaqlarını, demək olar, itirərək, öz təsirlərini yalnız qanunverici hakimiyyət, akademik, intellektual və idealist dairələr daxilində saxlaya bildilər. Məhz bu dövrdən başlayaraq ikitərəfli münasibətlərə mane olmaq cəhdləri ilk növbədə bu mərkəzlərdən gəlməkdədir.

Buna misal olaraq iki dövlət arasında münasibətlərin artan xətt üzrə inkişaf etdiyi bir dövrdə əlaqələrə anlaşılmazlıq gətirmiş "Porter düzəlişi"

37 Azerbaijan: U.S. Would Like Aid Ban Lifted. /October 09, 1997/ - http://www.rferl.org/content/article/1086900.html

38 Cornell Svante E. (2001). Small nations and great powers: a study of ethnopolitical conflict in the Caucasus. Psychology Press, p. 376

cəhdini qeyd etmək lazımdır. ABŞ–Azərbaycan münasibətlərinin inkişafından, xüsusilə Uilsonun Azərbaycana yardımla bağlı qanun layihəsindən sonra narahat olan erməni lobbisi 1996-cı il iyunun 11-də Konqresin Nümayəndələr Palatasında 1997-ci il üçün xarici əməliyyatlar haqqında qanun layihəsini konqresmen Con Porterin irəli sürdüyü düzəliş nəzərə alınmaqla qəbul etdirə bildi. Bu düzəliş ayrı-ayrılıqda həm Azərbaycanın, həm də "Dağlıq Qarabağ"ın qaçqın və məcburi köçkün düşmüş əhalisinə 7:1 nisbətində yardım edilməsini nəzərdə tuturdu. Bu düzəliş Dağlıq Qarabağı müstəqil subyekt kimi göstərərək Azərbaycanın maraqlarına uyğun olmayıb, onun müstəqilliyinə və suverenliyinə qarşı yönəlmiş bir sənəd idi[39]. ABŞ Dövlət Departamenti iyunun 12-də "Porter düzəlişi" ilə bağlı bəyanat verərək qanun layihəsinin göstərilən şəkildə qəbul edilməsi cəhdini münaqişənin siyasi danışıqlar yolu ilə aradan qaldırılması istiqamətində cəhdlərə maneə kimi qiymətləndirdi. Azərbaycanın ali dövlət rəhbərliyinin də bu düzəlişə etirazlarından sonra ABŞ Senatı iyulun 26-da xarici dövlətlərə yardım haqqında qanun layihəsini müzakirə edərək onu "Porter düzəlişi" nəzərə alınmadan qəbul etdi.

Klinton administrasiyası özünün növbəti ədalətli mövqeyini 1996-cı ilin oktyabr ayında Dağlıq Qarabağ regionunda qondarma "prezident" seçkiləri keçirilərkən Dövlət Departamentinin bəyanat verərək həmin hərəkətdən narahatlığını bildirməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini müdafiə etməsi ilə ifadə etdi. Bununla da ABŞ Azərbaycanın ərazi bütövlüyü məsələsində və Dağlıq Qarabağ münaqişəsində mövqeyini aydın şəkildə bəyan etdi. Həmin mövqe özünü Lissabon zirvə görüşü ərəfəsində və toplantının gedişində də göstərdi. Lissabon zirvə görüşü ərəfəsində, 1996-cı il noyabrın 6-da ABŞ Prezidenti B.Klinton Heydər Əliyevə göndərdiyi məktubunda Azərbaycanın ərazi bütövlüyünü və münaqişənin beynəlxalq hüquq normaları əsasında həll edilməsini dəstəklədiyini bildirdi.

39 Historical background to the document "Statement of the President of the Republic of Azerbaijan Heydar Aliyev connected with the discussions of "Porter Amendment" at the US Congress" /13.06.1996/ - http://lib.aliyev-heritage.org/en/7372308.html

Yeni dövr

Müstəqilliyin əldə edildiyi 1991-ci ildən Heydər Əliyev hakimiyyətə gələn dövrə qədər ABŞ-ın Azərbaycan siyasətində ölkəmizin milli maraqları, ərazi bütövlüyü, təhlükəsizliyi və gələcəyi üçün çox təhlükəli meyillər güclənməkdə idi. Bu təhlükəli meyillərin qarşısı, yuxarıda göstərildiyi kimi, Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu xarici siyasət strategiyası ilə alındı. ABŞ-ın region və ölkəmizlə bağlı siyasətinin Azərbaycanın milli maraqlarına uyğun istiqamətdə dəyişdirilməsi heç də asan baş verməyən, ciddi əngəllərlə üzləşən, böyük zəhmət, siyasi təcrübə və uzaqgörən siyasətin formalaşdırılmasını tələb edən bir fəaliyyət idi. Qısa müddət ərzində Azərbaycan özünün xarici siyasət strategiyası ilə nəinki təhlükəli meyillərin qarşısını ala bildi, həmçinin regionun lider dövlətinə və əsas oyunçusuna çevrildi.

Bu uğurlu siyasətin nəticəsi özünü 1997-ci il mayın 10-da Prezident Bill Klintonun Azərbaycan Prezidenti Heydər Əliyevə məktub göndərərək onu iyul-avqust aylarında ABŞ-a rəsmi səfərə dəvət etməsində tapdı[40]. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1997-ci il iyulun 27-dən avqustun 5-dək ABŞ-a ilk rəsmi səfər etdi. Bundan əvvəl, yuxarıda göstərdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin istər ABŞ Prezidenti Bill Klintonla, istərsə də bu ölkənin digər ali dövlət rəhbərləri ilə çoxsaylı görüşləri və təmasları olmuşdu. İlk rəsmi səfərin proqramı çox zəngin tərtib edilmişdi. Səfər çərçivəsində Azərbaycan Prezidenti ABŞ-da NATO-nun Baş katibi Xavyer Solano, ABŞ-ın BMT-dəki səfiri Uilyam Riçardson, Nyu Yorkda BMT iqamətgahında BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri, çoxsaylı konqresmen, senator, müxtəlif şirkətlərin rəhbərləri, Müdafiə Nazirliyi və Dövlət Departamentinin əməkdaşları, ictimaiyyət nümayəndələri, Corctaun Universitetinin professor-müəllim heyəti və tələbələri, beyin mərkəzlərinin nümayəndələri, Zbiqnev Bjezinski kimi şəxslərlə ümumilikdə 88 görüş keçirdi[41].

40 Qasımlı M. Göstərilən əsəri, II hissə, s.186

41 ABŞ-a rəsmi səfərin yekunları haqqında təyyarədə jurnalistlərə Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. /06.08.1997/ - http://lib.aliyev-heritage.org/az/8915236.html

Əsas görüş ABŞ Prezidenti Bill Klintonla avqustun 1-də oldu. Proqramı zəngin və maraqlı olduğuna görə görüş nəzərdə tutulandan çox, təqribən üç saat yarım-dörd saat çəkdi. Bu görüşün nəticəsi olaraq bir sıra vacib rəsmi sənədlərin imzalanması ölkələrimiz arasındakı münasibətləri yeni, əsl tərəfdaşlıq səviyyəsinə yüksəltdi, müstəqil Azərbaycan Respublikasının tarixinə mühüm hadisə kimi həkk olundu. Azərbaycan və ABŞ prezidentlərinin təkbətək görüşü zamanı Bill Klinton Prezident Heydər Əliyevin Azərbaycanda gördüyü işləri, apardığı siyasəti, olduqca çətin şəraitdə ölkədə sabitlik və əmin-amanlığın yaradılmasına nail olmasını yüksək qiymətləndirdi.

Bu görüş çərçivəsində avqustun 1-də Ağ Evin "Ruzvelt" zalında ABŞ–Azərbaycan münasibətlərinə dair birgə bəyanatın və "Sərmayə qoyuluşunun qarşılıqlı qorunması və qarşılıqlı təşviq edilməsi haqqında" Azərbaycan Respublikası və ABŞ hökumətləri arasında müqavilənin imzalanması mərasimi keçirildi.

İki dövlət rəhbərinin imzaladığı birgə bəyanatda qeyd olunur: "...Prezident Klinton və Prezident Əliyev siyasət, təhlükəsizlik, iqtisadiyyat və ticarət sahələrində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi vasitəsilə Birləşmiş Ştatlar və Azərbaycan Respublikası arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsinin əhəmiyyəti barədə razılığa gəldilər. Prezident Klinton Birləşmiş Ştatlar və Azərbaycan arasında sıx əlaqələrin regionda sülhün, sabitliyin və rifahın təmin olunması üçün vacib olduğunu qeyd edərək, ABŞ-ın Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişafını dəstəklədiyini qeyd etdi..."[42]. Bəyanatda 1992-ci ilin oktyabr ayında qəbul olunmuş "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin iki ölkə arasında əməkdaşlığı məhdudlaşdırdığı qeyd edilərək, bu düzəlişin ləğv olunmasının ABŞ Prezidenti tərəfindən qətiyyətlə dəstəkləndiyi vurğulandı[43].

Bundan əlavə, səfər zamanı ABŞ və Azərbaycan arasında müdafiə və hərbi sahələrdə gələcək münasibətlər haqqında birgə bəyanat, iki ölkə arasında energetikanın inkişafı üzrə ikitərəfli dialoqun yaradılması haqqında bəyanat, layihələrin təşviqinə dair Azərbaycan

42 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri /27 iyul–6 avqust 1997-ci il/ - http://lib.aliyevheritage.org/print.php?lang=az&page=6555664

43 Əliyev H.Ə. Yüksək səviyyəli ABŞ və Azərbaycan Respublikası nümayəndə heyətlərinin danışıqlarda çıxışdan. 1 avqust 1997-ci il. – Müstəqilliyimiz əbədidir. Bakı, 2003, XI cild, s.222-225

Respublikası Milli Bankı ilə ABŞ-ın İxrac-İdxal Bankı arasında baş saziş, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü (HPB) haqqında ARDNŞ ilə ABŞ-ın neft şirkətləri arasında dörd saziş də imzalandı. İlk dəfə olaraq Ağ Evdə neft müqavilələrinin imzalanması Heydər Əliyevin ABŞ-a səfərinə verilən əhəmiyyətin göstəricilərindən idi. Z.Bjezinski də Heydər Əliyevin ABŞ-a rəsmi səfərini Amerikanın Qafqazda yeritdiyi regional siyasətdə yeni mərhələnin başlandığını sübut edən epoxal və tarixi hadisə kimi qiymətləndirdi. "Nyu York Tayms" qəzeti isə Heydər Əliyevin ABŞ-a səfərini 18 avqust 1997-ci il tarixli sayında "Prezident Klinton Əliyevə bir qəhrəmana layiq münasibət nümayiş etdirdi" başlığı ilə şərh etdi[44].

Zbiqnev Bjezinskinin bu dövrdə nəşr edilmiş və ölkəmizin adının 50 dəfədən çox qeyd olunduğu məşhur "Böyük şahmat taxtası" əsərində keçmiş SSRİ-nin bölgələri önə çəkilir və Rusiyanın transformasiyasının Ukraynanın dəyişdirilməsi ilə mümkün olacağı fikri irəli sürülür. Siyasi və beynəlxalq münasibətlərə dair akademik dairələrdə sonrakı illərdə geniş müzakirələrin mövzusu olan bu əsərdə Azərbaycanın geosiyasi mövqeyinin və onun nəinki keçmiş sovet məkanı üçün, bütövlükdə ABŞ-ın Avrasiya strategiyasında və maraqlarında oynadığı və gələcəkdə oynaya biləcəyi rolunun izahı xüsusi yer alır. Azərbaycana verilən strateji dəyəri təkcə onunla göstərmək kifayətdir ki, Z.Bjezinski ölkəmizi Ukrayna, Cənubi Koreya, Türkiyə və İranla yanaşı, Avrasiya materikinin 5 ən əhəmiyyətli geosiyasi mərkəzindən (critically important geopolitical pivots) biri kimi qiymətləndirir[45]. Başqa bir yerdə isə müəllif Azərbaycanı Xəzər dənizinin və Mərkəzi Asiyanın enerji resurslarına çıxış üçün strateji qapı və ya nöqtə adlandırmışdı.

Keçən əsrin 90-cı illərinin sonunda ABŞ-ın dünya haqqında strateji düşüncələrini və yanaşmasını əks etdirən Z.Bjezinskinin qeyd edilən kitabı, eləcə də bölgə üzrə digər nüfuzlu mütəxəssislərin əsərləri Azərbaycanın ötən müddət ərzində Vaşinqton üçün strateji əhəmiyyətinin necə dəyişdiyinin ən yaxşı göstəricilərindən biridir.

44 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri /27 iyul-6 avqust 1997-ci il/ - http://lib.aliyevheritage.org/print.php?lang=az&page=6555664

45 Brzezinski Z. The Grand Chessboard: American Primacy and Its Geostrategic Imperatives, 1997, p. 42

Təsadüfi deyil ki, ABŞ-ın bölgə ilə bağlı strateji yanaşmasında baş verən dəyişiklik 1997-ci ildə Klinton administrasiyasının daxilindəki yeni təyinatda da öz əksini tapdı. Belə ki, dövlət katibi vəzifəsində Uorren Kristoferi keçmiş SSRİ ərazisində və Xəzər dənizi hövzəsində daha fəal siyasətin tərəfdarı olan M.Olbrayt əvəz etdi[46]. Bundan əlavə, 1997-ci ilin əvvəllərində ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Sendi Berger Çin, Türkiyə və Qafqaz bölgəsinin bu ölkənin xüsusi maraq zonasına daxil olduğunu bildirərək, Vaşinqtonun Qafqaz və Mərkəzi Asiyada daha fəal siyasət yeridəcəyini elan etdi[47]. Həmin ilin iyulunda dövlət katibinin müavini Stroub Telbot isə Cənubi Qafqaz və Mərkəzi Asiyanın ABŞ üçün "strateji əhəmiyyətli region" olduğunu və regionda baş verənlərin bu ölkənin maraqlarına birbaşa təsir etdiyini bildirdi[48].

ABŞ səfərindən sonra, 1997-ci il sentyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" sərəncam imzaladı. Bu sərəncamla iki ölkə arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair proqram təsdiq edildi. Azərbaycan Respublikası Nazirlər Kabineti, Xarici İşlər Nazirliyi və Milli Bank təsdiq olunmuş proqramlarda nəzərdə tutulan tədbirlərin icrasını təmin etməli və rübdə bir dəfə dövlət başçısına məlumat verməli idilər. Müvafiq strukturlar Azərbaycan Respublikası ilə ABŞ arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsini təmin etmək məqsədilə ABŞ-ın müvafiq strukturlarla dialoqu davam etdirməli idilər[49].

İkitərəfli münasibətlərdə növbəti əlamətdar hadisə 1998-ci il oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin, Gürcüstan Prezidenti Eduard Şevardnadzenin, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin, Türkiyə Respublikasının

46 Cornell Svante E. (2001). Small nations and great powers: a study of ethnopolitical conflict in the Caucasus. Psychology Press, p.367

47 Yenə orada

48 Yenə orada

49 "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında partnyorluq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı./ Bakı şəhəri, 2 sentyabr 1997-ci il/ - http://www.e-qanun.az/framework/4250

Prezidenti Süleyman Dəmirəlin, Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun iştirakı və ABŞ-ın energetika naziri Bill Riçardsonun şahidliyi ilə neft və qaz ehtiyatlarının hasilatı, istehsalı və Qərb marşrutu istiqamətində nəqli ilə bağlı tarixi Ankara Bəyannaməsinin imzalanması oldu[50].

İki ölkə arasında enerji sahəsində əməkdaşlıq özünün məntiqi nəticəsini 2002-ci il sentyabrın 17-də Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəmərinin Bakıda təməlqoyma mərasimində tapdı, münasibətlərin möhkəmlənməsinə və daha da inkişaf etməsinə təsir edən amillərdən biri oldu. Bu tədbirdə ABŞ-ı energetika naziri Spenser Abraham təmsil etdi.

11 sentyabr terror aktından sonra Azərbaycan–ABŞ münasibətləri

Azərbaycan ABŞ-ın strateji maraqları üçün 2001-ci il 11 sentyabr terror aktından sonra yeni əhəmiyyət kəsb etməyə başladı. Bu terror aktından sonra Azərbaycan ABŞ-ın rəhbərliyi ilə yaradılan antiterror koalisiyasına ilk qoşulan ölkələrdən və onun fəal iştirakçılarından biri oldu. Azərbaycan Prezidenti sentyabrın 11-də ABŞ-da baş verən hadisələrlə bağlı xüsusi bəyanat verərək, terror aktlarını və terrorçuluğun bütün təzahürlərini pislədi, Azərbaycan dövlətinin terrorçuluğa qarşı həmişə mübarizə apardığını qeyd etdi, terrorçuluq əleyhinə mübarizədə Bakının əməkdaşlığa hazır olduğunu bildirdi[51].

Ölkəmizin ABŞ-ın başçılığı ilə həyata keçirilən antiterror əməliyyatlarında istər coğrafi, istərsə də hərbi qüvvələri və digər vasitələrlə töhfələrini nəzərə alaraq Konqres qəbul etdiyi qərarla ABŞ Prezidentinə 907-ci düzəlişin qüvvəsini dayandırmaq imkanı yaratdı[52]. ABŞ dövlət katibi Kolin Pauel Konqresin 8 nüfuzlu üzvünə məktubla

50 Azərbaycan neftinin dünya bazarlarına nəqli, s.19. /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, III fəsil/ - http://files.preslib.az/site/10il/gl3.pdf

51 Statement of the Azerbaijan President Heydar Aliyev in connection with the act of terrorism occurred in the United States of America on September 11, 2001. /September 11, 2001/ - http://lib.aliyev-heritage.org/en/2735953.html

52 107th U.S. Congress (10.01.2002). "Foreign Operations, Export Financing, and Related Programs Appropriations Act, 2002". Public Law 107-115

müraciət edərək Azərbaycana qarşı qadağanın aradan qaldırılmasını dəstəkləməyə çağırdı. Oktyabrın 9-da senator Sem Braunbek Senatda 907-ci düzəlişin ləğv edilməsi haqqında qanun layihəsi ilə çıxış etdi. Oktyabrın 24-də ABŞ Senatı 907-ci düzəlişin dayandırılması üçün ABŞ Prezidentinə səlahiyyət verilməsinə dair təşəbbüsü səsvermə yolu ilə qəbul etdi[53].

Azərbaycan ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi hərbi əməliyyatlara öz Silahlı Qüvvələri ilə dəstək verdi və bu ölkəyə hərbi və mülki yüklərin daşınması üçün əsas tranzit marşrutlarından birinə çevrildi. Ötən müddət ərzində NATO-nun Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) qeyri-hərbi yüklərinin 40%-dən çoxu NATO-nun Şimal Paylayıcı Şəbəkəsinin (ŞPŞ) əsas tranzit hissəsi olan Azərbaycan ərazisindən keçmişdir. Bundan əlavə, Azərbaycan ABŞ ordusunun nəqliyyat və hərbi hava komandanlıqlarına Əfqanıstanda əməliyyatlar zamanı uçuşlara nəzarət, təcili tibbi uçuşlar, yanacaq və texniki xidmətlər sahəsində yardım etməklə ISAF-a dəstək oldu[54]. Azərbaycan Əfqanıstanda sülhün və təhlükəsizliyin bərpa edilməsi üçün beynəlxalq koalisiya daxilində fəaliyyəti ilə yanaşı, bu ölkənin dövlət quruculuğu sahəsində təcrübəsini bölüşməklə, dövlət qulluqçuları və digər fəaliyyət sahələri üçün əsaslı təlimlərin keçirilməsi, ərazilərin minalardan təmizlənməsi, təhsil də daxil olmaqla, təhlükəsizlik və silahlı qüvvələrin qurulmasında[55] yaxından iştirak etməkdədir[56]. Əldə edilmiş razılığa əsasən, təkcə 2015-ci ildə Azərbaycan Əfqanıstan Milli Ordusu Etimad Fonduna 2 milyon avro həcmində maliyyə yardımı etmişdir[57].

Azərbaycanın beynəlxalq təhlükəsizliyin, o cümlədən ABŞ-ın milli

53 Jim Nichol and Julie Kim. Armenia, Azerbaijan, and Georgia: Political Developments and Implications for U.S. Interests, CRS Issue Brief for Congress, Foreign Affairs, Defense, and Trade Division, Updated January 3, 2002, p.5. - http://www.dtic.mil/dtic/tr/fulltext/u2/a474109.pdf

54 Fuad Chiragov and Reshad Karimov. Policies from afar: the US options towards greater regional unity in the South Caucasus – The South Caucasus – Between integration and fragmentation. /21.05.2015, p. 97/ - http://www.epc.eu/documents/uploads/pub_5598_article_-_fuad_chiragov_and_reshad_karimov.pdf

55 Azərbaycan və Əfqanıstan arasında hərbi yardım haqqında saziş təsdiq edildi. /07.09.2016/ - http://az.trend.az/azerbaijan/politics/2657830.html

56 Azərbaycan Əfqanıstana dəstəyini davam etdirəcək. /05.10.2016/ - http://www.amerikaninsesi.org/a/azerbaijan_afqanistan/3538362.html

57 Azərbaycan Əfqanıstan Milli Ordusu Etimad Fonduna 2 milyon avro yardım edəcək. /01.12.2015/ - http://az.trend.az/azerbaijan/politics/2463796.html

təhlükəsizliyinin təmin edilməsində, eləcə də beynəlxalq terrorizmə qarşı mübarizədə oynadığı rol bu ölkənin yüksək rütbəli şəxsləri və tanınmış ekspertləri tərəfindən də dəfələrlə vurğulanmışdır. Məsələn, 2004-cü il martın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında ABŞ dövlət katibinin birinci müavini Riçard Armitacı və onu müşayiət edən şəxsləri qəbul edən zaman ABŞ rəsmisi dövlət başçısına və Azərbaycan xalqına terrorizmə qarşı mübarizədə Vaşinqtonla bir koalisiyada olmasına və birgə əməliyyatlarda iştirak etməsinə görə minnətdarlığını ifadə etmişdi. R.Armitac Azərbaycan əsgərlərinin çox mətin şəkildə xidmət etdiklərini bildirərək, onların İraqda və Əfqanıstanda koalisiya qüvvələrinə yardım etdiyini xüsusi qeyd etmişdi. Azərbaycan Respublikasının Prezidenti isə iki ölkə arasında münasibətlərin çox sürətlə inkişaf etdiyini, bütün sahələrdə çox gözəl əməkdaşlığın olduğunu, ABŞ-ın dəstəyi ilə Azərbaycanda energetika sektorunda irimiqyaslı, dünya üçün əhəmiyyətli layihələrin həyata keçirildiyini, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin uğurla davam etdirilməsində Vaşinqtonun xüsusi dəstəyini vurğulamışdı[58]. Bundan əlavə, Azərbaycan ABŞ-ın qlobal strateji maraqları üçün digər məqama görə də dəyər qazandı. Bu da Azərbaycan əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən nümunəvi, bütün milli və dini azlıqlara tolerant yanaşan dünyəvi[59] və multikultural cəmiyyət olmasıdır.

2002-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 10-cu illiyi münasibətilə ABŞ Prezidenti Corc Buş Prezident Heydər Əliyevə göndərdiyi məktubda 11 sentyabrdan sonra antiterror koalisiyasında əməkdaşlıq və ABŞ xalqı ilə həmrəylik etdiyi üçün Azərbaycan xalqına minnətdarlığını, ABŞ administrasiyasının Dağlıq Qarabağ münaqişəsinin "ədalətli və uzunmüddətli" həllini gözlədiyini, ikitərəfli münasibətləri inkişaf etdirmək arzusunu ifadə etdi. İki ölkə arasında münasibətlərdə növbəti addım Prezident Corc Buşun dəvəti

58 Azərbaycan–ABŞ münasibətləri gələcəkdə daha yüksək pilləyə qalxacaqdır: Azərbaycan Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin birinci müavini Riçard Armitacı qəbul etmişdir. /27.03.2004/ - http://azertag.az/xeber/AZARBAYCAN_ABS_MUNASIBATLARI_GALACAKDA_DAHA_YUKSAK_PILLAYA_QALXACAQDIRAZARBAYCAN_PREZIDENTI_ILHAM_ALIYEV_ABS_DOVLAT_KATIBININ_BIRINCI_MUAVINI_RICHARD_ARMITACI_QABUL_ETMISDIR-308649

59 Cohen A. U.S. Policy in the Caucasus and Central Asia: Building A New"Silk Road" to Economic Prosperity. /24.07.1997/ - http://www.heritage.org/research/reports/1997/07/bg1132

ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2003-cü il fevralın 23-də ABŞ-a səfəri oldu[60]. Səfərdə məqsəd Azərbaycan, Türkiyə, Gürcüstan və ABŞ hökumətlərinin təşkil etdiyi Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəməri və Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərinə həsr olunmuş "Şərq–Qərb enerji dəhlizi reallıqdır" mövzusunda konfransda iştirak, ABŞ rəsmi şəxsləri ilə ikitərəfli və regional məsələləri müzakirə etmək idi.

11 sentyabr terror aktından sonra iki ölkə arasında təhlükəsizlik sahəsində və Müdafiə nazirlikləri arasında əməkdaşlıq genişləndirildi. 2002-ci ildə ABŞ hökuməti Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə təhlükəsizlik sahəsində 2001-ci illə müqayisədə 4 dəfə çox, təqribən 4,4 milyon dollar məbləğində yardım ayırdı. 2002-ci ildə Azərbaycan təhlükəsizlik və müdafiə sahəsində 11 proqramda iştirak etdi[61]. Azərbaycan Respublikası Milli Məclisi 2002-ci il noyabrın 15-də Azərbaycan Silahlı Qüvvələrinin dörd taqımının Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin taburunun tərkibində və NATO strukturlarının ümumi komandanlığı altında Əfqanıstanda yerləşdirilməsi və müvafiq əməliyyatlarda iştirak etməsi haqqında qərar qəbul etdi[62].

Azərbaycan Əfqanıstan əməliyyatlarında olduğu kimi, antisəddam koalisiyası yaradılarkən də 2003-cü ilin əvvəlində ABŞ-a öz dəstəyini verdi[63]. ABŞ Prezidenti Corc Buş martın 17-də Azərbaycan Respublikasının Prezidentinə verdiyi dəstəyə görə təşəkkür məktubu göndərdi. İyulun 2-də Azərbaycan Respublikasının və ABŞ-ın Müdafiə nazirlikləri arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında saziş imzalandı və Xəzər dənizində sərhədə nəzarət rejiminin qurulmasını nəzərdə tutan 100 milyon dollarlıq Xəzər Dənizi Mühafizə Proqramının həyata keçirilməsinə başlandı.

60 "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Birləşmiş Ştatların Ticarət naziri Donald Evans ilə görüşmüşdür" (Vaşinqton, 24 fevral 2003-cü il) sənədinə tarixi arayış. - http://lib.aliyev-heritage.org/az/3008538.html

61 Elizabeth Wishnick, Growing U.S. Security Interests in Central Asia, Strategic Studies Institute, U.S. Army War College, 2002, p. 7.

62 Azərbaycan–NATO: 15 illik tərəfdaşlıq /Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi, 2009, s.43/ - http://www.mfa.gov.az/files/file/Az-NATO_15_il(az).pdf

63 Azərbaycan Silahlı Qüvvələri sülhməramlı bölüyünün İraqa yolasalma mərasimi keçirilmişdir. /13.08.2003/ - http://azertag.az/xeber/AZARBAYCAN_SILAHLI_QUVVALARI_SULHMARAMLI_BOLUYUNUN_IRAQA_YOLASALMA_MARASIMI_KECHIRILMISDIR-294421

11 sentyabr terror aktının Vaşinqtonun ölkəmizlə bağlı siyasətinə təsir edən məqamlarından bəhs edərkən bu hadisənin ABŞ-da ictimai rəyə, eləcə də qlobal miqyasda xarici siyasətinə iki istiqamətdə təsir etdiyinə toxunmaq lazımdır. Məhz bu istiqamətlərdə təsir həmçinin ABŞ-ın sonrakı dövrlərdə Azərbaycan siyasətində yeni dəyişikliklərə gətirib çıxaran amillər oldu. Qeyd etmək lazımdır ki, 11 sentyabr terror aktının ABŞ ictimai rəyinə aşağıda göstərilən iki istiqamətdə təsirindən bu ölkədəki erməni lobbisi Vaşinqtonun Azərbaycanla münasibətlərinin korlanması üçün birbaşa və dolayı yollarla təsir etmək üçün yararlanmağa çalışdı və bu istiqamətdə həmin fəaliyyətlər hələ də davam etməkdədir.

Birincisi, 2001-ci il 11 sentyabr terror aktından sonra Qərbin hakim intellektual dairələrində belə bir fikir geniş yayıldı ki, müsəlman dünyasında dini ekstremizmi, antiamerikanizmi və Yaxın Şərqdə qeyri-sabitliyi alovlandıran əsas səbəb bölgənin qeyri-demokratik rejimləri, İsrail və Qərbin bir çox hallarda onlara dəstək verməsi olmuşdur. Məhz bu fikir Buş administrasiyasının "demokratiyaya dəstək strategiyası"nı[64] tətbiq etməsinə və sonrakı administrasiya dövründə də Yaxın Şərqdə ABŞ-ın ənənəvi müttəfiqlərinə dəstəkdən geri çəkilməyə və onlara qarşı təzyiqləri tədricən artırmağa səbəb olmuşdu. Bu siyasətə Obama administrasiyası dövründə daha geniş yer verilməyə başlandı və ABŞ-ın Yaxın Şərqin monarxik rejimləri və İsraillə münasibətlərinin pisləşməsinə yol açan məqamlardan oldu. Məhz bu fikir ABŞ-ı özünün xarici siyasətində "narıncı inqilablar"a və demokratik hərəkatlara geniş dəstək verməyə təşviq etdi. Əvvəllər ABŞ insan hüquqları və demokratiya məsələlərindən yalnız enerji və digər strateji maraqlarının təmin edilməsi üçün bəzi ölkələrə təzyiq və onların daxili işlərinə qarışmaq üçün vasitə kimi istifadə edirdi. 11 sentyabr hadisələrindən sonra dünyada ABŞ-a qarşı mənfi münasibətin getdikcə artdığı bir dövrdə isə ABŞ hakim siyasi dairələri insan hüquqları və demokratiya məsələlərinə daha həssas yanaşmağa başladı. Xarici siyasətdə həmin qüvvələr digər dövlətlərə qarşı nəinki özlərinin liberal tələblərini artırdılar, həm də bu ideyaların daşıyıcıları olan qüvvələr digər ölkələri demokratiyaya gətirmək və ya

64 Elliott Abrams. A Forward Strategy of Freedom. /23.01.2012/ - http://foreignpolicy.com/2012/01/23/a-forward-strategy-of-freedom/

məcbur etmək məqsədilə xarici müdaxilələrə belə əl atdılar. Məsələn, ABŞ-da iki siyasi qrupun – liberal intervensionistlərin və neokonların ideyaları bu əsasda qurulmuşdur. Onlar hətta ABŞ (liberal imperializm)[65] və digər Qərb ölkələrinin dünyada demokratik ideyaları və insan hüquqlarını "qorumaq öhdəliyi" kimi prinsip ortaya atdılar. Təbii ki, digər xalqların tarixi, ictimai, iqtisadi inkişaf səviyyələrini nəzərə almadan bır sıra ölkələrə zorla demokratiya gətirmək cəhdləri yeni münaqişələr və terrorizm ocaqlarının meydana çıxması ilə nəticələnməli idi.

Xarici siyasətdə liberal idealistlər belə hesab edirlər ki, dünyada sülhün bərqərar olması yalnız dünyanın bütün dövlətləri və xalqları tərəfindən liberal ideyaların qəbul edilməsindən sonra mümkündür. Belə ki, demokratik sülh nəzəriyyəsinə görə, liberal dövlətlər bir-biri ilə müharibə etmir və bir-birinə qarşı gizli fəaliyyət göstərmirlər. SSRİ-nin dağılmasından sonra isə Fukuyama və digər liberal müəlliflər dünyada liberal demokratiyanın qalib gələcəyini və bəşəriyyətin postideoloji dövrə qədəm qoyacağını proqnozlaşdırırdılar. Ötən müddət ərzində həmin dairələrin demokratiya sahəsində tələbləri və atdıqları addımların miqyası və çərçivəsi daim genişlənmişdir. Əgər əvvəllər həmin dairələrin liberal azadlıqlar istiqamətində tələbləri azad seçkilər, demokratiya və insan hüquqları sahəsi ilə məhdudlaşırdısa, sonradan bura gender bərabərliyi məsələsinin daha fundamental tələb kimi qoyulması əlavə edildi. Daha sonra liberal dairələr öz fəaliyyətlərində etnik və digər azlıqların hüquqlarının qorunması məsələsini irəli sürdülər. Ən maraqlı məqamlardan biri odur ki, liberal qüvvələr və bu düşüncəli insanlar Qərbdə bütün akademik sahələri, universitetləri, beyin mərkəzlərini, sosial elmlər sahəsini, ən nüfuzlu mətbuat orqanlarını və kino sənayesini nəzarətə keçirməklə qlobal miqyasda bütün müzakirələrə yön verməyə nail oldular[66]. Bəziləri hətta bu vəziyyətə "liberal ideyaların diktaturası" tərifini verirlər. Çox maraqlı məqam odur ki, bir zamanlar "azadlıq" sözündən əsasını götürmüş qrupun özü bir qədər fərqli və ya mühafizəkar düşüncəli insanlara çox dözümsüz yanaşmağa başladı.

65 Rieff David. Obama's Liberal Imperialism. /11.02.2014/ - http://nationalinterest.org/commentary/obamas-liberal-imperialism-9861

66 Mooney Chris. Yes, Liberals Rule the Ivory Tower – But Why? /20.04.2013/ - http://www.motherjones.com/politics/2013/04/higher-education-liberal-research-indoctrination

Hazırda Qərbdə heç kimə sirr deyil ki, bir qədər mühafizəkar düşüncəli insanın sosial elmlər sahəsində hər hansı bir uğura nail olması, nüfuzlu universitetlərdə çalışması həddindən artıq çətin məsələdir[67]. Belə bir vəziyyətin yaranmasını elə Qərbin özündə keçirilən çoxsaylı tədqiqatlar, sorğular və açıq müzakirələr sübut edir.

Erməni lobbisi ictimai rəydə və hakim siyasi dairələrdə genişlənən bu cür fikirlərdən sonrakı dövrlərdə fəal şəkildə istifadə etməyə başladı. Onlar bütün resursları səfərbər edərək sistemli şəkildə Azərbaycanın qeyri-demokratik, seçkilərin saxtalaşdırıldığı, insan hüquqlarının kobud şəkildə pozulduğu və neftlə zəngin avtoritar klassik rejimlərdən biri kimi ölkənin yanlış imicinin yaradılması üçün fəaliyyəti genişləndirdilər. Bu dövrdən başlayaraq Azərbaycanın ABŞ üçün strateji əhəmiyyətini yaxşı anlayan və bu barədə çıxış edən ekspertlər, şərhçilər, siyasi xadimlər və digərləri həmin qüvvələrin "avtoritar, qeyri-demokratik rejimin maraqlarını rüşvət qarşılığında qoruyan və demokratiya ideallarına xəyanət edən" kimi ittihamlar daşıyan əsassız və davamlı hücumları və təzyiqləri ilə üzləşməyə başladılar. Eləcə də bu dövrdən başlayaraq[68] istər Azərbaycanın, istərsə də digər ölkələrin daxili işlərinə müxtəlif mənbələrdən maliyyələşən QHT[69] və KİV vasitəsilə qarışmaq halları artmağa[70] və bu siyasət Obama administrasiyası dövründə xüsusilə geniş hal almağa başladı. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Corc Buşun dəvəti ilə 2006-cı il 25-28 aprel tarixlərində uğurlu və məhsuldar rəsmi səfərinin bu ölkənin erməni lobbisinin təsirində olan bəzi KİV vasitəsilə necə işıqlandırılmasını misal gətirmək olar. Həmin qüvvələr Azərbaycan Respublikası ilə ABŞ arasında münasibətlərin yüksək səviyyəsindən narahat olaraq, rəsmi

67 Emily Esfahani Smith. Survey shocker: Liberal profs admit they'd discriminate against conservatives in hiring, advancement. /01.08.2012/ - http://www.washingtontimes.com/news/2012/aug/1/liberal-majority-on-campus-yes-were-biased/?page=all

68 Silver Alexandra. Soft Power: Democracy-Promotion and U.S. NGOs, (Council on Foreign Relations). /17.03.2006/ - http://www.cfr.org/democratization/soft-power-democracy-promotion-us-ngos/p10164

69 Democracy Promotion Organizations in the United States, List of organizations in the United States that work in the general area of Democracy Promotion, Stanford University. // http://fsi.stanford.edu/docs/democracy_promotion_organizations_in_the_united_states#Official U.S. Governments

70 Merry Robert W. Why Do Some Foreign Countries Hate American NGOs So Much? /02.04.2012/ - http://www.theatlantic.com/international/archive/2012/04/why-do-some-foreign-countries-hate-american-ngos-so-much/255335/

Vaşinqtonu insan hüquqları və demokratiya məsələləri sahəsində Bakıya təzyiqlər etməyə çağırsalar[71] da, ümumiyyətlə, bu dövrdə iki dövlət arasında münasibətləri müsbət qiymətləndirmək olar. Münasibətlərin yüksək səviyyədə olmasını əks etdirən mühüm tarixi hadisə isə 2008-ci il sentyabrın 2-də ABŞ-ın vitse-prezidenti Dik Çeyninin Azərbaycana ikitərəfli münasibətləri və regional təhlükəsizlik məsələlərini müzakirə etmək üçün səfəri olmuşdur.

İkincisi, 2001-ci il terror aktı və sonrakı illərdə bənzər hadisələr ABŞ-da və Qərbdə xristian təəssübkeşliyi və islamofob ideyaların daha da genişlənməsinə səbəb oldu. Bu dövrdən sonra erməni lobbisinin ABŞ-da fəaliyyətinin təhlili onu göstərir ki, onlar ictimai çıxışlarında Ermənistan üçün işlətdikləri "müsəlman ölkələrinin əhatəsində olan kiçik xristian dövləti" ifadəsinin intensivliyini ölkə ictimaiyyətinin rəğbətini qazanmaq üçün daha da artırdılar. Məhz bu dövrdən başlayaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Qərb mətbuatında "müsəlman Azərbaycanın xristian ermənilərlə müharibəsi" ifadəsi daha geniş şəkildə işlədilməyə başlandı[72]. ABŞ siyasi səhnəsində, xüsusilə Konqresdə daimi nüfuzlu yerləri tutan müxtəlif xristian sektant və fundamentalistlərin mövqelərinin olduğunu nəzərə alaraq[73], bu cür ifadənin ictimai rəyə Azərbaycanın maraqları üçün hansı formada mənfi təsir etdiyini anlamaq elə də çətin deyil.

Azərbaycanın ABŞ-la əməkdaşlığına maneələr yaratmaq üçün erməni lobbisi ölkəmizə qarşı insan hüquqları və demokratiya sahəsində tənqidləri alovlandıraraq, qərarvermə prosesində iştirak edənlərə təzyiq göstərməklə onları Bakı ilə münasibətlərin rəsmi şəkildə "üçsütunlu münasibətlər" ("three basket" – üç zənbil və ya bəzi müəlliflər "sütun" adlandırır) formulu əsasında qurulduğunu bəyan etdirməyə məcbur etdilər. Beləliklə, ABŞ üçün ikitərəfli münasibətlərin deklarativ formulu bu cür bəyan edildi: təhlükəsizlik, enerji resursları və insan

71 Amerika mətbuatı Azərbaycan Prezidentinin səfəri ilə bağlı şərhlərlə çıxış edir. /24.04.2006/ - http://www.amerikaninsesi.org/a/a-56-2006-04-24-voa7-88608052/702690.html

72 David King, Miles Pomper. The U.S. Congress and the Contingent Influence of Diaspora Lobbies: Lessons from U.S. Policy toward Armenia and Azerbaijan, Harvard University & Congressional Quarterly, 9 December, 2002, p.9

73 Lee Marsden. The Christian Right and US Foreign Policy today. /April 2010/ - http://www.e-ir.info/2010/04/14/the-christian-right-and-us-foreign-policy-today/

haqları. Bu formul ABŞ xarici siyasətinin formalaşmasında iştirak edən respublikaçıların və demokratların, habelə digər müxtəlif maraq qruplarının və onların mövqelərinin əks edildiyi ortaq məxrəc və ya konsensusdur. ABŞ xarici siyasətində digər ölkələrə qarşı münasibəti ifadə edən və müxtəlif maraq qruplarının (bəzən isə ziddiyyət təşkil edən) mövqelərini əks etdirən deklarativ prinsiplərin və formulların elan edilməsi bir adət halını almışdır. Konsensus nəticəsində əldə edilən formulların bu və ya digər elementlərinin qabardılması üçün həmin maraq qrupları daim siyasi mübarizəni davam etdirirlər.

Əgər 1994-cü ildən ABŞ-la inkişaf edən münasibətlərin əsas faktoru Azərbaycanın və Xəzər hövzəsinin enerji resurslarının dünya bazarında alternativ enerji mənbəyi kimi rolu idisə, 2001-ci il 11 sentyabr terror aktından sonra bu münasibətlərin təməlinə regional təhlükəsizlik sahəsində qarşılıqlı əməkdaşlıq əlavə edilmişdi. Bu iki təməl əsasında Vaşinqton və Bakı arasında münasibətlər qarşılıqlı anlayış və əməkdaşlıq istiqamətində çox məhsuldar nəticələr verirdi. Daha sonra bu iki təməl sütuna yuxarıda göstərdiyimiz səbəblərə görə demokratiya və insan hüquqları faktoru əlavə edildi ki, bir sıra hallarda Azərbaycan tərəfindən bu istiqamətdə fəaliyyətlər ölkənin daxili işlərinə qarışmaq cəhdləri kimi qiymətləndirildi və münasibətlərdə bəzən gərginliklərə gətirib çıxardı.

Obama administrasiyası dövründə Azərbaycan–ABŞ münasibətləri

Bəzi məqamları çıxmaq şərtilə Corc Buş administrasiyası özünün Azərbaycanla münasibətlərində praqmatik siyasətə üstünlük verərək "üçsütunlu" formulun əsasən ilk iki elementinə – təhlükəsizlik və enerji resursları məsələlərinə daha çox diqqət yetirirdi. ABŞ Azərbaycana, dövlət katibinin keçmiş müavini Uiliam C. Börnsün dediyi kimi, Amerikanın maraqlarını və xarici siyasətini müəyyən edəcək üç regionun – Yaxın Şərq, Avropa və Asiyanın kəsişdiyi coğrafiyada yerləşən strateji tərəfdaş kimi baxırdı[74]. Bu yanaşma ABŞ-da Obama administrasiyasının ilk

74 ABŞ–Azərbaycan münasibətləri. /Uiliam C. Börns – Dövlət katibinin siyasi məsələlər üzrə müavini, Corctaun Universiteti, Vaşinqton şəhəri, 18.09.2009/ - https://azeri.azerbaijan.usembassy.gov/uploads/images/9GD1ZaFfYrnXccZH7OY1bw/Burns_AZ.pdf

hakimiyyət dövründən dəyişməyə başladı. Bu, ikitərəfli münasibətlərdə bir sıra gərginliklərin meydana çıxmasına səbəb oldu.

Bu cür gərginliyin səbəbi ilk növbədə ABŞ-ın daxili siyasi səhnəsində baş verən bir sıra köklü dəyişikliklər idi. İlk növbədə qeyd etmək lazımdır ki, Obama hakimiyyətə gəldikdən sonra onunla birlikdə daha çox insan hüquqları və demokratiya məsələlərinə önəm verən, eləcə də bunlardan digər ölkələrin daxili işlərinə qarışmaq üçün bəhanə kimi istifadə etməyə çalışan[75] (responsibility to protect) müxtəlif liberal, sol və idealist qruplar irəli çıxdı. Obamanın özü ilə xarici siyasət üzrə dövlət orqanlarına gətirdiyi insanlar əsasən Demokratlar Partiyasının idealist fəalları və insan hüquqları və demokratiya ilə bağlı müxtəlif beynəlxalq təşkilatların nümayəndələri idilər. Məsələn, onlardan biri, dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə köməkçisi təyin olunana qədər "Freedom House"un icraçı direktoru olmuş Tomas Melia Azərbaycana qarşı tənqidləri və ittihamları ilə iki ölkə arasında münasibətlərin gərginləşməsində xüsusi rol oynadı.

Qeyd etmək lazımdır ki, ABŞ xarici siyasətində insan hüquqları və demokratiya mövzularının Vaşinqtonun iqtisadi və siyasi maraqlarının reallaşdırılması[76] üçün xarici siyasətdə digər ölkələrə qarşı vasitə[77] kimi istifadə olunması, bir çox hallarda qiymətləndirilmələrdə ikili standartlar prizmasından[78] yanaşıldığı elə bu ölkənin ən mötəbər akademik və siyasi dairələrində daim müzakirə edilən məsələlərdəndir[79]. ABŞ-da bəzi dairələr insan hüquqları və demokratiya məsələlərindən təzyiq vasitəsi kimi istifadə edərək Azərbaycanı Vaşinqtonun regionda olan digər rəqibləri

75 Charles Homans. Responsibility to Protect: A Short History, Just what is a just war? /11.10.2011/ - http://foreignpolicy.com/2011/10/11/responsibility-to-protect-a-short-history/

76 Steve Smith. US democracy promotion: Critical questions, in American Democracy Promotion: Impulses, strategies, and impacts, edited by Michael Cox, G John Ikenberry and Takashi Inoguchi, Oxford University Press, 2010, p.79

77 David Carleton and Michael Stohl. The Foreign Policy of Human Rights: Rhetoric and Reality from Jimmy Carter to Ronald Reagan, Human Rights Quarterly, Vol. 7, No. 2 (May, 1985), pp. 205-229, The Johns Hopkins University Press. - http://www.jstor.org/stable/pdf/762080.pdf

78 Judith Innes de Neufville, Human Rights Reporting as a Policy Tool: An Examination of the State Department Country Reports, Human Rights Quarterly, Vol. 8, No. 4 (Nov., 1986), pp. 681-699, The Johns Hopkins University Press. - http://www.jstor.org/stable/pdf/762198.pdf

79 Lagon Mark P. Promoting Human Rights: Is U.S. Consistency Desirable or Possible? A Markets and Democracy Brief, Council on Foreign Relations, October 2011. - http://www.cfr.org/human-rights/promoting-human-rights-us-consistency-desirable-possible/p26228

ilə münasibətlərdə daha sərt mövqe tutmağa təhrik etməklə onlar üçün yeni ziddiyyət və problem mənbəyi yaratmağa çalışırdı. Azərbaycan isə bu müddət ərzində ABŞ-la qarşılıqlı faydaya əsaslanan münasibətlər qurmağa hazır olmaqla yanaşı, bu münasibətlərin ölkəmizin regionda üçüncü tərəflərlə münasibətlərdən asılı olmayacağını bildirirdi. Azərbaycan bu cür təzyiqlərə boyun əyməyərək öz müstəqil siyasətini yeritdikcə Obama administrasiyası daha çox təzyiqlər tətbiq etməyə çalışırdı. Təbii ki, Obama administrasiyasının ötən müddət ərzində Azərbaycanla münasibətlərdə məntiqə və özünün regional milli maraqlarına zidd şəkildə davranışı bir çox suallar doğururdu. Eyni zamanda qeyd etmək lazımdır ki, Obama administrasiyası dövründə ABŞ-ın xarici siyasətində təkcə Azərbaycanla deyil, eləcə də özünün digər ənənəvi müttəfiqləri ilə münasibətlər korlanmış və onlar tərəfindən ABŞ-ın son fəaliyyəti anlaşılmazlıq və etirazlarla qarşılanmışdı. Bu cür vəziyyət ilk növbədə ABŞ-ın Yaxın Şərqdəki ənənəvi müttəfiqləri ilə münasibətlərində, xüsusilə Obama administrasiyasının 2015-ci il martın 17-də İsraildə Knesset seçkilərinin nəticələrinə təsir etmək üçün müdaxiləsində özünü göstərdi.

Obama dövrünün digər mühüm xüsusiyyətlərindən biri də bu idi ki, o, hakimiyyətə gəldiyi ilk gündən özü ilə xarici siyasətdən yaxşı anlayışı və bu sahədə təcrübəsi olmayanları istər özünün yaxın çevrəsində, istərsə də Dövlət Departamentində müxtəlif vəzifələrə gətirdi. Məsələn, birinci administrasiya dövründə Obamanın milli təhlükəsizlik məsələləri üzrə müşaviri olmuş Tomas Donilonun bu vəzifəyə təyin edilənə qədər xarici siyasət sahəsində istər praktiki, istərsə də akademik heç bir təcrübəsi olmamışdır. İkinci administrasiyanın Milli Təhlükəsizlik Şurasına daxil olan şəxslərdən yalnız Syuzan Raysın əvvəllər diplomatik təcrübəsi olub. Dövlət katibi Kerri ölkənin daxili siyasətinə fokuslu siyasətçi, ABŞ-ın BMT-dəki səfiri Samanta Pauer isə insan hüquqlarının müdafiəsi sahəsində tanınmış mütəxəssis olmuşdur. 907-ci düzəlişin əsas təşəbbüskarlarından olan Con Kerrinin keçən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində erməni lobbisinin maraqlarını təmin etmək istiqamətində fəaliyyətinin əsas səbəbi də elə bu dövrdə onun Massaçusets ştatında yenicə seçilmiş senator kimi erməni lobbisinin dəstəyinə böyük ehtiyacından irəli gəlirdi.

ABŞ xarici siyasətinin formalaşması prosesində daim sol-liberal, idealist qruplarla sağ, realist, praqmatik, iri enerji şirkətlərinin maraqlarını əks etdirən, insan hüquqları və demokratiyadan digər ölkələrin daxili işlərinə qarışmaqla bu ölkənin hegemonluğunu təmin etməyə çalışan qruplar arasında tarixən gərgin siyasi mübarizə getmişdir. Obama hakimiyyətə gələnə qədər bu mübarizədə sol-liberal, idealist, insan hüquqları və demokratiya məsələlərindən digər ölkələrin daxili işlərinə qarışmaq üçün istifadə etməyə çalışan qrupların arqumentləri və mövqeləri nisbətən zəif olmuşdur. Belə ki, ABŞ iqtisadiyyatının xarici mənbələrdən olan enerji asılılığı ölkənin milli maraqları və təhlükəsizliyi baxımından daima vacib əhəmiyyət kəsb etmişdir. Uzun illər ərzində, xüsusilə ABŞ-ın Yaxın Şərqin neftlə zəngin ölkələri ilə münasibətlərində "bu resursların sabit və təhlükəsiz şəraitdə dünya bazarına çıxarılması" məsələsi daha vacib əhəmiyyət kəsb etmiş və bu, xarici siyasətin əsas imperativi və ya determinantı olmuşdur. Beləliklə, ABŞ özünün xarici siyasətində bu ölkələrə qarşı insan hüquqları və demokratiya məsələlərindən təzyiq vasitəsi kimi yalnız onlar Vaşinqtonun iradəsinə tabe olmaq cəhdlərindən imtina etməyə çalışdıqları zaman istifadə etmişdir.

Ona görə də Obama administrasiyasına qədər hansı siyasi partiyanın və ya qrupun hakimiyyətdə olmasından asılı olmayaraq, bütün ABŞ administrasiyaları bu determinantı və imperativi qəbul etməyə məcbur olmuş və xarici siyasətdə bu imperativin tələb etdiyi kimi hərəkət etmişdir. Məhz bu imperativ ABŞ-ın xüsusilə respublikaçı və neokon administrasiyalarının Yaxın Şərqdə aqressiv siyasətinin əsas hərəkətverici ("incentive" və ya "driver") amili olmaqla, bir sıra hallarda bölgə ölkələrinə demokratiya gətirmək pərdəsi altında müdaxilə etməsinə səbəb olmuşdur.

Məhz bu imperativ ABŞ-da hansı siyasi partiyanın hakimiyyətdə olmasından asılı olmayaraq, son zamanlara qədər Yaxın Şərqin enerji resursları ilə zəngin monarxiya və avtoritar rejimləri ilə münasibətləri zamanı demokratiya və insan hüquqları məsələlərinin daima arxa plana keçməsinə səbəb olmuşdur. Bir çox hallarda isə demokratiya və insan hüquqları amili enerji ilə zəngin ölkələrdən daha çox güzəştlər almaq üçün təzyiq vasitəsinə çevrilmişdir. Məhz buna görə də ABŞ-ın

xarici siyasətinə və dünyada onun hegemonluğuna qarşı olan dövlətlər və qüvvələr ABŞ-ı daim demokratiya məsələlərinə münasibətdə ikili standartlarda günahlandırmışlar.

Obama prezident seçildikdən sonra isə ölkənin siyasi sistemində başlayan köklü transformasiya özü ilə insan hüquqları və demokratiya məsələsini artıq "gözardı etməmək" və digər ölkələrin daxili işlərinə qarışmaq üçün ABŞ dövlətinə yeni imkanlar açdı. Bu, ilk növbədə ABŞ-ın xaricdən enerji asılılığının son bir neçə ildə əhəmiyyətli şəkildə azalması ilə bağlıdır. Obama hələ özünün ilk seçki kampaniyası zamanı ABŞ-ın xaricdən enerji asılılığını azaldacağını və alternativ enerji mənbələrini inkişaf etdirəcəyini bəyanlamışdı. Doğrudur, Obamanın seçki kampaniyası dövründə əsasən günəş, külək və digər təbii və bərpaolunan enerji mənbələri nəzərdə tutulurdu. Ancaq ABŞ-da 2009-cu ildən şist qazı və neft yataqlarının işlənilməsi ilə başlanan texnoloji inqilab bu ölkənin xaricdən enerji asılılığını gözləniləndən çox və əhəmiyyətli dərəcədə azaltdı. Enerji texnologiyalarında baş verən inqilab artıq 2014-cü ildə ABŞ-a Səudiyyə Ərəbistanından daha çox neft, Rusiyadan isə daha çox qaz istehsal etməyə imkan verdi.

Qeyd edilən inqilabi dəyişiklik nəticəsində ABŞ Obamanın prezidentliyi dövründə enerji təhlükəsizliyi (energy security) mərhələsindən enerji müstəqilliyi (energy independence) mərhələsinə keçdi[80]. Belə ki, hələ Obama prezident seçilməmişdən əvvəl – 2007-ci ildə Konqresə nəzarət edən Demokratlar Partiyası tərəfindən ilkin olaraq adı "Təmiz Enerji Aktı" (Clean Energy Act of 2007) olan, daha sonra "Enerji Müstəqilliyi və Təhlükəsizlik Aktı" (Energy Independence and Security Act of 2007) adını almış sənəd qəbul edilmişdi[81]. Bu, ABŞ-da idealist və demokratiya ideallarının tərəfdarlarına ölkədaxili siyasi müzakirələr zamanı və xarici siyasət məsələlərinə yanaşmada yuxarıda qeyd etdiyimiz imperativin artıq əhəmiyyətinin itdiyi iddiasını irəli sürməyə imkan verir[82]. Yaranmış vəziyyətdə liberal idealistlərin ABŞ-ın

80 Energy Independence. - http://www.americanenergyindependence.com/security.aspx

81 H.R.6 – Energy Independence and Security Act of 2007, 110th Congress (2007-2008). - https://www.congress.gov/bill/110th-congress/house-bill/6

82 Ali Al-Ahmed. Support Democracy, Not the Monarchy. /21.09.2013/ - HTTP://WWW.NYTIMES.COM/ROOMFORDEBATE/2013/08/21/THE-THREAT-AND-VALUE-OF-SAUDI-ARABIA/SUPPORT-DEMOCRACY-NOT-THE-MONARCHY

xarici siyasətində demokratiya məsələlərinin qabardılmasından erməni lobbisi Azərbaycana qarşı ittihamların artırılmasında geniş istifadə etməyə başladı.

Obamanın hakimiyyəti illərində Azərbaycan–ABŞ münasibətlərində müvəqqəti gərginliyə dolayısı ilə mənfi təsir göstərən amillərdən biri də administrasiyanın İsraillə və yəhudi lobbisi ilə münasibətlərinin tarixdə görünməmiş həddə qədər pisləşməsi idi. Bildiyimiz kimi, ötən müddətdə ABŞ–Azərbaycan münasibətlərinin inkişafında bu ölkədəki çox nüfuzlu yəhudi lobbisinin və ölkəmizin İsraillə strateji əməkdaşlığının mühüm rolu olmuşdu.

Birinci Obama administrasiyası dövründə ABŞ–Azərbaycan münasibətlərinə təsir edən ən mühüm faktorlardan biri Vaşinqtonun Rusiya ilə 2008-ci ilin avqustunda Gürcüstan müharibəsindən sonra pisləşən münasibətlərini qısaca "yenidənqurulma" ("reset" – ingiliscə, "перезагрузка" – rusca) adlandırılan siyasətlə normallaşdırmaq istiqamətində cəhdləri idi[83]. Bu siyasətin əsasında duran fikir o idi ki, ABŞ Rusiya ilə münasibətləri danışıqlar və dialoq əsasında yenidən qura biləcəkdir[84]. Belə ki, 2009-cu ildən, xüsusilə İran ətrafında gərginlik başlayandan sonra Cənubi Qafqaz ABŞ xarici siyasətində arxa plana keçmiş və Obama administrasiyası bu bölgəyə əsasən Yaxın Şərqdə cərəyan edən proseslər müstəvisindən yanaşmışdır. Bir çox hallarda isə 2009-cu ildən Rusiyanın Qafqazda artan təşəbbüsləri qarşısında ABŞ, sadəcə olaraq, özünü müşahidəçi kimi aparmışdır. Bu dövrdə Obama administrasiyası hesab edirdi ki, Moskva ABŞ üçün prioritetlər olan Əfqanıstan və İran məsələlərində yardımçı olmaq potensialına malik idi.

Obama administrasiyasının birinci hakimiyyəti dövründə region siyasətində Azərbaycanın maraqları üçün ən təhlükəli məqam 2009-cu ildə Ermənistan–Türkiyə sərhədlərinin açılması istiqamətində ABŞ-ın ciddi cəhdlər göstərməsi idi. Qeyd edək ki, 1993-cü ildən Azərbaycan torpaqlarının işğal edilməsinə etiraz olaraq bağlanmış Türkiyə–Ermənistan sərhədlərini açmaq üçün Obama administrasiyası Türkiyəyə həm təzyiqləri artıraraq, həm də vasitəçilik edərək işğalçı dövlətə

83 U.S.-Russia Relations: "Reset" Fact Sheet. - https://www.whitehouse.gov/the-press-office/us-russia-relations-reset-fact-sheet

84 James M. Goldgeier. A Realistic Reset with Russia, August/September 2009, Council on Foreign Relations. - http://www.cfr.org/world/realistic-reset-russia/p19957

düşdüyü blokada vəziyyətindən çıxmaqda yardım etmək istəyirdi. Bu məqsədlə hətta ABŞ və Avropa İttifaqı ölkələrindən olan müxtəlif təşkilatlar maliyyə vəsaiti ayırmış, Türkiyə ictimai rəyinin dəyişdirilməsi istiqamətində geniş kampaniya da həyata keçirmişdilər.

Ermənistan–Türkiyə sərhədlərinin açılmasına və bu ölkəni düşdüyü vəziyyətdən çıxarmağa çalışan ABŞ və digər Qərb ölkələri belə hesab edirdilər ki, sərhədlər açılacağı təqdirdə Ermənistanı Rusiya və İranın təsir dairəsindən çıxararaq Qərbə inteqrasiya etdirmək olar. Onlar iddia edirdilər ki, Ermənistan üzərində Rusiyanın təsiri azalarsa, bu, Dağlıq Qarabağ münaqişəsinin həllinə də müsbət təsir edəcəkdir. Əslində isə Ermənistan–Türkiyə sərhədlərini açmağa çalışmaqla onlar heç də Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli məqsədini güdmürdülər. Azərbaycanın maraqlarına təhlükə törədən məqam o idi ki, ABŞ və Qərb sərhədlərin bağlanmasının əsas səbəbi olan Azərbaycan torpaqlarının işğaldan azad edilməsi məsələsini Ankara və Yerevan arasında münasibətlərin normallaşdırılması prosesindən kənarda tutmağa çalışırdılar. Bu proses Azərbaycan dövlətinin maraqlarına zidd olduğuna görə ölkə rəhbərliyi böyük dövlətlərin bütün təzyiqlərinə və hədələrinə qarşı duraraq Ermənistan–Türkiyə sərhədlərinin açılması prosesinə qarşı özünün etirazını və qətiyyətli mövqeyini ortaya qoydu. Nəticədə Azərbaycan dövlətinin qətiyyəti və qardaş türk xalqının kəskin etirazları nəticəsində Qərb dövlətlərinin Türkiyə–Ermənistan sərhədlərini açmaq istəkləri baş tutmadı.

Obama administrasiyasının Türkiyə–Ermənistan sərhədlərini açmaq istiqamətində fəaliyyəti özündən əvvəlki hakimiyyətlərlə müqayisədə bir sıra fərqli xüsusiyyətləri ortaya qoydu. Birincisi, bu istiqamətdə fəaliyyətlər Obama administrasiyasının birinci dövründə çalışan komanda üzvlərinin dünya, xüsusilə Cənubi Qafqaz məsələləri ilə bağlı işlərdə təcrübəsiz və səriştəsiz şəxslər olmasını göstərdi. Bu isə onların regionun əsas dövləti olan Azərbaycanın maraqlarını gözardına almaq kimi strateji səhvi buraxmasına səbəb oldu. İkincisi, yenicə hakimiyyətə gələn Obama komandası onların seçki kampaniyasında yaxından iştirak etmiş erməni lobbisinə verilən vədləri yerinə yetirməyə çalışırdı. Bu isə ilk vaxtlarda erməni lobbisinin yeni hakimiyyətə gələn komandaya nüfuz etdiyinin göstəricisi idi. Konqresdəki erməni lobbisi öz gücünü 2011-ci ildə Metyu Brayzənin Azərbaycana səfir təyin

edilməsinin qarşısını almaq cəhdi ilə göstərdi. Barak Obama tərəfindən Metyu Brayzənin ABŞ-ın Azərbaycandakı səfiri kimi namizədliyi irəli sürülərkən Konqresdəki erməni lobbisi onun namizədliyinə qarşı çıxdı. Bunu nəzərə alan Prezident Obama Konqresin qış tətili dövründə onu qanunverici orqanın razılığını almadan təyin etmək hüququndan istifadə etdi. Lakin əvəzində Konqres bir ildən sonra, yəni 2012-ci ildə M.Brayzənin namizədliyini təsdiq etməməklə onun Azərbaycanda səfirlik fəaliyyətinə son qoydu.

Təəssüflə qeyd etməliyik ki, Obama administrasiyası dövründə müşahidə edilən xoşagəlməz meyillər iki ölkə arasında rəsmi səviyyədə əvvəlki illərlə müqayisədə təmasların sayına və keyfiyyətinə də mənfi təsirini göstərdi. 2010-cu il sentyabrın 24-də Nyu Yorkda Prezident İlham Əliyevlə ABŞ Prezidenti Barak Obama arasında keçirilən görüşdə[85] Azərbaycanla ABŞ arasında strateji əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olunmuş, ABŞ Prezidenti Barak Obama Prezident İlham Əliyevin liderlik rolunu qeyd edərək, Azərbaycanın regionda ən çox uğurlar qazanan və ən nüfuzlu ölkələrdən biri olduğunu vurğulamışdır. Prezident Obama Azərbaycanla ABŞ-ın beynəlxalq antiterror əməliyyatlarında birgə fəaliyyətinə toxunaraq Azərbaycanın bu əməliyyatlarda iştirakını yüksək qiymətləndirmiş, energetika sahəsində iki ölkə arasında uzun illər səmərəli əməkdaşlığın davam etdirildiyini bildirmiş, beynəlxalq enerji əməkdaşlığının genişləndirilməsinə Azərbaycanın verdiyi töhfəni xüsusi vurğulamışdır.

Sonrakı illərdə Obama administrasiyasının Ümumavrasiya məkanında strategiyasında baş verən dəyişikliklər, eləcə də milli maraqların erməni lobbisinin maraqlarından daha önə çıxması Vaşinqton tərəfindən Azərbaycanın strateji əhəmiyyətinin yenidən qiymətləndirilməsi ilə nəticələndi. Azərbaycanın strateji əhəmiyyətinin Vaşinqton tərəfindən yenidən qiymətləndirilməsinə səbəb olan əsas amil 2013-cü ildən başlayaraq Ukrayna və Suriya ətrafında cərəyan edən hadisələr oldu. Digər tərəfdən, Azərbaycanın regionda güclü dövlət kimi özünün milli maraqlarını təmin etmək istiqamətində müstəqil siyasəti, eləcə də Avropa

85 İlham Əliyevin və ABŞ Prezidenti Barak Obamanın görüşü olmuşdur. /24.09.2010/ - http://president.az/articles/765?locale=az

məkanının enerji təhlükəsizliyi üçün mənbələrin müxtəlifləşdirilməsi istiqamətində fəaliyyətinin mühüm rolu oldu. Məhz bu məqamlar Obama administrasiyası tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il martın 31-də Vaşinqtonda keçirilən Nüvə Sammitinə dəvət olunmasını zəruri etmişdi. Səfəri ABŞ-ın Azərbaycandakı səfiri iki dövlət arasında münasibətlərdə müsbətə doğru dönüş nöqtəsi adlandırmışdı. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti ABŞ-da bu ölkənin ali dövlət rəsmiləri, Prezident, vitse-prezident, dövlət katibi, eləcə də bu ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayan şəxsləri və yəhudi lobbisi ilə məhsuldar görüşlər keçirdi[86]. Müasir dövrün nüvə təhlükəsizliyi ilə bağlı ən mühüm məsələlərin və bütün bəşəriyyətin gələcək taleyinin həll olunduğu bu sammitə dəvət olunmasını Azərbaycan dostluq və tərəfdaşlığın əlaməti və mühüm tarixi hadisə kimi yüksək qiymətləndirmişdir. Prezident İlham Əliyev ABŞ dövlət katibi Con Kerri ilə görüşdə mətbuat üçün verdiyi bəyanatında qeyd etmişdi ki, artıq 25 illik tarixi olan ABŞ–Azərbaycan münasibətləri həmişə sıx, səmimi olub, indi isə strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə çatmışdır[87].

Ötən müddət Obama administrasiyasının səriştəsizliyi və bəzi siyasi qrupların qərəzli yanaşmasından doğan yuxarıda qeyd edilən xoşagəlməz məqamlarla yanaşı, iki dövlətin təbii strateji tərəfdaşlığını əks etdirən müxtəlif səviyyədə rəsmilərin görüşləri, qarşılıqlı səfərləri və tədbirləri ilə də əlamətdar olmuşdur. Belə ki, 2010-cu il iyunun 6-da ABŞ-ın müdafiə naziri Robert Qeyts ölkəmizə Asiya turnesi çərçivəsində ikigünlük səfər etmiş, Azərbaycanın müdafiə naziri və Prezident İlham Əliyevlə görüşlər keçirmişdir. Görüşlərdə Əfqanıstandakı ABŞ qüvvələrinin Azərbaycan üzərindən təchizatı ilə bağlı məsələlər müzakirə olunmuşdur. 2010-cu ilin iyulunda isə ABŞ dövlət katibi Hillari Klinton Azərbaycana səfər etmişdir. Səfər çərçivəsində xanım Hillari Klinton iyulun 4-də Şəhidlər xiyabanını ziyarət etmiş, ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə həlak olmuş şəxslərin məzarları üstünə çiçəklər düzmüş, "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur. Prezident İlham

86 İlham Əliyev ABŞ-da Con Kerri və konqresmenlərlə görüşüb. /31.03.2016/ - http://www.bbc.com/azeri/azerbaijan/2016/03/160330_aliyev_washington_visit

87 Azərbaycan–ABŞ münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. /01.04.2016/ - http://azertag.az/xeber/Azerbaycan_ABS_munasibetleri_strateji_terefdasliq_seviyyesine_yukselib-939328

Əliyev iyulun 4-də Azərbaycanda rəsmi səfərdə olan ABŞ dövlət katibi Hillari Klintonu qəbul etmiş, görüşdə ikitərəfli münasibətlər, Dağlıq Qarabağ münaqişəsi və digər məsələlər müzakirə olunmuşdur.

2012-ci il iyunun 6-da dövlət katibi H.Klinton Azərbaycana növbəti dəfə rəsmi səfər etmişdir. Səfərlə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov bildirmişdir ki, "hazırda ABŞ-ın Cənubi Qafqazda ən perspektivli tərəfdaşı Azərbaycandır. Qərbin enerji layihələrində Azərbaycan fəal iştirak edir. Regional təhlükəsizliyin təmin edilməsi üçün ABŞ Azərbaycanla sıx əməkdaşlıqda maraqlı olduğunu dəfələrlə bəyan edib. Amerika Azərbaycanı qlobal geosiyasi məsələlərin həllində də tərəfdaş kimi görür. ABŞ Yaxın və Orta Şərqdə baş verən siyasi və geosiyasi prosesləri rəsmi Bakı ilə müzakirə edir". Novruz Məmmədov iki dövlətin tərəfdaşlıq münasibətlərinin daha da genişlənməsi üçün siyasi iradə nümayiş etdirdiklərini, Bakıda aparılan danışıqlarda bu istiqamətdə ABŞ və Azərbaycanın bundan sonra hansı işləri görə biləcəyinin müzakirə olunduğunu qeyd etmişdir.

2016-cı il iyun ayının 1-də Bakıda XXIII Beynəlxalq "Xəzər Neft və Qaz – 2016" sərgi və konfransı, eləcə də VI Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisi ilə əlaqədar ABŞ Prezidenti Barak Obama Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub göndərmişdi. Məktubda Obama bu münasibətlə öz həmkarına və Azərbaycan xalqına səmimi arzularını çatdıraraq, müasir şəraitdə transsərhəd enerji təchizatının vacibliyini, bu prosesdə Azərbaycanın fəal rolunu xüsusi vurğulayaraq, ABŞ-ın dövlətimizlə əməkdaşlığını yüksək dəyərləndirmişdir[88]. Məktubda qeyd edilir: "Azərbaycanın tam potensialına nail olmaqda, o cümlədən şaxələndirilmiş iqtisadiyyatı təşviq etməkdə, sərmayə mühitini təkmilləşdirməkdə, hesabatlılığı, qanunun aliliyini gücləndirməkdə və nəhayət, Azərbaycan xalqının yaşayış standartlarını yaxşılaşdırmaqda atdığınız davamlı addımlarınızı dəstəkləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın sadiq tərəfdaşı olaraq qalır".

İki ölkə arasında dünya bazarlarında enerji mənbələrinin müxtəlifləşdirilməsi istiqamətində əməkdaşlıq öz əksini ABŞ-ın

88 Obama: "Azərbaycan enerji diversifikasiyası sahəsində etibarlı tərəfdaş olaraq qalır". - http://apa.az/iqtisadiyyat-xeberleri/senaye-ve-energetika/obama-azerbaycan-enerji-diversifikasiyasi-sahesinde-etibarli-terefdas-olaraq-qalir.html

Azərbaycanın həyata keçirdiyi "Cənub Qaz Dəhlizi" layihəsinə dəstək verməkdə də tapdı. Belə ki, 2016-cı ilin əvvəlində Böyük Britaniya və ABŞ-da keçirilən təqdimatlarda nüfuzlu investorların Azərbaycana böyük diqqət göstərdikləri bir daha təsdiqləndi. Bunun ifadəsi kimi "Cənub Qaz Dəhlizi" QSC tərəfindən ilk 1 milyard ABŞ dolları həcmində 10 illik istiqrazların buraxılışına ciddi maraq nümayiş etdirildi. Belə ki, aparılan danışıqlar nəticəsində "Cənub Qaz Dəhlizi" QSC tərəfindən buraxılan istiqrazların beynəlxalq maliyyə bazarlarında yerləşdirilməsi üçün ABŞ-ın "Citi Bank", "UniCredit", "JP Morgan" banklarından ibarət sindikat səlahiyyətləndirildi[89]. "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il martın 31-də Vaşinqtonda keçirilən Nüvə Sammiti çərçivəsində ABŞ-dakı görüşlərində də əsas müzakirə mövzularından biri oldu. Dövlətimizin başçısı ilə görüşü zamanı ABŞ-ın vitse-prezidenti Co Bayden bildirmişdi ki, ABŞ Azərbaycanın "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsi ilə bağlı fəaliyyətini tam dəstəkləyir və bu istiqamətdə zəruri addımlar atacaq. Görüşdə həmçinin bu layihənin uğurla həyata keçirilməsində Prezident İlham Əliyevin güclü siyasi iradə nümayiş etdirdiyi, Cənub Qaz Dəhlizinin Avropanın enerji təhlükəsizliyindəki əhəmiyyəti və s. xüsusi qeyd edilmişdir. Dövlət katibi Con Kerrinin mətbuat üçün bəyanatında dediyi kimi, bu layihə enerji mənbələrinin şaxələndirilməsi baxımından Avropanın uzunmüddətli strateji maraqları naminə atılan çox ciddi addımdır və bu işə cəlb olunan bütün tərəflərə fayda gətirəcək.

Nəticə

Çox mürəkkəb və həssas coğrafiyada yerləşən müasir Azərbaycan Respublikasının çoxtərəfli və balanslaşdırılmış xarici siyasətinin mühüm istiqamətlərindən birini də Amerika Birləşmiş Ştatları ilə hər iki ölkənin milli maraqlarına cavab verən əməkdaşlıq münasibətləri tutur. Ötən müddət ərzində əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan uğurlu xarici siyasət strategiyası ilə müstəqilliyin ilk illərində ikitərəfli münasibətlərdə Azərbaycanın milli maraqları, ərazi bütövlüyü

89 "Cənub Qaz Dəhlizi" QSC-nin dövlət zəmanətli istiqrazları üzrə təqdimatlar uğurla başa çatıb. /19.03.2016/ - http://azertag.az/xeber/_quotCenub_Qaz_Dehlizi_quot_QSC_nin_dovlet_zemanetli_istiqrazlari_uzre_teqdimatlar_ugurla_basa_chatib-937011

və təhlükəsizliyi üçün 1990-cı illərin əvvəllərində yaranmış hədələr və mənfi meyillərin qarşısı alınmış və münasibətlər keyfiyyətcə tam yeni mərhələyə qədəm qoymuşdur. Daha sonra isə iki dövlət arasında münasibətlər bir çox sahələrdə yüksələn xətt üzrə inkişaf edərək bərabərhüquqlu strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

ABŞ 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycanın neft və qazının dünya bazarlarına çıxarılması istiqamətində dövlətimizin mövqeyini və həyata keçirdiyi layihələri dəstəkləmiş, XX əsrin ən böyük layihələrindən olan, Azərbaycana öz təbii ehtiyatlarını xarici bazarlara çıxarmaq imkanı verən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilişində və istifadəyə verilməsində fəal iştirak etmiş, həmçinin Azərbaycanın həyata keçirdiyi digər regional enerji layihələrinin icrasına da dəstək olmuşdur. Ötən müddət ərzində Azərbaycan çox mürəkkəb geosiyasi məkanda öz maraqlarına əsaslanan müstəqil xarici siyasət yeridə bilən ölkə kimi regional və beynəlxalq təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində ABŞ-ın etibarlı tərəfdaşı ola bilmişdir. Müxtəlif administrasiyalar dövründə ABŞ rəhbərliyi tərəfindən Azərbaycanın antiterror koalisiyasına, eləcə də ölkəmizin Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə kömək göstərməsinin yüksək qiymətləndirilməsi bunun əyani sübutudur.

Rəsmi Vaşinqton ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyini dəfələrlə vurğulamışdır. Gələcəkdə erməni lobbisinin, əslində, ABŞ-ın regional milli maraqlarına zidd mövqeyi müdafiə etməsi həqiqəti bu ölkənin siyasi elitası tərəfindən tam dərk ediləcəyi və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə prinsipial yanaşılacağı təqdirdə iki dövlət arasında münasibətlərin daha da yüksək səviyyəyə qalxacağı şübhəsizdir. Eyni zamanda ötən dövr ərzində bərabərhüquqluluq və ölkələrin bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə bəzən Vaşinqton tərəfindən əməl edilməsə də, bu prinsiplər əsasında qurulmuş qarşılıqlı faydalı ikitərəfli münasibətlər iki dövlətin maraqlarına xidmət etmiş və beynəlxalq təhlükəsizliyə töhfə vermişdir.

Azərbaycan–Böyük Britaniya münasibətləri

*Ayaz Rzayev**

Giriş

Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında münasibətlərin dərin tarixi kökləri vardır. Bu münasibətlərin təməli XIX əsrin sonu – XX əsrin əvvəllərində ingilis kapitalının Bakı neft sənayesinə axını ilə bərabər qoyulmuşdur. Belə ki, bu dövrdə Bakıda "Shell" şirkəti ilə yanaşı sırf ingilis kapitalını təmsil edən daha altı böyük şirkət fəaliyyət göstərirdi[1]. Birinci Dünya müharibəsi ərəfəsində Uinston Çörçilin Britaniyanın dənizdəki üstünlüyünü təmin etmək üçün ingilis donanmasında kömürü neftlə əvəzləməsi ilə Azərbaycan, xüsusilə də Bakı Birləşmiş Krallıq üçün yalnız iqtisadi deyil, həm də mühüm strateji əhəmiyyət daşımağa başladı[2].

Rusiya imperiyasının dağılması və bolşevik inqilabı Böyük Britaniyanı Azərbaycandakı mövqelərini daha da möhkəmləndirməyə sövq etdi. 1918-ci ilin avqustunda həm Bakı neftinə nəzarəti ələ almaq, həm Hindistanın təhlükəsizliyini təmin etmək, həm də Qafqaz regionunda bolşeviklərin möhkəmlənməsinə yol verməmək üçün general Laynel Danstervilin rəhbərliyi altında "Dansterfors" hərbi hissələri Bakıya yeridildi[3], həmin ilin noyabr ayında isə general Uilyam Tomson başda olmaqla "Norperfors" ingilis hərbi hissələri Bakıya gəldi[4].

1920-ci ilin yanvarında Paris sülh konfransında Lord Kerzonun təkidi ilə Azərbaycan Demokratik Respublikasının de-fakto tanınması ikitərəfli

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin məsləhətçi-eksperti*

1 R. P. T. Davenport-Hines & Geoffrey Jones. British Business in Asia Since 1860. Cambridge: Cambridge University Press, 2003

2 Daniel Yergin. The Quest: Energy, Security, and the Remaking of the Modern World. NY: The Penguin Press, 2011

3 Edward J. Lemon. Dunsterforce or Dunsterfarce? Re-evaluating the British mission to Baku, 1918. // First World War Studies, Vol. 6 (2), 2015

4 Tadeusz Swietochowski. Russian Azerbaijan, 1905-1920. Cambridge: Cambridge University Press, 1985

əməkdaşlıqda yeni səhifə açsa da, həmin ilin aprelində Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı iki ölkə arasında siyasi münasibətlərə son qoydu. Siyasi münasibətlərin kəsilməsinə baxmayaraq, Azərbaycanla Birləşmiş Krallıq arasında iqtisadi münasibətlər, faktiki olaraq, 1930-cu illərə qədər davam etmişdir. Məsələn, bu dövrdə Britaniyanın "Metropolitan-Vickers" şirkəti Bakının elektrikləşdirilməsində xüsusi rol oynamışdır[5].

"Soyuq müharibə" dövründə kəsilən münasibətlərin bərpası yalnız XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində beynəlxalq münasibətlər sistemində baş verən köklü dəyişikliklər – bipolyar sistemin dağılması nəticəsində mümkün olmuşdur. Belə ki, "soyuq müharibə"nin başa çatması, Şərqi Avropada sosializm sisteminin çökməsi və Sovet İttifaqının dağılması Azərbaycanla Böyük Britaniya arasında münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlanmasına təkan verdi.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətində, xüsusilə Avropa istiqamətində Böyük Britaniya ilə münasibətlərin mühüm yer tutması bir sıra amillərlə bağlı idi. Belə ki, Böyük Britaniya dünyanın böyük dövlətlərindən biri olmaqla yanaşı, BMT Təhlükəsizlik Şurasının nüvə silahına malik 5 daimi üzvündən, dünyanın ən inkişaf etmiş 7 ölkəsindən biri idi. Bununla yanaşı, müstəqillik əldə etdikdən sonra demokratik, dünyəvi dövlət quruculuğu yolunda Avropanın demokratik dəyərlərindən bəhrələnmək, bu dəyərlərdən həm dövlət quruculuğu prosesində, həm də cəmiyyətin formalaşdırılmasında istifadə etmək niyyətində olan Azərbaycan sözügedən dəyərlərin ənənəvi daşıyıcısı olan Böyük Britaniya ilə hərtərəfli əməkdaşlıq qurmağa maraq göstərmişdir.

Münasibətlərdə ilkin mərhələ

Azərbaycan öz istiqlaliyyətini bərpa etdikdən az sonra, 1991-ci ilin dekabr ayında Böyük Britaniya Azərbaycanın dövlət müstəqilliyini

5 Gordon W. Morrell. Britain Confronts the Stalin Revolution: Anglo-Soviet Relations and the Metro-Vickers Crisis. Waterloo, Ontario: Wilfrid Laurier University Press, 1995

tanıdı. 1992-ci il mart ayının 11-də Dağlıq Qarabağ münaqişəsini müzakirə etmək məqsədilə Böyük Britaniyanın xarici işlər üzrə dövlət naziri Duqlas Hoqq və bu ölkənin Moskvadakı səfiri Rodrik Breytveytin Bakıya səfəri baş tutdu[6]. Səfər zamanı Duqlas Hoqq Ermənistanın Böyük Britaniyada ən güclü dəstəkçilərindən olan Lordlar Palatasının üzvü, xristian fundamentalist Baronessa Kerolayn Koksun fəaliyyətinin dövlətin münaqişədəki mövqeyini əks etdirmədiyini, Dağlıq Qarabağ münaqişəsində Britaniya hökumətinin qərəzsiz mövqe tutduğunu bildirdi[7]. Həmçinin səfər çərçivəsində Azərbaycanla Böyük Britaniya arasında münasibətlərin hüquqi bazasını təşkil edən ilk sənəd – iki ölkə arasında diplomatik münasibətlərin yaradılması haqqında protokol imzalandı. 1992-ci il iyulun 15-də Böyük Britaniyanın Rusiya Federasiyasındakı yeni səfiri Brayan Foll eyni zamanda Azərbaycana da səfir təyin edildi.

Həmin ilin sentyabr ayında Böyük Britaniyanın keçmiş Baş naziri Marqaret Tetçerin Bakıya qeyri-rəsmi səfəri qarşılıqlı münasibətlərin, xüsusilə enerji sahəsində əməkdaşlığın inkişafında mühüm rol oynadı. Bu səfərin Azərbaycanın neft yataqlarının istismarında Amerika neft şirkətləri ilə rəqabət vəziyyətində olan Britaniyanın BP şirkətinə böyük köməyi oldu. "Çıraq" yatağında və perspektivli "Şahdəniz" sahəsində ehtiyatların dəqiqləşdirilməsi və hazırlıq işlərinin görülməsi haqqında Azərbaycan hökuməti ilə BP və onun ənənəvi tərəfdaşı olan Norveçin "Statoyl" şirkətləri arasında sazişin imzalanması mərasimində iştirak edən Marqaret Tetçerin səfəri və həmçinin həmin ilin oktyabrında ABŞ Konqresi tərəfindən Azərbaycana birbaşa yardımı qadağan edən 907-ci düzəlişin qəbul edilməsi Azərbaycanın Birləşmiş Krallıqla yaxınlaşmasında mühüm rol oynadı. Səfərdən az sonra Milli Məclis Londonda Azərbaycan Respublikasının səfirliyinin təsis edilməsi haqqında qərar qəbul etdi.

Marqaret Tetçerin qeyri-rəsmi səfərinin ardından, 1992-ci il sentyabrın 28-də hakimiyyətdəki Mühafizəkarlar Partiyasının liderlərindən biri, Con Meycor hökumətində ticarət və sənaye naziri

6 Duqlas Hoqqun sülh məramı // "Xalq qəzeti", 12 mart 1992-ci il

7 Əzizağaoğlu V. Duqlas Hoqq: sərhədlərin toxunulmazlığı əsas amildir // "Xalq qəzeti", 13 mart 1992-ci il

vəzifəsini tutan Maykl Hezeltaynın rəhbərliyi ilə nümayəndə heyətinin Azərbaycana səfəri baş tutdu. Səfər zamanı iki ölkə arasında ticari-iqtisadi əməkdaşlıq haqqında bəyannamə imzalandı, Böyük Britaniya hökuməti tərəfindən Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı bir daha təsdiqləndi[8]. Bununla yanaşı, səfər çərçivəsində Hezeltayn BP şirkətinin Bakı ofisinin açılışını da gerçəkləşdirdi[9].

1993-cü ilin fevralında Moskvada səfərdə olan Naxçıvan Ali Məclisinin Sədri Heydər Əliyev səfir Brayan Folla görüşündə blokada şəraitində olan Naxçıvana Böyük Britaniya hökumətinin maliyyə-iqtisadi yardımı göstərməsini xahiş etdi. 1993-cü il martın 20-də Bakıya səfər edən Brayan Foll Azərbaycan Prezidentini Böyük Britaniyaya səfərə dəvət etməsi haqqında Baş nazir Con Meycorun şəxsi məktubunu təqdim etdi. Səfər iyun ayının sonuna təyin edilsə də, 1993-cü ilin yazında Ermənistanın Kəlbəcər üzərinə hücuma keçməsi ilə Azərbaycanda daxili ictimai-siyasi vəziyyətin mürəkkəbləşməsi, vətəndaş müharibəsi astanasında olan ölkənin dərin hökumət böhranı keçirməsi ikitərəfli münasibətlərin yeni müstəviyə keçməsinə mane oldu.

Əməkdaşlıqda yeni dövrün başlanğıcı

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanla Böyük Britaniya arasında qarşılıqlı əməkdaşlıqda yeni səhifə açdı. 1993-cü ilin sentyabrında Bakıda Britaniya səfirliyinin açılması, həmin ilin noyabrında Britaniya parlament üzvlərinin Bakıya səfəri, ilin sonunda Baş nazir Con Meycorun Prezident Heydər Əliyevə məktub göndərərək onu 1994-cü ilin əvvəlində Böyük Britaniyaya rəsmi səfərə dəvət etməsi və nəhayət, 1994-cü ilin yanvarında Londonda Azərbaycan səfirliyinin açılması ikitərəfli münasibətlərin inkişafı tarixində vacib məqamlardır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il fevralın 22-25-də Böyük Britaniyaya rəsmi səfəri iki ölkə arasında münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlamasına təkan

8 Con Meycorun Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məktubu // "Xalq qəzeti", 30 sentyabr 1992-ci il

9 Susan Viets. BP Moves Into Baku Oilfields // The Moscow Times /07.10.1992/ - http://old.themoscowtimes.com/business/article/tmt/220786.html

verdi. Bu səfər iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin formalaşmasında mühüm rol oynadı. Birləşmiş Krallığın Azərbaycandakı keçmiş səfiri Tomas Yanqın sözlərinə görə, Böyük Britaniya hökuməti Prezident Heydər Əliyevə hərtərəfli siyasi dəstək göstərdiyini nümayiş etdirməkdə maraqlı idi. Belə ki, Baş nazir Con Meycor Heydər Əliyevi Londonda qəbul etməmişdən bir həftə əvvəl, Moskvaya rəsmi səfəri zamanı Azərbaycanla bağlı məsələləri Rusiya tərəfi ilə hərtərəfli müzakirə etmişdi. Bununla da Azərbaycan Cənubi Qafqaz və Xəzər regionunda Böyük Britaniyanın aktiv diplomatik dəstək verdiyi ilk dövlət oldu[10].

Səfər zamanı Baş nazir Con Meycor, xarici işlər və birlik işləri üzrə nazir Duqlas Hörd, ticarət naziri Maykl Hezeltaynla görüşlər keçirilmiş, Azərbaycan Respublikası və Birləşmiş Krallıq arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə, həmçinin iki ölkə arasında ticarət əlaqələrinin inkişafı və Azərbaycana Britaniya investisiyasının cəlb edilməsi üçün vacib olan ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilə, investisiyaların qorunması və təşviqi haqqında müqavilə, energetika sahəsində əməkdaşlıq haqqında memorandum kimi ikitərəfli münasibətlərin müqavilə-hüquq bazasını formalaşdıran mühüm sənədlər imzalanmışdır. Bununla yanaşı, Heydər Əliyevin Britaniya parlamentinə ziyarəti zamanı parlamentdə Azərbaycanla bağlı dostluq fraksiyasının yaradılması məsələsi nəzərdən keçirilmiş və qrupun tərkibi təsdiq edilmişdir.

Səfər çərçivəsində BP və "Statoyl" şirkətlərinin təşkil etdiyi Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında çıxışı zamanı səfərinin əsas məqsədinin bu ölkə ilə əlaqələri genişləndirmək və inkişaf etdirmək olduğunu qeyd edən Prezident Heydər Əliyev Britaniya iş adamlarını öz iqtisadiyyatını tamamilə azad bazar sisteminə keçirmək niyyətində olan Azərbaycana fəal şəkildə sərmayə qoymağa çağırmışdı[11].

Prezident Heydər Əliyev Birləşmiş Krallığa səfəri zamanı həmçinin BP

10 Diplomatic Interview with British Ambassador Thomas Young // Azerbaijan International, Vol. 2 (2), Summer 1994, pp. 30-31. - http://www.azer.com/aiweb/categories/magazine/22_folder/22_articles/22_britishambass.html

11 Böyük Britaniya Sənayeçiləri Konfederasiyasında Heydər Əliyevin çıxışı. /22.02.1994/ - http://files.preslib.az/site/10il/gl1.pdf

şirkətinin ofisində olmuş, Xəzər şelfinin öyrənilməsi sahəsində şirkətin apardığı tədqiqatın və topladığı təcrübənin Azərbaycanda tətbiqinin imkanları barədə müzakirələr aparmış və BP şirkətinin fəaliyyətinin Azərbaycan iqtisadiyyatının dirçəlməsinə müsbət təsir göstərəcəyinə əminliyini vurğulamışdı.

Qarşılıqlı əməkdaşlıqdan strateji tərəfdaşlığa doğru

Heydər Əliyevin Böyük Britaniya da daxil olmaqla, dünya ölkələri ilə münasibətlərdə siyasi və iqtisadi məsələləri vəhdətdə müzakirə etməsi, enerji resurslarının istismarı məsələsində Azərbaycanın milli maraqlarını əsas prinsip kimi götürməsi "neft diplomatiyası" kimi tanınan yeni xarici siyasət strategiyasının təməlini təşkil etdi. Bu strategiyanın bir neçə spesifik xüsusiyyəti var idi. Bu xüsusiyyətlərdən başlıcası milli maraqların təmin edilməsi və xarici siyasətdə qarşıya qoyulan məqsədlərə nail olmaq üçün ölkənin enerji resurslarından effektiv istifadə olunması idi. Belə ki, xarici ölkə şirkətlərinin Azərbaycanın neft və qaz yataqlarının istismarı sahələrindəki iştirakı bilavasitə həmin ölkələrin Azərbaycanın milli maraqları ilə hesablaşmalarından asılı idi. Bu strategiyanın digər vacib xüsusiyyəti xarici siyasətdə ikitərəfli münasibətlərə xüsusi önəm verilməsi idi. Böyük Britaniya da daxil olmaqla, müxtəlif ölkələrlə bağlanan dostluq və əməkdaşlıq müqavilələri Azərbaycanın düşdüyü informasiya blokadasından və diplomatik təcriddən çıxmasına kömək etdi və Dağlıq Qarabağ münaqişəsi də daxil olmaqla, Azərbaycanın problemlərinə Qərbin etinasız münasibətinə son qoydu.

Bu dövrdə Azərbaycanın xarici siyasətinin ən böyük uğuru bütün risklərə və çətinliklərə baxmayaraq, irihəcmli xarici investisiyaları respublikanın neft və qaz sektoruna cəlb edə, nəhəng enerji layihələrini reallaşdıra bilməsi oldu. Məsələn, 1994-cü il aprelin 27-də "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi üçün xarici neft şirkətləri ilə danışıqların intensivləşməsindən narahat olan Rusiya Federasiyası Böyük Britaniyanın bu ölkədəki

səfiri Brayan Folla nota verərək "Xəzər dənizinin Azərbaycan sektoru" terminindən istifadə edilməsinə etirazını bildirdi[12]. Notada deyilirdi ki, Xəzər neftinin istismarına və ya nəqlinə yönələn istənilən enerji layihəsi bütün Xəzəryanı ölkələrin razılığı olmadan hüquqi qüvvə daşıya bilməz[13]. Notanın rəsmi Bakıya deyil, rəsmi Londona verilməsi, əslində, Rusiya Federasiyasının Azərbaycanla Böyük Britaniyanın yaxınlaşmasından nə dərəcədə narahat olduğunun bariz göstəricisi idi.

Belə bir mürəkkəb şəraitdə Heydər Əliyevin qurduğu birbaşa siyasi əlaqələr yaranan gərginliyin aradan qaldırılmasında böyük rol oynadı. Belə ki, may ayında Azərbaycana səfər edən Britaniyanın energetika naziri Tim Eqqarın Prezident Heydər Əliyevlə bu məsələ barədə apardığı məsləhətləşmələrdən sonra Birləşmiş Krallıq hökuməti Azərbaycanla Xəzər dənizində neft yataqlarının birgə istismarı ilə əlaqədar danışıqları davam etdirməkdə qərarlı olduğunu açıqladı[14]. 1994-cü il iyunun 7-də Böyük Britaniyanın Azərbaycandakı səfiri Tomas Yanqı qəbul edən Prezident Heydər Əliyev Qərb neft şirkətlərində Rusiya Xarici İşlər Nazirliyinin Böyük Britaniya səfirliyinə təqdim etdiyi nota ilə bağlı yaranan narahatlığa toxunaraq, artıq bu məsələni Rusiyanın Baş naziri Viktor Çernomırdinlə müzakirə etdiyini və Qərb neft şirkətlərinin bununla bağlı keçirdiyi narahatlığın əsassız olduğunu bildirdi[15].

Cənubi Qafqazda 200 ilə yaxın müddətdə yeganə hegemon qüvvə olması regiona münasibətində dərin iz buraxan Rusiyanın SSRİ dağıldıqdan sonra belə Cənubi Qafqazı özünün xüsusi maraqlar prizmasından görməyə davam etməsi müəyyən anlamda qaçılmaz idi. Bu dövrdə postimperiya mərhələsindən keçən Rusiyanın regional strategiyası Rusiya Prezidenti Boris Yeltsinin 1995-ci il sentyabrın 14-də qəbul etdiyi "Müstəqil Dövlətlər Birliyi ilə münasibətlər

12 Robert Barylski. Russia, the West and the Caspian energy hub // Middle East Journal, Vol. 49 (2), 1995, pp. 217–32. - http://www.jstor.org/stable/4328801

13 "Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi" (Aşqabad, 24 aprel 2002-ci il) sənədinə tarixi arayış. /04.07.2008/ - http://lib.aliyevheritage.org/az/7803521.html

14 Elkhan Polukhov. Contract of the century (The problem in an historical retrospective) // Caucasian Regional Studies, Vol. 2 (1), 1997. - http://poli.vub.ac.be/publi/crs/eng/0201-05.htm

15 Mirzəbəyli İ. Azərbaycan–Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Bakı, Azərbaycan–Böyük Britaniya Gənclər Cəmiyyəti, 2001, s.44-45

haqqında" fərmanı ilə rəsmi status qazanan "yaxın xaric" ("ближнее зарубежье") konsepsiyasında öz əksini tapmışdı. Rusiyanın ən böyük narahatlığı Cənubi Qafqaz regionunda rəqib güc mərkəzlərinin, xüsusilə Qərbin möhkəmlənməsi idi, çünki rəsmi Moskva bunu Rusiyanın böyük dövlət statusunu itirməsi kimi səciyyələndirirdi[16]. Azərbaycanın Qərblə, xüsusilə də Böyük Britaniya ilə enerji sahəsində əməkdaşlığını da məhz bu prizmadan dəyərləndirən Rusiya bu əməkdaşlığa qarşı idi.

Belə bir şəraitdə düzgün xarici siyasət strategiyasının seçilməsi Azərbaycan üçün əsas məsələ idi. Aydındır ki, Azərbaycan öz xarici siyasətini Rusiyanın istəklərinə, Azərbaycanın ABŞ-dakı keçmiş səfiri Hafiz Paşayevin təbirincə desək, "Monro doktrinasının Rusiya versiyası"na uyğun qura bilməzdi ("bandwagoning"). Eyni zamanda öz xarici siyasətini Rusiyanın xarici siyasətinə uyğunlaşdırmaqdan imtina edərkən ("non-bandwagoning") Azərbaycan regionda dominant qüvvə olan Rusiya ilə dostluq münasibətlərini pozmamağa çalışmalı idi. Məhz bu səbəbdən Azərbaycan xarici siyasətdə digər böyük dövlətlərlə açıq ittifaq qurmaqdan imtina edərək strateji manevr siyasətinə üstünlük verdi. Bu siyasətin ən bariz nümunələrindən biri kimi Rusiya enerji şirkətlərinin Azərbaycandakı neft və qaz layihələrinə aktiv şəkildə cəlb edilməsini göstərmək olar. Digər örnək isə iqtisadi əhəmiyyətindən çox siyasi əhəmiyyət daşıyan Bakı–Novorossiysk neft kəmərinin çəkilişi idi.

1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında "Azəri", "Çıraq" və "Günəşli" (AÇG) yatağının dərinsulu hissəsinin birgə işlənməsi haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilə imzalanması Azərbaycan xarici siyasətinin uğuru idi. Hasilatın pay bölgüsü tipli bu saziş siyasi, iqtisadi və tarixi əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırıldı və Azərbaycanın yeni neft strategiyasının əsasını qoyaraq, ölkənin qlobal enerji təchizatçısına çevrilməsinə şərait yaratdı.

16 Svante E. Cornell. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. London: Routledge, pp.391-392

Birləşmiş Krallığın Baş naziri Con Meycorun bu sazişin imzalanması münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə göndərdiyi təbrik məktubunda deyilirdi: "Azərbaycan ilə BP şirkətinin rəhbərlik etdiyi Qərb Neft Şirkətləri Konsorsiumu arasında müqavilənin imzalanması dövlətlərimiz arasındakı münasibətlərin yeni mərhələsinin başlandığını ifadə edir"[17]. Elə həmin gün Böyük Britaniyanın energetika naziri Tim Eqqarı qəbul edən Prezident Heydər Əliyev demişdi: "İndi biz müttəfiqlərik"[18].

Böyük Britaniya ilə enerji sahəsində əməkdaşlığın genişlənməsi çox mürəkkəb siyasi şəraitdə davam edirdi. Belə ki, Rusiya siyasi dairələrində bəzi qrupların qəti şəkildə qarşı olduğu "Əsrin müqaviləsi" imzalandıqdan cəmi bir gün sonra, sentyabrın 21-də xəyanətdə ittiham olunan bir qrup şəxsin həbsdən qaçması, sentyabrın 29-da Azərbaycan Respublikasının iki yüksək vəzifəli şəxsinin sui-qəsd nəticəsində qətlə yetirilməsi, nəhayət, oktyabr ayının əvvəlində dövlət çevrilişinə silahlı cəhd ölkədə ictimai-siyasi sabitliyi pozmağa hesablanmışdı. Digər tərəfdən, Birləşmiş Krallığın özündə Baş nazir Con Meycorun dövründə hakim Mühafizəkarlar Partiyasının daxilində Avropaya inteqrasiyanın tərəfdarları ilə İttifaqa müxalif olanlar arasında yaşanan çəkişmə Böyük Britaniyanın həm daxili, həm də xarici siyasətinə neqativ təsir edirdi.

1997-ci ilin iyulunda Boris Yeltsinin dəvəti ilə Moskvaya rəsmi səfər edən Prezident Heydər Əliyev Rusiya Prezidenti ilə dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalamaqla yanaşı, ARDNŞ, "LUKoyl" və "Rosneft" şirkətləri arasında "Kəpəz" yatağının birgə istismarına dair protokolun imzalanma mərasimində də iştirak etdi. Bu protokolun imzalanması strateji əhəmiyyət daşıyırdı. Belə ki, bu, Rusiyanın Xəzər dənizinin Azərbaycana aid hissəsini de-fakto tanıması demək idi. Doğrudur, artıq həmin ilin avqust ayında Boris Yeltsin Türkmənistan Prezidenti S.Niyazovla Moskvada apardığı danışıqlar nəticəsində Türkmənistanın "Kəpəz" yatağına

17 Mirzəbəyli İ. Azərbaycan–Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Bakı, Azərbaycan–Böyük Britaniya Gənclər Cəmiyyəti, 2001, s.46
18 Yenə orada, s.47

olan iddialarını tanımış, bundan bir müddət əvvəl isə "Rosneft" layihəni tərk etmişdi. Lakin bütün bunlar protokolun simvolikliyini azaltmırdı, çünki bu protokol Azərbaycanın Rusiyanı Xəzər dənizinin milli sektorlara bölünməsinin onun da maraqlarına xidmət etdiyinə inandıra bilməsi baxımından əhəmiyyətli idi.

Bütün bunlara baxmayaraq, Azərbaycanla Böyük Britaniya arasında enerji sahəsində əməkdaşlıq durmadan genişlənirdi. 1995-ci ilin fevralında hasilatın pay bölgüsü haqqında sazişi həyata keçirmək məqsədilə yaradılan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) 1999-cu ildə neft yataqlarında əsas əməliyyatçı kimi Britaniyanın BP şirkətini təyin etdi. Azərbaycanın neft sektorunda mühüm səhmdar olan BP şirkəti bu dövrdə ölkənin iqtisadi inkişafında önəmli rol oynamışdır. Həmin illərdə Azərbaycan üçün prioritet məsələlərdən biri davamlı iqtisadi inkişafı təmin etmək üçün xarici investorların ölkəyə cəlb edilməsi idi. 1995-ci il noyabrın sonunda Böyük Britaniyada işgüzar səfərdə olan Prezident Heydər Əliyev Londonda Adam Smit İnstitutunun təşkil etdiyi "Azərbaycanda investisiya imkanları" mövzusunda beynəlxalq konfransda çıxış edərkən bildirdi: "Azərbaycan xarici investorlar üçün, investisiyalar üçün açıqdır"[19]. Bu səfər çərçivəsində Azərbaycan–Böyük Britaniya Ticarət və Sənaye Şurasının təsis edilməsi haqqında Anlaşma Memorandumu imzalandı. Səfər nəticəsində Azərbaycana Birləşmiş Krallıqdan kapital axını daha da artdı, qısa müddət ərzində Azərbaycanda Böyük Britaniya şirkətlərinin 40-dan çox ofisi açıldı. Böyük Britaniyanın xarici işlər və birlik işləri üzrə naziri Malkolm Rifkindin 1996-cı il yanvarın 3-4-də Azərbaycana rəsmi səfəri zamanı ikitərəfli siyasi- iqtisadi münasibətlərin inkişafına dair məsələlər müzakirə edildi, Azərbaycan hökuməti ilə Birləşmiş Krallıq arasında sərmayələrin qorunması və təşviqi haqqında saziş imzalandı.

1998-ci il iyulun 19-24-də Prezident Heydər Əliyevin Böyük Britaniyaya ikinci rəsmi səfəri iki ölkə arasındakı münasibətlərdə yeni

19 "Azərbaycanda investisiya imkanları" beynəlxalq konfransının açılışı mərasimində Heydər Əliyevin çıxışı. /29.11.1995/ - http://files.preslib.az/projects/toplu/books/5.pdf

səhifə açdı. Qeyd etmək lazımdır ki, 1997-ci ilin mayında Birləşmiş Krallıqda Toni Bleyerin rəhbərliyi altında "yeni" Leyboristlər Partiyası hakimiyyətə gəlmişdi. Xarici siyasətdə kommersiya diplomatiyasına xüsusi önəm verən Toni Bleyerin Baş nazir seçilməsi ilə Böyük Britaniyanın Azərbaycana qarşı siyasəti daha da intensivləşdi. Səfər çərçivəsində Prezident Heydər Əliyevin Kraliça II Yelizaveta və Baş nazir Toni Bleyerlə görüşlərində iki ölkə arasında iqtisadi və siyasi əlaqələrin inkişafı məsələlərinə toxunuldu, Birləşmiş Krallıqla Azərbaycan arasında siyasi-strateji tərəfdaşlıq münasibətlərini genişləndirmək arzusu ifadə olundu. Toni Bleyer həmçinin Avropa Şurasına tamhüquqlu üzv olmaq üçün Azərbaycana dəstək verəcəklərini bildirdi. Bunun ardınca Azərbaycan Respublikasının Prezidenti və Böyük Britaniyanın Baş naziri tərəfindən dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamə imzalandı[20].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük Britaniyaya 1994-cü və 1998-ci illərdə etdiyi səfərlər Azərbaycanla Birləşmiş Krallıq arasındakı münasibətlər tarixində yeni səhifə açsa da, bu səfərlər bir-birindən əsaslı şəkildə fərqlənirdi. Belə ki, münasibətlərin ilkin dövründə digər Avropa ölkələri kimi, Böyük Britaniya da Azərbaycanla münasibətlərə sırf iqtisadi maraqlar prizmasından baxırdı. Lakin 1997-ci ildə Toni Bleyerin hakimiyyətə gəlməsi ilə Böyük Britaniyanın xarici siyasətində baş verən köklü dəyişikliklər Azərbaycanla enerji əməkdaşlığını iqtisadi müstəvidən strateji müstəviyə keçirdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə ABŞ və Böyük Britaniya Xəzərin enerji resurslarının istismarı məsələsinə fərqli mövqelərdən yanaşırdılar. Əgər Avropa üçün bu, iqitisadi məsələ idisə, ABŞ üçün bu məsələ strateji əhəmiyyət daşıyırdı. SSRİ dağıldıqdan sonrakı ilk illərdə ABŞ postsovet regionuna qarşı "birinci Rusiya" ("Russia First") siyasətini yeridirdisə, bu vəziyyət 1994-cü ilin sonlarından etibarən tədricən

20 Azərbaycan Respublikası Prezidentinin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Baş nazirinin dostluq münasibətləri və tərəfdaşlıq haqqında Birgə Bəyannaməsi. /21.07.1998/ - http://files.preslib.az/projects/toplu/books/16.pdf

dəyişməyə başladı və Prezident Corc Buşun dövründə tamamilə "birinci təhlükəsizlik" ("security first") siyasəti ilə əvəz olundu[21]. ABŞ-ın 1994-cü ildə qəbul etdiyi Milli Təhlükəsizlik Strategiyası ilk dəfə olaraq Xəzər neftindən ölkənin Orta Şərqdən asılılığını azaltmaq üçün istifadə edilə biləcəyinə diqqət çəkmişdir[22]. 1997-ci ildə qəbul edilən Yeni Əsr üçün Milli Təhlükəsizlik Strategiyasında isə Xəzər dənizinin enerji resurslarının ABŞ-ın iştirakı ilə tezliklə işlənib dünya bazarlarına çıxarılmasının zəruriliyi vurğulanmış, bunun üçün isə regionda sabitliyin bərpa olunması və Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyi qeyd edilmişdir[23].

Bu dövrdə ABŞ üçün prioritet məsələlərdən biri Bakı–Tbilisi–Ceyhan boru xəttinin reallaşması idi. İlkin mərhələdə bu boru xəttinin iqtisadi cəhətdən səmərəsiz olduğunu iddia edən BP kəmərin çəkilişinə qarşı olsa da, Böyük Britaniyanın xarici siyasətindəki transformasiya şirkətin bu məsələdəki mövqeyini də dəyişdirdi. Belə ki, Toni Bleyer Birləşmiş Krallıqda hakimiyyətə gəldikdən sonra ABŞ ilə Böyük Britaniya arasında tarixən mövcud olan "xüsusi münasibətlər" ("special relationship") sistemini keyfiyyətcə tamamilə yeni mərhələyə qaldıraraq iki ölkənin xarici siyasətinin konvergensiyasını təmin edə bilmişdi[24]. Bu isə, öz növbəsində, Böyük Britaniyanı Xəzərin enerji resurslarının işlənməsi məsələsinə sadəcə özünün dar iqtisadi maraqları çərçivəsində deyil, həm də daha geniş Avratlantik məkanın təhlükəsizliyi prizmasından baxmağa sövq etdi. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, 1998-2005-ci illərdə Azərbaycan və Böyük Britaniya arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf edərək iqtisadi əməkdaşlıqdan strateji tərəfdaşlıq səviyyəsinə qalxmasında ABŞ faktorunun böyük rolu olmuşdur.

21 National Energy Policy Development Group (NEPDG). National Energy Policy // US Government Printing Office, Washington, 2001

22 Nation Security Strategy of Engagement and Enlargement. /July 1994, The White House / - http://nssarchive.us/NSSR/1994.pdf

23 A National Security Strategy For A New Century. /01.05.1997/ - http://nssarchive.us/NSSR/1997.pdf

24 John Dumbrell. A Special Relationship: Anglo-American Relations from the Cold War to Iraq. New York: Palgrave Macmillan, 2006

Cari münasibətlər

2000-ci illərin əvvəlləri Azərbaycan və Böyük Britaniya arasında əməkdaşlığın genişlənməsi ilə səciyyələnmişdir. Məsələn, 2003-cü ildə Azərbaycan Böyük Britaniyanın Baş naziri Toni Bleyer tərəfindən irəli sürülən Hasilat Sənayesində Şəffaflıq Təşəbbüsünə (HSŞT) qoşulan ilk ölkələrdən olmuşdur.

Ümumiyyətlə isə 2004-2016-cı illər Azərbaycanla Birləşmiş Krallıq arasında münasibətlərdə zəngin dövr olmuşdur. Bu dövr ərzində Azərbaycan hökuməti Böyük Britaniya ilə bərabərhüquqlu qarşılıqlı faydalı əməkdaşlıq qurmaq yolunda intensiv fəaliyyət göstərmişdir. İki ölkə arasında əməkdaşlığın möhkəmləndirilməsi baxımından Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Krallığa rəsmi və işgüzar səfərləri xüsusi önəm daşıyır. Prezident İlham Əliyevin Böyük Britaniyaya 2004-cü, 2009-cu, 2012-ci və 2016-cı illərdəki səfərləri iki ölkə arasında qarşılıqlı əməkdaşlığın davamlı olmasında böyük rol oynamışdır.

2009-cu il iyulun 12-15-də Böyük Britaniyaya səfəri çərçivəsində Kral Beynəlxalq Münasibətlər İnstitutunda "Azərbaycan üçün xarici siyasət çağırışları" mövzusunda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, Böyük Britaniya Azərbaycanın strateji tərəfdaşı olmaqda davam edir. 2013-cü il noyabrın 28-də Litvanın paytaxtı Vilnüsdə Avropa İttifaqının III "Şərq tərəfdaşlığı" sammiti çərçivəsində Böyük Britaniyanın sabiq Baş naziri Devid Kemeronla görüşən Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin siyasi, iqtisadi, ticari, energetika və digər sahələrində qarşılıqlı əməkdaşlığı daha da möhkəmləndirmək imkanlarını müzakirə etmişdi[25].

Getdikcə iqtisadi liberalizmə və qloballaşmaya qarşı olan dünyada özünü azad ticarətin dayağı kimi görən Birləşmiş Krallıqla iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji, ticarət, sənaye

25 Prezident İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Devid Kemeronun görüşü olmuşdur. /28.11.2013/ - http://az.president.az/articles/10385

sahələrində əməkdaşlıq Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir[26]. Belə ki, ticari-iqtisadi sahədə əməkdaşlığı genişləndirmək məqsədilə 2015-ci il martın 2-də Bakıda Azərbaycanla Böyük Britaniya hökuməti arasında anlaşma memorandumu imzalanmış, qısa müddət sonra isə iki ölkə arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya təşkil edilmişdir[27]. Son 25 ildə Azərbaycan iqtisadiyyatına 23 milyard ABŞ dollarından çox investisiya yatıran Birləşmiş Krallıqla Azərbaycan arasında cari ticarət dövriyyəsinin həcmi 449,71 mln. ABŞ dolları təşkil edir.

Britaniya şirkətləri Azərbaycan iqtisadiyyatında hazırda çox mühüm rol oynayır. Belə ki, Birləşmiş Krallıq Azərbaycanın neft sektorunda ən böyük, qeyri-neft sektorunda isə ikinci ən böyük investordur[28]. Qeyri-neft sektorunda xarici investisiya portfelinin 16%-i məhz Böyük Britaniyanın payına düşür[29]. Ölkəyə qoyulan xarici sərmayənin ümumi həcmində isə payı 50%-ə çatan Böyük Britaniyanın Azərbaycanda hazırda 450-dən çox şirkəti fəaliyyət göstərir. Neft sektorunda ən böyük xarici şirkət olan BP ilə yanaşı, Britaniya şirkətləri Azərbaycanın tikinti, xidmət (audit və hüquq sahələrində), təhsil kimi müxtəlif qeyri-neft sektorlarında da mühüm rol oynayırlar. Təkcə 2014-cü ildə Britaniyanın Azərbaycana ixracının həcmi 730 milyon, sərmayənin ümumi həcmi isə 153,3 milyon funt sterlinq təşkil etmişdir[30].

Hazırda iki ölkə arasında iqtisadi münasibətlərin əsasını enerji sahəsində əməkdaşlıq təşkil edir. Belə ki, qeyd etdiyimiz kimi, Britaniyanın BP şirkəti Azərbaycanın neft sektorunda ən böyük

26 Theresa May. Britain after Brexit: A Vision of Global Britain. Conservative Party Conference at The ICC, Birmingham / 02.10.2016 / - https://www.gov.uk/government/speeches/beyond-brexit-a-global-britain

27 Azərbaycan Respublikasının Hökuməti ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /10.08.2015/ - http://www.president.az/articles/15954

28 Department for International Trade. Doing business in Azerbaijan: Azerbaijan trade and export guide. /10.08.2015/ - https://www.gov.uk/government/publications/exporting-to-azerbaijan/exporting-to-azerbaijan

29 Shahbazov I. The potential impacts of Brexit on Azerbaijan's economy // Center for Economic and Social Development. /05 July 2015/ - http://cesd.az/new/wp-content/uploads/2011/05/The-potential-impacts-of-Brexit-on-Azerbaijan%E2%80%99s-economy.pdf

30 Yenə orada

xarici investordur. Artıq 20 ildən çoxdur BP ilə sıx əməkdaşlıq edən Azərbaycan hökuməti bu münasibətlərin effektiv modelini qura bilmişdir. Məsələn, 2009-cu il iyulun 13-də bu şirkətlə Xəzər dənizinin Azərbaycan sektorundakı "Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi haqqında anlaşma memorandumu imzalayan ARDNŞ 2010-cu ilin iyul ayında şirkətin sabiq baş icraçı direktoru Toni Heyvordun Azərbaycana səfəri zamanı HPB sazişinin əsas kommersiya prinsiplərini müəyyən edən "Sazişin Əsas Prinsipləri"ni, həmin ilin oktyabr ayında isə sazişi imzalamışdır.

Azərbaycanla Böyük Britaniya arasında enerji sahəsində əməkdaşlıqda prioritet məsələ 2014-cü ildə əsası qoyulan "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşmasıdır. Avropanın enerji xəritəsini dəyişməyi hədəfləyən bu layihə Ukrayna böhranından sonra xüsusi önəm qazanmış, Aİ-nin 2014-cü ilin may ayında qəbul etdiyi yeni enerji təhlükəsizliyi strategiyasında özünün enerji şaxələndirilməsi siyasətində təməl elementlərindən biri kimi müəyyən etmişdir[31].

Azərbaycan tərəfinin "XXI əsrin layihəsi" adlandırdığı "Cənub Qaz Dəhlizi" 4 əsas elementdən ibarətdir[32]. Birinci element Britaniyanın BP şirkətinin operatoru olduğu "Şahdəniz-2" yatağının istismarıdır. 1999-cu ildə kəşf edilən "Şahdəniz" yatağı Azərbaycanı mühüm qaz ixracatçısına çevirmiş, 2006-cı və 2009-cu illərdə Ukrayna ilə Rusiya arasında yaşanan qaz böhranlarından sonra isə qaz mənbələrini və marşrutlarını şaxələndirmək niyyətində olan Aİ-nin enerji təhlükəsizliyində əhə-miyyətli yer tutmuşdur.

"Cənub Qaz Dəhlizi" layihəsinin ikinci elementi Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz qaz kəmərinin genişləndirilməsidir. Üçüncü element Transanadolu qaz kəməri (TANAP) layihəsidir. 2012-ci ildə Azərbaycanla Türkiyə arasında imzalanmış bu layihəyə əsasən, qaz kəməri Türkiyə–Gürcüstan sərhədindən

31 European Commission. European Energy Security Strategy // Brussels / 28.05.2014 / - http://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:52014DC0330&from=EN

32 Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısında Prezident İlham Əliyevin nitqi [29 fevral 2016-cı il] // "Xalq qəzeti", 1 mart 2016-cı il, № 47, s.1-2. - http://files.preslib.az/site/ialiyev/2016.pdf

Türkiyə–Yunanıstan sərhədinə qədər uzanacaq. Dördüncü layihə isə Transadriatik boru kəməri (TAP) layihəsidir. Bu layihə əsasında qaz kəməri Yunanıstandan Albaniyaya, oradan da Adriatik dənizinin altından keçməklə İtaliyaya çatacaqdır. Bütün bu 4 element "Cənub Qaz Dəhlizi" layihəsini formalaşdırır.

2013-cü ildə bu layihənin əsas resurs bazası olan "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimində çıxış edən Böyük Britaniyanın xarici işlər naziri Uilyam Heyq bildirmişdir ki, bu layihə Avropanın enerji təhlükəsizliyini artıracaq, qaz bazarında rəqabəti gücləndirəcək, iqlim dəyişikliyi ilə bağlı qarşıya qoyulan məqsədləri dəstəkləyəcək və nəhayət, Azərbaycanla Böyük Britaniya arasında münasibətləri möhkəmləndirəcəkdir[33].

Birləşmiş Krallıq üçün Azərbaycanın əhəmiyyəti sadəcə enerji təhlükəsizliyi və ya iqtisadi maraqlarla məhdudlaşmır. Azərbaycan həm də Böyük Britaniyanın Orta Şərqə çıxış imkanlarını genişləndirmək baxımından da vacib platformadır. Orta Şərq regional təhlükəsizlik kompleksinin çox mürəkkəb və ziddiyyətli olması regiona qarşı düşünülmüş və balanslı siyasət tələb edir[34]. 2016-cı il fevralın 4-də Londonda Böyük Britaniya, Almaniya, Norveç və Küveytin birgə təşkil etdikləri "Suriyaya və regiona dəstək" konfransında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı, eyni zamanda Suriya böhranının siyasi həllinin tapılmasına çağırışı belə siyasətin göstəricisidir[35]. Belə ki, Azərbaycanın Orta Şərqdə hər hansı bir qütbə və yaxud istiqamətə açıq şəkildə nümayiş etdirilən üstünlük verməməsi və mövcud vəziyyətə yüksək həssaslıqla yanaşması onun regiona qarşı xarici siyasətində manevr imkanlarını artırır. Bu isə, öz növbəsində, Azərbaycana Birləşmiş Krallıqla Orta Şərqdəki regional güclər arasında potensial vasitəçi olmağa imkan yaradır.

33 Uilyam Heyqin "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimində çıxışı. /17.12.2013 / - http://az.president.az/articles/10521

34 Buzan B. & Weaver O. Regions and Powers: The Structure of International Security (4th ed). Cambridge: Cambridge University Press, 2003

35 Azərbaycan Prezidenti İlham Əliyev Londonda "Suriyaya və regiona dəstək" konfransında iştirak edib /Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı, 4 fevral 2016-cı il // "Xalq qəzeti", 5 fevral 2016-cı il, № 26, s.1 // http://files.preslib.az/site/ialiyev/2016.pdf

Azərbaycanla Birləşmiş Krallıq arasında münasibətlərin davamlılığında maraqlı olan hər iki tərəf əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi məqsədilə müxtəlif səviyyələrdə qarşılıqlı görüş və səfərlər, Xarici İşlər nazirlikləri arasında vaxtaşırı məsləhətləşmələr keçirilməsinin vacib olduğu qənaətindədir. Bu baxımdan parlamentlərarası diplomatiyanın rolu xüsusilə önəmlidir. 2007-ci ildə qəbul olunan "Britaniyanın idarəçiliyi" strategiyasında Birləşmiş Krallıq hökuməti qanunverici və icra hakimiyyətləri arasında balansı bərpa etmək məqsədilə parlamentə xarici siyasətdə daha çox səlahiyyət verməyi öz üzərinə götürmüşdür[36]. Bunun məntiqi nəticəsi kimi Birləşmiş Krallığın xarici siyasətində getdikcə daha aktiv rol oynayan Britaniya parlamenti ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi Azərbaycan tərəfi üçün münasibətlərdə prioritet məsələlərdən biridir. Bu baxımdan son illərdə iki ölkənin parlament rəhbərləri və dostluq qrupları səviyyəsində artan qarşılıqlı səfər və görüşlər xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, son 25 ildə Azərbaycan–Britaniya münasibətlər sisteminin əsasını təşkil edən 24 sənəd imzalansa da, müqavilə-hüquq bazasının daha da möhkəmləndirilməsi üçün geniş imkanlar mövcuddur.

Kimlik və mədəniyyət kimi faktorlar xarici siyasətin qərarvermə mexanizmlərində mühüm rol oynadığından iki ölkə arasında sosial və mədəni əlaqələrin möhkəmləndirilməsi, elmi, mədəni və humanitar münasibətlərin inkişafı və bu sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi xüsusi önəm kəsb edir[37]. Belə ki, iki ölkə xalqları arasında mədəni və humanitar əlaqalərin inkişafı Azərbaycanla Böyük Britaniya arasında qarşılıqlı inam mühitinin möhkəmləndirilməsində mühüm rol oynayır.

Azərbaycan və Böyük Britaniya hazırda beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirlər. Məsələn, 2011-ci ildə əldə edilmiş qarşılıqlı dəstək haqqında razılaşmaya uyğun olaraq Birləşmiş Krallıq Azərbaycanın 2017-2019-cu illər üzrə BMT-nin İqtisadi və

36 Ministry of Justice. The Governance of Britain / July 2007 / - https://www.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/228834/7170.pdf

37 Alex Mintz and Karl DeRouen Jr. Understanding Foreign Policy Decision Making. Cambridge: Cambridge University Press, 2010

Sosial Şurasına namizədliyinə dəstək vermişdir. Öz növbəsində, Azərbaycan 2017-2021-ci illər üzrə Beynəlxalq Hüquq Komissiyasının mütəxəssisləri vəzifəsinə keçirilmiş seçkilərdə Birləşmiş Krallığın namizədini dəstəkləmişdir. Bu əməkdaşlığın digər örnəyi kimi BMT Baş Assambleyasının 2006-cı ilin sentyabrında keçirilən 61-ci sessiyasında gündəliyə "GUAM ölkələrində uzanmış münaqişələr və onların beynəlxalq sülhə, təhlükəsizliyə və inkişafa təsiri" adlı yeni bəndin daxil edilməməsi tövsiyəsi barədə Baş Assambleyada keçirilmiş səsvermədə Böyük Britaniyanın bu tövsiyənin əleyhinə çıxaraq Azərbaycanın mövqeyini müdafiə etməsini göstərmək olar.

Azərbaycanla Birləşmiş Krallıq NATO çərçivəsində də qarşılıqlı əməkdaşlığı davam etdirirlər. Belə ki, Azərbaycan və Britaniya həm NATO-nun 2001-2014-cü illərdə rəhbərlik etdiyi Beynəlxalq Təhlükəsizlik Yardımı Qüvvələri, həm də 2015-ci ilin yanvarından start verilən yeni "Qətiyyətli dəstək" missiyası çərçivəsində Əfqanıstanın siyasi-iqtisadi inkişafına öz töhfələrini verir və orada təhlükəsizliyin və ictimai sabitliyin bərqərar olması yolunda birgə səylər göstərirlər. Prezident İlham Əliyev 2014-cü ilin sentyabrında Uelsdə keçirilən NATO sammitində iştirak edərkən qeyd etmişdir ki, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin potensial tranzit imkanları gələcəkdə NATO-nun "Qətiyyətli dəstək" kimi missiyalarının uğurlu olmasında böyük rol oynaya bilər[38].

2016-cı il iyunun 23-də keçirilən referendum nəticəsində Birləşmiş Krallığın Aİ-nin tərkibindən çıxmasının Azərbaycan üçün mənfi və müsbət tərəfləri var. Birləşmiş Krallığın Aİ-ni tərk etməsinin mənfi tərəflərindən biri – "Breksit"dən ("Brexit" – Britain Exit) sonra ingilis funt sterlinqinin dəyərdən düşməsi nəticəsində Dövlət Neft Fondunun aktivlərinin azalması kimi qısamüddətli çətinlikləri göstərmək olar. Bununla yanaşı, Azərbaycanı Aİ strukturlarında dəstəkləyən Böyük Britaniyanın bu qurumdan çıxması Azərbaycan üçün Aİ ilə münasibətlərdə bəzi rıçaqların itirilməsi kimi də səciyyələndirilə bilər.

38 Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya işgüzar səfəri /Prezident İlham Əliyevin NATO-nun sammitində çıxışı, [5 sentyabr 2014-cü il] // "Xalq qəzeti", 6 sentyabr 2014-cü il, № 193, s.1 - http://files.preslib.az/site/ialiyev/2014.pdf

Bütün bunlara baxmayaraq, "Breksit"in Azərbaycanla Böyük Britaniya arasında münasibətlər sisteminə köklü şəkildə təsiretmə ehtimalları olduqca zəifdir, çünki Birləşmiş Krallıqla Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin təməlləri Aİ-nin vasitəçiliyi olmadan qurulmuşdur. Buna görə də Azərbaycan–Birləşmiş Krallıq münasibətləri sistemi çərçivəsində "Breksit"ə daha çox sistemdaxili dəyişiklik kimi yanaşmaq lazımdır, nəinki sistemin köklü dəyişməsi kimi. Britaniyanın Aİ-dən ayrılması Azərbaycanla Birləşmiş Krallıq arasında münasibətlərdə keyfiyyət dəyişikliyi yaratma xarakterinə malik amil olmasa da, uzunmüddətli perspektivdə "Breksit" ikitərəfli iqtisadi və ticari münasibətlərə müsbət şəkildə təsiretmə potensialına malikdir.

"Breksit"in Azərbaycanla Böyük Britaniya arasında münasibətlərə təsiri yalnız iqtisadi sahə ilə məhdudlaşmır. Belə ki, "Breksit"dən sonra Birləşmiş Krallığın xarici işlər naziri Boris Consonun irəli sürdüyü yeni "Qlobal Britaniya" strategiyası iki dövlət arasında əməkdaşlıq imkanlarını daha da genişləndirmək potensiallıdır[39]. Bu strategiya Birləşmiş Krallığın "Breksit"dən sonra, bir sıra ekspertlərin iddia etdiyi kimi, təcridçi deyil, tam əksinə, daha aktiv xarici siyasət yeritmək niyyətində olduğuna bariz işarədir.

Bununla yanaşı, mədəni və humanitar əlaqələr istənilən dövlətin "yumşaq güc"ünün əsasını təşkil edir. Ona görə də bu əlaqələrin inkişafı dövlətlər üçün strateji əhəmiyyət daşıyır. Belə ki, Berkli Kaliforniya Universitetinin professoru Endrü Rosun hesablamalarına əsasən, "yumşaq güc"də hər 1% artım ölkə ixracında 0,8% deməkdir[40]. 2016-cı ildə "yumşaq güc"lərin qlobal reytinqində geriləyən Böyük Britaniya üçün bu geriləmə xarici ticarətdə rəqabətqabiliyyətliyinin də azalması deməkdir[41]. Bu baxımdan Böyük Britaniya üçün "Breksit"dən sonra digər ölkələrlə ikitərəfli münasibətlərdə elm-təhsil və mədəni-

39 Boris Johnson. Beyond Brexit: A Global Britain. London: Chatham House. /02.12.2016 / - https://www.gov.uk/government/speeches/beyond-brexit-a-global-britain

40 Andrew Rose. Like me, buy me: The effect of soft power on exports. /September 2015/ - http://www.nber.org/papers/w21537.pdf

41 Jonathan McClory. The Soft Power 30: A Global Ranking. /June 2016/ - http://www.comresglobal.com/wp-content/uploads/2015/07/Report_Final-published.pdf

humanitar əlaqələrin inkişafı xarici siyasətdə prioritet məsələlərdəndir. Bu baxımdan Azərbaycanla Birləşmiş Krallıq arasında təhsil sahəsində əməkdaşlıq xüsusilə önəmlidir. Böyük Britaniya xaricdə təhsil almaq niyyətində olan azərbaycanlı gənclərin maraq göstərdiyi əsas ölkələrdəndir. Belə ki, yalnız 2015-2016-cı illərdə "Xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" çərçivəsində 621 azərbaycanlı tələbə Böyük Britaniyanın müxtəlif universitetlərində təhsil almışdır[42]. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, Azərbaycanla Birləşmiş Krallıq arasında elmi-mədəni və təhsil sahələrində əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynayan Britaniya Şurasının (British Council) hüquqi statusu ilə bağlı yaranmış problemlərin həlli qarşılıqlı münasibətlərin inkişafı üçün vacib məsələlərdəndir.

ATƏT-in Azərbaycana qarşı silah satışı ilə bağlı hələ də qüvvədə olan embarqosu iki ölkə arasında hərbi sahədə əməkdaşlığı müəyyən anlamda məhdudlaşdırsa da, müdafiə, xüsusilə təhlükəsizlik sahəsində beynəlxalq öhdəliklərə zidd olmayan ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsi tərəflər üçün prioritet məsələdir[43]. Bu baxımdan 2004-cü il avqustun 12-də Azərbaycan Respublikası və Böyük Britaniya Müdafiə nazirlikləri arasında imzalanan müdafiə əlaqələri və əməkdaşlıq haqqında anlaşma memorandumunu xüsusi qeyd etmək lazımdır. Bununla yanaşı, qlobal, regional və milli təhlükəsizliyə kütləvi qırğın silahları, dezinformasiya əməliyyatları, kibercinayətlər və terrorizm kimi asimmetrik təhdidlərin sürətlə artdığı bir vaxtda Azərbaycanla Britaniya arasında terrorçuluğa və mütəşəkkil cinayətkarlığa qarşı mübarizə sahəsində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın genişləndirilməsi mühüm əhəmiyyət kəsb edən məsələdir.

Hər iki tərəfin də etiraf etdiyi kimi, cari münasibətlərdə arzuolunan səviyyədə olmayan yeganə sahə Ermənistan–Azərbaycan Dağlıq

42 Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı. / Dövlət Statistika Komitəsi, 2016 / - http://www.stat.gov.az/source/education/az/001_8.25.xls

43 Foreign and Commonwealth office. Arms Embargo. /02.07.2014/ - http://www.publications.parliament.uk/pa/cm201415/cmhansrd/cm140702/wmstext/140702m0001.htm

Qarabağ münaqişəsinin həlli və bunun məntiqi nəticəsi kimi regional sabitliyin bərpasıdır[44]. Birləşmiş Krallığın mövqeyinə görə, Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olması, "dondurulmuş münaqişələr"in həlli bu regionun iqtisadi inkişafı üçün əsas şərtdir. Böyük Britaniya BMT və ATƏT prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü daima dəstəkləsə də, Azərbaycan tərəfi eyni zamanda hesab edir ki, Birləşmiş Krallıq işğal olunmuş ərazilərə Britaniya vətəndaşlarının qeyri-qanuni səfərləri, Britaniya şirkətlərinin həmin ərazilərdəki qeyri-qanuni fəaliyyəti və onların separatçı rejimlə əlaqələri ilə bağlı daha qətiyyətli mövqe ortaya qoya bilər.

Bütün bunlarla yanaşı, son illərdə Dağlıq Qarabağ problemi və məcburi köçkünlər məsələsinə Birləşmiş Krallıq tərəfindən diqqət artmışdır. Belə ki, 2008-ci il martın 14-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıyan və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal altında olan bütün ərazilərini dərhal, tam və qeyd-şərtsiz tərk etməsini tələb edən qətnamənin qəbulu zamanı Rusiya və ABŞ-ın qətnaməyə qarşı çıxmalarına baxmayaraq, Birləşmiş Krallığın bitərəf qalması müsbət hal kimi dəyərləndirilə bilər[45]. 2014-cü ilin noyabr və 2015-ci ilin avqust aylarında Britaniyanın Avropa məsələləri üzrə sabiq dövlət naziri David Lidinqton və Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya məsələləri üzrə direktoru Maykl Tethemin Bakıya səfərləri zamanı məcburi köçkünlər problemi qarşılıqlı müzakirələrdə prioritet mövzulardan olmuşdur. 2014-cü ilin noyabr ayındakı səfəri çərçivəsində Azərbaycan Diplomatik Akademiyasında çıxış edən David Lidinqton qeyd etmişdir ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət olunmadan Dağlıq Qarabağ münaqişəsinin həllindən söhbət gedə bilməz[46].

44 İrfan Siddiq. Böyük Britaniya–Azərbaycan: ikitərəfli münasibətlərin inkişaf perspektivləri. /07.11.2016/ - http://newtimes.az/az/diplomatik/4898/

45 General Assembly Adopts Resolution Reaffirming Territorial Integrity of Azerbaijan, Demanding Withdrawal of All Armenian Forces. /14 March 2008/ - http://www.un.org/press/en/2008/ga10693.doc.htm

46 David Lidington. There can be no settlement without respect for Azerbaijan's sovereignty. /06.11.2014/ - http://azertag.az/en/xeber/David_Lidington_There_can_be_no_settlement_without_respect_for_Azerbaijans_sovereignty-808542

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək qeyd edə bilərik ki, 2004-2016-cı illər iki ölkə arasında əməkdaşlığın genişlənməsi və inkişafı baxımından çox məhsuldar dövr olmuşdur. Möhkəm təməlləri olan Azərbaycan və Böyük Britaniya arasında cari münasibətlər sistemi iki ölkə arasında müxtəlif sahələrdə davamlı əməkdaşlığa və strateji tərəfdaşlığa əlverişli şərait yaradır. Bu münasibətlər sisteminin bundan sonra da inkişaf etməsi üçün hər iki tərəfin güclü iradəsi və niyyəti var.

Nəticə

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının strateji hədəflərindən biri Qərb ölkələri ilə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi idi. Bu çərçivədə Azərbaycanın həm siyasi, həm də iqtisadi maraqları baxımından Böyük Britaniya ilə münasibətlər xüsusi əhəmiyyət kəsb edirdi. Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələrin zəngin tarixi olsa da, müstəqillik əldə edildikdən sonra bu münasibətlərin keyfiyyətcə fərqli müstəvidə bərpasına ehtiyac var idi. Bu münasibətlərin əvvəlki dövrlərdəki əlaqələrdən əsaslı surətdə fərqlənən formada qurulması və inkişafı Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra mümkün olmuşdur. Hazırda Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında yalnız siyasi, ticari-iqtisadi və strateji sahələrdə deyil, həmçinin humanitar, mədəni, elm, təhsil, informasiya texnologiyaları kimi sahələrdə də gələcək qarşılıqlı əməkdaşlığın möhkəm bünövrəsi mövcuddur. Artıq qeyd edildiyi kimi, bu bünövrə Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi Böyük Britaniyaya 1994-cü və 1998-ci illərdə etdiyi rəsmi səfərləri zamanı qoyulmuş, Prezident İlham Əliyevin dövründə isə daha da gücləndirilmişdir.

İki ölkə arasında cari iqtisadi münasibətlərin əsasını enerji sahəsində tərəfdaşlıq təşkil edir. Artıq 20 ildən çoxdur Britaniya ilə enerji sahəsində əməkdaşlıq edən Azərbaycan bu münasibətlərin qarşılıqlı fayda və davamlılıq prinsiplərinə dayanan çox uğurlu modelini qura bilmişdir. Lakin enerji sahəsində Böyük Britaniya ilə Azəbaycan

Respublikası arasında tərəfdaşlıq sadəcə iqtisadi xarakter daşımır, həm də strateji əhəmiyyət kəsb edir. Belə ki, Böyük Britaniya Aİ-dən çıxsa da, özünü nəinki Avropadan təcrid etmək fikrində deyil, əksinə, Avropa təhlükəsizlik sistemində gələcəkdə daha da fəal rol oynamağı planlaşdırır. Bu strategiya özünü xarici işlər naziri Boris Consonun "kənar dayaq" (flying buttress) bənzətməsində daha bariz göstərir[47]. Bu strategiyanın təməlində Birləşmiş Krallığın Aİ-nin tərkibində olmasa da, kənardan "Ümumavropa evi"nin əsas dayağı rolunu oynamağa davam etməsinin vacibliyinə inam dayanır. Böyük Britaniya hökuməti bu rolun əsas tərkib hissəsi kimi Aİ-nin təhlükəsizliyini, o cümlədən enerji təhlükəsizliyini möhkəmləndirməkdə görür. Bu baxımdan Birləşmiş Krallığın Azərbaycanla enerji sahəsində strateji tərəfdaşlığı və bu çərçivədə "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması Böyük Britaniya hökuməti üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, "Cənub Qaz Dəhlizi" layihəsi Avropanın enerji xəritəsini dəyişməklə Aİ-nin enerji təhlükəsizliyini möhkəmləndirməyi hədəfləyir.

Eyni zamanda qeyd etmək lazımdır ki, hazırda qeyri-neft sektorunda xarici investisiya portfelinin 16%-i məhz Böyük Britaniyanın payına düşsə də, Azərbaycanın qeyri-neft sektorunda mövcud olan böyük potensial iqtisadi münasibətlərin əsasən enerji sektoru ilə məhdudlaşmasının hər iki tərəfin milli maraqlarına cavab verməməsinə səbəb olur. Bu baxımdan ikitərəfli iqtisadi əməkdaşlığı genişləndirərək qeyri-neft sektorunun müxtəlif sahələrini əhatə etməsi üçün mövcud olan geniş imkanlardan maksimum yararlanmaq, bununla da strateji tərəfdaşlığın davamlı olmasını təmin etmək Azərbaycanla Böyük Britaniya arasındakı münasibətlərdə prioritet məsələlərdəndir. Bu baxımdan Azərbaycanla Böyük Britaniya arasında kənd təsərrüfatı, təhsil, informasiya texnologiyaları kimi sahələrdə əməkdaşlığın çox yaxşı perspektivləri var. 2015-ci ildə təşkil olunan və ikitərəfli əməkdaşlığın çox səmərəli mexanizmi olan Birgə İqtisadi Komissiyanın da fəaliyyəti Azərbaycanla Böyük Britaniya arasında

47 Boris Johnson. Beyond Brexit: A Global Britain. London: Chatham House. /02.12.2016 / - https://www.gov.uk/government/speeches/beyond-brexit-a-global-britain

ticarət dövriyyəsini artırmağa və onu şaxələndirməyə geniş imkanlar yaradır.

Son 25 ildə ikitərəfli münasibətlərin təməlini təşkil edən 24 sənədin imzalanması Böyük Britaniya ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük potensial olduğunu açıq-aydın göstərir. İkitərəfli əlaqələrin genişləndirilməsində hökumət və parlament səviyyəsində qarşılıqlı səfər və görüşlərin, müxtəlif səviyyələrdə aparılan intensiv dialoqun da əhəmiyyətli töhfəsi var. Hər iki ölkə bir çox beynəlxalq təşkilatlar müstəvisində çox səmərəli əməkdaşlıq edir, həmçinin qarşılıqlı razılaşmaya əsasən BMT-nin müxtəlif qurumlarında bir-birini dəstəkləyir, NATO-nun "Qətiyyətli dəstək" missiyası çərçivəsində sıx əməkdaşlıq edir. Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan Birləşmiş Krallıq münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə həllinin tərəfdarıdır.

Azərbaycan–Çin münasibətləri: Qədim İpək Yolundan başlanan tarix

*Rəşad Kərimov**

Giriş

Mərkəzi və Şərqi Asiyanın ən böyük dövlətlərindən olan Çin Xalq Respublikası *(ÇXR, qısa şəkildə Çin)* tarixin bütün mərhələlərində dünyanın siyasi, iqtisadi, mədəni mənzərəsinə təsir gücünü qorumuş, kommunikasiya vasitələrinin ən ibtidai dövrlərində də ayrı-ayrı ölkələrlə sıx əlaqələrə malik olmuşdur. Dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri kimi Azərbaycanın da Çinlə münasibətlərinin tarixi çalarları böyük maraq doğurur. Aradakı məsafə uzaqlığına baxmayaraq, hər iki ölkə arasında münasibətlərin təşəkkülü eramızdan əvvəllərə gedib çıxır. Bu münasibətlərə dəlalət edən müxtəlif məlumatlara şifahi xalq ədəbiyyatı nümunələrimizdə, klassiklərimizin əsərlərində, eləcə də ayrı-ayrı tarixi qaynaqlarda tez-tez rast gəlmək mümkündür.

E.ə. II əsrin əvvəllərindən başlayaraq Şərqi Asiya ölkələrinin Qərblə beynəlxalq tranzit ticarəti yolunun Azərbaycandan keçməsi bu ölkələrlə, o cümlədən Çinlə iqtisadi-ticari və mədəni əlaqələrin genişlənməsinə böyük imkanlar yaratmışdır. Qeyd edək ki, bu yol 1868-1872-ci illərdə Çinə səyahət etmiş alman coğrafiyaşünası Ferdinand fon Rixthofen tərəfindən ilk dəfə "İpək Yolu" adlandırılmış və tarixdə məhz bu adla qalmışdır[1].

Karvan yolu Çinin paytaxtı Çanqandan başlayaraq Yaponiya, Hindistan, Monqolustan, İran, Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrdən keçirdi. Yol Lançjoudan keçməklə Siandan Dunxuanacan uzanır və burada iki yerə ayrılırdı: şimal yolu Turfandan Pamirə, oradan isə Fərqanəyə və Qazaxıstan çöllərinə çatırdı. Cənub

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru*

1 Waugh D. The Silk Road /Vol. 5, N 1, Summer 2007/ - http://silkroadfoundation.org/newsletter/vol5num1/srjournal_v5n1.pdf

yolu isə Lobnor gölünün yanı, Təklə-Məkan səhrasının cənub hissəsi ilə Yarkənd və Pamirdən (cənub hissəsindən) keçməklə Baktiriyaya, oradan isə Parfiyaya, Hindistana və Yaxın Şərqə qədər uzanıb gedirdi.

E.ə. IV əsrdə Makedoniyalı İsgəndər Mərkəzi Asiya istiqamətində Hind çayını keçəndə artıq Çin ipəyinin Aralıq dənizinə çıxışı var idi. Bu qeydlərə əsasən İpək Yolunun tarixinin eramızdan əvvələ gedib çıxdığı məlum olur[2].

Bir çox mühüm elmi və texnoloji innovasiyalar, o cümlədən barıt, maqnit kompası, çap dəzgahı, musiqi alətləri, ipək, keramika və boya məmulatları kimi yeniliklər Şərqdən Qərbə məhz İpək Yolu vasitəsilə aparılmışdır. XVI əsrə qədər dünya üçün öz əhəmiyyətini qoruyan qədim İpək Yolu keçdiyi ölkələrin həyatında mühüm rol oynamış, onların əlaqələrinin inkişafına böyük təkan vermişdir. Böyük İpək Yolunun ilk şaxəsi Cənubi Azərbaycan ərazisindən keçdiyindən bu ərazi ilə geniş əlaqələri olan Dərbənddə, Şirvanda, Şəkidə, Beyləqanda, Gəncədə, Qəbələdə, Təbrizdə və Naxçıvanda ipəkçiliyin inkişafına müsbət təsir göstərmiş, onların hər birinin ipək ticarəti mərkəzinə çevrilməsinə şərait yaradaraq məşhurlaşmasına səbəb olmuşdur. Azərbaycanın Bakı, Dərbənd, Şamaxı və Şirvan bölgələrində tacirlərin rahatlığını təmin etmək məqsədilə karvansaralar tikilmişdir ki, onlardan bəziləri bu gün də tarixi abidə kimi qorunur.

Qaynaqlar qədim və orta əsrlərdə Azərbaycan və Çin arasında siyasi əlaqələrin, diplomatik münasibətlərin kifayət qədər inkişaf etdiyini göstərir. Azərbaycan ərazisində mövcud olmuş dövlətlərlə Çin arasında elm, o cümlədən tibb sahəsində əlaqələrə dair çoxsaylı məlumatlar mövcuddur.

Azərbaycan hərbçiləri Rus–Yapon döyüşlərində

Tarixin sonrakı mərhələləri də Azərbaycanla Çin arasındakı münasibətlərə dair müxtəlif faktlarla zəngindir. Bu faktlardan biri kimi 1904-cü ildə Çinin indiki Dalyan şəhərində başlamış Rus–Yapon

2 "Approaches Old and New to the Silk Roads" Eliseeff in: The Silk Roads: Highways of Culture and Commerce. Paris (1998) UNESCO, Reprint: Berghahn Books (2009), pp. 1–2. ISBN 92-3-103652-1; ISBN 1-57181-221-0; ISBN 1-57181-222-9 (pbk)

müharibəsində Azərbaycan hərbçilərinin, o cümlədən cəmi bir neçə ildən sonra Azərbaycan Xalq Cümhuriyyətinin Milli Ordu qurucuları olacaq generallarımızın iştirakını xatırlamaq yerinə düşər[3].

Həmin dövrdə Çin indiki Dalyan şəhərinin inzibati rayonu olan Lyuyşunu müqavilə ilə Çar Rusiyasına 25 illiyə icarəyə vermişdi. Çar Rusiyası bura dəmir yolu xətti çəkmiş, az sonra Yaponiya ilə başlanması gözlənilən müharibəyə qabaqcadan tədarük görmüşdü. 1904-cü il yanvarın 26-da (yeni təqvimlə fevralın 9-da) gecə Yaponiya ordusu qəfil hücuma keçərək rusların Port-Artur donanmasındakı zirehli "Retvizan", "Sesareviç" gəmilərini və "Pallada" kreyserini partlatdı. Bu, 332 gün davam edən Rus–Yapon müharibəsinin başlanması üçün qığılcım oldu.

Port-Artur qalası uğrunda aparılan döyüşlərdə görkəmli Azərbaycan hərbçiləri Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov, tam süvari generalı Hüseyn xan Naxçıvanski, şahzadə-general Əmir Kazım Mirzə Qacar, Əsəd bəy Talışxanov, şahzadə-podyesaul (kazak qoşunlarında kapitan) Feyzulla Mirzə Qacar, şahzadə-podpolkovnik Əliqulu Mirzə Qacar, polkovnik İlyas bəy Ağalarov, ştabs-kapitan Gəray bəy Vəkilov, xouncu (kazak bölüyündə ilk zabit rütbəsi) Əbdürrəhman Qurbanov, Cəlaləddin Musayev, poruçik Ağababa Sadıqov, podporuçik Zülfüqar bəy Bağırbəyov və başqaları da mərdliklə vuruşaraq yüksək hərbi rütbələr, imperiyanın ali orden və medalları ilə təltif edilmişlər[4].

Azərbaycan–Çin münasibətləri sovet dövründə də xüsusi ardıcıllıqla inkişaf etdirilmişdir. Bu da onunla əlaqədar idi ki, əvvəlki tarixi dövrlərdən fərqli olaraq, Çinlə mədəni əlaqələrin inkişaf xətti sovet dövlətinin xüsusi siyasəti çərçivəsində aparılır və münasibətlər ikitərəfli əməkdaşlıq kontekstində dərinləşirdi. Azərbaycan SSRİ-nin tərkib hissəsi kimi ümumdövlət siyasətindən çıxış edərək Çinlə mədəni əməkdaşlıq əlaqələrinin inkişafına çalışırdı. 1920-ci ilin sentyabrında Bakıda keçirilmiş Şərq xalqlarının I qurultayında Çindən də nümayəndələrin iştirak etməsi yeni tarixi şəraitdə iki ölkə – Sovet Azərbaycanı və Çinlə mədəni əlaqələrin qurulması işində mühüm əhəmiyyət kəsb etmişdir[5].

3 Kərimov R. Azərbaycanın inkişaf modeli. Pekin, 2016, s.174

4 Nəzirli Ş. Port-Arturun azərbaycanlı qəhrəmanları // "Xalq qəzeti", 13 aprel 2015-ci il. - http://www.xalqqazeti. com/az/news/politics/55957

5 Azərbaycan–Çin münasibətləri. /25.02.2013/ - http://mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20%C3%87in_.pdf

Azərbaycan və Çin münasibətlərinin sovet dövrü mərhələsi barədə söhbət açarkən İkinci Dünya müharibəsi zamanı Çinin böyük hissəsini işğal etmiş Yaponiyanın SSRİ-yə qarşı Uzaq Şərqdə apardığı döyüşlərdə sovet ordusunun tərkibində vuruşan azərbaycanlı əsgər və zabitlərin də şücaətindən bəhs etmək yerinə düşərdi. Yaponiya bu döyüşlərdə məğlub olduqdan sonra Çində milli-azadlıq hərəkatı başladı. Yapon qoşunları ölkəni tərk etdi. Çin faktiki olaraq SSRİ-yə yaxın olan Mao Tszedunun və ABŞ-ın dəstəklədiyi Çan Kayşinin nəzarət etdiyi iki hissəyə parçalandı. 1949-cu ildə Mao qalib gələrək Çini xalq respublikası elan etdi, Çan Kayşi isə Tayvana qaçdı. Bu faktları yada salmaqda məqsədimiz Çinin işğaldan azad edilməsinə və dövlətçiliyinin möhkəmlənməsinə azərbaycanlıların da dolayısı ilə verdikləri töhfələri tarixi baxımdan əsaslandırmaqdır.

Çinin Cənubi Qafqaz ölkələri ilə münasibətlərində yeni mərhələ

Sovet İttifaqı dağıldıqdan və keçmiş İttifaq respublikaları müstəqillik əldə etdikdən sonra Çin Cənubi Qafqaz ölkələri ilə münasibətlərini yenidən qurmağa başladı. Bu meyil ənənəvi olaraq xalqların və dövlətlərin milli maraqlarının "ən ədalətli, ən obyektiv təmsilçisi", "yeni dünya nizamında təkqütblü ABŞ hegemonluğunun ən böyük opponenti" rolu ilə meydana çıxan Çinin onun üçün kifayət qədər cəlbedici region sayılacaq Avrasiya məkanındakı dövlətlərin etimadını qazanma siyasətinin tərkib hissəsi idi. Çin bölgəni hərtərəfli tədqiq edərək onun xammal mənbələrinə, nəqliyyat-kommunikasiya imkanlarına, satış bazarlarına daxil olmanın və regionda təmsilçiliyin xüsusi strategiyasını hazırladı[6].

Rəsmi Pekin Uzaq Şərqin (Rusiya), Orta Asiya və Xəzər regionunun zəngin neft və qaz yataqlarına, texnologiya, investisiya və satış bazarlarına, əslində, heç zaman biganə olmamışdır. SSRİ-nin süqutundan sonra isə Çin bu regiondakı maraqlarını reallaşdırmaqdan ötrü Rusiya, Qazaxıstan, Özbəkistan, Azərbaycan, Türkmənistan kimi dövlətlərlə münasibətlərini yaxşılaşdırmağa, özünün beynəlxalq hüquqlarını və milli təhlükəsizlik problemlərini qorumaq sahəsində bu dövlətlərə dəstək verməyə, yardım

6 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.125. - http://elibrary.bsu.az/books_aysel%5CN_236.pdf

etməyə xüsusilə meyil göstərmişdir. Çin bu dövlətlərin müstəqilliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının beynəlxalq aləmdə qorunmasına hərtərəfli dəstək verməkdən çəkinməmiş, onlarla iqtisadi, siyasi və mədəni əlaqələri genişləndirməyə can atmışdır. Təsadüfi deyildir ki, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini elan edən Azərbaycanın suverenliyini tanımış ilk ölkələrdən biri də məhz Çin idi. Çin Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il dekabrın 27-də tanımış, 1992-ci il aprelin 2-də iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Bunun ardınca, 1992-ci ilin avqust ayında Çinin Azərbaycanda səfirliyi açılmış, 1993-cü ilin dekabr ayının 1-də isə ilk səfiri təyin edilmişdir. 1993-cü il sentyabrın 3-də Milli Məclis Azərbaycan Respublikasının Çin Xalq Respblikasında səfirliyinin açılması haqqında qərar qəbul etmiş, həmin il Azərbaycanın bu ölkədə səfirliyi fəaliyyətə başlamışdır.

Heydər Əliyev və Azərbaycan–Çin münasibətləri

İki ölkə arasındakı münasibətlərin inkişaf dinamikasını konkret dövrlər üzrə nəzərdən keçirsək, Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra Çinlə münasibətlərin inkişafında mahiyyətcə yeni bir mərhələnin başlandığını görərik. Daha konkret ifadə etsək, 1991-ci ildə Çinin Azərbaycanı müstəqil dövlət kimi tanımasından sonra iki ölkə arasında çoxtərəfli əməkdaşlıq əlaqələrinin inkişafına doğru ilk real addımlar məhz 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin 7-10 mart tarixlərində Çinə rəsmi səfəri zamanı atılmışdır[7]. Bu səfər iki ölkə arasında bütün sahələrdə tərəfdaşlığın genişlənməsində misilsiz rol oynamışdır. Bu səfərin əsas tarixi əhəmiyyəti ondan ibarət idi ki, həmin səfərlə möhkəmlənən siyasi münasibətlərin əsasını ölkələrin ərazi bütövlüyünün və suverenliyinin tanınması və müdafiə olunması təşkil etmişdir[8].

Çində mövcud olan Tayvan, Azərbaycanda isə Dağlıq Qarabağ problemi bu ölkələri ortaq mövqedən çıxış etməyə təşviq edərək

7 Kərimov R. Azərbaycanın inkişaf modeli. Pekin, 2016, s.174
8 Seyidov E. Azərbaycan–Çin münasibətləri. Bakı, 2007, s.15

münasibətləri strateji tərəfdaşlığa çevirmişdir. Səfər çərçivəsində Pekində təşkil edilmiş mətbuat konfransında Heydər Əliyev bununla bağlı demişdir: *"Çin Xalq Respublikasının müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrin müqəddəratı ilə bağlı mövqeyi məsələsində, dövlətlərin ərazi bütövlüyü, sərhədlərin pozulmazlığı, suverenlik, istiqlaliyyət məsələlərində mövqe və baxışlarımızın tamamilə uyğun gəldiyini aşkara çıxardıq"*[9]. Səfər zamanı iki ölkə arasında ikitərəfli əməkdaşlığa dair 10 mühüm sənəd – dostluq münasibətlərinin əsasları haqqında birgə bəyanat, turizm, sərmayələrin təşviqi və qarşılıqlı qorunması, elmi-texniki, mədəni, hava nəqliyyatı, səhiyyə və tibb elmi sahələrində əməkdaşlıq haqqında sazişlər, kinematoqrafiya, radio verilişləri və televiziya sahəsində əməkdaşlığa dair protokol imzalanmışdır.

Bu səfər iki ölkə arasında münasibətlərin inkişafı üçün təmas nöqtələrinin müəyyən edilməsinə və münasibətlərin gələcək perspektivlərinin müəyyənləşdirilməsinə imkan vermişdir. Bununla əlaqədar olaraq Heydər Əliyev demişdir: *"Azərbaycanla Çin kimi böyük dövlət arasında yüksək səviyyədə əlaqələr yaradılmış və münasibətlərimizin daha da müvəffəqiyyətlə inkişaf etməsi üçün perspektiv açılmışdır. Biz buna böyük əhəmiyyət veririk, çünki Çin Xalq Respublikası dünya iqtisadi sistemində mühüm yer tutur, beynəlxalq həyatda və dünya siyasətində böyük nüfuza malikdir, BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür"*[10].

Heydər Əliyevin Çinə bu səfərindən sonra qarşılıqlı münasibətlərin maddi təməllərinin və müqavilə-hüquq əsaslarının möhkəmləndirilməsi istiqamətində də ardıcıl addımlar atılmışdır. 1994-cü il mayın 14-də Azərbaycan Respublikası və Çin Xalq Respublikası hökumətləri arasında Çindən Azərbaycana malların göndərilməsi üçün dövlət kreditinin ayrılması haqqında saziş imzalanmışdır. Çinlə mədəni əlaqələrin yenidən qurulması və inkişafı üçün də müxtəlif heyətlər səviyyəsində bir sıra qarşılıqlı səfərlər təşkil olunmuşdur. Belə ki, 1994-cü ilin sentyabrında Ümumçin Xalq Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin dəvəti ilə "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti Nəbi Xəzri başda olmaqla Azərbaycan ziyalılarından ibarət

9 Əliyev H. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr), I kitab. Bakı, 1997, s.290

10 Yenə orada, s.458

bir qrup Çində səfərdə olmuş, qarşılıqlı surətdə mədəniyyət ongünlüklərinin keçirilməsi, mübadilə səfərlərinin təşkili haqqında razılıq əldə edilmişdir. Eyni zamanda, görüş zamanı Çinin Dalyan şəhəri ilə Bakı şəhərinin qardaşlaşması barədə təklif də irəli sürülmüşdür. Görüş zamanı qaldırılmış məsələlər 1995-ci ildə Çin nümayəndə heyətinin Bakıya səfəri zamanı öz həllini tapmışdır[11].

İki ölkənin qarşılıqlı əməkdaşlığının genişləndirilməsi istiqamətində növbəti addım 1997-ci il avqustun 30-da Ümumçin Xalq Nümayəndələri Məclisi Sədrinin müavini Van Binsyanın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri olmuşdur. Nümayəndə heyəti ilə aparılan danışıqlarda əsasən iki ölkə arasında ticari-iqtisadi əlaqələrin inkişafı məsələləri müzakirə edilmiş, hər iki tərəf iqtisadi əlaqələrin genişləndirilməsində maraqlı olduğunu göstərmişdir. Bu niyyət 1998-ci il iyunun 18-də Bakıda hər iki ölkənin hökumətləri arasında Çinin Azərbaycana güzəştli kredit verməsi haqqında çərçivə sazişinin imzalanması ilə nəticələnmişdir.

1998-ci il sentyabrın 8-də Bakıda Heydər Əliyevin təşəbbüsü ilə Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi də iki ölkə arasında münasibətlərin daha da inkişafını təmin edən hadisələrdən biri idi. Qeyd etdiyimiz kimi, Böyük İpək Yolunun əsasını Avropa İttifaqının yeni müstəqil dövlətlər üçün 1991-ci ildə tərtib etdiyi TACIS proqramı çərçivəsində TRASEKA layihəsi təşkil edir. Bu layihəni 1993-cü ilin mayında Brüssel konfransında Cənubi Qafqaz və Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinin razılığı ilə Avropa Şurası qəbul etmişdir. O dövrdə Çin iqtisadiyyatının həcminin ildən-ilə artması rəsmi Pekini alternativ tranzit dəhlizi yaratmaq zərurəti qarşısında qoyurdu. Çinin əsas ticarət tərəfdaşı olan Avropa İttifaqı Böyük İpək Yolunun Azərbaycandan keçməsinə razılıq vermişdi. Bu razılaşmanın əldə olunmasında Ümummilli lider Heydər Əliyevin çox böyük əməyi olmuşdur.

1998-ci ildə Bakıda Böyük İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransda dünyanın 32 ölkəsi və 14 beynəlxalq təşkilatının

11 Manafova M. Azərbaycanın Şərqi Asiya ilə mədəni əlaqələri. Bakı, 2008, s.36

nümayəndələri iştirak etmişdir. Bu konfransda aparılan müzakirələrdən, əldə olunan razılaşmalardan və dövlətlər arasında iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsini nəzərdə tutan belə bir qlobal layihənin icrasından sonra Azərbaycanla Çin arasında əməkdaşlıq əlaqələri daha da genişlənmişdir. Ümummilli lider Heydər Əliyev münasibətlərin inkişafı üçün yaranmış bu yeni imkanları belə dəyərləndirmişdir: *"Azərbaycan Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən ticarət körpüsü olmuşdur... Tarix və coğrafiya Azərbaycanla Çin arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır"*[12]. Qədim İpək Yolunun bərpası dəniz nəqliyyatını Avropa və Asiya ölkələri arasında tranzit yük axınına malik mühüm nəqliyyat vasitəsinə çevirmiş, minilliklər ərzində Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolu öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə, 1000 il bundan əvvəl olduğu kimi, yenə də müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü yaratmaq imkanı qazanmış və bu əlaqələr Azərbaycan–Çin münasibətləri fonunda da özünün müasir inkişaf mərhələsinə qədəm qoymuşdur.

2000-ci il iyunun 23-də Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Sədri Li Penin Azərbaycana səfəri zamanı Çinin Azərbaycandakı səfirliyinin binasının təməlqoyma mərasimi keçirilmişdir. Li Peni Prezident Heydər Əliyev qəbul etmiş, nümayəndə heyətləri arasında geniştərkibli danışıqlar aparılmışdır. Danışıqlarda Çin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxdığını bir daha bəyan etmiş, təkqütblü dünyanı qəbul etməyərək, çoxqütblü dünyanın yaradılması təşəbbüsünü irəli sürmüşdür[13].

Çin belə bir mövqe ortaya qoymuşdur ki, hər bir ölkə dini və milli inkişaf yolunu özü istədiyi kimi müəyyənləşdirməlidir. Danışıqlarda Çin tərəfi siyasət, iqtisadiyyat və mədəniyyət sahələrində əməkdaşlığa və onu genişləndirməyə hazır olduğunu bəyan etmişdir. Ümumiyyətlə, ölkələrimiz arasında münasibətlərin inkişafında bu səfərin də xüsusi rolu olmuşdur.

Ölkələrimiz arasında ticari münasibətlərə gəlincə isə bu sahədə

12 Əliyev H. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr), I kitab. Bakı, 1997, s.290

13 Əliyev H. Müstəqilliyimiz əbədidir. XXVIII kitab, Bakı, 1997, s.287-293

əməkdaşlığın inkişaf dinamikasına nəzər salarkən ilkin mərhələdə Azərbaycanla Çin arasında ticarət dövriyyəsinin daha çox toxuculuq və məişət avadanlıqlarının satışını əhatə etdiyini, amma sonradan enerji məsələlərinə doğru genişləndiyini, özünün enerji təminatının diversifikasiyasına nail olmaq üçün Çinin Azərbaycanın xam neftinə və təbii qazına xüsusi maraq göstərdiyini görürük[14].

Ölkənin əsas enerji mənbəyi olan Fars körfəzi ölkələrindəki münaqişələr səbəbindən Çin alternativ enerji mənbəyi kimi Xəzər hövzəsinə xüsusi diqqət göstərirdi. Həm də Azərbaycanın əlverişli coğrafi-siyasi mövqeyi Asiyanı Avropa ilə əlaqələndirən çox əlverişli boru kəməri marşrutlarının açılmasına imkan yaradırdı ki, bu amil də Mərkəzi Asiya ölkələri, o cümlədən Qazaxıstan və Türkmənistanla birlikdə Azərbaycanı Çinin xüsusi maraq dairəsinə daxil edirdi. Bu baxımdan 2002-ci ilin iyun ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Çinin Neft-Kimya Korporasiyasının törəmə müəssisəsi olan və ölkənin 500 ən iri şirkəti arasında altıncı yeri tutan "Şengli" şirkəti arasında qarşılıqlı anlaşma memorandumunun imzalanması əhəmiyyətli hadisə idi. Belə bir sazişin imzalanması ikitərəfli münasibətlərin maddi təməllərini daha da möhkəmləndirmişdir[15].

Azərbaycan–Çin münasibətləri yeni dövrdə

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursunda da Çinlə münasibətlərin inkişafına xüsusi diqqət yetirilmiş, bu sahədə əldə olunmuş nailiyyətlər qorunaraq daha da inkişaf etdirilmişdir. İlham Əliyevin 2005-ci ilin 17-19 mart tarixlərində Çinə baş tutmuş səfəri bu baxımdan tarixi əhəmiyyətə malikdir[16]. Bu səfər zamanı aparılan danışıqlar nəticəsində Çinin Azərbaycana 15 milyon yuan məbləğində birdəfəlik təmənnasız yardım edəcəyinə dair razılıq əldə edilmiş, iki ölkə arasında bır sıra sənədlər imzalanmış, Azərbaycan–Çin Biznes Forumu keçirilmiş və bütün bu

14 Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı: Elm və təhsil, 2015, s.82
15 Yenə orada, s.85-86
16 Kərimov R. Azərbaycanın inkişaf modeli. Pekin, 2016, s.175

tədbirlərlə münasibətlər yeni mərhələyə qədəm qoymuşdur[17].

Bu səfəri iki ölkə arasında münasibətlərin inkişafı tarixində mühüm hadisə kimi qiymətləndirən Çin Xalq Respublikasının Sədri Hu Tszintao Azərbaycanın Cənubi Qafqazda liderlik mövqeyinin möhkəmlənməsindən razı qaldığını bəyan etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də öz növbəsində Çin işgüzar dairələrinin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymasına kömək göstərəcəyini razılıqla qarşıladığını ifadə etmişdir. Bu səfərdən sonra qarşılıqlı münasibətlərdə yeni və geniş səhifələr açılmışdır[18].

O da qeyd olunmalıdır ki, 2008-ci il mayın 12-də Çinin Sıçuan əyalətində baş vermiş zəlzələ nəticəsində çoxlu sayda insan tələf olmuş, yaşayış yerləri, binalar dağılmışdı. Həmin dövrdə Prezident İlham Əliyev Çinin dövlət başçısına və xalqına başsağlığı məktubu göndərmiş və orada dağılmış orta məktəbin yenidən bərpa olunmasına bir milyon dollar həcmində maliyyə vəsaiti ayırmışdı. Prezident İlham Əliyevin dost ölkənin ağır günündə dəstək olması, onların dərdini bölüşməsi Çin tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il avqustun 8-də XXIX Pekin Yay Olimpiya Oyunlarının təntənəli açılış mərasimində iştirak etmək üçün Çinə növbəti dəfə səfər etmişdir. Pekin Yay Olimpiya Oyunları çərçivəsində "Azərbaycan günü" keçirilmiş və Prezident İlham Əliyev mərasimdə çıxış etmişdir.

Azərbaycanın dünyada qlobal əhəmiyyətli proseslərə qoşulmasını, ölkəmizin beynəlxalq aləmə geniş inteqrasiyasını göstərən bu səfər dövlətlərarası əlaqələrin inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edirdi. Bu cür səfərlərin, aparılan danışıqların, münasibətlərin inkişaf xəttinin əsas məqamlarından biri də Azərbaycanın və Çinin təmsil olunduqları beynəlxalq təşkilatlarda bir-birini dəstəkləməsi, qarşılıqlı maraqların qorunması və mövqelərin qarşılıqlı şəkildə müdafiəsidir. Azərbaycan 2012-2013-cü illər üzrə BMT-nin Təhlükəsizlik Şurasına

17 Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi, I hissə. /Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi/. Bakı, 2005, s.114-115

18 Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü.// "Azərbaycan" qəzeti, 20 may 2014-cü il. - http://www.azerbaijan-news.az/index.php?mod=3&id=39848

qeyri-daimi üzv seçilərkən Çinin ölkəmizə verdiyi dəstək bunun bariz nümunəsidir[19].

Azərbaycanla ÇXR arasında iqtisadi əlaqələrin genişləndirilməsi, bu sahədəki problemlərin həlli məqsədilə Hökumətlərarası İqtisadi Komissiya yaradılmışdır. Komissiyanın ilk iclası 2009-cu il mayın 27-də keçirilmişdir. 2012-ci il iyunun 12-də Pekin şəhərində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Həmçinin Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Çin Xalq Respublikasının Sintsyan-Uyğur Muxtar Rayonu (SUMR) hökuməti arasında Hökumətlərarası İqtisadi Komissiya çərcivəsində Azərbaycan Respublikası və SUMR arasında ticari-iqtisadi əməkdaşlıq üzrə işçi qrupunun yaradılması haqqında protokol da imzalanmışdir.

Prezident İlham Əliyevin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Sammitin IV Zirvə toplantısında iştirak etmək üçün 2014-cü il mayın 19-da Çinə növbəti səfəri də bir sıra əhəmiyyətli nəticələrlə yadda qalmışdır. Regionda və dünyada beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirə edildiyi bu sammitin gündəliyinə Dağlıq Qarabağ problemi də çıxarılmış, enerji sektorunda, tarixi İpək Yolunun bərpasında Azərbaycanın rolu bir daha diqqətə çatdırılmışdır. Zirvə toplantısının yekun bəyannaməsində Azərbaycanın maraqlarına cavab verən 6 bənd yer almışdır.

2015-ci il dekabrın 8-dən 11-dək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasında dövlət səfərində olmuşdur. Səfər zamanı "Çin–Azərbaycan dostluq münasibətlərinin və əməkdaşlığının daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə", "Çin Xalq Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu", o cümlədən iki ölkə arasında əməkdaşlığa dair 10 sənəd imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dekabrın 11-də Çinin Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomu

19 Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı: Elm və təhsil, 2015, s.88

təqdim edilmişdir. Prezident İlham Əliyevin Çinə bu səfəri sonrakı əməkdaşlıq əlaqələri üçün geniş imkanlar yaratmış və gələcək inkişaf perspektivlərinə stimul vermişdir.

‘’Bir kəmər, bir yol’’ strategiyasında Azərbaycanın rolu

Prezident İlham Əliyevin Çinə bu səfəri ÇXR və Azərbaycan arasında strateji dialoqun möhkəmlənməsi və praqmatik əməkdaşlığın dərinləşməsi, yeni tarixi imkanların yaranması baxımından da mühüm rol oynamışdır. Səfər zamanı İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair anlaşma memorandumunun imzalanması Azərbaycan–Çin münasibətlərinə dünyanın yeni geosiyasi nizamı müstəvisində baxmaq zərurətindən irəli gələn addımlardan olmuşdur. Belə ki, Çin “Bir kəmər, bir yol’’ adlanan strategiyanın reallaşdırılması ilə artıq qlobal geosiyasi mənzərənin dinamikasını yeniləşdirəcək tədbirlər həyata keçirməkdədir. 2013-cü ilin sentyabrında ölkə rəhbəri Si Cinpinin irəli sürdüyü “Yeni İpək Yolunun İqtisadi Kəməri”nə üç layihə daxildir: “Yeni İpək Yolu”, “Cənub İpək Yolu’’ və “XXI əsrin Dəniz İpək Yolu”.

Bu strategiyada əsas məqsəd Çin iqtisadiyyatını Asiya, Afrika, Yaxın Şərq və Avropa ilə birləşdirməkdən ibarətdir. Onun konkret reallaşması isə, Pekinin qənaətinə görə, vahid marşrut zolağı üzrə baş tutmalıdır. “Bir kəmər, bir yol’’ təşəbbüsünün arxasında Çinin yeni inkişaf strategiyası dayanır. Rəsmi Pekin özünün geridə qalmış əyalətlərinin inkişaf səviyyəsini yüksəltmək üçün xarici ölkələrə yönəlik iqtisadi və enerji proqramlarının həyata keçirilməsini düşünür. O cümlədən hazır məhsulları ixrac edib, əvəzində Afrika və Yaxın Şərqdən xammalın etibarlı idxalını təmin etmək məqsədi güdür.

“Bir kəmər, bir yol” adlanan strateji konsepsiya Çin–Azərbaycan münasibətlərinin daha da dərinləşdirilməsi üçün, eyni zamanda iki ölkə arasında iqtisadi, ticari, humanitar sahələrdə aparılan mübadilə əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Çin İpək Yolu üzərində yerləşən ölkələrdən biri olan Azərbaycanla İpək Yolu İqtisadi Kəmərinin tikintisinə və qarşılıqlı təmasların möhkəmlənməsinə böyük diqqətlə yanaşır.

Azərbaycan Prezidenti Çinə səfəri çərçivəsində İpək Yolunun başlanğıcı sayılan Sian şəhərinə də baş çəkmiş, rəsmi Bakı və rəsmi Pekin İpək Yolu İqtisadi Kəmərinin tikintisi və birgə həyata keçirilməsi haqqında razılıq əldə etmişlər. Faktiki olaraq söhbət Avropa ilə Asiyanın birləşdirilməsindən gedir. Çin bu tarixi yolun şərq tərəfdə başlanğıcıdırsa, Azərbaycan mühüm tranzit məkanıdır. Özü də burada yalnız Qərb–Şərq istiqaməti nəzərdə tutulmur, ÇXR-in Sədri Si Cinpinin də vurğuladığı kimi, Azərbaycan Şimal–Cənub istiqamətində də vacib rol oynaya bilər. Azərbaycana çatan istənilən malı hər iki istiqamətdə daşımaq mümkündür. Bununla da həm Qərb dövlətlərinin, həm də Uzaq Şərq ölkələrinin dünyanın müxtəlif regionları ilə ucuz, rentabelli əlaqələr yaratmaq imkanı meydana gəlir. Prezident İlham Əliyev İpək Yolu İqtisadi Kəmərinin yaradılması ilə bağlı fikirlərini Çinin Renmin Universitetində çıxışı zamanı belə ifadə etmişdir: *"Biz Sədr Si Cinpin tərəfindən irəli sürülmüş İpək Yolu İqtisadi Kəmərinin yaradılması təşəbbüsünü tam dəstəkləyirik. Azərbaycan ölkə daxilində çox müasir nəqliyyat infrastrukturunun yaradılması işinə öz töhfəsini verir. Deyə bilərəm ki, bu ilin avqustunda Çindən ilk konteyner qatarı Xəzər dənizindən keçməklə Azərbaycana gətirilib. Biz dünən nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərini geniş şəkildə müzakirə etdik. Azərbaycanın coğrafi mövqeyi ölkəmizi malların Avropadan Asiyaya, Asiyadan Avropaya tranziti üçün mərkəzə çevirir. Biz hazırda dəmir yollarının müasirləşdirilməsinə, Xəzər regionunda ən böyük limanın yaradılmasına və ümidvaram ki, gələn il fəaliyyətə başlayacaq Azərbaycan ilə Avropa arasında dəmir yolu əlaqəsinə sərmayə yatırırıq. Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi Asiya ilə Avropanı birləşdirəcək tarixi İpək Yolunu qurmaq üçün çatışmayan dəmir yolu əlaqəsini yaradacaq. Bu nəqliyyat marşrutu malların Çindən Avropaya, Avropadan Çinə gətirilməsi üçün ən qısa yol olacaq"*[20].

Geosiyasi proseslərin ağırlıq mərkəzinin getdikcə Şərqə keçməsi kontekstində Prezident İlham Əliyevin yürütdüyü bu siyasət strateji nöqteyi-nəzərdən yüksək qiymətləndirilir. Bütün bunlar bir daha təsdiqləyir ki, müasir dünyanın geosiyasi mənzərəsini və Qərbin enerji

20 Prezident İlham Əliyevə Çinin Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomu təqdim edilib. /11.12.2015/ - http://president.az/mobile/articles/17140

xəritəsini dəyişə biləcək nəhəng layihələrdə bu gün Azərbaycan və Çin ciddi rol oynayır. İpək Yolu İqtisadi Kəməri və yeni enerji layihələri bu xüsusda daha çox önəm verilməli olan faktorlardandır. Burada Mərkəzi Asiya ölkələrinin də prosesə dəstək verdiyini ayrıca qeyd etmək lazımdır. Hazırda Qazaxıstan, Türkmənistan, Tacikistan, Özbəkistan və Qırğızıstan Çinlə müxtəlif sahələrdə sıx əməkdaşlıq layihələri üzərində işləyirlər. Bu sırada həmin region dövlətlərinin Pekinlə birgə enerji layihələrini reallaşdırması və sərmayə qoyuluşunu artırması diqqəti cəlb edir. Belə çıxır ki, Azərbaycanla Çin arasında əməkdaşlığın bir neçə "aralıq məntəqələri" vardır ki, onların da strateji və geosiyasi əhəmiyyəti danılmazdır.

Pekində keçirilən görüşlər zamanı Azərbaycan Prezidentinin Çinin böyük şirkətlərini ölkəmizə sərmayə qoymağa dəvət etməsinin maraqla qarşılanmasının arxasında da həmin incə məqamlar dayanır. Prezident İlham Əliyev qeyri-neft sektorunun daha da sürətlə inkişaf etməsi üçün bunun vacibliyini xüsusi qeyd edir. Çinin informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, qeyri-ənənəvi enerji sahələri ilə məşğul olan şirkətləri də gözəl başa düşür ki, Azərbaycana yatırılan sərmayələr hədər getməyəcək. Burada sabitlik hökm sürür, sahibkarlıq üçün əlverişli mühit var, iqtisadiyyat dinamik inkişafdadır, kənar təsirlərdən asılı deyil və bu səbəblərdən xeyli qazanc götürmək olar. Neftin qiymətinin sürətlə aşağı düşməsi, iqtisadiyyatın şaxələndirilməsi və diversifikasiyası fonunda bu məsələ Azərbaycan üçün də ciddi əhəmiyyət daşıyır. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı ilə sıx əməkdaşlığa nail ola bilərsə, onda bütün sahələrdə irəliləyiş əldə etmək şansı da xeyli artar. Çinin də bu əməkdaşlıqda öz maraqları var.

Birincisi, qlobal səviyyədə Vaşinqton–Pekin rəqabəti davam edir. Çin üçün əməkdaşlıq dairəsini genişləndirmək çox vacibdir. İkincisi, Pekinin Avropa ölkələrinə qısa yolla çıxış əldə etməyə ciddi ehtiyacı var. Avropa İttifaqı bazarında öz varlığını genişləndirməklə Çin inkişaf sürətlərini və bütövlükdə tərəqqi üçün perspektivlərini saxlamış olur.

Üçüncüsü, dünyada baş verən hadisələr göstərir ki, enerji sahəsində gözlənilməz trendlərin meydana gəlməyəcəyinə təminat yoxdur. Bu səbəbdən Pekin Mərkəzi Asiya, Qafqaz, Yaxın Şərq və Afrika

istiqamətlərində xüsusi addımlar atmaqda maraqlıdır. Bütün bu marşrutlar isə Azərbaycandan keçir.

Bundan başqa, rəsmi Pekinin beynəlxalq siyasi arenada Azərbaycan kimi tərəfdaşa böyük ehtiyacı vardır. Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Prezidenti ilə görüşündə hər iki ölkənin 2020-ci ilə qədər xüsusi inkişaf konsepsiyasının olduğunu ayrıca qeyd etmişdir. Çin supergüc kimi hazırda böyük planlar üzərində işləyir. Çin şirkətləri energetika, yüksək texnologiyalar, kənd təsərrüfatı, informasiya-kommunikasiya sistemləri və başqa sferalarda geniş fəaliyyət göstərir. Azərbaycanla Çin arasında bu istiqamətləri əhatə edən əməkdaşlığın qurulmasında heç bir əngəl yoxdur.

2015-ci ildə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) dialoq üzrə tərəfdaş kimi iştirakı və Asiya İnfrastruktur İnkişafı Bankının təsisçi üzvü kimi təsdiqi də Çin–Azərbaycan əməkdaşlıq münasibətlərinin dərinləşməsi üçün yeni zəmin yaratmışdır. Ölkəmizin ŞƏT-ə "dialoq üzrə tərəfdaş" statusunda qoşulması regional səviyyədə yeni əməkdaşlıq addımlarının atılması və Çindən başlayaraq Mərkəzi Asiyanı da əhatə etməklə Qafqaza qədər geniş bir ərazidə Azərbaycan–Çin əlaqələrinin yeni nümunələrinin meydana gəlməsi baxımından çox mühümdür. Bundan başqa, iki dövlətin siyasi dialoq və beynəlxalq təşkilatlarda ortaq fəaliyyətlərini genişləndirmək haqqında razılığa gəlməsi də çox əhəmiyyətli perspektivləri ehtiva edir. Çin BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biridir. Onun hər hansı qərara veto qoymaq, konkret təşəbbüslərlə çıxış etmək hüququ vardır. Azərbaycanla Çin arasında geniş strateji tərəfdaşlığın yaranması hər iki ölkə üçün BMT çərçivəsində uğurlu fəaliyyət göstərmək şansını artırır. Xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT tərəfindən qəbul edilmiş 4 qətnamənin yerinə yetirilməsinə rəsmi Pekin təkan verə bilər.

Dünyada terrorizm və təcavüzkar separatizm təhdidlərinin getdikcə gücləndiyi şəraitdə Azərbaycanla Çin arasında təhlükəsizlik sahəsində də əməkdaşlığa böyük ehtiyac var. Bu, regionda baş verən proseslərə də çox müsbət təsir göstərə bilər. İndi dünyada cərəyan edən və təşviş doğuran mürəkkəb proseslər sübut edir ki,

gərginliyin səngiməsində qarşılıqlı faydalı əməkdaşlıq modelləri böyük rol oynayır. Təhlükəsizlik sahəsində geniş əlaqələrin qurulub inkişaf etdirilməsi Asiya ilə yanaşı, Cənubi Qafqazda da geosiyasi mənzərəyə müsbət təsir göstərərdi. Dövlət başçılarının imzaladıqları birgə bəyannamədə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də xüsusi yer ayrılmış və rəsmi Pekin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu bir daha bəyan etmişdir. Bu, ÇXR-in Dağlıq Qarabağ münaqişəsinə münasibətdə tutduğu sabit mövqeyə əsaslanır.

Çinin Dağlıq Qarabağ münaqişəsinə baxışı

1949-cu ildən Tayvan problemi ilə üzləşən Çinlə Ermənistanın hərbi təcavüzünə məruz qalmış Azərbaycanın problemlərinin mahiyyətcə oxşarlığı Çinin bu mövqeyinin formalaşmasına mühüm təsir göstərərək ölkələrimizin yaxınlaşmasında müəyyən rol oynamış, qarşılıqlı səfərlərdə bəyan edilən separatizmə qarşı birgə mübarizə niyyəti Azərbaycan–Çin vəhdətini daha da gücləndirmişdir.

Dağlıq Qarabağ məsələsində Çinin Azərbaycana ilk dəstək addımları, heç şübhəsiz ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin mart ayında Çin Xalq Respublikasına səfəri zamanı atılmışdır. Aparılan danışıqlar zamanı görkəmli dövlət xadimi Heydər Əliyev Ermənistanın təcavüzü və bu təcavüzün ağır nəticələri barədə geniş bəhs etmiş, Pekində Beynəlxalq Ticarətin İnkişafına Yardım Komitəsindəki çıxışında da Ermənistanın təcavüzü və müharibənin törətdiyi çətinliklərdən söz açmışdır. Səfər çərçivəsində keçirilmiş mətbuat konfransında isə Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin həllində Çin Xalq Respublikasının BMT Təhlükəsizlik Şurası çərçivəsində çox prinsipial və ədalətli mövqe tutduğunu xüsusi qeyd etmişdir. Çinin Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanıdığını və münaqişənin sülh yolu ilə tezliklə həllinə tərəfdar olduğunu bəyan etməsi bu səfərin ən böyük nəticəsi kimi yadda qalmışdır[21].

21 Azərbaycan–Çin: dostluq sərhədləri aşır. Bakı, 2000, s.5

2000-ci il iyunun 23-də ölkəmizdə səfərdə olan Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penin Prezident Heydər Əliyevlə görüşündə də Dağlıq Qarabağ probleminə dəstək əsas müzakirə mövzusu olmuş, danışıqlarda Çin tərəfi Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və sərhədlərin dəyişdirilməsinin əleyhinə çıxdığını bəyan etmişdir[22]. Çinin Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi istiqamətində növbəti və daha konkret addımı isə 2002-ci il dekabrın 2-nə təsadüf edir. Belə ki, həmin tarixdə "BMT və ATƏT arasında əməkdaşlıq haqqında qətnamə"yə Azərbaycan tərəfindən hər il irəli sürülən düzəliş üzrə BMT Baş Məclisində keçirilmiş səsvermədə Təhlükəsizlik Şurasının daimi üzvləri arasında Çin ölkəmizin ərazi bütövlüyünə dair düzəlişin lehinə səs verən yeganə dövlət olmuşdur.

Beləliklə, Heydər Əliyevin apardığı məqsədyönlü xarici siyasət kursunun nəticəsi kimi uzun illərdir Çin Azərbaycan Respublikasının müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə hörmət edir, dünya ictimaiyyəti ilə birlikdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə tərəfdar çıxır, eyni zamanda BMT Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi müvafiq qətnamələrin icrasını dəstəkləyir. Öz növbəsində Azərbaycan Respublikasının hökuməti də ÇXR-in vahid Çin siyasətinə hörmətlə yanaşır və Tayvanı Çinin tərkib hissəsi kimi qəbul edir. Azərbaycan Respublikası Tayvan adlı dövlət tanımır, onunla hər hansı bir şəkildə diplomatik və ya digər münasibətləri yoxdur. Tayvanın beynəlxalq təşkilatlara üzvlüklə bağlı qaldırdığı məsələlərdə Azərbaycan Respublikası yalnız vahid Çin prinsipindən çıxış edir və ancaq ÇXR-i təmsil edən qurumları tanıyır.

Prezident İlham Əliyevin də Çinlə bağlı həyata keçirdiyi siyasətdə Dağlıq Qarabağ problemi prioritet məsələlərdən biri kimi daim diqqət mərkəzində saxlanılmışdır. Bütün xarici səfərlərdə, beynəlxalq təşkilatlardakı çıxışlarında və ölkəmizdə keçirilən yüksək səviyyəli görüşlərdə olduğu kimi, Çinə edilən bütün rəsmi səfərlərdə və Çin nümayəndə heyətləri ilə görüşlərdə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışının mühüm bir hissəsini Ermənistanın

22 Əliyev H. Müstəqilliyimiz əbədidir, XXVIII kitab. Bakı, 1997, s.287-293

ölkəmizə qarşı hərbi təcavüzü, erməni terroru, erməni hərbçilərinin xalqımıza qarşı törətdikləri vəhşiliklər, Xocalı soyqırımı haqqında bəyanatlar təşkil etmişdir.

Bu baxımdan 2014-cü il mayın 19-da Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Şanxayda keçirilmiş IV Zirvə toplantısı da diqqətəlayiqdir. Zirvə toplantısında iştirak etmək üçün Çinə səfəri çərçivəsində ÇXR-in Sədri Si Cinpin ilə görüşən Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin artıq sülhün, sabitliyin və əməkdaşlığın təşviq olunması sahəsində nüfuzlu beynəlxalq foruma çevrildiyini və bu müşavirədə sədrliyin Çin tərəfinə keçməsinin Asiyada sülh və təhlükəsizliyin daha da möhkəmlənməsinə səbəb olacağını bildirmişdir[23]. Prezident Azərbaycanın da terrorizmin qurbanı olduğunu qeyd edərək, erməni terrorunun Azərbaycan üçün ağır nəticələrindən danışmışdır[24].

Əsas müzakirə mövzusu regionda və dünyada beynəlxalq təhlükəsizlik məsələləri olan, 40-dan çox dövlət və beynəlxalq təşkilatın birinci şəxslərinin iştirak etdiyi zirvə toplantısında Azərbaycan həqiqətlərindən geniş bəhs edilməsi, ölkəmizin regionda və Asiyadakı proseslərdə iştirakına və təhlükəsizliyin təminatına dair tədbirlərdəki rolu haqqında ətraflı söhbət açılması dünya dövlətlərinin ölkəmizə marağının və diqqətinin artması baxımından çox əhəmiyyətli olmuşdur[25].

Bu mötəbər tədbirin yekun bəyannaməsində Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun nizamlanması ilə bağlı Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsinə xidmət edən bəndlərin yer almasını separatizmlə müştərək mübarizə niyyətinin daha bir uğuru kimi qiymətləndirmək olar. Belə ki, bəyannamənin 1.4-cü bəndi dövlətlərin bir-birinin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına hörmət prinsipini, münaqişələrin sülh yolu ilə həlli, daxili işlərə müdaxilə edilməməsi, iqtisadi, sosial, mədəni və humanitar xarakterli beynəlxalq problemlərin həllində beynəlxalq səviyyədə əməkdaşlıq və s. kimi öhdəlikləri nəzərdə tutur.

23 Kərimov R. Azərbaycanın inkişaf modeli. Pekin, 2016, s.179

24 Azərbaycan Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü.// "Azərbaycan" qəzeti, 20 may 2014-cü il. - http://www.azerbaijan-news.az/index.php?mod=3&id=39848

25 Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı: Elm və təhsil, 2015, s.89-90

Bəyannamədəki 2.4-cü bənd dövlətlərin separatçılarla heç bir münasibət yaratmaması, 3.5-ci bənd isə Ermənistan və Azərbaycan arasında münaqişənin beynəlxalq hüququn prinsip və normaları əsasında sülh yolu ilə həllinə dəstək verilməsi ilə bağlı məsələləri əhatə edir.

2015-ci il dekabrın 8-dən 11-dək Çinə dövlət səfəri zamanı Çinin Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomunun təqdimatı mərasimində etdiyi çıxışında İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ətraflı məlumat verməklə yanaşı, rəsmi Pekinin bu məsələdə tutduğu mövqeyi yüksək qiymətləndirmişdir. Dövlət başçılarının görüşlərində və səfər çərçivəsində imzaladıqları birgə bəyannamədə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə xüsusi yer ayrılmışdır. Çin rəhbərliyi münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun, ədalətli həlli məsələsinə daim qətiyyətli dəstək göstərdiyini və bundan sonra da eyni mövqedə olacağını vurğulamış, eyni zamanda Azərbaycan tərəfi bəyan etmişdir ki, "Vahid Çin" prinsipi üzrə həmişə öz konkret mövqeyini bildirəcəkdir[26].

Birgə bəyannamədə Çinin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olması barədə müddəanın öz əksini tapması siyasi və geosiyasi məna daşıyır. Çünki bununla Çin rəsmi olaraq Azərbaycanın ərazi bütövlüyünü nəinki dəstəkləyir, həm də münaqişənin bu prinsip əsasında aradan qaldırılmasını istədiyini bildirmiş olur. Beynəlxalq təşkilatların da analoji sənədləri qəbul etdikləri məlumdur. Deməli, Ermənistanın beynəlxalq qanunlar çərçivəsində Azərbaycana qarşı hansısa iddia irəli sürmək şansı qalmır. Çin tərəfinin Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq çərçivəsində ədalətli həllinə tərəfdar olması, hər şeydən əvvəl, Azərbaycan rəhbərliyinin yeritdiyi uğurlu xarici siyasi kursla bağlıdır. Ölkə başçısı Pekində bəyan etmişdir ki, Azərbaycan da "Vahid Çin" prinsipinə dəstək verir. Bunun rəsmi Pekin üçün nə

26 Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri tarixi hadisədir. /14.12.2015/ - http://azertag.az/xeber/Azerbaycan_Prezidenti_Ilham_Aliyevin_CHine_seferi_tarixi_hadise-dir-911080

dərəcədə aktual olduğu məlumdur. Məsələ burasındadır ki, bir sıra xarici qüvvələr Çində radikal və separatçı əhvali-ruhiyyə yaratmağa cəhdlər edirlər. Hətta bu məqsədlə dəfələrlə terror aktları da törədilib. Dünyanın bir sıra regionlarında separatizmin kənardan alovlandırılması mexanizminə diqqət yetirsək, analoji halların Çində də baş qaldırması ehtimalının mövcudluğunu qəbul etməliyik. Konkret deyilsə, Çin nə qədər güclü olsa da, onu da terrorun təhdid etdiyini etiraf etmək gərəkdir. Separatçılıq bu böyük ölkəni də ciddi çətinliklərə düçar edə bilər.

Ona görə də Çinin Dağlıq Qarabağ münaqişəsinə obyektiv münasibətindən iki mühüm nəticə çıxarmaq olar. Əvvəla, Çin dünyanın hər hansı bir regionunda separatizmə dəstək verərsə, onda bundan özü ziyan çəkər. O cümlədən Dağlıq Qarabağdakı separatçı rejimi heç bir geosiyasi bəhanə ilə dəstəkləmək doğru addım sayıla bilməz.

İkincisi, rəsmi Pekin nəinki radikal separatizmi dəstəkləməməli, həm də ona qarşı mübarizə aparmalıdır. Azərbaycan da terror və separatizmdən əziyyət çəkən bir ölkə kimi məsələnin bu aspektində maraqlıdır. Təbii olaraq, rəsmi Bakı bütün dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşır. Bu səbəbdən dövlət başçısının "Vahid Çin" prinsipinə tərəfdar olduğunu xüsusi vurğulaması bütövlükdə Azərbaycanın xarici siyasətinin məzmunu ilə sıx bağlıdır.

Prezident İlham Əliyevin bu səfəri separatizmlə birgə mübarizənin konturlarını müəyyənləşdirməklə yanaşı, həm də Çinlə strateji tərəfdaşlıq və Dağlıq Qarabağ probleminə BMT qətnamələri çərçivəsində baxışda yeni mərhələnin başlanmasını şərtləndirmişdir.

Azərbaycanla Çin arasında strateji əlaqələrin inkişafı hər iki ölkə üçün BMT çərçivəsində uğurlu fəaliyyət imkanlarını genişləndirir, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT-nin qəbul etdiyi 4 qətnamənin yerinə yetirilməsinə rəsmi Pekinin dəstəyi baxımından müəyyən perspektivlər yaradır[27].

27 Prezidentin növbəti uğurlu addımı: Çin səfərinin strateji-tarixi və geosiyasi aspektləri. /17.12.2015/- http://newtimes.az/az/relations/4060/

Azərbaycan Çinin Cənubi Qafqazda etibarlı tərəfdaşı kimi

Ümumilikdə qlobal siyasi-iqtisadi reallıqlar Azərbaycanla Çin arasındakı münasibətlərin gələcəkdə də inkişaf etdiriləcəyini göstərir. Çinin Azərbaycanla münasibətlərin davamlı inkişafına can atması dünyanın bu əsas supergüclərindən birinin regionla bağlı uzunmüddətli strateji maraqlarının tərkib hissəsidir. Çin Avrasiya regionuna, o cümlədən bu regionun strateji hissəsi olan Cənubi Qafqaz bölgəsinə həm satış bazarı, həm öz vətəndaşları üçün yeni iş yerləri tapmaq imkanı, həm də Qərbə, İran körfəzi və Yaxın Şərqə çıxış məqsədilə tranzit region kimi baxır. Bundan başqa, Çin Avrasiyaya onu enerji daşıyıcıları, dağ-mədən sənayesi məhsulları, metal və s. xammalla təmin edə biləcək əsas bölgələrdən biri kimi də yanaşır.

Hazırda Çin Qərbin Asiyada hərbi-geostrateji, geosiyasi və geoiqtisadi cəhətdən öz mövqelərini möhkəmləndirməsinə qarşı çıxış edir və xüsusi geosiyasi maraqlarından irəli gələrək Rusiya və İranla strateji regional münasibətlər qurmağa çalışır. Lakin Avrasiyada Qərbin hərbi-geostrateji iştirakına qarşı çıxan Çin eyni zamanda Rusiyanın bölgədə artan hərbi təsirinə də qısqanclıqla yanaşır. Mütəxəssislərin fikrincə, Çinin hərbi-geostrateji maraqlarına "xarici qoşun və hərbi bazalardan azad Orta Asiya və Cənubi Qafqaz" uyğun gəlir ki, bu amil də Çin–Azərbaycan münasibətlərinin müsbət dinamikasına mühüm təsir göstərir. Avrasiyada bir sıra qlobal enerji istehsalı və ixracı, nəqliyyat-kommunikasiya layihələrinin reallaşması da Çinin geosiyasi və geoiqtisadi maraqlarına uyğundur.

Azərbaycanla Çin arasında imzalanmış müvafiq memorandumda öz əksini tapan İpək Yolu İqtisadi Kəmərinin mahiyyəti haqqında yuxarıda söhbət açılmışdır. Şərq–Qərb tranzit dəhlizinin Avrasiyadan Çinə qədər olan hissəsinə düşən layihələr Çinin diqqətini cəlb edən əsas tranzit sahədir. Rəsmi Pekin hətta Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinə də böyük maraq göstərmiş və onun maliyyələşdirilməsində iştirak etməyə hazır olduğunu bəyan etmişdir. Çünki bu dəhliz Çin və Orta Asiya məhsullarının qısa vaxt ərzində Avropaya daşınmasına imkan yaradacaqdır. Çinin Avrasiyada ən çox maraq göstərdiyi layihələr həm də Qazaxıstanla bağlıdır. Artıq Qazaxıstan Çinin iştirakı ilə "Transqazax

neft və qaz layihəsi"ni reallaşdırmaqdadır.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin Çinə səfəri zamanı Xəzərdən Çinə dəmir yolunun çəkilməsi haqqında sənəd imzalanmışdır. Çəkilişi 5 milyard ABŞ dollarına başa gələcək və 4 min km uzunluğunda olacaq bu dəmir yolu İran, Türkmənistan və Qazaxıstan ərazisindən keçərək Çini Avrasiya ilə birləşdirəcək. Bundan başqa, iki ölkə arasında Qazaxıstan–Çin neft kəmərinin tikintisinə dair razılıq da əldə olunmuşdur. Bu kəmər vasitəsilə gələcəkdə Xəzər neftinin bir hissəsinin Çinə nəqli mümkündür. Lakin bu layihə son zamanlar ABŞ-da ciddi narahatlıqla qarşılanmışdır. Çünki ABŞ Xəzər neftinin "Asiya marşrutu" ilə Çinə və Hindistana daşınacağından ehtiyat edir. Göründüyü kimi, Cənubi Asiya ölkələrində və Çində enerji daşıyıcılarına ehtiyacın getdikcə artması onları Xəzər nefti uğrunda ABŞ-ın və Aİ-nin əsas rəqiblərinə çevirir[28].

Ekspertlərin fikrincə, hazırda sürətlə inkişaf edən Çin gələcəkdə xammal və ilk növbədə enerji çatışmazlığı təhlükəsi ilə üzləşə bilər. Hesablamalara görə, 1993-cü ildən başlayaraq Çin neft idxalını ilbəil artırır və ildə təxminən 100 milyon tona yaxın neft alır. Çin üçün əsas enerji mənbəyi sayılan Fars körfəzində geosiyasi vəziyyətin getdikcə daha da mürəkkəbləşdiyini nəzərə alsaq, bu halda rəsmi Pekinin Xəzər hövzəsindən alternativ mənbə kimi istifadə etməyə daha səylə can atacağı şübhə doğurmur. Onu da qeyd edək ki, Çinin Xəzər hövzəsində fəallaşmasına Rusiyanın münasibəti həmişə qeyri-müəyyən xarakter daşımışdır. Çünki bir tərəfdən Çin Rusiyanın strateji tərəfdaşıdır, digər tərəfdən isə o, Rusiyanın geoiqtisadi maraqları olan zonada əsas rəqiblərindən biri kimi çıxış edir.

Əgər Çinin bugünkü inkişaf sürətinə nəzər salsaq və yaxın gələcəkdə onun dinamikası haqqındakı proqnozları göz önünə gətirsək, əlbəttə ki, bu dövlətin hazırkı "neytrallıqdan" nə zamansa ciddi fəal hərəkətə keçəcəyi istisna edilməməlidir. Analitiklərin rəyinə görə, Çin 2030-cu ilə qədər Avrasiya regionundakı geoiqtisadi mövqelərini ciddi şəkildə möhkəmləndirərək, geosiyasi və geostrateji məsələlərdə əsas söz sahiblərindən birinə çevriləcək. Çin Orta Asiya və Xəzər hövzəsində həm Rusiya və İranın, həm də Qərb ölkələrinin ən çox çəkindikləri və onlarla ciddi rəqabət aparmağı bacaran bir dövlətdir. Eyni zamanda

28 Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s.387

bu ölkə regionun kiçik dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaqdan da qətiyyən çəkinmir və narahat da deyil. Bununla belə, Rusiya ilə xüsusi strateji tərəfdaşlıq münasibətləri Çinin yerləşdiyimiz regionda balanslaşdırılmış və birtərəfli siyasət aparmasına bəzi məqamlarda müəyyən əngəllərlə də müşayiət olunur. Buna misal olaraq 1999-cu ilin may ayında Azərbaycan–Çin münasibətlərinə soyuqluq gətirən hadisəni – Çin tərəfindən Ermənistan Respublikasına 8 ədəd "Tayfun" tipli raket kompleksinin satılmasını göstərmək olar[29].

Bundan başqa, Çin regional rəqib hesab etdiyi Yaponiyanın Azərbaycanla münasibətlərini fəal inkişaf etdirməyə çalışmasına da bir qədər qısqanclıqla yanaşır və yaranmış boşluğu doldurmağa çalışır. Amma ümumilikdə müasir dövrdə Çinin apardığı xarici siyasətə nəzər salsaq görərik ki, bu dövlət tərəfdaşlıq etdiyi ölkələrə hər hansı iqtisadi, siyasi və beynəlxalq xarakterli problemlər yaratmağa meyilli görünmür. Çin Xəzər hövzəsinin və Orta Asiyanın enerji və xammal ehtiyatlarına azad giriş şəraiti yaratmaq məqsədilə bölgə ölkələri ilə münasibətləri inkişaf etdirməyə çalışır. Bir çox region ölkələrindən fərqli olaraq, Çin bölgədə transmilli nəqliyyat-enerji dəhlizlərinin çoxvariantlılığı və təhlükəsizliyində, hövzə dövlətlərinin həm Rusiyanın, həm də Qərb ölkələrinin geosiyasi təsirindən azad olmasında maraqlıdır ki, bu da onu regional münasibətlərdə yerli ölkələr, o cümlədən Azərbaycan üçün cəlbedici tərəfdaşa çevirir. Region dövlətləri ilə ideoloji, iqtisadi-siyasi əlaqələr yaratmaq baxımından da Çin sərfəli tərəfdaş hesab olunur. Bu ölkə, bir qayda olaraq, tərəfdaşlıq etdiyi dövlətlərin daxili siyasi və ideoloji həyatına müdaxilə etmir. Daha çox onlarla iqtisadi və mədəni əməkdaşlıq, ölkələrarası dostluq münasibətləri yaratmağa meyil göstərir. Çin Avrasiya məkanında digər beynəlxalq və regional aktorlarla, geosiyasi və geoiqtisadi rəqiblərlə münasibətlərini təmkinli, münaqişəsiz, birbaşa üz-üzə gəlməkdən, toqquşmadan yayınmaqla və ən əsası, ərazisində fəaliyyət göstərdiyi ölkənin milli maraqlarını nəzərə almaqla reallaşdırır. Bəzi analitiklər yaxın onilliklər ərzində Qərbin dünya hegemonluğuna qarşı mübarizədə Çinin islam dünyası ilə müttəfiq olmasını da mümkün sayır[30].

29 Yenə orada, s.298
30 Yenə orada, s. 389

Mədəniyyətlərin dialoqu – ortaq keçmişdən ortaq gələcəyə

Şərq və Qərbin qovuşuğunda, mədəniyyətlərin təmas nöqtəsində yerləşən, çoxmillətli ölkə kimi tarixən zəngin tolerantlıq ənənələrinə malik olan və son illər bütün dünyada mədəniyyətlərarası dialoqun, multikulturalizm ideyasının ən fəal təşəbbüskarlarından biri kimi çıxış edən, bir sıra digər beynəlxalq təşkilatlarda olduğu kimi, islam dünyasının maraqlarını ifadə edən qurumlarda da yüksək nüfuza, ayrı-ayrı islam dövlətləri ilə yaxın münasibətlərə malik olan Azərbaycanla əməkdaşlıq, zənnimizcə, Çin üçün islam dünyası ilə təmas baxımından da faydalıdır.

2015-ci il dekabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Çinin Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomunun təqdimatı mərasimindəki çıxışı zamanı universitetin rektoru Lyu Vey demişdir: *"Çin və Azərbaycan qədim tarixə, parlaq sivilizasiyaya malik olan ölkələrdir. Azərbaycan Avrasiyanın ürəyində yerləşir. Bu ölkə Şərq və Qərb mədəniyyətlərinin birləşməsinə şahidlik edir, habelə müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin bir-biri ilə kəsişdiyi məkandır. Xalqlarımız arasındakı uzunmüddətli dostluq əlaqələri iki min il əvvələ – qədim İpək Yolunun başlanğıcına qədər uzanır"*[31].

Bütün bunlar rəsmi Pekinin mədəniyyətlər və dinlərarası dialoqda fəal iştirak edən, müasir dünyada, sözün həqiqi mənasında, multikulturalizm məkanı kimi tanınan Azərbaycanla əməkdaşlığa bu istiqamətdə də maraq göstərməsinin daha bir təzahürüdür. Çin, təbii ki, belə bir ölkə ilə humanitar sahədə əməkdaşlığın yalnız səmərəli olacağını qəbul edir. Çünki Azərbaycan da, Çin də bu məsələdə bir-birini tamamlayır. Müasir geosiyasi nəzəriyyə terminologiyası ilə deyilsə, rəsmi Bakı "ağıllı güc" strategiyasını həyata keçirir. Məlumdur ki, Çin də daha çox "müdrik güc" deyilən strategiyanı reallaşdırır. Beləliklə, hər iki ölkə "ağıllı güc" aspektində perspektivli tərəfdaş olmaq şansına malikdir.

İqtisadi inkişafını özünün xarici siyasətinin başlıca amilinə çevirən Çin bir tərəfdən "demokratik dəyərlər olmasa, iqtisadi inkişaf olmaz" deyən Qərb dövlətlərinə cavab verir, digər tərəfdən də onları daxili işlərinə qarışmamağa çağırır. Bu, demokratik inkişaf proseslərini sosial-iqtisadi

31 Prezident İlham Əliyevə Çinin Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomu təqdim edilib. /11.12.2015/ - http://president.az/mobile/articles/17140

inkişafla paralel aparan, eyni zamanda müstəqil siyasət yürüdərək hər hansı bir ölkənin daxili işlərinə qarışmasına yol verməyən Azərbaycanın da tutduğu xəttə xeyli dərəcədə uyğundur. Hər iki ölkə ümummilli birlik əsasında, qarşıda duran vəzifələri əhalinin əsas kütləsinin iştirakı ilə həll etməyə nail ola bilir. Çində də, Azərbaycanda da əhalinin ümumi əhvali-ruhiyyəsi, sözün həqiqi mənasında, milli şüurunu və ruhunu vahid gücə çevirərək öz dövlətlərinin inkişafını, tərəqqisini təmin edir. Yeni dünya nizamına və qloballaşmaya özünəməxsus təmkinlə, uzaqgörən daxili və xarici siyasətlə, sakit templə daxil olmaları da Azərbaycan və Çin cəmiyyətlərini bir-birinə çox yaxınlaşdırır. Bütün bunlar iki ölkə arasında münasibətlərin inkişafına öz töhfələrini verən xalq diplomatiyasının uğurlu məqamlarıdır. Bu xüsusiyyətlərdən başqa, iki xalq arasında münasibətlərin dərin tarixi kökləri, humanitar, mədəni, parlamentlərarası, gənclər təşkilatları arasında əməkdaşlıq əlaqələri də Azərbaycan və Çin münasibətlərinin inkişafı üçün böyük perspektivlər yaradır.

Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu başda olmaqla, bir sıra ictimai qurumların təşəbbüsü ilə həyata keçirilən sosial-mədəni tədbirlər, mədəniyyətlərarası dialoq təşəbbüsləri Azərbaycan və Çin münasibətlərinə yeni töhfələr verir[32].

Bu gün Azərbaycandakı bir çox ali məktəblərdə Çin dili tədris olunur. Təhsil sahəsində qarşılıqlı mübadilələr aparılır. Azərbaycan tələbələrinin Çin, Çin tələbələrinin isə Azərbaycan universitetlərində təhsil alması təmin edilir. İki ölkənin parlamentləri arasında münasibətlərin inkişaf etdirilməsi məqsədilə 2002-ci ildə təşkil olunmuş Azərbaycan–Çin Dostluq Cəmiyyətinin əməkdaşlıq imkanları genişləndirilir. Azərbaycanın Bakı və Sumqayıt şəhərləri ilə Çinin Çjuçjoy, Çendu və Karamayın şəhərləri qardaşlaşmış şəhərlər elan edilmişdir. İndiyə qədər bir neçə dəfə Bakıda Çin, Pekində isə Azərbaycan mədəniyyəti günləri, eyni zamanda investisiyaların təşviqi məqsədilə Azərbaycan–Çin biznes forumları keçirilmişdir.

Hazırda Azərbaycan ikitərəfli ticarət həcminə görə Çinin Cənubi Qafqaz tərəfdaşları arasında liderdir. 2015-ci ildə Azərbaycanla Çin

32 Kərimov R. Azərbaycanın inkişaf modeli. Pekin, 2016, s.173

arasında ticarət dövriyyəsi 1 milyard ABŞ dollarını keçmişdir ki, bu, Gürcüstan və Ermənistanın toplam göstəricilərindən daha çoxdur. Azərbaycan Asiya İnfrastruktur İnvestisiyaları Bankının yaradılmasını dəstəkləmiş, həm də bu bankın fəaliyyətinə sadəcə iştirakçı kimi daxil olmayaraq, təsisçilərdən biri kimi fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu Çinin milli valyutası olan yuanı öz valyuta portfelinə daxil etmişdir. Azərbaycan valyutasının bir hissəsini Çin yuanında saxlamaqla Çin iqtisadiyyatına investisiyalarla töhfə vermiş olur. Bu gün Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çinli iş adamları uğurla fəaliyyət göstərir. 2004-2016-cı illər ərzində Azərbaycanda Çin kapitalına əsaslanan 50-yə yaxın şirkət qeydiyyatdan keçmişdir. Çin şirkətləri tərəfindən Azərbaycan iqtisadiyyatının neft-qaz və qeyri-neft sektoruna böyük məbləğdə investisiyalar yatırılmışdır. Çində də Azərbaycan kapitallı 20-dən artıq şirkət qeydiyyatdan keçmişdir ki, onlar tərəfindən də bu ölkənin iqtisadiyyatının müxtəlif sahələrinə investisiyalar qoyulmuşdur.

Yüngül sənaye, tekstil, geyim və digər məhsullarla yanaşı, Çin Azərbaycana iri avadanlıq, tikinti materialları, avtomobil və elektronika məhsullarının ehtiyat hissələrini ixrac edir. Həmçinin Çin Azərbaycandan xam neft, aviasiya kerosini və kimya sənayesi xammalının idxalını həyata keçirir. Son illərdə maşınqayırma, kənd təsərrüfatı sahələrində də yaxın əməkdaşlıq müşahidə edilir. Azərbaycanda iki sement zavodu Çin kapitalı ilə tikilmişdir. Çinin telekommunikasiya şirkətləri olan "ZTE" və "Huawei" Azərbaycanda regional ofisini açmışdır. Hazırda Çin şirkətlərinin Azərbaycandakı enerji, o cümlədən qaz layihələrində iştirakının artırılması məsələsi müzakirə edilir.

Azərbaycanla Çin arasında 1992-ci ildən başlayaraq müxtəlif dövrlərdə 50 sənəd imzalanmışdır. Bunların bir qismi xidməti səfərlər zamanı vizaların alınması, qrup halında turistlərin səfərləri zamanı vizasız gediş-gəliş, investisiyaların təşviqi və qarşılıqlı qorunması, kinematoqrafiya, radio verilişləri və televiziya sahəsində əməkdaşlıq, ticari-iqtisadi, turizm, səhiyyə və tibb elmi, mədəni, elmi-texniki, texniki-iqtisadi sahələrdə əməkdaşlıq, dövlət krediti, Çinin Azərbaycana güzəştli kredit verməsi, təhlükəsizlik, ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması, gömrük işi sahəsində

qarşılıqlı yardım, gənclərlə iş sahəsində əməkdaşlıq, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq və s. haqqında hökumətlərarası sazişlərdir.

Bundan başqa, iki ölkənin dövlət başçıları arasında dostluq haqqında birgə bəyanat, Xarici İşlər nazirlikləri arasında məşvərət haqqında protokol, konsulluq konvensiyası, hökumətlər arasında hava əlaqəsinin yaradılması, Çin hökumətinin Azərbaycana əvəzsiz olaraq üç milyon ABŞ dolları miqdarında əvəzsiz yardım göstərməsi, mədəniyyət və təhsil sahəsində əməkdaşlıq haqqında protokol və digər sənədlər də imzalanmışdır. Eyni zamanda iki ölkənin prokurorluqları qarşılıqlı təslimetmə haqqında müqavilə imzalayaraq ikitərəfli əməkdaşlıq sahəsində bir çox razılığa gəliblər. Azərbaycanın Rabitə və Yüksək Texnologiyalar, Təhsil nazirlikləri və Milli Olimpiya Komitəsi ilə də Çinin müvafiq qurumları arasında əməkdaşlıq və qarşılıqlı yardım sahəsində bir neçə razılaşma və müqavilə mövcuddur.

Nəticə

Hazırda Azərbaycan–Çin münasibətlərinin səmərəli bir dövrü yaşanmaqdadır. İki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün əməkdaşlıq imkanları genişləndirilməlidir. Bunun üçün yuxarıda qeyd olunan sahələr üzrə müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin, dialoqun və məsləhətləşmələrin davam etdirilməsi məqsədəuyğundur. İki ölkə arasında ticarət dövriyyəsinin artırılması üçün tədbirlər görülməli, Azərbaycanda xüsusilə qeyri-neft sektorunun, müvafiq infrastrukturun inkişaf etdirilməsi sahəsində Çinin təcrübəsindən istifadə edilməli və həmin layihələrə Çinin cəlb olunması siyasəti yürüdülməlidir. Bundan başqa, iki ölkə arasında bu vaxtadək imzalanmış sənədlərin icrasının təmin olunması və müqavilə-hüquq bazasının daha da gücləndirilməsi işinin davam etdirilməsi də müasir dövrdə Azərbaycan–Çin münasibətlərinin inkişafına böyük töhfə verə bilər.

Azərbaycanda həyata keçirilən beynəlxalq layihələrə Çin kimi güclü dövlətin qoşulması regionun digər ölkələrinin də inkişafına böyük fayda gətirə bilər. Çünki Çinin ən mühüm üstünlüyü onun iştirak etdiyi regional və ya beynəlxalq layihələrdə digər ölkələrin

daxili işlərinə qarışmamasıdır. Azərbaycan və Çin ədalətli prinsiplər və qarşılıqlı etimad əsasında irihəcmli layihələrdə əməkdaşlığa imza atıblar. Bu cür əməkdaşlıqlarla yanaşı, ölkələr arasında tarixən mövcud olan xalq diplomatiyası sayəsində əlaqələrin dərinləşməsi iki xalqı daha da yaxınlaşdıracaq və hər iki ölkənin ictimaiyyətində düzgün məlumatın yaranmasına əlverişli şərait yaradacaqdır. Çin tərəfindən irəli sürülmüş "Yeni İpək Yolu" təşəbbüsü buna bariz misaldır. Bu təşəbbüs birmənalı şəkildə dünya ölkələri ilə yanaşı, regionumuzda da sabitliyin yaranmasına yardım edəcək, inkişaf etməkdə olan ölkələrin tərəqqisini sürətləndirəcək. Bu nöqteyi-nəzərdən iki ölkənin həyata keçirdiyi xarici siyasətin istiqamətləri bir-biri ilə tam uzlaşır. Azərbaycan Çin tərəfindən irəli sürülmüş "Yeni İpək Yolu" və "Bir kəmər, bir yol" strategiyasında körpü rolunu oynayır. Burada Azərbaycanın Çinlə Avropa və ya digər ölkələri birləşdirə biləcək nəqliyyat məkanı kimi formalaşması mühüm əhəmiyyət kəsb edir. Xüsusi vurğulanmalıdır ki, 2013-2016-cı illər ərzində Çinin dövlət başçısı Si Cinpin 37 ölkəyə səfər etmiş və nəticədə "Yeni İpək Yolu" layihəsində iştirak edən ölkələrə 51.1 milyard ABŞ dolları həcmində sərmayə yatırılmışdır[33].

Sonda onu da qeyd edək ki, illər öncə ÇXR-in əsas məqsədi xarici investorları ölkəyə cəlb etmək idisə, indi bu məqsəd öz istiqamətini tam dəyişmişdir. Xarici ölkələrin strateji sahələrinə sərmayə qoymaq, tanınmış brendləri satın almaq – bir sözlə, xarici ölkələrdə daha fəal rol almaq bu ölkənin əsas hədəflərinə çevrilmişdir. Dünyada qlobal iqtisadi böhranın davam etdiyi bir vaxtda bu cür imkanlar Çin kimi ölkələr üçün yeni fürsətlər təqdim edir. Çin İpək Yolu boyunca yerləşən təxminən 14 ölkə ilə azad ticarət zonasının yaradılması haqqında saziş imzalamışdır[34]. Gürcüstan da Çinin bu layihəsinə artıq qoşulmuşdur. Siyasi və iqtisadi qüdrəti gündən-günə artan Azərbaycanın Çinin təqdim etdiyi İpək Yolu layihəsində daha aktiv iştirakı ilk növbədə iki qədim xalqı bir-birinə daha da yaxınlaşdıracaq, dostluq əlaqələrini dərinləşdirəcək – bir sözlə, bütün bunlar hər iki ölkənin milli maraqlarına xidmət edəcəkdir.

33 Инициатива "Пояс и путь" начала приносить позитивные результаты /27.09.2016/ - http://russian.news.cn/2016-09/27/c_135716813.htm

34 Международный семинар, посвященный китайской инициативе, открылся в Сиане /26.10.2016/ - http://russian.cctv.com/2016/09/26/VIDEIb8JqYPUaDA3uq3TeVOt160926.shtml

Azərbaycan–Almaniya münasibətləri

*Heydər Mirzə**

Giriş

Almaniya Federativ Respublikasının (AFR) Cənubi Qafqaz regionunda əsas iqtisadi tərəfdaşı olan Azərbaycan bu ölkə ilə siyasi və iqtisadi münasibətlərin inkişafında maraqlıdır. Bu məqalədə əsas məqsəd yenidən birləşmiş Almaniya ilə müstəqilliyinə yenicə qovuşmuş Azərbaycan arasında 1992-ci ildə diplomatik əlaqələrin qurulmasından 2016-cı ilədək olan dövrdə siyasi, iqtisadi və humanitar sahələrdə münasibətləri təhlil etməkdir. Burada həmçinin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə Almaniya hökuməti və parlamentinin münasibəti faktlar əsasında təqdim edilmişdir. Bundan başqa, son dövrlər münaqişəyə dair araşdırmalar aparmış alman alimlərinin əsərləri də müqayisəli şəkildə təhlil edilmiş və 2016-cı ildən ATƏT-ə sədrlik edən Almaniyanın ictimai təbliğatda oynadığı rol açıqlanmışdır. İkitərəfli münasibətlərdə, adətən, çətinliklərlə müşahidə olunan insan hüquqları və demokratiya ilə bağlı məsələlərin hansı səbəblərdən təhrif edildiyi və qeyri-obyektiv formada təqdim olunduğu araşdırılmışdır.

İkitərəfli münasibətlərin tarixinə ekskurs

Yaxın Şərq və ətraf bölgələrdəki müharibə və böhranlar səbəbindən ən çox qaçqın qəbul edən Avropa ölkəsi Türkiyədən sonra Almaniya Federativ Respublikasıdır. Lakin iki əsr əvvəl qaçqın axını əks istiqamətdə – Avropadan əsasən Amerikaya və o vaxtkı Çar Rusiyasının cənub bölgələrinə doğru olmuşdur. Müharibə, Napoleon istilalarından sonra yaranmış aclıq və səfalət, həmçinin dini təqiblər səbəbindən o vaxtkı Vürtemberq bölgəsindən[1] minlərlə şvab Cənubi Qafqaza köç etmiş, təxminən 400 ailə isə Azərbaycanın Göygöl (Helenendorf), Şəmkir (Annenfeld) və Tovuz (Traubenfeld) rayonlarında kompakt

* *Azad Berlin Universitetinin (alm. Freie Universität Berlin) doktorantı*

1 Vürtemberq hazırda Almaniyanın 16 federal vilayətindən (torpaqlarından – Bundesland) biridir.

şəkildə məskunlaşmışdır[2]. Gələn il Azərbaycan və Gürcüstanda alman icmalarının bu ərazilərdə məskunlaşmasının 200 illik yubileyi qeyd ediləcəkdir.

Azərbaycanda xüsusilə şərabçılığın inkişafında alman icmasının mühüm rolu olmuşdur. 1863-cü ildə "Simens qardaşları" firması Gədəbəy ərazisində yerləşən mis yataqlarının istismarı məqsədilə iri misəritmə zavodu inşa etmiş və beləliklə, XX əsrin əvvəllərinədək Cənubi Qafqazda əridilən misin 2/3 hissəsini istehsal etməyə nail olmuşdur.

Azərbaycan və Almaniya arasında çoxşaxəli və zəngin tarixi münasibətlərin əsasında dayanan bəzi tarixi faktlar böyük maraq doğurur. Belə ki, tarixi eposumuz "Kitabi-Dədə Qorqud" Avropada elmi ictimaiyyətə məhz alman alim və şərqşünası Fridrix von Ditsin xidməti sayəsində məlum olmuşdur. 2015-ci ildə alman dilinə tərcümə edilməsi və nəşrinin 200 illik yubileyi tamam olan eposun bir nüsxəsi Drezden vilayət kitabxanasında (Landesbibliothek Dresden) saxlanılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən bu yubiley tədbirlərindən biri dünyanın ən böyük sərgisi olan Frankfurt Mayn Beynəlxalq kitab sərgisi çərçivəsində təşkil edilmişdir.

Bundan başqa, görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı ilə tanış olan alman şairi Yohan Volfqanq Göte (1749-1832) dahi mütəfəkkirimizi "bütün şairlərin ustadı" adlandırmışdır. İki xalqın XIX əsr ədəbiyyat tarixinə daxil olmuş klassik şairimiz Mirzə Şəfi Vazeh və alman şərqşünası Fridrix von Bodenştedt arasında yaradıcılıq əlaqələri dostluq səviyyəsinədək yüksəlmişdir. Bunun nəticəsidir ki, 1851-ci ildə Almaniyada "Mirzə Şəfinin nəğmələri" adlı kitab nəşr edilmişdir.

XX əsr dünya ədəbiyyatının incilərindən sayılan "Əli və Nino" əsərinin orijinal nüsxəsi alman dilində yazılmış və 1930-cu illərdə Leypsiq və Vyana şəhərlərində nəşr edilmişdir. Əsərin müəllifi Qurban Səid və ya Lev Nussimbaum bolşevik təqibindən xilas olmaq məqsədilə Bakıdan Almaniyaya mühacirət etmiş, sonra isə nasistlərin təqiblərindən qaçaraq

2 Eva-Maria Auch: Zum Wirken deutscher Missionare in den kaukasischen Südprovinzen des Russischen Reiches, in: Mathias Beer (Hrsg.): Migration nach Ost-und Südosteuropa vom 18. bis zum Beginn des 19. Jahrhunderts. Stuttgart: Thorbecke. 1999, pp.245-263; Eva-Maria Auch: Öl und Wein am Kaukasus. Deutsche Forschungsreisende, Kolonisten und Unternehmer im vorrevolutionären Aserbaidschan. Reichert, Wiesbaden 2001

İtaliyaya gedənədək Almaniyada yaşayıb-yaratmışdır.

1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində həm də alman etnik azlığının bir deputatla təmsil olunması və XX əsrin əvvəllərində Bakı şəhərinin merlərindən birinin alman olması bu xalqın nümayəndələrinin cəmiyyətimizə hansı səviyyədə inteqrasiya edə bilməsinin bariz göstəricisidir.

Almaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk Qərbi Avropa dövləti olmuşdur (12 yanvar 1992-ci il). İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il fevralın 20-də qurulmuşdur. Həmin ilin sentyabr ayında qarşılıqlı olaraq hər iki ölkənin səfirlikləri Bonn və Bakı şəhərlərində təsis edilmişdir. 2001-ci ildən Azərbaycan səfirliyi yeni paytaxt Berlinə köçürülmüşdür. Ötən 25 il ərzində Almaniya və Azərbaycan arasında iqtisadi və siyasi tərəfdaşlıq yaranmışdır.

Siyasi əməkdaşlıq

1990-cı ilin oktyabrında, 40 illik fasilədən sonra yenidən birləşməyə nail olan Almaniya keçən əsrin 90-cı illərində Cənubi Qafqaz regionuna yönəlik siyasətində, xüsusilə əsas məsələlərə, demək olar ki, "birinci Rusiya" prizmasından yanaşmağa çalışmışdır. Digər bir mühüm məqam isə ondan ibarətdir ki, 1990-cı illərin birinci yarısı Almaniya üçün əsasən daxili siyasətindən, daha dəqiq desək, birləşmədən irəli gələn çağırışların həlli prioritet təşkil etmişdir. Avropa İttifaqının postsosialist Şərqi və Mərkəzi Avropa ölkələri hesabına genişlənməsi həmin dövrdə və 1990-cı illərin ikinci yarısından 2004-cü ilədək Almaniyanın əsas xarici siyasət prioritetlərindən olmuşdur. Bu dövrdə eyni zamanda Almaniyanın Cənubi Qafqaz ölkələri ilə münasibətlərində də bir dinamika özünü göstərmişdir. Ötən əsrin 1990-cı illərinin digər prioritet məsələlərindən biri sözügedən postsosialist dövlətlərin Qərbin təhlükəsizlik sisteminə inteqrasiyası və NATO-ya üzvlüyü olduğundan Almaniya da, təbii ki, xarici siyasətində bu istiqamətə daha çox diqqət yetirmişdir.

Beynəlxalq arenada ilk diplomatik addımlarını atan Azərbaycan Respublikası öz xarici siyasətində Avropa dövlətləri ilə siyasi və iqtisadi əlaqələrin qurulmasını prioritet hesab etmişdir. Bu kontekstdə

Prezident Heydər Əliyevin 1996-cı ilin iyununda Almaniyaya ilk səfəri siyasi və diplomatik münasibətlər tariximizdə mühüm yer tutur. Siyasi danışıqlarla yanaşı, Almaniya iqtisadiyyatının aparıcı şirkətlərinin rəhbərləri ilə görüşlər keçirilməsi ilə müşayiət olunan bu səfərdə xüsusilə iki məsələyə diqqət yönəldilmişdir: 1. ATƏT-in Minsk Qrupunun üzvü kimi Almaniyanın Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında dəstəyinə nail olmaq; 2. Alman sərmayəsini və texnologiyasını ölkəmizə gətirmək. Almaniya isə 2001-ci və 2004-cü illərdə Vitse-kansler və xarici işlər naziri Yoşka Fişerin region ölkələrinə, o cümlədən Azərbaycana səfəri çərçivəsində əsasən enerji sahəsində dialoqu ön planda saxlamışdır.

Aİ-nin aparıcı dövlətlərindən biri kimi Almaniyanın regionla bağlı xarici siyasət prioritetləri formalaşdırılarkən Aİ daxilində ümumi əlaqələndirmə siyasətinə üstünlük verilir. Həmçinin Almaniya Aİ daxilində Azərbaycanla əməkdaşlığın əsas istiqamətlərinin müəyyən olunması və həyata keçirilməsində əsas söz sahiblərindən biridir. Almaniya Aİ və Azərbaycan arasında viza rejiminin sadələşdirilməsinin, enerji və digər sahələrdə əməkdaşlığın intensivləşdirilməsinin tərəfdarlarındandır. Azərbaycan və Almaniya hər iki dövlətin üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində də əməkdaşlıq edirlər. Bu əməkdaşlıq tərəflərin təşəbbüslərinin qarşılıqlı olaraq dəstəklənməsi və müxtəlif məsələlərə dair məsləhətləşmələrin aparılması formasında öz təzahürünü tapır[3].

2004-cü ildə Aİ-nin "Yeni Qonşuluq Siyasəti" proqramının qəbul edilməsindən sonra Almaniya Cənubi Qafqaz ölkələri, o cümlədən regionun açar ölkəsi olan Azərbaycanla münasibətlərə diqqəti artırdı. Rusiya və Gürcüstan arasında 2008-ci ilin avqustunda baş verən hadisələrdən sonra Almaniyanın regiona marağı daha da çoxaldı. 2009-cu ilin oktyabrında İsveçrənin vasitəçiliyi ilə imzalanmış Türkiyə–Ermənistan protokollarının icrasının Dağlıq Qarabağ münaqişəsinin həlli ilə paralel şəkildə aparılması ideyası Berlin tərəfindən dəstəklənməmişdir. Almaniya bu məsələlərin fərqli olması qənaətindən

3 Məsələn, Almaniya hökuməti Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olması üzrə İşçi Qrupunun sədri kimi ölkəmizin tezliklə bu quruma üzv olmasını dəstəkləyir.

çıxış edərək daha çox Ermənistanın mövqeyinə yaxın yanaşmanın tərəfdarı olmuşdur.

Almaniya–Azərbaycan münasibətlərində müşahidə edilən dinamikliyi şərtləndirən bir sıra amilləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- Malik olduğumuz coğrafi-siyasi mövqeyə görə ölkəmizlə münasibətlərin inkişafı Almaniya üçün maraq doğurur. Həmçinin Almaniyanın Azərbaycanın qonşu dövlətləri ilə bağlı siyasətinə görə də ölkəmizlə əlaqələr Berlin üçün əhəmiyyət kəsb edir;
- Əfqanıstanda sülhməramlı missiya həyata keçirən beynəlxalq qüvvələrin tərkibində alman ordusunun – Bundesverin əsgərlərinin çoxsaylı kontingentlə təmsil olunması və onun təchizatında Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə oynadığı körpü rolundan istifadə edilməsi;
- Azərbaycanın cənub qonşusu və milyonlarla etnik azərbaycanlının yaşadığı İranla aparılan uzunmüddətli nüvə danışıqları prosesində və əldə edilən 2015-ci il Cenevrə razılaşmasının həyata keçirilməsində Almaniyanın BMT Təhlükəsizlik Şurasına üzv döv-lətlərlə eyni siyasi səviyyədə hərəkət etməsi;
- Azərbaycanın şimal qonşusu olan Rusiya ilə Almaniyanın enerji sahəsində sıx əməkdaşlıq etməsi və Rusiya–Ukrayna münasibətlərinin tənzimlənməsində Almaniyanın mühüm rol oynaması. Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi və planlaşdırdığı (Cənub Qaz Dəhlizi vasitəsilə) töhfə, enerjidaşımalarda tranzit ölkə olaraq, eləcə də Mərkəzi Asiya regionu ilə əlaqələrin inkişafında ölkəmizin oynaya biləcəyi mühüm rol Almaniya siyasi-iqtisadi dairələri tərəfindən yüksək qiymətləndirilir;
- Separatizmdən 25 ildən artıq əziyyət çəkən Azərbaycan üçün Krım məsələsi ilə bağlı Aİ və ATƏT-in aparıcı dövlətlərindən olan Almaniyanın apardığı siyasətin, eləcə də Aİ-nin separatçılara tətbiq etdiyi sanksiyaların oxşar münaqişələrdə tətbiqi məsələsi maraq doğurur;
- Almaniyanın xarici siyasət prioritetlərindən hesab olunan radikal islamçı qüvvələrlə mübarizədə Azərbaycan kimi dünyəvi idarəçilik quruluşuna malik və əhalisi əsasən şiə müsəlmanlardan ibarət tolerant

bir dövlətin təcrübəsindən bəhrələnmək olar və hətta bu sahədə Azərbaycanın dəstəyinə ehtiyac duyulur.

2014-cü ilin Krım hadisəsindən sonra alman siyasətçilərinin Azərbaycanın problemlərinə və maraqlarına daha anlayışla yanaşdığı müşahidə edilir. Alman analitiklərinin mülahizəsinə görə, Ukrayna ilə bağlı yaranmış böhrandan sonra regionumuzda ABŞ-ın təsirinin tədricən azaldığı və yenidən daha çox Rusiyanın təsiri altına keçdiyi müşahidə edilir. Sadalanan proseslər fonunda ikitərəfli münasibətlərdə dinamikliyi daha da artırmaq üçün yeni şəraitin yaranmasından danışmaq olar. Bu əlverişli zəmindən rəsmi Bakının maraqlarına uyğun istifadə edilməsi indi daha real görünür.

Siyasi münasibətlərin yüksək səviyyəsini iki tərəf arasında qarşılıqlı olaraq həyata keçirilən yüksək səviyyəli səfərlər və ali səviyyədə aparılan dialoq sübut edir. 2015-ci ilin yanvarından 2016-cı ilin iyununadək olan il yarımlıq dövrdə Prezident İlham Əliyev Almaniyaya dörd dəfə rəsmi və işgüzar xarakterli səfər həyata keçirmişdir. Bu yüksək səviyyəli dialoqun əsası isə Ümummilli lider Heydər Əliyevin 20 il əvvəl paytaxt Bonna etdiyi yuxarıda qeyd etdiyimiz rəsmi səfərlə qoyulmuşdur[4]. Həmçinin Xarici İşlər nazirlikləri arasında həm nazir, həm də nazir müavinləri səviyyəsində intensiv danışıqlar aparılır[5].

Parlamentlərarası əməkdaşlığın inkişafına əsasən Azərbaycan tərəfindən Azərbaycan–Almaniya, Almaniya tərəfindən isə Almaniya–Cənubi Qafqaz parlamentlərarası dostluq qrupları töhfə verir. Almaniya Bundestaqında Azərbaycanla sıx əlaqədə işləyən deputatlar əsasən xarici əlaqələr və enerji məsələləri üzrə komitələrin üzvləridir. Azərbaycan tərəfi siyasi və iqtisadi reallıqların təhlili əsasında maraq göstərir ki, Bundestaqda yalnız ölkəmizlə münasibətlərə məsul parlament üzvləri qrupu yaradılsın. Belə ki, təcavüzkar və təcavüzə məruz qalan qonşu

4 Prezident İlham Əliyev həmçinin 2004, 2006, 2007 və 2010-cu illərdə Almaniyaya rəsmi və işgüzar səfərlər həyata keçirmişdir.

5 Almaniyanın xarici işlər nazirlərindən 1995-ci ildə Klaus Kinkel, 2001-ci və 2004-cü illərdə Yoşka Fişer, 2007-ci ildə Frank-Valter Staynmayer, 2012-ci ildə Quido Vestervelle, 2014-cü və 2016-cı illərdə yenidən Frank-ValterŞtaynmayer Azərbaycan Respublikasına, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov 2006, 2008, 2010, 2011, 2012, 2013 və 2016-cı illərdə Almaniyaya rəsmi və işgüzar səfərlərdə olmuşlar. 2006-cı ildən başlayaraq iki ölkə arasında xarici işlər nazirlərinin müavinləri səviyyəsində ən azı ildə bir dəfə siyasi məsləhətləşmələr həyata keçirilir.

dövlətlərlə eyni parlament qrupu daxilində münasibətləri inkişaf etdirmək böyük çətinliklər yaradır. Almaniya tərəfi, öz növbəsində, hazırkı çağırışlar dövründə belə bir addım atmamışdır.

2016-cı ildə Almaniya ATƏT-ə sədrlik etmişdir. Burada qoyulan bəzi prioritet məsələlər 2017-ci ildə digər almandilli ölkə – Avstriyanın sədrliyi dövründə əlaqələndirilmiş şəkildə davam etdirilmişdir. ATƏT-ə sədrliyi dövründə postsovet məkanı ilə bağlı məsələlərdə Almaniya əsas prioritet məsələ kimi "Ukraynada və Ukrayna ətrafında münaqişənin nizamlanması"na töhfə verməyi qarşısına məqsəd qoymuşdur[6]. Sədrlik funksiyasının başlanğıcında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ümumi şəkildə bildirilmişdir ki, "Almaniya ATƏT məkanında digər həll edilməmiş münaqişələrin həlli üçün intensiv olaraq səylər edəcəkdir. ATƏT sədri kimi ATƏT-in mövcud danışıqlar formatı və mexanizmlərini Dağlıq Qarabağ (Minsk Qrupu) və Dnestryanıdakı (5+2 danışıqları) münaqişələrin həlli üçün aktiv dəstəkləyəcəkdir... Burada əsas rolu ATƏT sədrinin Cənubi Qafqaz və Dnestryanı münaqişəsinin həlli üzrə səlahiyyətli nümayəndəsi oynayacaqdır"[7].

ATƏT-in xarici işlər nazirlərinin 2016-cı ilin 8-9 dekabr tarixlərində Almaniyanın Hamburq şəhərində keçirilən 23-cü sammitində federal nazir F-V.Ştaynmayer "Fəaliyyətdə olan sədr" statusunda etdiyi çıxışında[8] Krım hadisəsindən danışarkən birmənalı mövqe ortaya qoyaraq "onun beynəlxalq hüquqa zidd ilhaq olunduğunu" qeyd etmiş, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hadisələrin isə "narahatlıq üçün əsas yaratdığını" bildirmişdir: "Aprelin əvvəlində döyüş əməliyyatlarının yenidən alovlanması göstərdi ki, bu münaqişə necə təhlükəlidir. Çoxsaylı

6 Die Bundesregierung. OSZE Deutschland 2016. Dialog erneuern, Vertrauen neu aufbauen, Sicherheit wieder herstellen Schwerpunkte des deutschen OSZE-Vorsitzes 2016, Berlin 2016, p.6; "Deutschland wird sich zudem verstärkt für die Lösung der weiteren ungelösten Konflikte im OSZE-Raum ("protracted conflicts") engagieren. Der OSZE-Vorsitz wird hierfür die bestehenden OSZE-Verhandlungsformate und -mechanismen für die Konflikte um Bergkarabach (Minsk-Prozess) und Transnistrien (5+2 Gespräche) aktiv unterstützen sowie die Genfer Gespräche zum Konflikt in Georgien intensiv begleiten... Eine zentrale Rolle werden hierbei die Sonderbeauftragten des Vorsitzes für den Südkaukasus und für die Lösung des Transnistrien-Konflikts spielen.

7 Die Bundesregierung. OSZE Deutschland 2016. Dialog erneuern, Vertrauen neu aufbauen, Sicherheit wieder herstellen Schwerpunkte des deutschen OSZE-Vorsitzes 2016, Berlin 2016, p.7.

8 Rede von Außenminister Frank-Walter Steinmeier in der Eröffnungssitzung des OSZE-Ministerrates in Hamburg. /08.12.2016/- http://www.auswaertiges-amt.de/DE/Infoservice/Presse/Reden/2016/161208-BM_Eroeffnung_OSZE_HH.html

söhbətlər atəşkəsin qorunub saxlanılması və nəhayət, siyasi həllə dair əsl danışıqlara başlamağın vacibliyini mənə sübut etdi. Biz bundan sonra da Minsk Qrupu və onun həmsədrlərinin səylərini ardıcıl olaraq dəstəkləyəcəyik".

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov alman həmkarı F-V.Ştaynmayerlə Hamburqda keçirdiyi görüşdə "etimad quruculuğu tədbirləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin ofisinin genişləndirilməsi kimi məsələlərin müzakirəsinin münaqişənin həlli ilə bağlı aparılan substantiv danışıqlar prosesi ilə sinxronlaşdırılmasının və onun tərkib hissəsi olmasının vacibliyini vurğulamışdır"[9].

Almaniyanın Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyi

Almaniya Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair federal hökumət (AFR XİN timsalında) və parlament – Bundestaq səviyyəsində mövqe bildirmişdir. Parlamentli respublika idarəçiliyinə malik Almaniyada Bundestaqın da mövqeyi xarici siyasət kursunun formalaşmasında əz əhəmiyyət daşımır.

Federal hökumətin mövqeyi ilə bağlı 1995-ci ilin dekabrında Bakıda imzalanan "Almaniya Federativ Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin əsasları haqqında Birgə Bəyanat" fundamental sənəd hesab oluna bilər. Sənədin 2-ci bəndində ərazi bütövlüyü və etnik azlıqlarla bağlı məsələyə rəsmi mövqe çox aydın şəkildə ifadə edilmişdir: "Almaniya və Azərbaycan öz münasibətlərini beynəlxalq hüquqa uyğun, suverenlik, bərabərlik, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, mübahisələrin sülh yolu ilə həlli prinsiplərinə hörmət edilməsi, güc tətbiqi və güc tətbiqi ilə hədələmənin qadağan edilməsi, eləcə də insan hüquqlarına, o cümlədən milli azlıqların hüquqlarına hörmət edilməsi əsasında qururlar"[10]. Burada etnik azlıqların hüququ ilə bağlı məsələ ümumdünya insan hüquqlarının təmini çərçivəsində yer alırsa,

9 Xarici işlər naziri Elmar Məmmədyarov Almaniya Federativ Respublikasının xarici işlər naziri Frank-ValterŞtaynmayer ilə görüşüb. /08.12.2016/ - http://www.mfa.gov.az/az/news/878/4564

10 Gemeinsame Erklärung über die Grundlagen der Beziehungen zwischen der Bundesrepublik Deutschland und der Aserbaidschanischen Republik, Baku, 22.12.1995

beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü ilə bağlı məsələlər münasibətlərin əsasında duran prinsiplər kimi qeyd edilir.

Almaniya hökumətinin rəsmi mövqeyinə görə, Dağlıq Qarabağ beynəlxalq hüquqla Azərbaycanın ərazisidir. Bu, Almaniya Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsində aşağıdakı formada öz əksini tapmışdır: "Dağlıq Qarabağ uğrunda Ermənistanla müharibədən bəri (1992-1994) beynəlxalq hüquqla Azərbaycana məxsus bu ərazi ətrafdakı 7 əyalətlə (Provinzen) birgə ermənilərin nəzarəti altındadır (Azərbaycan torpaqlarının 17%-i)"[11]. Almaniya XİN-in rəsmi internet səhifəsinin "Dünya ölkələrinin təhlükəsizliyinə dair göstərişlər" bölməsində Almaniya vətəndaşlarına "Dağlıq Qarabağ bölgəsinə, eləcə də Azərbaycanın cənub-qərbində yerləşən və ermənilərin işğal etdiyi Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcərə, həmçinin Azərbaycanın atəşkəs xəttinə (təmas xəttinə) bitişik ərazilərinə səfər etmək qəti şəkildə məsləhət görülmür"[12].

Almaniya Bundestaqı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir neçə dəfə mövqeyini ortaya qoymuşdur. Belə ki, 2009-cu ildə Almaniya Bundestaqında "Cənubi Qafqazda təhlükəsizlik, sabitlik və demokratiyanın gücləndirilməsi"[13] adlı qətnamə qəbul olunmuşdur. Bu sənəddə Dağlıq Qarabağ münaqişəsinin həllində BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrası tələb

11 Almaniya XİN-in internet səhifəsi işğal edilmiş ərazilərimizin 20% deyil, 17% olduğunu bildirir: Seit dem Krieg mit Armenien (1992-1994) um Bergkarabach befindet sich das völkerrechtlich zu Aserbaidschan gehörende Gebiet zusammen mit sieben umliegenden Provinzen unter armenischer Kontrolle (rund 17% des aserbaidschanischen Staatsterritoriums). Auswaertiges Amt /07.12.2006/ - http://www.auswaertiges-amt.de/DE/Aussenpolitik/Laender/Laenderinfos/Aserbaidschan/Aussenpolitik_node.html

12 "Von Reisen in die Region Bergkarabach sowie in die im Südwesten gelegenen, armenisch besetzten Bezirke Agdam, Füsuli, Dschabrayil, Sangilan, Kubadli, Ladschin und Kalbadschar, sowie in die unmittelbar auf aserbaidschanischer Seite der Waffenstillstandslinie (Kontaktlinie) angrenzenden Gebiete dringend abgeraten".
Ölkəmizə dair səfərlərlə bağlı ümumi məlumatda təhlükəsizliyin təminatı ilə bağlı müsbət rəy verilmişdir: "Azərbaycan digər ölkələrlə müqayisədə təhlükəsizliyin yaxşı təmin edildiyi və kriminal hadisələrin az baş verdiyi ölkədir" /07.12.2016/ - http://www.auswaertiges-amt.de/DE/Laenderinformationen/00-SiHi/Nodes/Aserbaidschan Sicherheit_node.html

13 Deutscher Bundestag Drucksache 16/12102. 16. Wahlperiode 04.03.2009
Antrag der Fraktionen der CDU/CSU und SPD "Sicherheit, Stabilität und Demokratie im Südkaukasus fördern".Gesamtherstellung: H. Heenemann GmbH & Co., Buch- und Offsetdruckerei, Bessemerstraße 83–91, 12103 Berlin

olunur və Almaniya hökuməti bu prosesdə daha fəal rol oynamağa çağırılır. Qətnamə o zaman koalisyon hökumət qurmuş Xristian-Demokrat İttifaqı/Xristian-Sosial İttifaqı (CDU/CSU) və Sosial-demokratlar (SPD) fraksiyaları tərəfindən təqdim olunmuş və qəbul edilmişdir. Parlamentdə aparılan plenar müzakirələrdə Bundestaqın müxtəlif fraksiyalarının nümayəndələrinin bəyanatlarında Azərbaycan torpaqlarının işğal altında olması pislənilmiş, qaçqınlar və məcburi köçkünlərlə bağlı ölkəmizin üzləşdiyi çətinliklər barədə danışılmışdır.

Almaniya Bundestaqı sözügedən qətnamədə hər üç Cənubi Qafqaz dövlətinin ərazi bütövlüyünü tanıyır və regiondakı münaqişələrin həlli məsələsində dövlətlərin suverenliyi, onların razılığı olmadan sərhədlərin dəyişdirilməsinin yolverilməzliyi kimi beynəlxalq hüququn əsas prinsiplərini üstün tutur. Qətnaməyə görə, bütün dövlətlər Ermənistan, Azərbaycan və Gürcüstanın ATƏT-in Paris Xartiyası ilə müəyyən edilmiş öz tərəfdaşlarını və müttəfiqlərini azad seçmək hüququnu tanımalıdır. Paris Xartiyasının prinsipləri ərazi bütövlüyünü və suverenlik hüququnu təmin edir. Əlavə olaraq qeyd edilir ki, sərhədlər yalnız tərəflər arasında razılaşma əsasında dəyişdirilə bilər. Bu prinsiplər Cənubi Qafqazda, eləcə də Avropanın digər regionlarında münaqişələrin həlli üçün bütün səylərin əsasını təşkil edir. Qətnamədə Almaniya Bundestaqı hökuməti Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT qətnamələrinin, eləcə də Avropa Şurası və ATƏT-in qərar və qətnamələrinin bütün iştirakçılar tərəfindən yerinə yetirilməsi üçün səylərini səfərbər etməyə çağırır. Almaniya Bundestaqı hökumətdən eyni zamanda Cənubi Qafqazdakı münaqişələrin həlli üçün göstərilən səylər çərçivəsində bütün qaçqın və məcburi köçkünlərin vətənlərinə qayıtması da daxil olmaqla, qaçqınlar məsələsinin həlli ilə bağlı fəallığın artırılmasını tələb edir.

Azərbaycan torpaqlarının işğalı faktı hətta Almaniya Bundestaqının ölkəmizlə bağlı qəbul etdiyi insan hüquqları məsələləri ilə bağlı qeyri-obyektiv məzmunlu qətnaməsində də öz əksini tapmışdır. 2015-ci ilin iyununda Bundestaqın hakim böyük koalisiyasının iştirakçılarının – CDU/CSU və SPD-nin təqdimatı əsasında qəbul edilən "Azərbaycanda insan hüquqlarına əməl edilməsini tələb etmək" adlı qətnaməsində

deyilir[14]: "Azərbaycan ağır daxili siyasi vəziyyətə malikdir. Dağlıq Qarabağ və 1993-cü ildən Ermənistan tərəfindən işğal edilən ətraf ərazilərdən olan 586.000 məcburi köçkün, eləcə də Ermənistandan olan 250.000 azərbaycanlı qaçqın ölkə üçün ağır iqtisadi, sosial və siyasi yükdür. Azərbaycan hökuməti son illərdə qaçqınların vəziyyətinin, məskunlaşdırılmasının, təhsilinin və məşğuliyyətinin yaxşılaşdırılması üçün əhəmiyyətli dərəcədə səylər göstərmişdir".

2009-cu ildə qəbul edilmiş qətnamə ilə müqayisədə 2015-ci il sənədində işğalçı adı ilə göstərilir və "ermənilər" deyil, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı qeyd olunur. Bu qətnamə Ermənistan tərəfinin ciddi narazılığına səbəb olmuşdur.

Aydın ifadələrə malik hüquqi sənədlərlə yanaşı, bəzi məqamlar Azərbaycan tərəfi üçün tam məqbul sayılmır. Belə ki, Almaniya hökuməti münaqişə zonasında silahlı insident yaranan kimi narahatlığını ifadə edir, münaqişənin həlli üçün üzvü olduğu Minsk Qrupunun səylərini dəstəklədiyini bəyan edir, ancaq öz üzərinə fəal vasitəçilik rolu götürməyə meyil etmir.

Almaniya federal hökumətinin insan haqları siyasətinə dair 11-ci hesabatında da[15] Dağlıq Qarabağ münaqişəsinə dair həm "Azərbaycan", həm də "Ermənistan" bölməsində yer verilmişdir. 2012-ci il martın 1-dən 2014-cü il fevralın 28-dək olan dövrü əhatə edən bu hesabat Bundestaqın sifarişinə əsasən federal hökumət tərəfindən hazırlanmışdır. Hesabatın Azərbaycana dair hissəsində deyilir: "1988-1994-cü illərdə Dağlıq Qarabağ münaqişəsi nəticəsində 600.000 qaçqın ermənilər tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarını tərk etməli olmuşdur. Azərbaycan hökumətinin böyük səylərinə baxmayaraq, qaçqınların əhalinin digər

14 Antrag der Fraktionen der CDU/CSU und SPD: Einhaltung der Menschenrechte in Aserbaidschan einfordern.
Deutscher Bundestag Drucksache 18/5092 18. Wahlperiode 09.06.2015. "Aserbaidschan befindet sich in einer schwierigen innenpolitischen Situation. Die rund 586.000 Binnenvertriebenen aus Bergkarabach und den umliegenden, seit 1993 von Armenien besetzten aserbaidschanischen Gebieten sowie die 250.000 aserbaidschanischen Flüchtlinge aus Armenien sind eine schwere wirtschaftliche, soziale und politische Belastung für das Land. Die aserbaidschanische Regierung hat in den letzten Jahren erhebliche Anstrengungen für eine Verbesserung der Lage, Unterbringung, Ausbildung und Beschäftigung der Flüchtlinge unternommen".

15 11. Bericht der Bundesregierung über ihre Menschenrechtspolitik. Berichtszeitraum 01. 03.2012 bis 28. 02. 2014. - https://www.bundesregierung.de/Content/Infomaterial/AA/MRB_11_692838.html

hissəsi ilə müqayisədə cəmiyyətə inteqrasiya baxımından şansları böyük deyildir".

Hesabatın Ermənistana aid bölməsində bu fikir davam etdirilir: "1994-cü ildə atəşkəs əldə olunandan bəri ermənilər Dağlıq Qarabağ daxil olmaqla, işğal etdiyi Azərbaycan torpaqlarında insan haqlarının vəziyyətinə görə məsuliyyət daşıyır. Yüz minlərlə azərbaycanlı məcburi köçkün bu günədək bu torpaqlara geri qayıda bilmir".

Ukraynada baş verən hadisələr fonunda Avropada separatizm və ekstremizmə qarşı əhvali-ruhiyyə güclənmiş, bu da, öz növbəsində, alman siyasətçiləri tərəfindən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan tərəfinin mövqeyinin daha anlayışla qəbul olunması üçün zəmin yaratmışdır. Belə ki, Almaniyanın yüksək səviyyəli rəsmiləri tərəfindən hazırkı dövrdə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək açıq şəkildə bildirilir və orada yaradılmış de-fakto rejimlə hər hansı formada əlaqənin yaradılması rədd edilir.

Azərbaycan tərəfi həm Aİ-dən, həm də Almaniyadan Dağlıq Qarabağın separatçı rejiminin nümayəndələrinə qarşı sanksiyaların tətbiqini tələb edir[16]. Mütəxəssislərin fikrincə, bu sanksiyalar əsasən Aİ ərazisinə giriş vizası qadağası formasında ola bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışlarının birində məsələni daha kəskin formada ifadə etmişdir: "Əslində, çoxdan Ermənistana qarşı beynəlxalq sanksiyalar tətbiq edilməli idi. Çünki Ermənistan artıq 20 ildir ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisini işğal altında saxlayır. Dinc əhaliyə qarşı soyqırımı törədib. Xocalı soyqırımını törədib. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi pozulur (...) Nə vaxta qədər biz bu ikili standartlarla üzləşəcəyik? Bunun səbəbi nədir? Nə üçün qondarma "Dağlıq Qarabağ Respublikası"nın rəhbərləri sanksiyalardan əziyyət çəkmir? Nə üçün onlara qarşı sanksiyalar tətbiq olunmur? Bu, ədalətsizlikdir, ikili standartlardır. Ona görə biz beynəlxalq münasibətlərdə ikili standartlara qarşı öz etiraz səsimizi ucaldırıq. Bizimlə əməkdaşlıq edən Qərb ölkələrinin rəhbərlərindən xahiş edirik

16 Azərbaycan və Almaniya arasında siyasi məsləhətləşmələr keçirilib. /20.02.2015/ - http://news.atv.az/az/politics/16271-azerbaycan-ve-almaniya-arasinda-siyasi-meslehetlesmeler-kecirilib

ki, qondarma "Dağlıq Qarabağ respublikası"nın "rəhbərləri"ni öz ölkələrinə buraxmasınlar. Onlara qarşı sanksiyalar tətbiq edilsin. Onlar gedib qanunsuz telemarafonlar keçirirlər, pullar yığırlar. Sonra o pulları bizim əleyhimizə istifadə edirlər. Onların "rəhbərləri"ni Qərbin aparıcı ölkələrində qəbul edirlər. Vizalar verilir, onlar orada "nümayəndəliklər" açırlar, gedib-gəlirlər. Nə üçün? Hesab edirəm, vaxt gəlib çatıb ki, biz bu məsələ ilə bağlı fikrimizi daha da açıq şəkildə ifadə edək. Biz bu ikili standartlardan yorulmuşuq. Bu qədər ədalətsizliyə dözmək mümkün deyil"[17].

2016-cı ilin aprel ayında qoşunların təmas xəttində Ermənistanın atəşkəs rejimini pozması nəticəsində baş verən döyüşlərdən sonra Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yenidən daha qabarıq formada Avropada, o cümlədən Almaniyada ictimaiyyət və mətbuatın diqqətini cəlb etmişdir. Bu dövrdə döyüş əməliyyatları ilə yanaşı informasiya mübarizəsinin də önəmi artmışdır. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin elmi-tədqiqat institutları tərəfindən tədqiqi və son 3-4 ildə nəşr edilən bir sıra kitablar göstərir ki, mövzu aktual olaraq qalır və 1990-cı illərdən fərqli olaraq, hazırda münaqişə ilə bağlı obyektiv araşdırmaların sayı artmışdır. Bu tədqiqatlara misal olaraq Azad Berlin Universitetinin dosenti dr. Mixael Raynhard Hessin "Tanklar cənnətdə. Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi"[18], hüquq elmləri doktoru Hans Yoaxim Hayntsenin 2016-cı ilin fevralında Berlin Elm Nəşriyyatında (Berliner Wissenschaftsverlag) çap olunan "Dövlətlərin ərazi bütövlüyü: beynəlxalq hüququn qüvvədə olan prinsipinin Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin nümunəsində araşdırılması"[19], Zigen Universitetinin siyasi

17 Prezident İlham Əliyev Qərbi Qarabağ separatçılarına qarşı sanksiyalar tətbiq etməyə çağırır. /15.04.2014/ - http://www.contact.az/docs/2014/Politics/041500075510az.htm#.WDPiLeYrJPY

18 Hess Michael Reinhard. Panzer im Paradies.Der Berg-Karabach-Konflikt zwischen Armenien und Aserbaidschan, Berlin 2016. Kitabı fərqləndirən mühüm xüsusiyyətlərdən biri odur ki, dr. Hess Xocalıda azərbaycanlılara qarşı törədilən qətliama ayrıca yarımfəsil həsr etmiş, Ermənistanın hökumət üzvlərinin, xüsusilə də bugünkü prezident Serj Sarkisyanın Xocalı soyqırımının iştirakçısı olması faktlarını qeyd etmişdir. Müəllif "Nəticə" hissəsində yazır ki, "2016-cı ilin aprelindəki dəhşətli hadisələr göstərdi ki, Dağlıq Qarabağ münaqişəsi Avropanın cinahında açıq yara olaraq qalır"

19 BWV Berliner-Wissenschaft, i2016

Heintze Hans-Joachim. Territoriale Integrität der Staaten: Fortbestehende Grundlage des Völkerrechts. Untersuchung vor dem Hintergrund des Berg-Karabach-Konfliktszwischen Armenien und Aserbaidschan. Verlag: Prof. Haynts belə nəticəyə gəlmişdir ki, "Dağlıq Qarabağın əhalisi", "etnik ermənilər" dedikdə hüquqi

elmlər fakültəsinin professoru Rüdiger Kipkenin 2015-ci ildə nəşr olunan "Cənubi Qafqaz münaqişə ocağı – Azərbaycan rus (sovet) və erməni maraqlarının fokusunda" kitabları[20] göstərilə bilər.

Bundan başqa, Almaniyanın xarici siyasət məsələləri üzrə aparıcı beyin mərkəzlərindən sayılan Alman Xarici Siyasət Cəmiyyətinin (DGAP) "DGA Panalyse" jurnalının 2013-cü ilin mart ayındakı sayı Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuşdur. DGAP və Robert Boş Fondunun Mərkəzi və Şərqi Avropa Mərkəzinin region üzrə tanınmış eksperti dr. Ştefan Maysterin müəllifi olduğu analitik yazı "Cənubi Qafqazda təhlükəsizlik siyasətinin boşluğu. Dağlıq Qarabağ regional və beynəlxalq aktorların rəqabətində"[21] adlanır. Müəllif araşdırmaları nəticəsində belə nəticəyə gəlmişdir ki, "Avropa İttifaqı münaqişənin həllinə daha yaxından cəlb olunmalı, hətta Minsk Qrupu həmsədrliyində Fransanın mandatını üzərinə götürməlidir. Avropa İttifaqının "Qafqaz üçün Sabitlik Paktı" ideyası yenidən dirçəldilməlidir".

baxımdan "xalq qrupundan" deyil, etnik azlıqdan söhbət gedir ki, onların da öz müqəddəratını təyinetmə hüququ yoxdur və Ermənistanın timsalında "kin state" malikdirlər. Ermənilər Dağlıq Qarabağ ərazisində etnik azlıqlara tanınan hüquqlara iddia edə bilər ki, bu da "Mülki və siyasi hüquqlara dair Beynəlxalq Pakt"ın 27-ci maddəsində təsbit olunmuşdur: "Hətta BMT-nin milli azlıqların müdafiəsinə dair bəyanatında da öz müqəddəratını təyin etməkdən söhbət getmir, daha çox dövlətlərin ərazi bütövlüyü vurğulanır"

20 Rüdiger Kipke, Konfliktherd Südkaukasus. Aserbaidschan im Fokus (sowjet-) russischer und armenischer Interessen, Wiesbaden, VS Verlag für Sozialwissenschaften, 2015. Tarixçi alim Rüdiger Kipke Çar Rusiyası zamanında ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi, onların xüsusilə İrəvan və Qarabağ xanlıqlarının ərazisində yerləşdirilməsi nəticəsində bu bölgələrdə əhalinin etnik tərkibinin ciddi şəkildə dəyişdirilməsi barədə məlumat vermişdir. Professor Kipke tarixə dair bəzi ədəbiyyatlarda faktların saxtalaşdırıldığını, guya Sovet İttifaqının Dağlıq Qarabağı Ermənistandan qopararaq Azərbaycana verməsinin iddia edilməsinin yanlış olduğunu qeyd etmiş və əslində, Kommunist Partiyasının Qafqaz Bürosunun qərarında Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində qalmasına dair çıxardığı qərarı arxiv sənədləri əsasında alman və avropalı oxucuların mühakiməsinə təqdim etmişdir. R.Kipke həmçinin ermənilərin XX əsrin əvvəllərində Azərbaycan xalqına qarşı törətdikləri qətliamlar – Bakı, Şamaxı, Quba və digər bölgələrdəki qırğınlar haqqında faktlarla kitabında geniş məlumat vermişdir.

21 Stefan Meister: Sicherheitspolitische Stagnation im Südkaukasus: Berg-Karabach im Spannungsfeld regionaler und internationaler Akteure, DGAPanalyse 2, Berlin, März 2013. Müəllif təklif edir ki, "Avropa İttifaqı münaqişənin həllinə daha yaxından cəlb olunmalı, hətta Minsk Qrupu həmsədrliyində Fransanın mandatını üzərinə götürməlidir. Avropa İttifaqının "Qafqaz üçün Sabitlik Paktı" ideyası yenidən dirçəldilməlidir. Münaqişənin həlli yeni və daha əhatəli vasitəçilik formatlarından tutmuş sülh missiyalarının mümkün tətbiqi ilə irəliyə aparılmalıdır. Münaqişənin həllində aparıcılıq, əvvəlki kimi, Rusiyaya güzəşt olunmalı deyil, Avropa İttifaqı və ABŞ Moskvanın təsirini birlikdə məhdudlaşdırmalıdırlar. Bütün bunlar üçün, təbii ki, kifayət qədər insan və maliyyə resursları ayrılmalıdır. Regiondaxili blokadaları yarmadan və region ölkələrinə Avropa İttifaqının bölgədə ciddi təhlükəsizlik və enerji maraqlarının olduğunu çatdırmadan burada demokratiyanın inkişafında da irəliləyiş olmayacaqdır, nə qədər ki Ermənistan və Azərbaycan özlərini meydanda tək qalmış hiss edirlər və münaqişənin həllində Rusiyanın dominantlığına Qərb tərəfdən dözülür, Avropa İttifaqı regionda ciddi transformasiya siyasəti aparmır.

Azərbaycan–Almaniya münasibətlərində insan hüquqları və demokratiya məsələləri

Almaniya hökumətinin xarici siyasətində insan hüquqları ilə bağlı məsələ ənənəvi olaraq ön planda dayanır. Bunun mühüm səbəblərindən biri Almaniyanın XX əsr tarixi ilə sıx bağlıdır. Xüsusilə İkinci Dünya müharibəsinin başlanmasının əsas səbəbkarı nasist Almaniyasının olması, Avropada 6 milyon yəhudinin qətlə yetirilməsi, müharibənin nəticəsi olaraq milyonlarla almanın müxtəlif Şərqi Avropa dövlətlərindən Almaniyaya məcburi köç etdirilməsi və bu kimi amillər Almaniyanı xarici siyasətində insan hüquqları ilə bağlı məsələlərə kifayət qədər həssas yanaşmağa sövq edir. Nəzərə almaq lazımdır ki, on minlərlə alman insan hüquqları ilə məşğul olan müxtəlif beynəlxalq təşkilatların Almaniya bölməsinin üzvüdür. Bu təşkilatlar istənilən vaxt çoxsaylı üzvünü hər hansı məsələ ilə bağlı və ya hər hansı ölkəyə qarşı qısa müddət ərzində səfərbər edə bilirlər. Bu, imkan verir ki, çox qısa müddətdə məsələ ictimailəşsin və yerli/regional müstəvidən federal və beynəlxalq müstəviyə keçə bilsin.

Başqa sözlə, Almaniya ictimaiyyəti həssaslıqla izləyir ki, hökumət tərəfdaş ölkələrlə münasibətlərdə insan hüquqları və demokratiyanın vəziyyəti ilə bağlı məsələləri gündəmə gətirsin. Hər hansı rəsmi səfər və ya danışıqlarda yalnız iqtisadi amilin ön plana çıxarılması KİV tərəfindən də ciddi tənqidlə qarşılanır.

Müxtəlif ölkələrdə demokratiya və insan hüquqlarının vəziyyəti əsasən Bundestaqda müzakirəyə çıxarılır. Belə müzakirələrdə, ənənəvi olaraq, müxalifət partiyaları, ələlxüsus Yaşıllar Partiyası xüsusi fəallıq göstərir. Hətta ayrı-ayrı partiyalardan olan deputatlar hər hansı bir ölkədə demokratikləşmə və insan hüquqları ilə bağlı məsələni instrumentallaşdırmaqla öz fraksiyası daxilində və seçki dairəsində karyerasının inkişafı üçün əlavə xal qazanır. Məsələn, Bundestaqın 2009-2013-cü illər çağırışında Azərbaycana qarşı müxtəlif səbəblərdən qərəzli mövqedə köklənmiş bir sıra deputatlar – xanım Viola fon Kramon (Yaşıllar Partiyası), Markus Löning (Azad Demokratlar Partiyası), KristofŞtresser (Sosial Demokratlar Partiyası), Folker Bek (Yaşıllar

Partiyası) və digərləri tərəfindən ölkəmizdə demokratiyanın və insan hüquqlarının vəziyyətinə dair əsassız bəyanatlar səsləndirilmiş, qərəzli təşəbbüslər irəli sürülmüşdür. Əksər hallarda bu təşəbbüs və təkliflər Bundestaqdakı çoxluq tərəfindən rədd edilmişdir.

Bundestaqla yanaşı, hökumət də fəaliyyətində insan hüquqları ilə bağlı məsələyə önəm verir. Faktiki olaraq hər il Almaniya və Azərbaycan arasında müxtəlif səviyyələrdə siyasi məsləhətləşmələr aparılır, bu məsləhətləşmələrə ölkəmizlə bağlı müzakirə olunan mövzulara insan hüquqlarının vəziyyəti və hüquqi dövlət quruculuğunun inkişafı kimi məsələlər də daxil edilir. Almaniya rəsmilərinin bu görüşlərdən sonra mətbuata verdikləri açıqlamalarda, bir qayda olaraq, ölkəmizdə demokratiya və insan hüquqlarının vəziyyətinin açıq müzakirə olunduğu diplomatik şəkildə vurğulanır[22].

Almaniyada insan hüquqları ilə bağlı məsələyə məsul rəsmi qurum federal hökumətin insan hüquqları siyasəti və humanitar yardıma məsul müvəkkilidir (Beauftragte der Bundesregierung für die Menschenrechts politik und humanitäre Hilfe)[23]. Müvəkkilin ofisi Almaniya XİN-də yerləşir. Bununla belə, Almaniya rəsmilərinin məlumatına görə, müvəkkilin bəyanatları sərbəst hesab olunur və birbaşa federal hökumətin mövqeyi hesab edilməyə də bilər.

İnsan hüquqları ilə bağlı məsələlər Almaniya KİV-də davamlı olaraq izlənilir. Federal səviyyədə yayımlanan mətbu orqanlarda hazırkı dövrdə ölkəmizdə insan hüquqlarının vəziyyətinə dair ara-sıra tənqidi məqalələrin dərc edilməsinə baxmayaraq, bu məqalələri 2012-ci ildə keçirilmiş "Avroviziya" mahnı müsabiqəsi və 2015-ci ildə keçirilmiş 1-ci Avropa Oyunları ərəfəsində aparılan kampaniya ilə müqayisə etmək olmaz. Belə kampaniyalar Pekində keçirilmiş XXIX Yay Olimpiya Oyunları ərəfəsində Çinə, futbol üzrə Avropa çempionatı ərəfəsində

22 PRÄSIDENT ASERBAIDSCHANS IN BERLIN, „Partner von wachsender Bedeutung". Die Bundesregierung befürwortet den Ausbau des südlichen Gaskorridors von Aserbaidschan in die EU. Das erklärte Bundeskanzlerin Merkel nach einem Treffen mit dem aserbaidschanischen Präsidenten Alijew. Neben wirtschafts- und außenpolitischen Fragen waren auch die Menschenrechte Thema. Berlin. /21.01.2015/ - https://www.bundesregierung.de/Content/DE/Artikel/2015/01/2015-01-21-merkel-aserbaidschan.html

23 Beuaftragte der Bundesregierung für die Menschenrechtspolitik und humanitäre Hilfe. /23.11.2016/ - http://www.auswaertiges-amt.de/DE/AAmt/Koordinatoren/MR-Koordinatorin/Uebersicht_MRHHB_node.html,

Ukraynaya, Soçidə keçirilmiş XXII Qış Olimpiya Oyunları ərəfəsində Rusiyaya, Rio-de-Janeyroda keçirilmiş XXXI Yay Olimpiya Oyunları ərəfəsində Braziliyaya qarşı da keçirilmişdir. "Alman fenomeni" adlandırılan bu tənqidlərin səbəblərini aşağıdakı formada izah etmək olar: Almaniya mətbuatı rezonans yaratmaq naminə bütövlükdə pozitiv deyil, neqativ hallar haqqında məlumat verməyə meyillidir. Almaniya Bundestaqının mərhum deputatı Filip Misfelder ölkəmizə həsr edilən tədbirlərin birində bildirmişdir ki, o, Bundestaqın elmi araşdırmalar xidmətinə "Avroviziya" mahnı müsabiqəsi ərəfəsində Almaniya, Fransa və Britaniya mətbuatında Azərbaycana dair tənqidi məlumatları müqayisəli şəkildə təhlil etməyi sifariş etmişdir. Bundestaqın elmi araşdırmalar xidmətinin gəldiyi qənaətə görə, Almaniya mətbuatında getmiş tənqidi materiallar həcm və məzmununa görə digər iki ölkənin mətbuatını geridə qoymuşdur.

Həmin ərəfədə Azərbaycana qarşı düşmən mövqedə olan erməni diasporası və ona yaxın olan qüvvələr, Azərbaycanın Avropaya yaxınlaşmasını arzulamayan, Avropa ilə münasibətlərinə xələl gətirmək istəyən, enerji layihələrimizi əngəlləmək məqsədi güdənlər yaranmış vəziyyətdən istifadə edərək fəallaşmışdılar. Bəzi hallarda bu kampaniyada Almaniyadan kənarda yerləşən qüvvələr də iştirak etmişdi. Bundan əlavə, alman KİV-in Moskvada yerləşən redaksiyalarından qaynaqlanan Azərbaycan haqqında qərəzli məlumatların formalaşmasında Rusiya paytaxtında daha güclü olan antiazərbaycan qüvvələrin də böyük təsiri olduğu ehtimal edilir. Bu tənqid kampaniyasının böyük rezonans doğurması həm də Almaniyanın Aİ daxilində əhalisinə görə ən böyük ölkə olması və onun malik olduğu media landşaftı və infrastrukturu ilə də bağlı idi. Almaniyada elə də ciddi siyasi çəkiyə malik olmayan çoxsaylı lokal nəşrlər və bloqqerlər bu məlumatları təkrar tirajlamaqla özlərinin də xəbəri olmadan Azərbaycana qarşı aparılan çirkin kampaniyanın iştirakçılarına çevrilmişdilər.

Almaniya KİV-də Azərbaycanda insan hüquqları və demokratiyanın vəziyyətinin davamlı şəkildə gündəmdə saxlanılmasında qeyri-hökumət təşkilatlarının, "Human Rights Watch", "Amnesty International" və

"Sərhədsiz Reportyorlar" kimi təşkilatların da "aktivliyi" öz təsirini göstərir. Bu təşkilatların hesabatları dövlət qurumlarına, xüsusilə parlamentdəki fraksiyalara, aparıcı "beyin mərkəzləri"nə və KİV-ə də təqdim edilir.

Diplomatik münasibətlərin mövcudluğu ərzindəki siyasi münasibətlərin təhlili göstərir ki, Almaniya hökuməti ölkəmizə münasibətdə Bundestaqda təmsil olunan partiyaların maraqlarından fərqli, konstruktiv və qarşılıqlı dövlət maraqlarının üstünlük təşkil etdiyi siyasət yürüdür. Azərbaycanda demokratiyanın və insan hüquqlarının vəziyyəti yüksək səviyyəli rəsmi görüşlərdə müzakirə olunsa da (bəzi hallarda tərəflər arasında müxtəlif məsələlərə dair fikir ayrılıqları yaransa belə), müzakirələr həmişə konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçmiş və digər məsələlərdə əməkdaşlığa maneçilik törətməmişdir.

İqtisadi əməkdaşlıq

Almaniyanın regionla, eləcə də Azərbaycanla bağlı strategiyasında məhz iqtisadi amillər ön plana çəkilir. Bu səbəbdən də məhz iqtisadi sahədə fəallıq daha çox nəzərə çarpır. Federal səviyyə ilə yanaşı, federal subyektlər, *land*lar tərəfindən ikitərəfli ticarət əlaqələrinin qurulması həm Berlin, həm də Bakı üçün əhəmiyyət kəsb edir. Bu kontekstdə Aşağı Saksoniya, Baden-Vürtemberq, Bavariya və Şimali Reyn Vestfaliya federal torpaqlarından ölkəmizə edilən iqtisadi missiyalı səfərlər və keçirilən biznes forumları sözügedən istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyət aparıldığını göstərir.

Almaniya şirkətləri ölkəmizdə qeyri-neft sektorunda əməkdaşlığa maraq göstərirlər. Bu istiqamətdə ardıcıl siyasət həyata keçirilir[24]. Həm alıcılıq qabiliyyəti olan bazar, həm də malik olduğu nəqliyyat infrastrukturu nöqteyi-nəzərindən Azərbaycan Almaniya üçün cəlbedici iqtisadi tərəfdaşdır. Azərbaycanın malik olduğu əlverişli coğrafi mövqe Qazaxıstan və Çinlə güclü iqtisadi əlaqələrə malik Almaniyanın Mərkəzi

24 Almaniya kansleri Angela Merkel və Azərbaycan Prezidenti İlham Əliyevin Federal kansler aparatında mətbuat üçün açıqlamaları. Mitschrift Pressekonferenz. Pressestatements von Bundeskanzlerin Angela Merkel und dem Präsidenten der Republik Aserbaidschan Ilham Alijew in Berlin. /04.02.2010/ - https://www.bundesregierung.de/ContentArchiv/DE/Archiv17/Mitschrift/Pressekonferenzen/2010/02/2010-02-05-statements-merkel-aserbaidschan.html

və Orta Asiyanın digər bazarlarına çıxış əldə etməsi baxımından da maraq kəsb edir.

İqtisadi fəaliyyətin hərtərəfli bazasının formalaşdırılması və yaranan çətinliklərin praktiki həlli üçün 2011-ci ilin may ayında Berlində Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi və AFR Federal İqtisadiyyat və Texnologiyalar Nazirliyi arasında ticarət və investisiyalar üzrə yüksəksəviyyəli İşçi Qrupunun yaradılması haqqında müqavilə imzalanmışdır. İldə bir dəfə növbəlilik prinsipi ilə Bakı və Berlində toplaşan İşçi Qrupun fəaliyyətinin praktiki olması üçün Almaniya tərəfinin təklifi əsasında nazir və ya nazir müavini səviyyəsində deyil, Baş İdarə rəisi (Almaniya) və Aparat rəhbəri (Azərbaycan) səviyyəsində rəhbərlik təmin edilmişdir. 2015-ci ilin noyabrında sözügedən İşçi Qrupun sonuncu iclası Berlində keçirilmişdir.

Diplomatiyasında iqtisadi əlaqələri ön planda saxlayan rəsmi Berlin sistemli iqtisadi fəaliyyətin təmin edilməsi üçün MDB məkanında Moskvadan sonra məhz Bakıda 2012-ci il noyabrın 12-də ikinci Alman Xarici Ticarət Palatasını təsis etmişdir[25]. Ticarət Palatasının açılışında Almaniya XİN-in o vaxtkı dövlət katibi xanım Kornelia Piperin rəhbərliyi ilə nümayəndə heyətinin iştirakı həm də siyasi ismarıcın verilməsi demək idi. Hazırda Ticarət Palatasında 130-dan çox şirkət qeydiyyatdan keçmişdir[26].

Azərbaycanın əsas aparıcı ticarət tərəfdaşları arasında yer alan Almaniya Rusiya, Türkiyə və ABŞ-dan sonra dördüncü yerdədir. Azərbaycan isə Almaniyanın Cənubi Qafqazda ən mühüm ticarət tərəfdaşıdır. Belə ki, Azərbaycanın Almaniya–Cənubi Qafqaz ölkələri ticarət dövriyyəsində çəkisi 75%-ə yaxındır.

2015-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi, Almaniya XİN-in məlumatına görə, 3.2 milyard ABŞ dolları olmuşdur[27]. Bu, ticari əlaqələrdə son 5 il ərzində təxminən 1 milyard dollar həcmində artımın olması deməkdir (2.32 milyard dollarlıq nəticənin olduğu 2011-ci illə müqayisədə). Almaniya ilk növbədə ölkəmizdən neft idxal edir. Ötənilki

25 Palatanın yaradılmasına dair notalar mübadiləsini isə federal xarici işlər naziri Qido Vestervellen 2012-ci ilin martında Bakıya etdiyi səfər zamanı həmkarı Elmar Məmmədyarovla həyata keçirmişdi.

26 Alman–Azərbaycan Xarici Ticarət Palatası. - http://www.ahk-baku.de/en/about-us/ahk-azerbaijan/

27 AFR XİN, http://www.auswaertiges-amt.de/DE/Aussenpolitik/Laender/Laenderinfos/Aserbaidschan/Bilateral_node.html

statistik göstəricidə neftin payı 1,3 milyard dollar olmuşdur. Bununla Azərbaycan Almaniyaya xam neft ixrac edən 7 mühüm dövlətdən biridir. Ölkəmizin Almaniyadan idxalında maşın, dəzgah və avadanlıqlar, dəmir və polad məmulatlar əsas yer tutur. Bunun da ümumi dəyəri 2015-ci ildə 690 milyon ABŞ dolları həcmində olmuşdur[28].

Federal Statistika İdarəsinin məlumatına əsasən[29], 2015-ci ildə ümumi ticarət dövriyyəsinin (ixrac+idxal) nəticəsinə görə Azərbaycan Almaniyanın 239 ticarət tərəfdaşı (dövlətlər və ərazilər) arasında 61-ci, Gürcüstan 96-cı, Ermənistan isə 111-ci olmuşdur. İxrac əməliyyatlarının göstəricilərinə görə sözügedən 239 ticarət tərəfdaşı arasında Azərbaycan 75-ci yerdə qərarlaşmışdır (müqayisə üçün: Gürcüstan 91-ci, Ermənistan isə 113-cü pillədə olmuşdur). İdxalda isə Azərbaycan 43-cü, Ermənistan 98-ci, Gürcüstan 106-cı olmuşdur.

2014-cü ildə Azərbaycan qazının Avropaya ixracına dair qərar qəbul edilənədək Almaniyanın enerji şirkətlərinin Azərbaycanın neft-qaz sektoruna böyük marağı müşahidə edilirdi. Bu maraq Almaniya hökuməti və siyasətçilərinin də dəstəyi ilə müşayiət olunurdu. Almaniyanın siyasi dairələri "Şahdəniz-2" yatağından hasil ediləcək təbii qazın Avropaya daşınması üçün rəqabət aparan variantlar sırasında Almaniyanın RWE şirkətinin də daxil olduğu "Nabukko" konsorsiumunu dəstəkləyirdilər. Sonradan şirkət "Nabukko" layihəsinin ilkin xərclərinin artmasını səbəb gətirərək 17% payını sataraq konsorsiumu 2013-cü ilin ilk rübündə tərk etdi[30]. Bundan sonra Almaniya ölkənin Şimali Reyn Vestfaliya vilayətində yerləşən enerji nəhəngi EON konserninin təmsil olunduğu TAP layihəsinə üstünlük verməyə başladı. EON şirkəti həm də 2013-cü il sentyabrın 19-da "Şahdəniz" konsorsiumu ilə imzaladığı müqaviləyə əsasən 2019-cu ildən başlayaraq 25 il ərzində 40 milyard m^3 həcmində Azərbaycan qazı əldə edəcəkdir[31].

Almaniya hökuməti Azərbaycana təkcə qaz ixracatçısı kimi deyil,

28 Yenə orada

29 Statistisches Bundesamt, Außenhandel Rangfolge der Handelspartner im Außenhandel der Bundesrepublik Deutschland, 03.11.2016

30 Pipeline-Großprojekt in Verzug. RWE verlässt "Nabucco" und verkauft seine Anteile. /15.04.2013/ - http://www.ingenieur.de/Branchen/Energiewirtschaft/RWE-verlaesst-Nabucco-verkauft-Anteile

31 Eon sichert sich Gaslieferungen aus Aserbaidschan, in Handelsblatt. /19.09.2013/ - http://www.handelsblatt.com/unternehmen/industrie/energiekonzern-eon-sichert-sich-gaslieferungen-aus-aserbaidschan/8818722.html

həm də tranzit ölkə kimi əhəmiyyət verir. Almaniya Transxəzər qaz kəməri layihəsinin Aİ daxilində təbliğatçılarındandır. Bu istiqamətdə xüsusi diplomatik fəallıq Aİ-nin Almaniyadan olan enerji məsələlərinə məsul komissarı Qünter Öttingerin dövründə, əsasən isə 2011-2013-cü illərdə Brüssel tərəfindən həyata keçirilmişdir. Müəyyən bir mərhələdə Almaniya hökuməti bu layihə üçün əsas rəqib hesab olunan Rusiyanın ikitərəfli müstəvidə neytrallaşdırılması istiqamətində əməli addım atmaqdan çəkinmişdir. Q.Öttingerdən sonra isə bu sahədə Brüssel tərəfindən elə də nəzərəçarpan diplomatik fəallıq göstərilməmişdir.

İnkişafa yardım naminə əməkdaşlıq. Almaniyada İqtisadiyyat və Enerji üzrə Federal Nazirlikdən (BMWi) başqa İqtisadi Əməkdaşlıq və İnkişaf üzrə Federal Nazirlik (BMZ) fəaliyyət göstərir. Bu nazirliyin də əsas məqsədi müxtəlif proqram və layihələrlə inkişaf etməkdə olan ölkələrə dəstək verməkdir. Almaniya Azərbaycanın müstəqillik qazanmasından bəri onun demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatının müasirləşməsi proseslərini maliyyə və texniki yardım vasitəsilə dəstəkləmişdir. 2001-ci ildə BMZ tərəfindən irəli sürülən "Qafqaz təşəbbüsü" layihəsi[32] "üç Cənubi Qafqaz dövləti arasında əməkdaşlığın təşviqini və regionda sosial, iqtisadi və siyasi əməkdaşlığın dəstəklənməsini" nəzərdə tutduğundan Azərbaycan hökuməti, haqlı olaraq, işğalçı Ermənistanla əməkdaşlığın mümkün olmadığını əsas gətirərək federal hökumətin bu təşəbbüsünü dəstəkləyə bilməmişdir.

Hazırda Almaniyanın inkişafa yardım siyasətinin Azərbaycandakı prioritetləri hüquqi dövlət quruculuğu, özəl sektorun möhkəmlənməsi, bazar iqtisadiyyatının hüquqi bazasının təkmilləşdirilməsi, məhkəmələrdə və dövlət qulluğunda islahatlar, qeyri-neft sektorunun inkişaf etdirilməsi, ətraf mühitin qorunması və təbii resurslardan səmərəli istifadə olunması istiqamətində həyata keçirilən tədbirlərə texniki dəstək göstərməkdən ibarətdir. Bu əməkdaşlıq məsləhətləşmələr, kadr hazırlığı, kreditlərin verilməsi və digər formalarda həyata keçirilir. Texniki əməkdaşlığın ən yeni sferalarından biri də XİN-in strukturunda Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım İdarəsinin (Agentlik) forma-

32 Bundesministerium für wirtschaftliche Zusammenarbeit unf Entwicklung. Kaukasus-Initiative. - http://www.bmz.de/de/laender_regionen/Mittel-Ost-und-Suedosteuropa/kaukasus/index.html

laşdırılması və onun əməkdaşlarının müvafiq təlim alması istiqamətində Almaniyanın Beynəlxalq İnkişaf Cəmiyyətinin (GIZ) Bakı ofisi ilə əməkdaşlıqdan ibarətdir. Almaniya XİN-in məlumatına əsasən, 2016-cı ilədək kredit formasında təqdim edilən texniki yardımın dəyəri 600 milyon avrodan çox olmuşdur[33].

Humanitar və mədəniyyət sahələrində əməkdaşlıq

Almaniyada Azərbaycan haqqında çap edilən nəşrlər (KİV materialları və eləcə də sayı çox olmayan kitablar), TV kanallarında yayımlanan verilişlər, eləcə də keçirilən tədbirlər, adətən, "Dağlıq Qarabağ münaqişəsi", "neft-qaz amili" və "insan hüquqları" ilə bağlı olur. Ölkəmizi deyilən və adətən, təhrif edilmiş formada verilən mövzulardan kənar təqdim etmək Azərbaycan diplomatiyasının qarşısında duran aktual məsələlərdəndir. Azərbaycanın zəngin mədəniyyəti və tarixi, ədəbiyyatı, dini tolerantlığı, real siyasi və iqtisadi inkişafı – bir sözlə, Azərbaycan cəmiyyəti haqqında obyektiv məlumatları Almaniya ictimaiyyətinə necə təqdim etmək olar? Azərbaycan hökuməti ölkəmizin Almaniyadakı səfirliyinin təklifi əsasında bu məsələdə "mədəniyyət vasitələri ilə təbliğat konsepsiyası"nı işə salmışdır. Belə ki, 2008-ci ildə Rusiyadan sonra məhz Almaniyada "Azərbaycan ili" keçirilmişdir. 9 federal torpaq və 12 şəhərdə 100-dən çox tədbirin keçirildiyi "Azərbaycan ili"nin hazırlıqları iki ilə yaxın davam etmişdir. Almaniya mətbuatı bunu Avropada və Almaniyada "Azərbaycanın mədəniyyət hücumu"[34] kimi dəyərləndirmişdir. Azərbaycan tərəfinin təşəbbüsü ilə həyata keçirilən bu nəhəng layihəyə Almaniya hökuməti 2009-cu ildə Cənubi Qafqaz ölkələrində mədəniyyət həftələri keçirməklə cavab verdi. Almaniyanın regiona "vahid pəncərə"dən yanaşması burada da özünü göstərdi: Gürcüstan və Ermənistan da Azərbaycanın təşəbbüsünə cavab layihəsinə daxil edildi.

33 http://www.auswaertiges-amt.de/DE/Aussenpolitik/Laender/Laenderinfos/Aserbaidschan/Bilateral_node.html

34 Kulturjahr Aserbaidschan in Deutschland. Abschlussfestival in Stuttgart, in:SWR International. /28.11.2008/ - http://www.swr.de/international/kulturjahr-aserbaidschan-in-deutschland-abschlussfestival-in-stuttgart/-/id=233334/did=4237688/nid=233334/1j7h9ff/index.html

Ölkəmizin mədəniyyət diplomatiyası vasitəsilə təqdimatında növbəti nəhəng və silsilə tədbirlərdən ibarət layihə 2013-2015-ci illərdə Heydər Əliyev Fondu və Azərbaycan Respublikasının Almaniyadakı səfirliyinin birgə təşəbbüsü ilə Almaniyanın federal torpaqlarında Azərbaycan mədəniyyəti axşamlarının keçirilməsi olmuşdur. Açılışı Almaniyanın "qeyri-rəsmi paytaxtı" adlandırılan Bavariya azad federal torpağının inzibati mərkəzi Münxendə 2013-cü ilin may ayında baş tutan mədəniyyət tədbiri[35] sonradan fərqli proqramlar şəklində Köln, Ştutqart, Hamburq, Frankfurt Mayn, Drezden, Düsseldorf və Berlində keçirilmiş və ölkəmizin tanıdılması baxımından çox uğurlu olmuşdur.

Dini dözümlülük və tolerantlığın "Azərbaycan modeli" də Almaniyada maraqla qarşılanır. 2015-ci il mayın 27-də Azərbaycanın Almaniyadakı səfirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Alman–Azərbaycan Forumu və Berlin Humboldt Universitetinin "Azərbaycan tarixi" kafedrasının birgə təşkilatçılığı ilə Berlin–Brandenburq Elmlər Akademiyasında "Azərbaycanda multikulturalizm və dinlərarası dialoq: tarixi təcrübə və gələcəyin cəmiyyət modeli" adlı simpozium keçirilmişdir. Tədbirdə federal hökumətin təmsilçisi qismində çıxış edən Almaniya XİN-in Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Kord Mayer-Klodt Azərbaycanda dini tolerantlığın yüksək səviyyəsindən razılığını ifadə edərək ölkəmizdə "müxtəlif dinlərin nümayəndələrinin sülh şəraitində yanaşı yaşamasını multikulturalizmin uğurlu modeli" adlandırmışdır[36]. Simpozium çərçivəsində Almaniyanın "Bayerischer Rundfunk" ictimai televiziyasının müxbiri Andrea Rotun müəllifi olduğu "Azərbaycan – dini dözümlülük üçün nümunə" adlı sənədli filmin təqdimatı da keçirilmişdir.

Azərbaycan tərəfi elm sahəsində əməkdaşlığın institutlaşdırılması istiqamətində addım ataraq 2010-cu ildə Berlin Humboldt Universitetində "Azərbaycan tarixi" kafedrasının fəaliyyətə başlaması

35 Hochkarätiger Kulturabend in der Münchner Residenz mit Musik aus Aserbaidschan. /19.05.2013/ -http://www.exklusiv-muenchen.de/news/kulturabend-in-muenchner-residenz-mit-musik-aus-aserbaidschan-19857

36 Aserbaidschan: "Erfolgsmodell des multikulturellen Zusammenlebens" /08.06.2015/- Presseerlärung der Botschaft der Repiblik Aserbaidschan in der Bundesrepublik Deutschland

ilə əlaqədar universitet rəhbərliyi ilə razılıq əldə etmişdir. Elm və mədəniyyət sahəsində əlaqələr həm də mədəniyyət siyasətinin federal torpaqların səlahiyyətində olduğu Almaniya vilayətləri, icmalar və müəssisələr səviyyəsində yüksək sürətlə inkişaf edir.

Azərbaycanın müstəqillik əldə etməsindən sonra Azərbaycanla Almaniya arasında humanitar sahədə ilkin münasibətlər Azərbaycanda alman dilinin tədrisinin təşviq olunması və Azərbaycan gənclərinin Almaniyada təhsil alması üçün Alman Akademik Mübadilə Xidməti (DAAD) tərəfindən təqaüdlərin verilməsi ilə yaranmışdır. Əldə edilmiş razılığa əsasən DAAD "Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2008-2015-ci illərdə azərbaycanlı tələbələrin Almaniyanın aparıcı ali təhsil müəssisələrində təhsil alması üçün təşkilati məsələlərin həlli ilə də məşğul olmuşdur.

Hələ Sovet Azərbaycanı dövründə əsası qoyulmuş "Qardaşlaşmış və ya tərəfdaş şəhərlər" layihəsi (Bakı və Maynts, Sumqayıt və Ludviqshafen arasında tərəfdaşlıq) humanitar-mədəniyyət sahəsində həyata keçirilmiş uğurlu layihələrdən hesab olunur.

Alman cəmiyyətinin ağır siyasi, iqtisadi və humanitar itkilər yaşamış iki dünya müharibəsi və dinc yolla yenidən birləşməyə nail olmaq təcrübəsi kollektiv şüurda belə bir iz salmışdır ki, münaqişə və böhranlarla bağlı həqiqəti dolayı vasitələrlə tədqim etmək diplomatiyası, bir qayda olaraq, uğur gətirir.

İctimai diplomatiya sahəsində uğurlu fəaliyyəti ilə ikitərəfli münasibətlərin təşviqinə töhfə verən qurum Almaniya–Azərbaycan Forumudur (DAF)[37]. 1996-cı ildə təsis edilən və 2006-cı ildə yenidən qurulan DAF-ın İdarə Heyəti və Qəyyumlar Şurasında Almaniyanın 6 sabiq dövlət katibi və siyasət, iqtisadiyyat, mədəniyyət, elm, mətbuat və diplomatiya sahələrindən digər tanınmış şəxslərin təmsil olunması bu təşkilatın ölkənin ictimai-siyasi həyatına nə qədər dərindən inteqrasiya olunduğunu göstərir. DAF-ın Qəyyumlar Şurasının fəxri sədri 2016-cı ildə vəfatınadək əfsanəvi alman diplomatı, keçmiş Vitse-kansler və xarici işlər naziri Hans-Ditrix Qenşer olmuşdur.

37 Deutsch Aserbaidschanisches Forum. - www.da-forum.net

Nəticə

Azərbaycan Aİ-yə üzv bəzi dövlətlərlə münasibətlər təcrübəsindən çıxış edərək Almaniya ilə də əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinə maraq göstərir. Almaniya isə münasibətlərdə ümumi strateji xəttin Aİ daxilində müəyyənləşdirilməsinə daha çox meyil edir. Diplomatik münasibətlərin mövcudluğu ərzindəki inkişafın təhlili göstərir ki, Almaniya hökuməti ölkəmizə münasibətdə Bundestaqda təmsil olunan partiyaların maraqlarından fərqli, konstruktiv və qarşılıqlı dövlət maraqlarının üstünlük təşkil etdiyi siyasət yürüdür. Azərbaycanda demokratiyanın və insan hüquqlarının vəziyyəti yüksəksəviyyəli görüşlərdə müzakirə olunsa da (bəzi hallarda müxtəlif məsələlərə dair tərəflər arasında fikir ayrılıqları yaransa belə), müzakirələr həmişə konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçmiş və digər məsələlərdə əməkdaşlığa maneçilik törətməmişdir.

Almaniyanın regionla və eləcə də Azərbaycanla bağlı strategiyasında məhz iqtisadi amillər ön plana çəkilir. Bu səbəbdən də məhz iqtisadi sahədə daha çox fəallıq nəzərə çarpır. Federal səviyyə ilə yanaşı, federal subyektlər, landlar səviyyəsində ikitərəfli ticarət əlaqələrinin qurulması həm Berlin, həm də Bakı üçün əhəmiyyət kəsb edir. Cənubi Qafqazda ən güclü iqtisadi potensiala malik Azərbaycan, alman rəsmilərinin dəfələrlə vurğuladığı kimi, Almaniyanın regionda əsas iqtisadi tərəfdaşıdır. Belə ki, Azərbaycanın Almaniya–Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsində çəkisi 75%-ə yaxındır. Azərbaycanın əsas aparıcı ticarət tərəfdaşları arasında yer alan Almaniya Rusiya, Türkiyə və ABŞ-dan sonra 4-cü yerdədir. Federal Statistika İdarəsinin məlumatına görə, 2015-ci ildə ümumi ticarət dövriyyəsinin nəticəsinə görə Azərbaycan Almaniyanın 239 ticarət tərəfdaşı (dövlətlər və ərazilər) arasında 61-ci olmuşdur. Azərbaycan Almaniyaya neft ixrac edən 7 əsas dövlətdən biridir. Azərbaycan öz iqtisadiyyatının şaxələndirilməsi və modernləşdirilməsi prosesində, əsasən də qeyri-neft sektorunun inkişafına sərmayə yatırılması və müasir texnologiya cəlb olunmasında Almaniya ilə davamlı iqtisadi əlaqələrin inkişafında maraqlıdır.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunması prosesində Almaniyanın fəal iştirak etməsinə dair təklif səsləndirilsə də, Almaniya hökuməti ATƏT-ə sədrlik etdiyi 2016-cı ildə də bu təşəbbüsü dəstəkləməyə meyil etməmişdir. Burada digər bir obyektiv məqamın olmasını da nəzərə almaq lazımdır. ATƏT-in Minsk Qurpunun üç həmsədr dövləti tərəfindən həlletmə prosesi müəyyən mənada "inhisarlaşdırıldığından" digər yeni bir aktorun fəal vasitəçilik missiyasına daxil olması elə də asan görünmür.

Almaniya Cənubi Qafqaza vahid region kimi yanaşır və region dövlətlərinə münasibətdə balanslaşdırılmış siyasət yürütməyə çalışır. Bu cür "tarazlı yanaşma" xüsusilə ölkəmizin maraqlarının tam nəzərə alınmamasına gətirib çıxarır. Səbəb qonşu işğalçı Ermənistanla işğala məruz qalan Azərbaycan ilə eyni prizmadan münasibətlər qurulması və inkişafına səy edilməsidir.

Mədəniyyət və humanitar sahələrdə isə Azərbaycan "mədəniyyət diplomatiyası" vasitəsilə təbliğatı ön planda saxlayır və ölkəmizin ümumi təqdimatı məsələlərində Azərbaycanın Almaniyadakı səfirliyi Heydər Əliyev Fondu ilə birgə bu sahədə aktiv fəaliyyət həyata keçirir.

Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətləri

*Nurlan Əliyev**

Giriş

Azərbaycan müstəqillik qazandıqdan sonra dünyanın bir çox ölkələri kimi, Mərkəzi və Şərqi Avropada yerləşən dövlətlərlə də ikitərəfli əlaqələr qurmuş və hazırda müxtəlif sahələri əhatə edən bu münasibətlər inkişaf etməkdədir. Nəzərə almaq lazımdır ki, bu dövlətlərlə müstəqillik qazanmamışdan əvvəl, hələ Azərbaycan SSRİ-nin tərkibində olduğu zaman ikitərəfli iqtisadi, mədəni əlaqələr mövcud olmuşdur.

Şərqi Avropada yerləşən dövlətlərin İkinci Dünya müharibəsindən sonra Moskvanın təsir dairəsinə keçməsi bu ölkələrlə SSRİ-nin subyektləri olan sovet respublikaları arasında əlaqələrin formalaşmasını şərtləndirmişdir. Bu baxımdan vaxtilə SSRİ respublikaları olmuş, hazırda isə Avropa İttifaqı və NATO üzvləri olan dövlətlərlə əlaqələr xüsusi maraq doğurur.

Azərbaycanla Mərkəzi və Şərqi Avropa dövlətlərinin yenidən müstəqillik qazanmasından sonra ikitərəfli əlaqələrin inkişafını qarşılıqlı beynəlxalq, təhlükəsizlik və iqtisadi maraqlar şərtləndirmişdir. Belə ki, müstəqilliyin ilk illərində Azərbaycan Respublikası üçün Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyinin beynəlxalq aləmdə tanınması və müdafiəsi, SSRİ dövründə mövcud olan iqtisadi əlaqələrin bərpası və inkişafı üçün Şərqi Avropa dövlətləri ilə diplomatik münasibətlərin yaradılması və möhkəmləndirilməsi xüsusi əhəmiyyət daşıyırdı. Sonrakı illərdə Şərqi Avropa dövlətlərinin Avropa Şurası, Aİ və NATO hərbi alyansına inteqrasiya olunması Azərbaycanın bu beynəlxalq təşkilatlarla münasibətlərinin inkişafında xüsusi rol oynamağa başlamışdır. Azərbaycanın zəngin karbohidrogen resurslarına

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru*

malik olması, Avropa və Asiya arasında mövcud və potensial nəqliyyat dəhlizləri üzərində yerləşməsi Şərqi Avropa dövlətlərinin Azərbaycan Respublikası ilə əlaqələrin yaradılmasında və inkişaf etdirilməsində başlıca şərtlər kimi çıxış etmişdir. Son illər Çin tərəfindən irəli sürülən 16+1 əməkdaşlıq formulu Mərkəzi, Şərqi Avropa və Çin arasında iqtisadi əlaqələrin inkişafında Azərbaycanın da aid olduğu nəqliyyat dəhlizləri layihələrinin reallaşdırıldığı digər ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi mühüm rol oynayır. Qeyd edək ki, 16+1 əməkdaşlıq qrupuna Çinlə yanaşı Polşa, Macarıstan, Çexiya Respublikası, Rumıniya, Bolqarıstan, Estoniya, Latviya, Litva və digər Avropa dövlətləri daxildir. 16+1 iqtisadi əməkdaşlıq formulunun əsas məqsədləri Çinin regiona birbaşa və infrastruktur layihələrinə sərmayələrin yatırılması və ticarət əlaqələrinin genişləndirilməsidir. Bu layihələrin həyata keçirilməsində Azərbaycanın da iştirak etdiyi "Yeni İpək Yolu" və "Bir kəmər, bir yol" nəqliyyat layihələri mühüm əhəmiyyət daşıyır.

Azərbaycan–Polşa münasibətləri

Polşa və Azərbaycan arasında mədəni, iqtisadi əlaqələr tarixən mövcud olmuşdur. Tarixi sənədlərdən məlumdur ki, 1472-ci ildə Azərbaycanın Ağqoyunlu və Polşanın Reç Rospolita dövlətləri arasında diplomatik əlaqələr yaradılmışdır. Məhz bu tarixdən hesabladıqda iki ölkə arasında əlaqələrin 544 ildən çox dövrü əhatə etdiyini söyləmək mümkündür. Bu tarixi hadisə ilə əlaqədar 23 apreldə Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Polşanın vaxtilə paytaxtı olmuş qədim Qniezno şəhərində Azərbaycan–Polşa "Dostluq" abidəsinin açılış mərasimi keçirilmişdir. "Dostluq" abidəsi Azərbaycanla Polşa arasında diplomatik əlaqələrin qurulmasının 540, bərpasının isə 20 illiyinə həsr olunmuşdur. Üz-üzə dayanan palıd yarpağı formalı bu abidə iki ölkə münasibətlərinin qarşılıqlı olduğunu, palıd kimi uzunömürlülüyün, qədim tarix üzərində təşəkkül tapdığının rəmzidir. Abidə üzərində hər iki ölkə xəritəsinin həkk edilməsi suverenliyə, ərazi bütövlüyünə və qarşılıqlı hörmətə münasibətin ifadəsi kimi xarakterizə olunur.

XIX əsrdən başlayaraq Azərbaycan və Polşanın mütəfəkkir ziyalıları

arasında sıx əlaqələr mövcud olmuşdur. Bu münasibətlər iki xalq arasında əlaqələrin genişlənilməsində mühüm rol oynamış, gələcəkdə iki dövlət arasında yaranacaq rəsmi əlaqələrin inkişaf etməsi üçün müsbət tarixi təcrübə şəklində çıxış etmişdir. Həmin dövrdə polyak mütəfəkkirlər tərəfindən Azərbaycanın Avropada tanınması istiqamətində bir sıra addımlar atılmışdır. Azərbaycan dilini öyrənən polyak ziyalısı Aleksandar Xodzko tərəfindən 1889-cu ildə Nəsiminin şeirləri, "Koroğlu" dastanının bir hissəsi polyak dilinə tərcümə edilmişdir. Qeyd etmək lazımdır ki, "Koroğlu" Qərbi Avropaya təqdim edilən ilk Azərbaycan folklor nümunəsi olub. Sonralar digər polyak tərcüməçilər Məhəmməd Füzulinin əsərlərini öz dillərinə tərcümə edərək Qərbi Avropada yaymışlar. XIX əsrin sonlarında Azərbaycan yazıçı və mütəfəkkirləri – Abbasqulu Ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı bir müddət Polşada yaşayıb-yaradıblar. Onların polşalı həmkarları ilə yaxın əməkdaşlığı hər iki ədəbiyyatın nümayəndələri arasında əlaqələrin yaranmasına təkan vermişdir. Maraqlıdır ki, İsmayıl bəy Qutqaşınlının Azərbaycan ədəbiyyatının ilk nəsr nümunəsi sayılan "Rəşid bəy və Səadət xanım" povesti də birinci dəfə 1835-ci ildə Varşavada işıq üzü görmüşdür[1]. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadə də uzun illər Polşa ədib və musiqiçiləri ilə əməkdaşlıq etmiş, hətta polşalı musiqiçilər haqqında şeir də yazmışdır. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan muğam ustadlarının səsləri ilk dəfə məhz Varşavada qrammofon vallarına yazılmışdır[2].

XIX əsrdə Azərbaycana səfər etmiş polyak alimi B.Andjeykoviç tərəfindən Polşada Azərbaycan haqqında kitab nəşr edilmişdir. XIX əsrin əvvəllərində Polşanın Çar Rusiyasının tərkibinə daxil edilməsindən sonra buna qarşı olan, mərkəz tərəfindən "etibarsız" kimi qəbul edilən polyak ziyalıları imperiyanın müxtəlif ərazilərinə, o cümlədən Azərbaycana sürgün olunmuşlar. Bu səbəbdən və neft sənayesinin inkişafı ilə əlaqədar XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakı şəhərində polyak icması mövcud olmuş və ölkənin siyasi, iqtisadi, mədəni və sosial həyatında yaxından iştirak etmişdir.

1 POLSKO – AZERBEJDŻAŃSKA OPOWIEŚĆ. - http://www.swiatelit.com.pl/index.php/component/content/article?id=129:polsko

2 Xəlilzadə F. Azərbaycan–Polşa əlaqələri genişlənir. /01.05.2013/ - http://www.azerbaijan-news.az/index.php?mod=3&id=23142

Həmin dövrdə Bakı şəhərində polyak memarlıq məktəbinin nümayəndələri Yuzef Qoslavski, Kazimej Skureviç, Yuzef Ploşko və Euqeniuş Skibinski[3] tərəfindən layihələndirilən, hazırda Azərbaycanın XIX əsrin sonu, XX əsrin əvvəlləri memarlıq abidələri sırasına daxil olan bir sıra binalar inşa edilmişdir. Bu memarlıq əsərləri arasında Milli Elmlər Akademiyası Rəyasət Heyətinin, Bakı Şəhər İcra Hakimiyyətinin, Milli Azərbaycan Tarixi Muzeyinin, Dövlət Kukla Teatrının binaları, Murtuza Muxtarovun sarayı və Musa Nağıyevin mülkü də var. Həmin dövrdə polyak memarları tərəfindən Bakıdan başqa Azərbaycanın digər şəhərlərində – Gəncə, Şəki, Şuşa və Şamaxıda da gözəl malikanələr, yaraşıqlı binalar inşa edilmişdir. Qeyd edək ki, Azərbaycanda polyak icması indi də fəaliyyət göstərir.

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə iki dövlətin hakimiyyət nümayəndələri arasında görüşlər keçirilmiş, dövlətlərarası əlaqələr qurulmuşdur. 1919-cu ildə Paris sülh konfransında iki dövləti təmsil edən nümayəndə heyətlərinin görüşü keçirilmişdir. Bu görüşdə Azərbaycanı xarici işlər naziri və nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov, Polşanı isə Nazirlər Şurasının sədri İqnasi Yan Paderevski və bu ölkənin nümayəndə heyətinin rəhbəri Roman Dımovski təmsil etmişlər. Polşa Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən olmuş[4] və həmin dövrdə Polşanın Bakıda konsulluğu fəaliyyət göstərmişdir. 1918-ci ildə AXC-nin də Polşada səfirliyi təsis edilmişdir.

AXC-nin süqutundan sonra Azərbaycanın birinci respublikasının qurucuları və hökumət rəhbərləri ilə Polşa siyasi dairələri arasında əlaqələr mövcud olmuşdur. AXC-nin qurucularından olan Məhəmməd Əmin Rəsulzadə, Mustafa bəy Vəkilov mühacirətdə olarkən bir müddət Polşada yaşamış, Polşa siyasi dairələri ilə sıx əlaqələr qurmuşlar. İkinci Dünya müharibəsinə qədər Avropada mövcud olan Azərbaycan mühacirət hərəkatı və rəsmi Varşava arasında əlaqələr olmuşdur.

3 Varşavada "Polyak memarlar Azərbaycanda" sərgisi keçirilir. /01.04.2016/. - http://az.trend.az/azerbaijan/culture/2513468.html

4 Əhməd N. Relacje polsko-azerbejdżańskie. Rys historyczny. /29.05.2015/ - http://www.polskatimes.pl/artykul/3724162,relacje-polskoazerbejdzanskie-rys-historyczny,id,t.html

Görkəmli Azərbaycan hərbçisi Vəli bəy Yadigar uzun müddət Polşada yaşayaraq polkovnik rütbəsinədək yüksəlmiş, Faşist Almaniyası Polşanı zəbt edərkən işğalçılara qarşı döyüşlərdə iştirak etmişdir. 1944-cü ildə azərbaycanlı hərbçinin daxil olduğu alayın hərbi bayrağının mühafizəsi məhz ona həvalə edilmişdi. Cənubi Amerikada dəfn olunmasına baxmayaraq, Polşa hökuməti onun cənazəsini gətirərək Varşavada dəfn etmişdir.

Sonrakı dövrdə hər iki ölkənin SSRİ nəzarətində olması Azərbaycan və Polşa arasında müxtəlif sahələr üzrə əlaqələrin mövcud olmasına şərait yaratmışdır. Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra da iki ölkə arasında münasibətlər yeni formada təşəkkül tapmış və inkişaf etmişdir.

Azərbaycan və Polşa arasında əlaqələrin yeni dövrü XX əsrin sonlarından başlayır. Azərbaycanın dövlət müstəqilliyi Polşa tərəfindən 1991-ci il dekabrın 27-də tanınmışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il fevralın 21-də qurulmuşdur. Polşanın Azərbaycandakı səfirliyi 2001-ci il avqustun 23-də, Azərbaycanın Polşadakı səfirliyi isə 2004-cü il avqustun 30-da açılmışdır. Avropa İttifaqı və NATO ilə yüksək münasibətlərə malik olan, əlverişli strateji coğrafi mövqedə yerləşən və Şərqi Avropanın iqtisadi potensialına görə əsas dövlətlərindən biri sayılan Polşa ilə münasibətlərin inkişafı yeni müstəqillik qazanmış Azərbaycan üçün əhəmiyyətli idi. Digər tərəfdən, Azərbaycanın mühüm beynəlxalq nəqliyyat dəhlizləri qovşağında yerləşməsi, neft və qaz ehtiyatlarına malik olması Polşanı bu dövlətlə münasibətləri inkişaf etdirməkdə maraqlı edirdi.

Diplomatik əlaqələrin yaradılmasından sonrakı dövrdə yüksəksəviyyəli hökumət nümayəndələrinin qarşılıqlı səfərləri baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında əsas kimi çıxış edən hüquqi sənədlər imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 25-28 avqust 1997-ci il tarixlərində Polşada rəsmi səfərdə olmuşdur. Səfər zamanı iki ölkə arasında münasibətlərin gələcək inkişafı üçün hüquqi əsaslar yaratmış ikitərəfli sənədlər imzalanmışdır. Prezident Heydər Əliyevin Polşaya rəsmi səfəri zamanı Polşa–Azərbaycan Ticarət-Sənaye Palatası təsis edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də

müxtəlif vaxtlarda (27-28 aprel 2004-cü ildə Avropa İqtisadi Sammitində iştirak etmək məqsədilə, 30-31 mart 2005-ci ildə rəsmi səfər, 15-17 may 2005-ci ildə Varşavada Avropa Şurasının III Sammitində, 11-12 may 2007-ci ildə Krakov Enerji Sammitində iştirak etmək məqsədilə, 26-27 fevral 2008-ci ildə rəsmi səfər) Polşaya səfərləri baş tutmuşdur. Prezident İlham Əliyevin 26-27 fevral 2008-ci il tarixlərində Polşaya rəsmi səfəri çərçivəsində iki ölkə arasında əlaqələrin inkişafında mühüm rol oynayacaq sənədlər və siyasi bəyannamə imzalanmışdır. Prezidentin Polşaya rəsmi səfərinə dair dövlət başçılarının birgə mətbuat konfransında İlham Əliyev Azərbaycan–Polşa münasibətlərini strateji tərəfdaşlıq münasibətləri kimi qiymətləndirmişdir. Prezident İlham Əliyev iki dövlət arasında imzalanan siyasi bəyannamə ilə bağlı bildirmişdir ki, sənəddə ikitərəfli münasibətlərin bütün aspektləri öz əksini tapıb və bəyannamə gələcək əməkdaşlıq üçün çox gözəl imkanlar yaradır: "Xüsusilə bəyannamədə və sizin bugünkü çıxışlarınızda səslənən və Azərbaycanın ərazi bütövlüyünə aid olan məsələlər bizdə xüsusi məmnunluq hissi oyadır. Polşa bütün dövrlərdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun şəkildə, ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasının tərəfdarı olmuşdur. Siz bu mövqeyi bu gün də təkrarladınız. Bu, münaqişənin həlli üçün çox əhəmiyyətlidir"[5]. Polşa Prezidenti Lex Kaçinski Azərbaycanın Polşanın strateji müttəfiqi olduğunu və Polşanın öz xarici siyasətində Azərbaycanın Avratlantik strukturlarla münasibətlərinin inkişaf etdirilməsində yardım göstərməyi vacib saydığını bəyan etmişdir. Prezident Kaçinski Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirmişdir: "Beynəlxalq hüquqa əsasən Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir və biz bu mövqeyi dəstəkləyirik"[6].

Polşa prezidentləri olmuş Aleksandr Kvasnevski (27-29 oktyabr 1999-cu ildə rəsmi səfər), Lex Kaçinski (30-31 mart 2007-ci ildə rəsmi, 18-19 iyun 2007-ci ildə GUAM sammitində iştirak məqsədilə,

5 Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinə dair birgə mətbuat konfransında dövlət başçılarının bəyanatları, Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı. /26.02.2008/ - http://archive.president.az/articles.php?item_id=20080227100605816&sec_id=70

6 Prezident İlham Əliyevin Polşaya rəsmi səfərinə dair birgə mətbuat konfransında dövlət başçılarının bəyanatları, Polşa Prezidenti Lex Kaçinskinin bəyanatı. /26.02.2008/ - http://archive.president.az/articles.php?item_id=20080227100605816&sec_id=70

12 avqust 2008-ci ildə Gürcüstana işgüzar səfər edərkən Gəncəyə, 14 noyabr 2008-ci ildə IV Bakı Enerji Sammitində iştirak etmək məqsədilə və 2-3 iyul 2009-cu ildə rəsmi səfər) və Bronislav Komorovski (24-26 iyul 2011-ci ildə rəsmi səfər) Azərbaycana səfərlər etmişlər[7]. Bu səfərlər zamanı imzalanan hüquqi sənədlər iki ölkə arasında müxtəlif sahələri əhatə edən əlaqələrin genişlənməsi üçün mühüm əhəmiyyət daşımışdır.

Diplomatik münasibətlər qurulandan hər iki ölkənin parlament rəhbərlərinin, baş nazirlərinin, müxtəlif nazir və digər rəsmilərinin qarşılıqlı səfərləri baş tutmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan–Polşa parlamentlərarası əlaqələr üzrə İşçi Qrupu, Polşa parlamentində isə Polşa–Azərbaycan parlamentlərarası əlaqələr üzrə İşçi Qrupu yaradılmışdır. 2009-cu ildə Polşa–Azərbaycan parlamentlərarası dostluq qrupu yaradılmışdır.

Azərbaycan və Polşa arasında iqtisadi münasibətlər formalaşmışdır. İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsini kənd təsərrüfatı, yeyinti, yüngül və kimya sənayesi məhsulları təşkil edir. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illər üzrə ticarət əlaqələrinin dövriyyəsi əks olunur.

Azərbaycan və Polşa arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[8]

İl	İdxal	İxrac
2012	45255,8	3483,0
2013	46475,8	10221,7
2014	62348,9	16329,8
2015	90732.7	6508.96

Azərbaycan və Polşa arasında tarixən mövcud olan çoxtərəfli əlaqələrin müasir dövrdə inkişaf etməsi hər iki dövlətin maraqlarına uyğundur. Polşa Azərbaycan və Aİ arasında əlaqələrin inkişaf etməsində

7 Azərbaycan—Polşa münasibətləri, ikitərəfli əlaqələr, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /25.02.2013/ - http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Pol%C5%9Fa.pdf

8 Azərbaycanın xarici ticarət əlaqələri, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

mühüm dövlət kimi çıxış edə bilər. Aİ üzvlüyünə qəbul edildikdən sonra Polşa Aİ və bir sıra keçmiş sovet respublikaları arasında münasibətlərin inkişafı ilə bağlı təşəbbüslərin iştirakçısı olmuşdur. Sovet iqtisadi idarəetmə sistemindən bazar iqtisadiyyatına uğurlu keçid etmiş Polşa təcrübəsini öyrənmək və ondan yararlanmaq son illər iqtisadiyyatının diversifikasiyalaşdırılmasını həyata keçirən Azərbaycan üçün əhəmiyyətli ola bilər[9]. Gəmiqayırma sənayesi üzrə böyük təcrübəyə malik və Avropada bu sahə üzrə ixtisaslaşmış ən iri sənaye komplekslərindən birinə sahib olan Polşa Azərbaycanda bu sahənin inkişafına öz töhfəsini verə bilər. Digər tərəfdən, Azərbaycanın Avropa ilə Asiya arasında nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində mühüm iştirakçı kimi çıxış etməsi Polşa üçün bu ölkə ilə əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini artırır. Azərbaycan Polşa tərəfindən dinamik inkişaf etməkdə olan perspektivli istehlak bazarı kimi nəzərdən keçirilir[10]. Bütün bunları nəzərə alaraq iki dövlət arasında əlaqələrin gələcəkdə inkişafı üçün ümumi maraq və potensial imkanların olduğunu görürük. Azərbaycan və Polşanın öz regionlarında iqtisadi sahədə lider kimi çıxış etmələri və münasibətlərinin inkişafı Qafqaz və Mərkəzi Avropa ölkələri arasında əlaqələrin möhkəmlənməsinə güclü təsir edə bilər.

Azərbaycan–Macarıstan münasibətləri

Azərbaycan və macar xalqları arasındakı əlaqələrin tarixi uzaq keçmişə söykənir. Qədim dövrlərdən bu iki xalqı bir-birinə bağlayan əsas amillərdən biri mədəniyyət və dil sahələrində oxşarlıqlardır. Hər iki xalq eyni tarixi kökə, qədim türk irsinə malikdir. Orta əsrlərdə isə bu iki xalqın yaratdığı dövlətlər arasında əlaqələr təşəkkül tapmışdır. XV-XVII əsrlərdə Ağqoyunlu və Səfəvi dövlətləri ilə macar krallıqları arasında diplomatik əlaqələr və ticarət münasibətləri mövcud olmuşdur. Müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatının görkəmli simalarının əsərləri macar dilinə, macar ədiblərinin əsərləri Azərbaycan dilinə tərcümə edilmişdir.

9 Piechociński: Azerbejdżan to ważny partner Polski w regionie Kaukazu. /3 czerwca 2015/ - http://biznesalert.pl/piechocinski-azerbejdzan-to-wazny-partner-polski-w-regionie-kaukazu/

10 Relacje Polska–Azerbejdżan. Co po wizycie przywiezie wicepremier? /02.06.2015/ - http://news.money.pl/artykul/relacje-polska-azerbejdzan-co-po-wizycie,98,0,1817954.html

SSRİ dönəmində hər iki ölkənin eyni mərkəzin nəzarətində olması onlar arasında siyasi, iqtisadi və mədəni əlaqələrin formalaşmasına səbəb olmuşdur. Belə ki, uzun sürən sovet dövrü sosialist dünyasının təmsilçiləri arasında çoxsaylı səfərlər və siyasi, iqtisadi və mədəni əlaqələr ilə yadda qalmışdır. Azərbaycan SSR və Macarıstan Xalq Respublikası da bu baxımdan istisna deyil. XX əsrin 60-70-ci illərində hər iki tərəfin nümayəndələrinin qarşılıqlı səfərləri, sosialist blokunun üzvləri kimi iqtisadi əməkdaşlıq sahəsində fəaliyyətləri də olmuşdur. XX əsrin 80-ci illərində bu iki respublika arasında əməkdaşlıq iqtisadi-mədəni və sosial sahədə xüsusilə canlanmışdır. Sovet İttifaqının bir üzvü kimi Azərbaycan da Şərqi Avropa ölkələri ilə Qarşılıqlı İqtisadi Yardım Şurasının (QİYŞ) imkanları daxilində iqtisadi və siyasi münasibətlərə malik idi. 1949-cu ildə yaradılan bu iqtisadi qurumun əsas məqsədi məhz sosialist dünyası içərisində iqtisadi münasibətlərin inteqrasiyası üçün şərait yaratmaq idi. 1970-ci illərə qədər Qarşılıqlı İqtisadi Yardım Şurası yalnız Şərqi Avropa dövlətlərindən ibarət idi. 1988-ci ildə bu qurumda artıq Bolqarıstan, Vyetnam, ADR, Kuba, Rumıniya, SSRİ, Çexoslovakiya, Polşa, Monqolustan Xalq Respublikası və Macarıstan təmsil olunurdular[11].

XX əsrin sonlarında Macarıstan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən olmuşdur. Macarıstan Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 27-də yaradılmışdır. Macarıstanın Bakıdakı səfirliyi 2009-cu il yanvarın 12-də fəaliyyətə başlamış, Azərbaycan Respublikasının bu ölkədəki səfirliyi 2004-cü ilin sentyabrında açılmışdır[12].

İkitərəfli əlaqələrin yaradılmasından sonrakı dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında əsas kimi çıxış edən hüquqi sənədlər imzalanmışdır. Müxtəlif vaxtlarda Azərbaycan Respublikası prezidentlərinin Macarıstana rəsmi və işgüzar səfərləri baş tutmuşdur. 1994-cü il 4-5 dekabr tarixlərində

11 Nuriyeva Z. Azərbaycan Sovet Respublikası və Macarıstan Xalq Respublikası arasında XX əsrin 80-ci illərində mövcud əlaqələrə baxış // "Tarix və onun problemləri", № 4, 2014, s.116. - http://static.bsu.az/w8/Tarix%20ve%20onun%20problem/2014%20%204/seh.115-119%20zumrud%20nuriyeva.pdf

12 Azərbaycan–Macarıstan münasibətləri, ikitərəfli əlaqələr, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /26.09.2014/- http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Macaristan_munasibetleri_26.09.2014.pdf

Prezident Heydər Əliyev ATƏT-in zirvə toplantısında iştirak etmək məqsədilə Macarıstanda işgüzar səfərdə olmuşdur. Prezident İlham Əliyev Macarıstanda 2008-ci il 18-19 fevral tarixlərində rəsmi səfərdə, 2009-cu il 26-27 yanvar tarixlərində "Nabukko" Enerji Sammitində iştirak etmək üçün və 2014-cü il noyabrın 11-də işgüzar səfərlərdə olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana bu səfəri iki ölkə arasında əməkdaşlığın inkişafına yeni stimul vermişdir. Belə ki, səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır[13]. Bu bəyannamə əməkdaşlığın, demək olar ki, bütün sahələrini əks etdirir və ikitərəfli münasibətlərin güclənməsi üçün Macarıstanın və Azərbaycanın ümumi hüquqi məqsədlər çərçivəsini tam əhatə edir. Bəyannamə iki dövlət arasında uğurlu əməkdaşlığı təmin etmək, habelə Azərbaycan və Aİ arasında əlaqələrin inkişafına dəstək verməkbaxımından xüsusi əhəmiyyət kəsb edir. Belə ki, imzalanan sənəd Azərbaycan və Macarıstan arasında əməkdaşlığın birgə məqsədlərini əhatə etməklə yanaşı, Azərbaycan və Aİ arasında əməkdaşlığın möhkəmləndirilməsinə də xidmət edir.

2011-ci il 10-12 noyabr tarixlərində Macarıstan Prezidenti Pal Şmit Azərbaycana rəsmi səfər etmişdir. Səfər zamanı Azərbaycan və Macarıstan prezidentlərinin mətbuat üçün birgə konfransında İlham Əliyev ikitərəfli siyasi əlaqələrin inkişaf etdiyini və iki dövlət arasında iqtisadi əlaqələrin də inkişaf etdirilməsi üçün imkanların olduğunu və bunu nəzərə alaraq iqtisadi əlaqələrin də inkişaf etdirilməsinin vacibliyini bildirmişdir: "Bu gün Macarıstan–Azərbaycan Biznes Forumu da keçirilir və əminəm ki, biznes dairələri arasında olan əlaqələr iqtisadi əməkdaşlığımıza da güclü təkan verəcəkdir. Çünki biz bu sahədə hələ işləməliyik. İqtisadi əməkdaşlıq siyasi əməkdaşlığın səviyyəsinə çatmalıdır. Əminəm ki, biznes forumunun keçirilməsi bu işdə bizə kömək göstərəcəkdir". Prezident Pal Şmit isə Macarıstanın Azərbaycana yaxın tərəfdaş kimi yanaşdığını və iki xalq arasında tarixən mədəni oxşarlıqların olduğunu bildirmişdir. P.Şmit mətbuat üçün bəyanatında

13 Orbán: Europe's interest that Azerbaijan gas reaches Central and Eastern Europe. /11.11.2014/ - http://www.politics.hu/20141111/orban-europes-interest-that-azerbaijan-gas-reaches-central-and-eastern-europe/

Macarıstanın Azərbaycan və Aİ arasında əlaqələrin inkişafında rolu məsələsinə toxunaraq bildirmişdir: *"Biz həmçinin ikitərəfli münasibətlər çərçivəsində, Macarıstan ilə Azərbaycan arasındakı əlaqələr sahəsində və eyni zamanda Avropa İttifaqı ilə münasibətlər sahəsində bir çox addımlar atırıq"*[14].

Parlament respublikası olan Macarıstanın baş nazirlərinin Azərbaycana müxtəlif vaxtlarda səfərləri baş tutmuşdur. Keçmiş baş nazirlər Ferents Dyurçan (7-8 iyul 2008-ci il tarixlərində rəsmi səfər, 14 noyabr 2008-ci il tarixində IV Enerji Sammitində iştirak etmək üçün işgüzar səfər) və indiki Baş nazir Viktor Orban (13-14 sentyabr 2010-cu il tarixlərində AGRİ sammitində iştirakla bağlı işgüzar səfər, 29 iyun – iyul 2012-ci il tarixlərində rəsmi səfər, 5-6 mart 2016-cı il tarixlərində rəsmi səfər) Azərbaycanda səfərdə olmuşlar.

Rəsmi münasibətlərin yaradılmasından bəri Milli Məclis Sədrinin, Macarıstan parlamenti Sədrinin, hər iki ölkənin müxtəlif nazir və digər rəsmilərinin qarşılıqlı səfərləri baş tutmuşdur. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir.

Rəsmi münasibətlər qurulduqdan bəri iki ölkə arasında iqtisadi əlaqələr də inkişaf etdirilmişdir. İki ölkənin iqtisadi əlaqələrinin inkişafı üçün əhəmiyyətli potensial mövcuddur. Sənaye, energetika, daşımalar, kənd təsərrüfatı, kommunikasiya, informasiya texnologiyaları, farmakoloji preparatlar, ətraf mühit, turizm və digər sahələrdə əməkdaşlıq formalaşmışdır. Hər iki ölkənin qarşılıqlı iqtisadi maraqları mövcuddur və bu maraqların gerçəkləşdirilməsi üçün investisiya və əməkdaşlıq imkanları var. Macarıstan şirkətləri Azərbaycanın nəqliyyat, su, tikinti, maliyyə sahələrində iştirakda maraqlıdır və bu istiqamətdə hər iki dövlətin müvafiq strukturları tərəfindən tədbirlər həyata keçirilir[15].

Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana 2016-cı ilin mart ayında gerçəkləşən rəsmi səfəri çərçivəsində iki ölkənin baş nazirlərinin görüşü keçirilmiş, digər əhəmiyyətli sənədlərlə yanaşı, İKT sahəsində birgə inkişaf fondunun yaradılması haqqında bəyannamə,

14 Azərbaycan və Macarıstan prezidentlərinin mətbuat üçün bəyanatları. /11.11.2011/ - http://www.president.az/articles/3541

15 Hungary regards Azerbaijan as a key partner. /28.06.2016/ - http://www.kormany.hu/en/ministry-of-foreign-affairs-and-trade/news/hungary-regards-azerbaijan-as-a-key-partner

həmçinin məşğulluq sahəsində qarşılıqlı təcrübə mübadiləsi aparmaq haqqında anlaşma memorandumu imzalanmışdır[16].

İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsini kənd təsərrüfatı, kimya, yüngül və ağır sənaye, yanacaq məhsulları təşkil edir. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illər üzrə ticarət əlaqələrinin dövriyyəsi əks olunur.

Azərbaycan və Macarıstan arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[17]

İl	İdxal	İxrac
2012	23709,9	57,4
2013	33053,6	45,9
2014	23937,8	71614,8
2015	27719.28	240.86

İki ölkə arasında elm, təhsil və mədəniyyət sahələrində də əməkdaşlıq həyata keçirilir. 2015-ci ildə Macarıstan hökuməti tərəfindən ölkənin nüfuzlu universitetlərində Azərbaycandan olan tələbələr üçün təqaüd və ödənişsiz yerləşmə də daxil olmaqla, 200 yer ayrılmışdır. Hökumətlərarası qarşılıqlı saziş əsasında Azərbaycan Tibb Universiteti və Macarıstanın Semmelveis Universiteti arasında əməkdaşlıq yaradılmış, səhiyyənin tədrisi sahəsində birgə tədbirlər həyata keçirilmişdir. Universitetlər arasında tələbə mübadiləsi aparılır.

Humanitar sahədə Macarıstan–Azərbaycan əlaqələrinin möhkəmləndirilməsində Heydər Əliyev Fondu xüsusi rol oynayır. Belə ki, fond tərəfindən Macarıstanda həyata keçirilən layihələr arasında Budapeşt şəhərində görmə məhdudiyyəti olan uşaqlar üçün Laszlo Batthiani Roma Katolik Evinin yenidənqurulması və genişləndirilməsi işlərini xüsusi qeyd etmək olar. Macarıstanda həyata keçirdiyi xeyriyyə layihələri ilə bağlı Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın

16 Prime Minister Viktor Orbán to visit Azerbaijan. /04.03.2016/ - http://www.miniszterelnok.hu/prime-minister-viktor-orban-to-visit-azerbaijan/

17 Azərbaycanın xarici ticarət əlaqələri. /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

birinci xanımı Mehriban Əliyeva 2016-cı ilin martında Baş nazir Viktor Orbanın Azərbaycana rəsmi səfəri zamanı Macarıstan qarşısındakı xidmətlərinə görə yüksək mükafatla – "Macarıstanın Xidmətlərə görə Komandor Xaçı" ordeni ilə təltif edilmişdir. 2016-cı il martın 6-da keçirilən təltifolunma mərasimində çıxış edən Macarıstanın Baş naziri Viktor Orban bildirmişdir ki, fond tərəfindən həyata keçirilən xeyriyyəçilik fəaliyyəti təkcə görmə məhdudiyyəti olan uşaqlara yardımçı olmur, bu, eyni zamanda iki ölkə arasında təşəkkül tapmış münasibətlərin inkişafına töhfə verir: "Burada söhbət sırf uşaqlara yardımdan getmir. Bu, həmçinin onu göstərir ki, müsəlman ölkəsinin fondu xristian ölkəsinin uşaqlarına yardım edir. İki mədəniyyət və dinlər arasında belə bir halda çox gözəl, ahəngdar bir ittifaq yaranır. Bugünkü dünyada artıq dini münaqişələr haqqında çox danışılır. Məhz belə bir şəraitdə bu cür fəaliyyətin göstərilməsi, səylər xüsusi diqqətə layiqdir"[18].

Göründüyü kimi, iki dövlət arasında siyasi, iqtisadi və humanitar əlaqələr formalaşmış və inkişaf etməkdədir. Hazırda Azərbaycan və Macarıstan arasında əməkdaşlıq ikitərəfli və çoxtərəfli formatlarda inkişaf etdirilir. İki dövlət rəhbəri – Prezident İlham Əliyev və Baş nazir Viktor Orban arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin mövcudluğu Azərbaycanla Macarıstan arasındakı siyasi münasibətlərin inkişafında mühüm rol oynayır. Azərbaycan üçün iqtisadi və siyasi baxımdan AvratlantiktəşkilatlarınüzvüolanMacarıstanlastrateji tərəfdaşlığın inkişaf etdirilməsi əhəmiyyətlidir. Macarıstan Azərbaycanı iqtisadi və üzvü olduğu Aİ-nin enerji təhlükəsizliyi sahəsində əsas tərəfdaş dövlətlərdən biri kimi qəbul edir. Azərbaycan Macarıstanın İKT sektorunda, kənd təsərrüfatında mövcud olan kooperativlər, torpaqların alqı-satqısı və magistral avtomobil yollarının idarə olunması təcrübəsindən yararlana bilər. Azərbaycan və Macarıstan arasında əlaqələrin inkişaf etdirilməsi bu ölkələrin siyasi və iqtisadi maraqlarından irəli gəlir. Bununla yanaşı, Azərbaycan Aİ ilə münasibətlərinin inkişafında İttifaqın üzvü olan

18 Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Macarıstanın ali ordeni ilə təltif edilib. /06.03.2016/ - http://azertag.az/xeber/Azerbaycanin_birinci_xanimi_Mehriban_Aliyeva_Macaristanin_ali_ordeni_ile_teltif_edilib_Yenilenib__VIDEO-933284

digər Şərqi Avropa dövlətləri kimi, Macarıstanla da ikitərəfli əlaqələrin inkişaf etdirilməsində maraqlıdır.

Azərbaycan–Çexiya münasibətləri

Çoxsahəli Azərbaycan–Çexiya münasibətlərinin formalaşmasını iki xalqın nümayəndələri arasında olan fraqmental əlaqələrlə başlayan, SSRİ dönəmində eyni siyasi-iqtisadi təsir dairəsinə daxil olan ölkələrin təmasları ilə genişlənən və XX əsrin 90-cı illərinin sonlarından müstəqil dövlətlərin əlaqələri kimi yeni inkişaf mərhələsinə keçən prosestək xarakterizə etmək mümkündür[19].

Tarixi sənədlərdə azərbaycanlılar və çexlər arasında ilk təmasların XIV əsrə aid olduğu göstərilir. 1316-1318-ci illərdə Çinə səfər edən səyyah, Fransiskan rahibi Pordenonlu Odorik (Oldrjix Çex kimi də tanınır) Təbrizdə də olmuşdur. Səyyahın səyahəti ilə bağlı yazdığı əsərdə Təbriz və Azərbaycanın digər ərazilərinə səfəri də təsvir olunur[20].

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Səfəvi hökmdarı I Şah Abbas və Müqəddəs Roma imperatoru (eyni zamanda Bohemiya kralı) II Rudolf arasında diplomatik münasibətlər qurulmuş, iki dövlətin səfirlərinin qarşılıqlı səfərləri baş tutmuşdur[21].

XX əsrin əvvəllərində hər iki ölkə uzunmüddətli işğaldan sonra dövlət müstəqilliklərini elan edir. 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikası (ADR) və Çexiya Respublikası arasında dövlətlərarası əlaqələrin yaradılması vaxt baxımından mümkün olmamışdı. Buna baxmayaraq, Çexiya Respublikasının Tbilisidə fəaliyyət göstərən səfirliyi Gürcüstanla yanaşı, Azərbaycanla da əlaqələrin qurulmasına akkreditə olmuşdur. Həmin dövrdə Bakıda çex icması mövcud olmuşdur. Bakıdakı çex icması tərəfindən Tbilisidəki səfirliyə yazılmış məktubda bildirilirdi ki, icmanın 70 üzvü vardır[22].

19 Краткое знакомство с длительной историей, By Petr Vagner, Issue 3, 2016. - http://russkiivopros.com/?pag=one&id=688&kat=7&csl=77

20 Yule Henry. Cathay and the Way Thither. Cambridge University Press: 2010, pp. 1-162

21 Křikavová Adéla. Perská poselstva u dvora císaře Rudolfa II. In: Nový Orient 52, Praha, 1997, pp. 182-185; Křikavová Adéla. Poselstvo císaře Rudolfa II. ke dvoru perského šáha Abbáse In: Nový Orient 52, 1997, pp. 223-225

22 Diplomatickému zástupci Československé republiky panu Vilému Hromádkovi v Tiflise. /20.03.1920/ - Çexiya Respublikasının Arxiv İdarəsi

1920-ci ildə ADR-in işğalı və İkinci Dünya müharibəsindən sonra Çexiyanın SSRİ-nin nəzarətinə keçməsi ilə hər iki ölkənin eyni siyasi-iqtisadi məkanda mövcud olmaları onlar arasında iqtisadi, elmi-mədəni əlaqələrin inkişafı üçün şərait yaratmışdır.

Azərbaycanla Çexiya arasında dövlətlərarası diplomatik əlaqələrin yaranması XX əsrin 90-cı illərinin əvvəllərinə təsadüf edir. Çexiya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 8-də tanımışdır. Ölkələr arasında diplomatik münasibətlər 1993-cü il yanvarın 29-da qurulmuşdur. Azərbaycan Respublikasının Çexiya Respublikasındakı səfirliyinin açılış mərasimi 2007-ci il avqustun 15-də olmuşdur. Çexiya Respublikasının Azərbaycandakı səfirliyi 2009-cu il dekabrın 1-də təsis edilmişdir.

Diplomatik münasibətlərin yaradılmasından sonrakı dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında hüquqi baza kimi çıxış edən müqavilə və sənədlər imzalanmışdır. Müxtəlif dövrlərdə iki dövlət başçılarının qarşılıqlı səfərləri baş tutmuşdur. Prezident Heydər Əliyev 21-22 noyabr 2002-ci il tarixlərində NATO-nun Praqadakı sammitində iştirak etmək məqsədilə Çexiyaya işgüzar səfər etmişdir. Prezident İlham Əliyev Çexiyaya 6-9 may 2009-cu il tarixlərində "Şərq tərəfdaşlığı" proqramı və enerji sammitində iştirak etmək üçün işgüzar səfərdə və 4-6 aprel 2012-ci ildə isə dövlət səfərində olmuşdur. Çexiya Prezidenti Vatslav Klaus 16-19 may 2011-ci il tarixlərində Azərbaycana rəsmi səfər etmişdir[23].

2015-ci il sentyabrın 15-də Çexiya Respublikasının Prezidenti Miloş Zeman Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı "Azərbaycan Respublikası ilə Çexiya Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır. Bəyannamədə ikitərəfli əlaqələrlə bağlı məsələlərə toxunulmaqla yanaşı, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktı, ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı əsasında öz həllini tapmalı olduğu da qeyd edilmişdir. Ölkə başçılarının mətbuat konfransında Prezident İlham Əliyev iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu

23 Azərbaycan– Çexiya münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi/ - http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20%C3%87exiya%20m%C3%BCnasib%C9%99tl%C9%99ri%2019_07_2013.pdf

bildirmişdir: "Bizim iqtisadi sahədə çox uğurlu əməkdaşlığımız var. Deyə bilərəm ki, bu gün biz həm heyətlər səviyyəsində, eyni zamanda ikitərəfli formatda daha çox iqtisadi əməkdaşlığı müzakirə etmişik. Burada gözəl potensial var. Ölkələrimiz arasında ticarət dövriyyəsi artır. Eyni zamanda çex banklarının Azərbaycanda müvafiq layihələrinin icrasına böyük miqdarda vəsait ayrılır". Mətbuat konfransında Çexiya Respublikasının Prezidenti Miloş Zeman iki ölkə arasında iqtisadi əməkdaşlıq imkanlarından və bu əlaqələrin inkişaf etdirilməsi perspektivlərindən danışmışdır: "Çex iş adamları Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin birinci mərhələsinə uğurla sərmayə qoymuşlar. Artıq tikintinin ikinci mərhələsi başlayır. Ümidvaram ki, bu sahədə də əməkdaşlığımız uğurlu olacaq. İnfrastruktur baxımından bu layihə kifayət qədər genişmiqyaslıdır"[24].

Münasibətlərin yaradılmasından bəri iki ölkə arasında parlament rəhbərlərinin, baş nazirlərin, müxtəlif nazir və digər rəsmi şəxslərin qarşılıqlı səfərləri baş tutmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan–Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Çexiya Respublikası parlamentinin aşağı palatası olan Deputatlar Palatasında və parlamentin yuxarı palatası olan Senatda Çexiya–Azərbaycan parlamentlərarası dostluq qrupları yaradılmışdır. Senatda yaradılmış qrup Deputatlar Palatasında fəaliyyət göstərən Çexiya–Azərbaycan parlamentlərarası dostluq qrupunun tərkib hissəsidir.

İki ölkə hökumətləri arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiya yaradılmış və ilk iclası 14-15 noyabr 2011-ci il tarixlərində Praqa şəhərində keçirilmişdir. Komissiyanın üçüncü iclası 2014-cü il aprelin 25-də Bakı şəhərində baş tutmuşdur. Eyni tarixdə Azərbaycan–Çexiya Biznes Forumu keçirilmişdir. Forumda hər iki tərəfdən maliyyə, sənaye, ətraf mühit, kənd və meşə təsərrüfatı, enerji, tikinti sahəsində fəaliyyət göstərən 60-dan çox iş adamı iştirak etmişdir. Biznes forumunun sonuncu, 7-ci iclası 2018-ci il yanvarın 17-də Bakıda keçirilmiş və tədbirdə iki tərəfin biznes sektorundan 160 nümayəndə iştirak etmişdir[25]. Hökumətlərarası birgə komissiyanın son iclası 2017-ci il

24 İlham Əliyevin və Çexiya Prezidenti Miloş Zemanın birgə mətbuat konfransı olub. /15.09.2015/ - http://www.president.az/articles/16148

25 Azərbaycan və Çexiya arasında Qarışıq Komissiyanın iclası və biznes forumu keçirilmişdir. /25.04.2014/ - http://economy.gov.az/index.php?option=com_content&view=article&id=2211:az-cexiya-bf-25-04-2014&catid=8:news&Itemid=263&lang=az

yanvarın 18-də Bakı şəhərində baş tutmuşdur[26].

Hər iki ölkə arasında reallaşdırılan əsas iqtisadi layihələr Azərbaycan neftinin Çexiyanın neft emalı müəssisəsinə çatdırılması, həmçinin Azərbaycandan başlayan və Asiya ilə Avropanı birləşdirən dəmir yolu xəttinin inşasında çex şirkətinin iştirakıdır. 2001-ci ildə Çexiyanın Kralupı şəhərində yerləşən neft emalı zavodunun rekonstruksiyasından sonra Azərbaycandan idxal edilən xam neftin həcmi artırılmışdır. Hazırda Azərbaycandan idxal olunan neft Çexiyanın illik istehlak tələbatının 1/3-ni (təqribən 31%-ni) təşkil edir[27]. Bu isə ölkənin enerji təhlükəsizliyi ilə bağlı böyük əhəmiyyət daşıyır. Çex şirkətləri Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində təmsil olunur. Bu şirkətlər əsasən infrastruktur layihələrinin həyata keçirilməsində (dəmir və avtomobil yollarının inşasında) iştirak edirlər.

Bu ölkələr arasında ticarət dövriyyəsinin mühüm hissəsini xam neft və neft məhsulları təşkil edir. Bundan başqa, ikitərəfli ticarət dövriyyəsində kənd təsərrüfatı, yeyinti, yüngül sənaye, kimya və tikinti sənayesi məhsulları da yer alır. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illəri əhatə edən ticarət dövriyyəsi əks olunur.

Azərbaycan və Çexiya arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[28]

İl	İdxal	İxrac
2012	98223,0	511763,1
2013	89105,0	215918,4
2014	45938,2	592036,2
2015	58376.6	549516.25

26 The 4th Plenary Session of Intergovernmental Commission between the Czech Republic and Azerbaijan was held in Baku. /20.01.2017/ - http://www.mzv.cz/baku/en/economy_and_trade/chamber_of_trade_and_industry_for_cis/the_4th_plenary_session_of.html

27 Official visit of Czech Industry and Trade Minister Jan Mladek to Azerbaijan. /21.01.2017/ - http://www.mzv.cz/baku/en/economy_and_trade/official_visit_of_czech_industry_and.html

28 Azərbaycanın xarici ticarət əlaqələri. /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

İki ölkə arasında mədəniyyət və elm sahələrində də qarşılıqlı əlaqələr qurulmuşdur. 2014-cü ildən Çexiyanın Karlov Universitetində "Azərbaycan dili və multikulturalizm" kursu tədris olunur. İki ölkə arasında regional əməkdaşlıq da qurulmuşdur. 2015-ci il aprelin 26-da Azərbaycanın Gəncə və Çexiyanın qədim şəhəri, vilayət paytaxtı sayılan Olomouc arasında əməkdaşlıq memorandumu imzalanmışdır[29].

Çexiya Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq hüquq prinsiplərindən çıxış edərək ədalətli mövqe nümayiş etdirir. Çexiya Respublikasının Xarici İşlər Nazirliyi qondarma "Dağlıq Qarabağ Respublikası"nda separatçı rejim tərəfindən keçirilən seçkiləri pisləyən, münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həllinə çağıran bəyanatlarla çıxış etmişdir. 2006-cı il dekabrın 10-da qondarma respublikada keçirilən "konstitusiya referendumu" ilə bağlı Çexiyanın Xarici İşlər Nazirliyi sərt bəyanatla çıxış etmiş, keçirilən referendumu və ümumiyyətlə, Dağlıq Qarabağın müstəqilliyinin rəsmi Praqa tərəfindən tanınmadığını bildirmişdir[30]. 2015-ci il mayın 4-də Çexiya Xarici İşlər Nazirliyi bir gün əvvəl işğal olunmuş Dağlıq Qarabağ ərazisində keçirilən "parlament seçkiləri"nin hüquqi və konstitusional əsasını tanımadığını bəyan etmişdir. Nazirliyin bəyanatında bildirilirdi ki, Çexiya Respublikası hesab edir ki, bu cür birtərəfli aktlar qarşılıqlı etimadın gücləndirilməsinə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün müsbət mühitin yaranmasına xidmət etmir: "Çexiya münaqişənin sülh yolu ilə, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı da daxil olmaqla, beynəlxalq hüququn prinsipləri çərçivəsində həllinə tərəfdardır. Çexiya ATƏT-in Minsk Qrupunun və onun həmsədrlərinin fəaliyyətini tam dəstəkləyir və bütün münaqişə tərəflərini sülh prosesini davam etdirməyə çağırır"[31]. 2015-ci il sentyabrın 14-də Çexiya Xarici İşlər Nazirliyi Azərbaycanın

29 Çexiyanın Olomouc və Azərbaycanın Gəncə şəhərləri arasında memorandum imzalanıb. /27.04.2012/ - http://az.trend.az/azerbaijan/society/2019803.html

30 Statement of the MFA on the „Constitutional Referendum" in Nagorno-Karabakh. /13.12.2006/ - http://www.mzv.cz/jnp/en/issues_and_press/archive/statements/x2006/statement_of_the_mfa_on_the_2.html

31 Statement of the MFA on "Parliamentary Elections" in Nagorno-Karabakh. /04.05.2015/ - http://www.mzv.cz/jnp/en/issues_and_press/mfa_statements/x2015_05_04_mfa_statement_nagorno_karabakh.html

işğal olunmuş ərazilərində keçirilmiş "yerli özünüidarə orqanlarına seçkilər"lə bağlı bəyanat yaymışdır. Bəyanatda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində sentyabrın 13-də keçirilmiş "yerli özünüidarə orqanlarına seçkilər"in konstitusiya və hüquqi çərçivəsinin Çexiya tərəfindən tanınmadığı diqqətə çatdırılır. Rəsmi Praqanın Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında sülh yolu ilə tənzimlənməsini dəstəklədiyi bildirilir[32].

Çexiyanın Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı ədalətli mövqeyi müəyyən mənada onun oxşar problemlə 1930-cu illərdə üzləşməsinə əsaslanır. Belə ki, 1938-ci ildə Çexoslovakiya ardıcıl təzyiqlər nəticəsində öz sərhəd bölgələrini güzəştə gedir və bu güzəştlərə baxmayaraq, 1939-cu ildə Faşist Almaniyası tərəfindən tamamilə işğal olunur. Rəsmi Praqanın münaqişə ilə bağlı yuxarıda göstərilən ədalətli münasibəti oxşar tarixi təcrübə yaşamış Çexiya Respublikasının Azərbaycan üçün etibarlı tərəfdaş oluğunun sübutu kimi çıxış edir.

Çexiya Respublikası Polşa və Macarıstanla birlikdə 1991-ci ildə yaradılan Vışeqrad Qrupunun (Visegrad Group) təsisçi üzvüdür. Mərkəzi Avropa dövlətlərini birləşdirən bu regional təşkilat digər tərəfdaşları (Benilüks, Skandinaviya Şurası) və "V4+" formatı çərçivəsində müstəqil dövlətlərlə əməkdaşlıq həyata keçirir. Bu format ikitərəfli və çoxtərəfli səviyyədə əməkdaşlığın inkişafı üçün faydalı platforma rolunu oynamaqdadır. Bundan əlavə, Azərbaycan GUAM təşkilatının üzvüdür və iki regional qrup arasında əməkdaşlıq üçün geniş və maraqlı potensial mövcuddur[33].

Çexiya Azərbaycanla ikitərəfli, xüsusilə də enerji və iqtisadi sahələrdə əlaqələrin inkişaf etdirilməsində maraqlıdır. Çexiya bir tərəfdən Azərbaycana enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş kimi baxırsa, digər tərəfdən qarşılıqlı investisiyaların qoyuluşunda və çex biznesinin ölkəmizdə daha geniş tərkibdə iştirakında maraqlıdır.

32 Statement of the MFA on the so called „elections to the self-governing bodies" in Nagorno-Karabakh. /14.09.2015/- http://www.mzv.cz/jnp/en/issues_and_press/mfa_statements/x2015_09_14_mfa_statement_nagorno_karabakh.html

33 Çexiya Respublikası. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.96

Azərbaycan üçün Avratlantik əməkdaşlıq təşkilatlarında (Aİ, NATO) təmsil olunan və iqtisadi cəhətdən inkişaf etmiş Çexiya ilə əlaqələrin inkişafı əhəmiyyət daşıyır. Çexiya Azərbaycan və Aİ arasında strateji tərəfdaşlıq sazişi, habelə rəsmi Bakı ilə Ümumdünya Ticarət Təşkilatı (ÜTT) arasında quruma üzvlüklə bağlı aparılan danışıqları dəstəkləyir.

Azərbaycan–Rumıniya münasibətləri

Rumıniya Azərbaycanın dövlət müstəqilliyini 1991-ci il dekabrın 11-də tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 19-da yaradılmışdır. Qeyd etmək lazımdır ki, Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan sayca ikinci dövlətdir. Rumıniyanın Azərbaycan Respublikasındakı səfirliyi 1998-ci il noyabrın 3-də, Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyi isə 2001-ci il mayın 21-də açılmışdır. Azərbaycan Respublikası Prezidentinin 25 sentyabr 2012-ci il tarixli sərəncamı ilə Rumıniyanın "Upetrom" şirkətlər qrupunun prezidenti Qabriel Valentin Komanesku ölkənin Konstansa şəhərində Fəxri konsulu təyin edilmişdir.

Rəsmi əlaqələrin qurulmasından sonrakı ötən dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında əsas kimi çıxış edən hüquqi sənədlər imzalanmışdır. 1995-ci il iyulun 2-də Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi Rumıniyaya rəsmi səfər etmişdir. Prezident İlham Əliyev isə bir neçə dəfə Rumıniyada rəsmi səfərdə olmuşdur (11-12 oktyabr 2004-cü il tarixində rəsmi, 5 iyun 2006-cı ildə Buxarest şəhərində keçirilən Qara Dəniz Forumunda iştirak etmək məqsədilə Rumıniya Prezidenti T.Baseskunun dəvəti ilə, 24-25 sentyabr 2007-ci il tarixlərində işgüzar, 2-4 aprel 2008-ci ildə NATO-nun Buxarest Sammitində iştirak etmək üçün, 28-29 sentyabr 2009-cu il tarixlərində rəsmi səfərlər). Rumıniya prezidentləri olmuş İon İliyesku (1996-cı ilin mart ayında və 29-30 oktyabr 2002-ci ildə rəsmi səfər), Emil Konstantinesku (29 iyun – 1 iyul 1998-ci il tarixlərində rəsmi səfər və 7-8 sentyabr 1998-ci il tarixlərində Bakıda keçirilən İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransda iştirak) və Trayan

Beseskunun (11-12 oktyabr 2006-cı il tarixlərində rəsmi, 19 iyun 2007-ci ildə GUAM sammitində iştirak etmək üçün, 21 avqust 2008-ci ildə birgünlük işgüzar, 14 sentyabr 2010-cu ildə Bakıda keçirilmiş AGRİ sammitində iştirak etmək məqsədilə işgüzar və 18-19 aprel 2011-ci il tarixlərində rəsmi səfərlər) Azərbaycana rəsmi səfərləri baş tutmuşdur[34].

Azərbaycan və Rumıniya arasında əlaqələrin mühüm hadisəsi kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri zamanı, 2009-cu il sentyabrın 28-də iki dövlətin prezidentləri tərəfindən "Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılması haqqında Deklarasiya"nın imzalanmasını qeyd etmək lazımdır[35]. Bundan sonra Rumıniya Prezidenti Trayan Beseskunun Azərbaycana rəsmi səfəri çərçivəsində, 2011-ci il aprelin 18-də Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlığın həyata keçirilməsi üçün fəaliyyət planı qəbul edilmiş və hər iki ölkənin dövlət başçıları tərəfindən imzalanmışdır. Bu planın qəbul edilməsi siyasi, enerji təhlükəsizliyi, iqtisadi, mədəni sahələrdə, habelə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın bünövrəsinin möhkəmləndirilməsi üçün vacib hadisə idi. Qeyd etmək lazımdır ki, enerji və nəqliyyat layihələri Azərbaycan–Rumıniya tərəfdaşlığının əsas istiqamətlərindən sayılır. Hər iki dövlət Xəzər və Qara dəniz regionlarını əhatə edən nəqliyyat layihələrinin inkişaf etdirilməsində maraqlıdır. Rumıniyanın Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi münaqişənin beynəlxalq hüquq normalarına uyğun həll edilməsinə və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə əsaslanır. Bu mövqe Azərbaycanla münasibətlərin strateji formada inkişafına əsas yaradan amillərdəndir.

Rəsmi münasibətlər yaradılandan bəri Milli Məclis sədrinin, Rumıniya Senatı sədrinin, Rumıniya Deputatlar Palatası sədrinin, hər iki ölkənin müxtəlif nazir və digər rəsmilərinin qarşılıqlı səfərləri baş tutmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan–

34 Azərbaycan–Rumıniya münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi /08.09.2014/ - http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Ruminiya_munasibetleri_08.09.2014.pdf

35 Aniversarea a 20 de ani de la stabilirea relaţiilor diplomatice dintre România şi Republica Azerbaidjan. /19.06.2012/ - http://www.mae.ro/node/14023

Rumıniya parlamentlərarası dostluq qrupu, Rumıniya parlamentində isə Rumıniya–Azərbaycan dostluq qrupu fəaliyyət göstərir.

Mədəniyyət, elm, təhsil, səhiyyə və mətbuat sahələrində əməkdaşlıqla bağlı iki ölkənin müvafiq təsisatları arasında əməkdaşlıq haqqında saziş, memorandum və protokollar imzalanmışdır.

2013-cü il aprelin 1-də Rumıniyanın Kluj-Napoka şəhərindəki Babeş-Boyyai Universitetinin nəzdindəki Türkologiya və Mərkəzi Asiya Araşdırmalar İnstitutunda Azərbaycan dilinin tədrisinə başlanılmışdır. Rumıniya universitetlərində yüksək qiymət alan və uğur qazanan tələbələr üçün Ümummilli lider Heydər Əliyevin adına təqaüd təsis edilmişdir[36].

Rəsmi münasibətlər qurulduqdan bəri iki ölkə arasında iqtisadi əlaqələr də yaradılmışdır. İki dövlət arasında investisiya, nəqliyyat və daşıma, gömrük və vergi sahələrində əməkdaşlığa dair sazişlər imzalanmışdır.

Rumıniyada Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xətti ilə Azərbaycan dövləti sərmayə yatırmışdır. ARDNŞ 2011-ci ildən Rumıniyada "SOCAR Petroleum" törəmə şirkəti vasitəsilə də təmsil olunur. ARDNŞ-nin Rumıniyada "SOCAR" brendi ilə fəaliyyət göstərən yanacaqdoldurma məntəqələri açılmışdır. Hazırda bütün Rumıniya ərazisində ARDNŞ-yə məxsus 30-dan çox yanacaqdoldurma məntəqəsi fəaliyyət göstərir. Qısa zaman ərzində "SOCAR Petroleum" Rumıniyada milli səviyyədə rəqabətədavamlı yanacaqdoldurma şəbəkəsi yarada bilmişdir. Şirkət yaxın illərdə bu bazarda fəaliyyətini genişləndirməyi planlaşdırır[37]. Mövcud sənaye komplekslərinin rekonstruksiyası və İKT sahəsində təcrübəyə malik Rumıniya Azərbaycan üçün maraq kəsb edir[38]. Digər tərəfdən, xarici sərmayələrin cəlb olunmasında maraqlı

36 Dana Hadareanu. 15 ani de relatii diplomatice intre Romania si Azerbaidjan. - http://m.romanialibera.ro/actualitate/international/15-ani-de-relatii-diplomatice-intre-romania-si-azerbaidjan-106769

37 Adrian Stoica. Parteneriat strategic Romania–Azerbaidjan: SOCAR si drumul hidrocarburilor intre Europa si Asia, Petroleum İndustry Review. / October 2014/ - http://www.petroleumreview.ro/magazine/2014/october-2014/33-octombrie-2014/268-parteneriat-strategic-romania-azerbaidjan-socar-si-drumul-hidrocarburilor-intre-europa-si-asia

38 Virginia Valasuteanu, Cristina Serbanescu. Oamenii de afaceri azeri, interesati de Romania, Anul VI, Nr. 10 (271) 02. /08.03.2011/ - http://www.ccib.ro/afacerea/Stire-5218-.htm

olan Rumıniya Azərbaycan şirkətlərinin ölkə iqtisadiyyatının müxtəlif sahələrində geniş iştirakında maraqlıdır.

Azərbaycan və Rumıniya AGRİ (Azərbaycan–Gürcüstan–Rumıniya, əlaqələndirici – Macarıstan) layihəsinin müəllifləri sayılır[39]. 2010-cu il sentyabrın 14-də Azərbaycan, Rumıniya, Gürcüstan və Macarıstan dövlət başçıları tərəfindən AGRİ enerji layihəsinin icrası haqqında Bakı Deklarasiyası imzalanmışdır. 2011-ci ildə layihə ilə bağlı tədqiqatların aparılması məqsədilə Buxarestdə yerləşən "AGRI LNG Project Company" müştərək müəssisəsi yaradılmışdır[40]. 2010-cu ildən iştirakçı ölkələrin rəsmiləri arasında danışıqlar aparılan bu layihənin[41] gələcəkdə reallaşdırılması Azərbaycan üçün hasil etdiyi maye qazın Şərqi Avropaya (əsasən Rumıniya və Macarıstana) nəqlində alternativ yol kimi, Rumıniya üçün isə idxal edilən təbii qazın diversifikasiyası baxımından mühüm əhəmiyyət daşıyır[42]. Bu layihənin həyata keçirilməsi yaxın illərdə daxili istehlak bazarında təbii qaza tələbatının artacağı gözlənilən Rumıniya üçün enerji təhlükəsizliyinin möhkəmləndirilməsi ilə əlaqədar strateji əhəmiyyət daşıyır. Azərbaycan və Rumıniya arasında nəqliyyat sahəsində də əməkdaşlığın inkişaf etdirilməsi planlaşdırılır. Konstansa limanı və Danube çayının üstünlüklərindən yararlanaraq, Qara dəniz və Xəzər dənizi arasında "Yükdaşıma nəqliyyat dəhlizi" layihəsi mal mübadiləsinin artırılması və ticarətin həcminin regional səviyyədə yüksəlməsi üçün geniş imkanlar yaradır[43].

İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsini Azərbaycandan ixrac olunan xam neft təşkil edir. Azərbaycana Rumıniyadan idxal olunan məhsullar arasında kənd təsərrüfatı, kimyəvi yüngül və ağır sənaye

39 Anatol Terzi. Romania–Azerbaidjan, 20 de ani de relatii diplomatice. /20.06.2012/ - http://karadeniz-press.ro/kara/romania-azerbaidjan-20-de-ani-de-relatii-diplomatice/

40 AZERBAIJAN–GEORGIA–ROMANIA–HUNGARY INTERCONNECTOR or the necessary LNG project within the Southern Corridor. // http://www.agrilng.com/agrilng/Home/Istoric

41 Romania face un pas important pentru a reduce dependenta de gazele rusesti. /12.12.2014/ http://m.ziare.com/economie/romania-face-un-pas-important-pentru-a-reduce-dependenta-de-gazele-rusesti-1338261

42 SOCAR: AGRI interconnector is not deadThursday. /24.11.2016/ - http://actmedia.eu/energy-and-environment/socar-agri-interconnector-is-not-dead/66940

43 Rumıniya. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.254

məhsulları üstünlük təşkil edir. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illər üzrə ticarət əlaqələrinin dövriyyəsi əks olunur.

Azərbaycan və Rumıniya arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[44]

İl	İdxal	İxrac
2012	23989,1	59600,6
2013	36452,9	92388,5
2014	55847,4	86252,7
2015	64709.32	83934.47

Rumıniya və Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi bu ölkələrin siyasi, iqtisadi və təhlükəsizlik maraqlarına əsaslanır. XX əsrin sonlarında Şərqi Avropa dövlətlərinin yenidən Qərb təsisatlarına inteqrasiyasından sonra Rumıniya Aİ, xüsusilə NATO ilə keçmiş sovet respublikaları, o cümlədən Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsində mühüm rol oynamışdır. Rumıniya Azərbaycanın Aİ və NATO ilə əməkdaşlığının genişlənməsi və gələcək inkişafına dəstək verən dövlətlərdəndir. Rumıniya NATO standartlarına uyğun olaraq öz təcrübəsini, təhlükəsizlik və müdafiə sektorlarında islahatların həyata keçirilməsi üçün ekspert biliklərinin verilməsini təqdim etməklə Avratlantik məkanla iş təcrübəsini paylaşa bilən NATO üzvü kimi də çıxış edir[45]. Rumıniyanın Azərbaycandakı səfirliyi 4 dəfə NATO-nun ölkədə əlaqələndirici səfiri kimi fəaliyyət göstərmişdir[46].

Əməkdaşlıq üçün mövcud təcrübə və geniş imkanlar iki ölkə arasında əlaqələrin gələcəkdə inkişafı üçün möhkəm əsaslar yaradır.

44 Azərbaycanın xarici ticarət əlaqələri. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

45 Rumıniya. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.254

46 Romania interested in developing economic ties with Azerbaijan. / 24.11.2015/ - http://actmedia.eu/daily/romania-interested-in-developing-economic-ties-with-azerbaijan/61114

Azərbaycan–Bolqarıstan münasibətləri

Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra Şərqi Avropa dövlətlərindən olan Bolqarıstanla da qarşılıqlı əlaqələr yaradılmışdır. Bolqarıstan Respublikası Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 14-də tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il iyunun 5-də qurulmuşdur. Bolqarıstanın Azərbaycanda səfirliyi 1999-cu ilin dekabr ayında fəaliyyətə başlamışdır. 2004-cü il aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstanda Azərbaycan səfirliyinin təsis edilməsi haqqında sərəncam imzalamış və bu ölkədə səfirlik fəaliyyətə başlamışdır.

Şərqi Avropada yerləşən və keçmiş sosialist blokuna daxil olan digər ölkələr kimi, Bolqarıstanla da münasibətlərin qurulması yenicə müstəqillik əldə etmiş Azərbaycan üçün siyasi və iqtisadi əhəmiyyət kəsb edirdi. İki dövlət arasında yeni qurulmuş münasibətlərin inkişafında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Bolqarıstana 29-30 iyun 1995-ci il tarixlərində rəsmi səfəri mühüm yer tutur. Bu, Azərbaycan dövlət başçısının Bolqarıstana ilk rəsmi səfəri idi. Səfər zamanı imzalanan hüquqi sənədlər iki dövlət arasında əlaqələrin gələcək inkişafı üçün böyük əhəmiyyət daşıyırdı. Səfər çərçivəsində iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında 26 maddədən ibarət müqavilə imzalanmışdır. Müqavilədə tərəflər zor işlətməmə və ya zor işlətməklə hədələməmə, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, mübahisələrin dinc yolla nizama salınması, daxili işlərə qarışmama, insan hüquqlarına və əsas azadlıqlarına hörmət, xalqların bərabərliyi və onların öz müqəddəratını təyinetmə hüququ, dövlətlər arasında əməkdaşlıq, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipləri əsasında münasibətlərin inkişaf etdirilməsi, BMT və ATƏT-in rolunu artırmağa səy göstərmək, ikitərəfli məsləhətləşmələri həyata keçirmək, demokratiya və insan hüquqlarının qorunmasına kömək etmək, sülh və sabitlik üçün çalışmaq, Avropada silahların və silahlı qüvvələrin azaldılması prosesinə yardım etmək, nüvə silahının yayılmaması rejiminin

möhkəmləndirilməsi məqsədilə nüvə tərksilahı prosesinə imkan yaratmaq, əməkdaşlığın inkişafı üçün dövlət hakimiyyət orqanlarının nümayəndələri arasında əlaqələri dəstəkləmək, Bolqarıstanda yaşayan azərbaycanlıların və Azərbaycanda yaşayan bolqarların etnik, dil, mədəniyyət və dini özgürlüklərinin tədqiqi, qorunub-saxlanılması və inkişafı üçün zəruri şərait yaratmaq və tədbirlər görmək, ticari-iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafına kömək göstərmək, qarşılıqlı investisiya qoyuluşunu təşviq etmək, neft-kimya, kimya sənayesi, maşınqayırma, elektronika, gəmiqayırma, yüngül sənaye və kənd təsərrüfatı məhsullarının yenidən işlənilməsi, xüsusi avadanlıq istehsalı sahələrində geniş faydalı əməkdaşlıq etmək, hərbi-texniki sahədə əməkdaşlığı inkişaf etdirmək, nəqliyyat sahəsində əməkdaşlığı genişləndirmək, mədəniyyət sahəsində, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq etmək barədə öhdəliklər götürmüşlər[47]. Bu müqavilə iki ölkə arasında bütün sahələri əhatə edən əməkdaşlığın hüquqi əsası kimi çıxış etmişdir.

2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstana rəsmi və digər tədbirlər çərçivəsində səfərlər etmişdir (23-24 sentyabr 2005-ci ildə rəsmi, 13 noyabr 2009-cu il tarixində işgüzar, 3-4 mart 2015-ci il tarixlərində rəsmi səfərlər).

3-4 mart 2015-ci il tarixlərində Bolqarıstana səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Baş nazirinin görüşü zamanı əsas müzakirə olunan məsələlər enerji layihələri, Bolqarıstan şirkətlərinin Azərbaycanda nəqliyyat-infrastruktur layihələrində iştirakı və Azərbaycan şirkətlərinin Bolqarıstana sərmayə yatırma imkanları olmuşdur[48]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rosen Plevneliyevin görüşü zamanı enerji, əczaçılıq, informasiya texnologiyaları, kənd təsərrüfatı və turizm sahələrində ikitərəfli əlaqələr, iki dövlətin Qara dəniz və Xəzər dənizi regionlarında əməkdaşlığın inkişaf etdirilməsi imkanları müzakirə

47 Qasımlı M. Azərbaycan Respublikasının diplomatiya tarixi /Azərbaycan Respublikasının xarici siyasəti, 1991-2003, 2 hissə, II hissə. Bakı: Mütərcim, 2015, s.145

48 Bulgaria PM, Azerbaijan President 'to Unblock Nabucco Project'. /04.03.2015/ - http://www.novinite.com/articles/166965/Bulgaria+PM%2C+Azerbaijan+President+%27to+Unblock+Nabucco+Project%27#sthash.VMd5ZapY.dpuf

edilmişdir. Hər iki ölkənin dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır.

Müxtəlif vaxtlarda Bolqarıstan Respublikası prezidentlərinin Azərbaycana rəsmi və işgüzar səfərləri baş tutmuşdur. Bolqarıstan prezidentləri olmuş Petr Stoyanov (7-8 sentyabr 1998-ci il tarixlərində Bakıda keçirilmiş tarixi İpək Yolunun bərpası üzrə beynəlxalq konfransda iştirak etmək üçün işgüzar, 2-3 dekabr 1999-cu ildə rəsmi səfərlər), Georgi Pırvanov (7-8 oktyabr 2004-cü il tarixlərində rəsmi, 10-12 mart 2008-ci il, 22 yanvar 2009-cu ildə, 30 iyun – 1 iyul 2010-cu il tarixlərində işgüzar, 14-15 noyabr 2011-ci il tarixlərində rəsmi səfərlər) və indiki Prezident Rosen Plevneliyevin Azərbaycana (19-20 sentyabr 2014-cü il tarixlərində Cənub Qaz Dəhlizinin təməlqoyma mərasimində iştirak etmək üçün, 28 iyun 2015-ci ildə Avropa Oyunlarının bağlanış mərasimində iştirak üçün, 28 aprel 2015-ci il və 10 mart 2016-cı il tarixlərində III[49] və IV Qlobal Bakı forumlarının açılış mərasimlərində iştirak məqsədilə işgüzar) səfərləri baş tutmuşdur[50].

İkitərəfli əlaqələr qurulandan hər iki ölkənin parlament rəhbərlərinin, baş nazirlərinin, müxtəlif nazir və digər rəsmilərinin qarşılıqlı səfərləri baş tutmuş, hər iki ölkənin qanunverici orqanlarında parlamentlərarası dostluq qrupları yaradılmışdır.

1999-cu ildə Azərbaycan və Bolqarıstan hökumətləri arasında ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Birgə Komissiya yaradılmışdır. Komissiyanın 4-cü iclası 2016-cı il sentyabrın 29-da Bakıda keçirilmiş, həmçinin iki ölkənin iş adamlarının iştirakı ilə biznes forumu baş tutmuşdur. Forumda Bolqarıstan tərəfindən energetika, kənd təsərrüfatı, yüngül sənaye, metallurgiya sahələrində fəaliyyət göstərən 35 nümayəndə iştirak etmişdir[51]. Tədbirlərdə iki ölkə arasında iqtisadi, energetika, ticarət, nəqliyyat, təhsil, turizm, səhiyyə və digər sahələrdə əməkdaşlıq imkanları

49 President Plevneliev Takes Part in 3rd Global Baku Forum. /28.04.2015/ - http://www.bta.bg/en/c/DF/id/1067450

50 Azərbaycan–Bolqarıstan münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /12.01.2015/ - http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Bolqaristan_munasibetleri__12.01.2015.pdf

51 Маринова Г. 35 компании представят България в Азербайджан. /28.09.2016/ - http://www.bloombergtv.bg/novini/2016-09-28/35-kompanii-predstavyat-balgariya-v-azerbaydzhan

müzakirə olunmuşdur. Qeyd etmək lazımdır ki, hər iki ölkənin yerləşdiyi coğrafi ərazi əlverişli biznes mühiti olmaqla, investisiya qoyuluşuna stimul yaradır. Bolqarıstan Azərbaycan şirkətlərinin bu ölkəyə investisiya yatırmasında maraqlıdır və Azərbaycana meyvə-tərəvəz və onun emalı üzrə texnoloji avadanlığın və tibbi kosmetik preparatların ixracını genişləndirmək niyyətindədir. Azərbaycan və Bolqarıstan arasında iqtisadi əməkdaşlıq baxımından sənaye zonaları və texnoparkların idarə olunması və investisiyaların cəlb olunması üçün təcrübə mübadiləsi sahəsində geniş perspektivlər mövcuddur[52].

İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsini kənd təsərrüfatı, yeyinti, yüngül, kimya və tikinti sənayesi məhsulları təşkil edir. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illər üzrə ticarət əlaqələrinin dövriyyəsi əks olunur.

Azərbaycan və Bolqarıstan arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[53]

İl	İdxal	İxrac
2012	25975,3	597561,5
2013	19574,3	119110,7
2014	63442,1	61154,8
2015	12721.64	497.95

İki ölkə arasında mədəniyyət və elm sahələrində də qarşılıqlı əlaqələr yaradılmışdır. Mədəniyyət sahəsində ikitərəfli əməkdaşlığın dərinləşməsi üçün mühüm addımlar atılmışdır. 2011-ci ilin aprel ayında Bolqarıstanın mədəniyyət naziri Vezhdi Raşidov Mədəniyyətlərarası Dialoq üzrə Dünya Forumunda iştirak etmək üçün Bakıya səfər etmiş, bu səfər zamanı mədəniyyət sahəsində əməkdaşlığa dair hökumətlərarası saziş imzalanmışdır.

1996-cı ildən Bakı Slavyan Universitetində bolqar dili tədris olunur.

52 Михайлов В. Азербайджан е важен партньор за България. /29.09.2016/ - https://fakti.bg/biznes/204134-azerbaidjan-e-vajen-partnyor-za-balgaria

53 Azərbaycanın xarici ticarət əlaqələri. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

2014-cü ilin oktyabr ayından Bakı Slavyan Universitetində Bolqar Dili və Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir. Mərkəzin fəaliyyətinin başlıca məqsədi ikitərəfli mədəni əlaqələrin inkişafı, bolqar dilinin, eləcə də bolqar mədəniyyətinin və tarixinin azərbaycanlı gənclər arasında təbliğidir. Mərkəz universitetdə "Bolqar tədqiqatları" sahəsində təhsilin təkmilləşdirilməsinə yardım edir. 2013-cü ilin sentyabr ayından Müqəddəs Kliment Oxridski adına Sofiya Dövlət Universitetinin nəzdində klassik və müasir filologiya fakültəsinin bir hissəsi kimi Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, Bolqarıstanla Azərbaycan arasında mədəni əlaqələrin inkişafında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın əvəzsiz rolu vardır. Məhz onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə 2015-ci ildə Veliko Tırnovo şəhərindəki "Trapezitsa" memarlıq muzey-qoruğunun yenidən təşkili və mühafizəsi üçün layihə hazırlanmış və işlər həyata keçirilmişdir[54]. Bolqarıstanın Baş naziri layihəyə dəstək verdiyi üçün Azərbaycan Respublikasının Prezidentinə və Mehriban xanım Əliyevaya minnətdarlığını bildirmişdir. "Trapezitsa" memarlıq muzey-qoruğunda fond tərəfindən aparılan yenidənqurma işləri 2016-cı ildə başa çatdırılmışdır. 22 sentyabr 2016-cı ildə "Trapezitsa" tarixi abidəsinin bərpadan sonra açılışı mərasimində Mehriban xanım Əliyeva, həmçinin Bolqarıstanın yüksəksəviyyəli hökumət nümayəndələri, tanınmış elm və mədəniyyət xadimləri iştirak etmişlər[55]. Tarixi qala-abidəyə daxil olan orta əsrlərdə tikilmiş üç kilsədə də təmir və bərpa işləri aparılmışdır[56]. Bolqarlar üçün mühüm tarixi-irsi əhəmiyyət daşıyan orta əsrlər abidəsinin abadlaşdırılması və qapılarının yenidən vətəndaşların üzünə açılması ölkə ictimaiyyəti arasında böyük rəğbətlə qarşılanmışdır. İslam ölkəsi olan Azərbaycana məxsus fondun xristian ölkəsi olan Bolqarıstanda kilsə-abidələrin bərpasında

54 Почетният гражданин на Велико Търново- първата дама на Азербайджан Нейна фондация дарява 1,250 млн. евро за преобразяването на историческия хълм в града. /25.08.2016/ - http://www.bgonair.bg/lyubopitno/2016-08-25/pochetniyat-grazhdanin-na-veliko-tarnovo-parvata-dama-na-azerbaydzhan?utm_source=dnesbox&utm_medium=link&utm_campaign=footer

55 По Трапезица: Средновековна крепост подсили дружбата с Азербайджан. /23.09.2016/ - http://www.dnevnik.bg/bulgaria/2016/09/23/2831688_po_trapezica_srednovekovna_krepost_podsili_drujbata_s/

56 Bulgarian PM, Azerbaijan's First Lady Unveil Renovated Historical Site. /23.09.2016/ - http://www.novinite.com/articles/176439/Bulgarian+PM%2C+Azerbaijan%27s+First+Lady+Unveil+Renovated+Historical+Site

iştirakı mühüm hadisə kimi qiymətləndirilir. Bu hadisəni Azərbaycan dövləti tərəfindən dəstəklənən dinlər və mədəniyyətlərarası dialoqun əyani sübutlarından biri kimi də dəyərləndirmək olar.

Qeyd etmək lazımdır ki, Bolqarıstan mediasında bu hadisə müsbət əks-səda doğurmuşdur.

Azərbaycan və Bolqarıstanın regionları və əyalət şəhərləri arasında da əməkdaşlıq əlaqələri qurulmuşdur (Şəki–Qabrovo, Qusar–Bansko, Sumqayıt–Burqas, Gəncə–Varna, Gəncə–Plovdiv, Qəbələ–Velinqrad, Naxçıvan–Veliko Tırnovo).

Bolqarıstan Azərbaycanla ikitərəfli əlaqələrdə əsasən enerji və iqtisadi layihələrə maraq göstərir. Bolqarıstan Azərbaycan qazının Avropaya nəqlinə hesablanmış "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində maraqlıdır və Azərbaycanı ölkəyə idxal olunan təbii qazın diversifikasiyası üçün mühüm amil kimi qiymətləndirir. Yaxın illərdə ölkəyə idxal edilən təbii qazın diversifikasiyası üçün mümkün variantlar arasında Azərbaycan ən realıdır. Bu baxımdan TAP boru kəməri layihəsinin başa çatmasından sonra Azərbaycandan Avropaya idxal ediləcək təbii qazın Bolqarıstana da çatdırılması rəsmi Sofiya üçün enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır[57]. İki ölkə arasındakı mövcud razılaşmaya əsasən, 2020-ci ildən Bolqarıstan Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya idxal olunacaq Azərbaycana məxsus təbii qazın 1 milyard m^3-ni alacaqdır[58].

Cənub Qaz Dəhlizinin infrastrukturu üçün Məsləhət Şurasının iclaslarının Bakıda keçirilməsi Avropa İttifaqına üzv ölkələr, o cümlədən Bolqarıstan üçün Azərbaycanın vacibliyini və etibarlığını göstərir. Məsləhət Şurasının 12 fevral 2015-ci il və 29 fevral 2016-cı il tarixlərində Bakıda keçirilən hər iki iclası zamanı Bolqarıstanı energetika naziri təmsil etmişdir[59].

Bolqarıstan Azərbaycan təbii qazının Avropa bazarına daşınmasında mühüm rol oynayan ölkələrdəndir. Azərbaycan Respublikasının

57 Димитров П. Азербайджанският газ и активизирането на балканската енергийна геополитика. /17.08.2016/ - http://geopolitica.eu/actualno/1993-azerbaydzhanskiyat-gaz-i-aktiviziraneto-na-balkanskata-energiyna-geopolitika

58 България и Азербайджан планират газови доставки от 2020 г. /29.09.2016/ - http://www.dnevnik.bg/biznes/companii/2016/09/29/2834752_bulgariia_i_azerbaidjan_planirat_gazovi_dostavki_ot/?&_ga=1.103851145.80823274.1420532830&ref=id

59 Xristova Maya. Bolqarıstan–Azərbaycan siyasi münasibətlərinin formalaşması prosesi. /03.11.2016/ - http://newtimes.az/az/politics/4895

Prezidenti İlham Əliyevin və Avropa İttifaqının Xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerininin iştirakı ilə imzalanan Məsləhət Şurasının Birgə Bəyannaməsində[60] birləşdirici ölkələr olan digər dövlətlərlə yanaşı Bolqarıstan da Cənub Qaz Dəhlizi infrastrukturunun ayrılmaz hissəsi kimi qeyd edilmişdir.

Azərbaycan və Bolqarıstan arasında üzv olduqları Birləşmiş Millətlər Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlar çərçivəsində də əməkdaşlıq mövcuddur. Bolqarıstan NATO-nun fəaliyyəti ilə bağlı Azərbaycanda baş verən hadisələri və müzakirələri fəal şəkildə dəstəkləyir. 2018-cı ilin 1 iyul – 31 dekabr tarixləri arasında Avropa İttifaqı Şurasına sədrliyi rotasiya üzrə Bolqarıstan həyata keçirəcəkdir. Sədrlik müddəti dövründə Bolqarıstan Aİ-nin hüquqi nizamlayıcı aktlarının hazırlanması və tətbiqində, Aİ gündəliyində prioritetlərin formalaşdırılması və həyata keçirilməsində, həmçinin Aİ-yə üzv və bu qurumla əməkdaşlıq etmək istəyən digər ölkələrin maraqlarının təmsil olunmasında mühüm rol oynamaq imkanı qazanacaqdır. Bu hadisə Bolqarıstanla geniş əlaqələrə malik Azərbaycanın Aİ ilə əlaqələrinin inkişaf etdirilməsində əhəmiyyətli rol oynaya bilər.

Avropa ilə Çini birləşdirəcək Yeni İpək Yolu nəqliyyat dəhlizi layihələrində hər iki ölkənin iştirakı Azərbaycan və Bolqarıstan arasında iqtisadi əlaqələrin inkişafı üçün yeni imkanlar yaradacaqdır.

Nəticə

Mərkəzi və Şərqi Avropa coğrafi baxımdan eyni məkanda yerləşsə və eyni siyasi-iqtisadi, habelə hərbi birliklərdə (Avropa İttifaqı, NATO) təmsil olunsa da, onların xarici siyasətlərində əks olunan ümumi, qrup və eyni zamanda fərdi maraqları mövcuddur. Bu dövlətlər ümumi maraqlar və onların həyata keçirilməsi strategiyası irəli sürən Avropa İttifaqı və NATO kimi siyasi, iqtisadi və hərbi birliklərdə təmsil olunurlar. Digər tərəfdən, Mərkəzi və Şərqi Avropa dövlətlərinin qruplar şəklində iştirak etdiyi "Vışeqrad 4" və "Regional 16+1" kimi əməkdaşlıq

60 Joint Declaration of the second Ministerial Meeting of Southern Gas Corridor - European Commission - European Commission. /29.02.2016/ - https://ec.europa.eu/commission/2014-2019/sefcovic/announcements/joint-declaration-second-ministerial-meeting-southern-gas-corridor_en

platformaları da mövcuddur. Bu dövlətlərdən bəziləri Avratlantik təşkilatlarda iştirak etmələrinə baxmayaraq, Avropa İttifaqı və NATO üzvü olmayan dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsində də maraqlıdırlar. Onlardan bir neçəsi Avropa İttifaqının şərqə doğru genişlənməsi və ya keçmiş SSRİ respublikaları ilə Avropa İttifaqı arasında münasibətlərin inkişaf etdirilməsində vasitəçi kimi çıxış edirlər. Bu baxımdan Polşa Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının əsas təşəbbüskarlarından biri kimi çıxış etmişdir. 1991-ci ildə yaradılmış "Vışeqrad" qrupunda 4 Şərqi Avropa dövləti (Polşa, Macarıstan, Çexiya, Slovakiya) təmsil olunur. Yaradılmasının başlıca məqsədi Mərkəzi Avropa dövlətlərinin Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirmək olan, qeyri-formal, üzvlərinin heç bir öhdəliyi olmayan "Vışeqrad" qrupu hazırda da məşvərət xarakterli birlikdir. "Vışeqrad" üzvlərini hər hansı bir məsələdə ümumi maraqlar birləşdirdikdə qrup səmərəli fəaliyyət göstərir. Xarici siyasətdə də belə yanaşma aktualdır. Azərbaycanla münasibətlər məsələsində qrupda təmsil olunan dövlətlərin münasibətləri ziddiyyət təşkil etmir. Qrup üzvləri müxtəlif vaxtlarda ayrı-ayrılıqda Azərbaycanla münasibətlərdə fəallıq nümayiş etdirirlər. Qrup üzvlərindən Azərbaycanla münasibətlərdə Macarıstan və Polşa daha aktiv olmuşdur.

Macarıstan təqribən 2010-cu ildən sonra Şərqə doğru əməkdaşlığın inkişaf etdirilməsini xarici siyasətində əsas prioritetlərdən biri kimi həyata keçirməyə başlamışdır. Belə ki, 2010-cu ildə Viktor Orbanın rəhbərlik etdiyi hökumət "Şərqə açılış siyasəti" konsepsiyasını irəli sürmüşdür. Bu konsepsiyanın başlıca məqsədi Şərqi Avropa (xüsusilə Rusiya, Ukrayna, Moldova), Asiya (xüsusilə Çin), Orta Şərq, Qafqaz dövlətləri, o cümlədən Azərbaycanla ilk növbədə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi idi. "Şərqə açılış siyasəti" konsepsiyasının məqsədlərinə uyğun olaraq bir sıra dövlətlərdə, o cümlədən Azərbaycanda rəsmi Budapeştin dəstəyi ilə "Macar Ticarət Evi" adlı mərkəzlər açılmışdır. Ukrayna münaqişəsi ilə əlaqədar Qərb və Rusiya arasında münasibətlərin gərginləşməsindən sonra rəsmi Budapeşt tərəfindən "Şərqə açılış siyasəti"nin təşviqinin zəifləməsinə baxmayaraq, bu strategiyada əsas dövlətlərdən biri kimi nəzərdən keçirilən Azərbaycanla qarşılıqlı mənfəətli şərtlər əsasında əlaqələri genişləndirmək məqsədilə Macarıstan yeni imkanlar və sahələri araşdırmaqdadır. Bu baxımdan son illərdə Azərbaycanla müxtəlif sahələr üzrə əməkdaşlıq

inkişaf etdirilir. Son illər Macarıstan ikitərəfli münasibətlərlə yanaşı, Azərbaycanın da təmsil olunduğu çoxtərəfli əməkdaşlıq platformalarında iştiraka maraqlı olduğunu nümayiş etdirir. Belə ki, Macarıstan son dövrlər Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası ilə əlaqələri genişləndirir. Macarıstan Parlamenti Türkdilli Ölkələrin Parlament Assambleyasında müşahidəçi statusunda iştirak edir.

Polşanın Azərbaycan və digər keçmiş SSRİ respublikalarına xarici siyasətdə yanaşması öz əsasını Birinci və İkinci Dünya müharibələri arasında dövlətin başlıca xarici siyasət strategiyası olmuş "Intermarium" (polyak dilində "Międzymorze" – "Dənizlərarası" konsepsiyanın başlıca məqsədi Baltik–Qara–Adriatik dənizləri arasında yerləşən dövlətlərin federativ formada əməkdaşlığının inkişaf etdirilməsidir) və onu tamamlayan "Prometeizm"dən (Rusiya imperiyası və sonralar isə SSRİ tərkibində olan respublikalarda milli-azadlıq hərəkatlarının dəstəklənməsi. Bu konsepsiya əsasında 1926-cı ildə rəsmi Varşavanın dəstəyi ilə yaradılmış təşkilata Avropada mövcud olan Azərbaycan mühacirət hərəkatı da qoşulmuşdur) götürür. Yenidən tam müstəqillik qazandıqdan sonra Polşa istər Şərqi Avropada, istərsə də keçmiş SSRİ respublikalarına doğru mövcud geosiyasi vəziyyətə uyğunlaşdırılmış əməkdaşlıq konsepsiyalarını dəstəkləyir. Polşanın bu strategiyasında Azərbaycan da yer almışdır. Polşa İsveçlə birlikdə 2009-cu ildə irəli sürülən Avropa İttifaqının 6 keçmiş postsovet respublikası, o cümlədən Azərbaycanla əlaqələrin inkişaf etdirilməsini nəzərdə tutan "Şərq tərəfdaşlığı" proqramının əsas təşəbbüskarı olan dövlətlərdən biri kimi çıxış edir. 2015-ci ildə keçirilmiş prezident və parlament seçkilərində qələbə qazanan, xarici siyasət məsələlərində "Intermarium" və "Prometeizm" strategiyalarının tərəfdarı kimi tanınan Hüquq və Ədalət Partiyası, müasir dövrün reallıqlarına uyğun olaraq, region və postsovet respublikaları ilə əməkdaşlığı inkişaf etdirmək üçün səylərini davam etdirməkdədir. Prezident Andjey Duda xarici siyasətdə "Intermarium" konsepsiyasına əsaslanacağını bəyan etmişdir. Artıq ölkə Prezidenti və hökumətinin ABŞ və NATO ilə əlaqələrin genişlənməsi, Mərkəzi və Şərqi Avropa ölkələri ilə yeni əməkdaşlıq modellərinin qurulması, keçmiş sovet respublikaları ilə münasibətlərin inkişaf etdirilməsi istiqamətində fəallığı hiss edilməkdədir. Bu isə Azərbaycanın Polşa və bütövlükdə region ölkələri ilə əməkdaşlığının inkişafına şərait yaradan amildir. Belə

ki, "Intermarium" konsepsiyasının müasir forması Azərbaycanın da sıx əməkdaşlıq etdiyi Qara dəniz hövzəsi dövlətlərini də əhatə edir. Digər tərəfdən, 1992-ci ildə yaradılan, Azərbaycanın da təsisçi kimi iştirak etdiyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında Polşa dövləti də müşahidəçi kimi təmsil olunur. Eyni zamanda nəzərə almaq lazımdır ki, SSRİ-nin süqutundan sonra Avrasiyada müstəqil dövlətlərin yaranması nəticəsində geosiyasi və iqtisadi baxımdan Qara dəniz regionu ilə Xəzər regionu sıx əlaqələndirilir. Hətta son zamanlar daha çox "Xəzər və Qara dəniz regionu" termini işlədilir. Bu baxımdan Azərbaycanın təkcə Polşa ilə deyil, digər region dövlətləri ilə əməkdaşlığının inkişaf etdirilməsi üçün yeni imkanlar yaranır.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində mövqeyinin beynəlxalq aləmdə müdafiəsi və ölkənin ərazi bütövlüyünün bərpasında Azərbaycan üçün dünyanın digər regionlarında yerləşən ölkələr kimi, Mərkəzi və Şərqi Avropa dövlətlərinin də mövqeyi əhəmiyyətlidir. Bu dövlətlər tərəfindən münaqişə ilə bağlı Azərbaycanın mövqeyinin dəstəklənməsi bir tərəfdən onların hərbi təzyiq vasitəsilə dövlətlərin ərazi bütövlüyünün pozulmasını qadağan edən beynəlxalq hüquqi prinsipə əsaslanmaları və Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlı olmaları, digər tərəfdən isə bu coğrafi məkanda yerləşən bir sıra dövlətlərin analoji problemlərlə üzləşməsi ilə izah oluna bilər. Azərbaycanın dövlətlərin ərazi bütövlüyünün pozulmaması prinsipinə əsaslanan mövqedən davamlı olaraq çıxış etməsi göstərilən dövlətlərin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə oxşar mövqedən yanaşmaları üçün əsas yaradır. Son illər yaşanan Ukrayna münaqişəsindən sonra isə bütün Avropa İttifaqı üzvləri kimi, bu dövlətlərdə də müasir dövrdə dövlətlərin ərazilərinin silahlı münaqişələr vasitəsilə dəyişdirilməsinin yolverilməzliyi haqqında mövqeyin daha da möhkəmləndiyi müşahidə edilir.

İqtisadi əlaqələr baxımından Azərbaycanın əsas ticarət tərəfdaşı olan Avropa İttifaqı ilə əlaqələrin inkişaf etdirilməsi, transkontinental nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsi və postneft dövründə xarici investisiyaların ölkəyə cəlb olunmasında Mərkəzi və Şərqi Avropa dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi müsbət rol oynaya bilər.

Azərbaycanın Cənubi və Cənub-Şərqi Avropa ölkələri ilə münasibətləri

*Nurlan Əliyev**

Giriş

Cənubi və Cənub-Şərqi Avropa ölkələri olan İtaliya və Yunanıstanla Azərbaycan arasında intensiv münasibətlərin formalaşması prosesi müstəqillik dövrünə təsadüf edir. Lakin Azərbaycanla İtaliya arasında ilkin münasibətlərin yaranması tarixin daha qədim dövrlərinə gedib çıxır.

Azərbaycan–İtaliya münasibətləri

İtaliya Avropa ölkələri arasında Azərbaycanla orta əsrlərdən başlayaraq münasibətləri olan ölkələrdəndir. Belə ki, XVI əsrdən başlayaraq Səfəvilər və həmin dövrdə mövcud olmuş İtaliya dövlətləri arasında diplomatik və ticari əlaqələr mövcud olmuşdur. İki ölkə arasında iqtisadi əlaqələr Azərbaycanın Rusiya imperiyası tərkibində olduğu dövrdə yaranmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdə iki ölkə arasında müstəqil əlaqələr qurulmuşdur. Paris sülh konfransının qərarı ilə Azərbaycan üzərində mandat İtaliyaya verilmiş, lakin həmin mandat reallaşdırılmamışdı. Həm AXC-nin mövcud olduğu, həm də bolşeviklər tərəfindən işğal edildikdən sonrakı dövrlərdə ölkə ərazisində İtaliya nümayəndəliyi və şirkətləri fəaliyyət göstərmişdir. İkinci Dünya müharibəsi illərində azərbaycanlılar İtaliyada partizan hərəkatında iştirak etmişlər. Azərbaycan SSRİ tərkibində olarkən mərkəz vasitəsilə İtaliya ilə əlaqələr mövcud olmuşdur. Qardaşlaşmış şəhərlər olan Bakı ilə Neapol arasında sıx əlaqələr qurulmuşdu[1].

Yenidən müstəqillik qazandıqdan sonra Azərbaycanla İtaliya arasında rəsmi əlaqələrin qurulması XX əsrin 90-cı illərinin əvvəlinə təsadüf

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru*

1 Qasımov M. Başəriyyətin sağ qalması naminə. Bakı: Azərnəşr, 1991, s.56; Гасымлы М. Дж. Азербайджан в международных культурных связях (1946-1990 гг.). Тбилиси: Артануч, 2005, с.242

edir. İtaliya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 1-də tanımış, 1992-ci il mayın 8-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1997-ci ilin mart ayında İtaliyanın Azərbaycanda, 2003-cü ilin dekabr ayında isə Azərbaycanın İtaliyada səfirlikləri təsis edilmişdir. Diplomatik münasibətlərin qurulmasından sonrakı ötən dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında əsas kimi çıxış edən müqavilə və sənədlər imzalanmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi 24-27 sentyabr 1997-ci il tarixlərində İtaliyaya ilk rəsmi səfər etmişdir. Prezident İlham Əliyev İtaliyada həm rəsmi (24-26 fevral 2005-ci il, 25-26 noyabr 2008-ci il, 2 iyun 2011-ci il, 14-15 iyul 2014-cü il), həm də işgüzar (8-10 iyul 2015-ci il) səfərlərdə olmuşdur[2]. 2005-ci il fevralın 25-də Bakıda keçirilən Azərbaycan–İtaliya Biznes Forumunda iştirak edən Prezident İlham Əliyev çıxışında iki dövlət arasında əlaqələrin inkişaf perspektivinə toxunaraq Azərbaycanın enerji daşıyıcılarının nəqli sahəsində etibarlı alternativ əraziyə çevriləcəyini, bu istiqamətdə Avropa İttifaqı ilə sıx işlərin aparıldığını və buna görə də İtaliya ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinin çox vacib bir element kimi çıxış etdiyini vurğulamışdır: "Bizim İtaliya ilə hökumətlər, siyasətçilər, parlament təmsilçiləri səviyyəsində çox gözəl əlaqələrimiz var. Eyni zamanda, mən ümid edirəm ki, bu cür münasibətlər iş adamları arasında da inkişaf edəcəkdir"[3]. Prezident İlham Əliyevin 14-15 iyul 2014-cü il tarixlərində İtaliyaya rəsmi səfəri çərçivəsində iki ölkə arasında müxtəlif sahələri əhatə edən mühüm hüquqi sənədlər imzalanmışdır. Bu sənədlər arasında Azərbaycan Prezidenti İlham Əliyev və İtaliyanın Baş naziri Matteo Renzi tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" xüsusi önəm daşıyır. Belə ki, bu bəyannamənin qəbul edilməsi ilə iki dövlət arasında mövcud olan əlaqələr daha da möhkəmlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, siyasi, təhlükəsizlik, müdafiə, iqtisadiyyat, mədəniyyət sahələrində münasibətlərin genişlənməsi və regionlararası əlaqələrin möhkəmləndirilməsi üçün yeni perspektivlər yaranmışdır.

2 Azərbaycan–İtaliya münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /07.10.2013/- http://www.mfa.gov.az/files/file/Azerbaycan%20-%20Italiya%20munasibetleri.pdf

3 Azərbaycan–İtaliya Biznes Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin nitqi. /25.02.2005/- http://archive.president.az/articles.php?item_id=20070816103354478&sec_id=11

Qeyd edək ki, bəyannamədə həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə qarşılıqlı maraq doğuran istiqamətlərdə əməkdaşlığın genişlənməsi nəzərdə tutulur[4].

Prezident İlham Əliyevin rəsmi səfəri çərçivəsində iki dövlət arasında əlaqələrin inkişafı üçün digər önəmli hüquqi sənədlər də imzalanmışdır. Bunların arasında "Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Respublikası Hökuməti arasında dəniz nəqliyyatı haqqında Saziş", "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi ilə İtaliya Respublikasının İqtisadi İnkişaf Nazirliyi arasında iqtisadi əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs, Mədəniyyət Fəaliyyətləri və Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə İtaliya Respublikası Nazirlər Şurası Sədrliyinin Regional Məsələlər, Muxtariyyətlər və İdman Departamenti – İdman Ofisi arasında idman əməkdaşlığına dair Anlaşma Memorandumu"[5] və s. bu kimi sənədləri qeyd etmək olar.

Ötən illər ərzində Milli Məclis Sədrinin, hər iki ölkənin müxtəlif nazir və digər rəsmilərinin qarşılıqlı səfərləri baş tutmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan–İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupu, İtaliya Senatında isə İtaliya–Azərbaycan dostluq qrupu fəaliyyət göstərir.

Ötən illər ərzində iki ölkə arasında iqtisadi əlaqələr müəyyən inkişaf dövrü keçmişdir. İtaliya şirkətləri Azərbaycanla iqtisadi əlaqələrin genişləndirilməsinə, ölkəyə investisiyaların qoyulmasına maraq göstərirlər. İkitərəfli iqtisadi əlaqələrin inkişafında İtaliya–Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə italyan şirkətlərinin nümayəndələrinin Azərbaycana səfərləri əhəmiyyətli rol oynayır. Azərbaycanda tikinti, infrastruktur, İKT, kənd təsərrüfatı, turizm və digər sahələrdə yüzlərlə İtaliya şirkəti təmsil olunur. İtalyan şirkətləri Azərbaycanda əsasən logistika, alternativ enerji, avadanlıq, tikinti, kənd təsərrüfatı, aqrokompleks, sertifikatlaşdırma və yeyinti sənayesi,

4 Italia–Azerbaigian, alleanza strategica. /08.08.2014/ - http://www.iltempo.it/esteri/2014/08/08/news/italia-azerbaigian-alleanza-strategica-950578/

5 Azərbaycan–İtaliya sənədləri imzalanmışdır. /14.07.2014/ - http://www.president.az/articles/12390

zərgərlik və s. sahələrdə iştirak etməyə maraq göstərir[6].

Azərbaycan 2013-cü ildən etibarən İtaliyanın neft üzrə birinci təchizatçısıdır. Hazırda İtaliya Azərbaycanın ilk 5 təchizatçısı arasında yer alır və beləliklə, ölkənin həyata keçirdiyi diversifikasiya və islahatlar mərhələsində əsas iri ticarət və iqtisadi tərəfdaşlardan birinə çevrilir[7]. Qeyd etmək lazımdır ki, 2015-ci ilin yanvar-dekabr aylarında Azərbaycan ixracatında xüsusi çəkisi çox olan dövlətlər (milyon ABŞ dolları ilə) sırasında İtaliya birinci yerdə olmuşdur. Eyni zamanda, 2015-ci ilin yanvar-dekabr aylarında xarici ticarət dövriyyəsində xüsusi çəkisi çox olan dövlətlər (milyon ABŞ dolları ilə) arasında da İtaliya birinci yerdə qərar tutmuşdur. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illər üzrə ticari əlaqələrin dövriyyəsi əks olunur.

Azərbaycan və İtaliya arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[8]

İl	İdxal	İxrac
2012	261622,1	5547994,0
2013	249256,9	5989658,2
2014	272643,4	4805617,6
2015	587767.53	2254330.5

Xəzər hövzəsində hasil edilən təbii qazın Avropaya çatdırılması üçün yaradılan "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində də iki dövlətin iştirakı iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır. Belə ki, layihə çərçivəsində inşa edilən Transadriatik Qaz Boru Kəməri (TAP) ilə Azərbaycan qazının İtaliya üzərindən Avropaya nəqli nəzərdə tutulur.

2016-cı ilin iyun ayında Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində ARDNŞ, İtaliyanın SACE ixrac kredit agentliyi, Rusiyanın "Qazprombank" və EXIAR ixrac kreditləri və investisiyaların

6 Цурков М. Италия будет инвестировать в Азербайджан. /19.04.2016/ - http://www.trend.az/business/economy/2521634.html

7 İtaliya Respublikası. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.149

8 Azərbaycanın xarici ticarət əlaqələri, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

sığortalanması agentliyi arasında Azərbaycanda qaz-kimya kompleksinin maliyyələşdirilməsi və tikintisi üzrə qarşılıqlı anlaşma memorandumu imzalanmışdır. Yeni irimiqyaslı neft-kimya layihəsi Azərbaycanda qaz emalı və qaz-kimya zavodlarının tikintisini nəzərdə tutur. Layihənin ümumi investisiya dəyəri, ilkin qiymətləndirməyə əsasən, 3,5 milyard dollar təşkil edir[9].

İki ölkə arasında mədəniyyət sahəsində də əlaqələr inkişaf etməkdədir. Azərbaycan tərəfindən İtaliyada bir sıra tarixi abidələrin bərpası üçün layihələr həyata keçirilmişdir. Bu sahədə Heydər Əliyev Fondunun layihələri xüsusi önəm daşıyır. İtaliyanın paytaxtı Roma şəhərində bir sıra qədim, tarixi abidələrin bərpasında Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun iştirakı iki ölkə arasında mədəni əlaqələrin inkişafına təsir etməklə yanaşı, İtaliya ictimaiyyəti arasında ölkəmizin müsbət imicinin formalaşdırılması və möhkəmləndirilməsi baxımından da mühüm rol oynayır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə İtaliyada Kapitolini Muzeyinin "Filosoflar zalı"nda həyata keçirilmiş təmir və bərpa işləri[10] də ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. 2013-cü ildən Heydər Əliyev Fondu Azərbaycanı İtaliyanın regionlarında daha yaxından tanıtmaq üçün yeni layihənin həyata keçirilməsinə başlamışdır. Belə ki, bu layihə çərçivəsində Azərbaycan mədəniyyəti ölkənin regionlarında təbliğ olunur.

2016-cı ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hüquqi bazasının və idarəetmə sisteminin modernləşdirilməsi məqsədilə Aİ-nin maliyyə dəstəyi ilə İtaliyanın Mədəni İrs, Mədəniyyət Fəaliyyətləri və Turizm Nazirliyi tərəfindən layihə həyata keçirilməyə başlanılmışdır. Bu ikiillik layihə çərçivəsində nazirliyin hüquqi, struktur, idarəetmə və milli mədəni irsinin (o cümlədən maddi və mənəvi abidələrin, muzey və kitabxanaların) effektiv idarə olunması məqsədilə yeni modelin yaradılması, mədəni irsin müdafiə və mühafizəsi üçün fəaliyyət planının hazırlanması nəzərdə tutulur[11].

9 Azərbaycanda Rusiya və İtaliyanın iştirakı ilə qaz emalı və qaz-kimya zavodlarının tikintisi nəzərdə tutulur. /18.06.2016/ - http://az.trend.az/business/energy/2547275.html

10 Marino "offer" Roma ai paperoni stranieri. /12.02.2014/ - http://www.iltempo.it/cronache/2014/02/12/news/marino-offre-roma-ai-paperoni-stranieri-927037/

11 Азербайджан является очень важным партнером ЕС и Италии – посол, Анаханум Хидаятова. /15.03.2016/ - http://www.trend.az/azerbaijan/politics/2507313.html

Bundan başqa, İtaliyada azərbaycanlı müəlliflərə məxsus nəşrlərin təqdimatı keçirilir. 2016-cı ilin fevral ayında müəllifi Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayev olan "Bir səfirin manifesti" kitabının İtaliyada təqdimatı təşkil edilmişdir. Azərbaycanın bu ölkədəki səfirliyinin və İtaliyanın Beynəlxalq Təşkilatlar üzrə Cəmiyyətinin (SIOI) birgə təşkilatçılığı ilə keçirilmiş "Azərbaycan diplomatiyasının tarixi və gələcəyi" mövzusundakı konfrans çərçivəsində baş tutan təqdimatda diplomatlar, ictimai xadimlər, siyasi və elmi dairələrin, həmçinin kütləvi informasiya vasitələrinin nümayəndələri, Romada təhsil alan azərbaycanlı tələbələr iştirak etmişlər[12].

Təhsil sahəsində də əməkdaşlıq qurulmuşdur. İtaliyanın bir sıra universitetlərində Azərbaycandan olan tələbələr ali təhsil alırlar. Azərbaycan Diplomatik Akademiyası ilə İtaliyanın La Sapienza Universiteti arasında mədəni və elmi əməkdaşlığa dair saziş imzalanmışdır.

İki dövlət arasında münasibətlərin güclü siyasi əsası və etibarlı tərəfdaşlıq mövcuddur, iqtisadi və mədəniyyət sahələrində də əməkdaşlıq inkişaf etməkdədir. İtaliya ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi Azərbaycan üçün təkcə iqtisadi cəhətdən deyil, həm də siyasi baxımdan böyük əhəmiyyət kəsb edir. Belə ki, Aİ-nin üzvü olan aparıcı dövlətlərdən biri kimi İtaliya ilə əlaqələrin genişləndirilməsi Azərbaycanın Aİ ilə əlaqələrinin inkişafında mühüm rol oynaya bilər. İtaliya Azərbaycanla Aİ arasında əlaqələrin yeni müstəvidə, strateji tərəfdaşlıq formasında inkişafını dəstəkləyir. Qeyd edək ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yaradılmış ATƏT-in Minsk Qrupunun üzv dövlətlərindən biri olan İtaliyanın Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, Dağlıq Qarabağ münaqişəsinin BMT-nin müvafiq 4 qətnaməsi çərçivəsində həll edilməsi ilə bağlı mövqeyi Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir. 2018-ci ildə ATƏT-ə sədrlik edəcək[13] və eyni zamanda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi İtaliya Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində müəyyən rol oynaya bilər.

12 Italia e Azerbaigian: relazioni economiche e culturali sempre più strette, Aggiunto da Redazione. /05.02.2016/ - http://www.ilprimatonazionale.it/esteri/italia-azerbaigian-relazioni-economiche-culturali-piu-strette-39368/

13 OSCE: Italy elected to 2018 chairmanship. /28.07.2016/ - http://www.esteri.it/mae/en/sala_stampa/archivionotizie/comunicati/2016/07/osce-presidenza-2018-all-italia.html

Azərbaycan və İtaliya arasında siyasi, iqtisadi, mədəniyyət, təhsil, enerji və digər sahələrdə strateji müttəfiqlik səviyyəsində olan əlaqələrin daha da intensivləşməsi üçün geniş imkanlar mövcuddur. Bu imkanlar iki dövlət arasında münasibətlərin gələcək inkişafı üçün əlverişli şərait yaradır.

Azərbaycan–Yunanıstan münasibətləri

Azərbaycanla Yunanıstan arasında rəsmi əlaqələr 1992-ci ildə yaradılmışdır. Yunanıstan Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 31-də tanımış, 1992-ci il aprelin 2-də iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. 1993-cü il mayın 27-də Yunanıstanın Azərbaycanda, 2004-cü il aprelin 16-da isə Azərbaycanın Yunanıstanda səfirlikləri təsis edilmişdir. Diplomatik münasibətlərin yaradılmasından sonrakı ötən dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında əsas kimi çıxış edən hüquqi sənədlər imzalanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yunanıstana rəsmi səfər (12-16 avqust 2004-cü il tarixlərində XXVIII Yay Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək məqsədilə işgüzar və 16-17 fevral 2009-cu il, 16-17 iyun 2014-cü il tarixlərində dövlət səfərləri) etmişdir. Yunanıstanın keçmiş prezidentləri Konstantinos Stefanopulos (20-22 iyun 2004-cü il) və Karolos Papuliasmin (5-6 aprel 2011-cı il) Azərbaycanda rəsmi səfərdə olmuşlar[14].

Rəsmi münasibətlər qurulandan Milli Məclis Sədrinin, hər iki ölkənin nazirlərinin və digər rəsmilərinin qarşılıqlı səfərləri baş tutmuşdur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan–Yunanıstan, Yunanıstan parlamentində isə Yunanıstan–Azərbaycan parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir.

Bu illər ərzində iki ölkə arasında iqtisadi əlaqələr də xeyli inkişaf etmişdir. Azərbaycan Respublikası hökuməti və Yunanıstan Respublikası hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq üzrə Birgə Komissiyanın iclasları 10-11 aprel 2003-cü ildə Bakıda, 5-6 iyul 2007-ci ildə Afinada və 1-3 fevral 2011-ci ildə yenidən Bakıda keçirilmişdir.

14 Azərbaycan–Yunanıstan münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /14.08.2014/ - http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Yunanistan_munasibetleri_14.08.2014.pdf

İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsini Azərbaycandan ixrac olunan xam neft və təbii qaz təşkil edir. Yunanıstandan Azərbaycana ixrac məhsulları arasında dərman preparatları, kağız məmulatları, borucuqlar, alüminium profillər, xəz-dəri məhsulları üstünlük təşkil edir. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illər üzrə ticari əlaqələrin dövriyyəsi əks olunur.

Azərbaycan və Yunanıstan arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[15]

İl	İdxal	İxrac
2012	15204,5	833834,5
2013	4780,1	810325,4
2014	62789,7	255988,3
2015	16175.53	145748.31

Azərbaycanda emal edilən təbii qazı Yunanıstan ərazisindən keçməklə Avropaya nəql edəcək Transadriatik Qaz Boru Kəməri layihəsi hazırda ikitərəfli əlaqələrdə Azərbaycan üçün strateji əhəmiyyət daşıyan məsələdir. Yunanıstan üçün isə TAP ilə yanaşı, ölkə iqtisadiyyatına sərmayə qoyulması prosesində Azərbaycanın iştirakı əhəmiyyət daşıyır. Qaz boru kəmərinin Yunanıstan ərazisində 550 km uzunluğunda inşa edilməsi nəzərdə tutulur, layihə çərçivəsində ölkəyə 1,5 milyard avro (1,7 milyard ABŞ dolları) həcmində investisiya yatırılacağı və təqribən 8.000 nəfərlik yeni iş yerinin açılacağı gözlənilir[16]. Bu isə dərin iqtisadi böhran yaşamış Yunanıstan üçün mühüm əhəmiyyət kəsb edir. 2016-cı il mayın 17-də Salonikidə TAP qaz boru kəmərinin inşası ilə bağlı açılış mərasimində iştirak edən Yunanıstanın Baş naziri Aleksis Tsipras bu layihənin Yunanıstan və bütövlükdə Aİ-nin enerji təhlükəsizliyində mühüm rol oynayacağını bildirmişdir[17]. Bu tədbirdə Azərbaycan, ABŞ, Aİ, Türkiyə, Gürcüstan rəsmiləri də iştirak etmişlər. TAP-ın Yunanıstan

15 Azərbaycanın xarici ticarət əlaqələri. /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

16 Work begins on Greek leg of Trans-Adriatic gas pipeline. /17.05.2016/ - http://www.ekathimerini.com/208720/article/ekathimerini/business/work-begins-on-greek-leg-of-trans-adriatic-gas-pipeline

17 Trans Adriatic Pipeline Holds Ceremony to Mark Start of Construction. /17.05.2016/ - http://www.tap-ag.com/news-and-events/2016/05/17/trans-adriatic-pipeline-holds-ceremony-to-mark-start-of-construction

ərazisindəki hissəsinin tikinti işləri ilə bağlı sənədlərin imzalanması mərasimində Baş nazir Tsipras tərəfindən layihə Yunanıstan iqtisadiyyatı üçün "yeni era" kimi qiymətləndirilmişdir[18]. Layihə son illər Yunanıstana yatırılmış ən böyük birbaşa xarici investisiyalardan sayılır.

İki ölkə arasında elm və mədəniyyət sahəsində də münasibətlər təşəkkül tapmışdır. 1997-ci il aprelin 11-də "Azərbaycan Respublikası Hökuməti ilə Yunanıstan Respublikası Hökuməti arasında təhsil, mədəniyyət və elm sahələrində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. 2011-ci il aprelin 5-də "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında 2011-2012-2013-cü illər üçün elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair Proqram" qəbul edilmişdir[19].

Ötən dövr ərzində iki ölkənin təhsil müəssisələri arasında əlaqələr qurulmuş, bir sıra layihələr həyata keçirilmişdir. Aİ-nin "TEMPUS" proqramı çərçivəsində Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Musiqi Akademiyası ilə Yunanıstanın İonian və İoannina universitetləri arasında əməkdaşlıq həyata keçirilmişdir. 2004-cü ildə Bakı Slavyan Universitetində Müasir Yunan Dili və Mədəniyyəti Mərkəzi yaradılmış və fəaliyyətini hazırda da davam etdirməkdədir.

Mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr mühüm rol oynayır. Fond digər ölkələrdə olduğu kimi, Yunanıstanda da Azərbaycan mədəniyyətinin təbliği ilə bağlı mühüm tədbirlər gerçəkləşdirir. 2014-cü ildən fond Azərbaycanın Yunanıstandakı səfirliyinin dəstəyi ilə bu ölkədə silsilə tədbirlərin keçirilməsinə başlamışdır. "Azərbaycan musiqisi mövsümü" adlandırılan layihəyə əsasən, Azərbaycanın musiqi korifeylərinin əsərləri Yunanıstanda nümayiş etdirilir. Bu silsilədən ilk tədbir 2014-cü il iyunun 6-da Afinada baş tutmuşdur. Yunanıstanda keçirilən konsert afinalıların "mədəniyyət məbədi" adlandırdıqları və şəhərin ən böyük musiqi kompleksi olan "Meqaro Muzikis"də keçirilmişdir. Klassik musiqi axşamında Azərbaycanın görkəmli bəstəkarları – Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Qara Qarayev, Cahangir Cahangirov, Niyazi

18 Tsipras lauds pipeline deal that SYRIZA once denounced. /17.05.2016/ - http://www.ekathimerini.com/208735/article/ekathimerini/news/tsipras-lauds-pipeline-deal-that-syriza-once-denounced

19 Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında 2011-ci il aprelin 5-də Bakı şəhərində imzalanmış sənədlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /07.06.2011/ - http://www.president.az/articles/2408

və Vaqif Mustafazadənin əsərləri ilə yanaşı, Astor Piazolla, Pablo de Sarasate, Ernesto de Kurtis kimi dünya şöhrətli musiqiçilərin əsərləri də səsləndirilmişdir. Avropa mədəniyyətinin və ümumiyyətlə, Qərb sivilizasiyasının beşiyi hesab olunan Yunanıstanda reallaşdırılan bu konsert Azərbaycan mədəniyyətinin zənginliyini dünyaya bir daha nümayiş etdirmək, tanıtmaq baxımından böyük əhəmiyyət daşıyırdı. Konsertdə Yunanıstanın dövlət və hökumət nümayəndələri, Afinada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, yerli ictimaiyyətin nümayəndələri iştirak edirdi[20].

İki dövlət arasında son 25 ildə münasibətlər formalaşmış, müəyyən inkişaf yolu keçmişdir. Gələcəkdə əlaqələrin inkişafı üçün potensial imkanlar mövcuddur. Yaxın illərdə əlaqələrin inkişafı əsasən qarşılıqlı iqtisadi maraqların uzlaşmasından və habelə Avropada mövcud olan geosiyasi proseslərin inkişaf istiqamətlərindən asılı olacaqdır.

Nəticə

Azərbaycanın xarici siyasətinin prioritetlərindən olan ölkədə istehsal edilən təbii qazın Cənub-Şərqi Avropaya çatdırılmasında Aİ-yə üzv dövlətlər arasında İtaliya, Yunanıstan xüsusi əhəmiyyət daşıyır. Yunanıstan və İtaliya "Cənub Qaz Dəhlizi" layihəsinin bilavasitə iştirakçıları kimi çıxış edirlər. Belə ki, TAP qaz boru kəmərinin region ölkələri arasında Yunanıstan və Albaniyadan keçməklə İtaliyaya çatdırılması nəzərdə tutulur. Təbii qaz yanacağına tələbatının, demək olar ki, bütün hissəsini idxal edən Bolqarıstan üçün idxal olunan qazın diversifikasiyasının həyata keçirilməsində Azərbaycan qazının regiona çatdırılması dövlətin enerji təhlükəsizliyi baxımından önəmlidir. Aİ üzvü olan digər region dövlətləri üçün "Cənub Qaz Dəhlizi" layihəsinin baş tutması və Azərbaycan qazının regiona çatdırılması Cənub-Şərqi Avropanın və bütövlükdə Aİ-nin enerji təhlükəsizliyi strategiyasına uyğun olaraq mühüm əhəmiyyət daşıyır.

20 Heydər Əliyev Fondunun dəstəyi ilə Yunanıstanda Qara Qarayev adına Azərbaycan Dövlət kamera orkestrinin konserti olub. /06.06.2014/ - http://heydar-aliyev-foundation.org/az/content/view/73/3344/Heyd%C9%99r-%C6%8Fliyev-Fondunun-d%C9%99st%C9%99yi-il%C9%99-Yunan%C4%B1standa-Qara-Qarayev-ad%C4%B1na-Az%C9%99rbaycan-D%C3%B6vl%C9%99t-kamera-orkestrinin-konserti-olub

Azərbaycanın Baltikyanı ölkələrlə münasibətləri

*Nurlan Əliyev**

Giriş

Azərbaycan və Baltikyanı ölkələrin uzun müddət Rusiya imperiyası, sonralar isə SSRİ-nin tərkibində olmaları onların arasında iqtisadi və mədəni əlaqələrin təşəkkül tapmasına şərait yaratmışdır. XX əsrin sonlarında Azərbaycan, Latviya, Estoniya və Litvanın yenidən müstəqillik qazanmaları, onların arasında mövcud olan əlaqələr dövlətlərarası münasibətlər formasına keçmişdir.

Azərbaycan–Latviya münasibətləri

Azərbaycan və Latviya xalqları arasında əlaqələr XX əsrin əvvəllərindən mövcud olmuşdur. Bu dövrdə Bakıda Latış Cəmiyyəti fəaliyyət göstərmişdir. Birinci Dünya müharibəsi dövründə Şərqi Anadolu, Balkanlar və digər yerlərdə mövcud olan münaqişə və müharibə ocaqlarından Bakı və Gəncə quberniyalarına, xüsusən də Bakı şəhərinə pənah gətirən minlərlə qaçqına yardım məqsədilə yaradılan, müxtəlif etnik icmalara məxsus xeyriyyə qurumları arasında latış icmasına aid olan Latış Qaçqınlarına Yardım Komitəsi də fəaliyyət göstərmişdir[1]. Cəmiyyətin onlarla tanınmış üzvü olmuşdur. Latviyanın məşhur yazıçıları Ernest Birznieks-Upitis, Pavils Rozitis, Yanis Vainovskis, Auqusts Bertse, rəssam və yazıçı Yanis Yaunsudrabinş, diplomat Antons Balodis, Bakı Opera Teatrının dirijoru, dahi latış bəstəkarı Yazeps Medinş, memar Ervins Paumbats və başqaları bu cəmiyyətdə təmsil olunurdular. Rusiya imperiyası və SSRİ dönəmində hər iki ölkənin eyni siyasi, iqtisadi məkanda olmaları onların arasında əlaqələrin formalaşmasına şərait

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru*

1 Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaçqınlar problemi. / 25.05.2012/ - http://www.xalqqazeti.com/az/news/social/22363

yaratmışdır. İki ölkə arasında dövlətlərarası əlaqələrin təşəkkül tapması XX əsrin sonlarına təsadüf edir. Latviya Azərbaycanın müstəqilliyini 1992-ci il yanvarın 8-də tanımış, iki ölkə arasında diplomatik münasibətlər 1994-cü il yanvarın 11-də qurulmuşdur. Azərbaycanın Latviyadakı səfirliyi 2005-ci ildə, Latviyanın Azərbaycandakı səfirliyi isə 2006-cı ildə təsis edilmişdir.

İkitərəfli münasibətlərin qurulmasından sonrakı dövrdə yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında hüquqi baza kimi çıxış edən müqavilə və sənədlər imzalanmışdır. Müxtəlif dövrlərdə iki dövlət başçılarının qarşılıqlı səfərləri baş tutmuşdur. Prezident İlham Əliyev 3-5 oktyabr 2006-cı il və 16-18 yanvar 2011-ci il tarixlərində Latviyaya rəsmi səfərlər etmişdir. Latviya prezidentləri olmuş xanım Vayra Vike-Freyberqa (2-4 oktyabr 2005-ci il) və Valdis Zatlers (9-13 avqust 2009-cu il) Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olmuşlar[2]. 24-25 aprel 2013-cü il tarixlərində Latviya Prezidenti Andris Berzinşin Azərbaycana rəsmi səfəri baş tutmuşdur. Hazırkı ölkə başçısı Raymonds Veyonis 2015-ci il iyunun 22-də Azərbaycana səfər etmişdir.

2009-cu il avqustun 9-da Azərbaycana rəsmi səfəri zamanı Latviya Prezidenti Valdis Zatlers iki dövlət arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsində xüsusi xidmətlərinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilmişdir. Öz növbəsində, Valdis Zatlers də iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafındakı müstəsna xidmətlərinə görə Prezident İlham Əliyevə "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsini təqdim etmişdir.

Prezident İlham Əliyevin 2006-cı ilin oktyabrında Riqaya səfəri zamanı rəsmi sənədlərin imzalanma mərasimindən sonra dövlət başçılarının birgə mətbuat konfransında Latviya Prezidenti xanım Vayra Vike-Freyberqa iki ölkə arasında əlaqələrin ilbəil inkişaf etdiyini bildirmişdir: "Münasibətlərimizin intensivliyi ildən-ilə artır və hətta, deyə bilərəm ki, aydan-aya inkişaf etməkdə davam edir. Azərbaycana səfərimiz zamanı

2 Azərbaycan–Latviya münasibətləri, ikitərəfli əlaqələr /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi/ - http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20-%20Latviya_.pdf

biz geostrateji əhəmiyyətə malik olan dövlətlə əməkdaşlıq haqqında bir sıra mühüm sazişlər imzalamışıq. Bu gün isə daha 6 sənəd imzalandı və bir neçəsi də hazırlıq mərhələsindədir. Bu gün artıq biz iki ölkə arasında əməkdaşlıq üçün tam və geniş şəkildə hüquqi bazanın olmasından danışa bilərik". Prezident İlham Əliyev mətbuat konfransında iki ölkə arasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişafının əhəmiyyətini və Azərbaycanın Avratlantik məkanla əlaqələrinin inkişafında Latviyanın mühüm rol oynayacağını bildirmişdir: "Latviya artıq öz doğma Avropa ailəsinə qayıtmışdır. Həm NATO-nun, həm də Avropa İttifaqının üzvüdür. Bu, Latviya üçün tarixi nailiyyətdir və Latviyanın dostları kimi, bizi də çox sevindirir"[3]. Prezident İlham Əliyev Latviyanın həmişə olduğu kimi, bundan sonra da Azərbaycanla Aİ arasında münasibətlərin inkişaf etdirilməsinə dəstək verəcəyinə əmin olduğunu bildirmişdir.

İkitərəfli münasibətlər qurulandan bəri iki ölkə arasında parlament rəhbərlərinin, baş nazirlərin, müxtəlif nazir və digər rəsmi şəxslərin qarşılıqlı səfərləri baş tutmuşdur. 2000-ci ildə Milli Məclisdə Azərbaycan–Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupu, 2010-cu ildə isə Latviya parlamentində Latviya–Azərbaycan parlamentlərarası dostluq qrupu yaradılmışdır. Qeyd edək ki, 2015-ci il fevralın 25-də Latviya Seyminin Azərbaycanla parlamentlərarası dostluq qrupunun iclasında Xocalı faciəsi qurbanlarının xatirəsi ehtiramla yad edilmiş və Xocalı soyqırımı ilə əlaqədar Azərbaycanla parlamentlərarası dostluq qrupu adından və ümumilikdə 53 deputatın dəstəyi ilə bəyanat qəbul edilmişdir[4].

Hər iki ölkə müstəqillik əldə etdikdən sonra ikitərəfli iqtisadi münasibətlər də formalaşmağa başlamışdır. 2006-cı ildə yaradılan Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın sonuncu – 6-cı iclası 2016-cı il 14-15 iyun tarixlərində Riqada keçirilmişdir. Hər iki ölkənin iqtisadi yönümlü şirkətləri qarşılıqlı

3 Azərbaycan və Latviya prezidentlərinin birgə mətbuat konfransı. /04.10.2006/ - http://archive.president.az/articles.php?item_id=20070814051314970&sec_id=13

4 Müqavilə-hüquq bazası. /Azərbaycan Respublikasının Latviya Respublikasındakı səfirliyinin internet səhifəsi: http://riga.mfa.gov.az/content/34

olaraq fəaliyyət göstərir, Azərbaycan sərmayəsi Latviyada təmsil olunur. Latviyanın inkişaf etmiş dəniz və hava limanlarına malik olması Azərbaycanın iştirak etdiyi "Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi" layihəsi üçün maraq kəsb edə bilər və bu, iki ölkənin iqtisadi əməkdaşlığı üçün yeni imkanlar açır[5].

Aİ-nin öz tərəfdaşlarına İttifaq tərəfindən ayrılmış vəsait hesabına iqtisadiyyatın müxtəlif sahələrində islahatlar həyata keçirmək üçün köməklik göstərilməsini nəzərdə tutan "Tvinninq" layihəsində iştirak edən Latviya Azərbaycanda bu xətlə 2015-ci ildə iki layihənin həyata keçirilməsinə kömək etmişdir. Bu iki layihə pensiya sistemində islahatlar və Azərbaycanda tikinti sektorunda təhlükəsizliklə bağlıdır[6].

İki ölkə arasında regional səviyyədə də əməkdaşlıq qurulmuşdur. 2014-cü ilin sentyabr ayında Siyəzən və Xızı rayonlarından olan nümayəndə heyətinin Latviyaya səfəri çərçivəsində Valmiyera Şəhər Özünüidarə Duması və Siyəzən Rayon İcra Hakimiyyəti arasında əməkdaşlıq haqqında saziş imzalanmışdır.

Hər iki ölkə arasında ticarət dövriyyəsinin mühüm hissəsini kənd təsərrüfatı, yeyinti, yüngül, neft, kimya və tikinti sənayesi, əczaçılıq məhsulları tutur. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illəri əhatə edən ticarət dövriyyəsi əks olunur.

Azərbaycan və Latviya arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[7]

İl	İdxal	İxrac
2012	8540,8	5716,2
2013	10990,6	2366,6
2014	9685,7	845,5
2015	8342.44	800.47

5 Ināra Mūrniece Baku: saskatām labas iespējas paplašināt ekonomisko sadarbību ar Azerbaidžānu. /03.10.2016/ - http://www.saeima.lv/lv/aktualitates/saeimas-zinas/25161-inara-murniece-baku-saskatam-labas-iespejas-paplasinat-ekonomisko-sadarbibu-ar-azerbaidzanu

6 Latviya Respublikası. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.184

7 Azərbaycanın xarici ticarət əlaqələri. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

İki ölkə arasında elm və təhsil sahəsində də əməkdaşlıq mövcuddur. 2014-cü il yanvarın 16-da Latviya Elmlər Akademiyasının prezidenti akademik Oyars Sparitisin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində olmuş və səfər çərçivəsində Latviya Elmlər Akademiyası ilə AMEA arasında elmi innovasiya potensialı sahəsində ikitərəfli əlaqələrin inkişafına dair memorandum, 2014-cü il mayın 22-də isə elmi əməkdaşlıq haqqında müqavilə imzalanmışdır.

Bundan başqa, Latviya hökuməti tərəfindən bir sıra ölkələr, o cümlədən Azərbaycandan olan tələbələrin ölkədə təhsil alması üçün xüsusi təqaüd proqramı həyata keçirilir.

Latviya Azərbaycanla ikitərəfli əlaqələrin, üzv dövlət kimi Aİ-nin enerji təhlükəsizliyi ilə bağlı gələcək qaz idxalı və iqtisadi sahələrin inkişaf etdirilməsində maraqlıdır. Eyni zamanda qarşılıqlı investisiyaların qoyuluşu və Azərbaycandan olan biznes şirkətlərinin bu ölkədə daha geniş iştirakı Latviya üçün çox əlverişlidir. Azərbaycan üçün Avratlantik əməkdaşlıq təşkilatlarında (Aİ, NATO) təmsil olunan Latviya ilə əlaqələrin inkişafı mühüm əhəmiyyət kəsb edir. Latviya Azərbaycanın Aİ ilə münasibətlərinin inkişafını dəstəkləyir, rəsmi Brüssel və Bakı arasında strateji tərəfdaşlıq sazişi ilə bağlı başlanan danışıqların uğurla nəticələnməsi üçün səylər həyata keçirir. Azərbaycan Latviya ilə əməkdaşlığa həm beynəlxalq təşkilatlar, həm də regional strukturlar, o cümlədən Baltikyanı Dövlətlər Şurası çərçivəsində xüsusi diqqət ayırır. Bu əməkdaşlıq Baltik, Xəzər və Qara dəniz hövzələri regionunda inteqrasiya proseslərinin sürətləndirilməsi baxımından əhəmiyyətlidir[8].

Azərbaycan–Litva münasibətləri

Litva Respublikası Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 20-də tanımış və 1995-ci ilin noyabr ayında iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. Azərbaycan Respublikasının Litvadakı səfirliyi

8 Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана: учебник (второе издание, дополненное). Баку: "Zərdabi LTD" MMC, 2013, с.820

2007-ci ilin sentyabr ayında, Litva Respublikasının Azərbaycandakı səfirliyi isə 2007-ci il aprelin 3-də fəaliyyətə başlamışdır.

İkitərəfli münasibətlərin qurulmasından sonrakı dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, əlaqələrin inkişafında hüquqi baza kimi çıxış edən müqavilə və sənədlər imzalanmışdır. Müxtəlif dövrlərdə iki dövlət başçılarının qarşılıqlı səfərləri həyata keçirilmişdir. Prezident İlham Əliyev Litvaya rəsmi və işgüzar (13-14 sentyabr 2007-ci il tarixlərində rəsmi, 10-11 oktyabr 2007-ci il və 28-29 noyabr 2013-cü il tarixlərində Vilnüs Enerji Sammitində iştirak etmək məqsədilə işgüzar) səfərlər etmişdir.

Litva Prezidenti olmuş Valdas Adamkus Azərbaycanda rəsmi və işgüzar (13 oktyabr 2005-ci ildə Əfqanıstandan qayıdarkən yolüstü, 8-9 iyun 2006-cı ildə rəsmi, 19-21 iyun 2007-ci ildə GUAM sammitində, 13-14 noyabr 2008-ci ildə Bakı Enerji Sammitində iştirak etmək məqsədilə işgüzar) səfərlərdə, hazırkı Prezident xanım Dalia Qribauskayte isə rəsmi səfərdə (2-3 may 2011-ci ildə) olmuşlar.

Litva Respublikasının Prezidenti V.Adamkusun 8-9 iyun 2006-cı il tarixlərində Azərbaycana rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası Prezidenti və Litva Respublikası Prezidentinin Birgə Bəyannaməsi", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri zamanı 2007-ci il sentyabrın 13-də Vilnüsdə qəbul olunmuş "Azərbaycan Respublikası Prezidentinin və Litva Respublikası Prezidentinin tərəfdaşlıq münasibətlərinin inkişafı haqqında Birgə Bəyannaməsi", o cümlədən 2009-cu il aprelin 7-də Bakıda imzalanmış "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Litva Respublikası Xarici İşlər Nazirliyi arasında siyasi dialoqun gücləndirilməsi və əməkdaşlıq haqqında Memorandum" ikitərəfli münasibətlərə əsaslı zəmin yaradan və əlaqələri tənzimləyən əsas sənədlərdir[9].

Parlament rəhbərlərinin, baş nazirlərin, müxtəlif nazir və digər rəsmi şəxslərin qarşılıqlı səfərləri də baş tutmuşdur. 2000-ci ildə Milli Məclisdə Azərbaycan–Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupu, 2012-ci ildə isə Litva Seymində Litva–Azərbaycan parlamentlərarası dostluq qrupu yaradılmışdır.

9 Azərbaycan–Litva münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi/ - http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Litva_munasibetleri_08.08.2014.pdf

İki ölkə arasında sənaye və energetika, kənd təsərrüfatı, turizm, nəqliyyat, rabitə və informasiya texnologiyaları, gömrük sahələrində əməkdaşlıq mövcuddur. ARDNŞ Litvanın "Klaypedos Nafta" SC şirkəti ilə "Sarmatia" birgə müəssisəsi çərçivəsində əməkdaşlıq edir. Azərbaycan Respublikasının "Teleradio" İstehsalat Birliyi və Litva Respublikasının "Vigintos Elektronika", "TV and Communication sistems" və "TERRA" şirkətləri arasında əməkdaşlıq qurulmuşdur. Bundan əlavə, Litva dövlət qurumları Azərbaycanda həyata keçirilən tvinninq layihələrində iştirak edirlər. İki ölkə arasında iqtisadiyyat, sənaye və enerji sahələrində əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradılmışdır. Komissiyanın ilk iclası 2010-cu il mayın 26-da Vilnüsdə, 2-ci iclası 2012-ci il aprelin 2-də Bakıda, 3-cü iclası isə 2013-cü il iyunun 28-də Vilnüs şəhərində keçirilmişdir. Komissiyanın 2014-cü il oktyabrın 22-də Şəmkir şəhərində baş tutmuş 4-cü iclasında hər iki ölkənin iqtisadi durumu, ikitərəfli münasibətlərin inkişaf perspektivləri, müqavilə-hüquq bazasının inkişafı, energetika, kənd təsərrüfatı və ekologiya, gənclər və idman, mədəniyyət və turizm, təhsil və elm, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları, gömrük və səhiyyə sahələrində, eləcə də Azərbaycan və Litvanın regionları arasında əməkdaşlıq məsələləri ətrafında geniş müzakirələr aparılmışdır.

Azərbaycanla Latviya arasında ticarət dövriyyəsinin mühüm hissəsini kənd təsərrüfatı, yeyinti, yüngül, kimya, neft və tikinti sənayesi məhsulları tutur. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illəri əhatə edən ticarət dövriyyəsi əks olunur.

Azərbaycan və Litva arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[10]

İl	İdxal	İxrac
2012	21322,4	2684,6
2013	19580,6	2207,8
2014	29646,3	702,7
2015	26941.86	512.94

10 Azərbaycanın xarici ticarət əlaqələri. /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

Azərbaycanla Litva arasında gənclər və idman, eləcə də mədəniyyət və turizm sahələrində əməkdaşlıq daha intensiv inkişaf etmişdir. Hər iki ölkə gənclərinin qarşılıqlı səfərləri təşkil olunmuş, müxtəlif sərgilər keçirilmişdir. Litvalı ekspertlər Aİ tərəfindən maliyyələşdirilən Azərbaycanın turizm potensialının gücləndirilməsi ilə bağlı "Tvinninq" layihəsində yaxından iştirak ediblər. İki ölkə arasında elm və mədəniyyət sahələrində əməkdaşlıq qurulmuş və inkişaf etməkdədir. Azərbaycan və Litvanın ali təhsil və elm müəssisələri arasında birbaşa əlaqələr qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən 2013-2014-cü tədris ilində "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na Litva Respublikasının ən yaxşı ali təhsil ocaqlarından sayılan daha 3 universiteti *(Sağlamlıq Elmləri üzrə Litva Universiteti, Vyantas Maqnus Universiteti və Vilnüs Gediminas Texniki Universiteti)* daxil edilmişdir. Bundan əlavə, Litva hökuməti tərəfindən Azərbaycan Respublikasından olan istedadlı tələbələrin magistratura pilləsində təhsil almaları məqsədilə 2013-cü il üçün təqaüd proqramı elan edilmişdir[11]. Qeyd edək ki, 2014-cü il iyulun 1-də Londonda Britaniya Film və Televiziya İncəsənəti Akademiyasında (BAFTA) təqdimatı keçirilən və Xocalı soyqırımından bəhs edən "Sonsuz dəhliz" ("Endless Corridor") sənədli filminin yaradıcı heyətinin əsas üzvləri litvalı sənət adamlarıdır. Belə ki, sənədli filmin prodüserlərindən biri Aleksandras Brokasdır. Film Xocalı dəhşətlərinin şahidi olan litvalı jurnalist Riçard Lapaitisin faciədən 20 il sonra yenidən Azərbaycana gələrək qətliamdan xilas olmuş hadisə şahidləri ilə görüşlərində lentə alınmış xatirələr və Ermənistan tərəfindən faciənin təşkilində birbaşa iştirak etmiş şəxslərlə müsahibələri əsasında qurulmuşdur. Sənədli film Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" təbliğat-təşviqat kampaniyası çərçivəsində hazırlanmışdır. "Sonsuz dəhliz" sənədli filmi bir çox beynəlxalq mükafatlara layiq görülmüşdür[12].

11 Azərbaycan–Litva münasibətləri, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi/ - http://www.mfa.gov.az/files/file/Azerbaycan_-_Litva_munasibetleri_08.08.2014.pdf

12 "Sonsuz dəhliz" filmi "Global Film Awards" mükafatına layiq görülüb. /04.02.2016/ - http://azertag.az/xeber/Sonsuz_Dehliz_filmi_Global_Film_Awards_mukafatina_layiq_gorulub-924362

İki ölkənin regionları arasında da əməkdaşlıq mövcuddur. 2014-cü il oktyabrın 22-də Azərbaycanın Şəmkir şəhəri ilə Litvanın Şaulyay şəhəri arasında "Qardaşlaşmış şəhərlər münasibətlərinin yaradılması haqqında" Niyyət Protokolu imzalanmışdır. Protokola əsasən, Şəmkir və Şaulyay şəhərləri arasında qarşılıqlı əlaqələrin qurulması, iqtisadi, mədəni və humanitar sahələrdə bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur[13].

Litva Azərbaycanla ikitərəfli əlaqələrin, üzv dövlət kimi Aİ-nin enerji təhlükəsizliyi ilə bağlı gələcək qaz idxalı və iqtisadi sahələrin inkişaf etdirilməsində maraqlıdır. Litva üçün qarşılıqlı investisiyaların qoyuluşu və biznes şirkətlərinin bu ölkədə daha geniş iştirakı mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycan Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun inkişafından sonra mühüm nəqliyyat qovşağına çevrilmişdir. Eyni zamanda Litva Baltik və Qara dəniz vasitəsilə yükdaşımalarda bir araya gələn tərəfdaşların köməyi ilə istehsal etdiyi "Vikinq" konteyner qatarı layihəsini uğurla həyata keçirir. Artıq bir neçə ildir Litva yükdaşıma marşrutunun müxtəlif istiqamətlərə uzadılması ilə bağlı mümkün yollar təklif edir. Litva Gürcüstan, Azərbaycan və Qazaxıstan vasitəsilə Ukraynadan Çinə dəmir yolu ilə yükdaşımaları həyata keçirən "İpək Yolu" layihəsi ilə birləşmək ideyasına müsbət yanaşır[14]. Azərbaycan üçün Avratlantik əməkdaşlıq təşkilatlarında (Aİ, NATO) təmsil olunan Litva ilə əlaqələrin inkişafı əhəmiyyət daşıyır. Qeyd edək ki, məhz Litvanın Avropa Şurasında sədrliyi dövründə Azərbaycanla Aİ arasında vizaların sadələşdirilməsinə dair razılaşma imzalanmışdır. Aİ-nin üzvü olan Litva Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin genişlənməsini dəstəkləyir. NATO-nun tərəfdaşlıq proqramında iştirak edən Azərbaycan və qurumun üzvü olan Litva bu proqram çərçivəsində səmərəli əməkdaşlıq edirlər. İki dövlət arasında müxtəlif sahələrdə formalaşmış əlaqələrin gələcəkdə inkişafı üçün mövcud potensialı nəzərə alaraq Azərbaycan və Litva arasında münasibətlərin qarşıdakı illərdə də inkişaf xətti üzrə gedəcəyini söyləmək mümkündür.

13 Şəmkir ilə Litvanın Şaulyay şəhəri qardaşlaşdı. /22.10.2014/ - http://az.trend.az/business/economy/2324954.html

14 Litva Respublikası. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.190

Azərbaycan–Estoniya münasibətləri

Hər iki dövlətin Rusiya imperiyası, sonralar isə SSRİ-nin tərkibində olmaları səbəbindən Azərbaycan və Estoniya arasında müxtəlif sahələr üzrə əlaqələr XX əsrin sonlarında yenidən müstəqillik qazanmalarından əvvəl də olmuşdur. Müstəqilliyin ilk illərində isə artıq iki dövlət arasında əlaqələr yaradılmışdır. Estoniya Respublikası tərəfindən Azərbaycan Respublikasının müstəqilliyi 1992-ci il fevralın 20-də tanınmış və iki dövlət arasında diplomatik əlaqələr 1992-ci il iyunun 20-də qurulmuşdur. 2007-ci il aprelin 10-da Azərbaycan Respublikasının Latviyadakı fövqəladə və səlahiyyətli səfiri, iqamətgahı Riqa şəhərində olmaqla eyni zamanda Azərbaycan Respublikasının Estoniya Respublikasında səfiri təyin edilmişdir. 2010-cu ilin sonunda Azərbaycan Respublikasının Estoniyadakı səfirliyi Tallin şəhərində fəaliyyətə başlamışdır. 2005-ci il fevralın 22-də Estoniya Respublikasının Türkiyədəki səfiri Azərbaycana akkreditə olunmuşdur. 2014-cü il avqustun 26-dan Estoniya Respublikasının Bakıda diplomatik ofisi fəaliyyətə başlamışdır[15].

Diplomatik münasibətlərin yaradılmasından sonrakı dövr ərzində yüksəksəviyyəli qarşılıqlı səfərlər baş tutmuş, ikitərəfli əlaqələrin inkişafında hüquqi əsas kimi çıxış edən müqavilə və sənədlər imzalanmışdır. Prezident İlham Əliyev 6-8 aprel 2010-cu il tarixlərində Estoniyada dövlət səfərində, 12-15 yanvar 2009-cu il tarixlərində isə Estoniya Prezidenti Toomas Hendrik İlves Azərbaycanda səfərdə olmuşlar[16].

Prezident İlham Əliyevin Estoniyaya səfəri zamanı iki ölkənin dövlət başçıları tərəfindən ikitərəfli əməkdaşlıq imkanları müzakirə edilmişdir. Müzakirə olunan məsələlər arasında Dağlıq Qarabağ münaqişəsi, enerji təhlükəsizliyi və regional əməkdaşlıq perspektivləri xüsusi yer tutmuşdur. Bu səfər zamanı hər iki dövlət başçısı mətbuat üçün bəyanatlarla çıxış etmişdir. Prezident İlham Əliyev bəyanatında

15 Azərbaycan Respublikası və Estoniya Respublikası arasındakı münasibətlərə dair arayış. /Son yenilənmə tarixi: 28.07.2016/ - http://tallin.mfa.gov.az/files/file/__K__T__R__FL___M__NAS__B__TL__R_ARAYI___28.07.2016.pdf

16 Azərbaycan Respublikası və Estoniya Respublikası arasındakı münasibətlərə dair arayış, ikitərəfli əlaqələr. /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi/ - http://www.mfa.gov.az/files/file/Az%C9%99rbaycan%20v%C9%99%20Estoniya_.pdf

enerji sahəsində iki dövlət arasında əməkdaşlığın qurulduğunu və bu cür münasibətlərin regionlararası əlaqələrin inkişafına xidmət etdiyini bildirmişdir: "Bu əməkdaşlığın güclü potensialı və artıq yaxşı nəticələri vardır. Regional vəziyyəti müzakirə etdik. Deyə bilərəm ki, ölkələrimiz arasında çox yüksək qarşılıqlı anlaşma vardır. Fikrimcə, Estoniya və Azərbaycan kimi ölkələr arasındakı əməkdaşlıq Xəzər, Qara və Baltik dənizləri regionlarında da daha yaxşı anlaşmanın yaranmasına xidmət edəcəkdir". Estoniya Prezidenti Toomas Hendrik İlves bəyanatında iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərinə toxunmuş, ölkəsinin Aİ və Azərbaycan arasında əlaqələrin inkişafına dəstək olacağını bildirmişdir: "Təbii ki, ölkələrimiz arasında münasibətlər çox yaxşıdır. Azərbaycan Xəzər regionunun aparıcı ölkəsi kimi əsrlər boyu enerji sahəsində əsas iştirakçı olub. Biz əminliklə qeyd edə bilərik ki, Azərbaycanla Estoniya bir-biri ilə rəqabət aparan deyil, bir-birini tamamlayan ölkələrdir. Elə cənab Prezident də bunu belə qeyd etdi. Ölkələrimiz qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni yolları birgə müəyyən edə bilər. Biz Avropa İttifaqının üzvü kimi istəyirik ki, Avropa İttifaqı Dünya Ticarət Təşkilatına üzvlük və digər bu kimi mühüm məsələlərdə Azərbaycanı daha dəstəkləyici mövqe ilə çıxış etsin. Avropa İttifaqının üzvü kimi Estoniya Azərbaycan ilə əlaqələri daha da sıx qurmaqda maraqlıdır"[17]. Dövlət başçıları tərəfindən 2010-cu il aprelin 7-də və 2009-cu il yanvarın 13-də imzalanan birgə bəyannamələrdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsipləri və normalarına, xüsusilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və ATƏT-in Lissabon Sammitinin üç prinsipinə uyğun olaraq suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında tezliklə həll olunmasının vacibliyi vurğulanmışdır.

Münasibətlərin yaradılmasından bəri iki ölkə arasında parlament rəhbərlərinin, baş nazirlərin, müxtəlif nazir və digər rəsmi şəxslərin qarşılıqlı səfərləri baş tutmuşdur. 2000-ci il dekabrın 5-də Azərbaycan–

17 Prezident İlham Əliyev və Estoniya Prezidenti Toomas Hendrik İlvesin mətbuat üçün bəyanatları /07.04.2010/. - http://archive.president.az/articles.php?item_id=20100408111724977&sec_id=70

Estoniya, 2007-ci il martın 4-də isə Estoniya parlamentində Estoniya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupları yaradılmışdır.

Vaxtilə SSRİ tərkibində eyni siyasi-iqtisadi məkanda olmuş Azərbaycan və Estoniyanın yenidən müstəqillik qazanmalarından sonra iki dövlət arasında formalaşan iqtisadi əlaqələr inkişaf etməkdədir. Əlaqələrin inkişafı üçün böyük potensial mövcuddur. Azərbaycan qida sənayesi, elektrik təchizatı, toxuculuq, mebel və taxta sənayesi, turizm sahələrində əməkdaşlıq etməkdə, Estoniya isə özünün İKT və elektron hökumət sahəsindəki imkanlarını həyata keçirməkdə maraqlıdır. Azərbaycan Respublikası Prezidentinin 21 noyabr 2011-ci il tarixli 1850 nömrəli sərəncamı ilə Ticarət və iqtisadi əməkdaşlıq üzrə Azərbaycan–Estoniya Hökumətlərarası Komissiyası yaradılmışdır. Bu komissiyanın ilk iclası 2012-ci il iyunun 28-də Bakıda, 2-ci iclası isə 29-30 sentyabr 2014-cü il tarixlərində Tallin şəhərində keçirilmişdir. Azərbaycanlı biznesmenlər Estoniyanın 1 dekabr 2014-cü il tarixindən fəaliyyətə başlayan və iş adamları üçün nəzərdə tutulan elektron rezidentlik (e-residence) sistemindən yararlanırlar. Bu sistem xarici ölkələrdən olan iş adamlarına ölkədə fəaliyyət göstərmək və sahibkarlıqla məşğul olmaq üçün elektron formada qeydiyyatdan keçmək imkanı verir[18].

İki ölkə arasında iqtisadi əlaqələrin inkişafında mühüm rol oynayan və şirkətlər arasında əməkdaşlıq üçün platforma kimi çıxış edən biznes forumları keçirilmişdir. Belə ki, Azərbaycan–Estoniya Biznes Forumu 2007-ci il oktyabrın 29-da Bakıda, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə 2008-ci il yanvarın 24-də Tallində Azərbaycan–Estoniya Biznes Forumu, Azərbaycan–Estoniya İKT Biznes Forumu 2009-cu ildə yanvarın 13-də Bakıda və 2012-ci il iyunun 29-da Bakıda Azərbaycan–Estoniya Biznes Forumu keçirilmişdir.

İki ölkə arasında ticarət dövriyyəsinin mühüm hissəsini kənd təsərrüfatı, yeyinti, yüngül, kimya, neft və tikinti sənayesi məhsulları tutur. Aşağıdakı cədvəldə iki dövlət arasında 2012-2015-ci illəri əhatə edən ticarət dövriyyəsi əks olunur.

18 Порядка 50 граждан Азербайджана воспользовались услугой электронного резидентства Эстонии. /10.01.2017/ - https://report.az/ru/vneshnyaya-politika/poryadka-50-grazhdan-azerbajdzha-na-vospol-zovalis-estonskoj-uslugoj-e-rezidentstva/

Azərbaycan və Estoniya arasında ticarət əlaqələri, 2012-2015-ci illər (min ABŞ dolları ilə)[19]

İl	İdxal	İxrac
2012	5935,9	379,4
2013	7511,6	771,2
2014	4391,0	222,9
2015	5697.93	253.39

İki ölkə arasında elm, mədəniyyət və təhsil sahələrində də əməkdaşlıq mövcuddur. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na Tallin Texniki Universtiteti və Tartu Universiteti də əlavə edilmişdir.

İki dövlət arasında əlaqələrin inkişafı üçün perspektivlər vəd edən əsas sahələr kimi İKT, nəqliyyat və logistik layihələr çıxış edir. Bu sahələrdə qarşılıqlı maraqlara xidmət edə biləcək geniş imkanlar mövcuddur. Azərbaycan üçün inkişaf etmiş İKT və kənd təsərrüfatı sənayesinə malik olan Estoniya təcrübəsinin öyrənilməsi əhəmiyyətli ola bilər. Göstərilən sahələrdə birgə müəssisələrin yaradılması üçün geniş potensial vardır.

Xarici siyasətinin əsas prioritetlərindən biri olan "Şərq tərəfdaşlığı" proqramını dəstəkləyən Estoniya 2017-ci ilin iyul-dekabr aylarında Aİ Nazirlər Şurasına rəhbərlik edəcək. Estoniya həm də bu dövrdə Brüsseldə baş tutacaq "Şərq tərəfdaşlığı" sammitinin təşkilatçısı kimi çıxış edir. Estoniya "Şərq tərəfdaşlığı" proqramına daxil olan ölkələrlə əlaqələrə fərqli yanaşmanın vacibliyini anlayır. Bu baxımdan rəsmi Tallin Azərbaycan və Aİ arasında strateji tərəfdaşlıq sazişi ilə bağlı danışıqlar prosesini dəstəkləyir[20]. Azərbaycan və Estoniya arasında əlaqələrin inkişafı hər iki ölkənin qarşılıqlı iqtisadi maraqları və beynəlxalq əlaqələrdə dövlətlərin müstəqilliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşılması prinsiplərinin əsas götürülməsi ilə xarakterizə

19 Azərbaycanın xarici ticarət əlaqələri. /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən hazırlanmış statistik məcmuələr, 2012, 2013, 2014, 2015. - http://www.stat.gov.az/source/trade/

20 Estonian FM: International community should make greater efforts to solve conflicts in South Caucasus region. /24.01.2017/ - https://report.az/en/foreign-politics/estonian-foreign-minister-international-community-should-make-greater-efforts-to-solve-conflicts-in/

olunur. Azərbaycan üçün ədalətli həllinin mühüm əhəmiyyət daşıdığı Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri və normaları, xüsusilə BMT və ATƏT-in münaqişənin həllinə yönəldilmiş müvafiq qətnamə və qərarlarına uyğun olaraq suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll olunmasının Estoniya tərəfindən dəstəklənməsi iki dövlət arasında əlaqələrin inkişafına təsir edən başlıca amildir. Məhz bu amil Azərbaycanla Estoniya arasında ötən illər ərzində formalaşmış əlaqələrin gələcək inkişafı üçün əsas yaradır.

Nəticə

Azərbaycan və Baltikyanı ölkələr arasında əlaqələr təşəkkül tapmış və hazırda inkişaf etməkdədir. Bu ölkələrin vaxtilə eyni dövlətin tərkibində mövcud olmaları və bununla əlaqədar eyni tarixi təcrübəni bölüşmələri hazırda müstəqil dövlətlər kimi əlaqələrini qarşılıqlı anlaşma şəklində inkişaf etdirməyə imkan verir.

Həm Azərbaycanın və həm də Baltikyanı ölkələrin beynəlxalq nəqliyyat dəhlizləri qovuşuğunda yerləşməsi onların arasında strateji nəqliyyat dəhlizləri sahəsində əməkdaşlıq üçün əlverişli şərait yaradır. Latviya, Litva və Estoniya tərəfindən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibətdə beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq dövlətlərin ərazi bütövlüyünün əsas götürülməsi və münaqişənin sülh yolu ilə həllinin dəstəklənməsi Azərbaycan üçün əhəmiyyətlidir. Belə münasibət Azərbaycan və Baltikyanı ölkələr arasında çoxtərəfli münasibətlərin inkişafı üçün sağlam əsaslar yaradır.

Bu dövlətlər arasında ziddiyyətlərin mövcud olmaması, müsbət tarixi təcrübə və eyni zamanda iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün potensialın mövcudluğu Azərbaycan və Baltikyanı ölkələr arasında münasibətlərə gələcəkdə də qarşılıqlı maraqlara əsaslanan inkişaf perspektivləri vəd edir.

AZƏRBAYCAN BEYNƏLXALQ TƏŞKİLATLARDA

Azərbaycan–Birləşmiş Millətlər Təşkilatı münasibətləri

*Nəcibə Mustafayeva**

Giriş

Sürətlə inkişaf edən, müasir ölkəyə çevrilən Azərbaycan Respublikası beynəlxalq arenada da böyük nüfuz sahibinə çevrilmiş, qlobal geosiyasi məkanda cərəyan edən proseslərə çevik və adekvat reaksiyası ilə diqqəti cəlb edə bilmişdir. Uzun illərdir dünyada ardıcıl olaraq sülh və tərəqqi siyasəti yürüdən ölkəmiz bu gün qlobal təhlükəsizlik sisteminin əsasında dayanan regional təhlükəsizliyə mühüm töhfə verməkdədir. Azərbaycan beynəlxalq hüququn ümumtanınmış prinsiplərini *(jus cogens)* rəhbər tutaraq praqmatizmə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan açıq xarici siyasət kursunu uğurla həyata keçirməkdədir. Dövlətimiz güclü və etibarlı tərəfdaş kimi bütün sahələrdə yeni təşəbbüslərə qoşulmaqla müasir dünyaya inteqrasiya siyasətini uğurla davam etdirir. Bu baxımdan ölkəmizin dünyanın ən nəhəng beynəlxalq universal hökumətlərarası təşkilatı olan Birləşmiş Millətlər Təşkilatında (BMT) fəaliyyəti xüsusilə diqqətəlayiqdir.

Dövlət müstəqilliyinin bərpasından sonra beynəlxalq hüququn tamhüquqlu subyekti olan Azərbaycan Respublikası dünya dövlətləri ilə hərtərəfli qarşılıqlı əməkdaşlıq qurmaq və müstəqilliyinin möhkəmləndirilməsi məqsədilə BMT üzvlüyünə qəbul edilmək üçün zəruri və ardıcıl fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası bu ali təşkilata 29 oktyabr 1991-ci il tarixli müraciətində dövlət müstəqilliyinin bərpasını elan edərək, demokratiya, azadlıq və bərabərlik yolu ilə getmək əzmini əsas tutaraq dünya birliyində layiqli yer tutmağı, beynəlxalq təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işinə kömək göstərməyi arzulayaraq, BMT Nizamnaməsinə sadiq qalacağını və

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Daxili siyasətin təhlili şöbəsinin məsləhətçi-eksperti*

ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək BMT üzvlərindən xahiş etdi ki, onun təşkilatın üzvlüyünə qəbul olunmaq məsələsi nəzərdən keçirilsin.

14 fevral 1992-ci il tarixində Azərbaycanın müraciətini müzakirə edən BMT Təhlükəsizlik Şurası ölkəmizin bu təşkilata üzv qəbul olunmasını tövsiyə etdi. BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respublikasının BMT üzvlüyünə qəbul olunması barədə qətnamə qəbul edildi. Həmin gün BMT-nin Nyu Yorkda yerləşən mənzil-qərargahının qarşısında Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı.

Xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması, eləcə də dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi məqsədilə 1992-ci il martın 6-da Nyu Yorkda Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyi fəaliyyətə başlamış, həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda Daimi Nümayəndəliyi açılmışdır.

Azərbaycanın BMT-yə daxil olması onun suverenliyinin ilk dövrlərində aşağıdakı səbəblərdən böyük əhəmiyyət kəsb edirdi:

- qazanılmış suverenliyin təsdiqi, möhkəmləndirilməsi və beynəlxalq birlik tərəfindən qəbul olunması;
- beynəlxalq hüququn subyekti olması faktının təsdiq edilməsi və beynəlxalq siyasi prosesin tamhüquqlu iştirakçısına çevrilməsi;
- dünya dövlətləri ilə diplomatik münasibətlərin yüksək səviyyədə qurulması;
- ölkənin iqtisadi və sosial-mədəni həyatında müsbət dəyişikliklərə nail olması, bu sahələrdə BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın qurulması;
- informasiya blokadasını yararaq Azərbaycan həqiqətlərinin, ilk növbədə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv və həqiqətəuyğun məlumatları dünya ictimaiyyətinə çatdırmaq imkanlarının yaranması;
- beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında, xalqların hərtərəfli inkişafı üçün şəraitin yaradılmasında, insan hüquqları və azadlıqlarının qorunmasında, qlobal problemlərin həllində dünya birliyinin birgə səylərinə töhfələrin verilməsi.

Təqdirəlayiq hal isə ondan ibarətdir ki, Azərbaycan Respublikasının BMT çərçivəsində fəaliyyətinin əsas məqsədləri özünün həm xarici, həm də daxili siyasətində nəzərdə tutduğu ali vəzifələri ilə üst-üstə düşür. Azərbaycan dünyada sülhün və təhlükəsizliyin qorunmasında, dinc yanaşı yaşamaq, bərabərsəviyyəli əməkdaşlıq məsələlərində maraqlı tərəf olduğunu, bu prinsiplərin dövlətin tutduğu siyasi xəttə uyğun gəldiyini hər zaman etiraf etmişdir. Bəşəriyyət üçün təhlükə törədən qlobal problemlərin həlli istiqamətində əməkdaşlıq Azərbaycanın xarici siyasətində xüsusi yer tutur.

Bunu nəzərə alaraq Azərbaycanın BMT-də fəaliyyət göstərən Daimi Nümayəndəliyi həm BMT, həm də onun ixtisaslaşdırılmış qurumları ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə geniş əməkdaşlıq edir. Siyasi sahədə əməkdaşlığın əsas məqsədi Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətinin münaqişə bölgəsində baş verən hadisələrə cəlb edilməsi və dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılmasından ibarədir.

Dağlıq Qarabağ münaqişəsinin həllində BMT-nin fəaliyyəti

Azərbaycan Respublikası BMT üzvlüyünə qəbul olunduğu gündən dövlətlər birliyinin diqqətini Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə və onun beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri çərçivəsində ədalətli şəkildə həlli məsələsinə çəkməyə çalışmışdır.

BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun olaraq, Ermənistanın açıq-aşkar təcavüzünün genişlənməsi ilə əlaqədar Azərbaycan BMT-nin baş katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək bu təcavüzü dərhal dayandırmağa, beynəlxalq hüquq normaları və BMT Nizamnaməsinin açıq şəkildə pozulmasının qarşısının alınmasında, münaqişənin dinc, siyasi yolla nizama salınmasında köməklik göstərməyə çağırdı. BMT-nin Baş katibi münaqişə bölgəsində vəziyyəti öyrənmək üçün 1992-ci il martın ortalarında BMT Baş katibinin xüsusi nümayəndəsi, ABŞ-ın keçmiş dövlət katibi Sayrus Vensin başçılıq etdiyi nümayəndə heyətini Bakıya, Dağlıq Qarabağa və Yerevana göndərmiş, o

da, öz növbəsində, səfərin yekunları barədə BMT Təhlükəsizlik Şurasına məlumat vermişdi.

1992-1993-cü illər ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar Təhlükəsizlik Şurası sədrinin 6 bəyanatında, eləcə də Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir, işğalçı ölkənin qüvvələrinin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması, atəşkəs əldə olunması və münaqişənin danışıqlar yolu ilə həlli tələb edilir.

BMT-nin Baş Assambleyası Azərbaycanda humanitar vəziyyətin ciddi şəkildə pisləşməsi, qaçqın və məcburi köçkünlərin sayının bir milyonu keçməsindən dərin narahatlıq hissi keçirərək 1993-cü ildə 85-ci plenar iclasında "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" qətnamə (A/RES/48/114) qəbul etmişdir.

1992-1996-cı illər ərzində BMT Təhlükəsizlik Şurasının sədri və BMT-nin Baş katibi Azərbaycan Respublikasının ərazi bütövlüyünü, suverenliyini təsdiqləyən və münaqişənin sülh yolu ilə həll olunmasına yönəlmiş, ATƏT-in Minsk Qrupunun münaqişə üzrə səylərini dəstəkləyən bir sıra bəyanatlarla çıxış etmişlər.

Azərbaycanın BMT ilə əməkdaşlığının dərinləşməsində BMT-nin Baş katibi B.Butros Qalinin 1994-cü ilin oktyabrında Bakıya səfəri mühüm rol oynamışdır. Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı, Ermənistanın təcavüzünün ağır nəticələri ilə yaxından tanış olan Butros Qali mövcud problemlərin həllində Azərbaycana dəstək vermək üçün BMT-nin müxtəlif təsisatlarının öz səylərini artıracağını bildirmişdir.

Prezident Heydər Əliyev 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizlə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır. 1995-ci ilin oktyabrında BMT Baş Məclisinin bu ali qurumun 50 illik yubileyi ilə əlaqədar keçirilən təntənəli iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu təşkilatın yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlo-

bal problemlərə dair Azərbaycan Respublikasının prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır. 2000-ci ilin sentyabr ayında BMT-də Minilliyin Sammitində çıxış edən Prezident Heydər Əliyev Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bəyan etmişdir.

BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını mühüm məsələ kimi irəli sürmüşdür.

Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyasının 86-cı plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir. Həmin sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, bu ərazilərdə yanğınlar törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunur. Bununla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqlənir[1].

Təəssüf ki, Ermənistan–Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində BMT və dünya birliyinin göstərdiyi səylər Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr vermədi. BMT-nin regionda sülhpərvər fəaliyyətinin uğursuzluğunun başlıca səbəbi məhz Azərbaycan

1 Azərbaycan və BMT münasibətləri // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /08.05.2014/ - http://mfa.gov.az/az/content/751

Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü faktının birbaşa etiraf olunmaması ilə bağlıdır. Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq, adıçəkilən nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxsaylı missiyaları öz nəticələrini çıxararkən Ermənistan silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməyin mürəkkəb olduğunu bildirirdilər. Halbuki BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu[2].

Böyük dövlətlər, ilk növbədə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin 7-ci fəslinə (Sülhə təhlükənin, sülhün pozulmasının və təcavüz aktlarının aradan qaldırılması) müvafiq olaraq qəti şəkildə praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

Qeyd edək ki, sülhə təhlükənin, sülhün pozulmasının və ya təcavüz aktının olmasının müəyyən edilməsi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında başlıca məsuliyyət daşıyan BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir[3]. Belə bir faktı müəyyən etdikdən sonra Təhlükəsizlik Şurası iki cür qərar qəbul edə bilər: 1. silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan tədbirlər barəsində (41-ci maddə); 2. silahlı tədbirlər barəsində (42-ci maddə). Silahlı qüvvələrin istifadəsi ilə bağlı olmayan tədbirlər iqtisadi münasibətlərin və dəmir yolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsini əhatə edə bilər. BMT Nizamnaməsinin 42-ci maddəsinə görə, əgər Təhlükəsizlik Şurası hesab etsə ki, 41-ci maddədə nəzərdə tutulmuş tədbirlər kifayət olmaya bilər və ya artıq kifayət olmamışdır, o, hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub

2 Əhmədov E. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi ölkəmizin diplomatiya tarixində böyük nailiyyətidir. // Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması. - http://www.karabakh.az/news/?lang=az&i=182

3 Bu məqsədlə müəyyən tədbirlər görərkən Təhlükəsizlik Şurası bütün üzv dövlətlərin adından çıxış edir.

saxlanması və ya bərpası üçün zəruri olan tədbirlər görə bilər. Həmin tədbirlər BMT-yə üzv dövlətlərin hava, dəniz və ya quru qüvvələrinin nümayişlərini, blokadasını və digər əməliyyatlarını əhatə edə bilər[4].

Beləliklə, BMT Nizamnaməsi Təhlükəsizlik Şurasına ən vacib məsələni – sülhün və təhlükəsizliyin qorunmasını həvalə edərək, həmin funksiyanı həyata keçirmək üçün ona müvafiq səlahiyyətlər vermişdir. Bununla da Təhlükəsizlik Şurası beynəlxalq hüququn əsas prinsiplərinin (jus cogens) pozulması faktlarına kollektiv reaksiya rejiminin formalaşdırılmasında mühüm rol oynayır. Həmin normaların pozulması beynəlxalq sülhə və təhlükəsizliyə ciddi təhdid kimi qiymətləndirilir[5].

Lakin İraqın Küveyti işğal etməsinə, Şimali Koreyanın nüvə proqramına sərt reaksiya verərək sanksiyalar tətbiq edən, Liviya, Liberiya, keçmiş Yuqoslaviya və Əfqanıstanda baş verən hadisələr zamanı böhranın nizamlanmasına nail olan BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın bu günədək məlum qətnamələrə əməl etməməsinə heç bir reaksiya vermir. Bu da müasir beynəlxalq münasibətlərdə – konkret desək, beynəlxalq təşkilatlarda hökm sürən "ikili standartlar" siyasətinin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq təşkilatların tribunalarından dəfələrlə çıxış edərək vurğulamışdır: "Beynəlxalq ictimaiyyət, BMT Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasını tələb edir. Amma Ermənistan bu qətnamələrə məhəl qoymur. Bəzi hallarda görürük ki, BMT qətnamələri bir neçə saat, bir gün ərzində həyata keçirilir. Azərbaycana gəlincə, 20 ildən artıqdır bu qətnamələr yerinə yetirilmir"[6].

Azərbaycan Respublikası bütün dövlətlər üçün məcburi xarakter daşıyan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmaması

4 Charter of the United Nations // Official web-page of the United Nations. URL: http://www.un.org/en/charter-united-nations/index.html

5 Gowland-Debbas V. The functions of the United Nations Security Council in the International Legal System // The role of law in the international politics. N.Y., 2000.

6 Prezident İlham Əliyev: "Bəzi hallarda BMT qətnamələri bir neçə saata icra olunur, Azərbaycana gəlincə, 20 ildən artıqdır yerinə yetirilmir". /26.04.2016/ - http://m.apa.az/az/dagliq_qarabag/prezident-ilham-eliyev-bezi-hallarda-bmt-qetnameleri-bir-nece-saata-icra-olunur-azerbaycana-gelince-20-ilden-artiqdir-yerine-yetirilmir

məsələsinə həmin orqanda qeyri-daimi üzv olduğu müddətdə xüsusi diqqət ayırmışdır. Belə ki, Təhlükəsizlik Şurasının (6870 2012-ci il tarixli və 7052 2013-cü il tarixli) onun iş metodlarına həsr olunmuş iclaslarında Azərbaycan nümayəndə heyəti şuranın qəbul etdiyi qətnamələrin icrası ilə bağlı mütəmadi iclasların keçirilməsini təklif etmişdir. Xüsusi qeyd edilmişdir ki, qətnamələrin icra olunmaması BMT-nin nüfuzuna xələl gətirməklə yanaşı, beynəlxalq sülhə və təhlükəsizliyə təhdid yaradır. Bu vacib amili nəzərə alaraq, Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu müddətdə apardığı səmərəli fəaliyyətlə beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfələrini vermişdir.

Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv kimi fəaliyyəti

Azərbaycan Respublikası 2011-ci ildə BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə əsasən BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə 2012-2013-cü illər üçün keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürmüşdür. Azərbaycan seçkilərdə əvvəl Macarıstan, sonra isə Sloveniya üzərində şərtsiz üstünlük qazanaraq qələbə üçün tələb olunan 129 səsdən də çox – 155 səs əldə etmişdir. Beləliklə, Azərbaycan 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazanmışdır. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olmuşdur. Bununla yanaşı, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması və artıq dövlət başçısı İlham Əliyevin sədrliyi ilə 2012-ci ilin may ayında Təhlükəsizlik Şurasının iclasının keçirilməsi Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərindən biri olmaqla, beynəlxalq aləmdə çəkisinin artması, dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə

çevrilməsi deməkdir[7].

BMT Nizamnaməsinin 23-cü maddəsinə görə, Baş Assambleya Təhlükəsizlik Şurasının 10 qeyri-daimi üzvünü seçərkən ilk növbədə həmin ölkələrin beynəlxalq sülhün və təhlükəsizliyin saxlanması və təşkilatın digər məqsədlərinə nail olunmasında iştirak dərəcəsinə diqqət ayırır. 2011-ci il oktyabrın 24-də BMT Baş Assambleyasında səsvermə zamanı Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə Şərqi Avropa Dövlətləri Qrupu üçün ayrılan yeri qazandıqdan sonra Azərbaycan tarixində ilk dəfə olaraq bu quruma seçildi.

Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildikdən qısa müddət sonra Prezident İlham Əliyev bəyan etdi ki, BMT Nizamnaməsində qeyd olunmuş ədalət və beynəlxalq sülhün aliliyi prinsipinin irəli sürülməsi və inkişaf etdirilməsi Azərbaycanın bu qurumda əsas və birinci dərəcəli hədəfi olacaqdır. Bu xətti əsas tutaraq, üzvlük müddəti ərzində Təhlükəsizlik Şurasının başlıca vəzifəsi olan beynəlxalq sülh və təhlükəsizliyin qorunması istiqamətində Azərbaycan gücünü əsirgəməmişdir.

2012-ci ilin may və 2013-cü ilin oktyabr aylarında Azərbaycan BMT Təhlükəsizlik Şurasına sədrlik etmişdir. Bu iki ay müddətində Təhlükəsizlik Şurası 30 ictimai və fərdi iclas, 29 qapalı müşavirə keçirmiş, 7 qətnamə və sədrin 3 bəyanatını qəbul etmiş, mətbuat üçün 13 bəyanat vermişdir[8].

Azərbaycanın 2012-ci ilin may ayında BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi dövrdə ən mühüm uğuru mayın 4-də terrorçuluğa qarşı mübarizəyə[9] dair öhdəliyin təmin olunması yolu ilə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda yüksəksəviyyəli konfransın keçirilməsi idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılıq etdiyi konfransda BMT-nin Baş katibi Pan Gi Mun və

7 Azərbaycan və BMT münasibətləri // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /08.05.2014/ - http://mfa.gov.az/az/content/751

8 Yenə orada

9 Azərbaycanın BMT çərçivəsində görülən işlərə verdiyi töhfələr sırasında onun qlobal səviyyədə terrorizmə qarşı aparılan mübarizədə fəal şəkildə iştirakı xüsusilə qeyd edilməlidir. Bu baxımdan respublikamız BMT Təhlükəsizlik Şurasının Terrorizmə qarşı komitəsi ilə yaxından əməkdaşlıq edərək, həmin komitəyə Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim etmişdir (S/2001/1325, S/2002/1022, S/2003/1085).

Təhlükəsizlik Şurasının digər yüksəksəviyyəli nümayəndələri iştirak etmişlər. Konfransın yekununda bəyanat qəbul olunmuş, terrorçuluğun bütün formaları və təzahürləri bir daha qətiyyətlə pislənmiş, terrorizmin təbiətinin dəyişildiyi qeyd olunmuş, üzv dövlətlər beynəlxalq münasibətlərdə hər hansı bir dövlətin ərazi bütövlüyü və ya siyasi müstəqilliyinə qarşı təhdid və ya gücdən istifadə etməmə öhdəliyini həyata keçirməyə və terrorçuluqda iştirak edən, onunla bağlılığı olan istənilən şəxs və ya qurumlara hər cür yardım etməkdən çəkinməyə çağırılmışdır. Bir daha təsdiqlənmişdir ki, səmərəli əks-terror tədbirləri insan haqlarına, azadlıq prinsiplərinə, qanunlara riayət edilməsi ilə həyata keçirilməli və gücləndirilməlidir. Dini və mədəni müxtəlifliyə bütün dünyada hörmət və anlaşma ilə yanaşmağın vacibliyi vurğulanmışdır. Şura üzv dövlətlər arasında əməkdaşlığın və birliyin möhkəmləndirilməsi, xüsusilə ikitərəfli və çoxtərəfli razılaşma yolu ilə terror hücumlarının qarşısının alınması və aradan qaldırılmasının vacib olduğunu qeyd etmiş, dövlətləri əməkdaşlığın və fəaliyyətlərin koordinasiyalarını beynəlxalq, regional və subregional müstəvidə genişləndirməyə və gücləndirməyə çağırmışdır. Şura eyni zamanda əks-terror öhdəliklərinin səmərəli təminatını təşkil etmək üçün BMT-nin idarəedici və yardımçı qurumları arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışdır.

Dövlət müstəqilliyinin bərpasından sonra dünyada ardıcıl olaraq sülh və inkişaf siyasəti yürüdərək, beynəlxalq hüququn bərpa olunmasını tələb edən Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi bir çox addımlar ataraq mövqeyini bütün dünya birliyinə bir daha nümayiş etdirmişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək, özünün təhlükəsizlik problemlərini, ilk növbədə pozulmuş ərazi bütövlüyü məsələsini şuranın müzakirəsinə çıxarmışdır. Bu müddət ərzində Azərbaycan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müxtəlif aspektlərini əhatə edən çoxlu sayda məruzə hazırlamış, Baş Assambleyanın və Təhlükəsizlik Şurasının sənədi kimi yaymışdır. Məsələn, Ermənistan hərbi qüvvələrinin atəşkəsi mütəmadi pozması və işğal olunmuş Azərbaycan ərazilərində qanunsuz fəaliyyəti barədə müntəzəm məruzələri, azərbaycanlı məcburi köçkünlərin beynəlxalq hüquqları və Ermənistanın məsuliyyəti,

"Xocalıda qətliam: cinayətkarlar, qeyd-şərt və beynəlxalq hüquq qarşısında məsuliyyət" adlı memorandumu və Ermənistanın BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993), 884 (1993) saylı qətnamələrinə məhəl qoymaması ilə bağlı araşdırmanı xüsusi olaraq qeyd etmək lazımdır.

Azərbaycan "Mübahisələrin qarşısının alınması və həlli, münaqişələrin sülh yolu ilə nizama salınması: vasitəçilik, qanuni nizama salma və ədalət" mövzusunda Təhlükəsizlik Şurasının qeyri-formal "Aria formulu"[10] konfransını təşkil etmişdir. Konfransda Təhlükəsizlik Şurasının təmsilçiləri ilə yanaşı, BMT-nin daimi və müşahidəçi üzvləri, BMT Katibliyi, digər beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyətləri və akademik icmalar iştirak etmişdir. Konfransın əsas məqsədi mübahisələrin sülh yolu ilə həlli və münaqişələrin qarşısının alınması və nizama salınması mövzusunda Təhlükəsizlik Şurasının üzvləri və digər iştirakçılar arasında müzakirələr aparmaq, beynəlxalq hüquqa əsaslanan davamlı sülhün və barışın təbliğ edilməsində vasitəçiliyin, hüquqi razılaşmanın və qanunun rolunun qiymətləndirilməsi olmuşdur.

Təhlükəsizlik Şurasında fəaliyyəti zamanı Azərbaycan Respublikası beynəlxalq sülhün və təhlükəsizliyin daha səmərəli şəkildə təmin olunması, bəşəriyyətin üzləşdiyi yeni təhdidlərin və problemlərin həllində BMT Təhlükəsizlik Şurasının fəaliyyətinin gücləndirilməsi məqsədilə təşkilatda islahatlar aparılmasının zəruriliyini bildirmişdir.

Hələ 2003-cü ilin sentyabrında BMT Baş Məclisinin 58-ci sessiyasında iştirak edən İlham Əliyev beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmaması üçün BMT Təhlükəsizlik Şurasının müasir şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməsinin vacibliyini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab

10 "Aria formulu" Təhlükəsizlik Şurasının qeyri-formal konfidensial görüşlər formatında təşkil olunan nisbətən yeni təcrübəsidir. Həmin görüşlər vasitəsilə Təhlükəsizlik Şurasının daimi və qeyri-daimi üzvləri müzakirə olunan mövzu ilə bağlı dəyərli fikirlərini paylaşa bilən şəxslərin (məsələn, akademik dairələrin, kütləvi informasiya vasitələrinin, vətəndaş cəmiyyətinin nümayəndələrinin) iştirakı ilə xüsusi müzakirələrin təşəbbüskarı kimi çıxış edə bilərlər. "Aria formulu" – bu təcrübəni ilk dəfə olaraq 1992-ci ildə BMT Təhlükəsizlik Şurasında istifadə edən Venesuelanın qurumda nümayəndəsi səfir Dieqo Ariyanın şərəfinə adlandırılıb.

vermədiyini vurğulamış və bununla bağlı təşkilat daxilində islahatların mühüm məsələyə çevrildiyini bildirmişdir.

Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir. Beləliklə, Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında yenidən gündəliyə gətirdi. Sessiyada Azərbaycanın dövlət başçısı bildirmişdir ki, "təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verməlidir"[11].

BMT Təhlükəsizlik Şurasına beynəlxalq birlik tərəfindən ünvanlanan tənqidlərin bir qismi şuranın qapalı iclaslarının keçirilməsi və maraqlı dövlətlərin həmin iclaslara dəvət olunmaması ilə bağlıdır. Bununla bağlı Azərbaycan Respublikası Təhlükəsizlik Şurasında qeyri-daimi üzv kimi fəaliyyəti zamanı qurumun istifadə etdiyi işçi mexanizmlərin islahatının vacibliyini vurğulayaraq, şuranın qərar qəbul edərkən nəinki qurumun üzv dövlətlərinin, eyni zamanda BMT-nin üzvlüyündə olan digər dövlətlərin iştirakını təmin etməsini təklif etmişdir. Bu da, öz növbəsində, BMT-nin ən vacib, beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında başlıca məsuliyyət daşıyan orqanında qəbul olunan qərarlara üzv dövlətlərin inamını artıraraq, təşkilatın nüfuzunun qorunub-saxlanılmasının təminatçısı kimi çıxış edə bilər[12].

Bundan başqa, Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının işçi metodlarına dair həmin orqana üzv olmayan BMT-nin digər üzvləri üçün mütəmadi brifinqlərin keçirilməsi barədə təklifini irəli sürmüşdür. Bu yenilik şuranın müvafiq tədbirlərinin həyata keçirilməsinin səmərəliliyini artırmaqla yanaşı, təşkilatın bütün üzv dövlətlərinin maraq və fikirlərini

11 Azərbaycan və BMT münasibətləri // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /08.05.2014/ - http://mfa.gov.az/az/content/751

12 Statement by Mr. Agshin Mehdiyev, Permanent Representative of the Republic of Azerbaijan to the United Nations // Implementation of the note by the President of the Security Council (S/2010/507), Working methods of the Security Council. Security Council 6870th meeting, 26 November, 2012.

nəzərə alaraq, zəruri hallarda müəyyən dəyişikliklərin həyata keçirilməsi üçün vacib hesab oluna bilər.

Hərbi və polis kontingentlərini təqdim edən dövlətlərlə Təhlükəsizlik Şurası arasında keçirilən brifinqlərin müsbət dinamikasını dəstəkləyən Azərbaycan Respublikası şuranın BMT sisteminin digər orqanları, o cümlədən Baş Assambleya, İqtisadi və Sosial Şura, eləcə də beynəlxalq regional təşkilatlarla fəaliyyətinin daha sıx şəkildə qurulması təklifini irəli sürmüşdür[13].

BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması məqsədilə beynəlxalq regional təşkilatlarla əməkdaşlığının genişləndirilməsi Azərbaycan Respublikasının təşkilatla islahatların aparılması ilə bağlı irəli sürdüyü ən mühüm təkliflərdəndir. Belə ki, Təhlükəsizlik Şurasında qeyri-daimi üzv kimi fəaliyyəti zamanı və şuraya rəhbərliyinin bir hissəsi kimi Azərbaycan Respublikası 28 oktyabr 2013-cü il tarixində BMT və İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın genişləndirilməsi mövzusunda yüksəksəviyyəli görüşün təşkilini həyata keçirmişdir. İƏT-in o vaxtkı Baş katibi Ekmələddin İhsanoğlu və BMT-nin Baş katibi Pan Gi Mun ilə bərabər Təhlükəsizlik Şurası üzvlərinin yüksəksəviyyəli nümayəndələrinin iştirak etdiyi konfransa Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov sədrlik etmişdir. Konfransın əsas məqsədi beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması və hər iki təşkilat arasında əməkdaşlığın gücləndirilməsi üçün BMT və İƏT arasındakı əlaqələrin nəzərdən keçirilməsi olmuşdur. Konfransın nəticəsi olaraq qəbul edilən bəyanatda (S/PRST/2013/16) İƏT-in BMT-nin işlərindəki aktiv rolu Təhlükəsizlik Şurası tərəfindən tanınmış, preventiv diplomatiya, sülhyaratma və sülhün qorunması sahəsində iki təşkilat arasında müntəzəm surətdə aparılan dialoq tanınmış, BMT və İƏT-in İsrail–Fələstin münaqişəsinin həllində, Suriyadakı münaqişənin siyasi həllinin 30 iyun 2012-ci il tarixli Cenevrə kommünikesi, digər münaqişələrin isə BMT-nin Nizamnaməsi və Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmasına eyni yanaşmaların olduğunu təsdiq etmiş, ölkələr, mədəniyyətlər və sivilizasiyalar arasında

13 Statement by Mr. Tofig F. Musayev, Deputy Permanent Representative of the Republic of Azerbaijan to the United Nations // Implementation of the note by the President of the Security Council (S/2010/507), Working methods of the Security Council. Security Council 7052nd meeting, 29 October, 2013.

anlaşmanın, sülh və dözümlülüyün inkişaf etdirilməsi yolunda qlobal dialoqun önə çəkilməsinin əhəmiyyəti vurğulanmış və beynəlxalq sülh və təhlükəsizliyin təminində İƏT ilə əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd olunmuşdur.

BMT və İƏT-in sülh və təhlükəsizliyin təşviqi və qlobal səviyyədə sülh mədəniyyətinin gücləndirilməsi sahəsindəki səyləri Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində də öz müsbət töhfələrini verə bilər. Bu prosesdə İƏT-ə üzv dövlətlərin Ermənistanı Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşmağa vadar edəcək individual səyləri mühüm əhəmiyyət daşıyır.

BMT ilə Afrika Birliyi arasında sülh və təhlükəsizlik sahəsində strateji münasibətlərin inkişaf etdirilməsi istiqamətində əldə olunan nailiyyətləri dəstəkləyən Azərbaycan Respublikası[14] Afrikanın kollektiv təhlükəsizlik məsələlərinin effektiv şəkildə həll edilməsi məqsədilə bu strateji münasibətin möhkəmləndirilməsinin tərəfdarıdır. Bu kontinentdə silahlı münaqişələrin qarşısının alınması və vasitəçilik sahələrinə daha böyük diqqət yetirilməsi xüsusi əhəmiyyət kəsb edir. BMT və Afrika İttifaqının Afrika regionunda silahlı münaqişələrin həllində vasitəçilik üçün ümumi prinsipləri hazırlaması bu məqsədə nail olmaq üçün töhfə verə bilər. Bütün üzv ölkələrin, BMT Nizamnaməsində göstərildiyi kimi, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə dair götürdüyü öhdəliklərə əməl etməsi bu kontekstdə çox vacibdir.

BMT Təhlükəsizlik Şurasının iki təşkilatın əməkdaşlığına həsr olunmuş xüsusi 6702-ci iclasında iştirak edən Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının münaqişələrin sülh yolu ilə həllində vasitəçiliyin gücləndirilməsinə dair 22 iyun 2011-ci il tarixində qəbul etdiyi 65/283 nömrəli qətnamənin xüsusi rolunu vurğulamışdır[15].

Bütövlükdə Afrika qitəsində baş verən qaynar hadisələrin uzun

14 Azərbaycan Respublikası Afrika Birliyində müşahidəçi statusuna malikdir. Azərbaycan Afrika üçün müxtəlif yardım proqramlarının tətbiqində fəal iştirak edir. Respublikamız Afrika ölkələrində baş vermiş humanitar böhranın aradan qaldırılması məqsədilə təcili yardımın təmin edilməsi üçün ayrı-ayrı hökumətlərin və beynəlxalq təşkilatların çağırışına hər zaman cavab verir

15 The Republic of Azerbaijan in the United Nations Security Council. 2012/2013. Permanent Mission of the Republic of Azerbaijan to the United Nations. N.Y., 2014, p. 47

müddət şuranın diqqət mərkəzində olması, onun gündəlik işinin 60 faizdən çoxunun Afrika məsələlərini əhatə etməsini nəzərə alaraq, BMT və Avropa İttifaqının Afrikada münaqişələrin həlli prosesində vasitəçiliyin əsası kimi çıxış edə biləcək ümumi rəhbər prinsipləri hazırlaması regionda sülhün və təhlükəsizliyin bərqərar olmasının təminatçısı ola bilər.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına rəhbərlik etdiyi müddətdə şura 18-24 may tarixlərində Qərbi Afrika (Liberiya, Kot-d'İvuar və Syerra-Leone), 3-9 oktyabr tarixlərində isə Afrikanın Böyük Göllər regionuna (Konqo Demokratik Respublikası, Ruanda, Uqanda və Efiopiya) missiyalar həyata keçirdi. İkinci missiyanın bir hissəsi kimi oktyabrın 8-də Afrika Birliyinin Sülh və Təhlükəsizlik Şurası və BMT Təhlükəsizlik Şurasının Əddis Əbəbədə illik 7-ci ümumi konfransı keçirildi və görüşün sonunda Təhlükəsizlik Şurasının sənədi kimi birgə kommünike tərtib edildi. Bu konfransa BMT Təhlükəsizlik Şurasının oktyabr ayı üçün sədri qismində Azərbaycan Respublikası, Afrika Birliyinin Sülh və Təhlükəsizlik Şurasının sədri qismində isə Ekvatorial Qvineya həmsədrlik etmişdir. Bundan əlavə, oktyabrın 31-də Azərbaycanın Daimi Nümayəndəliyi tərəfindən Təhlükəsizlik Şurası ilə Afrika Birliyinin İcraedici Şurasının Əlaqə Qrupu arasında qeyri-formal dialoq keçirilmişdir. Dialoqun əsas mövzusu 2013-cü il 21 oktyabr tarixində Keniyanın BMT-dəki Daimi Nümayəndəliyinin Beynəlxalq Cinayət Məhkəməsi ilə bağlı baş katib və Təhlükəsizlik Şurasının sədrinə ünvanladığı təklifinin müzakirəsi olmuşdur.

Azərbaycan Orta Şərq, Asiya, Avropa və Latın Amerikasında sülh və sabitliyin təbliği, eyni zamanda BMT, regional və subregional təşkilatlar arasında əməkdaşlığın genişləndirilməsi, beynəlxalq sülh və təhlükəsizlik sahəsində əks-terrorizm, transmilli cinayətkarlığa qarşı mübarizə, silahlı münaqişələrdə mülki vətəndaşların müdafiəsi, uşaqlar və silahlı münaqişə, qadınlar, sülh və təhlükəsizlik problemləri, hüquqi idarəçilik kimi tematik məsələlərin konseptual və normativ inkişafına bərabər səviyyədə diqqət ayırmışdır.

2013-cü ildə Azərbaycan həmçinin Orta Şərqdə vəziyyətlə bağlı qadın, sülh və təhlükəsizlik, Təhlükəsizlik Şurasının fəaliyyət metodları

mövzusunda 3 açıq müzakirə təşkil etmiş və Beynəlxalq Məhkəmənin sədri hakim Peter Tomka ilə görüş keçirmişdir.

Azərbaycan Təhlükəsizlik Şurasına üzvlüyü müddətdə Konqo Demokratik Respublikası ilə əlaqədar 1533 (2004) saylı qətnamənin yerinə yetirilməsi ilə məşğul olan komitəyə rəhbərlik etmişdir[16].

BMT və Avropa İttifaqı arasında əməkdaşlığın vacibliyini qeyd edən Azərbaycan Respublikası Təhlükəsizlik Şurasında qeyri-daimi üzv kimi fəaliyyəti zamanı bu əməkdaşlıq çərçivəsində beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması, insan hüquqlarının müdafiəsi və beynəlxalq cinayətkarlığa qarşı vahid strategiyanın hazırlanmasını təklif etmişdir. 13 fevral 2013-cü ildə BMT Təhlükəsizlik Şurasının BMT və Aİ əməkdaşlığına həsr olunmuş iclasında Azərbaycan nümayəndə heyəti tərəfindən iki qurum arasında hərbi münaqişələr zamanı mülki əhalinin müdafiəsi ilə əlaqədar birgə potensialın gücləndirilməsi, beynəlxalq cinayət törətmiş fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyətinə cəlb olunması məsələlərinə dair təkliflər irəli sürülmüşdür[17]. Belə qənaətə gəlmək olar ki, Azərbaycan Respublikasının beynəlxalq-hüquqi mövqeyinə əsasən insan hüquqlarının təmin olunması və beynəlxalq cinayətkarlıqla mübarizə beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasının tərkib elementləri kimi çıxış edir.

Bu istiqamətdə Azərbaycanın daha bir təklifi BMT ilə türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etmək məqsədilə yaradılmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) arasında əlaqələrin inkişafı ilə bağlıdır. Beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi məqsədilə BMT və Türk Şurası vahid strategiya formalaşdırmalı, informasiya mübadiləsinin mütəmadi şəkildə təşkil olunmasını və ortaq maraq kəsb edən bütün sahələrdə regional əməkdaşlığın gücləndirilməsini həyata keçirməlidirlər.

Beləliklə, qloballaşan dünyada beynəlxalq sülh və təhlükəsizliyə olan yeni təhdidlərlə mübarizə dünya birliyinin kollektiv səylərinin

16 Azərbaycan və BMT münasibətləri // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /08.05.2014/ - http://mfa.gov.az/az/content/751

17 Statement of Mr. Agshin Mehdiyev, Permanent Representative of the Republic of Azerbaijan to the United Nations // Cooperation between the United Nations and regional and sub-regional organizations in maintaining international peace and security: European Union. Security Council 6919th meeting, 13 February 2013

gücləndirilməsini və çoxtərəfli diplomatiya əsasında həyata keçiriləcək fəaliyyətini tələb edir. Bundan irəli gələrək, Təhlükəsizlik Şurasında fəaliyyəti zamanı Azərbaycan Respublikası BMT-nin beynəlxalq regional təşkilatları ilə əməkdaşlığın vacibliyini dəfələrlə vurğulamışdır. Bu əməkdaşlıq çərçivəsində beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasına dair həyata keçiriləcək fəaliyyətdə əsas rolu isə BMT-nin beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında başlıca məsuliyyət daşıyan orqan olan Təhlükəsizlik Şurası oynamalıdır.

İnsan hüquqları sahəsində əməkdaşlıq

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunu seçərək dünya birliyinə sürətlə inteqrasiya etməyə başladı. BMT-yə üzv olduğu vaxtdan bəri ölkəmiz beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün önəmli əsaslar hesab edilən, ədalət və insan hüquqlarını təmin edən BMT Nizamnaməsinin və beynəlxalq hüququn norma və prinsiplərinə daim sadiqlik nümayiş etdirmişdir.

Qısa müddət ərzində dünya birliyinin bərabərhüquqlu üzvü olan Azərbaycan Respublikası demokratik cəmiyyətin atributu olan vətəndaş cəmiyyətinin bərqərar edilməsini, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin edən milli Konstitusiyasını 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi (referendum) ilə qəbul etdi. Azərbaycan Respublikası Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin əsas məqsədi kimi təsbit olunmuşdur. Konstitusiyada sadalanan insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun surətdə həyata keçirilir.

Konstitusiyaya əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Hətta ölkə qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlarla (Azərbaycan Respublikasının Konstitusiyası və

referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycanın tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir[18].

Azərbaycan Respublikası insan hüquqları sahəsində qəbul olunmuş bütün əsas beynəlxalq müqavilələrə qoşularaq, insan hüquqlarının həyata keçirilməsi üzərində nəzarət mexanizmləri ilə geniş və uğurlu əməkdaşlıq qurmuşdur[19]. Belə ki, BMT çərçivəsində qəbul olunan və dünya tarixində xüsusi əhəmiyyətinə görə epoxal sayılan "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"yə[20], "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakta, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta və onun iki Fakültativ protokoluna qoşularaq, Azərbaycan Respublikası həm öz milli qanunvericilik sistemini beynəlxalq standartlara uğun olaraq yaratması, həm də beynəlxalq sənədlərin təsis etdiyi beynəlxalq insan hüquqları orqanları ilə əməkdaşlıq məqsədlərinə nail olmuşdur. Faktiki olaraq, Azərbaycan Respublikası BMT-nin insan hüquqları ilə məşğul olan bütün əsas və köməkçi orqanları ilə əməkdaşlıq qurmuşdur. Onların sırasında "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktla nəzərdə tutulmuş İnsan Hüquqları Komitəsi və BMT-nin İqtisadi və Sosial Şurasının qətnaməsi əsasında yaradılan İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəni qeyd etmək vacibdir.

Bundan başqa, Azərbaycan Respublikası ayrı-ayrı kateqoriyalara aid olan, insan hüquqlarının müdafiəsinə dair BMT çərçivəsində qəbul olunmuş bir sıra beynəlxalq müqavilələrə də qoşulmuşdur.

Qadın hüquqları sahəsində Azərbaycan Respublikasının iştirakçısı

18 Beynəlxalq hüquqi aktların implementasiyası prosesinin nizamlanmasında Azərbaycan Respublikası Prezidentinin 16 avqust 1994-cü il tarixli "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə qoşulma praktikasının qaydaya salınması üzrə tədbirlər haqqında" sərəncamı mühüm rol oynamışdır. Bu proses 13 yanvar 1995-ci il tarixli "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrin bağlanması, icrası, denonsasiyası haqqında" qanunu və 20 dekabr 1996-cı il tarixli "Azərbaycan Respublikasının hökumətlərarası müqavilələrinin bağlanması, icrası, denonsasiya qaydalarının təsdiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tənzimlənir

19 İnsan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq-hüquqi normalar əsasən İkinci Dünya müharibəsindən sonra formalaşmışdır. Bu sahədə bütün bəşəriyyət üçün ən böyük nailiyyət məhz BMT-nin yaradılması olmuşdur.

20 1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin fərmanı ilə BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi Azərbaycanda yüksək səviyyədə qeyd edilmişdir. Həmin il Heydər Əliyevin təşəbbüsü ilə ölkədə ölüm hökmü və mətbuat üzərində senzura ləğv olunmuşdur.

olduğu beynəlxalq müqavilələrin sırasında 1952-ci il tarixli "Qadınların siyasi hüquqları haqqında" Konvensiyanı (1992-ci ildə ratifikasiya edilib), 1962-ci il tarixli "Nikaha daxil olma, nikaha daxil olmaq üçün minimal yaş həddi, nikahların qeydə alınması haqqında" Konvensiyanı (1996-cı ildə ratifikasiya edilib), 1979-cu il tarixli "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanı (1995-ci ildə ratifikasiya edilib) və konvensiyanın Fakültativ Protokolunu (2000-ci il tarixində imzalanıb), 1957-ci il tarixli "Ərdə olan qadının vətəndaşlığı haqqında" Konvensiyanı qeyd etmək olar.

Azərbaycan Respublikası qeyd olunan beynəlxalq müqavilələrə qoşularaq, dövlətlərin öhdəliklərini yerinə yetirməsinə nəzarət edən BMT-nin müqavilə komitələri ilə mütəmadi şəkildə əməkdaşlıq edərək ölkədə bu sahədə görülən tədbirlər və onların nəticəsi haqqında hesabatlar təqdim edir. Belə ki, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya üzrə Azərbaycanın ilk hesabatı BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması Komitəsinə 1996-cı ildə təqdim olunmuşdur[21]. 20 yanvar 1998-ci ildə isə həmin komitədə Azərbaycanda konvensiyanın həyata keçirilməsi haqqında məruzə dinlənilmişdir. Bundan başqa, yuxarıda qeyd olunan Fakültativ Protokola müvafiq olaraq, komitəyə hər bir şəxs tərəfindən fərdi şikayətin təqdim olunması nəzərdə tutulmuşdur.

2000-2002-ci illərdə Azərbaycan Qadınların statusu haqqında Komissiyanın üzvü olmuşdur. Azərbaycan həmçinin komissiyanın qəbul etdiyi illik "Hərbi münaqişələr nəticəsində girov götürülmüş qadın və uşaqların azad edilməsi haqqında" qətnamənin əsas sponsorudur.

Uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikası BMT-nin 20 noyabr 1989-cu ildə qəbul edilmiş "Uşaq hüquqları haqqın-

21 Azərbaycan Respublikası qadın hüquqları sahəsində ratifikasiya etdiyi BMT müqavilələrinə uyğun öz milli qanunvericiliyini təkmilləşdirmək istiqamətində bir sıra hüquqi islahatlar həyata keçirmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında, Əmək Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində və digər normativ hüquqi aktlarda qadınların hüquqlarının müdafiəsi ilə bağlı müddəalar təsbit olunmuşdur. Bundan başqa, BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasından və Pekin Fəaliyyət Platformasından irəli gələn öhdəlikləri daha geniş miqyasda həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncam imzalamışdır

da" Konvensiyasına qoşularaq, bu sahədə milli qanunvericilik sistemində bir sıra hüquqi islahatlar həyata keçirmişdir. Belə ki, 19 may 1998-ci ildə "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının qanunları, eləcə də dövlət proqramları və tədbirlər planları qəbul edilmişdir. Azərbaycan Respublikası Əmək Məcəlləsində və Ailə Məcəlləsində uşaq hüquqlarının müdafiəsi ilə bağlı müddəalar öz əksin tapmışdır.

Konvensiyaya müvafiq surətdə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsində Azərbaycan tərəfindən əldə olunmuş nailiyyətlər və uşaq hüquqları sahəsində ölkədəki ümumi vəziyyətə dair hesabatlar mütəmadi şəkildə təqdim olunur. Bununla da iştirakçı dövlət və BMT-nin müvafiq komitəsi tərəfindən konstruktiv dialoqun formalaşdırılması uğurla həyata keçirilir.

Azərbaycan Respublikası BMT çərçivəsində qəbul olunmuş digər beynəlxalq müqavilələrə, o cümlədən "İşgəncələr və digər qəddar, qeyri-insani və insan ləyaqətini alçadan rəftar və cəza növləri əleyhinə", "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair", "Əməkçi miqrantlar və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinə dair", "Əlillərin hüquqları haqqında" (əlavə protokolla birgə) beynəlxalq konvensiyalara qoşularaq, onların müvafiq maddələrinə əsasən yaradılmış BMT komitələri ilə uğurlu əməkdaşlıq həyata keçirir.

BMT-nin insan hüquqları sahəsində ən mühüm orqanı olan İnsan Hüquqları Şurasına üzv olan Azərbaycan Respublikası[22] öz üzərinə bir sıra öhdəliklər götürmüş və bu öhdəliklərdən biri də universal dövri icmal mexanizmi ilə bağlıdır. Qeyd olunan icmal ölkədə bütövlükdə insan hüquqlarının müdafiəsi sahəsində mövcud vəziyyəti əks etdirməlidir. 2009-cu ildə insan hüquqları sahəsində vəziyyətin dəyərləndirilməsi baxımından tam yeni mexanizm olan Universal Dövri İcmal üzrə Azərbaycan Respublikasının BMT-nin

22 Azərbaycanın 2006-cı ilin iyununda BMT-nin İnsan Hüquqları Şurasına üzv qəbul edilməsi Azərbaycan–BMT əməkdaşlığında əlamətdar hadisələrdən biri kimi qiymətləndirilir

İnsan Hüquqları Şurasında ilk hesabatı dinlənilmiş və bu sənədə böyük maraq göstərmiş dövlətlərin nümayəndələrinin fəal iştirakı ilə müzakirələr nəticəsində ölkəmizdə insan hüquqları sahəsində əldə edilmiş uğurlar, müsbət təcrübə dəyərləndirilmiş və bir sıra tövsiyələr verilmişdir[23].

Müstəqil Azərbaycan Respublikasının əsas vəzifələrindən biri Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının təminatı, o cümlədən onların məskunlaşdırılması, repatriasiyası və beynəlxalq-hüquqi müdafiəsidir. Bununla əlaqədar Azərbaycan Respublikası BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı ilə əməkdaşlıq qurmuşdur. 1993-cü ildən ölkədə geniş fəaliyyətə başlayan BMT-nin Qaçqınlar üzrə Ali Komissarının İdarəsi Ermənistanın təcavüzü nəticəsində öz torpaqlarından qaçqın və məcburi köçkün düşmüş azərbaycanlılara humanitar yardım göstərilməsi üzrə əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Xüsusilə ölkəmizin çətinlik çəkdiyi 1994-1995-ci illərdə BMT qurumlarının, digər beynəlxalq təşkilatların qaçqınlara və məcburi köçkünlərə himayədarlığı olmasaydı, o zaman Azərbaycanda humanitar böhran baş verə bilərdi. Bu gün Azərbaycanda BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının 1951-ci il Konvensiyasına və 1967-ci il Protokoluna uyğun olaraq məcburi köçkünlərin hüquqlarını və sosial müdafiəsini tənzimləyən mükəmməl hüquqi baza yaradılmış və bütün bunlar beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Beləliklə, Azərbaycan Respublikası insan hüquqlarının müdafiəsi sahəsində ümumi standartlar müəyyənləşdirən BMT çərçivəsində qəbul olunmuş beynəlxalq sənədlərə qoşularaq və bu standartların dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarət məqsədilə yaradılan BMT orqanları ilə əməkdaşlıq edərək, bir daha özünün demokratik dəyərlərə və insan hüquqlarının prioriteti prinsipinə sadiq olduğunu sübut edir. Qloballaşan dünyada siyasi liberallaşma və demokratikləşmə prosesləri BMT çətiri altında fəaliyyət göstərən dünya dövlətlərinin bu prinsiplərə əsaslanaraq istiqamətləndirilməsini zərurətə çevirir.

23 Əliyev Ə. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Bakı, 2009, s. 306

Azərbaycanın BMT-nin ixtisaslaşmış təsisatları ilə əməkdaşlığı

BMT səmərəli idarəçiliyin təkmilləşdirilməsi, yoxsulluğun azaldılması, insan hüquqlarına rəğbətin və gender bərabərliyinin təmin olunması, insanların sağlamlıq və təhsil sahələrindəki əsas ehtiyaclarının qarşılanması üçün əlverişli mühit yaratmaqla Azərbaycanın inkişafını dəstəkləyir. BMT ilə geniş əlaqələr quran Azərbaycan əməkdaşlığın müxtəlif vasitələrindən istifadə edir. Əməkdaşlığın səmərəli şəkildə həyata keçirilməsi üçün Azərbaycan Respublikası BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və effektiv əməkdaşlıq edir. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMT İP)[24], BMT-nin Uşaq Fondu (YUNİSEF), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO), Sənaye İnkişaf Təşkilatı (YUNIDO), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Ümumdünya Ərzaq Proqramı (ÜƏP), BMT-nin Əhali Fondu (UNFPA), BMT-nin Qadınlar Fondu (UNIFEM), Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s.-ni qeyd etmək olar.

Təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası BMT-nin təhsil, elm və mədəniyyət təşkilatı olan YUNESKO ilə geniş əməkdaşlıq edir. Bu məqsədlə 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Azərbaycanın YUNESKO nəzdində Milli Komissiyası təsis edilmişdir. Azərbaycan–YUNESKO əlaqələri ölkənin təhsil, elm və mədəniyyət sahələrində inkişafına yardım məqsədilə uğurla həyata keçirilir. Azərbaycan–YUNESKO münasibətlərinin inkişafında, bu münasibətlərin canlanması və gücləndirilməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva əvəzolunmaz rola malikdir. Onun Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələrinin mühafizəsi, mədəniyyət, elm, təhsil və digər sahələrdə fəaliyyəti, təşkilatdakı şəxsi nüfuzu, YUNESKO-

24 BMT-nin İnkişaf Proqramının nümayəndəliyi Azərbaycanda 1993-cü ildə fəaliyyətə başlamışdır

nun humanist ideyalarına bağlılığı bu münasibətlərin əsasını təşkil edir. 2004-cü ilin sentyabrında Mehriban Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına göstərdiyi sadiqliyə görə bu təşkilatın şifahi ənənələr və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülmüşdür. Dünya mədəniyyətinə qayğı və diqqətinə, həmçinin Azərbaycan mədəni irsinin yaşadılması sahəsindəki töhfələrinə görə Mehriban Əliyeva 2010-cu ildə YUNESKO-nun Baş direktoru İrina Bokova tərəfindən "Qızıl Motsart" medalı ilə təltif edilmişdir.

Azərbaycan Respublikasının YUNESKO üzrə Milli Komissiyası təşkilatın bütün prioritet istiqamətləri üzrə əməkdaşlıq etməklə, həm yerli dövlət qurumları və institutları, həm də digər dövlətlərin YUNESKO üzrə milli komissiyaları ilə birlikdə çoxsaylı layihələr həyata keçirməkdədir.

Bu illər ərzində Azərbaycanın 2 maddi-mədəni irs nümunəsi – İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi və Qobustan Qaya Sənəti Mədəni Landşaftı YUNESKO-nun Ümumdünya İrs Siyahısına, 5 qeyri-mədəni irs nümunəsi – Azərbaycan muğamı, aşıq sənəti, Novruz bayramı, xalçaçılıq sənəti, eləcə də tar və onun ifaçılıq sənəti Qeyri-maddi Mədəni İrsin Reprezentativ Siyahısına, Azərbaycan Respublikasında Çövkən ənənəvi Qarabağ atüstü oyunu YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir[25].

Azərbaycan–YUNESKO əlaqələrinin inkişafında ən yaddaqalan və vacib məqamlardan biri 1996-cı ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500, 2000-ci ildə isə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin Azərbaycanda geniş şəkildə keçirilməsi ilə yanaşı, Parisdə – təşkilatın qərargahında da təntənə ilə qeyd edilməsi olmuşdur. YUNESKO-nun Yubileylər Proqramı çərçivəsində onlarca yubiley tədbiri beynəlxalq səviyyədə qeyd edilmişdir. Onların sırasında böyük

25 Azərbaycan–YUNESKO: insan hüquqlarına əsaslanan tərəfdaşlıq. Bakı, 2014, s. 34-35

alim Nəsirəddin Tusinin anadan olmasının 800 (2001), şərqşünas alim Mirzə Kazımbəyin 200 (2002), görkəmli alim, akademik Yusif Məmmədəliyevin 100 (2005), məşhur rəssam, xalça ustası Lətif Kərimovun 100 (2006), dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasının 100 (2008), görkəmli yazıçı Mir Cəlal Paşayevin 100 (2008), böyük rəssam Səttar Bəhlulzadənin 100 (2009), tanınmış alim, akademik Musa Əliyevin 100 (2009), orta əsrlərin məşhur şairəsi və alimi Məhsəti Gəncəvinin yaradıcılığının 900 (2013), dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının 100 (2013), filosof alim Seyid Yəhya Bakuvinin vəfatının 550 illik (2013) və s. yubiley tədbirlərinin adını çəkmək olar.

Mədəniyyətlərin qovuşduğu körpü rolunu oynayan Azərbaycan Respublikası YUNESKO-nun dəstəyi ilə bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəyi ilə təşkil edilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında mədəniyyətlərarası dialoqun inkişafının nəzərdə tutulduğu "Bakı prosesi"nin davamı çərçivəsində respublikamızda həyata keçirilən tədbirlər sırasındadır. 2013-cü ildə Bakıda keçirilən Mədəniyyətlərarası Dialoq üzrə II Beynəlxalq Forumda YUNESKO-nun Baş katibi İrina Bokova iştirak edərək, tədbirin uğurlu nəticələnməsinə böyük töhfələrini vermişdir.

Azərbaycanın YUNESKO ilə ən vacib fəaliyyət istiqamətlərindən biri də erməni işğalçıları tərəfindən dağıdılmış nadir mədəniyyət inciləri haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması, eyni zamanda həmin abidələrin, mədəniyyət ocaqlarının bərpası, qarət olunub respublikadan çıxarılmış sənət əsərlərinin qaytarılması məsələləridir.

18 iyul 2013-cü il tarixində Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illiyi münasibətilə Parisdə qurumun baş qərargahında YUNESKO ilə Azərbaycan hökuməti arasında təhsil,

elm, mədəniyyət və kommunikasiya sahəsində əməkdaşlığa dair Çərçivə Sazişi imzalanmışdır. Tədbirdə iştirak edən Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva bu addımın "beynəlxalq səviyyədə başlanmış prioritet proqramlara və təşəbbüslərə dəstək verməklə YUNESKO-nun ideallarının və prinsiplərinin dünyada təbliğinə töhfə verəcəyinə" əminliyini ifadə etmişdir[26].

Azərbaycanın BMT-nin Uşaq Fondu (YUNİSEF) ilə əməkdaşlıq sazişini Prezident Heydər Əliyev 1994-cü ildə BMT Baş Assambleyasının sessiyasında iştirakı zamanı imzalamışdır. Azərbaycanla YUNİSEF arasında əməkdaşlıq qaçqın və məcburi köçkün uşaq və yeniyetmələr arasında vəziyyətin yaxşılaşdırılması məqsədilə bərqərar olmuşdur.

BMT ən kəskin təsirə məruz qalmış qaçqın və məcburi köçkünlərin qidalanma vəziyyətini nəzarətdə saxlamaq üçün 1993-cü ildə özünün fövqəladə ərzaq proqramının – Ümumdünya Ərzaq Proqramının (ÜƏP) icrasına başlamışdır. Bu proqram çərçivəsində qaçqın və məcburi köçkünləri təxminən 160.000 ton qarışıq ərzaq malları ilə təmin etmişdir.

Azərbaycan öz siyasi və iqtisadi sistemini yeniləşdirməklə, ölkənin müasir norma və standartlar çərçivəsində inkişaf etməsini əsas məsələ sayır. Bu prosesin mühüm tərkib hissəsi kimi demokratik infrastrukturun gücləndirilməsi, şəffaf qərar qəbulu və siyasi müzakirələr prosesində ictimaiyyətin inkişafı məsələlərini qeyd etmək olar. Yeni iş yerlərinin açılması, iqtisadiyyatın inkişafı və digər müvafiq tədbirlərin xüsusi sektorda effektiv inkişafı və böyüməsini təmin etmək üçün BMT-nin İnkişaf Proqramı (BMT İP) Azərbaycan hökumətinə yardım edir. Struktur islahatlarının genişləndirilməsi məqsədləri üçün BMT İP Azərbaycanda xüsusi sektorda proqramın icrası ilə əlaqədar Dünya Bankı ilə əməkdaşlıq edir.

Azərbaycan BMT-nin xüsusi qurumları qismində BMT-nin İnkişaf

26 Parisdə Azərbaycanın YUNESKO-ya üzv olmasının 20 illiyi münasibətilə mərasim / Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın internet səhifəsi. /18.07.2013/ - http://www.mehriban-aliyeva.az/activities/node/842251#89623.0

Proqramı və Sənaye İnkişafı Təşkilatı (SİN) ilə xüsusi əlaqələrə malikdir. Müxtəlif layihə və proqramlar yaşayış standartlarının yüksəldilməsinə, iqtisadiyyatın struktur tənzimlənməsinin həyata keçirilməsinə xidmət edir. Xüsusilə də BMT-nin İnkişaf Proqramı Azərbaycan Respublikasının Bərpa və Yenidənqurma Agentliyinin (ARRA) və Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) imkanlarının inkişaf etdirilməsi və onların maliyyələşdirilməsi yolu ilə münaqişədənsonrakı bərpa prosesinə böyük yardım göstərmişdir. BMT-nin İnkişaf Proqramı ARRA-nı dəstəkləməklə Dünya Bankı, BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarı (UNHCR), Avropa İttifaqının Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım (TACIS) proqramı və s. həyata keçirir[27].

Azərbaycan neft və təbii qaz ehtiyatları ilə zəngin olan, ekoloji cəhətdən gərgin regionda yerləşən bir ölkə kimi ekoloji problemlərin yaratdığı təhlükələrin aradan qaldırılması məqsədilə BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə uğurlu əməkdaşlıq edir. Ətraf mühitin qorunması, yaşadığımız dünyanın gələcək nəsillər üçün təhlükəsiz məkana çevrilməsi baxımından hər birimizin üzərinə ciddi məsuliyyət düşdüyünü nəzərə alaraq, IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2012-ci ildə UNEP ilə əməkdaşlıq çərçivəsində"Yaşıl həftə" konfranslar silsiləsi kimi beynəlxalq mütəxəssislərin iştirak etdiyi çoxsaylı konfrans və görüşləri reallaşdıraraq, dünyanın müxtəlif ölkələrindən olan gənc ekoloqların şəbəkələşməsini təmin etmişdir. 2014-cü il yanvarın 13-də Leyla Əliyeva BMT-nin Ətraf Mühit Proqramının Keniyanın paytaxtı Nayrobidəki mənzil-qərargahında BMT Baş katibinin müavini, UNEP-in İcraçı direktoru AximŞtaynerlə görüşü zamanı Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə reallaşdırdığı layihələr barədə ətraflı məlumat vermişdir. Azərbaycanda dövlət tərəfindən həyata keçirilən ekoloji siyasətdən bəhs edən Leyla Əliyeva 2011-ci ildən etibarən

27 Azərbaycan və BMT münasibətləri // Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /08.05.2014/ http://mfa.gov.az/az/content/751

IDEA kampaniyası çərçivəsində görülən işlərdən danışaraq, müxtəlif ölkələrdən olan gənclərin bir araya gələrək ətraf mühitin qorunması ilə bağlı layihələr hazırladığını bildirmişdir. BMT rəsmisi isə IDEA-nın ətraf mühitin qorunması istiqamətində gördüyü işlərdən xəbərdar olduğunu və bunu yüksək qiymətləndirdiyini bəyan edərək, rəhbərlik etdiyi təşkilatın Azərbaycan hökuməti, qeyri-hökumət təşkilatları və bu məsələdə maraqlı olan tərəflərlə sıx əməkdaşlıqda maraqlı olduğunu qeyd etmişdir[28]. Ətraf mühit məsələləri və fəaliyyətlər barədə ictimai maarifləndirmə, gənclərlə əməkdaşlıq, ətraf mühit problemləri sahəsində təhsil və onlar üçün düzgün həllər tapmaq məqsədilə qeyd olunan əməkdaşlıq çərçivəsində fəaliyyət uğurlu şəkildə bu gün də davam etdirilməkdədir.

Azərbaycan Respublikası həmçinin BMT-nin 2000-ci ilin sentyabrında elan olunmuş Minilliyin İnkişaf Məqsədləri (MİM) layihəsinin fəal iştirakçısıdır. Belə ki, 2000-ci ilin əvvəllərində Azərbaycanda BMT yeni mərhələyə qədəm qoymuş ölkənin inkişaf planı hesab edilən və əhalinin ən zəif təbəqələrinin (məcburi köçkünlər, yaşlılar, xüsusilə də kənd yerlərində qadınların başçılıq etdiyi ev təsərrüfatları, risk altında olan uşaqlar, gənclər və b.) yaşayış səviyyəsinin yüksəldilməsini məqsəd kimi qarşıya qoyan 2003-2005-ci illər üçün yoxsulluğun azaldılması üzrə ilk milli strategiyanın işlənib hazırlanması və həyata keçirilməsi ilə hökumətin MİM-lərə nail olmaq səylərinə dəstək göstərmək üçün beynəlxalq icma ilə tərəfdaşlıq etmişdir. Bunun davamı olaraq BMT MİM-lərə uyğunlaşdırılmış və Azərbaycanın inkişafla bağlı nailiyyətlərini dayanıqlı etmək məqsədilə təşkilatın dəstəyi üçün yeni bir çərçivə yaradan 2008-2015-ci illər üçün yoxsulluğun azaldılması üzrə ikinci strategiyanın hazırlanmasına dəstək göstərmişdir.

MİM-lərin milli siyasətlərə daxil edilməsi, siyasi dialoqun həvəsləndirilməsi və müvafiq texniki dəstək göstərilməsində BMT tərəfindən təmin edilən dəstəklə Azərbaycan bu məqsədlərə çatmaq

28 IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyi. - http://ideacampaign.org/az/

istiqamətində, xüsusən də iqtisadi şaxələndirmə və insan kapitalının təşviq olunması, sosial sektorun inkişaf etdirilməsi, idarəçiliyin təkmilləşdirilməsi, şəffaflığın və cavabdehliyin artırılması, effektiv və səmərəli şəkildə ictimai və sosial xidmətlərin göstərilməsinin təmin olunması və ekoloji vəziyyətin yaxşılaşdırılmasında təqdir edilən irəliləyişə nail olmuşdur[29].

Azərbaycan yoxsulluq və aclıq halları ilə mübarizədə əldə olunan nailiyyətlərə və əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində həyata keçirilən uğurlu siyasətə görə BMT tərəfindən mükafatlara layiq görülmüşdür. 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ölkə rəhbərliyinin siyasi iradəsi, bununla əlaqədar həyata keçirilən dövlət proqramları, savadsızlığın və yoxsulluğun minimuma endirilməsi və Minilliyin İnkişaf Məqsədlərinin uğurla həyata keçirilməsi istiqamətində görülən tədbirlərə görə "Cənub-Cənub" mükafatı[30] ilə təltif olunmuşdur.

Həmin ildə dövlətimiz qeyd olunan sahədə nailiyyətlərinə görə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO)[31] xüsusi diplomuna layiq görülmüşdür. Qeyd edək ki, bu qurum dünyada aclıqla mübarizə, ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı, meşə və balıqçılıq təsərrüfatının səmərəliliyinin artırılması, sağlam ərzaq sistemlərini yaratmaq kimi vəzifələri qarşısına məqsəd qoymuşdur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva fəaliyyətində bu məqsədlərə nail olmağa töhfə verdiyinə, humanitar və ekologiya sahəsindəki uğurlu fəaliyyətinə görə 2015-ci ildə "FAO-nun xoşməramlı səfiri" adına layiq görülmüşdür.

Azərbaycan həmçinin BMT-nin müvafiq orqan və qurumlarına

29 Birləşmiş Millətlər Təşkilatı // Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə. Bakı, 2016, s. 70-71

30 "Cənub-Cənub" mükafatı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Davamlı İnkişaf üçün Cənub-Cənub İdarəedici Komitəsi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Cənub-Cənub Əməkdaşlığı üzrə Beynəlxalq Təşkilat və BMT-yə üzv olan bir sıra dövlətlər, agentliklər və fondlar tərəfindən təsis edilmişdir. Bu mükafat, BMT-nin hesabatlarına əsasən, kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi, Minilliyin İnkişaf Məqsədlərində əsaslı irəliləyişlərə nail olmuş ölkələrə verilir

31 Azərbaycan 1995-ci ildən FAO-nun üzvüdür. Ölkəmizdə bu təşkilatın layihə əlaqələndirmə ofisi 2007-ci ildən fəaliyyət göstərir. Bir müddət əvvəl isə Azərbaycanda təşkilatın ilk əlaqələndirmə və tərəfdaşlıq ofisi açılmışdır

öz namizədlərini irəli sürməklə, bu orqanlara seçkilərdə fəal iştirak edir. Azərbaycan Respublikası 1995-1997, 1998-2000-ci illər ərzində YUNİSEF-in İcra Heyətinin, 2000-2002-ci illər ərzində Qadınların vəziyyəti haqqında Komissiyanın və 2002-2004-cü illər ərzində BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının üzvü olmuşdur. Azərbaycan 2003-2005-ci illər üçün BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü seçilmişdir.

Üzərinə götürdüyü BMT prinsiplərinə əsaslanan öhdəliyinə uyğun olaraq, Azərbaycan Respublikası geniş tərkibdə inkişaf məsələlərinin təşviq olunmasını məqsəd kimi qarşıya qoymuş BMT İP, BMT-nin Əhali Fondu, YUNİSEF, YUNESKO, Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU), BMT-nin Avropa İqtisadi Komissiyası (UNESCAP) tərəfindən təşəbbüs göstərilən BMT-nin bir sıra yüksəksəviyyəli tədbirlərinə ev sahibliyi etmişdir. 2008-ci ildə Azərbaycan mədəniyyətlər arasında qarşılıqlı inam və anlaşma yaratmaq üçün artıq qeyd olunan "Bakı prosesi" təşəbbüsünü irəli sürmüş və mütəmadi olaraq Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumunu keçirir. Azərbaycan 28-30 oktyabr 2014-cü il tarixlərində Gənclər siyasəti üzrə I Qlobal Foruma və 25-27 aprel 2016-cı il tarixlərində BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmişdir[32].

Beləliklə, Azərbaycan Respublikası öz xarici siyasətində beynəlxalq hüququn ümumtanınmış prinsiplərini əsas götürərək, müxtəlif mədəniyyətlərin dinc şəkildə birlikdə yaşaması, dini tolerantlıq, fundamental insan hüquqlarının müdafiəsi, təhsil və yaradıcılıq hüquqlarının qorunması, iqtisadi və sosial sahələrdə davamlı inkişafın təmin edilməsini uğurla həyata keçirməkdədir. Bu isə imkan verir ki, gələcəkdə də Azərbaycan BMT-nin ixtisaslaşdırılmış təsisatları ilə əməkdaşlığı onların əhatə etdiyi bütün prioritet sahələr üzrə yüksələn xətt üzrə inkişaf etdirsin və dövlətimiz tərəfindən yeni nailiyyətlər və uğurlar qazanılsın.

32 Birləşmiş Millətlər Təşkilatı // Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə. Bakı, 2016, s.75

Nəticə

Azərbaycanın BMT-yə üzv qəbul olunması müstəqillik qazanmış ölkəmizin tarixində mühüm hadisələrdən birinə çevrildi. Azərbaycan Respublikası regionun iqtisadi, siyasi, hərbi gücünə görə lider dövləti kimi BMT-nin aktiv üzvü olmaqla beynəlxalq aləmdə özünəməxsus yer tutur. BMT ilə əməkdaşlıq Azərbaycan Respublikasının müasir xarici siyasətində əsas istiqamətlərdən birini təşkil edir. Dövlətimiz 20 ildən artıqdır BMT-nin üzvü kimi təşkilatla onun bütün prioritet sahələri üzrə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq ildən-ilə daha da dərinləşir, inkişaf edir və beynəlxalq aləmdə çoxtərəfli əməkdaşlıqlara imkan yaradır. Bu səmərəli əməkdaşlığın arxasında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən böyük inkişaf konsepsiyası dayanmaqdadır.

Dünyanın ən nüfuzlu təşkilatı olan BMT çərçivəsində çoxtərəfli əməkdaşlıq Azərbaycana nisbətən qısa müddətdə beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirməyə, Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmağa imkan yaratdı. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında real vəziyyət və nizamlama prosesində Azərbaycan Respublikasının sülhsevər mövqeyi, daxili və xarici siyasəti barədə dünya birliyinə geniş və hərtərəfli məlumat verilməsini özünün başlıca vəzifəsi hesab edən Azərbaycan hökuməti ölkəmizin BMT-yə üzvlüyünün ilk günlərindən onun əsas strukturlarında bu istiqamətdə fəal iş aparmağa başladı.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması kimi tarixi hadisə isə onun beynəlxalq aləmdə artan nüfuzunun ən vacib göstəricisidir. Bu mühüm hadisə Azərbaycanın diplomatiya tarixində əldə edilmiş böyük nailiyyətlərdən biri olmaqla, ölkənin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Bu uğurun müstəqilliyin bərpasının 20-ci ildönümündə əldə edilməsi təsadüfi deyildir. Belə ki, Azərbaycan bu illər ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail

olan və beynəlxalq siyasətdəki əməlləri ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlər nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

155 ölkənin dövlətimizin namizədliyinin lehinə səs verməsi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun, ərazi bütövlüyü və sərhəd toxunulmazlığının bir daha təsdiqlənməsi deməkdir. Digər tərəfdən, bu hadisə son illərdə Azərbaycanın dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas iştirakçılarından birinə çevrilməsinin bariz sübutudur. Beynəlxalq münasibətlər sisteminin genişmiqyaslı məsələlərinin müzakirəsi prosesində ölkəmizin artan fəallığı danılmaz faktdır.

Azərbaycan 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyyəti müddətində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə həll olunmaması məsələsinə də dünya birliyinin diqqətini çəlb edə bilmişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək özünün təhlükəsizlik problemlərini, ilk növbədə pozulmuş ərazi bütövlüyü məsələsini BMT Təhlükəsizlik Şurası səviyyəsində keçirilən tədbirlərdə bir daha səsləndirmişdir.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ədalətin və beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasını BMT Təhlükəsizlik Şurasında özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz qurumun qeyri-daimi üzvü kimi uğurlu fəaliyyətini davam etdirmiş, sədrliyi dövründə beynəlxalq sülh və təhlükəsizliyin qorunmasına töhfələrini vermiş, şuranın gündəliyində duran məsələlərin müzakirəsində fəal rol oynamış və daim öz qətiyyətli mövqeyini ortaya qoymuşdur.

Azərbaycan Respublikası beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi və qorunmasında, davamlı inkişaf və demokratikləşmə prosesində BMT-nin vacib rol oynadığını qəbul edir. Təhlükəsizlik Şurasında fəaliyyəti zamanı ölkəmiz bu mötəbər beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsi, XXI əsrin

yeni təhdidlərinə və təhlükələrinə daha operativ şəkildə cavab verməsi, bununla da beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məqsədləri ilə təşkilatda islahatlar aparılmasının tərəfdarı kimi çıxış etmişdir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun çevik, adekvat və ədalətli münasibət göstərə bilməsi üçün mövcud BMT mexanizmlərinin təkmilləşdirilməsi, qəbul olunan qətnamələrin dövlətlər tərəfindən icrası və beynəlxalq sülhün və təhlükəsizliyin daha səmərəli şəkildə həyata keçirilməsi üçün beynəlxalq regional təşkilatlarla əməkdaşlığın genişləndirilməsi kimi mühüm təklifləri gələcəkdə BMT-nin islahatı prosesinə öz müsbət töhfələrini verə bilər.

Azərbaycan–Avropa Şurası münasibətləri

*İlqar Qurbanov**

Giriş

1946-cı il sentyabrın 19-da Uinston Çörçil Sürix Universitetindəki çıxışında "Birləşmiş Avropa dövlətləri"nin və Avropa Şurasının yaradılmasına dair çağırış etmişdi. Almaniyanın İkinci Dünya müharibəsində məğlubiyyəti, müharibə nəticəsində İngiltərə və Fransa iqtisadiyyatlarına ciddi ziyan dəyməsi Mərkəzi və Qərbi Avropada "güc boşluğu" yaratmışdı. Avropanı müharibənin gətirdiyi siyasi və iqtisadi tənəzzüldən qurtarmaq üçün ilk növbədə ABŞ-ın "Marşall planı" ortaya atıldı. Növbəti addım kimi Avropada ABŞ federalizminə oxşar bir modelin yaradılması nəzərdə tutulurdu. Avropa İttifaqı (əvvəlcə 1951-ci ildə Avropa Kömür və Polad Birliyi yaradılmışdı) və 1949-cu ildə isə Avropa Şurasının (AŞ) yaradılması bunun bariz nümunəsi oldu[1].

AŞ 1949-cu il mayın 5-də Londonda Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Hollandiya, Norveç, İsveç və Birləşmiş Krallıq tərəfindən "London sazişi"nin imzalanması ilə yaradılmışdır. Bu ölkələrin ardınca digər ölkələr, əsasən də 1990-cı illərin əvvəllərində demokratiyaya keçid dövrünü yaşayan Mərkəzi və Şərqi Avropa ölkələri də AŞ-yə qoşuldular. Hazırda AŞ, demək olar ki, bütün Avropa ölkələrini (Belarus, Qazaxıstan və Vatikandan başqa) özündə cəmləşdirib. Bu təşkilatın indi 47 üzvü var. AŞ-nin baş qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Şuranın rəsmi dili ingilis və fransız dilləridir[2].

AŞ (*the Council of Europe*) çox vaxt Avropa İttifaqının Şurası ilə (*the European Council / the Coucil of the European Union*) səhv salınır. Halbuki AŞ 28 üzvü olan Aİ-dən fərqli və ayrı bir qurumdur. Hər iki təşkilat müstəqil şəkildə fəaliyyət göstərir. Aİ AŞ-nin ilk bayrağını

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi*

1 Erhan Ç. Ortaya Çıkışı və Uygulanışıyla Marshall Planı. Ankara Üniversitesi dergi veritabanı, s.278. - http://dergiler.ankara.edu.tr/dergiler/42/476/5519.pdf

2 Who we are. /The Council of Europe/ - http://www.coe.int/en/web/about-us/who-we-are

götürməsinə və onunla eyni himni bölüşməsinə baxmayaraq, hər iki qurum 1980-ci ildən Avropa inteqrasiyası uğrunda çalışır[3]. Aİ-yə üzv ölkələr müəyyən sahələrdə özlərinin milli qanunvericilik və icraedici səlahiyyətlərini Avropa Komissiyasına və Avropa Parlamentinə versələr də, AŞ ölkələri müvafiq səlahiyyətlərini və suverenliklərini saxlayır və sadəcə beynəlxalq hüquq qarşısında (konvensiyalarla) öhdəlik götürməklə kifayətlənirlər. AŞ-nin ən böyük tarixi nailiyyətlərindən biri 1950-ci ildə qəbul edilmiş və ən çox tanınan icraedici orqanı olan "İnsan hüquqları və əsas azadlıqları haqqında" Avropa Konvensiyasıdır. Bu konvensiyanın həyata keçirilməsini təmin edən orqan Avropa İnsan Haqları Məhkəməsidir[4].

AŞ Ümumavropa məkanında demokratik dəyərləri və qanunun aliliyi prinsipini tanıyan, insan hüquqlarını önə çıxaran sırf siyasi təşkilatdır. Üzvlər arasında iqtisadi və sosial tərəqqi imkanlarının yaranmasına səbəb olan ideal prinsiplərin həyata keçirilməsi və qorunması AŞ-nin əsas məqsədidir.

Azərbaycanın AŞ-yə üzvlüyünün tarixi zərurəti

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkənin xarici siyasət xəttində bir sıra mühüm və təxirəsalınmaz dəyişikliklər edildi. Qarşıya qoyulmuş vəzifələrdən biri də ölkənin beynəlxalq aləmdəki əlaqələrini gücləndirmək və Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdırmaq idi. 1991-ci ildə dövlət müstəqilliyinin bərpa olunmasından sonrakı dövrdə ölkədə yaranmış iqtisadi və siyasi problemlərin həlli Azərbaycanın dünyanın iqtisadi və siyasi inteqrasiya proseslərinə cəlb olunması və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrinin qurulmasından asılı idi[5]. Bu dövrdə Heydər Əliyevin xarici siyasət kursunun və Azərbaycanın Qərbə inteqrasiya siyasətinin mühüm prioritetlərindən biri də beynəlxalq təşkilatlarla

3 Do not get confused. /The Council of Europe/ - http://www.coe.int/en/web/about-us/do-not-get-confused

4 General presentation on European Court of Human Rights. /The official website of European Court of Human Rights / - http://www.echr.coe.int/Pages/home.aspx?p=court&c=

5 Əhmədov E. Heydər Əliyevin xarici siyasət kursu yeni mərhələdə dinamik şəkildə inkişaf etdirilir. // "Xalq qəzeti", 9 may 2013-cü il, № 099 (27323), s.4

yüksəksəviyyəli əlaqələrin qurulması idi[6]. Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini AŞ ilə əlaqələrin qurulması təşkil edirdi[7]. AŞ və onun strukturları ilə əlaqələrin qurulmasının əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət kursunun mühüm istiqamətlərindən birini təşkil edir.

Ümumiyyətlə, Azərbaycanın AŞ-yə üzvlüyünü zəruri edən bir çox tarixi və siyasi məqamlar var. Ulu öndər Heydər Əliyev və onun davamçısı Prezident İlham Əliyevin siyasətinin əsas prinsiplərindən biri də xarici siyasət kursunda siyasi və iqtisadi balansın saxlanılması idi. Bu mənada keçmiş postsovet respublikalarından başqa, Qərb ölkələri və Avropanın siyasi və iqtisadi təşkilatları ilə münasibətlərin qurulması zəruri idi. Çünki ölkələrin iqtisadi və siyasi modernləşdirilməsi yolunun Avropa strukturları ilə əməkdaşlığından keçməsinin sübutu artıq Şərqi Avropa ölkələrinin nümunəsində özünü göstərirdi.

Bundan başqa, AŞ-yə üzvlük Azərbaycana öz ərazilərinin Ermənistan tərəfindən işğalını dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm bir platforma əldə etmək şansı verdi. Çünki Avropa Şurası Parlament Assambleyası (AŞPA) deputatlarının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kifayət qədər məlumatı yox idi. AŞ-nin bir üzvü Ermənistan digər üzvü Azərbaycanın torpaqlarını işğal etmişdi. Bu, bir tərəfdən erməni lobbisinin təbliğatı və fəaliyyəti, digər tərəfdən isə Azərbaycanın AŞ kimi böyük tribunasının olmaması ilə bağlı idi.

2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror aktından sonra Azərbaycan və Avropa Şurası arasında əməkdaşlıq, əsasən də terrorizmə qarşı mübarizədə dövlətlərin səylərini birləşdirməsi yönündə qarşılıqlı əlaqələr daha da intensivləşdi[8]. AŞ ilə əməkdaşlıq Azərbaycanda demokratik islahatların daha da dərinləşməsi, demokratik təsisatların inkişaf etdirilməsi və insan hüquqlarının daha effektiv şəkildə qorunması prosesinə yardım etmişdir[9].

6 Məmmədov N. Xarici siyasətin Azərbaycan modeli. /Məqalələrdən seçmələr (1997-2011). Bakı: Çaşıoğlu, 2012, s.282-285

7 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı: Mütərcim, 2015, s.410

8 Yenə orada, s.433

9 Qafarova S. Heydər Əliyevin xarici siyasət kursu və AŞPA. // "İki sahil" qəzeti, 10 aprel 2013-cü il, № 61, s.11-12

Azərbaycanın AŞ-yə üzv olması

Azərbaycanın AŞ-yə üzv olması müəyyən zaman almışdır. İlk addım olaraq Azərbaycan Respublikası 1992-ci il yanvarın 20-də AŞ-yə "xüsusi dəvət olunmuş qonaq" statusunu əldə etmək üçün müraciət etmişdi. Lakin AŞ-nin Cənubi Qafqaz regionuna doğru genişlənməyə hazır olmaması səbəbindən Azərbaycanın bu istəyi həyata keçməmişdi. 1996-cı il iyunun 28-də AŞPA Bürosu Azərbaycana "xüsusi dəvət olunmuş qonaq" statusunun verilməsi ilə bağlı qərar qəbul etdi. Azərbaycana bu status verildikdən sonra AŞ və Azərbaycan arasında müxtəlif fəaliyyət sahələrini əhatə edən geniş əməkdaşlıq proqramı tərtib edildi. Proqram Azərbaycanda demokratik institutların təkmilləşdirilməsi, inzibati strukturların və məhkəmə sisteminin yenidən qurulması, milli qanunvericiliyin Avropa sisteminə uyğunlaşdırılması, təhsil, elm, mədəniyyət və digər sahələrin inkişafına kömək etmək məqsədi daşıyırdı[10].

1996-cı il iyunun 13-də Heydər Əliyev AŞ Baş katibinin adına məktub göndərərək Azərbaycanın bu quruma tamhüquqlu üzv olmaq və digər ölkələr kimi "İnsan hüquqları və azadlıqları haqqında Avropa Konvensiyası"na qoşulmaq arzusunda olduğunu bildirdi. Azərbaycan və AŞ arasında əməkdaşlığın genişləndirilməsi yolunda praktiki olaraq ən mühüm addım Heydər Əliyevin 1998-ci il yanvarın 20-də imzaladığı "Azərbaycan Respublikası və Avropa Şurası arasında əməkdaşlığın dərinləşməsi sahəsində tədbirlər haqqında" sərəncam oldu. 16 avqust 1998-ci ildə Azərbaycanda mətbuat üzərində senzura ləğv olundu. Bu sərəncam Azərbaycanda senzuranın ləğv edilməsi, söz azadlığının təmin olunması, bütün kütləvi informasiya vasitələrinə sərbəstlik verilməsi, ciddi demokratik islahatların aparılması, Konstitusiya Məhkəməsinin yaradılması və s. demokratik cəmiyyət quruculuğunun başlıca atributlarını əks etdirməklə yanaşı, Azərbaycanın AŞ-nin üzvlüyünə qəbul olunması yolunda mühüm addım oldu[11]. Bundan başqa, 1996-cı ildə "Azərbaycan Respublikası və Avropa Şurası arasında

10 Qasımlı M. Göstərilən əsəri, s.410, 416-417

11 Qafarova S. Göstərilən əsəri, s.11-12

əməkdaşlıq proqramlarının həyata keçirilməsi tədbirləri haqqında", 1998-ci il yanvarın 22-də "Vətəndaşların insan hüquq və azadlıqlarının təmin edilməsi haqqında", 1998-ci il avqustun 6-da "Söz, fikir və informasiya azadlıqlarının təmin edilməsi haqqında", 1999-cu il mayın 14-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" və s. imzalanmış fərman, sərəncam və digər sənədlər Azərbaycanın AŞ-yə daxil olması və dünyəvi, hüquqi dövlət quruculuğu yolunda məqsədyönlü amillərdən hesab olunur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci ildə AŞPA-nın nümayəndə heyətini qəbul edərək, ölkəmizin AŞ-nin tamhüquqlu üzvü olmaq arzusunu onlara bildirdi[12].

Artıq həmin dövrdə Azərbaycan qarşısına AŞ-yə tamhüquqlu üzv olmaq məqsədini qoymuşdu. 2000-ci il mayın 15-də AŞ Siyasi Komitəsinin Dublində keçirilmiş iclasında Azərbaycan üzrə məruzəçi J.Bomelin hesabatı dinlənildi və Azərbaycanın AŞ-yə tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı müsbət rəy verildi. Həmin il iyunun 12-13-də AŞ Siyasi Komitəsinin Romada keçirilən iclasında Azərbaycanın AŞ-yə üzv qəbul edilməsi ilə bağlı növbəti müsbət rəy verildi. 26-28 iyun 2000-ci ildə AŞPA-nın növbəti sessiyası keçirildi; 126 deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla Azərbaycan Respublikasının Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verildi. Noyabr ayının 7-9-da isə AŞ Nazirlər Komitəsinin 107-ci sessiyasında Azərbaycanın AŞ-yə üzvlüyə dəvət olunması ilə bağlı 14 saylı Qətnamə qəbul edildi. Qətnaməyə əsasən, Azərbaycan təşkilata tamhüquqlu üzv olmağa, nümayəndə sayını 6 nəfərə qədər çatdırmağa və nizamnaməyə qoşulmağa dəvət aldı. AŞPA-ya təyin olunmuş Milli Məclisin nümayəndə heyətinin tərkibinə hər iki tərəfin mövqeyini nümayiş etdirmək üçün həm iqtidar, həm də müxalifət partiyalarının nümayəndələri daxil edilməli idi. 2001-ci il yanvarın 10-da Azərbaycan Respublikasının Milli Məclisi ölkənin AŞ-nin 1949-cu il mayın 5-də London şəhərində imzalanmış nizamnaməsinə qoşulmağa

12 Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı: Letterpress, 2013, s.169-203

dair qərar qəbul etdi[13]. Nəhayət, 2001-ci il yanvarın 17-də AŞ Nazirlər Komitəsinin iclasında Azərbaycan Respublikasının AŞ-yə tamhüquqlu üzv qəbul edilməsi ilə bağlı qərar qəbul olundu. Yanvarın 25-də Azərbaycan Respublikası AŞ-nin tamhüquqlu üzvü oldu və üzvlüyün simvolu olaraq AŞ-nin binası qarşısında dövlət bayrağı qaldırıldı. Bu, həmin dövrdə müstəqil Azərbaycan dövlətinin xarici siyasət sahəsində əldə etdiyi ən böyük nailiyyətlərindən biri sayılır[14].

Azərbaycanın Avropa ölkələri ilə əməkdaşlığı prosesində AŞ-yə bərabərhüquqlu üzv olması respublikanın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və dünya ictimaiyyətinin obyektiv rəyini qazanılması baxımından vacib addım idi. 2001-ci ilin yanvar ayında AŞPA-ya tamhüquqlu üzv qəbul edilən Azərbaycan dünyəvi və demokratik cəmiyyət dəyərlərinə əsaslanan quruculuq işlərini öhdəliyinə götürmüşdü. Həmin dövrdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinə indiki Prezident İlham Əliyev başçılıq edirdi[15]. 2001-ci il fevralın 9-da Azərbaycan Respublikasının AŞ yanında diplomatik nümayəndəliyi təsis edildi və bundan sonra AŞPA-nın sessiya iclaslarında tamhüquqlu üzv kimi iştirak etməyə başladı. 2002-ci il yanvarın 22-25-də keçirilən sessiyada Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev qurumun sədr müavini və büro üzvü seçildi[16]. 2002-ci ildə isə Azərbaycan "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya edərək konvensiyanın tərəfdarları sırasına daxil oldu[17].

AŞ ilə əməkdaşlığın möhkəmlənməsi, demokratik dəyərlərin qorunub-saxlanılması və insan hüquqlarının müdafiəsi gələcəkdə Azərbaycanın digər Avropa ölkələri ilə münasibətlərin genişləndirilməsi və əlaqələrin daha da yüksək səviyyədə inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan Respublikası AŞ ilə irqçilik və dözümsüzlük, insan alveri, korrupsiya, çirkli pulların yuyulmasına

13 Yenə orada, s.169-203

14 Qafarova S. Göstərilən əsəri, s.11-12

15 Ağayev A. Azərbaycanın Avropa Şurası ilə əlaqələrinin tarixindən. Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. /Azərbaycan Respublikasının Milli Məclisi/. Bakı, 2004, s.194-207

16 Qasımlı M. Göstərilən əsəri, s.432-433, 436

17 Azerbaijan ratified the European Convention on Human Rights in 2002. /European Court of Human Rights. /July 2016 / - http://www.echr.coe.int/Documents/CP_Azerbaijan_ENG.pdf

qarşı mübarizə, sosial hüquqların, ədalət və demokratiyanın qorunması və s. məsələlər üzrə əməkdaşlıq edir[18]. Hazırda Azərbaycan AŞ tərəfindən qəbul edilmiş 60 beynəlxalq müqavilənin iştirakçısıdır[19].

No.	Sənədin adı
1.	Ekstradisiya haqqında Avropa Konvensiyası və onun iki əlavə protokolu (26.09.2002-ci il tarixindən etibarən iştirakçısıdır);
2.	Cinayət işlərində qarşılıqlı yardım haqqında Avropa Konvensiyası və ona əlavə protokol (02.10.2003-cü il tarixindən etibarən iştirakçısıdır);
3.	Terrorçuluğun qarşısının alınması üzrə Avropa Konvensiyası və ona əlavə protokol (müvafiq olaraq 12.05.2004-cü il və 02.12.2008-ci il tarixlərindən etibarən iştirakçısıdır);
4.	Fərdi məlumatların avtomatik işlənməsi ilə bağlı şəxslərin qorunmasına dair Konvensiya (01.09.2010-cu il tarixindən etibarən iştirakçısıdır);
5.	Məhkum olunmuş şəxslərin verilməsinə dair Konvensiya (01.05.2001-ci il tarixindən etibarən iştirakçısıdır);
6.	İdman tədbirləri, o cümlədən futbol oyunları zamanı zorakılığın və xuliqanlığın qarşısının alınması haqqında Avropa Konvensiyası (01.05.2000-ci il tarixindən etibarən iştirakçısıdır);
7.	Avropa Mədəniyyət Konvensiyası (25.04.1997-ci il tarixindən etibarən iştirakçısıdır);
8.	Avropanın memarlıq irsinin qorunmasına dair Konvensiya (01.06.2010-cu il tarixindən etibarən iştirakçısıdır);
9.	Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası (01.08.2002-ci il tarixindən etibarən iştirakçısıdır);
10.	İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası və onun 1 və 2 saylı protokolları (01.08.2002-ci il tarixindən etibarən iştirakçısıdır);
11.	Vergi məsələlərində qarşılıqlı inzibati yardım haqqında Konvensiya (01.10.2004-cü il tarixindən etibarən iştirakçısıdır);

18 Azərbaycan və Avropa Şurası. /10.09.2014/ Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin internet səhifəsi: www.mfa.gov.az/content/857

19 Action of the Council of Europe in Azerbaijan. /The Council of Europe/ - www.coe.int/en/web/portal/azerbaijan

12.	Dopinqə qarşı Konvensiya və ona əlavə protokol (müvafiq olaraq 01.01.2004-cü il və 01.06.2004-cü il tarixlərindən etibarən iştirakçısıdır);
13.	Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında Konvensiya (01.11.2003-cü il tarixindən etibarən iştirakçısıdır);
14.	Arxeoloji irsin qorunması haqqında Avropa Konvensiyası (dəyişdirilmiş) (29.09.2000-ci il tarixindən etibarən iştirakçısıdır);
15.	Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası (01.10.2000-ci il tarixindən etibarən iştirakçısıdır);
16.	Avropa Sosial Xartiyası (dəyişdirilmiş) (01.11.2004-cü il tarixindən etibarən iştirakçısıdır);
17.	Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiya və ona əlavə protokol (müvafiq olaraq 01.06.2004-cü il və 01.08.2013-cü il tarixlərindən etibarən iştirakçısıdır);
18.	Korrupsiya ilə əlaqədar mülki-hüquqi məsuliyyət haqqında Konvensiya (01.06.2004-cü il tarixindən etibarən iştirakçısıdır);
19.	Avropa Landşaft Konvensiyası (01.12.2011-ci il tarixindən etibarən iştirakçısıdır);
20.	Kibercinayətkarlıq üzrə Konvensiya (01.07.2010-cu il tarixindən etibarən iştirakçısıdır);
21.	İnsan alverinə qarşı Avropa Şurasının Konvensiyası (01.10.2010-cu il tarixindən etibarən iştirakçısıdır) və s.

AŞ-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi

Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Azərbaycanın xarici siyasətində əsas yer tutur. Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçı siyasətini pisləyən qətnamənin qəbul edildiyi beynəlxalq təşkilatlardan biri də AŞ-dir. 1992-ci il martın 9-da AŞPA Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarazlaşdırılmış mövqe tutacağını bəyan etmişdi. Bəyanatda region ölkələrinin ərazi bütövlüyü prinsipinə əməl edilməsi, işğal olunmuş ərazilərdən silahlı qüvvələrin çıxarılması

və ərazilərin zorla tutulmasının mümkünsüzlüyü və s. məsələlər əks olunmuşdu. AŞ Nazirlər Komitəsi həmin ilin martın 12-də verdiyi bəyanatında növbəti dəfə Dağlıq Qarabağ münaqişəsinin zor gücünə həll olunması ilə bağlı narahatlığını və sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsinin zəruriliyini bildirmişdi[20].

AŞ 1993-cü il noyabrın 9-da Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi sənəddə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirsə də, 1994-cü ildə ölkənin maraqlarına zidd bir neçə bəndin əks olunduğu 1047 saylı qətnamə qəbul etmişdi[21]. Belə ki, bu sonuncu qətnamədə Dağlıq Qarabağın qondarma "ordu komandiri" 1994-cü il iyulun 24-də imzalanan atəşkəs rejiminə sadiq və sazişin "tərəfi" kimi təqdim edilmiş, Azərbaycan və Türkiyə Ermənistanı blokadadan çıxarmağa çağırılmışdı[22]. Bunun ardınca noyabr ayının 10-da AŞPA Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar başqa bir qətnamə qəbul etmişdi. Qətnamədə atəşkəsə riayət olunması və müharibə edən tərəflər arasında tezliklə sülh müqaviləsinin imzalanmasına ümid edildiyi vurğulanırdı[23].

Bundan sonra qəbul olunan bəyanatlar və sənədlər əvvəlkilərə nisbətən daha neytral və obyektiv xarakter daşıyırdı. Şuranın Azərbaycana dair münasibəti sənədlərdə mühüm dəyişikliklərlə özünü büruzə verməyə başladı. Azərbaycanın demokratikləşməsi istiqamətində qəbul edilən qərarlar və atılan addımlar ölkənin AŞ ilə daha da yaxınlaşmasına imkan yaratdı. AŞPA-nın yaz sessiyasında 1997-ci il aprelin 22-də qəbul etdiyi 1119 saylı qətnaməsində Cənubi Qafqaz münaqişələrinin sülh yolu ilə həll olunması, ərazi bütövlüyü, qaçqın və köçkünlərin öz torpaqlarına qayıtması, işğal olunmuş ərazilərin azad edilməsi və ATƏT-in Lissabon görüşünün prinsiplərinin qorunub-saxlanılmasının vacibliyi əks etdirilmişdi[24].

20 Qasımlı M. Göstərilən əsəri, s.411

21 " Conflict in Nagorno-Karabakh", Parliamentary Assembly of the Council of Europe, Resolution 1047, 1994. // http://assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=16458&lang=en%20in%20Nagorno-Karabakh

22 "Conflict in Nagorno-Karabakh", Resolution 1047 (1994), Parliamentary Assembly of the Council of Europe.// assembly.coe.int/nw/xml/XRef/Xref-XML2HTML-en.asp?fileid=16458&lang=en%20in%20Nagorno-Karabakh

23 Qasımlı M. Göstərilən əsəri, s.413

24 İmaməliyeva Ü. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri. Dissertasiya, Bakı, 2008, s.162-170

AŞ Nazirlər Komitəsinin 2001-ci il sentyabrın 24-də keçirilmiş iclasında Azərbaycanın ərazi bütövlüyünün 43 üzv dövlət tərəfindən tanınması barədə sənəd qəbul edilmişdi. Artıq 2001-ci ilin əvvəllərindən AŞPA Azərbaycan üçün mühüm sənədlər ortaya çıxarmışdı. Bu sənədlər arasında 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi girovlar və əsirlər", 29 nümayəndə tərəfindən imzalanmış "Ermənistan tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımının tanınması" kimi sənədlər də yer tutur. Sənədlər özündə Azərbaycanın 20 faiz ərazisinin Ermənistan tərəfindən işğal olunmasını, 783 nəfərin girovluqda saxlanılmasını və Xocalı soyqırımının Ermənistan tərəfindən törədilməsini əks etdirirdi. Növbəti iki sənəd 2001-ci il iyunun 25-29-da qəbul edilmişdi. Beləcə, "Azərbaycanın mədəni irsinin dağıdılması və mənimsənilməsi barədə" adlı sənəddə ermənilərin işğal etdiyi torpaqlarda dağıdılan Azərbaycanın qədim abidələri barədə də qeyd vardı. "Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) ekoloji vəziyyət" adlı sənəd də ölkənin işğal altında olan ərazilərinin Ermənistan tərəfindən yararsız hala salınması və dağıdılmasına həsr olunmuşdu. Bundan başqa, "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyası və nüvə tullantılarının basdırılması barədə", "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ermənilər tərəfindən dəstəklənən terrorçu təşkilatlar şəbəkəsi barədə", "Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində tarixi qəbiristanlıqların dağıdılması və ermənilər tərəfindən yeni daimi "qəbiristanlıqların" yaradılması barədə" və s. adlarda sənədlər qəbul edilmişdi[25]. "Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" adlı digər bir sənəd 2001-ci il sentyabrın 24-28-də AŞPA-nın növbəti plenar sessiyasında qəbul edilmişdi. Bu sənədə əsasən, münaqişənin həlli yalnız Azərbaycanın ərazi bütövlüyünün qorunması ilə mümkündür[26].

Nümayəndə heyətinin rəhbəri İlham Əliyev tərəfindən irəli sürülən "Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması" adlı sənəd AŞ Nazirlər Komitəsi tərəfindən qəbul edilmiş və 2002-ci ildə

25 Ağayev A. Göstərilən əsəri, s.194-207

26 Əhmədov E. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı: Letterpress, 2013, s.169-203

təşkilatın Dağlıq Qarabağın işğalı faktını rəsmi şəkildə tanımasına səbəb olmuşdur. Beləliklə, İlham Əliyevin parlament nümayəndə heyətinə rəhbərlik etdiyi 2001-2003-cü illər arasındakı dövrdə Azərbaycan üçün mühüm olan aşağıdakı bir sıra sənədlər qəbul edilmişdir: "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında"; "Dağlıq Qarabağda, zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi haqqında"; "Qaçqın və məcburi köçkün uşaqların təhsili haqqında"; "Ermənistanda və Dağlıq Qarabağda olan hərbi əsirlər və girovlar haqqında"; "Azərbaycan Respublikasında ekoloji vəziyyət haqqında"; "Azərbaycanın mədəni irsinin qəsb olunması və dağılması"; "Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi"; "Azərbaycanda qaçqın qadın və uşaqların humanitar vəziyyətinə dair" və s.[27].

2002-ci ilin sentyabr ayında keçirilən payız sessiyasında ilk dəfə olaraq AŞ-nin qətnamələrində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı öz rəsmi əksini tapmışdır[28]. 2005-ci il yanvarın 25-də AŞPA-nın yanvar sessiyasında "ATƏT-in Minsk Qrupunun məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı 1416 saylı qətnamə (2005) və 1690 saylı tövsiyə (2005) qəbul olunmuşdur. 1416 saylı qətnamə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycana diplomatik üstünlük verən mühüm beynəlxalq sənədlərdən biridir. Çünki bu qətnamədə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi, bunun nəticəsində yüz minlərlə insanın məcburi köçkün statusu alması, münaqişənin həllində BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin vacibliyi öz əksini tapmışdır.

2005-ci il yanvarın 26-da Devid Atkinsonun irəli sürdüyü "ATƏT-in Minsk Qrupu tərəfindən araşdırılan Dağlıq Qarabağ münaqişəsi" adlı qətnamə AŞPA-da müzakirəyə çıxarıldı. Qətnamədə Dağlıq Qarabağın indiyə qədər separatçı qüvvələrin nəzarəti altında olması, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasının vacibliyi qeyd olunur və tərəflər BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etməyə çağırılırdı. AŞ 2010-cu ildə tanınmamış "Dağlıq Qarabağ Respublikası"nda keçirilən "parlament seçkiləri" ilə bağlı həmin il may

27 Yenə orada, s.169-203

28 Əhmədov E. Heydər Əliyevin xarici siyasət kursu yeni mərhələdə dinamik şəkildə inkişaf etdirilir. // "Xalq qəzeti", 9 may 2013-cü il, № 099 (27323), s.4

ayının 26-da Strasburqdakı iclasında bəyanat vermişdir. Bəyanata əsasən, AŞ, digər beynəlxalq təşkilatlar kimi, tanınmamış "Dağlıq Qarabağ Respublikası"nda keçirilən "seçkiləri" tanımadığını bildirmişdir[29].

2010-cu ildən, Mövlud Çavuşoğlunun AŞPA-dakı prezidentliyi dövründə Azərbaycan daha da aktivləşmişdir. 2005-ci ildə AŞPA Bürosunda qəbul edilən bir qərarla yaradılması nəzərdə tutulan Dağlıq Qarabağ üzrə Alt Komitənin 2011-ci ildən yenidən fəaliyyət göstərməsi istiqamətində Mövlud Çavuşoğlunun da mühüm rolu olmuşdur. Bu alt komitənin fəaliyyəti üçün 2005-ci ildən etibarən bir neçə dəfə cəhd edilsə də, müxtəlif səbəblərdən baş tutmamışdı. M.Çavuşoğlunun AŞPA-ya sədrliyi dövründə 2005-ci ildən işini dondurmuş Dağlıq Qarabağ Alt Komitəsi fəaliyyətə başladı[30].

AŞPA-nın 2013-cü il yanvarın 23-də qış sessiyası çərçivəsində "Azərbaycan tərəfindən öhdəliklərin yerinə yetirilməsi" üzrə məruzə müzakirə edilmişdir. AŞ Monitorinq Komitəsinin həmməruzəçiləri P.Aqramunt və D.Qreç tərəfindən hazırlanmış məruzənin müzakirələri zamanı məruzəçilər iştirakçıları Azərbaycana dəstək verməyə çağırmış və bildirmişlər ki, Azərbaycanın yerləşdiyi geosiyasi məkan gərgindir və onun ərazisinin 20 faizi qonşusu Ermənistan tərəfindən işğal olunmuşdur[31].

2014-cü il iyunun 24-də Strasburqda AŞPA-nın sessiyasında çıxış edən Prezident İlham Əliyev qeyd etmişdir ki, "Ermənistan ilə Azərbaycan arasında münaqişəyə dair BMT-nin Təhlükəsizlik Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, ATƏT-in qəbul etdiyi bir sıra mühüm qərar və qətnamələrdən heç biri icra olunmayıb. Beləliklə, nüfuzlu beynəlxalq təsisatlar tərəfindən qəbul edilmiş qətnamələrin həyata keçirilməsi mexanizmi olmalıdır. Bu mexanizm hamımız tərəfindən yaradılmalıdır. Digər halda bu qətnamələr öz mahiyyətini itirir. Ermənistan tərəfi hər şeyi olduğu kimi və status-kvonu dəyişməz olaraq saxlamaq istəyir. Lakin Ermənistan beynəlxalq

29 Əhmədov E., 2013, s.169-203

30 Qarabağ münaqişəsinin həlli vacibdir. Mevlut Çavuşoğlu: "Bu problem Cənubi Qafqazda təhlükəsizliyi təmin etməyə mane olur"// "Üç nöqtə" qəzeti, 26 aprel 2011-ci il, s.4 / - http://www.anl.az/down/meqale/uc_noqta/2011/aprel/171015.htm

31 Azərbaycan və Avropa Şurası. /10.09.2014/ Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsi: www.mfa.gov.az/content/857

hüquqa və dünyanın aparıcı dövlətlərinin bəyanatına sadəcə məhəl qoymur. Ermənistan Avropa Şurası Parlament Assambleyasının 2005-ci ildə qəbul etdiyi qətnaməsinə məhəl qoymur. Müvafiq qətnamələr Avropa Parlamenti tərəfindən də qəbul edilib. ATƏT-in qərarları vardır. Bütün bu qərarlarda işğala son qoyulması, erməni işğalçı qüvvələrinin zəbt edilmiş ərazilərdən çıxması tələb olunur. Əfsuslar olsun, münaqişə həll olunmayıb".

2014-cü il mayın 22-də Ann Brassörün sədrliyi ilə AŞPA Bürosunun və Daimi Komitəsinin Azərbaycan Respublikasının Milli Məclisində iclası keçirilmişdir. İclasda çıxış edən Ann Brassör bildirmişdir ki, üzv dövlətlərin ərazi bütövlüyünə hörmət təşkilatın fundamental prinsipidir. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Ann Brassör 2005-ci ildə qəbul edilmiş 1416 saylı AŞPA qətnaməsini xatırladaraq (AŞPA-nın 2005-ci ildə qəbul edilmiş 1416 saylı qətnaməsi BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsini və işğal olunmuş ərazilərdən silahlı qüvvələrin çıxarılmasını tələb edir) AŞPA-nın Azərbaycanın ərazi bütövlüyünə dəstəklə bağlı birmənalı və prinsipial mövqedə olduğunu vurğulamışdır. 2014-cü il iyunun 23-də AŞPA-nın yay yarımsessiyasının açılışındakı nitqində Ann Brassör ölkələrin suverenliyi və ərazi bütövlüyünün təmin olunmasının əhəmiyyətinə dair AŞPA-nın mövqeyini bir daha bəyan etmişdir[32].

2015-ci il noyabrın 23-də Bosniya və Herseqovinanın Sosialist Qrupundan Milica Markovicin təklif etdiyi "Azərbaycanın sərhəd rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı qətnamə mətni AŞPA-nın 2016-cı ilin yanvar sessiyasında qəbul edilmişdir. Qətnamədə Azərbaycanın cəbhə bölgələrində yerləşən rayonlarının Dağlıq Qarabağdakı Sərsəng su anbarının su təminatından asılı olması, bütün cəbhə bölgəsində əhalinin ekoloji və humanitar problemlərlə, eləcə də təhlükəsizlik riskləri ilə üzləşməsi məsələləri öz əksini tapmışdır. Qətnamədə eyni zamanda su təminatı problemlərinin araşdırılması və aradan qaldırılması məqsədilə Ermənistanın işğalçı qüvvələrinin

32 Yenə orada

Azərbaycan ərazilərindən geri çəkilməsi tələb edilmişdir[33].

Lakin AŞ tərəfindən bu məzmunda bir çox qətnamənin qəbul edilməsinə baxmayaraq, onların heç biri Ermənistan tərəfindən icra olunmamışdır. Çünki, birincisi, AŞ-nin qətnamələri hüquqi cəhətdən öhdəlik daşımır, daha çox üzv ölkələrin siyasi öhdəliklərini əks etdirir. İkincisi isə, Ermənistan nəinki AŞ-nin siyasi xarakterli qətnamələrini, hətta BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi və Azərbaycan ərazilərinin işğalı ilə bağlı qəbul etdiyi dörd qətnaməsini indiyədək yerinə yetirməmişdir. Bundan başqa, Böyük Britaniyanın Avropa Mühafizəkarlar Qrupundan Robert Valterin 2015-ci il noyabrın 4-də təklif etdiyi "Dağlıq Qarabağda və Azərbaycanın digər işğal olunmuş ərazilərində zorakılığın artması" adlı qətnamə mətni AŞPA-nın 2016-cı ilin yanvar sessiyasında qəbul edilməmişdi[34]. Qətnamənin qəbul olunmamasında erməni lobbisinin Avropa ölkələrində aktiv təbliğat aparmasının da təsiri olmuşdur. Qətnamənin əleyhinə səs verənlər arasında ATƏT-in Minsk Qrupunun üç həmsədr ölkəsi – ABŞ, Rusiya və Fransa da var idi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal altında saxlamasını təsdiqləyən digər bir fakt isə 2017-ci il yanvarın 24-də AŞPA tərəfindən qəbul edilmiş "Avropada jurnalistlər və media azadlığına qarşı hücumlar" adlı 2141 (2017) saylı qətnamə olmuşdur. Qətnamədə deyilir ki, Azərbaycanın Dağlıq Qarabağ ərazisi separatçı rejimin nəzarəti altında olduğundan Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən orada media azadlığının təmin olunub-olunmamasına nəzarət yoxdur[35].

Halbuki, bu qətnamələrdə müəyyən qədər Azərbaycan torpaqlarının

33 "Inhabitants of frontier regions of Azerbaijan are deliberately deprived of water", PACE Resolution, the Council of Europe, January 2016. - http://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewPDF.asp?FileID=22290&lang=en

34 "Escalation of violence in Nagorno-Karabakh and the other occupied territories of Azerbaijan", PACE Resolution, the Council of Europe. /January 2016/ - http://assembly.coe.int/nw/xml/XRef/X2H-Xref-ViewPDF.asp?FileID=22255&lang=en

35 "Attacks against journalists and media freedom in Europe", Resolution 2141 (2017), Parliamentary Assembly of the Council of Europe. - http://semantic-pace.net/tools/pdf.aspx?doc=aHR0cDovL2Fzc2VtYmx5LmNvZS5pbnQvbncveG1sL1hSZWYvWDJILURXLWV4dHIuYXNwP2ZpbGVpZD0yMzQwMCZsYW5nPUVO&xsl=aHR0cDovL3NlbWFudGljcGFjZS5uZXQvWHNsdC9QZGYvWFJlZi1XRC1BVC1YTUwyUERGLnhzbA==&xsltparams=ZmlsZWlkPTIzNDAw

işğalı faktoruna yer verilsə də, onların heç biri Ermənistan üzərində hüquqi öhdəlik qoymur. Çünki AŞPA-nın qətnamələrinin hamısı siyasi xarakterlidir. Buna görə də Ermənistan rəhbərliyi bu qətnamələrin icrasından həmişə yayına bilir. Bundan başqa, erməni lobbisi AŞPA daxilində də olduqca aktivdir. Avropa Strateji Araşdırmalar və Təhlükəsizlik Mərkəzinin hazırladığı hesabatda erməni lobbisinin AŞPA daxilindəki tərəfdaşları və onların şəbəkəsi, ermənilərin digər deputatları satın almaq üçün "konyak diplomatiyası"ndan istifadə etməsi, Soros Fondu tərəfindən maliyyələşdirilən QHT-lərin antiazərbaycan tədbirləri və nəşrləri ilə bağlı geniş araşdırma aparılmışdır. AŞ-nin insan hüquqları üzrə komissarı və əvvəllər Latviyada Soros Fondunun direktoru olmuş Nils Müjneks və AŞPA-nın Almaniyadan olan deputatı KristofŞtrasser Azərbaycana qarşı təbliğatları ilə tanınan əsas şəxslərdir. Onlar dəfələrlə ölkəmizə qarşı təşkil edilən tədbirlərə qatılaraq "insan hüquqları" adı altında antiazərbaycan qüvvələrə dəstək veriblər. Avropa Strateji Araşdırmalar və Təhlükəsizlik Mərkəzinin hesabatına görə, onların hər ikisinin erməni lobbisi ilə yaxın əlaqələri var.

Azərbaycanın AŞ-də sədrlik dövrü

2014-cü il mayın 6-da AŞ Nazirlər Komitəsinin Vyanada keçirilmiş 124-cü sessiyasında komitəyə sədrlik Avstriyadan Azərbaycana keçmişdir. Beləliklə, Azərbaycan 2001-ci ildə AŞ-yə üzv olduqdan sonra ilk dəfə olaraq AŞ Nazirlər Komitəsinə sədrliyə başlamışdır. Sessiyada Azərbaycanı xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Sessiyada çıxışında E.Məmmədyarov Nazirlər Komitəsinə sədrlik edəcəyi 6 ay müddətində (14 may – 13 noyabr 2014-cü il) Azərbaycanın sədrlik prioritetlərinə dair məlumat vermişdir. Qeyd edək ki, 6 ay ərzində Azərbaycan AŞ-nin üç aparıcı sahəsi – insan hüquqları, hüquq norması və demokratiya üzrə hədəflərinə xidmət göstərmişdir. Azərbaycan AŞ Nazirlər Komitəsinə sədrliyi dövründə aşağıdakı prioritetləri müəyyən etmişdir: 1. İdman oyunlarının saxtalaşdırılması da daxil olmaqla, korrupsiyaya qarşı mübarizə istiqamətində əməkdaşlığın dərinləşdirilməsi vasitəsilə

qanunun aliliyinin gücləndirilməsi; 2. Qarşılıqlı hörmət və anlaşma üzərində qurulmuş mədəni cəhətdən müxtəlif cəmiyyətlərin gücləndirilməsi; 3. Sosial birlik və sosial davamlılığın təmin edilməsi: kövrək qrupların hüquqlarının daha səmərəli müdafiəsi; 4. Gənclərin insan hüquqları və demokratik vətəndaşlıq sahəsində təhsilinin təşviqi, məsuliyyətli və təhsilli gənclər nəslinin formalaşdırılması və onların öz hüquqlarından istifadə imkanlarının təmin edilməsi.

Azərbaycanın sədrliyi dövründə əsas prioritetlər AŞ-nin gündəliyindəki aktual məsələlər və üzv ölkələrin daim qarşılaşdıqları çağırışlar olmuşdur. Sədrliyi dövründə Azərbaycan öz müsbət nailiyyətləri və aparıcı sahələr üzrə nisbi üstünlükləri ilə AŞ-nin missiyasına töhfəsini vermiş, bir sıra prioritet sahələrə xüsusi diqqət yetirmişdir[36].

1. İdman nəticələrinin manipulyasiyası da daxil olmaqla, korrupsiya əleyhinə mübarizədə əməkdaşlığı gücləndirməklə hüquq normalarının təkmilləşdirilməsi: Korrupsiya əleyhinə mübarizə Azərbaycan hökumətinin prioritetlərindən olub, son zamanlar bu sahədə mühüm inkişaf əldə edilmişdir. Korrupsiya əleyhinə mübarizə üçün Milli Fəaliyyət Proqramının qəbulu və icrası, açıq hökumət prinsiplərinin tətbiqi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ("ASAN xidmət") yaradılması və fəaliyyəti korrupsiyaya qarşı effektiv mübarizə mexanizminə çevrilmişdir. Korrupsiya demokratiya və hüquq normalarını təhlükə altında qoyur. Korrupsiya əleyhinə mübarizə AŞ-nin də əsas prioritetlərindən biridir. AŞ Nazirlər Komitəsinə sədrliyi çərçivəsində Azərbaycan hökuməti və AŞ tərəfindən 30 iyun – 1 iyul tarixlərində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakı ilə Bakıda "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksəksəviyyəli beynəlxalq konfrans keçirilmişdir.

2. Müxtəlif mədəniyyətli cəmiyyətlərin qarşılıqlı hörmət və anlaşma əsasında möhkəmləndirilməsi: Avropada daim genişlənən və

36 Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi başlayır. /06.052014/ - eunews.az/politics/20140506053552729.html

zənginləşən cəmiyyətlərin mədəniyyət müxtəlifliyinin qarşılıqlı hörmət və anlaşma əsasında idarə olunması mühüm prioritetlərdən biridir. Sabit və inkişaf edən cəmiyyətlərin qurulmasında mədəniyyətlərarası dialoqun əhəmiyyəti AŞ-nin "Mədəniyyətlərarası dialoq üzrə hökumət sənədi"ndə xüsusi vurğulanıb. Əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycan müxtəlif etnik və dini cəmiyyətlərin dinc yanaşı yaşamasına xüsusi əhəmiyyət verir. Azərbaycan mədəniyyətlərarası dialoqun rolunu vurğulamaqla yanaşı, Avropada diskriminasiya və qeyri-tolerantlığa qarşı çıxır. Mədəniyyətlərarası dialoqda dinin rolu ilə bağlı AŞ-nin 2014-cü il 1-2 sentyabr tarixlərində Bakıda keçirilən illik toplantısı müvafiq məsələlərin müzakirəsinə zəmin yaratmışdır. 2014-cü il 30-31 oktyabr tarixlərində Bakıda Mədəniyyət Marşrutları üzrə Məşvərət Forumunun keçirilməsi ilə Azərbaycan Mədəniyyət Marşrutları üzrə missiyaya öz töhfəsini vermişdir.

3. Sosial birlik və sosial dayanıqlığın təmin olunması: aztəminatlı qrupların hüquqlarının müdafiəsi: Sosial birlik və sosial dayanıqlıq sabit və inkişaf edən cəmiyyətin mühüm elementidir. Azərbaycan hökuməti son illər iş yerlərinin yaradılması, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına müvafiq olaraq gəlir yerlərinin yaradılması və yoxsulluğun azaldılması sahəsində ciddi səy göstərmişdir. Bu konsepsiya dayanıqlı inkişaf və yüksək sosial rifaha yönəlmiş əsas strukturdur. Azərbaycan hökuməti bu prioritetlər üzrə AŞ-nin Sosial Birlik Strategiyası və Fəaliyyət Planını gözdən keçirmişdir. Azərbaycan öz sədrliyi dövründə AŞ qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq əhalinin kənar təsirlərə tez məruz qalan qrupunun – məcburi köçkünlərin hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirmişdir. Bu kontekstdə 2014-cü il 20-21 may tarixlərində Bakıda AŞ-nin Demokratik Vətəndaşlıq və İnsan Hüquqları sahəsində Təhsil Xartiyasının koordinatorlarının 21-ci görüşü keçirilmişdir.

4. İnsan hüquqları və demokratik vətəndaşlıqla bağlı gənclərin təhsili: təhsilli və məsuliyyətli gənclərin tərbiyəsi və onların öz hüquqlarından istifadəsinin təmin olunması: Təhsil sahəsində götürdüyü öhdəliklərə uyğun və davamlı şəkildə həyata keçirdiyi tədbirlərə və AŞ-nin ümumi gündəliyi üzrə bu sahədə öz potensialına

etibar edən Azərbaycan sədrliyi dövründə təhsilə xüsusi yer ayırmışdır. Azərbaycan hökumətinin dövlət səviyyəsində apardığı siyasət gənclərə, xüsusilə onların təhsilinə yönəldilmişdir. Təhsilə ayrılan dövlət xərcləri ÜDM-ə nisbətdə daim artır. Bu isə keyfiyyətli təhsil və Avropa təhsil sisteminə daha yaxın inteqrasiya deməkdir. 2014-cü ilin oktyabr ayında Azərbaycan "Avropa Ali Təhsil Zonası" layihəsinin icrası ilə bağlı nazirlər səviyyəsində keçirilən 4-cü regional konfransa ev sahibliyi etmişdir. AŞ-nin güclü təşkilati dəstəyi ilə 2014-cü il 28-30 oktyabr tarixlərində Bakıda həmçinin BMT-nin Gənclər Siyasəti üzrə Dünya Forumu keçirilmişdir. İnsan hüquqlarının müdafiəsi və onun önə çəkilməsi konvensiya sisteminin effektliyinin artırılmasına yönələrək AŞ-nin hazırkı ikiillik dövrünün əsas prioriteti olmuşdur. Azərbaycan sədrliyi dövründə İnterlaken (2010), İzmir (2011), Breyton (2012) şəhərlərində qəbul edilmiş bəyannamələri dəstəkləməklə AŞ-nin bu sahədəki səylərinə töhfə vermişdir. Konvensiyanın dövlət səviyyəsində effektiv icrası və bu sahədə potensialın artırılmasına xüsusi diqqət yetirilmişdir.

2014-cü il iyunun 24-də Strasburqda AŞPA-nın sessiyasında (Azərbaycanın sədrliyi dövründə) nitq söyləyərkən Prezident İlham Əliyev qeyd etmişdir ki, "bu günə qədər Azərbaycan, demək olar ki, 60-a yaxın konvensiyaya qoşulmuşdur. Azərbaycanda bütün fundamental azadlıqlar təmin edilir. Siyasi fəaliyyət azadlığı vardır. Yüzlərlə siyasi təşkilat, partiya mövcuddur. Bizdə azad internet vardır. Azad internetin mövcudluğu, senzuranın olmaması şəraitində biz mətbuat azadlığını məhdudlaşdıra bilmərik. Əksinə, biz mətbuat azadlığının tərəfdarıyıq, çünki media azadlığı demokratiya deməkdir. O, hökumətə çatışmazlıqlara diqqəti yönəltməyə yardım edir. O, hökumətlə cəmiyyət arasında zəruri əlaqələrin qurulmasına zəmin yaradır. Təşkilatlanma və toplaşma azadlığı həmçinin tam şəkildə təmin edilir. Siyasi təşkilatlar bundan yararlanır, vaxtaşırı nümayişlər keçirirlər. Bu, dinc şəkildə baş tutur. Bu, həmçinin islahatlara sadiqliyimizi nümayiş etdirir. Bizdə dini azadlıq vardır. Bu da ölkəmizin ən böyük varlığıdır. Biz çoxmillətli və çox dinlərin olduğu cəmiyyətik. Əsrlər boyu müxtəlif millətlərin və dinlərin nümayəndələri Azərbaycanda sülh şəraitində layiqli həyat sürüblər. Multikulturalizm dəyərləri sədrliyimiz zamanı diqqət yetirəcəyimiz

prioritetlərdən biri olacaqdır"[37]. Prezident İlham Əliyev həmçinin qeyd etmişdir ki, "sədrliyimiz Avropa Şurasında üzvlük tariximizdə mühüm mərhələ olmuşdur. Bu sədrlik rotasiya, həmçinin müxtəlif Avropa ölkələrində narahatlıq doğuran mühüm məsələləri həll etmək imkanını yaradacaqdır. Bunlar demokratiya, qanunun aliliyi və müxtəlif ölkələrdəki vəziyyətə bəzən selektiv yanaşma kimi məsələlər olmuşdur"[38].

2014-cü il noyabrn 13-də Azərbaycanın AŞ Nazirlər Komitəsində sədrliyi başa çatmış və bu vəzifəni Belçikaya təhvil vermişdir. Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov bununla əlaqədar Strasburqda AŞ Nazirlər Komitəsinin iclasında çıxış edərək qeyd etmişdir ki, "Azərbaycan Avropa Şurasının Nazirlər Komitəsində 6 aylıq sədrliyi müddətində Avropa Şurasının məqsədlərinin təşviq edilməsində əhəmiyyətli səylər göstərib. Bu 6 ay qitəmizin tarixində çox gərgin keçib. Avropa Şurasının gündəliyindəki aktual məsələləri və üzv dövlətlərin qarşılaşdığı davamlı çağırışları nəzərə almaq Azərbaycanın sədrliyinin prioritetləri olub. Sədrlik dövründə korrupsiyaya qarşı mübarizə prioritet vəzifələrdən birini təşkil edib. İyunun 30-dan iyulun 1-dək Bakıda korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlar və milli təcrübələr üzrə konfrans təşkil edilməklə Avropa Şurasının səylərinə töhfə verilib. 2014-cü ilin sentyabr ayında Bakıda "İnsan hüquqları və qabaqcıl idarəetmə kontekstində dövlət xidmətlərinin göstərilməsi" mövzusunda keçirilən beynəlxalq konfransda bu məsələnin Avropa Şurası tərəfindən ilk dəfə olaraq müzakirə olunması xüsusi qeyd edilməlidir"[39].

AŞ Nazirlər Komitəsinə 6 aylıq sədrliyi müddətində müxtəlif mədəniyyətli cəmiyyətlərin birləşməsi Azərbaycanın sədrliyinin prioritetləri arasında olmuşdur. 2014-cü il sentyabr ayının əvvəllərində Bakıda "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə" mövzusunda mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə 2014-cü il üçün AŞ-nin mübadilə görüşü keçirilmişdir. Bakı həmçinin AŞ-nin ilk Mədəniyyət və

37 İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxış etmişdir. /24.06.2014/ - www.president.az/articles/12149

38 Yenə orada

39 Azərbaycan Avropa Şurası Nazirlər Komitəsində sədrliyi Belçikaya təhvil verib. // "Azərbaycan" qəzeti, 13.11.2014. - www.azerbaijan-news.az/index.php?mod=3&id=54140

Rəqəmsallaşdırma üzrə Platforma Mübadiləsinə, Avropa İrs Günlərinin qeyd edilməsi tədbirinə, AŞ-nin Mədəni Marşrutlar üzrə İllik Məşvərət Forumuna ev sahibliyi etmişdir. Sədrlik çərçivəsində həmçinin "Nifrət nitqinə yox hərəkatı" kampaniyası çərçivəsində onun nailiyyətlərini möhkəmləndirmək məqsədilə Azərbaycanın Qəbələ şəhərində forum təşkil edilmişdir. AŞ-nin institusional dəstəyi ilə oktyabrın 28-30-da Bakıda BMT-nin Gənclər Siyasəti üzrə I Qlobal Forumu keçirilmişdir. İnsan hüquqlarının müdafiəsi və təşviqi məsələsi Bakıda keçirilən "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkə daxilində tətbiqində milli hakimlərin rolu" mövzusunda yüksəksəviyyəli konfransda müzakirə edilmişdir. Azərbaycan həmçinin sədrlik üstünlüklərindən istifadə edərək AŞ-nin qonşu regionlarla bağlı siyasətinə dəstək vermişdir. Noyabrın 7-8-də Bakıda keçirilən qonşuluq siyasəti üzrə yüksəksəviyyəli konfransda qonşu regionlardan olan tərəfdaş ölkələrlə dialoqun dərinləşdirilməsi üzrə nailiyyətlər nəzərdən keçirilmişdir. Sədrlik dövrü həmçinin Nazirlər Komitəsi ilə Parlament Assambleyası arasında sıx qarşılıqlı əlaqələrin mövcudluğu ilə yadda qalmışdır[40].

Seçkiləri müşahidə prosesində AŞPA-nın iştirakı və rolu

AŞPA-nın müşahidə heyəti Azərbaycanda keçirilən seçkiləri mütəmadi olaraq izləyən qurumlardan biridir. AŞPA-nın Azərbaycanda 2010-cu il noyabrın 7-də keçirilən parlament seçkiləri ilə bağlı dəyərləndirməsinə görə, ümumilikdə Mərkəzi Seçki Komissiyası (MSK) seçki prosesinin texniki aspektlərini yaxşı təşkil etmişdir; əvvəlki seçkilərdən fərqli olaraq, bütün partiyalar bu seçkilərdə iştirak etmişdir; bütün müxalifət nümayəndələri MSK-da öz yerlərini tutmuşlar; MSK tez-tez açıq iclaslar keçirmiş, bütün tələbləri hüquqi zaman çərçivəsində tamamlamış və öncədən qaydaları diqqətlə hazırlayıb işləmişdir; MSK bütün namizədlərə ictimai televiziyada dəyirmi masa müzakirələrində

40 Azərbaycan Avropa Şurası Nazirlər Komitəsində sədrliyi Belçikaya təhvil verib. // "Azərbaycan" qəzeti, 13.11.2014. / - www.azerbaijan-news.az/index.php?mod=3&id=54140

dörd dəqiqəlik pulsuz efir vaxtı ayırmışdır; qeydiyyatından imtina edilmiş 172 namizəddən 43-nün şikayəti təmin olunmuşdur; bir çox sayda beynəlxalq və yerli müşahidəçilər qeydə alınmışdır; beynəlxalq müşahidəçilər MSK ilə yaxşı əməkdaşlıqdan məmnun qalmışlar; bütün əsas siyasi partiyaların namizədləri arasında milli azlıqların nümayəndələri təmsil olunmuşdur; əvvəlki parlament seçkilərinə nisbətdə qadın namizədlərin sayı 10 faizdən 13 faizə qədər artmışdır[41].

2013-cü il oktyabrın 9-da Azərbaycanda keçirilmiş prezident seçkiləri təkcə ölkəmizdə və regionda deyil, bütövlükdə dünyada böyük maraqla izlənilirdi. Noyabrın 22-də AŞPA Daimi Komitəsinin Vyanada keçirilmiş toplantısında Azərbaycanda keçirilmiş prezident seçkilərinə dair hesabat qurum üzvləri tərəfindən müzakirə edilərək təsdiqlənmişdir. Britaniyalı deputat Robert Valterin hazırladığı "Azərbaycanda prezident seçkilərinin müşahidəsi (9 oktyabr 2013-cü il)" adlı hesabatın müzakirələrində bir çox parlamentar və beynəlxalq müşahidə missiyalarının nümayəndələri bu seçkiləri Azərbaycan xalqının iradəsinin ifadəsi kimi gördüklərini bildirmişlər. Adıçəkilən seçki barədə qeyri-obyektiv fikirlər söyləyənlərin mövqeyini başa düşmədiyini bildirən britaniyalı deputat qeyd etmişdir ki, "beynəlxalq müşahidə missiyalarının birgə mövqe nümayiş etdirə bilməməsi məni çox məyus etdi. Amma, əslində, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun digər təşkilatlardan fərqli mövqe göstərməsi çoxdanın problemidir. Hətta bu qurum AŞPA-nın müşahidəçi missiyasına da təzyiqlər edərək, onun mövqeyindən çıxış etməyə vadar etmək istəyirdi"[42].

2014-cü il iyunun 24-də Strasburqda AŞPA-nın sessiyasında çıxışında Prezident İlham Əliyev qeyd etmişdir ki, "Avropa Şurasının Parlament Assambleyası Azərbaycandakı seçkiləri müşahidə etmək üçün nümayəndə heyəti göndərir. Onlar Azərbaycanda keçirilən seçkiləri müsbət dəyərləndirirlər. Mindən çox beynəlxalq müşahidəçi seçkilərdə

41 Azərbaycan Respublikası – Parlament seçkiləri. /07.11.2010/ ATƏT Beynəlxalq Müşahidə Missiyası/ - www.osce.org/odihr/elections/74099?download=true

42 Avropa Şurası Parlament Assambleyasının tribunasından Azərbaycanın seçki həqiqətləri olduğu kimi səsləndirildi və hazırlanmış hesabat qəbul edildi. // "Xalq qəzeti", 23.11.2013. - www.xalqqazeti.com/az/news/analytics/39876

iştirak edir, beynəlxalq təşkilatlar tərəfindən bir neçə ekzit-pol keçirilir. Bütün bu təşkilatlar seçkilərin rəsmi nəticələrini dəstəkləyib. Avropa Şurası Parlament Assambleyası da nümayəndə heyəti göndərmişdir və onların tərtib etdiyi hesabat müsbət olmuşdur"[43]. 2016-cı ilin sentyabr ayında Avropa İttifaqı Parlamentinin (Avropa Parlamenti) nümayəndə heyəti ilə görüşərkən Prezident İlham Əliyev qeyd etmişdir ki, "Avropa Parlamenti Azərbaycanda parlament seçkilərini müşahidə etmək üçün missiya göndərməkdən imtina etsə də, digərləri etmədi. Avropa Şurası Parlament Assambleyası gəldi, seçkiləri müşahidə etdi və çox müsbət bəyanat verdi. Beləliklə, Avropa Parlamentinin iştirak etməməsi heç nəyi dəyişmədi, nəticələrə və müsbət rəyə təsir etmədi"[44].

Bundan başqa, rəsmi Bakı həm də Qərbin Azərbaycanın ərazi bütövlüyünə qarşı ikili standartlar tətbiq etməsindən narazıdır. Çünki Ukrayna və Gürcüstanın ərazi bütövlüyünə göstərilən xüsusi diqqət Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına göstərilmir. Məsələn, Ermənistan AŞPA-nın 2005-ci ildə qəbul etdiyi Azərbaycan ərazilərinin işğalı ilə bağlı 1416 saylı qətnamənin şərtlərini hələ də yerinə yetirməyib, lakin AŞPA da bu məsələni yenidən gündəmə gətirmir və işğalçıya heç bir etiraz bildirmir[45].

AŞ və insan hüquqları

Münasibətlərdəki müsbət dəyişikliklərə baxmayaraq, Azərbaycana qarşı AŞ-dəki bəzi şəxslər tərəfindən son illər ərzində dəfələrlə insan hüquqları şüarı altında qərəzli siyasi hücumlar olmuşdur. Hüquqi Məsələlər və İnsan Hüquqları üzrə Komitənin məruzəçisi KristofŞtrasser 2013-cü ilin qış sessiyasında "Azərbaycanda siyasi məhbus

43 İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxış etmişdir. /24.06.2014/ - www.president.az/articles/12149

44 Prezident İlham Əliyev Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyətini qəbul edib. /20.09.2016/ - www.yap.org.az/az/view/news/15473/prezident-ilham-eliyev-avropa-ittifaqi-azerbaycan-parlament-emekdashliq-komitesinin-numayende-heyetini-qebul-edib

45 PACE President: "I consider that all countries should be under the monitoring now"./20.05.2014/ - en.apa.az/azerbaijan-politics/foreign-news/pace-president-i-consider-that-all-countries-should-be-under-the-monitoring-now-interview-exclusive.html

məsələsinin davamı" adlı məruzə səsləndirmişdi. Sessiyada iştirak edən ölkələrin bir çoxu tərəfindən bu layihənin qəbul olunmasına ehtiyac duyulmadığından bu məruzə rədd edilmişdi[46]. 2015-ci il noyabrın 2-də Bakıda keçirilən görüş zamanı ispaniyalı diplomat Pedro Aqramunt tərəfindən Azərbaycanın AŞ-nin tamhüquqlu üzvü olduğu, tərəflər arasında heç bir problem olmadığı və əməkdaşlığın zamanla dərinləşdiyi bildirilmişdi. AŞ 2016-cı ilin mart ayında Prezident İlham Əliyev tərəfindən imzalanmış 148 məhbusun əfv edilməsi haqqında fərmanı müsbət qarşılamışdı[47].

2016-cı ilin yanvar sessiyasında AŞPA-nın prezidenti ispaniyalı deputat Pedro Aqramunt seçilmişdi. O, 2016-cı ilin mart ayında Azərbaycana etdiyi iki günlük səfəri zamanı qeyd etmişdir ki, hal-hazırda Azərbaycanın Avropa və AŞ ilə əlaqələrini yüksək səviyyəyə qaldırmaq üçün önəmli məqam yetişmişdir. Bundan başqa, Pedro Aqramunt demişdi ki, Dağlıq Qarabağın və digər Azərbaycan torpaqlarının işğalı problemi həll olunmalıdır. Onun sözlərinə görə, münaqişə nəinki Azərbaycanda və Ermənistanda qeyri-sabit vəziyyət yaradır, həm də bu ölkələrin demokratiya, insan hüquqları və qanunun aliliyi sahəsində inkişafına mənfi təsir göstərir[48.]

2016-cı ilin aprel ayının əvvəlində Azərbaycan və Ermənistan arasında baş vermiş silahlı toqquşmadan sonra erməni işğalçı qüvvələrinin artilleriya atəşi nəticəsində maddi ziyan görmüş (evləri dağılmış) şəxslərdən ikisi Avropa İnsan Hüquqları Məhkəməsinə (AİHM) ermənilərin törətdiyi cinayətlərə baxılması üçün müraciət etmişdi. Məhkəmə müraciətlərə baxılması üçün qərar qəbul etmişdir.

AŞ-nin insan hüquqlarına verdiyi dəyər AİHM tərəfindən "Çıraqov və digərləri Ermənistana qarşı" adlı işlə bağlı qəbul etdiyi yekun qərarda bir daha öz əksini tapmışdır. Sözügedən məhkəmə prosesi zamanı

46 Süleymanov E. Avropa Şurasında siyasi məhbus problemi və onun həlli yolları. / "525-ci qəzet", 4 mart 2011-ci il, s.4. - anl.az/down/meqale/525/2011/mart/161200.htm

47 "Azerbaijan: Assembly president welcomes 148 prisoner release", Human Rights Europe, Council of Europe. - www.humanrightseurope.org/2016/03/azerbaijan-assembly-president-welcomes-decision-to-release-148-prisoners/

48 Президент ПАСЕ: необходимо решить проблему оккупации Нагорного Карабаха. /02.03.2016 / - aze.az/id/129700

Azərbaycan ərazisində yaradılmış qondarma rejimin heç bir dövlət və ya beynəlxalq təşkilat tərəfindən tanınmadığı, Ermənistanın Dağlıq Qarabağ münaqişəsində lap əvvəldən fəal şəkildə iştirak etdiyi, işğal olunmuş ərazilərə davamlı nəzarətin həyata keçirilməsində həlledici rol oynadığı, Ermənistanın qondarma respublika ilə bütün vacib məsələlərdə yüksək dərəcədə inteqrasiyası və bu vəziyyətin indiyədək davam etdiyi vurğulanıb. Bildirilib ki, işğal olunmuş ərazilərdən didərgin düşmüş azərbaycanlı məcburi köçkünlərin torpaq hüquqlarının Ermənistan tərəfindən mənimsənilməsinə yönəlmiş cəhdlər məhkəmənin qərarına əsasən hüquqi baxımdan qanuni hesab oluna bilməz. Ermənistan tərəfindən azərbaycanlı məcburi köçkünlərin hüquqlarının pozulduğunu müəyyən edən məhkəmə qərara gəlib ki, rəsmi Yerevan iddiaçılara münasibətdə konvensiyadan irəli gələn hüquq pozuntularının aradan qaldırılması üçün müvafiq öhdəliklərini yerinə yetirməyib[49].

Nəticə

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra xarici siyasət xəttində bir sıra mühüm və təxirəsalınmaz vəzifələrdən biri də ölkənin beynəlxalq aləmdəki əlaqələrini gücləndirmək və Azərbaycan haqqında reallıqları dünya ictimaiyyətinə çatdırmaq idi. 1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonrakı dövrdə ölkədə yaranmış iqtisadi və siyasi problemlərin həlli Azərbaycanın dünyanın iqtisadi və siyasi inteqrasiya proseslərinə cəlb olunması və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrinin qurulmasından asılı idi.

Bu baxımdan Azərbaycanın AŞ-yə üzvlüyü çox vacib və əhəmiyyətli bir tarixi məqam idi. Ümumiyyətlə, Azərbaycanın AŞ-yə üzvlüyünü zəruri edən bir çox tarixi və siyasi məqamlar vardır. Ulu öndər Heydər Əliyev və onun davamçısı Prezident İlham Əliyevin siyasətinin əsas prinsiplərindən biri də xarici siyasət kursunda siyasi və iqtisadi balansın saxlanılması idi.

49 Niderlandda Avropa İnsan Hüquqları Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarına dair dəyirmi masa keçirilib. /14. 09.2015/ - hague.mfa.gov.az/news/4/3008

Bundan başqa, AŞ-yə üzvlük Azərbaycana ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi faktını dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm bir platforma əldə etmək şansı verdi. Çünki AŞPA deputatlarının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kifayət qədər məlumatı yox idi.

Azərbaycanın Avropa ölkələri ilə əməkdaşlığı prosesində AŞ-yə bərabərhüquqlu üzv olması respublikanın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və onların obyektiv rəyinin qazanılması baxımından vacib addım idi. AŞ ilə əməkdaşlığın möhkəmləndirilməsi, demokratik dəyərlərin qorunub-saxlanılması və insan hüquqlarının müdafiəsi gələcəkdə Azərbaycanın digər Avropa ölkələri ilə münasibətlərinin genişləndirilməsi və əlaqələrinin daha da yüksək səviyyədə inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Hazırda Azərbaycan Respublikası AŞ çərçivəsində qəbul edilmiş 60 beynəlxalq müqavilənin iştirakçısıdır.

Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi Azərbaycanın xarici siyasətində əsas yer tutur. Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın işğalçı siyasətini pisləyən qətnamənin qəbul edildiyi beynəlxalq təşkilatlardan biri də AŞ-dir. Beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdikləri qətnamələrin Ermənistan tərəfindən yerinə yetirilməməsi münaqişənin həllinə maneə törədən səbəblərdən biridir. Lakin AŞ tərəfindən bu məzmunda bir çox qətnamə qəbul edilməsinə baxmayaraq, onların heç biri Ermənistan tərəfindən icra olunmamışdır. Nəticədə bu qətnamələr öz mahiyyətini itirir. Ermənistan tərəfi hər şeyi olduğu kimi və status-kvonu dəyişməz olaraq saxlamaq istəyir. Çünki AŞ-nin qətnamələri hüquqi cəhətdən öhdəlik daşımır, daha çox üzv ölkələrin siyasi öhdəliklərini əks etdirir.

Bundan başqa, rəsmi Bakı həm də Qərbin Azərbaycanın ərazi bütövlüyünə qarşı ikili standartlar tətbiq etməsindən narazıdır. Çünki Ukrayna və Gürcüstanın ərazi bütövlüyünə göstərilən xüsusi diqqət Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına göstərilmir.

AŞPA-nın müşahidə heyəti Azərbaycanda keçirilən seçkiləri ardıcıl izləyən qurumlardan biridir. Seçkiləri müşahidə etmək üçün göndərilən

nümayəndə heyətləri Azərbaycanda keçirilən seçkiləri müsbət dəyərləndirir. Onların tərtib etdikləri hesabat həmişə müsbət xarakterdə olmuşdur.

Münasibətlərdəki müsbət dəyişikliklərə baxmayaraq, Azərbaycana qarşı AŞ-dəki bəzi şəxslər tərəfindən son illər ərzində dəfələrlə insan hüquqları şüarı altında qərəzli siyasi hücumlar da olmuşdur. Azərbaycanın demokratiya və islahatlar sahəsində əldə etdiyi uğurlara baxmayaraq, həm erməni diasporasının aktiv fəaliyyəti və həm də bəzi liberal dairələrin təbliğatı nəticəsində AŞPA-da insan hüquqları bayrağı altında Azərbaycana qarşı qərəzli mövqe davam etdirilməkdədir.

Azərbaycan–Müstəqil Dövlətlər Birliyi münasibətləri

*Araz Aslanlı**

Giriş

Müstəqilliyinə yenicə qovuşmuş bir ölkə kimi Azərbaycan üçün xarici əlaqələr, eləcə də beynəlxalq və regional təşkilatlarla münasibətlər həyati əhəmiyyət kəsb edir. Çünki Azərbaycan müstəqilliyinə qovuşma prosesinə paralel olaraq Ermənistanın ərazi iddialarına və işğalçı hücumlarına məruz qalmışdır. Bu hücumlar nəticəsində Azərbaycan ərazilərinin 20%-ə yaxını işğal edilmiş, ümumilikdə təxminən 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Xüsusilə 1990-cı illərin ilk yarısında Azərbaycan həm müstəqilliyini möhkəmləndirmək, həm də ərazilərinin Ermənistan tərəfindən işğalı probleminin ədalətli həllinə nail olmaq üçün çoxşaxəli və effektiv münasibətlər qurmaq məcburiyyətində idi. Bu baxımdan Müstəqil Dövlətlər Birliyi (MDB) ilə münasibətlər Azərbaycan xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edirdi.

Burada Azərbaycanın xarici siyasəti çərçivəsində xüsusi olaraq MDB ilə münasibətlər araşdırılır. Əvvəlcə MDB-nin yaradılması prosesinə Azərbaycanın münasibəti və ilk dövrlərdə ölkəmizin bu təşkilatdan kənarda qalması, daha sonra bu quruma üzvlük prosesi, sonda isə Azərbaycanla sözügedən təşkilat arasındakı mövcud münasibətlər və MDB-nin hazırda Azərbaycan xarici siyasətində tutduğu yer təhlil edilir.

MDB-nin yaradılması mərhələsində Azərbaycanın bu təşkilata münasibəti

MDB-nin yaradılması mərhələsi, əslində, həm də SSRİ-nin dağılma mərhələsi idi. Xüsusilə 1980-ci illərin ikinci yarısından etibarən keçmiş Sovet İttifaqının bütün respublikalarında fərqli dərəcələrdə istiqlaliyyət

* *Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin direktoru*

uğrunda mübarizə başlanmışdı. Təbii ki, SSRİ-nin dağılması üçün ciddi xarici dəstək də vardı. Eyni zamanda SSRİ-nin idarə olunmasında da ciddi problemlər mövcuddu və bəzilərinə görə, SSRİ "təbii ömrünü başa vurmaq üzrə idi". Buna baxmayaraq, həm mərkəzi hakimiyyətdə, həm də respublikalarda SSRİ-nin qorunub-saxlanılması üçün çalışanlar da var idi. Mərkəzdəki bu qüvvələrin 1991-ci ilin avqustundakı uğursuz dövlət çevrilişi cəhdindən sonra isə SSRİ-nin dağılma prosesi sürətləndi və daha öncədən tam müstəqilliyini elan etmiş üç Baltikyanı respublikaya (Latviya, Litva, Estoniya) digər respublikalar da qoşularaq ardıcıl şəkildə müstəqilliklərini elan etməyə başladılar. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə (Qərar № 179-XII) qəbul edildi[1]. Sənəddə açıq şəkildə qeyd olunurdu ki, "Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək..., 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək..., Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir". Azərbaycan parlamentinin elə həmin gün qəbul etdiyi başqa bir qərarda (Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli, 181-XII saylı bəyanatı) isə Azərbaycanın artıq müstəqilliyini elan etmiş bəzi dövlətləri tanıdığı bildirilmiş və onlara da Azərbaycanın müstəqilliyini tanımaqla bağlı çağırış edilmişdir.

Bu qərarlara baxmayaraq, Azərbaycanda SSRİ-nin dağılması prosesinə və respublikanın müstəqillik əldə etməsinə münasibət birmənalı olmamışdır. Bu qısa zaman kəsiyində tam müstəqilliyi müdafiə edənlər, müstəqilliyə mərhələli yolla qovuşmağı təklif edənlər

1 Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsi. /30 avqust 1991-ci il/ - http://www.e-qanun.az/framework/6592

və ümumiyyətlə, SSRİ-nin tərkibində qalmağın düzgün yol olduğu fikrini irəli sürənlər də olmuşdur. Bu şəraitdə 1991-ci il oktyabrın 18-də parlament Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmiş və bu akt daha sonra (29 dekabr 1991-ci il tarixli) ümumxalq referendumu ilə təsdiq edilmişdir. Buna qədər isə SSRİ-nin "Keçid dövründə SSRİ-nin idarə edilməsi və dövlət hakimiyyəti orqanları" haqqında 1991-ci il sentyabrın 5-də qəbul edilmiş qanun əsasında SSRİ Dövlət Şurası yaradılmış[2] və bu qurum 1991-ci il sentyabrın 6-da üç Baltikyanı respublikanın müstəqilliyini tanımaqla bağlı qərar qəbul etmişdi. Yəni SSRİ-nin dağılması artıq Moskvanın da qəbul etdiyi bir prosesə çevrilməyə başlamışdı. 1991-ci il dekabrın 8-də Minsk şəhərində Rusiya, Ukrayna və Belarus respublikalarının rəhbərləri "Müstəqil Dövlətlər Birliyinin yaradılmasına dair Saziş"i imzalayaraq SSRİ-nin ömrünün başa çatdığını elan etdilər (SSRİ-nin rəsmi olaraq dağılma tarixi kimi Mixail Qorbaçovun SSRİ prezidentliyindən istefa verdiyi 25 dekabr 1991-ci il tarixi qəbul edilir)[3]. Boris Yeltsin, Leonid Kravçuk və Stanislav Şuşkeviç tərəfindən imzalanan "Belovejsk sazişi"ndə SSRİ-nin dağılmasının labüdlüyü, bu səbəbdən də bu üç respublikanın öz aralarındakı siyasi, iqtisadi və mədəni əlaqələri genişləndirmək üçün MDB-ni təşkil etdikləri, SSRİ-nin əmlakının keçmiş sovet respublikaları arasında paylaşdırılmasının zəruriliyi qeyd edilmişdi.

Bu mərhələdə Azərbaycan rəhbərliyi daha çox SSRİ-nin hansısa formada mövcudluğunu davam etdirəcəyi inancı ilə mərkəzdə gedən proseslərdə yer almağa çalışır, "dərhal və mütləq müstəqillik" tərəfdarları isə SSRİ-dən və onun "bazasında" yaradılan qurumlardan uzaq durmağı müdafiə edirdilər. Azərbaycan Respublikasının həmin dövrdəki Prezidenti Ayaz Mütəllibov MDB-yə qoşulmaqla bağlı sazişi imzalamaq arzusunu açıq şəkildə ifadə edirdi. Belə olan vəziyyətdə Azərbaycan parlamenti (həmin vaxt bu funksiyanı Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası yerinə yetirirdi) MDB ilə münasibətlər haqqında

2 Союз Советских Социалистических Республик закон об органах государственной власти и управления союза ССР в переходный период. /5 сентября 1991 года, N 2392-1/ - http://zakon.7law.info/base50/d5ru3475.htm

3 Соглашение о создании Содружества Независимых Государств. /8 декабря 1991 года/ - http://cis.minsk.by/reestr/ru/index.html#reestr/view/text?doc=1

xüsusi qərar qəbul etdi. Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Müstəqil Dövlətlər Birliyinə münasibəti haqqında 20 dekabr 1991-ci il tarixli 32 saylı qərarında qeyd edilmişdi[4]:

"Dövlət quruculuğu, hüquqi siyasət, xarici işlər və iqtisadiyyat komissiyalarının Müstəqil Dövlətlər Birliyinə münasibət məsələsi üzrə rəylərini müzakirə edib Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası qərara alır:

1. Azərbaycan Respublikasının indiki vəziyyətdə Müstəqil Dövlətlər Birliyinə qoşulması məqsədəuyğun sayılmasın.

2. Azərbaycan Respublikası ərazisində yerləşən Sovet Silahlı Qüvvələri hissələrinin statusunu Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının qərarlarına və respublika Prezidentinin fərmanlarına əsasən müəyyən etmək və həmin hissələrin tezliklə Azərbaycan Respublikasından çıxarılması barədə Müstəqil Dövlətlər Birliyi ilə danışıqlar aparmaq Azərbaycan Respublikasının Prezidentinə təklif edilsin".

Göründüyü kimi, qərarda Azərbaycan Prezidentinə təklif olunurdu ki, MDB-yə qoşulmasın, amma Almatıda (o vaxtkı adı ilə Alma-Atada) MDB ilə bağlı keçirilməsi planlaşdırılan görüşdə iştirak edərək, konkret məsələlər üzrə keçmiş sovet respublikaları ilə danışıqlar aparsın. Azərbaycan parlamentinin bu qərarına baxmayaraq, Ayaz Mütəllibov 1991-ci il dekabrın 21-də Alma-Ata Bəyannaməsinə imza atdı[5]. Bu sənəd Azərbaycan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Tacikistan, Türkmənistan və Özbəkistanın Rusiya, Ukrayna və Belarus ilə birlikdə MDB-yə qoşulmaq haqqında razılığa gəlməsini nəzərdə tuturdu. Alma-Ata Bəyannaməsi ilə keçmiş SSRİ respublikaları daxili və xarici siyasətin müxtəlif sahələrində əməkdaşlıq etmək, eləcə də siyasi, iqtisadi, mədəni əlaqələri genişləndirmək niyyətlərini bəyan edirdilər[6].

Bu mərhələdə bir yandan Azərbaycan işğalçı Ermənistanın

4 Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Müstəqil Dövlətlər Birliyinə münasibəti haqqında qərarı. /Dövlət quruluşunun əsaslarına dair digər sənədlər, s.99. - http://files.preslib.az/projects/republic/az/azr4_4.pdf

5 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı: Mütərcim, 2015, s.505

6 Алма-Атинская Декларация. - http://cis.minsk.by/reestr/ru/index.html#reestr/view/text?doc=4

hücumlarına məruz qalır və bu hücumlara Cənubi Qafqazdakı keçmiş sovet hərbi birləşmələri dəstək verir, digər tərəfdən ölkə daxilində çox ciddi ictimai-siyasi proseslər gedirdi. Ayaz Mütəllibov həm SSRİ-nin tam dağılmasına inanmadığı, həm də daxili siyasi proseslərdə və Ermənistanın hücumları qarşısında Moskvadan dəstək almaq arzusunda olduğu üçün MDB ilə bağlı proseslərdə fəal iştirak etmək istəyirdi. Amma milli maraqlara uyğun aparılmayan xarici siyasət, zəif idarəçilik, ciddi ictimai-siyasi müxalifət, parlamentdəki imkanlarının məhdud olması, xüsusilə də Ermənistan ordusunun həyata keçirdiyi işğal və törətdiyi qətliamlar respublikanı çətin vəziyyətə salmışdı.

25-26 fevral 1992-ci il tarixlərində Ermənistan silahlı qüvvələri Xocalı soyqırımını törətdi. Bu soyqırımının həyata keçirilməsində erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi (Stepanakert) şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikasından və hərbi heyətinin köməkliyindən istifadə etmişdi[7]. Fevralın 27-də Azərbaycan tərəfi Moskvada MDB-yə dair bəzi yeni sənədləri imzalasa da, bir gün sonra Xocalı soyqırımına dair məlumatların bütün Azərbaycana yayılması ilə ciddi siyasi proseslər başladı və bu proseslər Ayaz Mütəllibovun 1992-ci il martın 6-da istefaya getməsi ilə nəticələndi. Həmin gün Azərbaycan parlamentinin Sədri seçilən Yaqub Məmmədov Prezidentin səlahiyyətlərini də icra etməyə başladı.

Yaqub Məmmədov, ümumiyyətlə, xarici siyasi kursla bağlı konkret bir mövqe nümayiş etdirməmişdir. Onun Azərbaycana rəhbərlik etdiyi dövr daha çox qeyri-müəyyəniklər, axtarışlar və növbəti mərhələyə keçid üçün təşəbbüslər dövrü olmuşdur. Bu mərhələdə Rusiya ilə münasibətlərdə ehtiyatlı davranılmış, MDB çərçivəsində əlaqələrin inkişafı mövzusuna isti yanaşılmamışdır. 1991-ci il dekabrın 21-də Azərbaycanın imzaladığı MDB-yə qoşulmaqla bağlı saziş Yaqub Məmmədovun parlamentə və ölkəyə rəhbərlik etdiyi mərhələdə də parlament tərəfindən təsdiq edilməmişdir. Həmçinin o, 1992-ci il martın 21-də MDB dövlət başçılarının Kiyevdə keçirilən toplantısında iştirak etməmiş, ümumiyyətlə, Azərbaycan nümayəndələri bu dövrdə MDB ilə

7 Xocalı soyqırımı. - http://www.president.az/azerbaijan/memories#xocali

bağlı heç bir sənədə imza atmamışlar[8].

Azərbaycanda prezident seçkilərinin keçirilməsinə 1992-ci il iyunun 7-də qərar verilmişdi. Seçkiyə qısa müddət qalmış, yəni 1992-ci il mayın 14-də Ayaz Mütəllibov və onun tərəfdarları ölkədəki siyasi vəziyyəti daha da gərginləşdirərək, yenidən hakimiyyətə qayıtmaq üçün cəhd etmiş, hətta cəbhə bölgəsindəki qüvvələri Bakıya çağıraraq Azərbaycan Ali Sovetinin (səlahiyyətlərini müvəqqəti orqan olan Milli Şuraya vermiş Azərbaycan parlamentinin) iclasını keçirmək üçün deputatları toplamışdı. Ayaz Mütəllibov bu iclasda prezident kimi səlahiyyətlərini bərpa etmək üçün parlament üzvlərinə qərar qəbul etdirmişdi. İddiaya görə, A.Mütəllibovun məqsədi 1992-ci mayın 15-də Daşkənddə keçirilməsi planlaşdırılan MDB zirvə toplantısında iştirak edərək Azərbaycanın MDB-də üzvlüyünü təsdiqləmək və ölkədə hakimiyyətini möhkəmləndirmək üçün Rusiya ordusundan dəstək almaq olmuşdur. Lakin kütləvi etirazlar nəticəsində Ayaz Mütəllibov mayın 15-də Azərbaycandan qaçmışdır[9]. Bundan sonra isə Azərbaycanda hakimiyyət, faktiki olaraq, Azərbaycan Xalq Cəbhəsinin (AXC) əlinə keçmiş, iyunun 7-də keçirilən prezident seçkilərində AXC-nin lideri Əbülfəz Elçibəy qələbə qazanmışdır.

AXC və onun lideri Əbülfəz Elçibey hələ müxalifətdə olarkən qəti şəkildə Azərbaycanın MDB-yə üzv olmasına qarşı çıxırdılar. Bu siyasət AXC hakimiyyəti dövründə də davam etdirilmişdir. Azərbaycanın MDB-yə üzvlüyü ilə bağlı tam rəsmi mövqe bir müddət sonra, Azərbaycan parlamentinin 7 oktyabr 1992-ci il tarixli qərarı (№ 323) ilə ortaya qoyulmuşdur. Qərarda qeyd edilmişdir ki, "1991-ci il dekabrın 21-də Alma-Ata şəhərində Azərbaycan Respublikası adından imzalanmış Müstəqil Dövlətlər Birliyi haqqında Saziş təsdiq edilməsin"[10].

Ümumiyyətlə, bu mərhələdə MDB ilə münasibətlərin sadəcə Rusiya ilə münasibətlər kimi dəyərləndirilməsi və SSRİ dövründə keçmiş İttifaq respublikaları ilə formalaşmış münasibətlərin nəzərə

8 Cafersoy N. Bağımsızlığın 10. Yılında Azerbaycan-Rusya İlişkileri. // Avrasya Dosyası, Azerbaycan Özel, Cilt 7, Sayı 1, İlkbahar 2001, s.290

9 Cafersoy N. Elçibey Dönemi Azerbaycan Dış Politikası (Haziran 1992-Haziran 1993). Ankara: ASAM Yayınları, 2001, s.45

10 Müstəqil Dövlətlər Birliyi haqqında Saziş barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. / 7 oktyabr 1992-ci il/ - http://www.e-qanun.az/framework/7797

alınmaması səbəbindən Azərbaycanın MDB ilə bağlı siyasətinin davam etdirilməsinin qeyri-mümkünlüyü aydın idi. İstər daxili idarəetmədə, istərsə də xarici əlaqələrdə təcrübə əskikliyi özünü göstərirdi ki, bu, MDB ilə münasibətlərdən də yan keçməmişdir. Çünki keçmiş Sovet İttifaqı ərazisində qurulmuş hələlik ən ciddi təşkilat kimi MDB müstəvisinin boş saxlanılması Azərbaycan ərazilərini işğal edən Ermənistan üçün əlavə imkanlar yaradırdı. Həm Rusiya ilə münasibətlərin ümumən pisləşməsi, həm də MDB müstəvisinin Ermənistan üçün saxlanılması Azərbaycan üçün əlavə risklər yaradırdı.

MDB-yə üzvlük prosesi və ilk dövrlər

Azərbaycanın MDB-yə üzvlüyü və Azərbaycan–Rusiya münasibətlərinin normallaşması prosesi Ümummilli lider Heydər Əliyevin apardığı müdrik xarici və daxili siyasət sayəsində mümkün olmuşdur. Hələ Azərbaycan müstəqilliyini elan edərkən Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli 181-XII saylı bəyanatında qeyd olunmuşdu ki, "Azərbaycan Respublikası Ali Soveti respublikalarımız arasında səmərəli iqtisadi və mədəni əlaqələrin uzun illər toplanmış təcrübəsini, bu respublikaların dost xalqlarına rəğbət hissini əsas tutaraq Azərbaycanla müstəqil Latviya, Litva, Estoniya, Moldova, Gürcüstan, Ukrayna və Belarusiya respublikaları arasında qarşılıqlı faydaya əsaslanan əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əmin olduğunu bildirir. Müstəqil Azərbaycan Respublikası indiyədək SSRİ-nin tərkibində olan bütün respublikalarla bir-birinin suverenliyini tanımaq, qarşılıqlı hörmət və bir-birinin işlərinə qarışmamaq şərti ilə iqtisadi əlaqələri bərpa etmək və özünün bütün öhdəliklərini ardıcıl surətdə yerinə yetirmək əzmində olduğunu və bu istiqamətdə danışıqlar aparmağa hazır olduğunu bildirir"[11].

Ümummilli lider Heydər Əliyevə qədərki Azərbaycan rəhbərləri isə ya SSRİ-nin dağılması reallığını qəbul edə bilmədikləri, ya da artıq dağılmış olsa da, SSRİ-nin bir vaxtlar mövcud olduğu gerçəyini

11 Azərbaycan Respublikası Ali Sovetinin Bəyanatı. /Dövlət quruluşunun əsaslarına dair digər sənədlər, s.68/ - http://files.preslib.az/projects/republic/az/azr4_4.pdf

diqqətdən kənarda saxladıqları üçün xarici siyasətdə arzulanan mənzərə ortaya çıxmamışdır. SSRİ dağıldıqdan sonra Azərbaycanın keçmiş sovet respublikaları ilə münasibətlərinin arzulanan səviyyədə olmaması eyni zamanda bu respublikaların əksəriyyətində qeyri-müəyyənliklərin yaşanması və Rusiyanın hegemon iddialarının davam etməsi ilə bağlı olmuşdur[12].

Ulu öndər Heydər Əliyev hələ 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçildiyi iclasdakı çıxışında bildirmişdi: *"Xarici siyasət sahəsində keçən bir il müddətində çox iş görülüb. Ancaq görüləsi işlər daha da çoxdur. Güman edirəm ki, Azərbaycan Respublikası demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmalıdır. Hansı dövlətin daxili quruluşu, daxili siyasəti hansı istiqamətlə getməsindən asılı olmayaraq, biz normal münasibətlər yaratmalıyıq. Birinci növbədə bizim yaxın qonşularımızla lazımi mədəni, iqtisadi, dövlət münasibətləri yaradılmalıdır... Şübhəsiz ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha da yaxşı, daha da geniş, səmərəli olmalıdır. Keçmiş Sovetlər İttifaqına daxil olan, indi müstəqil dövlət olan bütün dövlətlərlə – Ukrayna, Belarusiya, Gürcüstan, Orta Asiya dövlətləri, Qazaxıstan, Pribaltika dövlətləri, Moldova ilə biz daha geniş qarşılıqlı əlaqələr yaratmalıyıq. Bizim üçün bu, çox lazımdır. Çünki bu dövlətlərlə bizim iqtisadi əlaqələrimiz, mədəni əlaqələrimiz, insani əlaqələrimiz uzun illər, yüzilliklərlə çox yaxın olub. Bunları qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır. Şübhə etmirəm ki, məhz belə siyasət Azərbaycan Respublikasının müstəqil dövlət kimi formalaşmasına və inkişaf etməsinə kömək edəcəkdir"*[13]. Əslində, bu çıxışda gələcəkdə Azərbaycanın ümumən xarici siyasətinin, xüsusən də keçmiş sovet respublikaları ilə münasibətlərinin necə olacağının konturları ortaya qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildikdən sonra xarici ölkə nümayəndələri ilə ilk

12 Burada Ermənistan istisnadır. Azərbaycanla Ermənistan arasındakı münasibətlərin pis vəziyyətdə olması məhz Ermənistanın işğalçılıq siyasətindən və Azərbaycan ərazilərini zəbt etməsindən, eləcə də Ermənistanın soyqırımı, qətliam və terror aksiyaları törətməsindən qaynaqlanmışdır

13 Heydər Əliyev: müstəqilliyimiz əbədidir (Birinci kitab, iyun 1993 – may 1994). / Buraxılışa məsul: Ramiz Mehdiyev, Hidayət Orucov/. Bakı: Azərnəşr, 1997, s.11

görüşünü də 1993-cü il iyunun 16-da Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Valter Şoniya ilə keçirmişdir. Heydər Əliyevin ilk addımlarının əsas məqsədi Rusiyanın narazılığını və reaksiyalarını mümkün qədər azaltmaq olmuşdur. Təsadüfi deyildir ki, ilk mərhələdəki bu xarakterli addımlardan sonra Azərbaycan praqmatik xarici siyasət kursunu seçmiş və bu günə qədər bu kursa sadiq qalmışdır.

Ulu öndər Heydər Əliyev 1993-cü il iyulun 6-da "Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibəsində "Siz Rusiya–Azərbaycan münasibətlərinin indiki vəziyyətindən razısınızmı, iqtisadi və siyasi baxımdan bu əlaqələrin gələcəyini necə görürsünüz" sualını belə cavablandırmışdı[14]: "Mən belə hesab edirəm ki, Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır. İndi başqa zəmanədir. Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm. Lakin demokratikləşdirmə, siyasi plüralizm yolu ilə, bazar iqtisadiyyatı yolu ilə, bütün ölkələr – həm Qərb, həm də Şərq ölkələri açıq olmaq yolu ilə getməli olan azad müstəqil dövlət kimi Azərbaycan, şübhəsiz, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı surətlə faydalı münasibətlər saxlamalıdır. O cümlədən də, əlbəttə, qonşularla. Təbii ki, Rusiya böyük ölkədir. Azərbaycanın şimal qonşusudur. Üstəlik onu da yaddan çıxarmaq olmaz ki, Rusiya və Azərbaycanı bir-biri ilə az qala iki yüz illik tarix bağlayır. Bütün bu dövr ərzində həm mədəniyyətdə, həm elmdə, həm təhsildə, həm iqtisadiyyatda, həm də adamların şəxsi həyatında mövcud olan qarşılıqlı münasibətlər mühitini, əslində, elə bu əlaqələr yaratmışdır. Belə hesab edirəm ki, Azərbaycan ilə Rusiya arasında münasibətlərin indiyədək mövcud olan səviyyəsi qənaətbəxş deyildir. Tarixi əlaqələri, qarşılıqlı iqtisadi mənafeləri, hamımızın birlikdə yaşadığı regionun mənafelərini əsas tutaraq bu səviyyəni qaldırmaq lazımdır".

Göründüyü kimi, bu açıqlamada Ümummilli lider Heydər Əliyev Rusiya ilə münasibətlərin yaxşılaşdırılmasına əhəmiyyət veriləcəyini xüsusi vurğulamış, amma sualın cavabına məhz müstəqillik vurğusu

14 Yenə orada, s.29-30

ilə başlamışdır. Konkret olaraq MDB-yə münasibətlə bağlı ilk rəsmi açıqlamanı isə Heydər Əliyev yazıçı-jurnalist Aleksandr Proxanova müsahibəsində vermişdir. Heydər Əliyev müsahibəsində bu fikirləri ifadə etmişdir: "Bizim xalq təsərrüfatının dirçəlişini mən bazar münasibətlərində görürəm. Sivilizasiyalı bazarın bütün formalarında, sahibkarlıqda, kommersiya banklarında, xarici kapitalın cəlb edilməsində, o cümlədən MDB ölkələrində toplanmış müsbət cəhətlərdə görürəm. Azərbaycan bazarının qapıları bizimlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək istəyənlərin hamısının üzünə açıqdır"[15].

Müəyyən hazırlıqlardan və ilkin məsləhətləşmələrdən (ölkədaxili və dövlətlərarası) sonra artıq 1993-cü ilin sentyabr ayının əvvəlində Azərbaycanın MDB-yə üzv olacağının işarələri ortaya çıxmışdı. 1993-cü il sentyabrın 3-də Azərbaycan Respublikasının Milli Məclisi MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü ilin sentyabrında Moskvada keçiriləcək görüşündə Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı haqqında qərar (№695) qəbul etmişdi[16]. Qərarda qeyd edilirdi ki, MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının Moskvada keçiriləcək görüşündə Prezident səlahiyyətlərini həyata keçirən Ali Sovetin Sədri Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyətinin iştirak etməsinə, danışıqlar aparmasına və zəruri sənədləri imzalamasına razılıq verilmişdi.

6-8 sentyabr 1993-cü il tarixlərində Ümummilli lider Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyətinin Rusiya Federasiyasına rəsmi səfəri baş tutmuşdu. Səfər çərçivəsində keçirilən görüşlərdə artıq Azərbaycan–Rusiya münasibətlərinin konturları müəyyənləşdirilmiş[17] və bu görüşlərin də yekunu kimi MDB-yə daxil olmaqla bağlı ümumi qərar qəbul edilmişdi.

MDB-yə üzvlüklə bağlı məsələ sentyabrın 13-də, 14-də və 20-də Azərbaycan parlamentində bir daha geniş müzakirə edilmiş və 1993-cü il sentyabrın 20-də Milli Məclis Azərbaycan Respublikasının

15 Yazıçı Aleksandr Proxanovla müsahibə. // "Azərbaycan" qəzeti, 12 avqust 1993-cü il

16 MDB iştirakçısı olan ölkələrin dövlət və hökumət başçılarının 1993-cü ilin sentyabrında Moskvada keçiriləcək görüşündə Azərbaycan Respublikası nümayəndə heyətinin iştirakı haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. /3 sentyabr 1993-cü il/ - http://www.e-qanun.az/framework/8564

17 Xarici siyasət fəaliyyətinin xronikası, 1993-cü il. /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, s.3/ -http://files.preslib.az/projects/toplu/v2/f4_1.pdf

Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında qərar (№709) qəbul etmişdi[18]. Qərarda qeyd edilir ki, Milli Məclis xalqın ali mənafelərini rəhbər tutaraq, habelə Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinin iştirakçıları olan dövlətlərlə tarixi əlaqələrini nəzərə alaraq, həmin dövlətlərlə siyasi, iqtisadi, elmi-texniki, mədəni və digər münasibətləri inkişaf etdirmək məqsədilə Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə və Müstəqil Dövlətlər Birliyinin Kollektiv Təhlükəsizlik haqqında Müqaviləsinə qoşulur.

Beləliklə, Azərbaycan sentyabrın 24-də Moskvada keçirilməsi planlaşdırılan MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etməyə və orada MDB-yə qoşulmaqla bağlı sənədləri imzalamağa hazırlaşmışdı. Ümummilli lider Heydər Əliyev Azərbaycanın MDB-yə qoşulmasının onun müstəqilliyini məhdudlaşdırmayacağını göstərmək və balanslaşdırılmış xarici siyasət kursuna sadiq qalmaq üçün iki Moskva səfəri arasındakı vaxtda (8 sentyabr ilə 23 sentyabr arasında) Almaniya, ABŞ, Bolqarıstan, Türkiyə, Böyük Britaniya və Misir nümayəndə heyətlərini, ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirini, BMT-nin nümayəndəsini qəbul etmiş, İran İslam Respublikasının Prezidenti Əli Əkbər Haşimi Rəfsəncani və Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəllə telefonla danışmışdı[19]. İctimaiyyətin dəstəyini artırmaq üçün Heydər Əliyev 1993-cü il sentyabrın 22-də parlamentdə gənclərin, 1993-cü il sentyabrın 28-də isə paytaxtın əmək kollektivlərinin nümayəndələri ilə görüşlər keçirmiş, bu görüşlərdə qeyd etmişdi ki, məsələnin ictimaiyyət arasında, konkret olaraq elm, təhsil ocaqları, alimlər, əmək kollektivləri tərəfindən geniş müzakirə edilməsi üçün imkanlar yaradılmışdır. Fərqli düşünənlər olsa da, ümumi qənaət belə olmuşdu ki, Azərbaycanın MDB-yə üzvlüyü faydalı olacaqdır.

1993-cü il sentyabrın 24-də Ümummilli lider Heydər Əliyev Kremldə Azərbaycanın MDB-yə daxil olması haqqında sənədləri imzalamış, beləliklə, MDB Dövlət Başçıları Şurasının iclasında

18 Azərbaycan Respublikasının Müstəqil Dövlətlər Birliyinə qoşulması haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. /20 sentyabr 1993-cü il/ - http://www.meclis.gov.az/?/az/topcontent/60

19 Xarici siyasət fəaliyyətinin xronikası, 1993-cü il. /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, s.4/ - http://files.preslib.az/projects/toplu/v2/f4_1.pdf

Azərbaycan Respublikasının MDB-yə daxil olmasına dair qərar qəbul olunmuşdu[20]. İclasda Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsini, İqtisadi İttifaqın yaradılması haqqında müqaviləni və digər sənədləri də imzalamışdı[21].

1993-cü il sentyabrın 29-da isə parlament Azərbaycan nümayəndə heyətinin MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı və MDB Nizamnaməsinə qoşulması ilə əlaqədar iki qərar qəbul etmişdir. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla, Azərbaycan Respublikası nümayəndə heyətinin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının 1993-cü il sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclasında iştirakının nəticələri barədə Milli Məclisin qərarında (№715) qeyd olunmuşdur ki, Heydər Əliyevin MDB sənədlərini imzalaması, səfər zamanı nümayəndə heyətinin apardığı gərgin əməli iş Azərbaycan xalqının ali mənafelərinə uyğundur və Azərbaycan Respublikasının dərin siyasi, iqtisadi və sosial böhrandan çıxmasına kömək edəcəkdir. Ulu öndər Heydər Əliyev başda olmaqla, Azərbaycan Respublikası nümayəndə heyətinin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının 1993-cü il sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclasında fəaliyyəti və bütövlükdə səfər zamanı apardığı iş bəyənilsin[22]. Həmin gün Milli Məclis Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulmasının təsdiq edilməsi haqqında qərar (№716) qəbul etmişdir[23]. Qərarda qeyd edilmişdir ki, Milli Məclis Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulmasını obyektiv zərurət hesab edərək bəyənir və bu mühüm qərarın Azərbaycan

20 Müstəqil Dövlətlər Birliyi (MDB). - http://www.mfa.gov.az/content/947

21 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı: Mütərcim, 2015, s.507

22 Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev başda olmaqla, Azərbaycan Respublikası nümayəndə heyətinin MDB üzvü olan dövlətlərin Dövlət Başçıları Şurasının 1993-cü il sentyabrın 24-də Moskva şəhərində keçirilmiş iclasında iştirakının nəticələri barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. /29 sentyabr 1993-cü il/ - http://www.meclis.gov.az/?/az/topcontent/63

23 Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə Azərbaycan Respublikasının qoşulmasının təsdiqi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı. /29 sentyabr 1993-cü il/ - http://www.e-qanun.az/framework/8585

dövlətinin müstəqilliyinin qorunmasını, xalqın rifahının yüksəldilməsini təmin edəcəyinə inanır.

Beləliklə, Azərbaycanın MDB-yə üzvlüyü prosesi yekunlaşmışdır. Amma Azərbaycanın MDB-yə üzvlüyü ilə bağlı istər ölkə daxilində, istərsə də xaricdə belə iddialar səsləndirilmişdir ki, guya MDB-yə üzvlük Azərbaycanın müstəqilliyinin itirilməsinə, ya da "Azərbaycanın köhnə sistemə" qayıtmasına səbəb olacaqdır. Ümummilli lider Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Respublika sarayındakı andiçmə mərasimində bütün bu iddiaları rədd etmişdir: "Bəzi dairələr Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar. Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və MDB-də iştirak etmək Azərbaycanın müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan müstəqil bir dövlət kimi demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcəkdir. Azərbaycanda kommunist ideologiyası, kommunist rejimi bir daha bərpa olmayacaqdır. Güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də fikri belədir. Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır"[24].

Azərbaycan–MDB münasibətlərinin hazırkı vəziyyəti

Azərbaycan MDB-yə üzv olmaqla bir neçə istiqamətdə məqsədlərinə nail olmaq istəmişdir. Bunları həm Ümummilli lider Heydər Əliyevin əvvəlcə respublika Ali Sovetinin Sədri kimi, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti kimi verdiyi bəyanatlarda, eləcə də ölkəmizin yüksəksəviyyəli rəsmilərinin açıqlamalarında və müəllifi olduqları elmi əsərlərdə görmək mümkündür. Bu məqsədlərdən biri Azərbaycanın keçmiş sovet respublikaları ilə tarixi, siyasi, mədəni, xüsusilə iqtisadi bağlarının nəzərə alınması, 70 il boyunca formalaşdırılmış mürəkkəb iqtisadi sistemin nəzərə alınaraq bunlardan bir anda imtina etmənin yaratdığı risklərin azaldılması olmuşdur.

24 Heydər Əliyev: müstəqilliyimiz əbədidir (Birinci kitab, iyun 1993 – may 1994). /Buraxılışa məsul: Ramiz Mehdiyev, Hidayət Orucov/. Bakı: Azərnəşr, 1997, s.207

Təbii ki, Rusiya ilə münasibətlərin qaydaya salınması, Azərbaycanın yaşadığı vətəndaş müharibəsi təhlükəsinin və getdikcə güclənən müxtəlif istiqamətli separatizm meyillərinin ortadan qaldırılması da əsas məqsədlər arasında yer almışdı. Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun fikrincə, Azərbaycan–Rusiya münasibətlərindəki problemlər məhz Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə tam həllini tapmışdır: "İnamla demək olar ki, Ulu öndərin təcrübəsi və siyasi uzaqgörənliyi Rusiyanın rəhbərlərini Azərbaycana qarşı sağlam mövqe tutmağa istiqamətləndirirdi. 1993-cü ilin sentyabrında Azərbaycan Prezidenti Moskvada Rusiya Prezidenti Boris Yeltsinlə görüşüb əməkdaşlıq məsələlərini müzakirə etdi. Elə həmin ay Azərbaycan MDB-yə daxil oldu. MDB məsələsi Rusiya üçün mühüm əhəmiyyət kəsb edir. Bu, faktiki olaraq, Rusiyanın böyük bir geosiyasi məkanda aparıcı rolunu qəbul etmək deməkdir. Rusiya MDB məsələsinə həm də yeni bir inteqrasiyanın başlanğıcı kimi baxırdı. Bu səbəblərdən Azərbaycanın MDB-yə daxil olması xarici siyasətdə ciddi strateji addım oldu. Lakin Azərbaycan–Rusiya münasibətlərini tam real xəttə çıxarmaq üçün hələ çox çalışmaq lazım idi"[25].

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov da Azərbaycanın MDB-yə qoşulmaqda əsas məqsədinin Rusiya ilə münasibətlərin normallaşdırılması olduğunu qeyd etmişdir[26]: "Həmin dövrdə Azərbaycanın beynəlxalq və regional təhlükəsizlik siyasətinin formalaşdırılması, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin milli, hərbi, ərazi və geosiyasi təhlükəsizliyinin təmin edilməsi ilk növbədə Rusiyadan, onun rəhbərliyi altında fəaliyyət göstərən Müstəqil Dövlətlər Birliyi ilə qarşılıqlı əlaqələrdən keçirdi. Odur ki, postsovet regionunda yaşanan iqtisadi, siyasi, hərbi, təhlükəsizlik və s. proseslərin içində olmaq; keçmişdə Azərbaycanla bir məkanda və sistemdə yaşamış ölkələrlə yaranmış gərgin dövlətlərarası münasibətləri

25 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.111

26 Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi LTD, 2016, s.447-448

yumşaltmaq və tərəfdaşlıq əlaqələri qurmaq; Rusiyanın Ermənistana intensiv hərbi-texniki yardımını dayandırmaq və onun Cənubi Qafqaz ölkələrinin hərbi təhlükəsizlik məsələlərinə yanaşmasında müəyyən tarazlığa nail olmaq; MDB və Cənubi Qafqazdakı hərbi-geostrateji münasibətlərdə Azərbaycanın xeyrinə olmayan mənfi prosesləri aradan qaldırmaq və s. məqsədlə 1993-cü ilin sentyabrında Prezident Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinə və Rusiyanın yaratdığı regional təhlükəsizlik sisteminə – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qoşulmaq haqqında qərar qəbul etdi".

Şübhəsiz ki, Ermənistanın işğalçılıq siyasətinin və bu siyasətə dəstəyin dayandırılmasına nail olmaq da əsas məqsədlərdən biri olmuşdur. Bundan başqa, Azərbaycan MDB platformasını həm Dağlıq Qarabağ problemi, həm də digər məsələlərlə bağlı öz mövqeyini ifadə edə biləcəyi əlavə bir platforma kimi qiymətləndirmişdir. Heydər Əliyev 1993-cü il oktyabrın 28-də Azərbaycan və İran prezidentləri arasında danışıqların yekunlarına həsr olunmuş birgə mətbuat konfransında jurnalistin bu mövzu ilə bağlı sualını cavablandırarkən qeyd etmişdir ki, Ermənistan silahlı qüvvələrinin ərazimizə təcavüzü ilə əlaqədar son vaxtlar Rusiya Xarici İşlər Nazirliyinin vasitəçiliyi ilə bir sıra danışıqlar aparılır və Müstəqil Dövlətlər Birliyinin üzvü olan başqa dövlətlər hələlik bu məsələyə qarışmır[27].

1993-cü il dekabrın 24-də isə Ümummilli lider Heydər Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında xüsusi bəyanat vermişdir. Bəyanatda Ermənistanın Azərbaycana qarşı təxminən 6 il davam edən təcavüzünün ağır nəticələri, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı, dinc əhalinin kütləvi surətdə qırılması, işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasətinin aparılması, dağıntıların törədilməsi, 1 milyonadək azərbaycanlının ev-eşiyini itirməsi faktı qeyd edilmiş və MDB-nin Ermənistanın işğalçı fəaliyyətini dayandırmasında öz təsir imkanlarından istifadə etmədiyi xüsusi qeyd olunmuşdur: "Böyük təəssüf hissi ilə qeyd etmək lazım gəlir ki, 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Müstəqil Dövlətlər

27 Heydər Əliyev: müstəqilliyimiz əbədidir (Birinci kitab, iyun 1993 – may 1994). /Buraxılışa məsul: Ramiz Mehdiyev, Hidayət Orucov/. Bakı: Azərnəşr, 1997, s.225

Birliyinin tamhüquqlu üzvü olduqdan və Kollektiv Təhlükəsizlik haqqında Müqaviləyə qoşulduqdan sonra Ermənistan Respublikası öz təcavüzünü nəinki dayandırmamış, əksinə, hərbi əməliyyatlar daha geniş miqyas almışdır... 300 mindən çox əhalinin yaşadığı rayonların 1993-cü ilin oktyabrında işğal edilməsini Azərbaycan xalqı həm də ona görə çox ağır qarşılamışdır ki, bu hadisə Azərbaycan MDB-yə daxil olduqdan və Kollektiv Təhlükəsizlik haqqında Müqaviləyə qoşulduqdan sonra baş vermişdir. Deməli, Ermənistan Respublikası təkcə Azərbaycan Respublikasına qarşı təcavüz etmir, həm də indi bizim birliyimizi birləşdirən prinsiplərə tam saymazlıq nümayiş etdirir. MDB-nin üzvü və Kollektiv Təhlükəsizlik haqqında Müqavilənin iştirakçısı olan Ermənistan Respublikasının başqa dövlətə, birliyin onun kimi tamhüquqlu üzvü olan dövlətə – Azərbaycan Respublikasına qarşı təcavüz etməsi yolverilməzdir...".

Heydər Əliyev bəyanatında başda Rusiya olmaqla, MDB-yə üzv dövlətlərə xüsusi mesaj vermiş, müharibənin və işğalın davam etməsinin bütün MDB məkanını və onun vahidliyini risk qarşısında qoyacağını vurğulamış, MDB dövlətlərini bir-birinin suverenliyini və ərazi bütövlüyünü tanımağa və bunlara hörmət etməyə dəvət etmiş, birinci mərhələ kimi sərhədlərin qarşılıqlı surətdə tanınması haqqında regional sazişlərin bağlanmasının zəruriliyini vurğulamışdı. Bəyanatda digər üzv dövlətlərə müraciət edilmişdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünə siyasi qiymət versinlər, Ermənistandan Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatları dayandırmağı qətiyyətlə tələb etsinlər, silahlı qüvvələrinin bütün bölmələrini Azərbaycan ərazisindən dərhal çıxarmağa və hərbi əməliyyatlara yenidən başlamamağa möhkəm siyasi təminat verməyi tələb etsinlər. Heydər Əliyev həmçinin maddi zərərin müəyyənləşdirilməsi və işğalçıların Azərbaycan ərazisində törətdikləri cinayətkar əməllərə qiymət verilməsi üçün MDB üzvü olan dövlətlərin nümayəndələrindən ibarət xüsusi komissiyanın yaradılmasının vacibliyini qeyd etmişdi. O bildirmişdi ki, bu təkliflər əməli surətdə həyata keçirilmədən sülh bərqərar olmayacaq, qarşılıqlı surətlə faydalı iqtisadi əməkdaşlıq üçün şərait yaranmayacaq, bunsuz isə nə tərəqqi, nə demokratiya, nə də hətta bizim birliyimizin yaşaması

mümkündür[28]. MDB-nin Qarabağ probleminə dair laqeydliyinə Azərbaycanın münasibətini Ümummilli lider Heydər Əliyevin 1994-cü il yanvarın 6-da Zaqafqaziyadakı Rusiya qoşunlarının komandanı general-polkovnik Fyodor Reutla görüşdəki çıxışında, 1994-cü il aprelin 12-də Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar respublika milli televiziya və radiosu ilə xalqa müraciətində, 1994-cü il aprelin 15-də MDB Dövlət Başçıları Şurasının iclasında Ermənistan silahli qüvvələrinin Azərbaycan ərazisində genişmiqyasli hüçumları ilə əlaqədar verdiyi bəyanatında görmək müküdür.

MDB-nin Qarabağ problemi ilə əlaqədar rolunu atəşkəsin əldə olunmasında görmək mümkün olmuşdur. Belə ki, məhz MDB Parlament Assambleyasının iştirakı ilə (şübhəsiz ki, prosesdə əsas rol Rusiyaya aid olmuşdur) 1994-cü ilin mayında Bişkek protokolu imzalanmışdı[29]. Yeri gəlmişkən, Azərbaycan MDB-nin Parlamentlərarası Assambleyasına 1993-cü ildə üzv olmuş, 1995-ci ildə isə Azərbaycan, Ermənistan, Belarus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Rusiya və Tacikistan tərəfindən Parlamentlərarası Assambleya haqqında Konvensiya imzalanmışdır. Lakin ümumilikdə Qarabağ problemi ilə bağlı MDB-nin və xüsusən Rusiyanın mövqeyi qaneedici olmadığı üçün Azərbaycan MDB-nin müxtəlif qurumlarındakı fəaliyyətini məhdudlaşdırmışdı. Məsələn, 1992-ci ilin mayında Daşkənddə MDB-yə üzv olan 6 ölkənin (Rusiya, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın) iştirakı ilə üzv ölkələrin təhlükəsizliyini təmin etmək məqsədilə kollektiv hərbi qurum kimi yaradılmış Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) Azərbaycan 1993-cü il sentyabrın 24-də müşahidəçi qismində qoşulmuşdu. Bir qədər sonra KTMT-nin prinsipləri, məramı və şərtləri Azərbaycanı qane etmədiyindən bu təşkilatla əməkdaşlıqdan imtina etmiş, 1999-cu ildən isə qurumda müşahidəçi qismində iştirakını da dayandırmışdır. Azərbaycanın KTMT-yə qoşulması istiqamətində təşəbbüslər davam etsə də, rəsmi Bakının mövqeyi belə idi ki, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə və ölkənin ərazi bütövlüyü bərpa olunmayana qədər özünün

28 Yenə orada, s.297-299

29 Azərbaycan tarixi, 7 cilddə, VII cild (1941-2002-ci illər) / Məsul redaktor: Tahir Qaffarov/. Bakı: Elm, 2008, s.271-272

regional təhlükəsizlik məsələləri ilə bağlı mövqeyində hər hansı bir dəyişiklik etməyə, hansısa hərbi bloka qoşulmağa cəhd etməyəcək, buna heç bir əsas da yoxdur və Azərbaycan KTMT-yə qoşulmaqdan imtina edir[30]. Azərbaycan Qarabağ problemindəki mövqeyinə görə atəşkəs dövründə MDB qoşunlarının sülhməramlı məqsədlə öz ərazilərində yerləşdirilməsinə razılıq verməmiş, eləcə də 1999-cu ilin dekabrında Bakıda səfərdə olan MDB-nin Baş katibi Yuri Yarovun Qarabağ probleminin həlli prosesinə MDB-nin xüsusi vasitəçi kimi qoşulması təklifini rədd etmişdi[31]. Ümumilikdə isə Heydər Əliyevin hakimiyyətinin sonuna (2003-cü il) qədər Azərbaycan MDB çərçivəsində inteqrasiyanın dərinləşməsinə və MDB-nin dövlətlərüstü quruma çevrilməsinə qarşı çıxmışdır.

Heydər Əliyev MDB dövlət başçılarının 1997-ci, 1998-ci və 1999-cu illərdəki zirvə görüşlərində Rusiyanın Ermənistana hərbi yardımlar etməsi məsələsini dəfələrlə qaldırmışdır. Bu məsələ Azərbaycan rəsmilərinin Rusiya rəsmiləri ilə görüşlərində də müzakirə edilmişdir[32].

2003-cü ilin oktyabrında İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra andiçmə mərasimində Heydər Əliyevin siyasi kursuna sadiq qalacağını elan etmişdir[33]. Bu kursa, heç şübhəsiz, ümumi olaraq xarici siyasət, xüsusilə də region ölkələri ilə bağlı siyasət də daxil idi. Əslində, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə Azərbaycanı ilk dəfə 2003-cü il sentyabrın 19-da (Yaltada) Azərbaycan Respublikasının Baş naziri kimi təmsil etmişdir[34].

İlham Əliyev MDB çərçivəsində vahid iqtisadi məkan və KTMT ilə

30 Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi LTD, 2016, s.295-297

31 Cafersoy N. Bağımsızlığın 10. Yılında Azerbaycan-Rusya İlişkileri. // Avrasya Dosyası, Azerbaycan Özel, Cilt 7, Sayı 1, İlkbahar 2001, s.315

32 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II Hissə. Bakı: Mütərcim, 2015, s.511-514

33 Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi. /Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları, 2003-cü il, s.2-4/ -http://files.preslib.az/site/ialiyev/2003.pdf

34 MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşü: Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev görüşdə iştirak etmişdir /20 sentyabr 2003-cü il/ - http://azertag.az/xeber/MDB_NIN_UZVU_OLAN_OLKALARIN_DOVLAT_BASCHILARININ_ZIRVA_GORUSUAZARBAYCAN_RESPUBLIKASININ_BAS_NAZIRI_ILHAM_ALIYEV_GORUSDA_ISTIRAK_ETMISDIR_DOVLAT_BASCHILARININ_QAPALI_ICLASI-296467

bağlı mövqeyini 2004-cü il martın 2-də Qazaxıstana səfəri zamanı açıq şəkildə nümayiş etdirmişdir. O qeyd etmişdir ki, Sovet İttifaqı dağıldıqdan sonra MDB ölkələri ağır vəziyyətdən təkbaşına çıxmışdır. Hərə bacardığı kimi çıxmışdır, birinin uğuru çox, digərinin az olub, lakin bütövlükdə ölkələrin əksəriyyətində müstəqilliyin və iqtisadi potensialın təşəkkül tapması və möhkəmlənməsi prosesi artıq başa çatmışdır. Prezident İlham Əliyev Qazaxıstanın vahid iqtisadi məkanla bağlı təşəbbüslərinin Azərbaycan tərəfindən öyrənildiyini deyərək, əslində, yumşaq formada da olsa məsələyə isti yanaşmadığını vurğulamışdır. KTMT-də iştirakla bağlı olaraq isə Prezident İlham Əliyev bunun mümkünlüyünün müzakirə olunmadığını və bu mövzuda danışıqların aparılmadığını qeyd etmişdir: "Ümumiyyətlə, heç bir yenilik yoxdur və əlavə heç nə deyə bilmərəm. Siz bilirsiniz ki, Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır və ərazilərimizin bir hissəsi – 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir. Əlbəttə, Ermənistanın və Azərbaycanın bir müdafiə sazişində və təşkilatında olması yolverilməzdir. Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvüdür, Azərbaycan isə yox. Bu münaqişə həll olunmayınca və erməni işğalçı qoşunları bizim əraziləri tərk etməyincə, təbiidir ki, biz Ermənistanla müdafiə xarakterli bir təşkilatda, sadəcə, ola bilmərik. Odur ki, bu mövzuda danışmaq hələlik tezdir"[35].

Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü il iyulun 12-də Prezident sarayında MDB-nin icraçı katibi Vladimir Ruşaylonu qəbul etmişdir. Görüşdə MDB çərçivəsində əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur. 2004-cü il sentyabrın 16-da isə Prezident İlham Əliyev MDB üzvü olan ölkələrin dövlət başçılarının 38-ci zirvə görüşündə iştirak etmişdir. Görüşdə dövlət başçılarının beynəlxalq terrorizmlə mübarizə haqqında bəyanatı, MDB, ATƏT və BMT çərçivəsində qəbul olunmuş sənədlər baxımından müasir mərhələdə beynəlxalq terrorizmə, habelə təhlükəsizlik və sabitliyə olan digər təhdidlərə qarşı dayanmaqda birlik ölkələrinin əməkdaşlığının daha da inkişaf etdirilməsi, MDB-nin təkmilləşdirilməsi və islahatlar aparılması

35 Astanada Qazaxıstanın "Xəbər" informasiya agentliyinə müsahibə. /Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları, 2004-cü il, s.73-74/ - http://files.preslib.az/site/ialiyev/2004.pdf

barədə sənədlər imzalanmışdır[36]. Növbəti illərdə də Azərbaycan MDB-nin Dövlət Başçıları Şurasının, eləcə də digər orqanların iclaslarında təmsil olunmuş, balanslaşdırılmış xarici siyasət kursuna uyğun və müstəqilliyimizin məhdudlaşdırılmasına imkan verməyən sənədlərə imza atmışdır. Məsələn, MDB-nin gələcək inkişaf konsepsiyasına dair Dövlət Başçıları Şurasının 5 oktyabr 2007-ci il tarixli qərarı ölkəmiz tərəfindən xüsusi rəylə imzalanmışdır. Bu xüsusi rəydə Azərbaycan Respublikasının MDB çərçivəsində fəaliyyətinin əsas prinsipləri öz əksini tapmışdır[37]. MDB Dövlət Başçıları Şurasının 2011-ci il oktyabrın 18-də Sankt-Peterburqda keçirilən iclasında MDB azad ticarət zonası ilə bağlı müqavilə imzalansa da, Özbəkistan və Türkmənistanla yanaşı, Azərbaycan da bu müqaviləni imzalamamışdır[38].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il oktyabrın 9-da Kişinyovda MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. Tədbir çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü də keçirilmişdir. Qeyd edək ki, istər Heydər Əliyevin, istərsə də İlham Əliyevin prezidentliyi illərində Azərbaycan və Ermənistan prezidentləri arasında ən çox görüş məhz MDB çərçivəsində baş tutmuşdur. Bu görüşlər əsasən nəticəsiz qalsa da, bəzi hallarda əldə olunan razılıqlar daha sonra Ermənistan tərəfindən pozulduğu üçün Qarabağ probleminin həlli prosesində irəliləyiş olmamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il oktyabrın 16-da MDB Dövlət Başçıları Şurasının iclasında iştirak və çıxış etmişdir. O, çıxışında Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin bir parçası kimi oynadığı əhəmiyyətli rola toxunmuş, digər MDB dövlətlərini layihələrə qoşulmağa dəvət etmişdir: "Bu, müxtəlif formada ola bilər – iştirak, sərmayə qoyuluşu, yüklərin təminatı ilə bağlı məsələlər"[39]. İlham Əliyev tərəfdaş dövlətləri regional təhlükəsizlik və terrorçuluqla mübarizədə əməkdaşlığa da dəvət etmişdir.

36 Azərbaycan–Müstəqil Dövlətlər Birliyinə dair ümumi tarixi arayış. - http://lib.aliyevheritage.org/az/8089440.html

37 Müstəqil Dövlətlər Birliyi (MDB). - http://www.mfa.gov.az/content/947

38 Azərbaycan MDB azad ticarət zonasına qoşulsa... /19.10.2011/ - http://www.azadliq.org/a/24364833.html

39 İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Qazaxıstanda keçirilən iclasında iştirak edib. /16 oktyabr 2015-ci il/ - http://www.president.az/articles/16408

MDB ilə bağlı gözləntilərin tam reallaşmamasına baxmayaraq, yenə də Azərbaycan MDB çərçivəsində fəallığını davam etdirməyi məqsədəuyğun hesab edir. Azərbaycanın bu quruma daxil olması bütün məqsədlərə çatmağa gətirib çıxarmasa da, Ermənistanın müəyyən planlarının qarşısını almaq baxımından əhəmiyyətli olmuşdur. Çünki Azərbaycanın razılığı olmadan MDB heç bir ciddi sənəd qəbul edə bilməmişdir. Azərbaycan MDB-nin bir çox sənədlərinə Ermənistan amilini nəzərə alaraq veto qoya bilmişdir. Novruz Məmmədovun fikrincə, xüsusilə təhlükəsizlik sisteminin yaradılması məsələsində ölkəmizin müstəqil mövqe nümayiş etdirməsi ermənilərin qərəzli siyasi niyyətlərini cilovlamağa imkan verir[40].

İlham Əliyevin prezidentliyi dövründə də Azərbaycan MDB çərçivəsində inteqrasiyanın respublikaların müstəqilliyini məhdudlaşdıra biləcək şəkildə getməsinə mane olmuş, mane ola bilmədiyi proseslərdən isə kənarda qalmışdır. Hazırda MDB-də 8 nizamnamə, 69 sahəvi əməkdaşlıq orqanı və 15 digər qurumlar olmaqla, ümumilikdə 90-dan çox təşkilat fəaliyyət göstərir. Nizamnamə orqanları Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, İqtisadi Məhkəmə, Parlamentlərarası Assambleya, İcraiyyə Komitəsi, Müdafiə Nazirləri Şurası və Sərhəd Qoşunları Komandanları Şurasıdır. Azərbaycanın təmsil olunduğu nizamnamə orqanları Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Parlamentlərarası Assambleya, Müdafiə Nazirləri Şurası və İcraiyyə Komitəsidir. Azərbaycan ümumilikdə MDB-nin sahəvi əməkdaşlıq orqanlarından yalnız 30-da, digər orqanların isə 11-də iştirak edir[41].

Azərbaycanın xarici ticarətində MDB ölkələri əhəmiyyətli yer tutur. Bunda Azərbaycanla MDB ölkələri arasında vizasız gediş-gəlişin və güzəştli gömrük tariflərinin tətbiqinin rolu böyükdür. Əvvəllər Azərbaycanın əsas ticarət tərəfdaşlarını MDB ölkələri təşkil edirdisə, indi bu nisbət Avropa İttifaqı ölkələrinin xeyrinə dəyişmişdir. MDB ölkələri arasında Azərbaycanla ən cox ticarət dövriyyəsinə malik olan ölkə Rusiya Federasiyasıdır. Digər MDB ölkələri ilə müqayisədə

40 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.104
41 Müstəqil Dövlətlər Birliyi (MDB). - http://www.mfa.gov.az/content/947

Cədvəl 1. Azərbaycanın ümumi xarici ticarətində MDB ölkələrinin payı

Ölkələr	2005	2006	2007	2008	2009	2010	2011	2012	2013	2014	2015
Cəmi	8 558 373,6	11 638 908,7	11 771 747,6	54 926 021,1	20 824 469,3	27 960 821,8	36 326 867,0	33 560 854,4	34 687 919,3	31 016 306,5	20 645 880,1
Müstəqil Dövlətlər Birliyi - Cəmi	2 100 983,5	2 693 408,4	2 598 320,5	3 417 803,0	2 964 573,1	4 034 980,5	5 477 900,0	3 630 005,0	4 062 880,9	2 921 244,1	2 486 450,6
o cümlədən:											
Belarus	19 294,0	22 160,4	79 290,3	94 968,9	141 928,0	119 760,4	731 310,8	79 719,4	102 031,4	99 032,7	93 674,6
Qazaxıstan	112 511,2	232 908,0	349 888,5	490 300,6	205 771,8	338 144,3	275 589,3	393 427,4	370 997,6	250 895,6	116 883,4
Qırğızıstan	3 367,7	7 507,0	3 622,3	4 927,6	5 310,1	41 547,7	22 074,7	28 917,6	14 528,0	27 502,9	8 165,2
Moldova	2 907,3	5 007,4	9 909,7	6 436,2	6 656,1	6 102,1	8 119,5	9 037,6	4 205,7	5 501,4	4 007,8
Özbəkistan	102 645,2	34 347,4	23 586,2	29 893,1	18 135,1	32 634,1	72 436,8	19 550,8	21 447,9	61 512,2	17 041,4
Rusiya	1 002 638,7	1 525 843,5	1 531 305,0	1 933 258,0	1 818 498,5	1 918 560,5	2 828 452,0	2 338 254,6	2 583 022,8	1 954 751,7	1 854 672,1
Tacikistan	79 044,7	131 186,7	52 079,3	46 102,4	8 837,1	9 437,2	15 985,6	44 149,7	13 805,9	2 824,7	6 443,8
Türkmənistan	516 529,4	378 532,1	53 893,5	72 561,4	63 649,8	214 596,4	56 835,2	91 629,8	88 152,4	51 201,2	52 433,9
Ukrayna	262 045,3	355 915,9	494 745,7	739 354,8	695 786,6	1 354 197,8	1 467 096,1	625 318,1	864 689,2	468 021,7	333 128,4

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*

Rusiyanın daha böyük üstünlüyə malik olmasının səbəbi bu ölkənin Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün böyük bazara sahib olmasıdır. Azərbaycanla Rusiya arasında keçmişdə mövcud olmuş iqtisadi-ticari əlaqələr və Rusiyada çox sayda azərbaycanlının yaşaması da bu dövriyyənin artmasında başlıca rol oynayır[42].

Azərbaycan MDB respublikaları ilə əməkdaşlığın ikitərəfli əsasda davam etdirilməsinə üstünlük verir, lakin eyni zamanda MDB-nin iştirakçı dövlətlər arasında dialoq müstəvisi kimi saxlanılmasında maraqlıdır. Göründüyü kimi, Azərbaycan hazırda MDB-ni xüsusi bir inteqrasiya modeli kimi deyil, "dialoq müstəvisi" kimi xarakterizə edir. Təsadüfi deyildir ki, Azərbaycan MDB çərçivəsindəki son inteqrasiya (hərbi-təhlükəsizlik, iqtisadi və s. xarakterli) proseslərindən mümkün qədər kənarda qalmağa çalışmışdır.

Nəticə

MDB ilə münasibətlər Azərbaycanın ümumi xarici siyasətinin, həmçinin xarici ölkələr və beynəlxalq təşkilatlarla, konkret olaraq keçmiş sovet respublikaları, o cümlədən Rusiya ilə münasibətlərinin, regional təhlükəsizlik, ərazi bütövlüyünü qoruma və müəyyən xarici təzyiqləri azaltma siyasətinin bir parçası kimi əhəmiyyət daşımışdır. Xüsusilə Ümummilli lider Heydər Əliyev iqtidarı zamanında Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin bir parçası kimi MDB-yə daxil olmaq və KTMT-də iştirak əhəmiyyətli olmuşdur. Lakin MDB-dən və KTMT-dən həyati məsələlər üzrə lazımi dəstək alınmadığı zaman Azərbaycan MDB-də iştirakını məhdudlaşdırmış, KTMT-də iştirakını dayandırmış, müxtəlif inteqrasiya modellərinə mümkün qədər qarşı çıxmışdır.

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə formalaşdırılan balanslaşdırılmış xarici siyasət kursu və bu çərçivədə MDB ilə münasibətlər əsasən İlham Əliyevin prezidentliyi dövründə də davam etdirilmişdir. Məhz bu siyasət nəticəsində Azərbaycan keçmiş sovet regionunda yeganə ölkədir ki, ciddi problemlər yaşamadan

42 Xarici ticarət dövriyyəsi. - http://www.azerbaijans.com/content_1679_az.html

Rusiyanın israr etdiyi yeni inteqrasiya modellərindən kənarda qalmağı bacarmışdır. Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin və bu çərçivədə MDB-də iştirakının mühüm nəticələrindən biri də Ermənistan–Azərbaycan cəbhə xəttində 2016-cı ilin aprel ayının əvvəlində baş verən hadisələr zamanı KTMT-nin neytrallığının təmin edilməsi olmuşdur. Qeyd edək ki, bu məqam Ermənistan tərəfindən narazılıqla qarşılanmış və Ermənistan daxilində mübahisələrə səbəb olmuşdur.

Yekun olaraq qeyd etmək mümkündür ki, Azərbaycan MDB-yə əhəmiyyətli, lakin həyati olmayan regional təşkilat kimi yanaşır, öz prioritetlərini bu təşkilat çərçivəsində də qoruya bilir, müstəqilliyi məhdudlaşdıra biləcək proseslərdən uzaq durur, müəyyən məqamlarda konkret mövqe nümayiş etdirərək proseslərə etiraz edir. MDB Azərbaycan üçün ən vacib məsələ olan Ermənistanın işğalçılıq siyasətinin gündəmə gətirilməsi və işğalın nəticələrinin ortadan qaldırılması məqsədilə səylərin göstərilməsi platformasıdır. MDB Azərbaycan üçün çoxşaxəli və balanslaşdırılmış xarici siyasətin vacib istiqamətlərindən (alternativlərdən) biri rolunu oynayır.

Azərbaycan–İslam Əməkdaşlıq Təşkilatı münasibətləri

*Kamal Qasımov**

Giriş

Bu araşdırma Azərbaycan Respublikası ilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında əlaqələrin xüsusiyyətlərini, İƏT-in Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində mövqeyini və rolunu öyrənmək, Azərbaycan Respublikasının İƏT-lə bağlı siyasətini təhlil etmək məqsədi güdür. Eyni zamanda bu araşdırmada Cənubi Qafqaz regionunda islam ölkəsi olan Azərbaycanın cəlb edildiyi münaqişənin nizamlanmasında İƏT-in siyasəti müfəssəl şəkildə nəzərdən keçirilir.

İƏT-in fəaliyyətini araşdırarkən bu təşkilatın müxtəlif ölkələrdən, xüsusilə islam dünyasından olan tədqiqatçıların müxtəlif səpkili tənqidlərinə məruz qaldığının şahidi olduq. Bu tənqidlərdə əsasən deyilir ki, İƏT yaradılarkən qarşısına qoyduğu hədəflərin həyata keçirilməsində uğur qazanmayıb. Lakin Azərbaycanın nöqteyi-nəzərindən baxdıqda görürük ki, bu, əslində, birtərəfli tənqidi yanaşmadır. İƏT-lə əməkdaşlıq üzv dövlətlərə müəyyən hallarda böyük siyasi, iqtisadi və mədəni dividendlər gətirə bilər. İƏT-in fəaliyyəti, Azərbaycanın başlıca siyasi probleminə – Dağlıq Qarabağ münaqişəsinə münasibətdə onun mövqeyi və qəbul etdiyi qətnamələr yuxarıdakı fikrimizi sübut edir.

İƏT-in Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə münasibəti

Azərbaycan Respublikası 1991-ci il dekabrın 8-də İƏT-in Dakarda keçirilən dövlət və hökumət başçılarının 5-ci zirvə görüşündə üzv

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin məsləhətçi-eksperti*

kimi təşkilata qəbul olunmuşdur. Azərbaycan keçmiş Sovet İttifaqı respublikaları arasından İƏT-ə üzv seçilmiş ilk dövlətdir. İƏT Azərbaycanın üzv seçildiyi ilk böyük beynəlxalq təşkilatlardan biridir[1]. Qeyd edilməlidir ki, İslam Əməkdaşlıq Təşkilatına (o zaman İslam Konfransı Təşkilatı adlanırdı)[2] üzv seçilmək Azərbaycana aşağıdakı mühüm imkanları yaratdı:

1. Ərəb və islam dünyası ilə əlaqələrin gücləndirilməsi, islam dünyasının müxtəlif siyasi, iqtisadi və mədəni layihələrində iştirak imkanının, Azərbaycanı bu ölkələrdə tanıtmaq fürsətinin əldə edilməsi.

2. Bundan əlavə, qeyd edilməlidir ki, müstəqilliyin ilk illərindən etibarən islam dini azərbaycanlıların ümumi həyatlarına qayıtmağa başladı. Həmçinin hökumət islam dini, onun təsisatları, məzhəbi, ictimai hərəkatları ilə bağlı siyasətini formalaşdırmağa, məscidlər və mədrəsələr inşa etməyə, müxtəlif universitetlərdə islam araşdırmaları fakültələri təsis etməyə başladı. İslam dünyası ilə yaxınlaşma siyasətinə məhz Ümummilli lider Heydər Əliyev xüsusi diqqət yetirirdi. O, dəfələrlə bəyan etmişdir ki, Azərbaycan islam dünyasının ayrılmaz parçasıdır. Bundan əlavə, azərbaycanlı kimliyinin ayrılmaz hissələrindən biri olan islam dini dünyagörüşü Sovet İttifaqının ateizm ideologiyasının süqutundan sonra dirçəlməyə başladı. İƏT-ə üzvlük Azərbaycanın islam dünyası istiqamətində siyasətinin gücləndirilməsi üçün ciddi addım idi. Aydındır ki, əhalisinin 98 faizini müsəlmanlar təşkil edən ölkə ən böyük beynəlxalq islam təşkilatının üzvlüyünə daxil olmağı nəzərdən qaçıra bilməzdi.

3. Azərbaycan Respublikasının İƏT-ə qoşulması digər mötəbər beynəlxalq təşkilatları da Dağlıq Qarabağ probleminin nizamlanması prosesinə cəlb etmək imkanı yaradırdı. Qeyd edək ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın İƏT ilə əməkdaşlığının əsas istiqamətidir.

1991-ci ildə Azərbaycan hökumətinin müraciətinə cavab olaraq İƏT-in Baş katibi dr. Həmid əl-Ğabid öz müavininin rəhbərlik etdiyi

1 Azərbaycan–İƏT əlaqələri / "Heydər Əliyev irsi" Beynəlxalq elektron kitabxana/ - http://lib.aliyev-heritage.org/ar/6958380.html

2 Təşkilatın adı – İslam Konfransı Təşkilatı İƏT-in Qazaxıstanın paytaxtı Astanada 2011-ci il iyunun 28-də keçirilən Xarici işlər nazirlərinin 38-ci sessiyası zamanı dəyişdirilərək İslam Əməkdaşlıq Təşkilatı adlandırılıb

nümayəndə heyətini Azərbaycandakı ictimai-siyasi durum və Dağlıq Qarabağdakı vəziyyət barədə ətraflı məlumat əldə etmək üçün regiona göndərdi[3]. Səfər ərzində təşkilatın nümayəndə heyəti BMT-nin, Türkiyə, Rusiya və Ermənistanın nümayəndələri ilə görüşlər keçirdi. Lazımi məlumatlar toplandıqdan sonra nümayəndə heyəti münaqişənin sülh yolu ilə həllinə nail olunması imkanlarını araşdırdı[4]. Bu səfərdən sonra Azərbaycan hökuməti İƏT-lə əlaqələrini gücləndirməkdə davam etdi və Dağlıq Qarabağ probleminin nizamlanması prosesində təşkilatın sıx və davamlı iştirakına nail oldu.

İƏT-in Dağlıq Qarabağ münaqişəsini araşdırması 1993-cü il aprel ayının 25-29-da Kəraçi şəhərində keçirilmiş İƏT xarici işlər nazirlərinin 21-ci konfransında Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı qətnamənin qəbul edilməsinə gətirib çıxardı. Bu qətnamə bir neçə məsələyə görə Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir: birincisi, İƏT Ermənistanın Azərbaycana qarşı təcavüzünü pislədi; ikincisi, qətnamələrində Ermənistanı işğalçı dövlət kimi xarakterizə etdi; üçüncüsü, BMT-ni Ermənistana sanksiyalar tətbiq etməyə çağırdı, Ermənistan silahlı qüvvələrinin bütün işğal olunmuş torpaqlardan təcili və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. "Ermənistanla Azərbaycan arasında münaqişə haqqında" qətnamənin mətnində deyilir ki, Ermənistanın təcavüzkar siyasəti ATƏT çərçivəsində sülh prosesinə əngəl törədir. Ermənistanın Dağlıq Qarabağın azərbaycanlı sakinlərinə qarşı hərəkətləri "insanlığa qarşı cinayətdir". Həmçinin qətnamə Ermənistanı, Azərbaycanı və Minsk Qrupuna üzv dövlətləri ATƏT-in rəhbərliyi ilə aparılan sülh prosesinə konstruktiv şəkildə qoşulmağa, problemin sülh yolu ilə həllinin əldə edilməsini daha da çətinləşdirə biləcək hər hansı bir fəaliyyətdən imtina etməyə səslədi. Sonda İƏT münaqişənin "dövlətlərin ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət prinsipləri əsasında" sülh yolu ilə həllinə çağırdı[5] .

3 Azərbaycan–İƏT münasibətləri / "Heydər Əliyev irsi" Beynəlxalq elektron kitabxana/ - http://lib.aliyev-heritage.org/az/6958380.html

4 Исламский мир выступает за неделимый Азербайджан. // "Коммерсантъ", 17.11.1992. - http://www.kommersant.ru/doc/30142

5 Xarici işlər nazirlərinin 21-ci konfransının yekun bəyanatı. - http://www.oic-oci.org/arabic/conf/fm/21/21th-final-a.htm

Bir ildən sonra, 1994-cü ilin dekabrında Kasablanka şəhərində İƏT-ə üzv ölkələrin dövlət və hökumət başçılarının 7-ci zirvə görüşündə Dağlıq Qarabağ problemi ilə bağlı mühüm qətnamə qəbul edildi. Qətnamədə Ermənistanın təcavüzü nəticəsində didərgin düşmüş bir milyon nəfərə yaxın vətəndaşının məskunlaşdığı Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsinə çağırılır. Həmçinin qətnamə BMT-nin qəbul etdiyi 4 qətnamənin yerinə yetirilməsinə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından "dərhal və qeyd-şərtsiz" çıxarılmasına çağırır [6]. Qeyd edilməlidir ki, qətnamələrdən başqa, Kasablanka zirvə görüşü Azərbaycan üçün həm də ona görə mühüm əhəmiyyət daşımışdır ki, Prezident Heydər Əliyev çıxış edərək Azərbaycanın mövqeyini şərh etmək, təqribən bütün islam ölkələrinin rəhbərləri ilə keçirdiyi şəxsi görüşlərində ölkəsinin əsas ictimai-siyasi problemlərini müzakirə etmək imkanı əldə etdi[7] .

Bundan əlavə, İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin Cakarta şəhərində 1996-cı ildə keçirilən 24-cü konfransında qətnamənin adının dəyişdirilərək "Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlandırılması Azərbaycan üçün böyük uğur idi. Bu andan etibarən İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin bütün konfranslarında bu problemlə bağlı qəbul edilmiş bütün qətnamələr belə adlandı. Bu qətnamə bütün dövlətləri Ermənistana hər hansı silah və hərbi avadanlıq verməməyə çağırdı. Belə ki, bunlar təcavüzkarı münaqişəni daha da genişləndirməyə və Azərbaycan torpaqlarının işğalını davam etdirməyə həvəsləndirə bilərdi. Həmçinin qətnamədə vurğulanırdı ki, İƏT-ə üzv dövlətlərin əraziləri bu kimi avadanlıqların tranziti üçün istifadə edilə bilməz. Habelə qətnamə Ermənistanın təcavüzünü, onun Azərbaycan torpaqlarının işğalını dayandırmaqdan ötrü İƏT-ə üzv dövlətləri və beynəlxalq birliyin digər üzvlərini bütün fəal siyasi və iqtisadi tədbirlərdən istifadə etməyə çağırır[8].

Qətnamənin başqa mühüm cəhəti də var: Cakartada qəbul olunmuş Yekun sənəd ATƏT sədrinin 1996-cı il dekabrın 3-də verdiyi bəyanatı

6 Xarici işlər nazirlərinin 22-ci konfransının yekun bəyannaməsi, Kasablanka, Mərakeş. - http://www.oic-oci.org/arabic/conf/fm/22/22nd-fm-financial.htm

7 Шукуров И. ОИК: Армения признана агрессором. Баку: Издательство "Азербайджан", 1995, с.5-7

8 Xarici işlər nazirlərinin 24-cü konfransının yekun bəyannaməsi. Cakarta, İndoneziya. - http://www.oic-oci.org/arabic/conf/fm/24/24th-fm-final.htm

dəstəkləyir. Bu bəyanat ATƏT-in 1996-cı il dekabrın 2-3-də Lissabonda keçirilmiş sammitinin bəyannaməsinə daxil edilmişdir. Həmin bəyannamədə Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanmasının bir hissəsi kimi nəzərdə tutulan 3 prinsip müəyyən edilmişdir: Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü; Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksəksəviyyəli özünüidarə hüququ statusunun verilməsi; bütün tərəflərin nizamlama müddəalarına riayət olunmasının təmin edilməsinə dair qarşılıqlı öhdəlikləri də daxil olmaqla, Dağlıq Qarabağ və onun bütün əhalisinin təmin edilmiş təhlükəsizliyi[9] . İKT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda, 2000-ci ildə Dohada, 2003-cü ildə Butracayada keçirilmiş VIII, IX və X zirvə görüşlərində və 2008-ci ildə Dakarda keçirilmiş zirvə görüşündə qəbul edilmiş qətnamələr də "Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlanır. Bu qətnamələr Azərbaycanın mövqeyinin dünya birliyinə çatdırılmasında mühüm rol oynamışdır[10].

Bu qətnamələrdən əlavə, 2000-ci ilin noyabrında dövlət və hökumət başçılarının Dohada keçirilmiş zirvə görüşündə qəbul olunmuş digər mühüm qətnamə də Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. Həmin qətnamə Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarında tarixi abidələrin vəziyyətinə toxunur. Qətnamənin əhəmiyyəti ondadır ki, o, islam və beynəlxalq təşkilatların diqqətini memarlıq abidələrinin işğalçılar tərəfindən dağıdılması probleminə cəlb edir[11] . Bu problem diqqət mərkəzində saxlanıldığına görə, 2003-cü ildə İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin Tehranda keçirilmiş 30-cu toplantısında "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin, müqəddəs məkanların məhv edilməsi və dağıdılması" haqqında xüsusi qətnamə qəbul edilmişdir[12] .

İƏT Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı

9 Lissabon sənədi, 1996 . - http://www.osce.org/mc/39539?download=true

10 Mammadov N. Azerbaijan's relations with the Islamic world and the countries of Asia, p. 152-153. // in: Azerbaijan in Global Politics. Crafting foreign policy, ed. Alexander Petersen, Fariz Ismailzade.

11 9-cu İslam zirvə görüşünün mədəni və ictimai məsələlərlə bağlı qərarları. Doha, Qətər. - http://www.oic-oci.org/arabic/conf/is/9/9th-is-cultural.htm

12 Xarici işlər nazirlərinin 30-cu iclasının mədəni və ictimai məsələlərlə bağlı qərarları və məruzələr. Tehran, İran, 10/30 - s. - http://www.oic-oci.org/arabic/conf/fm/30/30%20icfm-cul1-ar.htm#qətnamə

son sammitində də ardıcıl mövqe göstərdi. 2016-cı il aprelin 14-15-də İstanbulda keçirilən İƏT-in 13-cü sammitində İƏT çərçivəsində və xarici işlər nazirləri səviyyəsində Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünə dair təmas qrupu yaradılmış və bu qrupun İstanbul sammiti çərçivəsində ilkin iclası da keçirilmişdir[13]. Həmin qrupa 7 ölkə daxildir: Türkiyə, Mərakeş, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Qambiya və Cibuti. Bu təmas qrupunun yenicə yaradılmasına baxmayaraq, münaqişənin həllini sürətləndirmək və böyük dövlətlərin diqqətini bu problemə yönəltmək istiqamətində qısa zaman ərzində fəal rol almağa çalışmışdır. Məsələn, BMT Baş Assambleyasının 71-ci daimi sessiyası çərçivəsində bu təmas qrupunun Dağlıq Qarabağla bağlı ilk iclası keçirilmişdir[14].

Həmçinin İƏT dünya birliyinin diqqətini 106-sı qadın, 83-ü uşaq olmaqla ümumilikdə 613 mülki şəxsin erməni hərbi qüvvələri tərəfindən qətl edilməsi ilə nəticələnmiş Xocalı soyqırımına cəlb edə bilmişdir. İƏT Xarici İşlər Nazirləri Şurasının 2009-cu ilin mayında Dəməşqdə keçirilmiş 36-cı konfransında qəbul edilmiş yekun qətnamədə nazirlər "Xocalıya ədalət – Qarabağa azadlıq" kampaniyasını tam dəstəkləyərək üzv dövlətləri bu kampaniyada fəal iştirak etməyə çağırmışlar. 2011-ci ildə İƏT-ə üzv ölkələrin Parlamentlər İttifaqı "Xocalıya ədalət!" beynəlxalq kampaniyasını dəstəkləyən qətnamə qəbul etmişdir. Həmçinin Parlamentlər İttifaqı 2012-ci ildə İƏT-ə üzv bütün dövlətlərin parlamentlərini Ermənistan silahlı qüvvələrinin törətdiyi qırğınları soyqırımı və insanlığa qarşı cinayət kimi tanımağa çağırmışdır. Müəyyən vaxt keçdikdən sonra bir sıra ölkələrin, o cümlədən Pakistan, İordaniya, Sudan, Meksika, Kolumbiya, Rumıniya, Serbiya, Bosniya-Herseqovina, Çexiya Respublikası, ABŞ-ın 20-yə yaxın ştatı və digər qanunverici orqanları Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü pisləyən, Xocalı hadisəsini soyqırımı kimi tanıyan, Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi və ərazi bütövlüyü çərçivəsində, beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında nizamlanmasına çağıran qətnamələr qəbul etdilər. Qeyd edək ki, İƏT-in Baş Katibliyi

13 İƏT-ə üzv ölkələrin dövlət/ hökumət başçılarının 13-cü İslam zirvə sammitinin yekun bəyannaməsi, İstanbul, Türkiyə. - http://www.oic-oci.org//docdown/?docID=14&refID=5

14 OIC Contact Group on Aggression of Armenia Against Azerbaijan convenes its first meeting. /20.09.2016/ - http://azertag.az/en/xeber/OIC_Contact_Group_on_Aggression_of_Armenia_Against_Azerbaijan_convenes_its_first_meeting-994132

hər il Xocalı faciəsinin ildönümü ilə bağlı rəsmi bəyanat yayır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı isə İƏT-ə üzv ölkələrin parlamentlərinin Xocalı faciəsinin soyqırımı kimi tanınması üçün daimi iş aparır.

Buna əlavə olaraq, İƏT-in Ermənistanın Azərbaycana təcavüzü ilə bağlı mövqeyi üzv ölkələrin dövlət və hökumət rəhbərlərinin konfranslarında, müxtəlif illərdə keçirilən islam sammitlərində qəbul edilmiş bir neçə sənəddə də öz əksini tapmışdır.

Beləliklə, İƏT-in Dağlıq Qarabağ problemi ilə bağlı qəbul etdiyi bütün qətnamələri (sayı 22-yə yaxındır) ümumiləşdirib aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Ermənistanla Azərbaycan arasındakı münaqişə ilə bağlı "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamələr.
2. Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi ilə bağlı qətnamələr.
3. "Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin, müqəddəs məkanların məhv edilməsi və dağıdılması" haqqında, yaxud "İslamda müqəddəs sayılan məkanların qorunması" və ya "mədəni və ictimai məsələlərlə bağlı" məruzə və ya qətnamələr.

Bütün bu qətnamələr Azərbaycan üçün mühüm siyasi əhəmiyyət kəsb edir. Belə ki, onlar digər mötəbər təşkilatların (BMT, ATƏT) qəbul etdikləri qətnamələri və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Ermənistanın Azərbaycana qarşı təcavüzünü açıq şəkildə pisləyir. Həmçinin İƏT-in qətnamələrinin xüsusiyyəti ondadır ki, onlarda beynəlxalq təşkilatların Dağlıq Qarabağ problemi ilə bağlı qəbul etdikləri qətnamələrin yerinə yetirilməsi tələb edilir. Bütün bu qətnamələrin qəbul edilməsinin səbəbi təkcə islam həmrəyliyi deyil. Əslində, bu qətnamələrin qəbul edilməsinin əsasında iki mühüm amil durur: 1. beynəlxalq hüquq prinsiplərinin dəstəklənməsi – onlardan biri dövlətlərin ərazi bütövlüyüdür; 2. BMT-dən sonra ikinci ən böyük təşkilatın böyük dövlətlərin tətbiq etdikləri ikili standartlara reaksiyası, həmçinin müəyyən dövlətlər tərəfindən həyata keçirilən təcavüzü və

işğalı bəzən dayandıra bilməyən və ya bunu istəməyən BMT daxilində yaranmış böhrana cavabdır.

Geniş siyasi dəstəkdən əlavə, İƏT Azərbaycanın islam dünyasının müxtəlif iqtisadi strukturlara inteqrasiyasına köməklik göstərmişdir. 1992-ci ildə Azərbaycan İslam İnkişaf Bankının (İİB) üzvü seçilmişdir və həmin vaxtdan bu beynəlxalq iqtisadi təşkilatla sıx əməkdaşlıq edir. İİB ilk növbədə Qarabağ münaqişəsinə görə qaçqın və məcburi köçkün düşmüş azərbaycanlılara maliyyə və humanitar yardımlar göstərmişdir. Əlaqələr inkişaf etdikcə Azərbaycan İİB ilə kənd təsərrüfatı, infrastruktur, neft və qaz, su təchizatı, sənaye və müxtəlif sosial sahələr üzrə layihələrin maliyyələşdirməsi istiqamətində əməkdaşlığını davam etdirmişdir[15]. Ümumiyyətlə, İİB Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində layihələrin həyata keçirilməsi üçün 1,2 milyard dollardan çox vəsait ayırmışdır[16]. Onu da qeyd edək ki, Azərbaycan İİB-də 9,76 mln. ABŞ dolları (ümumi səhm kapitalının 0,13%-i) pay sahibi olmaqla bankın işində yaxından iştirak edir[17].

Beləliklə, İƏT-lə çoxşaxəli əməkdaşlıq beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyinin güclənməsinə, islam dünyası ilə əlaqələrinin inkişaf etdirilməsinə böyük töhfələr vermişdir. Bu əlaqələri qısa şəkildə şərh edəcəyik.

Azərbaycan və islam dünyası dövlətləri: İƏT daxilində və xaricində əməkdaşlıq

Qeyd edilməlidir ki, tədqiqatçıların İƏT-də aparıcı dövlətlər adlandırdıqları ölkələr Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycanın mövqeyini təşkilatın tribunasından kənarda da dəstəkləyir, həmçinin təşkilat daxilində də əməkdaşlıq edirlər. Müstəqilliyin ilk illərindən

15 Əhmədov A. İslam Əməkdaşlıq Təşkilatının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu // "Strateji təhlil" jurnalı, № 3(14), 2015, s.65-89. - http://www.stj.sam.az/post/islam-%C9%99m%C9%99kda%C5%9Fl%C4%B1q-t%C9%99%C5%9Fkilat%C4%B1n%C4%B1n-m%C3%BCasir-beyn%C9%99lxalq-m%C3%BCnasib%C9%99tl%C9%99r-sistemind%C9%99-yer-i-v%C9%99-rolu

16 ИБР готов обсуждать увеличение финансирования проектов в Азербайджане. /29.01.2016/ - http://www.trend.az/business/economy/2483662.html

17 Ətraflı məlumat üçün bax: Faizsiz maliyyə sistemi. /11.03.2014/ - http://emlakjurnali.az/az/news/27

etibarən Azərbaycan Türkiyə, Səudiyyə Ərəbistanı Krallığı, Pakistan İslam Respublikası kimi dövlətlərlə geniş siyasi əlaqələr qurmağa çalışırdı. Küveyt dövləti, Birləşmiş Ərəb Əmirlikləri, Qətər dövləti ilə əlaqələr də davamlı inkişaf mərhələsində idi.

Sovet İttifaqının dağılmasından sonra üç Cənubi Qafqaz respublikasının öz müstəqilliklərini elan etməsi Türkiyənin siyasi nüfuzunun genişlənməsi, onun geniş iqtisadi layihələri və "yumşaq gücü" üçün yeni imkanlar açdı. Bununla belə, keçən əsrin 90-cı illərinin əvvəllərində iqtisadiyyat sabit deyildi. Kürd separatçılığı problemi, Türkiyənin Avropa İttifaqına qoşulması barədə danışıqlar onun regionla sabit əlaqələr qurmasına mane olurdu[18]. Bundan əlavə, Türkiyənin Cənubi Qafqazda nüfuzu qarşısında başlıca maneələrdən biri Dağlıq Qarabağ problemi hesab edilə bilər. Türkiyənin 1991-ci ildə Ermənistanın müstəqilliyini tanımasına, onunla ikitərəfli əlaqələr qurmağa çalışmasına baxmayaraq, Ermənistanın işğalçı siyasəti Türkiyə və onun regiondakı müttəfiqi Azərbaycanın mənafelərinə uyğun gəlmirdi. Bundan başqa, erməni millətçiləri Ermənistanın müstəqilliyinin ilk günlərindən Türkiyə torpaqlarına iddialarını gizlətmirdilər. Hətta günümüzdə də Türkiyənin şərq torpaqlarını "Qərbi Ermənistan" adlandırırlar. Əvvəlcə onlar Türkiyəni israrla 1915-ci il hadisələrini etiraf etməyə çağırırdılar. Bu da Türkiyə–Ermənistan münasibətlərinə çox böyük mənfi təsir etdi. Bununla yanaşı, Türkiyə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində yaxından iştirak etmək istəyirdi. Belə ki, regionun təhlükəsizliyi və sabitliyi əsasən Cənubi Qafqaza iqtisadi layihələri ilə daxil olmaq niyyətində olan Türkiyənin marağında idi. Bundan başqa, Ermənistanın Azərbaycana qarşı təcavüzdən əl çəkmək istəməməsi, Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində 613 mülki şəxsin qətli ilə nəticələnmiş qırğın törətməsi, Dağlıq Qarabağa daxil olmayan Kəlbəcər rayonunu işğal etməsi Türkiyəni Ermənistanla sərhədlərini bağlamağa məcbur etdi[19].

18 Hill F., Kirishchi K., Moffatt A. Retracing the Caucasian Circle. Considerations and Constraints for U.S., EU, and Turkish engagement in the South Caucasus. Center for United States and Europe at Brookings. Washington, 2015, p.16

19 Bagdadi I. Azerbaijan and the revision of Turkey regional policy // in Azerbaijan in the World. Vol. 4, No. 13, ADA: Baku, 2011

Türkiyə–Azərbaycan münasibətləri isə strateji xarakter daşıyır. Keçən əsrin 90-cı illərindən bəri Türkiyə Azərbaycan və Gürcüstanla əlaqələrini gücləndirir, bir neçə böyük regional layihədə onlarla birlikdə yaxından iştirak edir. Türkiyənin enerji tranziti mərkəzinə çevrilməsində böyük rol oynamış Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin çəkilməsi Türkiyə–Azərbaycan əlaqələrinin uğuruna dəlalət edir[20] . Həmçinin Bakı–Ərzurum qaz kəməri çəkildi, Azərbaycan, Gürcüstan və Türkiyənin şəhərlərini birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolunun təməli qoyuldu. Əlavə olaraq, Türkiyə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən mühüm investorudur.[21] Minlərlə türk iş adamı Azərbaycanda öz kiçik və böyük biznesini qurub. Türkiyə iqtisadiyyatına 7,9 mlrd. dollar investisiya qoyan Azərbaycan isə bu ölkənin ən mühüm investorlarından sayılır. Azərbaycanda 2600-dən çox türk şirkəti, Türkiyədə isə 1700-dən çox Azərbaycan şirkəti fəaliyyət göstərir[22]. Ankara və Bakı İqtisadi Əməkdaşlıq Təşkilatı və Türk Şurası vasitəsilə türk dövlətləri və xalqları arasında yaxınlaşma siyasətini inkişaf etdirməkdə daha fəaldır. Rəy sorğuları göstərir ki, türk xalqı Türkiyənin NATO-dakı müttəfiqlərindən daha çox Azərbaycana rəğbət bəsləyir. Rəyi soruşulanların 82%-i ona inanır. Eyni zamanda respondentlərin 90%-i Azərbaycanı dost dövlət adlandırır[23].

Türkiyə BMT Təhlükəsizlik Şurasının, İƏT-in, başqa beynəlxalq təşkilatların Dağlıq Qarabağ problemi ilə bağlı qəbul etdikləri qətnamələri dəstəkləyir, Ermənistanı Azərbaycanın işğal edilmiş torpaqlarından silahlı qüvvələrini çıxarmağa çağırır. Türkiyə hakimiyyəti dəfələrlə bəyan etmişdir ki, "Dağlıq Qarabağ problemi Türkiyənin milli problemidir", Türkiyə ilə Ermənistan arasında sərhədlər Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan çəkilməyənədək bağlı qalacaq. Qeyd edilməlidir ki, eyni zamanda Türkiyə münaqişənin iki tərəfi də qarşılıqlı şəkildə razı salacaq həll yolunu dəstəkləyəcək. Belə ki, Türkiyənin uzunmüddətli strateji maraqları Cənubi Qafqazın bütün 3 dövləti ilə əlaqələrin

20 Hill F., Kirishchi K., Moffatt A. Retracing the Caucasian Circle, p.16

21 Чернявский С. Десять лет истории Азербайджана: 2003-2013 годы. М. : ФлИнта, 2013, с.282

22 Azərbaycan 2020-ci ilədək Türkiyəyə investisiya qoyuluşunu 20 mlrd. dollara çatdırmağı nəzərdə tutur. /10.01.2016/ - http://az.trend.az/business/2683552.html

23 Yenə orada, s.285

qurulması və gücləndirilməsində öz əksini tapmışdır.

Azərbaycan Səudiyyə Ərəbistanı Krallığı ilə də sıx əlaqələr qura bilmişdir. Səudiyyə Ərəbistanı Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Səudiyyə Ərəbistanı ilə əlaqələrin ilkin dövrləri haqqında söhbət gedərkən daha çox onun Dağlıq Qarabağ müharibəsində Azərbaycana humanitar yardımları qeyd edilir. Lakin Səudiyyə Ərəbistanının dəstəyi təkcə humanitar yardım və ya xeyriyyə sahələri ilə kifayətlənməmiş, həm də strateji xarakter daşımışdır. 1993-cü ildə xeyriyyə yardımlarının göndərilməsi, qaçqınlar üçün çadırların inşa edilməsi ilə yanaşı, Səudiyyə Ərəbistanı və Küveytin xeyriyyə cəmiyyətləri Azərbaycan Prezidenti Heydər Əliyevin himayəsi altında 1996-cı ilin oktyabrında Bakıda böyük xeyriyyə və media konfransı keçirdi. Konfransda, demək olar ki, bütün islam ölkələrindən xeyriyyə təşkilatlarının nümayəndələri, yüksək rütbəli hökumət rəsmiləri iştirak edirdi. Bu konfrans Azərbaycan üçün strateji əhəmiyyət daşıyırdı. Belə ki, konfrans bir tərəfdən islam dünyasını Dağlıq Qarabağdan və ona qonşu rayonlardan didərgin salınmış bir milyondan çox azərbaycanlıya humanitar yardım göstərməyə çağırdı, digər tərəfdən ərəb cəmiyyətinin və ərəb siyasi elitasının diqqətini Azərbaycana – gənc keçmiş sovet respublikasına və onun əsas problemlərinə cəlb etdi.

Onu da qeyd edək ki, Səudiyyə Ərəbistanının "Delta-Nimir" şirkəti "Əsrin müqaviləsi"ndə iştirak etmişdir. Həmçinin "Əsrin müqaviləsi" imzalandıqdan sonra Rusiya–Azərbaycan əlaqələrində bir qədər gərginlik yaşandı. 1994-cü ilin sonlarında Rusiya Çeçenistanda aparılan müharibə bəhanəsi ilə Azərbaycana şimaldan gələn avtomobil, dəmir və su yollarını bağlamış, bu səbəbdən Azərbaycan blokada vəziyyətinə düşmüşdü[24]. Həmin ərəfədə Səudiyyə Ərəbistanının mediasında Rusiyanın Azərbaycanı blokadaya salmaq cəhdi tənqid olunmuşdu. 1995-ci ildə Məkkədə yerləşən İslam Dünyası Liqasının Baş Katibliyi blokadanın Azərbaycanı xarici dünyadan təcrid etməsi və onun iqtisadiyyatına mənfi təsir göstərdiyini qeyd edərək, blokadaya qarşı etiraz bəyanatı yaydı[25].

24 Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). Bakı: Mütərcim, 2015, s.2, 300
25 Yenə orada, s.2, 306

Səudiyyə Ərəbistanının beynəlxalq arenada Azərbaycana dəstəyinə keçən əsrin 70-ci illərində Kral Feysəl bin Əbdüləzizin dövründən başlayaraq formalaşmış Səudiyyə siyasi elitasının beynəlxalq siyasətinin bir hissəsi kimi baxmaq olar. Bu siyasətin məqsədi Krallığı müsəlman xalqlarının problemləri ilə məşğul olan islam dünyasının lider ölkəsi kimi təqdim etmək idi. Səudiyyə Ərəbistanı Krallığı Azərbaycanı bütün beynəlxalq təşkilatlarda dəstəkləyir, həmin təşkilatların qətnamələrinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünü müdafiə edir. Məsələn, Səudiyyə Ərəbistanı 2011-ci ilin oktyabrında Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsinə böyük dəstək verən ölkələrdən biri olmuşdur[26].

Hər iki ölkə rəhbərliyinin iqtisadi əməkdaşlığın səviyyəsinin hələ də siyasi əməkdaşlıq səviyyəsinə çatmadığını tez-tez vurğulamalarına baxmayaraq, ölkələr arasında iqtisadi münasibətlər siyasi əlaqələrlə yanaşı inkişaf edir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Krallığın bir neçə şirkəti ilə neft-qaz yataqlarının istismarı, qazılması, çıxarılması, emalı və nəqli, həmçinin neft-kimya sənayesi sahəsində uzunmüddətli layihələrdə iştirakla bağlı müxtəlif sazişlər bağlamışdır[27]. Bu gün Səudiyyə Ərəbistanının bir neçə şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir və investisiya yatırır. Həmçinin Səudiyyə Ərəbistanı–Azərbaycan Müştərək Komissiyası da iki ölkə arasında əlaqələrin inkişafına öz töhfəsini verir. Səudiyyə İnkişaf Fondu Azərbaycanın müxtəlif regionlarında bir neçə layihə həyata keçirmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin geniştərkibli nümayəndə heyəti ilə 2015-ci ilin aprelində ər-Riyada səfəri çərçivəsində bir neçə mühüm iqtisadi saziş imzalanmışdır[28]. Azərbaycan Prezidenti Səudiyyə Ərəbistanı Krallığını "qardaş ölkə" adlandırmışdır[29].

Beləliklə, Səudiyyə Ərəbistanının Dağlıq Qarabağ münaqişəsindəki

26 Mesaad bin Ibrahim al-Sulaim: "Saudi Arabia supports Azerbaijan`s territorial integrity. // 1905.az, June 13, 2014. - http://1905.az/en/mesaad-bin-ibrahim-al-sulaim-saudi-arabia-supports-azerbaijans-territorial-integrity/

27 SOCAR creates joint venture for oil and gas production in Saudi Arabia. /25.05.2012/ - http://abc.az/eng/news/65176.html

28 Azerbaijan, Saudi Arabia plan to improve economic co-op. /15.05.2015/ - http://www.azernews.az/business/82108.html

29 İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşü olub. /06.04.2015/ - http://president.az/articles/14741; Ilham Aliyev: "Saudi Arabia and Azerbaijan – are brothers". /07.04.2015/ - http://www.news.az/articles/official/96855

mövqeyi Azərbaycan üçün çox mühümdür. Həmçinin ər-Riyadda da belə hesab edirlər ki, münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Bundan əlavə, münaqişə həll olunmayanadək Səudiyyə Ərəbistanı Ermənistanla heç bir diplomatik əlaqə qurmağı nəzərdə tutmur. Azərbaycan hökuməti və xalqı Səudiyyə Ərəbistanının siyasi mövqeyini yüksək qiymətləndirir. Bu kontekstdə İƏT ideyasının təsis edilməsi və həyata keçirilməsində aparıcı rol oynamış, təşkilatın qərargahının və başqa mühüm qurumlarının yerləşdiyi bir ölkə olaraq Səudiyyə Ərəbistanı ilə siyasi və iqtisadi əlaqələrin güclənməsi Azərbaycan üçün xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Misir Ərəb Respublikası ilə də əlaqələrinə xüsusi diqqət yetirir. Misir Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. Azərbaycanın Afrikada ilk səfirliyi məhz Misirdə açılmışdır. Azərbaycanın müstəqilliyinin ilkin illərində Misir Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Texniki Əməkdaşlıq Fondu Azərbaycanda müxtəlif sahələrdə (xüsusən diplomatik sahədə) fəaliyyət göstərən 1.200-ə yaxın işçi üçün 200-dən çox təlim kursu təşkil etmiş, yüzlərcə azərbaycanlı tələbənin Misirdəki təhsil xərclərini öz üzərinə götürmüşdü[30]. İki ölkə arasında diplomatik əlaqələr Ümummilli lider Heydər Əliyevin 1994-cü ildə Qahirədə BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirakından sonra sürətlə inkişaf etməyə başlamışdı. Misirlə Azərbaycan arasındakı siyasi əlaqələr 1994-2007-ci illər arasında sürətlə inkişaf etmiş və əsas ikitərəfli sazişlər və əməkdaşlıq müqavilələri bu ərəfədə imzalanmışdır. 2007-ci ildə İlham Əliyevin Misirə rəsmi səfərindən sonra Azərbaycanla Misir arasındakı diplomatik əlaqələr daha da möhkəmlənmişdir. Bu səfərdən sonra Misirin Qəlyubiyyə vilayətində "Misir–Azərbaycan dostluğu" parkı salınmışdır. Bunun qarşılığında Abşeron rayonunda "Azərbaycan–Misir dostluğu" parkı salınmış, Misir məktəbi istifadəyə verilmişdir.

Onu da qeyd edək ki, Azərbaycanla Misir arasında mədəniyyət və təhsil sahəsində əməkdaşlıq ildən-ilə möhkəmlənir. Azərbaycanda Misir Mədəniyyət Mərkəzi uzun illərdir fəaliyyət göstərir. Onun

30 Misir Ərəb Respublikası. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.218

fəaliyyəti nəticəsində yüzlərcə azərbaycanlı tələbə ərəb dilini öyrənmiş, Azərbaycanın müxtəlif universitetlərinin müəllimləri isə ixtisaslarını artırmışdır. Azərbaycan–Misir iqtisadi əlaqələrinin səviyyəsi siyasi və mədəni sahələrdəki səviyyəyə çatmasa da, ardıcıl şəkildə inkişaf edir. Misir Azərbaycandan əsasən neft məhsulları, Azərbaycan isə Misirdən mərmər və dərman idxal edir[31].

Hər iki ölkə beynəlxalq təşkilatlarda da əməkdaşlıq edir. Misir Ərəb Respublikası da Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini dəstəkləmişdir. Cavab olaraq Azərbaycan Respublikası da Misirin bu şuranın qeyri-daimi üzvlüyünə seçilməsinə dəstək vermişdir. Dağlıq Qarabağ məsələsində isə Misir Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir[32] və İƏT-də bu məsələ ilə bağlı daima Azərbaycanın lehinə səs verir.

Pakistan İslam Respublikası da Azərbaycanın xarici siyasətində xüsusi yer tutur. Pakistan Azərbaycanın müstəqilliyini tanımış, 1991-ci ildə Sovet İttifaqı dağılandan dərhal sonra onunla diplomatik əlaqələr qurmuş üçüncü dövlətdir. Pakistan Azərbaycana müstəqilliyinin ilk illərində 1 milyon dollar ayırmış və bacarıqların inkişafı məqsədilə müxtəlif peşə sahibləri üçün pulsuz hazırlıq kursları təşkil etmişdir. Misal üçün, təkcə diplomatik sahədə Azərbaycanın 44 diplomatı Pakistanın Xarici Xidmət Akademiyasında hazırlıq keçmişdir[33]. O vaxtdan etibarən Pakistan və Azərbaycan arasında sıx dostluq əlaqələri mövcuddur. Hər iki ölkə əsas beynəlxalq və regional problemlər barədə müştərək mövqedən çıxış edir. Pakistan Azərbaycanın mühüm strateji və hərbi müttəfiqidir[34]. Misal üçün, 2014-cü ilin fevralında Pakistan və Azərbaycan arasında ikitərəfli hərbi əməkdaşlıq sazişi imzalanmışdır. Həmçinin Pakistan 100-dən çox azərbaycanlı zabitə hərbi təlim keçmişdir. Hərbi əməkdaşlığın başqa nümunəsi Pakistan–Azərbaycan Biznes Forumunun məhz hərbi

31 Azərbaycanın Qahirədəki konsulu: Misir əhəmiyyətli dövlətdir və ümid edirik ki, bizim Afrikaya qapımız olacaq. Asia Elyoum /21.08.2016/ - http://www.asiaelyoum.com/20575/2016/08/21/

32 Misir Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir. /08.04.2015/ - http://azertag.az/xeber/Misir_Dagliq_Qarabag_munaqisesinin_Azerbaycanin_erazi_butovluyu_cherchivesinde_hellini_destekleyir-844687

33 Mahar A. Pakistan–Azerbaijan Bilateral Ties: Options for Future Strategy. /25.08.2014/ - http://www.ipripak.org/pakistan-azerbaijan-bilateral-ties-options-for-future-strategy/#sthash.pzbAYlMf.dpuf

34 Noor M.A. Pakistan–Azerbaijan relations – reaching a new momentum, new spring. /April 9, 2015/ -http://www.azernews.az/analysis/80123.html

və müdafiə məsələlərinə xüsusi diqqət göstərməsidir[35]. 11-14 mart 2015-ci il tarixlərində iki ölkə arasında "Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanmışdır. Azərbaycan və Pakistan iqtisadiyyat, informasiya texnologiyaları, eyni zamanda təhsil və humanitar sahələrdə ikitərəfli münasibətləri inkişaf etdirirlər. Misal üçün, Heydər Əliyev Fondu Pakistanın müxtəlif regionlarında bir sıra xeyriyyə layihələri həyata keçirir, eyni zamanda azərbaycanlı tələbələr Pakistanın müxtəlif universitetlərində təhsil alır, urdu dili və pakistanşünaslıq ixtisaslarına yiyələnirlər.

Pakistanla Azərbaycan arasında ikitərəfli əlaqələrin özünəməxsusluğu bir də ondadır ki, hər iki dövlət beynəlxalq arenada oxşar problemləri ilə bağlı mövqelərini koordinasiya edərək strateji əməkdaşlıq həyata keçirir[36]. Misal üçün, Pakistan parlamenti Xocalı şəhərində törədilmiş soyqırımını pisləmişdir. Pakistan hökuməti Dağlıq Qarabağ problemində Azərbaycanın mövqeyini bütün beynəlxalq təşkilatlarda müdafiə edir, BMT və İƏT-in bu problemlə bağlı qəbul etdikləri bütün qətnamələri dəstəkləyir, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlana biləcəyini bildirir. Qeyd edilməlidir ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, Ermənistanı Azərbaycan Respublikasının bütün işğal olunmuş torpaqlarından qoşunlarını çıxarmağa səsləyən 822 saylı qətnamə Pakistan rəhbərliyi ilə 1993-cü il aprelin 30-da keçirilmiş BMT Təhlükəsizlik Şurasının toplantısında qəbul edilmişdir[37]. Eyni zamanda Pakistan hökuməti və rəsmiləri dəfələrlə vurğulayıblar ki, Azərbaycan Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyir. Azərbaycan Kəşmir problemi üzrə nazirlər səviyyəsində İƏT təmas qrupunun üzvüdür. Pakistan İƏT-in İstanbul sammitində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təsis edilmiş təmas qrupunun fəal üzvü kimi çıxış

35 Kamal Makili-Aliyev, Khurram Abbas. Pakistan–Azerbaijan Economic and Defence Cooperation. IPRI Journal XVI, No.1 (Winter 2016), p.54

36 Azerbaijan, Pakistan "enjoy strategic partnership relations. / 18.03.2013/ - http://www.news.az/articles/politics/78034

37 Азербайджано-пакистанские отношения / "Heydər Əliyev irsi" Beynəlxalq elektron kitabxana/ -http://lib.aliyevheritage.org/ru/3966579.html

edir[38]. Hər iki tərəf problemlərinin nizamlanması üçün çox sıx şəkildə İƏT və başqa beynəlxalq təşkilatlarda əməkdaşlıq edir[39] . Yeri gəlmişkən Pakistan yeganə dövlətdir ki, Ermənistanın təcavüzkar siyasətinə görə onun nəinki müstəqilliyini, heç dövlətçiliyini də tanımır.

Yuxarıda qeyd etdiyimizə uyğun olaraq, Azərbaycanın siyasi rəhbərliyi Pakistanı özünün yaxın siyasi və strateji müttəfiqi hesab edir. Eyni zamanda Pakistan öz siyasəti sayəsində Cənubi Qafqazda siyasi və iqtisadi varlığını gücləndirməklə yanaşı, Azərbaycanda xüsusi ehtiram qazanmışdır.

İranla əlaqələr Azərbaycanın xarici siyasətində xüsusi yer tutur. İran və Azərbaycan tarixi baxımdan bir-birinə yaxın dövlətlərdir. Onları ortaq tarix, şiə islamı, qarşılıqlı mədəni təsir əlaqəsi bir-birinə bağlayır.

Sovet İttifaqının süqutundan sonra İran İslam Respublikası Cənubi Qafqazda yeni dövlətlərlə, xüsusilə Azərbaycanla bağlı siyasətini formalaşdırmağa başladı. İranla Azərbaycan arasında əlaqələrdə ilk vaxtlarda bəzi problemlər yarandı. Müstəqillik əldə etdikdən sonra Azərbaycan demokratik, dünyəvi və hüquqi dövlət qurmağa başladı. Hökumət islamın hər hansı bir istiqamətini dəstəkləməmək yolunu seçdi. Həmçinin İrandakı siyasi elitanın bir hissəsi əhalisinin əksəriyyəti şiə olan Azərbaycan kimi bir ölkənin dövlət idarəetməsində, hökumətdə və ictimai sferada islam sisteminə böyük rol verəcəyini gözləyirdi. Lakin Azərbaycan özünün tarixi təcrübəsindən, ictimai sistemindən (dini və mədəni plüralizm), təhlükəsizlik nöqteyi-nəzərindən çıxış edərək fərqli yol – islam mədəniyyətindən və kimliyindən (identikliyindən) ayrılmadan vətəndaş cəmiyyəti qurmaq yolunu tutdu. Bundan əlavə, İranın bəzi siyasi dairələrini bu fikir narahat etməyə başladı ki, Cənubi Qafqaz dövlətləri, xüsusilə Azərbaycan öz ərazilərini hərbi məqsədlər üçün başqa dövlətlərin istifadəsinə verə bilər. Bununla belə, Azərbaycan hökuməti hər hansı hərbi bloklara, yaxud alyanslara qoşulmaqdan imtina etmişdir. Bu balanslaşdırılmış siyasətin nəticəsi olaraq Azərbaycan 2011-ci

38 Xalid Usman Qaiser. Pakistan–Azərbaycan: İki ölkə arasında bir çox sahələr üzrə əməkdaşlığı daha da yüksəltmək üçün böyük imkanlar mövcuddur. /16.01.2017/ - http://newtimes.az/az/diplomatik/5004/

39 Pakistani Ambassador: "Kashmir and Nagorno Karabakh have been occupied". / 05.022014/ - http://en.apa.az/xeber_pakistani_ambassador_____kashmir_and_nagor_206643.html

ildə Qoşulmama Hərəkatına üzv olmuşdur[40]. Vaxt keçdikcə hər iki ölkə bir-biri ilə əlaqələrdə lazımi diplomatik və siyasi təcrübə qazanmış, sabit ikitərəfli münasibətlər qura bilmişdir. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra İranla ictimai, siyasi və iqtisadi sahələrdə əməkdaşlığı inkişaf etdirməyə başlamışdır. Misal üçün, 1997-ci ildə Azərbaycan tərəfi Xəzər regionunda neft-qaz yataqlarının kəşfiyyatı və birgə işlənməsi sahəsində İranla əməkdaşlıqda maraqlı olduğunu bildirmiş, İranın Milli Neft Şirkətini (NIOC) Azərbaycanın ən böyük qaz yatağı olan "Şahdəniz"də iştiraka dəvət etmişdir. Azərbaycan bu gün İranla birlikdə müştərək enerji layihələrində iştirak edir. Həmçinin İranın tranzit yolları Azərbaycan mallarının Körfəz ölkələrinə, Türkiyədən Avropaya nəqlinə imkan yaradır. Eyni zamanda Azərbaycanın tranzit yolları İran mallarının Gürcüstan və Şimali Avropaya çatdırılmasına kömək edir.

Qeyd etmək lazımdır ki, Qarabağ münaqişəsi başlanandan bəri İran danışıqlar prosesində iştirak etməyə çalışmışdır. Bununla yanaşı, münaqişənin nizamlanmasında iştirak etmək üçün 1992-ci ildə İranın göstərdiyi bütün səylər uğursuzluğa düçar olmuşdur (1992-ci ildə İranın vasitəçiliyi ilə Tehranda Azərbaycan Respublikasının Prezidenti vəzifəsini yerinə yetirən Yaqub Məmmədovla Ermənistan Prezidenti Levon Ter-Petrosyan arasında müzakirələr aparıldığı bir vaxtda Şuşa şəhəri erməni hərbçiləri tərəfindən işğal olundu). Lakin bu müddət ərzində İranın Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar aydın siyasəti formalaşmışdır. İranın rəsmi mövqeyi Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır. Həmçinin İran rəsmiləri dəfələrlə vurğulayıblar ki, Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməlidir[41]. Məhəmməd Xatəminin rəhbərliyi ilə 1997-ci ildə Tehranda keçirilmiş İƏT konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzünü açıq şəkildə pisləyən qətnamə qəbul etmişdir[42]. Fakt budur

40 Globe P. Azerbaijan joins the Non-Aligned movement. // In: "Azerbaijan in the World", Vol. 4, No. 11. - http://biweekly.ada.edu.az/vol_4_no_11/Azerbaijan_joins_the_Non_Aligned_movement.htm

41 See for example: Iran expresses support for Azerbaijan's territorial integrity. / November 10, 2014/ - http://www.azernews.az/azerbaijan/73026.html; Iran supports Azerbaijan`s territorial integrity. /April 21, 2015/ - http://www.azernews.az/azerbaijan/80744.html

42 İslam zirvə görüşünün siyasi məsələlər, müsəlman camaatlar və azlıqlar, hüquqi məsələlər, media ilə bağlı qətnamələri. Tehran, İran. - http://www.oic-oci.org/arabic/conf/is/8/8th-is-political.htm

ki, Ermənistanla Azərbaycan arasında müharibənin yenidən başlanması İranın milli təhlükəsizliyi üçün böyük təhdid təşkil edir. Birincisi, İranın şimalında Azərbaycanla sərhəddə sayı təxminən 22-30 milyon arasında olan azərbaycanlı əhali yaşayır. Müharibə başlanarsa, onların laqeyd qalması qeyri-mümkündür. İkincisi, İrana qonşu ölkələr – Suriya və İraq ağır müharibə içərisindədirlər. İran da bu və ya digər dərəcədə bu məsələyə qarışıb. Buna görə də şimal sərhədlərində yeni müharibənin alovlanması əlavə təhdidlər yaradacaq və İranı qeyri-sabitlik dairəsinə salacaq.

Lakin eyni zamanda qeyd edilməlidir ki, İran Ermənistan və Azərbaycana münasibətdə balanslaşdırılmış siyasət yürüdür. Başqa sözlə ifadə etsək, İran regionda güc mərkəzi olan Azərbaycanla əlaqələr quranda Ermənistanda da nüfuzunu qorumağa çalışır. Misal üçün, İran Ermənistanla iqtisadi əməkdaşlığı inkişaf etdirir: 2006-cı ildən başlayaraq Ermənistan İrandan çəkilmiş boru xətləri ilə İran qazını alır[43]. Ermənistan isə İrana elektrik enerjisi ixrac edir. İran şəhərlərini Ermənistan şəhərləri ilə birləşdirən avtomobil yollarının tikintisində iştirak edir[44] .

İranla əməkdaşlıq Türkiyə və Azərbaycan tərəfindən blokadaya alınmış Ermənistana həyatda qalmaq imkanı verir. Bu əməkdaşlığa baxmayaraq, Azərbaycan hökuməti İranın daxili işlərinə müdaxilə etməməyi üstün tutur. Lakin aydındır ki, İranla İƏT çərçivəsində əməkdaşlıq edən Azərbaycan ondan Ermənistana münasibətdə daha sərt siyasət gözləyir. İran bir çox müsəlmanların gözündə nəinki adi ölkə deyil, həm də "Qərb inkişaf modelinə" siyasi, inzibati və ideoloji alternativ təqdim edən, islam dünyasında liderliyə can atan, islamın və onun müqəddəs dəyərlərinin müdafiəçisi rolunu öhdəsinə götürən islam respublikasıdır. O, "ölkənin xarici siyasətini islam prinsipləri və bütün müsəlmanlara münasibətdə qardaşlıq öhdəlikləri əsasında təşkil etdiyini" bildirir[45]. Buna uyğun olaraq, bir çox azərbaycanlılar, ziyalılar,

43 Чернявский С. Десять лет истории Азербайджана: 2003-2013 годы, с.290

44 Hunter S. Iran's Foreign Policy in the Post-Soviet Era: Resisting the New International Order. Santa Barbara, Calif.: Praeger, 2010, p.177

45 İran İslam Respublikasının Konstitusiyası, 03:22` . - http://www.ar.mfa.ir/index.aspx?fkeyid=&siteid=2&pageid=142/

yazıçılar və jurnalistlər, din xadimləri Ermənistan–İran əməkdaşlığını utandırıcı və çox qəribə hesab edirlər. Belə ki, Ermənistan silahlı qüvvələri təkcə Qarabağın bütün müsəlman sakinlərini didərgin salmaqla kifayətlənməmiş, eyni zamanda həm də məscidlər, Azərbaycanın işğal olunmuş torpaqlarındakı müsəlmanlara aid qəbirlər və tarixi binalar dağıdılmışdır. Bu dağıdıcılıq sırf praqmatik siyasi hədəflərin həyata keçirilməsi – regionda müsəlmanların varlığına işarə edəcək, onu sübut edəcək bütün izlərin yox edilməsi məqsədilə edilir. Bu səbəbdən Azərbaycan cəmiyyətinin İran İslam Respublikasından erməni tərəfinin mühakimə edilməsi üçün tədbirlər görməsini gözləməsi tamamilə anlaşılan və məntiqlidir.

Qeyd edilənlərə əlavə olaraq, Azərbaycan Körfəz Əməkdaşlıq Şurası dövlətləri, xüsusilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Küveyt dövləti ilə əlaqələrinin inkişaf etdirilməsinə böyük önəm verir.

BƏƏ ilə əlaqələr Heydər Əliyevlə Şeyx Zayid bin Sultan əl-Nəhyyanın İƏT-ə üzv ölkələrin dövlət və hökumət başçılarının 1994-cü il dekabrın 13-də Kasablankada keçirilmiş zirvə toplantısı çərçivəsində baş tutmuş görüşündən sonra sürətlə inkişaf etməyə başlamışdır. Qeyd edilməlidir ki, Şeyx Zayid bin Sultan Azərbaycandakı ictimai-siyasi vəziyyətdən çox yaxşı xəbərdar idi. Buna görə də görüşdə Azərbaycanla iqtisadi və siyasi sahələrdə əməkdaşlıq etmək istəyini ifadə etmişdi. Azərbaycan Prezidenti Heydər Əliyev BƏƏ-nin dövlət başçısının diqqətinə çatdırmışdı ki: "Azərbaycan Qafqazda yeganə müstəqil islam ölkəsidir. Biz müstəqilliyimizi qoruyub saxlayırıq, bizim buna bacarığımız var. Amma yardıma, dəstəyə ehtiyacımız var". Şeyx Zayid də, öz növbəsində, Azərbaycana bu dəstəyin göstəriləcəyini, Birləşmiş Ərəb Əmirliklərinin əməkdaşlığı genişləndirəcəyini bildirmişdi[46]. Azərbaycanın rəhbərliyi və siyasi elitası dəfələrlə bəyan etmişdir ki, BƏƏ Azərbaycana yaxın ərəb dövlətləri arasında xüsusi yer tutur, onun iqtisadi inkişafı başqa dövlətlər üçün nümunə olmuşdur[47].

Təbii resurslarla zəngin olmasına baxmayaraq, BƏƏ iqtisadiyyatının

46 Шукуров И. ОИК: Армения признана агрессором, с.7

47 Envoy lauds UAE-Azerbaijan relation". //The Gulf Today, June 1, 2014.- http://www.gulftoday.ae/portal/54bbe13c-004a-49a5-b577-2969d0923238.aspx

qeyri-neft sektorunu da inkişaf etdirmişdir[48]. Azərbaycan da qeyri-neft sektorunun, xüsusən turizm, informasiya texnologiyaları və s. sahələrin inkişaf etdirilməsini iqtisadi siyasətinin prioritetlərindən biri kimi elan etmişdir. Buna görə də təsadüfi deyildir ki, hər iki tərəf çox vaxt müştərək konfranslar və toplantılar təşkil edir. Bu tədbirlər çərçivəsində də bu sahələrlə bağlı əməkdaşlıq sazişləri imzalanır[49]. Qeyd edilməlidir ki, Dubay Ticarət və Sənaye Palatasının ilk xarici nümayəndəliyi məhz Bakıda açılmışdır[50]. Bu, BƏƏ dövlətinin Azərbaycana verdiyi əhəmiyyətə dəlalət edir. Həmçinin qeyd etmək lazımdır ki, BƏƏ dövləti Azərbaycana investisiya yatıran 5 ən böyük investordan biridir[51].

BƏƏ və Azərbaycan təkcə iqtisadi, mədəni və humanitar sahələrdə deyil, eyni zamanda beynəlxalq təşkilatlarda, regional və beynəlxalq problemlərin müzakirəsində də sıx əməkdaşlıq edirlər. Həmçinin iki ölkə rəhbərliyi arasında çox fəal siyasi dialoq var[52]. Azərbaycan hökuməti BƏƏ dövlətinin BMT, İƏT çərçivəsində göstərdiyi dəstəyi dəfələrlə vurğulamışdır. Azərbaycan da, öz növbəsində, bütün beynəlxalq təşkilatlarda BƏƏ dövlətini daim dəstəkləyir[53].

Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə, BƏƏ Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, münaqişənin beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə nizamlanmasında israr edir[54]. Qeyd edilməlidir ki, BƏƏ dövləti 2008-ci ildə BMT-də səsvermə zamanı Dağlıq Qarabağ problemində Azərbaycanın mövqeyini müdafiə edən dövlətlərdən biri olmuşdur. İƏT-in bütün layihələrində iştirak edən, ona hər sahədə dəstək verən dövlət kimi BƏƏ ilə əməkdaşlığın əhəmiyyəti Azərbaycan üçün getdikcə daha da artır. BƏƏ İƏT-in məramnaməsinə sadiq qalır, dövri

48 M. Hazem Shayah. Economic Diversification by Boosting Non-Oil Exports (Case of UAE). // Journal of Economics, Business and Management, Vol. 3, No. 7, July 2015

49 Azerbaijan, UAE to co-op in high-tech sector. /20.11.2014/ - http://www.azernews.az/business/73492.html

50 Dubay palatası öz ilk xarici nümayəndəliyini Azərbaycanda açır. /15.11.2012/ - http://www.albayan.ae/economy/local-market/2012-11-15-1.1767089

51 The state statistical committee of the Republic of Azerbaijan. - http://www.stat.gov.az/source/finance/indexen.php

52 Əmirliklər Azərbaycanda ən böyük beşinci investordur /28.05.2015/ - http://www.albayan.ae/economy/discussion/2015-05-28-1.2383530

53 Yenə orada

54 BƏƏ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasında Azərbaycanın mövqeyini dəstəkləyir // http://ar.trend.az/news/politics/1849447.html

olaraq onun müxtəlif humanitar, iqtisadi layihələrinə maliyyə dəstəyi göstərir. Birləşmiş Ərəb Əmirlikləri İƏT-ə daim mühüm maddi və siyasi dəstək verən dövlətlər sırasındadır[55]. Bununla yanaşı, BƏƏ İƏT dövlətləri arasında Ticarət Təşkilatında əsas aktordur. Onun üzv dövlətlərlə ticarətinin həcmi xarici ticarətinin ümumi həcminin 27 faizini təşkil edir[56]. BƏƏ-nin üzv dövlətlərdən idxalatı xarici ticarətinin ümumi həcminin 16%-dir. Bu dövlətlərə ixracatının həcmi isə 36%, təkrar ixracatın həcmi 56% təşkil edir[57].

Eyni zamanda, yuxarıda qeyd edildiyi kimi, BƏƏ İƏT və Körfəz Əməkdaşlıq Şurasında Azərbaycanın mövqeyinin və əlaqələrinin dəstəklənməsinə yardım edə biləcək əsas dövlətlərdən biridir.

Küveyt dövləti ilə əlaqələr də Azərbaycanın müstəqilliyinin ilk illərindən etibarən sürətlə inkişaf etmişdir. Küveyt Qarabağda müharibə zamanı və ölkənin üzləşdiyi çətin ictimai-siyasi vəziyyətdə Azərbaycana humanitar yardımlar təqdim edən ilk dövlətlərdən biridir. Ümummilli lider Heydər Əliyev İƏT-in 1994-cü il dekabrın 13-də Mərakeşdə çağırılmış zirvə görüşü çərçivəsində Küveyt Dövlətinin Əmiri Şeyx Cabir Əhməd əs-Sabahla görüşərək ölkəsinin başlıca problemlərini müzakirə etmişdi (belə görüşün keçirilməsi də İƏT konfranslarının və sammitlərinin islam ölkələrinin rəhbərləri ilə əlaqələr qurmaq üçün Azərbaycanın siyasi elitasına yaratdığı nadir imkanlara başqa bir misaldır). Bu görüşdən sonra mərhum əmir Cabir Əhməd əl-Əhməd əs-Sabah Azərbaycan qaçqınlarına yardım olaraq ərzaq və tibb məhsulları ilə yüklü 5 təyyarənin göndərilməsinə göstəriş vermişdi[58]. Müxtəlif humanitar fondlar, xüsusilə Küveytin Asiya Müsəlmanları Komitəsi tərəfindən həyata keçirilən müxtəlif humanitar

55 Appreciating the generous donation from KSA, UAE and Turkey, Ihsanoglu: 389 projects are supported by ISF despite acute shortage of resources. - http://www.oic-oci.org/oicv2/topic/?t_id=8231&ref=3322&lan=en&x_key=June%2029,%202013; The OIC Secretary-General holds talks with His Highness the Foreign Minister of the United Arab Emirates. - http://www.oic-oci.org/oicold/press/English/2007/10/emarat.htm

56 27% of UAE foreign trade with OIC nations. /Emirates 24/7, 09.10.2010/ -http://www.emirates247.com/business/economy-finance/27-of-uae-foreign-trade-with-oic-nations-2010-10-09-1.301521

57 Basit A. UAE-OIC trade relations seen to further accelerate. /Khaleej Times 25.042011/ - http://www.khaleejtimes.com/article/20110425/ARTICLE/304259882/1036

58 Səfir Səud Əbdüləziz əl-Rumi: "Küveyt Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəkləyir". Euarisa Diary. /08.04.2016/ - http://eurasiadiary.com/ar/news/diplomacy/18889-

layihələr iki ölkənin yaxınlaşmasında xüsusi rol oynamışdır[59]. Bununla da iki xalqın mədəniyyətlərinin qarşılıqlı tanınmasına töhfə verən xalq diplomatiyası uğurla həyata keçirilmişdir. Həmçinin yuxarıda qeyd edildiyi kimi, Səudiyyə Ərəbistanı Krallığının xeyriyyə təşkilatları ilə yanaşı, Asiya Müsəlmanları Komitəsi qaçqınlar problemi və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konfransın təşkilatçılarından biri olmuşdur. Bu konfrans informasiya blokadasının qırılmasında, islam dünyasının Dağlıq Qarabağ problemi ilə tanış olmasında böyük rol oynamışdır[60]. Bakı, Gəncə və Ağdaşda azərbaycanlı qaçqınlar üçün məktəblər və yaşayış məskənləri inşa etməklə yanaşı, komitə Azərbaycanın müxtəlif rayonlarında təxminən 12 məscid tikmiş, Sovet İttifaqı dövründə uçurulmuş tarixi məscidləri bərpa etmişdir[61]. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın əsas dini idarəsi – Qafqaz Müsəlmanları İdarəsi Küveytin Vəqflər Nazirliyi və Asiya Müsəlmanları Komitəsi ilə təhsil, dini maarifçilik və mötədil islamçılıq ("vasatiyyə") sahəsində sıx əməkdaşlıq edir. Mədəni, dini və humanitar əlaqələrin inkişafına töhfə verdiyinə görə Küveytin keçmiş islam işləri və vəqf nazirinin müavini Adel Abdulla əl-Fələh Azərbaycan dövlətinin yüksək mükafatı olan "Dostluq" ordeni ilə təltif olunmuşdur[62].

Siyasi əlaqələr də, ictimai və mədəni əlaqələr kimi, yüksək səviyyədədir. Küveyt Dağlıq Qarabağ problemində Azərbaycanı dəstəkləyir, münaqişənin beynəlxalq hüquq və Azərbaycanın ərazi

59 Dr. Məhəmməd əl-Seyid Salim. Tarixi İpək Yolunun Küveyt "qapıları" tərəfindən bərpası onun dünyanın ticari və maliyyə mərkəzə çevrilməsinə xidmət edir. / "Anahhar" qəzeti, 25.09.2001/ - http://www.annaharkw.com/annahar/Article.aspx?id=292791

60 Speech of the Azerbaijan President Heydar Aliyev at the international conference devoted to the problems of refugees and Internally Displaced Persons in Azerbaijan - Baku, session hall of the Government House, October 16, 1996, Heydar Aliyev Heritage, International Library. - http://lib.aliyev-heritage.org/en/4540125.html

61 Asiya Müsəlmanları Komitəsi Azərbaycanda bir sıra inkişaf layihələri icra edib. Küveyt Xəbər Agentliyi (KUNA), 19 avqust, 2004/ - http://www.kuna.net.kw/ArticlePrintPage.aspx?id=1443156&language=ar; http://www.kuna.net.kw/ArticlePrintPage.aspx?id=1443156&language=ar; Dr. Məhəmməd əl-Seyid Salim. Tarixi İpək Yolunun Küveyt "qapıları" tərəfindən bərpası onun dünyanın ticari və maliyyə mərkəzinə çevrilməsinə xidmət edir. / "Anahhar" qəzeti, 25.09.2001/ - http://www.annaharkw.com/annahar/Article.aspx?id=292791

62 Adil əl-Fələh "Dostluq" medalı ilə mükafatlandırılaraq, Azərbaycandan qayıdıb: "Küveyt xeyriyyə fəaliyyətlərinə görə mükafatlandırılıb", may 2010-cu il, "Əl-Ray" qəzeti

bütövlüyü çərçivəsində həll edilməli olduğunu düşünür[63] . Həmçinin Azərbaycan da Küveytin İraq tərəfindən işğalı zamanı onu dəstəkləmişdir. Hər iki ölkə İƏT çərçivəsində əməkdaşlıq edir, beynəlxalq forumlarda müxtəlif problemlərin müzakirəsində bir-birinin mövqeyini müdafiə edirlər[64].

Azərbaycan–İƏT münasibətləri müasir dövrdə

Azərbaycanın İƏT-də bəzi əsas dövlətlərlə əlaqələrinə qısa nəzər saldıqdan sonra ölkəmizin İƏT-lə əlaqələrini gücləndirməyə davam etməli olması ilə bağlı fikrimizi şərh etməyə çalışacağıq. Bununla belə, konfliktlərin nizamlanmasında bu təşkilatın roluna yenidən baxmağa və aşağıdakı suallara cavab verməyə çalışacağıq: İƏT-in Dağlıq Qarabağ problemi ilə bağlı siyasətini uğurlu hesab edə bilərikmi?

Qeyd edildiyi kimi, İƏT-in çoxlu tənqidlərlə üzləşdiyinin şahidi oluruq. Bu təşkilatı ərəb və islam dünyasının müxtəlif ideoloji çevrələrinin nümayəndələri, solçular, islamçılar və liberallar tənqid edirlər. Ona yönəldilmiş əsas ittiham isə budur ki, İƏT bu vaxtadək köhnə problemlərin və islam dünyasının üzləşdiyi Fələstin problemi, Suriya böhranı, İraqda dini zəmində münaqişə, "Ərəb baharı"ndan yaranan hadisələr, ərəb dövlətlərində bəzi islam hərəkatları və hökumətləri arasında konflikt və s. kimi hazırkı münaqişələrin həlli ilə əlaqədar proqram ortaya qoya bilməmişdir[65].

Bununla yanaşı, təşkilat müəyyən problemlərin həllində uğursuz olsa belə, bu o demək deyildir ki, onun fəaliyyəti dayandırılmalıdır. Məsələn, BMT bir çox münaqişənin, xüsusilə Fələstin probleminin həllinə nail ola bilməmişdir. Buna baxmayaraq, heç kəs bu təşkilatın fəaliyyətini dayandırmalı olması haqqında ciddi şəkildə danışmır.

63 Küveyt əmiri Azərbaycana gələcək. Lenta.az, 28 iyun 2010. - http://news.lent.az/news/41938

64 Azərbaycan Respublikasının səfiri Şahin Abdullayev: "Küveyt bizə həm siyasi, həm də humanitar dəstək göstərir və əlaqələrimiz nümunəvi xarakter daşıyır". / "Annahar" qəzeti, 12.09.2008/ - http://www.annaharkw.com/annahar/Article.aspx?id=94417

65 Məsələn: "əl-Buti: "İƏT" məzmunu olmayan bir addır // https://www.youtube.com/watch?v=UfDphgxhED`; "Al-Jazeera": "İƏT öz hədəflərinə nail ola bildimi?" - http://www.aljazeera.net/reportslibrary/pages/065e0858-b2a3-4027-88f2-09db20777894; Sara Asif. OIC and its failure.// International The News, 18.12.2011/ - http://www.thenews.com.pk/Todays-News-6-82877-OIC-and-its-failure

Buna əlavə olaraq qeyd edilməlidir ki, bəzi tədqiqatçılara görə, İƏT uğurlu sülh təşəbbüsləri irəli sürmüşdür. Misal üçün, İƏT 1970-ci ildə Fələstin Azadlıq Təşkilatı ilə İordaniya hökuməti, 1974-cü ildə isə Pakistanla Banqladeş arasında konfliktlərin həllində fəal və uğurlu şəkildə iştirak etmişdir. Digər tərəfdən, İƏT 1974-cü ildə İsrailin tərəfdarlarına qarşı uğurlu neft qadağasının tətbiq olunmasındakı mövqeyinə görə adi müsəlmanların inamını qazanmışdı. Müasir dövrdə bəzi tədqiqatçılar Filippin hökuməti ilə Moro cəbhəsi[66], Tailand hökuməti ilə ölkənin cənub rayonlarındakı müsəlman azlıq[67] arasında barışığa nail olmaq üçün təşkilatın uğurlu cəhdlərini qeyd edirlər. Hər iki münaqişədə İƏT-in vasitəçiliyi ilə (konfliktlərin tam həlli ilə nəticələnməsə də) sülh razılıqları əldə edilmişdir.

Bununla yanaşı, problem bundadır ki, həqiqətən də İƏT münaqişələrin sülh yolu ilə həll olunması ilə bağlı razılıq əldə ediləndən sonra çox vaxt onların sabitliyini təmin edə bilmir və ya onları yekun həllə sona çatdırmağı bacarmır. Tədqiqatçılar İƏT-in münaqişələrin nizamlanmasında fəal şəkildə iştirak etməsinə mane olan bir neçə başlıca səbəbi qeyd edirlər:

1) BMT-nin Təhlükəsizlik Şurasının timsalında hökmün tətbiqi və ya həyata keçirilməsi üzrə hər hansı komitənin olmaması. İcraedici komitənin yaradılması haqqında aparılmış çoxsaylı müzakirələrə baxmayaraq, geosiyasi vəziyyət, dünyadakı qüvvələr balansı, İƏT-ə üzv ölkələr arasında yekdilliyin olmaması bu cür komitənin təşkil edilməsinə imkan verməyib.

2) İƏT-ə üzv bəzi aparıcı dövlətlər arasında dərin siyasi ziddiyyətlər (məsələn, İran və Səudiyyə Ərəbistanı qarşıdurması).

3) İƏT-ə üzv dövlətlərin elitasında təşkilatı Avropa İttifaqı timsalında regional quruma çevirməyə rəğbətin və istəyin olmaması.

4) İƏT-in və idarələrinin inzibati və təşkilati problemləri.

5) İƏT daxilində münaqişələrin nizamlanması ilə əlaqədar xüsusi qurumun (komitənin) mövcud olmaması.

İƏT işləməyə məcbur olduğu mürəkkəb ictimai-siyasi şəraitə

66 Sharqieh I. Can the Organization of Islamic Cooperation (OIC) Resolve Conflicts?, // Peace and Conflict Studies, Volume 19, Number 2, pp.163-165

67 Yenə orada, s.165-167

baxmayaraq, 2005-ci ildən başlayaraq öz strukturunda islahatlar və dəyişikliklər həyata keçirir. Misal üçün, 2005-ci il Məkkə sammitində İƏT-in gücləndirilməsi üçün "Onillik fəaliyyət proqramı" qəbul edilmişdir. Bu proqramın hədəfləri sırasında təşkilatın nizamnaməsinin yenilənməsi də vardır. 2008-ci ildə Dakar sammitində üzv dövlətlərin müzakirəsindən sonra təşkilatın yeni nizamnaməsi qəbul edilmişdir. Yeni nizamnamədə üzvlüklə bağlı tələblər aydın şəkildə belə müəyyənləşdirilmişdir: BMT-nin üzvü olan, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən, nizamnaməyə tabe olacağını öhdəsinə götürən dövlət İƏT Xarici İşlər Nazirləri Şurasının razılığı ilə təşkilata üzv seçilə bilər. Həmçinin yeni nizamnamə müşahidəçi statusu almaq istəyən dövlətlər üçün şərtləri asanlaşdırır. Nizamnamənin dəyişdirilməsindən sonra BMT və başqa təşkilatların üzvləri Xarici İşlər Nazirləri Şurasının razılaşdırılmış qərarı ilə müşahidəçi ola bilərlər.

Bütün problemlərə baxmayaraq, etiraf etməliyik ki, İƏT-in xüsusilə müasir dövrdə rolu artmağa başlamışdır. İƏT-in beynəlxalq sistemdə xüsusi rolu BMT ilə bağladığı əməkdaşlıq sazişində özünü göstərir. 2011-ci ildə İƏT Afrika Birliyi ilə əməkdaşlıq sazişi imzalamışdır. Həmçinin İƏT 2013-cü ilin ortalarında Brüsseldə Avropa İttifaqı yanında daimi müşahidəçi təyin etmişdir[68]. Bu müşahidəçi təşkilatın BMT-nin Nyu York və Cenevrədəki daimi müşahidəçi büroları ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir. Məsələn, Rusiya uzun illərdir İƏT üzvü olmağa hazır olduğunu bəyan edir. Nəhayət, o, 2005-ci ildə müşahidəçi statusu əldə etmiş, ABŞ isə 2007-ci ildə İƏT-ə xüsusi nümayəndəsini təyin etmişdir[69]. Bütün bu faktlar təşkilatın artan rolunu aydın şəkildə göstərir. Bütün mötəbər beynəlxalq təşkilatlar xüsusilə Yaxın Şərqdə sülh danışıqları, Afrika, Əfqanıstan, humanitar yardım məsələləri və s. ilə əlaqədar İƏT-lə əməkdaşlıqda maraqlıdırlar. Həqiqət budur ki, İƏT hazırkı dövrdə bütün problemlərə, çətinliklərə baxmayaraq, fəaliyyətini davam etdirən, diqqətdən kənar qalmayacaq və ya etinasız yanaşılmayacaq bir təşkilatdır.

İƏT-in Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında iştirakının uğurlu, yoxsa uğursuz olması barədə

68 OIC opens Brussels Office. // World Bulletin, 26 June 2013/ - http://www.worldbulletin.net/haber/111875/oic-opens-brussels-office

69 OIC – US Cooperation. - http://www.oicun.org/oicus/64/20110808013147562.html

məsələyə gəldikdə isə, hesab edirik ki, bu, uğurlu olmuşdur. Əlbəttə, tənqidçilər deyə bilər ki, İƏT-in qətnamələri məcburi deyil. Belə ki, onlar məcburi hüquqi akt ola bilməz, onların Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına birbaşa təsiri yoxdur. Bəli, İƏT Dağlıq Qarabağ problemi ilə bağlı indiyədək 22 qətnamə qəbul etmişdir. Bir sıra beynəlxalq təşkilatların qəbul etdikləri bütün qətnamələr kimi, o da münaqişədəki status-kvonu dəyişdirə bilməmişdir. Lakin bu qətnamələrin xüsusən Azərbaycan üçün əhəmiyyətinin səbəbini aydınlaşdırmaq məqsədilə onlara müxtəlif tərəflərdən baxmalıyıq. Birincisi, qeyd edildiyi kimi, bu qətnamələr müxtəlif beynəlxalq təşkilatların diqqətini münaqişəyə və Azərbaycanın mövqeyinə cəlb etdiyi üçün olduqca mühüm rol oynamışdır. İkincisi isə, bu qətnamələr məcburi təsirə malik olmasa da, Azərbaycanın mövqeyinə hüquqi dəstək vermişdir və BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat tərəfindən qəbul edilməsi onların əhəmiyyətini artırır.

Düzdür, kimsə deyə bilər ki, təşkilat münaqişənin nizamlanmasına çalışmadan və ya hədəf seçmədən Azərbaycanı sırf islam həmrəyliyi nöqteyi-nəzərindən dəstəkləyir. Lakin bu tezis düzgün deyil. Yuxarıda qeyd etdiyimiz kimi, İƏT-in Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələri yalnız islam həmrəyliyi çərçivəsində başa düşülməməlidir. Burada daha geniş kontekst və səbəblər var. Təbii, Azərbaycanda hesab edilir ki, İƏT-in qətnamələri və onun Ermənistanın təcavüzünü birmənalı olaraq açıq şəkildə tənqid etməsi, həmçinin Ermənistanı müstəqil dövlət kimi tanımayan Pakistanın, Ermənistanla diplomatik əlaqələr qurmayan Səudiyyə Ərəbistanı Krallığının mövqeləri islam həmrəyliyinin həqiqi mücəssəməsidir. Bundan başqa, BMT-nin üzvü olan ölkələrin çoxunun İƏT-də Dağlıq Qarabağ problemində Azərbaycanın xeyrinə səs verməsi, Azərbaycanın fikrincə, islam cəmiyyətlərinin, yaxud dövlətlərinin təcavüz və işğal qarşısında birləşdirilməsi və səfərbər edilməsində İƏT-in gücünü göstərir. Bütün bu faktlar təşkilatın özünün başlıca hədəflərindən birinin – islam həmrəyliyinin həyata keçirilməsində uğursuzluğa düçar olması iddialarını təkzib edir.

Lakin, fikrimizcə, İƏT təkcə islam həmrəyliyi ilə fəaliyyət göstərməklə kifayətlənmir. Əslində, bu beynəlxalq təşkilatın üzvü olan ölkələr

siyasətini yalnız dəyərlər və prinsiplər üzərində qura bilməz. Burada iki bir-biri ilə bağlı məsələni qeyd etmək lazımdır: bir tərəfdən İƏT öz qətnamələri ilə BMT-nin qəbul etdiyi qətnamələri özünün məntiqi sonluğuna çatdırmağa çağırır. Belə ki, dünya birliyi, BMT Azərbaycan Respublikasının ərazi bütövlüyünü, torpaqlarının Ermənistan tərəfindən işğalı faktını etiraf edirsə, BMT Təhlükəsizlik Şurasının qətnamələri Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını pisləyirsə, BMT Nizamnaməsinin 7-ci maddəsinə əsasən, Təhlükəsizlik Şurası Azərbaycanın işğal edilmiş torpaqlarından qoşunlarının çıxarılması üçün Ermənistanla bağlı bütün lazımi tədbirləri görməlidir. Digər tərəfdən, İƏT üzvü olan bir sıra ölkələr BMT kimi böyük beynəlxalq təşkilatların ikili standartlarının çox vaxt şahidi olur və onlardan əziyyət çəkir. Buna misal kimi Səudiyyə Ərəbistanı Krallığının Təhlükəsizlik Şurasının üzvlüyündən imtina etməsini qeyd edə bilərik. Səbəb isə budur ki, "BMT (Fələstin problemi, Suriya münaqişəsi, Yaxın Şərqin kütləvi qırğın silahından azad edilməsi kimi) problemləri həll etmək qüdrətində deyil"[70]. Beləliklə, İƏT-in Dağlıq Qarabağ probleminin həllinə dəstəyinə beynəlxalq hüquq çərçivəsində, üzv ölkələrin BMT-nin siyasətinə ciddi tənqidi mövqeyi kontekstində, BMT-nin beynəlxalq hüququn pozulmasının, təcavüzün və işğalın qarşısını almaqda fəaliyyətsizliyinə və mənfi mövqeyinə reaksiyası kimi baxmaq olar[71].

Deməli, Azərbaycanla İƏT arasındakı əlaqələr açıq şəkildə göstərir ki, əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən, işğala məruz qalan və ikili standartlardan əziyyət çəkən kiçik ölkə İƏT-lə əməkdaşlıqdan necə böyük siyasi dividend qazana bilir.

Təşkilatla Azərbaycan arasında əlaqələrin tarixinə nəzər salsaq görərik ki, Azərbaycan hökuməti, elitası, ziyalıların böyük hissəsi İƏT ideyasına ciddi şəkildə inanır və onu gücləndirmək istəyir. Hər şeydən əvvəl ona görə ki, İƏT islam dünyasında müstəmləkə dövründən (postkolonial) sonra yaranmış bir çox problemin həlli üçün təsis edilmişdir. Həqiqətən də, o, bu problemlərə cavab reaksiyası kimi formalaşmışdır. Azərbaycan

70 Saudi Arabia turns down UN Security Council seat. /BBC, 13.10.2013/ - http://www.bbc.com/news/world-middle-east-24580767

71 Arab League, OIC, Turkey, UAE join anti-UN chorus. //Arab News, 06.11.2013/ - http://www.arabnews.com/news/468329

Respublikasının başlıca siyasi problemləri, xüsusilə Dağlıq Qarabağ problemi müstəmləkəlikdən sonra yaranmışdır. Beləliklə, Azərbaycan elitası İƏT-in ali hədəflərini və məqsədlərini ciddi qəbul edir, bu təşkilatın nə üçün təsis edildiyini, nəyi hədəf seçdiyini və hara getdiyini çox yaxşı anlayır.

Buna dəlil kimi Azərbaycanın İƏT-in həyata keçirdiyi bütün layihələrdə və fəaliyyətlərdə iştirak etməsini göstərmək olar. Misal üçün, Azərbaycan son illərdə İƏT-ə üzv ölkələrin nazirlərinin 5 konfransına ev sahibliyi etmişdir. Məsələn, 2013-cü ildə Bakıda keçirilmiş İƏT-ə üzv ölkələrin əmək nazirlərinin konfransında təşkilata üzv dövlətlər arasında yeni imkanların yaradılması, əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Bakı Bəyannaməsi qəbul edilmişdir. 2014-cü ildə "İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin inkişafında qadınların rolu" mövzusunda nazirlər səviyyəsində V Beynəlxalq konfrans keçirilmişdir[72]. Qeyd edilməlidir ki, bunun müqabilində İƏT (İSESKO vasitəsilə) islam dünyası ilə sivilizasiyalararası dialoqda iştirak edən Avropa təşkilatları arasında mədəni körpü rolunu tamamilə Bakıya etibar etdiyini bildirmişdir. Misal üçün, bu kontekstdə Azərbaycan hökuməti tərəfindən "Bakı İslam dünyasının paytaxtı – 2009" layihəsi çərçivəsində Azərbaycanda və xarici ölkələrdə mədəniyyətlər və dinlərarası dialoqla bağlı 50-dən çox tədbir keçirilmişdir. Avropa təşkilatları ilə İƏT arasında qarşılıqlı anlaşma körpüsü kimi Bakının rolunu təcəssüm edən ən mühüm təşəbbüs "Bakı prosesi" adlanan layihədir. "Bakı prosesi"ni fərqləndirən xüsusi cəhət budur ki, o, mədəniyyətlərarası dialoq layihəsini Avropa Şurası və İSESKO dəyərləri və fəaliyyətləri əsasında birləşdirir. "Bakı prosesi" layihəsi BMT Baş Məclisinin 2001-ci ilin noyabrında qəbul etdiyi Sivilizasiyalararası Dialoq üzrə Beynəlxalq Proqrama, "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" (2005), İSESKO-nun 2004-cü ildə qəbul etdiyi "Mədəni müxtəliflik barədə İslam Bəyannaməsi", Avropa Şurasına üzv ölkələrin dövlət və hökumət başçılarının 3-cü Zirvə konfransının bəyannaməsi və fəaliyyət proqramına, həmçinin Avropa Şurasının 2008-ci ilin mayında

72 İƏT inkişafda qadın rolunu müzakirə edir. // "Ər-Riyad" qəzeti, 21.10.2014/ - http://www.alriyadh.com/986737

qəbul etdiyi "Mədəniyyətlərarası Dialoqa dair Ağ Kitab"a əsaslanır.

2017-ci ilin may ayında İƏT-in möhtəşəm idman hadisəsi – 4-cü İslam Həmrəyliyi Oyunları Bakıda keçiriləcək. Yarışlarda 24 idman növü üzrə 57 dövlətin idmançısının iştirak edəcəyi gözlənilir[73]. Bu Oyunlar böyük idman və ictimai əhəmiyyətlə yanaşı, həm də mühüm siyasi məna kəsb edir. İslam dünyasında münaqişələrin və ziddiyyətlərin hökm sürdüyü bir vaxtda bu böyük idman yarışını təşkil etməklə Azərbaycan İƏT-ə və onun birlik və həmrəylik ideyasına ciddi dəstək verir. Müxtəlif müsəlman ölkələrinin (aralarında münaqişələr və dərin ziddiyyətlər olsa da) idmançılarını və siyasi liderlərini bir platformada toplamaq və onları geniş idman layihəsinin iştirakçısı etmək Azərbaycanın "yumşaq diplomatiyası"nın bir təzahürüdür. Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İƏT-in Baş katibi ilə görüşündə dediyi sözlər fikrimizi bir daha təsdiqləyir: *"Biz islam həmrəyliyinin gücləndirilməsi üçün daha çox çalışacağıq. Azərbaycan 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarını qəbul edəcək. Bu, həmçinin birliyimizə verilən töhfədir. Çünki Oyunlar təkcə idman yarışı olmayacaq, eyni zamanda birliyimizin, müsəlman aləmində gənc nəsillərimizin həmrəyliyinin günləri olacaq"*[74].

Bununla yanaşı, Azərbaycan İƏT və BMT, AŞ PA və başqa beynəlxalq təşkilatlar arasında bir növ siyasi-mədəni körpü funksiyasını həyata keçirir. Məsələn, Nyu Yorkda 2013-cü il oktyabrın 28-də BMT tarixində ilk dəfə olaraq Azərbaycanın təşəbbüsü ilə "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda iclas təşkil edilmişdir. İclasın gündəliyində əsas məsələ BMT və İƏT arasında beynəlxalq sülh və təhlükəsizlik sferalarına dair əməkdaşlığın daha da gücləndirilməsi və birgə fəaliyyət üzrə müzakirələrin aparılması olub[75]. Həmçinin onu da

73 İslam Həmrəyliyi Oyunlarının rəsmi saytı. - https://www.baku2017.com/az/oyunlar/ihif

74 İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Baş katibi ilə görüşü olub. /06.04.2015/ - http://www.president.az/articles/14741

75 Nyu Yorkda Azərbaycanın təşəbbüsü ilə "BMT və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda yüksəksəviyyəli iclas keçirilmişdir. // "Respublika" qəzeti, 29.10.2013/ - http://www.respublica-news.az/index.php/siyas-t/item/229-nyu-yorkda-azaerbaydzan-n-taeshaebbusu-ilae-bmt-vae-islam-aemaekdashl-g-taeshkilat-aras-nda-taeraefdashl-g-aelagaelaerinin-zhudzlaendirilmaesi-moevzusunda-yuksaek-saeviyyaeli-idzlas-kechirilmishdir

qeyd edək ki, Azərbaycanın xüsusi tapşırıqlar üzrə səfiri Aqşin Mehdiyev İƏT-in Avropa İttifaqı yanında daimi müşahidəçisi vəzifəsini icra edir. Bu fakt İƏT ilə Azərbaycan arasında əlaqələrin və iki tərəf arasında etibarın səviyyəsinin aydın götəricisidir.

Nəticə

Azərbaycanın İƏT-lə əməkdaşlığı, onunla bağlı siyasəti və mövcud əlaqələrin nə üçün faydalı və uğurlu hesab edilə biləcəyini göstərən məqamları və səbəbləri aşağıdakı kimi xülasə etmək olar:

1) Birincisi, qeyd edildiyi kimi, İƏT keçən əsrin 90-cı illərində Azərbaycanın islam dünyasına açılan "pəncərəsi" olmuşdur. Bu təşkilat Azərbaycanın siyasi elitasını islam, ərəb ölkələrinin dövlət və hökumət başçılarına tanıda, onlarla siyasi və iqtisadi münasibətlərin qurulmasına dəstək ola bilmişdir.

2) İƏT Azərbaycanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasi mövqeyini və mesajını islam dünyasına çatdırmaq üçün mühüm platforma olmuşdur. Bundan əlavə, təşkilat islam ölkələrinin bu münaqişə ilə bağlı informasiyalarının genişləndirilməsi və gücləndirilməsinə, onların münaqişənin nizamlanması yollarının müzakirəsinə cəlb edilməsinə töhfəsini vermişdir.

3) Həmçinin İƏT Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyinin BMT və Avropa İttifaqı kimi təşkilatlara çatdırılması üçün əvəzolunmaz platforma olmuşdur. Xüsusən nəzərə alsaq ki, Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəllərində gənc postsovet ölkəsi və olduqca məhdud imkanlara malik idi.

4) İƏT-in müxtəlif təsisatları, xüsusilə Beynəlxalq İslam Xəbər Agentliyi (İİNA) Azərbaycandakı ictimai-siyasi vəziyyət, o cümlədən Dağlıq Qarabağla bağlı daha dolğun və mükəmməl fikir formalaşdırır. Fərqli baxışını və fərqli mövqeyini dünya mediasına çatdırmaq işində İƏT Azərbaycana kömək etmişdir.

5) Təşkilatın Azərbaycana iqtisadi yardım göstərilməsi ilə bağlı qəbul etdiyi qətnamələr qiyməti ölçülməyən dəstək idi. Belə ki, bu yardım düz vaxtında – şiddətli müharibə ərzində və ondan sonra edilmişdi.

6) Həqiqət budur ki, Avropa İttifaqı və ABŞ-la enerji və əməkdaşlıq diplomatiyası Bakının gözləntilərini doğrultmadı. Silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarmağa məcbur etmək üçün Qərb tərəfindən Ermənistana təzyiq göstərilmədi, ona sanksiyalar tətbiq edilmədi (məsələn, bunlar Ukrayna ilə bağlı siyasətinə görə Rusiyaya tətbiq edildi). Lakin bunun əvəzində qeyd edilməlidir ki, "Azərbaycanın ərazi bütövlüyünü bir daha vurğulayan, erməni qoşunlarının bütün işğal edilmiş torpaqlardan dərhal çıxarılmasını tələb edən" qətnamə ilə (qətnamə 2008-ci il martın 18-də qəbul edilib) bağlı BMT-nin Baş Assambleyasında keçirilən səsvermə zamanı bəzi Qərb dövlətlərinin mövqeləri Azərbaycan elitasını dərindən məyus etdi. Bu dövlətlər (Minsk Qrupunun həmsədrləri olan Rusiya, Fransa və ABŞ) Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanısalar da, Dağlıq Qarabağın müstəqilliyini tanımasalar da (başqa bütün dövlətlər kimi) qətnamənin əleyhinə səs verdilər. Bu kontekstdə həmin səsvermə və başqa təcrübələr Azərbaycanın siyasi elitasını onları anlamağa və onlara bəzi Qərb ölkələrinin siyasi qrupları tərəfindən Azərbaycana qarşı tətbiq edilən ikili standartlar siyasəti kimi baxmağa sövq edir. Nəticədə bu gün Azərbaycan siyasi elitası Minsk Qrupu dövlətlərinin, Vaşinqtonun, Brüsselin Azərbaycanın ərazi bütövlüyünü tanımasını yetərli saymır, çünki bu, 20 ildən artıq vaxt ərzində heç bir nəticə verməmişdir, Ermənistan işğal siyasətini davam etdirir. Azərbaycanın istədiyi budur ki, işğal şiddətlə, tam aydın şəkildə pislənsin, beynəlxalq hüquqa ehtiram göstərilsin, riayət edilsin, qoşunlarını işğal edilmiş torpaqlardan çıxaranadək Ermənistana beynəlxalq təzyiqlər göstərilsin, azərbaycanlı qaçqın və məcburi köçkünlərin Dağlıq Qarabağa geri qayıtması təmin edilsin. Demək olar ki, İƏT problemə münasibətdə eyni mövqeyi tutur, həmçinin BMT və digər beynəlxalq təşkilatlar vasitəsilə dünya birliyini Azərbaycana qarşı təcavüzün və işğalın dayandırılması üçün fəal və ciddi şəkildə hərəkətə keçməyə çağırır. Bu faktı nəzərə aldıqda, 2008-ci ildə BMT-də "Azərbaycanın işğal edilmiş torpaqlarında vəziyyət" adlı qətnamənin səsverməsində üzv dövlətlər arasında koordinasiya həyata keçirə bilmiş İƏT-in əhəmiyyəti daha da artır. Nəticədə təşkilatın üzv dövlətləri (28 dövlət) qətnamənin xeyrinə səs verdi. Həmçinin bu işi

Dağlıq Qarabağ problemi ilə bağlı keçirilmiş başqa səsvermələrdə də gördü.

Yuxarıda qeyd edilmiş bütün məsələləri nəzərə alaraq Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması sahəsində, bütün iqtisadi, mədəni, humanitar və digər inteqrativ layihələrində İƏT-lə əməkdaşlıq davam etdirilməlidir. Fikrimizcə, Azərbaycan elitası çox yaxşı başa düşür ki, hər şeydən əvvəl, İƏT münaqişənin beynəlxalq hüquq çərçivəsində həllini davamlı və ardıcıl şəkildə tələb etdiyi üçün bu beynəlxalq təşkilatın gücləndirilməsi və genişləndirilməsi Azərbaycanın milli maraqlarına uyğundur. Təşkilatla çoxşaxəli əməkdaşlıq çərçivəsində Azərbaycan hökuməti tərəfindən potensialın gücləndirilməsi, beynəlxalq təşkilatlar arasında tərəfdaşlığın qurulması, Dağlıq Qarabağ probleminin KİV-də təqdim olunması və çatdırılma işinin yaxşılaşdırması, beynəlxalq təşkilatlarda aktiv iştirak etməsi, İƏT-ə üzv ölkələrin qanunverici orqanlarında qətnamələrin qəbul edilməsi üçün var gücünü sərf etməsi, Minsk Qrupunun üzləşdiyi əsas problemləri və buraxdığı nöqsanları araşdıracaq və təhqiq edəcək komissiyanın formalaşdırılması, münaqişənin nizamlanması üçün yeni təkliflər və layihələr təqdim olunması məqsədəuyğun sayıla bilər. Eyni zamanda İƏT-in Qafqaz regionunda ən təhlükəli və böyük hərbi münaqişələrdən birinin nizamlanmasında iştirak səviyyəsini artırmasına, beynəlxalq təşkilat kimi nüfuzunu gücləndirməsinə, başqa beynəlxalq təşkilatları siyasətlərinə yenidən baxmağa, sonda ən mühüm nöqsanlarına diqqət yetirməyə sövq edə bilməsi sabitliyin və beynəlxalq hüququn güclənməsinə öz töhfəsini verəcək.

Azərbaycan–NATO münasibətləri

*Kamal Makili-Əliyev**

Giriş

Azərbaycan özünün çoxvektorlu xarici siyasət startegiyasını həyata keçirərkən təhlükəsizlik məsələlərinə hər zaman böyük diqqət ayırmışdır. Buna görə də Azərbaycan müasir dünyanın ən böyük hərbi alyansı – NATO ilə əlaqələrə xüsusi önəm vermiş və bu əməkdaşlığı səmərəli və balanslaşdırılmış xarici siyasət üçün vacib faktor hesab etmişdir.

Azərbaycanla NATO arasında ilk təmasların tarixi Azərbaycanın bir sıra Mərkəzi və Şərqi Avropa dövlətləri ilə birlikdə NATO-nun yeni yaradılmış məşvərətçi forumuna – Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən Avratlantik Tərəfdaşlıq Şurası) qoşulduğu 1992-ci ilin mart ayına təsadüf edir.

Azərbaycan Respublikası ilə NATO arasında məzmunlu tərəfdaşlığın əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 4 may 1994-cü il tarixində "Sülh naminə tərəfdaşlıq" (SNT) proqramının Çərçivə Sənədinin imzalanması ilə qoyulmuşdur. 1997-ci ildə Azərbaycan SNT Planlaşdırma və Analiz Prosesinə qoşulmuşdur.

Azərbaycan Respublikasının NATO ilə tərəfdaşlığı onun Avratlantik strukturlara inteqrasiya məqsədinə xidmət edir. Azərbaycan–NATO tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatları, meydana gələn təhlükəsizlik təhdidləri və əsas vurğusu müdafiə məsələlərinə yönələn genişspektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir. Qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında Azərbaycanın qarşılıqlı maraqlar əsasında NATO ilə əməkdaşlıq məsələsi Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası və Hərbi Doktrinasında öz əksini tapmışdır[1]. Beləliklə, Azərbaycanın

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin baş elmi işçisi, siyasi elmlər üzrə elmlər doktoru*

1 Azərbaycan Respublikasının Hərbi Doktrinası. / "Azərbaycan" qəzeti, 17 iyun 2010-cu il, s.3, 4. - http://anl.az/down/meqale/azerbaycan/2010/iyun/124735.htm; Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası, 2007. - http://migration.gov.az/images/pdf/026fa4b410a33801f3dd49643726cf2a.pdf

hərbi qanunvericiliyi NATO standartlarından faydalanaraq daha da təkmilləşdirilmişdir.

Əlaqələrin inkişafı

Azərbaycan fərdi tərəfdaşlıq məsələlərini özündə ehtiva edən əsas sənədlərdə əks olunmuş məqsəd və prinsiplərin yerinə yetirilməsi məqsədilə NATO-nun müvafiq tərəfdaşlıq mexanizmlərindən fəal şəkildə istifadə edir. Azərbaycanın NATO ilə fərdi tərəfdaşlığının məqsəd və prinsipləri əsas etibarilə Azərbaycanın SNT Təqdimat Sənədi (1996), Planlaşdırma və Analiz Prosesi (1997) və Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planında (2004) öz əksini tapmışdır. Bu sənədlərdə Azərbaycan Respublikası müdafiə və təhlükəsizlik sahəsində islahatlar aparılması, hərbi qüvvələrin NATO standartlarına uyğun inkişaf etdirilməsi, NATO əməliyyatlarında iştirak, enerji təhlükəsizliyinin təmin olunması, fövqəladə hallara hazırlıq, meydana çıxan təhlükəsizlik çağırışları ilə mübarizə, eləcə də ətraf mühit və ictimai diplomatiya sahələrində əməkdaşlıq niyyətini ifadə etmişdir. 1999-cu ildə Azərbaycan Kosovoda olan NATO-nun sülhməramlı əməliyyatlarına dəstək məqsədilə hərbi birlik göndərmişdir. Bu əməliyyatlarda iştirak vasitəsilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri NATO qoşunları ilə ortaq əməliyyatlar keçirilməsi təcrübəsi əldə etmiş, NATO standartları ilə yaxından tanış olmuş və sülhməramlı qoşunlarımızın peşəkarlıq səviyyəsini artırmışdır.

Azərbaycanın 2004-cü ildə qoşulduğu Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP) ikitərəfli tərəfdaşlığı sistemləşdirməyə və eləcə də qarşılıqlı maraq doğuran istənilən məsələ ilə bağlı əməkdaşlıq tədbirini razılaşdırmağa imkan verir. Azərbaycan I (2005-2007), II (2008-2010) və III (2012-2013) dövr NATO–Azərbaycan FTƏP sənədlərini başa çatdırmış, hazırda 2015-2016-cı illəri əhatə edən növbəti dövr üzrə sənədin hazırlanması prosesini davam etdirir.

2001-ci ildə Azərbaycan çoxmillətli "Qətiyyətli əməkdaşlıq – 2001" SNT hərbi təlimini həyata keçirmişdir. Növbəti il Azərbaycan Əfqanıstana NATO qüvvələrini dəstəkləmək məqsədilə hərbi birlik

göndərmişdir. 2003-cü ildə Azərbaycan Virtual İpək Yoluna qoşulmuş və növbəti il İstanbul zirvə görüşündə müttəfiq liderləri Qafqaza xüsusi diqqət ayırmışdılar. Belə ki, NATO-nun xüsusi nümayəndəsi və əlaqələndiricisi bölgəyə təyin olunmuşdu. Həmin il Prezident İlham Əliyev Brüsseldə Azərbaycanın ilk Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planını NATO-ya təqdim etmişdir. 2005-ci ildə Azərbaycan NATO ilə ilk dəfə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində əməkdaşlığa başlamışdır.

SNT Təqdimat Sənədi əsasında hazırlanan Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı çərçivəsində Azərbaycan hər il 200-dən artıq tədbirdə iştirak edir. Fərdi Tərəfdaşlıq və Əməkdaşlıq Proqramı NATO-ya üzv və bəzi tərəfdaş ölkələr tərəfindən təşkil edilən təcrübə mübadiləsi, hazırlığın artırılması, həmçinin ekspert müzakirələrinə xidmət edən tədbirlərdə iştiraka şərait yaradır. Digər mühüm mexanizm hərbi islahatlar, təlim və təhsil, standartların tətbiqi, NATO qüvvələrinin iştirakı ilə çoxmillətli əməliyyatlara və hərbi təlimlərə göndərilə biləcək qüvvələri müəyyənləşdirmək və qiymətləndirməkdə tərəfdaşlara yardım etməyi nəzərdə tutan Planlaşdırma və Analiz Prosesidir (PAP). PAP tərəfdaş ölkəyə NATO təcrübəsinə uyğun müdafiə planlamasının təşkil edilməsinə yardım edir. Azərbaycan hazırda əməliyyatlara hazırlıq və müdafiə planlaması üzrə "tərəfdaşlıq məqsədi" adlanan bir çox konkret tədbirləri həyata keçirir. O cümlədən NATO təcrübəsindən yararlanaraq Silahlı Qüvvələrin şəxsi heyətinin maddi-texniki təminat və təchizat səviyyəsinin artırılması, hərbi hissələrin yeni texnika ilə komplektləşdirilməsi, şəxsi heyətin hazırlıq səviyyəsinin artırılması, hərbi strategiya və planlaşdırma işinin təkmilləşdirilməsi və digər vacib tədbirlər həyata keçirilmişdir.

Siyasi dialoq

Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramının prinsiplərinə əsaslanmaqla NATO ilə ortaq maraq kəsb edən genişspektrli məsələlər üzrə siyasi dialoq aparır. Müxtəlif formatlarda və səviyyələrdə aparılan dialoq çərçivəsində tərəfdaşlıq, regional təhlükəsizlik, Ermənistan–

Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, NATO əməliyyatlarında iştirak, Əfqanıstanda təhlükəsizliyə töhfə, qarşıya çıxan digər təhlükəsizlik təhdidləri və s. aktual məsələlər müzakirə olunur, eləcə də praktiki əməkdaşlığın vəziyyətinə qiymət verilir. Qarşılıqlı anlayışa əsaslanan, yüksəksəviyyəli siyasi dialoq praktiki əməkdaşlıq sahəsində tərəqqini təşviq edir.

NATO və Azərbaycan demokratik, institusional və müdafiə islahatları və bir çox digər sahələrdə praktiki əməkdaşlığı fəal şəkildə inkişaf etdirirlər. Azərbaycanın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı, faktiki olaraq, Azərbaycan və NATO arasında əməkdaşlıq proqramını təsdiq edir[2].

Azərbaycan Avratlantik standartlara nail olmaq istəyir və eyni zamanda Avratlantik strukturlarla əməkdaşlığı genişləndirməyə çalışır. Buna görə də təhlükəsizlik sektorunda islahatlara və demokratik qurumların inkişafına dəstək NATO–Azərbaycan əməkdaşlığının əsas elementlərindən biridir.

NATO əməliyyatlarına dəstək

Əməkdaşlığın digər mühüm sahəsi NATO-nun əməliyyatlarına Azərbaycanın dəstəyidir. Hazırda Azərbaycan hərbçiləri Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrində (ISAF) iştirak edir[3]. Azərbaycan 1999-2008-ci illərdə Alyansın Kosovo əməliyyatına da qoşulmuşdur. İkitərəfli şəkildə ikiillik müddətə razılaşdırılmış Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı çərçivəsində birgə fəaliyyət, islahat planları və siyasi dialoq prosesləri açıqlanır. Əməkdaşlığın əsas sahələrinə yaxşı idarəetmə, müdafiə və təhlükəsizlik sektorlarına demokratik nəzarət, həmçinin müdafiə planlaşdırılması və büdcəsi, Silahlı Qüvvələrin strukturunun NATO standartlarına uyğun şəkildə təkmilləşdirilməsi də daxildir. İslahatların aparılmasını dəstəkləyən əməkdaşlıqdan

2 İslamova P. Azərbaycan–NATO: "Sülh Naminə Tərəfdaşlıq", "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı" və "Yeni Strategiya" əməkdaşlığı sferasında. // "Tarix və onun problemləri", № 1, 2014, s.171

3 Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı /AR Müdafiə Nazirliyi/ - http://www.mod.gov.az/index2.php?content=beynalxalq/4

başqa, Azərbaycanla NATO arasında əməkdaşlığın digər əsas məqsədi NATO-ya üzv ölkələrin qüvvələri ilə birlikdə çalışan Azərbaycan Silahlı Qüvvələrinin qabiliyyətini və bacarıqlarını inkişaf etdirməkdir.

Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramı, Planlaşdırma və Analiz Prosesi, Avratlantik Tərəfdaşlıq Şurası vasitəsilə NATO və tərəfdaş ölkələrlə digər sahələrdə də fəal əməkdaşlıq edir. Bu tipli əməkdaşlıq platformaları çərçivəsində tərəfdaş ölkələrlə münasibətlərin gücləndirilməsi müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq üçün yeni perspektivlər açır.

Təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq

Əməkdaşlığın əsas sahəsi təhlükəsizlikdir. SNT proqramı çərçivəsində Azərbaycan müntəzəm olaraq NATO-nun sülhə dəstək əməliyyatlarında iştirak edərək Avratlantik təhlükəsizliyə mühüm töhfə vermişdir. 1999-cu ildən 2008-ci ilədək Azərbaycan qoşunları NATO-nun Kosovo əməliyyatının (KFOR) tərkib hissəsi idi[4].

Azərbaycan 2002-ci ildən etibarən Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) əməliyyatlarını fəal şəkildə dəstəkləyir və buradakı hərbi qüvvələrinin sayını 95 nəfərə qədər artırmışdır. Azərbaycanın quru qoşunları, minaaxtaranları, feldşer və zabit kadrları Əfqanıstanda ISAF çərçivəsində Türkiyə şəxsi heyətinin tərkibində NATO qüvvələri ilə birgə xidmət edirlər. Azərbaycan həmçinin NATO–ƏMO (Əfqanıstan Milli Ordusu) Etimad Fonduna öz töhfəsini verir. Bununla da Azərbaycan təhlükəsizlik yardımı alıcısından onun təminatçısına – təhlükəsizlik sahəsində zəif inkişaf etmiş ölkədən inkişaf etmiş ölkəyə çevrilir.

Azərbaycan SNT proqramı çərçivəsində fəaliyyəti üçün hər layihəyə bir sıra hərbi birləşmələrini ayırmışdır. Onların arasında quru qoşunları, döyüşə və döyüş xidmətlərinə dəstək birləşmələri, həmçinin iki ortaölçülü nəqliyyat vertolyotu mövcuddur. Daxili qoşunların NATO ilə əməkdaşlığı çərçivəsində, öz növbəsində, NATO-nun əməliyyatları üçün müvafiq polis birləşməsi yaradılmışdır.

4 Yenə orada

Azərbaycan mühüm enerji infrastrukturunun mühafizəsi, terrorizmə qarşı mübarizə üzrə Avratlantika Tərəfdaşlıq Şurası formatında İşçi Qrupun sədri olmaqla bu sahədə öz töhfəsini verir. Belə töhfə NATO ilə kəşfiyyat və təhlil mübadiləsindən, NATO müttəfiqləri ilə birlikdə milli əks-terror təlim imkanlarını gücləndirməkdən, sərhəd və infrastruktur təhlükəsizliyinin təkmilləşdirilməsindən ibarətdir. Eyni zamanda NATO-nun terror təhlükəsi üzrə kəşfiyyat birləşməsi vasitəsilə aparılan informasiya mübadiləsi də inkişaf etdirilir. Hazırda Azərbaycan Terrorizmə qarşı Beynəlxalq Təlim Mərkəzinin yaradılması üçün çalışır. Bu, Azərbaycanın terrorizmə qarşı mübarizəyə verdiyi önəmi göstərir. Azərbaycanın bu sahədəki fəaliyyəti dünyada qlobal terrorizmə qarşı mübarizəyə liderlik edən ABŞ tərəfindən də xüsusi olaraq qeyd edilmişdir[5].

2006-cı ildə Avratlantik Mərkəzi (NATO-nun İnformasiya Mərkəzi) rəsmi olaraq Bakıda açılmışdır. Həmin il NATO SNT Etimad Fondu "Saloğlu" layihəsi çərçivəsində Ağstafa rayonunda yerləşən keçmiş hərbi bazadan partlamamış hərbi sursatları təmizləmək üçün fəaliyyətə başlamış və ondan sonra Azərbaycan Prezidenti İlham Əliyev NATO-nun Baş Qərargahına səfər etmişdir. 2008-ci ildə "Melanj" layihəsi uğurla yekunlamış, Azərbaycan və NATO ikinci FTƏP sənədi çərçivəsində birgə fəaliyyətlə bağlı razılığa gəlmiş, Azərbaycan qoşunlarını KFOR-dan geri çəkmiş və Azərbaycanın Əfqanıstanda olan hərbi kontingentinin sayı artırılaraq 45 nəfərə çatdırılmışdır. Beləliklə, Azərbaycanın daha çox əsgəri NATO-nun sülhməramlı əməliyyatlarında iştirak edə və bununla da müvafiq sülhyaratma təcrübəsi əldə edə bilər.

Azərbaycan NATO-nun bəzi üzv ölkələri (ABŞ, Fransa, Türkiyə) və regional tərəfdaş ölkələrlə (Qazaxıstan, Gürcüstan) əməkdaşlıq çərçivəsində dənizdə təhlükəsizliyin yaxşılaşdırılması və Xəzər dənizində qanunsuz fəaliyyətin azaldılması məqsədilə öz imkanlarını gücləndirməyə çalışır. NATO üzvləri isə həm də sərhəd təhlükəsizliyinin yaxşılaşdırılması üçün səyləri dəstəkləyir.

NATO-nun Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Avropada

5 Country Reports on Terrorism 2014, US Department of State, 2015, June. - http://www.state.gov/documents/organization/239631.pdf, s.87-88

Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Qrupu çərçivəsində aparılan danışıqlarda birbaşa rolu yoxdur. Lakin NATO-nun bu prosesə marağı vardır. Belə ki, NATO tərəfləri münaqişənin sülh yolu ilə həllinə yönəlmiş səylərini davam etdirməyə çağırır. Münaqişələrin sülh yolu ilə həlli NATO-nun əsas dəyəri və bütün tərəfdaş ölkələrin "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan zaman qəbul etdiyi əsas öhdəliklərdən biridir. Yuxarıda qeyd edilən münaqişədə NATO-nun marağı Azərbaycan üçün ərazi bütövlüyünün təsdiqi baxımından önəmlidir. Təşkilatın bu cür mövqeyi onun sammitlərinin bəyannamələrində də əksini tapmışdır[6].

Müdafiə və təhlükəsizlik sektorunda əməkdaşlıq Azərbaycan–NATO münasibətlərində vacib sahələrdən biridir. Bu sahədə islahatlar aparılması Azərbaycanın inkişafı, Avratlantik standartlara uyğun olması və eləcə də əməkdaşlığın inkişafı üçün çox vacibdir. Azərbaycan bu sahədə çox böyük təcrübəyə malik olan NATO-nun və onun müttəfiqlərinin köməyindən bəhrələnə bilər. Əsas prioritetlərdən biri silahlı qüvvələr üzərində demokratik və mülki nəzarətin gücləndirilməsidir. NATO Azərbaycanda davamlı demokratik islahatlar və institusional quruculuq proseslərinə dəstək verir.

2009-cu ildə Prezident İlham Əliyev NATO-nun Baş Qərargahına səfər etmiş və Şimali Atlantika Şurasının üzvləri ilə görüşlər keçirmişdir. Əfqanıstanda Azərbaycanın hərbi kontingentinin sayı iki dəfə artırılaraq 90 nəfərə çatdırılmışdır. 2010-cu ildə NATO ilə 3-cü Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının hazırlanması məqsədilə Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov NATO-nun Baş Qərargahına səfər etmişdir. Növbəti ildə partlamamış sursatı təmizləmək məqsədilə fəaliyyət göstərən 5 il yarımlıq SPS layihəsi iyun ayında tamamlanmış, NATO və Azərbaycan 3-cü Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı ilə bağlı razılığa gəlmişlər. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun Baş Qərargahına səfər etmişdir. Həmin il Azərbaycan Respublikasının Prezidenti NATO-

6 Chicago Summit Declaration, NATO, 2012. - http://www.nato.int/cps/en/natohq/official_texts_87593.htm?selectedLocale=en, par. 47; Wales Summit Declaration, NATO, 2014. - http://www.nato.int/cps/en/natohq/official_texts_112964.htm, par. 30; Warsaw Summit Communiqué, NATO, 2016. - http://www.nato.int/cps/en/natohq/official_texts_133169.htm, par. 24

nun rəhbərliyi altında Əfqanıstanda həyata keçirilən təhlükəsizlik missiyasını dəstəkləyən həmkarları ilə birlikdə NATO-nun Çikaqo sammitində iştirak etmişdir. 2012-ci il sentyabrın 7-də NATO-nun Baş katibi Anders Foq Rasmussen Azərbaycana səfər etmişdir[7].

NATO və fərdi müttəfiqlər Azərbaycanın seçilmiş birliklərini müttəfiq hərbi birləşmələri ilə qarşılıqlı fəaliyyət göstərə bilmək üçün inkişaf etdirməkdə davam edir. Azərbaycanın 1997-ci ildən bəri Planlaşdırma və Analiz Prosesində iştirakı sülhqoruyucu batalyonun fəaliyyətində faydalı olmuş və iki vertolyotun istifadəyə verilməsi potensial olaraq genişspektrli NATO əməliyyatları üçün istifadə oluna biləcək mobil batalyonun formalaşmasına artıq dəstək olur.

Təhsil və mülki-hərbi sahələrdə əməkdaşlıq

Müdafiə Nazirliyi Azərbaycanın hərbi təhsil strukturu və metodlarını NATO standartlarına uyğunlaşdırmaqda maraqlı olduğuna görə bu sahədə də məsləhətləşmələr davam edir. PAP prosesi ilə yanaşı NATO və Azərbaycan hərbi birliklərin NATO standartlarına uyğunlaşdırılması məqsədilə yenidən təşkili və hər bir silahlı qüvvənin maddi-texniki bazasının eyni zamanda idarəetmə və nəzarət imkanlarının inkişafı istiqamətində əməkdaşlıq edirlər.

NATO və Azərbaycan partlamamış silah-sursatın demilitarizasiyası istiqamətində əməkdaşlığı davam etdirirlər. 1991-ci ildə Ağstafa rayonunda keçmiş sovet hərbi obyektində baş verən partlayış böyük ərazıyə partlamamış sursatın yayılmasına səbəb olmuşdu. NATO-nun texniki və maliyyə dəstəyi ilə 5.68 milyon kvadratmetr çirklənmiş ərazi həm yerin üstündən, həm də torpağın altından təmizlənmişdir. Bundan əlavə, 640.000 ədəd partlamamış silah-sursat da təmizlənmişdir. Etimad Fondunun 5 il yarım davam edən layihəsi 2011-ci ilin iyun ayında tamamlanmışdır.

Daha bir layihə Ceyrançöl regionunda sovet dövründən qalmış partlamamış sursatın təmizlənməsi məqsədilə 2012-ci ildə həyata

7 Azərbaycan Xarici İşlər Nazirliyi 2012-ci ilin yekunlarını qiymətləndirib. /17.01.2013/ - http://az.trend.az/azerbaijan/politics/2109033.html

keçirilmişdir. Layihədə 28 ay ərzində ərazinin 19 kvadrat kilometrinin təmizlənməsi nəzərdə tutulurdu. Etimad Fondunun əvvəlki layihələri kimi, NAMSA layihəsi də idarəetməni həyata keçirir və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliklə birgə icraedici agentlik kimi fəaliyyət göstərir[8].

Avratlantik Fəlakətlərə Cavab Koordinasiya Mərkəzi (EADRCC) vasitəsilə NATO ilə əməkdaşlıq edən Azərbaycan öz mülki fövqəladə və fəlakət vəziyyətlərini idarə etmək imkanlarını inkişaf etdirir. Azərbaycanın xüsusi axtarış-xilasetmə taqımı EADRCC tərəfindən təşkil edilən bir sıra təlimlərdə iştirak etmişdir. Bundan əlavə, NATO və NATO-ya üzv dövlətlərdən olan Ali Mülki Fövqəladə Planlaşdırma Komitəsinin (AMFPK) ekspertləri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə idarəetmə, kimyəvi, bioloji, radioloji və nüvə müdafiəsi (CBRN) kimi bir sıra istiqamətlərdə məsləhətlər verirlər. Azərbaycan yüksək hazırlıqda olmaq və fəlakət xilasetmə əməliyyatlarında iştirak etmək üçün iki birlik (axtarış və xilasetmə, kimyəvi, bioloji, radioloji və nüvə müdafiəsi) hazırlayır.

"Sülh və təhlükəsizlik üçün elm" proqramı vasitəsilə Azərbaycan 30-a yaxın korporativ lahiyədən qrant mükafatları almış, 87 fəaliyyətdə aparıcı iştirakçı olmuş və hətta daha cox korporativ tədbirlərdə iştirakçı və natiqlər qismində iştirak etmişdir. Bu cür proqramlar Azərbaycanda müdafiə sektorunun, eləcə də mülki strukturların inkişaf etdirilməsi üçün həyata keçirilmişdir. Bu tədbirlər ölkənin təhlükəsizliyinin təmin edilməsi səviyyəsinin yüksəldilməsi baxımından çox vacibdir.

Layihələrə transsərhəd suların keyfiyyətinin yaxşılaşdırılması, içməli su ehtiyatlarının terror təhlükəsindən qorunması, Azərbaycandan keçən iki vacib boru kəmərinin seysmik təhlükəsizliyinin müəyyənləşdirilməsi və Cənubi Qafqaz regionunda seysmik zərərin və riskin azaldılması məqsədilə zəlzələnin nəticələrinin yüngülləşdirilməsi ilə bağlı əməkdaşlıq daxildir. Ölkənin zəruri infrastrukturlarına qarşı mümkün təhdidlərin qiymətləndirilməsi dövlət təhlükəsizliyinin önəmli hissəsidir. Bu sahədə

8 ANAMA-nın NATO/NAMSA-nın Sülh Naminə Tərəfdaşlıq Etimad Fondu ilə birgə reallaşdırdığı "Saloğlu" layihəsi başa çatmışdır. /Arxiv.az, 28.06.2011/ - http://arxiv.az/az/azertag.az/2976339/ANAMA-nin+NATO+NAMSAnin+Sulh+Namine+Terefdashliq+Etimad+Fondu+ile+birge+reallashdirdigi+Saloglu+layihesi+basha+catmishdir

NATO Azərbaycana öz təcrübəsi vasitəsilə dəstək göstərmişdir.

Bundan əlavə, 2009-cu ilin iyun ayında azərbaycanlı və xarici ekspertlər Bakıda keçirilən "Böhranın idarə olunması, milli qabiliyyətin formalaşdırılması: terrorizmə qarşı mübarizənin əsas elementi" adlı SPS təlim kursunda iştirak etmişlər[9].

Azərbaycan həmçinin Qafqaz və Mərkəzi Asiya ölkələrində peyk şəbəkəsi vasitəsilə internetə girişin artırılmasını nəzərdə tutan Virtual İpək Yolu lahiyəsində iştirak etmişdir.

NATO Melanj – əvvəllər Varşava Paktı ölkələri tərəfindən istifadə onunmuş yüksək dərəcədə zərərli və aşındırıcı raket yanacağı oksidləşdiricisi ehtiyatlarının zərərsiz kimyəvi maddəyə çevrilməsini dəstəkləmişdir. Azərbaycanın yardım üçün müraciətinə cavab olaraq NATO 2008-ci ilin iyul ayında nəql oluna bilən çevrilmə planı göndərmişdir. Bu layihə 2008-ci ildə uğurla başa çatmışdır.

Əməkdaşlıq üçün digər bir önəmli sahə informasiyaya çıxış imkanlarının, o cümlədən NATO və NATO–Azərbaycan əməkdaşlığının faydaları haqqında ictimai məlumatlılığın artırılmasıdır.

2003-cü ildən bəri NATO Bakıda yay məktəbinə sponsorluq edir. 2005-ci ildə NATO Beynəxalq Azərbaycan Məktəbinin (NISA) yaradılmasına yönəldilən proqramlar ilbəil inkişaf etdirilir. Seminar mövzularına Transatlantik enerji təhlükəsizliyi, regional və maliyyə təhlükəsizliyi kimi məsələlər daxildir. NISA ildə iki dəfə NATO ilə bağlı konfrans və təlimlər təşkil etməklə Azərbaycan və ondan kənarda yaşayan tələbələr üçün beynəlxalq təhlükəsizlik üzrə fəal və məhsuldar forum kimi fəaliyyət göstərməkdə davam edir. Azərbaycan Diplomatik Akademiyası da eyni zamanda NATO ilə əməkdaşlığı təşviq etməkdə cox fəaldır.

NATO qərargahlarına Azərbaycandan olan rəy formalaşdıranların səfərləri illik əsasda həyata keçirilir. Hər bir tərəfdaş ölkədə NATO-ya üzv ölkələrdən birinin səfirliyi əlaqələndirici – Alyansın rolu və siyasəti haqqında məlumat yaymaq üçün bir vasitəçi kimi fəaliyyət göstərir. Hazırda Azərbaycanın NATO ilə əlaqələndirici səfirliyi Rumıniya səfirliyidir.

9 NATO–Azerbaijan relations, Embassy of Romania in the Republic of Azerbaijan. - http://baku.mae.ro/en/node/284?page=5

Münasibətlərin bərabərtərəfli və bərabərhüquqlu səviyyəsi

Azərbaycan Respublikası ilə NATO arasında əməkdaşlığın əhəmiyyətini dəyərləndirməmək düzgün olmazdı. Dünyanın ən böyük hərbi alyansı ilə təhlükəsizlik sahəsindəki əməkdaşlıq ona görə əhəmiyyətlidir ki, geosiyasi baxımdan çətin qonşuluq vəziyyətində olan dövlətlər üçün transmilli təhdidlər çağırış xarakteri daşıyır. Azərbaycan üçün NATO-nun belə təhdidlərlə mübarizə təcrübəsi faydalıdır.

Əgər praqmatik nöqteyi-nəzəri kənara qoysaq, qeyd etmək lazımdir ki, Avropa dövlətlərindən ibarət bir təşkilat kimi NATO ilə bu platformada əməkdaşlıq həmin dövlətlərlə digər beynəlxalq təşkilatlarda (məsələn, BMT, ATƏT, Aİ, AŞ) olduğu kimi əməkdaşlıq etməyə əlavə üstünlük yaradır. Bu səbəbdən NATO ilə əməkdaşlığın inkişaf etdirilməsi həm də Avropa dövlətləri ilə ikitərəfli münasibətlərin dinamikasına müsbət təsir göstərir.

Az əhəmiyyət kəsb etməyən daha bir faktor odur ki, NATO-nun üzvü, eyni zamanda Azərbaycanın yaxın dostu olan Türkiyə bu təşkilatla əməkdaşlıqda Azərbaycanın maraqlarına uyğun münasibətlərin katalizatoru rolunda çıxış edir. Bunu nəzərə aldıqda NATO ilə əməkdaşlıqda həm də ona görə əminlik yaranır ki, münasibətlərimiz bərabərtərəfli və bərəbərhüquqlu səviyyədə inkişaf edir və hər hansı ikili standartlardan və ya təktərəfli qərarlardan uzaqdır.

Əsrin 1/4-dən çox müddətində beynəlxalq hərbi münaqişə vəziyyətində olan Azərbaycan Respublikası üçün hərbi sahədə NATO-nun zəngin təcrübəsi müdafiə və təhlükəsizlik baxımından da faydalıdır. Ümummilli lider Heydər Əliyevin və onun siyasi kursunun davamçısı Prezident İlham Əliyevin NATO standartlarının Azərbaycanın güc strukturlarında tətbiqinə dair apardığı siyasət ölkənin təhlükəsizlik sektorunun inkişafında müsbət nəticələrini vermişdir.

Azərbaycan Respublikasının xarici siyasətinin prioritlərindən biri kimi NATO ilə sıx əməkdaşlıq bu sahədə uzunmüddətli və zəngin təcrübəyə malik ekspert rəyləri tərəfindən də təsdiqlənir: "Azərbaycanın xarici siyasətində NATO, Avropa İttifaqı, Avropa Şurası da daxil olmaqla, Avropa və Transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya mühüm yer tutur... Azərbaycanın NATO ilə əlaqələri müsbət nəticələrini

verir. 1994-cü ildə NATO ərazi ələ keçirmək məqsədilə güc tətbiqini pislədi, Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə hörmət göstərməyin zəruriliyini vurğuladı... NATO-nun 2012-ci il Çikaqo sammitinin yekun bəyannaməsinin 47-ci maddəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənir. Həmin maddədə yazılıb: "Biz regional sabitliyi poza biləcək addımlardan qaçmağa çağırırıq, Azərbaycan, Gürcüstan, Ermənistan və Moldovanın ərazi bütövlüyünü, suverenliyini, həmçinin mövcud münaqişələrin beynəlxalq hüquq norma və prinsipləri əsasında, BMT Xartiyası, Helsinki Yekun Aktı çərçivəsində həllinə dair dinc səyləri dəstəkləyirik"[10].

Şübhəsiz ki, Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığının inkişaf etdirilməsi onun beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və təhlükəsizliyinin qorunub saxlanılmasına yardım göstərir. Qeyd olunanları nəzərə alaraq, bu təşkilatla intensiv və bərabərhüquqlu münasibətlərin inkişafına diqqət ayrılmalı və əməkdaşlığın digər mümkün platformaları müəyyən edilməlidir.

Nəticə

Azərbaycan–NATO əlaqələri artıq uzun inkişaf yolu keçib və hazırda da davam etməkdədir. Azərbaycan öz Silahlı Qüvvələrini və təhlükəsizlik sektorunu inkişaf etdirərkən NATO-nun müsbət təcrübəsindən geniş istifadə edir. NATO qüvvələri ilə uyğunluğun ən yüksək səviyyəyə çatdırılması üçün müvafiq addımlar atılır. NATO-nun təqdim etdiyi təhlükəsizlik sistemləri dünyanın inkişaf etmiş ölkələri tərəfindən tətbiq olunmaqdadır. Bu baxımdan Azərbaycan üçün Alyansla səmərəli əməkdaşlıq transsərhəd, dəniz və kiber sahələrdə təhlükəsizliyin təminatı baxımından faydalıdır. Digər tərəfdən, NATO üçün əhəmiyyətli starateji coğrafi mövqeyə malik, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanla tərəfdaşlıq çox önəmlidir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, hərbi və iqtisadi imkanları NATO tərəfindən yüksək qiymətləndirilir.

10 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.178, 207, 214-215. - http://newtimes.az/uploads/kitablar/N.Mammadov_-_Xarici_siyaset_-_realliqlar_ve_geleceye_baxish.pdf

Azərbaycanın xarici siyasətində Türk Şurasının yeri

*Cavid Vəliyev**

Giriş

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası *(TDƏŞ, qısa adı – Türk Şurası)* Mərkəzi Asiyanın türk dövlətləri, Azərbaycan və Türkiyə kimi üç coğrafi, siyasi və intellektual mərkəzin birləşməsi nəticəsində yaranmışdır. Coğrafi mövqeyinə görə Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətləri arasında yerləşən Azərbaycan türk dünyasının siyasətçiləri və ziyalıları arasında əməkdaşlıq və inteqrasiya ideyalarının ortaya çıxmasında həm birləşdirici, həm də aparıcı rol oynamışdır.

Türk dövlətləri arasında iqtisadi, mədəni və humanitar sahələrdə əməkdaşlığı inkişaf və maraqlarını koordinasiya etmək, regional təhlükəsizliyə dəstək vermək məqsədilə 2009-cu ildə qurulan Türk Şurasının (TŞ) yaradılması ideyasının əsası XIX əsrin sonu, XX əsrin əvvəllərində qoyulmuşdur. Rusiya və Osmanlı dövlətlərində yaşayıb fəaliyyət göstərən türk alimləri arasında türk xalqlarının gələcək əməkdaşlığı ilə bağlı davam edən müzakirələrdə Azərbaycan ziyalıları da aktiv iştirak edirdi. Azərbaycan Çar Rusiyasının hakimiyyəti altında olduğu üçün Osmanlı dövləti ərazisində yaşayıb fəaliyyət göstərən azərbaycanlı ziyalılar elmi əsərlərində ortaya qoyduqları fikirləri ilə bu ölkədə türkçülüyün yayılmasına ciddi təsir göstərirdilər. 1920-ci ildə Azərbaycanın bolşeviklər tərəfindən işğal olunması və 1923-cü ildə Türkiyə Cümhuriyyətinin qurulması ilə türkçülük hərəkatı Türkiyə–SSRİ münasibətlərinin kölgəsində qalmışdı. 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra Türkiyədən başqa 5 yeni müstəqil türk dövlətinin yaranması bu dövlətlər arasında inteqrasiya və əməkdaşlıq yollarının önünü açdı. Lakin siyasətçilər, dövlət xadimləri və ziyalıların bu məsələyə baxışları ikiyə ayrılmışdı. Onların bir qrupu bu dövlətlərin

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru*

bir-birinə sürətli şəkildə inteqrasiya etmələrinin vacibliyini müdafiə etdikləri halda, ikinci qrup əməkdaşlığın mərhələli şəkildə həyata keçirilməsinin tərəfdarı kimi çıxış edirdi.

1992-ci ildən başlayaraq türkdilli ölkələrin dövlət başçıları arasında zirvə görüşlərinin keçirilməsi ənənəsi yaranmışdır. Bu proses 10-cu Zirvə görüşü ilə müşayiət olunduqdan sonra 2009-cu ildə TDƏŞ-in yaranması ilə məntiqi izahını tapdı. Türk Şurası bu müddət ərzində (1992-2009) keçirilən zirvə götrüşləri nəticəsində türk dövlətləri arasında əməkdaşlığın institutlaşmış formasıdır. Azərbaycan həm türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin aktiv iştirakçısı, həm də Türk Şurasının dörd təsisçi üzvündən biridir. Türk dövlətləri arasındakı əməkdaşlıq çərçivəsində yaradılan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Forumu[1] kimi təşkilatlardan ikisi (TÜRKPA və Türk Mədəniyyəti və İrsi Fondu) Azərbaycanda yerləşir.

Coğrafi mövqeyi, siyasi türkçülüyün formalaşmasında və türk dünyasının mədəniyyət və dilinin inkişafında oynadığı rol Azərbaycanı Türk Şurası çərçivəsindəki əməkdaşlıq baxımından vacib ölkəyə çevirmişdir. Birincisi, Azərbaycan region dövlətləri, o cümlədən türk dövlətləri arasında əməkdaşlığa üstünlük verir. Türk Şurası isə türk dövlətləri arasındakı əməkdaşlıq üçün davamlılıq qazandırmışdır. İkincisi, Türk Şurası çərçivəsində dövlətlər arasında gömrük, ticarət, iqtisadiyyat və nəqliyyat sahəsindəki əməkdaşlıq regional əməkdaşlıq üçün yeni yollar açmışdır. Bu, Azərbaycanın qapalı quru dövləti olmaqdan çıxıb Qərblə Şərq arasında nəqliyyat körpüsü olmasına və türk dövlətləri ilə ticarət əlaqələrinin artmasına xidmət etmişdir. Üçüncüsü Azərbaycanın TDƏŞ-in qurucu üzvləri ilə tarixi köklərinin eyni olmasıdır. Dördüncüsü digər qlobal və regional təşkilatların regionda əməkdaşlıq imkanlarını artırmaqdan daha çox bəzi güclərin regional siyasətinə xidmət etmələri olmuşdur. Bu mənada Türk Şurası könüllülük əsasında qurulmuş, regionda digər dövlətlərin hegemonluq siyasətinə qarşı bir əməkdaşlıq çətiri olmuş və bu istiqamətdə fəaliyyət göstərən təşkilatları balanslaşdırmışdır.

1 TDƏŞ idarə strukturu. - http://www.turkkon.org/tr-TR/organizasyon-semasi/1/11

Bu araşdırma iki hissədən ibarətdir. Birinci hissədə Türk Şurası ideyasının ortaya çıxmasının və Sovet İttifaqının dağılmasından sonra türk dövlətləri arasında əməkdaşlıq ideyasının yenidən canlanmasının tarixi səbəbləri araşdırılır. İkinci hissədə isə Türk Şurasının yaranması, onun strukturu, şuraya bağlı fəaliyyət göstərən təşkilatlar və üzv dövlətlərin əməkdaşlıq sahələri nəzərdən keçirilir. Hər iki hissədə türk dünyasında inteqrasiya və əməkdaşlıq ideyasının ortaya çıxmasında, Türk Şurasının qurulmasında və türk dövlətlərinin əməkdaşlıq etməsində Azərbaycanın rolu xüsusi olaraq diqqət mərkəzində saxlanılmışdır.

Türk dünyasının birləşməsi ideyasının əsasları

Türkdilli xalqların vahid dövlətdə və ya təşkilatda birləşməsi ideyasının əsası XIX əsrin sonu, XX əsrin əvvəllərindən etibarən türk dünyasının ziyalıları arasında davam edən müzakirələr zamanı qoyulmuşdu. Türk ziyalıları bu düşüncəni dəstəkləmək üçün fərqli nəzəriyyələr yaratmış və əsərlər yazmışlar. XIX əsrin əvvəllərindən etibarən Fransa inqilabı və Avropada yaşanan "millətləşmə" prosesi Osmanlı dövlətində və Rusiyada türk millətçiliyini müdafiə edən ziyalıların ortaya çıxmasına və onların dil, təhsil, insan haqları, hüquq və ədalət sahəsində mübarizə aparmaq üçün təşkilatlanmalarına səbəb olmuşdur. XIX əsrin birinci yarısında Azərbaycanda Mirzə Fətəli Axundovun türk xalqlarının ərəb əlfibasından latın əlifbasına keçməsini müdafiə etməsi və 1863-cü ildə Osmanlı dövlətinə gedərək latın əlfibası ilə bağlı layihəsini təqdim etməsi[2] bu prosesin başlanğıcı kimi qəbul edilir. Bunun ardından Həsən bəy Zərdabinin Azərbaycan türkcəsində çap etdirdiyi "Əkinçi" qəzeti türkçülük düşüncəsini müdafiə edənlər üçün bir ilham qaynağı olmuşdur. "Əkinçi" qəzeti Rusiya hakimiyyəti altında yaşayan türk xalqlarının başda dil, tarix və ədəbiyyat olmaqla mədəni dəyərləri baxımından milli düşüncənin yaranması və bunun uğrunda aparılan mübarizənin uğurla nəticələnməsi üçün vacib rol oynamışdı.

2 Mirze Feteli Ahundzade. - http://ekitap.kulturturizm.gov.tr/Eklenti/11005,mirzefeteliahunzadepdf.pdf?0

Türkdilli ölkələr arasında daha geniş əməkdaşlıq, ümumiyyətlə, Çar Rusiyasının hakimiyyəti altında yaşayan türklərin mədəni hüquqlarının qorunması fikri XX əsrin əvvəllərində Osmanlı dövlətinə köçən türk ziyalılarının geniş müzakirəsinə səbəb olmuşdur. Çar Rusiyasından Osmanlı dövlətinə köçüb gələn İsmayıl bəy Qaspıralı, Əhməd Ağaoğlu, Yusuf Akçura və Əli bəy Hüseynzadə kimi ziyalıların əsərləri türklərin gündəminə "millət" anlayışını daxil edərək bu prosesi sürətləndirmişdir[3]. İsmayıl bəy Qaspıralının "Dildə, fikirdə, işdə birlik" ideyası dilə və mədəniyyətə əsaslanırdı. Bu səbəbdən o, türkçülüyün banisi kimi qəbul edilir. İsmayıl bəy Qaspıralı bütün türklərin anlaya biləcəyi ortaq dilin əhəmiyyətini qeyd etmişdir. Onun fikrincə, bütün türklərin birləşə bilməsi üçün, əvvəla, onlar ilk növbədə "ümmət olmaq" fikrindən qurtulub "millət olmaq" fikrinə sahib olmalıdırlar[4]. Yusuf Akçura türklərin digər millətlər arasında varlığını qoruya bilməsi üçün onların birləşməsini müdafiə etmişdir[5].

Bu fikirlər 1908-ci ildə Osmanlı dövlətində İttihadi-Tərəqqinin hakimiyyətə gəlməsi ilə daha geniş müstəvidə müzakirəyə çıxarılmışdı. Osmanlı dövlətinin parçalanmasının qarşısının alınması üçün müzakirə olunan "Osmanlıçılıq, islamçılıq və türkçülük" fikirləri arasında türkçülüyün Osmanlı dövləti ilə Çar Rusiyası arasında yaşanan müharibədən sonra rəsmi tezis olaraq müdafiə olunduğunu izləmək mümkündür[6]. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə türkçülük düşüncəsi yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur.

1921-ci ildə Türkiyə Respublikası ilə Sovet İttifaqı arasında imzalanan "Dostluq və qardaşlıq haqqında Moskva Müqaviləsi"nin şərtlərinə görə, Türkiyə və RSFSR öz ərazilərində digər dövlətlərə qarşı fəaliyyətə imkan verməməli idilər. Məhz buna görə də Türkiyə Sovet İttifaqı sərhədləri daxilindəki türkçülük hərəkatlarını, öz növbəsində, RSFSR də Türkiyə Respublikası daxilindəki kommunist qrupların fəaliyyətini

3 Attar A. ve Şimşir S. Tarihten Günümüze Türkiye`de Yaşayan Azerbaycan Türkleri. Ankara: Berikan, 2013, s.81

4 Kırımlı H. Dilde, fikirde, işte birlik. /23.07.2016/ - http://www.tded.org.tr/images/logo/x/ismail_gaspirali.pdf

5 Akçura Y. Üç Tarz-ı Siyaset. Otken Yayınları, 2015

6 Zürcher Jan Erik. Modernleşen Türkiye`nin Tarihi. /Tərcümə: Yasemin Saner/. 29. Neşr, İstanbul: İletişim Yayınevi, 2013, s.196-197

dəstəkləməmişdir. Bu tarixdən sonra Türkiyə Respublikası türk dünyası ilə əlaqədar rəsmi açıqlama verməmişdir. Azərbaycan və Mərkəzi Asiya respublikalarının Sovet İttifaqının tərkibində qaldığı dövrdə isə bu fikirlər çox dar çərçivədə müzakirə olunmuşdur.

1923-cü ildə Türkiyə Respublikasının yaranması ilə türkçülük düşüncəsi Anadolu türkçülüyü düşüncəsinə çevrilmişdir. Türklərin birləşməsi ideyasını müdafiə edənlər Türkiyə Respublikasının simasında bunu həyata keçirməyə çalışırdılar. Lakin Anadolu türklərinin Azərbaycan və Mərkəzi Asiya türkləri ilə münasibətləri Türkiyə–Rusiya və Türkiyə–Sovet İttifaqı münasibətlərinin səviyyəsinə görə dəyişmişdir.

TŞ-nin nəzəri əsası: konstruktivizm

2009-cu ildə imzalanan Naxçıvan Sazişinin preambulasında xalqlar arasındakı tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq türkdilli ölkələrin Türk Şurasını qurduqları yazılmışdır. Prezidentlərin açıqlamasında və zirvə görüşlərində qəbul edilmiş bəyannamələrdə də ortaq mədəniyyət, dil və tarix kimi dəyərlərə üstünlük verilmişdir. 1995-ci ildə türkdilli ölkələrin dövlət başçılarının Bişkekdə keçirilən 3-cü Zirvə görüşündə Ümummilli lider Heydər Əliyev türk dövlətləri arasındakı əməkdaşlığın əsaslarını bu cür izah etmişdir: "...Mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün çox geniş imkanlara malikdirlər"[7]. Bu, Türk Şurasını digər regional əməkdaşlıq təşkilatlarından ayıran əsas xüsusiyyətdir. Beynəlxalq münasibətlər nəzəriyyəsi baxımından dövlətlərarası münasibətləri bu cür izah edən nəzəriyyə 1991-ci ildən sonra *konstruktivizm* olmuşdur.

Beynəlxalq münasibətləri meydana gətirən aktorların davranışlarının təhlili baxımından konstruktivizm beynəlxalq münasibətlərin digər nəzəriyyələrindən fərqlənir. Belə ki, konstruktivizm normalar, qaydalar, mədəniyyət, milli identiklik və dil kimi elementlərə üstünlük verir[8].

7 Heydər Əliyevin türkdilli dövlət başçılarının 3-cü zirvə toplantısında çıxışı.- http://heydaraliyevcenter.az/#17_Cixislar_3

8 Sezgin K. Uluslararası İlişkilerde Konstrüktivist Yaklaşımlar. // Ankara Universiteti, SBF Dergisi, 2008, № 63:3, (ss. 83-111), s.106

Konstruktivizm nəzəriyyəsində dövlətlərarası münasibətlər hərbi güc deyil, milli identiklik, mədəniyyət, sosial və intellektual münasibətlər prizmasından izah edilir. Bu nəzəriyyənin yaradıcılarından olan Alexandr Vendt "milli identiklik maraqların əsasıdır" fikrini ortaya ataraq, əslində, yeni bir müzakirəyə yol açmışdır[9].

Yəni konstruktivizmə görə, realizm və liberalizmin müdafiə etdiyi kimi, güc ticarət və iqtisadiyyat kimi maddi vasitələrlə deyil, ideyaların dünya siyasətindəki təsiri və oynadıqları rol üzərində qurulur. Bu vasitələr beynəlxalq münasibətlərin konstruksiyasını meydana gətirir. Öz növbəsində, dövlətlərin davranışlarını milli identiklik və maraqları da formalaşdırır. Bu mənada onlar üçün beynəlxalq münasibətlərin təhlili mədəniyyətlə başlayıb, güc və maraqlara istiqamətlənməlidir[10]. "Soyuq müharibə"dən sonra ortaya çıxan bu nəzəriyyə türk dövlətləri arasındakı münasibətlər üçün bir çərçivə oldu və onları bir araya gətirən Türk Şurasında əsas diqqət yetirilən mədəniyyət, tarix və dil kimi dəyərlər əsas rol oynadı[11].

TŞ-nin üç mərkəzi və "heartland"i Azərbaycan

Türk Şurasını meydana gətirən üç geosiyasi, geoiqtisadi və intellektual mərkəz mövcuddur. Türk dövlətlərini geosiyasi təcriddən xilas edib Qərbin əsas enerji və ticarət bazarına çıxaran mərkəz Türkiyə olmuşdur. Azərbaycan türk dövlətlərinin şah damarıdır və Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətləri arasında birləşdirici rol oynayır. Mərkəzi Asiya dövlətləri isə Azərbaycan və Türkiyənin dünya siyasətində geosiyasi dəyərini artıran, onları Asiya dövlətləri ilə birləşdirən zəncirin halqalarıdır.

Sovet İttifaqının süqutundan sonra Türkiyədə və digər müstəqil 5 türk respublikasında əməkdaşlığın qurulması yolları ilə bağlı iki cür yanaşma

9 Samet Y. The Role of Tourism in Turkic World in the Terms of International Relations(IR): A Social Constructivist Approach, I. Uluslararası Türk Dünyası Turizm Sempozyumu, 19-21 kasım 2015. Bildiriler Kitabı, ss. 51-60. s.53

10 Sezgin K. Uluslararası İlişkilerde Konstrüktivist Yaklaşımlar, Ankara Universiteti, SBF Dergisi, 2008, 63:3. ss. 83-111. S.100

11 Samet Y. The Role of Tourism in Turkic World in the Terms of International Relations(IR): A Social Constructivist Approach, I. Uluslararası Türk Dünyası Turizm Sempozyumu, 19-21 noyabr 2015. Bildiriler Kitabı, (ss. 51-60), s.53

mövcud olmuşdur. Birinci yanaşma daha çox idealist mövqeli olub, qısa müddətdə türk dövlətlərinin birləşməsini, xarici siyasət, təhlükəsizlik, iqtisadiyyat və enerji məsələlərində birgə siyasət yürütməyi müdafiə etmişdir. Bu yanaşma türk millətçiliyi ilə rus və fars millətçiliyi arasında regionda bir rəqabət olduğunu və türklərin eyni zamanda bunlara qarşı da birləşdiyini müdafiə etmişdir. 1991-1992-ci illərdə Azərbaycanda hakimiyyətdə olan Prezident Əbülfəz Elçibəy və tərəfdarları türk dünyası ilə əməkdaşlıq baxımından bu qrupu təmsil etmişlər[12].

İkinci yanaşma isə daha çox praqmatist mövqeli olub, regiondakı real siyasəti nəzərə alaraq türk dövlətləri arasında əməkdaşlığın inkişaf yollarını axtarmışdır. Azərbaycanda 1993-cü ildə yenidən hakimiyyətə gələn Heydər Əliyev ikinci qrupu təmsil etmişdir. Bu mövqeyin tərəfdarları türk dövlətləri arasında əməkdaşlığın beynəlxalq sistemə və regionun digər dövlətlərinə qarşı yönəlmədiyini müdafiə etmiş və hətta regionun digər dövlətləri ilə əməkdaşlığın türk dövlətləri üçün faydalı olduğunu düşünmüşlər. Bu mənada Heydər Əliyevin türk dövlətləri arasında əməkdaşlıq siyasəti Türkiyə Prezidenti Süleyman Dəmirəl və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə oxşarlıq təşkil etmiş və Türk Şurasının siyasi əsaslarının qurulmasında bu üç lider arasındakı dostluq və onların real siyasət anlayışı əsas rol oynamışdır.

Azərbaycan türk dövlətləri arasındakı əməkdaşlığın yalnız ortaq dil, tarix və mədəniyyətə əsaslandığını qəbul etmir. Eyni zamanda bu dövlətlərin ortaq problemləri olduğunu da qeyd edir və bunun üçün onları ortaq məqsədə qulluq etməyə çağırır. Bu dövlətlər, əslində, XIX əsrin əvvəllərindən etibarən eyni tale yaşayıblar. SSRİ-nin dağılması nəticəsində müstəqilliklərini əldə etmələrinə baxmayaraq, hələ də bəzi dövlətlərin onları suveren dövlət olaraq qəbul etməməsi ortaq taleyin işarələri olmuşdur. Heydər Əliyev 3-cü zirvə görüşündəki çıxışında bunları qeyd etmişdir: "Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi – bütün bunlar bizim strateji əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə

12 Ergün A. Azerbaycan`da Sovyet Sonrası dönemde Değişim ve Dönüşüm", der. Aydın Mustafa. Kafkaslar Değişim Dönüşüm, (Avrasya Üçlemesi III). Ankara: Nobel Yayınları, 2012, (ss.7-41), s. 36. Shaffer Brenda. Foreign Policies of the States of the Caucasus: Evolution in the Post-Soviet Period. Uluslararası İlişkiler, Volume 7, No 26 (Summer 2010), (pp. 51-65), p.56-57

nikbin baxmağa imkan verir"[13]. Qeyd edildiyi kimi, Azərbaycan xarici siyasətinin əsas determinantlarından biri sahib olduğu coğrafi mövqedir. Azərbaycanın bir tərəfdən Naxçıvan vasitəsilə Türkiyəyə, digər tərəfdən Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın türk dövlətlərinə çıxışı var. Bu səbəbdən Azərbaycan türk dünyası arasında birləşdirici mövqeyə malikdir. Məşhur geosiyasət nəzəriyyəçisi Makkinderin dünya siyasətində Avrasiya coğrafiyasının yerini izah etmək üçün istifadə etdiyi "heartland"[14] ifadəsi türk dünyasının geosiyasətində Azərbaycanın mövqeyini izah etmək üçün istifadə oluna bilər. Azərbaycan coğrafiyasının (ərazisinin) başqa bir gücün nəzarətinə keçməsi Mərkəzi Asiyanın türk dövlətləri ilə Türkiyə arasında fiziki əlaqələrin qopmasına yol açа bilər. Azərbaycanın Zəngəzur mahalının məhz bu səbəbdən Ermənistana verilməsini düşünən tarixçi və siyasətçilər kifayət qədərdir. Prezident İlham Əliyevin "Zəngəzurun Azərbaycandan ayrılıb Ermənistana verilməsi ilə türk dünyası iki yerə bölündü"[15] sözlərini xüsusi olaraq vurğulaması bu fikri bir daha təsdiqləyir. Sadəcə olaraq ortaq mədəniyyət, dil və tarix deyil, eyni zamanda müstəqilliyini yeni qazandığı gündən etibarən Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursu və layihələr onun türk dünyası ilə əməkdaşlığını zəruri etmişdir. Azərbaycan coğrafiyasına nəzarət edən bir oyunçu bütün türk dünyası arasında əlaqəni kəsə biləcəyi kimi, eyni zamanda türk dünyasına nəzarət etmək imkanına da sahib olacaqdır[16]. Türkiyə Respublikasının keçmiş xarici işlər və daha sonra Baş naziri olmuş, məşhur "Strateji dərinlik" kitabının müəllifi professor Əhməd Davudoğlu Azərbaycanı Qafqaz bölgəsində yerləşməsinə baxmayaraq, Xəzər dənizinə çıxışı və geomədəni bağlantısı olması səbəbindən Orta

13 Heydər Əliyevin türkdilli dövlət başçılarının 3-cü zirvə toplantısında çıxışı. - http://heydaraliyevcenter.az/#17_Cixislar_3

14 Makkinderə görə, "Dünya adası"nda tarixi olaraq bütün geosiyasi transformasiyaların yaşanmasında Heartland (Avrasiya coğrafiyası) əsas rol oynamışdır. Heartland – ən sərfəli geosiyasi mövqeyə sahib olmaqdır. Bu konsepsiyanı "mərkəzi mövqe" kimi də tərcümə etmək olar. Bu mənada Avrasiya kontinenti dünyanın mərkəzində yerləşir. Makkinderin tərifi prizmasından baxanda, Avrasiya coğrafiyasına malik bir oyunçu dünyaya və planetimizə nəzarət etmək üçün bütün geosiyasi və iqtisadi imkanlara sahib olacaqdır. Bax: Halford J. Mackinder. The Round World and the Winning of the Peace. // Foreign Affairs, Vol. 21, No. 4 (1943), pp.595-605

15 Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Prezident İlham Əliyevin nitqi. /08 aprel 2014-cü il/ - http://www.president.az/articles/11477

16 Brzezinski Z. Büyük Satranç Tahtası, Amerika`nın küresel üstünlüğü ve bunun jeostratejik gereklilikleri / ter. Yelda Türedi/. İstanbul: İnkilap Yayınevi, 2005, s.179, 199

Asiya coğrafiyasının bir davamı olaraq görür[17]. Ə.Davudoğluya görə, Azərbaycan Rusiya, Türkiyə və İran arasında labirint mövqedədir[18]. Onun fikrincə, Azərbaycan Türkiyənin Xəzər dənizi siyasətini müəyyən edəcək gücə sahibdir[19]. Cənubi Qafqazda olduğu kimi, Xəzər hövzəsində də güclü olmaq istəyən dövlətin Azərbaycanın mövqeyini nəzərə alması vacibdir.

Makkinderin tərifinə əsasən deyə bilərik ki, türk dünyasında "əlverişli geosiyasi mövqe"yə sahib olması Azərbaycana ayrıca dividendlər qazandırmışdır. Azərbaycan Mərkəzi Asiyanın türk dövlətlərini Avropaya birləşdirən enerji və nəqliyyat xətləri vasitəsilə həm də Asiya ilə Qərb arasında körpü rolunu oynayan dövlətə çevrilmişdir. 1992-ci ildən etibarən keçirilən zirvə görüşlərinin bəyannamələrinə baxanda Azərbaycanın türk dövlətləri arasında əməkdaşlıqda coğrafi mövqeyinin mühüm rol oynadığını görmək mümkündür. Əslində, belə demək mümkünsə, türk dünyasında coğrafi mövqeyinin vacibliyi Azərbaycanı coğrafi təcriddən qurtararaq Şərqlə Qərb arasında vacib bir geosiyasi oyunçuya çevirmişdir. Azərbaycan xarici siyasətinin əsas prioritetlərindən ikisi – ölkənin enerji və nəqliyyat dəhlizinə çevrilmə planları Türk Şurasına üzvlüyü və Türkiyə ilə Mərkəzi Asiyanın türk dövlətləri ilə yaxından əlaqəli olmuşdur. Azərbaycan–Türkiyə və Azərbaycan–Qazaxıstan münasibətləri Azərbaycanın türk dünyası ilə əməkdaşlıq yollarını genişləndirmişdir.

Türk dünyasının geostrateji əhəmiyyətini artıran Mərkəzi Asiya respublikaları

1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra müstəqilliyini yenidən qazanan 15 respublika arasında 5 türkdilli respublika (Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan və Qırğızıstan) da var idi. Sovet İttifaqının dağılması mərhələsində millətçi hərəkatlar vacib rol oynamışdı və bu səbəbdən bu respublikalarda da millətçilik ictimaiyyətin siyasi düşüncəsini formalaşdıran əsas hərəkatlardan biri

17 Davudoğlu A. Stratejik Derinlik, 34-cü Çap. İstanbul: Küre Yayınları, 2009, s.464
18 Yenə orada, s.486
19 Yenə orada, s.317

olmuşdur. Ortaq tarixin yazılması və dərs kitablarının hazırlanması kimi təkliflər Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Özbəkistan Prezidenti İslam Kərimov tərəfindən səsləndirilmişdir[20].

Lakin Sovet İttifaqının mövcud olduğu dövrdə türk dövlətlərinin nəqliyyat, enerji, kommunikasiya xətləri Rusiya Federasiyasının ərazisindən keçəcək şəkildə təşkil olunmuşdu. Bu xətlər Rusiya ilə bu respublikalar arasında qarşılıqlı asılılıq yaratmışdı. Xüsusən Mərkəzi Asiya respublikalarında çoxlu sayda rus yaşayırdı. Mərkəzi Asiya ölkələrinin öz aralarında uzun müddət etnik, dini və su ilə bağlı problemləri mövcud olmuşdur. Özbəkistan, Tacikistan və Qırğızıstan arasında qalan Fərqanə vadisinin etnik baxımdan fərqliliyi regionda təhlükəsizlik problemləri yaradır, siyasi və iqtisadi əməkdaşlıq imkanlarını çətinləşdirirdi. Tacikistanda 1994-cü ilə qədər davam edən vətəndaş müharibəsinin daima regiona yayılma təhlükəsi mövcud idi. Əfqanıstanda vətəndaş müharibəsinin davam etməsi və Tacikistanda radikal din tərəfdarlarının hökumətə qarşı qiyam qaldırması bütün Mərkəzi Asiya ölkələrinin dini təşkilatların təhdidi altında olmasına yol açmışdı. Mərkəzi Asiya ölkələri dini terror təşkilatlarına qarşı onlara hərbi dəstək verən Rusiya ilə daha sıx əlaqələr qurmuşdular. Mərkəzi Asiya ölkələri 1999-cu ildən etibarən daxili siyasi sabitlik əldə etdikdən sonra xarici siyasətdə daha müstəqil qərar qəbul etməyə başladılar[21].

Mərkəzi Asiya ölkələri enerji ehtiyatları ilə zəngin olsalar da, beynəlxalq enerji bazarlarına birbaşa çıxışı olmayan bir coğrafiyada yerləşirlər. Bu dövlətlərin iqtisadi cəhətdən müstəqillikləri həm daxili, həm də xarici siyasətdə müstəqillik əldə etmələri üçün vacib rol oynayırdı. İqtisadi müstəqillik isə onların enerji siyasətlərinin nəticəsindən asılı olmuşdur.

Sovet İttifaqının dağılmasından sonra Mərkəzi Asiya müstəqil bir region olması, strateji cəhətdən əhəmiyyəti, sahib olduğu enerji ehtiyatları, təhlükəsizlik və siyasi səbəblərdən Rusiya, Çin, ABŞ, Hindistan və Türkiyə kimi dövlətlərin maraq dairəsinə düşmüşdür. Bu dövlətlər üçün sadəcə bölgə dövlətlərinin özü deyil, eyni zamanda

20 Karasar Ali Hasan. Bağımsızlıklar Sonrası Türküstanda Rus Siyaseti. // Avrasya Dosyası, Rusya Özel, Kış 2001, Cilt 6, Sayı 4, (ss. 220-271), s.225-226

21 Yenə orada, s.234

regiona gedən və regiondan ayrılan nəqliyyat və enerji xətlərinə nəzarət etmək də zəruri idi. Sovet İttifaqının dağılmasından sonra regionda ortaya çıxan anarxiya, yəni mərkəzi gücün olmaması və ya güc boşluğu bölgə dövlətləri arasında liderlik mübarizəsinə yol açmışdır. Bu cəhətdən Qazaxıstanın Avrasiya siyasəti, Özbəkistanın "Böyük Türküstan" layihəsi də regionda dövlətlər arasında parçalanmaya səbəb oldu. Bu dövlətlər bir tərəfdən islam ölkələrinin islam, digər tərəfdən Türkiyənin türklük identikliyinin təbliğatı ilə qarşı-qarşıya qalmışdılar. Lakin onlar təklif olunan bu modellərin heç birini qəbul etməmiş, onların yerinə hər dövlətin özünəməxsus üst kimliyi olan bir vətəndaşlıq kimliyi əsasında dünyəvi dövlət sistemi qurmuşlar. Türkiyə və türk dövlətləri ilə daha çox iqtisadi, enerji və nəqliyyat layihələri üzrə əməkdaşlığa üstünlük vermişlər[22].

Mərkəzi Asiya ölkələri daxildə iqtisadi və siyasi sabitliyi təmin etmək üçün balanslaşdırılmış xarici siyasət həyata keçirirlər. Balanslaşdırılmış xarici siyasətin nəticəsi olaraq türk dövlətlərinin də yer aldığı bir çox beynəlxalq təşkilatlara üzv olmuş[23] və dünya sistemi ilə inteqrasiya yolunu seçmişlər. Regional liderlik rəqabəti, Rusiya ilə münasibətlər və dövlətlər arasındakı fərqli problemlər bu dövlətlərin təşkilatlara üzvlüyünə təsir etmişdir. Bu regional təşkilatlar bəzən bir-biri ilə əməkdaşlığa üstünlük vermiş, bəzən rəqabət yolunu seçmiş, bəzən də böyük dövlətlərin regional siyasətinin bir parçası olmuşlar[24].

Türk dünyasının Qərbə açılan qapısı: Türkiyə

Sovet İttifaqının süqutundan sonra Türkiyənin siyasi rəhbərliyi ölkənin Qərb üçün strateji dəyərinin azaldığını düşünürdü. Birincisi, 1987-ci ildə Türkiyənin Aİ-yə üzvlüyünün rədd olunması onun Qərbdən

22 Aydın Mustafa. Foucalt`s Pendulum: Turkey in Central Asia and the Caucasus. // Turkish Studies, Vol. 5, No. 2, Summer 2004, (pp. 1-22), p.9

23 Karasar Ali Hasan. Göstərilən əsəri, s.225

24 1991-ci il Müstəqil Dövlətlər Birliyi (MDB), 1992-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), 1992-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), 1994-cü ildə Avrasiya İqtisadi Birliyi (AİB), 1997-ci ildə Demokratiya və İqtisadi İnkişaf Təşkilatı (GUAM), 1999-cu ildə Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Quruculuğu Tədbirlər Konfransı (CICA), 2001-ci ildə Özbəkistanın da iştirakı ilə Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT), 2002-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT), 2009-cu ildə Naxçıvan Sazişi ilə Türk Şurası və 2012-ci ildə Avrasiya İqtisadi Birliyi və Gömrük Birliyi yaradılmışdır

təcrid olunması mənasına gəlirdi[25]. İkincisi, sovet təhdidinin ortadan qalxması Türkiyənin Qərb üçün strateji əhəmiyyətinin azalmasına səbəb ola bilərdi. Lakin yeni ortaya çıxan müstəqil türk dövlətləri ilə münasibətlərin qurulması Türkiyənin Qərb üçün strateji və siyasi dəyərini yenidən artıra bilərdi.

1992-ci ilin aprel ayında regiona səfəri zamanı Turqut Özal "Türk dövlətlərinin birliyi" ideyasını, həmçinin türk dövlətlərinin Rusiya rublundan imtina edərək iqtisadi-maliyyə əlaqələrində Türkiyə lirəsindən istifadə etmələrini, Türkiyənin istifadə etdiyi latın əlifbasına keçməyi təklif etmişdi. Bu dövrdə bir tərəfdən Azərbaycandan və Mərkəzi Asiya ölkələrindən olan minlərlə tələbə Türkiyəyə təhsil almaq üçün gətirilir, digər tərəfdən isə TRT İNT Mərkəzi Avrasiyanın türk respublikalarına gündə 3 saat yayımlanırdı. Türkiyə Türkmənistan və Qırğızıstana 75 milyon dollar, Özbəkistana isə 500 milyon dollar kredit ayırmışdı[26]. Türk dövlətləri ilə münasibətlərini daha da irəli aparmaq üçün Türkiyə Əməkdaşlıq və İnkişaf Agentliyi (TİKA) təsis edilmişdi. Türk dövlətlərindən kütləvi şəkildə tələbə qəbuluna başlanıldı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yaradıldı və türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin keçirilməsinə start verildi. Türk dövlətləri üçün Türkiyənin cazibəliyi onun Qərblə münasibətləri və Aİ-yə üzvlük prosesində olması olmuşdur. Türkiyə Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətləri üçün NATO üzvü və Aİ-yə üzvolma ehtimalı olan bir Qərb dövləti mahiyyətində idi. Mərkəzi Asiyanın türk dövlətləri və Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərinin qurulması üçün Türkiyə Respublikası vasitəçi rolunu oynamışdı[27]. 1992-ci il fevral ayının 11-də Ağ Evdə ABŞ Prezidenti Corc Buşla görüşən Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl Türkiyənin yeni müstəqillik qazanmış Mərkəzi Asiyanın türk dövlətləri üçün model ölkə ola biləcəyini qeyd etmişdi[28].

25 Yalçınkaya F. Türkiye ile Orta Asya Devletleri Arasındaki Siyasi ve Diplomatik İlişkiler-Hükümetler üstü Kuruluşlar (1992-2010). İyun 2010, cilt 1, sayı 1, s. 1. - http://www.acarindex.com/dosyalar/makale/acarindex-1423878776.pdf

26 Aktürk Ş. Turkish-Russian Relations after the Cold War (1992–2002). // Turkish Studies, Vol. 7, No. 3, September 2006, (pp. 337–364), p.341

27 Friedman L. Thomas. U.S. to Counter Iran in Central Asia. // New York Times, 06.02.1992

28 Yang E. John. U.S. Turkey Pledge Aid to New States. // Washington Post, 12.02.1992 ; Albert L. Patterson, Violence in the Caucasus, U.S. Army War College, 1992, p.26

Bu dövrdə türk dövlətlərinin enerji ehtiyatlarının xarici bazarlara çatdırılması üçün müxtəlif istiqamətlər təklif olunurdu. Türkiyə üzrə istiqamət türk dövlətləri, xüsusən Azərbaycan üçün əsas olmuşdur. Siyasi müstəqilliyin iqtisadi müstəqillikdən asılı olduğunu düşünən Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətləri üçün ən yaxşı enerji və nəqliyyat xətlərinin istiqaməti Türkiyə olmuşdur. Müstəqilliyini yenicə əldə etmiş türk tespublikaları üçün Türkiyə ilə əməkdaşlıq türk identikliyi əsasında və daha çox iqtisadi əsaslarda olmuşdur. 1998-ci il oktyabrın 29-da Türkiyə, Azərbaycan, Gürcüstan və Qazaxıstan Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin əsas ixrac xətti olmasına dair Ankara Bəyannaməsini imzaladılar. Türkmənistan Prezidenti S.Niyazov isə bu sənədə imza atmadı. O, Xəzər dənizinin dibindən, Azərbaycanın və Gürcüstanın üzərindən Türkiyəyə gedəcək təbii qaz nəqli xətti üçün Türkiyə ilə ayrıca ikitərəfli müqavilə imzaladı[29].

Türkiyə Rusiya ilə əməkdaşlıq edərək buradakı varlığını davam etdirməyə çalışırdı. Baş nazir Süleyman Dəmirəl 25-27 may 1992-ci il tarixlərində Moskvaya səfər etmiş, səfər zamanı iki ölkə münasibətlərinin hüquqi əsasını təşkil edən "Türkiyə ilə Rusiya arasında münasibətlərin əsas prinsipləri haqqında Müqavilə" imzalanmışdı. 1992-ci il dekabrın 12-14-də iki ölkənin münasibətlərinin 500-cü ildönümü ilə əlaqədar "Rus-türk əlaqələrinin 500 ili" adlı beynəlxalq konfrans keçirilmişdi[30].

Rusiya türk dövlətləri arasında əməkdaşlığı özünün regional siyasətinə qarşı bir təhlükə olaraq görmüş və hətta türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin keçirilməsinin regionda "etnik millətçiliyi" artıracağı iddiası ilə çıxış etmişdi. 1994-cü ildə İstanbulda keçirilən 2-ci Zirvə görüşündən əvvəl Rusiya Xarici İşlər Nazirliyi açıqlama verərək region dövlətlərinin bu görüşdən narahat olduqlarını bildirmişdi[31]. Azərbaycan və digər türk dövlətləri Rusiyanın bu istəklərini yerinə yetirməmiş və bu zirvə görüşlərinin əməkdaşlığa və regionda sabitliyi təmin etməyə istiqamətləndiyini bildirmişlər.

Lakin bu dövrdə türk respublikalarının bir təşkilat altında

29 Türkmenbaşı imzalamadı... Özbekler son anda... // "Milliyet", 30.10.1998, s.9

30 Ömer Göksel İşyar. Avrasya`da Devletlerin Şekillenişi, Yükseliş ve Düşüş Süreçleri: Türk ve Rus Örnekleri, OAKA, cilt: 3, (ss. 104-136), s.6, 126-127

31 Rusya`da Zirve endişesi. // "Milliyet", 18.10.1994, s.16

birləşdirilməsi ideyası və çağırışlar real siyasi vəziyyətlə ziddiyyət təşkil edirdi. Bunun isə özünəməxsus səbəbləri var idi. Birincisi, Türkiyə bu regionda təşkilat qura biləcək siyasi və iqtisadi gücə sahib deyildi və bu səbəbdən region dövlətlərinin sosial, iqtisadi və siyasi problemlərinin həllində vacib rol oynaya bilmədi[32]. İkincisi, Türkiyə bu dövrdə iki geosiyasi rəqiblə – Rusiya və İranla qarşı-qarşıya qalmışdı.

Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərindən TŞ-yə doğru

Türk dövlətləri bəzi siyasi liderlərin təşəbbüsü olan bir təşkilat ətrafında birləşmək əvəzinə 1992-ci ildən etibarən Azərbaycanın da aktiv rol aldığı dövlət başçılarının zirvə görüşləri formatında xarici, iqtisadi, enerji, nəqliyyat, mədəniyyət və təhsil sahələrində siyasətlərini müzakirə və koordinasiya etmək yolunu seçdilər. Bu müzakirələr ilk dövrlərdə dövlət və qeyri-dövlət təşkilatları arasında keçirilirdi. 1992-ci ildən etibarən türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşləri təşkil edilməyə başlandı.

1993-cü ildən etibarən Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Fondu (TUDEV) və Türkiyə İqtisadiyyat və Tərəqqi Agentliyinin ortaq təşkilatçılığı ilə Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayları təşkil olunurdu. Dövlət başçılarının zirvə görüşlərindən fərqli olaraq, bu qurultaylarda digər dövlətlər də – Rusiya Federasiyası, Çin Xalq Respublikası, İran İslam Respublikası, Balkanlar və digər bölgələrdə yaşayan türk xalqları iştirak edirdi. Bu günə kimi 11 belə qurultay keçirilmişdir. 2001-ci ildən sonra qurultayların keçirilməsinə 5 il fasilə verilmiş, lakin 2006-cı ildə bu ənənə yenidən bərpa edilmişdir. Sonuncu qurultay 2007-ci ildə ilk dəfə Türkiyədən kənarda – Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilmişdir[33].

1992-ci ildən etibarən türk respublikaları arasında keçirilən zirvə

32 Aydın M. Identities in Formation Nationality, Religion and Transformational Ideas in former Soviet Central Asia. // Turkish Yearbook of International Relations, No 16, 1996, (pp. 65-79), p.76

33 Türk Devlet ve Topluluklari Dostluk, Kardeşlik ve İşbirliği Vakfı (TUDEV) - http://www.tudev.org.tr/sayfa-sabit-3-Kurucu

görüşlərinin adı "Türk Respublikalarının Dövlət Başçılarının Zirvə görüşləri" adlandırılmışdır. 1998-ci ildə Astanada keçirilən 5-ci Zirvə görüşündən sonra isə bu toplantıların adı "Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşləri" olaraq dəyişdirilmişdir. Keçirilən hər zirvə görüşünün sonunda dövlət başçıları tərəfindən müzakirə edilən məsələlərlə bağlı bəyannamələr qəbul edilmişdir. Bu bəyannamələr, adətən, müqavilə səviyyəsində bağlayıcı olmamış, sadəcə həmin siyasi hakimiyyətlərin niyyətlərini ifadə etmişdir. Bununla belə, bu bəyannamələr türk dövlətləri arasında əməkdaşlığın səviyyəsi və gələcək inkişafı baxımından yolgöstərici xarakterli olmuşdur.

Bu zirvə görüşləri Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətlərinin inkişaf etdirilməsi üçün bir fürsət yaratmışdır. Xüsusən enerji, iqtisadiyyat və nəqliyyat sahələrində əməkdaşlıq yollarını genişləndirmək əsas məqsəd olmuşdur. Həm Türkiyə, həm də müstəqilliklərini yeni əldə edən türk dövlətləri üçün iqtisadi müstəqillik siyasi müstəqillik mənasına gəldiyindən iqtisadi əməkdaşlığa daha çox üstünlük verilmişdir. Enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi iqtisadi əməkdaşlığın və iqtisadi müstəqilliyin yaradılması siyasətinin bir parçası olmuşdur. Heydər Əliyev 3-cü Zirvə görüşündəki çıxışında bunları qeyd etmişdir: "Qarşılıqlı faydalı və bir-birini tamamlayan iqtisadi əməkdaşlıq üçün ümumi məkan yaratmaq və Mərkəzi Asiyadan çəkiləcək neft və qaz kəmərlərini Türkiyəyə, oradan isə dünya bazarına çıxarmaq xalqlarımız arasında əməkdaşlığı daha da möhkəmlədə və müstəqil dövlətlərimizin çiçəklənməsinə xidmət edərdi"[34].

İlk zirvə görüşü 1992-ci il oktyabrın 31-də Türkiyə Respublikasının Prezidenti Turqut Özalın ev sahibliyi və Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan dövlət başçılarının iştirakı ilə Ankarada keçirilmiş, nəticədə Ankara Bəyannaməsi imzalanmışdır. Bəyannamədə türk xalqları arasında ortaq dil, tarix və mədəniyyətdən irəli gələn xüsusi əlaqələr qeyd edilmiş, münasibətlərdə qardaşlıq, həmrəylik və əməkdaşlıq ruhunun hakim olduğu və dövlətlər arasındakı münasibətlərin müstəqillik, suverenlik, ərazi bütövlüyünə hörmət,

34 Türkdilli ölkələrin dövlət başçılarının 3-cü Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı. /Bişkek, 28 avqust 1995-ci il/ - http://lib.aliyev-heritage.org/az/2708059.html

daxili işlərinə müdaxilə etməmə və bərabərhüquqluluq əsasında daha da möhkəmləndirilməsi qərara alınmışdır. Avrasiyada sülh, təhlükəsizlik və inkişafın BMT Xartiyası, ATƏT və Helsinki Yekun Aktı çərçivəsində təmin olunması vurğulanmışdır. Bundan başqa, bəyannamədə müxtəlif regional və qlobal problemlərin həllində ortaq mövqeyin ortaya çıxdığı təqdirdə ortaq hərəkət etmənin müsbət nəticə verəcəyi, həmçinin bu cür zirvə görüşlərinin davamlı olaraq keçirilməsi və növbəti görüşün 1993-cü ildə Bakıda təşkil olunması qərara alınmış[35], lakin həmin görüş keçrilməmişdir. İlk zirvə görüşündə Mərkəzi Asiyanın türk dövlətlərinin bəzi liderləri siyasi mövzuların bəyannaməyə daxil edilməsini istəməmişdilər. Bundan başqa, bəzi digər türk dövlətlərinin liderləri Türkiyənin ortaq bazarın təşkil edilməsi təklifini qəbul etməmiş, belə bir təklifin reallaşdırılmasının hələ tez olduğunu bildirmişdilər. Ankara Bəyannaməsinə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bənd daxil edilməsə də[36], Türkiyə Respublikasının Prezidenti Turqut Özalın yekun çıxışında öz əksini tapmışdı[37].

2-ci Zirvə görüşü 1994-cü il 18-19 oktyabr tarixlərində İstanbulda keçirilmişdir. Bu tarix Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Xüsusən də beynəlxalq neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandıqdan sonra bu müqavilənin icrasını təmin etmək üçün dəstəyə ehtiyacı var idi. Azərbaycanla xarici neft şirkətləri arasında 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasından razı qalmayan bəzi xarici və daxili qüvvələr ölkədə siyasi sabitliyi pozmağa çalışırdılar. Bu mənada türkdilli dövlətlərin zirvə görüşündə Azərbaycanın həm enerji siyasətinə, həm də hökumətinə dəstək verilməsi olduqca əhəmiyyətli idi. İstanbul Zirvə görüşündə iştirak edən Heydər Əliyev "Zirvə toplantısı bizim xalqlarımızın, müstəqil ölkələrimizin gələcəyi üçün əhəmiyyətli yoldur"[38] fikrini səsləndirmişdir. Zirvə görüşünün keçirilməsinə etiraz edən dövlətlərə qarşı Heydər Əliyev "Bu işlər üçün heç kimdən icazə almalı

35 Ankara Bildirisi. - http://www.turkkon.org/tr-TR/ankara-bildirisi-(1992)/4/911/911/298

36 Türk ortak pazarı erken. // "Milliyet", 31.10.1992, s.15

37 Bilal N. Şimşir. Azərbaycan. Birinci nəşr, Ankara: Bilgi yayınları, 2011, s.473

38 Heydər Əliyevin türkdilli ölkələrin dövlət başçılarının 2-ci Zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşərkən Binə Hava Limanında jurnalistlərə müsahibəsi. /18.10.1994, s.194/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

deyilik"[39] açıqlamasını verərək, əslində, bu məsələdə Azərbaycanın və digər türk respublikalarının müstəqil dövlətlər olduqlarını xatırlatmışdır.

İstanbul Zirvə görüşünün sonunda imzalanan bəyannamədə dövlət başçıları aşağıdakı mövzularda siyasi niyyətlərini elan etmişdilər: dövlətlər arasında ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması; siyasi, mədəni, iqtisadi, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün siyasi iradənin varlığı; demokratiya, insan hüquqları, dünyəvi, sosial ədalət və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan dövlət quruculuğu; dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünün gücdən istifadə yolu ilə dəyişdirilməyəcəyi prinsipi; regional təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq təşkilatların əhəmiyyəti; ortaq tarix, mədəniyyət, dil sahəsində əməkdaşlığın gücləndirilməsi üçün mədəniyyət nazirləri və aidiyyəti qurumlar arasında əməkdaşlığın genişləndirilməsi; Təhsil nazirlikləri və universitetlər arasında əməkdaşlığın genişləndirilməsi; mətbuat orqanları arasında əməkdaşlıq yollarının artırılması; türk dövlətlərinin enerji ehtiyatlarının ən qısa yolla Avropaya daşınması, layihələrin hazırlanması və həyata keçirilməsi istiqamətində əməkdaşlıq edilməsi; tarixi İpək Yolunun inkişafına dəstək verilməsi və s.[40].

3-cü Zirvə görüşü 1995-ci ildə Bişkekdə keçirilmişdir[41]. Zirvə görüşündə Qırğızıstan, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın dövlət başçıları iştirak etmiş, sonda Bişkek Bəyannaməsi imzalanmışdır. Bəyannamədə birbaşa və tranzit nəqliyyat xətlərinin birləşdirilməsi, xidmət və investisiyanın müstəqil hərəkətinin təmin olunması, iş adamlarının fəaliyyətlərinin asanlaşdırılması və qarşılıqlı ticarət, bank və sığortaçılıq sahəsində əməkdaşlığın qarşısındakı əngəllərin ortadan qaldırılması məqsədilə müvafiq nazirliklərin əməkdaşlıq etməsi qərara alınmışdır. Mədəni əlaqələrin genişləndirilməsi üçün birgə təhsil müəssisələrinin təşkili,

39 Aliyev: Moskova`dan izin almayız. // "Milliyet",19.10.1994, s.20

40 İstanbul Bildirisi. - http://www.turkkon.org/Assets/dokuman/10_IstanbulBildirisi1994_2.Devlet-BaskanlariZirveBildirisi_20140418_103924.pdf

41 İstanbul zirvə görüşündə Heydər Əliyev 3-cü Zirvə görüşünün Azərbaycanda keçirilməsini təklif etmişdir. Lakin ümumi razılıq zirvə görüşünün Bişkekdə keçirilməsi istiqamətində olmuşdur "Heydər Əliyevin türkdilli ölkələrin dövlət başçılarının 2-ci Zirvə toplantısının açılışında nitqi". /18.10.1994, s. 398/ - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf /

mədəniyyət günlərinin keçirilməsi və Azərbaycan–Türkiyə, Qazaxıstan–Türkiyə, Qırğızıstan–Türkiyə universitetləri kimi ortaq universitetlərin yaradılması haqqında razılıq əldə olunmuşdur. Tərəflər arasında yaşanan hadisələr çərçivəsində terrorizmə və narkotik qaçaqmalçılığına qarşı mübarizə məsələsinə ilk dəfə Bişkek Bəyannaməsində toxunulmuşdur[42]. Zirvə görüşündən qayıdan Heydər Əliyev Bişkek Bəyannaməsində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın təkliflərinin yer aldığını, lakin Ermənistanın Azərbaycana qarşı təcavüzünün konkret şəkildə öz əksini tapmadığını bildirmişdir[43].

1996-cı ildə analoji tədbir Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilmişdir. Bu zirvə görüşünün sonunda qəbul edilmiş Daşkənd Bəyannaməsində əvvəlki bəyannamələrdə qeyd olunan sahələrdə əməkdaşlığın davam etdirilməsi, həmçinin turizm sahəsində, yerli icra orqanları və qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın artırılması, dəmir yolu və tranzit sahəsində Aİ-nin TRASEKA proqramının icrası və Şimal–Cənub dəmir yolu xəttinin bir parçası olan Orta Asiya–Əfqanıstan–Pakistan dəmir yolu xəttinin tikintisi və s. məsələlər öz əksini tapmışdır. Bəyənnamədə həmçinin terrorizm və separatizmlə mübarizənin gücləndirilməsi xüsusi qeyd olunmuş, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar çərçivəsində sülh yolu ilə həll edilməsi dəstəklənmiş, münaqişənin regionda sülh və təhlükəsizliyi təhdid etdiyi vurğulanmışdır. Bundan başqa, türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün katibliyinin yaradılması zərurəti qeyd edilmişdir[44]. Daşkənd Zirvə görüşü 6 türk dövləti başçılarının birgə iştirak etdiyi son görüş olmuşdur. Belə ki, sonrakı toplantılarda Özbəkistan, daha sonra isə Türkmənistan dövlət başçıları iştirak etməmişlər.

1998-ci ildə Astanada keçirilən zirvə görüşündə Astana Bəyannaməsi imzalanmış və Katibliyin Nizamnaməsi qəbul edilmişdir. Astana Bəyannaməsində "İpək Yolunun canlandırılması" proqramının birgə

42 Pelin Musabey Baki. Avrasiya`da Bölgesel İşbirliği Sürecinden Bölgesel İşbirliği Mekanzimasına: Türk Konseyi. // Bilge Strateji, Cild 6, Sayı 11, 2014, (ss. 133-162), s.143

43 Heydər Əliyevin Bişkek Zirvə toplantısından Bakıya qayıdarkən təyyarədə jurnalistlərə müsahibəsi. /29.08.1995, s. 299/ - http://files.preslib.az/projects/toplu/v2/f3_5.pdf

44 Taşkent Bildirisi - http://www.turkkon.org/Assets/dokuman/08_TaskentBildirisi1996_4.Devlet-BaskanlariZirveBildirisi_20140418_103822.pdf

həyata keçirilməsinin əhəmiyyəti qeyd olunmuş, enerji ehtiyatlarının hasilatı və beynəlxalq bazarlara çatdırılmasında beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq qeyd edilmiş, beynəlxalq qurumların təbii qaz və neftin Türkiyə üzərindən dünya bazarlarına çatdırılması məqsədilə həyata keçirdikləri fəaliyyətlərlə bağlı razılıq bildirilmiş, Azərbaycanın Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi ilə bağlı beynəlxalq konfrans keçirilməsi təklifi dəstəklənmiş, Tacikistandakı sülh prosesinə dəstək ifadə olunmuş, Əfqanıstandakı daxili müharibənin durdurulması üçün İslam Əməkdaşlıq Təşkilatının da iştirakı ilə tərəflər arasında görüşlər keçirilməsi məqbul hesab edilmiş, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar və Lissabonda qəbul olunan 3 prinsip çərçivəsində həllinə dəstək ifadə edilmiş, türkdilli ölkələrin bütün ölkələrlə qarşılıqlı maraq çərçivəsində əməkdaşlığa hazır olduğu qeyd olunmuşdur[45].

2000-ci ildə Bakıda keçirilən zirvə görüşündə katibliyin Türkiyədə fəaliyyət göstərməsi qərara alınmış və görüşün sonunda Bakı Bəyannaməsi imzalanmışdır. Bəyannamədə aşağıdakı məsələlər öz əksini tapmışdır: beynəlxalq təşkilatlarda birlikdə hərəkət etmək, demokratik prinsiplərə, insan haqlarına və bazar iqtisadiyyatına bağlılıq; türkdilli xalqların ortaq tarix və mədəniyyəti ilə əlaqədar günlərin qeyd olunmasına dair proqramların hazırlanması və bu istiqamətdə TURKSOY təşkilatının fəallığının artırılması; 1998-ci ilin sentyabr ayında Bakıda keçirilən "Tarixi İpək Yolunun canlandırılması" adlı konfransda imzalanan "Avropa–Qafqaz–Asiya Koridoru üstündəki beynəlxalq nəqliyyatın inkişafı haqqında Çoxtərəfli Müqavilə"yə dəstək verilməsi qərarlaşdırılmışdır. Bəyannamədə ayrıca karbohidrogen ehtiyatlarının çıxarılmasında beynəlxalq maliyyə qurumlarının dəstəyi ilə ortaq layihələrin həyata keçirilməsi və Avropa–Asiya yolunun formalaşmasında əməkdaşlığın artırılması; 1998-ci il oktyabrın 28-də Xəzər dənizi karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması haqqında Ankara Bəyannaməsinə əhəmiyyət verilməsi və fəaliyyətlərin bu istiqamətdə artırılması; 1999-cu il noyabrın 18-də Bakı–Tbilisi–

45 Türkçe Konuşan Devlet Başkanları V. Zirve Bildirisi. - http://www.turkkon.org/Assets/dokuman/07_AstanaBildirisi1998_5.DevletBaskanlariZirveBildirisi_20140418_103743.pdf

Ceyhan neft xətti ilə əlaqədar imzalanan İstanbul Bəyannaməsini və Türkmənistan–Azərbaycan–Gürcüstan–Türkiyə–Avropa təbii qaz xətti haqqında hökumətlərarası bəyannaməyə diqqət çəkilməsi və bu layihələrin həyata keçirilməsinin sürətləndirilməsinin dəstəklənməsi; regionda və dünyada sülh, sabitlik və təhlükəsizliyin təmini üçün BMT, ATƏT və digər beynəlxalq təşkilatların fəaliyyətlərinə aktiv dəstək verilməsi və bu çərçivədə ATƏT-in İstanbul Zirvə görüşündə Cənubi Qafqaz və Mərkəzi Asiyada sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasına dair təkliflərin dəstəklənməsi; dövlət başçıları tərəfindən hər cür aqressiv və münaqişə zonalarında vəziyyəti pisləşdirəcək silahlanmanın pislənilməsi (Rusiya ilə Ermənistan arasında silah alqı-satqısı); Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının qərarları və Lissabonda qəbul olunan 3 prinsip və sülh yolu ilə həllinin dəstəklənməsi; beynəlxalq terrorizm, radikalizm və separatizmə qarşı güclü bir mexanizmin formalaşdırılması, bu sahədə məlumat mübadiləsinin aparılması və Türkdilli Ölkələrin Dövlət Başçılarının Katibliyinin Türkiyədə yaradılması və s.[46].

2001-ci ildə İstanbulda keçirilən zirvə görüşü türk dövlətlərinin müstəqilliklərinin 10-cu ildönümünə təsadüf edirdi. İstanbul Bəyannaməsində keçirilən zirvə görüşlərinin ikitərəfli və çoxtərəfli münasibətlərə müsbət təsir etdiyi; türkdilli ölkələrin insan hüquqları, dünyəvilik, sosial ədalət, bazar iqtisadiyyatı və demokratiyaya bağlı olduqları; dövlətlərarası münasibətlərdə dil, mədəniyyət və tarixlə bağlı fəaliyyətlərin, o cümlədən TURKSOY-un bu sahədəki fəaliyyətinin daha da genişləndirilməsi; tarixi İpək Yolunun canlandırılmasının regionda turizmin və iqtisadiyyatın inkişafına müsbət təsir edəcəyi; müasir nəqliyyat xətlərinin inkişaf etdirilməsi üçün əməkdaşlığın artırılması; türk dövlətlərinin KİV və QHT-ləri arasında əməkdaşlığın artırılması; təhsil layihələrinin davam etdirilməsi; Şərq–Qərb enerji xətlərinin və ortaq enerji layihələrinin həyata keçirilməsi məqsədilə beynəlxalq və özəl maliyyə təşkilatlarını regiona cəlb etmək üçün əməkdaşlıq edilməsi; iqtisadiyyat, turizm, sənaye və kənd təsərrüfatı sahəsində əməkdaşlığın

46 Türkçe Konuşan Ülkeler Devlet Başkanları Zirvesi Bakü Bildirisi. - http://www.turkkon.org/Assets/dokuman/06_BakuBildirisi2000_6.DevletBaskanlariZirveBildirisi_20140418_103714.pdf

artırılması; regional və qlobal sülh və təhlükəsizliyin təmin olunması üçün BMT, ATƏT və bu kimi beynəlxalq təşkilatların rolunun artırılması üçün əməkdaşlığın genişləndirilməsi; Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurası və ATƏT-in qəbul etdiyi qərarlar çərçivəsində həlli; beynəlxalq terrorizm, narkotik maddə qaçaqmalçılığı, qanunsuz miqrasiya və beynəlxalq cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq edilməsi; Əfqanıstandakı vəziyyət və problemin sülh yolu ilə həll olunması və s. məsələlər öz əksini tapmışdır[47]. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bu zirvə görüşündə Ağsaqqallar Şurasının və Türkdilli Ölkələrin Dövlət Başçılarının Parlament Assambleyasının (TÜRKPA) yaradılmasını təklif etmişdi.

İstanbul Zirvə görüşündən sonra növbəti görüş 5 il sonra, yəni 2006-cı ildə Antalyada Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin rəhbərliyi ilə keçirilmişdir. Zirvə görüşündə Azərbaycan, Qazaxıstan və Qırğızıstan dövlət başçıları, Türkmənistan isə Ankaradakı səfiri səviyyəsində təmsil olunmuşdu. Görüşdə Özbəkistan iştirak etməmişdir. Sonda qəbul edilən bəyannamədə Avrasiya regionundakı separatizm, terrorizm, radikalizm, kütləvi qırğın silahlarının yayılması, narkotik, silah və insan ticarətinə qarşı beynəlxalq təşkilatlarla birlikdə aparılan mübarizə qeyd olunmuş; Əfqanıstan, Livan, Suriya və İraqdakı problemlərin sülh yolu ilə həllinin əhəmiyyəti vurğulanmış, İraqın ərazi bütövlüyünün və suverenliyinin, həmçinin İraq türkmanlarının hüquqlarının qorunması, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin fəaliyyətə başlamasını və Bakı–Tbilisi–Ərzurum təbii qaz kəmərinin tikintisinin tamamlanmasını nəzərə alaraq, Xəzər dənizindən keçən enerji xətlərinin mövcud enerji xətlərinə birləşdirilməsinə, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinə və İstanbul–Almatı dəmir yolu xəttinə Bişkekin də birləşdirilməsinə dəstək verilmiş və bu mənada nəqliyyat xətlərinin inkişafının türk respublikaları arasında əməkdaşlığı artıracağı qeyd olunmuşdur. Bundan başqa, türk dövlətlərinin BMT və onun alt təşkilatları, ATƏT və üzv olduqları digər beynəlxalq təşkilatlarda ortaq maraqlarını təşkil edən məsələlərdə həmrəy olmaları və təşkilatlara bir-

47 Türk Dili Konuşan Devlet Başkanları Zirvesi İstanbul Bildirisi. - http://turkkon.org/Assets/dokuman/05_Istanbul2001_7.Devle_BaskanlariZirvesiBildirisi_20140418_103624.pdf

birinin namizədliklərini dəstəkləmələri qeyd edilmişdir. Qazaxıstanın ATƏT sədrliyinə namizədliyi, Türkiyənin Aİ-yə üzvlüyü, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli dəstəklənmiş, çoxtərəfli əməkdaşlığın artırılması istiqamətində İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığın genişləndirilməsi və qurumun daha da güclənməsi üçün fəaliyyətlərin birləşdirilməsi tövsiyə edilmişdir. Türkiyənin 2009-2010, Qazaxıstanın 2010-2011 və Qırğızıstanın 2011-2012-ci illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dəstəklənmişdir[48]. Antalya Bəyannaməsi ilk dəfə olaraq Azərbaycan, qazax, qırğız və türk dillərində hazırlanmışdı.

Türkdilli ölkələrin dövlət başçılarının sonuncu zirvə görüşü 2010-cu ildə İstanbulda keçirilmişdir.

TŞ-nin yaranmasını zəruri edən amillər

Təşkilatlanma fikrinin zirvə görüşlərinin başlamasından 17 il sonra baş tutmasının bəzi özünəməxsus səbəbləri var. Xüsusən türk dünyasının iki dövlətinin – Azərbaycan və Qazaxıstanın siyasi və iqtisadi sabitlik əldə etməsi və gücə sahib olması zirvə görüşlərinin təşkilata çevrilməsinin önünü açmışdır. Bu dövlətlər Türkiyə ilə birlikdə dünya siyasətində müstəqil və suveren dövlət olaraq yerlərini möhkəmləndirmiş, həm də xarici və təhlükəsizlik siyasəti sahəsində təcrübə toplamışlar.

Digər tərəfdən, türk dövlətləri arasında planlaşdırılan layihələrin uğurla həyata keçirilməsi onların arasında əməkdaşlıq yollarını genişləndirmişdir. Dövlətlər arasında layihələrin getdikcə reallaşması bu dövlətlərin həm iqtisadi, həm də əməkdaşlıq imkanlarını artırmışdır[49]. 1992-2009-cu illər arasında həyata keçirilən Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru kəmərləri və Bakı–Tbilisi–Qars dəmir yolu xətləri konkret layihələr idi. Nəqliyyat, enerji və digər sahələrdə

48 Türk Dili Konuşan Devlet Başkanları 8. Doruk Toplantısı, Antalya Zirve Bildirisi. - http://www.turkkon.org/Assets/dokuman/04_AntalyaBildirisi2006__8.Devlet_BaskanlariZirvesiortak-bildirisi_20140418_103555.pdf

49 Türk Dövlət və Cəmiyyətlərinin 10-cu Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı işə başlamışdır. Azərbaycan Prezidenti İlham Əliyev qurultayda iştirak etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi, s.301. - http://files.preslib.az/site/ialiyev/2006.pdf

yeni layihələrin davam etdirilməsi üçün dövlətlər arasında daha çox əməkdaşlığa ehtiyac vardı.

Münasibətlərin inkişaf etməsi və institutlaşmasında Türkiyə–Azərbaycan əlaqələrinin yüksək səviyyədə olması vacib rol oynamış və bu əlaqələr bir növ Türk Şurasının qurulması üçün model olmuşdur. Məsələn, Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanla Türkiyə arasındakı uğurlu əməkdaşlığın bütün türk dünyasına müsbət təsir göstərdiyini bildirmişdir[50]. İlham Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan praqmatik xarici siyasət prinsipinə müstəqil xarici siyasət prinsipini də əlavə etmişdir. Bu illərdə xarici dövlətlərin yürütdüyü siyasət Azərbaycanın maraqlarına uyğun deyildi. Ümumilikdə digər türk dövlətləri də eyni problemlə qarşı-qarşıya qalmışdı. Məsələn, Avropa İttifaqı Kipr məsələsinin həllində Türkiyəyə verdiyi sözü tutmamış və Aİ-yə üzvlük məsələsində onun üçün süni maneələr yaratmışdı. ABŞ-ın həyata keçirdiyi xarici siyasət də zaman-zaman onun maraqları ilə toqquşduğu üçün Türkiyə Ədalət və İnkişaf Partiyası Qərbdən daha müstəqil siyasət həyata keçirməyə çalışırdı. Qazaxıstanın xarici və enerji siyasəti regionun digər dövlətləri ilə zidd, lakin Azərbaycana uyğun idi. Qırğızıstanın iqtisadi və siyasi problemlərini həll etmək üçün etibarlı tərəfdaşa ehtiyacı vardı. Məhz bu səbəbdən 2007-ci ildə Bakıda keçirilən Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayında Prezident İlham Əliyev türk dünyasının birləşməyə böyük ehtiyacı olduğunu qeyd etmişdi[51]. Bu qurultayda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan "Türk cümhuriyyətləri arasında hər cür əməkdaşlığın daha planlı və əlaqəli olmasının, başqa sözlə, təsisatlı olmasının vaxtı gəlib çatmışdır. Bu məqsədlə mən türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin daimi bir katibliyinin yaradılmasını təklif edirəm"[52] açıqlamasını vermişdi.

50 Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi, s.9. - https://drive.google.com/file/d/0B4hOxRFT6iAbZmZ5UjEyUFdLTHM/view?pref=2&pli=1

51 Yenə orada, s.9

52 Yenə orada, s.18

Türkdilli dövlətlər digər regional təşkilatlara üzv olsalar da, bu təşkilatlar çərçivəsində əməkdaşlıqda zaman-zaman çətinliklər yaranmışdır. Digər regional təşkilatlar eyni zamanda böyük güclərin geosiyasi maraqlarına xidmət edir və daha çox siyasi və hərbi xarakter daşıyaraq onların bölgədəki hegemonluğunu gücləndirmək məqsədi daşıyırdı. Yaxud təşkilat daxilində dövlətlərin maraqlarının toqquşması səbəbindən qərarlar qəbul edilmir və irəliləyiş əldə olunmurdu. NATO region təşkilatı olmadığı, Rusiya və İran kimi regional güclərin maraqları ilə toqquşduğu üçün bu dövlətlər NATO-ya üzv olmaq istəmədilər. Bundan başqa, türk dövlətləri də NATO və Aİ ilə münasibətlərini bu təşkilatlara üzv olacaq səviyyəyə gətirmək istəmirdilər, çünki bu, onların da maraqlarına uyğun deyildi. Şura üzvləri Naxçıvan Sazişinin preambulasında qeyd olunduğu kimi, siyasi çoxqütblüyə tərəfdardılar. Bu mənada şuranın qurucu üzvləri Azərbaycan, Türkiyə və Qazaxıstan çoxqütblü xarici siyasət kursu həyata keçirirlər.

2009-cu ildə, Türk Şurası yarandığı ərəfədə Rusiyanın bütün türk dövlətləri ilə münasibətləri yaxşı səviyyədə idi. Türkiyə–Rusiya münasibətləri ən yaxşı dövrünü yaşayırdı. Gürcüstan hadisələri üzündən Qərb dövlətləri ilə münasibətləri pisləşən Rusiya türk dövlətləri ilə münasibətlərini korlamamaq üçün şuranın təsis edilməsinə mənfi reaksiya vermədi. Bundan başqa, müstəqillikləri dövründə türk dövlətləri regional güclərə qarşı olmadıqlarını, əksinə, regional əməkdaşlığın önünü açdıqlarını siyasətləri ilə sübut etmişlər. Azərbaycan və Qazaxıstan kimi, Türkiyə də türk dövlətləri arasında əməkdaşlığa keçmişdə narahatlıqla yanaşan qonşu dövlətlərlə münasibətlərini inkişaf etdirmiş, onlara qarşı heç bir təhlükə mənbəyi olmadığını sübut etmişdi.

TŞ-nin qurucu müqaviləsi: Naxçıvan Sazişi

Qeyd edildiyi kimi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən 2009-cu il oktyabrın 3-də Naxçıvanda imzalanmış sazişə əsasən yaradılmış

beynəlxalq hökumətlərarası əməkdaşlıq təşkilatıdır. Saziş Azərbaycan, Qazaxıstan və Türkiyə tərəfindən ratifikasiya olduqdan sonra 2010-cu il noyabrın 17-də qüvvəyə minmişdir[53].

Sazişin Naxçıvanda imzalanmasının həm Azərbaycan, həm də türk dünyası üçün əhəmiyyəti böyükdür. Belə ki, Naxçıvan türk dünyasının siyasi xəritəsini 11 km-lik xətlə birləşdirən yeganə coğrafi məkandır. Həm Azərbaycan, həm də türk dünyası üçün həssas coğrafi məkanda yerləşən Naxçıvan xarici təhdidlərlə qarşı-qarşıyadır. Bu səbəbdən türk dövlətləri liderlərinin Naxçıvana Azərbaycan torpağı kimi dəstək verməsi onun təhlükəsizliyinin təminatı kimi başa düşülə bilər.

Türk Şurası Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn ümumqəbulolunmuş prinsip və normalarına, o cümlədən suveren, bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, qonşuluq və dostluq münasibətlərinin inkişafının qorunması və dövlətlər arasında əməkdaşlıq prinsiplərinə sadiqdir. Şura həmçinin regionda sülhün möhkəmləndirilməsinə, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsinə xidmət edir[54].

Qeyri-müəyyən müddətə imzalanan bu müqaviləyə əsasən, şura digər türkdilli dövlətlərin də qoşulması üçün açıqdır. TDƏŞ yanında müşahidəçi statusu digər dövlətlərə, beynəlxalq təşkilatlara və beynəlxalq forumlara verilə bilər. Türkmənistan və Özbəkistan Türk Şurasında təmsil olunmurlar. Türkmənistan BMT-də daimi tərəfsizlik statusuna malik ölkə olduğu üçün təşkilata məsafəli yanaşır. Bundan başqa, şura xaricində üzv dövlətlərin regional layihələrinə dəstək verir.

Naxçıvan Sazişinə əsasən, Türk Şurası ortaq tarixi, mədəni və dil dəyərləri əsasında qurulsa da, fərqli sahələrdə əməkdaşlığı davam etdirməkdədir. Türk Şurasının əməkdaşlıq məqsədləri arasında başda

53 Terzioğlu S.S. Uluslararası Hukuk Açısından Türk Dili Konuşan Ülkeler İşbirliği Konseyi. // Uluslararası Hukuk ve Politika, Cilt: 9, Sayı: 36, 2013, (ss.45-72), s.49

54 Naxçıvan Sazişi. Preambula. - http://www.turklib.az/r2.html

siyasi[55], iqtisadi[56], ticari[57], mədəni[58], hüquqi[59] olmaqla bir çox sahədə əməkdaşlıq etdiyi açıq şəkildə ifadə edilmişdir. Mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsi və möhkəmləndirilməsi isə TURKSOY-a həvalə edilmişdir.

Bundan başqa, Türk Şurası yaradıldıqdan sonra qəbul edilən qərarlara əsasən fərqli sahələrdə işçi qrupları və komitələr təşkil edilmişdir. Məsələn, Türk Şurası tərəfindən qəbul edilən qərarların iqtisadi, mədəni, elm və təhsil sahələrində əməkdaşlıq, xarici siyasət və təhlükəsizlik və s. məsələlər şəklində alt başlıqlarda toplandığını görmək mümkündür. Naxçıvan Sazişinin 14-cü maddəsinə görə, tərəflər spesifik və/və ya texniki xarakterli məsələlərin müzakirəsi məqsədilə müvafiq nazirliklərin, idarə və təşkilatların rəhbərlərinin görüşünün çağırılması barədə razılığa gələ bilərlər. Bu çərçivədə İqtisadi əməkdaşlıq üzrə İşçi Qrupu, Gömrük sahəsində əməkdaşlıq üzrə İşçi Qrupu, Nəqliyyatın inkişafı üzrə İşçi Qrupu, Təhlükəsizlik xidməti üzrə Təmas Qrupu, Diaspora işləri üzrə Təmas Qrupu, Universitetlərarası birlik üzrə Təmas Qrupu, Təhsil sahəsində Yüksək Səviyyəli Məmurlar Komitəsi, Mədəni əməkdaşlıq üzrə İşçi Qrupu, Ortaq Terminologiya Komitəsi kimi İşçi və Təmas qrupları yaradılmışdır. Bundan başqa, nazirlər səviyyəsində də toplantılar keçirilir[60].

TŞ-nin strukturu

Türk Şurasının əsas təşkilatları qurucu Naxçıvan Sazişində öz əksini tapmışdır. Naxçıvan Sazişində Türk Şurasının qarşısına qoyulan məqsəd

55 Regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi, qarşılıqlı maraq doğuran xarici siyasət məsələləri, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində və beynəlxalq forumlardakı məsələlər üzrə ümumi yanaşmanın araşdırılması

56 Tərəflərin xalqlarının həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə bərabərhüquqlu tərəfdaşlıq əsasında birgə fəaliyyət vasitəsilə regionda hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi

57 Əmtəələrin, kapitalın, xidmət və texnologiyaların hərəkətinin asanlaşdırılması, maliyyə və bank əməliyyatlarının sadələşdirilməsi məqsədilə ticarət, investisiyalar, gömrük və tranzit prosedurlarının gələcəkdə sadələşdirilməsi üçün əlverişli şəraitin yaradılması

58 Türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması

59 Qarşılıqlı əlaqələrin inkişafı məqsədilə hüquqi məlumatların mübadiləsi, qarşılıqlı hüquqi yardımın göstərilməsi və hüquqi münasibətlərin müxtəlif sahələrində əməkdaşlıq üzrə məsələlərin müzakirəsi

60 Terzioğlu S.S. Göstərilən əsəri, s.59

və vəzifələrin yerinə yetirilməsi üçün əsas 5 təşkilat formalaşdırılmışdır: 1. Dövlət Başçıları Şurası, 2. Xarici İşlər Nazirləri Şurası, 3. Yüksək Vəzifəli Şəxslər Komitəsi, 4. Ağsaqqallar Şurası, 5. Katiblik.

Dövlət Başçıları Şurası (DBŞ) öz fəaliyyətini tərəflərin dövlət başçılarının mütəmadi görüşləri formasında həyata keçirir. Bu çərçivədə aktual beynəlxalq problemlərin həlli üzrə tərəflərin qarşılıqlı əlaqəsi məsələləri nəzərdən keçirilir, TDƏŞ çərçivəsində tərəflərin əməkdaşlığının prioritet istiqamətləri müəyyən olunur, TDƏŞ-in fəaliyyətinin icmalı həyata keçirilir. DBŞ-nin iclasları ildə bir dəfə təşkil olunur. DBŞ-nin növbəti iclasının keçirilmə yeri, bir qayda olaraq, tərəflərin rəsmi adlarının ingilis əlifbası ardıcıllığı üzrə müəyyən edilir. DBŞ-nin növbədənkənar iclasları tərəflərin razılığı əsasında çağırıla bilər[61]. İndiyə kimi DBŞ-nin Almatı, Bişkek, Qəbələ, Bodrum və Astanada 5 iclası keçirilmişdir.

Xarici İşlər Nazirləri Şurası (XİNŞ) öz səlahiyyətləri çərçivəsində TDƏŞ-in cari fəaliyyət məsələlərini nəzərdən keçirir. DBŞ-nin iclasları çərçivəsində müzakirə məqsədilə daha aktual beynəlxalq problemləri müəyyən edir. Katibliyin ştat cədvəlini və maliyyə hesabatını təsdiqləyir. XİNŞ lazım olduğu təqdirdə TDƏŞ adından bəyanatla çıxış edə bilər. XİNŞ-in iclasları, bir qayda olaraq, DBŞ-nin iclaslarından əvvəl DBŞ iclaslarının keçirilmə yerində təşkil olunur. XİNŞ-in növbədənkənar iclasları tərəflərin razılığı əsasında çağırıla bilər. XİNŞ-in növbədənkənar iclaslarının keçirilmə yeri tərəflərin razılığı əsasında müəyyən olunur[62].

Yüksək Vəzifəli Şəxslər Komitəsi (Komitə) hər tərəfin ən azı bir nümayəndəsindən təşkil olunur. Komitə öz səlahiyyətləri çərçivəsində katibliyin fəaliyyətini əlaqələndirir. XİNŞ tərəfindən qəbul və DBŞ tərəfindən təsdiq olunmazdan öncə katiblik tərəfindən hazırlanmış sənədlərin layihələrini nəzərdən keçirir və təsdiq edir. Komitənin iclasları, bir qayda olaraq, XİNŞ-in iclaslarından öncə çağırılır[63].

Türkdilli Dövlətlərin Ağsaqqallar Şurası (Ağsaqqallar Şurası) TDƏŞ-in himayəsi altında olan və daimi əsasda fəaliyyət göstərən

61 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi, maddə 5. - http://www.turklib.az/r2.html

62 Naxçıvan Sazişi, maddə 6

63 Naxçıvan Sazişi, maddə 7

məsləhətçi-məşvərətçi strukturdur. Ağsaqqallar Şurasının fəaliyyətinin təfsilatlı aspektləri, o cümlədən maliyyə məsələləri ayrıca sənəd olan və XİNŞ tərəfindən təsdiq (qəbul) edilən Ağsaqqallar Şurasının Əsasnaməsi ilə müəyyən olunur. Ağsaqqallar Şurası öz fəaliyyətində bu sazişi və yuxarıda qeyd olunan əsasnaməni rəhbər tutur[64].

Katiblik TDƏŞ-in məqsəd və vəzifələrinin yerinə yetirilməsinə yardım göstərmək məqsədilə yaradılan icraçı orqandır. Katiblik öz səlahiyyətləri çərçivəsində DBŞ, XİNŞ və Komitənin iclaslarının, eləcə də TDƏŞ-in himayəsi altında digər görüşlərin keçirilməsi məqsədilə zəruri inzibati, təşkilati, protokol və texniki tədbirləri görür, sənəd layihələrini işləyib hazırlayır, sənədlərin arxivini yaradır və arxivləşdirmə aparır, tərəflərin təqdim etdiyi və digər beynəlxalq təşkilatlar və forumlardan alınan sənədlərin və informasiyanın toplanılması, işlənilməsi və ayrılması mərkəzi qismində çıxış edir, TDƏŞ haqqında ümumi məlumat yayır, DBŞ, XİNŞ və Komitə tərəfindən müəyyən olunan digər tapşırıq və vəzifələri icra edir.

Katibliyə rəhbərlik etmək üçün üç ildə bir rotasiya qaydasında üzv dövlətlərdən katib seçilir. Naxçıvan Sazişinin şərtlərinə görə, Baş katibin səlahiyyət müddəti uzadılmasa da, əslində, onun vəzifə müddəti dövlət başçıları tərəfindən bir il müddətinə uzadıla bilir. Belə ki, Türk Şurasının birinci Baş katibi Xəlil Akıncı 2010-cu il sentyabr – 2014-cü il sentyabr aylarında bu vəzifəni icra etmişdir[65]. 2014-cü il iyunun 5-də Türk Şurasının Bodrumda keçirilən 4-cü Zirvə görüşündə üzv ölkələrin dövlət başçıları tərəfindən Ramil Həsənov üç illik müddətə Türk Şurasının Baş katibi seçilmişdir[66].

Baş katibin müavinlərinin də səlahiyyət müddəti DBŞ tərəfindən üç illiyə müəyyən edilir və səlahiyyət müddətləri bir il daha uzadıla bilər. Naxçıvan Sazişinin 13-cü maddəsinə görə, tərəflər öz milli qanunvericiliklərinə uyğun olaraq Katiblik yanında daimi nümayəndələrini təyin edirlər.

Katiblik İstanbul şəhərində (Türkiyə Respublikası) yerləşir.

64 Naxçıvan Sazişi, maddə 9

65 Eski genel sekreterler. - http://www.turkkon.org/tr-TR/eski-genel-sekreterler/2/678

66 Bodrum Bəyannaməsi. /05.06.2014/- http://www.turkkon.org/Assets/dokuman/BODRUM_BILDIRI_AZ_20141022_092855.pdf

Katiblik TDƏŞ-in məqsəd və vəzifələrinin həyata keçirilməsi üçün bütün tərəflərin razılığı ilə müqavilələr bağlamaq, əmlaka malik olmaq, sərəncam vermək, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış etmək, hesablar açmaq və pul vəsaitləri ilə əməliyyatlar həyata keçirmək hüququna malikdir.

TŞ çərçivəsində fəaliyyət göstərən qurumlar

Türk Şurası çərçivəsində TÜRKSOY-dan başqa Türkdilli Ölkələrin Parlament Assambleyası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası kimi təşkilatlar da fəaliyyət göstərir. Belə ki, Türk Şurası bu çərçivədə bir üst əlaqələndirici təşkilat funksiyasını yerinə yetirir. Bu alt təşkilatların fəaliyyətini koordinasiya etmək isə Katibliyin vəzifəsidir.

TÜRKSOY. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) türkdilli ölkələrin dövlət başçıları arasındakı əməkdaşlığın ilk praktiki nəticəsi, türk dünyasında çoxtərəfli əməkdaşlığın mövcud olduğu ilk təşkilatdır[67]. Naxçıvan Sazişinin 4-cü maddəsinə görə, elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın inkişafı, türk dünyasının ümumi dəyərlərinin beynəlxalq səviyyədə yayılması və tanınması, türkdilli dövlətlər arasında mədəni əlaqələrin dərinləşdirilməsi məqsədilə tərəflər TÜRKSOY çərçivəsində əməkdaşlıq edirlər[68]. Azərbaycan TURKSOY-un fəaliyyətində yaxından iştirak edir. Türkdilli ölkələrin dövlət başçılarının 2006-cı il noyabrın 17-də Antalyada keçirilən 8-ci Zirvə görüşündə Prezident İlham Əliyev TÜRKSOY-un fəaliyyəti nəticəsində türk xalqlarının bir-birinə daha da yaxınlaşdığını[69] qeyd etmişdir.

TÜRKSOY 1993-cü ildə Almatıda 6 türk dövlətinin mədəniyyət nazirləri tərəfindən imzalanmış müqavilə əsasında yaradılmışdır. 1993-cü il iyulun 12-də Alma-Ata şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə respublikalarının

67 Kaseinov D. TÜRKSOY: The Global Actor of Cultural Cooperation in the Turkic World, p.19
68 Naxçıvan Sazişi, maddə 4
69 Türkdilli ölkələrin dövlət başçılarının VIII Zirvə görüşü, Azərbaycan Prezidenti İlham Əliyevin nitqi /s. 415/ - http://files.preslib.az/site/ialiyev/2006.pdf

mədəniyyət nazirləri "TÜRKSOY-un strukturu və fəaliyyət prinsipləri haqqında Müqavilə" imzaladılar. Müqaviləyə görə, dünya mədəniyyətinin formalaşmasında vacib rol oynayan TÜRKSOY-un məqsədi türkdilli ölkə və xalqların mədəniyyət və sənətini qorumaq, inkişaf etdirmək və yenidən canlandırmaq, türkdilli ölkələrin gələcək nəsillərinə milli mədəniyyətin əsaslarını öyrətməkdir[70]. Daha sonra Şimali Kipr və Rusiya Federasiyasının tərkibində olan Tatarıstan, Başqırdıstan, Altay, Saxa (Yakutiya), Tuva və Xakas türk muxtar respublikaları ilə birlikdə Moldovanın tərkibində olan Qaqauz Eli türk bölgəsi TURKSOY-da müşahidəçi statusu əldə etdilər. Türk dünyasının YUNESKO-su kimi qəbul edilən TÜRKSOY BMT, YUNESKO, AŞ, İSESKO və MDB kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq edir[71].

TÜRKSOY-un yaradılması haqqında müqaviləyə görə, qurum beynəlxalq təşkilat xüsusiyyətinə malikdir. TÜRKSOY-un ən yüksək qərarqəbuletmə orqanı mədəniyyət nazirlərindən ibarət olan Daimi Şuradır. TÜRKSOY-un koordinatorluğu üzv dövlətlər arasında 6 aydan bir əlifba ardıcıllığına görə dəyişdirilir. TÜRKSOY-un Baş katibi Mədəniyyət Nazirlərinin Şurası tərəfindən səs çoxluğu ilə seçilir və hər ölkənin mədəniyyət naziri tərəfindən təyin olunan bir nümayəndəsi TÜRKSOY-da fəaliyyət göstərir[72]. TÜRKSOY-un mərkəzi Ankarada yerləşir. Türkiyə hökuməti ilə TÜRKSOY arasında 2010-cu il iyulun 4-də yerləşəcəyi ölkə haqqında müqavilə imzalanmışdır[73].

TÜRKSOY-un fəaliyyəti türkdilli ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurası tərəfindən müəyyənləşdirilir. Bu şuranın toplantılarında qəbul edilən qərarlar TÜRKSOY-un Baş Katibliyi tərəfindən icra olunur. Rəssamların görüşləri, opera günləri, ədəbiyyat konfransları, teatr, kino və musiqi festivalları və s. – TÜRKSOY tərəfindən keçirilən

70 TÜRKSOY haqqında daha geniş məlumat üçün bax: http://www.turksoy.org/tr/turksoy/about

71 Kaseinov D. Göstərilən əsəri, s.19

72 TÜRKSOY`un Kuruluş və Faaliyet İlkeleri Hakkında Anlaşmanın Onaylanmasının Uygun Bulunduğuna Dair Kanun (Resmî Gazete ile yayımı: 25.2.1994, Sayı: 21860), maddə 3 ve 4. - https://www.tbmm.gov.tr/tutanaklar/KANUNLAR_KARARLAR/kanuntbmmc077/kanuntbmmc077/kanuntbmmc07703973.pdf

73 Türkiye Hükumeti ile Uluslararası Türk Kültürü Teşkilatı (TÜRKSOY) arasında ev sahibi ülke anlaşması. - http://www.resmigazete.gov.tr/eskiler/2011/08/20110827-2.htm
Bu müqavilə qüvvəyə mindiyi gündən etibarən 1994-cü il sentyabrın 4-də Türkiyə hökuməti ilə TÜRKSOY arasında imzalanmış TÜRKSOY təşkilatının yerləşəcəyi şəhər, milli təmsilçilərinin və beynəlxalq işçilərinin statusları haqqında müqavilə qüvvədən düşmüşdür

bu cür toplantılar türk mədəniyyətinin ortaq dəyərlərinin daha da yaxınlaşdırılması məqsədi daşıyır. Bundan başqa, türk mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan şəxsiyyətlərin tanıdılması məqsədilə türk dövlətlərində tədbirlər təşkil edilməkdədir. TÜRKSOY-un 10-cu toplantısının keçirildiyi 2010-cu ildə hər il üzv ölkələrdən bir şəhərin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi haqqında qərar qəbul edilmişdir. Bu çərçivədə Astana (Qazaxıstan) 2012-ci ildə, Əskişəhər (Türkiyə) 2013-cü ildə, Kazan (Tatarıstan) 2014-cü ildə, Mərv (Türkmənistan) 2015-ci ildə və Şəki (Azərbaycan) 2016-cı ildə türk dünyasının mədəniyyət paytaxtları seçilmişlər. 2013-cü ildən etibarən türk dünyasının mədəniyyət paytaxtında "Türkvizyon" mahnı yarışması keçirilir.

TÜRKSOY digər türkdilli xalqların olduğu kimi, Azərbaycanın da mədəniyyətinin və tanınmış şəxsiyyətlərinin dünyada təbliğ olunması üçün fəaliyyətini davam etdirir. Azərbaycan TÜRKSOY-un fəaliyyətinə aktiv dəstək verir[74]. TÜRKSOY-un təşəbbüsü ilə BMT-nin Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir. Bu çərçivədə TÜRKSOY hər il bütün türk dünyasında, həmçinin Avropa dövlətlərində Novruz bayramını qeyd edir.

Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA). TÜRKPA türk dövlətləri arasında əməkdaşlığın qanuni çərçivəsinin formalaşdırılmasına xidmət edir. Bundan başqa, Türk Şurası çərçivəsində həyata keçirilən iqtisadi, siyasi və mədəni fəaliyyətlərə qanuni dəstək verir[75]. TÜRKPA-nın Baş Katibliyi Bakıda yerləşir. Bakının ev sahibi kimi seçilməsinin əsas səbəbi odur ki, tarixdə ilk türk parlament respublikası (AXC) 1918-1920-ci illərdə Azərbaycanda qurulmuşdur[76].

TÜRKPA 2008-ci il noyabrın 21-də İstanbulda "Dolmabağça" sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə respublikalarının

74 TURKSOY Genel Sekreteri Dusen Kasainovun Azerbaycan Kültür ve Turizm Bakanı Ebülfez Garayevi ziyareti. - http://www.turksoy.org/tr/news/turksoy_genel_sekreteri_dusen_kaseinov_azerbaycan_kultur_ve_turizm_bakani_ebulfes_garayevi-02-07-201

75 Jandos Asanov. TURKPA: The Parliamentary Dimension of the Cooperation Among Turkic Countries, SAM (Turkey), Special Publication. Fifth Summit of the Turkic Council: A Rising Actor in regional cooperation in Eurasia, p.25

76 Yenə orada, s.25

parlament rəhbərlərinin imzaladıqları saziş əsasında təsis olunmuşdur. 2009-cu il sentyabrın 29-da TÜRKPA-nın Bakıda ilk plenar sessiyası keçirilmişdir. Sessiyada TÜRKPA-nın reqlamenti, Katibliyin Əsasnaməsi və Bakı Bəyannaməsi, Katibliyin daimi əsaslarla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilmişdir[77].

İstanbul Sazişi ilə TÜRKPA tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və parlamentlərarası əməkdaşlığa dair digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması məqsədilə təsis edilmişdir[78]. İstanbul Sazişi 4 əsas nüsxədə olmaqla Azərbaycan, qazax, qırğız və türk dillərində imzalanmış və hər biri tərəflər üçün eyni hüquqi qüvvəyə malikdir[79]. Digər türkdilli ölkələr də bu sazişə qoşula bilər. Bunun üçün əvvəlcə bu ölkələrin parlamentləri yazılı bildiriş təqdim etməli və tərəflərin yazılı razılığı alınmalıdır[80].

Saziş qeyri-müəyyən müddətə bağlanmış və tərəflərdən biri bu sazişdə iştirakdan imtina etmə haqqına sahibdir. Lakin bunun üçün digər tərəflərə yazılı bildiriş göndərməli və tərəflər bu bildirişi aldıqdan 6 ay sonra bildiriş göndərən tərəf sazişdən imtina etmiş sayılır. Bundan başqa, tərəflər bu sazişə protokollar vasitəsilə dəyişikliklər edə bilər. Protokollar sazişin ayrılmaz hissəsi sayılır[81]. 2011-ci il aprelin 27-də Astana şəhərində İstanbul Sazişinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı protokol qəbul edilmiş və 4-cü, 5-ci və 8-ci maddələrə əlavə və dəyişikliklər edilmişdir[82].

TÜRKPA-nın əsas məqsədi parlamentlərarası əməkdaşlığı inkişaf etdirmək, üzv ölkələrin qanunvericiliklərinin, o cümlədən mədəni irsinin, tarix, incəsənət, ədəbiyyat və digər sahələrdə türkdilli ölkələr üçün ümumi əhəmiyyət kəsb edən dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsinə yönəlmiş qanunvericiliklərinin yaxınlaşdırılması üzrə

77 TÜRKPA (Türkdilli Ölkələrin Parlament Assambleyası) /10.04.2012 / - http://www.turk-pa.org/news.php?id=151&lang=az

78 The Istanbul Agreement on the Parliamentary Assembly of Turkic-Speaking Countries. - http://www.turk-pa.org/documents/IstanbulAgreement.pdf

79 Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) haqqında İstanbul Sazişi, maddə 14. - http://www.turk-pa.org/documents/IstanbulSazis.pdf

80 Yenə orada, maddə 10

81 Yenə orada, maddə 11-12

82 Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) haqqında İstanbul Sazişinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı Protokol. - http://www.turk-pa.org/documents/001.jpg

tövsiyələr qəbul etmək, tərəflər arasında hüquqi və digər xarakterli məlumat mübadiləsini həyata keçirməkdir[83].

TÜRKPA-nın plenar iclaslarında müzakirə olunan məsələlərlə bağlı konsensus əsasında qərarlar qəbul edilir[84]. İstanbul Sazişində assambleyada hər ölkənin parlamentinin 7 üzvlə təmsil olunması qeyd edilmişdir. Lakin 2011-ci il aprelin 27-də İstanbul Sazişinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı protokola əsasən, bu rəqəm 9 nəfərə çatdırılmışdır[85]. Hər ölkənin parlament nümayəndə heyətinə parlamentin rəhbəri başçılıq edir. Assambleyada qərarların qəbul edilməsində hər tərəf bərabər hüquqlara və bir səsə malikdir[86]. Assambleyanın fəaliyyətinin əlaqələndirilməsini tərəflərin parlament rəhbərlərindən ibarət Assambleya Şurası həyata keçirir. Şura assambleyanın məqsəd və vəzifələrinin həyata keçirilməsinə yönəlmiş və müzakirə olunan məsələlər üzrə konsensus əsasında qərarlar qəbul edir[87].

Assambleyanın inzibati orqanı onun daimi fəaliyyətini təmin edən Katiblikdir[88]. Assambleyanın ilk Baş katibi 2009-cu il sentyabrın 29-da Bakıda keçirilən ilk plenar sessiyada 4 illik müddətə Azərbaycandan Ramil Həsənov seçilmişdi. Onun səlahiyyət müddəti 2013-cü il oktyabrın 1-də başa çatmışdır[89]. 2013-cü il iyunun 11-də Ankarada keçirilən 4-cü plenar sessiyada Qazaxıstandan Jandos Asanov 4 illik müddətə TÜRKPA-nın Baş katibi seçilmişdir[90].

Assambleyanın növbəti plenar iclasları və Assambleya Şurasının iclasları ildə bir dəfədən az olmayaraq əlifba sırası ilə üzv dövlətlərin ərazisində keçirilir. İclasın keçirildiyi ölkə iclasa sədrlik edir. Assambleya və Assambleya Şurasının növbədənkənar iclasları tərəflərdən birinin təklifi ilə bütün tərəflərin razılığı əsasında çağırılır[91]. Assambleyanın işçi dilləri

83 Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) haqqında İstanbul Sazişi, maddə 2. - http://www.turk-pa.org/documents/IstanbulSazis.pdf

84 Yenə orada, maddə 3

85 Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) haqqında İstanbul Sazişinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı Protokol. - http://www.turk-pa.org/documents/001.jpg

86 İstanbul Sazişi, maddə 4

87 Yenə orada, maddə 5

88 Yenə orada, maddə 6

89 Baş katib c-b Ramil Həsənov (29 sentyabr 2009-cu ildən 1 oktyabr 2013-cü ilə qədər) / 09.04.2012/ - http://www.turk-pa.org/news.php?id=1076&lang=az

90 Baş katib /09.04.2012/- http://www.turk-pa.org/cat.php?cat=2029&lang=az

91 İstanbul Sazişi, maddə 7. - http://www.turk-pa.org/documents/IstanbulSazis.pdf

tərəflərin öz dilləri[92] və ingilis dilidir[93].

Beynəlxalq parlament təşkilatlarının və bu sazişin iştirakçısı olmayan digər ölkələrin milli parlamentlərinin nümayəndələri Assambleya Şurasının qərarı əsasında assambleyanın iclaslarında müşahidəçi qismində iştirak edə bilərlər[94]. 2014-cü ildə keçirilən 5-ci plenar iclasda Macarıstan müşahidəçi dövlət olaraq TÜRKPA-ya üzv olmuşdur[95]. TÜRKPA, öz növbəsində, Beynəlxalq Parlament İttifaqı, ATƏT-in Parlament Assambleyası və İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqında müşahidəçi statusunda iştirak edir[96].

Türk Akademiyası. Naxçıvan Sazişinin 2-ci maddəsində Türk Şurasının fəaliyyət sahələri arasında elm, texnika, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və turizm sahələrində əməkdaşlıq da yer almışdır[97]. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən IX Zirvə görüşündə türk dünyası haqqında araşdırmalar aparan beynəlxalq elmi araşdırmalar mərkəzinin yaradılmasını təklif etmişdi. N.Nazarbayevin təklifi nəzərə alınaraq 2010-cu il mayın 25-də Qazaxıstanın paytaxtı Astanada Türk Akademiyası təsis edilmişdir. Akademiyanın təsis edilməsi ilə bağlı keçirilən tədbirdə Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev və Türkiyə Respublikasının Prezidenti Abdullah Gül ilə birlikdə Qazaxıstan, ABŞ, Rusiya (Tatarıstan, Başqırdıstan, Çuvaşıstan, Yakutiya), Özbəkistan, Qırğızıstan və Ukraynadan olan türkoloqlar da iştirak etmişlər.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2012-ci il avqustun 22-23-də Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən 2-ci Zirvə görüşündə üzv dövlətlər Türk Akademiyasına beynəlxalq status verilməsi haqqında saziş imzaladılar. Bu saziş tərəflərin parlamentləri tərəfindən təsdiqləndikdən

92 Yenə orada, maddə 8

93 Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) haqqında İstanbul Sazişinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı Protokol. - http://www.turk-pa.org/documents/001.jpg

94 İstanbul Sazişi, maddə 9. - http://www.turk-pa.org/documents/IstanbulSazis.pdf

95 Jandos Asanov. TURKPA: The Parliamentary Dimension of the Cooperation Among Turkic Countries, SAM (Turkey), Special Publication. Fifth Summit of the Turkic Council: A Rising Actor in regional cooperation in Eurasia, p.27

96 TÜRKPA İslam Konfransı Təşkilatının Parlament İttifaqına müşahidəçi statusu ilə üzv olmuşdur. /19.01.2011/ - http://www.turk-pa.org/news.php?id=793&lang=az

97 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi /Naxçıvan, 3 oktyabr 2009-cu il/ - http://www.turklib.az/r2.html

sonra Türk Akademiyası 2014-cü il avqustun 28-də beynəlxalq status qazandı. Saziş 2012-ci il avqustun 23-də Bişkek şəhərində bir əsas nüsxədə Azərbaycan, qazax, qırğız, türk və ingilis dillərində imzalandı. Saziş qeyri-müəyyən müddətə bağlanılıb və digər türkdilli dövlətlərin qoşulması üçün açıqdır[98].

Türk Akademiyasının təsis edilməsi haqqında sazişin şərtlərinə əsasən, akademiyanın məqsəd və vəzifələri aşağıdakılardır (maddə 2): türk dilləri, ədəbiyyatı və mədəniyyətinin qorunmasına, inkişafı və diaxronik öyrənilməsinin təbliğinə xüsusi diqqət ayıraraq, türk tədqiqatları sahəsində araşdırmaları əlaqələndirmək və təşviq etmək[99]; türk tədqiqatlarının inkişafı və türk tədqiqatları sahəsində elmi araşdırmalar istiqamətində beynəlxalq əməkdaşlığı təşviq etmək[100]; ümumtürk tarixi və etnoqrafiyasının hərtərəfli araşdırılmasını həyata keçirmək; türk xalqlarının mədəni və mənəvi irsini araşdırmaq, onların dünya sivilizasiyasının inkişafına verdikləri töhfələr və əldə etdikləri uğurlar barədə ictimaiyyəti məlumatlandırmaq; türk dillərinin tam potensialından, o cümlədən qədim mətnlərdən və şifahi mənbələrdən də tam istifadə etməklə bütün türk xalqlarının ortaq ədəbi dilinin yaradılması istiqamətində səylər göstərmək; bütün türk dilləri üçün tətbiq oluna bilən ümumi əlifba yaratmaq; tərəflərin təhsil müəssisələrində tədris ediləcək ümumi dərslik və dərs vəsaitlərinin hazırlanması istiqamətində araşdırmalar aparmaq; Türk Akademiyası tərəfindən işə götürülmüş tədqiqatçılar üçün fəlsəfə elmləri doktoru (PhD) proqramları təşkil etməklə türk tədqiqatları sahəsində mütəxəssis hazırlamaq[101].

Sazişin 4-cü maddəsi akademiyanın idarə olunması ilə əlaqədardır. Bu maddəyə görə, akademiyaya hər tərəfin bir nümayəndəsindən, habelə Türk Akademiyasının prezidenti və vitse-prezidentlərindən ibarət olan Elmi Şura sədrlik edəcək. Elmi Şuraya sədrlik üzv tərəflərin

98 Türk Akademiyası, /Bişkek, 23 avqust 2012-ci il/ - http://www.turklib.az/r14.html

99 Bu çərçivədə türkdilli ölkələrin Elmlər akademiyaları ilə əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır

100 Bu çərçivədə Avropada elmi araşdırma mərkəzləri ilə əməkdaşlıq haqqında müqavilələr imzalanmışdır

101 2012-ci il avqustun 23-də Bişkek şəhərində imzalanmış "Türk Akademiyasının təsis edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı / 23 oktyabr 2013-cü il/ - http://www.e-qanun.az/framework/27906

rəsmi adlarının ingilis dilində yazılmış əlifba sırası ilə illik rotasiyası əsasında müəyyən olunur. Elmi Şurada qərarlar səs çoxluğu ilə qəbul olunur. Akademiyanın icraedici orqanının funksiyalarını prezident həyata keçirir. Prezident Elmi Şuranın təklifi əsasında Türk Şurasının Dövlət Başçıları Şurası (DBŞ) tərəfindən təyin olunur. Prezident tərəflərin vətəndaşları arasından növbəti müddətə uzadılma imkanı ilə 4 il müddətinə təyin edilir. İlk prezident Qazaxıstan vətəndaşları arasından seçilmişdir. Daha sonrakı prezidentlər isə tərəflərin ingilis dilində yazılmış rəsmi adlarına uyğun olaraq əlifba sırası ilə təyin olunur: Azərbaycan, Qırğızıstan və Türkiyə. Prezident dərhal tədbir görülməsini zəruri edən səlahiyyətindən sui-istifadə etdiyi və ya səhhəti ilə bağlı fəaliyyətini davam etdirə bilmədiyi təqdirdə Elmi Şuranın təklifi əsasında DBŞ tərəfindən vəzifəsindən müvəqqəti və/və ya tamamilə azad edilə bilər.

Akademiyanın vitse-prezidentləri isə prezidentin vətəndaşı olduğu tərəf istisna olmaqla, hər bir tərəfdən təyin olunur. Vitse-prezidentləri tərəflərin vətəndaşları arasından növbəti müddətə uzadılma imkanı ilə 4 il müddətinə Elmi Şura təyin edir. Vitse-prezidentlər səlahiyyətlərindən sui-istifadə etdikləri və ya səhhətləri ilə bağlı fəaliyyətlərini davam etdirə bilmədikləri təqdirdə Elmi Şura tərəfindən vəzifələrindən müvəqqəti və/və ya tamamilə azad edilə bilərlər.

Türk Akademiyası bu günədək bir çox araşdırma institutu və türkologiya mərkəzi (o cümlədən Azərbaycan Milli Elmlər Akademiyası, Qırğızıstan Milli Elmlər Akademiyası, Türkiyə Elmlər Akademiyası, Türkmənistan Elmlər Akademiyası, Tatarıstan Respublikası Elmlər Akademiyası, Başqırdıstan Elmlər Akademiyası, Monqolustan Elmlər Akademiyası, Macarıstan Elmlər Akademiyası və Bişkek Beynəlxalq Aytmatov Akademiyası) ilə əməkdaşlıq haqqında müqavilə imzalamışdır. Türk Akademiyası təkcə türk dövlətlərinin Elmlər akademiyaları ilə deyil, Asiya və Avropanın bir çox institut və mərkəzləri ilə də əməkdaşlıq edir.

Türk Mədəniyyəti və İrsi Fondu. Azərbaycan mədəniyyəti, tarixi və coğrafiyası türk dünyasının vacib bir hissəsidir. Azərbaycan türk mədəniyyətinin və tarixinin yaşadılması üçün yalnız xaricdə deyil,

ölkə daxilində də siyasətini bu istiqamətdə qurmuşdur. Türk Şurası çərçivəsində türk mədəniyyətinin öyrənilməsi, tanıdılması və qorunub-saxlanılması istiqamətində Azərbaycan aktiv rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2015-ci il sentyabrın 11-də Astanada keçirilmiş V Zirvə görüşündə "Türkdilli ölkələrin əməkdaşlığının təməlində bizim ortaq tariximizdir, ortaq mədəniyyətimizdir, etnik köklərdir"[102] fikrini səsləndirməklə Azərbaycanın bu məsələyə baxışını ortaya qoymuşdur. Türk Şurasının yaradılmasının əsasını təşkil edən və 1992-ci ildən etibarən keçirilən zirvə toplantılarının[103] və Türk Şurasının qurulmasından sonra keçirilən Türk Şurası zirvə görüşlərinin bəyannamələrində bu əməkdaşlığın əsasını ortaq mədəniyyət, dil və tarix birliyinin təşkil etdiyi qeyd olunmuşdur. Türk Şurasının yaradılmasının əsasını təşkil edən Naxçıvan Sazişində də TDƏŞ-in əsas məqsəd və vəzifələrindən birinin türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılması olduğu qeyd edilmişdir[104]. Bu çərçivədə türkdilli ölkələrin dövlət başçılarının 2010-cu ildə İstanbulda keçirilən X Zirvə görüşünün Bəyannaməsində (16-cı bənd) Azərbaycanın təşəbbüsü ilə Bakıda Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun yaradılmasına dair qərar qəbul edilmişdir[105].

2012-ci il avqustun 23-də Bişkek şəhərində Türk Mədəniyyəti və İrsi Fondunun Nizamnaməsi qəbul edilmiş və nizamnamə 2012-ci il dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiqlənmişdir. Fondun təsis edilməsi ilə bağlı sənədi imzalayan digər dövlətlər tərəfindən nizamnamə təsdiqləndikdən sonra 2015-ci ildə Prezident İlham Əliyev fondun Azərbaycanda bütün imkanlarla təmin olunması üçün sərəncam imzalamışdır. Sərəncama əsasən Günay

102 İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammitində iştirak edib. /11 sentyabr 2015-ci il/ - http://www.president.az/articles/16110

103 1992-ci ildən etibarən türk respublikaları arasında keçirilən bu toplantılar Türk Respublikalarının Dövlət Başçılarının Zirvə görüşləri, 1998-ci ildə Astanada keçirilən V Zirvə görüşündən sonra isə Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşləri adlandırılmışdır.

104 Naxçıvan Sazişi, maddə 2. - http://www.turklib.az/r2.html

105 Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə toplantısının Bəyannaməsi, maddə 16. /İstanbul, 16 sentyabr 2010-cu il/ - http://turkkon.org/Assets/dokuman/01_b_IstanbulBildirisi_16Eylul2010_Azerice_20140418_102944.pdf Maddə 16

Əfəndiyeva fondun prezidenti vəzifəsinə təyin olunmuşdur[106].

Nizamnaməyə görə, fondun məqsədi türk mədəniyyəti və irsini fəaliyyət, layihə və proqramların dəstəklənməsi və maliyyələşdirilməsi vasitəsilə qorumaq, öyrənmək və təşviq etməkdir[107]. Bu məqsədin həyata keçirilməsi üçün fond vəsait ayırır, elmi və texniki problemlərin həllinə, sərgilərin təşkilinə, elektron və çap formatda elmi məcmuə və elmi nəşrlərin hazırlanmasına kömək edir, bu sahədə mütəxəssislərin hazırlanmasına dəstək verir, müsabiqə, festival və turnirlərin və s. keçirilməsinə yardım göstərir, türkdilli xalqların məskunlaşdığı ərazilərdə ənənəvi sənətlərin, tətbiqi incəsənətin dirçəldilməsi, dəstəklənməsi və inkişaf etdirilməsinə kömək edir, sənətkarlara, rəssamlara və digər yaradıcı incəsənət işçilərinə əqli mülkiyyət hüquqlarının müdafiə olunmasında yardım göstərir[108].

Fondun mərkəzi qərargahı Bakı şəhərində yerləşir. Fondun büdcəsi onun prezidenti tərəfindən hazırlanır və Türk Şurasının Xarici İşlər Nazirləri Şurası tərəfindən təsdiqlənir[109]. Fond öz fəaliyyətini TÜRKSOY ilə əməkdaşlıq etməklə həyata keçirir[110].

Türk Biznes Şurası. Türk Şurasının yaradılması məqsədlərindən biri, Naxçıvan Sazişinə görə, əmtəələrin, kapitalın, xidmət və texnologiyaların hərəkətinin asanlaşdırılması, maliyyə və bank əməliyyatlarının sadələşdirilməsi məqsədilə ticarət, investisiyalar, gömrük və tranzit prosedurlarının gələcəkdə sadələşdirilməsi üçün əlverişli şəraitin yaradılmasıdır[111]. Tərəflər bu istiqamətdə bir çox fəaliyyətlər həyata keçirmişlər. Türk Biznes Şurasının yaradılması da bunlardan biridir.

2010-cu il sentyabrın 16-da İstanbulda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə görüşündə iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Türk Biznes Şurasının yaradılması qərara

106 Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / 6 may 2015-ci il/ - http://www.president.az/articles/15087

107 Türk Mədəniyyəti və İrsi Fondunun Nizamnaməsi, maddə 2. - https://www.google.az/#q=T%C3%-BCrk+M%C9%99d%C9%99niyy%C9%99ti+v%C9%99+%C4%B0rsi+Fondunun+Nizamnam%C9%99si

108 Yenə orada, maddə 3

109 Yenə orada, maddə 6

110 Yenə orada, maddə 8

111 Naxçıvan Sazişi, maddə 2

alınmışdır[112]. Türk Biznes Şurası 2011-ci ildə təsis edilmişdir. Bu qurum Türk Şurasına üzv ölkələrin işgüzar dairələri və digər təşkilatları vasitəsilə türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın dərinləşdirilməsini həyata keçirir. Türk Şurasına üzv ölkələrin özəl sektorları arasında münasibətlərin inkişaf etdirilməsi məqsədilə 2014-cü ildən etibarən Biznes Şurası tərəfindən mütəmadi olaraq biznes forumları və ixrac malları sərgilərinin təşkil edilməsi qərara alınmışdır. 2014-cü ilin fevral ayında İstanbulda üzv dövlətlərin qeyri-neft sektorlarını təmsil edən şirkətləri arasında biznes forumu və eyni tarixdə Türk Biznes Şurasının ikinci iclası keçirilmişdir[113].

TŞ-nin əməkdaşlıq sahələri: mədəniyyət, təhsil və elm

Türk Şurası çərçivəsində qurulan əməkdaşlığın əsas sütununu türkdilli dövlətlər arasında ortaq dil, mədəniyyət və tarix birliyi təşkil edir. Bu, Türk Şurasını digər regional əməkdaşlıq təşkilatlarından ayıran əsas xüsusiyyətdir. Türk Şurasının II Zirvə görüşü "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq" mövzusuna həsr olunmuşdu. Türkdilli ölkələrin turizm nazirlərinin bu görüşdən əvvəl keçirilən toplantısında Türk Yazarlar Birliyi və Türk Kino Birliyinin təsis edilməsi qərara alınmışdır.

Ağsaqqallar Şurasının tövsiyəsi ilə təhsil nazirlərinin ortaq tarix və ortaq ədəbiyyat kitablarının hazırlanması məqsədilə işçi qrup yaradılmışdır. Ortaq tarix kitabının hazırlanması sahəsində çalışmalar Türk Akademiyası tərəfindən həyata keçirilir.

Türk Şurası çərçivəsində vahid terminologiyanın yaradılması məqsədilə təsis edilən Ortaq Terminologiya Komitəsi elmi məqsədlərlə istifadə olunacaq ortaq latın əlifbasının hazırlanmasını qərara almış və bəzi ortaq terminlər qəbul edilmişdir. Müxtəlif sahələr üzrə ortaq terminologiya lüğətinin hazırlanması da qərara alınmışdır.

Üzv dövlətlərin universitetləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Türk Universitetlər Birliyi təsis edilmişdir. Birliyə üzv

112 Yenə orada, maddə 24

113 Ekonomik İşbirliği. - http://www.turkkon.org/tr-TR/ekonomik-isbirligi/3/33/33/35

olan universitetlərin rektor və müavinləri 2013-cü ilin mart ayında İstanbulda, may ayında Bişkekdə, noyabr ayında Əşkişəhərdə və 2014-cü ilin mart ayında İzmirdə iclaslar keçirmişlər. Tələbə və universitet müəllimləri arasında həyata keçirilən mübadilə proqramı "Orxan prosesi" adını almışdır.

Türk Şurasının təhsil sahəsində ortaq televiziya kanalının yaradılması və türk dünyası ilə əlaqədar elmi araşdırmalara maddi dəstək vermək üçün Türk Elmi Araşdırmalar Fondunun təsis edilməsi istiqamətlərində də çalışmalar davam etdirilir[114].

İqtisadi əməkdaşlıq

Türk Şurasına üzv dövlətlər arasında ortaq bazarın formalaşdırılması və ortaq pul vahidi vasitəsilə ticarətin həyata keçirilməsi, yəni ticarət və iqtisadi mövzular Türkiyə tərəfindən ilk görüşlərin keçirildiyi 1992-ci ildə gündəmə gətirilmişdir. Lakin Türkiyənin bu təklifləri qəbul olunmamış, daha sonra münasibətlər daha çox enerji mövzusu istiqamətinə yönəldilmişdir.

Üzv dövlətlər şuranın birinci mədəni, ikincisi isə iqtisadi məqsədlərini ön plana çıxarırdılar. Bunun iki səbəbi var: 1. Ümumilikdə təşkilatın geosiyasi məqsədlərinin olmadığını nümayiş etdirmək; 2. Şura çərçivəsində üzv dövlətlərin siyasi suverenliyini qoruyub saxlamaq. Yəni üzv dövlətlər, Aİ-dən fərqli olaraq, bəzi daxili suverenlik məsələlərini şuraya vermək istəmirlər.

Türk Şurasının qurulmasının əsas məqsədlərindən biri üzv dövlətlərin xarici ticari asılılıqlarını azaltmaq və öz aralarında iqtisadi-ticari əlaqələri genişləndirmək olmuşdur. Türk Şurasının qurulması dünyada iqtisadi cəhətdən çətin bir dövrə təsadüf edib. Belə ki, birincisi, bu dövrdə ticarətin mərkəzi Qərbdən Şərqə keçib. Mərkəzi Asiya türk dövlətləri Asiyada əsas ticarət yollarının üzərində yerləşdiyindən onların əhəmiyyəti artıb. İkincisi, bu dövrdə dünyada dövlətlər və təşkilatlar tərəfindən mərhələli şəkildə qoruyucu ticari-iqtisadi siyasət

114 http://www.turkkon.org/tr-TR/kultur-egitim-ve-bilim-isbirligi/3/33/33/37

həyata keçirilməyə başlanıb. Üçüncüsü, 2008-ci ildən etibarən dünya iqtisadiyyatı dərin və uzunmüddətli bir böhrana daxil olub. Bu böhran Türk Şurasına üzv dövlətlərə də mənfi təsirini göstərib. Dördüncüsü, Türk Şurasının lokomotivi rolunu oynayan Azərbaycan və Qazaxıstan əsas gəlir mənbələri olan neft və qazın qiymətlərinin aşağı düşməsini nəzərə alıb enerjidən asılılıqlarını azaltmaq istiqamətində səylərini artırıblar. Ticari və iqtisadi asılılığın nəticədə siyasi asılılığa da gətirdiyi həqiqətini nəzərə alaraq hər üzv dövlət daxili və xarici siyasətdə müstəqil ola bilmək üçün iqtisadi cəhətdən xarici güclərdən asılı olmaq istəmirdi. Beləliklə, üzv dövlətlər öz aralarında ticarət əlaqələrini inkişaf etdirmək istəyirdilər. Bu səbəbdən Türk Şurasının ilk toplantısı iqtisadi əməkdaşlıq mövzusunda olub.

Bu mənada iqtisadi əməkdaşlıq sahəsində iqtisadiyyat nazirləri və fərqli işçi qrupları arasında mütəmadi iclaslar keçirilir. Üç istiqamət – "Sərmayə yatırımının yaxşılaşdırılması", "İqtisadiyyatın şaxələndirilməsi" və "İqtisadi münasibətlərin əsası olaraq təşəbbüskarlıq" üzrə işçi qrupları yaradılmışdır[115].

Birinci zirvə görüşündə bərabərlik və qarşılıqlı fayda prinsipləri əsasında iqtisadiyyat və ticarət sahələrində münasibətlərin inkişaf etdirilməsi, sənaye, kənd təsərrüfatı, nəqliyyat, rabitə, su və enerji məsələləri, alternativ enerji və turizm də daxil olmaqla, bütün sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdu[116]. 1-ci Zirvə görüşündə həmçinin ticarət mübadiləsinin təhlükəsizliyinin təmin olunması üçün sığorta şirkətləri assosiasiyasının yaradılması, ticarət və investisiya imkanlarının yaxşılaşdırılması üçün sahibkarlara işçi icazələrinin və vizaların verilməsinin asanlaşdırılması qərara alınmışdı[117].

Türk Şurasının 2012-ci il avqustun 23-də Bişkekdə keçirilən II Zirvə görüşündə isə Qırğızıstanın təklifi ilə Türk Şurasının İnkişaf Fondunun yaradılması qərara alınmışdır[118]. Türk Şurasının Qəbələdə keçirilən zirvə görüşündə tərəflər özəl sektorun da iqtisadiyyat üzrə müvafiq komissiyalara dəvət olunması barədə razılığa gəliblər. Xüsusən dövlət-özəl

115 Ekonomik İşbirliği. - http://www.turkkon.org/tr-TR/ekonomik-isbirligi/3/33/33/35
116 Almatı Bəyannaməsi, 21.10.2011
117 Yenə orada
118 Bişkek Bəyannaməsi. 23.08.2012

sektor münasibətlərini inkişaf etdirəcək Türk Biznes Şurasının üzv dövlətlər arasında ticarətin genişləndirilməsi üçün həyata keçirəcəyi layihələr dəstəklənmişdir[119]. Qəbələ Zirvə görüşündən əvvəl Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Qazaxıstan Respublikasının Milli İxrac və İnvestisiyalar Agentliyi, Qırğızıstan Respublikasının İqtisadiyyat Nazirliyi və Türkiyə Baş naziri yanında İnvestisiyaya Dəstək və Təşviq Agentliyi arasında Anlaşma Memorandumu imzalanmışdır[120].

Lakin türk dövlətləri arasında ticarət dövriyyəsi onların imkanlarını nəzərə aldıqda tələb olunan səviyyədə deyil. Məsələn, Türk Şurasına üzv dövlətlər arasında ticarətin ümumi həcmi 5 milyard dollar təşkil edir. Bu, Türkiyənin 430 milyard dollarlıq ticarət həcminin 1%-i deməkdir[121]. Bu rəqəm Azərbaycanda daha yüksəkdir. Belə ki, Azərbaycanın Türk Şurası ilə ticarət həcmi ümumi ticarət həcminin 14%-ni təşkil edir[122].

Turizm sahəsində əməkdaşlıq yolları

Türk Şurasına üzv dövlətlər üçün sahib olduqları turizm potensialını inkişaf etdirmək, öz aralarında turizm sahəsində əməkdaşlığı genişləndirmək xüsusi əhəmiyyət kəsb edir. Türk dövlətləri arasında turizmin inkişafı və bu sahədə əməkdaşlıq Türk Şurasının 1996-cı ildə Daşkənddə keçirilən Türk Respublikalarının Dövlət Başçılarının IV Zirvə görüşündə gündəmə gəlmişdi. Bu görüşdə "Tarixi İpək Yolunun canlandırılması: mədəniyyət turizminin inkişafı, türkdilli ölkələrin mədəni irsinin bərpa edilməsi, qorunması və davamlı şəkildə inkişaf etdirilməsi" adlı bir proqramın hazırlanması qərara alınmışdır. Bundan sonra keçirilən bütün zirvə görüşlərində İpək Yolunun bərpa edilməsi haqqında qərarlar qəbul edilsə də, nəticədə heç bir ciddi iş görülməmişdir.

Türk Şurasının turizm sektoruna əhəmiyyət verməsi özündə iki məqsəd daşıyır: 1. Şuraya üzv ölkələr arasında turist səyahətlərinin

119 Qəbələ Bəyannaməsi, 16.08.2013
120 Astana Bəyannaməsi, 11.09.2015
121 http://www.aksam.com.tr/guncel/turkiye-ve-azerbaycandan-milli-para-hamlesi/haber-578570
122 Azerbaijan`s trade with Turkic Council States Near $2 b. - http://www.azernews.az/business/106794.html

sayını artırmaq və bir-birini qarşılıqlı şəkildə tanımaq; 2. Türk dünyasına aid mədəni və dini dəyərləri, musiqi və fərqli sənət əsərlərini dünyaya tanıtmaq. Turizm dövlətlər üçün sadəcə iqtisadi və ticari fəaliyyət deyil, eyni zamanda maddi və mənəvi irsin tanıdılması, qorunması və gələcək nəsillərə çatdırılması, mədəniyyətlərarası mübadilənin, həmçinin dövlətlərin "yumşaq güc"ünün vacib bir vasitəsidir. Mədəniyyət turizmi insanlara öz köklərini tanımağa imkan verərək, onların tarix və mədəniyyətlərinə marağı daha da artırır. Bundan başqa, mədəni turizm turistlər vasitəsilə gəlir gətirərək, regionun tarixini, mədəni və dini keçmişini qorumağa kömək edir. Nəticədə turizm və ortaq irs münasibətləri kimi tarixi varlıqlar turizmin inkişafına təkan verir, turizm isə tarixi varlıqların qorunması üçün maddi imkanlar təmin edir[123]. Mədəniyyət turizminə istiqamət verən YUNESKO-nun 2015-ci il hesabatına görə, Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ Siyahısında 163 ölkədən 802 mədəni, 197 təbii və 32 qarışıq olmaqla cəmi 1.031 mədəni irs regionu mövcuddur. Bu siyahıda türk dünyasına aid 29 mədəni irs sahəsi yer almışdır[124].

"Yumşaq turizm" kimi tanınan mədəni turizm üçün əsas məqsəd gəzilən və görülən yerlərin xalqlarının maddi-mədəni varlıqlarını görmək, yaşamaq və anlamaqdır. Bu tərz turizmdə turist sayından çox onların sahib olduqları sosial-iqtisadi qrup əhəmiyyəti daşıyır[125]. Turizm vasitəsilə müxtəlif xalqların maddi və mənəvi irsi ilə tanış olan turistlər eyni zamanda tarixi varlıqlarla tanış olmaq yolu ilə burada gördüklərini ətrafdakı insanlarla bölüşür və beləcə zəngin mədəni varlıqları daha geniş coğrafiyaya tanıdır, eyni zamanda unudulmaq üzrə olan tarixi varlıqların və əsərlərin yenidən canlandırılmasına xidmət edirlər. Türk dünyası üçün ikinci vacib məqam isə odur ki, turizm qloballaşmanın milli və regional mədəni və tarixi varlıqlar üzərindəki neqativ təsirlərini ortadan qaldırmağa kömək göstərir[126].

123 Derya Tellan. Türk Dünyasında Turizm ve Kültürel Miras İlişkisini İrdelemek, I. Uluslararası Türk Dünyası Turizm Sempozyumu, 19-21 noyabr 2015. Bildiriler Kitabı, (ss.116-126), s.118

124 Siyahıda Azərbaycandan Şirvanşahlar sarayı və Qız qalası, həmçinin Qobustan qaya rəsmləri yer almışdır. Siyahı üçün bax: Derya Tellan. Göstərilən əsəri, s.124-125

125 Derya Tellan. Göstərilən əsəri, s.125

126 Yenə orada, s.126

Diasporalararası əməkdaşlıq

Türk Şurasının əsas məqsədlərindən biri üzv ölkələrin imicinin beynəlxalq arenada yaxşılaşdırılması və türk xalqlarının yaşadığı ölkələrdə təsir gücünü artıra bilməsidir. Diaspora təşkilatları ilə əməkdaşlıq yollarının və keyfiyyətinin artırılması məqsədilə Türk Şurasına üzv dövlətlərin diaspora məsələləri üzrə məsul qurumları və işçi qrupu səviyyəsində iclaslar keçirilməkdədir. 2013-cü ilin may ayında Ankarada Türk Şurasına üzv dövlətlərin diaspora məsələləri üzrə məsul nazirlik və komitələri arasında keçirilən iclasda "Türk Şurasının türkdilli diasporalarla birgə fəaliyyət Strategiyası" qəbul edilmişdir.

Diaspora sahəsində əməkdaşlığı genişləndirmək və təşkilatlar arasında koordinasiyanı dərinləşdirmək məqsədilə 2013-cü ilin iyun ayında Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspora təşkilatları rəhbərlərinin I Forumu keçirilmişdir. Forumun yekununda Bakı Bəyannaməsi qəbul olunmuşdur. Bəyannamədə türk xalqlarının birliyinin möhkəmləndirilməsinin regionda sülhün və təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malik olduğu vurğulanmışdır. Bildirilmişdir ki, forum iştirakçıları türkdilli ölkələrin diasporalarının təşkilatlanma prosesinə dəstək verilməsi, türkdilli diaspora təşkilatlarının, icma və qurumlarının fəaliyyətinin koordinasiya olunması məqsədilə regional mərkəzlərin yaradılmasını, eləcə də dünya ictimaiyyətinin türk dünyasının tarixi, mədəniyyəti, müasir həyatı barədə ətraflı məlumatlandırılması istiqamətində tədbirlərin görülməsini vacib hesab edir. Türk Şurasına üzv ölkələrin diaspora təşkilatları rəhbərlərinin forumu iki ildən bir, işçi qrupunun iclasları isə il ərzində davamlı şəkildə keçiriləcək[127]. Bu forumda regional diaspora mərkəzlərinin yaradılması qərara alınmış və yaradılmışdır[128].

Diaspora sahəsində Azərbaycan və Türkiyənin fəallığı xüsusilə hiss olunur. Azərbaycan və Türkiyə bir tərəfdən erməni diasporasına

127 Türk Keneşi Nezdinde Diaspora İşleri Temas Grubu İkinci Toplantısı İstanbul'da düzenlendi. - http://www.turkkon.org/tr-TR/turk_kenesi_nezdinde_diaspora_isleri_temas_grubu_ikinci_toplantisi_istanbul%E2%80%99da_duzenlendi/54/89

128 Diaspora İşbirliği. - http://www.turkkon.org/tr-TR/diaspora-isbirligi/3/33/33/38

qarşı mübarizə apardıqları halda, digər tərəfdən müxtəlif dövlətlərin ərazisində yaşayan türk xalqlarının problemlərinə daha həssas yanaşırlar. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin beynəlxalq aləmdə leqallaşdırılmasına, 1915-ci il hadisələri ilə bağlı dünyada Türkiyə Respublikasına qarşı ermənilərin fəaliyyətlərinə və təbliğatına qarşı Azərbaycan və Türkiyə birgə mübarizə aparmaq məcburiyyətindədirlər. Prezident İlham Əliyevin "Bəzi hallarda bizim haqqımızda (Azərbaycan və Türkiyə) süni şəkildə mənfi rəy formalaşdırılır və bunun arxasında Türkiyə və Azərbaycana düşmənçilik mövqeyi tutan erməni lobbisinin fəaliyyəti dayanır"[129] sözləri də bunu təsdiqləyir.

Bu səbəbdən Azərbaycan və Türkiyə diaspora təşkilatlarının birgə fəaliyyət göstərmələri zərurəti ortaya çıxmışdır. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təklifi ilə[130] 2007-ci ilin mart ayında Bakıda Azərbaycan və türk diaspora təşkilatları rəhbərlərinin I Forumu keçirilmişdir. Forumun sonunda qəbul edilən bəyannamədə yalnız Azərbaycan və Türkiyənin deyil, eyni zamanda digər türk dövlətlərinin də maraqlarının qorunması diaspora təşkilatlarının qarşısında bir məqsəd kimi qoyulmuşdur. Bəyannamədə xaricdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığının və yaşadıqları ölkələrdə siyasi aktivliklərinin artırılması tövsiyə olunmuşdur. Bundan başqa, Prezident İlham Əliyev bu birgə fəaliyyətin müdafiə deyil, hücum diplomatiyası əsasında qurulmasını da təklif etmişdir[131]. Forumda Azərbaycan və Türkiyə diaspora təşkilatları arasında əlaqələndirici qurum – Koordinasiya Şurası yaradılmışdır[132].

2016-cı il iyunun 2-də Almaniya Federal Məclisinin 1915-ci il hadisələrini "soyqırımı" kimi qəbul etməsindən bir gün sonra, yəni iyunun 3-də Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında

129 Azərbaycan Prezidenti İlham Əliyevin nitqi, Türkdilli dövlətlərin və topluluqların 10-cu Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı işə başlamışdır. Azərbaycan Prezidenti İlham Əliyev qurultayda iştirak etmişdir, s.302. - http://files.preslib.az/site/ialiyev/2006.pdf

130 Yenə orada, s.302

131 Yenə orada, s.302

132 Azərbaycan və türk diaspora təşkilatları rəhbərlərinin I Forumunun Bakı Bəyannaməsi. /09 mart 2007-ci il/ - http://www.diaspora.gov.az/?options=content&id=80

bütün diaspora qurumlarının rəhbərlərinə türk diaspora təşkilatları ilə birlikdə fəaliyyət göstərməyə dair təlimat verilmişdir. Bu mənada, sadəcə Almaniyada deyil, bütün dünyada yaşayan azərbaycanlıların türk diaspora təşkilatları ilə qarşılıqlı fəaliyyəti təkcə bu tipli qərarlara deyil, eyni zamanda Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Türkiyə–Ermənistan münasibətləri kimi hadisələrdə də etiraz imkanı verir.

Nəqliyyat sahəsində əməkdaşlıq

Türkdilli dövlətlər Şərqlə Qərb arasında – tarixi İpək Yolunun üzərində yerləşirlər. Türk Şurasına üzv dörd dövlətdən üçü – Azərbaycan, Qazaxıstan və Qırğızıstan dənizə çıxışı olmayan qapalı quru dövlətləridir. Lakin bunları Gürcüstan vasitəsilə Türkiyəyə birləşdirəndə həm tarixi İpək Yolu üçün strateji əhəmiyyətləri artır, həm də dənizlərə çıxış yolu əldə edirlər. Bunun üçün Xəzər dənizi üzərindən Azərbaycanla Qazaxıstan və Azərbaycanla Türkmənistan arasında nəqliyyat infrastrukturunun qurulmasına və Azərbaycan üzərindən yükdaşımaların qiymətlərini və bürokratik problemləri həll edərək cəlbedici hala gətirməyə ehtiyac duyulmuşdur. Azərbaycan, coğrafi olaraq, Şərqlə Qərb, Şimalla Cənub ticarət və nəqliyyat yollarının kəsişməsində yerləşdiyindən onun tranzit ölkə kimi əhəmiyyəti artmışdır.

Şərqlə Qərbi birləşdirən üç nəqliyyat yolu mövcuddur: Şimal dəhlizi – Transsibir dəmir yolu vasitəsilə Rusiya üzərindən Belarusa, oradan isə Avropaya doğru uzanır; Cənub dəhlizi Qazaxıstandan başlayır, Türkmənistan, Qırğızıstan, Tacikistan və İrandan Türkiyəyə, oradan da Avropaya doğru uzanır; Orta dəhliz – Qazaxıstanın Aktau, Türkmənistanın Türkmənbaşı, Azərbaycanın isə Ələt limanlarının birləşməsindən ortaya çıxır[133].

Regional və beynəlxalq səviyyədə yaşanan bəzi geosiyasi hadisələr isə Türk Şurasına üzv dövlətlərin yerləşdiyi orta xəttin əhəmiyyətini artırmışdır. Bunu aşağıdakı kimi sistemləşdirmək olar: birincisi, Asiya

133 Ziyadov T. Azerbaijan as a Regional Hub in Central Eurasia: A Strategic Assessment of Euro-Asian Trade and Transportation, Azerbaijan Diplomatic Academy and John Hopkins University, June 2011, p.49

ilə Avropa arasında artan ticarət; ikincisi, Çinin tarixi İpək Yolunu bərpa etməyə çalışması (tarixi İpək Yolunun istiqamətlərindən biri Azərbaycandan keçən orta xətdir); üçüncüsü, 2014-cü ildə Krımın Rusiyaya birləşdirilməsindən sonra Aİ ilə Rusiya arasında münasibətlərin pisləşməsi (Aİ tərəfindən Rusiyaya qarşı sanksiya tətbiq olunması ilə Aİ-dən Asiyaya gedən yük maşınları çətinliklərlə üzləşməyə başladı); dördüncüsü, 2015-ci ildə Türkiyənin sərhədlərini pozan rus hərbi təyyarəsini vurması ilə Rusiyanın Mərkəzi Asiyaya yükdaşıyan türk maşınlarına ayırdığı kvotanı 9 mindən 2 minə qədər azaltması; beşincisi, 2014-cü ildən etibarən Türkiyə ilə İran arasında yük maşınlarının keçidi ilə əlaqədar yaranan problemlər. Türkiyə–Rusiya və Türkiyə–İran arasında yaşanan bu böhranlar eyni zamanda bu dövlətlər arasında Mərkəzi Asiya uğrunda davam edən siyasi və iqtisadi rəqabətin bir parçasıdır[134].

Türk dövlətləri ilə nəqliyyat strukturunun birləşdirilməsi və inkişaf etdirilməsi Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərdən etibarən xarici siyasətinin əsas vəzifələrindən biri olmuşdur. Məsələn, 1992-ci il noyabrın 2-də Ankarada Türkiyə ilə Azərbaycan arasında nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır[135]. 1993-cü ildən etibarən Azərbaycan–Türkiyə–Gürcüstan arasında Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ilə bağlı görüşlər keçirilmişdir. Türk Şurasının 1995-ci ildə Bişkekdə keçirilən Türk Respublikalarının Dövlət Başçılarının III Zirvə görüşündə tarixi İpək Yolunun bərpası və inkişaf etdirilməsi məqsədəuyğun hesab edilmişdir. Bunun davamı olaraq 1998-ci ildə Bakıda tarixi İpək Yoluna həsr olunmuş konfrans keçirilmişdir. Türk Şurasının sonrakı zirvə görüşlərində də Bakı konfransına dəstək mesajları ifadə olunmuşdur. Türk Şurasının 2012-ci ildə Bişkekdə keçirilən zirvə görüşündə dövlət başçıları tərəfindən nəqliyyat sahəsində əməkdaşlığı genişləndirmək üçün nəqliyyat nazirlərinə müntəzəm görüşlərin keçirilməsi tapşırılmışdır. Bundan başqa, nəqliyyat infrastrukturu sahəsində ən

134 Zülfikar Doğan. Türkiye–İran: Orta Asya pazarları için TIR savaşları. - http://www.al-monitor.com/pulse/tr/originals/2014/12/turkey-iran-war-over-trucks-central-asia.html

135 Azərbaycan Respublikasının Türkiyə Respublikası ilə imzaladığı sənədlərin siyahısı. - http://www.history.az/pdf.php?item_id=20100106041211051&ext=pdf

qabaqcıl təcrübə mübadiləsinin tətbiq edilməsi məqsədilə aidiyyəti qurumlara mövcud nəqliyyat strukturunun vəziyyətinin araşdırılması tapşırılmışdır[136].

Türk Şurasının 2013-cü il avqustun 16-da Qəbələ şəhərində keçirilmiş zirvə görüşünün əsas mövzusu "Nəqliyyat və bağlantı" olmuşdur. Prezident İlham Əliyevin "Tarixdə ilk dəfə olaraq Xəzər və Aralıq dənizi birləşdirilib. Azərbaycan artıq bizim qardaşlarımız, Xəzərin şərq sahilində yerləşən ölkələr üçün tranzit ölkə rolunu oynayır" fikri Azərbaycan üçün nəqliyyat xətlərinin rolunu bir daha ifadə etmişdir. Qeyri-neft sektorunu inkişaf etdirməyə çalışan Azərbaycan eyni zamanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə xüsusi diqqət yetirir.

Türk Şurasına üzv ölkələrin nəqliyyat nazirlərinin ilk iclası 2013-cü ilin iyul ayında Bakıda keçirilmişdir. Üzv dövlətlərin ərazilərindən keçən Mərkəzi Nəqliyyat Dəhlizi boyunca səmərəli nəqliyyat əməliyyatlarının davamlı, mərkəzləşmiş və asan keçidinə əngəl yaradan mövcud maneələrin aradan qaldırılması istiqamətində səylər davam etdirilməkdədir. Xəzər dənizi və Qara dəniz limanları arasında əlaqələrin inkişaf etdirilməsi, regionun multimodal nəqliyyat potensialının artırılması və Xəzər dənizi keçidinin nizamlanması üzv dövlətlərin nəqliyyat və gömrük sahəsi üzrə görüşlərinin gündəliyində xüsusi yer tutur. 2013-cü ilin iyul ayında Türk Şurası nəqliyyat nazirlərinin Bakıda keçirilən birinci iclası çərçivəsində "Qardaş limanlar" adlı (Aktau–Bakı–Samsun limanları) memorandum imzalanmışdır[137].

Xarici siyasət və təhlükəsizlik sahəsində əməkdaşlıq

Naxçıvan Sazişinin 2-ci maddəsinə görə, Türk Şurasının təsis edilməsinin məqsədlərindən biri də regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsidir. Bundan başqa, üzv dövlətlər arasında əməkdaşlığın əsas məqsədlərindən biri qarşılıqlı maraq doğuran xarici siyasət məsələləri, o cümlədən beynəlxalq

136 Bişkek Bəyannaməsi /23.08.2012/, maddə 3

137 Türk Konseyi Ulaştırma Bakanları 1. Konseyi Bakü`de gerçekleştirildi. - http://www.ubak.gov.tr/BLSM_WIYS/DTGM/tr/Belgelik/guncel_haber_arsiv/20130923_161435_64032_1_64480.html

təşkilatlar çərçivəsində və beynəlxalq forumlardakı məsələlər üzrə ümumi yanaşmanın araşdırılmasıdır. Naxçıvan Sazişinə uyğun olaraq hər il keçirilən zirvə görüşlərindən bir gün əvvəl TDƏŞ Xarici İşlər Nazirləri Şurasının görüşü keçirilir[138]. Bişkekdə keçirilən II Zirvə görüşündə dövlət başçıları tərəfindən ölkələr arasında xarici və təhlükəsizlik siyasətinin daha sıx əlaqələndirilməsini təmin etmək üçün xarici işlər nazirlərinə hər ilin sentyabr ayında BMT Baş Assambleyasının sessiyaları çərçivəsində qeyri-formal görüşlərinin keçirilməsi üçün təlimat verilmişdir. Qəbul edilən qərara görə, hər hansı bir tərəfin təşəbbüsü əsasında Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasları keçirilə bilər[139]. Bişkek Zirvə görüşündə qəbul edilən qərar əsasında Nyu Yorkda BMT Baş Assambleyasının sessiyaları çərçivəsində xarici işlər nazirlərinin qeyri-formal görüşlərinin keçirilməsi artıq ənənə halını almışdır[140].

TDƏŞ-in 2011-ci il oktyabrın 21-də Almatıda keçirilən I Zirvə görüşündə tərəflər ümumi mövqelərin formalaşdırılması məqsədilə Türk Şurası çərçivəsində təhlükəsizlik məsələləri üzrə müzakirələrin keçirilməsinə dair razılığa gəldilər[141]. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Əfqanıstan üçün İstanbul prosesi, regional münaqişələr, beynəlxalq terrorizmlə mübarizə kimi məsələlər keçirilən görüşlərin müzakirə mövzuları olmuşdur.[142]

Zirvə bəyannamələrində türkdilli dövlətləri yaxından maraqlandıran konkret məsələlərlə bağlı mövqe ortaya qoyulmuşdur. Xüsusən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həlli, İraqın suverenliyi və ərazi bütövlüyünün qorunması, İraqın ayrılmaz hissəsini təşkil edən türkmanların əsas hüquq və azadlıqlarının təmin olunması[143], Kipr probleminin adada yaşayan hər iki xalqın siyasi bərabərliyi əsasında həlli, Suriya probleminin ölkənin ərazi bütövlüyü və milli birliyi çərçivəsində

138 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası. - http://www.mfa.gov.az/content/948
139 Türk Şurasının İkinci Zirvə toplantısının Bəyannaməsi. /Bişkek, 23 avqust 2012-ci il/ - http://www.e-qanun.az/framework/25270
140 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası. - http://www.mfa.gov.az/content/948
141 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Birinci Zirvə toplantısının Bəyannaməsi. /Almatı, 21 oktyabr 2011-ci il/ - http://www.e-qanun.az/framework/23629
142 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası . - http://www.mfa.gov.az/content/948
143 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Birinci Zirvə toplantısının Bəyannaməsi. /Almatı, 21 oktyabr 2011-ci il/ - http://www.e-qanun.az/framework/23629.

Suriya xalqının iradə və istəklərinə uyğun şəkildə həlli[144], Ukrayna gərginliyinin dialoq və konsensus yolu ilə həll olunması şuraya üzv bütün dövlətlər tərəfindən dəstəklənmişdir[145]. Lakin zirvə görüşlərinin sonunda qəbul edilən qərarlar üzv dövlətlər üçün məcburilikdən daha çox tövsiyə xarakterli olduğundan dövlətlərə seçim hüququ verir. Yəni yuxarıda qeyd edilən məsələlərlə bağlı dövlətlər hər zaman birgə mövqedən çıxış etmirlər[146].

Türk Şurası qurulduqdan sonra dövlətlər xarici siyasət və təhlükəsizlik sahəsində daha praktiki addımlar atmağa başladılar. Türk dövlətlərinin BMT-də keçirilən səsvermələrdə siyasi mövqelərini araşdıran Mühittin Kaplan, Abdullah Yuvacı və Şatlık Amanov 1990-cı illərlə müqayisədə 2011-ci ildən, Türk Şurası qurulduqdan sonra şuraya üzv dövlətlərin BMT-də daha çox birgə hərəkət etdiklərini rəqəmlərlə ortaya qoymuşlar[147]. Bu araşdırmaya görə, Türk Şurasına üzv dövlətlər Yaxın Şərqdə cərəyan edən hadisələr, xüsusən Fələstin məsələsində daha çox ortaq mövqedən çıxış etmişlər[148]. Başqa tərəfdən, bəzi dövlətlərin nüvə fəaliyyətləri ilə bağlı BMT-də keçirilən səsvermələrdə Azərbaycan və Türkiyə birgə, Qazaxıstan və Qırğızıstan isə fərqli mövqedən çıxış etmişlər[149]. Sorğunun nəticələrinə görə, BMT Baş Assambleyasında keçirilən səsvermələrdə Türk Şurasına üzv dövlətlər Yaxın Şərq, müstəmləkəçilik və iqtisadi məsələlərdə daha çox birgə, nüvə və inkişaf məsələlərində isə fərqli mövqelərdən çıxış etmişlər[150].

Türk Şurası çərçivəsində əməkdaşlığın ümumi ruhuna üzv dövlətlərin xarici siyasət və təhlükəsizlik məsələlərində birgə mövqedən çıxış etməsi müsbət təsir göstərmişdir. Qazaxıstan Ermənistanın Avrasiya İttifaqı və Gömrük Birliyinə yalnız beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində (yəni Dağlıq Qarabağsız) daxil olmağına icazə verdi.

144 Türk Şurasının İkinci Zirvə toplantısının Bəyannaməsi. /Bişkek, 23 avqust 2012-ci il/ - http://www.e-qanun.az/framework/25270

145 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Dördüncü Zirvə toplantısının Bəyannaməsi /Bodrum, 5 iyun 2014-cü il/

146 Terzioğlu S. Göstərilən əsəri, s. 52.

147 Kaplan, Muhittin, Yuvacı, Abdullah, Amanov, Shatlık. One Nation, Many Voices? External Cohesion of the Turkic Council States in the United Nations General Assembly, 1993-2011. Bilig, Summer 2015. Number 74. pp. 125-150. p.136

148 Yenə orada, s.137

149 Yenə orada, s.138

150 Yenə orada, s.143

Praqada dövlət və hökumət başçılarının iştirakı ilə "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunmuş sammitdə Türkiyənin təmsil olunmamasından sui-istifadə edən Ermənistan Prezidentinin sammitin plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma "soyqırımı" məsələsini qabartması və Türkiyəni əsas tənqid hədəfi kimi seçməsinə cavab olaraq Azərbaycan Prezidenti İlham Əliyevin "Türkiyə yoxdur, mən burdayam" deməsi Türkiyədə təqdirlə qarşılandı. Aprel müharibəsindən sonra TÜRKPA-nın Baş katibi açıqlama verərək Azərbaycanın yanında olduqlarını bildirdi. Türkiyə–Rusiya münasibətlərinin normal axara düşməsində Azərbaycan və Qazaxıstan prezidentlərinin aktiv vasitəçilik etmələri öz bəhrəsini verdi[151].

Digər tərəfdən, Xəzər dənizinin və buradan keçəcək nəqliyyat və enerji xətlərinin təhlükəsizliyinin təmin olunması Azərbaycan, Qazaxıstan və Türkmənistan üçün ortaq problemdir. 2004-cü il martın 1-də Astanada Azərbaycanla Qazaxıstan arasında hərbi əməkdaşlığa dair müqavilə imzalanmışdır. Müqaviləyə görə, tərəflər arasında aşağıdakı sahələrdə əməkdaşlığın qurulması nəzərdə tutulmuşdur: təcrübə mübadiləsi və məsləhətləşmələrin aparılması; təlim layihələri, təcrübəkeçmə, ixtisasartırma kurslarında iştirak; hərbi təlimlərdə, konfrans və seminarlarda qarşılıqlı iştirak; sənədlər və elmi işlərin mübadiləsi; qarşılıqlı maraq doğuran məlumatların mübadiləsi. Bu müqavilə əsasında tərəflər ikitərəfli əməkdaşlıq üzrə illik plan işləyib hazırlayırlar[152]. 2015-ci il noyabrın 4-də Astanada iki ölkənin müdafiə nazirlərinin imzaladığı müqaviləyə görə, tərəflər 2016-cı il üçün hərbi əməkdaşlıq planı hazırlamaq haqqında razılığa gəliblər. Müdafiə nazirlərinin sözlərinə görə, plan daha çox Xəzər dənizinin təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət edəcək və qarşılıqlı hərbi təcrübənin artırılması məqsədi daşıyır[153].

Üzv ölkələrin ayrı-ayrı təhlükəsizlik təşkilatlarına üzv olması bəzən onların təhlükəsizlik və xarici siyasət sahəsində ümumi mövqe

151 Prezident İlham Əliyev: "Azərbaycan və Türkiyə bundan sonra da bir -birinin yanında olacaq". /15.07.2016/ - http://apa.az/xarici_siyaset/prezident-ilham-eliyev-azerbaycan-ve-turkiye-bundan-sonra-da-bir-birinin-yaninda-olacaq.html

152 Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş. - http://www.e-qanun.az/framework/5935

153 Azərbaycan və Qazaxıstan Müdafiə nazirlikləri arasında əməkdaşlıq planı imzalanıb. /04.11.2015/ - http://az.trend.az/azerbaijan/politics/2452531.html

formalaşdırmaları baxımından ziddiyyət təşkil etməsi fikrini yaradır. Belə ki, Türkiyə NATO-nun üzvüdür. Qazaxıstan, Azərbaycan və Qırğızıstan NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlıq edirlər. Lakin Qazaxıstan və Qırğızıstan eyni zamanda Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdürlər. Türkiyənin NATO, Qazaxıstan və Qırğızıstanın KTMT üzvü olması onların təhlükəsizlik sahəsində əməkdaşlıq etmələrinə mane olmur. Çünki bu təşkilatların heç birinin nizamnamələrində üzv olmayan dövlətlərlə əməkdaşlığa mane olacaq şərtlər əksini tapmayıb. Qırğızıstanın xarici işlər naziri Erlan Abdıldayev bu məsələni belə izah etmişdir: "Türk Şurası başqa bir siyasi birliyə qarşı qurulmamışdır. Avrasiya İqtisadi Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı və ya Kollektiv Təhlükəsizlik Təşkilatı"[154]. Türk Şurasının 2014-cü ildə keçirilən IV Bodrum Zirvə görüşündə Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirmişdir ki, Türk Şurası ilə Avrasiya İqtisadi Birliyi arasında bir ziddiyyət yoxdur[155]. Digər tərəfdən, ayrı-ayrı təhlükəsizlik təşkilatlarına üzv olmaq müsbət haldır. Belə ki, Azərbaycan, Qazaxıstan və Qırğızıstanın NATO ilə əməkdaşlığının inkişaf etdirilməsində Türkiyə aktiv rol oynamışdır. Başqa yöndən, Qazaxıstan və Qırğızıstan Ermənistanın istəyi ilə KTMT-də Azərbaycana qarşı hər hansı bir mövqenin formalaşmasının qarşısını almışlar[156].

Bundan başqa, Türk Şurasına üzv dövlətlər arasında ikitərəfli münasibətlər də strateji əməkdaşlıq səviyyəsindədir. 1997-ci ildə "Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Müqavilə"[157], 2005-ci ildə "Azərbaycan

154 Abdyldaev, Erlan. Perspective of the Kyrgyz Republic for Regional Cooperation within the Turkic Council. - http://sam.gov.tr/wp-content/uploads/2015/10/SAM-Report_-Fifth-Summit-of-the-Turkic-Council.pdf, p.13

155 İdrissov E. The Turkic Council: The Engine of the Turkic Integration, http://sam.gov.tr/wp-content/uploads/2015/10/SAM-Report_-Fifth-Summit-of-the-Turkic-Council.pdf. p.10

156 Dağlıq Qarabağ və ətraf rayonları işğal edən Ermənistan Qazaxıstan və Qırğızıstan ilə birlikdə KTMT-nin üzvüdür. Ermənistan tərəfi KTMT-nin də Dağlıq Qarabağ münaqişəsinə müdaxilə etməsini istəyir. Lakin KTMT-nin üzvü olan Qazaxıstan və Belarusun 2016-ci ilin aprel ayında cəbhə xəttində yaşanan beşgünlük müharibədə Ermənistana dəstək verməmələri Ermənistan–Qazaxıstan münasibətlərində problemlərə səbəb oldu. Bax: Farhad Mammadov and Azad Garibov. Why Armenia's Allies Are Letting It Down. / 05.06.2016/ - http://nationalinterest.org/feature/why-armenias-allies-are-letting-it-down-16455

157 Azərbaycan Respublikası ilə Qırğızıstan Respublikası arasında imzalanmış sənədlərin siyahısı

Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə"[158], 2009-cu ildə "Türkiyə Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji müttəfiqlik haqqında Müqavilə" imzalanmışdır[159]. 2010-cu il avqustun 16-da Türkiyə Respublikasının Prezidenti Abdullah Gülün Azərbaycana səfəri zamanı iki ölkə arasında "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" imzalanmışdır[160]. Türkiyə Qırğızıstanla oxşar bir müqavilə imzalamasa da, 2011-ci ildə tərəflər arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası yaradılmışdır. Türkiyə həm Azərbaycan, həm də Qazaxıstanla bu tipli bir əməkdaşlıq şurası qurmuşdur[161].

Türk Şurasına üzv olan dövlətlərin rəsmi strateji araşdırma mərkəzləri arasında qurulan əməkdaşlıq da dövlətlər arasındakı strateji münasibətlərin inkişafına müsbət təsir göstərmişdir. Türkdilli dövlətlərin strateji araşdırmalar mərkəzləri arasında ilk əməkdaşlığın əsası 2010-cu il martın 9-da Bakıda "Türkiyə Respublikası Xarici İşlər Nazirliyi Strateji Araşdırmalar Mərkəzi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi arasında əməkdaşlıq haqqında Saziş"in imzalanması ilə qoyulmuşdur. Bu sazişdən sonra hər iki türk dövlətinin strateji araşdırmalar mərkəzləri arasında hər il davamlı olaraq tədbirlər keçirilməyə başlandı. Bu əməkdaşlığın Türk Şurasına üzv dövlətlərin rəsmi strateji araşdırmalar mərkəzləri ilə birgə həyata keçirilməsi gündəmə gəldi. 2015-ci il mayın 8-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin binasında Türk Şurasına üzv dövlətlərin rəsmi beyin mərkəzlərinin iclası keçirildi. Tədbirdən sonra Türk Şurasına üzv dövlətlərin rəsmi strateji araşdırmalar mərkəzləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalandı[162]. 2015-ci il sentyabrın 11-də Türk Şurasının Astanada keçirilən V Zirvə görüşünün sonunda

158 Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin hesabatı. - http://mfa.gov.az/files/file/Qazaxistan.pdf

159 Türkiye–Kazakistan ilişkileri. - http://www.mfa.gov.tr/turkiye-kazakistan-siyasi-iliskileri_.tr.mfa

160 Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə. /Bakı şəhəri, 21 dekabr 2010-cu il/ - http://www.e-qanun.az/framework/21158

161 Orta Asya ülkeleri ile ilişkiler. - http://www.mfa.gov.tr/turkiye-orta-asya-ulkeleri-iliskileri.tr.mfa

162 SAM-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv dövlətlərin rəsmi beyin mərkəzləri arasında memorandum imzalanmışdır. /08.05.2015/ - http://sam.az/articles/view/sam-da-turkdilli-dovletlerin-emekdasliq-surasina-turk-surasi-uzv-dovletlerinin-resmi-beyin-merkezleriarasinda-/

qəbul edilən bəyannamədə Türk Şurasına üzv dövlətlərin başçıları üzv dövlətlərin rəsmi strateji araşdırmalar mərkəzlərinə müntəzəm görüşlərin və birgə tədbirlər vasitəsilə əməkdaşlığın davam etdirilməsinə dair təlimat vermişdilər.[163]. Strateji araşdırmalar mərkəzləri arasında ilk görüş 2015-cı il mayın 8-də Bakıda, ikinci görüş 2015-ci il dekabrın 21-də İstanbulda, üçüncü görüş isə 2016-cı il mayın 25-də Astanada keçirilmişdir[164]. Bu görüşlər Türk Şurasının zirvə toplantılarından əvvəl keçirilir və zirvə görüşlərinin mövzularının elmi müzakirəsini təşkil edir.

Nəticə

Türk Şurası ilk növbədə türk dövlətləri arasında əməkdaşlığın təşkilatlanmasına xidmət edir. Yəni Türk Şurası könüllülük əsasında qurulmuş əməkdaşlıq təşkilatıdır. Türk Şurası qısa müddətdə Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Yüksək Vəzifəli Şəxslər Komitəsi, Ağsaqqallar Şurası və Katiblik kimi daxili strukturunu formalaşdırmışdır.

Türk dövlətləri arasında əməkdaşlığı genişləndirmək üçün Türk Şurası çərçivəsində bir sıra institutlar da formalaşdırılmışdır. TÜRKSOY türk dövlətləri arasında elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın inkişafı, türk dünyasının ümumi dəyərlərinin beynəlxalq səviyyədə yayılması və tanıdılması, türkdilli dövlətlər arasında mədəni əlaqələrin dərinləşdirilməsi məqsədilə qurulmuşdur. Baş Katibliyi Bakıda yerləşən TÜRKPA türk dövlətlərinin parlamentləri arasında əməkdaşlığın qurulmasına xidmət edir. Astanada yerləşən Türk Akademiyası türk dünyası haqqında araşdırmalar aparan beynəlxalq elmi araşdırma mərkəzi rolunu həyata keçirir. Bakıda yerləşən Türk Mədəniyyəti və İrsi Fondu türk mədəniyyətinin öyrənilməsi, tanıdılması və qorunub saxlanılması, Türk Biznes Forumu isə Türk Şurasına üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi

163 Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Beşinci Zirvə Toplantısının Bəyannaməsi. - http://www.turkkon.org/Assets/dokuman/astana-az.pdf

164 Third Meeting of the Official Foreign Policy Research Centers of the Turkic Council Member States /25.05.2016/ - http://sam.gov.tr/third-meeting-of-official-foreign-policy-research-centers-of-the-turkic-council

məqsədilə yaradılmışdır. Bütün bu təşkilatlar hazırda aktiv şəkildə fəaliyyətlərini davam etdirərək Türk Şurasına üzv dövlətlər arasında əməkdaşlığı dərinləşdirməyə və genişləndirməyə çalışırlar. Türk Şurası çərçivəsində qurulan bu beş təşkilatdan ikisi Azərbaycanda yerləşir.

Türk Şurasına üzv dövlətlərin daha çox enerji, nəqliyyat və kommunikasiya sahələrində uğurlu əməkdaşlıq etdiklərini demək mümkündür. Lakin son illərdə xarici siyasət və təhlükəsizlik sahəsində də əməkdaşlığın artdığını görmək olar. Aparılan elmi araşdırmalar Türk Şurası qurulduqdan sonra türk dövlətlərinin BMT çərçivəsində daha çox əməkdaşlıq etdiyini ortaya qoymuşdur. Xüsusən Türkiyənin və Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsində Türk Şurasına üzv dövlətlər fəal rol oynamışlar. Son illərdə Dağlıq Qarabağ məsələsində Türk Şurasına üzv dövlətlərin Azərbaycana fərqli yollarla dəstək verdiyini də görmək mümkündür. Halbuki keçən əsrin 90-cı illərində keçirilən zirvə görüşlərində türk dövlətləri bu məsələdə fikir və mövqe bildirməyə səy göstərmirdilər. Əlbəttə, bu, bir tərəfdən Azərbaycanın bu dövlətlərlə artan əməkdaşlığı, digər tərəfdən Türk Şurasına üzv olan dövlətlərin artıq daha müstəqil hərəkət qabiliyyətinə sahib olmalarından irəli gəlir.

Mərkəzi Asiyanın iqtisadi və hərbi gücü olan Özbəkistan həm demoqrafiya, həm də geosiyasi baxımdan Türk Şurası üçün əhəmiyyətli dövlətdir. Özbəkistanın şurada təmsil olunmaması çox böyük əskiklikdir. Gələcəkdə Özbəkistanın üzv olması həm şuranın özünü, həm də Özbəkistanın regionda mövqeyini möhkəmləndirər. Türkmənistan şuraya üzv olmasa da, müəyyən sahələrdə onunla əməkdaşlıq edir. Şuranın həyata keçirdiyi layihələrin uğurla nəticələnməsi və üzv dövlətlər arasında əməkdaşlığın genişlənməsi Özbəkistan və Türkmənistanın da qurumda iştirakı üçün müəyyən imkanlar yarada bilər.

Türk Şurasına üzv olmasa da, Gürcüstanın mövqeyi türk dövlətlərini birləşdirən layihələrin uğurla tamamlanması baxımından olduqca əhəmiyyətlidir. Bu səbəbdən Türk Şurasına üzv dövlətlər bəzi enerji və nəqliyyat sahəsindəki müzakirələrə Gürcüstanı da daxil edirlər.

Azərbaycan Türk Şurasına üzv dövlətlər arasında əməkdaşlığın

genişləndirilməsi üçün həm əlverişli coğrafi mövqedə, həm də türk dünyasını birləşdirən geosiyasi məkanda yerləşir. Digər tərəfdən, Türk Şurasına üzv dövlətlərlə əməkdaşlıq Azərbaycanın həyata keçirdiyi enerji və kommunikasiya layihələrinin uğur qazanmasına və onun geosiyasi əhəmiyyətinin artmasına səbəb olmuşdur. Prezident İlham Əliyev "Türkdilli dövlətlərin əməkdaşlığının genişlənməsi istiqamətində gedən proseslərdə fəal və səmərəli iştirak Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir"[165] deyəndə, əslində, türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsi üçün Azərbaycanda siyasi iradənin varlığını qeyd etmişdir.

165 Azerbaycan Cumhuriyeti Devlet Başkanı Sayın İlham Aliyev'in mesajı. - http://www.turkkon.org/tr-TR/azerbaycan-cumhuriyeti-devlet-baskani-sayin-ilham-aliyev%E2%80%99in-mesaji/1/13/13/15

Azərbaycan Qoşulmama Hərəkatında: məqsəd və gözləntilər

*Cavid Vəliyev**

Giriş

Qoşulmama Hərəkatı (QH) İkinci Dünya müharibəsindən sonra meydana çıxan ikiqütblü dünya sisteminə qarşı olan ölkələrin yaratdığı üçüncü qütbdür. Dünya sisteminin idarə olunmasına ciddi təsiri olmasa da, digər iki qütbün təzyiqlərinə qarşı müstəqilliyini qorumaq istəyən üçüncü dünya dövlətlərinin yaratdığı bu qütb "soyuq müharibə"nin başa çatmasından sonra da varlığını davam etdirmişdir. Dünyanın bir çox yerində "soyuq müharibə" başa çatsa və Qərb bloku qalib tərəf elan edilsə də, çox keçmədən Azərbaycanın da daxil olduğu keçmiş Sovet İttifaqı coğrafiyasında kiçik bir "soyuq müharibə" yaşanmağa başladı.

Bir tərəfdən Sovet İttifaqının varisi olan Rusiya Federasiyasının yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, digər tərəfdən NATO-nun Şərqə doğru genişlənməsi Cənubi Qafqazda da yeni bir mübarizə dövrünü başlatdı. Sovet İttifaqının dağılmasından sonra digər iki Cənubi Qafqaz dövləti kimi, Azərbaycan da KTMT-yə üzv olmuş, zaman keçdikcə isə bu təşkilatın Azərbaycanın milli maraqlarına cavab vermədiyi ortaya çıxmışdır. Belə ki, bir tərəfdən KTMT üzvü olan Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir, digər tərəfdən bu təşkilatın lider dövləti olan Rusiya Ermənistana silah verərək regionda "balansı" qorumağa çalışırdı. Nəticədə Ümummilli lider Heydər Əliyevin qərarı ilə Azərbaycan 1999-cu ildə KTMT-dən ayrıldı.

Azərbaycana qonşu olan Gürcüstanın NATO-ya üzv olmaq istəməsinə baxmayaraq, Azərbaycan NATO ilə münasibətlərini

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru*

üzvlük əsasında deyil, qarşılıqlı əməkdaşlıq çərçivəsində qurmuşdur. Azərbaycan NATO ilə əməkdaşlığını 1994-cü ildən etibarən "Sülh naminə tərəfdaşlıq" (Partnership for Peace-PfP) proqramı çərçivəsində davam etdirmişdir. Bu hərbi alyansa üzvlük istiqamətində isə IPAP (NATO ilə Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı) proqramının ikinci mərhələsinə qədər danışıqlar davam etdirilmiş, lakin daha irəli aparılmamışdır.

Digər tərəfdən, Azərbaycanın hər iki hərbi təşkilata üzvlükdən imtina etməsinin səbəbi regionda davam edən geosiyasi mübarizə üçün bir məkan olmaq istəməməsindən irəli gəlmişdir. Bu mənada Cənubi Qafqaz dövlətlərindən Ermənistan regionda Rusiya Federasiyasının bütün layihələrinə üzv olaraq bu dövlətin "forpostu" rolunu oynamış, Gürcüstan isə Avropa İttifaqı və NATO-ya üzvlük siyasətini həyata keçirmişdir. Azərbaycan müstəqil xarici siyasət həyata keçirmiş və nəticədə bloklara qoşulmama siyasətini beynəlxalq aləmdə təsdiqləmək üçün 2011-ci ildə Qoşulmama Hərəkatına üzv olmuşdur.

Qoşulmama Hərəkatının yaranma səbəbləri və əsas prinsipləri

İkinci Dünya müharibəsi nəticəsində imperialist dövlətlərin zəifləməsi onların keçmiş müstəmləkələr üzərində nəzarətlərinin mərhələli şəkildə itirmələrinə səbəb oldu. Lakin "soyuq müharibə" yenicə müstəqillik qazanmış dövlətləri növbəti təhdidlə – qarşıdurmada olan hərbi-siyasi bloklardan birinə[1] qoşulmaq təzyiqi ilə üz-üzə qoydu. Onlar hər hansı bir alyansda iştirakdan imtina etsələr də, müstəqilliklərinin təhlükə qarşısında olduğunu aydın dərk edirdilər. Nəticədə müstəqil siyasət həyata keçirmək və bununla da qlobal siyasətdə səylərini birləşdirərək rol almaq qərarına gəldilər. Eyni zamanda, "üçüncü dünya dövlətləri" adlandırılan Asiya və Afrika ölkələri imperialist dövlətlərindən siyasi-iqtisadi asılılıqlarını azaltmaq və dövlət müstəqilliklərini möhkəmləndirmək niyyətində idilər.

1 İkinci Dünya müharibəsindən sonra ABŞ və SSRİ-nin liderliyi ilə iki antaqonist blok yaranmışdı

İlk təşəbbüs Hindistandan gəldi. Onun bitərəfliyi İsveç və İsveçrə kimi passiv xarakterli deyil (beynəlxalq münasibətlərdə özünütəcrid), çevik və fəal idi. Hindistandan başqa Balkan yarımadasında "soyuq müharibə"yə qarşı çıxan Yuqoslaviya və onunla həmrəy olan Misir də bu təşəbbüsə qoşulmuşdu[2].

Bu dövlətlər 1955-ci ildə İndoneziyanın Yava adasının Bandunq şəhərində "Sülh içində birgəyaşayış" devizi altında ilk konfranslarını keçirdilər. Beləliklə, bu konfransla üçüncü dünya ölkələri dünya siyasətində öz varlıqlarını hiss etdirməyə səy göstərdilər. Konfransda iştirak edən 29 dövlətin səlahiyyətli nümayəndələri tədbirin sonunda bəyannamə qəbul etdilər və aşağıdakı prinsiplər üzrə əməkdaşlıq etməyi qərara aldılar:

- BMT Xartiyasının əsas prinsipləri və məqsədləri çərçivəsində insan hüquqlarının qorunmasına riayət edilməsi;
- bütün irqlər, sayı az və çox olan bütün millətlər arasında hüquq bərabərliyinin tanınması;
- ölkələrin daxili işlərinə müdaxilə edilməsinin qarşısının alınması;
- BMT Xartiyası çərçivəsində bütün xalqlara kollektiv və ya təkbaşına müdafiə hüququnun tanınması;
- böyük güclərin maraqlarına xidmət edən hərbi müqavilələrin imzalanmaması;
- bir dövlətin digər bir dövləti təzyiq altında saxlamasının qəbul edilməməsi;
- dövlətlərin ərazi bütövlüyü və ya siyasi müstəqilliklərinə qarşı qərarların, aktların qəbul edilməməsi və onları təhdid edəcək səviyyədə gücdən istifadə edilməməsi;
- beynəlxalq münaqişələrin müzakirə, vasitəçilik və ya məhkəmə yolu ilə BMT prinsipləri çərçivəsində həllinə nail olunması;
- ortaq maraq və əməkdaşlıq yollarının inkişaf etdirilməsi;
- beynəlxalq ədalət prinsipləri və öhdəliklərinə əməl edilməsi[3].

2 Sander O. Siyasi Tarih, 1918-1924. Ankara: İmge Kitabevi Yayınları, 1994, 7. baskı, s.385

3 Final Communiqué of the Asian-African conference of Bandung. /24 April 1955/ - http://franke.uchicago.edu/Final_Communique_Bandung_1955.pdf

Həmin dövlətlər 1961-ci ilin sentyabr ayında Belqradda hökumət və dövlət başçılarının iştirakı ilə keçirilən konfransda "Qoşulmama Hərəkatı" adlı yeni bir təşkilat təsis etdilər[4]. Bu təşkilat üç prinsip əsasında yaradılmışdı: birincisi, qlobal güclərdən asılı vəziyyətdə olmamaq və beynəlxalq münasibətlər sistemini öz maraqları çərçivəsində və hamılıqla qəbul edilmiş təhlükəsizlik normalarına görə dəyərləndirmək; ikincisi, böyük güclərin dominantlığına qarşı üçüncü dünya ölkələrinin koalisiyasını yaratmaq; nəhayət, üçüncüsü, böyük güclərin hegemonluq fəaliyyətini məhdudlaşdırmaq məqsədilə yaradılmış beynəlxalq təşkilatların mövqeyini möhkəmləndirmək.

Əslində, yeni hərəkata üzv olan ölkələr "soyuq müharibə" dövründə antaqonist bloklar arasındakı qarşıdurmadan öz maraqları naminə maksimum dərəcədə yararlanmağa çalışmışdılar. Bu dövlətlərin həyata keçirdikləri siyasət beynəlxalq münasibətlərdə məhz balanslı siyasət olmuşdu[5].

QH-yə üzvlük üçün əsas öhdəliklər aşağıdakılardır: namizəd ölkə müstəqil daxili və xarici siyasət həyata keçirməli, müstəqillik hərəkatlarını davamlı olaraq dəstəkləməli[6], böyük güclər arasındakı qarşıdurmada heç bir hərbi alyansa üzv olmamalıdır. Bundan başqa, əgər hər hansı bir üzv ölkə öz ərazisində hərbi baza yerləşdirilməsi barədə böyük güclərə razılıq vermişdirsə, həmin razılaşma böyük güclərin regional rəqabəti çərçivəsində olmamalıdır[7].

4 Sander O. Göstərilən əsəri, s.386

5 Frangonikolopoulos A. Christos. The Policy and Evolution of Non-alignment: Past and Future. // Paradigms, Vol. 9, № 1, Summer, 1995, (pp. 62-85), p.62

6 Burada adları çəkilən müstəqillik hərəkatları İkinci Dünya müharibəsindən sonra suverenlik əldə edən və bir zamanlar imperialist dövlətlərin müstəmləkələri olan dövlətlərdir (Sander O. Göstərilən əsəri, s.355-384). Azərbaycan QH-yə üzv olduqdan sonra bəzi ekspertlər bunu səhv addım kimi qiymətləndirmişdilər. Onların iddialarına görə, Azərbaycanın QH-yə üzv olması Ermənistanın Dağlıq Qarabağ ermənilərini üçün müdafiə etdiyi "xalqların öz müqəddəratını təyinetmə hüququ" prinsipinə dəstək verməkdir. Lakin bu, səhv yanaşma idi. Çünki hər nə qədər fərqli yanaşmalar mövcud olsa da, BMT-nin yalnız bir vaxtlar müstəmləkə əsarətində olan xalqlara verdiyi analoji hüquq müstəqil dövlət qurmaq anlamını verir (Bax: Joyce Ada Cooke Gutteridge. "Non-Self-Governing Territories," in The United Nations in a Changing World. Manchester: Manchester UP, 1969)

7 Members and other Participants of NAM Movement. /14.04.2016/ - https://mea.gov.in/Images/pdf/Members-and-other-participants.pdf

Azərbaycanın xarici siyasəti və Qoşulmama Hərəkatının əsas prinsipləri

Dövlət müstəqilliyini bərpa etdiyi gündən etibarən Azərbaycan diplomatiyası xarici siyasətdə iki ciddi problemlə üzləşmişdir: birincisi, Dağlıq Qarabağ və ətraf rayonların işğalının Ermənistan tərəfindən beynəlxalq aləmdə leqallaşdırılması səylərinin qarşısının alınması; ikincisi, Azərbaycan Respublikasının beynəlxalq aləmdə müstəqil və suveren dövlət kimi de-fakto tanıdılması[8]. Bu mənada İkinci Dünya müharibəsindən sonra QH-yə üzvlük və dövlətlərin qarşı-qarşıya qaldığı suverenlik və müstəqilliyin tanınması məsələləri SSRİ-nin süqutundan sonra Azərbaycan üçün də səciyyəvi hal olmuşdur.

Sovet İttifaqının süqutundan sonra Azərbaycan Rusiyanın hərbi birləşmələrini öz ərazilərindən çıxaran ilk ölkələrdən biri olmuşdur. 1992-ci il avqustun 7-də Azərbaycan və Rusiya Federasiyası arasında Rusiya sərhəd qoşunlarının Azərbaycandan çıxarılmasına dair protokol imzalanmışdır. Həmin sənədə əsasən, 1993-cü il martın 13-dək Rusiya ordusu Azərbaycanı tərk etməli idi[9]. Rus qoşunlarını öz ərazilərindən çıxaran Azərbaycan hakimiyyəti Rusiya Federasiyasının liderliyi ilə qurulan Müstəqil Dövlətlər Birliyini keçmiş SSRİ-nin yenidən bərpa olunması kimi qəbul edərək bu birliyə üzv olmadı[10]. 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanın xarici siyasətində köklü dəyişikliklər baş verdi. Regionun güclü dövləti olan Rusiya ilə münasibətləri inkişaf etdirmək üçün 1993-cü il sentyabrın 20-də Azərbaycanın MDB-yə üzv olması haqqında qərar qəbul edildi. Beləliklə, 1993-cü il sentyabrın 24-də Moskvada Azərbaycanın MDB-də, həmçinin onun hərbi təşkilatı olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunması və İqtisadi Birliyin

8 Azərbaycan de-jure müstəqil dövlət olaraq tanınsa da, bir çox regional və xarici dövlətlər onu suveren dövlət kimi qəbul etmir və daxili işlərinə müdaxilə edirdilər (Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə. Bakı: Mütərcim, 2015, s.523)

9 Yenə orada, s.525

10 Qasımlı M. Göstərilən əsəri, II hissə. Bakı: Mütərcim, 2015, s.506

yaradılması və s. məsələlərə dair sənədlər imzalandı[11]. Bu təşkilatlara üzv olmaq eyni zamanda Azərbaycanın balanslaşdırılmış və tarazlı xarici siyasətinin tərkib hissəsi idi.

Azərbaycan 1994-cü il mayın 4-də NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində əməkdaşlığa başladı. Belə ki, Azərbaycan NATO-nun 1999-2008-ci illər ərzində Kosovoda və 2002-ci ildən başlayaraq Əfqanıstandakı sülhməramlı əməliyyatlarına dəstək verdi. Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev milli maraqlarımızı nəzərə almaqla Qərb dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın qurulmasını Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdiriblər. Azərbaycan qonşusu Rusiya ilə də bərabərhüquqlu əməkdaşlığın qurulmasında həmişə maraqlı olmuş, lakin ondan asılı olmaq istəməmişdir.

O da xüsusi olaraq vurğulanmalıdır ki, Azərbaycan xarici siyasətinin əsas prioritetləri arasında böyük güclərin geosiyasi və geoiqtisadi maraqlarının toqquşduğu məkan deyil, sülh və əməkdaşlıq mərkəzinə çevrilmək, istənilən geosiyasi gücün təsiri və təzyiqindən qorunmaq da vardır[12]. Prezident İlham Əliyevin Azərbaycanın daxili və xarici siyasəti ilə bağlı çıxışlarında əsas vurğu məhz "müstəqillik" anlayışına edilmişdir. Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin 2014-cü il iyulun 7-də keçirilmiş 5-ci müşavirəsində Prezident İlham Əliyev Azərbaycanın müstəqil siyasət yürütdüyünü və gələcəyini özünün müəyyən etdiyini bildirmişdir[13]. Beləliklə, Azərbaycanın xarici siyasətinin əsas prinsipləri, əslində, mahiyyət etibarilə QH-nin tələbləri ilə tam şəkildə uzlaşır.

Qeyd etmək lazımdır ki, Azərbaycan həmişə öz ərazisində digər dövlətlərin hərbi bazalarının yerləşdirilməsinə və ərazisindən qonşu ölkələrin əleyhinə istifadə olunmasına qarşı olmuşdur. Xatırladaq

11 Yenə orada, s.507. Lakin Rusiyanın Ermənistana qanunsuz şəkildə bir milyard dollar dəyərində silah verməsi və Ermənistandakı hərbi bazalara S-300 raketlərini və MİG-29 təyyarələrini yerləşdirməsi Azərbaycanın KTMT-dən çıxmasına səbəb oldu. Azərbaycan tərəfi 1999-cu il aprelin 2-də sözügedən müqavilənin müddətinin uzadılmasına dair protokolu imzalamadı (Qasımlı M. Göstərilən əsəri, s.513)

12 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.134

13 Azərbaycan diplomatik xidmət orqanları rəhbərlərinin 5-ci müşavirəsində İlham Əliyevin nitqi. /07.07.2014/ - http://www.president.az/articles/12392

ki, 2003-cü il dekabrın 3-də ABŞ-ın müdafiə naziri Donald Ramsfeld Almaniya və Qərbi Avropadan çıxarılacaq ABŞ-ın hərbi bazalarının Azərbaycanda yerləşdirilməsi məsələsini gündəmə gətirməyə çalışmışdı. ABŞ-ın Avropadakı qüvvələrinin komandan müavini general Çarls Uold "Defens News" qəzetinə müsahibəsində Azərbaycanda hərbi baza qurmaq istədiklərini açıqlamışdı. Bu açıqlamalar dünya mətbuatında ABŞ-ın İrana hərbi müdaxilə edəcəyinə dair məlumatların yayıldığı bir dövrə təsadüf edirdi. Lakin Azərbaycan öz ərazilərində hərbi bazaların yerləşdirilməsinə razılıq verməmişdir. 2006-cı ilin aprel ayında ABŞ-a səfər edən Prezident İlham Əliyev Azərbaycan və İranın öz ərazilərindən bir-birinə qarşı istifadə etməyəcəkləri haqqında razılaşma əldə etdiklərini bildirmişdi[14]. Bundan başqa, Azərbaycan Respublikasının 2010-cu ildə qəbul edilən Hərbi Doktrinasında Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, öz ərazisində xarici hərbi bazaların yerləşdirilməsinə yol verməyəcəyi təsbit edilmişdir[15]. Azərbaycanda xarici dövlətə məxsus yeganə hərbi infrastruktur 2002-2012-ci illərdə Rusiya tərəfindən istifadə olunan Qəbələ radiolokasiya stansiyası olmuşdur. Lakin bu stansiyanın istifadəsi ilə bağlı imzalanmış müqavilənin müddəti 2012-ci ildə başa çatmış və Azərbaycan onu uzatmamışdır.

Azərbaycan Respublikasının Qoşulmama Hərəkatı ilə münasibətləri

Azərbaycan 1994-cü il mayın 31-dən iyunun 4-dək Misirin paytaxtı Qahirədə QH-nin xarici işlər nazirləri səviyyəsində keçirilən 11-ci iclasında təşkilata müşahidəçi qismində qəbul edilmişdir. Azərbaycan Prezidenti Heydər Əliyev BMT Baş Assambleyasının 49-cu iclasındakı

14 Bu müqavilə Azərbaycan və İran arasında 2005-ci il mayın 16-da Tehranda imzalanmışdır.

15 Bununla belə, hərbi-siyasi şəraitdə əsaslı dəyişikliklər baş verdiyi təqdirdə Azərbaycan Respublikası öz ərazisində xarici dövlətlərin hərbi bazalarının yerləşdirilməsinə, yaxud digər formada xarici dövlətlərin hərbi iştirakının yer almasına müvəqqəti icazə vermək hüququnu özündə saxlayır. (Azərbaycan Respublikasının Hərbi Doktrinası /08.06.2010/ - http://www.mod.gov.az/doktrina.htm)

çıxışında QH-yə müşahidəçi kimi qoşulmağın Azərbaycana müxtəlif sahələrdə ikitərəfli münasibətlər qurmaq və üzv dövlətlərlə mövqeyini möhkəmləndirmək imkanı verəcəyini açıqlamışdır[16].

Azərbaycan QH-yə üzv olduqdan sonra, 1995-ci ildə təşkilatın İndoneziyada və Kolumbiyada təşkil olunmuş zirvə görüşlərinə, 1997-ci ildə xarici işlər nazirlərinin Nyu Delhidə keçirilən 12-ci iclasına heyət göndərmişdir. Lakin QH-nin hesabatlarında qeyd edilir ki, Azərbaycan bu təşkilatın 1998, 2000, 2002 və 2004-cü illərdə keçirilən zirvə görüşlərinə və müxtəlif yığıncaqlarına heyət göndərməmişdir[17]. Bu, bir neçə səbəblə izah oluna bilər. Birincisi, Azərbaycan həmin dövrlərdə enerji layihələrinin imzalanması və həyata keçirilməsi ilə məşğul idi və QH-yə üzv ölkələr bu layihələrin icrasında iştirak etmirdilər. Bu dövrdə ABŞ və Türkiyə ilə münasibətlərdə enerji layihələri ön plana çıxırdı[18]. İkincisi, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində bəzi müsbət addımlar atılmışdı və problemin həll edilməsinə daha çox diqqət yetirilirdi. Üçüncüsü, Azərbaycan beynəlxalq vəziyyəti nəzərə alaraq Qərb dövlətləri ilə əlaqələrə daha çox üstünlük verirdi. Belə ki, 2001-ci ildə Azərbaycan Avropa Şurasına üzv olmuş, elə həmin ildə ABŞ-da yaşanan 11 sentyabr terror aktından sonra ABŞ-ın Əfqanıstanda həyata keçirdiyi terrorizmə qarşı əməliyyatlarına dəstək vermiş və bu məqsədlə Əfqanıstana hərbi heyət göndərmişdi. Azərbaycan 2005-ci ildə NATO ilə Fərdi Tərəfdaşlığın Fəaliyyət Planını imzalamışdır[19].

2003-cü ilin noyabr ayında Gürcüstanda Şevardnadze hökumətinin devrilməsi ilə nəticələnən "Qızılgül" və 2004-cü ildə Ukraynada yaşanan "narıncı" inqilablarda ABŞ-ın dəstəklədiyi qeyri-hökumət təşkilatlarının rolunun olduğu gündəmdə idi. Qərb, xüsusən də ABŞ mediası bu məsələlərə xüsusi diqqət yetirir və həmin inqilabların Buş

16 Speech of the President of Azerbaijan Haydar Aliyev at 49th session of the UN General Assembly-New York, September 19, 1994. - http://lib.aliyevheritage.org/en/7119983.html

17 Strakes E. J. Azerbaijan and the Non-Aligned Movement: İnstitutionalizing the "Balanced Foreign Policy" Doctrine, İAİ Working Papers, 15/11, May 2015, p.10-11

18 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.138-141

19 Azərbaycan–NATO əlaqələri haqqında daha geniş məlumat üçün bax: Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), II hissə. Bakı: Mütərcim, 2015, s.439-478

Administrasiyası tərəfindən "demokratiyanın dəstəklənməsi" layihəsi çərçivəsində həyata keçirildiyi barədə rəylər formalaşdırırdı[20]. Bu mənada Azərbaycanda 2005-ci ildə keçirilən parlament seçkilərində də həmin ad altında ABŞ QHT-si və Qərb mediası "əlvan inqilab"ın təşkilini dəstəkləmişdi[21].

Beləliklə, bu hadisələr Azərbaycanın xarici siyasətinə də öz təsirini göstərdi. Bundan sonra Azərbaycan–Qərb münasibətləri uzun müddət "demokratiyanın dəstəklənməsi" layihəsinin təsiri altında davam etdi və əlaqələrdə soyuqluğa səbəb oldu. Digər tərəfdən, Rusiya ətrafında baş verən bu hadisələri rəsmi Moskva təxribat kimi qiymətləndirdi və Cənubi Qafqazda növbəti bir "soyuq müharibə" başladı. Çünki Gürcüstan və Ukraynada baş verən inqilablarda əsas hədəf bu ölkələrin NATO və Aİ-yə üzv olmasını təmin etmək idi. Bu isə NATO və Aİ tərəfindən "mühasirəyə alındığını" düşünən Rusiyanın narahatlığına səbəb oldu[22].

Regionda cərəyan edən hadisələri nəzərə alan Azərbaycan xarici siyasət strategiyasında bəzi dəyişikliklər etdi. Azərbaycan dəfələrlə Cənubi Qafqazda davam edən geosiyasi mübarizədə bitərəf mövqe tutacağını və müstəqil siyasət yürüdəcəyini bəyan etmişdir. 2008-ci ildə yaşanan Rusiya–Gürcüstan müharibəsindən sonra dövlət rəsmiləri daha açıq şəkildə Azərbaycanın Aİ-yə və NATO-ya üzv olmayacağını bildirdilər. Cənubi Qafqazda Gürcüstan daha çox Qərbmeyilli, Ermənistan isə Rusiyameyilli dövlət kimi tanınsalar da, Azərbaycan müstəqil siyasət həyata keçirməsi ilə seçilir.

Qərbin Cənubi Qafqazdakı münaqişələr və ümumilikdə postsovet respublikaları ilə bağlı yürütdüyü ikili standartlar siyasəti Azərbaycanın maraqlarına uyğun deyildi. Bunun da birinci səbəbi

20 "Demokratiyanın dəstəklənməsi" layihəsi ABŞ xarici siyasətinin əsas vasitələrindən biridir. Bu layihənin məqsədi haqqında fərqli yanaşmalar mövcuddur. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevə görə, bu siyasətin əsas məqsədi demokratiyanın inkişafını dəstəkləmək deyil, dövlətlərin daxili işlərinə müdaxilə etmək və siyasi hakimiyyətlər üstündə təzyiqlər qurmaq vasitəsilə ABŞ-ın geosiyasi maraqlarına xidmət etməkdir (Mehdiyev R. İkili standartların dünya nizamı və müasir Azərbaycan. /22.07.2016/ - http://azertag.az/store/qfs/MEHDIYEV-AN%20SON.pdf)

21 Paşayev H. Yüksəkliyə doğru. Bakı: Azərbaycan Marketinq Cəmiyyəti, 2008, s.198-200

22 Samokhvalov V. Colored Revolutions in Ukraine and Georgia: Repercussions for The System of International Relations in The Black Sea Region, Perceptions, Autumn 2005, pp.99-111

Qərbin Cənubi Qafqaz siyasətində Dağlıq Qarabağ, Cənubi Osetiya və Abxaziya məsələlərində fərqli mövqe nümayiş etdirməsidir. Belə ki, Aİ və ABŞ Cənubi Osetiya və Abxaziya münaqişələrində Gürcüstana açıq dəstək verdikləri halda, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ərazi bütövlüyünə laqeyd yanaşmışdır[23]. İkincisi, Aİ və ABŞ-ın Gürcüstan–Rusiya müharibəsində və Krımın Rusiyaya birləşdirilməsində nə Gürcüstanın, nə də Ukraynanın təhlükəsizliyini qoruya bilməməsi Azərbaycanda onların etibarlı tərəfdaş olmasına dair şübhələri artırmışdı.

Digər tərəfdən, Azərbaycan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin Dağlıq Qarabağ münaqişəsinin həllindəki roluna tənqidi yanaşır. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Minsk Qrupunun 2007-ci ildə hər iki tərəfə təqdim etdiyi "Madrid prinsipləri" Azərbaycan tərəfindən qəbul edilməmişdi[24]. Həmsədr ölkələrin (Fransa, ABŞ və Rusiya) fəaliyyətindən narazı qalan və Ermənistanın status-kvonu qorumaq istəyinə qarşı çıxan Azərbaycan münaqişəni beynəlxalq təşkilatların gündəliyinə daxil etməyə çalışmış və bunun üçün QH-yə üzv ölkələrlə diplomatik müzakirələr aparmışdı. 2008-ci ilin mart ayında BMT Baş Assambleyasında gündəliyə

23 ABŞ Konqresinin Dağlıq Qarabağın separatçı rejiminə "humanitar yardım" adı altında vəsait ayırması və bunun əksi olaraq Krımı işğal edən Rusiyaya qarşı sanksiya tətbiq etməsi və Aİ-nin "Şərq tərəfdaşlığı" proqramı çərçivəsində Azərbaycanın ərazi bütövlüyünə laqeyd münasibət göstərməsi Azərbaycanda ciddi narazılığa səbəb olmuşdu (Novruz Məmmədov "Hesabat"ın qonağı olub. /28.03.2016/ - http://www.anspress.com/siyaset/28-03-2016/novruz-memmedov-hesabatin-qonagi-olub)

24 29 noyabr 2007-ci ildə ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin (Fransa, Rusiya və ABŞ) xarici işlər nazirləri Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün Azərbaycan və Ermənistan tərəfinə hazırlıq prinsiplərini təklif etmişdilər. "Madrid prinsipləri" adlandırılan bu sənədə əsasən, Dağlıq Qarabağ ətrafındakı rayonlar Azərbaycanın nəzarətinə keçməli, Dağlıq Qarabağın müvəqqəti statusu müəyyənləşdirilməli, Ermənistan və Dağlıq Qarabağı bir-birinə bağlayan dəhliz olmalı, Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsi üçün səsvermə keçirilməli, qaçqınlar geri qayıtmalı və bölgəyə beynəlxalq sülhməramlı qüvvələr yerləşdirilməlidir (Statement by the OSCE Minsk Group Co-chairs countries. /10 July 2009/ - http://www.osce.org/mg/51152). Bu sənəddəki prinsiplər arasında xüsusən "Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsi üçün səsvermə keçirilməli" maddəsi Azərbaycanın maraqlarına zidd olduğu üçün Azərbaycan "Madrid prinsipləri"nin yenilənməsini istəmiş (XİN: Azərbaycanın öz təklifləri var. /22.07.2009/ - http://www.azadliq.org/a/1782704.html) və 2009-cu ildə tərəflərə təklif edilən "Yenilənmiş Madrid prinsipləri" Azərbaycanın maraqlarına uyğun olmuşdur. Prezident İlham Əliyevin "Prinsip etibarilə "Yenilənmiş Madrid prinsipləri" üzərində verilən təklif bizim üçün məqbuldur" fikri bunun təsdiqidir (Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. /22.07.2016/ - http://files.preslib.az/site/ialiyev/2010.pdf)

çıxarılan "İşğal edilmiş Azərbaycan torpaqlarında vəziyyət" adlı qanun layihəsinə QH-yə üzv 35 ölkə və 2 müşahidəçi dövlət dəstək verdiyi halda, Hindistan və Vanuatu buna qarşı çıxmış, qalan 40 ölkədən bəziləri bitərəf qalmış, digərləri isə ümumiyyətlə səsvermədə iştirak etməmişdi. Azərbaycanın Kubadakı səfiri Aqşin Mehdiyev həmin qanun layihəsi ilə bağlı Kuba hökuməti ilə aktiv işləsə də, rəsmi Havana Kubanın QH-nin sədri olmasını və təşkilatda münaqişə haqqında lazımi məlumatın olmadığını bildirərək konkret mövqe nümayiş etdirə bilməyəcəyini bildirmişdi. Daha sonra İran hökuməti BMT-nin Baş katibinə məktub göndərərək, rəsmi şəkildə üzr istəmiş və səsvermədə iştirak etməməsinin "texniki məsələ" ilə bağlı olduğunu bildirmiş və qanun layihəsini dəstəklədiyini bəyan etmişdi. Lakin İran tərəfinin bu məktubu nəticəyə təsir göstərməmişdi.

2006-cı ilin may ayında Azərbaycan QH-nin Havanada keçirilən 14-cü Zirvə görüşündə iştirak etmək üçün rəsmi dəvət almış və tədbirə nümayəndə heyəti göndərmişdi. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatına üzv olması da QH ölkələri ilə münasibətlərinin inkişafına təkan vermişdi. 2006-cı ilin sentyabr ayında Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Kubaya səfəri zamanı bu ölkənin xarici işlər naziri Perez Roque Azərbaycanı QH-yə üzv olmağa dəvət etmişdi[25]. Həmin tarixdən sonra Azərbaycan QH-də fəallığını və üzv ölkələrlə əməkdaşlığını artırdı. 2009-cu ilin aprel və iyul aylarında Havanada xarici işlər nazirlərinin görüşündə, daha sonra isə QH-nin 15-ci Zirvə görüşündə iştirak etdi. 2010-cu ilin mart ayında Manilada QH-yə üzv dövlətlərin xarici işlər nazirlərinin "Dinlərarası dialoq, sülh və inkişaf üçün dialoq" mövzusunda keçirilən iclasında Azərbaycanın İndoneziya və Filippindəki səfiri İbrahim Hacıyev məruzə ilə çıxış etmişdi[26].

2011-ci ildən etibarən Rusiya Federasiyası Avrasiya İqtisadi

25 Cuba invites Azerbaijan to apply for membership in Non Aligned Movement. /30.09.2016/ - http://www.today.az/news/politics/30852.html

26 Strakes E.J. Azerbaijan and the Non-Aligned Movement: İnstitutionalizing the "Balanced Foreign Policy" Doctrine, İAİ Working Papers, 15/11, May 2015, p.14

Birliyi (AİB) və Gömrük İttifaqı (Gİ) kimi[27] öz regional inteqrasiya layihələrini gündəmə gətirdi. 2012-ci ilin yanvar ayında Rusiya, Qazaxıstan və Belarus dövlətlərinin AİB və Gİ-nin yaradılması haqqında imzaladıqları 17 müqavilə həmin ilin yanvar ayının 1-dən etibarən qüvvəyə mindi. 2015-ci ilin yanvar ayında Ermənistan, may ayında isə Qırğızıstan bu təşkilata üzv oldular[28].

AİB və Gİ-yə üzvlük Azərbaycan üçün də aktual məsələ səviyyəsinə qaldırıldı. Rusiya Federasiyası AİB və Gİ-yə üzvlük üçün Azərbaycana rəsmi dəvət göndərməsə də, bəzi rəsmilər həmin məsələnin Azərbaycan üçün açıq olduğunu bildirmişdilər[29]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının "Rossiya-24" kanalına müsahibəsində: "Səmimi olaraq qeyd etsəm, biz özümüz üçün hər hansı fayda görmürük. Digər tərəfdən, bizim ölkədə iqtisadi vəziyyət olduqca sabitdir"[30], – deyərək Azərbaycanın bu təşkilatlara üzv olmağı planlaşdırmadığını vurğulamışdır. Lakin Azərbaycan bu təşkilatlara üzvlük ehtimalını tamamilə aradan qaldırmamışdır. 2015-ci ilin sentyabr ayında BMT Baş Assambleyasının Nyu Yorkda keçirilmiş iclasında Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov "Sputnik" xəbər agentliyinə müsahibəsində Azərbaycanın AİB-ə üzvlüyü ilə əlaqədar verilən suala cavabında "heç vaxt "heç vaxt" demə" məsəlini misal gətirərək Azərbaycanın tələblərinin qarşılanacağı təqdirdə bu ittifaqa üzv ola biləcəyi ehtimalını dilə gətirmişdi[31]. Lakin bu dövrdə nə Qərb təşkilatlarına, nə də AİB və Gİ-yə üzvlük Azərbaycanın maraqlarına uyğun olmuşdur. Çünki bu təşkilatların heç biri Azərbaycanın maraqlarına tam cavab verən siyasət həyata keçirməmişdir.

27 Новый интеграционный проект для Евразии — будущее, которое рождается сегодня. /03.10.2011/ - http://izvestia.ru/news/502761#ixzz45u1QBOKE

28 Armenia Joins Russia-Led Eurasian Economic Union /02.01.2015/ - http://www.themoscowtimes.com/business/article/armenia-joins-russia-led-eurasian-economic-union/514035.html

29 Avrasiya İttifaqı tərəfdaşlarımızın üzünə açıqdır. /19.06.2014/ - http://www.anspress.com/siyaset/19-06-2014/avrasiya-ittifaqi-terefdaslarimizin-uzune-aciqdir-video

30 Ilham Aliyev was interviewed by Russia-24 TV channel. /25 december 2012/- http://en.president.az/articles/6938

31 Azerbaijan Foreign Minister: "Never Say Never" to Eurasian Union Membership. /01.10.2015/ - http://sputniknews.com/politics/20151001/1027825950/Azerbaijan-Eurasian-Union-Membership.html

Azərbaycan 26 may 2011-ci il tarixində QH-yə üzv dövlətlərin xarici işlər nazirlərinin İndoneziyanın Bali şəhərində keçirilən 16-cı Zirvə görüşündə bu təşkilata üzv seçildi. Bu üzvlük ölkənin daxilində müzakirələrə səbəb oldu. Bəzi ekspertlər Azərbaycanın QH-yə üzvlüyünü Qərblə münasibətlərdə yaşanan soyuqluq və Qərbin artan təzyiqləri nəticəsində ortaya çıxması kimi şərh etdilər. Təşkilatı "antiqərb" adlandıranlar bu mənada Azərbaycanın QH-yə üzvlüyünü Qərbə bir mesaj kimi qiymətləndirdilər. Onların qənaətinə görə, son dövrlərdə QH-nin qəbul etdiyi qərarlar daha çox Qərbin maraqlarına qarşıdır.

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov QH-yə üzvlüyün Azərbaycan üçün nəticələrini belə izah etmişdir: "Bu hərəkatın 120 üzvü var və onlar eyni zamanda BMT-nin üzvüdürlər. Bu mənada Azərbaycanın maraqlarının qorunması baxımından hərəkat əhəmiyyətli bir platformadır. Azərbaycanın regional lider olması marağı iqtisadi inkişaf və Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırma baxımından əhəmiyyət daşıyır... Ayrıca, bu hərəkata üzvlük Azərbaycana beynəlxalq münasibətlər sisteminin müstəqil üzvü olma imkanı verir"[32].

Beləliklə, QH-yə üzv olmaqla Azərbaycan iki mühüm nəticə əldə etdi. Birincisi, Azərbaycanın 2012-2013-cü illər üçün BMT-nin Təhlükəsizlik Şurasının Şərqi Avropa ölkələrindən yeni qeyri-daimi üzv seçilməsində QH-yə üzv ölkələrin böyük rolu olmuşdur. Belə ki, bu ölkələrin əksəriyyəti Azərbaycanı dəstəkləmişdi. Səsvermədə Azərbaycanın lehinə 155 ölkə səs vermişdi. QH-nin Asiyadan olan 53 üzv dövləti, Afrikadan 38 üzv dövləti və Latın Amerikasından 26 üzv dövləti Azərbaycanın lehinə səs vermişdi[33]. Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci il noyabrın 16-da Yeni Azərbaycan Partiyasının 20-ci ildönümünə həsr olunmuş çıxışında bildirmişdi: "Bizim namizədliyimizi 155 ölkə dəstəkləmişdir. Bu hadisə xarici siyasətimizin

32 Foreign Minister Elmar Mammadyarov's interview to "Интерфакс". /13.07.2011/ - http://www.mfa.gov.az/en/news/882/3854

33 Kəngərli R. Azərbaycan Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq imkanlarını genişləndirir. /31.08.2012 /- http://www.xalqqazeti.com/az/news/politics/25305

nə qədər düzgün və səmərəli olduğunun bariz nümunəsidir. Eyni zamanda, Qoşulmama Hərəkatına üzv olarkən biz dünya birliyinin mütləq əksəriyyətinin dəstəyini qazanmışıq"[34].

İkincisi, QH Dağlıq Qarabağ məsələsini dünya gündəmində saxlamaq və hərəkata üzv dövlətlərin bu məsələdə dəstəyini almaq üçün mühüm bir platformadır. Hazırda QH-nin 120 tam və 21 müşahidəçi üzvü var. QH BMT-yə üzv dövlətlərin 2/3-si və dünya əhalisinin 55%-i deməkdir. 2011-ci il mayın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov QH-nin İndoneziyanın Bali adasında keçirilən 16-cı Nazirlər Konfransının yekun iclasında hərəkata üzv olan Avropa dövlətləri qrupu adından çıxış edərək bu təşkilatın Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın ədalətli mövqeyinin daha geniş beynəlxalq ictimaiyyətə çatdırılması üçün əlavə platforma olacağını[35] bəyan etmişdir.

QH-nin 7-10 may 2012-ci il tarixlərində Misirdə keçirilmiş nazirlər iclasında[36], 26-31 avqust 2012-ci il tarixlərində İranda keçirilmiş 16 zirvə iclasında[37], 28-29 may 2014-cü il tarixlərində xarici işlər nazirlərinin Əlcəzairdə keçirilmiş 17-ci iclasında[38] və 13-18 sentyabr 2016-cı il tarixlərində dövlət və hökumət başçılarının Venesuelada keçirilmiş 17-ci Zirvə görüşündə qəbul edilən sənədlərdə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll olunması qəbul edilmiş və beləliklə, Azərbaycanın mövqeyi dəstək-

34 Yeni Azərbaycan Partiyasının yaradılmasının 20 illiyinə həsr olunmuş təntənəli mərasimdə İlham Əliyevin nitqi. /16.11.2012/ - http://www.president.az/articles/6667

35 Elmar Məmmədyarov: Qoşulmama Hərəkatı Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün əlavə platforma olacaqdır. /27.05.2011/ - http://azertag.az/xeber/Elmar_Memmedyarov_Qosulmama_Herekati_Dagliq_Qarabag_munaqisesi_ile_elaqedar_Azerbaycanin_edaletli_movqeyinin_beynelxalq_ictimaiyyete_chatdirilmasi_uchun_elave_platforma_olacaqdir-524804

36 Ministerial Meeting of the Non- Aligned Movement Coordinating Bureau Sharm El Sheikh – Egypt 7 – 10 May 2012, NAM 2012/CoB/Doc.1. - http://www.mfa.gov.eg/nam/documents/final%20document%20adopted%20by%20the%20ministerial%20meetings%209-10%20May.pdf

37 16th Summit of Heads of State or Government of the Non-Aligned Movement Tehran, Islamic Republic of Iran 26 - 31 August 2012, NAM 2012/Doc.1/Rev.2. - http://namiran.org/Files/16thSummit/FinalDocument(NAM2012-Doc.1-Rev.2).pdf

38 XVII Ministerial Conference of the Non-Aligned Movement, Final Document, Algiers, Algeria 26-29 May 2014. - http://namiran.org/wp-content/uploads/2014/07/Final-Document.pdf (30.05.2014)

lənmişdir. Bundan əlavə, 2016-cı ilin sentyabr ayında Venesuelada keçirilən zirvə görüşündə dövlət və hökumət başçılarının 17-ci Zirvə görüşünün 2019-cu ildə Azərbaycanda keçirilməsi qərara alınmışdır[39].

Nəticə

Azərbaycanın xarici siyasət prinsipləri ilə QH-yə üzv dövlətlərin xarici siyasət prinsipləri bir çox cəhətdən üst-üstə düşdüyü üçün Azərbaycan bu təşkilata üzv olmuşdur. Azərbaycanın QH-yə üzv olması əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan xarici siyasət kursunun əsas prinsiplərinin və regionda davam edən geosiyasi transformasiyanın məntiqi nəticəsidir. Belə ki, Azərbaycanın xarici siyasəti 1993-cü ildən etibarən balanslaşdırılmış xarakterdə olmuşdur. Balanslaşdırılmış xarici siyasət kursunun rəsmi tərifi olmasa da, əslində, bu, müstəqil xarici siyasət həyata keçirmək üçün regionda geosiyasi rəqabət halında olan hərbi bloklara qoşulmamaq və çoxvektorlu xarici siyasət kursu həyata keçirmək üzərində qurulmuşdur.

Müasir dövrdə dövlətlər müstəqil xarici siyasət həyata keçirərkən iki problemlə qarşı-qarşıya qalırlar. Birincisi, müstəqilliyini yeni əldə etmiş dövlətlərin iqtisadi və siyasi yetərsizlikləri onların daha güclü dövlətlərdən asılı olmaları və nəticədə de-fakto müstəqilliklərini itirmələri ilə nəticələnir. İkincisi isə "soyuq müharibə"nin liberal dünya sisteminin qələbə qazanması ilə nəticələnməsi onun beynəlxalq münasibətlər sistemi üçün müdafiə etdiyi *qarşılıqlı asılılıq* (mutual interdependence) prinsipinin aparıcı rol oynamasına yol açmışdır. Bu isə iqtisadi cəhətdən daha zəif dövlətlərin güclü dövlətlərdən asılı olması ilə nəticələnir. Azərbaycan hər iki haldan uzaq durmağa çalışmışdır. Xüsusən Heydər Əliyevin həyata keçirdiyi enerji siyasəti sonrakı dövrlərdə də Azərbaycanın müstəqil xarici siyasət həyata keçirməsi üçün baza təşkil etmişdir. Bu mənada Azərbaycanın həyata keçirdiyi müstəqil xarici siyasət kursu ilə QH-nin müstəqillik prinsipi üst-üstə düşür.

39 NAM Sammit Final Document Adopted. - http://en.apa.az/azerbaijan-politics/foreign-news/final-document-of-17th-summit-of-non-aligned-movement-adopted.html (19.09.2016)

Azərbaycan 1991-ci ildə müstəqilliyini yenidən əldə etdikdən sonra qısa müddət ərzində KTMT-yə üzv olsa da, 1999-cu ildə bu təşkilatdan çıxmış və digər hərbi bloka – NATO-ya üzv olmağı da planlaşdırmamışdır. Bloklara qoşulmaq müstəqilliyini yenicə əldə etmiş dövlətlərin suverenliyinin bu təşkilatlara keçməsi ilə nəticələnə və üzv dövlətlər bloklar arasındakı geosiyasi mübarizənin parçası ola bilərlər. Bu səbəbdən digər iki Cənubi Qafqaz dövlətindən fərqli olaraq, Azərbaycan regiondakı hərbi bloklara qoşulmamağı qərara almışdır.

Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında fəaliyyəti

*Nurlan Əliyev**

Giriş

Qara dəniz regionunun yerləşdiyi coğrafi ərazi tarixən siyasi, iqtisadi və hərbi maraqlardan irəli gələn qarşıdurmalar və ya ümumi maraqlardan doğan əməkdaşlıq məkanı olmuşdur. XVIII əsrdən başlayaraq tarixin müxtəlif fazalarında Qara dəniz müxtəlif imperiyaların və dövlətlərin, beynəlxalq koalisiya və birliklərin (Osmanlı imperiyası, Çar Rusiyası, Britaniya imperiyası, SSRİ, Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti, ABŞ, Aİ və NATO) bir-birinə zidd təsir və ya maraq dairəsində olmuşdur. SSRİ-nin süqutundan sonra Avrasiyada müstəqil dövlətlərin yaranması nəticəsində geosiyasi və iqtisadi baxımdan Qara dəniz regionu ilə Xəzər regionu sıx əlaqələndirilməyə başlanılmışdır. Bu ərazilərdə yerləşən dövlətləri istər iqtisadi cəhətdən, istərsə də qlobal güclərin regionda maraqları baxımından eyni məsələlər, problemlər əhatə edirdi. SSRİ-nin süqutundan sonra region dövlətlərinin iştirakı və qlobal güc mərkəzlərinin dəstəyi ilə bir sıra əməkdaşlıq təşkilatları yaradıldı. Bu sırada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatını (QDİƏT, Organization of the Black Sea Economic Cooperation – BSEC) xüsusi qeyd etmək lazımdır.

1992-ci ildə 11 dövlət tərəfindən (Azərbaycan, Türkiyə, Albaniya, Bolqarıstan, Gürcüstan, Ukrayna, Rumıniya, Moldova, Rusiya, Yunanıstan, Ermənistan və 1999-cu ildə Serbiyanın təşkilata qoşulması ilə) yaradılan QDİƏT-in başlıca məqsədi region dövlətləri arasında qarşılıqlı iqtisadi, siyasi əməkdaşlığın inkişaf etdirilməsi və bölgədə birgə səylər nəticəsində təhlükəsizliyin qorunmasından ibarətdir.

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsinin elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru*

Təşkilatda müşahidəçi statusunda ABŞ, Avstriya, Polşa, Almaniya, İtaliya, İsrail, Çexiya, Slovakiya, Xorvatiya, Belarus, Misir, Tunis kimi dövlətlər və Avropa İttifaqı Komissiyası, Beynəlxalq Qara Dəniz Klubu, Enerji Xartiyası Katibliyi, Qara Dəniz Komissiyası kimi təşkilatlar iştirak edirlər.

Azərbaycanın QDİƏT-in inkişafında rolu

Azərbaycan 1992-ci il iyunun 25-dən etibarən QDİƏT-in təsisçi üzvüdür. Həmin tarixdə təşkilatın 11 təsisçi üzv ölkəsinin dövlət başçıları tərəfindən QDİƏT-in Bəyannaməsi imzalandı. Bəzən "İstanbul Bəyannaməsi" adlanan bu sənəddə Qara dəniz əməkdaşlığının prinsipləri, əsasları, istiqamətləri və ilkin mexanizmləri əks olunmuşdur. Azərbaycanın bu təşkilatın işində iştirakının əsas məqsədi Qara dəniz regionunda xüsusi rola malik olduğunu sübut etmək və onu möhkəmləndirmək, regiona mütərəqqi qurucu münasibət bəslədiyini göstərmək, Avropaya inteqrasiya siyasətini bütünlüklə həyata keçirmək, Azərbaycanın nəqliyyat-tranzit potensialını gücləndirmək, üzv ölkələrlə çoxtərəfli əməkdaşlıq mexanizmi qurmaq, bununla da strateji maraqlarını qorumaq idi[1].

Təşkilat daxilində əməkdaşlığın inkişaf etdirilməsində 1995-ci il iyunun 30-da Buxarestdə keçirilən QDİƏT-ə üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü mühüm rol oynamışdır. Bu zirvə görüşündə Ümummilli lider Heydər Əliyev də iştirak etmişdir. Tədbirdə çıxış edən Heydər Əliyev münaqişələrin həllində regionda siyasi şəraiti sabitləşdirmək üçün inteqrasiya proseslərinin genişləndirilməsinin vacib olduğunu bildirmişdir. Zirvə görüşünün sonunda qəbul edilən Buxarest Bəyannaməsində region ölkələri arasında iqtisadi əməkdaşlığı sürətləndirmək, müxtəlif sahələrdə əməkdaşlıq etmək, xüsusi layihələri həyata keçirmək, biznes dairələri arasında əlaqələri təşviq etmək və s. məsələlərin vacibliyi vurğulanmışdır. 1998-ci il iyunun 5-də təşkilata

1 Qasımlı M. Azərbaycan Respublikasının diplomatiya tarixi. Azərbaycan Respublikasının xarici siyasəti, 1991-2003, 2 hissədə, II hissə. Bakı: Mütərcim, 2015, s.581

üzv dövlət və hökumət başçılarının Yalta şəhərində keçirilən görüşündə təşkilatın nizamnaməsi imzalanmışdır. Dövlət başçısı Heydər Əliyev tərəfindən 1998-ci il dekabrın 1-də imzalanmış sərəncamla QDİƏT-in Nizamnaməsi Azərbaycan Respublikası tərəfindən təsdiq edilmişdir.

Azərbaycan müxtəlif dövrlərdə təşkilatın qaydalarına uyğun olaraq QDİƏT-in sədrliyini həyata keçirmişdir. Azərbaycanın sədrliyi dövründə əsasən nəqliyyat, energetika, kommunikasiya, ticarət sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün layihələr həyata keçirilmişdir. Azərbaycan Respublikası QDİƏT çərçivəsində bir sıra prioritet sahələr, o cümlədən ticarət, gömrük, nəqliyyat, enerji, ətraf mühit, informasiya və kommunikasiya, elmi tədqiqat, texnologiyalar və s. üzrə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın inkişaf etdirilməsinə əhəmiyyət verir.

Təşkilatın prioritet istiqamətləri olan enerji və nəqliyyat sahələrinə Azərbaycan mühüm önəm verir. Azərbaycan Respublikası tərəfindən istər QDİƏT-ə daxil olan, istərsə də bu təşkilata üzv olmayan dövlətlərlə bu sahələrdə geniş əməkdaşlıq qurulmuşdur.

Azərbaycanın əsas iştirakçısı olduğu və tam gücü ilə dəstəklədiyi enerji layihələri (Bakı–Tbilisi–Ceyhan, Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərləri, Bakı–Tbilisi–Ərzurum, hazırda həyata keçirilən TANAP qaz boru kəməri və bütövlükdə "Cənub Qaz Dəhlizi") və nəqliyyat layihələri (Bakı–Tbilisi–Qars) Xəzər hövzəsi ilə Qara dəniz hövzəsi arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edir. Azərbaycanın coğrafi-strateji mövqeyi, bir sıra mühüm nəqliyyat dəhlizlərinin bu ərazidən keçməsi ölkəni Avropa ilə Asiya arasında etibarlı tranzit məkanına çevirmişdir. Avropa İttifaqının dəstəklədiyi Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi – TRASEKA proqramının həyata keçirilməsi, böyük nəqliyyat infrastrukturunun yaradılması gələcək iqtisadi inkişafımız və qarşılıqlı əlaqələrimizin genişlənməsi üçün mühüm şərtlərdən biridir. Qeyd edək ki, 2001-ci il oktyabrın 24-də QDİƏT-ə üzv dövlətlərin avtomobil nəqliyyatı assosiasiyaları tərəfindən QDİƏT Avtonəqliyyat Assosiasiyaları İttifaqı (BSEC URTA) yaradılmışdır. Bu təşkilatın yaradılmasının əsas səbəbləri

avtomobil nəqliyyatı və qarışıq daşımalara aid problemlərin həlli, birgə iş və bütün səviyyələrdə investisiya layihələrinin dəstəklənməsidir[2].

Azərbaycan Qara Dəniz Ticarət və İnkişaf Bankı və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes Şurası ilə əməkdaşlıq edir və işçi qruplarında təmsil olunur. Təşkilata sədrliyi dövründə Azərbaycan həm də Qara dəniz regionunda ticarətin asanlaşdırılması, orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi məsələlərinə xüsusi önəm vermişdir. Ticarət dövriyyəsini asanlaşdırmaq məqsədilə regionda iş adamları və peşəkar sürücülər üçün viza məsələlərinin sadələşdirilməsi üzrə iki saziş layihəsi, qeyri-tarif maneələrinin aradan qaldırılması kimi məsələlər QDİƏT-in müxtəlif işçi qruplarında müzakirə edilmişdir. Sözügedən məsələ ilə əlaqədar BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (ƏKTT, Food and Agriculture Organization - FAO) dəstəyi ilə QDİƏT çərçivəsində həyata keçirilən layihənin xüsusi əhəmiyyəti olmuşdur. Layihənin nəticəsi kimi regionda ticarətin asanlaşdırılmasına yönəldilmiş tövsiyələr hazırlanaraq üzv dövlətlərə təqdim edilmişdir. Eyni zamanda, sədrliyi dövründə regionda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və dövlətlərin bu işdə rolunu müzakirə etmək məqsədilə Azərbaycan tərəfinin təşəbbüsü ilə xüsusi olaraq bir sıra iclaslar, QDİƏT üzrə işçi qrupları və seminarlar təşkil edilmişdir. Həmçinin ƏKTT ilə əməkdaşlıq çərçivəsində Qafqazda arıçılığın inkişaf etdirilməsi üzrə yeni layihənin təməli qoyulmuşdur. Azərbaycan bu layihədə iştirak etmək üçün ƏKTT-yə müraciət etmişdir. Respublikamızın sədrliyi dövründə Layihə İnkişaf Fondunun fəaliyyətinə də təkan verilmişdir. Bu dövr ərzində Azərbaycan, Yunanıstan, Rumıniya, Rusiya və Türkiyə kimi dövlətlər könüllü olaraq fonda öz töhfələrini vermişlər. Azərbaycanın fonda sədrlik müddətində İdarəedici Komitənin ilk və əlavə iki toplantısı keçirilmiş, həmçinin QDİƏT-in işçi qrupları layihələrin hazırlanması istiqamətində fəaliyyətə başlamışlar.

Qeyd edək ki, fondun təsis edilməsi 2004-cü ildə QDİƏT-in ən vacib nailiyyətlərindən biri hesab edilir. Fond regional əməkdaşlığı

2 Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT). /Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin rəsmi internet səhifəsi: http://mot.gov.az/az/content/462#.WFjEXFN96Ul

təşviq edəcək layihələrin maliyyələşdirilməsi üçün üzv dövlətlərin könüllü ianələri əsasında yaradılmışdır. Qara dəniz regionunun bilavasitə karbohidrogen ehtiyatları ilə zəngin olduğunu nəzərə alaraq və bölgənin bu strateji üstünlüyünü həm ölkə, həm də ümumregion maraqları naminə inkişaf etdirmək məqsədilə Azərbaycan QDİƏT-in nəqliyyat və enerji üzrə işçi qruplarında əlaqələndiriciliyi iki il müddətinə öz üzərinə götürmüşdür. Bu əlaqələndiriciliyin yerinə yetirilməsi məqsədilə Bakıda Azərbaycanın sədrliyi dövründə iki vacib tədbir – enerji və nəqliyyat nazirlərinin iclasları keçirilmiş, hər iki tədbirin sonunda birgə Bakı Bəyannaməsi qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, sədrliyi dövründə Azərbaycan dövlətinin diqqət mərkəzində olan digər əməkdaşlıq sahəsi turizm olmuşdur. Azərbaycanın, eləcə də bütövlükdə Qara dəniz regionunun turizmin bütün sahələrinin inkişafı üçün böyük potensiala malik olmasını nəzərə alaraq bu imkanlardan istifadə və turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Bakıda (25 sentyabr 2003-cü ildə) daha bir əhəmiyyətli tədbir – QDİƏT regionunda turizm imkanlarına həsr edilmiş konfrans keçirilmişdir. Tədbirin nəticəsi kimi bu sahənin inkişafına yönəldilmiş tövsiyələri əks etdirən yekun sənəd qəbul edilmişdir. Bununla yanaşı, tədbirlər çərçivəsində QDİƏT-in müxtəlif bölgələrində turizm üzrə seminarlar təşkil edilmişdir.

Azərbaycan hazırda Qara dəniz regionunun inkişaf etdirilməsi və regionda əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə tərtib olunan Qara dəniz dairəvi avtomagistral yolunun tikintisi layihəsində iştirak edir[3]. Eyni zamanda, qloballaşma dövründə elm və təhsilin rolunu nəzərə alaraq Qara dəniz regionunda mövcud potensialı inkişaf etdirmək məqsədilə Azərbaycan 15-16 aprel 2004-cü ildə Beynəlxalq Qara Dəniz Tədqiqatları Mərkəzinin dəstəyi ilə Bakıda QDİƏT-in təhsil nazirlərinin toplantısını təşkil etmişdir. Səmərəli müzakirələr elm və təhsil sahələrində əməkdaşlığın inkişafını nəzərdə tutan bir sıra müddəaları özündə cəmləşdirən Bakı Bəyannaməsinin qəbul edilməsi

3 Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı. /Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet səhifəsi: http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=277&Itemid=168&lang=az

ilə nəticələnmişdir. Azərbaycan QDİƏT-in Elm və texnologiya sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunda 2014-cü il iyulun 1-dən etibarən iki il müddətində ölkə əlaqələndiricisi kimi fəaliyyət göstərmişdir. Azərbaycan adından QDİƏT-in bu İşçi Qrupunda ölkə əlaqələndiricisi funksiyasını ikiillik fəaliyyəti dövründə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu həyata keçirmişdir[4]. 2014-cü il dekabrın 3-də Bakıda QDİƏT-ə üzv ölkələrin elm və texnologiya nazirlərinin iclası keçirilmişdir. İclasda qarşıdan gələn dövr üçün elm və texnologiya üzrə əməkdaşlıq sahəsində dördillik fəaliyyət planı, bəyannamə və digər müvafiq sənədlər müzakirə edilərək qəbul olunmuşdur. Adıçəkilən sənədlər QDİƏT-in Elm və texnologiya sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun Bakıda 2014-cü il 1-2 dekabr tarixlərində keçirilmiş iclasında ekspertlər tərəfindən hazırlanmışdır. Bu iclasda Azərbaycan adından Elmin İnkişafı Fondunun təqdim etdiyi ikiillik fəaliyyət planı da müzakirə olunaraq qəbul edilmişdir[5]. Fəaliyyət planında əməkdaşlığın gücləndirilməsi, innovasiyalar, tədqiqat infrastrukturu, kadr potensialına, xüsusilə də gənc tədqiqatçılara diqqətin artırılması, yay məktəblərinin təşkili, informasiya mübadiləsi, tədqiqat və inkişaf üzrə şəbəkələrin fəaliyyətinin canlandırılması, beynəlxalq çərçivə proqramlarında fəal iştirak, layihələr fondunun reabilitasiyası və digər mühüm məsələlər öz əksini tapmışdır[6]. Azərbaycan Respublikası QDİƏT çərçivəsində iqtisadi inteqrasiya proseslərində fəal iştirak edir. Azərbaycan bu beynəlxalq təşkilat çərçivəsində 11-dən çox müxtəlif rəsmi sənədin hazırlanmasında və qəbul olunmasında, həmçinin təşkilatın bir sıra işçi qruplarında, o cümlədən regionda ticarətin liberallaşdırılmasını təmin edən sənədlərin hazırlanması məqsədilə toplanan qrupların iclaslarında fəal iştirak etmişdir. 2005-2007-ci illərdə Azərbaycan

4 Elmin İnkişafı Fondunun müşaviri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Elm və texnologiya sahəsində əməkdaşlıq üzrə İşçi Qrupunun iclasında iştirak etmişdir. /12.11. 2015/ - http://www.sdf.gov.az/az/generic/news/Detail/27

5 Bakıda QDİƏT-in elm və texnologiya üzrə əməkdaşlıq sahəsində 4 illik fəaliyyət planı qəbul olundu. /03.12.2014/ - http://www.mincom.gov.az/media/xeberler/details/7799

6 Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin elm və texnologiya üzrə nazirlərinin iclası keçirilib. /03.12.2014/ - http://news.milli.az/elm/311969.html

Enerji üzrə İşçi Qrupunun fəaliyyətini koordinasiya etmişdir[7].

Hazırda Azərbaycan QDİƏT çərçivəsində iki işçi qrupunda (Gömrük məsələləri üzrə və Elm və texnologiyalar üzrə) əlaqələndirici ölkə funksiyalarını yerinə yetirir. Azərbaycan tərəfi QDİƏT-in əlaqədar təşkilatlarında fəal iştirak edir, həmçinin Qara Dəniz Ticarət və İnkişaf Bankının (BSTDB) İdarəetmə və Direktorlar şuralarında təmsil olunur. QDİƏT-in digər əlaqədar təşkilatı olan Parlament Assambleyasının (PABSEC) hazırkı baş katibi (2015-ci il yanvarın 1-dən etibarən) Azərbaycan nümayəndəsidir[8].

QDİƏT-də təmsil olunan və müşahidəçi kimi təşkilatda iştirak edən dövlətlərin potensialları iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Lakin təsis edildiyi gündən etibarən təşkilata daxil olan bir sıra dövlətlər arasında hərbi münaqişələr mövcud olmuş və yaxud bəzi münaqişələr sonradan baş vermişdir. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, 2008-ci ilin avqustunda Rusiya ilə Gürcüstan arasında baş vermiş müharibə və 2014-cü ildə başlayan Ukrayna böhranı bu təşkilatda əməkdaşlığın inkişafına (xüsusilə təhlükəsizlik üzrə) mənfi təsir edir. Eyni zamanda təşkilata üzv digər dövlətlər arasında mövcud olan münaqişələr QDİƏT-in tam potensialı ilə işləməsinə mane olur. Bu baxımdan QDİƏT çərçivəsində və ümumilikdə Qara dəniz regionunda iqtisadi əməkdaşlığın inkişaf etdirilməsində bu coğrafi məkanda maraqları mövcud olan beynəlxalq güc mərkəzlərinin və regional güclərin bölgəyə münasibətdə mövqeləri xüsusi əhəmiyyət kəsb edir.

QDİƏT – regional və beynəlxalq aktorlar

SSRİ-nin süqutundan sonra həm iqtisadi, həm də hərbi cəhətdən zəifləyən Rusiya Federasiyası regionda daha güclü rəqiblərlə qarşılaşdı

7 Sadayoğlu P. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Azərbaycanla münasibətlərə böyük önəm verir// "Yeni Azərbaycan" qəzeti, 032(4191), 21 fevral 2014-cü il, s.8

8 Beynəlxalq təşkilatlarla əməkdaşlıq, Azərbaycan və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsi: http://mfa.gov.az/content/949

və onlara müəyyən mövqeləri güzəştə getmək məcburiyyətində qaldı. Lakin 2000-ci illərin əvvəllərindən Rusiya maraq dairəsinə daxil olan bu və digər regionlarda hərbi və iqtisadi iştirakını gücləndirməyə, əvvəlki nüfuzunu bərpa etmək üçün cəhdlər etməyə başladı. Hazırda Qara dəniz və Xəzər regionları onun maraq dairəsində əsas yerlərdən birini tutur.

Sevastopol limanı Suriyada hərbi dəniz bazası ilə əlaqə saxlanılması və ümumilikdə Aralıq dənizinə çıxış üçün Rusiyanın təhlükəsizlik maraqları baxımından həyati əhəmiyyət kəsb edir. 2010-cu il Xarkov razılaşmasına əsasən, Rusiyanın Hərbi Dəniz Qüvvələrinin 2040-cı ilə qədər Krımda yerləşməsinin təsdiqlənməsinə baxmayaraq, 2014-cü ildə Ukraynada "Avromaydan" hadisələrindən sonra və bu ölkənin Avropa İttifaqına, gələcəkdə isə NATO-ya interqrasiyasını qiymətləndirərək Rusiya tərəfindən Krım ilhaq edildi və burada yerləşdirilmiş ona məxsus Hərbi Dəniz Qüvvələri hissələrini gücləndirdi. Rusiya son illər istər Xəzər, istərsə də Qara Dəniz Hərbi donanmalarının gücləndirilməsini prioritet kimi qəbul edir.

ABŞ bu regionda əsas məsələlərdə Avropa İttifaqı ilə sıx əməkdaşlıq şəraitində hərəkət edir. Hər iki qlobal gücün regionda başlıca məqsədi enerji ehtiyatlarına çıxış əldə etmək və bu resursları təhlükəsiz və etibarlı ərazilərlə nəql etməkdir. Bundan başqa, regionun strateji cəhətdən olduqca əlverişli coğrafi məkanda yerləşməsi də az əhəmiyyət daşımır. ABŞ və Aİ regiondakı postsovet respublikalarının Rusiyanın təsir dairəsindən tədricən tam çıxa bilmələri üçün onlara müxtəlif siyasi (Aİ-nin Şərqə doğru genişlənməsi – "Şərq Tərəfdaşlığı", Assosiativ Üzvlük, "Qara Dəniz Sinergiyası"), iqtisadi (Rusiyanın təsir dairəsindən kənar neft və qaz istehsal edən konsorsiumlar və kəmərlər) və hərbi (NATO-nun genişlənmə cəhdləri) layihələr təqdim edir, regional dövlətlərin yaratdığı siyasi birlikləri (GUAM, QDİƏT) dəstəkləyirlər. Təhlükəsizlik məsələlərində ABŞ müstəqillik qazanmış respublikaların hərbi kadr potensialının artırılması məqsədilə onlara müxtəlif texniki yardımlar göstərir. Bu işdə ABŞ Türkiyə və Rumıniya ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir. ABŞ Hərbi Dəniz Qüvvələrinə aid gəmilərin Qara dənizdə üzməsi intensivləşir.

Regionda Rusiyadan sonra tarixi uzun illəri əhatə edən siyasi, hərbi və iqtisadi əlaqələrə malik ölkə kimi Türkiyə bir tərəfdən burada əksər dövlətləri öz hakimiyyəti altında birləşdirmiş Osmanlı imperiyasının varisi kimi, digər tərəfdən NATO-nun fəal üzvü, ABŞ və Aİ-nin regionda reallaşdırdığı enerji ehtiyatlarının istehsalı və nəqli layihələrində əsas tərəfdaş kimi çıxış edir. Türkiyənin regionda başlıca maraqları regional güc kimi nüfuzunu saxlamaq, Xəzər hövzəsində hasil edilən neft və qazın onun ərazisindən keçməklə nəqlində əsas mövqelərini qorumaq və inkişaf etdirməkdir. Asiya və Avropanı birləşdirəcək nəqliyyat layihələrinə də Türkiyə böyük maraq göstərir. Türkiyə təhlükəsizlik baxımından Qara dəniz hövzəsindəki hərbi mövcudluğunu inkişaf etdirir.

NATO və Aİ-nin üzvü, ABŞ ilə beynəlxalq təhlükəsizlik sahəsində sıx əlaqələrə malik Rumıniya regionda mövcud olan problemlərin aradan qaldırılmasında fəal rol oynayır. Bu ölkə NATO və Aİ-nin Şərqə doğru genişlənməsi və bu təşkilatlara üzv olmaq istəyən dövlətlərin dəstəklənməsinin tərəfdarı kimi çıxış edir. Rumıniyanın milli və regional təhlükəsizlik sahəsində başlıca məqsədləri sırasında ABŞ ilə mövcud strateji tərəfdaşlığın möhkəmləndirilməsi və inkişaf etdirilməsi, regional və subregional layihələrin inkişafı xüsusi yer tutur. Rumıniya Qara dəniz regionu, NATO və Aİ arasında körpü rolunda çıxış etməyi xarici siyasətinin əsas məqsədlərindən biri kimi görür. Bu dövlət bir sıra regional münaqişələrin (Dnestryanı və Balkanlarda) həllində vasitəçi kimi çıxış edir.

Hazırda Qara dəniz və onunla sıx bağlı olan Xəzər regionu qlobal və regional güclərin çox zaman ziddiyyətli maraqlarının toqquşma meydanına çevrilmişdir. Son illərdə bu regiona maraq daha da artır və bu ərazilər həm region güclərinin (Rusiya, Türkiyə, Rumıniya, İran), həm də qlobal güc mərkəzlərinin (ABŞ, Aİ, NATO, Çin) maraqlarının kəsişmə nöqtəsinə çevrilir. Bunun başlıca səbəbi isə Qərb dövlətlərini karbohidrogen ehtiyatları ilə zəngin olan Cənubi Qafqaz və Mərkəzi Asiya ilə birləşdirən əhəmiyyətli nəqliyyat xətlərinin regiondan keçməsidir. Eyni zamanda Qara dəniz və ətraf regionlarda mövcud

olan böyük təbii qaz və şist qazı yataqları regiona olan, çox zaman bir-biri ilə ziddiyyət təşkil edən maraqları daha da artırır. Bu ərazilərdə nəzarəti ələ almaq Avrasiyanın indiki və gələcək geosiyasi mənzərəsini müəyyənləşdirəcəkdir. Məhz buna görə dünyada mövcud olan qlobal güclərin maraqları bu regionda cəmlənmişdir. Regionun iqtisadi resurslarından istifadədə başlıca maneə kimi mövcud və ehtimal edilən münaqişə ocaqları çıxış edir. Regionun təhlükəsizliyi üçün başlıca problemlər kimi aktiv və passiv şəkildə mövcud olan münaqişə ocaqları və separatçı qurumlar (Dağlıq Qarabağ, Cənubi Osetiya, Abxaziya, Cənub-Şərqi Ukrayna, Dnestryanı və Şimali Qafqazdakı radikal islamçı qurumlar) çıxış edir. Bu regional konflikt ocaqları Qara dəniz regionunda dövlətlərarası münasibətlərin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdəndir. Regional konfliktlər dövlətlərarası münasibətlərə birbaşa təsir edir ki, bu da ümumilikdə regional əlaqələrin güclənməsinə mənfi təsir göstərir. Həmin münaqişələrin istənilən zaman bu və ya digər güclərin maraqları çərçivəsində aktivləşmə ehtimalı kifayət qədər yüksəkdir. Bununla yanaşı, mövcud regional əməkdaşlıq təşkilatlarının heç biri baş vermiş və verə biləcək konfliktləri tam aradan qaldırmaq imkanı və gücündə deyil. Bu hal Ukrayna böhranı zamanı özünü bir daha göstərdi[9].

Öz maraqlarını reallaşdırmaq üçün Rusiya, ABŞ, Aİ və NATO region dövlətlərinə təsir etməyə daim cəhd göstərirlər. Hər bir tərəf region dövlətlərini öz təsir dairəsinə daxil etmək üçün fəaliyyət həyata keçirir. Aİ və NATO-nun regionda genişlənmək cəhdlərinə Rusiya öz keçmiş nüfuzunu bərpa etmək və region dövlətlərini özünəməxsus siyasi, iqtisadi və hərbi ittifaqlarda birləşdirmək cəhdləri ilə cavab verir. Lakin müasir dövrdə iqtisadi və siyasi reallıqlar regionda təhlükəsizliyi təmin edə biləcək qlobal güclərin yeni əməkdaşlıq formasını diktə edir. Belə ki, yaxın gələcəkdə Rusiya, ABŞ, Aİ və NATO ayrılıqda Qara dəniz regionunda təhlükəsizliyin vahid qarantı kimi çıxış edə bilməyəcək və nəticədə regionun siyasi və iqtisadi sabitliyinin təminatı qlobal

9 Əliyev N. Qara dəniz regionu: müasir geosiyasi vəziyyət. // "Strateji təhlil" jurnalı, say 1(12) 2015, s.105-119

güclərin regiona maraqlarının razılaşdırılmasından asılı olacaqdır. Bu baxımdan qlobal və regional güclərin də iştirak etdiyi QDİƏT kimi bölgə dövlətlərinin əməkdaşlıq formatlarının inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edə bilər.

Bütün bunları nəzərə almaqla, dünyadakı güc mərkəzlərinin və regional qüvvələrin təmsil olunduğu QDİƏT kimi platformalarda Azərbaycanın da iştirak etməsi ölkənin gələcəkdə Qara dəniz və Xəzər dənizi coğrafi bölgələrində yerləşən dövlətlərlə beynəlxalq əməkdaşlığının gücləndirilməsi üçün yeni imkanlar yarada bilər. Təşkilat yaranandan bəri fəaliyyəti dövründə QDİƏT üzv ölkələr arasında siyasi və iqtisadi münasibətlərin daha da yaxınlaşmasına yeni imkanlar açmışdır. Təşkilatın beynəlxalq iqtisadiyyatda önəmli rolu olmuş, bölgədə iqtisadi əlaqələrin, o cümlədən üzv ölkələr arasında əməkdaşlığın genişlənməsinə, özəl sektorun, ticarətin, mədəniyyətin, turizmin inkişafına təkan vermişdir. Bütün bunlar isə üzv ölkələrin səyləri nəticəsində mümkün olmuşdur. Avrasiyanın mərkəzində yerləşən, Qara dənizətrafı və ona yaxın ölkələri, o cümlədən Azərbaycanı birləşdirən bu təşkilat tarixi İpək Yolunun bərpasında və enerji resurslarının daşınmasında mühüm rola malikdir.

Nəticə

QDİƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın inkişafı üçün potensialın böyük olmasına baxmayaraq, regionda münaqişələrin aradan qaldırılmaması region dövlətlərinin təhlükəsizliyinə təhdidlər yaradır. Bu, təşkilatın inkişafına mənfi təsir edən əsas amillərdəndir. Məhz bu münaqişələrdə QDİƏT-ə üzv dövlətlərin tərəflər kimi çıxış etmələri (Ermənistan–Azərbaycan, Türkiyə–Yunanıstan, Rusiya–Ukrayna, Rusiya–Gürcüstan, Rusiya–Moldova) ikitərəfli münasibətlərdə gərginliklər yaratmaqla yanaşı, təşkilatdaxili əlaqələrdə də soyuqluq yaradır. Göstərilən münaqişələrin mövcudluğu təşkilatın gələcək inkişafına maneələr törədir. Bütün bu çatışmazlıqlara baxmayaraq, Azərbaycan ötən dövrdə QDİƏT-də təmsil olunan dövlətlərin əksəriyyəti ilə

xüsusilə qarşılıqlı maraqların təmin olunması əhəmiyyəti daşıyan əlaqələr qura bilmişdir. Azərbaycan QDİƏT yaranandan bəri bu qurumdan regional və regionlararası iqtisadi əməkdaşlıq platforması kimi yararlanmışdır. Qarşılıqlı iqtisadi maraqlara söykənən beynəlxalq əməkdaşlığı dəstəkləyən Azərbaycan üçün QDİƏT gələcəkdə də ölkənin iqtisadi inkişafı, Qara və Xəzər dənizləri regionları arasında əlaqələrin möhkəmləndirilməsi baxımından müəyyən rol oynamaq imkanlarına malikdir.

Azərbaycan–İqtisadi Əməkdaşlıq Təşkilatı münasibətləri

*Orxan Bağırov**

Giriş

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) əsası Türkiyə, İran və Pakistanın təşəbbüsü ilə 1985-ci ildə qoyulmuşdur. İƏT 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının davamı kimi yaradılmışdır[1]. Təşkilatın əsas məqsədi region dövlətlərinin sahib olduğu resurslardan tam istifadəni təmin etməklə İƏT-in dünya iqtisadiyyatında payını artırmaqdır. Bu da, öz növbəsində, üzv dövlətlərin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunmasına gətirib çıxaracaqdır. İƏT eyni zamanda iqtisadiyyatın liberallaşdırılması, üzv dövlətlər və digər dövlətlər arasında ticarət baryerlərinin aradan qaldırılmasına çalışır. 1992-ci ildə Türkiyə, İran və Pakistandan başqa, daha 7 dövlət, o cümlədən Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan və Əfqanıstan bu təşkilata qoşulmuşdur. Yeni üzvlərin təşkilata qoşulması İƏT Nazirlər Şurasının 1992-ci il noyabrın 28-də İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı İzmir müqaviləsinə qoşulmaqla baş vermişdir. Bundan sonra yeni üzv dövlətlərin xarici işlər nazirləri tərəfindən İƏT-ə qəbul olunmaları barədə akt imzalanmışdır. İƏT-ə yeni üzvlərin daxil olması tarixi hazırda "İƏT Günü" kimi qeyd olunur. İƏT-ə üzv dövlətlərin sayının artması və bununla da daha böyük regionu əhatə etməsi onun vəzifələrini artırmış və daha böyük resursları idarə etmək imkanı yaratmışdır. İƏT regionunda iqtisadi əlaqələrin inkişaf etdirilməsi qarşısında dayanan əsas maneələr lazımi infrastrukturun və institutların olmamasıdır. Məhz buna görə də İƏT bu maneələrin aradan qaldırılması istiqamətində müxtəlif layihələr həyata keçirir.

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin İqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin məsləhətçi-eksperti*

1 Azərbaycan – İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) münasibətləri / "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana. /01.07.2010/ - http://lib.aliyev-heritage.org/az/4271680.html

İƏT-in əsas ali orqanı iştirakçı ölkələrin xarici işlər nazirlərindən ibarət Nazirlər Şurasıdır. Nazirlər Şurasının iclasları ildə bir dəfə növbə ilə iştirakçı ölkələrin birinin ərazisində keçirilir. İƏT-in Katibliyi Tehranda yerləşir. Onun rəhbəri, yəni Baş katib 4 ildən bir üzv ölkələr arasından növbə ilə seçilir. İƏT 1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyasında BMT-də, 1994-cü ildə isə İslam Konfransı Təşkilatında müşahidəçi statusu almışdır[2].

Azərbaycanın İƏT-ə qoşulması: fəal əməkdaşlıq

Sovet hökuməti dağıldıqdan sonra bir çox postsovet dövləti kimi, Azərbaycanın da İƏT-ə marağı yarandı. Çünki keçmiş SSRİ-nin tərkibində olan dövlətlər beynəlxalq ticarət əlaqələrindən və dəyər zəncirindən kənarda qalmışdılar. İƏT bu dövlətlər üçün iqtisadi əlaqələri genişləndirmək imkanı yaradırdı. Bazar iqtisadiyyatına keçidin ilk mərhələsində olan Azərbaycan üçün dünya ticarətinə qoşulmaq çətin idi, məhz buna görə də İƏT Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası üçün imkan yaradırdı. Digər tərəfdən, coğrafi mövqe və mədəni yaxınlıq baxımından da İƏT-ə üzv dövlətlərlə iqtisadi əlaqələrin qurulması əhəmiyyətli idi. Eyni zamanda təbii resurslarla zəngin olan bir ölkə kimi Azərbaycanın iqtisadi maraqları İƏT-in iqtisadi maraqları ilə üst-üstə düşürdü.

Azərbaycan Respublikası ilə İƏT arasında ilk münasibətlərin yaranması 1991-ci ilin fevralına təsadüf edir. Azərbaycan İƏT-ə bu qurumun təsis edilməsi haqqında 1987-ci il tarixli İzmir müqaviləsinin və bu müqavilənin 1990-cı il 18 iyun və 1992-ci il 28 noyabr tarixli protokollarının Azərbaycan Respublikası Milli Məclisinin 3 sentyabr 1993-cü il tarixli 699 nömrəli qərarı ilə ratifikasiya etməsi nəticəsində qoşulmuşdur[3]. 1997-ci ildən bəri Azərbaycan Respublikasının İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri eyni zamanda İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Nümayəndələr Şurasında Azərbaycan Respublikasının daimi nümayəndəsidir. İƏT çərçivəsində Azərbaycan

2 Yenə orada

3 Azərbaycan və İqtisadi Əməkdaşlıq Təşkilatı /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /16.09.2013/ - http://www.mfa.gov.az/content/752

digər üzv ölkələrlə bir sıra prioritet sahələr, o cümlədən nəqliyyat, enerji, ticarət və investisiya sahələri üzrə əməkdaşlıq etməkdədir. Bu çərçivədə Azərbaycan "İƏT-ə üzv dövlətlər arasında ticarət əməkdaşlığına dair Çərçivə Sazişi", "İƏT regionunda tranzit nəqliyyatı haqqında Saziş", "İƏT regionunda investisiyaların təşviqi və qorunması haqqında Saziş" də daxil olmaqla, müxtəlif sahələrdə 11 sənəd imzalamışdır[4]. Üzv dövlətlərin strateji coğrafi mövqedə yerləşməsi, Qərblə Şərqi birləşdirən nəqliyyat yollarına və zəngin təbii sərvətlərə malik olması İƏT-in əhəmiyyətini daha da artırır. Bu baxımdan Azərbaycan İƏT-də xüsusi əhəmiyyətə malik olan dövlətlərdəndir.

İƏT ilə əlaqələr daima Ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Bu, eyni zamanda Ümummilli liderin o dövrdə müsəlman dünyası ilə əlaqələrin genişləndirilməsi istiqamətində apardığı siyasətlə bağlı idi. 1993-cü il 5-7 iyul tarixlərində İstanbulda İƏT ölkələri dövlət başçılarının II sammiti keçirilmişdi. Həmin dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin Sədri Heydər Əliyev İƏT-in II Sammitinin iştirakçılarına müraciət ünvanlamışdı[5]. Bu sammitdə İƏT-in uzunmüddətli inkişafına dair İstanbul Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə İƏT-in iqtisadiyyat, elm və mədəniyyət sahələrində başlıca vəzifələri və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. İstanbul sammitində iştirakçılar erməni silahlı qüvvələrinin Azərbaycan ərazilərinə hücumlarını pisləmiş, Ermənistandan öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmağı və BMT Təhlükəsizlik Şurasının 822-ci qətnaməsini yerinə yetirməyi tələb etmişdilər.

1995-ci il martın 13-də İslamabadda İƏT-in III Sammiti öz işinə başlamış və Azərbaycan bu sammitdə xarici işlər naziri səviyyəsində təmsil olunmuşdu. Sammitdə tranzit ticarəti, İƏT ölkələri iş adamlarına viza verilməsi prosedurunun sadələşdirilməsi, İƏT gəmiçilik şirkətinin, İƏT hava şirkətinin və onların nizamnamələrinin təsis olunması barədə sazişlər imzalanmışdır[6]. 1996-cı il 13-14 may tarixlərində isə Heydər Əliyev İƏT-in Aşqabadda keçirilən IV Sammitində iştirak etmişdi. Sammitdə

4 Yenə orada

5 Azərbaycan–İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) münasibətləri / "Heydər Əliyev irsi" Beynəlxalq Elektron Kitabxana. /01.07.2010/ - http://lib.aliyev-heritage.org/az/4271680.html

6 Yenə orada

çıxış edən ölkə başçısı demişdir: "Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də təşkilatda fəal iştirak etmək təkcə iqtisadi maraqların olmasından deyil, həm də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqaməti olmasından irəli gəlir". Bu sammitdə eyni zamanda nəqliyyat və kommunikasiyanın inkişafına dair (1998-2007-ci illər üçün) proqram qəbul edilmişdir. İƏT-in 2000-ci il iyunun 9-da Tehranda keçirilən zirvə görüşündə Pakistanın keçmiş dövlət başçısı Pərviz Müşərrəf Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoymaq üçün ölkəsinin hər cür yardım göstərməyə hazır olduğunu bəyan etmişdi. Prezident Heydər Əliyev regionda iqtisadiyyatın inkişaf etdirilməsi üçün Böyük İpək Yolunun bərpa olunmasının vacibliyini diqqətə çatdırmışdı. 2001-ci il fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Əbdülrəhim Qəvahi ilə görüşmüşdü. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilmişdi[7]. 2002-ci il oktyabrın 18-də İƏT-in İstanbulda keçirilən VII Zirvə görüşündə Prezident Heydər Əliyev iştirak etmişdi. Bu toplantıdakı çıxışında Prezident Əfqanıstanda baş verən müsbət dəyişiklikləri alqışlayaraq 350 milyona yaxın insanın yaşadığı regionu əhatə edən İƏT-in yoxsulluğun azaldılması üçün xüsusilə dövlətlərarası əməkdaşlığı inkişaf etdirməli olduğunu və birgə layihələrin həyata keçirilməsinin təşviq edilməsinin əhəmiyyətini vurğulamışdır.

Prezident İlham Əliyev də İƏT ilə əməkdaşlığa xüsusi diqqət yetirmiş və bu əməkdaşlığı xarici siyasətin prioritet sahələrindən biri kimi qiymətləndirmişdir. İƏT-in IX Zirvə görüşü 2006-cı ildə Bakıda keçirilmişdir. Bu toplantı İƏT tarixində vacib görüşlərdən biri hesab olunur. IX Zirvə görüşündən sonra İƏT-də sədrlik Azərbaycana keçmişdir[8]. Azərbaycan Prezidenti zirvə görüşündə çıxış edərək demişdir: "Biz bir neçə beynəlxalq, regional layihələrin iştirakçısı, təşkilatçısıyıq

7 Yenə orada
8 Yenə orada

və çox istəyirik ki, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də konkret layihələr daha çox olsun. Biz konkret məsələlər ətrafında diskussiya apararaq və praktik addımların atılması üçün lazım olan bütün tədbirləri görməliyik".

2007-ci il fevralın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İƏT-in Baş katibi Xurşid Ənvəri qəbul etmişdir. Görüş zamanı Baş katib Pakistan xalqının Ermənistanın Azərbaycana təcavüzünü qəti şəkildə pislədiyini bir daha bəyan etmişdir[9]. X Zirvə görüşü isə Tehranda 2009-cu il martın 11-də keçirilmişdir. Prezident İlham Əliyev bu toplantıda cıxış edərək bildirmişdir: "Son üç il ərzində bizim sədrliyimiz altında İqtisadi Əməkdaşlıq Təşkilatında müxtəlif təşəbbüslər irəli sürülmüşdür. Eyni zamanda, Azərbaycanın təşəbbüsü ilə bölgədə enerji, nəqliyyat və digər sahələrdə çox önəmli addımlar atılmışdır. Azərbaycan enerji təhlükəsizliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verməkdə davam edir". Sammitdə eyni zamanda Tehran Bəyannaməsi qəbul olunmuşdur. Bəyannamədə regional münaqişələrin sülh yolu ilə və dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyi vurğulanmışdır.

2012-ci il İƏT çərçivəsində bir çox tədbirlərin Azərbaycanda keçirilməsi ili kimi yadda qalmışdır. Belə ki, 2012-ci ilin 2-3 may tarixlərində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə İƏT-ə üzv dövlətlərin ticarətin təşviqi üzrə təşkilatlarının rəhbərlərinin 2-ci iclası, 7-8 noyabr tarixlərində İqtisadi Tədqiqatlar üzrə Daimi Komitənin 2-ci iclası və "İqtisadiyyat" jurnalının redaksiya heyətinin 1-ci iclası Bakıda keçirilmişdir. İƏT-in fəaliyyətinin təhlil edilməsi məqsədilə 2011-ci ildə yaradılmış görkəmli xadimlər qrupunun 7-ci iclası da Bakıda 2012-ci ilin 16-17 iyul tarixlərində keçirilmişdir[10]. Daha sonra 2012-ci ilin 15-16 oktyabr tarixlərində İƏT-in XII Zirvə görüşü və Xarici İşlər Nazirləri Şurasının 20-ci iclası Bakı şəhərində keçirilmişdir. Bu iclaslar təşkilatın 1992-ci ildə genişlənməsinin, yeni üzvlərin qoşulmasının 20-ci ildönümünə təsadüf etmişdir. Eyni zamanda

9 Yenə orada

10 İqtisadi Əməkdaşlıq Təşkilatı /Azərbaycan Respiblikasının İqtisadiyyat Nazirliyi. / 01.10.2012/ - http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=279&Itemid=170&lang=az

15 oktyabr tarixindən İƏT-də sədrlik Azərbaycan tərəfinə keçmişdir. Zirvə toplantısında Bakı Bəyannaməsi qəbul edilmişdir[11]. Azərbaycanın sədrliyi dövründə İƏT-in Tehranda keçirilən Regional Planlaşdırma Şurasının, Daimi Nümayəndələr Şurasının iclasları Azərbaycan nümayəndələrinin rəhbərliyi ilə həyata keçirilmişdir.

2013-cü ilin 6-8 may tarixlərində keçirilmiş Regional Planlaşdırma Şurasının 23-cü iclasında Azərbaycan Respublikası geniş tərkibdə nümayəndə heyəti ilə iştirak etmişdir[12]. 2013-cü ilin 5-6 sentyabr tarixlərində Bakıda İƏT-ə üzv dövlətlərin iqtisadi beyin mərkəzlərinin 1-ci Bakı Forumu, həmçinin forum çərçivəsində "Enerji, regional inteqrasiya və sosial-iqtisadi inkişaf" mövzusunda 1-ci Beynəlxalq konfrans, dekabr ayında İƏT-in "İqtisadiyyat" jurnalının redaksiya heyətinin 3-cü iclası, həmçinin İƏT-ə üzv ölkələrin 4-cü Biznes Forumu keçirilmişdir. 2013-cü il noyabrın 26-da Tehranda keçirilən Nazirlər Şurasının 21-ci iclasında Bakıda Tədqiqat Mərkəzinin yaradılması haqqında yekun qərar qəbul edilmiş və mərkəzin əsasnaməsi təsdiq olunmuşdur[13]. 23-26 fevral 2014-cü il tarixində Tehran şəhərində İƏT-in Regional Planlaşdırma Şurasının 24-cü iclası keçirilmişdir. İclasda İƏT-in 4-cü Biznes Forumunun 2015-ci ildə Bakıda keçirilməsi razılaşdırılmışdır[14]. Bunun ardından 2015-ci ilin dekabrında 4-cü Biznes Forumunun keçirilməsi qeyri-müəyyən vaxta təxirə salınmışdır. Həmin ilin 13-17 dekabr tarixlərində isə Tehranda İƏT-in Regional Planlaşdırma Şurasının 26-cı iclasında Azərbaycan Respublikası geniş nümayəndə heyəti ilə iştirak etmişdir.

Azərbaycan və İƏT arasında iqtisadi əlaqələr

Azərbaycan İƏT-ə üzv olduğu dövrdən etibarən digər üzv dövlətlərlə güclü iqtisadi əlaqələrə malik olmuşdur. İƏT ilə ticarət əlaqələri Azərbaycanın xarici ticarət əlaqələrində əhəmiyyətli paya sahib olmuşdur.

11 Azərbaycan və İqtisadi Əməkdaşlıq Təşkilatı /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /16.09.2013/ - http://www.mfa.gov.az/content/752

12 Yenə orada

13 İqtisadi Əməkdaşlıq Təşkilatı /Azərbaycan Respiblikasının İqtisadiyyat Nazirliyi. /01.10.2012/ - http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=279&Itemid=170&lang=az

14 Yenə orada

1995-2015-ci illər ərzində Azərbaycanın İƏT-ə üzv dövlətlərlə ticarət dövriyyəsi 3,3 dəfə artaraq 2 milyard ABŞ dollarını ötmüşdür (Qrafik 1). Ticarət dövriyyəsinin ən yüksək həddi isə 2012-ci ildə qeydə alınmışdır ki, həmin il ticarət dövriyyəsi 3 milyard dollardan çox olmuşdur. İƏT ilə ticarət əlaqələrində idxal daha çox paya sahib olmuşdur. İdxalın ən yüksək həddi isə 2012-ci ildə müşahidə edilmişdir. Belə ki, həmin il idxal 2.082 milyard ABŞ dolları olmuşdur. İxracın ən yüksək həddi 2007-ci ildə müşahidə edilmiş və 1.7 milyard ABŞ dollarını ötmüşdür. Ümumilikdə isə həm idxal, həm də ixracda son 20 il ərzində əsaslı artım müşahidə edilmişdir. Belə ki, idxal 4,6 dəfə, ixrac isə 3 dəfəyə qədər artmışdır. 1995-ci ildə İƏT ilə ticarət dövriyyəsində idxalın payı 49%, ixracın payı isə 51% idisə, 2015-ci ildə bu rəqəm idxal üçün 69%, ixrac üçün 31% olmuşdur. İllər ötdükcə idxalın payının artmasının əsas səbəbi Azərbaycanın uğurla həyata keçirdiyi neft strategiyası olmuşdur. Belə ki, zəngin karbohidrogen yataqlarından əldə edilən neft daha çox Avropaya nəql edildiyindən İƏT ilə iqtisadi əlaqələrdə qeyri-neft sektoru üzrə müxtəlif məhsulların idxalına daha çox üstünlük verilmişdir. 2005-ci ildə isə idxal və ixracın payı, demək olar ki, bir-birinə bərabər olmuşdur. Son 20 il ərzində yalnız 2007-2008-ci illərdə İƏT ilə ticarət əlaqələrində ixrac idxalı üstələmiş, qalan digər illərdə isə idxal həmişə üstünlük təşkil etmişdir. 2007-ci ildə ixrac idxaldan 724.3 milyon, 2008-ci ildə isə 244.3 milyon dollar artıq olmuşdur.

Qrafik 1. İƏT ilə ticarət əlaqələri



Mənbə: *Azərbaycan Respublikasının Statistika Komitəsi*

İƏT ilə ticarət əlaqələri Azərbaycanın ümumi xarici ticarət əlaqələrində həmişə böyük paya sahib olmuşdur. İƏT ilə ticarət əlaqələrinin ümumi ticarətdə payının ötən 20 il ərzində azalmasına baxmayaraq, həcm etibarilə əhəmiyyətli artım müşahidə edilmişdir. Qeyd edilən 20 il ərzində İƏT ölkələrindən idxalın və bu ölkələrlə ticarət dövriyyəsinin Azərbaycanın ümumi idxal və ticarət dövriyyəsində payının ən yüksək olduğu il 1995-ci il olmuşdur. Belə ki, həmin il idxalın payı 45%-ə, dövriyyənin payı isə 47%-ə bərabər olmuşdur (Qrafik 2). İƏT ölkələrinə ixracın ümumi ixracda payının ən yüksək səviyyəsi isə 1996-cı ildə müşahidə edilmişdir (51%). Bu göstəricilər son 20 il ərzində tədricən azalmışdır. Belə ki, 2015-ci ildə ümumi ticarət əlaqələrində İƏT ilə ticarət dövriyyəsinin payı 9,7%-ə, ixrac 5,4%-ə, idxal isə 15,1%-ə qədər azalmışdır. Bu azalma Azərbaycanın İƏT ilə ticarət əlaqlərinin zəifləməsinə görə deyil, ölkə iqtisaiyyatının yüksək sürətlə inkişafına görə baş vermişdir. Eyni zamanda, qeyd etdiyimiz kimi, Azərbaycan uzun müddət keçmiş SSRİ-nin tərkibində blokadada qaldığından müstəqilliyinin ilk dövrlərində digər ölkələrlə iqtisadi əlaqələri yaxşı inkişaf etməmişdi. Ancaq illər ötdükcə iqtisadi əlaqələrin genişlənməsi, istər Asiya, istərsə də Avropa dövlətləri ilə ticarətin yüksək sürətlə inkişaf etməsi İƏT ilə ticarət əlaqələrinin payının azalmasına gətirib çıxarmışdır. Xüsusilə 2007-ci ildən sonra, yəni Azərbaycanın neft ixracının kəskin şəkildə artmağa başladığı dövrdən etibarən İƏT ilə ticarət əlaqələrində idxalın payı ixracı böyük fərqlə üstələmişdir.

Qrafik 2. İƏT ilə ticarət əlqələrinin Azərbaycanın ümumi ticarət əlaqələrində payı



Mənbə: *Azərbaycan Respublikasının Statistika Komitəsi*

Azərbaycanın İƏT ilə iqtisadi əlaqələrində qurumun Ticarət və İnkişaf Bankı da mühüm rol oynayır. Ticarət və İnkişaf Bankı ("ECOBank") 2008-ci ildə İƏT ölkələrinin daxili regional ticarətini genişləndirmək, iqtisadi inkişafı sürətləndirmək və infrastruktur, telekommunikasiya, energetika və digər sahələrdə həyata keçirilən layihələri maliyyələşdirmək məqsədilə yaradılmışdır. 2012-ci il sentyabrın 28-də bankın nizamnaməsi Azərbaycan Respublikası tərəfindən imzalanmış, 2013-cü il fevralın 15-də Milli Məclis tərəfindən təsdiq olunmuşdur. Hazırda Azərbaycan "ECOBank"ın səhmdarlarından biridir[15].

Azərbaycan İƏT ilə nəqliyyat sahəsində də əməkdaşlıq edir. Bu əməkdaşlıq Tranzit Nəqliyyatı Çərçivə Sazişi əsasında həyata keçirilir. Tranzit Nəqliyyatı Çərçivə Sazişi 1998-ci il mayın 9-da keçirilmiş İƏT-in V Zirvə görüşündə imzalanmış və 2006-cı il mayın 19-dan etibarən qüvvəyə minmişdir. Azərbaycan Respublikası Tranzit Nəqliyyatı Çərçivə Sazişi üzrə əlaqələndirici təyin edilmişdir. Bu sazişin həyata keçirilməsi İƏT-in prioritet istiqamətlərindən biridir. Azərbaycanda bu sazış Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 4 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir[16]. Tranzit nəqliyyatı məsələlərinin monitorinqinin və koordinasiyasının həyata keçirilməsi üçün Tranzit Nəqliyyatı Əlaqələndirmə Şurası və onun hüquq, sığorta, dəmir yolu, avtoyol və tranzit ticarəti istiqamətləri üzrə alt komitələri yaradılmışdır. Tranzit Nəqliyyatı üzrə Koordinatorlar Şurasının ilk iclası 2006-cı il sentyabrın 25-də Bakı şəhərində keçirilmiş və iclasda saziş üzrə əlaqələndirmə həmin şuraya keçmişdir.

İƏT regionun əsas nəqliyyat xətləri olan Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin inkişaf etdirilməsi üçün layihələr həyata keçirir. Bu layihələr çərçivəsində Azərbaycan Qəzvin–Rəşt–Astara dəmir yolu layihəsinin iştirakçısıdır. Layihə üzrə yüksəksəviyyəli işçi qrupunun ilk iclası 2013-cü il mayın 22-də Bakı şəhərində keçirilmişdir. Layihənin reallaşdırılması regionda ümumi dəmir yolu şəbəkəsinin yaradılmasına, dəmir yolu xətlərinin modernləşdirilməsinə, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə və yaradılan dəmir yolu şəbəkəsinin Avropa və Yaxın Şərq dəmir yolu şəbəkələrinə birləşdirilməsinə imkan yaradacaqdır.

15 Azərbaycan və İqtisadi Əməkdaşlıq Təşkilatı /Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. /16.09.2013/ - http://www.mfa.gov.az/content/752

16 Yenə orada

Nəticə

Azərbaycan üçün İƏT daima etibarlı tərəfdaş olmuşdur. Buna görə də Azərbaycan bu əməkdaşlığa istər ticarət əlaqələrinin inkişaf etdirilməsi, istər daxili tələbatın ödənilməsi, istərsə də dünya iqtisadiyyatına inteqrasiyanın artırılması baxımından xüsusi əhəmiyyət vermiş və yüksək qiymətləndirmişdir. İƏT ilə əməkdaşlığı daha da əhəmiyyətli edən isə müstəqilliyinin ilk illərində dünya ilə iqtisadi əlaqələrdən geri qalan Azərbaycan üçün İƏT-in geniş və perspektivli imkanlar yaratması və Azərbaycanın dünya bazarına qoşulmasına yardımçı olması olmuşdur. Ümummilli lider Heydər Əliyev də o dövrdə Azərbaycan iqtisadiyyatını böhrandan çıxarmaq üçün beynəlxalq iqtisadi münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət vermiş və vəziyyəti ustalıqla qiymətləndirərək, Azərbaycanın İƏT ilə münasibətlərinin inkişaf etdirilməsinə çalışmışdır. Ümummilli liderin layiqli davamçısı İlham Əliyev də bu ənənəni davam etdirmiş, İƏT ilə münasibətlərin inkişaf etdirilməsinə vacib bir məsələ kimi yanaşmışdır. Eyni zamanda İƏT-ə üzv dövlətlər də Azərbaycanı özlərinə əhəmiyyətli və etibarlı müttəfiq saymışlar. Azərbaycanın Qərblə Şərqin, Şimalla Cənubun qovuşuğunda yerləşməsi, zəngin təbii ehtiyatlara malik olması Azərbaycanın İƏT üçün əhəmiyyətini daha da artırmışdır. Təsadüfi deyil ki, İƏT-in IX Zirvə görüşü, İƏT-ə üzv dövlətlərin ticarətin təşviqi üzrə təşkilatlarının rəhbərlərinin 2-ci iclası, İqtisadi Tədqiqatlar üzrə Daimi Komitənin 2-ci iclası və "İqtisadiyyat" jurnalının redaksiya heyətinin 1-ci iclası, Görkəmli xadimlər qrupunun 7-ci iclası, İƏT-in XII Zirvə görüşü, İƏT-ə üzv ölkələrin 4-cü Biznes Forumu və digər bu kimi əhəmiyyətli tədbirlər Azərbaycanda keçirilmişdir. İƏT-ə üzv dövlətlər Dağlıq Qarabağ münaqişəsinə konkret münasibət bildirmiş, beynəlxalq normalara qarşı çıxaraq Azərbaycanın ərazi bütövlüyünü pozan Ermənistana tənqidi yanaşmış və ölkəmizin maraqlarını haqlı olaraq müdafiə etmişlər. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycanda hökm sürən iqtisadi və siyasi sabitlik gələcəkdə də İƏT-in Azərbaycana qarşı etibarlı tərəfdaş kimi yanaşmasına və əlaqələrinin genişləndirilməsinə səbəb olacaqdır. Azərbaycan da öz növbəsində bu əməkdaşlığın daha da inkişaf etdirilməsinə, regional layihələrin uğurla həyata keçirilməsinə öz töhfəsini verəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN VASİTƏLƏRİ

Azərbaycan Respublikasının enerji diplomatiyası xarici siyasətinin tərkib hissəsi kimi

*Gülmira Rzayeva**

Giriş

Tarixi ənənələri, geosiyasi mövqeyi, təbii ehtiyatları, iqtisadi potensialı və bəzi digər üstün parametrləri ilə Azərbaycan Xəzər regionunun mühüm ölkəsidir. Onun xarici siyasəti gələcəkdə yalnız regional deyil, həm də qlobal miqyasda vəziyyətə əhəmiyyətli dərəcədə təsir göstərəcək. Bu baxımdan Azərbaycanın düşünülmüş neft strategiyasını, ümumilikdə enerji diplomatiyasını öyrənmək mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın xüsusilə dəniz neftinin hasilatı 1948-1991-ci illərdə inkişaf dinamikası göstərmiş, 1991-1994-cü illərdə dərin tənəzzül keçirmiş, 1994-cü ildən sonrakı dövrdə isə yeni inkişaf mərhələsinə daxil olmuşdur. 1994-cü ilin sentyabr ayında imzalanan "Əsrin müqaviləsi"nə qədər və dönüş nöqtəsi olan bu müqavilədən sonra da Azərbaycanın enerji diplomatiyasında və neft-qaz sektorunda önəmli hadisələr baş vermişdir.

Xəzər dənizinin Azərbaycan şelfində yeni neft və qaz yataqları işlənib hazırlanmışdı ki, bu da 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması üçün əsas oldu. Həqiqətən, bu dövrdə dənizdə neftçıxarma sahəsində ("Neft Daşları", "Çilov", "Qumadası", "Qaradağ", "Günəşli" və bir çox digər yataqlar və platformalar üzrə) böyük uğurlar əldə edilmişdi. Neft sənayesinin inkişafının sürətləndirilməsi və onun maddi-texniki bazasının yenilənməsi məqsədilə Heydər Əliyevin rəhbərliyi altında 1970-1980-ci illərdə mühüm addımlar atılmışdır.

Təbii qaz sektoru BP və ARDNŞ ilə yanaşı bir neçə iri neft-qaz şirkətlərinin investisiyası nəticəsində inkişaf etdirilmiş və hasilat dəfələrlə artırılmışdır. Azərbaycanın yeni tarixində enerji sektorunun digər mühüm uğuru kimi

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin İqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin aparıcı elmi işçisi*

"Sahdəniz" qaz yatağının işlənməsi və qaz hasilatının 9 milyard kubmetrə və neft kondensatının günlük 50 min barelə çatdırılmasını qeyd etmək olar. Hal-hazırda bu yataqdan qaz qonşu Gürcüstan və Türkiyə bazarlarına ixrac olunur. 2018-ci ildə isə bu yatağın ikinci fazasının realaşdırılması nəticəsində qaz hasilatının həcminin 16 milyard kubmetrə, qaz kondensatının həcminin isə günlük 120 min barelə çatdırılması gözlənilir. Bunun nəticəsində Azərbaycan ilk dəfə 2020-ci ildən başlayaraq Avropa bazarına, daha dəqiqi, Yunanıstan, Bolqarıstan və İtaliya bazarlarına cəmi 10 milyard kubmetr qaz ixrac edəcəkdir və regionun mühüm enerji ixracatçısına çevriləcəkdir. Nəhəng hasilat layihəsi qaz nəqliyyat infrastrukturunun yaradılmasına böyük həcmdə investisiyanın yatırılmasını tələb edirdi. Bu məqsədlə Cənubi Qafqaz Boru Kəmərinin həcminin 16 milyard kubmetrədək genişləndirilməsi, Türkiyə ərazisində maksimal nəqliyyat həcmi 32 milyard kubmetr olan Transanadolu və Avropanın ərazisində Transadriatik boru kəmərlərinin inşası bu layihələrin konsorsiumu tərəfindən həyata keçirilməkdədir. Hər üç boru kəmərinin birlikdə əmələ gətirdikləri Cənub Qaz Dəhlizinin (CQD) təşkil etdiyi dəyər zəncirinin 12 milyard dollaradək Azərbaycan hissəsinin maliyyələşdirilməsi bu günə qədər hec bir çətinlik yaratmamışdır. Beynəlxalq banklar və maliyyə institutları böyük maraq göstərərək, CQD-nin maliyyələşdirilməsi məqsədilə Azərbaycan hökuməti tərəfindən yaradılmış "Cənub Qaz Dəhlizi" şirkətinə milyonlarla dollar həcmində kredit ayırırlar.

Neft strategiyasının əsas prinsipləri

1995-ci ildə Londonda "Azərbaycanda investisiya imkanları" mövzusunda keçirilən konfransda çıxış edən Prezident Heydər Əliyev bununla bağlı bu fikri səsləndirmişdir: *"Əsrlər boyu Azərbaycanın enerji potensialı Rusiya iqtisadiyyatının və son 70 ildə Sovet İttifaqının inkişafı vəzifəsini yerinə yetirib. İndi bu potensial bütün dünyada yeni iqtisadi sıçrayış üçün effektiv stimul ola bilər. Qərb və Azərbaycanın bir-birinə ehtiyacı var. Qlobal əməkdaşlıq tərəflərdən birinin dünya bazarına daxil olmasını asanlaşdırır, digər tərəfi isə mümkün gözlənilən enerji böhranından xilas edir"*[1].

1 Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, с.5-7

"Əsrin müqaviləsi"nin imzalanmasına qədər əsas hadisələrin xronologiyası

Tarix	Hadisə
1985-1987-ci illər	"Azəri"-"Çıraq"-"Günəşli" yataqlarının perspektiv layları kəşf edilir və istismara hazır vəziyyətə gətirilir.
1989-cu il	"Ramco Energy" şotland neft şirkətinin rəhbəri Stiv Remp ilk xarici neft şirkətinin nümayəndəsi kimi Bakıya səfər edir[2] və "Xəzərdəniz-neft" İB-in direktoru ilə görüşüb neft-qaz yataqlarının birgə işlənilməsi ilə bağlı təklif alır[3].
1990-cı il	Azərbaycan (sovet) hökuməti ilə BP, "Statoyl", "Amoko" və "Yunokal" kimi ABŞ və Avropa neft şirkətləri arasında ilkin danışıqlar başlayır.
18 yanvar 1991-ci il	Azərbaycan SSR Nazirlər Soveti və SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin 25/25 nömrəli birgə qərarı ilə "Azəri" ofşor yatağının işlənilməsi üçün birgə müəssisənin yaradılması ilə bağlı tender keçirilir.
1991-ci ilin iyun ayı	"Azəri" yatağının işlənilməsi üçün birgə müəssisənin yaradılması ilə bağlı keçirilən tenderdə "Amoco" (ABŞ) şirkəti qalib gəlir və daha sonra layihəyə BP/"Statoyl", "Pennzoyl", "Ramko", "Yunokal" və "MkDermott" şirkətləri cəlb edilir[4].
1992-ci ilin əvvəli	Yataqlardan neft və kondensatın hasil edilməsi ilə yanaşı, karbohidrogen ehtiyatlarının ixrac marşrutlarının müzakirəsi artıq müstəqil olan Azərbaycan hökuməti ilə aparılır.
1992-ci ilin may və iyun ayları	Azərbaycanın Şuşa və Laçın şəhərlərinin işğalı fonunda ölkədə hakimiyyət dəyişikliyi baş verir və Ə.Elçibəyin rəhbərliyində AXC hakimiyyətə gəlir.
21 iyun 1992-ci il	ABŞ-ın "Çikaqo Tribun" qəzetində Azərbaycanın neft ehtiyatları və birgə sərmayələrlə bağlı ilk yazı dərc olunur.
7 sentyabr 1992-ci il	BP/"Statoyl" alyansına "Dostluq" və "Şahdəniz" yataqlarının birgə işlənilməsi ilə bağlı eksklüziv hüquq verilir.
1992-ci ilin noyabr ayı	Xarici neft şirkətləri ilə birgə istismara açılan 4 əsas yataq ("Azəri", "Çıraq", "Günəşli", "Şahdəniz") üzrə vahid boru kəməri, vahid terminal və təchizatla bağlı anlaşma memorandumları imzalanır.
1993-cü ilin mart ayı	BP/"Statoyl" alyansı ilə ARDNŞ arasında "Çıraq" və "Şahdəniz" yataqları ilə bağlı yeni saziş imzalanır.

2 Cornering foreign fields STEVE REMP Ramco's executive chairman and first western oilman into Azerbaijan talks about the future to Mark Williamson. /06.12. 2003/ - http://www.heraldscotland.com/news/12423275.Cornering_foreign__fields_STEVE_REMP_Ramco_apos_s_executive_chairman_and_first_western_oilman_into_Azerbaijan_talks_about_the_future_to_Mark_Williamson/

3 Həmin görüşlərdə Azərbaycan neftçiləri S.Rempi ölkənin hələ işlənməmiş neft ehtiyatlarının böyük miqyasda olmasına inandıra bilirlər. O isə öz növbəsində Britaniyaya qayıdarkən həm rəhbərlik etdiyi şirkətdə, həm də ilk dəfə BP-də əldə etdiyi faktları təqdim edərək Azərbaycanın neft-qaz sektoruna təqribən 100 illik fasilədən sonra xarici investorlarda maraq oyadır

4 Hökumətlə şirkətlər arasındakı pay bölgüsü ümumən 85/15 nisbətində müəyyən edilsə də, "Amoko" şirkətlərin ümumi payının 45%-nə nəzarət edirdi

5 iyun 1993-cü il	ARDNŞ Direktorlar Şurası "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının bir layihədə birləşdirilərək birgə istismar edilməsi və dövlətin payının 70% səviyyəsində müəyyən edilməsi ilə bağlı qərar qəbul edir[5].
1993-cü ilin iyun ayı	Gəncə qiyamı və daha sonra ölkədə yaranan xaos fonunda Ümummilli lider Heydər Əliyev Bakıya dəvət olunur və ölkəyə rəhbərlik etməyə başlayır.
1994-cü ilin fevral-iyun ayları	Xarici neft şirkətləri ilə danışıqların intensivliyi artır, ARDNŞ-də yeni kadr dəyişiklikləri edilərək vitse-prezidentliyə İlham Əliyev, prezidentliyə isə Natiq Əliyev gətirilir.
20 sentyabr 1994-cü il	"Əsrin müqaviləsi"nin xarici neft şirkətləri ilə hasilatın pay bölgüsü formatında imzalanması (BP/Statoyl/Amoko şirkətlərinin kommersiya şərtlərində dominantlığı yenə də davam edir).

Azərbaycanın neft-qaz hasilatı və emalı sənayesində keyfiyyət dəyişiklikləri Ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbər təyin edildikdən sonra baş verdi. 1969-cu ildən başlayaraq Azərbaycanın neft və qaz sənayesində dinamik inkişaf başladı. Heydər Əliyevin təşəbbüsü və böyük səyi nəticəsində keçən əsrin 70-80-ci illərində Xəzərdə dənizin 200 metr dərinliyindəki sahələrdə işləməyə imkan verən "Şelf" tipli yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizin daha dərin sahələrində zəngin neft və qaz yataqlarının kəşf olunmasına imkan yarandı[6]. Nəticədə yeni neft və qaz yataqları kəşf edildi. Yeni qazma qurğularından istifadə nəticəsində Azərbaycan neftinin əsas hissəsini təşkil edən dənizin 80-350 m dərinlikdə yatan zəngin neft ehtiyatlarına malik yataqlar kəşf olundu ("Günəşli", "Çıraq", "Azəri" və s.). Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq Azərbaycanda neft emalı üçün xüsusi proqram həyata keçirilməyə başlandı. Bu dövrdə Dərin Dəniz Özülləri Zavodunun Azərbaycanda (Bakıda) tikilməsi üçün o zaman Sovet İttifaqında 450 milyon ABŞ dollarının ayrılması, bunun üçün Moskvadan belə bir icazənin alınmasına nail olunması (bu zavodun Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu) Heydər Əliyevin təşəbbüsünun nəticəsi idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra keçən əsrin 90-cı illərinin əvvəllərində bir çox problemlə qarşılaşdı. Keçmiş SSRİ respublikaları ilə Azərbaycan arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində

5 Bununla da yekun sazişin imzalanması tarixi müəyyən edilir (21.07.1993) və Ə.Elçibəyin Britaniyaya bu hadisə ilə bağlı səfəri konkretləşdirilir

6 Heydər Əliyevin neft strategiyası: Azərbaycanın müstəqilliyi və rifahı naminə. 2 hissədə, 1-ci-hissə / Azərbaycan Respublikası Prezidentinin Katibliyi/. Bakı: Nurol, 2001

qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın azalması neft-qaz sənayesini böhran vəziyyətinə saldı. Bütün bu çətinliklər, maliyyə, texniki və digər problemlər aşkar edilmiş "Azəri", "Çıraq", "Günəşli" kimi yataqların işlənməsinə imkan vermirdi. Belə vəziyyətdə xalqın tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdan Ümummilli lider Heydər Əliyev "Neft Azərbaycanın milli sərvətidir" devizi ilə çıxış edərək, respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul oldu. Neft sənayesində yaranmış çətin vəziyyətdən çıxmaq və ölkəmizin karbohidrogen ehtiyatlarının mənimsənilməsi üçün ya 15-20 il ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin əlverişli olmasını gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək lazım idi. Heydər Əliyev iri xarici neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi. Xarici sərmayənin ölkəyə cəlb olunması üçün yeni neft strategiyası tez bir vaxtda işlənib hazırlandı. Azərbaycan ilk növbədə yüksək alıcılıq qabiliyyəti olan Aİ ölkələrini özünə hədəf bazar olaraq müəyyən etdi[7]. O dövrdə Azərbaycan Prezidentinin sərəncamı ilə "Azəri"-"Çıraq"-"Günəşli" yataqlarının işlənməsi üçün xarici şirkətlərlə danışıqlara başlanıldı və sonrakı illərdə bu yataqlar üzrə istehsal pik həddinə çatdı[8].

"Azəri"-"Çıraq"-"Günəşli" layihəsi üzrə istehsal (gündəlik 1000 barel)



Mənbə: *Energy Information Admnistration, https://www.eia.gov/beta/international/analysis.cfm?iso=AZE*

7 Rustamov R. The Trans-Adriatic Pipeline and Nabucco West Pipeline Projects: Advantages and Disadvantages for Azerbaijan. Stuttgart: Ibidem, 2014, p.201

8 İqtisadiyyat və neft. /Redaktor N.Süleymanov; Tərtibçi F.Muradov/. Bakı: Nurlan, 2004

Həmin dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev danışıqlar prosesinə cəlb edilməklə yeni neft strategiyasının hazırlanmasının və həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. 1994-cü il sentyabrın 20-də "Azəri"-"Çıraq"-"Günəşli" yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 aparıcı neft şirkəti ilə hasilatın pay bölgüsü (HPB) haqqında saziş – "Əsrin müqaviləsi" imzalandı.

"Azəri" - "Çıraq" - "Günəşli" yataqları aşağıda qeyd olunan bir neçə mərhələdə işlənilib:

1. *İlkin mərhələdə "Çıraq" yatağından 1997-ci ilin noyabrından neft hasil olunur;*
2. *Bundan sonrakı mərhələ: "Faza 1" üzrə "Azəri" layihəsi həyata keçirilməyə başlanılıb. Bu faza ərzində 2005-ci il fevralın 13-dən "Azəri Faza 1" layihəsi üzrə "Mərkəzi Azəri" platformasında hasilata başlanılıb;*
3. *Növbəti mərhələ: "Faza 2" layihəsi üzrə 2006-cı ilin yanvarında "Qərbi Azəri" yatağında və 2006-cı ilin oktyabrında isə "Şərqi Azəri" yatağında hasilata başlanılıb;*
4. *"Faza 3" layihəsi üzrə "Dərinsulu Günəşli" yatağında 2008-ci ilin aprelində hasilata başlanılıb;*
5. *Sonuncu mərhələ 2010-cu ildə sanksiyalaşdırılmış "Çıraq" neft layihəsidir. Bu mərhələ çərçivəsində "Çıraq" və "Dərinsulu Günəşli" platformaları arasında "Qərbi Çıraq" platforması quraşdırılıb. Bu platformada ilk neft 28 yanvar 2014-cü il tarixində hasil olunub*[9].

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 22 ildən artıq müddətdə Ümummilli lider Heydər Əliyevin "Yeni neft strategiyası" çox böyük uğurla reallaşdı. "Yeni neft strategiyası"nın nailiyyətlərinin aşağıdakı istiqamətlərdə reallaşdığını qeyd etmək olar:

1. Azərbaycanın neft-qaz layihələrinə beynəlxalq neft korporasiyalarının, bütövlükdə xarici işgüzar dairələrin, iri investorların cəlb edilməsi hesabına dünyanın enerji daşıyıcıları bazarına sürətlə çıxışın təmin edilməsi. "Əsrin müqaviləsi"nin imzalandığı 1994-cü ildən 2015-ci

9 http://unec.edu.az/application/uploads/2015/05/CelilovaElnure260az.pdf

ilə qədər xarici neft şirkətləri ilə 30-a yaxın saziş imzalanmışdır. Bu sazişlərin nəticəsi olaraq Azərbaycanın neft-qaz sənayesinə təxminən 100 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur. Beləliklə, postsovet respublikaları arasında yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan ilk dəfə olaraq zəngin karbohidrogen ehtiyatlarını regional və dünya bazarlarına açaraq, öz müstəqil enerji siyasətini rəsmən həyata keçirməyə başlayır. Keçən əsrin 90-cı illərində bu, xüsusi önəm kəsb edirdi, cünki müstəqilliyin ilk illərində xarici regional güclərin təsirinə daha çox həssas olan ölkəmiz öz siyasi və iqtisadi maraqlarından çıxış edərək, eyni zamanda bu güclərin maraqlarını nəzərə alaraq müstəqil enerji siyasətini həyata keçirməyə başlamışdır. "Əsrin müqaviləsi"nin iqtisadi baxımdan Azərbaycan üçün faydaları aşağıdakı kimi verilə bilər[10]:

- layihə Azərbaycan neftinin Avropa bazarına daxil ola bilməsi üçün geniş imkanlar yaratdı, digər perspektivli sahələri də inkişaf etdirmək üçün daha əlverişli şərtlər və artıq müəyyən praktiki mexanizmlər müəyyən edildi;

- beynəlxalq investisiya və kredit təşkilatlarının gözündə Azərbaycan strateji layihələrin həyata keçirilməsi baxımından daha cəlbedici ölkəyə çevrildi (məsələn, neft ehtiyatlarının dünya bazarlarına nəqli üçün Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəməri tikildi);

- neft sənayesinə böyükhəcmli investisiyaların yatırılması üçün imkanlar açıldı, ölkə öz valyuta ehtiyatlarını yaratmaqla investisiya siyasətini həyata keçirməyə başladı, dünya iqtisadi birliyinə Azərbaycanın inteqrasiya prosesi sürətləndi, ölkənin texnoloji inkişaf səviyyəsi artdı.

1994-cü ildə Bakıda "Əsrin müqaviləsi" imzalanan ərəfədə Rusiya BMT-də bəyanat yayaraq digər Xəzəryanı ölkələrin dənizin karbohidrogen ehtiyatlarından birtərəfli istifadə etməsinə etirazını bildirmişdi. Lakin Azərbaycan uğurlu manevr edərək, Rusiyanın "LUKoil" şirkətini də sazişlərə cəlb edərək bu ölkənin mümkün təzyiqlərini neytrallaşdırdı. Sonrakı illərdə isə Xəzərin (i) həmsərhəd

10 Керимов М. Каспийская нефть Азербайджана служит региональному сотрудничеству. // "Независимая газета" /01.07.2003/ - http://www.ng.ru/ideas/2003-07-01/11_azerbaijan.html

ölkələr arasında 5 bərabər hissəyə bölünməsi, (ii) orta xətt prinsipi ilə bölünməsi və ya (iii) sahil qisminin bölünməsi ilə digər suların ortaq istifadəsi kimi modellər üzrə hüquqi statusla bağlı danışıqlar intensivləşdi. Azərbaycanın neft-qaz ehtiyatları, digər Xəzəryanı ölkələrdən fərqli olaraq, bütün ölkə boyu səpələnməyib və birmənalı olaraq Bakı ətrafında onşor və ya ofşor yataqları olaraq təmərküzləşib[11].

Azərbaycan xarici siyasətində və enerji diplomatiyasında ABŞ ilə Rusiya arasında manevr etmişdir. ABŞ-ın regional məsələlərə birbaşa cəlb edilməməsi enerji məsələlərində də Rusiyanı tədricən söz sahibinə çevirmişdir. Halbuki ABŞ fərqli administrasiyalar dönəmində (xüsusən B.Klinton və C.Buş dövründə) Azərbaycanı regionun ən mühüm strateji mövqeyə malik ölkəsi kimi vurğulamışdır.

2. Azərbaycan neftinin dünya bazarına sərbəst və sürətli çıxışını təmin etmək üçün ixrac boru kəmərləri sisteminin yaradılması. Hasil edilən Azərbaycan nefti dünya bazarlarına bir neçə marşrut üzrə çıxır: Rusiyanın Qara dəniz sahilindəki Novorossiysk limanı, Gürcüstanın Supsa limanı və Türkiyənin Ceyhan limanı. İlk iki kəmərin həm müsbət, həm də mənfi cəhətlərinin olmasına baxmayaraq, Ümummilli lider Heydər Əliyev düzgün qərar qəbul edərək hər iki neft kəmərinin çəkilməsini lazım bildi. İlkin neft layihəsinin həyata keçirilməsi və onun dünya bazarına ixracı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarındakı işlərin intensivləşməsinə və Azərbaycanın karbohidrogen resurslarının işlənməsinə yeni investisiyaların cəlb edilməsi üçün şərait yaratdı. Lakin bu kəmərlər uzunmüddətli dövrdə yetərli deyildi. Ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan öz neftini nəql etmək üçün cəmi bir marşruta – Şimal marşrutuna malik idi. Azərbaycan nefti əsasən uzunluğu 1.330 kilometr olan Bakı–Novorossiysk neft kəməri ilə Qara dənizin Novorossiysk limanına nəql olunurdu. Tərəflər Rusiya ərazisindən Azərbaycan neftinin nəqlinin hüquqi-texniki məsələlərini də razılaşdırdılar. Müqavilənin ilkin şərtlərinə uyğun olaraq 1997-ci il oktyabrın 25-dən Azərbaycan nefti Şimal boru kəməri ilə dünya bazarına çıxarılmağa başlandı.

11 Phillippe Le Billon, ed. Geopolitics of Resource Wars: Resource Dependence, Governance and Violence. London: Frank Cass, 2005, p.168

Azərbaycan neft nəqlində alternativ marşrutların mövcudluğuna nail olmaq üçün milli mənafeyə cavab verən siyasət yürütmüşdür. Bütün siyasi risklərə baxmayaraq, 1996-cı il martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze Tbilisidə Bakı–Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. "Əsrin müqaviləsi"ndə iştirak edən şirkətlərin qurduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış üçtərəfli müqavilə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından hasil edilən ilkin Azərbaycan neftinin Bakı–Supsa neft kəməri vasitəsilə nəqlini nəzərdə tuturdu. Bakı–Supsa neft kəməri ilə ilkin Azərbaycan nefti 1999-cu ildə ixrac olunmağa başlandı. Bu marşrutun ən böyük üstünlüyü ondadır ki, Azərbaycan nefti təmiz halda "Azəri light" markası ilə dünya bazarına çıxarılır. Bununla yanaşı, kəmərin digər üstünlüyü neftin Novorossiyskə nisbətən Supsaya daha ucuz nəql olunmasıdır. Belə ki, neftin bir tonunun Novorossiyskə nəqli 15.67, Supsaya nəqli isə 13.14 ABŞ dollarına başa gəlir. Bakı–Supsa kəmərinin işə düşməsi Cənub Enerji Dəhlizinin əsasını qoymuş və Azərbaycan öz müstəqilliyi tarixində ilk dəfə olaraq neft nəqlində alternativ marşruta malik olmuşdur.

"Əsrin müqaviləsi" çərçivəsində hasil olunan neft (gündə 1 milyon barelə yaxın) Bakı–Tbilisi–Ceyhan kəməri ilə dünya bazarlarına nəql olunmaqdadır[12]. 1999-cu ilin noyabrında ATƏT-in Türkiyənin İstanbul şəhərində keçirilmiş sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəmərinin çəkilməsi haqqında dövlətlərarası müqavilə imzalandı[13]. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməli qoyuldu və tikintisinə başlanıldı. Sonralar bu kəmər nəinki Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan verdi, həmçinin İpək Yolunun və türkdilli ölkələrin də əsas magistral kəməri oldu. Lakin BTC-də iştirak edən konsorsium üzvləri Rusiyanın strateji

12 Enerji resurslarının nəqli strategiyası. - http://www.azerbaijans.com/content_1030_az.html

13 Azərbaycan Respublikasının müasir enerji siyasətinin uğurları. /11.06.2014/ - http://azertag.az/xeber/Azerbaycan_Respublikasinin_muasir_enerji_siyasetinin_ugurlari-70164

maraqlarına da tamamilə laqeyd qalmadılar, xüsusilə Türkmənistan qazının ixracı məsələsində ehtiyatlı davrandılar[14].

3. Azərbaycanın milli sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsillər üçün toplanılaraq artırılması, bu gəlirlərdən ölkəmizin cari sosial ehtiyacları, iqtisadi inkişaf tələbləri nəzərə alınmaqla bugünkü nəsillər üçün istifadə edilməsi. Bu məqsədlə 1999-cu il dekabrın 29-da Ümummilli lider Heydər Əliyev "Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaradılması haqqında" fərman imzaladı. Fəaliyyətə başlayandan indiyə qədər Dövlət Neft Fonduna 70 milyard ABŞ dollarına yaxın vəsait daxil olmuşdur.

4. "Neft strategiyası"nın həyata keçirilməsinin əsas uğurlarından biri də Qərbin qabaqcıl neft-qaz çıxarma və nəql texnologiyasının Azərbaycana gətirilməsidir. Xüsusilə tikintidə və yataqların işlənilməsində, qazmada və istismarda tətbiq olunan yeni texnika, texnologiya və avadanlıqlar neft sənayesinə pozitiv təsir göstərdi. Azərbaycanda ilk dəfə olaraq "Mərkəzi Azəri" yatağında 48 quyunun qazılmasına imkan verən dərin dəniz özülü tikildi. Onu da qeyd edək ki, hazırda dünya miqyasında texniki baxımdan ən iri terminallardan biri də Səngəçal terminalıdır.

Ölkədə hasil edilən neftin həcmi də 2000-ci illərə doğru ildən-ilə artırdı. Belə ki, 1996-1998-ci illərdə neftin istehsal həcmi sabit səviyyədə qalaraq 9,1 milyon ton təşkil edirdisə, 2001-ci ildə bu həcm 14,9 milyon tona, 2002-ci ildə isə 15,3 milyon tona çatdı. Azərbaycan malik olduğu neft potensialı hesabına neftin hasilatını 2015-ci il üçün 41 milyon tona çatdırdı. Aşağıdakı qrafikdən göründüyü kimi, Azərbaycanda neft hasilatı 2010-cu ildə illik 50 milyon tona çatmaqla tarixi rekord vurdu, qaz hasilatı isə ildən-ilə durmadan artaraq 30 milyard kubmetrə yaxınlaşır. "Əsrin müqaviləsi"nin icrası dövründə hasilatdan ümumi gəlir 100 milyard ABŞ dollarına çatdı[15].

14 Старченков Г. Каспийская нефть в региональной экономике и мировой политике. // "Центральная Азия и Кавказ", № 1 (43), 2006, с.7-8

15 (i) Məmmədbəyova S. Yeni neft strategiyası Azərbaycanın iqtisadi kursunun mühüm tərkib hissəsidir./04.09.2012/ - http://www.xalqqazeti.com/az/news/economy/25400 (ii) Heydər Əliyevin neft strategiyasının ümumi konsepsiyası // azerbaijan.az/portal/Economy/OilStrategy/oilStrategy_a.html?oilStrategy_03



Mənbə: *Dövlət Statistika Komitəsi*

Azərbaycanda neft-qaz hasilatı və nəqli məsələləri

Azərbaycan Xəzər hövzəsinin neft və qaz hasil edən ən mühüm ölkələrindən biridir. 2015-ci il ərzində respublikada 40.7 milyon ton proqnoza qarşı 41.469 milyon ton neft hasil edilmişdir. Bu həcmdə neftin 31.04 milyon tonu "Azəri"-"Çıraq"-"Günəşli"nin (AÇG), 2.265 milyon tonu "Şahdəniz"in (kondensat), 8.164 milyon tonu ARDNŞ-nin payına düşür. 2015-ci il ərzində Azərbaycanda 28.92 milyard kubmetr qaz hasil edilmişdir. Bu həcmdə qazın 6.881 milyard kubmetri ARDNŞ-nin, 12.186 milyard kubmetri AÇG-nin, 9.855 milyard kubmetri "Şahdəniz"in payına düşür. 2015-ci il ərzində ölkədən 35.3 milyon ton neft ixrac edilmişdir. Azərbaycandan ixrac olunan xam neftin təqribən 84%-i Bakı–Tbilisi–Ceyhan kəməri ilə nəql edilir ki, bu da Türkiyə və Gürcüstanın Azərbaycan üçün strateji önəmini daha da artırır. Hasil olunan neft və qaz aşağıdakı istiqamətlərdə nəql edilmişdir:

İstiqamətlər	Təşkilatlar	Həcm (mln.ton neft)		2014-cü illə müqayisədə
		2015	*2014*	+,-
Bakı–Novorossiysk ("Şimal") kəməri ilə	Konsorsium	0,0	0,0	0,0
	ARDNŞ	1187,0	1018,0	169,0
Bakı–Supsa ("Qərb") kəməri ilə	Konsorsium	4226,0	4240,0	-14,0
	ARDNŞ	0,0	0,0	0,0
BTC kəməri ilə	Konsorsium	29020,0	28524,0	496,0
	ARDNŞ	472,3	530,0	-57,7
Dəmir yolu ilə	Konsorsium	292,0	711,0	-419,0
	ARDNŞ	0,0	0,0	0,0
NIOC İran İR-ə	Konsorsium	109,0	229,3	-120,3
Cəmi:		**35306,3**	**35252,3**	**54,0**
İstiqamətlər	**Ölkələr**	**Həcm (milyon kub-metr təbii qaz)**		**2014-cü illə müqayisədə**
		2015	***2014***	**+,-**
Bakı–Tbilisi–Ərzurum	Türkiyə	5904,0	5856,4	47,6
	Gürcüstan	721,0	684,6	36,4
Qazıməmməd–Qazax	Gürcüstan	1358,0	1211,9	146,1
Qazıməmməd – Şirvanovka	Rusiya	0,0	206,8	-206,8

Mənbə: *2015-ci il ərzində yanacaq-energetika kompleksində görülmüş işlər barədə Energetika Nazirliyinin hesabatı (səh.1-4), http://www.minenergy.gov.az/db/Hesabat/Illik_Hesabat_2015_1.pdf*

Bakı–Tbilisi–Ərzurum marşrutu üzrə "Şahdəniz" qazının nəql olunduğu Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə bərabər, ARDNŞ-nin hasil etdiyi qazın da müəyyən həcmi magistral kəmərlər vasitəsilə üç

istiqamətdə ixrac olunur. Bu magistral qaz kəmərləri Rusiya, Gürcüstan və İranın qaz-nəql sistemləri ilə əlaqələndirilmişdir. Azərbaycan bu gün Gürcüstan, Türkiyə və İrana qaz ixrac edir. Regionun enerji təminatında və təhlükəsizliyində əsas rol oynayır. İnkişaf etmiş bir sıra Avropa ölkələri geosiyasi və geoiqtisadi riskləri azaltmaq üçün öz enerji təhlükəsizliklərini təmin etmək yolunda xüsusən neft və qaza olan ehtiyaclarını diversifikasiya olunmuş yollarla təmin etmək və "enerji müstəqilliyi"nə nail olmaq üçün çalışırlar. "Neft müstəqilliyi" deyilən bu məfhum bir sıra göstəricilər əsasında qiymətləndirilə bilər:

a) *Neft-qaz idxalının ümumi neft-qaz istehlakına nisbəti;*
b) *Neft-qaz ehtiyatlarının neft-qaz idxalını neçə gün ərzində qarşılaya bilməsi;*
c) *Neft-qaz ehtiyatlarının neft-qaz istehlakını neçə gün ərzində qarşılaya bilməsi;*
d) *Neft və qazın ayrılıqda ümumi enerji istehlakında xüsusi çəkisi.*

Azərbaycan neft və qazın tam idxalçısı olan bir sıra Cənub-Şərqi və Cənubi Avropa ölkələrinin "enerji müstəqillikləri"nin möhkəmlənməsində öz enerji ixracı ilə müəyyən rol oynamış və bundan sonra həm də özünün tranizit potensialı ilə daha çox rol oynayacaq[16].

Neft-qaz kəmərləri və onların ötürücülük gücü

Prezident İlham Əliyev tərəfindən ortaya qoyulan iradə nəticəsində "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması ilə 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" və onun əsasında reallaşan Bakı–Tbilisi–Ceyhan layihəsinin uğuruna yenisi əlavə olunacaq. Azərbaycan qazı üçün Cənub Qaz Dəhlizinin açılması Aİ-nin qaz təhlükəsizliyi ilə bağlı ən strateji qərarları arasındadır. Azərbaycanın enerji təchizatçısı kimi əhəmiyyəti artır və eyni zamanda artan gəlirləri bir çox maraqlı xarici dairələri lobbiçilik üçün təşviq edir. Azərbaycanın enerji siyasəti bu sahədə Avropa miqyasında artan təsiri baxımından daha çox uğurlu görünür[17]. "Şahdəniz-2" və ya Yatağın Tammiqyaslı İşlənməsi (YTİ) Azərbaycan mənşəli qazın Türkiyə ərazisindən keçməklə Avropa bazarlarını qazla

16 James G. Speight. An Introduction to Petroleum Technology, Economics, and Politics. Wiley, 2011, p.267
17 Tina Flegel. "Foreign Actors' Influence on Azerbaijan's Energy Policy: Decisions under Complex Uncertainty". Springer Fachmedien Wiesbaden, 2016, p.15

təchiz edəcək və enerji təhlükəsizliyini artıracaq. Aİ Cənubi Avropa ölkələrindəki yerli əhəmiyyətli qaz kəmərlərinin Aİ-nin digər ölkələrinin enerji sistemləri ilə birləşdirilməsi məqsədilə Cənubi Avropadakı boru kəmərlərinin tikintisini aktivləşdirmək niyyətindədir. "Şahdəniz Mərhələ 2" layihəsi üzrə ilk qazın 2018-ci ildə əldə edilməsi plana uyğun gedir. Strateji əhəmiyyətə malik layihə kimi 2016-cı il martın 17-də Türkiyənin Qars şəhərində Transanadolu Boru Kəmərinin (TANAP) təməli qoyuldu. Azərbaycan və Türkiyə hökumətləri arasında imzalanmış sazişlərlə TANAP-ın növbəti mərhələləri başlamış oldu. 9 milyard dollara başa gələcəyi təxmin edilən bu kəmər hər il Türkiyə və Gürcüstan vasitəsilə Azərbaycandan Avropaya 16 milyard kubmetr qaz nəql edəcək[18]. TANAP vasitəsilə "Cənub Qaz Dəhlizi"ndən Avropaya çatan qazın həcmi ilkin "Nabukko" layihəsi ilə müqayisədə nisbətən az olsa da, Azərbaycan qazının layihə üzrə planlaşdırılması 2013-cü ildə başlamışdır. 2018-ci ildə qaz nəqlinin başlaması gözlənilir. Bu dəhliz Xəzər dənizindən hasil edilən qazın Azərbaycanın müstəqil enerji siyasətinə uyğun olaraq Moskva və ya Tehranın nəzarətindən kənar, Avropa bazarlarına birbaşa çıxışını təmin edəcək. Azərbaycan üçün TANAP infrastruktur üzərində mülkiyyəti saxlamaqla yeni müştərilərə birbaşa çıxış və yeni gəlir axınları əldə etməyə imkan verən layihə olduğu üçün ona sanksiya verildi. Azərbaycan layihə üzərində əhəmiyyətli nəzarət imkanlarına malikdir, amma bu kimi regional layihələr hər zaman Rusiya tərəfindən güclü reaksiyalara məruz qalır. 5 il ərzində reallaşması nəzərdə tutulan bu layihə bir neçə mərhələdə həyata keçiriləcək və qazın nəqlinin ilkin mərhələsi 2018-ci ildə başlayacaq. 2020-ci ildə TANAP kəməri ilə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə–Bolqarıstan və Türkiyə–Yunanıstan sərhədində təhvil veriləcək.

Cənub Qaz Dəhlizi yeni, əhəmiyyətli və strateji təchizat marşrutuna çevriləcək və nəinki Azərbaycandan, həmçinin digər müxtəlif

18 Michael J. G. Cain, Rovshan Ibrahimov, Fevzi Bilgin. Linking the Caspian to Europe: Repercussions of the Trans-Anatolian Pipeline. // Rethink Paper 06 October 2012, p.1

mənbələrdən, o cümlədən Mərkəzi Asiya, İraq, İsrail və s. region və ölkələrdən qazın nəqlini asanlaşdıracaq və maliyyə baxımından əlverişli edəcək. 2008-2009-cu illərdə baş vermiş maliyyə böhranı zamanı Aİ-nin qaz tələbatı pik həddə çatmışdı. Bəzi beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxaq Enerji Agentliyinin o zamankı proqnozlarına əsasən, bu trend yalnız yuxarıya doğru inkişaf edəcək. Yaranmış vəziyyət Azərbaycanı öz enerji təhlükəsizliyindən və fasiləsiz qaz təchizatından narahat olan Avropa üçün nəinki enerji təchizatçısı ölkəsi kimi, həmçinin siyasi tərəfdaş kimi də olduqca əhəmiyyətli edir. Avropanın şərq sərhədində, Ukraynada baş vermiş hərbi münaqişə Aİ-nin qazın fasiləsiz təchizatına və enerjidaşıyıcıların qiymətinə dair narahatlığını daha da artırdı. Bu səbəbdən Aİ yeni mənbələrdən əlavə qaz ehtiyatları nəql etmək layihələrini təşviq edir[19]. Potensial qaz ixracatçısı ölkələrinin, xüsusilə də Azərbaycanın Aİ üçün gərəkliyini nəzərə alaraq, iqtisadi və siyasi əlaqələrin möhkəmləndirilməsinə çalışılır. Qaz hasil edən ölkə olaraq Azərbaycan üçün yeni bazarlara giriş, xüsusən də şəffaf və azad Avropa qaz bazarına və yeni ixrac marşrutlarının yaradılması və genişləndirilməsi enerji strategiyasında prioritet məsələdir və belə olmaqda davam edir.

Daxil olduğu enerji bazarlarında infrastruktura nəzarət siyasətinə uyğun olaraq, ARDNŞ-nin Yunanıstanın təbii qaz nəqli sisteminin operatoru olan "Desfa" şirkətinin səhmlərinin 66%-nə sahib ola bilməsi istiqamətində müəyyən işlər görülmüşdür. "Desfa" Yunanıstanda təbii qazın nəqlini və saxlanılmasını, eləcə də ölkənin qaz-nəql sisteminin inşasını, təminatını və istismarını həyata keçirir, bütün bölgələri təbii qazla təchiz edir. Bu da TAP layihəsi çərçivəsində təbii qazın digər Avropa ölkələrinə nəql edilməsi üçün əlverişli şərait yaradacaqdır. Bundan əlavə, "Desfa" şirkətinə nəzarət ARDNŞ-yə həmçinin cənub giriş qapısı hesab olunan Yunanıstan ərazisindən Avropaya digər mənbələrdən nəql oluna biləcək qaz həcmlərinə də nəzarət etməyə imkan yaradacaq. Bu infrasrukturun digər strateji əhəmiyyəti ondan ibarətdir ki, ölkənin

19 COMMISSION STAFF WORKING DOCUMENT. In depth study of European Energy Security, Accompanying the document Communication from the Commission to the Council and the European Parliament: European energy security strategy; {COM(2014) 330 final}; Brussels, 2.7.2014, SWD (2014) 330 final/3

cənubunda yerləşən, şirkətə məxsus olan "Revitusa" maye qazın yenidən qazlaşdırma terminalı vasitəsilə ARDNŞ-nin törəmə şirkəti olan "SOCAR Trading" maye qazı bu terminal vasitəsilə Cənub-Şərqi Avropa bazarlarına ixrac edə bilər və bu da şirkətə əlavə biznes və gəlir əldə etmək üçün imkanlar yaradar.

Azərbaycanın neft-qaz kəmərləri sistemi

Kəmər	Marşrut	Fəaliyyətə başlama ili	Ötürücülük gücü və uzunluğu	Operator
Neft kəmərləri				
Bakı–Novorossiysk	Bakı–Xasavyurt–Qroznı–Tixoretsk–Novorossiysk	1997	7 milyon ton (1330 km)	Transneft
Bakı–Supsa	Bakı–Ağstafa–Tbilisi–Supsa	1999	6 milyon ton (833 km)	ABƏŞ
Bakı–Tbilisi – Ceyhan	Bakı–Tbilisi–Ərzurum–Ərzincan–Ceyhan	2006	50 milyon ton (1768 km)	ABƏŞ
Qaz kəmərləri				
Mozdok–Mahaçqala–Qazıməmməd	Bakı–Novo Filya–Mahaçqala	1983	13 milyard kubmetr	ARDNŞ, Qazprom
Bakı–Tbilisi–Ərzurum	Bakı–Tbilisi–Ərzurum	2006	6 milyard kubmetr (980 km)	Cənubi Qafqaz Boru Kəməri Ko.

Mənbə: *Andreas Heinrich, Heiko Pleines. "Export pipelines from the CIS region". Changing Europe Volume 10, Stuttgart, 2014, pp.66-68*

Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Neft Boru Kəmərinin son nöqtəsi olan Ceyhanda çənlərin sayı 7-dir və gəmiyükləmə qabiliyyəti 600.000

bareldən 2 milyon barelə qədərdir[20]. Bakı–Tbilisi–Ərzurum qaz boru kəmərinə ilk ixrac olunan qaz 2007-ci ilin martında vurulub[21]. Bakı–Supsa kəmərinin gəmiyükləmə qabiliyyəti 600.000 bareldən 1 milyon barelə qədərdir[22]. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş ("Əsrin müqaviləsi"), yuxarıda qeyd edildiyi kimi, 1994-cü il sentyabrın 20-də imzalanmış, həmin ilin 12 dekabr 1994-cü il tarixində qüvvəyə minmişdir. Müqavilənin imzalanma mərasimində dünyanın 6 ölkəsini təmsil edən 11 aparıcı neft şirkəti iştirak etmişdir. Hazırda layihə üzrə iştirakçıların payı aşağıdakı kimidir:

- *Azerbaijan ACG Limited – 11,646 %*
- *BP Exploration (Caspian Sea) Limited – 35,7828%*
- *Statoil Absheron – 8,5633%*
- *INPEX Southwest Caspian Sea Ltd – 10,9644%*
- *Türkiyə Petrolleri A.O. (TPAO) – 6,75%*
- *Ekson Azərbaycan Limited – Ekson* Mobil *– 8,0006%*
- *ITOCHU Oil Exploration (Azerbaijan) Limited – 4,2986%*
- *Chevron TExaco – 11,2729%*
- *Amerada Hess – 2,7213%.*

Sazişin qüvvədəolma müddəti 30 ildir. Saziş üzrə işləri yerinə yetirmək üçün 1995-ci il fevralın 12-də Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır. 1995-ci ilin oktyabrında ilkin neft layihəsinə sanksiya verilmiş və bu sazişin imzalanması Azərbaycan neft sənayesinin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Sazişin əhatə etdiyi sahə təxminən 432,4 km^2-dir və Bakıdan şərqə doğru 110-130 km məsafədə, dənizin dərinliyi təxminən 160-420 m olan hissəsində yerləşir. "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair

20 http://socar.az/socar/az/activities/transportation/baku-tbilisi-ceyhan-btc-main-export-oil-pipeline
21 http://socar.az/socar/az/activities/transportation/baku-tbilisi-erzurum-gas-pipeline
22 http://socar.az/socar/az/activities/transportation/baku-supsa-western-export-pipeline

Saziş"[23] 4 iyun 1996-cı il tarixində imzalanmış, həmin ilin oktyabr ayının 17-də qüvvəyə minmişdir. Saziş iştirakçılarının pay bölgüsü aşağıdakı kimidir:

- *Statoil (Norveç) – 26%*
- *BP (Böyük Britaniya) – 25%*
- *ARDNŞ – 10%*
- *LUKAcip (Rusiya–İtaliya) – 10%*
- *NICO (İran) – 10%*
- *Total (Fransa) – 10%*
- *TPAO (Türkiyə) – 9%.*

Cənub Qaz Dəhlizi və ölkənin tranzit potensialı

CQBK Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz yatağından hasil edilən qazı Gürcüstana və Türkiyəyə nəql etmək üçün inşa ediləcək qaz kəməridir. Bu kəmər BTC Neft İxrac Boru Kəməri ilə birlikdə və eyni tikinti dəhlizində inşa olunmuşdur. Bütövlüklə boru kəmərinin istismar əməliyyatlarına və tikintisinə Cənubi Qafqaz Boru Kəməri Şirkəti (CQBK Ko.) cavabdehdir. CQBK-nın iki operatoru var: BP şirkəti CQBK obyektlərinin tikintisi və istismarı üzrə məsul texniki, "SOCAR Midstrim Opereyşn Limited" şirkəti isə CQBK-nın biznesin icrası üzrə məsul kommersiya operatorudur. 2016-cı ilin birinci rübündə CQBK ilə bağlı fəaliyyətlərə təqribən 6 milyon dollar əməliyyat xərcləri və 236 milyon dollar əsaslı xərclər sərf edilmişdir. 2016-cı ilin birinci rübü ərzində CQBK-nın gündəlik orta ötürücülük gücü 21,6 milyon kubmetr qaz olmuşdur[24]. CQBK-nın genişləndirilməsi "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi layihəsinin bir hissəsidir və kəmər vasitəsilə ixrac olunan qaz həcminin üç dəfə artaraq ildə 20 milyard kubmetrə çatması ilə nəticələnəcək. Gürcüstan və Türkiyə sərhədində kəmər başqa bir kəmərlə – TANAP-la birləşərək qazı Türkiyəyə və Avropaya çatdıracaq.

23 Hüquqi sazişlər. - http://www.bp.com/az_az/caspian/aboutus/legalagreements.html

24 Cənub Qaz Dəhlizi. - http://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz/SouthernGasCorridor.html

CQBK-nın genişləndirilməsi layihəsi ilə bağlı Yekun İnvestisiya Qərarı "Şahdəniz Mərhələ 2" ilə eyni vaxtda, 17 dekabr 2013-cü il tarixində verilmiş və 2015-ci ildə CQBK üzrə işlər Azərbaycan və Gürcüstanda boru kəməri marşrutu boyu davam etmişdir[25].

"Şahdəniz Mərhələ 1". "Şahdəniz" qaz yatağı "Prudo Bey" neft yatağından sonra BP-nin hələ də ən böyük kəşfi hesab olunur. "Şahdəniz" yatağı 1999-cu ildə kəşf edilmişdir. Kollektorda 1 trilyon kubmetr qaz ehtiyatı ilə bu yataq dünyanın ən böyük qaz-kondensat yataqlarından biridir. O, Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50-500 m arasında dəyişdiyi Xəzər dənizinin şelfində yerləşir. "Şahdəniz" yatağının özünü "Şahdəniz" üzrə HPB sazişi tərəfdaşları adından BP şirkəti işlədir. "Şahdəniz Mərhələ 1" üzrə əməliyyatlara 2006-cı ildə başlanılmışdır (yatağın yerləşməsi aşağıda göstərilib).

Azərbaycanın əsas neft-qaz infrastrukturu

Mənbə: *https://www.eia.gov/beta/international/analysis.cfm?iso=AZE*

25 http://www.bp.com/az_az/caspian/operationsprojects/pipelines/SCP.html

"Mərhələ 1" üzrə maksimum hasilat ildə təxminən 10 milyard kubmetr qaz (mlrd.km/il)[26] və gündə 50 min barel kondensat təşkil edir. 2016-cı ilin birinci rübündə "Şahdəniz" yatağında Azərbaycan (SOCAR), Gürcüstan (GOGC şirkəti) və Türkiyə (BOTAŞ şirkəti) bazarlarına etibarlı şəkildə qaz çatdırılması üçün hasilat davam etdirilmişdir. "Şahdəniz" qurğularının hasilat gücü hazırda gündə 29,5 milyon standart kubmetr və ya ildə təqribən 10,8 milyard kubmetrdir. "Şahdəniz Mərhələ 2" çərçivəsində hasil edilən qaz 3500 km məsafə qət edərək Xəzər dənizindən Avropaya nəql ediləcək. Bunun üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni boru kəmərləri zəncirinin inşa edilməsi tələb olunur: (i) mövcud Cənubi Qafqaz Boru Kəməri Azərbaycan və Gürcüstan ərazisi boyunca yeni paralel boru kəməri vasitəsilə genişləndiriləcək; (ii) Transanadolu Boru Kəməri "Şahdəniz" qazını Türkiyə ərazisi boyunca nəql edəcək; (iii) Transadriatik Boru Kəməri qazı Yunanıstan və Albaniya ərazisindən keçməklə İtaliyaya nəql edəcək. Bu layihələr birlikdə "Cənub Qaz Dəhlizi" kimi tanınır. Cənub Qaz Dəhlizi ilk dəfə olaraq Xəzər regionundakı qaz təchizatını Avropa bazarlarına birləşdirməklə bütün regionun enerji xəritəsini dəyişəcək. Cənub Qaz Dəhlizi boru kəməri sistemi elə layihələndirilmişdir ki, gələcəkdə mümkün əlavə qaz həcmlərinin təchiz edilə bilməsi üçün onun ötürücülük gücü öz ilkin ötürücülük gücünün iki misli qədər artırıla bilər[27][28].

Bu kəmərlər və yataqlar sistemi ixracatçı və tranzit ölkələr sistemi arasındakı münasibətlər baxımından da bir nümunədir. İxracatçı dövlətlər tranzit ölkələrin biri ilə mübahisə halında manevr edə bilmək üçün diversifikasiyaya ehtiyac duyurlar, amma dünya bazarlarına enerji resurslarının axını da təmin edilməli və bundan təsirlənməməlidir. Davamlı ixracatı təmin edən tərəfdaş ölkələrin seçilməsi mühüm bir məsələ kimi istənilən iki ölkə arasında münasibətlərin cari və uzunmüddətli perspektivlərini qiymətləndirməyə də imkan verir.

26 Azerbaijan Oil & Gas Report. BMI Research, 2013. - http://www.bmiresearch.com/azerbaijan-oil-gas-report.html

27 http://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz/SDstage1.html

28 Rzayeva G. "Outlook for Azerbaijan Gas Export to Europe", Oxford İnstitute for Energy Studies (OİES). - https://www.oxfordenergy.org/wpcms/wp-content/uploads/2015/06/NG-97.pdf

İdxalçı və ixracatçı ölkələr enerji potensialının təmini və ehtiyacların ödənilməsi baxımından qarşılıqlı faydalı siyasi və iqtisadi münasibətlər qurmaqla, qarşılıqlı əməkdaşlığı təmin edən qonşu tranzit ölkələr vasitəsilə enerji resurslarının sabit daşınması üçün zəmanət hazırlaya bilərlər.

Texnoloji inkişaf, infrastruktur, neftin nəql edilməsi, satışı və maliyyələşdirilməsi

"Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2014-cü il tarixli 287 saylı sərəncamının icrasına uyğun olaraq "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Transanadolu Boru Kəməri və Transadriatik Boru Kəməri layihələrinin idarə edilməsini təmin etmək məqsədilə ARDNŞ tərəfindən nizamnamə kapitalı 100 milyon ABŞ dolları məbləğində və səhmlərinin 51 faizi dövlət mülkiyyətində, 49 faizi Dövlət Neft Şirkətinə məxsus olan "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti təsis edilmişdir. Dövlət Neft Fondu tərəfindən qurumun nizamnamə kapitalının artırılması üçün ümumilikdə 887,8 milyon ABŞ dolları (51%), o cümlədən 2016-cı ilin 1-ci yarımilliyi ərzində 150,9 milyon ABŞ dolları həcmində vəsait ayrılmışdır[29].

"Şahdəniz Mərhələ 2" layihəsi 25 mlrd. dollar həcmində dəyərləndirilir. "Şahdəniz 2" sazişi Avropaya dördüncü böyük təbii qaz dəhlizinin açılması deməkdir və mühüm strateji əhəmiyyət kəsb edir. Bu həm də o deməkdir ki, Cənub Qaz Dəhlizi kəməri Xəzər qazını Avropaya daşıyacaq. "Şahdəniz Mərhələ 2" və Cənub Qaz Dəhlizi boru kəmərləri yalnız enerji xəritəsini dəyişməyəcək, həm də Avropadakı qaz alıcılarına ilk dəfə olaraq Azərbaycanın qaz ehtiyatlarına birbaşa çıxış imkanı verəcək. "Şahdəniz" qazının ildə təxminən 10 milyard kubmetrinin

29 "Cənub Qaz Dəhlizi" QSC-nin nizamnamə kapitalında dövlətin iştirak payının maliyyələşdirilməsi. - http://www.oilfund.az/az_AZ/layiheler/tanap-project.asp

25 il ərzində İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara nəql ediləcəyi gözlənilir. Bundan başqa, "Şahdəniz Mərhələ 2"-dən hasil olunacaq qazın ildə təxminən 6 milyard kubmetri Türkiyədə istifadə ediləcək[30].

Mənbə: *http://www.tanap.com/tanap-projesi/tanap-nedir/*

Qeyd edək ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və bu ölkədən Avropaya nəql ediləcək TANAP-ın uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1.850 kilometr olacaq. Boru kəməri Türkiyənin Gürcüstanla sərhədindəki Ərdəhan vilayətinin Posof mahalından başlayaraq 21 vilayətdən keçməklə qardaş ölkənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanacaq. TANAP-ın 2018-ci ildə istismara verilməsi planlaşdırılır. Boru kəmərinin ötürücülük qabiliyyətinin gələcəkdə illik 24 milyard kubmetrə, daha sonra isə 31 milyard kubmetrə çatdırılması planlaşdırılır. TANAP Cənubi Qafqaz Boru Kəmərindən alacağı təbii qazı 2020-ci ilin əvvəlindən etibarən Transadriatik Boru Kəmərinə qoşularaq Yunanıstan, Albaniya və İtaliyadan keçməklə Avropaya çatdıracaq. TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC – 58%, "BOTAŞ" – 30% və BP şirkəti – 12%[31].

30 География нефтяной промышленности Азербайджана. /25.07.2011/ - http://neftegaz.ru/analisis/view/7610-Geografiya-neftyanoy-promyshlennosti-Azerbaydzhana

31 TANAP layihəsi üzrə buvaxtadək 2,5 milyard dollardan çox qənaət edilib. /04.05.2016/ - http://azertag.az/xeber/TANAP_layihesi_uzre_bu_vaxtadek_25_milyard_dollardan_chox_qenaet_edilib-948561

Cənub Qaz Dəhlizinin sonuncu halqası və Avropa hissəsi isə TAP qaz boru kəməridir. TAP layihəsi CQBK-nın və TANAP-ın davamı olub, "Şahdəniz-2" yatağından hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. Bu layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi Avropa ölkələrinin bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması planlaşdırılır. TAP-ın səhmdarlarının faiz bölgüsü belədir:

- *BP (20%)*
- *SOCAR (20%)*
- *"Snam S.p.A." (20%)*
- *"Fluxys" (19%)*
- *"Enagás" (16%)*
- *"Axpo" (5%).*

TAP boru kəmərinin uzunluğu 871 km (Yunanıstan – 547 km, Albaniya – 211 km, Adriatik dənizi – 105 km, İtaliya – 8 km), diametri isə 48 düymdür (sualtı hissə – 36 düym). 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir. Layihənin icrası Azərbaycanın karbohidrogen resurslarının satışından və nəqlindən təxminən 30-50 milyard dollar gəlir əldə etməsinə imkan verəcək.

Neft-qaz amili və xarici siyasət

Azərbaycan bütün regional məsələlərdə əsas iştirakçı ölkədir. Dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz". Azərbaycanın neft sektorunun inkişafı artıq ölkəmizin iqtisadi yüksəlişinə töhfə vermiş, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaratmışdır. Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan neft kəmərləri və Cənubi Qafqaz Qaz Boru Kəməri kimi regional infrastruktur layihələri regionun əhəmiyyətini artırmışdır. Avropa üçün yeni və həyati əhəmiyyətli enerji mənbələrinin əsası qoyulmuşdur. Yalnız enerji istehsalçısı və ixracatçısı kimi Azərbaycanın regionun əsas iştirakçısı və beynəlxalq arenada,

xüsusən də Avropa istehlakçıları üçün əhəmiyyətli aktor olaraq imkanları getdikcə artmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyev bu barədə aşağıdakı fikri qeyd etmişdir: "Cənub Qaz Dəhlizi" iqtisadi layihədir, eyni zamanda təhlükəsizlik layihəsidir. Çünki bu gün dünyada enerji təhlükəsizliyi məsələləri ön plana çıxır. Hər kəs artıq başa düşür ki, enerji təhlükəsizliyi olmadan ölkələrin milli təhlükəsizliyi haqqında danışmaq mümkün deyil. O ölkələr ki enerji resursları ilə zəngin deyillər, əlbəttə, onlar digər resurslardan asılıdır. Bizim vəzifəmiz həmişə ondan ibarət olub ki, əməkdaşlığı dərinləşdirmək üçün enerji amilindən istifadə edək. İstehsalçı ölkənin – Azərbaycanın maraqları, tranzit ölkələrin maraqları və istehlakçı ölkələrin maraqları bu layihə çərçivəsində təmin edilir"[32].

Xəzər regionunun neft hasil edən əsas ölkələri Qazaxıstan və Azərbaycandır. Regionda təbii qazın hasilatında isə mühüm rola Rusiya və İran malikdirlər. Burada mühüm məsələ odur ki, İranla Azərbaycan arasında etnik səbəblərlə bağlı olan tarixi rəqabətlə yanaşı, Rusiya da İran qazının Avropa bazarlarına çıxarılmasında maraqlı olmamışdır. "Qazprom"un İran qazının Ermənistan üzərindən ixracını əngəlləməyə yönəlik müəyyən fəaliyyətləri də olub[33]. Yəni müxtəlif regional və qlobal oyunçular bütün xarici siyasət və iqtisadi vasitələrdən istifadə etməklə neft-qaz resurslarının hasilatı, ixracı və strateji ixrac xətlərinin qurulmasında öz maraqlarına maksimum çatmağı hədəfləyirlər. Azərbaycan da öz müstəqil xarici siyasətində enerji faktorundan faydalı şəkildə istifadə edir.

Əgər lap əvvəldən Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, onda, əlbəttə ki, indiki regional enerji dəhlizi də yaranmazdı. Bakı–Tbilisi–Ceyhan kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi və enerji dəhlizini formalaşdırdı. İndi Azərbaycan qazı həmin dəhliz vasitəsilə dünya bazarlarına çıxarılacaq. Dəhlizlərin coğrafiyası da böyük dərəcədə eynidir (bu dəhliz hazırda Şərq–Qərb nəqliyyat dəhlizinə çevrilir). Azərbaycanın coğrafi vəziyyəti, qoyulan sərmayə və düşünülmüş xarici siyasət, tərəfdaşlarla aparılan birgə fəaliyyət yeni və pozitiv reallıqlar yaratmışdır. Azərbaycanın açıq dənizlərə, dünya bazarlarına çıxışı yoxdur

32 Azərbaycan Prezidenti İlham Əliyev XXIII Beynəlxalq "Xəzər Neft və Qaz – 2016" sərgi və konfransının açılışında iştirak edib. /06.06.2016/ - http://hague.mfa.gov.az/news/4/3155

33 Brenda Shaffer. Energy Politics. University of Pennsylvania Press, 2009, pp.125-127

və məhz buna görə neft və qaz kəmərlərinin tikintisinə böyük həcmdə vəsait yönəldilir. Tranzit, istehlakçı ölkələr də bu layihələrə böyük maraq göstərirlər. Tranzit ölkələr onilliklər bundan sonra böyük mənfəət götürəcək, istehlakçı ölkələr isə əlavə alternativ qaz mənbələrinə çıxış əldə edəcəklər[34]. Bu beynəlxalq əməkdaşlığı formalaşdırmaq üçün Azərbaycan öz səylərini göstərdi. Xəzər hövzəsindən Avropaya ixrac edilə biləcək potensial neft-qaz resurslarının ixracı üçün gərəkli olan neft-qaz ixrac boru kəmərləri (məsələn, Bakı–Tbilisi–Ceyhan) zaman-zaman Rusiyanın geosiyasi və geoiqtisadi maneələri ilə qarşı-qarşıya qalırdı. Aİ ölkələri də ilk növbədə digər alternativ mənbələrə diqqət yetirirdilər. SSRİ dönəmindən Rusiya mərkəzli formalaşdırılan neft-qaz kəmərləri infrastrukturu sistemi Azərbaycan–Gürcüstan–Türkiyə enerji dəhlizinin aktiv hala gəlməsi ilə artıq alternativsiz deyildi[35]. Əgər 1990-cı illərin ortalarında üçtərəfli – Azərbaycan–Gürcüstan–Türkiyə enerji diplomatiyası formatı yarandısa, bu gün bu format genişlənir və "Cənub Qaz Dəhlizi"nin üzv ölkələri müxtəlif qurumları təmsil edir. Yenə də Azərbaycan–Gürcüstan–Türkiyə və Aİ-yə üzv ölkələr – Bolqarıstan, Yunanıstan, İtaliya və Albaniya – artıq 7 ölkə, 11 şirkət "Cənub Qaz Dəhlizi"nin üzvüdür və Balkan ölkələri də bu layihəyə maraq göstərir.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Hazırda "Abşeron" və "Ümid" yataqlarının işlənilməsi ilə bağlı hazırlıq işləri aparılır, "Azəri"-"Çıraq"-"Günəşli" yatağının dərin laylarında böyük qaz yataqları var[36]. Azərbaycan öz fəaliyyətini "Cənub Qaz Dəhlizi"nin mövcud formatı ilə məhdudlaşdırmaq istəmir və daha da geniş coğrafiyaya çıxmaq istəyir. Buna nail olmaq üçün ölkənin qaz resursları var və artıq beynəlxalq əməkdaşlıq formatı da yaranmışdır. Avropaya qaz ixracından əldə edilən gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi nəticəsində ilk növbədə ölkə iqtisadiyyatını daha da inkişaf etdirmək mümkün olacaqdır. Daha bir mühüm amil ondan ibarətdir ki, Şərq–Qərb enerji dəhlizinin formalaşmasında Azərbaycanın rolu daha da

34 Atakişiyev M. Azərbaycanın yeni neft siyasəti və iqtisadi yükşəliş. /Elmi redaktor Z.Səmədzadə/. Bakı, 2004, 264s.

35 Margarita M. Balmaceda. The Politics of Energy Dependency. University of Toronto Press, Scholarly Publishing Division, 2013, p.38, 53

36 Rzayeva G. The Outlook for Azerbaijani Gas Exports to Europe. Oxford Institute for Energy Studies, Oxford, 2014

artacaqdır. Azərbaycan qazı ilə təmin olunan ölkələrlə qurulmuş möhkəm ikitərəfli əməkdaşlıq nəticəsində xarici siyasət və diplomatik sferada Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana Aİ-yə üzv ölkələrin dəstəyi artacaqdır[37].

Azərbaycan enerji diplomatiyası vasitəsilə bütövlükdə dünyanın böyük dövlətləri ilə mehriban dostluq münasibətləri nümayiş etdirir və bu münasibətlər dövlətlərarası əlaqələrin inkişafına möhkəm zəmin yaradır. Azərbaycanın müasir enerji siyasətində başlıca mövqeyə malik olan TANAP, TAP və "Şahdəniz-2" qaz layihələrinin əsasının qoyulması Azərbaycan və Türkiyəni daha da yaxınlaşdırmaqla yanaşı, həmçinin Azərbaycanın Avropa dövlətləri arasında nüfuzunun yüksəlməsinə və Avropaya inteqrasiya prosesinin sürətlənməsinə töhfədir.

Enerji resurslarının diversifikasiyası hazırda bütün dünyada müzakirə olunan önəmli məsələdir. Azərbaycan enerji resurslarının diversifikasiyasına öz töhfəsini verir və bu diversifikasiya yalnız marşrutların deyil, həm də mənbələrin diversifikasiyasını nəzərdə tutur. Xəzər dənizindən çıxarılan Azərbaycan qazı növbəti illər ərzində Avropa istehlakçıları üçün önəmli yeni qaz mənbəyi olacaq[38].

Nəticə

Azərbaycanda mexaniki üsulla neft hasilatına XIX əsrin sonlarından başlanılmışdır. Artıq 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmışdı. Azərbaycanın hasilatı dünya neft hasilatının 50 faizini təşkil etmişdir. Ötən əsrin əvvəllərində isə Azərbaycanın neft sektoru neft gəlirlərinin ilk bumunu yaşamışdır. Sovet rejimi dövründə ölkədə neft hasilatı artmışdır. İkinci Dünya müharibəsi zamanı Sovet İttifaqında istehsal olunun neftin 75%-i Azərbaycanın payına düşürdü[39].

Azərbaycanın Xəzər dənizində 1,5 trilyon kubmetr qaz, 6,8 milyard barel neft ehtiyatları var. Milli səviyyədə çox zəngin sərvət hesab oluna bilən bu rəqəmlər, təbii ki, qlobal anlamda da böyük mahiyyət kəsb edir. Bu gün

37 Azərbaycan Respublikasının müasir enerji siyasətinin uğurları. /11.06.2014/ - http://azertag.az/xeber/Azerbaycan_Respublikasinin_muasir_enerji_siyasetinin_ugurlari-70164

38 Ulric R. Nichol. Focus on Economics and Politics of Russia and Eastern Europe. Nova Science Publishers, 2007, p.35

39 http://www.erc.az/files/neshrler/RM_Azerbaijan_ERC_2013.pdf

regionun ən güclü dövləti olan Azərbaycan öz enerji tələbatını tam olaraq daxili imkanlar hesabına ödəyir. Məhz buna görə də Azərbaycanın dünya enerji məkanındakı yeri getdikcə artır. Dünyanın bir sıra nüfuzlu dövlətləri, xüsusən Aİ ölkələri Azərbaycanın enerji resurslarından faydalanır və əməkdaşlığı genişləndirirlər[40]. Cənubi Qafqazın karbohidrogen ehtiyatları ilə zəngin dövləti olan Azərbaycan Respublikası da müstəqilliyini bərpa etdikdən bir qədər sonra – 1994-cü ildən bu günə qədər bu ehtiyatlardan səmərəli şəkildə istifadə etməklə regional və beynəlxalq səviyyədə dünya dövlətləri ilə enerji sahəsində əməkdaşlığa maraq göstərir. Azərbaycan öz müstəqilliyini elan edəndən sonra neft hasilatını xarici şirkətlərlə birlikdə həyata keçirməyə başlamışdır. 1994-cü il sentyabrın 12-də Azərbaycan bu istiqamətdə ilk addımını atmış və ölkənin ən böyük neft mənbəyi olan AÇG yatağının birgə istismarı üçün dünyanın aparıcı şirkətləri ilə HPB sazişini imzalamışdır. HPB sazişi çərçivəsində ilk neft hasilatı 2006-cı ildə baş tutmuşdur. HPB sazişinə əsasən, mənfəət neftinin gəlirləri Azərbaycan və şirkətlər arasında bölünür. ARDNŞ də bu sazişdə iştirak edir. 1997-ci ilin noyabr ayında Azərbaycan "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü sazişi" üzrə neft hasilatına başladı və Azərbaycana ilk neft gəlirləri daxil oldu. Bununla yanaşı, neft-qaz faktoru tədricən Azərbaycanın xarici siyasətində və regional enerji diplomatiyasında önəmli faktora çevrildi[41]. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əvəzsiz rol oynamağa başladı. "Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınan bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən, Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin göstəricisidir. "Əsrin müqaviləsi" haqqında Ümummilli lider Heydər Əliyev demişdir: *"1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli*

40 EU relations with Azerbaijan. - http://eeas.europa.eu/azerbaijan/index_en.htm

41 Алиев И. Каспийская нефть Азербайджана /Научный редактор: академик А.Мирзаджанзаде.- Москва: Известия, 2003, 712 с.

istifadə etməkdən ibarətdir"[42]. Ümummilli lider Heydər Əliyevin bilavasitə iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtlarında – Vaşinqton, Moskva, London və Parisdə xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalandı və daha sonra yeni sazişlər də buraya əlavə olundu. Hazırda həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir. Ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin enerji potensialını geniş miqyasda hasil edərək Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan strateji ölkəyə çevrilmişdir. Bu strategiyanın ən uğurlu komponentlərindən olan Bakı–Tbilisi–Ceyhan boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə və bütövlükdə region, Avropa və ümumən dünya üçün iqtisadi, siyasi və enerji təhlükəsizliyi baxımından çox böyük əhəmiyyətə malik olmaqla yanaşı, Türkiyənin Qara dəniz boğazlarının həddən artıq yüklənməsinin də qarşısını alacaqdır.

Azərbaycanın xarici siyasətində enerji faktorundan istifadə "sərt güc" və ya "yumşaq güc" faktorlarının düşünülmüş kombinasiyası, yəni "ağıllı güc" (*smart power*) alətlərinin toplusu kimi nəzərdən keçirilməlidir. Yəni fərqli enerji və kommersiya amilləri ilə xarici siyasət elementləri səmərəli şəkildə birləşdirilə bilər. Nümunə kimi ARDNŞ-nin TAP layihəsindəki fəaliyyətinə nəzər yetirmək kifayətdir. Azərbaycanın maraqlarını əks etdirən bu layihədə ARDNŞ "Cənubi Avropa satış bazarı strategiyası"nı bir növ qeyri-rəsmi olaraq həyata keçirir. Belə ki, Azərbaycan üçün strateji olaraq enerji (xüsusən təbii qaz) bazarlarının emal və ya istehsal yerlərinə yaxın yerləşməsi nəqliyyat xərclərini azaltması və ya mənfəəti artırması baxımından əlverişlidir[43]. Buna görə də həm Azərbaycanın xarici siyasət qurumu, həm də ARDNŞ önümüzdəki dönəmdə daha çox Yunanıstan, Bolqarıstan və Albaniyaya diqqət ayıracaq.

42 Azərbaycan nefti. - http://www.azerbaijan.az/portal/Economy/OilStrategy/oilStrategy_a.html

43 Vladimir Socor. TAP Gas Consortium Looks at Markets from Bulgaria to Britain. // Eurasia Daily Monitor Volume: 10 Issue: 132, July 18, 2013. - https://jamestown.org/program/tap-gas-consortium-looks-at-markets-from-bulgaria-to-britain/

Azərbaycan Respublikasının xarici siyasətinin iqtisadi yönləri

*Şahmar Hacıyev**
*Orxan Bağırov***

Giriş

Azərbaycanın müstəqillik əldə etdikdən sonra aparılan xarici siyasətinin səmərəli olmasında iqtisadi inkişafın böyük əhəmiyyəti olmuşdur. İqtisadi potensialın artırılması digər dövlətlərlə əlaqələrin genişlənməsinə, tərəfdaşların sayının artmasına və Azərbaycanın regionda mövqeyinin güclənməsinə gətirib çıxarmışdır. Bu illər ərzində Azərbaycanın iqtisadi inkişafı özünəməxsus xarakterə malik olmuş və ilk mərhələdə müşahidə edilən durğunluqdan sonra sürətli inkişaf fazasına keçərək yüksək nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sürətli iqtisadi artımın əsas drayveri olmuş və iqtisadiyyatın hərtərəfli inkişafına şərait yaratmışdır. İqtisadi potensial artırıldıqca Azərbaycanın siyasi mövqeyi də güclənmiş və yerləşdiyi geoiqtisadi məkanda siyasi kursun müəyyənləşdirilməsində əsas qüvvəyə çevrilmişdir.

Son 25 il ərzində Azərbaycanın eyni zamanda Avropa məkanında da mövqeləri möhkəmlənmişdir. Azərbaycan regionun enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı mənbələrdən birinə çevrilmişdir. Neft ehtiyatlarının ixracı nəticəsində əldə edilmiş gəlirlərin səmərəli istifadəsi bu gəlirlərin yüksək iqtisadi artıma çevrilməsinə səbəb olmuş və əhalinin rifah halının yüksəlməsinə, sosial problemlərin həllinə imkan yaratmışdır. Uğurlu enerji strategiyası eyni zamanda milli təhlükəsizliyin təmin edilməsi məqsədilə hərbi potensialın artırılması və makroiqtisadi təhlükəsizliyin təmin edilməsi üçün zəruri olan maliyyə bazasının yaradılmasına səbəb olmuşdur. Son 25 ildə həyata keçirilmiş

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin İqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin aparıcı elmi işçisi*
** *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin İqtisadiyyatın təhlili və qloballaşma məsələləri şöbəsinin məsləhətçi-eksperti*

səmərəli iqtisadi siyasət Azərbaycanın siyasi arenada mövqeyini möhkəmləndirərək regiondakı dövlətləri Azərbaycanla hesablaşmaq məcburiyyətində qoymuşdur.

Azərbaycan iqtisadiyyatının dinamikası

Müstəqillik qazandıqdan sonra Azərbaycanın iqtisadi inkişafı mürəkkəb geosiyasi mühitdə baş vermişdir. 70 ildən çox sovet hökumətinin təsirində olan Azərbaycan iqtisadiyyatı müstəqillik qazandıqdan sonra keçmiş sovet respublikaları ilə iqtisadi əlaqələr kəsildiyindən çətin vəziyyətə düşmüşdür. Azərbaycanın müstəqilliyini qəbul etmək istəməyən qonşu dövlətlər isə ticarət əlaqələrinə məqsədli şəkildə mane olmağa çalışırdılar. Azərbaycan blokadada olduğu üçün strateji əhəmiyyətə malik məhsulların ixracını həyata keçirə bilmirdi. Eyni zamanda müharibə şəraitinin mövcudluğu və valyuta çatışmazlığı məhsulların idxalını da çətinləşdirirdi. Bununla yanaşı, ölkə daxilində səriştəsiz və təcrübəsiz kadrların idarəetməni ələ keçirməsi nəticəsində səmərəsiz iqtisadi siyasətin aparılması iqtisadi böhranı daha da dərinləşdirirdi. İstər ölkədə yaşanan məhsul qıtlığı, istərsə də Qarabağ müharibəsi iqtisadiyyata mənfi təsir edərək bir sıra ciddi sosial-iqtisadi problemlərin yaranmasına yol açmışdı. Qeyd olunan mənfi proseslər nəticəsində yenicə müstəqillik əldə etmiş ölkənin iqtisadiyyatı ağır vəziyyətə düşmüşdü. Belə ki, 1989-1994-cü illər ərzində ümumi daxili məhsulda (ÜDM) təxminən 60% azalma müşahidə edilmişdi. Bu göstərici kənd təsərrüfatında 43%, sənayedə isə 60% olmuşdu.

Həmçinin müharibə nəticəsində ölkə ərazisinin 20%-i Ermənistan tərəfindən işğal edilmiş və nəticədə Azərbaycan 1 milyon qaçqın və məcburi köçkün faktı ilə qarşı-qarşıya qalmışdı. Beynəlxalq ekspertlərin ilkin hesablamalarına görə, Ermənistanın Dağlıq Qarabağ və ətraf əraziləri işğal etməsi nəticəsində Azərbaycana dəyən iqtisadi zərər 300 milyard dollardan çox olmuşdur ki, bu da iqtisadi tərəqqinin ləngiməsinə təsir edən əsas faktor olmuşdur[1]. Müharibə eyni zamanda Azərbaycanın

1 Əli Həsənov: "Beynəlxalq ekspertlər erməni işğalı nəticəsində Azərbaycana 300 milyard dollardan çox zərər dəydiyini hesablayıb" /06.06.2013/ - http://apa.az/dagliq_qarabag/eli-hesenov-beynelxalq-ekspertler-ermeni-isgali-neticesinde-azerbaycana-300-milyard-dollardan-cox-zerer-deydiyini-hesablayib.html

qərb istiqamətində yollarını bağlayaraq onun ticarət əlaqələrinə və yeni formalaşmaqda olan milli iqtisadiyyatın investorlar üçün cəlbediciliyinə mənfi təsir edərək ümumi iqtisadi inkişafa mane olmuşdur. O dövrdə aparılan iqtisadi siyasətin əsas məqsədlərindən biri rublun daxili bazara təsirinin qarşısının alınması idi. Bu baxımdan müstəqilliyimizin əsas atributlarından olan milli valyutanın qəbul edilməsi böyük əhəmiyyət daşıyırdı. Milli valyutanın qəbul edilməsi maliyyə sabitliyinin təmin edilməsinə yönəlsə də, daha geniş anlamda bu, həm də siyasi hadisə idi və Azərbaycanı xarici siyasi təzyiqlərdən qoruya bilirdi. Buna görə də çox keçmədən, 1992-ci ildə milli valyuta tədavülə buraxıldı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yaşanan çətinliklərə baxmayaraq, Ümummilli lider Həydər Əliyev xalqın təkidi ilə 1993-cü ildə hakimiyyətə gəldikdən sonra müşahidə edilən siyasi hərc-mərcliyə son qoydu, erməni təcavüzünü dayandırdı və "Əsrin müqaviləsi" imzalandı. Yalnız bundan sonra Azərbaycanın milli iqtisadiyyatı özünün sürətli inkişaf mərhələsinə qədəm qoydu. 1991-1995-ci illərdə müşahidə edilən ortamüddətli iqtisadi tənəzzül 1996-1997-ci illərdən etibarən canlanma fazası ilə əvəz olundu. Zəngin təcrübəyə malik olan Ümummilli liderin həyata keçirdiyi uzaqgörən siyasət ölkəni dərin siyasi və iqtisadi böhrandan qurtararaq onun inkişafı üçün zəmin yaratdı. Azərbaycanın siyasi mövqeyinin möhkəmləndirilməsində onun iqtisadi inkişafının əhəmiyyətini yüksək qiymətləndirən Ümummilli lider Heydər Əliyev bazar iqtisadiyyatı prinsiplərinin qəbul edilməsinə, qapalı iqtisadi sistemin dünya ölkələri üçün açıq elan edilərək Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasına şərait yaratdı. Bu baxımdan Prezident Heydər Əliyevin "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması tədbirləri haqqında" imzaladığı fərman (10 yanvar 1994-cü il) böyük əhəmiyyət daşıyır. Bu fərman bazar iqtisadiyyatının formalaşdığı şəraitdə respublikanın ixrac potensialından istifadənin səmərəliliyini artırmaq və daxili bazarın qorunmasını gücləndirmək məqsədilə ciddi addımlar atılmasını nəzərdə tuturdu. Həyata keçirilən iqtisadi liberallaşma, qiymət islahatları, valyuta rejiminin sərbəstləşdirilməsi kimi tədbirlər Azərbaycanı inzibati-amirlik sisteminin qalıqlarından azad etdi. İqtisadi islahatları yüksək qiymətləndirən Beynəlxalq Valyuta Fondu (BVF), Dünya

Bankı (DB) kimi beynəlxalq təşkilatlar bu islahatlara dəstək olmaq məqsədilə Azərbaycana maliyyə yardımı göstərməyə başladılar. Həyata keçirilən islahatlar özünü yaxın zamanda göstərməyə başladı. Belə ki, əgər inflyasiya 1994-cü ildə 1800% təşkil edirdisə, artıq 1996-cı ildə bu göstərici 6,8% səviyyəsinə enmişdi. Manatın ABŞ dollarına nəzərən ucuzlaşması 1994-cü ildə 1200% təşkil etsə də, cəmi iki il sonra manat dollara qarşı 8% möhkəmlənmişdi[2]. Aparılan əsaslı iqtisadi və hüquqi islahatlar əsasında iqtisadi idarəetmənin liberallaşdırılması ölkədə makroiqtisadi sabitliyin təmin edilməsinə imkan yaradaraq ÜDM-in azalmasının qarşısını aldı. Bunun nəticəsidir ki, ÜDM-in həcmi 1995-ci ildən etibarən yüksək artım tempinə malik olmuşdur (Qrafik 1). Eyni zamanda həmin ildən etibarən Azərbaycanda müşahidə edilən artım sürəti MDB-nin orta göstəricisindən yüksək olmuşdur.

Qrafik 1. Azərbaycanda ÜDM-in həcmi (milyon manat)



Mənbə: *Dövlət Statistika Komitəsi*

Sonrakı mərhələdə Ümummilli liderin əsasını qoyduğu müstəqil Azərbaycanın iqtisadi siyasəti onun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Prezident İlham Əliyev iqtisadiyyatın dövlət tənzimləməsi sistemini daha da təkmilləşdirərək ölkə iqtisadiyyatının sürətli inkişafına nail olmuşdur. Azərbaycan özünəməxsus coğrafi və siyasi mövqeyə malik olduğundan dünya dövlətlərinin təcrübəsinin onun idarə edilməsində istiqamətlərin müəyyənləşdirilməsi üçün istifadə edilməsi səmərəli deyildir. Bu baxımdan Prezident

2 Əliyev Ü. Keçid dövrünün milli iqtisadi problemləri. Monoqrafiya, Bakı, 2008

ustalıqla dövlət tənzimləməsini həyata keçirərək qarşıda duran vəzifələri müəyyən və onların dövlət orqanları və vətəndaşlar tərəfindən uğurla icra olunmasını təmin etmişdir. Təsadüfi deyildir ki, Prezident 2003-cü il noyabrın 24-də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman imzalayaraq ölkə qarşısında dayanan prioritet məqsədləri müəyyən etmişdir. Bu məqsədlərə Azərbaycanın iqtisadi baxımdan güclü dövlətə çevrilərək dünya iqtisadi sistemində layiqli yer tutması, ölkənin malik olduğu resurslardan daha səmərəli istifadə edilməsi, qeyri-neft sektorunun inkişafı, əhalinin rifah halının yüksəldilməsi və məşğulluğun artırılması kimi məsələlər aid idi. İqtisadi siyasətin uğurla davam etdirilməsi nəticəsində 2003-2013-cü illərdə Azərbaycan dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatları sırasına daxil oldu[3]. 2008-2009-cu illərdəki qlobal maliyyə böhranının və 2014-cü ilin ortalarından etibarən kəskin ucuzlaşmağa başlayan xam neft qiymətlərinin neqativ təsiri ilə iqtisadi artım səngisə də, onun davamlılığı qorunmuşdur. Nəticədə ortalama iqtisadi artım sürəti (*average growth*) 1991-2015-ci illərdə 5%-ə yaxın, 2000-2015-ci illər intervalında isə 11%-ə yaxın olmuşdur ki, bu da kifayət qədər yüksək göstəricidir[4]. Eyni zamanda neft-qaz ixracına və xarici iqtisadi əlaqələrə əsaslanan iqtisadi artım xarici siyasətdə iqtisadi faktorların önəmini artırdığından qeyr-neft sektorunun inkişafına da böyük əhəmiyyət verilmiş və nəticədə ÜDM-də qeyri-neft sektorunun payı 60%-ə qədər yüksəldilmişdir. Buna görə də Azərbaycan iqtisadiyyatı neft-qazla zəngin ölkələrə xas olan "deindustrializasiya", "holland sindromu", hökumət xərcləmələrinin sahibkarlığın inkişafına mane olması kimi iqtisadi neqativliklərlə qarşılaşmamışdır.

Azərbaycanın dünya iqtisadiyyatında yeri

Aparılan səmərəli iqtisadi siyasət nəticəsində əldə edilən uğurlu nəticələr Azərbaycanı həm iqtisadi, həm də siyasi cəhətdən regionun lider ölkəsinə çevirərək onun dünya iqtisadi sistemində mövqeyini gücləndirmişdir. BVF-nin185 ölkə üzrə yayınladığı adambaşına nominal

3 Republic of Azerbaijan - Concluding Statement of the 2013 Article IV Consultation Mission. İMF, March 12, 2013

4 Dövlət Statistika Komitəsi. "Azərbaycanın milli hesabatları" Statistik məcmuə. 2016, s.13. - http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

və satınalma gücü paritetli ÜDM göstəricilərinə nəzər saldıqda Azərbaycanın dünyadakı mövqeyinin gücləndiyinin bir daha şahidi oluruq[5]. Belə ki, 2015-ci ildə Azərbaycanda adambaşına nominal 5.739 ABŞ dolları məbləğində ÜDM istehsal olunmuş və ölkə bu göstərici üzrə dünyada 89-cu sırada yer almışdır. Azərbaycanın bu göstəricisi Ermənistandan 1,6 dəfə, Gürcüstandan isə 1,5 dəfə yüksək olmuşdur. Azərbaycanın adambaşına satınalma gücü paritetli ÜDM göstəricisi üzrə dünyadakı mövqeyinə diqqət yetirdikdə isə, 17.993 ABŞ dolları göstəricisi ilə 65-ci yerdə dayandığını görürük. Bu göstəriciyə görə də Azərbaycan regionda liderdir. Bu göstərici Ermənistandan 2,1 dəfə, Gürcüstandan isə 1,9 dəfə yüksəkdir. Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması, iqtisadi rəqabətliyin artırılması, insan kapitalının inkişafı, korrupsiya ilə mübarizə, dövlət qurumlarının şəffaflığının və hesabatlığının artırılması istiqamətində atılan addımlar nəticəsində Azərbaycan Dünya Bankının "*Doing Business*" hesabatı başda olmaqla beynəlxalq təşkilatların fərqli reytinqlərində yüksək pillələrdə qərarlaşmışdır (Cədvəl 1). Belə ki, Azərbaycan rəqabətlik reytinqi üzrə 140 ölkə arasında 40-cı, biznes fəaliyyəti ilə məşğul olmaq indeksinə görə 189 ölkə arasında 63-cüdür.

Cədvəl 1. Azərbaycanın beynəlxalq indekslərdə mövqeyi[6]

№	İndeks	Ölkələrin sayı	Azərbaycanın mövqeyi (dəyər)
1.	Qlobal Rəqabətlik Reytinqi – 2015-2016	140	40 (4.5)
2.	Biznesin Asanlığı Reytinqi – 2016	189	63 (67.8)
3.	İqtisadi Azadlıq Reytinqi – 2016	178	91 (60.2)
4.	İnsan İnkişafı Reytinqi – 2015	188	78 (0.751)
5.	Korrupsiyanı Qavrama İndeksi Reytinqi –2015	167	119 (29)
6.	Linaburq-Maduel Şəffaflıq İndeksi –2016	53	8 (10)
7.	Açıq Büdcə İndeksi – 2015	102	42 (51)

5 World Economic Outlook Database, by country groups (aggregated data) and commodity prices. IMF, April 2016

6 *Cədvəldə istifadə olunan reytinqlər üçün mənbələr:*

1. http://reports.weforum.org/global-competitiveness-report-2015-2016/economies/#economy=AZE
2. http://www.doingbusiness.org/data/exploreeconomies/azerbaijan
3. http://www.heritage.org/index/country/azerbaijan
4. http://hdr.undp.org/en/countries/profiles/AZEhttp://www.transparency.org/cpi2015#results-table
5. http://www.swfinstitute.org/statistics-research/linaburg-maduell-transparency-index/

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: *"Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq, demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir"*[7].

Neft-qaz strategiyasının iqtisadi siyasətdəki rolu

Azərbaycanın iqtisadi inkişafında əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası mühüm rola malik olmuşdur. Uğurla həyata keçirilmiş neft strategiyası nəticəsində Azərbaycanın dünya dövlətləri ilə əməkdaşlığı genişlənmiş, iqtisadiyyatı hərtərəfli inkişaf etmiş, dünya iqtisadiyyatında payı artmış, milli təhlükəsizliyin, iqtisadi və strateji maraqların qorunması üçün zəruri olan maliyyə ehtiyatları ilə təmin edilmişdir. Hakimiyyətə gəldiyi ilk günlərdən Ümummilli lider neft sənayesinin Azərbaycanın yaranmış iqtisadi və siyasi böhrandan çıxarılmasında əhəmiyyətini yüksək qiymətləndirərək bu sahənin inkişaf etdirilməsinə çalışmışdır. Bunun məntiqi nəticəsi olaraq 1994-cü il sentyabrın 20-də dünyanın 7 ölkəsindən olan 11 xarici neft şirkəti ilə "Əsrin müqaviləsi" imzalanmışdır. Bu müqavilə ilə Azərbaycan iqtisadiyyatının dünya ölkələri üçün açıq elan edilməsi sonrakı dövrdə dünyanın müxtəlif ölkələrindən olan 41 neft şirkəti ilə daha 32 müqavilənin imzalanmasına səbəb oldu və nəticədə neft sektoruna investisiya qoyuluşları 60 milyard dollara çatdı. Enerji sahəsində Azərbaycanın nailiyyətləri bununla bitmədi. 2006-cı ildə "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun

7 Fərəcov F., Alıyev E., Həbilov E. Azərbaycanın iqtisadi inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. - http://www.maliyye.gov.az/en/node/1564

imzalanması Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas tərəfdaşlardan birinə çevirdi. 2006-cı ilə qədər Rusiyadan qaz idxal edən Azərbaycan artıq 2007-ci ildən qaz ixrac edən dövlətə çevrildi. Heydər Əliyevin uzaqgörənliyi nəticəsində Azərbaycanın enerji resurslarından səmərəli istifadə edilməsi həm ölkədə enerji təhlükəsizliyini təmin etdi, həm də dünya birliyində onun mövqeyini möhkəmləndirdi.

Azərbaycanın enerji strategiyasının uğurlu nəticələri çox çəkmədən ölkənin dinamik iqtisadi inkişafına çevrildi və Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etməyə başladı. Ölkə iqtisadiyyatına daxil olan neft gəlirlərinin düzgün istiqamətləndirilməsi, bununla da əhalinin rifah halının yüksəldilməsi və mühüm sosial-iqtisadi layihələrin həyata keçirilməsi məqsədilə Ümummilli lider Heydər Əliyev neft strategiyası proqramını hazırladı və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı. Bu addımlardan ən mühümü neft gəlirlərinin səmərəli istifadəsi, nəsillər arasında ədalətli bölgüsü və neft sektorunda şəffaflığın təmin edilməsi məqsədilə 1999-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun təsis edilməsidir. İllər ötdükcə Neft Fondu Azərbaycanın beynəlxalq maliyyə təşkilatına çevrilərək Azərbaycanın milli maraqlarının qorunmasına xidmət edir. Neft Fondu vasitəsilə neft gəlirləri strateji cəhətdən əhəmiyyətli infrastrukturun yaradılmasına, mühüm sosial problemlərin həllinə yönəldilmişdir. Eyni zamanda Neft Fondu əhalinin hazırkı iqtisadi və sosial problemlərini həll etməklə yanaşı, gəlirlərin gələcək nəsillərə ötürülməsinə imkan yaradır. Statistik məlumatlara nəzər saldıqda, neft gəlirlərinin Neft Fondu vasitəsilə iqtisadiyyata səmərəli şəkildə yönəldiyinin şahidi oluruq. Belə ki, yarandığı 2001-ci ildən 2015-ci ilə qədər olan 15 ildə Neft Fondunun mədaxili 124.9 milyard dollar təşkil etmişdir ki, bunun da 26,9%-i yığımlara yönəldilmişdir[8]. Bununla yanaşı, 2003-2015-ci illərdə ARDNF-nin dövlət büdcəsinə transfertləri 63.9 milyard manat təşkil etmişdir. 2015-ci ildə Azərbaycanın dövlət büdcəsi gəlirləri 17 milyard 498 milyon manat təşkil etmişdir. Bu gəlirin 46,4%-i fondun transfertləri hesabına formalaşdırılmışdır.

8 Low Oil Prices: Economic And Social Implications For Azerbaijan. /21.04.2016/ - http://www.css.ethz.ch/content/dam/ethz/special-interest/gess/cis/center-for-securities-studies/pdfs/CAD83.pdf

Son illər Azərbaycanın makroiqtisadi göstəricilərində müşahidə edilən kəskin artmaların əsasında uğurla həyata keçirlən səmərəli neft strategiyası dayanır. Bunun nəticəsidir ki, neft-qaz sektorunun ÜDM-də payı orta hesabla 45-50%, büdcə gəlirlərində payı 70-75%, ixracda payı isə 90% olmuşdur. Neft sektorunun iqtisadiyyatda böyük paya sahib olmasına baxmayaraq, qeyri-neft sektoru da neft gəlirləri hesabına formalaşdırılmış infrastruktur əsasında sürətlə inkişaf edir və gələcəkdə neftdən asılılığın aradan qaldırılması məqsədi daşıyır. Neft gəlirləri eyni zamanda gəlirlik səviyyəsinə görə Azərbaycanın reytinqinin yüksəlməsinə səbəb olmuşdur. Belə ki, BVF dünyada 1.4 milyard insan yaşayan 51 ölkəni "resursla zəngin" ölkə kateqoriyasına aid edir. Bu ölkələr ixracının və fiskal gəlirlərinin ən azı 20%-ni bərpa olunmayan təbii resurslardan təmin edirlər[9]. Azərbaycan ixracın 90%-dən çoxunu, büdcə gəlirlərinin 75%-ni, ÜDM-in isə ən azı 45%-ni neft-qaz sektorundan təmin edən ölkə kimi "resursla zəngin" ölkələr kateqoriyasında orta gəlirli ölkə yerini tutmuşdur.

Azərbaycanın enerji strategiyası hazırda da uğurla davam etdirilir. Azərbaycanın yaxından iştirak etdiyi və maliyyələşdirdiyi "Şahdəniz-2" layihəsinin gerçəkləşdirilməsi və Transanadolu qaz kəmərinin çəkilişi yaxın gələcəkdə Avropanın qazla təminatında ölkəmizin statusunu daha da yüksəldəcəkdir. Azərbaycan uğurlu neft-qaz strategiyası sayəsində Avropanın artan enerji tələbatının ödənilməsi və dünyada enerji təhlükəsizliyinin təminatı sahəsində ən əlverişli tərəfdaşlardan hesab olunur. Dünyada alternativ enerji mənbəyi hesab olunan Xəzər regionunda neft-qazın istehsalı ilə bağlı əsas risklərdən biri məhsulun dünya bazarına təhlükəsiz və sərbəst marşrutlarla çıxarılması ilə bağlıdır. Bu mənada Azərbaycan özünün və tərəfdaşlarının hasil etdiyi neft-qaz məhsullarının xarici bazarlara çıxarılması və ixrac marşrutlarının şaxələndirilməsi sahəsində Xəzəryanı ölkələr içərisində ən əlverişli mövqeyə malikdir. Digər Xəzəryanı ölkələrlə müqayisədə ölkənin enerji ixracı riskləri çox aşağı səviyyədədir. Hazırda Bakı–

9 Anthony J Venables. "Using Natural Resources for Development: Why Has It Proven So Difficult?". OxCarre Research Paper, No.169, 2016, p. 2-3

Tbilisi–Ceyhan, Bakı–Supsa, Bakı–Novorossiysk kimi illik gücü təxminən 70 milyon ton təşkil edən üç neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum, Bakı–Astara–İran və Bakı–Rusiya kimi illik gücü təxminən 30-40 milyard kubmetr olan maye qaz kəmərinin mövcudluğu Azərbaycanın və tərəfdaşlarının enerji ixracı sahəsindəki geoiqtisadi risklərini sıfıra endirmişdir. Avrasiyanın strateji əhəmiyyətli tranzit ölkələrindən biri olan Azərbaycan Şərq–Qərb ticarət, enerji, yanacaq və nəqliyyat-kommunukasiya əlaqələrinin (xətlərinin) mərkəzində yer alır. Azərbaycanın bu mövqeyi getdikcə güclənir[10]. Karbohidrogen ehtiyatlarının hasilatı və Avropa bazarlarına çatdırılması məqsədilə reallaşdırılmış iri layihələr Avropanın neft və qazla təminatında Azərbaycanın önəmli yer tutmasına şərait yaratmışdır.

Neft strategiyasının uğurla reallaşdırılmasının istər ölkə daxilində maliyyə sabitliyinin yaradılması, istər ölkənin milli təhlükəsizliyinin təmin edilməsi, istərsə də Azərbaycanın regionda strateji əhəmiyyətinin artmasında mühüm əhəmiyyəti olmuşdur. Maliyyə imkanlarının genişlənməsi Azərbaycana hərbi gücünün artırılması, strateji əhəmiyyətə malik müxtəlif regional investisiya, infrastruktur və nəqliyyat layihələrinin maliyyələşdirilməsi imkanı yaratmış, regionda siyasi mövqeyini daha da möhkəmləndirmişdir. Neft gəlirləri əsasında formalaşan xarici valyuta ehtiyatları maliyyə təhlükəsizliyini təmin etməklə iqtisadiyyatın xarici şoklara qarşı davamlılığını artıraraq sosial-iqtisadi sabitliyin qorunmasına şərait yaradır.

Nəqliyyat layihələrinin iqtisadi və strateji əhəmiyyəti

Hakimiyyətə qayıdışından sonra Ümummilli lider Heydər Əliyev respublikanın beynəlxalq əhəmiyyətli qlobal nəqliyyat-kommunikasiya xətlərinin və dəhlizlərinin kəsişdiyi əlverişli coğrafi məkanda yerləşməsini nəzərə alaraq, bu sahənin yenidən qurulması və modernləşdirilməsi siyasətini ölkənin inkişaf strategiyasının

10 Əli Həsənov: "3 neft kəməri Azərbaycanın geoiqtisadi risklərini sıfıra endirib". /07.05.2015/- http://www.aznews.az/index.php?c=news&id=80655

əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi və reallaşdırılması imkanlarını səfərbər etməyə başladı. Bu strateji geoiqtisadi kurs Azərbaycanın son illərdə həyata keçirdiyi transmilli nəqliyyat-kommunikasiya dəhlizləri siyasətinin də əsasını təşkil etdi. Bu siyasət uğurla həyata keçirilmiş enerji strategiyası vasitəsilə Azərbaycanın neft və qaz ehtiyatlarının dünya bazarlarına çıxarılması və əldə olunan gəlirlərin ölkə iqtisadiyyatına yönəldilməsində böyük əhəmiyyətə malik olmuşdur. Həyata keçirilmiş nəqliyyat layihələri həm ölkənin maliyyə potensialının artırılmasına, həm də onun regionda siyasi mövqeyinin möhkəmlənməsinə imkan yaratmışdır. Lakin o dövrdə xam neftin təhlükəsiz və iqtisadi cəhətdən səmərəli formada dünya bazarlarına çıxarılması mübahisə doğuran məsələ olmuşdur. Bütün çətinliklərə baxmayaraq, Ümummilli lider diplomatik bacarığı və qətiyyətli mövqeyi sayəsində regional layihələrin həyata keçirilərək Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına nail olmuşdur. Bu proses Rusiya Federasiyası ilə 1996-cı ildə Bakı–Novorossiysk xətti ilə Azərbaycan neftinin ixrac edilməsi haqqında razılaşma əldə edilməsi ilə başlandı. 1997-ci ildən istifadəyə verilən bu xətt neftin nəqlindən əldə edilən gəlirlərin 1995-ci illə müqayisədə 2 dəfədən çox artaraq 10.4 milyon manata qalxmasına səbəb olmuşdur. Daha sonra 1997-ci ildə Azərbaycan neftinin Qara dənizə çıxarılması məqsədilə Gürcüstanla Bakı–Tbilisi–Supsa xətti ilə nəql edilməsi üçün saziş imzalandı və bu xətt 1999-cu ildən etibarən istifadəyə verildi. Bunun ardınca isə daha böyük əhəmiyyətə malik Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi haqqında ABŞ, Türkiyə, Gürcüstan və Qazaxıstan dövlətləri ilə müqavilə imzalandı. Bu kəmərin tikintisi 2005-ci ildə bitdikdən sonra istismara verildi. Bu kəmərin işə düşməsi Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətli bir hadisə idi. Belə ki, bu kəmərin istismara verilməsi nəticəsində neftin nəqlindən əldə edilən gəlir 2007-ci ildə əvvəlki illə müqayisədə 13 dəfəyə yaxın artaraq 1 milyard manatı ötdü. Bundan sonra neftin nəqlindən əldə edilən gəlir həmişə yüksək olmuş, hətta 2009-2010-cu illərdə 1.5 milyard manatı ötmüşdür (Qrafik 2).

Qrafik 2. Nəqliyyat sektorunda daşımalardan əldə olunan gəlir (min manat)



Mənbə: *Azərbaycan Respublikasının Statistika Komitəsi*

Lakin Azərbaycanın enerji ehtiyatlarının nəqli sahəsindəki uğurları təkcə neftlə bitmirdi. Belə ki, növbəti əhəmiyyətli nəqliyyat layihəsi Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi oldu. Bununla da Azərbaycan eyni zamanda qaz ixrac edən ölkəyə çevrildi. Bu layihənin həyata keçirilməsi ilə qazın nəqlindən əldə edilən gəlir 35 dəfədən çox artaraq 2007-ci ildə 136.8 milyon manatdan çox olmuşdur. Hal-hazırda isə Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük əhəmiyyətə malik olacaq və istifadəsi 2018-ci ildə planlaşdırılan "Cənub Qaz Dəhlizi" layihəsində yaxından iştirak edir. Bu layihənin reallaşdırılması Xəzər dənizinin qaz ehtiyatlarının Avropaya çatdırılmasını təmin etməklə regionun iqtisadi inkişafına dəstək verəcəkdir.

Azərbaycanın həm iqtisadi potensialının artırılmasıda, həm də onun siyasi mövqeyinin möhkəmlənməsində regional nəqliyyat layihələrinə böyük əhəmiyyət verən Ümummilli lider təkcə enerji məhsullarının nəql edilməsi ilə kifayətlənməmiş, eyni zamanda tarixi İpək Yolunun bərpasının həyata keçirilməsi üçün də səy göstərmişdir. Bununla bağlı olaraq TRASEKA layihəsinin reallaşdırılması üçün 1998-ci ildə Bakıda keçirilən konfransda Heydər Əliyev bu layihənin Avrasiya məkanında iqtisadi əməkdaşlığın genişləndirilməsi, ticarət əlaqələrinin artırılması, sülhün bərpası üçün böyük əhəmiyyətə malik olduğunu qeyd etmişdir.

Hazırda dəmir yolu şəbəkəsinin diversifikasiyası siyasətinə uyğun olaraq ölkəmiz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisini maliyyələşdirir. Bu layihə regionun ən böyük nəqliyyat layihələrindən biri olaraq Azərbaycan ərazisindən keçməklə Avropa və Asiya arasında daha etibarlı nəqliyyat bağlantısını təmin edərək Azərbaycanın iqtisadi və siyasi nüfuzunun artmasına, onun Türkiyə, Gürcüstan və Qərb dövlətləri ilə əməkdaşlığının daha da inkişaf etdirilməsinə səbəb olacaqdır. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin tikintisi başa çatdıqdan sonra yüklər başqa qatarlara yüklənmədən Çindən Türkiyəyə, eləcə də Avropanın digər yerlərinə daşınacaq. Bu yüklər limanlara aparılmadan 7 gün müddətində Türkiyəyə çatdırılacaq. Geosiyasi və geoiqtisadi mənzərəni dəyişdirəcək bu layihə[11]Azərbaycanın Avropa və Asiya arasında körpü rolunu oynamasına imkan verəcək.

Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə yanaşı, Ələt qəsəbəsində Yeni Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi davam etdirilir[12]. Eyni zamanda Azərbaycanın rəqabət qabiliyyətinin artırılması məqsədilə ölkə ərazisində Avropa–Qafqaz–Asiya və Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizlərində daşıma xərclərinin azaldılması, idxal, ixrac əməliyyatları və tranzit daşımaları üçün sərf edilən vaxtın qısaldılması və sərhəd-keçid prosedurlarının sadələşdirilməsi üçün tədbirlər görüləcəkdir. Yaxın illərdə Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kom- pleksinin tikintisi tamamlanacaq, dəniz donanması yeniləşdiriləcək, nəqliyyat-logistika mərkəzləri yaradılacaq, Bakı–Böyük Kəsik, Bakı–Astara və Bakı–Yalama dəmir yolu xətləri yenidən qurulacaq və modernləşdiriləcək, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri istiqamətində avtomobil magistrallarının genişləndirilməsi, beynəlxalq əhəmiyyətli yolların yenidən qurulması və tikinti layihələrinin başa çatdırılması ilə ölkənin yol-nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması təmin ediləcəkdir. Azərbaycan həmçinin 2002-ci ildən Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC)

11 Səfir: "Bakı–Tiflis–Qars geosiyasi və geoiqtisadi mənzərəni dəyişdirəcək". /14.12.2015/ - http://apa.az/iqtisadiyyat-xeberleri/infrastruktur/sefir-baki-tiflis-qars-geosiyasi-ve-geoiqtisadi-menzereni-deyisdirecek.html

12 Əlizadə Ş. Azərbaycanın geoiqtisadi əhəmiyyəti artır. /16.02.14/ - http://www.respublica-news.az/index.php/siyas-t/item/2293-azaerbaydzan-n-zheoigtisadi-aehaemiyyaeti-art-r

Proqramının üzvüdür və AİB-in CAREC Proqramı çərçivəsində nəqliyyat sahəsində bir sıra layihələr həyata keçirir. Üzv olduğu tarixdən nəqliyyat və enerji layihələrinə təxminən 4.47 milyard dollara yaxın investisiya yatırılmışdır ki, bu da, öz növbəsində, nəqliyyat, ticarət və energetika sahələrinin inkişafına töhfə vermişdir. CAREC Proqramı çərçivəsində Azərbaycan nəqliyyat sahəsində bir sıra mühüm layihələr həyata keçirmişdir. Bunlardan "Dəmir yolu ticarəti və daşımalara dəstək" layihəsini qeyd etmək olar. Layihə Şərq–Qərb dəmir yolu xəttinin reabilitasiyası layihəsi çərçivəsində həyata keçirilmişdir.

Nəqliyyat sektorunun neft sektoru ilə əlaqəli şəkildə səmərəli inkişafı ölkədə nəqliyyat gəlirlərinin kəskin artmasına imkan yaradaraq büdcə gəlirlərinə əsaslı təsir etmişdir. 1995-ci illə müqayisədə ümumi nəqliyyat gəlirləri 17 dəfəyə qədər artaraq 4 milyard manatı ötmüşdür. Lakin boru kəməri nəqliyyatı gəlirlərinin kəskin artmasına baxmayaraq, neft gəlirlərinin ölkə iqtisadiyyatına səmərəli transformasiyası nəticəsində nəqliyyat gəlirlərindən asılılıq azaldılmışdır. Belə ki, əgər boru kəməri nəqliyyatından əldə edilən gəlirlər 1995-ci ildə büdcə gəlirlərinin 74,5%-ni təşkil edirdisə, bu rəqəm 2014-cü ildə 18%-ə qədər azalmışdır (Qrafik 3).

Qrafik 3. Boru kəməri nəqliyyatı gəlirlərinin büdcə gəlirlərində payı



Mənbə: *Azərbaycan Respublikasının Statistika Komitəsi*

Bu dinamika çox əhəmiyyətlidir. Ona görə ki, nəqliyyat gəlirlərindən asılılıq həm xarici dövlətlərdən asılılığın çox olması, həm də ölkə

iqtisadiyyatına təsir imkanlarının geniş olması deməkdir. Bu baxımdan istər neft, istərsə də nəqliyyat gəlirlərinin ölkə iqtisadiyyatında əhəmiyyəti böyük olsa da, bu gəlirlərin siyasi təsir vasitəsi kimi istifadəsinə imkan verilməmiş və hərtərəfli nəqliyyat layihələri icra olunaraq Azərbaycanın öz təbii ehtiyatlarının dünya bazarına çıxarılması üçün bir neçə marşrut çəkilmişdir.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev nəqliyyat sahəsində apardığı səmərəli siyasətlə Azərbaycanı nəqliyyat qovşağına çevirərək regionun nəqliyyat sisteminin modernləşdirilməsində və təhlükəsizliyin təmin edilməsində böyük əhəmiyyəti olan dövlətə çevirmişdir. Həyata keçirilmiş nəqliyyat layihələri Azərbaycanın həm regionda, həm də dünyada iqtisadi potensialını və siyasi nüfuzunu artıraraq nə vaxtsa onun iqtisadi və siyasi gücünü azaltmaq istəyən dövlətləri onunla hesablaşmaq məcburiyyətində qoymuşdur.

Qeyri-neft sektorunun inkişafı

Keçən əsrin 90-cı illərinin sonundan etibarən Azərbaycan iqtisadiyyatı özünün sürətli inkişaf mərhələsinə qədəm qoymuşdur. Neft gəlirlərinin iqtisadiyyatın hərtərəfli inkişafına səmərəli şəkildə yönəldilməsi bu sürətli artıma əsas səbəb olmuşdur. Lakin Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan neft-qaz strategiyasının əsas məqsədi Azərbaycanı resurslardan asılı dövlətə deyil, əksinə, iqtisadiyyatı hərtərəfli inkişaf etmiş və özünü daxili istehsalla təmin edə bilən dövlətə çevirmək olmuşdur. Bunun üçün də ilkin mərhələdə, sözsüz ki, neft gəlirləri hesabına hərtərəfli inkişafı təmin edə biləcək zəruri iqtisadi mühitin və infrastrukturun formalaşdırılması vacib idi. Bu fikir əsasında uzun illər həyata keçirilmiş iqtisadi siyasət bu vəzifənin öhdəsindən yüksək səviyyədə gəlmiş və iqtisadiyyatın digər sahələrinin inkişafı üçün ən yüksək səviyyədə iqtisadi baza yaradılmışdır. Bundan sonra Prezident İlham Əliyev iqtisadi siyasətin əsas istiqaməti kimi qeyri-neft sektorunun inkişaf etdirilməsini seçmiş, bu istiqamətin səmərəli inkişafı üçün mühüm qərarlar vermiş və Azərbaycan özünün

zəngin neft-qaz ehtiyatlarından uzunmüddətli və davamlı iqtisadi inkişafa nail olmaq üçün uğurla faydalanmaq yolunu tutmuşdur.

Qeyri-neft sektorunun inkişafı nəticəsində əldə edilmiş uğurlar Azərbaycan iqtisadiyyatının neftin qiymətindən asılılığını azaltmış və ölkədən kapitalın çıxarılmasından qaynaqlanan xarici iqtisadi şoklara qarşı davamlılığını artırmışdır[13]. Son illər ərzində qeyri-neft sektorunda iqtisadi islahatların davam etdirilməsi, innovativ, bilik iqtisadiyyatının formalaşması, idxaldan asılılığın azaldılması, gündəlik tələbat malları ilə özünütəminetmə, ölkənin ixracının şaxələndirilməsi, həmçinin yerli resurs və xammalla işləyən və ixrac qabiliyyətli məhsullar istehsal edən sənaye komplekslərinin yaradılması, rəqabətədavamlı məhsul istehsalının, dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, biznes mühitinin əlverişliyinin artırılması, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi, özəl sektorun inkişafını təşviq edən və rəqabət mühitini təkmilləşdirən institutlara diqqətin artırılması, ölkə sahibkarlarının məlumatlandırılması və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Qrafik 4. Azərbaycanda neft və qeyri-neft sektorunun artım dinamikası



Mənbə: *Azərbaycan Respublikasının Mərkəzi Bankı*[14]

13 Chubrik A., Walewski M. Oil Money vs. Economic Crisis: The Case of Azerbaijan. // CASE Network E-briefs, No. 06/2010, May 2010

14 Azərbaycan Respublikası Mərkəzi Bankının statistik məlumatları. Əsas makoiqtisadi göstəricilər, fevral 2017-ci il. - https://www.cbar.az/lpages/statistics/key-macroeconomic-indicators/

Azərbaycan iqtisadiyyatında son illər neft sektorunun payı azalmaqda, qeyri-neft sektorunun payı isə durmadan artmaqdadır. Son bir neçə ildə həyata keçirilən dövlət siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatı şaxələndirilmiş və qeyri-neft sektorunun sürətli artımı təmin edilmişdir. Qeyri-neft sektorunun artım dinamikasına nəzər salsaq görərik ki, 2010-cu ildən etibarən bu sektorda artım neft sektorunda müşahidə edilən artımı üstələmişdir (Qrafik 4). Bununla yanaşı, artıq bir neçə ildir ÜDM istehsalında qeyri-neft sektorunun çəkisi 50%-dən çoxdur və qeyri-neft sənayesində yaranan əlavə dəyərin ortalama illik artım sürəti 10% civarındadır.

Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün 2018-ci ilə qədər olan dövrü əhatə edən müxtəlif dövlət proqramları, strategiyaları və layihələri qəbul və icra edilmişdir. Azərbaycan hökuməti neft-qazla zəngin ölkələrdə diversifikasiya və qeyri-resurs sektorlarını inkişaf etdirməyə yönəlik siyasətlərin nəticə verməsi üçün innovativ sənayeləşmə, effektiv aqrar-sənaye kompleksinin inkişafı, elmi potensialın genişləndirilməsi, urban və infrastruktur inkişafı, kiçik və orta sahibkarlığın inkişafı, təhsilli, sağlam insan resursları və effektiv dövlət institutları şərtlərinə nail olunmasının vacibliyini bildiyi üçün bu sahələrə xüsusi önəm vermişdir. Qeyri-neft sektorunun inkişafı çərçivəsində eyni zamanda güclü biznes mühiti formalaşdırılmış, qeyri-resurs sektorlarına investisiyaların artırılması təşviq edilmiş və dövlət-özəl sektorun əməkdaşlığı uğurla həyata keçirilmişdir. "Qara qızıl"ın qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsi[15], neft-qaz gəlirlərindən istifadə etməklə gələcəkdə bu gəlirlərdən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyatın qurulması strategiyası uğurla reallaşdırılmışdır. Bu

15 Azərbaycan Prezidentinin təşəbbüsü ilə "Xaricdə təhsil üzrə birinci Dövlət Proqramı"nın (2007-2015) həyata keçirildiyi müddətdə 3.500-dən artıq tələbə, magistr və doktorant bu proqram üzrə təhsil almaq hüququ əldə edib. Bax: Nazir xaricdə təhsil məsələsinə aydınlıq gətirdi /20.04.2016/ - http://www.aktual.az/cemiyyet-2/nazir-xaricde-tehsil-meselesine-aydinliq-getirdi-41253

strategiya gələcəkdə də davam etdiriləcəkdir. Həyata keçirilən bu islahatlarla yanaşı, Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Ümumdünya Ticarət Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqələr yaradaraq, bir sıra beynəlxalq saziş və müqavilələrə qoşulmuşdur.

Qeyri-neft sektorunun inkişaf etdirilməsinin arxasında iqtisadi potensialın artırılması məsələsi dayansa da, bu sektorun inkişafı eyni zamanda region dövlətləri tərəfindən siyasi təzyiqlərin azaldılması baxımından da əhəmiyyətlidir. Azərbaycanın okeana çıxışı olmadığından enerji resurslarının ixrac edilməsində qonşu dövlətlərin iştirakı təbii və qaçılmazdır. Nəticə etibarilə resurslardan asılı olan dövlətlərin iqtisadi sistemi xarici təsirlərə açıq olur və öz sərbəst iqtisadi siyasətini yürüdə bilmir. Buna görə də Prezident İlham Əliyev həyata keçirdiyi azad xarici siyasətin tərkib hissəsi olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsinə nail olmuş, Azərbaycana iqtisadi sahədə də sərbəst siyasət yürütmək imkanı yaratmış və xarici dövlətlərin təsir imkanlarını daraltmışdır. Qeyri-neft sektorunun inkişafı nəticəsində Azərbaycan artıq bir çox istehlak məhsulları ilə özünü təmin edir ki, bu da əhalinin rifah halının yüksəldilməsi və sosial sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Qeyr-neft sektorunun sürətli inkişafının davam etməsi Azərbaycanı gələcəkdə regionun təkcə enerji təhlükəsizliyini deyil, eyni zamanda qida təhlükəsizliyini təmin edən bir ölkəyə çevirəcəkdir.

Xarici sektorun inkişafı

Xarici ticarət əlaqələri və əsas ticarət tərəfdaşları

Müstəqillik əldə etməmişdən öncə Azərbaycan Sovet İttifaqının üzvü olduğundan onun xarici ticarət siyasəti üzərində güclü dövlət nəzarəti mövcud idi və ticarət əməliyyatları daha çox SSRİ-yə üzv ölkələrlə aparılırdı. Güclü dövlət nəzarəti digər dünya ölkələri ilə ticarət əlaqələrinin qurulması üçün məhdudiyyətlər yaradırdı. Bu

məhdudiyyətlər səbəbindən Azərbaycan özünün sərbəst xarici siyasətini həyata keçirə bilmirdi və ticarət əlaqələri tam olaraq öz iqtisadi maraq və tələblərinə deyil, ittifaqın mənafeyinə xidmət edirdi. Bu baxımdan müstəqillik əldə etdikdən sonra Azərbaycan iqtisadi azadlıq əldə etdi və milli iqtisadiyyatı inkişaf etdirmək üçün yeni imkanlar yarandı. Yeni müstəqil iqtisadi mühitin formalaşması ilə Azərbaycanın ticarət əlaqələri üçün öz mahiyyəti və səmərəliliyi baxımından əvvəlki dövrdən əsaslı şəkildə fərqlənən yeni bir səhifə açıldı. Lakin müstəqilliyin ilk illərində siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi ilə müharibə şəraitinin mövcudluğu xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinə böyük əngəllər yaradırdı. Eyni zamanda Sovet İttifaqının apardığı qapalı iqtisadi siyasət Azərbaycanı inkişaf etmiş ölkələrdə gedən prosesdən geri salmışdı ki, bu da istehsal olunan məhsulların çeşidinin və rəqabət qabiliyyətinin azlığına səbəb olmuşdu. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində dönərli valyutaya sahib olmaması da ticarət əlaqələrinin inkişaf etdirilməsinə mane olurdu. Ancaq bütün bu maneələrə baxmayaraq, 1992-ci ildən etibarən məhsulların xarici valyuta ilə satışı üzrə sövdələşmələr əldə edildi və Azərbaycanın istər keçmiş ittifaq ölkələri, istərsə də digər xarici ölkələrlə ticarət əlaqələri genişlənməyə başladı.

O dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev uzaqgörən dövlət xadimi olaraq xarici ticarətin liberallaşdırılmasının vacibliyini və Azərbaycana verə biləcəyi faydanı gözəl bilirdi. Ona görə də Heydər Əliyev yaranmış yeni ticarət imkanlarını düzgün qiymətləndirərək, ticarət əlaqələrinin inkişafını təmin etmək üçün islahatlar həyata keçirməyə başladı. Belə ki, respublika Prezidenti tərəfindən 1994-cü il yanvarın 10-da "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında" fərman verildi. Daha sonra elə həmin il aprelin 5-də imzalanmış "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" fərmanla əhəmiyyətli malların bütün hüquqi şəxslər tərəfindən ixracına icazə verildi. Fərmana uyğun olaraq, Nazirlər Kabineti "Azərbaycan Respublikasında xarici

ticarətin sərbəstləşdirilməsi haqqında" 15 noyabr 1995-ci il tarixli qərar verdi. Qərara görə, ixrac əməliyyatlarının lisenziyalaşdırılması və kvotalaşdırılması ləğv olunaraq, xarici ticarətin təşkili haqqında yeni əsasnamə təsdiq olundu[16]. Bu qərar bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq ticarətdə dövlət nəzarətini azaltmaq və onun liberallaşdırılmasını həyata keçirmək məqsədi daşıyırdı. Bu səbəbdən bu qərarla Xarici iqtisadi əlaqələrə nəzarət üzrə Dövlət Komissiyasının səlahiyyətləri azaldıldı, idxal və ixracın sənədləşdirilməsi daha da sadələşdirildi. Ancaq həyata keçirilən islahatlar bununla bitmirdi. Belə ki, bunun ardınca 1996-cı il dekabrın 17-də "Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsi qaydaları haqqında", 1997-ci il iyunun 24-də "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" fərmanlar verildi[17]. 1999-cu il iyulun 23-də isə "Azərbaycan Respublikasında 1999-2000-ci illər üçün ticarətin inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi barədə" fərman imzalandı[18]. Bu proqramda ticarətin tənzimlənməsi, istehsalçı və istehlakçı hüquqlarının qorunması, əlverişli idxal və ixrac şəraitinin yaradılması üzrə tədbirlər nəzərdə tutulmuşdu. Həyata keçirilən bu islahatlarla yanaşı, Azərbaycan Respublikası BVF, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Ümumdünya Ticarət Təşkilatı, MDB, Aİ və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əlaqələr yaradaraq, bir sıra beynəlxalq saziş və müqavilələrə qoşularaq ticarət əlaqələrini daha da genişləndirdi.

Ümummilli lider Heydər Əliyev tərəfindən ticarətin inkişaf etdirilməsi məqsədilə hüquqi bazaya edilən dəyişikliklər tarixi hadisə olmaqla, Azərbaycan iqtisadiyyatının illər boyu boğulub qalmış imkanlarının tam istifadəsinə imkan vermişdir. Dövrün tələblərinə uyğun olaraq azad bazar modelinin həyata keçirilməsinə başlanılması Azərbaycanı öz iqtisadi potensialı hesabına tezliklə regionun ən güclü dövlətinə çevirdi. Səmərəli ticarət əlaqələrinin qurulması nəticəsində xarici dövlətlərlə əməkdaşlığın

16 Əliyev A. Azərbaycanın iqtisadi siyasəti: Azərbaycanın xarici ticari-iqtisadi əlaqələri. Bakı: Qanun, 2003, s.276

17 Vəliyev D. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008

18 Yenə orada, s.278

artması və yeni müttəfiqlərin qazanılması ilə Azərbaycanın regiondakı siyasi mövqeyi daha da gücləndi. Yaranmış iqtisadi potensial nəinki qonşu dövlətlərin Azərbaycana təsir imkanlarını azaltdı, hətta onları Azərbaycanın maraqlarına uyğun siyasət həyata keçirməyə məcbur etdi.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın ümumi iqtisadi inkişafında çox mühüm rol oynadığı kimi, ticarət əlaqələrinə də bilavasitə təsir etdi. Neft müqavilələri Azərbaycanı dünya ölkələrinə tanıdaraq ticarət əlaqələrinin inkişaf etdirilməsinə mühüm töhfələr verməklə xarici ticarət dövriyyəsini dəfələrlə artırdı. Belə ki, ticarət dövriyyəsinin müstəqilliyin ilk illərində azalmasına baxmayaraq, 1997-ci ildən etibarən artan dinamikaya malik olmuşdur. Nəticədə 1991-ci illə müqayisədə xarici ticarət dövriyyəsi 8 dəfədən çox artaraq 2013-cü ildə 34 milyard 690 milyon dollara çatmışdı[19]. Lakin növbəti iki ildə neftin qiymətinin dünya bazarında kəskin şəkildə aşağı düşməsi xarici ticarət dövriyyəsinə təsir etmiş və nəticədə 2015-ci ildə xarici ticarət dövriyyəsi 20 milyard 646 milyon dollar olmuşdur. Müstəqilliyin ilk illərində ticarət dövriyyəsi mənfi saldoya malik olsa da, 2000-ci ildən sonra müsbət saldo müşahidə edilmişdir. Xüsusilə 2005-ci ildən sonrakı illərdə ixrac idxalı dəfələrlə üstələmişdir və nəticədə 2014-cü ildə 12 milyard dollardan çox müsbət saldo yaranmışdır.

Qrafik 5. Xarici ticarət dövriyyəsinin dinamikası (milyon ABŞ dolları)



Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

19 Azərbaycanın xarici iqtisadi əlaqələri: problemlər və perspektivlər /AMEA İqtisadiyyat İnstitutu/. Bakı: Avropa, 2015

Cədvəl 2. Azərbaycan Respublikasının xarici ticarət əlaqələri (milyon ABŞ dolları)

İllər	Dövriyyə	İdxal	İxrac	Saldo
1991	4002.2	1881.2	2120.9	239.7
1992	2423.8	939.8	1484	544.1
1993	1353.5	628.8	724.6	95.8
1994	1430.6	777.9	652.7	-125.1
1995	1304.8	667.6	637.1	-30.4
1996	1591.8	961	631.2	-329
1997	1575.6	794	781.3	-13
1998	1682.6	1076.5	606.1	-470.4
1999	1965.1	1035.9	929.2	-107
2000	2917.3	1172.1	1745.2	573
2001	3751.9	1433.7	2318.2	874.5
2002	3840.2	1673.2	2167	493.8
2003	5216.6	2626.2	2590.4	-35.8
2004	7131.4	3515.9	3615.5	99.6
2005	8558.4	4211.2	4347.2	136
2006	11638.9	5266.7	6372.2	1105.5
2007	11771.7	5713.5	6058.2	344.7
2008	54926	7170	47756	40586
2009	20824.5	6123.1	14701.4	8578.3
2010	27960.8	6600.6	21360.2	14759.6
2011	36326.9	9756	26570.9	16814.9
2012	33560.9	9652.9	23908	14255.1
2013	34687.9	10712.5	23975.4	13262.9
2014	31016.3	9187.7	21828.6	12640.9
2015	20645.9	9221.4	11424.5	2203.1

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Əmtəə qrupları üzrə idxal və ixracın tərkibi və payı müstəqillik illərində əsaslı dəyişikliklərə məruz qalmışdır. 1995-ci ildə ən cox mineral məhsullar idxal olunmuşdur (15,1%). Lakin 2014-cü ildə mineral məhsulların idxalda payı 3 dəfədən çox azalaraq 4,88%-ə düşmüşdür. Maşın və avadanlıq idxalı 1995-ci illə müqayisədə 2 dəfədən çox artaraq idxalda ən çox paya sahib olmuşdur (28,2%). Ərzaq və kimya sənayesi məhsulları istər 1995-ci, istərsə də 2014-cü ildə ən çox idxal olunan məhsullar sırasında olmuş və bu illər ərzində idxalda payları, müvafiq olaraq, 4,83% və 1,36% azalmışdır. Ən çox idxal olunan məhsullar sırasından 1995-ci illə müqayisədə heyvandarlıq məhsulları, bitki və heyvan mənşəli yağlar çıxaraq əvəzinə quru və uçan nəqliyyat vasitələri, aparatlar, azqiymətli metallar və onlardan hazırlanan məhsullar daxil olmuşdur.

Cədvəl 3. Əsas əmtəə qrupları üzrə idxalın strukturu

1995-ci il		2014-cü il	
Mineral məhsullar	15,1%	Maşınlar, avadanlıq və mexanizmlər	28,2%
Ərzaq məhsulları, içkilər, tütün	14,5%	Azqiymətli metallar və onlardan hazırlanan məhsullar	13,55%
Maşınlar, avadanlıq və mexanizmlər	12,4%	Ərzaq məhsulları, içkilər, tütün	9,67%
Heyvandarlıq məhsulları	11,1%	Quru, uçan nəqliyyat vasitələri, aparatlar	8,83%
Kimya sənayesi məhsulları	9,2%	Kimya sənayesi məhsulları	7,84%
Bitki və heyvan mənşəli yağlar	8,2%	Mineral məhsullar	4,88%

Mənbə: *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*

Müstəqillik illərində ixracın tərkibində mineral məhsullar böyük paya sahib olmuş və 1995-ci illə müqayisədə 2014-cü ildə 1,6 dəfə artaraq 92,5%-ə çatmışdır. Bu illər ərzində ən çox ixrac edilən məhsullar sırasından maşınlar, avadanlıq və mexanizmlər, kimya sənayesi məhsulları çıxaraq əvəzinə bitki mənşəli məhsullar, bitki və heyvan mənşəli yağlar, plastik, kauçuk, rezin məhsulları daxil olmuşdur. İdxal və ixrac

olunan məhsulların strukturundakı bu dəyişikliklər aparılan iqtisadi siyasət və uğurlu neft strategiyasına görə baş vermişdir. Azərbaycan iqtisadiyyatının inkişafı, yeni infrastrukturun qurulması, yüksəksəviyyəli texnologiyaların tətbiqi maşın və avadanlıq, quru və uçan nəqliyyat vasitələri, aparatlar kimi məhsul növlərinin idxalının artmasına gətirib çıxarmışdır. Neft sənayesinin inkişafı mineral məhsulların idxalının azalmasına və ixracının artmasına səbəb olmuşdur. Eyni zamanda kənd təsərrüfatının inkişafı ilə əlaqədar olaraq heyvandarlıq və ərzaq məhsullarının idxalı azalmışdır.

Cədvəl 4. Əsas əmtəə qrupları üzrə ixracın strukturu

1995-ci il		2014-cü il	
Mineral məhsullar	58,6%	Mineral məhsullar	92,5%
Digər qarışıq məhsullar	21,2%	Bitki mənşəli məhsullar	1,52%
Maşınlar, avadanlıq və mexanizmlər	6,2%	Ərzaq məhsulları, içkilər, tütün	1,45%
Ərzaq məhsulları, içkilər, tütün	3,8%	Bitki və heyvan mənşəli yağlar	0,87%
Kimya sənayesi məhsulları	3,1%	Plastik, kauçuk, rezin məhsullar	0,72%
Azqiymətli metallar və onlardan hazırlanan məhsullar	2,8%	Azqiymətli metallar və onlardan hazırlanan məhsullar	0,65%

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Azərbaycan Respublikasının xarici ticarət əlaqələrini ölkə qrupları üzrə nəzərdən keçirsək görərik ki, ən sıx ticarət əlaqələri Müstəqil Dövlətlər Birliyinə və Avropa İttifaqına üzv dövlətlərlə həyata keçirilmişdir. Sözsüz ki, Azərbaycanın MDB dövlətləri ilə sıx ticarət əlaqələrinin mövcudluğu əvvəlki dövrdə Sovet İttifaqının tərkibində olması ilə bağlıdır. Ancaq Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın azad iqtisadi əlaqələr qurması nəticəsində MDB dövlətləri ilə ticarət əlaqələri nəzərəçarpacaq dərəcədə zəifləmiş, əksinə, Aİ dövlətləri ilə ticarət əlaqələri daha da güclənmişdir. MDB dövlətləri ilə ticarət dövriyyəsinin ümumi ticarət dövriyyəsində payı

1995-ci ildə 34% idisə, artıq 2015-ci ildə bu rəqəm 12%-ə enmişdi. Aİ dövlətləri ilə ticarət dövriyyəsinin ümumi ticarət dövriyyəsində payı isə 2015-ci ildə 45%-ə çatmışdı. Aİ ilə ticarət əlaqələrində ixrac, MDB ilə ticarət əlaqələrində isə idxal üstünlük təşkil etmişdir. Buna səbəb Azərbaycanın Avropa bazarında mövqeyinin güclənməsi və aparılan uğurlu neft siyasəti nəticəsində Azərbaycan neftinin daha çox Avropa ölkələrinə ixrac edilməsi olmuşdur.

Qrafik 6. Ölkə qrupları üzrə ticarət dövriyyəsinin ümumi ticarət dövriyyəsində payı (faizlə)



Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Cədvəl 5. Ölkə qrupları üzrə xarici ticarət əlaqələri (min ABŞ dolları)

	Avropa İttifaqı			Müstəqil Dövlətlər Birliyi		
	İdxal	*İxrac*	*Dövriyyə*	*İdxal*	*İxrac*	*Dövriyyə*
1995	84484.3	45162.3	129646.6	209464	239418	448882
2000	227173.3	1053468	1280641	365219.7	160562.7	525782.4
2005	1248121	1953667	3201789	1404029	696954.1	2100984
2010	1671019	10104709	11775728	2051109	1983871	4034981
2015	2931943	6552463	9484406	1961060	525389.9	2486450

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Azərbaycanın xarici ticarət əlaqələri yalnız MDB və Aİ dövlətləri ilə məhdudlaşmır. Ötən 25 ildə Azərbaycan istər Asiya, istər uzaq Amerika qitəsindəki dövlətlər, istərsə də qonşu dövlətlərlə ticarət əlaqələrini möhkəmləndirmişdir. Bu dövlətlərə Amerika qitəsindən Amerika Birləşmiş Ştatlarını, Braziliyanı, qonşu dövlətlərdən Türkiyəni, İran İslam Respublikasını, Gürcüstanı, Cənub-Şərqi Asiyadan İndoneziyanı, Sinqapuru, Malayziyanı, ərəb ölkələrindən Birləşmiş Ərəb Əmirliklərini, eyni zamanda Yaponiya, Koreya Respublikası, İsrail və digər dövlətləri aid etmək olar[20].

Cədvəl 6. İxrac əməliyyatlarında əsas tərəfdaş dövlətlər (min ABŞ dolları)

	1995	2000	2005	2010	2015
Türkiyə	*26444.8*	*104981*	*275959.3*		*304298.4*
İran İslam Respublikası	*186087.9*	*7662.2*	*166468*		
Birləşmiş Ərəb Əmirlikləri	*1576.2*	*7116.9*			
Amerika Birləşmiş Ştatları		*8004.7*	*43158*	*1627999.8*	*337704.4*
Çin Xalq Respublikası	*1750*		*99237.7*		
İsveçrə	*28282.2*	*45842.7*			
Sinqapur			*123094.4*	*510877.4*	
İndoneziya				*782160.9*	*477818.9*
İsrail				*1744821.9*	*801533.4*
Malayziya				*740783.8*	
Tunis					*291730.1*

Qeyd: *Aİ və MDB dövlətləri istisna olmaqla*
Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

20 Yenə orada

Cədvəl 7. İdxal əməliyyatlarında əsas tərəfdaş dövlətlər (milyon ABŞ dolları)

	1995	2000	2005	2010	2015
Türkiyə	*140510.2*	*128502.6*	*313001.6*	*771442.4*	*1171385*
İran İslam Respublikası	*80332*	*56830.2*	*76318.4*		
Birləşmiş Ərəb Əmirlikləri	*68735.2*				
Amerika Birləşmiş Ştatları	*13338.2*	*104131.8*	*414272.8*	*206271.1*	*847389.4*
Gürcüstan	*18875*				
Çin Xalq Respublikası		*23090.5*	*173812*	*587618.7*	*511904.6*
Yaponiya		*16390.7*			*558097.7*
Sinqapur			*384876.1*	*173893.3*	
Braziliya				*161634.7*	
Koreya Respublikası					*133946.4*

Qeyd: *Aİ və MDB dövlətləri istisna olmaqla*

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Ticarət əlaqələrini təhlil edərkən böyük əhəmiyyətə malik məsələlərdən biri də yüksək texnologiya və hazır məhsul ixracıdır. Ümumiyyətlə, yüksək texnologiyalar üçün daha geniş istifadə olunan tərif Amerika Milli Elm Fonduna məxsusdur. Həmin tərifə əsasən: "Əgər bu və ya digər texnoloji məhsulun istehsalı ilə məşğul olan sənaye sektorunda "araşdırma və texniki işləmələr"lə (R&D) məşğul olan işçilərin ümumi işçilərin sayına nisbəti bütün digər iqtisadi sektorlar üzrə müvafiq göstəricinin ədədi ortasından (average) böyük olarsa, həmin məhsul yüksək texnologiyalara (high-tech) aid edilir". Aİ-nin yanaşmasına görə isə, R&D xərcləri yüksək texnologiyalara aid edilən məhsullarda və sektorlarda, bir qayda olaraq, maya dəyərinin orta hesabla 10%-ni təşkil etməlidir[21]. Azərbaycanda da istehsal prosesində yüksək texnologiyalardan istifadə edilməsi nəticəsində yüksək texnologiya ixracının sənaye ixracatında payı və son məhsul formasına

21 OECD Library. - http://www.oecd-ilibrary.org/docserver/download/fulltext/5lgsjhvj7nkj.pdf?expires=1332748854&id=id&accname=guest&checksum=2180F1665A56B43EF556F757E827EE9D

salınan sənaye malları ixracının ümumi ixracatda payı son illər artmışdır (Qrafik 5). Göründüyü kimi, hər iki indikator üzrə son 15 ilin trendi xüsusən son bir neçə ildə sabit və artandır.

Qrafik 7. Hazır məhsul və texnologiya ixracı (faizlə)



Statistik mənbə: *Dünya Bankı metaməlumat sistemi*

Azərbaycanın 1994-cü ildə ixrac səbətinin 50%-ə qədər hissəsini toxuculuq materialları və məmulatları, azqiymətli metallar və onlardan hazırlanan məmulatlar və nəhayət, elmtutumlu maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatlar, quru nəqliyyat vasitələri, uçan aparatlar, üzən nəqliyyat vasitələri, optik, fotoqrafik, kinematoqrafiya, ölçü, nəzarət, tibbi alət və aparatlar təşkil etmişdir. Daha sonrakı illərdə mineral yanacaq, xam neft və neft emalı məhsullarının payı kəskin şəkildə artaraq 1995-2015-ci illərdə, orta hesabla, ixrac səbətinin 83,5%-ni təşkil etmişdir. Lakin bu o demək deyildir ki, qeyri-neft məhsullarının ixracı azalmışdır. Neft sektoru sürətlə inkişaf edərək ixracda böyük paya sahib olsa da, qeyri-neft məhsullarının ixracı da həmişə artıma malik olmuşdur. İlkin mərhələdə əldə edilən neft gəlirlərinin daha çox qeyri-neft sektorunun inkişafı üçün zəruri infrastrukturun yaradılmasına yönəldilməsi bu dövrdə neft ixracının artımının qeyri-neft ixracının artımını kəskin şəkildə üstələməsinə səbəb olsa da, sonrakı mərhələdə

qeyri-neft sektorunun inkişaf sürəti neft sektorunu üstələmişdir. Belə ki, 2010-2014-cü illərdə neft sektoru üzrə ÜDM artımı orta hesabla 1% təşkil etdiyi halda, qeyr-neft sektoru üzrə bu göstərici 7,5% olmuşdur[22]. Eyni zamanda 2015-ci ildə sənaye məhsulu 2,4%, o cümlədən qeyri-neft sənayesi 8,4% artmışdır. Azərbaycan iqtisadiyyatında dünyada baş verən geriləmələr nəticəsində müvəqqəti daralma müşahidə edilsə də, Prezident İlham Əliyev hökumətin qarşısında ölkə iqtisadiyyatının yaxın 10 ildə yenidən ikiqat artması və bunun üçün ildə təxminən 7-8%-lik iqtisadi artımın təmin olunması vəzifəsini qoymuşdur[23]. Hazırda neft sektorundakı artım sürəti nisbi olaraq azaldığından ÜDM-in bundan sonrakı artımı yalnız qeyri-neft sektoru hesabına mümkün olacaq. Buna görə də qeyri-neft ixracının stimullaşdırılması üçün 2015-ci ildə qeyri-neft sektorunun inkişafında mühüm rol oynayan qeyri-neft sənayesində özəl sahibkarlığın dəstəklənməsi, sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilmiş, 270-dək sənaye müəssisəsi açılmış və mühüm sənaye obyektlərinin tikintisinə başlanılmışdır.

Azərbaycan–Ümumdünya Ticarət Təşkilatı münasibətləri

Ticarət əlaqələrindən danışarkən Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlük məsələsinin təhlil edilməsi vacibdir. Miqyasına görə dünyanın ən böyük təşkilatlarından biri olan ÜTT dünya ticarətinin 98%-ni özündə əhatə etməklə 164 üzvə malikdir. Eyni zamanda 20 ölkə və bir neçə beynəlxalq təşkilat ÜTT-də müşahidəçi statusuna malikdir. Əsası 1995-ci ildə qoyulan bu təşkilat çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Təşkilatın normativ hüquqi bazasını çoxtərəfli ticarət sazişləri təşkil edir. Bu sazişlər əmtəə və xidmətlərlə ticarəti, əqli mülkiyyət, ticarət siyasətinin icmalı və mübahisələrin həlli məsələlərini tənzimləyir.

Dünya ticarətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının da ÜTT ilə münasibətləri mövcuddur. Bu münasibətlərin əsası 1997-ci il iyunun 23-də ÜTT Katibliyinə təqdim edilmiş üzvolma niyyətini

22 Azərbaycan Respublikasının Mərkəzi Bankı, Əsas makroiqtisadi göstəricilər, fevral 2017-ci il. - https://www.cbar.az/assets/3566/Bulleten-2016_dekabr.pdf

23 "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. - http://www.president.az

əks etdirən müraciətlə qoyulmuşdur. Azərbaycanın ÜTT-yə üzvolma prosesinin sürətləndirilməsində ən vacib məsələlərdən olan çoxtərəfli danışıqlar davam etdirilir. 1997-ci il iyulun 16-da ÜTT Katibliyində Azərbaycan üzrə yaradılmış İşçi Qrupunun 1-ci iclası 2002-ci ildə Cenevrədə keçirilmişdir. 2008-ci ilin 6 may və 11 dekabr tarixlərində Cenevrədə İşçi Qrupunun 5-ci və 6-cı iclaslarının sonunda Azərbaycan üzrə ilk ümumiləşdirici sənədin – Faktlar İcmalının hazırlanmasına dair qərar qəbul edilmişdir. Sənəd ÜTT Katibliyi tərəfindən hazırlanaraq Azərbaycana təqdim olunmuşdur. Sənədə dair aidiyyəti qurumlar tərəfindən rəy və təkliflər bildirilmişdir. Sənədin növbəti variantı Danışıqlar Qrupunun üzvlərinə rəy bildirilməsi üçün paylanılmış və İşçi Qrupun sonuncu – 10-cu iclasında yenidən müzakirə edilmişdir. Azərbaycanın ÜTT-yə üzvlüyü ilə bağlı sonuncu – 13-cü iclas 2016-cı il iyulun 22-də Cenevrə şəhərində keçirilmişdir. İclasda ölkənin son sosial-iqtisadi göstəriciləri haqqında məlumat iclas iştirakçılarının diqqətinə çatdırılmışdır. ÜTT-yə üzv bir sıra ölkələrin nümayəndələri tərəfindən ünvanlanmış suallara Azərbaycan tərəfinin verdiyi cavablar müzakirə edilmişdir. Azərbaycan Respublikası ÜTT-yə üzvolma prosesində 21 dövlətlə (ABŞ, Aİ, Kanada, Yaponiya, Norveç, Rusiya Federasiyası, Braziliya, Cənubi Koreya, Ekvador, Çinin Tayvan əyaləti, Şri-Lanka, Hindistan, İsveçrə, Honduras, İndoneziya, Malayziya, Dominikan Respublikası, Səudiyyə Ərəbistanı, Çin, Paraqvay, Vyetnam) ikitərəfli danışıqlar aparır. Danışıqlar zamanı Azərbaycanın mal və xidmətlər bazarına çıxışına dair məsələlər müzakirə olunur, xüsusi əhəmiyyət kəsb edən sahələrin qorunması ilə bağlı zəruri tədbirlər görülür. ÜTT-yə üzvolma prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 avqust 2003-cü il tarixli 175s saylı sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-yə üzv olmasına hazırlıq işləri üzrə Komissiyası yaradılmışdır[24].

ÜTT-nin əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, bununla da iqtisadi inkişafın artırılması və insanların həyat səviyyəsinin

24 Ümumdünya Ticarət Təşkilatı (ÜTT) haqqında: Azərbaycan və ÜTT. /Yenilənib: 04.08.2016 / - http://economy.gov.az/index.php?option=com_content&view=article&id=292&Itemid=182&lang=az

yaxşılaşdırılmasıdır. ÜTT-yə üzvlük xarici birbaşa investisiyaların həcminin artmasına, ixracyönümlü sənayenin ixrac imkanlarının genişlənməsinə səbəb olur. Eyni zamanda bu təşkilata üzvlük kreditorların hüquqlarının müdafiə edilməsi öhdəliyinin götürülməsi deməkdir. Belə ki, bu halda hökumətlərə ÜTT-yə qoşulandan sonra xarici investisiyada diskirminasiya siyasəti yeritmək imkanı verilmir. ÜTT vasitəsilə horizontal (daxili bazara istiqamətlənən) investisiyalar əhalinin daha çox konsentrasiya olduğu bölgələrə, vertikal (ixraca doğru istiqamətlənən) investisiyalar isə sərhədləri keçərək daha ixtisaslı işçilərin cəmləşdiyi sektorlara üz tutur.

Göründüyü kimi, ÜTT-yə üzvlüyün müsbət cəhətləri çoxdur. Buna baxmayaraq, üzv ölkələrin təcrübəsi göstərir ki, bu təşkilata qoşulandan sonra dövlətlərin əldə etdiyi nəticələr müxtəlifdir. Göstərilən cəhətlər həm Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirmək, həm də dünya iqtisadi sistemində öz mövqeyini möhkəmləndirmək siyasətinə uyğun gəldiyi üçün ÜTT-yə üzvlüyün qəbul edilməsi Azərbaycan üçün səmərəli ola bilər. Lakin ÜTT-yə üzvlüyün Azərbaycan üçün neqativ təsirləri də çox ola bilər. Ona görə ki, üzvlüyün qəbul edilməsi daxili bazarı qorumaq imkanlarının daralması və aqrar sektorda subsidiyaların azaldılması deməkdir. Buna görə də ÜTT-yə üzvlük bir sıra sektorlara mənfi təsir edə bilər ki, burada ən çox ziyan aqrar sektora dəyə bilər. Azərbaycanda kənd təsərrüfatının əsas məşğuliyyət sahəsi olduğunu və bu sektorda yaradılan məhsulun daha çox daxili ehtiyacların ödənilməsinə yönəldiyini nəzərə alsaq, o zaman bu sektora ayrılan subsidiyaların azaldılmasının həm məhsul istehsalına, həm də məşğulluğa vura biləcəyi zərəri təsəvvür etmək çətin deyildir. Ümumiyyətlə isə, bu kontekstdə adaptasiya tənəzzülünə məruz qalacaq sahə yalnız aqrar bölmə olmayacaq. Maliyyə, bank, sığorta və digər xidmət sahələrinin də vəziyyəti diqqətdən yayınmamalıdır və problemlərin sənayenin emal sahəsini də əhatə edəcəyi şübhəsizdir[25].

Bütün bunlarla yanaşı, onu da nəzərə almaq lazımdır ki, ÜTT iqtisadi təşkilat olsa da, ona üzvlüyün bir çox siyasi təsirləri vardır və bunun

25 ÜTT-yə üzvlük aqrar sektora daha çox ziyan vuracaq. /23.05.2013/ -http://cesd.az/new/?p=6707&lang=az

nəzərə alınması çox vacibdir. Xüsusilə də Azərbaycan kimi kiçik daxili bazara malik dövlətlərin böyük iqtisadiyyatı olan dövlətlərə ÜTT şərtləri daxilində daxili bazarını açması həmin dövlətlərə ölkənin daxili iqtisadiyyatını ələ keçirmək imkanı yaradaraq, yerli hökumətin daxili bazarı qorumaq imkanlarını daraldır. Onu da nəzərə alsaq ki, Azərbaycan gənc ölkədir və məhsullarının böyük hissəsinin rəqabət qabiliyyəti o qədər də güclü deyil, o zaman aydın olur ki, böyük istehsal təcrübəsi və bazarı olan dövlətlər üçün Azərbaycan iqtisadiyyatını özlərindən asılı vəziyyətə salmaq imkanları böyükdür. Bu məqamları yüksək ustalıqla qiymətləndirən Prezident İlham Əliyev Azərbaycanın ÜTT-yə üzvlüyü məsələsinə münasibət bildirərək qeyd etmişdir: "Bilirsiniz ki, biz hələ Dünya Ticarət Təşkilatına üzv olmamışıq, baxmayaraq bizi böyük təkidlə oraya dəvət edirlər. Demək olar, bu məsələ Azərbaycan qarşısında mütəmadi qaydada qaldırılır ki, nə üçün Azərbaycan Dünya Ticarət Təşkilatına üzv olmur? Bunun səbəbləri vardır və səbəblərdən ən birincisi yerli istehsalçının müdafiəsidir, Azərbaycan bazarının qorunmasıdır"[26]. Bütün bunlardan o nəticəyə gəlmək olar ki, Azərbaycanın ÜTT-yə üzvlüyü yerli iqtisadiyyata və iqtisadiyyatın dövlət tənzimlənməsinə mənfi təsir edəcək şərtlərin aradan qaldırılması halında məqsədəuyğun olar. Buna görə də ÜTT-nin iqtisadiyyatın diversifikasiyasına və qeyri-neft sektorunun inkişafına verə biləcəyi töhfələri nəzərə alaraq Azərbaycan hökuməti ÜTT-yə qəbul olmaq şərtləri üzərində işləyir və məqbul şərtlər daxilində razılaşmanın əldə edilməsinə çalışır.

Azərbaycan iqtisadiyyatına yönəldilmiş xarici investisiyalar

Azərbaycanın müstəqillik əldə etdikdən sonra apardığı uğurlu iqtisadi siyasətdə investisiyaların böyük əhəmiyyəti olmuşdur. Səmərəli investisiya siyasəti iqtisadiyyatın sabit və davamlı inkişafını təmin etməklə yanaşı, ÜDM-in yaradılmasında yaxından iştirak edərək məşğulluğun və iqtisadi fəallığın artmasına səbəb olur. Buna görə də Azərbaycanda investisiya siyasətinə böyük önəm verilmiş və onun yaratdığı imkanlardan

26 Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransda İlham Əliyevin yekun nitqi /05 fevral 2014-cü il/- http://www.president.az/articles/10997

səmərəli istifadə edilmişdir. Müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı böhran, müharibə şəraiti, yüksək inflyasiya və milli valyutanın öz dəyərini itirməsi investisiya resurslarının qıtlığına səbəb olmuşdur. Yaranmış makroiqtisadi vəziyyətin əhalinin əmanətlərinin sürətlə öz dəyərini itirməsinə səbəb olması daxili investisiya imkanlarını kəskin azaltmışdı. Belə şəraitdə xarici investisiyaların cəlb edilməsi iqtisadi böhrandan çıxmaq üçün əsas vasitəyə çevrildi.

Xarici investisiyaların təşviqi məqsədilə 1992-ci ildə "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu[27], daha sonra, 1995-ci ildə isə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu[28]qəbul edilmişdir. İnvestorların hüquqlarının qorunmasına xidmət edən "Xarici investisiyaların qorunması haqqında" qanunda investorların dövlətsizləşdirmədə və özəlləşdirmədə iştirakı, onların zərərlərinin kompensasiya edilməsi və fəaliyyətinə tətbiq edilən məhdudiyyətlər kimi mühüm məsələlər öz əksini tapmışdır. Digər qanun isə investisiya fəaliyyətinin dövlət tənzimlənməsi, investisiyaların maliyyələşmə mənbələri, investorların məsuliyyəti və beynəlxalq müqavilələrdə iştirakı kimi məsələlər üçün hüquqi baza rolunu oynayır. İnvestisiya sahəsində böyük əhəmiyyətə malik hüquqi sənədlərdən biri də 2010-cu ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nın təsdiqi üçün verilən fərmandır[29]. Bu fərman investisiya fəaliyyətində mövcud boşluqların aradan qaldırılması, investisiya fəaliyyətinin səmərəliliyinin artırılması və investisiyaların düzgün istiqamətləndirilməsi məqsədi daşıyırdı. İnvestisiya siyasətinə böyük önəm verən Prezident İlham Əliyev eyni zamanda 2016-cı ildə "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında"[30] fərman imzalamışdır. Bütün bunlarla yanaşı,

27 Xarici investisiyaların qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. - http://www.minenergy.gov.az/db/Xarici+investisiyalarin+qorunmasi.pdf

28 İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu. - http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=416:investment-law&catid=47:laws&lang=az

29 "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /Bakı şəhəri, 17 mart 2010-cu il/ - http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=653:dip-tertibi&catid=101:decrees&lang=az

30 İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /Bakı şəhəri, 18 yanvar 2016-cı il/ - http://www.president.az/articles/17534

Azərbaycanın hazırkı iqtisadi siyasətinə uyğun olaraq, qeyri-neft sektorunun inkişafında investisiyalara böyük əhəmiyyət verildiyindən investisiya mühitinin yaxşılaşdırılması və cəlbediciliyinin artırılması məqsədilə investisiya fəaliyyətinə "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi" kimi böyük əhəmiyyətə malik strateji sənədlərdə əhəmiyyətli yer ayrılmışdır.

Cəlbedici və sabit investisiya mühitinin formalaşması məqsədilə bəzi hüquqi sənədlər qəbul edilməklə yanaşı, bir sıra dövlət orqanları və təşkilatlar da yaradılmışdır. Bu təşkilatlardan biri Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 30 mart tarixli "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" imzaladığı sərəncam əsasında yaradılmış "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətidir[31]. Bu təşkilatın əsas məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etməklə və öz vəsaiti hesabına müddətli investisiya qoyuluşları vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. İnvestisiyaların təşviqinə xidmət edən digər təşkilat dövlət və özəl sektorun birgə təşəbbüsü ilə 2003-cü ildə İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondudur (AZPROMO). Müstəqil təşkilat olan fondun əsas məqsədi ölkə iqtisadiyyatının həm sektor, həm də region baxımından tarazlı inkişafına nail olunması, ölkədə, xüsusilə də bölgələrdə yoxsulluğun azaldılması strategiyası çərçivəsində yeni iş yerlərinin açılması üçün investisiyaların cəlb edilməsi və Azərbaycandan xaricə ixracatın təşviqi ilə əlaqədar tədbirlərin həyata keçirilməsindən ibarətdir[32]. Eyni zamanda Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi də digər funksiyalarla yanaşı, investisiya siyasətində yaxından iştirak edir. Komitənin investisiya siyasəti ilə bağlı funksiyalarına torpaqların və dövlət əmlakının idarə edilməsi, onların özəlləşdirilməsi, bu sahəyə investisiyaların cəlb edilməsi, daşınmaz əmlakın dövlət reyestrinin və vahid dövlət kadastrının aparılması kimi funksiyalar aiddir.

31 "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin rəsmi saytı: http://www.aic.az/

32 Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəsmi saytı: http://azpromo.az/1/az/5#!lb=http://azpromo.az/1/az/51

Qəbul edilmiş qanunların və yaradılmış təşkilatların fəaliyyətinin səmərəliliyi nəticəsində investisiyaların cəlb edilməsi və yerləşdirilməsi sahəsində son 25 ildə əhəmiyyətli uğurlar əldə edilmişdir. Belə ki, 1995-ci illə müqayisədə iqtisadiyyata qoyulmuş investisiyaların həcmi 45 dəfədən çox artaraq 2014-cü ildə 21.89 milyard manat təşkil etmişdir (Cədvəl 3). Bu müddət ərzində xarici investisiyalar 28, daxili investisiyalar isə 84 dəfə artmışdır. Daxili investisiyalar artım sürətinə görə xarici investisiyaları üstələsə də, bu, daha çox 2008-ci ildən sonra daxili investisiyaların payının xarici investisiyalardan çox olması nəticəsində formalaşmışdır. Buna səbəb isə aparılmış uğurlu iqtisadi siyasət nəticəsində zamanla xarici investisiyaların səmərəli istifadəsi vasitəsilə ÜDM-in və ölkə daxilindəki iqtisadi subyektlərin gəlirlik səviyyəsinin artması olmuşdur.

Cədvəl 8. Azərbaycan iqtisadiyyatına yönəldilmiş investisiyalar (milyard manat)

	1995	2000	2002	2004	2006	2008	2010	2011	2012	2013	2014
Cəmi	0,48	1,29	2,72	5,82	7,42	13,33	14,12	17,05	20,25	21,45	21,89
Xarici	0,33	0,83	2,17	4,50	4,51	5,63	6,62	6,85	8,10	8,27	9,18
Daxili	0,15	0,46	0,55	1,32	2,90	7,70	7,50	10,20	12,15	13,18	12,72

Mənbə: *Azərbaycan Respublikasının Statistika Komitəsi*

Əgər 2004-cü ildə xarici investisiyaların payı 77%-dən çox idisə, artıq 2014-cü ildə bu göstərici 42%-ə enmişdi. Ümumiyyətlə, neft-qazla zəngin ölkələrdə iqtisadiyyata yönəldilmiş daxili investisiyaların xarici investisiyaları "sıxışdırması" (*crowding-out*) müşahidə olunur. Lakin Azərbaycanda xarici təsirlərin azaldılması məqsədilə daxili investisiyaların artmasına imkan verilsə də, eyni zamanda xarici investisiyalar da məqbul səviyyədə saxlanılmışdır. Bunun nəticəsidir ki, adambaşına düşən xarici investisiyaların miqdarına görə Azərbaycan

dünyanın lider ölkələrindən biridir. Xarici investisiyaları zəruri səviyyədə saxlamaqla Azərbaycan hökuməti həm daxili və xarici investisiyaların artım sürətini, həm də iqtisadiyyatın kapitallaşmasını yüksək səviyyədə saxlamış, eyni zamanda iqtisadiyyatda texnologiyaların əvəzlənməsi prosesini təmin etmişdir.

Cəlb edilmiş xarici investisiyaların strukturuna nəzər saldıqda məlum olur ki, istər neft sektoruna, istərsə də qeyri-neft sektoruna yönəldilmiş investisiyalar əsasən artmaqda olmuşdur. Belə ki, 2015-ci ildə neft sektoruna yönəldilmiş investisiyalar 1995-ci illə müqayisədə 47 dəfə, 2004-cü illə müqayisədə isə 1,6 dəfə artmışdır (Qrafik 6).

Qrafik 8. Xarici investisiyaların strukturu (milyon ABŞ dolları)



Mənbə: *Azərbaycan Respublikasının Statistika Komitəsi*

Qeyri-neft sektoruna gəldikdə isə, 2015-ci ildə bu sektora yönəldilən vəsaitlər 1995-ci illə müqayisədə 57, 2004-cü illə müqayisədə isə 8,2 dəfə artmışdır. Göründüyü kimi, neft sektoruna qoyulmuş investisiyaların həcmi böyük olsa da, artım sürətinə görə qeyri-neft sektoruna qoyulmuş investisiyalardan geri qalmışdır. Bu da, sözsüz ki, Azərbaycanın resurslardan asılı dövlət olmasının qarşısının alınması məqsədilə qeyri-neft sektorunun inkişaf etdirilməsi siyasətinin səmərəliliyinin göstəricisidir.

Azərbaycanın etibarlı tərəfdaş kimi istər regionda, istərsə də dünyada mövqeyinin güclənməsi nəticəsində əməkdaşlıq etdiyi dövlətlərin sayının artması özünü iqtisadiyyata cəlb edilmiş investisiyalarda da qabarıq şəkildə göstərir. Azərbaycan dünyada neft ölkəsi kimi tanınsa da,

əməkdaşlıq etdiyi dövlətləri eyni zamanda qeyri-neft sektoruna cəlb edə bilmişdir. Bu da neft gəlirlərinin səmərəli istifadəsi nəticəsində qeyri-neft sektorunun inkişafı üçün zəruri infrastrukturun və mühitin yaradılması nəticəsində mümkün olmuşdur. Qeyri-neft sektoruna yönəldilmiş investisiyalara görə birinci yerdə Türkiyə dayanır. Belə ki, Türkiyədən cəlb edilmiş investisiyalar 1995-ci illə müqayisədə 70 dəfədən çox artaraq 2014-cü ildə 481.4 milyon ABŞ dolları təşkil etmişdir (Cədvəl 4). Türkiyə ilə yanaşı, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri və Niderland da qeyri-neft sektoruna yönəldilmiş investisiyalarda böyük paya sahib olmuşdur. Belə ki, 2015-ci ildə bu sektora yönəldilmiş investisiyalarda Böyük Britaniyanın payı 20%, BƏƏ-nin payı 12%, Niderlandın payı isə 10% təşkil etmişdir. Eyni zamanda Almaniya, İsveçrə kimi inkişaf etmiş dövlətlər də Azərbaycanın qeyri-neft sektoruna maraq göstərir və bu istiqamətdə əməkdaşlıq etməkdədirlər.

Cədvəl 9. Qeyri-neft sektoruna yönəldilmiş investisiyalar (milyon ABŞ dolları)

	1995	1998	1999	2004	2006	2010	2012	2013	2014	2015
Türkiyə	6,8	160,3	67,8	80,1	136,6	147,5	185,9	401,3	481,4	220,4
Böyük Britaniya	0,7	47,4	45,8	4,2	39,1	144	149,3	136	153,5	173,1
ABŞ	2,1	56,7	29,8	8,4	70	40	92,5	24,4	89,3	18,9
Niderland	0	0	0	0	0	163,5	186,4	141,6	103,8	85,9
BƏƏ	0,7	16,6	7,6	4,4	18,3	30,3	92,4	109,3	90,2	103,9
Almaniya	1,2	2,1	6,2	2,1	17,4	17	45,6	15,1	51	60,1
Rusiya	0,7	10,3	0	1,8	4,6	11,7	21,8	36,1	13,6	15,9
İsveçrə	1,2	0	0	0	2,7	11,7	79,4	18,2	18,9	15,7
Fransa	0	0	25,4	2,2	11,1	6,2	14,4	6,1	7,2	4,5
Digər ölkələr	0,5	126,1	18,6	1	38,5	37,7	186	117,5	235,1	139,4

Qeyd: *BƏƏ = Birləşmiş Ərəb Əmirlikləri*

Mənbə: *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Birgə və xarici investisiyalı müəssisələr tərəfindən isə 2015-ci ildə Azərbaycan iqtisadiyyatına 1.4 milyard dollar həcmində sərmayə yatırılmışdır ki, burada da Türkiyə, Böyük Britaniya, Niderland, Rusiya və BƏƏ liderlik edir. Azərbaycanın xarici ölkələrə yatırdığı investisiyaların həcminə görə Türkiyə birinci yeri tutur[33]. Yalnız Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən 2018-ci ilədək Türkiyəyə 18 mlrd. ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulur. Azərbaycanda 2.400-dən çox Türkiyə şirkəti, Türkiyədə isə 1.000-dən çox Azərbaycan şirkəti fəaliyyət göstərir. İki ölkə arasında ticari-iqtisadi əlaqələrin davamlı, sabit və uzunmüddətli inkişafının təmin edilməsində Azərbaycan–Türkiyə Hökumətlərarası Birgə Komissiyası da mühüm rol oynayır. ARDNŞ-nin ölkədən xaricdəki sərmayələrinə Türkiyə nümunəsində nəzər salaq. Belə ki, ARDNŞ-nin Türkiyədəki ümumi dəyəri 18 milyard ABŞ dollarını ötən və Avropanın enerji ehtiyacını ödəməyi hədəfləyən layihələri çərçivəsində "STAR" Neft Emalı Zavodu 2018-ci ildə fəaliyyətə başlayacaq. Türkiyənin 100 ən dəyərli şirkəti siyahısında yer alan "Petkim Petrokimya Holding A.Ş."-nin bazar dəyəri 2.3 milyard dollar məbləğində qiymətləndirilir. Holdinqin səhmlərinin 51%-i "SOCAR Turkey Petrokimya A.Ş."-yə, 5,32%-i isə "SOCAR Turkey Energy" şirkətinə məxsusdur. "Petkim"dəki fəaliyyət Azərbaycanın Türkiyə iqtisadiyyatına etibarının simvoludur[34].

Azərbaycanın ən çətin dövründə hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev həyata keçirdiyi uğurlu investisiya siyasəti nəticəsində xarici dövlətləri Azərbaycana cəlb etmiş və ölkəni böhrandan çıxarmağa nail olmuşdur. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın xarici dövlətlərlə əməkdaşlığını dərinləşdirmiş, Azərbaycan iqtisadiyyatının cəlbediciliyini daha da artırmış və nəticədə adambaşına düşən xarici investisiyaların həcminə görə Azərbaycan dünyanın lider ölkələrindən birinə çevrilmişdir. Azərbaycanın həyata keçirdiyi ehtiyatlı və balanslı siyasətə uyğun olaraq, investisiyaların

33 Veliyev C., Resullu R., Aslanlı K. Azerbaycan-Türkiye: Dostluk, Kardeşlik ve Strateji Ortaklık. Berikan Yayınevi, 2012

34 "Petkim"in bazar dəyəri açıqlanıb /08.09.2016/ - http://apa.az/iqtisadiyyat-xeberleri/senaye-ve-energetika/petkim-in-bazar-deyeri-aciqlanib.html

xarici dövlətlərin Azərbaycana təsir vasitəsinə çevrilməsinin qarşısı alınmışdır. Belə ki, xarici investisiyaların səmərəli istifadəsi vasitəsilə böhrandan çıxan Azərbaycan sonrakı mərhələdə davamlı iqtisadi inkişafı təmin etməklə bərabər, daxili investisiyaların payını da artırmışdır. Nəticədə Azərbaycan iqtisadiyyatının maliyyələşməsində daxili investisiyalar aparıcı mövqeyə malik olmuş və xarici dövlətlərdən asılılıq azaldılmışdır. Eyni zamanda neftdən asılılığın azaldılması ilə xarici şokların təsir imkanlarının daraldılması məqsədilə qeyri-neft sektoruna da investisiya qoyuluşunun həcmi artırılmış və artım sürətinə görə neft sektorunu üstələmişdir. Bu, eyni zamanda Azərbaycan iqtisadiyyatının uzunmüddətli dövrdə qeyr-neft sektoru hesabına inkişaf etdirilməsi siyasətinin səmərəliliyinin artırılmasına xidmət edir.

İnvestisiya siyasətinin xarakterik cəhətlərindən biri də istər struktur baxımından, istərsə də coğrafi baxımdan investisiyaların konsentrasiyasının qarşısının alınmasıdır. Bu, hər hansı bir xarici dövlətin Azərbaycan iqtisadiyyatına birbaşa təsir etmək imkanlarını azaldır. Aparılmış səmərəli investisiya siyasəti nəticəsində həm iqtisadiyyatın maliyyələşməsi təmin edilmiş, həm dünya ölkələri ilə əməkdaşlıq genişləndirilmiş, həm də investisiyaların siyasi təsir vasitəsinə çevrilməsinin qarşısı alınmışdır.

Beynəlxalq humanitar yardımlar

Digər ölkələrdən qəbul edilən xalis "rəsmi inkişaf yardımı"nın *(net official development assistance)* ümumi milli gəlirə nisbəti (%-lə) ildən-ilə azaldığından Azərbaycan güclü bir dövlət kimi beynəlxalq yardım qəbul edən ölkədən tədricən donor ölkəyə çevrilmişdir (Qrafik 7). Azərbaycanın tədricən donor ölkəyə çevrilməsinin nəticəsi kimi 2011-ci il sentyabrın 14-də Xarici İşlər Nazirliyinin tərkibində Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA – Azerbaijan International Development Agency) yaradılmışdır. Agentliyin rəsmi məlumatında qeyd olunur ki, agentliyin yaradılmasında əsas məqsəd dünyanın müxtəlif bölgələrində hökm sürən sosial problemlərlə mübarizədə beynəlxalq ictimaiyyətin göstərdiyi səylərə ölkəmiz tərəfindən dəstək verilməsini

təmin etməkdir. Eyni zamanda Azərbaycanda müşahidə edilən iqtisadi inkişaf nəticəsində xarici ölkələrdən daxil olan və getdikcə artan müraciətlər əsasında Azərbaycanın zamanında və əlaqələndirilmiş şəkildə beynəlxalq yardımını təşkil etmək AIDA-nın əsas vəzifəsi kimi müəyyən edilmişdir. Xarici dövlətlərə yardım göstərilərkən əməkdaşlıq, səmərəlilik, şəffaflıq və hüquq bərabərliyi prinsiplərini əsas götürərək, AIDA təsis olunduğu vaxtdan etibarən öz fəaliyyətini əsasən iki istiqamət üzərində qurmuşdur: humanitar yardım göstərilməsi və beynəlxalq inkişafa dəstək.

Qrafik 9. Qəbul edilən "rəsmi inkişaf yardımı"nın ÜDM-ə nisbəti



Mənbə: *Dünya Bankının metadatası*[35]

AIDA dünyanın inkişaf etməkdə olan ölkələrində iki və çoxtərəfli əməkdaşlıq çərçivəsində yoxsulluğun azaldılması, elmin, mədəniyyətin və səhiyyənin inkişafı, rabitə və informasiya texnologiyalarının tətbiqi, enerji resurslarından səmərəli istifadə, müxtəlif təyinatlı təqaüd proqramlarının, habelə humanitar və texniki təyinatlı digər layihələrin həyata keçirilməsini dəstəkləyir. Qeyd olunan proqramlardan faydalanan ölkələrin sayı artıq 30-u ötmüşdür və yaxın gələcəkdə bu proqramların şaxələndirilməsi, eləcə də faydalanan ölkələrin sayının artırılması nəzərdə tutulmuşdur. Hazırda AIDA BMT-nin İnkişaf Proqramı, İslam Əməkdaşlıq Təşkilatı, İslam İnkişaf Bankı, Kolumbiyanın Beynəlxalq

35 World Bank, Net ODA received (percentage of GNI). http://data.worldbank.org/indicator/DT.ODA.ODAT.GN.ZS?locations=AZ

Əməkdaşlıq Agentliyi (APC Colombia) və bir sıra digər nüfuzlu beynəlxalq donor təşkilatlarla əməkdaşlıq edir və birgə layihələrin həyata keçirilməsi məqsədilə tərəfdaşlıq əlaqələrini genişləndirir.

Azərbaycan iqtisadiyyatında son islahatlar və strateji sənədlər

Son illər qlobal miqyasda baş verən iqtisadi proseslər fonunda ölkə iqtisadiyyatının inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın genişləndirilməsi üçün əlverişli imkanların yaradılması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının stimullaşdırılması, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, idxalın əvəzlənməsi, o cümlədən yerli sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi istiqamətində aparılan iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsi və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etmək məqsədilə ölkə başçısı tərəfindən mühüm islahatlar həyata keçirilmiş, strateji əhəmiyyətə malik sənəd və proqramlar qəbul edilmişdir. Həyata keçirilmiş islahatlar və qəbul edilmiş strateji sənədlər Azərbaycan iqtisadiyyatının inkişaf istiqamətinin və perspektivlərinin müəyyən edilməsi baxımından əhəmiyyətlidir. Bu iqtisadi tədbirlərin bir çoxu xarici siyasətə təsir imkanlarına malikdir. Buna görə də onların nəzərdən keçirilməsi önəmlidir.

"Bir pəncərə" prinsipinin tətbiqi

2008-ci ildən etibarən sahibkarlıq subyektlərinin qeydiyyatı "bir pəncərə" prinsipinə uyğun həyata keçirilir. Bunun nəticəsində kommersiya hüquqi şəxslərin qeydiyyat və biznesə başlama prosedurlarının sayı 13-dən 3-dək, müddəti isə 53 gündən 3 günədək, təqdim edilməli olan sənədlərin sayı 5 dəfədən çox azaldılmışdır. 2011-ci il iyunun 1-dən etibarən fiziki şəxslərin, 2012-ci ilin fevral ayından etibarən hüquqi şəxslərin elektron qaydada qeydiyyatına başlanılmışdır. 2009-cu ildən miqrasiya proseslərinin idarə olunmasında, 2011-ci ildən idxal edilən nəqliyyat vasitələrinin rəsmiləşdirilməsində "bir pəncərə"

prinsipi tətbiq edilir. Eyni zamanda 2009-cu ilin yanvar ayından etibarən sərhəd buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipi tətbiq edilir ki, bu da dövlət sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılması zamanı süni maneələrin aradan qaldırılması, idxal-ixrac əməliyyatlarının müasir tələblərə uyğun aparılması üçün münbit şəraitin yaradılması məqsədi daşıyır[36]. Aparılan islahatlar nəticəsində biznesə başlama sahəsində islahatlara görə Azərbaycan Dünya Bankının "Doing Business-2009" hesabatında ən islahatçı dövlət kimi göstərilmişdir.

Qeyri-neft məhsullarının ixracının təşviqi

2016-cı il martın 1-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" fərman 2016-2020-ci illərdə Azərbaycan Respublikasında istehsal olunan qeyri-neft məhsullarının ixracının təşviqi üçün ölkə ərazisində istehsal edilən və istehsal prosesində istifadə olunan yerli komponentlərin və ölkə ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilməsini nəzərdə tutur. Ödəniləcək ixrac təşviqinin baza məbləği ixrac əməliyyatlarına görə faktiki ixrac olunmuş malın ixrac gömrük bəyannaməsində nəzərdə tutulan gömrük dəyərinin 3%-ni təşkil edir. İxrac təşviqinin ödənilməsi üçün 2016-cı ilin və 2017-2020-ci illərin dövlət büdcəsində zəruri vəsait nəzərdə tutulacaq[37].

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli fərmanı ilə təsdiq edilmiş "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları" gömrük sərhəd buraxılış

36 "Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "Bir pəncərə" prinsipinin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - http://www.customs.gov.az/az/Bir%20P%C9%99nc%C9%99r%C9%99_f%C9%99rman.html

37 "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /01 mart 2016-cı il/ - http://www.president.az/articles/17948

məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi ilə bağlı münasibətləri tənzimləyir[38]. Burada təsbit edilən "yaşıl dəhliz" əvvəlcədən elektron formada təqdim olunmuş qısa idxal bəyannaməsi əsasında aparılmış gömrük nəzarətinə və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq malların və nəqliyyat vasitələrinin fiziki yoxlanılması aparılmadan gömrük ərazisinə buraxılışını nəzərdə tutan buraxılış sistemidir. Gömrük nəzarətinin həyata keçirilməsi və gömrük yoxlamalarının aparılmasının zəruriliyinin müəyyən olunması məqsədilə idxalatçılar yüksək, orta və aşağı risk qruplarına bölünürlər.

2016-cı il mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanunları imzalayıb. Dəyişikliklərə əsasən dəmir yolu ilə nəql edilən yüklər Azərbaycan ərazisindəki son dəmir yolu stansiyasından yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrilə ən yaxın gömrük məntəqəsindən keçirilməklə digər dövlətə daşındıqda iyunun 1-dən 3 il müddətində yol vergisi və dövlət rüsumundan azaddır. Dəyişiklikdən sonra daşıma xərclərinin azalması İran–Azərbaycan–Rusiya marşrutunun iqtisadi cəlbediciliyini daha da artırmışdır. Naxçıvanın Türkiyəyə ən yaxın dəmir yolu stansiyasından gömrük məntəqəsinə qədər olan ərazidə yüklərin daşınması dövlət rüsumu və yol vergisindən azad oluna bilər[39].

Sahibkarlığın inkişafının stimullaşdırılması baxımından 2009-cu il aprelin 19-da qəbul edilmiş "Xüsusi iqtisadi zonaların yaradılması haqqında" qanun böyük əhəmiyyətə malikdir. Qanuna əsasən, xüsusi iqtisadi zonanın yaradılmasının məqsədi xüsusi hüquqi rejimin və müasir texnologiyaların tətbiqi əsasında rəqabətqabiliyyətli yeni istehsal və xidmət sahələrinin təşkili yolu ilə sahibkarlığın və bütövlükdə

38 Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları /21.05.2016/ - http://azertag.az/xeber/Mallarin_ve_neqliyyat_vasitelerinin_gomruk_serhedinden_kechirilmesi_uchun_Yasil_dehliz_ve_diger_buraxilis_sistemlerinden_istifade_QAYDALARI-953676

39 "Yol vergisinin 3 illik ləğvi nə verəcək?- ŞƏRH". /27.05.2016/ - http://afn.az/iqtisadiyyat/38705-yol-vergisinin-3-illik-legvi-ne-verecek-.html

iqtisadiyyatın inkişafını sürətləndirməkdir[40]. Xüsusi iqtisadi zonalarda dağ-mədən sənayesi məhsullarının hasilatı və emalı, teleradio yayımı, spirtli içkilərin və tütün məmulatlarının istehsalı istisna olmaqla, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq mümkündür. Xüsusi iqtisadi zonalar müvafiq icra hakimiyyəti orqanlarının qərarına əsasən yaradılır və burada vergi güzəştləri tətbiq edilir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası

Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatyönümlü tədbirlər çərçivəsində Azərbaycanda iqtisadi inkişaf hədəflərini və xarici ticarətdə diversifikasiya yanaşmasını təsbit edən strateji sənədlər qəbul edilmişdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması və qəbulu strateji qərar qəbuletmədə oynadığı əhəmiyyətli rol baxımından əlamətdar olmuşdur. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Prezident sərəncamında göstərilir ki, "hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur" və bu mərhələnin əsas hədəfləri belə sadalanır: 1. çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması; 2. sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması; 3. elmin və mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması. Sənəddə müasir dövrümüzün əsas çağırışları aşağıdakı kimi qeyd olunur: "Beynəlxalq ticarət, rəqabət, əqli mülkiyyət və ətraf mühitlə bağlı yeni standartların müəyyənləşəcəyi və bu istiqamətdə beynəlxalq təşkilatların rolunun güclənəcəyi ehtimal olunur. Beynəlxalq bazarlarda ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inkişaf etdirən və beləliklə, yüksək əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətədavamlığının artacağı gözlənilir". Belə bir şəraitdə Azərbaycanın qarşısında duran əsas məsələ dünya ölkələrinin inkişaf sürəti ilə

40 "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanunu. - http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=736:xiz-haqqinda&catid=47:laws&lang=az

müqayisədə geriliyə yol verməməkdir. Konsepsiyanın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, Azərbaycanda davamlı iqtisadi artım və yüksək sosial rifah, səmərəli dövlət idarəetməsi və qanunun aliliyi, insanların bütün hüquq və azadlıqlarının tam təmin olunması və vətəndaş cəmiyyətinin ölkənin ictimai həyatında fəal statusu ilə səciyyələnən müstəqillikdən sonrakı inkişaf sürətinin gələcəkdə daha da artırılmasıdır. Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində 2020-ci ildə ölkədə adambaşına düşən ÜDM-in həcminin iki dəfə artaraq 13.000 ABŞ dollarına, qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin isə 1.000 ABŞ dollarına çatdırılması planlaşdırılır. Konsepsiyanın əhatə etdiyi dövr ərzində qeyri-neft sektoru üzrə ÜDM-in orta illik real artım sürətinin 7%-dən yüksək olması nəzərdə tutulur. Göstərilən məqsədə çatmaq üçün bazar iqtisadiyyatı şəraitində sağlam rəqabəti təmin edən səmərəli dövlət tənzimləməsi, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan ixracyönümlü iqtisadiyyata transformasiya və sosial, iqtisadi sahələrin inkişafına kompleks yanaşma prinsipləri əsas tutulacaqdır.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın müəyyən edilmiş 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır[41]. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycan dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır. Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün

41 Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. /Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmişdir/. - http://www.president.az/articles/21993

uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir. Qısamüddətli dövrdə seçilmiş prioritetlərə fokuslanmaqla orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın bünövrəsi qoyulacaqdır. Strateji Yol Xəritəsi iqtisadi inkişafa töhfə verən bütün faktorları, o cümlədən yerli və beynəlxalq özəl sektor nümayəndələrinin kommunikasiyası və əməkdaşlığı üçün imkanları təmin edəcəkdir. Dövlət investisiyaları katalizator rolunu oynayacaq, iqtisadi inkişafın lokomotivi isə özəl sektor olacaqdır.

Nəticə

Azərbaycanın yenidən müstəqilliyini bərpa etdikdən sonra keçdiyi 25 il qısa bir müddət olsa da, iqtisadi sahədə əldə edilmiş uğurlarla zəngindir. Təsadüfi deyildir ki, bu müddət ərzində Azərbaycan iqtisadiyyatı kəskin böhran yaşayan iqtisadiyyatdan dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatı səviyyəsinədək yüksəlmişdir. Bu uğurlar uzaqgörən və səmərəli iqtisadi siyasət aparılmadan əldə edilə bilməzdi. Bu baxımdan Azərbaycanın əldə etdiyi sürətli iqtisadi artım Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyevin xidmətlərinin nəticəsidir.

Müstəqilliyinin ilk illərində Azərbaycanın erməni təcavüzünə məruz qalması, xarici iqtisadi əlaqələrin yoxluğu, valyuta çatışmazlığı və yüksək inflyasiya kimi faktorların təsiri ilə Azərbaycan dərin iqtisadi böhrana məruz qalmışdı. Bununla yanaşı, Azərbaycanın iqtisadi böhrandan çıxarılmasına deyil, əksinə, hakimiyyət uğrunda mübarizəyə yönələn idarəetmə sistemi bu böhranı daha da kəskinləşdirmiş və ölkə ərazisinin bir hissəsinin itirilməsinə gətirib çıxarmışdı. Belə şəraitdə Azərbaycanın müstəqil respublika kimi mövcudluğu sual altında qalsa da, Ümummilli lider Heydər Əliyev xalqın istəyi ilə hakimiyyətə gələrək öz iradəsi və səriştəsi ilə müstəqilliyimizi qoruyub saxlamış və Azərbaycanı böhrandan çıxararaq iqtisadi inkişafı və siyasi sabitliyi

təmin etmişdir. Azərbaycanın inkişafının dünya iqtisadiyyatına inteqrasiya etmədən mümkünsüz olduğunu ustalıqla qiymətləndirən Ümummilli lider bazar iqtisadiyyatı sisteminin qurulması, azad bazar münasibətlərinin yaradılması üçün islahatlara başlamış və Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmişdir.

Həyata keçirilmiş uğurlu enerji strategiyası həm Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını dərinləşdirmiş, həm də milli və iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün zəruri maliyyə bazası yaratmışdır. Enerji strategiyası Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas paya sahib olan dövlətlərdən birinə çevirərək onun iqtisadi və siyasi mövqeyini möhkəmləndirmişdir. Eyni zamanda neft gəlirləri gələcək nəsillər üçün də qorunub-saxlanılmışdır. Yəni gələcəkdə də bu təbii resurslar Azərbaycanın müstəqilliyinin qorunmasına xidmət edəcəkdir. İstər neft və qazın dünya dövlətlərinə çatdırılması, istərsə də Azərbaycanın coğrafi mövqeyindən səmərəli istifadə nəticəsində Azərbaycan Avropa və Asiyanı birləşdirəcək nəqliyyat qovşağına çevrilməkdədir. Bunun nəticəsidir ki, həm regionun, həm Avropanın, həm də Asiyanın müxtəlif dövlətləri Azərbaycanla əməkdaşlıq etməyə can atır və onun nəqliyyat potensialından istifadə etməyə çalışır.

Azərbaycan istər enerji, istərsə də nəqliyyat sahələrində xarici dövlətlərlə əməkdaşlığı artırsa da, özünün ehtiyatlı siyasəti ilə həmin dövlətlərin inteqrasiyadan ölkə iqtisadiyyatına təzyiqlər göstərmək, onu özündən asılı salmaq üçün istifadə etmək imkanlarını daraltmışdır. Bunun nəticəsidir ki, Azərbaycan həyata keçirdiyi balanslı xarici siyasəti ilə həm əməkdaşlığı genişləndirmiş, həm də özünün müstəqil qərar vermək potensialını qoruyub-saxlamışdır. Azərbaycanın öz müstəqil qərar vermək imkanını qorumasında qeyri-neft sektorunun da rolu böyükdür. Zamanla neft gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönəldilməsi nəticəsində neft gəlirlərindən asılılıq azaldılmış, qida təhlükəsizliyi təmin edilmiş və Azərbaycan iqtisadiyyatının xarici iqtisadi böhranlara davamlılığı artırılmışdır. Artıq Azərbaycan bir çox istehlak məhsulları ilə özünü təmin edir və ixrac potensialını artırmaqdadır. Aparılan uğurlu iqtisadi siyasət nəticəsində dünyada iqtisadi böhranlar baş versə də, iqtisadiyyatın davamlı inkişafı təmin edilmişdir.

Bütün bunlarla yanaşı, neft gəlirləri hesabına zəruri infrastrukturun yaradılması nəticəsində Azərbaycan neft qiymətlərinin aşağı olduğu dövrdə yeni iqtisadi siyasətə, yəni qeyri-neft sektorunun inkişafı siyasətinə keçidi də uğurla həyata keçirməkdədir. Bu istiqamətdə həyata keçirilən islahatlar, qəbul edilmiş strateji sənədlər neft gəlirlərinin azlığı şəraitində də Azərbaycanın gələcəkdə iqtisadi potensialının artırılmasına və makroiqtisadi sabitliyin qorunmasına imkan yaradacaqdır. İstər qeyri-neft sektorunun sürətli inkişafı, istər həyata keçirilən enerji layihələri, istərsə də Azərbaycanın nəqliyyat qovşağına çevrilməsi istiqamətində atılan addımlar ölkəmizin dünya iqtisadiyyatındakı mövqeyinin və regiondakı liderliyinin qorunub-saxlanılmasına imkan yaradacaqdır.

Beləliklə, Azərbaycanın müstəqillik əldə etdikdən sonra keçdiyi keşməkeşli yol əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan uzaqgörən iqtisadi siyasətlə Azərbaycanın dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilməsi ilə nəticələnmişdir. Neft gəlirlərinin Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafına transformasiyası nəticəsində iqtisadi artım və milli təhlükəsizlik təmin edilmiş və gələcək nəsillərin sosial və maliyyə ehtiyaclarının ödənilməsi üçün baza yaradılmışdır. Həyata keçirilmiş balanslı xarici siyasət Azərbaycanın inkişafını təmin etməklə və iqtisadi potensialını artırmaqla yanaşı, onu xarici dövlətlərin birbaşa təsirlərindən qorumuş və gələcəkdə də təsir imkanlarının məhdud olması üçün əlverişli şərait yaratmışdır.

Azərbaycan Respublikasının xarici siyasətində humanitar aspektlər

Araz Qurbanov *

Giriş

Beynəlxalq təcrübəyə əsasən, effektiv daxili və xarici siyasi fəaliyyətin mahiyyətində ilk növbədə humanizm prinsipləri – insan amili dayanmalı və diplomatik hədəflərə çatmaqda yardımçı olmalıdır. Xatırladaq ki, ötən əsrin 80-90-cı illərində dünyada baş vermiş və bu gün də ətalət üzrə davam edən qlobal dəyişikliklər, xüsusilə əvvəlki ikiqütblü düzənin süqutu və onun növbəti antaqonist sistemlə əvəzlənməsi prosesi, maksimalist maraqlar ətrafında yeni dövlətlər ittifaqlarının yaranması beynəlxalq humanitar münasibətlərə də ciddi təsir göstərmişdir. Eyni zamanda SSRİ-nin tarix səhnəsindən silinməsi ilə həmin siyasi-coğrafi məkanda yaranan yeni müstəqil dövlətlərin öz humanitar problemləri ilə birlikdə beynəlxalq münasibətlər sisteminə qoşulması yaranmış vəziyyəti daha da mürəkkəbləşdirmişdir. Nəticədə planetin müxtəlif guşələrində baş qaldıran yeni hərbi-siyasi böhran və qarşıdurma tipləri, beynəlxalq terrorizm, dini və etnik zəmində olan aqressiv separatizm, etnik, dini dözümsüzlük, ifrat millətçilik və ksenofobiya kimi təhdidlər ayrı-ayrı dövlətlərin əlahiddə problemlərinə deyil, bütövlükdə dünya birliyinin təhlükəsizlik məsələsinə çevrilmişdir. Beləliklə, XX əsr "estafet ağacı"nı XXI əsrə ötürərkən xələfinə "Pandora qutusu"nu – növbəti hərbi-siyasi, sosial-iqtisadi və humanitar problemlər toplusunu da miras qoymuş, yeni dövrün hüquqi və ictimai-siyasi leksikasına "humanitar siyasət", "humanitar təcavüz", "humanitar müharibə", "humanitar fəlakət", "humanitar təhlükəsizlik", hətta "humanitar bombardman" kimi termin və ifadələr gətirmişdir.

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Daxili siyasətin təhlili şöbəsinin aparıcı elmi işçisi*

Humanizm, xarici humanitar siyasət və onun daxili mənbələri

Əvvəlcə universal, ümumbəşəri dəyər olan "humanizm" anlayışı haqqında bəzi məqamları qeyd edək. Məsələn, Sokrat humanizmi istənilən zorakılığın, münaqişənin aradan qaldırılmasında konsensusda, tərəflər arasında barışdırıcı mövqelərin əldə olunmasında görürdü. Eramızdan 100 il əvvəl yaşamış Roma siyasətçisi və filosofu Mark Tuli Siseron isə "humanitas" *(humanizm)* dedikdə antik yunan fəlsəfəsindən qaynaqlanan, insanın fikir azadlığına söykənən əxlaq dəyərlərini nəzərdə tutmuş və onu yalnız elitar təbəqəyə aid ali keyfiyyət hesab etmişdi. Bu yanaşma tərzi İlkin orta əsrlər Avropasında da qalmış, hətta bir-biri ilə uzun-uzadı fəlsəfi məktublarla yazışan zadəgan və filosoflar "humanist" adlandırılmışdır.

Orta əsr Qərb təfəkküründə hakim olan "xristian humanizmi"nə görə, hər bir şəxs "doğulan gündən ölənədək günahkar məxluq" sayılırdısa, məhz Şərq-islam fəlsəfəsi ilə sıx təmaslardan sonra bu baxış əsasən dəyişmiş, insan İntibah dövründə "Rəbbin yaratdığı ən mükəmməl varlıq" kimi dəyərləndirilməyə başlanılmış, "hakimiyyət", "siyasət" anlayışları ilə "humanizm" termini arasında kəskin mənəvi-əxlaqi ziddiyyətlərin olduğu bildirilmişdi. Hətta "məqsədə çatmaq üçün bütün vasitələrin yetərli olduğunu" iddia edən Nikkolo Makiavelli "Hökmdar" əsərində həmin ziddiyyətləri qabartdığına görə "xristian humanizmi"nin – kilsə hakimiyyətinin təqiblərinə məruz qalmışdı. Onu da əlavə edək ki, "xristian humanizmi"nin hərbi-siyasi təzahürü olan səlib yürüşləri Avropaya yalnız tükənməz sərvətlər gətirməmiş, Qərb sivilizasiyasının, onun mənəvi-əxlaqi və hüquqi dəyərlər sisteminin, fəlsəfi baxışlarının, bütövlükdə Avropa maarifçiliyinin formalaşmasına güclü təkan vermişdir. Orta əsrlərdə Qərb dünyasında böyük populyarlıq qazanan islam humanizmi ənənələri, Şərq deizmi, sufi fəlsəfəsi, islam mənəvi-əxlaqi dəyərləri, Nizaminin, Sədinin, Ruminin, Mənsur Həllacın, Sührəvərdinin, Nəsiminin və onlarca başqalarının "kamil insan – azad insan", "müdrik hökmdar" təsəvvürləri Qərbdə "humanizm" anlayışını məzmun və keyfiyyətcə dəyişmişdir. Bu gün dövlətlər arasında və cəmiyyətdaxili münasibətlərdə mühüm rol oynayan həmin prinsiplər "siyasi humanizm", "humanitar siyasət" və ya

"siyasətdə humanizm" kimi yeni mənəvi çalarlarla zənginləşərək, daxili və xarici siyasətdə insan amilinin əhəmiyyətini yeni səviyyəyə yüksəltmişdir.

Məlumdur ki, beynəlxalq münasibətlər sistemində hər bir dövlətin layiq olduğu mövqeyi tutması, özünü etibarlı tərəfdaş kimi təsdiqləyə bilməsi, milli maraqlarını hərtərəfli müdafiə etməsi, qlobal təhdid və çağırışlara adekvat reaksiyası və s. onun yürütdüyü xarici siyasətdən çox asılıdır. Təcrübə göstərir ki, bu sahədə müsbət nəticələri təmin edən vacib amillərdən biri də milli və ümumbəşəri mənafelərin mümkün dərəcədə bir-biri ilə uzlaşdırılması, habelə xarici siyasət prioritetlərinin dəqiq hədəflərinin müəyyən olunmasıdır[1]. Çünki humanitar siyasət insanın, cəmiyyətin, bütövlükdə isə bəşəriyyətin mənafelərini önə çəkir, ölkə daxilində ictimai-siyasi vəziyyətin sabitliyini təmin edir, dövlət-cəmiyyət münasibətlərini möhkəmləndirir, digər tərəfdən, xarici siyasətin effektliyini artırmaqla xalqlar, dövlətlər və fərqli mədəniyyətlər arasında əlaqələrin genişlənməsinə əlverişli zəmin yaradır. Odur ki, beynəlxalq münasibətlərdə humanitar siyasətin ümumi məqsədləri sırasına dövlətlər arasında ədalətli, bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin qurulması və möhkəmləndirilməsi, onların suverenlik hüququnun qorunması, xalqların və mədəniyyətlərin dialoqunun genişləndirilməsi, qlobal humanitar problemlərin birgə həlli, mübahisəli məsələlərin danışıqlar yolu ilə tənzimlənməsi və s. daxil edilmişdir. Beləliklə, humanitar siyasət vahid və bölünməz anlayış olaraq demokratik dövlətlərin aşağıdakı istiqamətlər üzrə fəaliyyətlərini özündə ehtiva edir:

- *daxili siyasətdə: cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında, dövlətin hüquq sistemində humanizm prinsiplərinin davamlı təmin olunması;*
- *xarici siyasətdə: dövlətin daxili siyasətinə yönəlik həmin prinsiplərə əsaslanan, milli və ümumbəşəri maraqlara cavab verən fəaliyyətdə humanizm aspektlərinin önə çəkilməsi, humanitar əlaqələrin qurulması və möhkəmləndirilməsi.*

Birinci halda "humanitar siyasət" anlayışı dövlətin daxili siyasətinin

1 Məmmədov N. Heydər Əliyevin xarici siyasət konsepsiyası uğurlu bəhrələrini verir. // "Azərbaycan" qəzeti, 14 aprel 2011-ci il, s.4.- http://www.anl.az/down/meqale/azerbaycan/2011/aprel/168388.htm

tərkib hissəsi olaraq əhalinin bütün kateqoriyalarının rifah halının yüksəlməsinə, insanın hərtərəfli inkişafına, onun konstitusion hüquqlarının təminatına, vətəndaş birliyinin, milli və dini münasibətlərdə sabitliyin əldə olunmasına, bütövlükdə cəmiyyətin inkişafına yönəldilmiş fəaliyyətdir və beynəlxalq hüququn tələblərinə unifikasiya edilmiş milli qanunvericilik aktları ilə tənzimlənir. İkinci halda xarici siyasət xəttində humanitar siyasət öz mənbəyini məhz dövlətin ölkə daxilindəki həmin sosial-mədəni, iqtisadi və hüquqi fəaliyyətindən, onun nəticələrindən, ümumbəşəri humanizm prinsiplərindən götürür və beynəlxalq əlaqələrdə humanitar sahələri *(elm, təhsil, mədəniyyət, turizm, səhiyyə, idman və s.)* əhatə edir. Onu da əlavə edək ki, beynəlxalq hüquq terminologiyasında "humanitar siyasət" dedikdə əsasən daxili siyasətə yönəldilən humanitar fəaliyyət nəzərdə tutulur. Bu isə humanitar siyasətin bölünməz xarakter daşıdığını, daxili və xarici siyasətdəki sivil humanitar amillərin bir-birindən asılı olduğunu göstərir. Daxili siyasət ümumbəşəri humanizm dəyərlərinə nə dərəcədə bağlı olarsa, xarici humanitar siyasət də bir o qədər səmərəli nəticələr verə bilər. Xarici siyasətdə ali məqsədə çatmaqda fəal yardımçı rolu oynayan "yumşaq güc" və ya "alternativ diplomatiya"nın – humanitar siyasətin əsas obyekti konkret ölkənin, regionun əhalisi, onun təsir vasitəsi isə milli-mədəni dəyərlərin, mədəniyyətlərin, intellektual potensialın təbliği və mübadiləsidir. Onu da xatırladaq ki, keçmiş SSRİ-də "humanitar siyasət" anlayışı mövcud olsa da, bu ideoloji mif sistem daxilində insan hüquq və azadlıqları ilə bağlı problemlərin pərdələnməsinə, sovet cəmiyyətinin vahid məqsəd, məsələn, "xalqlar dostluğu", "sovet xalqı", "sovet mədəniyyəti" kimi ideologemlər[2] ətrafında birləşməsinə yönəldilmişdi.

O da qeyd olunmalıdır ki, müasir qlobal proseslər və ümumbəşəri təhdidlər beynəlxalq münasibətlər sistemində, sülh və təhlükəsizliyin təminatında humanizm prinsiplərinin zəruriliyini daha da artırmaqla, onun sosial təyinatını da gündəmə gətirmişdir. 2016-cı ilin mart ayında Bakıda keçirilmiş IV Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev humanitar siyasətin bünövrəsində dayanan ümumbəşəri humanizm

2 *İdeoloji təsəvvürlərin bir elementi*

prinsiplərinin hamılıqla qorunmasının və inkişafının əhəmiyyətinə toxunaraq demişdir: *"Humanizmin baza xarakterli, fundamental dəyərlərini qoruyub saxlamaq və artırmaq, ona dövrümüzün çağırışlarına uyğun forma vermək lazımdır. Müasir humanizm ilk növbədə özünün sosial yönümlü olması ilə fərqlənir. Onun məzmunu insanın əsas problemlərinin həlli, fiziki və mənəvi imkanlarının reallaşması ilə ayrılmaz surətdə bağlıdır. Belə humanizm sosial ədalətə can atan cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirir"*[3]. Bütün bunlar humanizm prinsiplərinə əsaslanan dünyəvi və hüquqi dövlət quruculuğu prosesinin müsbət nəticələnməsinin ölkədə vətəndaş cəmiyyətinin formalaşmasından və inkişafından, siyasi liberallaşdırmanın genişləndirilməsindən, qanunun aliliyinin, insanların hüquq və azadlıqlarının, bütövlükdə insan amilinin qorunmasına istiqamətləndirilən fəaliyyətdən çox asılı olduğunu bir daha təsdiqləyir. Vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Konstitusiyasının fəlsəfəsini, bu sənəddən irəli gələn bütün norma və müddəalarının bazasını da ümumbəşəri prinsiplər – demokratik, hüquqi, sosial dövlət quruculuğu ideyası, insan hüquq və azadlıqlarının aliliyi təşkil edir. Əsas Qanunda təsbit edilmiş prioritetlər ölkədə humanizm prinsiplərinə söykənən güclü, müasir və sosialyönümlü dövlət quruculuğuna, etibarlı sosial müdafiənin formalaşmasına – bir sözlə, insan amilinin inkişafına möhkəm hüquqi zəmin yaratmışdır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının qorunması, ölkə Konstitusiyasının 12-ci maddəsinə əsasən, dövlətin ali məqsədi kimi müəyyən edilmişdir. Həmin maddədə bildirilir: *"I. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. II. Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir"*[4]. Onu da əlavə etmək lazımdır ki, ötən illər ərzində Azərbaycan insan amili ilə bağlı 220-dən çox beynəlxalq

3 Bakıda IV Beynəlxalq Humanitar Forum işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev forumun rəsmi açılış mərasimində iştirak edib. /02.10.2014/ - http://azertag.az/xeber/Bakida_IV_Beynelxalq_Humanitar_Forum_ise_baslayibAzerbaycan_Prezidenti_Ilham_Aliyev_Forumun_resmi_achilis_merasiminde_istirak_edib_VIDEO-800118

4 Azərbaycan Respublikasının Konstitusiyası. - http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf

sənədə, o cümlədən "İqtisadi, sosial və mədəni hüquqlar haqqında", "Vətəndaş və siyasi hüquqlar haqqında" beynəlxalq paktlara, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya"ya və digər mühüm beynəlxalq sənədlərə qoşulmuş, onların icrasında nailiyyətlər əldə olunmuşdur.

Ümumbəşəri humanizm prinsiplərinə riayət olunması, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəsinin artırılması üzrə qəbul edilmiş normativ sənədlər sırasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci ilin fevral ayının 22-də imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanını, 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır. Həmin sənədlərdə bu sahədə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, o cümlədən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Səlahiyyətli Müvəkkili *(Ombudsman)* təsisatının yaradılması, ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, müvafiq normativ hüquqi aktların beynəlxalq standartlara uyğunluğunun təmin olunması, hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi və s. nəzərdə tutulmuşdur.

Bu istiqamətdə növbəti addımlardan biri 2011-ci ildə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəsini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın qəbul edilməsidir. Proqramda qanunvericilik və institusional islahatların aparılmasının, demokratik ədalət mühakiməsinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsinin, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişləndirilməsinin zəruriliyi vurğulanmış, eyni zamanda BMT-nin müxtəlif təsisatları, o cümlədən insan hüquqları sahəsində ixtisaslaşan qurumları, Qaçqınlar üzrə Ali Komissarlıq, YUNESKO, YUNİSEF, habelə Avropa Şurası, Avropa İttifaqı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq təşkilatlarla birgə layihələrin həyata ke-

çirilməsinin əhəmiyyəti qeyd edilmişdir[5]. Azərbaycan Respublikasının Konstitusiyasında, dövlətin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan, vətəndaş hüquq və azadlıqlarının təmin olunması məqsədilə bir sıra normativ hüquqi aktlar, məsələn, Əmək Məcəlləsi, Cinayət Prosessual Məcəllə, Cinayət Məcəlləsi, Mülki Prosessual Məcəllə, Mülki Məcəllə, Ailə Məcəlləsi və s. qüvvəyə minmişdir.

Məlumdur ki, demokratik inkişaf yolu seçmiş dövlətlərdə, o cümlədən Azərbaycan Respublikasında "humanitar siyasət" anlayışı təkcə onun elm, təhsil, səhiyyə və mədəniyyətin, sosial müdafiənin, cəmiyyətin yaradıcı potensialının inkişafı istiqamətində dövlət siyasətinin icrası, ölkədə milli və vətəndaş birliyinin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının, tolerantlıq və dini plüralizm prinsiplərinin təminatı ilə məhdudlaşmır. Bu mühüm amil etnomədəni və dini müxtəlifliyi ilə seçilən, müstəqil siyasətinə, geosiyasi və geoiqtisadi mövqeyinə görə davamlı təhdidlərlə üzləşən Azərbaycan Respublikasının milli maraqları ilə üzvi şəkildə bağlıdır. Eyni zamanda humanitar siyasət müasir regional və qlobal problemlərin müsbət həllində, mədəniyyətlər arasında dialoqun əldə edilməsində, inteqrasiya və qarşılıqlı faydalı əməkdaşlıq proseslərinin inkişafında, risk və təhdidlərin qabaqlanmasında mühüm rol oynamaqdadır. Reallıq onu göstərir ki, "demokratik cəmiyyət" və ya "hüquqi dövlət" anlayışları ilk növbədə ölkədə həmin humanizm prinsiplərinə necə və hansı səviyyədə riayət olunması ilə bağlıdır**.** Bu gün Azərbaycan Respublikası təkcə siyasi-iqtisadi inkişaf baxımından deyil, həm də humanizm amilinə söykənən və keyfiyyətcə yeni olan sosial-hüquqi mərhələyə qədəm qoymuşdur. Bu mərhələnin formalaşdırılmasında zəruri elementlər sırasında ölkədə bərqərar olmuş siyasi sabitlik, hakimiyyət-xalq münasibətlərinin qarşılıqlı etimad üzərində qurulması, ictimai və sosial münasibətlərin demokratikləşməsi, insan hüquq və azadlıqlarına təminat verilməsi mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin sözləri ilə desək, Azərbaycan Respublikasının xarici siyasəti onun daxili siyasətinin məntiqi davamıdır.

5 Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı. /27.12.2011/ - http://www.president.az/articles/4017

Azərbaycanın diplomatik fəaliyyətində "yumşaq güc" – humanitar siyasət amili

ABŞ-ın tanınmış siyasi nəzəriyyəçisi, vaxtilə Prezident B.Klinton administrasiyasında Kəşfiyyat üzrə Milli Şuranın sədri və müdafiə nazirinin müavini vəzifələrində işləmiş, hazırda isə Harvard Universitetinin professoru olan Cozef Nay 1990-cı ildə siyasi dövriyyəyə yeni termin – "yumşaq güc" (*soft power*) ifadəsini gətirmişdir. Xarici siyasətdə ənənəvi "sərt güc" (*hard power*) terminindən fərqli olaraq, yeni strateji nüfuzetmə forması diplomatik hədəflərə çatmaq üçün hər hansı zorakı elementin tətbiqini, o cümlədən hərbi, siyasi və ya iqtisadi sanksiyaları tamamilə istisna etməklə yanaşı, dövlətlərarası münasibətlərin lazımi axara yönəldilməsində ilk növbədə könüllülük, rəğbət və pozitiv marağın yaradılması, qarşılıqlı anlaşma və "xalq diplomatiyası" kimi amillərdən istifadəni nəzərdə tutur. "Yumşaq güc"ün digər üstün cəhətlərindən biri onun tətbiqinin yalnız dövlətin müvafiq təsisatlarının fəaliyyəti ilə məhdudlaşdırılmaması, buraya ictimai təşkilatların geniş cəlb olunması, mədəniyyət, idman, turizm, təhsil, səhiyyə, elm, ortaq mənəvi dəyərlər, xalqlar və mədəniyyətlər arasında dialoqun qurulması və s. kimi "alternativ dipolmatiya" vasitələrinin cəlb edilməsidir[6].

Müasir Azərbaycan artıq keçən əsrin 90-cı illərinin əvvəllərindəki zəif dövlət deyildir. Özünün dinamik inkişaf sürətinə, iqtisadi potensialına və milli resurslarına görə bu gün Cənubi Qafqazın aparıcı dövləti olaraq bundan sonra da regionda öz missiyasını reallaşdıracaqdır. Hazırda Cənubi Qafqazın iqtisadi potensialının 75-80, insan resurslarının təqribən 60, maliyyə və yanacaq-energetika ehtiyatlarının isə 90 faizi Avropa və Asiyanın nəqliyyat-kommunikasiya dəhlizlərinin və neft-qaz ixracatı marşrutlarının üzərində yerləşən Azərbaycanın payına düşür. Təsadüfi deyildir ki, ABŞ-da çıxan nüfuzlu "Forum Daily" qəzeti Azərbaycanı "MDB məkanında çoxşaxəli və çoxvektorlu uğurlu xarici siyasət strategiyasına malik olan yeganə dövlət" adlandırmışdır[7].

6 Joseph S. Nye. Soft Power. The Means to Success in World Politics. New York: Public Affairs, 2004

7 "Forum Daily": "Azərbaycan MDB-də uğurlu siyasət strategiyasına malik olan dövlətin yeganə nümunəsidir". /20.02.2015/- http://palitranews.az/news.php?id=34340

Effektiv təsiretmə imkanlarına malik Azərbaycan dövlətinin xarici siyasət strategiyasında da "yumşaq güc" – humanitar siyasət xətti yuxarıda göstərilən dialoq vasitələrindən hərtərəfli istifadə olunmaqla, humanizm prinsiplərinə, dövlətlərarası hörmət və etimada, bərabərhüquqlu əməkdaşlığa, beynəlxalq hüququn normalarına ciddi riayət olunmasına söykənir. Lakin son dövrün təcrübəsi onu göstərir ki, Azərbaycanın milli maraqları, qlobal geoiqtisadi və geostrateji mənafelər mübarizəsində tutduğu konstruktiv və praqmatik mövqe, yürütdüyü müstəqil siyasət dünyanın güc mərkəzlərinin, regionun müəyyən dövlətlərinin məqsədləri ilə heç də həmişə uzlaşmır. Bu reallıq isə həm regionun, həm də Azərbaycanın təhlükəsizlik mühitinə təsirsiz ötüşmür. Ötən 25 il ərzində dünyanın aparıcı dövlətlərinin mənafe mübarizəsinin davamlı obyekti olan Azərbaycan hələ də onların diskriminasiyalı münasibətinə – onun müstəqil siyasi iradəsinə təsir göstərmək məqsədi daşıyan ikili yanaşma tərzinə məruz qalmaqdadır. Dövrün qlobal siyasi-iqtisadi və sosial-mədəni problemlərinin kəskinləşərək öz miqyasını sürətlə genişləndirməsi, yeni qütbləşmə meyilləri, beynəlxalq terrorizmin, hərbləşdirilmiş radikal dini hərəkatların, ksenofobiyanın, separatizm təzahürlərinin genişlənməsi, etnik və dini dözümsüzlüyün şiddətlənməsi, Ermənistanın hərbi təcavüzünün hələ də davam etməsi, bəzi xarici dairələrin Azərbaycana siyasi və iqtisadi təzyiq cəhdlərinə digər destruktiv elementlərin də cəlb olunması ölkənin milli maraqlarının təminatı istiqamətində fəaliyyətin gücləndirilməsini daha da aktuallaşdırmışdır. Nəticədə rəsmi Bakı regional və qlobal vəziyyət, çağırış və təhdidlər nəzərə alınmaqla diplomatik fəaliyyətin prioritet istiqamətlərini yenidən nəzərdən keçirmişdir.

Müasir şəraitdə Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyinin, ərazi bütövlüyünün mühafizəsinə, ölkənin davamlı inkişafının, vətəndaşların hüquq və azadlıqlarının təminatına, əhalinin rifah halının, milli dəyərlərin qorunmasına yönəldilən amilləri özündə ehtiva etməklə, dövlət siyasətinin hədəf və istiqamətlərini müəyyənləşdirir. Qeyd edək ki, "Azərbaycan Respublikasının milli maraqları" dedikdə Azərbaycan xalqının fundamental dəyər və məqsədləri, habelə insan, cəmiyyət və dövlətin təhlükəsizliyinin

təmin olunmasına, inkişafına yönəldilən siyasi, iqtisadi, sosial və digər vəzifələr nəzərdə tutulur. Hər bir dövlət isə öz milli maraqlarından çıxış edərək beynəlxalq hüquq normaları və öhdəliklərlə səciyyələndirilən xarici siyasət yürüdür. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək: *"Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir"*[8].

Bütövlükdə Azərbaycan dövlətinin xarici siyasət kursunda "yumşaq güc" – humanitar siyasət amili diplomatik fəaliyyətin hədəfə çatmasına əlverişli zəmin yaradır, dövlətlər və xalqlar arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əlaqələrin qurulmasına, mədəni irsin qarşılıqlı şəkildə tanıdılmasına, mədəni sərvətlərin azad mübadiləsinə, mədəni inteqrasiya və dialoq proseslərinə mane olan təhdid və məhdudiyyətlərin aradan qaldırılmasına xidmət edir. Məsələyə bu gün dünyada baş qaldıran milli, dini və ideoloji qarşıdurmalar, qlobal güc mərkəzləri arasında getdikcə dərinləşən mübarizə kontekstində yanaşılanda Azərbaycan Respublikasının humanitar siyasət sahəsində topladığı zəngin və unikal təcrübə nəinki beynəlxalq miqyasda öz təsdiqini tapmış, hətta onu humanizm prinsiplərinin qlobal mədəni-ideoloji əməkdaşlıq mərkəzlərindən birinə çevirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu əlaqələrin əhəmiyyətinə toxunarkən vurğulamışdır: *"Humanitar əməkdaşlığın hər bir aspekti dünya gündəliyinin mərkəzində olmalıdır. Çünki bir daha demək istəyirəm ki, bir çox hallarda siyasi və iqtisadi məsələlər, təbii ki, ön plana çıxarkən bu məsələlər bir az diqqətdən kənarda qalır. Buna imkan vermək olmaz"*[9].

Azərbaycan Respublikası Prezidenti Administrasiyası (PA) rəhbərinin müavini, PA Xarici əlaqələr şöbəsinin müdiri N.Məmmədov

8 Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin andiçmə mərasimində nitqi. - http://www.1990-1993.nakhchivan.az/and.htm

9 İlham Əliyev Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun açılışında iştirak etmişdir. /31.10.2013/ - http://president.az/mobile/articles/9894

"Xarici siyasət: reallıqlar və gələcəyə baxış" kitabında qeyd edir ki, diplomatik fəaliyyətin effektliyi həm də ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin liberal xarakteri – hamılıqla qəbul olunmuş dəyərlər sisteminə tolerant münasibəti, onun beynəlxalq sülh və təhlükəsizliyin təminatında iştirakı, iqtisadi əməkdaşlıq təşəbbüslərini fəal şəkildə dəstəkləməsi və s. ilə bağlıdır. Ümumbəşəri sivilizasiyanın yüksək inkişaf mərhələsində demokratikləşmə xəttini müdafiə etməyən, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət bəsləməyən hər hansı bir dövlətin nüfuz qazanmasından, geniş coğrafi arealda cərəyan edən proseslərə təsiretmə imkanlarından danışmaq mümkün deyildir. Tarixi təcrübədən uğurla çıxan demokratik-liberal dəyərlər dünya ölkələrinin əksəriyyətində milli inkişaf strategiyası kimi müəyyənləşdirilmiş, dövlət idarəçiliyinin, birgəyaşayışın, vətəndaş-hakimiyyət münasibətlərinin tənzimlənməsinin ən ahəngdar, sivil forması kimi dəyərləndirilmişdir[10]. Xüsusilə qeyd olunmalıdır ki, belə bir gərgin şəraitdə dövlət müstəqilliyinin qorunması, ölkənin ərazi bütövlüyünün bərpası, Ermənistanın təcavüz və işğalının nəticələrinin aradan qaldırılması, hədə və təhdidlərin siyasi-diplomatik vasitələrlə neytrallaşdırılması, iqtisadi maraqların, enerji və nəqliyyat strategiyalarının təminatı, Azərbaycan haqqında gerçəklərin dünya ictimaiyyətinə çatdırılması, humanitar diplomatiya, ölkə vətəndaşlarının və onun hüdudlarından kənarda yaşayan soydaşların hüquqlarının müdafiəsi və s. xarici siyasi fəaliyyətin prioritetləri kimi müəyyən edilmişdir.

Təbii ki, belə mürəkkəb siyasi fonda Azərbaycan hüquq bərabərliyinə, bir-birinin daxili işinə qarışmamaq və humanizm prinsiplərinə əsaslanan çoxvektorlu xarici siyasət yürütməklə, bir tərəfdən, dünya dövlətləri ilə normal, etibarlı və perspektivli tərəfdaşlıq münasibətləri qurmağa, özünə yönəlik çoxsaylı xarici təhdidləri xeyli dərəcədə neytrallaşdırmağa, digər tərəfdən isə ölkədə ictimai sabitliyi və sosial-iqtisadi inkişaf sürətlərini qorumağa nail olmuşdur. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: *"Yeni minillikdə dünya xalqlarının ən böyük istəyi sülh və əmin-amanlıqdır. İnsanlar dağıdıcı müharibələrə, qaçqın-köçkünlüyə qətiyyətlə*

10 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013

yox deyir, dinc yaşamaq istəyirlər"[11]. Novruz Məmmədov "Xarici siyasət: reallıqlar və gələcəyə baxış" monoqrafiyasında haqlı olaraq vurğulayır ki, Azərbaycanın müxtəlif xalqlar, dövlətlər və fərqli mədəniyyətlər arasında dialoqun qurulmasına, sülh və qarşılıqlı anlaşmanın yaranmasına xidmət edən humanitar siyasət yürütməsi və ya perspektivli enerji layihələrinin, iqtisadi əməkdaşlıq proqramlarının reallaşdırılması bəzi xarici qüvvələrin pozuculuq səylərinin güclənməsi ilə nəticələnir. Məsələn, belə cəhdlər, bir qayda olaraq, qoşunların təmas xəttində Ermənistan tərəfindən atəşkəs rejiminin pozulması, müəyyən beynəlxalq strukturların Azərbaycana qarşı qərəzli mövqeləri, bəzi xarici nəşrlərdə Azərbaycan əleyhinə qərəzli və təhdid xarakterli materialların dərc edilməsi ilə müşayiət olunur[12]. Bütün bunlar rəsmi Bakıdan xarici siyasət kursunda yaxın və uzaq hədəflərin, diplomatik fəaliyyətdə yeni metodların, o cümlədən "yumşaq güc"ün – "humanitar diplomatiya"nın tətbiqi istiqamətlərinin müəyyənləşdirilməsi və onlara söykənərək mümkün təhdidlərə qarşı adekvat tədbirlərin həyata keçirilməsi vəzifələrini gündəmə gətirmişdir.

Bütövlükdə Azərbaycan Respublikasının xarici siyasətində humanitar aspektlərin – humanitar siyasətin əsas vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

- *Azərbaycan Respublikasının demokratik, hüquqi və dünyəvi dövlət, qlobal və regional humanitar məsələlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş kimi qazanmış olduğu müsbət obrazının, eləcə də onun tarix və mədəniyyətinin, etnomədəni mənzərəsinin, potensialının, müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlərin təbliği;*
- *insan hüquq və azadlıqlarının mühafizəsi, mədəniyyətlər və sivilizasiyalar arasında bərabərhüquqlu dialoqun qurulması üzrə beynəlxalq sazişlərdə Azərbaycanın iştirak imkanlarının genişləndirilməsi;*
- *ölkənin üzləşdiyi problemlər, xüsusilə Ermənistanın yürütdüyü işğalçılıq siyasəti və onun nəticələri, bu barədə həqiqətlərin, həmçinin münaqişənin həllində Azərbaycan Respublikasının mövqeyinin dünya ictimaiyyətinə çatdırılması;*

11 Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. /Bakı şəhəri, 29 dekabr 2000-ci il/ - http://lib.aliyev-heritage.org/print.php?lang=az&page=2541517

12 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013

- *regional və beynəlxalq problemlərin həlli, xalqlar və mədəniyyətlər arasında dialoqun qurulması, universal dəyərlərin möhkəmləndirilməsi prosesində Azərbaycanın təcrübəsindən və imkanlarından səmərəli istifadə olunması;*
- *etnik, dini və siyasi zəmində ekstremizm təzahürlərinə, irqi ayrı-seçkiliyə, ksenofobiyaya, aqressiv millətçilik və separatizmə qarşı beynəlxalq mübarizədə Azərbaycanın fəal iştirakı və dəstəyinin təmin edilməsi;*
- *beynəlxalq dialoqlarda, ikitərəfli və çoxtərəfli münasibətlərdə hər bir dövlətin yürütdüyü müstəqil siyasətin, milli, mədəni xüsusiyyətlərinin, dəyərlərinin, tarixi ənənələrinin nəzərə alınması, eləcə də vətəndaşların siyasi, iqtisadi və mədəni sahələrdə insan huquq və azadlıqlarının təminatı sahəsində fəal siyasətin həyata keçirilməsi;*
- *Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmləndirilməsində rəsmi strukturlarla yanaşı, qeyri-hökumət təşkilatlarının, yaradıcı birliklərin potensiallarından daha səmərəli istifadə olunması, onların beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi;*
- *xarici ölkələrdə məskunlaşan Azərbaycan Respublikası vətəndaşlarının və çoxsaylı diaspora nümayəndələrinin təşkilatlanmasının sürətləndirilməsi, onların mədəni hüquqlarının qorunması, tarixi vətənlə əlaqələrinin keyfiyyətcə yaxşılaşdırılması, yerli cəmiyyətə mədəni-siyasi və iqtisadi inteqrasiyası üçün hərtərəfli yardım göstərilməsi;*
- *türk xalqları və müsəlman dövlətləri arasında siyasi-iqtisadi əməkdaşlığın qarşılıqlı humanitar əlaqələrlə möhkəmləndirilməsi və s.*

Beləliklə, Azərbaycan Respublikası xarici siyasətdə strateji hədəflərə çatmaq, beynəlxalq əlaqələrdə dinamik inkişafa nail olmaq və onu möhkəmləndirmək məqsədilə təkcə siyasi, iqtisadi sahələrdə əməkdaşlıqla kifayətlənməmiş, humanitar siyasətin bütün forma və istiqamətlərindən geniş istifadə etməklə xarici dövlətlər və beynəlxalq təşkilatlarla ikitərəfli, üçtərəfli və çoxtərəfli əlaqələrini yeni səviyyəyə qaldırmışdır. Bu əlaqələrin xüsusiyyətlərindən biri onların açıq xarakter daşıması, dövlət və xalq barədə müsbət təsəvvürlərin formalaşdırılması, onun tarix və mədəniyyətinin xarici ölkələrdə tanıtmaq imkanına malik olmasıdır. Belə fəaliyyət – beynəlxalq idman yarışlarının, festivalların, turizm əlaqələrinin, bədii kollektivlərin qastrol səfərlərinin,

sərgi mübadiləsinin, konfransların, simpoziumların və digər kütləvi tədbirlərin təşkili rəsmi qaydada dövlətlər arasında münasibətlərin inkişafına yönəldilsə də, ilk növbədə xalqların yaxınlaşmasında, qarşılıqlı ünsiyyətin qurulmasında mühüm əhəmiyyət kəsb edir. Akademik Ramiz Mehdiyevin "İkili standartların dünya nizamı və müasir Azərbaycan" məqaləsində vurğuladığı kimi: *"Bizim üçün dövlət suverenliyinin dəstəklənməsi məsələsi ölkədə sabitliyin saxlanması üçün əsasdır. Lakin özünütəcrid siyasəti bizə yaddır. Azərbaycan heç vaxt özünü dünyadan "Çin səddi" ilə ayırmağa çalışmayıb. Biz ikitərəfli əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu, bizim üçün prioritetdir. Sivilizasiyalı dövlət olan Azərbaycan bütün dövlətlərlə, Avropa Şurası ilə, digər beynəlxalq təşkilatlarla ikitərəfli münasibətləri inkişaf etdirmək arzusundadır. Biz ən yaxşı dünya təşkilatı praktikasını əks etdirən, öz üzvlərini dəstəkləyən Avropa İttifaqına daha yaxın olmağa çalışırıq. Biz istəyirik ki, bu siyasi qurumla münasibətlərimiz praqmatik yanaşmaya əsaslansın, qarşılıqlı maraqları əks etdirsin. Biz dünya xalqlarının maraqlarımıza cavab verən, mentalitetimizə uyğun olan və inkişafımızın sürətlənməsini təmin edən təcrübəsini əxz etməyə çalışırıq və bu niyyətlər konkret əməli addımlarla dəstəklənir"*[13].

Bu gün dünya siyasi, iqtisadi və mədəni-mənəvi tənəzzül dövrünü yaşamaqdadır. Son illərin təcrübəsi göstərir ki, hətta "demokratiya nümunəsi" kimi tanınan dövlətlərdə dini münasibətlər mənəvi dəyər çərçivəsindən çıxaraq sürətlə siyasiləşmiş, dövlətlərin daxili və xarici siyasətinə, mədəniyyətlərarası və dinlərarası münasibətlərə ciddi təsir edən vasitəyə çevrilmişdir. Yaxın və Orta Şərqdə, Avropada cərəyan edən hadisələr, din amilindən hərbi-siyasi məqsədlər üçün istifadə edilməsi, milli, irqi və dini ayrı-seçkiliyin radikal təzahürlərinin getdikcə daha geniş regionları əhatə etməsi Azərbaycanın həm daxili, həm də xaricə yönəlik humanitar siyasətində dövrün tələblərinə cavab verən yeni istiqamətlərin yaranmasını gündəmə gətirmişdir.

Bir sıra dövlətlərin regiona olan maraqlarının təhlili göstərir ki, ölkəmizdə dini və etnik münasibətlərin təhlükəsizliyi məsələsi aktuallığını hələ də saxlamaqdadır. Xaricdən idarə olunan belə təhdidlərə, ölkədə ictimai-siyasi sabitliyin pozulması cəhdlərinə qarşı humanitar təyinatlı

13 Mehdiyev R. İkili standartların dünya nizamı və müasir Azərbaycan. - http://azertag.az/store/qfs/MEHDIYEV-AN%20SON.pdf

effektiv siyasi-hüquqi tədbirlər içərisində multikulturalizm siyasətinin Azərbaycan modeli xüsusi əhəmiyyət kəsb edir.

Rəsmi Bakının "yumşaq güc" siyasətində əhəmiyyətli vasitələrdən biri multikulturalizm siyasətidir. Azərbaycan müxtəlif inancları və burada yaşayan xalqların etnik mədəniyyətlərini təbliğ etməklə dinlərarası, xalqlararası dialoqun kəsişdiyi coğrafi və etnomədəni məkan kimi də özünü təsdiqləmişdir. Azərbaycanda bütün dinlərə mənsub insanların sərbəst şəkildə öz inanclarına etiqad etməsinə, bütün millətlərin nümayəndələrinin ölkənin bərabərhüquqlu vətəndaşı qismində hüquq əldə etməsinə lazımi şərait yaradılmışdır. Multikulturalizm bir dövlət ərazisində yaşayan müxtəlif xalqların mədəni hüquqlarını tanıyan və onun qorunmasına, inkişafına hərtərəfli yardım göstərən, humanizm prinsiplərinə əsaslanan siyasətdir. Onun nəzəri əsasını liberalizm, azadlıq, bərabərlik və birlik kimi ali ümumbəşəri dəyərlər təşkil edir. Bu siyasətdə müxtəlif dillərdə danışan və müxtəlif dini inanclara sahib olan mədəniyyətlərin demokratik şəraitdə bir arada yaşaya bilməsi üçün insan amilinə xüsusi önəm verilir. Xüsusilə vurğulanmalıdır ki, Azərbaycanda multikulturalizm siyasəti xarici ölkələrdəki analoqlarından – separasiya, assimilyasiya və ya adaptasiyaya əsaslanan Avropa və Rusiya modellərindən tamamilə fərqlənir. O, tarixi ənənələrə söykənən milli və dini münasibətlər siyasəti olmaqla yanaşı, ilk növbədə mədəni müxtəlifliyin, xalqların milli-mədəni irsinin qorunmasına və inkişafına, onların qarşılıqlı faydalı inteqrasiyasına yönəldilmişdir. Müxtəlif etnik mədəniyyətlər arasında ənənəvi birgəyaşayış, qarşılıqlı hörmət prinsiplərinə söykənən bu model sivilizasiyalararası və mədəniyyətlərarası dialoq prosesində Azərbaycan Respublikasının çox uğurlu missiyasıdır və onun nailiyyətləri xarici humanitar siyasətdə hərtərəfli təbliğ edilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin fərmanı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında demişdir: *"Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə, haradasa iflasa uğrayıb. Amma*

Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik"[14].

Beləliklə, Azərbaycan Respublikasının xarici siyasət kursundakı humanitar aspektlərin *(humanitar siyasətin)* əsas fəaliyyət istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- *xarici dövlətlərlə, beynəlxalq ixtisaslaşmış təşkilatlarla, eləcə də daxil olduğu birlik və hərəkatlar çərçivəsində ikitərəfli və çoxtərəfli humanitar əməkdaşlığın qurulması;*
- *humanitar əməkdaşlıq vasitəsilə Azərbaycanın daxili siyasətində insan hüquq və azadlıqlarının, etnik və dini münasibətlərin tənzimlənməsində humanizm prinsiplərinin təzahürlərinin, multikulturalizm siyasətinin, tolerantlıq ənənələrinin, Azərbaycan həqiqətlərinin, onun tarix və mədəniyyətinin, incəsənətinin, mədəni irs nümunələrinin qarşılıqlı təbliği;*
- *xaricə yönəlik humanitar siyasətin səmərəsinin yüksəldilməsi və təbliğat-təşviqat işinin gücləndirilməsi məqsədilə humanitar təyinatlı dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının yaradılması, onların fəaliyyətinə hərtərəfli yardım göstərilməsi;*
- *Azərbaycanda beynəlxalq humanitar tədbirlərin (elmi-praktiki konfransların, festivalların, olimpiada, çempionat və turnirlərin və s.) təşkili, xarici ölkələrdə keçirilən analoji tədbirlərdə Azərbaycanın fəal iştirakı, humanitar istiqamətlər üzrə (elm, mədəniyyət, incəsənət və s.) birgə layihələrin icrası;*
- *diaspora quruculuğu və xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsi və s.*

Azərbaycanın çoxvektorlu humanitar siyasəti: nailiyyətlər və perspektivlər

Humanitar sahədə əməkdaşlıq müasir beynəlxalq münasibətlər sistemində mühüm istiqamətlərdən biri olaraq müxtəlif ölkələrdə, regionlarda yaşayan xalqlar arasında qarşılıqlı əlaqələrin genişləndirilməsinə, insan potensialının inkişafına, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsinə, humanitar təyinatlı problemlərin birgə səylərlə aradan

14 Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin yekun nitqi. /10.01.2016/ - http://www.president.az/articles/17442

qaldırılmasına yönəldilmişdir. Bu siyasət ilk növbədə yaxın ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri çərçivəsində qarşılıqlı faydalı humanitar əlaqələrin qurulmasında, Azərbaycan Respublikasının diplomatik fəaliyyətində böyük əhəmiyyətə malikdir. Lakin bir sıra obyektiv səbəblər – məsələn, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Xəzər dənizinin statusunun müəyyənləşdirilməsinin tam hüquqi həllinin tapmaması, qonşu dövlətlərdə yaşayan soydaşlarımızın mədəni-siyasi hüquqlarının pozulması, güc mərkəzlərinin geosiyasi və geoiqtisadi maraqları, regionda müxtəlif zəminlərdə baş qaldıran qarşıdurmalar və s. bu əlaqələrin inkişafında müəyyən məhdudiyyətlər yaratsa da, Azərbaycan özünün humanitar əməkdaşlıq mərkəzi kimi mövqeyini qoruyub möhkəmləndirməyə nail olmuşdur. Ötən illər ərzində Azərbaycan Respublikası Türkiyə, İran, Gürcüstan, Fransa, Macarıstan, Rusiya Federasiyası və MDB-yə üzv olan digər dövlətlərlə humanitar sahələr üzrə əməkdaşlığa dair müqavilələr imzalamış, qarşılıqlı faydalı fəaliyyətin hüquqi əsasları qoyulmuşdur.

Azərbaycan Respublikası 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunduqdan indiyədək BMT-nin Əsasnaməsindən irəli gələn öhdəliklərə, beynəlxalq hüququn ali məqsəd və prinsiplərinə sədaqətini davamlı şəkildə nümayiş etdirmişdir. Bundan başqa, Azərbaycan hər zaman müxtəlif din, etnik qrup və dünyagörüşlərinin tarixən birgəyaşayışı və tolerantlıq ənənələri, mədəniyyətlərarası ünsiyyət nümunəsi sayılmışdır. Onun xarici siyasət kursu və bu xəttin humanitar sahəsi üzrə fəaliyyəti müvafiq qanun, fərman və sərəncamlarda, o cümlədən Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında öz əksini tapmışdır[15].

Digər tərəfdən, dünyada cərəyan edən proseslərin təhlili onu da göstərir ki, xarici siyasət hədəflərinin reallaşdırılmasında, beynəlxalq əməkdaşlığın genişləndirilməsində, xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində real və mümkün taktiki gedişlərdən biri məhz fövqəldövlətlərin mənafe qarşıdurmalarında tərəfsiz olmaq, öz milli maraqlarının prioritetliyini gözləməkdir.

15 Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. / Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir/ - http://www.e-qanun.az/framework/13373

Müasir dünya siyasətində geosiyasi qarşıdurmaların qabarıq xarakter alması, dövlətlərin daxili işlərinə müdaxilə hallarının intensivləşməsi, onların suveren hüquqlarının pozulması və ikili standartların tətbiqi Azərbaycan Respublikasını praqmatik seçimə – geosiyasi rəqabətdə olan güc mərkəzlərinə və hərbi-siyasi ittifaqlarına münasibətdə praqmatik siyasət yürütməyə sövq etmişdir. Bundan başqa, Azərbaycan böyük güc mərkəzləri arasında rəqabətin dərinləşdirilməsində deyil, qlobal və regional məsələlərdə onların arasında əməkdaşlığın yaranmasında maraqlıdır və beynəlxalq təhlükəsizliyin təminatında etibarlı və məsuliyyətli tərəfdaş olduğunu bir daha təsdiqləyir. Müstəqil xarici siyasət yürüdən və heç bir hərbi-siyasi ittifaqın iştirakçısı olmayan Azərbaycan Respublikası dəfələrlə bəyan etmişdir ki, milli maraqları ilə bağlı məsələlərdə hər hansı dövlətə güzəştə getmək niyyətindən uzaqdır. Məhz bu strategiya nəticəsində Azərbaycan Respublikası praqmatik yol seçərək 2011-ci ilin may ayında Qoşulmama Hərəkatının tamhüquqlu üzvü olmuşdur. Bu isə ona dünyanın təqribən 120 dövləti ilə müxtəlif sahələrdə, o cümlədən humanitar əməkdaşlıq istiqamətində səmərəli əlaqələr qurmasına, xalqlar və dövlətlər arasında ədalətli, qarşılıqlı və bərabərhüquqlu əməkdaşlığın formalaşmasında konstruktiv rol oynamasına əlverişli imkan yaratmışdır.

Qoşulmama Hərəkatına üzv olan Azərbaycan Respublikasının çoxvektorlu humanitar siyasəti, bir tərəfdən, onun Avropa *(xristian dövlətləri)* və islam ölkələri məkanına, türk dünyasına inteqrasiya prosesinin sürətlənməsinə müsbət təsir göstərmiş, digər tərəfdən, regiondakı geosiyasi və geoiqtisadi maraqlar zəminində mübarizə aparan fövqəldövlətlərin Azərbaycana yönəlik "yumşaq güc" mexanizmlərinin tətbiqi cəhdlərini xeyli zəiflətmişdir. Bu gün Azərbaycan həm Avropa Şurasının, həm də İSESKO-nun üzvüdür. Bu praqmatik nəticələr isə rəsmi Bakının humanitar siyasətinin mahiyyətindən – müasir dövrdə dövlətlərin və xalqların birgəyaşayış prinsiplərinin formalaşmasına yönəlik səylərdən irəli gəlir**.** Prezident İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində bu əlaqələrin əhəmiyyəti haqqında demişdir: *"Biz Azərbaycan olaraq ölkələr arasındakı əlaqələrin inkişafı üçün humanitar aspektlərə daim böyük diqqət göstərmişik.*

Çünki bizim tarixi keçmişimiz, mədəniyyətimiz bunu diktə edir. Əsrlər boyu Azərbaycanda çoxkonfessiyalı, çoxmillətli cəmiyyət formalaşıb, mövcuddur və müstəqillik dövründə bu müsbət meyillər daha da gücləndi. Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir. Çünki hər bir ölkənin gücünü, əlbəttə ki, bir neçə amil müəyyən edir – siyasi imkanlar, iqtisadi güc və eyni zamanda cəmiyyətdə mövcud olan ab-hava, sağlam mühit və həmrəylik duyğuları. Hesab edirəm ki, bu baxımdan Azərbaycanın təcrübəsi çox müsbətdir və biz öz işimizlə dünyada gedən proseslərə müsbət töhfəmizi veririk"[16].

Azərbaycanın çoxvektorlu diplomatik fəaliyyətində, o cümlədən humanitar siyasətində Şərq və Qərbə, xristian və müsəlman mədəniyyətlərinə, Avropa və islam dövlətlərinə münasibətdə tarazlaşdırılmış siyasət yürüdülməkdədir. Məsələn, Azərbaycan Respublikası ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, Beynəlxalq Antiterror Koalisiyası kimi qurumlarla əlaqələri möhkəmləndirməklə yanaşı, "müsəlman dünyasının BMT-si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatı *(İƏT)* ilə də əməkdaşlığın dinamik şəkildə inkişaf etdirilməsində maraqlıdır. Azərbaycan ilə İƏT arasında müxtəlif istiqamətlərdə, o cümlədən humanitar sahədə münasibətlərin möhkəmləndirilməsi bu beynəlxalq qurumun Ermənistanın Azərbaycana yönəlik işğalçılıq siyasətini təsdiqləyən və qətiyyətlə pisləyən, işğalçı qüvvələrin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələrinin qəbulu ilə nəticələnmişdir. Azərbaycan–İƏT münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Qeyd edək ki, bu təşkilat Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması istiqamətində ən ardıcıl və səmimi addımlar atan beynəlxalq qurumdur. Belə ki, Azərbaycan İƏT-ə üzv qəbul edildiyi vaxtdan etibarən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi bu quruma daxil olan dövlətlər tərəfindən daim dəstəklənmişdir.

Azərbaycan və İƏT arasında humanitar əlaqələrin inkişaf etdirilməsində Heydər Əliyev Fondunun müstəsna rolu vardır. Fondun

16 "İlham Əliyev Heydər Əliyev Mərkəzində IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində iştirak edib" /02.10.2014/- http://www.president.az/articles/13008

Azərbaycanın islam dünyası ilə mədəni münasibətlərinin formalaşmasına verdiyi töhfə İSESKO-nun xoşməramlı missiyasına əhəmiyyətli təsir göstərmişdir. Paralel olaraq, BMT-nin bir sıra ixtisaslaşmış qurumları – Təhsil, Elm və Mədəniyyət Təşkilatı *(YUNESKO),* İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlıq, Uşaq Fondu, Sənayenin İnkişafı Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s. ilə əməkdaşlıq da artan sürətlə inkişaf etməkdədir. Bundan başqa, Azərbaycan türk dünyası ilə mədəni əlaqələri genişləndirmək məqsədilə Türkdilli Dövlətlərin Parlament Assambleyası (*TÜRKPA*), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (*TÜRKSOY*), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu kimi humanitar təyinatlı beynəlxalq qurumların işində fəal iştirak edir.

Rəsmi Bakı bir sıra türk dövlətləri ilə də humanitar sahələrdə əməkdaşlığa dair müqavilələr imzalamışdır. Azərbaycanın 1993-cü ildən Müstəqil Dövlətlər Birliyinə üzvlüyü bu təşkilat çərçivəsində keçmiş SSRİ məkanında olan müstəqil dövlətlərlə səmimi qonşuluq münasibətlərinin, o cümlədən elmi və mədəni əməkdaşlığın inkişaf etdirilməsi məqsədini daşıyır. Dövlət başçısı İlham Əliyev bu çoxşaxəli və praqmatik siyasətin mahiyyəti haqqında demişdir: *"Biz həmişə çalışmışıq və öz səylərimizi göstərmişik ki, müsəlman aləmi daha da sıx birləşsin. Bu gün də çalışırıq və Azərbaycanda keçirilən müxtəlif tədbirlər… bu məqsədi güdür ki, müsəlman aləmində əlaqələr daha da yaxın olsun, münaqişələrə son qoyulsun, əməkdaşlıq üçün daha yaxşı zəmin yaradılsın"*[17]. Rəsmi Bakının ikitərəfli, üçtərəfli və çoxtərəfli əlaqələrin qurulmasında və möhkəmləndirilməsində qeyri-ənənəvi diplomatiya metodlarından – elm, mədəniyyət, incəsənət, idman və turizm sahəsində beynəlxalq əməkdaşlıqdan, qeyri-hökumət təşkilatları arasında təmasların intensivləşdirilməsindən, təbliğatdan, birgə tədbirlərdən və s. səmərəli istifadə etməsi nəticəsində qlobal və regional səviyyələrdə qarşılıqlı faydalı münasibətlərin yeni ssenariləri qurulmuşdur. Paralel olaraq

17 Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin giriş nitqi /10.01.2016/ - http://president.az/mobile/articles/17441

həmin ssenarilər Azərbaycanın tolerant dövlət, etibarlı və məsuliyyətli tərəfdaş obrazının daha da möhkəmlənməsində, Azərbaycan haqqında həqiqətlərin, tarix və mədəniyyətinin təbliğində, diaspora quruculuğu və lobbiçilik istiqamətində irəliləyişlərə əlverişli zəmin yaratmışdır. Dövlət başçısı İlham Əliyevin sözləri ilə desək: *"Xarici siyasətimizin əsas mahiyyəti ondan ibarətdir ki, biz bütün ölkələrlə qarşılıqlı surətdə faydalı, qarşılıqlı hörmət əsasında qurulmuş münasibətlərin dərinləşməsinə çalışırıq və bölgədə buna nail ola bilmişik. Tərəfdaşlarımızın sayının artması onu göstərir ki, Azərbaycan çox uğurlu xarici siyasət aparır"*[18].

Azərbaycan Respublikası dövlət müstəqilliyinin ilk illərindən etibarən qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq dünya birliyinə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında, bütövlükdə milli maraqların təminatında strateji tərəfdaşı olan Türkiyə amilinə xüsusi üstünlük vermiş, qardaş dövlətlə münasibətlərin bütün sahələr, o cümlədən humanitar əməkdaşlıq istiqamətində inkişaf etdirilməsi və möhkəmləndirilməsi rəsmi Bakının yürütdüyü xarici siyasət xəttinin mühüm hissəsi olmuşdur. 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin Azərbaycan hakimiyyətinə qayıdışından sonra bu əlaqələr davamlı şəkildə genişləndirilmiş, hər iki dövlət regionla bağlı iqtisadi və humanitar layihələrin icrasında, bir sıra regional proseslərə, təhdidlərə münasibətdə ortaq mövqe və qarşılıqlı faydalı fəaliyyət nümayiş etdirmişdir. Azərbaycan və Türkiyə arasında tarixi əlaqələrə həmişə yüksək önəm verən Heydər Əliyev bildirmişdir: *"Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental*

18 İlham Əliyevin 28 May – Respublika Gününə həsr olunmuş rəsmi qəbulda nitqi /27.05.2010/- http://www.president.az/articles/108/print

əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik"[19].

Türkiyə dövləti beynəlxalq aləmdə dövlətimizin fəal və səmimi tərəfdaşı kimi çıxış edərək, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli yönündə Azərbaycanın bütün səylərini həmişə dəstəkləmişdir. Eyni zamanda ortaq maraqlar sayəsində həm Türkiyənin, həm də Azərbaycanın imkanlarından istifadə olunmaqla Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, qondarma "erməni soyqırımı"nın ifşasında və s. birgə fəaliyyət təmin edilmişdir. "Bir millət, iki dövlət" prinsipinə söykənən Azərbaycan–Türkiyə əlaqələri sırasında humanitar əməkdaşlıq sürətlə inkişaf etmiş və nümunəvi xarakter alaraq ikitərəfli münasibətlərdə bütün sahələri – elm, təhsil, səhiyyə, idman, mədəniyyət və s. əhatə etmişdir.

Xüsusilə qeyd etmək lazımdır ki, hazırda qardaş dövlətin ərazisində təqribən 3 milyon etnik azərbaycanlı yaşayır. Onlar Türkiyə dövlətinin razılığı və köməyi sayəsində müxtəlif ictimai təşkilatlar – fond və dərnəklər, mədəniyyət mərkəzləri və s. ətrafında birləşmiş, Azərbaycan haqqında həqiqətlərin, etnik mədəniyyətin təbliğində yaxından iştirak edirlər. Bundan başqa, xarici ölkələrdə məskunlaşan Azərbaycan və Türkiyə diaspora təşkilatları hər iki ölkənin xaricə yönəlik humanitar siyasətində mühüm rol oynamaqdadırlar. Bu təşkilatlar Türkiyə və Azərbaycanın ortaq milli maraqlarını əhatə edən məsələlərdə vahid mövqedən çıxış edirlər.

Ölkəmizin şimal qonşusu olan Rusiya Federasiyası və onun ayrı-ayrı subyektləri ilə münasibətlər ictimai-siyasi, iqtisadi, həm də humanitar sahələr üzrə yüksəliş mərhələsindədir. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra Rusiya ilə əməkdaşlığın qorunub-saxlanılması və möhkəmləndirilməsi ölkəmizin xarici siyasətinin prioritetlərindən biri olmuşdur. Hələ 2010-cu il yanvarın 22-də Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya Forumu ikitərəfli münasibətlərin daha geniş sahələri əhatə etməsi üçün hər iki ölkənin geniş potensiala malik olmasını, bu əlaqələrdə Rusiyanın

19 Heydər Əliyevin Türk dövlətləri başçılarının İstanbulda keçirilən zirvə toplantısında çıxışı. - http://files.preslib.az/projects/toplu/v2/f3_4.pdf

bir sıra regionlarının da iştirakının vacibliyini göstərmişdir. Dövlət başçısı İlham Əliyev həmin tədbirin əhəmiyyəti haqqında demişdir: *"Rusiyanın və Azərbaycanın birgə təşəbbüsü ilə keçirilən bu ənənəvi forum qısa müddətdə humanitar əməkdaşlıq, mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsi üçün çox mühüm bir məkana çevrilmişdir... Bu, bizim əməkdaşlığın əsasını təşkil edən humanitar sahədə əlaqələrin möhkəmləndirilməsi çərçivəsində siyasətimizə uyğundur. Humanitar sahə ölkələrimiz arasında münasibətləri möhkəmləndirən sahədir və elə etmək lazımdır ki, bizim vətəndaşların artıq müstəqillik şəraitində doğulmuş və formalaşmış gələcək nəsilləri də xalqlarımızı və ölkələrimizi bir-birinə bağlayan bütün müsbət dəyərləri qiymətləndirsinlər, öz əməkləri ilə münasibətlərimizin inkişafına töhfə versinlər"*[20].

Azərbaycanla Rusiya arasında humanitar münasibətlər mədəniyyət, elm və təhsil üzrə uzunmüddətli əməkdaşlıq proqramları ilə tənzimlənir. Azərbaycan hökuməti eyni zamanda Moskva, Moskva vilayəti, Dağıstan, Qaraçay-Çərkəz, Həştərxan, Sankt-Peterburq, Ulyanovsk, Kurqan, Sverdlovsk, Kabarda-Balkar, Stavropol, Çelyabinsk, Həştərxan və digər subyektlərlə təhsil, elmi-texniki və mədəni əməkdaşlıq haqqında sazişlər imzalamışdır. Müntəzəm olaraq, Rusiyada "Azərbaycan ili", Azərbaycanda isə "Rusiya ili" mədəni tədbirləri çərçivəsində qarşılıqlı mədəniyyət mübadiləsi aparılır, konsertlər, teatr tamaşaları, sərgilər, kino həftələri və s. təşkil olunur. Məsələn, Moskvada azərbaycanlı rəssamların sərgiləri, P.Çaykovski adına konsert salonunda Azərbaycan Dövlət Rəqs Ansamblının konserti, Rusiyanın Dövlət Akademik "Bolşoy Teatr"ının səhnəsində "Yeddi gözəl" baletinin təqdimatı, Azərbaycan caz ifaçılarının konserti, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin təşkilatçılığı ilə Qlinka adına Mərkəzi Musiqi Mədəniyyəti Muzeyində Azərbaycan muğamı axşamı, M.Rudomino adına Xarici Ədəbiyyat Dövlət Kitabxanasında Azərbaycan Mədəniyyət Mərkəzinin təntənəli açılışı və s. tədbirlər Azərbaycan mədəniyyətinin təbliğində mühüm rol oynamışdır. Bundan başqa, həmin əməkdaşlıq proqramlarına uyğun olaraq, yüzlərlə azərbaycanlı gənc Rusiyanın ali məktəblərində təhsil

20 İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir. /25.10.2013/ - http://www.president.az/articles/9795

almaqdadır. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında təhsil sahəsində baş vermiş ən mühüm hadisələrdən biri isə dünyanın ən qabaqcıl təhsil müəssisələrindən olan M.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının fəaliyyətə başlaması olmuşdur.

2015-ci il sentyabrın 15-də isə dünyanın nüfuzlu ali təhsil ocaqlarından biri sayılan İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının təntənəli açılışı olmuşdur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyeva açılış mərasimində iştirak etmişdir. Filial Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına və Rusiya Federasiyası Səhiyyə Nazirliyinin müvafiq əmrinə əsasən yaradılmışdır. Yeni təhsil ocağının yaradılmasında məqsəd Azərbaycanda tibb təhsilinin təkmilləşdirilməsindən və bu sahədə dünyanın nüfuzlu ali təhsil mərkəzləri ilə əlaqələrin genişləndirilməsindən, ölkə vətəndaşlarının Rusiyanın tibb təhsili müəssisələrində oxumaq arzusunun təmin olunmasından ibarətdir. Universitetin filialında 100 tələbə dövlət sifarişi əsasında təhsil alacaqdır. İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti filialın kadrlarla təminatına və tədris prosesinin təşkilinə metodoloji dəstək verəcəkdir. Eyni zamanda tədris prosesinə dünyada tanınmış Rusiya alimləri cəlb olunacaq, tibb kadrlarının hazırlanması zamanı innovativ təhsil texnologiyaları tətbiq ediləcək, master-klaslar keçiriləcək[21].

Azərbaycan Respublikasının səylərinə və hər iki ölkənin potensiallarına, mədəniyyətlərin yaxınlığına baxmayaraq, digər qonşu dövlət – İran İslam Respublikası ilə iqtisadi sahədə əlaqələr genişlənsə də, perspektivli humanitar əməkdaşlıq istiqamətləri üzrə qarşılıqlı münasibətlərin inkişafı hələ də arzuolunan səviyyədə deyildir. Halbuki bu ölkələrin müstəqil, öz milli maraqlarına uyğun daxili və xarici siyasəti, regional və beynəlxalq məsələlərə öz strateji münasibəti olsa da, Azərbaycanla İran arasında həm ikitərəfli, üçtərəfli *(Rusiya Federasiyası ilə birlikdə),* həm də beynəlxalq səviyyədə əməkdaşlığın daha da intensivləşməsi üçün əlavə

21 Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının təntənəli açılış mərasimi olub. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak edib. /15.09.2015/ - http://azertag.az/xeber/Sechenov_adina_Birinci_Moskva_Dovlet_Tibb_Universitetinin_Baki_filialinin_tenteneli_achilis_merasimi_olubAzerbaycanin_birinci_xanimi_Mehriban_Aliyeva_merasimde_istirak_edib-884796

imkanlar açılmaqdadır. Məsələn, hər iki dövlət BMT, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar çərçivəsində bir çox məsələlərdə ortaq mövqe nümayiş etdirir. Ortaq tarix, dini və mədəni dəyərlər xalqlarımız arasında qarşılıqlı etimadın yaradılmasında mühüm rol oynaya bilər. Bu əlaqələrin qurulmasında, eləcə də qarşılıqlı etimadın möhkəmləndirilməsində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının üzərinə mühüm vəzifələr düşür.

Məlum səbəblərə görə, Ermənistan istisna olunmaqla, Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrlə siyasi, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi Azərbaycan üçün əhəmiyyətini qoruyub saxlayır. Xatırladaq ki, ilk dövrlərdə bu qurumun yaradılmasında məqsəd SSRİ-nin süqutundan sonra müstəqillik qazanan keçmiş sovet respublikalarının Qərbə inteqrasiyasını məhdudlaşdırmaq, onları Rusiyanın geosiyasi və geoiqtisadi məkanında saxlamaq, son nəticədə "qarşılıqlı asılılıq" prinsipini yenidən gündəmə gətirməklə Sovet İttifaqını konfederasiya əsasında bərpa etmək olmuşdur. Lakin bir neçə aparıcı dövlətin, o cümlədən Azərbaycan Respublikasının siyasi iradəsi sayəsində MDB "yeni siyasi blok"a deyil, könüllülük və dövlətlərin hüquq bərabərliyi prinsipləri əsasında fəaliyyət göstərən hökumətlərarası iqtisadi, sosial, eləcə də humanitar əməkdaşlıq birliyinə çevrilə bilmişdir. 2013-cü il oktyabrın 25-də Belarusun paytaxtı Minsk şəhərində MDB Dövlət Başçıları Şurasının iclası keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin iclasda çıxış edərək qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsinin vacibliyi haqqında demişdir: *"MDB çərçivəsində əməkdaşlıq Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir. Təbii ki, Birlikdə inteqrasiya prosesləri çərçivəsində Azərbaycan həmişə prinsipial mövqe tutmuşdur. Bu mövqe əməkdaşlığın möhkəmlənməsinə, çoxtərəfli və ikitərəfli münasibətlərin inkişafına istiqamətlənmişdir"*[22].

Xüsusilə vurğulamaq lazımdır ki, MDB-yə üzv dövlətlər

22 İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmişdir . / 25.10.2013/ - http://www.president.az/articles/9795

arasında humanitar əməkdaşlıq qarşılıqlı inteqrasiyanın prioritet istiqamətlərindən biri hesab olunur. Təsadüfi deyildir ki, bu əlaqələrin inkişafı məqsədilə 2006-cı il noyabrın 28-də MDB-yə üzv dövlətlərin humanitar əməkdaşlıq üzrə Şurası təsis edilmişdir. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlıq üzrə Şurası haqqında" Əsasnaməyə görə, həmin şura tərəfdaş dövlətlərin mədəniyyət, təhsil, elm, arxiv işi, informasiya və kütləvi kommunikasiya, idman, turizm və gənclərlə iş sahələrində çoxtərəfli qarşılıqlı münasibətlərini əlaqələndirmək məqsədilə yaradılmışdır[23]. Azərbaycan Respublikasının Milli Məclisi 2008-ci il iyunun 2-də "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlıq üzrə Şurası haqqında" sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu ratifikasiya etmişdir[24].

MDB çərçivəsində əlaqələrin inkişaf perspektivlərinin məntiqi davamı olaraq, mədəniyyət, təhsil, elm, gənclər siyasəti, vətəndaşların sosial müdafiəsi və sağlamlığının qorunması, əmək miqrasiyası üzrə birgə fəaliyyətin koordinasiyası məqsədilə dövlətlərarası qeyri-kommersiya təşkilatı – 2006-cı il mayın 25-də Düşənbədə keçirilmiş sammitdə MDB-nin iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu *(DHƏF)* təsis edilmişdir. Qeyd edək ki, 2010-cu ildən etibarən həmin fondun idarə heyətinin sədri postuna Azərbaycan Respublikasının Rusiyadakı səfiri Polad Bülbüloğlu seçilmişdir. Bu, Azərbaycanın humanitar səhədə əməkdaşlığın möhkəmləndirilməsində və inkişafında əhəmiyyətli rolunun təzahürlərindən biridir.

Azərbaycanın humanitar siyasətinin mühüm iştirakçıları

Qeyd olunduğu kimi, rəsmi Bakının humanitar istiqamətdə fəaliyyəti onun xarici siyasət sahəsində əlaqələrinin inkişafına, tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə əlavə imkanlar açmış, beynəlxalq aləmdə artan

23 Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlıq üzrə Şurası haqqında Əsasnamə. / 02.06.2008/ - http://www.e-qanun.az/framework/15112

24 "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin humanitar əməkdaşlıq üzrə Şurası haqqında" sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. /02.06.2008/- http://www.e-qanun.az/framework/15112

nüfuzunun göstəricisi olmuşdur. Məsələn, son illərdə Bakıda davamlı olaraq keçirilən beynəlxalq miqyaslı tədbirlər, o cümlədən humanitar forumlar, beynəlxalq festivallar, idman yarışları, sərgi və konfranslar Azərbaycanı mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun qurulmasında, sülh və təhlükəsizlik, qloballaşma, elmi-texniki inkişaf və ekoloji məsələlərin, davamlı inkişafa keçid problemlərinin və s. müzakirə olunduğu səmərəli diskussiya məkanına çevirmişdir. Belə ki, son illərdə beynəlxalq xarakterli bir sıra layihələrin, o cümlədən beynəlxalq musiqi və incəsənət festivallarının və digər əhəmiyyətli tədbirlərin keçirilməsi sayəsində Azərbaycan dünyanın mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Bundan başqa, dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Birinci Avropa Oyunları, GT3 və klassik "Formula 1" yarışları, 17 yaşlı qızlar arasında futbol üzrə Dünya Çempionatı, sərbəst, yunan-Roma, qadın və çimərlik güləşi üzrə dünya və Avropa çempionatları, Boks üzrə XVI Dünya Çempionatı, Cüdo üzrə Dünya Kuboku, Gənclər arasında boks üzrə Dünya Çempionatı, Gənclər arasında qılıncoynatma üzrə Dünya Çempionatı, Bədii gimnastika üzrə Avropa Çempionatı və Dünya Kuboku, Paralimpiyaçı cüdoçular arasında Avropa Çempionatı, Taekvondo üzrə Avropa olimpiya lisenziya turniri, şahmat üzrə beynəlxalq səviyyəli yarışlar və s. keçirilmişdir. Bu tədbirlərdə Azərbaycan reallıqlarının, mədəniyyətinin təbliğində, beynəlxalq humanitar əlaqələrin inkişafında müsbət nəticələr əldə olunmuşdur.

Yuxarıda qeyd olunduğu kimi, xarici ölkələrə yönəlik humanitar siyasətin səmərəsinin yüksəldilməsində və təbliğat-təşviqat işinin gücləndirilməsində humanitar təyinatlı dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının, məsələn, Heydər Əliyev Fondunun, Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin və Bakı Multikulturalizm Mərkəzinin böyük rolu vardır.

Heydər Əliyev Fondu

2004-cü ildə qeyri-hökumət, qeyri-kommersiya təşkilatı kimi fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya və digər sahələr üzrə yerli

və beynəlxalq səviyyəli layihələr həyata keçirməklə ölkənin sosial-iqtisadi və mədəni inkişafına, eləcə də xarici ölkələrdə Azərbaycanın tanıdılmasına öz töhfəsini verməkdədir. Azərbaycan Respublikasının fond siyasətinin ən uğurlu layihələrindən olan bu qurumun məqsədləri ilə dövlətin xarici siyasət kursunun humanitar istiqamətləri arasında ortaq hədəflərin olması onun beynəlxalq humanitar əməkdaşlıq sahəsində də məqsədyönlü fəaliyyətinə əlverişli zəmin yaratmışdır. Heydər Əliyev Fondu humanitar təyinatlı yerli və beynəlxalq səviyyəli proqram və layihələri reallaşdırır. Fond YUNESKO, İSESKO kimi nüfuzlu beynəlxalq təşkilatlar, xarici ölkələrdəki qeyri-hökumət qurumları, elm, səhiyyə, təhsil və mədəniyyət müəssisələri ilə səmərəli əlaqələr qurur, Azərbaycan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, milli mədəniyyətin xarici ölkələrdə geniş təbliğində, qarşılıqlı mədəniyyət mübadiləsində, dövlətlərin və xalqların mədəni inteqrasiya prosesində fəal iştirak edir və bununla da dövlətin vahid humanitar siyasət strategiyasının gerçəkləşməsinə əhəmiyyətli yardım göstərir.

Heydər Əliyev Fondunun BMT-nin ixtisaslaşmış qurumlarından olan YUNESKO ilə səmərəli əməkdaşlığı mühüm yer tutur. Fondun prezidenti Mehriban Əliyevanın xidmətləri sayəsində Azərbaycanın muğam, aşıq və milli xalçaçılıq sənətləri, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, aşıq sənəti, həmçinin Novruz bayramı YUNESKO-nun Qeyri-maddi mədəni irs Siyahısına salınmışdır. Təsadüfi deyildir ki, Azərbaycan–YUNESKO əlaqələrinin möhkəmlənməsində, dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə görə Fondun prezidenti Mehriban Əliyeva 2004-cü ildə "YUNESKO-nun xoşməramlı səfiri" adına layiq görülmüşdür. Fondun təşəbbüsü və iştirakı ilə indiyədək "YUNESKO–Azərbaycan: gələcəyə körpü", "Avrasiyada mədəniyyət müxtəlifliyi: Azərbaycan – sivilizasiyalararası dialoqun keçmişi və bu günü", "Gənclər sivilizasiyaların alyansı naminə", "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək", "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Təhsil və texnologiya vasitəsilə

iqtisadi inkişaf" və digər mövzularda keçirilmiş beynəlxalq konfrans, forum və sammitlərdə Azərbaycanın müasir inkişaf səviyyəsinin, tarixi və mədəniyyətinin, onun inteqrasiya meyillərinin təbliği istiqamətində mühüm nəticələr əldə olunmuşdur.

Azərbaycan Respublikası Qərblə Şərq mədəniyyətlərinin kəsişmə nöqtəsində yerləşir. Bu baxımdan fond təkcə ölkə ərazisində deyil, xarici dövlətlərdə də tarixi mədəniyyət nümunələrinin bərpası, yeni mədəniyyət obyektlərinin inşası sahəsində fəaliyyətini davam etdirməkdədir. Məsələn, Tbilisidə Azərbaycanın görkəmli yazıçısı və filosofu Mirzə Şəfi Vazehin, Mirzə Fətəli Axundovun, Həsən bəy Ağayevin və Fətəli xan Xoyskinin qəbirüstü abidələrinin yenidən qurulması və xiyaban salınması, Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin yaradılması, 2013-cü ildə İtaliyanın paytaxtındakı Kapitolini Muzeyində "Filosoflar zalı"nın əsaslı təmiri, Romanın Villa Borgeze parkında Nizami Gəncəvinin, Moskvada Ümumrusiya Dövlət Xarici Ədəbiyyat Kitabxanasında Mirzə Fətəli Axundovun abidələrinin ucaldılması, Parisin Versal sarayında dünya əhəmiyyətli bir neçə abidənin, Luvr Muzeyinin, İkinci Dünya müharibəsi illərində dağıdılmış Berlin qəsrinin, Vatikanda Roma katakombalarının bərpası fondun beynəlxalq humanitar siyasət sahəsindəki nailiyyətlərindəndir. Bundan başqa, Ümummilli liderin adını daşıyan fond beynəlxalq humanitar aksiyalarda da fəal iştirak edir. Belə ki, Pakistanda baş vermiş təbii fəlakət nəticəsində dağılmış qızlar məktəbi yenidən inşa olunmuş, Həştərxanda Ümummilli lider Heydər Əliyevin adını daşıyan orta məktəb, Sarayevoda görmə qabiliyyətini tam və qismən itirmiş uşaqlar üçün mərkəz əsaslı təmir edilmiş, Bakıda fransız dili liseyi və yəhudi uşaqlar üçün 450 şagird yerlik "Xabad-Or-Avner" təhsil mərkəzi yaradılmışdır. Bundan əlavə, Fond Azərbaycan mədəniyyətinin təbliği məqsədilə Yunanıstanın paytaxtı Afina şəhərində "Azərbaycan mədəniyyəti günləri"ni təşkil etmiş, onun dəstəyilə Bolqarıstanın Veliko Tırnovo şəhərində "Trapezitsa" memarlıq muzey-qoruğu bərpa olunmuşdur.

Heydər Əliyev Fondu Azərbaycan haqqında həqiqətlərin, xüsusilə Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eməni terrorizminin məqsədi və mahiyyəti barədə gerçəklərin dünya

ictimaiyyətinə çatdırılmasında da fəal iştirak edir. Qarabağın tarixi, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı faciəsi, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdiyi terror aktları haqqında faktları əks etdirən və ingilis, fransız, alman, rus, macar dillərində nəşr olunmuş "Qarabağ həqiqətləri" bukletlər toplusu indiyədək bir sıra xarici ölkələrdə yayılmışdır. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında isə işğal altında olan ərazilərdəki dini tikililər və tarixi-mədəniyyət abidələri, onların indiki vəziyyəti barədə xarici oxuculara ətraflı məlumat verilir.

Fondun vitse-prezidenti və Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən bir sıra layihələr, məsələn, "Xocalıya ədalət!" kampaniyası xüsusi əhəmiyyəti ilə seçilir. Bu kampaniya çərçivəsində hər il dünyanın Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, Praqa, Vaşinqton, Nyu York, Varşava, London, Haaqa, Dubay, Kiyev və Tbilisi kimi böyük şəhərlərində Xocalı soyqırımının ildönümünə həsr olunmuş kütləvi aksiyalar, nümayiş etdirilən filmlər, əhali arasında yayılan materiallar Xocalı soyqırımı haqqında obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılmasında böyük rol oynayır. Bu məqsədyönlü fəaliyyət dünyanın bir sıra dövlətləri tərəfindən Xocalı soyqırımının tanınmasında müstəsna əhəmiyyət daşımışdır.

Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA)

2011-ci ilin sentyabr ayında Xarici İşlər Nazirliyinin tərkibində fəaliyyətə başlayan bu agentlik Azərbaycanın xarici ölkələrə yönəlik humanitar siyasətinin həyata keçirilməsində, dövlətlər və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynamaqdadır. Dünyanın müxtəlif guşələrində, xüsusilə inkişaf etməkdə olan ölkələrdə humanitar problemlərin həllinə yardım məqsədilə yaradılan təşkilat bir sıra beynəlxalq qurumlar, o cümlədən BMT-nin İnkişaf Proqramı, İslam Əməkdaşlıq Təşkilatı, İslam İnkişaf Bankı, Kolumbiyanın Beynəlxalq Əməkdaşlıq Agentliyi və s. qurumlarla indiyədək 30-dan çox ölkədə ikitərəfli və çoxtərəfli əməkdaşlıq formatı çərçivəsində

yoxsulluğun azaldılması, ekoloji problemlərin aradan qaldırılması, elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına, rabitə və informasiya texnologiyalarının tətbiqinə yardım göstərilməsi, enerji ehtiyatlarından səmərəli istifadə olunması, müxtəlif təyinatlı təqaüd proqramlarının və digər layihələrin təşkili və icrası istiqamətində fəal iştirak edir.

Məsələn, 2014-cü ilin may ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə AIDA Pakistanın Dera İsmayil Xan regionunun Tank bölgəsində su çatışmazlığından əziyyət çəkən təqribən 40 min insanın güzəranını yaxşılaşdırmaq məqsədilə "Heydər Əliyev Su Təchizatı Layihəsi"ni həyata keçirmişdir. Bundan başqa, agentlik həmin ölkənin Cənubi Pəncab və Kəşmir əyalətlərində baş vermiş sel daşqınlarının nəticələrinin aradan qaldırılması, Multan, Muzaffargarh, Leyyah, Çinniot, Naroval, Sarqodha, Mandi Bahauddin, Sialkot, Canq və Hafizabad şəhərlərində 25 min nəfərlik əhaliyə kömək göstərilməsi üçün humanitar yardım aksiyaları keçirmişdir. 2012-2014-cü illər ərzində isə AIDA İslam İnkişaf Bankı ilə əməkdaşlıq çərçivəsində İƏT üzvü olan 9 Afrika dövlətində – Burkina Faso, Çad, Cibuti, Benin, Qvineya, Kamerun, Niger, Mali və Liviyada görmə qabiliyyətini itirmək təhlükəsi ilə üzləşən insanların müalicəsi məqsədilə humanitar tibbi-müalicə kampaniyası keçirmişdir. Azərbaycanlı oftalmoloqların da iştirak etdiyi bu aksiyada təqribən 10 min insan müayinə və müalicə olunmuş, onların görmə qabiliyyəti bərpa edilmişdir. Bundan başqa, beynəlxalq təşkilatların iştirakı ilə Qəzza bölgəsində humanitar fəlakətlə üzləşən fələstinlilərə, Filippində Hayyan qasırğasından zərər çəkənlərə, Kuba və Panamada yağış və sel suları nəticəsində daimi yaşayış yerlərindən məhrum olanlara, Burkina Fasoda quraqlıq üzündən humanitar fəlakətlə üzləşənlərə, İordaniyanın Əmman şəhərində məskunlaşmış suriyalı qaçqınlara və başqalarına humanitar yardım göstərilmişdir. Agentlik Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və BMT-nin İnkişaf Proqramı ilə birlikdə Əfqanıstanda dövlət idarələrinin fəaliyyətinin səmərəsini yüksəltmək məqsədilə burada elektron hökumət sisteminin təşkilində də fəal iştirak etmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi qonaq elmi işçilərin mübadiləsi, xarici tələbələr üçün

təqaüd proqramları çərçivəsində Azərbaycan və Xəzər hövzəsi regionu üzrə ixtisaslaşmış əcnəbi mütəxəssislərin Bakıdakı elmi-tədqiqat mərkəzlərində araşdırmalarının təşkili, Bakıdakı ali məktəblərdə təhsil almaları üçün müvafiq layihələri də icra etmiş, Latın Amerikası, Asiya və Afrikadan olan 26 ölkənin neft-qaz sahəsindəki mütəxəssisləri üçün Azərbaycan Dövlət Neft Akademiyasının (indi Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Neft və Qazın Geotexnoloji Problemləri və Kimya Elmi-Tədqiqat İnstitutunda ixtisasaratırma kursları və enerji resurslarının emalı üzrə seminarlar təşkil olunmuşdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi

Milli-mədəni müxtəliflik və tolerantlıq mühiti Azərbaycanı dünya miqyasında mədəniyyətlərarası dialoq məkanı etmişdir. Bu gün Azərbaycanda mədəni, etnik müxtəlifliyin qorunmasına yönəldilən dövlət siyasəti mədəni müxtəliflik üzrə tarixi ənənələri qoruyub inkişaf etdirməyə və Azərbaycanın bu sahədə təcrübəsini yaymağa imkan vermişdir. Məhz multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi kimi tanıdılmasının vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 may 2014-cü il tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Azərbaycanın multikultural dəyərlərinin və təcrübəsinin təbliği həm də Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasına əlverişli imkan yaradır. Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində Prezident İlham Əliyev multikulturalizmin Azərbaycan modelinin missiyası və məqsədlərini bir daha açıqlayaraq demişdir: *"Biz dünyaya göstəririk ki, bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, yaşayacaqlar. Azərbaycan dövləti onları, onların maraqlarını, milli duyğularını, ləyaqətini qoruyur. Onlar bizim qardaşlarımızdır. Bizim gücümüz birliyimizdədir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim sərvətimizdir"*[25].

25 Novruz bayramı ümumxalq şənliyində İlham Əliyevin nitqi. /19.03.2016/ - http://www.president.az/articles/19436

Multikulturalizm bu gün Azərbaycanda daxili humanitar siyasətin, demokratik inkişaf səviyyəsinin ayrılmaz hissəsidir. Mərkəz multikulturalizmin Azərbaycan modelinin təbliği ilə əlaqədar bir sıra əhəmiyyətli layihələr reallaşdırılmışdır. Məsələn, bir sıra xarici dövlətlərin ali məktəblərində – İtaliyanın Sapienza Universitetində, Bolqarıstanın Müqəddəs Kliment Orxidski adına Sofiya Universitetində, Rusiyanın I Prezidenti Boris Yeltsın adına Ural Federal Universitetində, Çexiyanın Praqa Karlov Universitetində, Litvanın Pedaqoji Universitetində, İsveçrənin Frayburq Universitetində, Ukraynanın Poltava İqtisadiyyat və Ticarət Universitetində, Türkiyənin Ərciyəs Universitetində, Portuqaliyanın Lusofona Humanitar və Texnologiya Universitetində və s. "Azərbaycan multikulturalizmi" fənninin tədrisinə başlanılmışdır. Beləliklə, hazırda həmin fənn dünyanın 11, Azərbaycanın isə 19 nüfuzlu ali məktəbində uğurla tədris olunur. Eyni zamanda multikulturalizm siyasətinə dair elmi-tədqiqat işləri aparılır, beynəlxalq əhəmiyyətli konfranslar və dəyirmi masalar təşkil olunur. Bu çərçivədə reallaşan beynəlxalq tədbirlərin Azərbaycanda keçrilməsi ölkəmizdə multikulturalizmin yüksək səviyyədə olmasının göstəricisidir.

Beynəlxalq humanitar əməkdaşlığın genişləndirilməsi istiqamətində Azərbaycanın həyata keçirdiyi əsas tədbirlər

Azərbaycanın daxili və xarici siyasətindəki humanitar istiqamətlərdə, demokratik dəyərlərin inkişafında, ümumbəşəri humanizm prinsiplərinə riayət olunmasında əldə etdiyi nailiyyətlər beynəlxalq ictimaiyyətin ona olan marağını əhəmiyyətli dərəcədə artırmışdır. Bu gün Azərbaycan ən mötəbər beynəlxalq səviyyəli tədbirlərə, zirvə toplantılarına, elmi konfranslara, idman, musiqi yarışlarına, festivallara və s. ev sahibliyi edir. Azərbaycanda təşkil olunan belə tədbirlər onun imicinə müsbət təsir göstərməklə, dövlətin milli maraqlarını təmin etməklə yanaşı, xarici siyasətində əməkdaşlıq pilləsindən etibarlı və məsuliyyətli tərəfdaşlıq mərhələsinə keçməsinin bariz nümunələri sayıla bilər.

Beynəlxalq humanitar forumlar. Bakıda ənənəvi olaraq keçirilən beynəlxalq humanitar forumlar Azərbaycanın dünya dövlətləri

birliyində yerini və mövqeyini, onun ümumbəşəri humanizm prinsiplərinə sədaqətini göstərən qlobal miqyaslı tədbirlərdən biridir. Qeyd olunmalıdır ki, Azərbaycanın humanitar fəlakətlə üzləşməsi, torpaqlarının hələ də Ermənistanın işğalı altında olması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin yürüdülməsi, bir milyondan çox insanın qaçqın və köçkün vəziyyətinə düşməsi humanitar missiyalı tədbirlərin məhz onun paytaxtında keçirilməsini aktuallaşdırmışdır. Son 10 ildə Azərbaycanın uğurla ev sahibliyi etdiyi bu forumlarda qlobal xarakterli sosial-iqtisadi, siyasi, ekoloji və humanitar məsələlərə – beynəlxalq təhlükəsizliyə, dialoqa, birgəyaşayışa dair səmərəli müzakirələr aparılır, tanınmış dövlət, elm və mədəniyyət xadimlərinin, o cümlədən elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarının, nüfuzlu beynəlxalq təşkilat rəhbərlərinin ümumbəşəri ayrı-ayrı problemlərin həlli yolları haqqında fikirləri dinlənilir. Müzakirələrdən sonra əldə olunan ortaq qərarlar isə tövsiyələr şəklində beynəlxalq təşkilatlara, hökumətlərə, dövlət başçılarına ünvanlanır və mümkün həllini tapır. Ənənəvi Bakı Beynəlxalq Humanitar forumları YUNESKO və İSESKO kimi nüfuzlu təşkilatlar tərəfindən dəstəklənir. Bu tədbirlərin keçirilməsində məqsəd mütərəqqi ideyaların öyrənilməsi, nəzəri biliklər və təcrübə mübadiləsi, konstruktiv dialoqlar vasitəsilə dünyanın qlobal humanitar problemlərinin diqqətə çatdırılması, onların aradan qaldırılmasında ortaq mövqeyin və qarşılıqlı fəaliyyətin formalaşmasıdır. Forumun nəticələri isə Bakı bəyannamələrində öz əksini taparaq, dünya ictimaiyyətinə çatdırılır.

10-11 mart 2016-cı il tarixlərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda "Çoxqütblü dünyaya doğru" mövzusunda növbəti – IV Qlobal Bakı Forumu keçirilmişdir. Forumda dünyada etnik və siyasi zəmində baş verən münaqişələr, demokratiyanın inkişafı, təhsil, ekologiya, enerji təhlükəsizliyi sahələrində qarşıya çıxan qlobal problemlər geniş müzakirə olunmuşdur. Forumdakı çıxışında Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafı üçün humanitar aspektlərə daim böyük diqqət yetirdiyini, Azərbaycanda əsrlər boyu çoxkonfessiyalı, çoxmillətli cəmiyyətin formalaşdığını, müstəqillik illərində həmin bu müsbət meyillərin daha da gücləndiyini, burada heç

vaxt dini və milli zəmində qarşıdurma olmadığını vurğulayan Prezident İlham Əliyev onu da bildirmişdir ki, *"humanist dəyərlər və ideallar uzun əsrlər boyu qarşısıalınmaz qüvvə kəsb edib. Onlar xalqların həyatının ayrılmaz hissəsinə çevrilib və beynəlxalq münasibətlərə üzvi şəkildə daxil olub. Beynəlxalq məkanda onların həyata keçirilməsi vasitələri keyfiyyətcə genişlənib. BMT-nin və YUNESKO-nun xoşməramlı səfirləri, qaçqınların müdafiəsi, insan hüquqlarının təmin edilməsi üzrə və digər nüfuzlu təsisatlar – bütün bunlar bizim dövrümüzdə yaranıb və ictimai inkişafın əsas vektorlarından biri olan humanizmin inkişafının daxili məntiqindən irəli gəlib. Əlamətdar haldır ki, bütün dünyada tanınmış neçə-neçə elm, mədəniyyət, təhsil və incəsənət xadimi bu cür humanizm səfirləridir".*[26]

Avropa Oyunları. 2015-ci ilin iyun ayının 12-dən 28-dək davam etmiş 1-ci Avropa Oyunları Azərbaycan Respublikasının malik olduğu iqtisadi, siyasi, mədəni və intellektual potensialı ilə yanaşı, onun Avropa məkanında artan siyasi nüfuzunu, ümumbəşəri humanizm prinsiplərinə sədaqətini bir daha dünyaya nümayiş etdirmişdir. Avropanın 50 ölkəsindən 10.000 idmançının mübarizə apardığı həmin qlobal idman tədbiri eyni zamanda müasir Azərbaycanın nailiyyətlərinin, onun multikulturalizm və tolerantlıq mühitinin təqdimatı, tarix və mədəniyyətinin, humanitar dəyərlərinin təbliği baxımından da unikal təbliğat platforması olmuşdur. Bundan başqa**,** Olimpiya hərəkatının beşiyi sayılan Avropa ilə qarşılıqlı faydalı əməkdaşlığa hazır olan, Şərq və Qərb mədəniyyətlərinin kəsişmə nöqtəsində yerləşən Azərbaycanda belə bir beynəlxalq tədbirin keçirilməsi mədəniyyətlər və sivilizasiyalararası dialoqun qurulmasında yeni əməkdaşlıq formalarının mümkünlüyünü də göstərmişdir. Yarışlarda 289 idmançı ilə təmsil olunan Azərbaycan 21 qızıl, 15 gümüş və 20 bürünc, ümumilikdə 56 medal qazanmışdır.

Bununla belə, Azərbaycana münasibətdə ikili standartlardan çıxış edən, onun qlobal və regional siyasi, iqtisadi məsələlərdə müstəqil siyasətinə təsir göstərmək istəyən bəzi Qərb dövlətləri və onların himayəsində olan qruplar "demokratik dəyərlərin və insan hüquqlarının pozulması" kimi əsassız ittihamlar irəli sürərək bu genişmiqyaslı idman

26 İlham Əliyev Heydər Əliyev Mərkəzində IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində iştirak edib. /02.10.2014/ - http://president.az/mobile/articles/13008

tədbirini siyasiləşdirməyə, pozmağa səy göstərmişlər. Hələ 2015-ci ilin yanvar ayında beynəlxalq qeyri-hökumət təşkilatlarının Varşavada keçirilən toplantısında Çexiyanın ermənipərəst və Azərbaycana münasibətdə destruktiv mövqeyi ilə seçilən, bəzi Qərb dövlətlərinin geosiyasi maraqlarına xidmət edən "People in Need", "Human Rights Watch", "International Media Support", "Platform London", "Netherlands Helsinki Committee", "Index on Censorship", "Article XIX", "International Partnership for Human Rights" kimi təşkilatlar xalqlar və mədəniyyətlər arasında dialoqun, əməkdaşlığın yaranmasına, beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəldilən yarışları boykot etməyə çağırmışlar. Hədəf isə təkcə Azərbaycan, Olimpiya hərəkatı deyil, onların geosiyasi və geoiqtisadi maraqlarına zidd olan humanitar dialoq prosesi idi. Bu baxımdan həmin təbliğat kampaniyasının ifşası qarşılıqlı faydalı əməkdaşlığın qurulmasında, humanizm prinsiplərinin təntənəsində maraqlı olan tərəflərin taktiki qələbəsi kimi dəyərləndirilməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1-ci Avropa Oyunlarının nəticələrini qiymətləndirərkən demişdir: *"Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını, gücünü göstərdi. Biz bu potensialı, əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün, bəlkə, yüzilliklər lazımdır. Bu Oyunlar, sadəcə olaraq, bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək. Həm insani potensial, həm dövlətimizin iqtisadi potensialı, həm cəmiyyətdə hökm sürən xoş əhvali-ruhiyyə, xalqla iqtidar arasındakı birlik, milli ideyalar ətrafında birləşməyimiz, milli həmrəylik – məhz budur bizim uğurlarımızın əsas şərtləri"*.[27] O da qeyd edilməlidir ki, Azərbaycan 2017-ci ildə humanitar təyinatlı daha bir mötəbər beynəlxalq idman yarışının – 4-cü İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə keçirilməsinə hazırlıq görür. Bu məqsədlə İslam Həmrəyliyi İdman Federasiyası (İHİF) ilə müqavilə imzalanmışdır.

27 Birinci Avropa Oyunları ilə əlaqədar keçirilən mükafatlandırılma mərasimində İlham Əliyevin nitqi. /29.06.2015/ - http://president.az/mobile/articles/16214

Bakı prosesi. Azərbaycan beynəlxalq müstəvidə mədəni əlaqələrin, dialoq prosesinin qurulması və inkişafı üzrə təşəbbüslərin müəllifi olmaqla, həm də onun əsas icraçılarından biridir. 2008-ci ilin dekabr ayında Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin Bakıda keçirilmiş konfransında Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilmiş, sivilizasiyalar arasında dialoqun əldə olunması və inkişafına yönəldilən "Bakı prosesi"nin təməli qoyulmuşdur. 2009-cu ilin oktyabrında Azərbaycanın ev sahibliyi etdiyi islam ölkələri mədəniyyət nazirlərinin konfransı çərçivəsində aparılmış müzakirələrdə "Bakı prosesi" – sivilizasiyalar arasında dialoqa yeni çağırış" adlı sənəd qəbul olunmuşdur. Elə həmin il TÜRKSOY-un Daimi Şurasının 26-cı toplantısında "Bakı prosesi"nin davam etdirilməsinin vacibliyi öz əksini tapmışdır. Bir il sonra Bakıda YUNESKO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair" Konvensiyasının təqdimat mərasimində Azərbaycan Prezidentinin təşəbbüsü ilə "Bakı prosesi" çərçivəsində Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyi bildirilmişdir. Bu forum üçün Azərbaycan paytaxtının seçilməsi isə onun humanitar siyasət istiqamətində əldə etdiyi uğurlara verilən böyük qiymətdir.

Bu təşəbbüsün məntiqi davamı olaraq 2011-ci il aprelin 7-dən 9-dək Azərbaycanın paytaxtında təşkil olunmuş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda "Bakı prosesi"nin qlobal əhəmiyyəti yüksək dəyərləndirilmişdir. Forumda çıxış etmiş Prezident İlham Əliyev bu təşəbbüsün məqsəd və perspektivlərinə toxunarkən demişdir: *"Biz istəyirik ki, ölkəmizdə yaranmış bu təcrübə həm öyrənilsin, həm bəlkə başqa ölkələr üçün də maraq doğursun. Çünki bu, həqiqətən, nadir bir təcrübədir və "Bakı prosesi"nin başlanması və uğurla davam etdirilməsi onu göstərir ki, biz ortaya siyasi iradə qoyduqda məqsədə nail ola bilirik"*[28]. 2015-ci il yanvarın 30-da isə Nyu Yorkda – BMT-nin mənzil-qərargahında "Bakı prosesi" və III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təqdimat mərasimində həmin tarixi təşəbbüsün və

28 Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində İlham Əliyevin nitqi. /07.04.2010/ - http://president.az/articles/1849/print

forumun ali missiyasının dünyada sülh və əməkdaşlığın qorunmasına, qarşılıqlı faydalı dialoqun yaradılmasına istiqamətlənməsi yüksək qiymətləndirilmişdir.

2016-cı il sentyabrın 29-da Bakı beşinci dəfə beynəlxalq humanitar foruma ev sahibliyi etmişdir. Heydər Əliyev Mərkəzində növbəti – V Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlamışdır. Forumda müasir dövrdə maraq doğuran qlobal xarakterli məsələlər ətrafında geniş və səmərəli fikir mübadiləsi aparılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev forumdakı çıxışında qeyd etmişdir ki, indi dünya sivilizasiyalararası dialoqdan danışsa da, reallıqda sivilizasiyalararası toqquşmanın ilk təzahürləri müşahidə edilməkdədir. Təhdid xarakterli bu meyillərin qarşısı birgə səylərlə alınmazsa, bəşəriyyət böyük fəlakətlə üzləşəcəkdir. Çıxış yolu isə gündəlikdə müsbət meyillərə üstünlük verilməsidir.

Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı ilə səmərəli əlaqələr quran Azərbaycan Respublikası müxtəlif sivilizasiyaları təmsil edən həmin beynəlxalq qurumların fəaliyyətinin əlaqələndirilməsi məqsədilə, yuxarıda qeyd edildiyi kimi, hələ 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına İslam Əməkdaşlıq Təşkilatına daxil olan dövlətlərin müvafiq qurumlarının rəhbərlərini də dəvət etmişdir. Onların qlobal xarakterli məsələlərə dair müzakirələrdə birgə və konstruktiv iştirakı böyük ictimai rezonans doğurmuş, dialoqun mümkünlüyünü bir daha təsdiqləmişdir. Azərbaycanın bu istiqamətdə atdığı addım, dialoq təşəbbüsü yüksək qiymətləndirilmiş, həmin görüşlərin davamlı olması məqsədilə ona "Bakı prosesi" adı verilmişdir. Beləliklə, Azərbaycanın təşəbbüsü ilə çox önəmli bir prosesin təməli qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev V Bakı Beynəlxalq Humanitar Forumundakı çıxışında görülən işlərin əhəmiyyətini vurğulayaraq demişdir: *"Biz çalışırıq və çalışacağıq ki, bundan sonra da humanitar sahədə dinlərarası, mədəniyyətlərarası dialoqun güclənməsinə öz töhfəmizi verək. Çünki bizim siyasətimiz bundan ibarətdir, eyni zamanda bizim tariximiz multikulturalizm əsasında qurulubdur. Düzdür, multikulturalizm bir anlayış olaraq yeni bir ifadədir, ancaq bu,*

həmişə Azərbaycanda olub. İctimai-siyasi quruluşdan asılı olmayaraq, Azərbaycan bütün dövrlərdə sülh, əməkdaşlıq, qarşılıqlı anlaşma məkanı olmuşdur və biz bu ənənələri yaşadırıq. Bu gün biz müstəqil dövlət kimi belə tədbirlərin keçirilməsi ilə multikulturalizmin inkişafına öz töhfəmizi veririk və Azərbaycanda aparılan siyasət bu müsbət meyilləri gündəlik həyatda gücləndirir"[29].

Beləliklə, Azərbaycanın geosiyasi vəziyyəti, etnomədəni müxtəlifliyi ona "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoqa dair təşəbbüslərini region və Avropa məkanı çərçivəsindən çıxarmağa, qlobal səviyyəyə qaldırmağa imkan vermişdir. BMT-nin Ali nümayəndəsi Naser Abdel əl-Naserin fikrincə, "Bakı prosesi" beynəlxalq dialoqun dəstəklənməsi üçün real platforma olmuşdur[30]. "Bakı prosesi"nin uğurla fəaliyyət göstərən və əməkdaşlığa yeni imkanlar açan məkan olduğunu vurğulayan İSESKO-nun Mədəniyyətlərarası Dialoq Departamentinin direktoru Belinda Peris isə demişdir: *"Dünya zorakılıq və terror aktları ilə üz-üzədir. Bütün bunlar insanlara qorxu hissi yaşadır və biz bu fenomenə qarşı mübarizə aparmalıyıq. Eyni zamanda biz iqtisadi problemləri, keyfiyyətli təhsil, insan ləyaqətinə hörmətlə də bağlı məsələləri həll etməliyik. Bu problemlər bir-biri ilə bağlıdır"*[31].

Nəticə

Azərbaycanın beynəlxalq əməkdaşlığa yönəlik humanitar siyasəti, onun effektliyi bilavasitə düzgün daxili siyasətindən qaynaqlanır və cəmiyyətin rifah halının yüksəldilməsi, insan hüquq və azadlıqlarının təminatı, milli və dini münasibətlərin tənzimlənməsi, sosial-mədəni sahələrin inkişaf etdirilməsi ilə üzvi şəkildə bağlıdır. Azərbaycan Respublikasının xarici siyasətinin humanitar xətti bu siyasətin əsas vəzifələrinə (məsələn, xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və bu kimi təşkilatlarda fəal iştirak etmək) və prinsiplərinə – milli maraqlardan çıxış edən müstəqil

29 V Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi, /29.09.2016/ - http://az.president.az/articles/21234

30 Бакинский процесс стал реальной платформой для поддержания международного диалога /27.04.2016/- http://www.trend.az/azerbaijan/society/2525724.html

31 "Бакинский процесс" уже принят во всем мире в качестве дипломатического термина. /27.04.2016/ - http://ru.apa.az/print/315224

və praqmatik siyasət yürütmək, beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivil dövlətlərarası münasibətlər qurmaq, beynəlxalq, regional və dövlətlərarası münaqişələrin sülh və danışıqlar yolu ilə həllinə çalışmaq, dövlətlərin suveren hüquqlarına, dövlət sərhədlərinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq, qarşılıqlı faydalı əməkdaşlığa nail olmaq, bir-birinin daxili işlərinə qarışmamaq və s. əsaslanır. Bundan başqa, bu, xarici siyasi hədəflərə çatmaqda, dövlətin təbliğində və müsbət imicinin formalaşdırılmasında əsas yardımçı vasitələrdəndir. Bu fəaliyyətin effektliyi təkcə xarici siyasət idarəsinin fəaliyyəti ilə məhdudlaşmır, humanitar sahələr üzrə dövlət qurumlarının – Mədəniyyət və Turizm Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Diaspora ilə İş üzrə Dövlət Komitəsinin, Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, həmçinin qeyri-hökumət təşkilatlarının, fond və digər ictimai təsisatların vahid strategiyadan çıxış edən qarşılıqlı əməkdaşlığını tələb edir. Azərbaycan Respublikası Qərb, Şərq *(islam)* ölkələri, qonşu dövlətlər, türk dünyası, hətta bir-biri ilə kəskin ziddiyyətdə olan tərəflərlə humanitar əməkdaşlığın qurulmasında hüquq bərabərliyi, qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bu isə Azərbaycanın xarici siyasət kursunda praqmatik siyasət ənənələrinə riayət etməsinin və bu fəaliyyətin düzgünlüyünün göstəricisidir.

Halbuki Qərbin geosiyasi maraq və istiqamətlərində "humanitar siyasət" anlayışına sabit terminoloji yanaşma yoxdur və ikili xarakter daşıyır. Ümumi yanaşmada dövlətlərin humanitar sahələr – elm, təhsil, mədəniyyət, turizm, səhiyyə və s. üzrə əməkdaşlığı, mədəniyyətlərarası dialoqun qurulmasında fəaliyyəti, müharibələrdən, texnogen və ya təbii fəlakətlərdən zərər çəkənlərə humanitar yardımların göstərilməsi nəzərdə tutulduğu halda, konkret hədəf və məqsədlərdən asılı olaraq təyinatını dəyişə bilir. Məsələn, bu və ya digər dövlətin siyasi iradəsinə təzyiq göstərmək, onun daxili işlərinə müdaxilə etmək məqsədilə insan hüquq və azadlıqları sahəsində vəziyyət etnik və dini münasibətlər kimi məsələlərlə əlaqələndirilir.

Azərbaycan Respublikasının xarici siyasəti informasiya əsrində: çağırışlar və çevik cavablar

*Tahirə Allahyarova**

"İnformasiya mübarizəsi indiki şəraitdə, hesab edirəm ki, prioritet məsələlərdən biridir. Biz internet və qloballaşma dövründə yaşayırıq və bütün müasir imkanlardan maksimum dərəcədə istifadə etməliyik. Dünyada Azərbaycanla bağlı olan bəzi informasiyalar heç də həmişə həqiqətə uyğun deyildir. Səbəbi ondan ibarətdir ki, ölkəmiz müstəqil siyasət aparır. Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Biz hücum diplomatiyası aparırıq və bunun üçün həm intellektual, həm də maddi resurslarımız var"[1].

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Giriş

Milli dövlətin, suveren xarici siyasətin yaranması, dövlətlərarası diplomatiya tarixindən fərqli olaraq, Vestfal sülhündən (1648) başlanğıcını götürür və son bir neçə əsri əhatə edir.

Azərbaycan dövlətçiliyinin dünya ilə qarşılıqlı əlaqələrinin tarixi də çox qədim olub, hələ tarixi İpək Yolu dövründən qaynaqlanır. Bununla müqayisədə milli dövlət statusunda həyata keçirilən xarici siyasət ənənəmiz XX əsrin əvvəllərindən başlanğıcını götürmüşdür. 1918-ci il mayın 28-dən başlayan xarici siyasət fəaliyyəti cəmi iki ilə yaxın davam etmiş, daha sonra sovet sosialist quruluşunun hökm sürdüyü 70 illik zaman fasiləsi yaranmışdır. Bu müddətdə digər sovet respublikaları kimi, Azərbaycanın da xarici siyasəti simvolik xarakter daşımışdır.

* *Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Daxili siyasətin təhlili şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru*

1 İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatı təqdim olunmuşdur. /29.12.2010/ - http://www.president.az/articles/1356

Ötən əsrin sonlarında dövlət müstəqilliyinin bərpası ilə Azərbaycan öz müstəqilliyinin ən başlıca atributlarından olan suveren xarici siyasətini həyata keçirməyə başladı. "Azərbaycanın xarici siyasət kursu, faktiki olaraq, 1993-cü ilin ikinci yarısından formalaşmağa başladı. Həmin dövr çox ziddiyyətli tendensiyalarla dolu idi. Sosialist düşərgəsi dağıldığından yeni müstəqil ölkələr taleyin hökmü ilə müdafiəsiz məkanlara, yelkənsiz qayıqlara çevrilmişdi"[2].

Belə bir dövrdən başlayan 25 il zaman baxımından çox az olsa da, məzmun və zənginlik etibarilə əsrə bərabər tarixi əhəmiyyətli uğurların əldə edildiyi mərhələdir. Öz növbəsində, bu uğurların sırasında məhz həmin vaxtlardan formalaşmaqda olan informasiya əsrinin çağırışlarına xarici siyasət sahəsində verilən cavablar özünəməxsus yer tutur.

Milli xarici siyasət təcrübəsinin formalaşmasını, eləcə də qısa vaxt ərzində qazanılan uğurların miqyasını göz önündə canlandırmaq üçün bir müqayisə aparaq. Burada ilk növbədə Azərbaycanın ilk xarici işlər naziri M.Hacınskinin 1918-ci ildəki fəaliyyəti yada düşür. Qeyd edək ki, say baxımından əhalisi ölkəmizə yaxın olan İsveçrənin 1848-ci ildə yaradılan Xarici İşlər Nazirliyində[3] 1918-ci ildə sayca artıq 59-cu naziri çalışırdı. Hazırda bu ölkənin 72-ci, Azərbaycanın isə 15-ci naziri fəaliyyətini icra edir. Bununla belə, əməkdaşlığa daima açıq olan ölkəmiz bu illər ərzində beynəlxalq münasibətlər sisteminin fəal subyektinə çevrilmiş, İsveçrədən daha tez BMT-yə və Avropa Şurasına üzv olmuşdur. Hazırda Azərbaycanla qarşılıqlı əməkdaşlıqda olan ölkələrin sayı 177-dir və demək olar ki, ən qabaqcıl ölkələrlə (məsələn, ABŞ-la) say baxımından eynidir.

Bütövlükdə 25 ilin əsas yekununu ifadə etmək istəsək, bu illər ərzində ölkəmiz müstəqil və çoxşaxəli xüsusiyyətə malik xarici siyasəti ilə dünya birliyində qarşılıqlı əməkdaşlığa, qlobal və regional təhlükəsizlik və inkişafa xarici siyasət təcrübəsinin əsrlərlə yaşı olan ölkələrdən qat-qat çox töhfə vermiş və verməkdədir.

2 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.11-12
3 https://www.eda.admin.ch/eda/en/home.html

Sosial şəbəkələr və rəqəmsal (yeni) diplomatiyanın formalaşması

"Hər bir insan diplomat ola bilər. Bunun üçün sizə yalnız düşündüyünüzü yazıb düyməyə basmaq və göndərmək lazımdır"[4].

Hillari KLİNTON

Müasir beynəlxalq münasibətlər sistemində baş verən köklü dəyişikliklərin təkanverici qüvvələrindən biri də informasiya-kommunikasiya texnologiyalarıdır.

İKT-nin çox sürətli inkişafı dünyaya mütərəqqi nailiyyətlər gətirməklə yanaşı, həm də beynəlxalq sistemdə yeni problemlər ortaya çıxarmışdır. Bir tərəfdən bu texnologiyalara sahib olan ölkələr qlobal geosiyasi rəqabətdə danılmaz üstünlüklər əldə etmişlər. Digər tərəfdən isə geri qalan ölkələrlə onların arasında "rəqəmsal uçurum" formalaşmışdır.

Ən mürəkkəb problemlər isə yeni texnologiyaların milli təhlükəsizliyin və geosiyasi hökmranlığın təmin edilməsində həlledici amilə çevrilməsi ilə ortaya çıxmışdır. Beynəlxalq sabitliyi təhdid edən çağırışlar və risklər sürətlə çoxalmışdır.

Qloballaşma prosesləri, internet və informasiya texnologiyalarının inkişafı gedişində sosial şəbəkələrin (SŞ) yaranması ilə xarici siyasətdə dünya ictimai rəyi uğrunda mübarizə yeni mərhələyə daxil olmuşdur. 30 il bundan əvvəl ABŞ-da kommunikasiyanın yeni vasitəsi – internet meydana gəldi. Bundan 10 il sonra bütün Yer kürəsini vahid xəbərlər şəbəkəsində – CNN-də birləşdirmək mümkün oldu. Bir müddət sonra internetlə birləşdirilməsi mümkün olan mobil telefon peyda oldu və görünməmiş sürətlə artmağa başladı. Belə ki, əgər 1993-cü ildə internet- şəbəkə istifadəçilərinin sayı cəmi 70 min nəfər idisə, 2000-ci ildə onların sayı 400 milyona, 2015-ci ildə 4 milyarda çatmışdır.

4 Bu sözləri 2012-ci ilin sentyabrında ABŞ-ın keçmiş dövlət katibi, prezidentliyə namizəd olmuş Hillari Klinton sosial şəbəkələrə həsr edilmiş konfransdakı çıxışında demişdir

Bundan başqa, 2006-cı ildə saytların sayı 250 milyon olubsa, hazırda onların sayı 1 milyarda yaxındır.

"İKT inqilabının hazırkı mərhələsi "sosial şəbəkə"lər fenomenini yaratmışdır. Bu termin 1954-cü ildə London İqtisad Məktəbinin professoru Con Barnes[5] tərəfindən ilk dəfə tətbiq ediləndə internet mövcud deyildi. İlk SŞ 1995-ci ildə yaradılmış (Classmates. com), "SŞ bumu" isə 2000-ci illərdən başlamışdır (1999-cı ildə "Livejournal" , 2003-cü ildə "MySpace", bir il sonra, yəni 2004-cü ildə "Facebook", 2005-ci ildə "YouTube", 2006-cı ildə "Tvitter" və həmin ildə Rusiyada yaradılan "Odnoklassniki" və "Vkontakte" fəaliyyətə başlamışdır). Hazırda hər "internet saatı"nın təxminən 6 dəqiqəsi SŞ-lərin ("Pinterest", "Tumblr", "Instagram", "LinkedIn", "YouTube", "Google+", "Facebook", "Tvitter" və s.) payına düşür"[6].

Beləliklə, hər bir dövlətin qarşısında bu yeni məkanda öz xarici siyasətini operativ və düşünülmüş şəkildə işıqlandırmaq çağırışı durur. Onun həyata keçirilməsi ilə beynəlxalq münasibətlər sistemində formalaşan qarşılıqlı təsirin yeni və özünəməxsus forması – rəqəmsal diplomatiya yarandı. Rəqəmsal diplomatiya (e-diplomatiya) İKT-nın və SŞ-lərin xarici siyasətin reallaşdırılması yönündə diplomatik məqsədlərlə istifadə edilməsini ifadə edən yeni sahəyə çevrildi.

Hazırda əksər qabaqcıl ölkələrin Xarici İşlər Nazirliyinin nəzdində (məsələn, ABŞ, Kanada, İsrail, Böyük Britaniya və s.) Rəqəmsal Diplomatiya Şöbəsi, yaxud "elektron diplomatlar" komandası yaradılaraq fəaliyyət göstərir.

"E-diplomatiya" "diplomatik məqsədlərə nail olmaq üçün ümumilikdə internetin, sosial şəbəkələrin və kommunikasiya texnologiyalarının istifadə edildiyi yeni bir istiqamət kimi" müəyyənləşdirilmişdir. ABŞ Dövlət Departamentinin "2011-2013-cü illərdə informasiya-kommunikasiya texnologiyalarının inkişafının strateji planı: rəqəmsal diplomatiya" adlı sənədində bu anlayış məhz sosial şəbəkələrin diploma-

5 Barnes John. Class and Committees in a Norwegian Island Parish. // Human Relations, 1954, (7): 39-58. - http://en.wikipedia.org/wiki/Social_network

6 Allahyarova T. XXI əsrdə xarici siyasət və e-diplomatiya Azərbaycan dövlətinin xidmətində. // "SAM-ın şərhləri", Bakı, 2014, № XIII. - http://sam.az/uploads/PDF/SAM%20SHERHLERI-4%20for_print.pdf

tik təcrübədə tətbiqi mənasında işlədilir[7].

SŞ-lərin istənilən başqa veb-resurslardan əsas fərqi xarici siyasət rəsmisinin bilavasitə özünün onlayn-real vaxt rejimində çıxış etməsi, cəmiyyətin gözləntilərinə cavab verməsidir.

"Morze teleqrafının ixtirasından üzü bəri heç bir texnoloji innovasiya sosial şəbəkələr qədər xarici siyasətə "qlobal miqyaslı hiper-lokal" auditoriyaya çıxmaq imkanına malik olmamışdır. Şəbəkənin cəmiyyətdə ictimai rəyi yönləndirmək və hadisələrin gedişinə təsir göstərmək gücünü "Ərəb baharı" adlanan proseslər aydın göstərdi. Sonrakı illərdə sosial şəbəkələrin inkişafı strateji diplomatiyanın başlıca vasitəsi kimi artan xətlə davam etmişdir.

SŞ-lər ən az vaxt və maddi məsrəflə qarşılıqlı təsir və ünsiyyəti həyata keçirməyə imkan yaradır. Bu baxımdan dünyada ən populyar olan SŞ 2006-cı ildə yaradılan və qərargahı San-Fransiskoda yerləşən "Twitter" mikrobloqudur. Bu sosial şəbəkə xarici siyasətin öz məqsədlərinə nail olmaq yönündə imkanlarını görünməmiş dərəcədə artırmışdır. Hazırda 500 milyon istifadəçi ilə 27 dildə fəaliyyət göstərən, hər gün 340 milyon tvit göndərən mikrobloq 140 milyon aktiv istifadəçi sayına malikdir"[8]. "Tvitter" formatında ictimai diplomatiya o dərəcədə yayılmışdır ki, "tviplomatiya" adlandırılan yeni istiqaməti formalaşdırmışdır. İnformativlik və interaktivik rəqəmsal diplomatiyanın üstünlüyüdür. Bəzən 140 işarənin azlığından şikayət edilsə də, bu, əsaslı görünmür. Belə ki, birbaşa ünsiyyətlə yanaşı, mənbə ilə ətraflı tanış olmağa imkan verən istinadlar verilə bilir. Ən çox müzakirə edilən mövzular *həştəq* adlanır.

E-diplomatiyanın təşkilatlanması baxımından 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra beynəlxalq ictimai rəyə daha sistemli və məqsədyönlü təsir etmək üçün ABŞ Prezidentinin administrasiyası yanında xarici siyasi təbliğatla məşğul olan xüsusi idarənin yaradılması qeyd edilməlidir. Onun əsas məqsədi "Dövlət Departamentinin, Müdafiə Nazirliyinin və başqa federal orqanların ("Amerikanın səsi" radiosu da daxil olmaqla) ictimaiyyət üçün olan bəyanatlarının

7 Hanson F. Revolution @State: the Spread of eDiplomacy. Lowy Institute for International Policy, 2012, p.3
8 https://twitter.com (дата обращения: 15.05.2013)

koordinasiya edilməsi, başlıca hədəf isə ABŞ-ın yeganə fövqəldövlət kimi imicinin yaxşılaşdırılması idi. Yeni yaradılmış idarə daha əvvəl Dövlət Departamentinə tabe olan ABŞ-ın bütün ölkələrdəki səfirliklərinin nəhəng kommunikasiya şəbəkəsinə və onların KİV-lə əlaqələr üzrə bölmələrinə, həmçinin yayım şəbəkəsinə nəzarət edir. İnsan hüquqlarının qorunması şüarı altında ideoloji-informasiya təzyiqinin aparılması, müxtəlif ölkələrdə "nə qədər pis olsa, o qədər yaxşıdır" düşüncəsi ilə yaşayan qüvvələrin maliyyələşdirilməsi əsas fəaliyyət istiqamətlərindən biridir. 2012-ci ilin mart ayı üçün artıq ABŞ Dövlət Departamentində 150 əməkdaş elektron diplomat ştatında fəaliyyət göstərirdi"[9]. 2011-ci ilin aprel ayından ABŞ-ın İranda virtual səfirliyi (Virtual Embassy of the United States – ingilis və farsdilli) açılmışdır. Səfirlik real səfirliklərin malik olduğu statusa, həmçinin bütün SŞ-lərdə rəsmi hesaba malikdir[10].

Beləliklə, SŞ bu gün insanların düşüncələrinə hakimlik etmək, şüurları manipulyasiya edib yönləndirmək uğrunda, sözün əsl mənasında, kiberorduların savaş meydanına çevrilmişdir. Hər bir ölkənin bu amili nəzərə almasından asılı olaraq, SŞ-lər də milli təhlükəsizliyin təmin edilməsində o dərəcədə həlledici rol oynaya bilər. "Sosial şəbəkələr informasiya uğrunda mübarizəni yeni mərhələyə yüksəldiblər. Sosial şəbəkələrin təqdim etdiyi təbliğat və əks-təbliğat imkanları bu fenomendən dövlət səviyyəsində, ölkənin maraqları naminə istifadəni labüd edir. Bu, eyni zamanda dövlətin beynəlxalq münasibətlərdəki ön cəbhəsi olan diplomatik nümayəndəliklərin sosial şəbəkələrdən istifadəsi məsələsini də aktuallaşdırır"[11].

SŞ-lərin dövlətçilik üçün nə kimi əhəmiyyət kəsb etməsi bu yaxınlarda Türkiyədə baş verən antikonstitusional dövlət çevrilişinə cəhdin qarşısının alınması bir daha aşkara çıxardı. Artıq məlumdur ki, Prezident Rəcəb Tayyib Ərdoğan dövlət çevrilişi cəhdinin qarşısını məhz SŞ-lərin köməyi ilə ala, hadisələrin məcrasını dəyişə bildi. Bu tarixi hadisələr qlobal medianın "Mobil telefon tanklara necə qalib gəldi? (Turkey coup:

9 http://elsasecco.com/ediplomacy.html
10 http://iran.usembassy.gov/
11 http://www.newtimes.az/az/social

How mobiles beat tanks and saved Erdogan)"[12], "Ərdoğanın ağıllı texnologiyadan ağıllı istifadəsi (Power of social media: Erdogan's smart use of a smartphone)" və s. başlıqlı təhlillərində geniş müzakirə edildi[13]. Müəlliflərə görə, "sui-qəsd iştirakçıları yeni texnologiyaların gücünü dəyərləndirə bilməmiş, klassik dövlət çevrilişi modelində olduğu kimi, ilk olaraq dövlət televiziyasını ələ keçirməyə səy göstərmişlər. Halbuki çevriliş başlayandan 11 dəqiqə sonra Ərdoğan daha ağıllı hərəkət edərək öz mobil telefonundan "FaceTime" vasitəsilə CNN Türk kanalına çıxa bilmişdi. Bu, çox möhtəşəm və tarixi bir an idi. Bundan yalnız 3 saat sonra xunta öz səhvini başa düşərək CNN Türkə basqın etdi. Lakin artıq gec idi. İqtidar artıq müvəffəqiyyətlə öz tərəfdarlarını meydanlara səsləyə bilmişdi"[14].

Müstəqil Azərbaycanda informasiya cəmiyyəti quruculuğu, modernləşən xarici siyasət və diplomatiya

Məlumdur ki, beynəlxalq münasibətlərdə böhran və gərginlik yaşanan dövrlərdə hər bir ölkədə xarici siyasətin yeri, rolu və əhəmiyyəti daha da artır. Ölkəmizdə müstəqilliyin bərpa edilməsi ilə bir vaxtda dünya siyasi sistemi görünməmiş geosiyasi qarşıdurma fazasına qədəm qoymuşdu. Azərbaycanın tarixi torpaqları təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş, Dağlıq Qarabağ münaqişəsi yaranmışdı. Reallıq ondan ibarət idi ki, Azərbaycan xalqının tarixi müstəqillik arzusuna qovuşduğu mərhələ həm də sivilizasiyanın informasiya əsrinə keçidi ilə eyni vaxta təsadüf etdi. Əgər milli və suveren xarici siyasətin həyata keçirilməsi müxtəlif ölkələrdə müxtəlif əsrlərdə baş vermişdisə, İKT-nin inkişafı ilə şərtlənən xarici siyasətin fəaliyyət və struktur baxımından modernləşməsi bütün dünya ölkələrində təxminən eyni zaman kəsiyində – ötən əsrin sonlarından başlamışdır. Mahiyyət fərqi

12 Turkey coup: How mobiles beat tanks and saved Erdogan. By Thom Poole. BBC News /18 July 2016/-http://www.bbc.com/news/world-europe-36822858

13 Power of social media: Erdogan's smart use of a smartphone /July 18, 2016/-http://edition.cnn.com/2016/07/18/opinions/erdogan-face-time-social-media-ed-finn/

14 Yenə orada

ondan ibarət idi ki, modernləşmənin start imkanları müxtəlif ölkələrdə fərqli idi. Ənənəvi mövcud olan xarici siyasət, informasiya məkanının qloballaşması, real-coğrafi məkanda sərhədlərin "şəffaf" və nisbi anlayışa çevrilməsi virtual reallıq fenomeninin önə çıxması şəraitində ciddi problemlərlə üz-üzə qaldı.

Bu prosesləri ifadə etmək üçün politoloji ədəbiyyatda "qloballaşan diplomatiya, çoxşaxəli, innovativ diplomatiya, yeni elektron diplomatiya (e-diplomatiya), intensiv, dəyişkən, qeyri-müəyyən, qeyri-sabit, proqnozlaşdırılmayan diplomatiya"[15], "modernləşən xarici siyasət, inteqrativ diplomatiya, çoxvektorlu diplomatiya" və s. anlayışlar işlədilirdi[16].

Bir çox aparıcı dövlətlər informasiya cəmiyyəti quruculuğuna dair strategiyalar hazırlayır, milli maraqların qorunması yönündə beynəlxalq ictimai rəyi formalaşdırmağa hesablanmış fəaliyyətində yeni texnologiyaların tətbiqini prioritet kimi bəyan edirlər.

Məhz belə bir vaxtda, bütün sahələrdə olduğu kimi, Azərbaycanda da informasiya cəmiyyəti quruculuğu milli quruculuqla eyni vaxtda həyata keçirilməyə başlandı. Müstəqilliyin memarı, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti ilə dövlətçiliyin bütün sahələrində olduğu kimi, informasiya cəmiyyətinin formalaşması istiqamətində də uğurlu başlanğıcın təməli qoyuldu. Azərbaycanda yaradılan ilk dövlət orqanının saytı 1997-ci ildə hazırlanan Azərbaycan Respublikası Prezidentinin saytı oldu. Heydər Əliyev tərəfindən 17 fevral 2003-cü il tarixində "Azərbaycan Respublikasının inkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" adlı fərman verildi. Bununla Azərbaycan Cənubi Qafqazda informasiya cəmiyyətinə keçid strategiyasını qəbul etmiş birinci dövlət oldu. "XX əsrin 90-cı illərinin sonlarında alimlərin haqqında bəhs etdikləri informasiya inqilabının nəfəsini Heydər Əliyev daha öncə hiss etməyə başlamışdı. Ona görə də Ulu öndər yeni müstəqil dövlətin inkişaf

15 Rana, Kishan S. 21st Century Diplomacy: A Practitioner's Guide. 2011

16 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.56

modelinin təməlinə informasiyanı qoymuşdur. O, siyasi mübarizədə, dövlət quruculuğunda iqtisadiyyat, hərbi inkişaf, texnoloji tərəqqi və s. kimi bütün başqa amillərlə müqayisədə bunun daha çox əhəmiyyət daşıdığını bilirdi. Tarixi şəraitin çağırışlarına XX əsrin 90-cı illərində Azərbaycan məhz bu şəkildə cavab verdi"[17].

İnkişafın yeni mərhələsində Prezident İlham Əliyev tərəfindən müvafiq proqram və strategiyaların hazırlanaraq həyata keçirilməsi, "rəqəmsal geriliyin" aradan qaldırılması, dövlət idarəçiliyinin bütün səviyyələrində İKT infrastrukturunun inkişaf etdirilməsi dünya standartları səviyyəsinə çatdırıldı. Xarici İşlər Nazirliyi elektron hökumət infrastrukturunun əsas komponentlərindən biri oldu[18].

İKT-nin inkişaf etdirilməsi ilə "ASAN xidmət" kimi Azərbaycan brendinin yaranması mümkün oldu. Son dövrün ən mühüm hadisələrindən biri də Azərbaycana gələn turistlərin artıq turizm şirkətləri vasitəsilə yox, elektron formada "ASAN xidmət"dən viza ala bilməsi ilə bağlı reallaşdırılan tədbirlərdir. Bununla bağlı Milli Məclis "Turizm haqqında" qanunun 7-1-ci ("Turizm vizası və turistlərə verilən elektron vizalar") maddəsinin 4-cü bəndində dəyişikliklər etmişdir. Dəyişikliyə əsasən, "Azərbaycan Respublikasına gələn turistlər turizm şirkətləri vasitəsilə elektron viza ala bilərlər" cümləsində "turizm şirkətləri" sözü "siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ölkələrin vətəndaşları və ya həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər olduqda, "ASAN Viza" sistemi" sözləri ilə əvəz edilmişdir. Maddə 7-1.5-ə edilən dəyişikliyə əsasən, elektron viza almaq üçün əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sistemində yerləşdirilmiş elektron müraciət formasında nəzərdə tutulan məlumatları sistemə daxil etməli, müraciətin qəbul olunması barədə müvafiq təsdiqnamə aldıqdan sonra "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumunu elektron qaydada ödəməlidirlər.

Elektron vizanın verilməsi ilə bağlı müraciətə ən geci 3 iş günü müddətində baxılır, imtina üçün əsas olmadıqda viza rəsmiləşdirilərək

17 Yenə orada, s.22
18 www.e-gov.az

müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir. 2016-cı ilin iyun ayında "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı verildi[19]. Fərmanla Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə elektron viza verilməsi üçün "ASAN Viza" sisteminin yaradılması və onun idarə olunması təmin edilmişdir.

İnkişafın yeni mərhələsində Xarici İşlər Nazirliyinin fəaliyyətində İKT-nin tətbiqi həyati vacib sayılan vəzifələrdən, fəaliyyətin aparıcı istiqamətlərindən biri olmuşdur. Xarici İşlər Nazirliyinin maddi-texniki bazasının texnoloji inqilabın son nailiyyətləri ilə möhkəmləndirilməsi, onun ən müasir elektron avadanlıq və proqramlarla ("İntranet və s.) təchiz edilməsi, bütövlükdə bu sahədə yeni texnologiyaların tətbiqi üzrə mühüm tədbirlərin icrasının təmin edilməsi ilə bağlı konkret tapşırıqlar müəyyən olunmuşdur.

İnformasiya cəmiyyəti və elektron dövlət quruculuğu yönündə inanılmaz uğurlara imza atan dövlətimiz hər il bütün parametrlər üzrə irəliləməkdə davam etmişdir. BMT-nin ənənəvi olaraq hər iki ildən bir nəşr etdiyi "Elektron hökumət – arzuladığınız gələcək naminə" ("E-Government Survey 2016") adlı hesabatının 2016-cı il nəşrində Azərbaycan əvvəlki mövqeyini 12 pillə yaxşılaşdıraraq 193 ölkə arasında 68-ci yerdən 56-cı yerə yüksəlmişdir. "Elektron İştirak İndeksi" üzrə Azərbaycan daha da güclü inkişafa nail olaraq mövqeyini 30 pillə artırmış, 47-ci mövqeyə çıxmışdır. Həmçinin Azərbaycan 2016-cı ildə 25 pillə irəliləyən öncül dövlətlər reytinqində yer almış, 38 dövlət arasında 7-ci mövqedə qərarlaşmışdır[20].

19 "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. / Bakı şəhəri, 1 iyun 2016-cı il/ - http://www.president.az/articles/20108

20 UNITED NATIONS E-GOVERNMENT SURVEY 2016. New York, 2016 // publicadministration.un.org p.52. - http://workspace.unpan.org/sites/Internet/Documents/UNPAN96407.pdf

Azərbaycanın xarici siyasətində yeni diplomatiyanın yaranması

"Azərbaycanın müstəqil ölkə kimi mövcudluğunun ilk illərindən, bəlkə, ondan da əvvəl biz informasiya müharibəsi şəraitində yaşayırdıq. Ermənistan və erməni lobbisi Azərbaycana qarşı informasiya müharibəsini 1980-ci illərin sonlarından başlamışdır. Müstəqilliyin ilk illərində biz bu mübarizədə uduzmuşduq. Çünki bizim belə xarici resurslarımız yox idi. Ölkə daxilində gedən xoşagəlməz proseslər, hakimiyyət uğrunda mübarizə, vətəndaş müharibəsi və s. problemlər imkan vermirdi ki, biz beynəlxalq aləmdə istədiyimizə nail olaq. Ancaq bu gün mən tam əminliklə deyə bilərəm ki, Ermənistanla və xüsusilə erməni lobbisi ilə informasiya müharibəsində biz qalib gəlirik"[21].

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

İnkişafın yeni mərhələsindən başlayaraq dövlət başçısı özünün örnək fəaliyyəti ilə Azərbaycanda yeni diplomatiyanın yaradılmasının önündə getmişdir. Bu fəaliyyət dünya liderlərinin sosial mediada fəaliyyətini təhlil edərək reytinqləri müəyyən edən, qlobal strateji kommunikasiya və ictimai əlaqələr üzrə aparıcı şirkət – "Burson-Marsteller"in apardığı qlobal reytinqlərdə əksini tapmışdır. "Dünyada geosiyasi situasiya sürətlə dəyişdiyindən xarici siyasətin metodlarında da yeniləşmələr baş verir. Artıq qeyd etdiyimiz kimi, XXI əsrin başlanğıcı risklərin və böhranların yaranması ehtimalının artması ilə xarakterizə olunur. Buna uyğun olaraq, mümkün təhlükə və riskləri nəzərə alan çevik xarici siyasət strategiyasının daha da inkişaf etdirilməsinə ehtiyac yaranır. Azərbaycan Prezidenti İlham Əliyev məsələnin bu aspektinə daim ciddi diqqət yetirir və ölkəmizin son vaxtlar beynəlxalq miqyasda əldə etdiyi böyük uğurlar çevik xarici siyasət kursunun inkişaf etdiyini təsdiqləyir. Xarici

21 İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatı təqdim olunmuşdur. /29.12.2010/ - http://www.president.az/articles/1356

siyasətin prioritet istiqamətlərinin təhlili mövcud situasiyanın daha konkret mənzərəsini yaratmaqda yardım edə bilər"[22].

Prezident İlham Əliyevin yeni diplomatiya fəaliyyəti sözügedən qlobal reytinqlərdə Cənubi Qafqaz regionunda sosial şəbəkələrdə ən fəal xarici siyasət aparan e-diplomatiya lideri mövqeyində sıralanmışdır. Bu da ölkəmizin sadəcə internet mühitində fəallığına deyil, ölkə liderinin müstəqil və açıq xarici siyasət həyata keçirməsinə, regionda və dünyada qətiyyətli siyasi mövqeyə malik olmasına dəlalət edir. Sosial şəbəkələrdə fəaliyyətin ana xəttini Azərbaycanın xarici siyasətinin ən aktual mövzusu – Dağlıq Qarabağ münaqişəsinin həlli təşkil edir[23].

Azərbaycan Respublikasının xarici siyasətinin qlobal informasiya məkanında fəaliyyəti, onun planlaşdırma və reallaşdırma mexanizmləri müvafiq sahələrdə dövlət və ictimai institutların fəaliyyətinin koordinasiyasını nəzərdə tutan konseptual əsaslar üzərində qurulmaqla, kompleks-sistemli xarakter daşıyır. Bu baxımdan tam əsasla deyə bilərik ki, müstəqilliyin 25 ili ərzində ölkəmizdə xarici siyasətin informasiya məkanında hücum diplomatiyasının əlaqələndirilmiş-vahid platforması prinsip etibarilə yaradılmışdır. Xarici siyasət sahəsində müstəsna konstitusional səlahiyyət sahibi olan Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsi, eləcə də Xarici İşlər Nazirliyi bu sistemin nüvəsidir.

Bu fəaliyyət çoxşaxəli istiqamətləri əhatə edir. Ölkəmiz haqqında diplomatik kanallarla xaricdə, eləcə də qlobal internet şəbəkəsində informasiyanın yerləşdirilməsi, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin və Azərbaycanın milli inkişaf reallıqlarının dünyaya çatdırılması, beynəlxalq aləmdə dövlətimizin müsbət imicinin formalaşması ilə məşğul olan dövlət və ictimai təşkilatlar, həmçinin digər qurumlar (mədəniyyət, təhsil, idman, turizm, milli teleradio və informasiya agentlikləri və s.) bu sistemin infrastrukturuna daxildir.

22 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.92

23 Allahyarova T. XXI əsrdə xarici siyasət və e-diplomatiya Azərbaycan dövlətinin xidmətində. // "SAM-ın şərhləri", Bakı, 2014, № XIII. - http://sam.az/uploads/PDF/SAM%20SHERHLERI-4%20for_print.pdf

Dövlət başçısının çağırışları önləyən fəaliyyəti

Prezident İlham Əliyevin irəli sürdüyü xarici siyasət kursunun çevikliyi prinsipi informasiya əsrinin sürət və ritminə uyğun olaraq Azərbaycan diplomatiyasının "fəal, hücumçu və çoxşaxəli modeli"ni reallaşdırmaq hədəfini qarşıya qoydu. Dövlət başçısının ümummilli problem kimi bəyan etdiyi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və ərazi bütövlüyünün bərpası yönündə informasiya müharibəsində qələbə naminə qüvvələrin səfərbər edilməsinə başlanıldı. "Diplomatların qarşısında Azərbaycan haqqında həqiqətlərin dünya miqyasında yayılmasının daha da gücləndirilməsi, erməni yalanlarının ifşa edilməsi və Azərbaycana qarşı olan məqsədyönlü bəzi əks-təbliğat əməllərinin qarşısının alınması və s. ciddi tapşırıqlar qoyuldu"[24].

İnkişafın yeni mərhələsində bütün dünya ölkələri ilə bərabərhüquqlu əməkdaşlıq əlaqələri quran Azərbaycanın xarici ölkələrdə diplomatik təmsilçiliklərinin sayı davamlı olaraq artmışdır. Azərbaycan Respublikası xarici ölkələrdə və beynəlxalq təşkilatların yanında 91 diplomatik missiya təsis etmiş, eyni zamanda Bakıda 62 ölkənin diplomatik missiyası fəaliyyət göstərir[25]. Xarici siyasətin daha dinamik forma alması və bu siyasəti həyata keçirən qurumlar arasında koordinasiyanın gücləndirilməsi üçün 2004-cü il iyulun 27-dən başlayaraq Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin Bakı müşavirələrinin keçirilməsi ənənəsinin təməli qoyulmuşdur.

Eyni zamanda dövlət başçısının qlobal internet məkanında, əksər sosial şəbəkələrdə beynəlxalq və milli inkişafın çoxşaxəli məsələlər üzrə təşəbbüskar və fəal mövqeyi xarici siyasət və diplomatiya sahəsində çalışanların müasir iş üslubunu müəyyən edən bir örnək kimi çıxış etdi. Azərbaycan Respublikası Prezidentinin müxtəlif dillərdə daima yenilənən rəsmi internet səhifələri yaradıldı.

Qeyd edildiyi kimi, 2006-cı ildə yaradılan "Tvitter" sosial şəbəkəsi

24 Məmmədyarov E. Uğurlu xarici siyasət strategiyasının Azərbaycan modeli: nailiyyətlər və perspektivlər /10.09.2013/ - http://www.azerbaijan-news.az/index.php?mod=3&id=28464

25 Məmmədov N. Müstəqil Azərbaycanın 25 ili (Ön söz əvəzi). Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilən məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, s.22

dünya liderləri və diplomatlar arasında xüsusilə məşhurluq qazanmışdır. 2016-cı ilin məlumatına görə, BMT-yə üzv ölkələrin 173-ü "Tvitter"də (20 ölkənin səhifəsi yoxdur), 169-u isə "Facebook" səhifəsində təmsil olunub. Həmçinin onların 78%-i "YouTube"da, 70%-i isə "Instagram"da fəallıq göstərir. "Tvitter" sosial şəbəkəsində ilk tvitini göndərən və bu səhifədə rəsmi hesab açan 2007-ci ildə ABŞ Prezidenti Barak Obama olmuşdur. Əksər dünya ölkələrinin prezidentləri "Tvitter"ə 2009-2012-ci illərdə qoşulmuşlar[26].

Prezident İlham Əliyev bu sosial şəbəkədə 2010-cu ildən, bir çox dünya dövlətləri liderlərindən əvvəl fəaliyyət göstərir[27]. Belə ki, Klinton 2013-cü ildən, Putin 2012-ci ildən, Ərdoğan 2009-cu ildən, A.Merkel 2011-ci ildən bu sosial şəbəkəyə üzvdürlər.

İlham Əliyev
@azpresident
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi "Twitter" kanalı. Bakı, Azərbaycan - president.az
Qeyd edildiyi tarix: 2010-cu il. Tvitlər – 3 161; oxunan – 2; izləyicilər – 227 min.

E-diplomatiyanın formalaşması gedişində, məlum olduğu kimi, onu dəyərləndirən reytinqlər və indikatorlar da yaradılmışdır. Qlobal ictimai kommunikasiya və rabitə şirkəti olan "Burson-Marsteller" tərəfindən "Tvitter"də dünya liderlərinin, siyasi xadimlərin, nüfuzlu şəxslərin fəaliyyətini qiymətləndirən araşdırmalar aparılır. "Tviplomatiya araşdırmaları" adlanan səhifədə müvafiq olaraq illər üzrə reytinqlər əksini tapır[28].

Reytinq araşdırmalarına nəzər saldıqda məlum olur ki, gənc müstəqil dövlət olmasına baxmayaraq, Azərbaycan ümumdünya şəbəkə torunda xarici siyasət və milli maraqların təmin edilməsi yönündə çoxşaxəli və miqyaslı fəaliyyət həyata keçirməyə nail ola bilmişdir.

26 Twiplomacy-study-2016 /31.05.2016/ - http://twiplomacy.com/blog/twiplomacy-study-2016/
27 https://twitter.com/presidentaz
28 Twiplomacy-study-2014-update /01.12.2014/ - http://twiplomacy.com/blog/twiplomacy-study-2014-update/#section-22; Tvitter səhifəsi: https://twitter.com/Twiplomacy/

Əsasən son 7-8 ili əhatə edən bu fəaliyyət dünyanın qabaqcıl ölkələrinin qlobal şəbəkələrdə nümayiş etdirdiyi sürət və dinamika ilə nəinki yanaşı addımlamış, hətta bəzi hallarda onu üstələmişdir.

Prezident İlham Əliyev dünya siyasi liderləri arasında, o cümlədən onun xarici siyasət kursunu reallaşdırmağa cavabdeh olan qurumlar da dünyadakı müvafiq qurumlarla müqayisədə nəinki regionda, bütövlükdə MDB məkanında ilk sıralarda yer almışdır. "Tvitter"in rəsmi statistika səhifəsində dünya liderlərinin hər gün yenilənən göstəriciləri əks olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 173 dövlət və hökumət liderləri sırasında "Tvitter"də ən fəal olan dünya liderlərinin siyahısında 49-cu sırada yer alması dövlətimizin xarici siyasətdə yeni çağırışlara nə qədər çevik uyğunlaşdığının bariz sübutudur.



Mənbə: *http://twittercounter.com/pages/list/world-leaders-presidents*

Dövlət başçısı Azərbaycana siyasi rəhbərliyinin ilk günlərindən etibarən informasiya əsrinin imperativlərinin xarici siyasətə təsirinin diqqət mərkəzində olduğunu prioritet kimi bəyan etdi. Belə bir tələb irəli sürüldü ki, yaranmış geosiyasi reallıqlar milli xarici siyasət və diplomatiyanın bütün mümkün vasitələrindən hərtərəfli istifadə etməklə hücum diplomatiyası formatında həm real, həm də virtual müstəvilərdə çevik cavab verilməsini təmin etməlidir. Real və virtual informasiya məkanının istənilən nöqtəsində Azərbaycanın mövcudluğu hiss edilməli, rəqabətə hazır vəziyyətdə olmalıdır. Xarici siyasət qlobal-planetar əhatəli formatda fəaliyyətini hiss etdirməlidir. Bu fəaliyyət informasiya məkanında Ermənistanda olduğu

kimi mif və uydurmalara deyil, Azərbaycan həqiqətlərinə, dünyada etiraf edilən real nailiyyətlərə və faktlara söykənməlidir.

Azərbaycanın məruz qaldığı işğalçı siyasətin günahkarlarının ifşası, ölkəmizin inkişaf edən, mütərəqqi dövlət kimi tanıdılması yönündə dünyada mövcud olan bütün siyasi, iqtisadi, hüquqi, mədəni, humanitar və s. platformalardan ölkəmizin mövqeyinin səsləndirilməsi və onun beynəlxalq ictimaiyyətin ən çox təmsil olunduğu sosial şəbəkələrdə diqqətə çatdırılması dayanmadan davam etmişdir. SŞ-lər fenomeninin dünyada getdikcə artan təsiri Prezident İlham Əliyevin rəhbərliyinin əsasən ikinci dövrünə təsadüf etmişdir. Azərbaycanın siyasi liderinin bu virtual məkandan ölkəmizin mənafeyi naminə maksimum dərəcədə istifadə etməyi hədəfləyən fəaliyyəti olduqca əhatəli olub, diplomatiya elmindən məlum olan çoxsaylı istiqamətlərdə davam etmişdir. Buraya qlobal forumlarda iştirak, beynəlxalq əməkdaşlıq və dialoqların təşəbbüskarı olmaq, dövlətimizin cəlbedici mədəni (multikultural) irsinin dünyada tanınması yönündə fəaliyyət, dünya liderləri ilə görüş və münasibətlərdə "*konfrans diplomatiyası*" (qlobal tədbirlərə ev sahibliyi edilməsi), həmçinin "*akademik diplomatiya*" (xarici ölkələrin nüfuzlu elm-təhsil və beyin mərkəzlərində çıxışlar) adlanan formalardan istifadə aiddir.

Misal üçün, cənab İlham Əliyevin prezident seçildiyi ilk illərdə - 2004-cü ildə (daha sonra 2009-cu ildə) Londonda məşhur siyasətçilərin, diplomatların, mətbuat nümayəndələrinin, Avropanın tanınmış publisistlərinin və ictimai xadimlərinin üzv olduqları Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüşlərində "Azərbaycan üçün xarici siyasət çağırışları" ("Foreign policy challenges for Azerbaijan") mövzusunda çıxış etməsi[29], yaxud "Böyük iyirmiliy"in (G20) üzvü olan dövlət və hökumət başçılarının sammiti ilə bağlı çap edilən xüsusi nəşrdə hazırda dünyanı təhdid edən qlobal problemlərin həlli yolunu və Azərbaycanın inkişaf modelinin örnəklərini əks etdirən "Ümumi strategiyanın formalaşması" adlı konseptual məqaləsinin təqdim edilməsi Azərbaycan reallıqlarının, tarixi torpaqlarımızın Ermənistan tərəfindən işğalı faktının qlobal informasiya məkanında ən mötəbər auditoriyalara ünvanlamaqla

29 Foreign Policy Challenges for Azerbaijan. HE Ilham Aliyev, President, Republic of Azerbaijan. Chair: Sir Brian Fall. /Monday 13.07.2009/ - https://www.chathamhouse.org/sites/files/chathamhouse/14383_130709aliyev.pdf

tanıdılması "akademik diplomatiya" aspektində yorulmadan aparılan miqyaslı fəaliyyətin yalnız bir faktıdır[30].



Prezident İlham Əliyev həmçinin hər il ənənəvi olaraq fevral ayında Almaniyanın Münxen şəhərində keçirilən (2016-cı il üçün artıq sayca 52-ci olan), 30-dan çox ölkənin dövlət və hökumət başçılarının, 60-a yaxın nazirin, eləcə də siyasi xadim və alimlərin, beynəlxalq təşkilat rəhbərlərinin iştirak etdiyi Münxen Təhlükəsizlik Konfransında daimi olaraq məruzə edən dövlət başçılarından biridir.

30 Ilham Aliyev (President of the Republic of Azerbaijan). Forming a common strategy /11.11.2015/ - http://www.g7g20.com/articles/ilham-aliyev-forming-a-common-strategy

Eyni zamanda Xarici İşlər Nazirliyinin nəzdində Diplomatik Akademiyanın ("AD"A Universiteti) yaradılması ilə beynəlxalq elmi əlaqələrin, tanınmış diplomatlar, politoloqlar və dövlət xadimlərinin iştirakı ilə aktual problemlərin, taleyüklü məsələlərə dair fikir mübadiləsinin təşkili, informasiya əsrinin tələblərinə cavab verən peşəkar milli diplomat kadrlar korpusunun yetişdirilməsi və s. yöndə miqyaslı və möhtəşəm fəaliyyət də buraya daxildir.

"Azərbaycanda 2012-ci ildə BMT-nin təşkilatçılığı ilə VII İnternet İdarəçilik Forumu keçirildi. Bu foruma 1500-dən artıq internet idarəçiliyi ilə məşğul olan xarici mütəxəssis, rəhbər gəlmişdi. 20-dən artıq ölkənin nazirləri iştirak edirdi. Bu nümayəndələrin arasında BMT baş katibinin müavini, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi, İnternet İdarəçilik Korporasiyasının prezidenti, ABŞ Beynəlxalq İnternet Cəmiyyətinin prezidenti, ABŞ Dövlət Departamentinin informasiya və kommunikasiya üzrə baş koordinatoru, "Google" şirkətinin vitse-prezidenti və internet idarəçiliyi sahəsində onlarla bu kimi yüksək mənsəb sahibləri var idi. BMT-nin belə mühüm bir tədbiri Azərbaycanda keçirməsi bu beynəlxalq təşkilatın Azərbaycanın internet idarəçiliyi sahəsində əldə etdiyi uğurlara verdiyi yüksək qiymət kimi dəyərləndirilməlidir"[31].

Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikasının xaricdəki səfirlik və diplomatik nümayəndəliklərinin sosial mediada fəaliyyəti

Müstəqillik illərində dövlət başçısının qlobal informasiya məkanında aparılan işə verdiyi tələblərə uyğun olaraq, Azərbaycan xarici siyasət rəsmilərinin – Prezident Administrasiyası Xarici əlaqələr şöbəsinin, Xarici İşlər Nazirliyinin, digər əlaqədar nazirliklər və idarələrin, xaricdəki səfirlik və nümayəndəliklərin internet və sosial şəbəkələrdə həyata keçirdiyi fəaliyyət aktuallıq və dinamizmi baxımından bir çox ölkələrin analoji qurumlarının e-diplomatiya fəaliyyəti ilə müqayisədə üstün mövqelərdə yer almasını təmin etmişdir. Bütün istiqamətlərdə virtual məkanda təmsilçilk, real vaxt (online) rejimində işin təşkili və fasiləsiz yenilənməsi dəyişməz iş üslubuna çevrilmişdir.

31 Novruz Məmmədov: "Azərbaycanda insan azadlıqlarının qorunması müasir internet şəbəkəsinin vacib fəaliyyət istiqamətlərindən biridir". /08.11. 2012 / - http://az.trend.az/azerbaijan/politics/2085818.html

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin informasiya əsrinin çağırışlarına uyğun fəaliyyəti, demək olar ki, son 10-12 ilə təsadüf edir. Xarici İşlər Nazirliyinin 2002-ci ildən nəşr edilən "Diplomatiya aləmi" jurnalının 2003-cü il üçün 2-ci sayında (s.128-137) Azərbaycanın xaricdəki səfirlik və nümayəndəlikləri haqqında verilən rəsmi məlumata baxdıqda o zaman üçün heç bir səfirliyin internet saytının olmadığını, yalnız elektron poçt ünvanının olduğunu görə bilərik[32].

İnkişafın yeni mərhələsindən etibarən bütün səfirlik və nümayəndəliklərin nəinki rəsmi veb-səhifəsi, eləcə də bütün sosial şəbəkələrdə təmsilçiliyi təmin edilmişdir. Hazırda xarici siyasət sahəsində rəsmi səlahiyyətli şəxslərin *(https://twitter.com/NovruzMammadov; https://twitter.com/AHabibbayli)* "rəqəmsal diplomatiya" xətti ilə sosial şəbəkələrdə və media məkanlarında müvafiq hesablarının (akkauntlarının) maksimal olaraq adekvat məzmunlu, daim yenilənən informasiya ilə təmin edilməsi həyata keçirilir. XİN-in 2012-ci ildən etibarən *www.mfa.gov.az* ünvanlı rəsmi saytı, "Twitter"də (@AzerbaijanMFA), "Facebook"da və eləcə də "YouTube"da *(https://www.youtube.com/user/MFAAzerbaijan)* rəsmi profilləri fəaliyyət göstərir. XİN sosial şəbəkələrdəki fəaliyyətində müxtəlif dillərdə Azərbaycan Respublikasının digər dövlət qurumları və Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri ilə əlaqələndirilmiş fəaliyyət həyata keçirir. XİN-in 2012-ci ildə yaradılan rəsmi "YouTube" kanalında 700-dən çox videoyazıya 400 mindən çox baxış qeydə alınmışdır.

2014-cü ilin iyun ayı üçün olan "Fəallığı ilə seçilən ən yaxşı Xarici İşlər nazirliklərinin ilk 50-liyi" ("Top 50 Best Connected World Leaders") reytinqində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi dünya üzrə ilk 50-likdə yer almışdır[33].

25 il əvvəl heç bir səfirliyin olmadığı ölkəmizin müxtəlif ölkələrdə yeni səfirliklərinin, konsulluq və nümayəndəliklərinin təmsilçilik ofislərinin açılması, onların real və virtual məkanlarda şəbəkələşməsi ardıcıl olaraq davam etmişdir. Təkcə 2013-2014-cü illərdə 13 ölkədə səfirliklər açılmışdır[34].

32 http://www.mfa.gov.az/files/file/Diplomatiya_Alemi_2.pdf

33 http://twiplomacy.com/wp-content/uploads/2014/11/Top-50-Best-Connected.png

34 İlham Əliyev Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsində iştirak etmişdir. /07.07.2014/ - http://president.az/articles/12264

Azərbaycanın xarici ölkələrdəki səfirlikləri də sosial şəbəkələrdə fəallıq göstərir. "Diplomatik nümayəndəliklərimiz tərəfindən fəaliyyət göstərdikləri ölkələrdə hansı sosial şəbəkələrin daha çox istifadə olunduğu amili də nəzərə alınır. Belə ki, bir çox ölkələrdə, o cümlədən bəzi Avropa İttifaqı ölkələrində, məsələn, "Twitter" hələ də bir o qədər məşhurluq qazana bilməmişdir. Ona görə konkret şəraitə uyğun olaraq, hansı sosial şəbəkənin daha çox istifadə olunduğu da nəzərə alınaraq, diplomatik nümayəndəliklərimiz tərəfindən bu əsasda fəaliyyət həyata keçirilir. Bununla bərabər, fərdi dialoq və təmasın sosial şəbəkələrdə üstünlük təşkil etdiyini nəzərə alaraq, diplomatik nümayəndəliklərimizin bəzilərinin rəhbərlərinin və XİN-in mətbuat xidmətinin rəhbərinin, hətta xarici ölkələrdə çalışan diplomatlarımızın da profilləri vardır ki, bu da effektiv rabitənin tərkib elementidir"[35].

Şəbəkə fəaliyyətinin əsas məzmununa gəldikdə isə qeyd edilməlidir ki, 25 il əvvəl olduğu kimi, Azərbaycan xarici siyasətinin alternativi olmayan prioriteti ərazi bütövlüyümüzün təmin edilməsidir. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinə dair dövlət başçımızın, xarici siyasət səlahiyyətlilərimizin, diplomatlarımızın, Heydər Əliyev Fondunun, mütəxəssislərin fəaliyyəti ilə hər gün milyonlarla istifadəçi tanış olur. Təsadüfi deyil ki, "dünyanın 13 ölkəsində, Amerikanın 15 ştatında Xocalı soyqırımının tanınmasına nail olunmuşdur"[36]. Bu baxımdan münaqişənin yaranmasından və atəşkəs haqqında sazişin imzalanmasından üzü bəri 2016-cı ilin aprel döyüşlərində Milli Ordunun zəfəri, xalqımızın dövlət başçısının ətrafında daha da sıx birləşməsi, ruh yüksəkliyinin artması və s. fonunda status-kvonun ilk dəfə olaraq dəyişməsinin labüdlüyünə dair beynəlxalq ictimai rəyin Azərbaycanı dəstəkləməsi müəyyən dərəcədə həm də informasiya məkanında fasiləsiz olaraq aparılan bu fəaliyyətin nəticəsidir.

Müstəqillik illərində xarici siyasət və diplomatiya sahəsində aparılan fəaliyyət özündə çoxşaxəli istiqamətləri – dəyərləndirmə və proqnozlaşdırma, informasiya məkanının daimi monitorinqi, xarici nümayəndəliklərimizdə və KİV-də vəziyyətin təhlili və s. məsələləri əhatə etmişdir. Son illərdə yaradılan, həm ölkəmizin xarici siyasət mövqeyinin çatdırılmasında, həm yeni diplomatiyanın analitik təhlili

35 http://aztwi.com

36 http://www.justiceforkhojaly.org/az

və dəyərləndirilməsində, həm də qlobal informasiya məkanında 4 dildə fəaliyyət göstərən "Newtimes.az" analitik informasiya portalı özünün şəbəkə fəallığı ilə də diqqəti cəlb edir[37]. Portalın "Faktlar və statistika" bölümündə izlənilən xarici və milli kütləvi informasiya vasitələrində, xarici ölkələrdə aparılan təhlillər, sosial mediada istifadəçi monitorinqi burada reallaşdırılan çoxşaxəli fəaliyyəti əks etdirir[38]. Portal eyni zamanda "dövlətin beynəlxalq münasibətlərdəki ön cəbhəsi olan diplomatik nümayəndəliklərin sosial şəbəkələrdən istifadəsi məsələsini, hər hansı informasiyanın yayılmasında sosial şəbəkələrdən nə dərəcədə effektiv istifadə etməsini, fəaliyyət göstərdikləri ölkənin ictimaiyyətinə öz dövləti və cəmiyyəti haqqında nə qədər informasiya çatdıra bilməsini də təhlil edən yeni layihəsini"[39] həyata keçirir. Bu layihə Azərbaycan xarici siyasətində e-diplomatiyanın özünəməxsus reytinq–dəyərləndirilməsi kimi də çıxış edir.

Diaspora diplomatiyası və informasiya müharibəsi

> *"Diaspora təşkilatları yaşadıqları ölkələrdə internet saytları açmalıdırlar. Biz bunu, hələ ki, görmürük. O internet saytları yaşadıqları ölkələrin ictimaiyyəti üçün maraqlı olmalıdır, eyni zamanda Azərbaycan həqiqətləri orada göstərilməlidir. Bu proses daim aparılmalıdır. Azərbaycan dilində və xarici dillərdə qəzetlər dərc edilməlidir ki, azərbaycanlılar, onların övladları oxusunlar, ana dilini bilsinlər, həm də o ölkələrin ictimaiyyəti oxusun. Yenə də deyirəm, biz informasiya dövründə yaşayırıq və informasiyanın əhəmiyyəti getdikcə artacaq"* [40].
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**

37 https://twitter.com/newtimes_az

38 https://ru.scribd.com/document/248186638/Newtimes-az-Faktlar-v%C9%99 statistika# fullscreen& from _embed

39 http://www.newtimes.az/az/social

40 İlham Əliyev Dünya Azərbaycanlılarının IV Qurultayının açılış mərasimində iştirak edib /03.06.2016/- http://www.president.az/articles/20167

Azərbaycan xarici siyasətinin informasiya məkanında apardığı miqyaslı fəaliyyətin bütün istiqamətlərini bir məqalədə əhatə etmək qeyri-mümkündür. Bu fəaliyyətin "diaspora diplomatiyası" adlandırılan istiqaməti üzərində çox qısa da olsa dayanmaq zəruridir. "Özlüyündə bu məsələ strateji xarakterlidir. Ulu öndəri xarici səfərlərdə müşayiət edən şəxs kimi deyə bilərəm ki, Ulu öndər diaspora məsələsinə son dərəcə diqqətlə yanaşırdı. Diaspora məsələsi müasir dövrdə beynəlxalq himayə mexanizmlərinin yaradılmasında iki aspektdə prinsipial rol oynaya bilər. Birincisi, diaspora vətəndən kənarda xalqın mədəniyyətini təmsil edir. Azərbaycanlılar yaşadıqları ölkələrdə yerli mədəni mühitə uyğunlaşmaqla yanaşı, öz milli-mənəvi dəyərlərini qorumalı və təbliğ etməlidirlər. İkincisi, diaspora mövcud olduğu ölkədə cəmiyyətin yüksək təbəqələri ilə münasibətləri inkişaf etdirməli və rəsmi orqanlarda nümayəndələrlə təmsil olunmalıdır"[41].

2016-cı ilin 3-4 iyun tarixlərində Dünya Azərbaycanlılarının IV Qurultayının açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi nitq informasiya əsrində bu sahədə fəaliyyətin konsepsiyası kimi qəbul edilmişdir[42]. Dövlət başçısı qeyd etmişdir ki, müasir dövrdə informasiya müharibəsində təkcə Azərbaycan dövlətinin resursları ilə deyil, dünya azərbaycanlıları özlərinin malik olduqları bütün imkanlarla bu işə öz töhfələrini verməlidirlər.

Virtual məkanda dünya azərbaycanlılarının həmrəyliyini qorumaq, vahid məkandan fəaliyyəti əlaqələndirmək lazımdır. Böyük potensialımız səfərbər edilməlidir: "Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci ildə 31 dekabr tarixində real məkanda birliyi təmin etmək üçün – Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü təsis edilmişdir. Əgər o vaxt dünyada 200-dən bir qədər çox diaspora təşkilatımız var idisə, hazırda onların sayı 462-dir. Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspora nümayəndəsi və qonaq iştirak edir"[43].

41 Məmmədov N. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı: Qanun, 2013, s.89

42 Mehdiyev R.Azərbaycan diasporu: müasir çağırışlar və sistemli fəaliyyətin təşkili. - http://azertag.az/store/files

43 Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının IV Qurultayında nitqi. /03.06.2016/ - http://azertag.az/xeber/Bakida_Dunya_Azerbaycanlilarinin_IV_Qurultayinin_resmi_achilis_merasimi_olub___Azerbaycan_Prezidenti_Ilham_Aliyev_achilis_merasiminde_istirak_edib_YENILANIB_VIDEO-957111

Qurultayda Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində qarşıda duran vəzifələr, təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi məsələləri xüsusi paneldə müzakirə edilmişdir.

Dünya azərbaycanlılarının qlobal informasiya məkanında vahid şəbəkələşmə prosesinin təşkilində zəif halqa ondan ibarətdir ki, hazırda beynəlxalq təşkilatlar sistemində fəaliyyət göstərən azərbaycanlılar arasında əlaqələndirmə zəifdir. Bu baxımdan vətəndaş cəmiyyətinin, beyin mərkəzlərinin, milli QHT-lərin xarici həmkarı və tərəfdaşları ilə münasibətlərini, resurslarını və ideyalarını səfərbər etməsi, müxtəlif formatlarda fəaliyyətlərini gücləndirmələri gündəmdə duran başlıca məsələlərdəndir. Müasir dünyada beyin mərkəzləri, QHT-lər "yumşaq güc"ün əsas elementləri hesab edilir. Beynəlxalq təşkilatlarda fəaliyyət göstərən azərbaycanlılar arasında əlaqələndirmənin yaranması zamanın tələbidir"[44].

Azərbaycanın xarici siyasətindən, humanitar və mədəni diplomatiyasının virtual informasiya məkanında tanıdılmasından bəhs edilərkən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun qlobal miqyaslı fəaliyyəti haqda qısa bəhs etmək, ümumiyyətlə, imkan xaricindədir. Fondun 2005-ci ildə yaratdığı, dövlət başçısının açılışını etdiyi "Azərbaycan" internet portalı *(www.azerbaijan.az)* layihəsi Azərbaycanda e-diplomatiyanın ilk nümunəsi sayıla bilər. Birinci xanımın SŞ-lərdə *(https://twitter.com/AboutFirstLady),* 3 dildə fəaliyyət göstərən rəsmi internet səhifəsində *(http://www.mehriban-aliyeva.org/az/main),* daima yenilənən "Facebook" səhifəsində (https://www.facebook.com/mahribanaliyeva) yüz minlərlə izləyicisi var. Birinci xanımın "YouTube" (https://www.youtube.com/user/1MehribanAliyeva), "Google+" *(https://plus.google.com/101318469703180127960/,* "Instagram" *(http://instagram.com /aboutfirstlady)* səhifələri daim aktivdir. Fondun informasiya məkanındakı fəaliyyətində Azərbaycanın artan siyasi və iqtisadi qüdrəti, nüfuzu ilə bərabər, "yumşaq güc" adı ilə məlum olan zəngin mədəni irsi, əsrlərdən bəri özünə kök salmış və Azərbaycan xalqının həyat tərzinə çevrilmiş milli, dini tolerantlığı və

44 Həbibbəyli Ə: "Beynəlxalq təşkilatlarda fəaliyyət göstərən azərbaycanlılar arasında əlaqələndirmənin yaranması zamanın tələbidir". /12.03.2014/ - http://newtimes.az/az/interview/2600/

multikulturalizmin təbliği, sivilizasiyalararası dialoq sahəsində aparılan qlobal müzakirələrin təşkili aparıcı yer tutur.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası 2010-cu ildən "Facebook" *(https://www.facebook.com/ADAU niversity? fref=ts)* və "Tvitter"də *(https://twitter.com/ ADA University)* geniş auditoriya ilə işləyir.

Nəticə

Beləliklə, 25 illik müstəqillik tarixinin təhlili göstərir ki, ötən əsrin 90-cı illərində tamamilə informasiya blokadasına alınmış, heç bir ölkədə səfirliyi olmayan Azərbaycan dövləti və onun xarici siyasəti 25 ildə, xüsusilə də son 10 ildə tarixi nailiyyətlər əldə etmişdir.

Azərbaycanın xarici siyasəti informasiya inqilabının çağırışlarına həm qabaqlayıcı, həm də zamanında cavab verməyə nail olmuşdur. Bütövlükdə ölkənin xarici siyasi, iqtisadi, mədəni, humanitar və s. fəaliyyətinin informasiya məkanında təbliği və təşviqi yönündə strateji əsaslar müəyyən edilmişdir. Azərbaycanın suverenliyinin qarantı olan Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində dövlətimiz sürətlə dəyişən dünyada özü üçün zəruri olan geosiyasi statusu təmin etməyə qadirdir və bunun üçün bütün müvafiq resurs və potensiala malikdir.

2016-cı ilin aprel döyüşlərində isə ölkəmiz informasiya müharibəsində tam bir qələbə – revanş əldə etdi. Bu, apreldən sonra beynəlxalq rəyin, status-kvonun Azərbaycanın xeyrinə dəyişməsini, Ermənistan rəhbərliyinin iflas dövrünü yaşaması və bu ölkədə baş verən vətəndaş qarşıdurmasını şərtləndirən səbəblər sırasındadır. Əminliklə demək olar ki, bu dəfə Prezident İlham Əliyevin rəhbərliyi altında real Qarabağ müharibəsində və virtual informasiya müharibəsində həyata keçirilən birgə fəaliyyət və milli birlik ərazi bütövlüyünün bərpasını təmin edəcək. Bu baxımdan müstəqilliyin 25 illiyində informasiya müharibəsi nəinki səngiyir, əksinə, intensiv və şiddətli mərhələyə qədəm qoyur.

Rəqəmsal dipomatiya sahəsində əldə edilmiş uğurlara baxmayaraq, bu istiqamətdə görülməli işlər hələ çoxdur. Azsaylı olsa da, bəzi səfirliklərin sosial şəbəkədə fəaliyyəti müşahidə edilmir, hətta veb-saytı yoxdur.

Ölkəmiz qlobal internet şəbəkəsində tam və hərtərəfli təmsil edilməlidir. Azərbaycanın yeni – e-diplomatiya konsepsiyasının hazırlanması da gündəmdə duran məsələlərdəndir. Belə ki, hər gün dəyişən yeni beynəlxalq mühit, informasiya məkanında "yeni düşmən"lərin peyda olması yeni cavab və strategiyalar tələb edir.

Beləliklə, informasiya inqilabı nəticəsində qlobal məkanda baş verən sürətli geosiyasi transformasiyalar və mövcud çağırışların təhlili göstərir ki, onlar əksər hallarda milli maraq və təhlükəsizliyə təhdidlər yaradır. Dövlətçiliyimizin daha da möhkəmləndirilməsi baş verənlərə öncədən nəzərə almalı olan çevik cavablar verilməsini diktə edir.

Elektron diplomatiyanın formalaşması və inkişafı sahəsində əldə edilmiş nailiyyətlər dövlət başçısının vahid informasiya müharibəsi strategiyası çərçivəsində müəyyən edilən prioritet vəzifələrə uyğun olaraq dövlətimiz tərəfindən həyata keçirilən müstəqil xarici siyasətin səmərəliliyini, təsir qüvvəsini, genişliyini bir daha təsdiq edir. Eyni zamanda, əldə edilmiş nəticələr qarşımıza növbəti yeni vəzifələr qoyur və Azərbaycanın uzunmüddətli maraqlarının reallaşması baxımından yeni imkanlar açır.

"Geosiyasi vakuum" nəzəriyyəsinə görə, "müqəddəs yer boş qalmır" deyimində olduğu kimi, coğrafi məkanın heç bir nöqtəsi boş qala bilməz. Əks-təqdirdə o tutula bilər. Bu gün hər bir dövlətin milli maraqlarına təsir edən virtual informasiya məkanı da analoji mahiyyətə malikdir. Buna görə də həmin məkan milli xarici siyasət və diplomatiyamızın diqqəti və nəzarəti altındadır. Bu isə yalnız modernləşmiş xarici siyasət və yeni e-diplomatiyanın fəallıq və intensivliyindən deyil, həm də hər bir azərbaycanlı üçün potensial diplomat olmaq imkanlarını yaradan sosial şəbəkələrdə nə dərəcədə fəal olmağımızdan bilavasitə asılıdır.

Müstəqillik dövründə dövlət başçısının həyata keçirdiyi xarici siyasət nəticəsində Azərbaycanda formalaşan elektron diplomatiya qlobal informasiya məkanında vahid platformadan hücum diplomatiyasının aparılması üçün fundamental imkanlar yaratmışdır. Qarşıya qoyulan yeni vəzifələrin reallaşması isə XXI əsrdə Azərbaycanda güclü dövlət quruculuğunun daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

(1991-2016)